# ELÇİN

***Seçilmiş***
***əsərləri***

# 1

Redaktor:
**Dilsuz**

**ELÇIN**

E46 **«Seçilmiş əsərləri» (10 cilddə), 1-cü cild**.
**«Çinar-Çap»** nəşriyyatı, Bakı, 2005, –626 səh.

E 4702060200
122

© **«ÇINAR-ÇAP», 2005**

## HAKIM OXUCUDUR

*Bu kiçik ön sözü yazmaq istərkən fikrimə bir sual gəldi: mən ilk hekayəmi nə vaxt yazmışam?*

*Nə vaxt?*

*Doğrusu, bu suala heç cürə cavab verə bilmirəm, çünki o ilk yazının nə adını, nə də vaxtını xatırlayıram.*

*Mən əlifbanı çox erkən öyrənmişdim və Azərbaycan nağıllarını, eləcə də başqa xalqların, Andersenin, Qaufun, Pyerronun, Qrimm qardaşlarının, Yerşovun, Pavel Bajovun, Abdulla Şaiqin nağıllarını, başqa kitabları hələ birinci sinifə gedənə qədər özüm oxumuşdum. O kitabların, misal üçün «Saman dana», «Slavyan nağılları», «Tık-tık xanım» kimi kitabların çoxdan itib-batmış mən oxuduğum nəşrlərinin rəngi də, şəkilləri də, hətta adlarının yazılışları da mənim yaddaşımdadı, amma ilk yazımı nə vaxt yazmışam?– heç vəchlə yadıma sala bilmirəm.*

*Orası yaxşı yadımdadı ki, 5-6 yaşımda həmişə atamın yazı mizinin üstündə olan ağ kağızlardan götürüb ortadan ikiyə bölürdüm və evdə heç kim olmayanda nağıllar (!), hekayələr (!!) yazırdım.*

*O ağ kağızları ona görə ikiyə bölürdüm ki, yazıb qurtarandan sonra onları, görünməsin deyə, jurnal vərəqlərinin arasına qoyub – guya ki, jurnalda çap olunmuş hansısa yazıçıların əsərləridir – nənəmə – Ilyas Əfəndiyevin anası Bilqeyis xanıma oxuyurdum.*

*Mən oxuyurdum, nənəm də, qəribəydi, nədənsə, eynəyini taxıb «Kazbek» papirosunu çəkə-çəkə diqqətlə mənə qulaq asırdı. Nənəm, adətən, eynəyi özü kitab oxuyanda taxırdı (kitab oxumağı çox sevirdi və hər üç əlifbada – ərəb, latın, kiril – çox da oxuyurdu və sevimli yazıçıları Viktor Hüqo və Rəşad Nuri Güntəkin idi).*

*Yazdığımı oxuyub qurtarandan sonra soruşurdum:*

*– Necədi?*

*– Yaxşıdı,– deyirdi.*

*Və nənəmin o «yaxşı»sı hər dəfə də, elə bil, bir işığa çönürdü, o işıq mənim içimə dolurdu və o işığın sevinci çox doğma, əziz bir hiss kimi indiyə qədər mənimlədir.*

*Həmişə o gözəl çağları xatırlayanda, nənəmin dodaqlarındakı təbəssüm mənim gözlərimin qabağına gəlir. Aydın məsələdir ki, nənəm jurnalların arasında gizlədib oxuduğum o kağızları heç görməsə də, başa düşürdü ki, mən öz yazılarımı oxuyuram, amma o zaman mən bunu bilmirdim və içimdəki o işığın sevinci ilə küçəyə çıxıb (Mirzə Fətəli küçəsində yaşayırdıq) çox-çox yuxarılardan – göyün yeddinci qatından məhəllə uşaqlarına baxırdım və elə bil, o işıq elə bizim məhəllənin də üstünə düşürdü: evimizdən bir az yuxarıdakı köhnə Sarı hamamın rəngi gözgörəti təzələnirdi, Dar dalanın həmişəki kölgəsi açılırdı, küçəyə döşənmiş qənbər daşlar işım-işım işıldayırdı.*

*Elə o vaxtlar idi, bir səhər qəribə bir söhbətin şahidi oldum.*

*Səhər yuxudan oyanmışdım, amma hələ yerimdən durmamışdım, açıq qapıdan o biri otaqda nənəmin dediyi sözləri eşitdim:*

*– Deyəsən, bu da yazıçı olacaq...*

*Ilyas Əfəndiyev:*

*– Bilirəm,– dedi.*

*Şəkk-şübhə yox idi ki, söhbət məndən gedirdi və atamın o «bilirəm» xatircəmliyi, o sözü o cür arxayın və qəti deməsi o zaman mənə qətiyyən qəribə görünmədi, amma sonralar, xüsusən Ilyas Əfəndiyevin vəfatından sonrakı bu səkkiz ildə hərdən o «bilirəm»i yadıma salanda, doğrusu, çox qəribə (və təsirli!) bir hiss keçirirəm...*

*Ilk romanımın süjeti (!) də, adı da – «Sənubərin göz yaşları» – yaxşı yadımdadı və o romanı mən Şuşada, 2-ci sinifdən 3-cü sinifə keçəndə yay tətilində yazmışdım. Çox təəssüf ki, o gözəl dəftər (romanı dama-dama qalın dəftərdə yazmışdım) arxivimdə qalmayıb, amma sonralar yazdığım «Bəşər övladı Həsən» (Andersen-Nyeksenin «Bəşər övladı Ditte» əsərinin təsirilə belə bir ad qoymuşdum) romanı indiyə qədər mənim arxivimdədir.*

*O da yaxşı yadımdadır ki, 7-ci sinfi qurtarandan sonra yazılarımı oxumaq üçün atama verirdim ki, fikrini desin və elə atamın da məsləhətilə yazdığım hekayələri Isa Hüseynova göstərməyə başladım. Isa Hüseynov Hüsü Hacıyev küçəsindəki məşhur Yazıçılar binasının 3-cü blokunda, 5-ci mərtəbədə yaşayırdı (elə indi də o binada, amma 1-ci blokda yaşayır) və axşamlar onun evində, onun yazı masasının qarşısında oturub hekayələrim haqqında dediyi fikirlərə, qeydlərə, iradlara və təriflərə qulaq asırdım.*

*Uzun illər boyu, aydın məsələdir ki, mən çox-çox yaradıcılıq söhbətlərinin şahidi və iştirakçısı olmuşam, amma tam bir səmimiyyətlə deyirəm ki, Isa Hüseynovun yazı mizinin qarşısında oturub o hekayələr haqqında onun fikirlərinə qulaq asdığım o çağlar mənim həyatımdakı yaradıcılıq söhbətlərinin ən ucalarından biridir və o ovqat da həmişəlik olaraq mənimlədir.*

*Ilyas Əfəndiyevlə Mehdi Hüseyn çox yaxın dost idilər və təbii ki, Mehdi əmi (onu belə çağırırdım) mənim yazmağımdan yaxşı xəbərdar idi və yazdıqlarımı oxumaq istəyirdi, amma mən o hekayələri ona 15 yaşımdan sonra verməyə başladım. Mehdi Hüseyn o yazıları çox diqqətlə və mənim açıq-aşkar hiss etdiyim bir maraqla oxuyurdu, amma fikirlərini söyləyəndə heç bir güzəştə getmirdi, iradlarını deyirdi, mən də qızışıb onunla mübahisə edirdim, axırda Mehdi Hüseyn tab gətirməyib gülə-gülə:*

*– Ə, bu Elçin məni yordu!– deyirdi.*

*Çox istəyirdim ki, mətbuatda çap olunum.*

*Nəhayət, bir gün Isa Hüseynov oxuduğu yeni hekayələrimin arasında birini çapa layiq bildi və mənim o hekayəm 1959-cu il iyulun 5-də «Azərbaycan gəncləri» qəzetində dərc olundu. Hekayənin adı «O inanırdı» idi və bu mənim mətbuatda dərc olunan ilk yazım idi.*

*O zaman 16 yaşım var idi.*

*Ilk kitabım – «Min gecədən biri» adlı hekayələr toplusu 1966-cı ildə nəşr olundu.*

*Sonra «Açıq pəncərə» və «Sos» povestlərim nəşr edildi.*

*O yazıların hamısı mənim üçün, əlbəttə, əzizdir, amma bu gün mən əlyazmalarını oxuduğum cavanlara həmişə məsləhət görürəm ki, çap olunmağa tələsməsinlər və özümü misal gətirirəm, yəni bu mənada misal gətirirəm ki, 1967-68-ci illərə qədər yazdığım hekayə və povestləri bu gün mən heç bir kitabıma daxil etmirəm.*

*Bəli, onlar mənim üçün əzizdir, hətta çox əzizdir, mən qəti surətdə onlardan imtina etmək fikrində deyiləm (onsuz da, yazıya pozu yoxdur!), amma əvvəllər də bir neçə dəfə söylədiyim bir fikri yenə təkrar etmək istəyirəm: mətbuat həvəskarın yox, professionalın əsərini çap etməlidir və mətbuat yazıçı olmaq istəyən adamın yazıçı olmasına qədər keçdiyi yolu öz səhifələrində əks etdirməyə borclu deyil.*

*«Yaradıcılıq» sözü ilə «sənətkar» sözü eyni mahiyyətlidir, əslində, sinonimdirlər («gizli» sinonim!), həvəskarın yaradıcılığı olmaz, sənətkarın yaradıcılığı olar.*

*Mən bu 10 cildliyə də 1968-ci ilə qədər yazdığım hekayə və povestləri daxil etməmişəm.*

*Indicə bu «10 cildlik» sözlərini yazanda yenə uşaqlıq illərimi xatırladım.*

*Ilyas Əfəndiyev çox oxuyan, klassik və müasir dünya ədəbiyyatına yaxından bələd olan bir yazıçı idi və onun yaxşı kitabxanası var idi və o kitabxanadakı kitablarla mənim aramda qəribə bir ünsiyyət, hətta mən deyərdim ki, bir münasibət var idi.*

*O kitablar mənim üçün, əslində, canlı məxluqlar kimi bir şey idi.*

*Mən rəflərə düzülmüş o kitablarla, xüsusən çoxcildliklərlə – Şekspir, Molyer, Tolstoy, Balzak, Stendal, Dikkens, Dostoyevski... – fəxr edirdim və ona görə yox ki, baxın, bizdə belə kitablar var, ona görə ki, öz-özlüyündə belə kitablar var, necə ki, qardaşla fəxr edirsən, atayla, oğulla fəxr edirsən.*

*Mən məhz kitab olduğu üçün kitabla fəxr edirdim.*

*Və o gözəl xəyallar aləmi də yaxşı yadımdadır ki, indi fikir məni tez-tez keçmişə apardığı kimi, o zaman da fikir məni tez-tez gələcəyə aparanda gözlərimin qabağına mənim öz gələcək cildlərim gəlirdi: 50 cild... 60 cild... 100 cild...*

*... Mənim 2 cildlik ilk «Seçilmiş əsərlər»im 1987-ci ildə nəşr olunub. Sonralar xeyli kitabım çıxsa da, bu 10 cildlik mənim ikinci «Seçilmiş əsərlər»imdir.*

*Mən bu cildlərə yalnız mətbuatda çap olunmuş əsərlərimi salmışam.*

*Bu 10 cildlik mənim üçün, əlbəttə, indiyə qədərki yazı-pozu işlərimin, bir növ, yekunlaşdırılmasıdır və orası da aydın məsələdir ki, bu zaman da, istər-istəməz, bir sual peyda olur: nə yazmısan? necə yazmısan? niyə yazmısan?..*

*Mən bu suala da cavab vermirəm (bəlkə cavab vermək istəmirəm?).*

*Çünki o cavabın sahibi oxucudur.*

*Mən isə, yalnız onu deyə bilərəm ki, olanı budur.*

***E l ç i n***
*2 oktyabr 2004.*
*Zuğulba.*

# HEKAYƏLƏR



## MƏNLƏ MƏN ARASINDA

*Mən bu kitaba[1] son 32 ildə yazdığım hekayələri daxil etmişəm.*

*32 il – bir igidin ömrü...*

*Aradan 32 il keçib, amma bu hekayələrdən hər birini yazdıran ovqat bütün bu illər boyu mənim yaddaşıma hopub qalıb və indi – bu sətirləri yazdığım 2000-ci ilin küləkli payız gecəsi o ovqatı mən həmin uzun (və bir göz qırpımlıq!) illərin ağrısı-acısı və sevinci ilə, itkiləri və qazancları ilə 32 il bundan əvvəlkindən çox fərqlənən hissiyyatımda yenidən yaşayıram.*

*Və bu dəm mən sidq-ürəkdən Allaha şükür edirəm ki, 32 ildən sonra bu hekayələri bir yerə toplamağı mənə qismət etdi.*

*Bir də mən öz yazıçı taleyimdən razıyam ki, 32 ildən sonra bu hekayələrdə bircə sözə belə toxunmadan onları vaxtilə necə yazılmış və necə çap olunmuşdusa, eləcə də yenidən nəşr etdirirəm.*

*Epoxalar dəyişdi, siyasi-ictimai münasibətlər dəyişdi və mən – oxucudan gizlətmirəm – daxili bir qürur hissi keçirirəm ki, bu hekayələrdə bu gün mənim gizlətmək istəyəcəyim, xəcalət çəkəcəyim, unutmağa çalışacağım bircə söz də yoxdur.*

*Bu hekayələrin bir qismi olsun ki, yaxşı hekayələrdir, başqa bir qismi bəlkə də nisbətən alınmayıb, amma onlarda bir zərrəcik də desən, yalan yoxdur.*

*Və bu hekayələr – mövzusundan, yaxşılığından-pisliyindən, yaxınlığından-uzaqlığından asılı olmayaraq, bir yerdə, bir küll halında – mənəm!*

*32 il bundan əvvəl XXI əsr və üçüncü minillik mənim üçün çox uzaq bir gələcəyin qeyri-real rəqəmləri idi, amma bu gün onlar real həyatımızın göstəriciləridir.*

*Bu hekayələr bugünkü Elçinlə əlçatmaz, ünyetməz bir keçmişdə qalmış 32 il bundan əvvəlki o Elçin arasında, bəlkə də, ən doğma bir bağlılıqdır, həmin doğma xətdir ki, o cavan yazıçı ilə, o cavan yazıçının hiss-həyəcanı, qara saçları və məchul bir gələcəyə (bu günə!) tuşlanmış baxışları ilə məni birləşdirir.*

*Mən bu kitabın adını, şirini və acısı ilə bərabər, yaşanmış o illərin ancaq mənə məxsus hiss-həyəcanı şərəfinə «32» qoymaq istəyirdim.*

*Amma, bax, indicə qələmi götürdüm və bu hekayələr toplanmış qovluğun üstündə həmin hekayələrdən birinin adını yazdım: «Baladadaşın ilk məhəbbəti».*

*Ona görə yox ki, 1972-ci ildə yazılmış bu hekayə məşhur oldu, əsasında film çəkildi, bir çox dillərə tərcümə edildi, mənim Moskvada rus dilində nəşr olunmuş ilk kitabımın adını daşıdı vəs.*

*Ona görə də yox ki, bu hekayəyə qədər «aerodrom» papaqlı baladadaşlar sənətdə ancaq satiranın hədəfi olurdu, az qala, mənəvi məhdudluq meyarına (!) çevrilirdi və birdən-birə bu «aerodrom» papaqlı şumaqədər ustasının lirik-romantik (yəni insani!) aləmi peyda oldu.*

*Yəqin daha çox ona görə ki, Baladadaşın varlığı, onun təmizliyi, iddiasızlığı, səmimiliyi mənim üçün bu 32 ilin daşınan yükü müqabilində çox əhəmiyyətli bir şeydir.*

*1”Baladadaşın ilk məhəbbəti”kitabına (“Qapp-Poliqraf” nəşriyyatı,Bakı, 2000) yazılmış ön söz.*

*Orası da yaxşı xatirimdədir ki, 1972-ci ilin yayında bu hekayənin son nöqtəsini qoyub, həmişə olduğu kimi, bu dəfə də oxuyub fikir söyləməsi üçün, onu atama vermişdim və isti bir iyun gecəsi yazı makinasından yenicə çıxmış o vərəqləri oxuyandan sonra, mənim yazılarıma çox tələbkarlıqla yanaşan və buna görə də tərifli söz deməyi bir o qədər də xoşlamayan Ilyas Əfəndiyev «Baladadaş»ı əməllicə bəyənmişdi...*

*... Deyəsən, bu küləkli payız gecəsi də fikir məni, istər-istəməz, xatirələr aləminə aparmaq istəyir, amma bu 32 ilin xatirələri də, əlbəttə, bitib-qurtaran bir şey deyil və o aləmin içinə girəsi olsam, o zaman bu kiçik ön sözün son nöqtəsini qoymaq mənim üçün dünyanın müşkül bir işinə çevriləcək.*

*Son nöqtəni isə, qoymağı bacarmaq lazımdı.*

***E l ç i n***
*3 noyabr 2000.*
*Zuğulba.*

## SARI PENCƏK

*Belə günlərdə...*
*Evimiz gəmiyə oxşayır,*
*otağım kayuta.*

***Fikrət Sadıq***

Əlbəttə, bu qəribə, hətta son dərəcə qəribə hadisə barədə yazmamaq da olardı – o qədər qeyri-inandırıcı bir əhvalatdır, fəqət, belə bir qəribəlik özü əlamətdar deyilmi? Bəzən bizə elə gəlir ki, günlərimiz həddən artıq adi keçir, günlərimiz bir-birinin eynidir, dünən ilə bu gün arasında fərq yoxdur; əslində isə, elə bu gümanın özüdür günlərimizi eyniləşdirən: belə bir gümanı dağıtmaq əvəzinə, bəzən heç özümüz də bilmədən bir çox qəribə hadisələrin, vəziyyətlərin üstündən ötüb keçirik; bu əlamətdarlığı hiss etdikdə isə, hər şey bizə qeyri-inandırıcı görünür.

Əgər yadınızdadırsa, 1968-ci il aprel ayının 6-da Bakıda axşamçağı bərk yağış başladı, hərçənd günorta hava çox mülayim, yaz ətirli idi. Həmin günü daha yaxşı yadınıza salmaqdan ötrü, xatırladım ki, yağışdan bir az qabaq futbol üzrə otuzuncu ölkə birinciliyinin ikinci turu sona yetmişdi və «Neftçi», qəzetlərin yazdığı kimi, gözəl oyun göstərərək Odessanın «Çernomorets» komandasının qapısından dörd cavabsız top keçirtmişdi.

Iyirmi səkkiz yaşlı cavan bəstəkar S.Qayıblı, təəssüf ki, futbol azarkeşi deyildi; təəssüf ona görə ki, həmin gün futbol azarkeşləri arasındakı ruh yüksəkliyi, böyük ümidlər bu saat onun üçün naməlum bir şey idi və vaxtsız yağış onu daha artıq bədbinləşdirmişdi.

Cavan bəstəkar S.Qayıblı həmin gün səhər yuxudan duranda ağlına gətirməzdi ki, axşam və xüsusən gecə belə bir dilxorçuluq içində olacaq, hərçənd ağlına gətirsəydi də, bu onun üçün elə bir sürpriz olmazdı. Görünür, özünü tək və tənha sanan adamların həyatında iqlim dəyişikliyi daha artıq rol oynayır, nəinki ailəlilərin, oğul-uşaqlıların həyatında.

S. Qayıblının V. və B. küçələrinin kəsişdiyi tində yerləşən doqquzmərtəbəli təzə binadakı otağında pianino yox idi və o, hər dəfə işləmək üçün «P. M. klubu»nun arakəsməsində qoyulmuş pianinonun arxasında oturmalı olurdu.

«P. M. klubu» X. küçəsində yerləşirdi və S. Qayıblının on altı kvadratmetrlik otağı ilə X. küçəsi arasındakı məsafə bəzən yerlə ay arasındakı qədər, bəlkə artıq olurdu, bəzən də bir göz qırpımlıq – bu baxırdı S. Qayıblının işləmək həvəsinə; işləmək həvəsi isə, məlum məsələdir ki, öz növbəsində bir sıra amillərdən asılıdır – biz onları sadalamayacağıq – hərçənd deyirlər ki, işləyən heç nəyə baxmaz, Qorki ay işığında oxuyub, Pavlov öləndə keçirtdiyi hissləri diktə edib.

S. Qayıblı «P. M. klubu»nda rəsmi işdə idi: özfəaliyyət kollektivinin bədii rəhbəri. Həftənin tək günləri rəsmi işdə olurdu, həftənin tək günləri dilxorçuluq basırdı onu, çünki klub müdirinin bir müavini var idi, ona göz verirdi, işıq vermirdi, deyirdi ki, canım, o nədir elə yazmısan, hərdən radio ilə verirlər, dram-ba-ba-bam, dram-ba-ba-bam, hanı bəs bizim kamançamızın göz yaşları, hanı bizim tarımızın ah-naləsi, hanı bizim nağaranın gurultusu, hanı bizim klarnetin sümük oynatması? Sonra da məlum olurdu ki, müdir müavini dəyişik salıb, başqasının əsərinə qulaq asıb.

S. Qayıblı yaradıcılıq ilə məşğul olmaq istəyəndə kluba iş qurtarandan sonra, axşamçağı gedirdi ki, nə cəfakeş müavin orda olsun, nə də bir başqa adam. Gözətçi onu tanıyırdı və dərhal içəri buraxırdı. Bu gözətçi siqaret çəkən idi, amma ömründə cibində siqaret olmazdı, hər dəfə S. Qayıblı ilə salamlaşandan sonra bir siqaret istəyirdi, ayrılanda da xudahafizləşib bir siqaret istəyirdi – adətkərdə idi.

Həmin gün S. Qayıblı işləməyə gedəndə, nədənsə, birdən-birə ağlına gəldi ki, bu gözətçinin həmişə siqareti olur, amma ondan aldığı siqareti qənimət bilir və yaxud bu da, bir növ, rüşvət kimi bir zaddır.

O, salamlaşıb içəri girəndə gözətçi adəti üzrə siqaret istədi, S. Qayıblı da cavab verdi ki, siqareti yoxdur. Gözətçi, elə bil, qulaqlarına inanmadı, gülümsünüb təzədən dedi ki, siqaret istəyirəm. S. Qayıblı yenə də cavab verdi ki, siqareti yoxdur, sonra cibindən bir «Avrora» çıxarıb qoydu damağına və pillələri yuxarı qalxdı; özü də öz tərsliyinə təəccüb etdi.

O, pianinonun arxasında oturdu, amma qapağını qaldırmadı. Gözlərini tavana zillədi və siqareti axıra qədər çəkdi. Könlündən keçdi ki, bu saat, bax, beləcə təyyarədə oturaydı, uçaydı, buludların altından keçəydi, üstündən keçəydi, sonra da...

Əlbəttə, indi o özünü məcbur edib pianinonu danqıldada bilərdi, fəqət heç vaxt işləmək üçün özünü məcbur etməzdi, sadəcə ona görə ki, bundan bir şey çıxmazdı.

Cavan bəstəkar S.Qayıblı yenə bir siqaret yandırdı, arakəsməni o baş-bu başa addımladı: qəribə idi, o başa iyirmi üç addım oldu, bu başa otuz bir addım, halbuki, eyni addımlar idi.

Ümumiyyətlə, həmin gün onun işləri elə əvvəldən qəribəliklərlə dolu idi.

Səhər yerindən qalxan kimi, heç əl-üzünü yumamış aşağı düşdü, binalarından bir tin aralıdakı qəzet köşkünə gedib, dünəndən sifariş etdiyi «Bakinski raboçi» qəzetini aldı, tələsik otağına qalxıb yazı masasının siyirtməsində saxladığı on üç ədəd lotereya biletini çıxartdı və əlinə bir doldurma qələm alıb rəqəm-rəqəm yoxlamağa başladı.

Özü xüsusi olaraq lotereya biletlərini nəhs ədəd almışdı – prinsipial olaraq xurafata düşmən idi, hərçənd bunun özü də elə bir növ xurafat idi.

Adəti üzrə bu dəfə də heç nə udmadı və on üç ədəd lotereya biletinin on üçünü də ortadan cırıb mətbəxdəki zibil yeşiyinə atdı. Lap dəqiq yadındadır ki, lotereya biletlərini cırıb mətbəxdəki zibil yeşiyinə atdı. Sonra çay-çörək yeyib şəhərə düşdü.

Günorta nəşriyyata – üç miniatür fortepiano pyesindən ibarət ilk palazqulağı kitabçasını buraxırdılar – dəyib sonra təzə univermağın yanından üzüaşağı enəndə yadına düşdü ki, aerozol almalıdır, evdə, deyəsən, taxtabiti baş qaldırır, əlini atıb döş cibindən portmanatını çıxartdı ki, görsün bu gün aerozol ala biləcək, ya yox.

On üç ədəd təptəzə lotereya bileti... portmanatın içində idi.

O, lotereya biletlərini portmanatın içindən çıxartdı: elə şax idilər ki, elə bil heç alınandan əl toxunmayıb. Ələddinin çırağını xatırladı. Tələbə vaxtı yarızarafat, yarıciddi ay arzulamışdı ha Ələddinin çırağını.

S.Qayıblı təzə univermağın yanındakı 3538 nömrəli mərkəzi əmanət kassasına girdi və qabaqlar konservatoriya ilə üzbəüz binanın divarından asılan bir reklam yadına düşdü:

*Vətəndaşlar, pullarınızı əmanət kassasına qoyun.*
*Sərfəli və etibarlıdır.*

O, pillələri yuxarı qalxıb divardan asılmış cədvələ yaxınlaşdı. Təzədən lotereya biletlərini bir-bir yoxlamağa başladı. 13910 dərəcəli 191 nömrəli bileti bir manata düşdü; əgər nömrəsi iki rəqəm də artıq olsaydı, «LUÇ» qızıl qol saatı udacaqdı. «LUÇ» qızıl qol saatı yüz altmış manata idi. Əlbəttə, yüz altmış manat bir manatdan daha artıq yerinə düşərdi – olacağa çarə yoxdur – gedib kassadan bir manatını aldı. Bu manatın bir tərəfi balaca cırılmışdı, papiros kağızı ilə yapışdırmışdılar. Manatı portmanatının içinə qoyub əmanət kassasından çıxdı.

Indi də o başa iyirmi üç addım, bu başa otuz bir addım.

Siqaretdən bir-iki qullab vurub gözucu pianinoya baxdı və qalxıb pillələri aşağı düşdü. Qapıdan ötəndə gözətçi adəti üzrə xudahafizləşib bir siqaret istəmək əvəzinə, yana-yana, az qala, ağlamsına-ağlamsına dedi ki, buna bir bax, bunun da gücü mənə çatır.

Bir yağış yağırdı ki, gəl görəsən.

Cavan bəstəkar S.Qayıblı pencəyinin boynunu qaldırıb divarların dibi ilə becid-becid evinə tərəf üz tutdu; necə hava olursa-olsun, ömründə trolleybusa minməzdi, necə ki, tramvaydan da, avtobusdan da zəhləsi gedirdi; guya ki, bu, eyniliklərə qarşı bir üsyan idi – eyni marşrutlar, eyni dayanacaqlar, hərçənd bu üsyan da indi öz növbəsində bir eynilik olmuşdu.

Qəfil yağış küçələrə tənhalıq, sükunət gətirmişdi, küçələri bozartmışdı, boş küçələrin addım həsrətini də öldürmüşdü. Bu tənhalıqda bir az da xof qatışığı var idi, adamın canına üşütmə salırdı, adamın əti ürpəşirdi, elə bil qurbağa atıblar içinə.

S.Qayıblının otağı səkkizinci mərtəbədə idi, özü də küncdə. Belə yağışlı, küləkli axşamlarda, xüsusən, gecələrdə otağın içi küçədən daha artıq uğuldayırdı. S.Qayıblının üstündə, yəni doqquzuncu mərtəbədə cavan bir şair olurdu, daha doğrusu, gənc şair Fərhad Xoşbəxt. Onun da otağı S.Qayıblınınkının eyni idi, hərçənd külfət sahibi idi.

Hə, bu Fərhad Xoşbəxt öz otağına kayut deyirdi, S.Qayıblı da indi yorta-yorta öz kayutuna gedirdi.

Otaq həmişəki kimi idi, eyni miz, eyni şifoner, eyni kitab dolabı, eyni divan, «Riqonda» markalı eyni radioqəbuledici, Ü.Hacıbəyovun divardan asılmış eyni fotosu, eyni pəncərə, eyvana açılan eyni qapı, bu otağın eyni spesifik tənhalığı.

Bu cür yağışlı, küləkli axşamda belə bir eynilik cavan bəstəkar S.Qayıblı üçün ən ağır bir ərəfə idi: təpədən dırnağacan boşluq ərəfəsi.

Radio uşaqlar üçün nağıl deyirdi, axırda da uşaqlara şirin yuxu dilədi. Sonra konsert başladı, kim isə – təzə bir müğənni «Şur»un «Zəminxarə» şöbəsini oxuyurdu. S.Qayıblı radionu söndürdü.

Külək, yağışı şarappıltı ilə pəncərəyə vururdu, su çərçivənin arasından süzülüb damcı-damcı parketin üstünə tökülürdü. Fərhad Xoşbəxt öz pəncərə çərçivələrinin arasını pambıqla tıxamışdı və S.Qayıblıya da belə bir məsləhət vermişdi.

Külək bayırda elə qıy vurdu ki, az qaldı içi qoğalla dolu boşqab mizin üstündən yerə düşsün. Qoğalları Novruz bayramı üçün anası kənddən göndərmişdi, indi quruyub qaxaca dönmüşdülər. Elə yerə düşsəydilər pis olmazdı, çilik-çilik olardı bu boşqab, içindəkiləri də tullayardı, nə vaxta qədər elə-beləcə mizin üstündə qalacaq?

Başının üstündə Fərhad Xoşbəxtin ayaq səsləri eşidildi, zalım ayağını yerə basanda divarlar titrəyir. Bu addımlar da bu gecənin yeknəsəq ritmi idi.

Həmişəki kimi bir qəhvə də dəmləyib qəndsiz içmək lazımdı ki, bu gecənin bu yeknəsəqliyi lap bütöv olsun, tam kvadratda; eyni fikirlər də öz-özünə gələcək, istəsə də, istəməsə də.

Mətbəxə keçib qazı yandırdı, səhər su gələndə doldurduğu çaydanı qazın üstünə qoydu.

Bu mətbəxdən haçan mətbəx iyi gələcək, bu soyuq iysizlik, divarlara, tavana, döşəməyə hopmuş bu buz kimsəsizlik nə vaxt çəkiləcək? Qulağının dalını görəndə?

Doğrudan da, heç vaxt isinməyəcək bu mətbəx, bu otaq, bu mənzil? Niyə isinmir? Yaz keçər, yay keçər, payız keçər, qış gələr, ocaqçı Məmmədağa həftə səkkiz, mən doqquz, adambaşı bir manat yığa-yığa buxarlığı qızdırar, bu mənzil də isinər onda. S.Qayıblı fikirləşdi ki, bu hazırcavablığın heç yeri deyil və qəhvəyi rəngli linoleum çəkdiyi döşəməyə baxdı. Ayaqqabılarından bir az kənarda, zibil yeşiyinin yanında cırılmış bir lotereya bileti var idi.

Cavan bəstəkar S.Qayıblı əyilib cırıq lotereya biletini döşəmənin üstündən götürdü, sonra ayağı ilə zibil yeşiyinin qapağını qaldırdı; qalan lotereya biletlərinin hamısı ortadan bölünmüşdü və hamısı da vedrənin içində idi. Sonra gedib arakəsmədəki asılqandan asılmış pencəyinin döş cibindən portmanatını çıxartdı: kənarı papiros kağızı ilə yapışdırılmış birmanatlıq portmanatın içində idi.

Onun qəndsiz qəhvə içmək həvəsi də öldü və o, ilk dəfə həmin qəribə gecənin həmişəki yeknəsəqliyini pozdu – çaydanın altını keçirtdi.

Yenə də Fərhad Xoşbəxtin addımları divarları titrətdi, o da otaqdan mətbəxə keçmişdi, sonra da nə isə döyəcləməyə başladı, Allah bilir, nə qayırırdı. Fərhad Xoşbəxtin əla planları var idi: gah blokun pilləkənlər qurtaran hissəsini kəsib evinə qatmaq istəyirdi, gah eyvanını uşaq otağı eləmək istəyirdi, gah tavandan qapı açıb otağından binanın taxtapuşuna nərdivan düzəltmək istəyirdi ki, taxtapuşda özünə bir otaq qayırsın. Amma bütün bunlar hamısı da, plan olaraq qalırdı və cavan bəstəkar S.Qayıblı çox gözəl bilirdi ki, plan olaraq da qalacaq, yoxsa ki, bu gecə bu cür yeknəsəq olmazdı.

S.Qayıblı belə düşünürdü.

O, eyvana çıxdı. Bütün binada onun eyvanı yeganə azad eyvan idi: nə boş şüşələr var idi (hamısı qapı-qapı gəzən butulkaalanda), nə açılıb-yığılan çarpayı, nə ayağından iplə dəmir barmaqlığa bağlanmış xoruz və yaxud toyuq, nə paltar sərmək üçün zivə, nə də başqa bir şey. Amma bu azadlıqda bir tənhalıq var idi və bu azadlıq eyni idi; əslində həmin tənhalığı da yaradan bu eynilik idi; eyni əşyasızıq, eyni genişlik.

S.Qayıblı siqaret yandırıb eyvanın sürahisinə dirsəkləndi. Yağış yaman yağırdı, başının üstündə Fərhad Xoşbəxtin eyvanı olmasaydı, onu su aparardı. Amma bu yağış da həmişəki yağış idi, bu mənzərə də həmişəki mənzərə idi: qarşıdakı axar-baxarın üçdə iki hissəsini tutmuş böyük qara bina, yuxarıda təzə tikilmiş və bir-birinin eyni olan binaların boz siluetləri, axar-baxarın qalan bir hissəsini təşkil edən xırda evlər və içi çəkmə təmiri emalatxanası olan köhnə məscid; həmişəki qaranlıq və tək-tək adamların həmişəki kimi yağışdan qaçışması.

Qarşıdakı böyük qara binanın üçüncü mərtəbəsində yaşayan qız yenə də həmişəki kimi pəncərələrinin pərdəsini aralayıb S.Qayıblının eyvanına baxdı. Bu da Fərhad Xoşbəxtin addım səsləri kimi bu gecəki yeknəsəqliyin özünü ifadə tərzlərindən biri idi. Sonra qız pərdəni örtdü, həmişəki kimi, guya ki, utandı.

Düz iki ildir beləcə utanır, amma bir şey çıxmır. On dəqiqədən sonra yenə pərdəni aralayıb S.Qayıblının eyvanına baxacaq.

S.Qayıblı siqareti tullayıb otağa keçdi, divanda uzanıb səhər aldığı «Bakinski raboçi» qəzetinin dördüncü səhifəsinə baxdı: lotereya cədvəlindən aşağıda hava haqqında məlumat var idi, yazılmışdı ki, axşam mülayim şimal küləyi əsəcək, havanın hərarəti müsbət on beş-on altı dərəcə olacaq. Artıq bu təzad da adama təsir etmirdi, çünki bu təzadlar da eyniyyət şəklini almışdı.

Qəzeti kənara atıb gözlərini tavana zillədi, sonra ayağa qalxdı: şəhərə çıxıb yağışın altında islanmaq lazım idi əməlli-başlı, bu otaqdan qaçmaq lazım idi müvəqqəti.

Həmin gecəni cavan bəstəkar S.Qayıblının bütün ömründə ən əlamətdar gecə edən o qeyri-adi, qəribə hadisə də bu zaman baş verdi.

S.Qayıblının neçə il bundan qabaq sarı məxmərdən tikdirdiyi məşhur bir pencəyi var idi. Məşhur idi ona görə ki, yay-qış həmişə əynində olardı və qəribədir ki, S. Qayıblının özünün də bu pencəkdən zəhləsi gedirdi, fəqət bu qızılı çalarlı sarı pencək əynindən əskik olmazdı; ona görə yox ki, başqa pencəyi yox idi – yox, var idi, elə bu yaxınlarda yaxşı bir krep-baston kostyum tikdirmişdi və bu gün günorta da həmin kostyumu geymişdi, çünki nəşriyyata gedəcəkdi: kitabçasının redaktoru çox zəhmli bir qadın idi və srağagün onun bu sarı məxmər pencəyinə elə bir sarsıdıcı nəzər salmışdı ki, S.Qayıblı öz-özünə söz vermişdi – bir daha sarı pencəkdə bu qadının gözünə görünməsin; ona görə bu sarı pencək əynindən əskik olmazdı ki, bu pencək onun yaşayışının ayrılmaz tərkib hissəsi olmuşdu, bu pencək ən bütöv yeknəsəqlik rəmzi idi.

S.Qayıblı şifoneri açıb sarı pencəyi götürdü və cəld əyninə geydi ki, otaqdan qaçsın. O, otağın işığını keçirib arakəsməyə çıxdı və heyrətlə arakəsmədəki güzgünün qarşısında dayandı: qızılı çalarlı məşhur sarı məxmər pencək əynində deyildi, əynindəki... başqa pencək idi. S.Qayıblı gözlərini güzgüdən ayırıb əynindəki pencəyə baxdı, əlləri ilə pencəyin yaxasını yuxarı qaldırıb lap diqqətlə baxdı: ömründə onun bu rəngdə belə bir parçadan pencəyi olmamışdı, əynindəki pencəyin rəngi yaşıl idi. O, otağa girib işığı yandırdı və şifoneri açdı: bayaq sarı pencəyini götürdüyü asqı boş idi və hələ də tərpənirdi. S.Qayıblı əynindəki bu qəribə pencəyi çıxartdı və... o, yenə də qızılı çalarlı məşhur sarı məxmər pencəyi əlində tutmuşdu.

Cavan bəstəkar S.Qayıblını soyuq tər basdı, bir neçə an sarı pencəyə baxdı və arakəsmədəki güzgünün qarşısına keçib ehtiyatla, yavaş-yavaş sarı pencəyi əyninə geydi. Əyninə geydikcə də sarı pencək gözgörəsi rəngini dəyişdi: indi tünd göy rəngli idi, nazik ağ milləri var idi.

S.Qayıblı yenə də gözlərini aynadan çəkib əynindəki pencəyə baxdı, guya ki, arakəsmədəki güzgü onu aldadırdı, sonra keçib otağın işığında baxdı, sonra mətbəxə keçib mətbəxin işığında baxdı, sonra vanna otağına girib vanna otağının işığında baxdı: tünd göy rəngli miləmil pencək idi. Cavan bəstəkar S.Qayıblının ömründə belə pencəyi olmamışdı. Yenə arakəsmədəki güzgünün qarşısına gəldi, gözlərini güzgüdən çəkməyərək əynindəki pencəyi çıxartdı və pencək onun gözlərinin qabağında rəngini dəyişdi, sarı məxmər pencəyə çevrildi.

S.Qayıblı otağa keçdi, əlindəki sarı məxmər pencəyi şifonerə qoydu, bir neçə dəqiqə dinməz-söyləməz sakitcə divanda oturdu. Başı gicəllənirdi, gözləri də qaralırdı elə bil.

Sonra mətbəxə getdi, səhər su gələndə doldurduğu şüşəni götürüb əlüzyuyana əyildi və suyu başına, boynuna tökdü, üzünü yudu. Əl-üzünü, başını qurulamayıb məhrəbanı boynuna saldı, otağa keçib bir siqaret yandırdı və divanda oturub siqareti axıra qədər çəkdi.

Hər şeyi başından çıxartmaq istəyirdi, hər şeyi; dünyada heç nə yox idi, bir o idi, bir də əlindəki siqaret, vəssalam.

Sonra qalxıb əl-üzünü, başını quruladı, məhrəbanı bir tərəfə atıb, şifoneri açdı və sarı məxmər pencəyi götürüb bir göz qırpımında əyninə geydi və bir göz qırpımında da sarı pencək dəyişdi: qəribə bir parçadan çox yaraşıqlı bir pencək idi, elə bil əyninə biçilib-tikilmişdi, boz rəngdə, özündən də küknarvarı milləri var idi, həm də çıraq kimi yanırdı pencək.

S.Qayıblı arakəsmədəki güzgünün qabağına gəldi. Əynindəki pencək o qədər yaraşıqlı idi ki, cavan bəstəkar S.Qayıblı bu yaraşıqdan vahiməyə gəldi.

O, qapının zənginə diksindi, elə bil yuxudan ayıldı, fəqət yuxu deyildi bu, həqiqət idi. Əynindəki pencəyi çıxardıb qapını açmaq istədi, amma əynindəki yaraşıqlı pencəyi çıxara bilmirdi, pencək elə bil yapışqan idi, bədənindən ayrılmırdı, düymələri də. Əslinin donunun çalğaşıqlı düymələri kimi, bir düymə qalıncaya qədər açılır, sonra öz-özünə düymələnirdi. Zəng bir də çalındı və S.Qayıblı qapını açdı.

Fərhad Xoşbəxt idi, salamlaşıb soruşdu ki, bir-iki mismar lazımdır, yoxundur? Sonra da S.Qayıblının əynindəki pencəyə baxıb dedi ki, mübarəkdir təzə pencəyin, əcəb pencəkdir, amma bilmirəm bunları neyləyirsən, onsuz da sarı pencəyi əynindən çıxartmırsan, sonra da soruşdu ki, sənə nə olub belə, gözümə birtəhər dəyirsən? S.Qayıblı dodaqaltı nə isə dedi, heç özü də bilmədi nə dedi, sonra mətbəxdən bir-iki paslı mismar tapıb Fərhad Xoşbəxtə verdi və Fərhad Xoşbəxt yuxarı – öz kayutuna qalxdı.

S.Qayıblı Fərhad Xoşbəxtin ardınca qapını bağladı və yenə də pencəyi əynindən çıxartmağa çalışdı, amma pencək əynindən çıxmırdı. S.Qayıblı nə qədər çalışdısa da özündən küknarvarı milləri olan bu yaraşıqlı boz pencəyi əynindən çıxara bilmədi; bu pencək içi vakuum bir model kimi onun bədənindən ayrılmırdı. S.Qayıblı heç işıqları da keçirtməyə macal tapmadı, səkkizinci mərtəbədəki kayutundan baş götürüb qaçdı. Qapının ingilis kilidi «çık» eləyib bağlananda o, artıq küçədə idi – elə sürətlə düşmüşdü pillələri.

Yağış dayanmışdısa da küçədə bir çovğun var idi. Külək boş küçələr boyu uğuldayırdı. Bakı küçələri heç vaxt həmin gecə kimi boş və kimsəsiz olmamışdı.

Cavan bəstəkar S.Qayıblı gedirdi və hara getdiyini özü də bilmirdi. Elə bil səkkizinci mərtəbədəki kayutundan deyil, özü özündən qaçırdı, içindən qovurdular onu. Küçələrdəki bu uğultu onun içinə də dolmuşdu, beynini də qupquru qurutmuşdu; fikirsizliyin, boşluğun içində idi beyni.

Sövq-təbii əlini pencəyinin cibinə salıb bir siqaret çıxartdı, qarşıdakı binalardan birinin girişində küləkdən daldalanıb siqareti yandırdı. Dumanlı şəkildə yadına saldı ki, bu pencəkdən xəbəri yoxdur, birinci dəfədir geyir bu pencəyi və heç vaxt bu pencəyin cibinə nə kibrit, nə də siqaret qoyub. Ona elə gəldi ki, əvəz-əvəz olsun deyə, bu siqareti də, bu kibriti də onun cibinə bayaqkı gözətçi qoyub.

Kim isə onun üstünə qışqırdı ki, ay yoldaş, yavaş ol, niyə ayağının altına baxmırsan yeriyəndə, üstümüzə çıxmayacaqsan ki. O diksindi və yalnız indi özünü hansı bağda isə xudmani bir guşədə qalanmış balaca ocağın qarşısında gördü; az qalmışdı ocağın üstünə yerisin. Bura hansı bağ idi, indi də yadında deyil. Ola bilsin ki, dənizkənarı park idi, çünki havadakı uğultuya elə bil dəniz səsi də qatışmışdı.

Cavan bəstəkar S.Qayıblının üstünə qışqıran və yəqin ki, bu ocağı da qalayan kişinin əynində köhnə sırıqlı var idi, üz-gözünü də tük basmışdı. Bəlkə o da dənizkənarı parkın gözətçisi idi, bəlkə də bir əyyaş idi. Ocağın kənarında çöməlib əlində çubuq tutmuşdu, çubuğun ucuna bir sosiska keçirtmişdi, sosiskanı ocaqda qızardırdı.

Bu balaca ocağın qaranlıq içindəki qəfil parıltısı və qəfil istisi elə bil S.Qayıblının bütün daxilini silkələdi, elə bil beynindəki fikirsizliyi də qovub çıxartdı, içindəki uğultunu da.

Ocağın kənarında çöməlib sosiska qızardan kişi S.Qayıblıya dedi ki, bu boranda nə olub belə, nə qovhaqovdur? Elə bil səni qamçılayırdılar, az qaldı ocağımı da dağıdasan. Sonra dedi ki, kim bilir, bəlkə də elə qamçılayırmışlar, amma adamı ki, həmişə başqası qamçılamır, bəzən adam özü də özünü qamçılayır, ya bilə-bilə, ya da qeyri-cür. Sonra da dərindən nəfəs alıb qızaran sosiskanın iyini içinə çəkdi və dedi ki, ya qamçılayırlar, ya da qamçılamırlar, dəxli yoxdur, sən də çöməl, qızış, həm də qonağım ol, balaca bir şüşəm də var.

Cavan bəstəkar S.Qayıblı ocağın kənarında çöməldi, əllərini oda tutdu, bütün canına bir ılıqlıq işlədi. O, qəribə bir sərbəstlik, qəribə bir azadlıq hiss edirdi – niyə? – səbəbini özü də bilmirdi. Bu qəribəlik onun canına yayılmış ılıqlıqda idi.

Cibindən bir siqaret çıxardıb yandırmaq istədi, sosiska qızardan kişiyə də təklif etdi. Kişi dedi ki, mənim xüsusi siqaretim var, sonra döş cibindən bir «Pamir» çıxartdı. Yan cibindən də Nuh-Nəbidən qalmış kələ-kötür bir müştük çıxartdı, siqareti müştüyə keçirib odda yandırdı.

S.Qayıblı, nədənsə, birdən-birə əlində tutduğu siqareti odun üstünə tulladı və bu siqaretin alovlanmasına tamaşa etdi. Yanıb kül oldu bu siqaret. Bu siqaret «P.M. klubu»nun gözətçisinin payı idi.

Sırıqlı geymiş kişi qızaran sosiskanın iyini yenə də ciyərinə çəkib: «Bəh-bəh-bəh...» – dedi, sonra da başını yuxarı qaldırıb zülmət göyə baxdı, elə bil, qulaqlarını da şəkləyib küləyin, dalğanın səsinə bir müddət fikir verdi, «Pamir»dən dərin bir qullab vurub müştüyü ağzında saxladı, əlini də ocağın üstünə tutdu: «Bunun ayrı ləzzəti var». Yaman ürəkdən dedi. S.Qayıblı soruşdu ki, nəyin? Sosiska qızardan kişi balaca gözlərini qıyıb ona baxdı, özü də elə baxdı ki, yəni ey zahidi bizövq... Sonra da dedi ki, bax bu gecənin, bu ocağın, bu kababın.

...O, öz kayutuna qayıdanda gecə yarıdan keçmişdi. Asta addımlarla pillələri qalxdı. Qapını açıb arakəsməyə girdi. Işığı yandırdı. Bir müddət yerindəcə dayandı, sonra pencəyi çıxartdı; pencək adi pencək kimi əynindən çıxdı və elə həmin pencək olaraq da qaldı: özündən küknarvarı milləri olan yaraşıqlı boz pencək. Bir az baxdı əlindəki bu pencəyə, sonra cəld addımlarla otağa girib şifoneri açdı: qızılı çalarlı o məşhur sarı məxmər pencək asqıdan asılmışdı.

Cavan bəstəkar S.Qayıblı başa düşdü ki, bu, təklifdir: özün seç – ya sarı pencək, ya da təzə pencək.

O, sarı pencəyi asqıdan çıxartdı, yaraşıqlı boz pencəyi onun yerindən asdı və şifoneri bağladı. Bu kiçicik əməliyyatı elə bir sakitliklə və qanunauyğunluqla gördü ki, bir anlıq özü də sakitliyinə təəccüb etdi.

Sonra sarı pencəyi mətbəxə apardı, zibil yeşiyinin qapağını qaldırıb bu qızılı çalarlı məşhur sarı məxmər pencəyi lotereya qırıntılarının üstündən vedrənin içinə basdı və vedrəni götürüb cəld addımlarla pillələri aşağı endi, həyətdə yan-yana düzülmüş zibil qablarının birinin içinə boşaltdı.

O, geri qayıdanda pusquda dayanmış pişiklər zibil qabına cumdular, guya ki, yeməli bir şey olacaqdı.

Cavan bəstəkar S.Qayıblı vedrəni aparıb yerinə qoydu, sonra elə bil bir daha xatircəm olsun deyə şifoneri açdı: yaraşıqlı boz pencək öz yerində idi.

Fərhad Xoşbəxt də, deyəsən, daha çarpayısına uzandı – addımlarının səsi birdən-birə kəsildi.

Külək də daha dayanmışdı deyəsən.

Yağış çoxdan kəsmişdi.

Qarşıdakı qara binanın üçüncü mərtəbəsində yaşayan qızın işığı sönməmişdi hələ. Qəribə qızdır bu qız. Maraqlı qızdır.

S.Qayıblı divanda uzandı və həmişəkindən fərqli olaraq dərhal yuxuya getdi.

Cavan bəstəkar S.Qayıblı sonralar bu hadisəni heç kimə danışmadı – bilirdi ki, heç kim buna inanmayacaq. Həmin məşhur sarı pencəyi isə «starıveşə» satdığını deyirdi, deyirdi ki, nə qədər elədim zalım oğlu «starıveş» otuz qəpikdən artıq vermədi.

Dost-tanışları bunu eşidəndə xeyli gülürdü.

*Noyabr, 1968.*

## QATAR. PIKASSO. LATUR. 1968.

Sonra Məleykə xanımın əri yenə mənə elə baxdı ki, elə bil həm qorxudurdu məni, həm də yalvarırdı; həm də çox gülünc bir vəziyyətdə idi.

Bələdçi arvad dedi ki, ötürənlər aşağı düşsünlər, qatar indicə tərpənəcək.

Məleykə xanımın əri arvadının yanağından öpdü, sonra da dedi ki, Moskvaya çatan kimi dərhal telefonla zəng eləsin; həm də tapşırdı ki, yolu necə başa vurduğunu söyləsin. Bunu lap xüsusi dedi, yəni ki, qızım, sənə deyirəm, gəlinim, sən eşit.

Əlbəttə, bu saat mən onu sakitləşdirə bilərdim, deyərdim ki, əzizim, dostum, heç nigaran qalma; arvadına heç nə olmaz yolda, çünki sənin arvadında qətiyyən gözüm yoxdur; baxma ki, bir kupedə ikimizik, yol da uzun – arxayın ol və get arxayın da yat – əgər özün tək yatacaqsansa. Bunları deyərdim, amma demədim – bu da onun baxışları müqabilində mənim tərəfimdən kiçicik bir intiqam idi, çünki Mirzə Cəlil yaxşı deyib ki, dünyada bu nigarançılıqdan da pis şey yoxdur.

Qatar tərpənəndə Məleykə xanım pəncərədən ərinə əl elədi, əri də aşağıdan ona əl elədi, amma zalımın gözü elə məndə idi; nə isə, dünyada bu nigarançılıqdan da pis şey yoxdur.

Sonra bələdçi arvad gəlib biletlərimizi aldı, peşəkar nəzərlərlə bir mənə, bir də Məleykə xanıma baxdı, yəni ki, məsələ məlumdur.

Əvvəlcə mən kupedən çıxdım, Məleykə xanım paltarını dəyişdi, sonra o, kupedən çıxdı, mən paltarımı dəyişdim, sonra da kupedə oturub Abşeron gecəsinin qış mənzərəsinə tamaşa eləməyə başladıq, hərçənd elə bir mənzərə yox idi.

Bələdçi qadın gəlib bizdən adama bir manat yorğan-döşək pulu aldı və soruşdu ki, çay içəcəyik, ya yox? Ikimiz də dedik ki, içəcəyik. Sonra mən paltomun cibindən «Ədəbiyyat və incəsənət» qəzetinin bugünkü nömrəsini çıxarıb vərəqləməyə başladım. Sənətşünasların Moskvada açılacaq beynəlxalq müşavirəsi barədə də məlumat var idi, mənimlə Məleykə xanımın məruzə edəcəyimiz də yazılmışdı, bircə şəklimiz yox idi: mənimlə Məleykə xanım, fonda da Məleykə xanımın ərinin qorxunc və məlul baxışları.

Məleykə xanım soruşdu ki, deyəsən, satirik yazı oxuyursunuz? Mən də dedim ki, bəli, maraqlı şerdir. Sonra Məleykə xanım dedi ki, çayınızı soyutmayın. Mən də dedim ki, çox sağ olun, içərəm; guya ki, ev sahibəsi idi və məni qonaq edirdi.

Mən təyyarəyə minmirəm; ona görə yox ki, təyyarədən qorxuram, ona görə ki, təyyarədən bir ləzzət almıram – hərçənd ömründə təyyarəyə minməmişəm – amma bunu hiss edirəm.

Məleykə xanımın da ürəyi təyyarə götürmür.

Məleykə xanım gülümsəyib dedi ki, bilmirəm, bunu sizə deyiblər, ya yox, amma yaman qaradinməz adamsınız. Dedim ki, siz hələ mənim danışmağımı görməmisiniz. Dedi ki, görməmişəm və təsəvvür də etmirəm, çünki neçə ildir sizinlə bir institutda işləyirik, həmkarıq, amma indiyəcən bütün söhbətimizi lentə yazsaydılar, heç iyirmi metr olmazdı, əksəriyyəti də salam-əleyküm, əleyküm-salam.

Mən bozluğuma salıb deyə bilərdim ki, əzizim Məleykə xanım, tıq-tıq xanım, şıq-şıq xanım, axı, mənim sizinlə nə söhbətim; biz söhbətləşsək də söhbətimiz tutmaz, boş və mənasız olar, çünki mən sizi adicə meşşan hesab edirəm, hərçənd əskik bir işinizi görməmişəm, amma mən belə hiss edirəm; biz elə yad adamlarıq ki, şükür iyirmi metrlik maqnitofon lentinə. Əlbəttə, bunları deyə bilərdim, amma demədim, çünki bunları demək də elə bir söhbət idi, mən isə, Məleykə xanımla söhbət etmək ehtiyacından yüz faiz azad idim, necə ki, Safura xanımla söhbət etmək ehtiyacından, necə ki, Səmədlə söhbət etmək ehtiyacından, necə ki, Məliklə, Sənubərlə, Kərimlə, əmioğlu Bəylərlə, xalaqızı Mədinəylə, day nə bilim kimlə, kimlə, kimlə söhbət etmək ehtiyacından.

Insanı başa düşəcək yeganə adam – o özüdür.

Məleykə xanım gözlərini pəncərəyə zillədi və dedi ki, özünüz bilən yaxşıdır, amma bu cür qaradinməzlik də bir şey deyil. Mən cavab vermədim və özüm özümlə zarafat elədim ki, sakit ol, əzizim, əsəbiləşmə.

Bələdçi qadın gəlib soruşdu ki, yenə çay içəcəksiniz? Dedik ki, yox, içməyəcəyik. O da üzr istədi ki, daha gəlib bizi narahat eləməyəcək, sonra da gizli iş görən adam kimi, ehmallıca kupenin qapısını örtüb getdi.

Məleykə xanım gözünü zülmət pəncərəyə dikdi, mən də «Ədəbiyyat və incəsənət» qəzetinə. Məleykə xanım pəncərədə öz fikirlərinə baxırdı, çünki bu zülmətdə başqa bir şey görünməzdi, hərçənd məncə Adəm və Həvvadan bəri ən şəffaf bir şey varsa, o da Məleykə xanımın və Məleykə xanımların fikri və düşüncəsidir: bu tərəfdən baxanda o tərəfi görünür, çünki ortada heç nə yoxdur.

Məleykə xanımlar çoxdur.

Məleykə xanım gözlərini pəncərədən çəkməyib fikirli-fikirli dedi ki, görünür, qatarda sərnişinlərin bir-birini sorğu-suala tutması səbəbsiz deyil: görünür, pəncərənin bu eyni zülməti, bu aramsız hərəkət, təkərlərin bu çıqqaçuku insanlarda bir ünsiyyət ehtiyacı doğurur; görünür, yol insanları tənhalığa aparır, insanlar isə bu tənhalıqdan qaçırlar.

Sonra Məleykə xanım mənə baxdı.

Əlbəttə, mən yenə də danışmaya bilərdim, çünki bu yol – pəncərənin bu eyni zülməti, aramsız hərəkət, təkərlərin bu əbədiymiş kimi çıqqaçuku məni hansı mücərrəd bir tənhalığa isə aparmırdı, aparsaydı da, mən bu tənhalıqdan qaçmazdım. Mən tənhalıqdan qorxmuram. Mən belə fikirləşirəm: tənhalıq – təkbətəklikdir, insanın özü ilə özü arasındakı təkbətəklik; mən bu təkbətəklikdən zövq alıram, çünki mənim ən yaxşı müsahibim mən özüməm; çünki özümdən başqa heç kim məni başa düşməz, necə ki, mən başqalarını özləri kimi başa düşə bilmirəm; tənhalıq deyilən anlayış insan ömrünün tələbatıdır – bunu dərk etmədikdə faciə baş verir, dərk etdikdə isə hər şey öz qaydasına düşür.

Bax, elə Məleykə xanım. Bizim hisslərimizdə, həyəcanlarımızda, düşüncələrimizdə nə yaxınlıq ola bilər – heç nə – biz yadıq. Ümumiyyətlə, hansı mənadasa hamı bir-birinə yaddır və bu yadlığa öyrəşmək lazımdır.

Bu, mənim əqidəmdir ki, başqası ilə söhbətdə heç zaman dərinə getmək lazım deyil, hissləri, həyəcanları başqalarının yanında çılpaqlaşdırmaq lazım deyil, çünki bunun əhəmiyyəti yoxdur, üzdə olmasa da, daxilən sənə gülə bilərlər, ələ sala bilərlər, inanmaya bilərlər – bu hisslər, həyəcanlar, yalnız sənin özünə mənsubdur, onlar həqiqətdə yalnız sənin özün üçün doğmadır.

Bütün bunlara görə də mən Məleykə xanıma cavab verməyə bilərdim, amma onun mənə baxan gözlərində bir istehza hiss etdim, daha doğrusu, bu, istehza deyildi, Məleykə xanım bu baxışlarla elə bil mənim halıma acıyırdı. Bu cür baxışları birinci dəfə deyildi ki, öz üzərimdə hiss edirdim. Nə vaxtsa Səməd də beləcə baxmışdı mənə, nə vaxtsa Bəylər də beləcə baxmışdı mənə, haçansa Nəcibə də, Həsən də, Osman da beləcə baxmışdılar mənə – çox adam. Bu cür baxışlar bir an, cəmi bircə an məni daxilən sarsıdırdı və məndə, bir növ, intiqam hissi oyadırdı, amma mən bu sarsıntının doğurduğu hissin də üstündən ötüb keçirdim, çünki bilirdim – kifayət edər.

Amma indi, necə oldusa, mən həmişəki kimi bu sarsıntının da, bu hissin də üstündən ötüb keçə bilmədim. Heç özüm də bilmirəm niyə bütün həyatım boyu başıma gələn ən qəribə və indiyəcən heç kimə danışmadığım bir hadisəni Məleykə xanıma danışdım. Bəlkə də ona görə danışdım ki, iyirmi metrlik maqnitofon lentinin uzunluğuna heyrət etsin.

Məleykə xanıma dedim ki, Pikassonun «Kasıbların süfrəsi» qrafikası yadınızdadırmı?

Məleykə xanım dedi ki, bəli, yadımdadır, «mavi dövrün» bəhrəsidir: kişi ilə qadın yeməkxananın bir küncündə oturublar, qarşılarında içi boş boşqab, bir tikə çörək, iki stəkan və bir şüşə var; kişi sol əlini qadının çiyninə qoyub, sağ əlini onun qoluna söykəyib; ayrı-ayrı səmtə baxırlar, fikirlidirlər. Sonra Məleykə xanım mənə elə baxdı, yəni ki, indi gördünüzmü «Kasıbların süfrəsi» yadımdadır, ya yox? Mən bu təkəbbürlü baxışları cavabsız qoydum və dedim ki, yaxşı hafizəniz var, tamamilə doğrudur, mən həmin əsəri nəzərdə tuturam.

Bir gün – sentyabr təzəcə girmişdi – evdə köhnə kağız-kuğuzlarımı sahmana salırdım. Bu köhnə kağızlar arasında «Kasıbların süfrəsi»nin nə vaxtsa aldığım bir reproduksiyası gözümə dəydi. Çoxdan idi bu şəkli görmürdüm, bir az baxıb şəkli yazı masamın siyirtməsinə qoydum.

O gün xeyli işim var idi və gecə bərk yorğun idim və yuxum gəlirdi, amma yerimə girən kimi «Kasıbların süfrəsi» birdən-birə gözlərimin qabağına gəldi. Bir az bu şəkil barədə fikirləşdim, sonra fikirləri başımdan eləyib yatmaq istədim, amma yata bilmədim, bu şəkil gözlərimin qabağından getmirdi. Gözlərimi yumurdum, açırdım, yerimdə yüz dəfə o tərəf-bu tərəfə çevrilirdimsə də, «Kasıbların süfrəsi»ndəki kişi ilə qadın bir an belə məndən əl çəkmirdi.

Durub əl-üzümü yudum, eyvana çıxıb bir az təmiz hava aldım, fəqət hamısı əbəs idi, bu iki obraz məni tək buraxmırdı; o gecə bircə dəqiqə belə yuxuya gedə bilmədim. Mənim əzablı günlərim də həmin gecədən başladı.

Oturub işləyəndə də, şəhərə çıxıb gəzişəndə də, kinoya baxanda da, musiqiyə qulaq asanda da – hər yerdə və daima bu iki fiqur gözlərimin qarşısından getmirdi, onların baxışları hər an məni təqib edirdi. Mənə elə gəlirdi ki, onlar bir yerdə oturmuşlarsa da, bu an daxilən bir-birilərindən ayrıdırlar; onlar bir-birilərini sevirdilər, fəqət qarşılarındakı bu süfrə bu sevgini darmadağın edir; vaxtiylə ən yaxın, ən istəkli adamlar idilər, indi isə, hər şeyə olduğu kimi, bir-birilərinə də biganədirlər. Əgər yeməkxananın başqa bir küncündə oturmuş harın bir alverçi bu dəqiqə bu qadına gözü ilə işarə edərsə, o neçə frankdan ötrüsə qalxıb onunla gedər, özü də hissiz, həyəcansız – biganə; kişi isə, qadın getdikdən sonra, ancaq onu edə bilər ki, tanışı qarsona yalvarsın, qarson yenə də ona nisyə ucuz çaxır versin və o içib keflənsin, sonra da başını mizin üstünə qoyub sərxoş-sərxoş ağlasın.

Mən yemək yeyə bilmirdim, mənə elə gəlirdi ki, hər tikəni udduqca, hər qurtumu içdikcə, bu iki insana xəyanət edirəm, çünki mənim üçün onlar artıq bir surət deyil, varlıq idi; mən hər hərəkətimdə – ya bazarlıq edəndə, ya taksiyə minəndə, ya başqa bir iş görəndə – cinayət hiss edirdim və bu hiss, müdhiş hiss vəziyyəti o yerə gətirib çıxartmışdı ki, artıq adam kimi yaşamaq mümkün deyildi.

Bu cür davam edə bilməzdi, nə isə olmalı idi. Bu «nə isə»ni fikirləşdikcə dəhşət məni bürüyürdü. Məni bir xof basmışdı və bu xof bütün içimi, fikrimi, düşüncəmi uçundururdu.

Həmin gün gecə, yəni sentyabrın iyirmi üçündə yerimdə uzanıb əzab çəkirdim, neçə gündən bəri olduğu kimi, yuxuya gedə bilmirdim, mənə elə gəlirdi ki, bu saat nə isə sehrli bir hadisə baş verəcək, məsəlçün, bu saat tavan ikiyə bölünəcək, göydən böyük bir zənbil enəcək, necə olacaqsa mən durub bu zənbilin içində oturacağam və hara isə gedəcəyəm, əbədi gedəcəyəm; bir boşluğa, bir heçliyə gedəcəyəm, «Kasıbların süfrəsi»nin təqibi qovub aparacaq məni; hiss edirdim ki, bu kişinin və bu qadının bu cür baxışları müqabilində mən əvvəlki tək heç nə olmayıbmış kimi yaşaya bilməyəcəyəm.

Qalxıb mizüstü lampanı yandırdım, saat üçə on dəqiqə qalırdı, vanna otağına gedib yuyundum, öz-özümə ürək-dirək vermək istəyirdim ki, keçib-gedəcək, axır vaxtlar çox işlədiyimə görə əsəblərim gərginləşib, müvəqqəti psixoloji sarsıntıdır, bir azdan hər şey öz qaydasına düşəcək, fəqət bir şey çıxmırdı, görürdüm ki, özüm özümü aldadıram.

Zəng səsi eşitdim, bayır qapısının zəngi idi. Zəng bir də çalındı. Uşaqlar oyanmasın deyə cəld qapıya yaxınlaşıb yavaşca soruşdum ki, kimdir?

Çox tanış bir səs cavab verdi ki, mənəm, açın.

Qapını açdım: qarşımda ucaboylu, arıq, qəribə görkəmli bir adam dayanmışdı. Mən onu hardansa tanıyırdım, amma kim olduğunu xatırlaya bilmirdim. Onun başında Çaplinin silindri kimi bir silindr, əynində gödəkcə, boynunda şərf var idi. Nədənsə, mənə elə gəldi ki, bu adam artistdir və elə bil bu hiss, gecə yarısı onun mənim evimə gəlməsini qanunauyğunlaşdırdı.

– Olarmı, müsyö.

– Buyurun, – dedim və onun müraciətində də bir qəribəlik hiss etdim, fəqət bu qəribəlik nədə idi – bilmirdim.

Iş otağımın işığını yandırdım və onunla birlikdə otağa girdim. Ona yer göstərdim, oturdu və mən qəflətən, bu adamın kim olduğunu tanıdım. Məni soyuq tər basdı: bu adam «Kasıbların süfrəsi»ndəki kişi idi.

Gözlərimi ona zilləmişdimsə də, heç nə barədə fikirləşmirdim, heç nə düşünmürdüm, çünki fikirləşmək, düşünmək bacarığında deyildim. O, qeyri-adi dərəcədə uzun barmaqlı, qupquru – sümük və dəri – əlini mənə uzatdı:

– Biz bir-birimizi tanısaq da, şəxsən tanış deyilik. Mənim adım Etyen Rasnyordur, müsyö.

Ovcumdakı bu əl məni özümə gətirdi: bu, şeytan əli deyildi, bu, insan əli idi və bu əlin sahibi möcüzələr aləmindən gələ bilməzdi; bu qupquru əldə bir insan hərarəti, insan iztirabı, həyəcanı duydum və bu duyğu məni nisbətən sakitləşdirdi.

O, silindri başından çıxartdı, sonra qupquru almacıqlarını ovuşdurub sinədən gələn kal bir səslə dedi:

– Müsyö, mən üzr istəyirəm ki, gecə vaxtı sizin istirahətinizi pozdum, amma bu saat elə bir vəziyyətdəyəm... – O, uzun barmaqlarını sındıra-sındıra çox çətinliklə danışırdı, hiss olunurdu ki, həyəcanlıdır. – Bilirsinizmi, müsyö, Tereza əbədi olaraq məndən ayrılır... O bunu demir, bəlkə də heç bilmir, lakin mən hiss edirəm, müsyö, bütün dəhşəti ilə hiss edirəm...

Onun sözünü kəsmədim, mənim üçün aydın idi ki, Tereza yeməkxanada onunla birlikdə əyləşmiş qadının adıdır.

– Hər şeyi sizə ardıcıl söyləyim. Biz, yəni mənimlə Tereza müsyö Pikasso ilə Medrano sirkində tanış olmuşuq. Mən canbazam, daha doğrusu, canbaz idim... – O sol əlini qaldırıb nifrətlə qoluna baxdı. – Lənətə gəlmiş bu qolum sındı, canbazlığım da bununla qurtarıb getdi. Siz mənim bu əyri qolumu görməmisiniz, müsyö Pikasso bu qolumu Terezanın çiyninə qoyub. – Etyen Rasnyor keçən günləri xatırlayırmış kimi gülümsündü, sonra gözlərini qoluna zilləyib bir neçə an susdu.

Mən bu görüşün reallığına artıq qətiyyən şübhə etmirdim, bu, xəstə bir təfəkkürün şairanə uydurması deyildi, bizim bu görüşümüz yuxu da deyildi, mənim qarşımda canlı insan oturmuşdu – cənab Rasnyor. Onun varlığı bir gerçəklik idi ki, necə ki, dünyada mən var idim, necə ki, indi bu saat biz sizinlə qatarda gedirik.

Etyen Rasnyor barmaqlarını sındırırdı. Mən hiss edirdim ki, o, daxili iztirablar keçirir və bu iztirab onu danışmağa qoymur. Bu sıxıntılı sükutu pozmaq üçün soruşdum ki, Azərbaycan dilini haradan bilir.

O, təəccüblə mənə baxıb dedi ki, mən fransız dilindən başqa bir dil bilmirəm.

– Necə başqa dil bilmirsiniz? Məgər siz indi azərbaycanca danışmırsınız?

– Mən fransızca danışıram, müsyö.

– Bəs... mən nə dildə danışıram?

– Siz də fransızca danışırsınız, müsyö, əlbəttə.

Onun təəccübü yalançı təəccüb deyildi və mən hiss etdim ki, onun sözləri də həqiqətdir: biz həramiz öz dilimizlə danışırdıq, fəqət mən onu azərbaycanca eşidirdim, o isə məni fransızca eşidirdi və bizim yanımızda ilahi bir tərcüməçi də yox idi; bu, ilahi bir qüvvə deyil, bizim müvəqqəti ünsiyyətimiz üçün yaranmış bir labüdlük idi.

– Indi neçənci ildir, cənab Rasnyor?

O, yenə də təəccüblə mənə baxdı:

– 1904-cü ilin sentyabrıdır, müsyö.

– Və biz Parisdəyik, elə deyilmi?

– Əlbəttə, elədir, müsyö!

Etyen Rasnyor üçün 1904-cü ilin sentyabrı idi və biz gecə yarısı Parisdə oturub söhbət edirik; mənim üçün isə aydın məsələdir ki, 1968-ci ilin sentyabrı idi, biz Bakıda, mənim otağımda oturub söhbət edirdik və bütün bunlar qanunauyğun bir gerçəklik idi, çünki daxili bir ehtiyac, daxili bir tələbat bizi görüşdürmüşdü.

Etyen Rasnyor çox çətinliklə danışmağa başladı:

– Müsyö, gecə vaxtı istirahətinizi pozduğuma görə, bəlkə də qəzəblənirsiniz, lakin... lakin mənim başqa əlacım yox idi... Mənim üçün Terezasız həyat yoxdur, müsyö... Mən onsuz yaşaya bilmərəm, o isə məndən ayrılır, qeyri-iradi ayrılır... O hələlik cismən mənimlə olsa da, mənən uzaqlaşır, tamam... Bizim güzəranımız onu məndən ayırır, müsyö. Ancaq, xahiş edirəm, məni düzgün başa düşəsiniz və Tereza barədə pis fikirdə olmayasınız. O bezib, başa düşürsünüzmü, artıq hər şeyə biganə olub, onda həvəs ölüb, ölüb, ya da ölməkdədir. O özü də özündən ayrılır, özü özünə xəyanət edir, özü bilmədən edir, müsyö... Mənim bu sınıq qolum...

Etyen Rasnyora qulaq asırdım, fəqət mənə elə gəlirdi ki, bütün bunların hamısını əvvəldən də bilirəm və mən bu əzablı günlər ərzində Etyen Rasnyora əl tutmaq, müvəqqəti də olsa iztirablarını azaltmaq üçün, məhz bu görüşü gözləmişəm; ürəyimə dammış həmin «nə isə»də heç bir müdhişlik yox idi, «nə isə» bizim bu görüşümüz idi.

– Mən hiss edirəm ki, bütün bunlar müvəqqətidir... Əgər on gün, on beş gün biz insan kimi yaşaya bilsək, daha həmişə Tereza ilə birgə olacağıq, lap acından ölsək də... Bu, böhrandır, müsyö, müvəqqəti böhran, lakin bu müvəqqəti böhran əbədi olaraq bizi bir-birimizdən ayıra bilər. Tereza da daha əbədi olaraq Tereza olmaz, müsyö, bu ondan asılı deyil...

Bizim evdəki televizorumuz çox köhnə idi: «Temp-2». Köhnə idi deyəndə, indi də elə həmin televizordur. Yoldaşımla birlikdə bir az pul düzəltmişdik ki, nəhayət, bu televizoru dəyişək, daha uşaqlar futbola baxmaqdan ötrü qonşulara qaçmasın. «Elektron-2» almaq istəyirdik. «Elektron-2» dörd yüz neçə manatadır. Pul mənim yazı masamın siyirtməsində idi. Qalxıb pulun hamısını götürdüm və dinməzcə Etyen Rasnyora uzatdım. O yenə də çox çətinliklə dedi:

– Mən məğrur adamam, müsyö... Siz hələ məni yaxından tanımırsınız. Müsyö Pikasso çox gəncdir, onun cəmi iyirmi üç yaşı var, Ispaniyadan yenicə gəlib... O bizim dostumuzdur, lakin lap dərindən tanımır bizi... Mən məğrur adamam, müsyö, ancaq mən bu pulları sizdən götürəcəyəm, özü də borc kimi götürəcəyəm. Mən bunu Tereza üçün edirəm, Terezanın öz-özünə xəyanət etməməsi üçün. Siz mənə bir dilənçi kimi baxmayın, müsyö. Bu mənim borcumdur.

O, pulları cibinə qoydu. Mən ona manat vermişdim, o isə, şübhəsiz ki, cibinə frank qoydu. Sonra ayağa qalxdı. Silindri başına qoydu. Heç bir söz demədən qupquru əli ilə əlimi sıxdı, bir dost kimi sıxdı və cəld addımlarla otaqdan çıxdı.

Etyen Rasnyorun ardınca bayır qapısını bağladım və otağa qayıtdım.

Bəlkə Etyen Rasnyor, doğrudan da, məğrur adamdır və bu pulları məndən qəbul etmək onun üçün ən əzablı bir iş idi. Əgər bu cürdürsə, eşq olsun Etyen Rasnyora, o, başqa insan üçün öz məğrurluğunu belə qurban verir – hər adam buna qadir deyil.

Bəlkə Etyen Rasnyor utandığı üçün belə deyirdi, o, məğrur deyil, bu pulları alıb cibinə qoyarkən sevinc içində idi, bəlkə ürəyində mənim sadəlövhlüyümə gülürdü də – insanları tanımaq olmur. Əgər həqiqət beləydisə də, mən təəssüflənmirdim, çünki mən «Kasıbların süfrəsi»nə baxdığım gündən özüm də bilmədən bu görüşün həsrətində idim və hərgah Etyen Rasnyor bu gecə mənim otağıma gəlməsəydi, bəlkə mən də öz əvvəlki «mən»imdən əbədi uzaqlaşacaqdım; öz iradəmin gücünə, öz həyat eşqimin gücünə həftələrdən, aylardan, lap illərdən sonra, «Kasıbların süfrəsi»ni başımdan çıxaracaqdım, rahatlaşacaqdım və bununla da özüm özümə xəyanət edəcəkdim.

Qeyri-iradi mizə yaxınlaşıb «Kasıbların süfrəsi»ni götürdüm və baxdım və... elə bil ürəyim dayandı. Etyen Rasnyor ilə Tereza dünyanın ən xoşbəxt adamıydı: qucaqlaşmışdılar. Gülürdülər, bir-birini sevirdilər və həmişə də sevəcəkdilər: qarşılarındakı süfrə elə bol idi ki, nə desən, varıydı – toyuqdan tutmuş əla şəraba kimi.

Pikassonun bu rəsmi yalnızməndədir, mənim köhnə reproduksiyamdan başqa heç kimdə belə bir şəkil yoxdur. Bütün başqa köçürtmələrdə «Kasıbların süfrəsi» əslində olduğu kimidir. Mənim köçürtməm isə bir nüsxədir.

Əslində bu, Pikassonun rəsmi deyil.

Bu rəsmi bizim – mənim və Etyen Rasnyorun – gecə görüşü yaratmışdı.

Mən bu hadisəni heç kimə danışmamışam, çünki bunun əhəmiyyəti yoxdur; çünki heç kim buna inanmaz; çünki insanın ən böyük sirdaşı, ən yaxşı müsahibi, insanın hiss-həyəcanları üçün ən doğma adam özüdür. Mən bu hadisəni öz yoldaşıma belə danışmamışam. «Elektron-2»nin pulunun necə olması barədə bir əhvalat quraşdırıb demişəm və o inanıb.

Ən yaxın insanlar belə yalana daha tez inanırlar, çünki əslində özlərindən asılı olmayaraq onlar yaddırlar.

Indi görürsünüzmü iyirmi metrlik maqnitofon lenti bir o qədər də az deyil. Əlbəttə, Məleykə xanım, siz də indi ürəyinizdə mənə inanmırsınız, bəlkə də məni lap xəstə hesab edirsiniz, amma mən o köçürtməni özümlə götürsəydim, sizə göstərərdim və siz də buna inanardınız. Mən sizə söz verirəm ki, Bakıya qayıdandan sonra bir dəfə həmin köçürtməni sizə göstərəcəyəm, hərçənd indiyə qədər heç kimə göstərməmişəm.

Məleykə xanım güclə pıçıldadı:

– Mən sizə inanıram.

Məleykə xanım bu sözləri çox qəribə tələffüz etdi və mən yalnız indi hiss etdim ki, Məleykə xanım özündə deyil, elə bil daxili bir sarsıntı içindədir və elə bil bu sarsıntı onun bütün bədənini uçundururdu. Bu, yalnız mənim danışdığım hekayətin təsiri deyildi.

– Mən sizə inanıram. Göstərməsəniz də inanıram. Siz... siz Laturun «Müqəddəs Sebastyan üçün ağlayan müqəddəs Irina» əsərini xatırlayırsınız, elə deyilmi?

Mən əvvəlcədən nə isə tükürpədici bir şey hiss edirəmmiş kimi dedim ki, bəli, xatırlayıram.

Mən, doğurdan da, Laturun çəkdiyi bu şəkli xatırlayırdım: gecənin qaranlığı içində bir məşəltək yanan şam işığında köksünə ox sancılmış müqəddəs Sebastyanın cəsədi qarşısında ağlayan dörd qadın fiquru.

– Siz xatırlayırsınızmı... xatırlayırsınızmı Sebastyan necə də narahat yerə sərilmişdi... Onun vəziyyəti necə də qeyri-təbii idi... Bu qeyri-təbiilik necə də əzablı idi... Bu əzablı ölümü xatırlayırsınızmı?.. Indi... məndəki köçürtmədə belə deyil... Mən... mən... Sebastyanın köksündəki oxu çıxartmışam. Budur.

Məleykə xanım həyəcandan titrəyən əllərilə tələsik yol çantasını açdı və təxminən qarışyarımlıq bir ox çıxartdı. Bu, kiçik olsa da, həqiqi ox idi. Bu, həqiqətən, müqəddəs Sebastyanın köksündən çıxarılmış ox idi – bunu bütün varlığımla hiss etdim.

Mən də sizin kimi əzab çəkirdim, bu şəklin köçürtməsinə baxandan sonra sizin kimi özümə yer tapa bilmirdim. Mən... mən dəhşət içində idim. Sebastyanın narahat bədəni, onun bu cür qeyri-təbii ölümü bircə an belə gözlərimin qabağından çəkilmirdi. Bir gecə mən... yerimdən qalxıb heç özüm də bilmədim ki, necə oldu əlimi həmin köçürtməyə atdım və Sebastyanın köksündəki oxu çəkib çıxartdım... Indi məndəki şəkildə Sebastyan o cür narahat deyil, bədəni də əzab içində qovrulmur, köksündəki oxun yeri də qalmayıb... Mən bu əhvalatı indiyəcən heç kimə danışmamışam. Bu oxu da həmişə özümdə gəzdirirəm. Qorxuram yoldaşım görər, mən isə onu başa sala bilmərəm. Bu oxu tullaya da bilmirəm, mənə elə gəlir ki, əgər oxu tullasam nə isə ən ali, ən ülvi bir şeyə xəyanət edərəm...

Məleykə xanım oxu çantaya qoydu və havasızlıqdan darıxırmış kimi qalxıb kupedən çıxdı.

Mən özümü çox sakit hiss edirdim, ürəyim də döyünmürdü, gözlərim də qaralmırdı, məni soyuq tər də basmırdı, fəqət mənim beynim çatlayırdı, beynim az qalırdı dağılsın.

Nə üçün mən öz həyat yoldaşıma yalan quraşdırıb deyirəm? Mən sadəcə olaraq hər şeyi ona danışa bilərdim və o da, sadəcə olaraq, hər şeyi başa düşə bilərdi. Bəlkə mənim bu söhbətim onun üçün də, Məleykə xanım kimi, doğma olardı, bəlkə onun da başına elə bir iş gəlib ki, heç kimə danışmır, mənə də danışmır, elə bilir ki, onsuz da, heç kim inanmayacaq?

Nə üçün Məleykə xanım bu oxu həmişə özüylə gəzdirir, nə üçün qorxur ki, əri görər və o, ərini başa sala bilməz. Bəlkə onun ərinin başına daha qəribə bir iş gəlib və o da indiyə qədər bunu heç kimə danışmayıb?

Günlər, aylar, illər keçəcək. Məleykə xanım bu balaca oxu özüylə gəzdirməkdən bezəcək, tullayacaq bu oxu zibil yeşiyinə, xəyanət edəcək Məleykə xanım, çünki o, bu oxu heç kimə göstərə bilmir. Nə üçün?

Nə üçün bizə elə gəlir ki, ən yaxşı müsahibimiz, ən yaxın, doğma adamımız özümüzük?

Sonra Məleykə xanım kupeyə girdi. Bir azdan mən yerimə qalxıb bu sualları başımdan elədim və yatdım.

*Dekabr, 1968.*

## BEŞ QƏPIKLIK MOTOSIKL

Tolik soruşdu ki, dağ papiros çəkər? Dedim ki, yox, papirosu adam çəkər. Dedi ki, düz demirsən, meymun da papiros çəkir, özüm televizorda görmüşəm. Dedim ki, meymunu da adamlar öyrədib papiros çəkməyə. Mən soruşdum ki, axı, nə dağbazlıqdır salmısan, dağ niyə papiros çəkməlidir? Əlini uzadıb dedi ki, ode, bax də, görmürsən dağ papiros çəkir?

Doğrudan da, əcəb papiros çəkirdi Qafqaz sıra dağları: buludlardan qullab-qullab alıb üzük-üzük buraxırdı başının üstündən.

– Papa, gördün?!

Tolik yüz faiz qələbə qazanmışdı – dağları da adam öyrədə bilməzdi ki, papiros çəksin, dağ nə boyda, adam nə boyda – indi gəl yaxanı Tolikin əlindən qurtar görüm necə qurtarırsan; ay bacardın ha!

– Papa, gördün?!

Axırı ki, birdəfəlik mənə «papa» dedi, «ata»nı tulladı bir tərəfə, necə ki, mən birdəfəlik «Təhməz»i tullamışam, «Tolik» deyirəm. Bir də ki, nə fərqi var, guya, «Təhməz» deyəndə nə olacaqmış.

– Papa, görmürsən bəyəm?!

Əlbəttə, mən desəydim ki, görürəm, o saat soruşacaqdı ki, bəs, necə olub adamlar dağa papiros çəkmək öyrədib, dağların bəyəm ağzı var papiros çəksin, hansı papirosdan çəkirlər və s. Dedim ki, gedək qayıq götürək, göldə avar çəkək özümüzçün, kef eləyək. O saat papiros çəkən dağı yadından çıxartdı, əlimdən tutub gölə tərəf dartdı, sonra birdən dayandı ki, axı, mamam deyib gölə getmək olmaz. Dedim ki, elə edərik maman bilməz, heç birimiz ona deməzik.

Sürəyya şübhəsiz biləcək – Tolik özünü saxlaya bilməyib, həmişəki kimi, ona deyəcək – Sürəyya da həmişəki kimi, düşəcək üstümə ki, indidən uşağın tərbiyəsinə xələl gətirirsən, onu saxtakarlığa öyrədirsən, mən deyirəm ki, gölə getmək olmaz, xatadır, sən aparırsan, bütün pedaqoji metodlara biganəsən, çünki siniqsən. Mən ha, mən siniqəm. Təbrik edirəm səni, yoldaş sənətşünaslıq namizədi Sabir Məlikov, daha məqalələrinin altında camaatın gözünü döyənək eləmiş imzadan yaxanı qurtara bilərsən, Sabir Məlikov yox, təxəllüslə: Sabir Siniq.

Əlbəttə, bütün bu boş şeyləri öz-özümə fikirləşirəm, Sürəyyaya belə şeyləri demək olmaz, mənası da yoxdur, çünki cavabı əvvəlcədən məlumdur: «Radi boqa, ne ostroumniçay, ne podxodit».

Saatımı bilet köşkündə girov qoyub qayıq üçün nömrə götürdüm: 13. Çox rəmzi nömrədir. Niyə rəmzidir – orasını Allah bilir, mənim indi dərinliyə getməyə həvəsim yoxdur, nə həvəsim, nə də imkanım; imkanım niyə – bunu da Allah bilir.

Bu yay ilk dəfə idi göldə avar çəkirdim, ilk dəfə deyəndə ki, cəmi bir həftədir gəlmişik Kislovodska, amma elə bil bir həftənin özündə də birinci dəfə avar çəkmək bir o qədər çox deyil, çünki yaşadığımız «Avtopansionat» bu süni gölün kənarındadır.

Əvvəllər gündə neçə dəfə avar çəkərdim bu göldə, hələ heç pansionatda yaşamadığım vaxtlar, atamgillə gəldiyimiz yaylar, o vaxtlar ki, hələ Tolik dünyada yox idi və mən də kulturizmlə məşğul olmaq istəyirdim, hərçənd içindən bir şey çıxmadı.

Bir vaxt var idi, Tolik dünyada yox idi, heç kim bilmirdi ki, belə bir adam olacaq dünyada, mən var idim, indi Tolik də var; bir vaxt mən olmayacağam dünyada və bir vaxt Tolik də olmayacaq dünyada.

Tolik soruşdu ki, bəyəm mamam sənə deməyib fit çalma? Dedim ki, deyib, əlbəttə. Soruşdu ki, bəs, niyə fit çalmağa başladın? Dedim ki, üzr istəyirəm. Xoşbəxtlikdən soruşmadı ki, üzr istəyirəm nə deməkdir; yəqin əvvəllər soruşub, başa salmışam.

Sonra sahildəki taxta çətirləri göstərib soruşdu ki, papa, onlar nədir elə? Əlbəttə, desəydim ki, adamlar gündən qorxurlar, gedib o çətirlərin altında otururlar, soruşacaqdı ki, adamlar niyə gündən qorxurlar, desəydim ki, gün adamı yandırır, soruşacaqdı ki, niyə və s. Soruşdum ki, indi soyunub bu suda çimərdin, ya yox? O saat taxta çətirləri yadından çıxardıb başını tərpətdi – yəni ki, yaman çimərdim – amma yaman da məlul-məlul tərpətdi, çünki bilirdi ki, real söhbət deyil bu.

Sürəyya ilə də ilk dəfə, bax, həmin sahildə görüşmüşdük, yeddi il bundan əvvəl. Nazik, hündür qız idi onda Sürəyya, iri, göy gözləri var idi. Elə deyirəm, elə bil indi gözlərinin rəngi dəyişib; indi də iri, göy gözləri var Sürəyyanın. Onda da atasıgillə bu pansionatda yaşayırdı, mən atamgilin şəhərdə kirayə tutduğu evdə qalırdım. Indi mən də hər yay bu pansionata düşürəm: düz altı ildir ki, hər yay ay yarım bu pansionatda yaşayıram – bir ay məzuniyyətim, yarım ay da öz hesabıma. Gələcəkdə bir memorial lövhə vurmalıdırlar «Avto-pansionat»ın qabağına: görkəmli sənətşünaslıq namizədi Sabir Siniq altı il yay aylarını burada yaşamışdır. Altından da doğulduğum və öldüyüm il: (1937-19 filanıncı il). Niyə min doqquz yüz filanıncı il, bəlkə iki mininci ilə qədər yaşayacağam?

Bu yay yalnız özümüz gəlmişik, yəni mən, Sürəyya və Tolik. Sürəyyanın atasıgil Bakıda qalıblar, kiçik oğlanları Dəmir bu il instituta girir. Bizimkilər Buzovnadakı bağımızda qalmalı oldular. Biz də gəlib yenə pansionata düşdük. Bayaq Sürəyyaya da cavab teleqramı vuranda yaxşı eləmədim deyəsən, necə olsa da, matəmdədir.

Səhər Sürəyyadan teleqram gəldi, indi də cibimdədir: Priletela bloqopoluçno tçk zdes ujasno tçk posle zavtra budu tam tçk Çeluyu vas tçk jdu vaşeqo otveta = Sura mama.

Iki müəllifin ikisi də Sürəyya özü idi: biri, yəni Sura, mənim üçün nəzərdə tutulmuşdu, ikincisi, yəni mama, Tolik üçün, hərçənd bu teleqramdan Tolikin xəbəri yoxdur. Xəbər tutsa, başlayacaq sorğu-suala, mən də heç vaxt onu başa sala bilməzdim ki, tetya Fira, yəni Firəngiz ölüb. Necə yəni ölüb?

Bu «Avtopansionat»ın rəisi mən gözümü açandan yüz ildir ki Iosif Samoyloviç Bass adında kürən bir kişidir. Yüz ildir ki də, üzündəki eyni təbəssümlə, eyni məlul hərəkətlərlə, həmişə bir şey uman gözlərilə gələnləri qarşılayır, gedənləri yola salır. Mən də bayaq nahardan sonra Toliklə poçta girib Sürəyyaya belə bir cavab fototeleqramı vurdum:

Köhnə hamam, köhnə tas,
Köhnə pansion, köhnə Bass.

Oxuyub yəqin deyəcək ki, əlbəttə, siniqlər bundan artıq nəyə qadir ola bilərlər. Öz-özünə deyəcək, ikimizin söhbətini başqasının yanında edən deyil, lap atası olmur, anası Müşgünaz xanım olsun.

Yaxşı eləmədim, necə olsa da, Sürəyya matəmdədir.

Bayaq qayıqdan ötrü girov qoyduğum saatın yeri biləyimdə ağappaq ağarırdı; saat yoxdur, yeri ağarır. Firəngiz də ölüb, Firəngiz də yoxdur. Hər şey əvvəlki kimidir, həmin od, həmin hava, həmin torpaq, həmin su, təkcə Firəngizin kiçicik yeri boşdur, amma bunun nə oda, nə havaya, nə torpağa, nə suya dəxli var, bunun heç nəyə dəxli yoxdur; əgər köşkdə biletsatan arvad saatımı itirsə, bir neçə gün saatsız qalsam, gün bu ağappaq ağaran yeri elə qaraldacaq ki, heç ruhu da inciməyəcək; Firəngizin də yoxluğu yox olub gedəcək tədricən. Niyə? Niyə? Niyə?

Tolik yenə sahildəki taxta çətirləri göstərib soruşdu ki, papa, onlar nədir elə? Mən də dedim ki, istəyirsən sən də gəl otur yanımda, yapış avarların birindən, birlikdə avar çəkək. Tolikin gözləri güldü, bic-bic güldü, elə bil başa düşdü ki, sualını azdırıram, sonra əlimdən yapışıb gəlib yanımda oturdu və birlikdə avar çəkməyə başladıq.

Tolikin gözləri Müşgünaz xanımın gözlərinə oxşamışdı.

Süni gölün süni sahilindəki taxta çətirlər bu süniliyin rəmziymiş kimi bir-birlərinin dalınca düzülmüşdülər, arxada isə Qafqaz sıra dağları görünürdü və bu təzad elə idi ki, elə bil Qaçaq Kərəm əlinə portfel alıb nəşriyyata gedir.

Bir dəfə – deyəsən, keçən il idi – Kislovodskinin parkında gəzişəndə Sürəyya ayna kimi şəlaləni göstərib dedi ki, necə də gözəldir, çayın qabağını necə də məharətlə kəsib şəlalə düzəldiblər. Mən də dedim ki, çox gözəldir, elə bil Koroğlu əlinə çətir götürüb yağışdan qorunur. Sürəyya da o saat bikeflədi, dedi ki, bütün ili işləyib pul düzəldirik, istirahətə gəlirik, amma burada da hər bir gözəlliyə, hər bir ürəkaçan şeyə göz yumursan, istehza edirsən. Əlbəttə, mən Sürəyyanı başa sala bilməzdim ki, qarşısı süni surətdə kəsilib süni surətdə ayna – şəlalə düzəldilmiş çay heç vaxt mənim ürəyimi açmaz, əgər əksinə deyilsə. Başa sala bilməzdim, ona görə ki, axı, şırhaşır axan dağ çayının kənarında da Sürəyya məni «gözəlliyə, ürəkaçan şeylərə» göz yummaqda təqsirləndirib, haqqı da olub, amma yəqin məsələ burasındadır ki, mən təbii bir şeyə də süni sevinə bilmirəm; mən özüm özümü sevindirə bilmirəm, bax, bunu başa sala bilmərəm Sürəyyaya, çünki heç özüm də başa düşmürəm ki, bu nədir.

Tolik dedi ki, qoy indi də o biri tərəfinə keçim, o biri avardan yapışım. Onu sağ tərəfimə keçirtdim – sərçə ağırlığındadır, bir qaşıq süd içsin deyə, yüz cür pəstahadan çıxıram: banlayıram, donbalaq aşıram, gözlərimi çəpləşdirirəm və s. Sürəyya da özünü saxlaya bilməyib gülür ki, sən gərək teatrdan yazmaqla məşğul olmayaydın, teatrda oynayaydın. Bu zaman, yəni Toliki yedizdirdiyimiz vaxtlar Firəngiz də bizdə olanda, o da, gülürdü, deyirdi ki, hamı elə bilir Sabir duzsuz adamdır, quru adamdır, day bilmirlər ki, təkcə elə Sabirin Toliki yedizdirməyinə tamaşa etsən, kifayətdir, gedib sirkdə Oleq Popova baxmasan da olar.

Indi Firəngiz daha heç vaxt gülməyəcək, heç vaxt mənim Toliki yedizdirməyimə baxmayacaq, heç vaxt Oleq Popovu misal gətirməyəcək. Niyə? Sadəcə olaraq ona görə ki, o ölüb.

Bir vaxt mən də heç zaman avar çəkməyəcəyəm, bu süni göl ilə Qafqaz dağlarının təzadını əlində portfel nəşriyyata gedən Qaçaq Kərəmə oxşatmayacağam; bir vaxt Tolik də heç zaman avar çəkməyəcək; bir vaxt Tolikin oğlu da heç zaman avar çəkməyəcək; bir zaman Tolikin oğlunun oğlu da heç zaman avar çəkməyəcək və bəlkə o, heç mənim adımı da bilməyəcək.

Tolik dedi ki, fit çalırsan? Mən də dedim ki, gəl o körpünün altından keçək. Tolik yenə Müşgünaz xanım kimi gülümsəyib dedi ki, keçək.

Tolik mənim oğlumdur, amma Müşgünaz xanım kimi gülümsəyir, Tolikin nəvəsində də məndən nə isə olacaq, amma bunun mənası yoxdur.

Dünən səhər Müşgünaz xanım Sürəyyaya teleqram vurmuşdu ki, Firəngiz ölüb. Sonra Sürəyya telefonla sifariş eləyib anası ilə danışdı. Müşgünaz xanım dedi ki, Firanı avtobus basıb, elə o dəqiqə ölüb, avtobus alma kimi əzib yazıq Firanı, sonra da dedi ki, Bakıda cəhənnəm istisi var, sabah da Dəmirin birinci imtahanıdır.

Sürəyyanın az qalırdı ürəyi getsin, güc-bəla ilə sakitləşdirdim, həm də özü sakitləşdi ki, Tolik qorxar. Sonra Sürəyya üçün təyyarəyə bilet aldım və dünən gecə Sürəyya Bakıya uçdu.

Fira birinci sinifdən axırıncı sinifə kimi Sürəyya ilə bir yerdə oxumuşdu, Tibb Institutunda da birinci kursdan axırıncı kursa kimi bir qrupda oxumuşdular, bir yerdə də işləyirdilər: Onkologiya, Rentgenologiya və Radiologiya Institutunda; Tolik bu institutun adını daha dəqiq bilir.

Fira Sürəyya ilə yaşıd idi: ikisinin də iyirmi doqquz yaşı var idi. Fira ilə aramız açıq idi: o məni Oleq Popovdan üstün tutduğu kimi, mən də ona söz vermişdim ki, ürəyini sıxmasın, Tolik böyüyəndə onu alacağam Tolikə, daha qoca qız olub qalmayacaq ömrünün axırına qədər. Sürəyya həmişə ikilikdə mənə deyirdi ki, kobud zarafat edirsən Firayla, mən də deyirdim ki, zarafat etmirəm, doğru deyirəm, həqiqətən, onu alacağam Tolikə. Fira özü inciməzdi, incisəydi, hiss edərdim.

Fira ərə getməmişdi; ona görə yox ki, istəyən olmamışdı, ona görə ki, istədiyi olmamışdı – özü belə deyirdi, ona inanmaq da olardı, çünki çox yaraşıqlı idi, amma, həmişə mənə elə gəlirdi ki, indi də mənə elə gəlir ki, o kimi isə istəyir, gizli-gizli istəyir, xısın-xısın. Bir dəfə özünə də demişdim və o qızarmışdı, hərçənd zarafata salıb güldü ki, düz tapmısan, amma nahaq indidən qısqanırsan, Tolik böyüyənə kimi unudacağam o pünhan sevgilimi, çıxıb gedəcək işinin dalınca.

Bəlkə məni sevirdi Fira?

Tolik dedi ki, yenə başladın fit çalmağa? Mən də dedim ki, üzr istəyirəm, sonra saata baxmaq istədim ki, qayığın prokat vaxtına nə qədər qalıb; saatın yeri ağappaq ağarırdı; indi gedib saatı alacaqdım və hər şey öz qaydasına düşəcəkdi.

Firəngizin yeri isə həmişə boş qalacaqdı. Həmişə yox, gün qaraldanacan.

Bir qadın yavaş-yavaş avar çəkərək sol tərəfimdən ötdü; soyunmuşdu, yaxşı çimərlik kostyumu var idi, özü də yaxşı idi: burnunun üstünə bir yarpaq yapışdırmışdı ki, gün yandırmasın. Bu yarpaq Leoxarın Belvederli Apollonundakı yarpaq kimi idi, amma o yarpaq Apollonun ayıbını örtürdü, bu yarpaq bu qadının burnunu, gülmək məni tutdu. Qadın da mənim gülməyimi yəqin öz bildiyi kimi yozdu və yaşıl gözləri gülümsədi, amma bir az irəliləyib sağ böyrümdəki Toliki görən kimi gülüşü də silindi, elə bil bir az hirsləndi də, guya ki, təhqir olunmuşdu; becid-becid avar çəkib aralandı.

Tolik dedi ki, mamama deyəcəyəm başqa arvada baxıb gülürdün. Mən də dedim ki, onda maman da bilər sən göldə üzmüsən. Tolik dedi ki, mən heç nədən qorxmuram. Mən də dedim ki, mən də heç nədən qorxmuram. Tolik dedi ki, sən qorxursan. Mən təəccüb etdim ki, görəsən, nədən qorxuram? Tolik dedi ki, bude, gör məni necə özünə sıxmısan, qorxursan ki, mən suya düşərəm, boğularam.

Əvvəllər – hələ dil açmamış – mən elə bilirdim ki, Tolik bəstəkar olacaq, dil açandan sonra dedim yəqin yazıçı olacaq, amma deyəsən, nə bəstəkar olacaq, nə də yazıçı, məntiq müəllimi olacaq.

Doğrudan da, əgər Tolik sürüşüb suya düşsə, boğulsa, mən də yaşaya bilmərəm, mən də ölərəm. Indi mən nədən qorxuram: Tolikin boğulacağından, ya özümün ölməyimdən?

Fakt budur ki, qorxuram, düz deyir.

Yox, Fira heç zaman məni sevə bilməzdi. Fira cəsur idi. Firanın idealı da cəsur idi, cəsur ideal. Mən cəsur deyiləm.

Cəsur olmamağımı nədən bilirəm? Bəyəm elə bir təsadüf olubmu ki, mənim də cəsurluğuma ehtiyac olsun? Yox, olmayıb belə bir təsadüf. Bəlkə mən də cəsuram? Bəlkə, doğrudan, məni sevirdi Fira? Əgər bilsəydim ki, Fira məni sevirdi, indi onun ölümünə daha artıq yanardımmı? Ümumiyyətlə, yanırammı onun ölümünə?

Yanmaqla heyfsilənmək eyni şey deyil.

Fira cəsur qız idi.

Mən haradan bilirəm ki, Fira cəsur qız idi? Elə bir təsadüf düşmüşdü ki, Fira mənim yanımda öz cəsurluğunu göstərsin? Yox, amma Fira cəsur qız idi.

Bir dəfə Sürəyya mənim yanımda məndən Firaya gileylənəndə Fira çox ciddi surətdə demişdi ki, Sabir göründüyü adam kimi deyil, onda tamam başqa cür adamın potensial aləmi var. Fira səhv etmişdi, amma özü bu cür idi; bu iki Firəngizin ikisi də gözəl idi, ancaq ikinci Firəngiz daha mürəkkəb idi, o cəsurluğu da ikinci Firəngizdə görürdüm, hiss edirdim və ikinci Firəngiz birinci Firəngizdən daha artıq yaxın idi mənə. Mən isə bir nüsxəli Sabirəm.

Tolik dedi ki, bayaqkı motosikldən bizdə də olsaydı, əntiqə olardı. Bayaq nahar üçün şəhərə gedəndə univermağın yanından keçirdik, vitrində qıpqırmızı, nikelli bir motosikl qoymuşdular, Tolik yarım saat dayanıb baxdı, həmin motosikli deyirdi.

Mən ömrümdə motosikl sürməmişəm – sürməmişəm dedim, – ömrümdə heç yerli-dibli motosikldə gəzməmişəm. Uşaqlıqda bir üççarxlı velosipedim var idi, beşinci sinifdə oxuyana qədər eyvanda sürürdüm onu.

Sürəyyanın atasının «Moskviç»i var idi, bura da, yəni Iosif Samoyloviç Bassın hüzuruna da həmişə həmin «Moskviç»lə gələrdik – özü sürürdü; bu il «Moskviç» öz sahibi ilə birlikdə Bakıda qalıb, amma biz yenə bura, yəni «Avtopansionat»a gəlmişik, Iosif Samoyloviç Bassın sayəsində, daha doğrusu, Iosif Samoyloviç Bassa bağışladığımız iki şüşə «Göygöl» konyakının və bir kilo qara kürünün sayəsində kef eləyirik: kenpinqdə ikiyerli xudmani bir evciyimiz var; bu evcik də müvəqqətidir – biz buradan gedənəcən.

Niyə müvəqqəti, bəyəm gələn il gəlməyəcəyik bura? Ömrümüzün axırına kimi gəlməyəcəyik bura?

> Köhnə hamam, köhnə tas,
> Köhnə pansion, köhnə Bass.

Ömrümüzün axırına qədər gəlsək də bura, yenə bu evcik müvəqqətidir.

Nə üçün mən həmişə məhz buraya gəlməliyəm? Nə üçün hər yay eyni evləri, eyni sifətləri: süpürgəçi Lyonya, inzibatçı Jenya, bufetçi Sergey, gözətçi Foma Gerasimoviç, day nə bilim kim... görməliyəm, eyni mənzərəyə tamaşa etməliyəm, hər addımına bələd olduğum yerləri bir də təzədən gəzməliyəm? Bu cür, ya qeyri-bu cür – bunların mənim üçün əhəmiyyətli bir fərqi varmı? Yox... Bəs, niyə indi bu barədə fikirləşirəm?

Hələ institutda oxuyanda Fira ilə Sürəyya səhər-səhər bir-biri ilə dalaşırdılar. Firagil bizdən – bizdən deyəndə ki, Sürəyyagildən; evlənəndən sonra onlarda qalıram – bir az aralı yaşayırdılar, o, səhər instituta gedəndə bizə gəlib Sürəyyanı da götürürdü, birlikdə gedirdilər. Fira hər dəfə yolunu başqa-başqa küçələrdən salırdı, deyirdi ki, hər gün səhər-səhər eyni küçələrlə gedə bilmirəm, zəhləm belə eynilikdən gedir. Yaxın yolu qoyub, az qala, bütün şəhəri fırlanırdı, Sürəyyanı da salırdı dalına. Sürəyya da hər səhər dalaşırdı ki, öz yolumuzla gedək.

Tolik dedi ki, yorulmuşam. Sonra da dedi ki, zəhləm gedir göldən, çünki sən heç nə danışmırsan. Dedim ki, nə danışım? Dedi ki, nağıl danış. Soruşdum ki, Cırtdanın nağılını danışım? Soruşdu ki, Cırtdan kimdir? Dedim ki, heç kim. Dedi ki, «Qar qız» nağılını danış. Dedim ki, sonra danışaram, indi gedək qayığı qaytaraq, yoxsa saatımız orda qalar.

Saat orda qalsa nə olar ki, gün qaraldacaq, yeri bilinməyəcək. Fərqi varmı? Yəni fərqi varmı ki, yeri qalsın, ya qalmasın? Onsuz da, saat ki yoxdur, istəyir yeri görünsün, istəyir yeri görünməsin.

Fira heç zaman məni sevə bilməzdi, çünki mən eyni bir adamla, lap xoşlamadığım bir adamla bir il bir otaqda qalıb heç hara çıxmaya bilərəm, bir il mütəmadi onunla nərd, ya «Duraki» oynaya bilərəm; uduzsam da yandırmaz, udsam da sevindirməz.

Saatı qoluma taxdım. Tolik dedi ki, darıxıram, sən heç nə danışmırsan, mamam da gedib Bakıya mənə babamın «Moskviç»ini gətirsin, amma gəlmir. Tolik, doğrudan da, darıxırdı, çünki Tolikin yerinə olsaydım, mən də darıxardım, hərçənd son dəfə darıxdığım yadıma gəlmir. Yəqin ona görə ki, həmişə darıxdırıcılıq içində olmuşam və bu barədə fikirləşməmişəm – mənası yoxdur, ona görə.

Bəs, niyə indi fikirləşirəm?

Indi ki, fikirləşirəm, qoy lap möhkəm deyim: yoldaş sənətşünaslıq namizədi Sabir Məlikov, bilirsənmi, niyə darıxmırsan, daha doğrusu, darıxmağın yadına gəlmir? Çünki həmişə sükunətin içindəsən, çünki bunun sənin üçün fərqi yoxdur – nə darıxmağın, nə də darıxmamağın.

Bu nə fikirlərdir girir başıma?

Toliкə dedim ki, gedək parkda gəzək, sonra da axşam naharı eləyək. Tolik dedi ki, əvvəlcə gedək yenə «Fantomas»a baxaq, sonra gedək gəzək, lap sonra da yeyək; Fantomas belə gülür: ha-ha-ha. Mən dedim ki, o cür yox, belə gülür: xa-xa-xa. Avtobus dayanacağındakılar dönüb mənə baxdılar. Istədim onlara baş əyim, diqqətlərinə görə təşəkkür edim.

Tolikə yemək yedizdirəndə Fira mənə əl çalardı, mən də qalxıb ona baş əyərdim. Fira deyərdi ki, bilmirəm, bu camaat niyə səni duzsuz hesab eləyir, yenə həvəssiz adam hesab eləsəydilər, deyərdim hə.

Bütün tanışlığımız müddətində Fira birinci və axırıncı dəfə mənə həvəssiz adam dedi və mən, demək olar ki, bütün gecəni Sürrəyyanın yanında qurcalanıb Firanın necə də hədəfə dəydiyinə təəccüb edirdim. Əslinə baxsan, bu mənim üçün bir kəşf idi. Fikirləşirdim ki, həvəssiz adamam ona görə ki, arzusuzam.

Bax, indi bu saat mənim nə arzum var? Birincisi: Sura Bakıdan tez qayıtsın, Tolik darıxır yaman; ikincisi: gələn il yenə bura gələk, buradakı fəaliyyətsizlik mənim üçün gündə yavaş-yavaş beş şüşə yaxşı çaxır içib həmişə samovar kimi dəmdə olmağa bərabərdir – heç nə barədə fikirləşmirsən, hər şeyi başından çıxardırsan; fikirsizlik idilliyası – əgər çox gurultulu demədimsə; üçüncüsü: doktorluq dissertasiyasını yazıb qurtarıb tez müdafiə etmək ki, həm məvacib artsın, həm də yük götürülsün çiynimdən, nigarançılıq qurtarsın; dördüncüsü... Nədir dördüncüsü? Dördüncüsü yoxdur.

Fira heç vaxt məni sevə bilməzdi.

Avtobusda biletsatana on beş qəpik verib iki bilet aldım. Biletsatan pulun qalığını – sarı bir beşqəpikliyi qaytardı. Beşqəpiklik təptəzə idi, çıraq kimi yanırdı. Tolik bu beşqəpikliyi məndən aldı.

Indi Firagildə ara qarışıb, məzhəb itib yəqin, qırğın-qiyamətdir. Üç bacı idilər, ikisi Firadan kiçik, ikisi də ərdə, amma Fira ən qəşəngi idi. Bir də anaları var, Bikə xala, yaxşı düşbərə, qutab bişirir. Atası yoxdur.

Firanın atasına nə olub, nə vaxt ölüb? Indiyə qədər bu barədə heç nə soruşmamışam, indi yadıma düşür. Bəlkə müharibədən qayıtmayıb, bəlkə o da maşın altında qalıb ölüb?

Yeddi il idi, demək olar ki, hər gün Firanı görürdüm, təkcə Iosif Samoyloviç Bassın hüzurunda olduğumuz vaxtlardan başqa.

Tolik dedi ki, bax, əvvəlcə «Fantomas»a gedəcəyik ha. Mən də dedim ki, yaxşı, özü də qorxma, axşam olmamış axşam naharı eləməyəcəyik, axşama da hələ çox qalıb.

Bir dəfə mən birinci kursda oxuyanda Hacıgilə yığışmışdıq – Hacı həmişəki kimi xudmani bir məclis düzəltmişdi; atası tez-tez gedirdi rayona, ev də qalırdı onun ixtiyarında, anası da qulluğunda müntəzir. Dörd-beş nəfər idik, hamımız da bir yerdə oxuyurduq. Birdən Hacı dedi ki, hərə öz arzusunu söyləsin: ən böyük arzusunu. Hərə bir-bir ən böyük arzusunu söyləyirdi, növbə mənə çatanda deməyə söz tapmadım, çox əttökən bir arzu quraşdırıb ekspromt dedim. Dedim ki, mənim də ən böyük arzum budur ki, sizin arzularınız həqiqətə çevrilsin. Hacı durub üzümdən öpdü ki, ən böyük arzu səninkidir. Mən isə özüm öz süni arzumdan utandım, gecə də evdə yatanda arzusuzluq dərdi yuxumu qaçırtdı, cürbəcür fantastik şeylər arzulamağa başladım: öz xalqımın və öz Vətənimin qəhrəmanı olacağam, bütün dərdləri sağaldacağam, elə an olacaq ki, Danko kimi ürəyim əlimdə bərq verəcək və s. Bunlar özü də arzudan daha çox obıvatel xəyallarına bənzəyirdi – özüm çox gözəl başa düşürdüm bunu.

Həvəssizlik arzusuzluqdan gəlir, arzusuzluq biganəlikdən doğur, bəs biganəliyin səbəbi nədir; ancaq odurmu ki, bir vaxt gələcək – hamımız öləcəyik?

Jan Mare birinci dəfə güləndə Tolik həmişəki kimi: «Ux ta...» – deyə içini çəkdi, sonra mənə pıçıldadı ki, görürsən, Fantomas mənim kimi gülür.

Mən də vahimələnərək: «Da, da...» dedim.

Iki-üç ay bundan əvvəl Hacı mənə bir söz dedi, heç yadımdan çıxmır o söz, çünki ən zəhləm gedən sözdür. Küçədə təsadüfən görüşdük, dedi ki, gedək futbola – «Neftçi» ilə «Dinamo» Kiyev oynayırdı. Dedim ki, yox, mən televizorla baxacağam. Hacı da mənə baxıb dedi ki, nə olub belə, səni əməlli-başlı ətalət basıb, bir az özünü silkələ.

Yaman hirslənmişdim Hacıya, amma elə bil kim isə içimdən mənə deyirdi ki, heç hirslənib-eləmə, belədir ki, var.

Axı, niyə, nə səbəbə məni ətalət basmalıdır?

Ətalətin səbəbi mənasızlıqdır, heç nədə məna görməmək.

Ilk dəfədir Kislovodskda belə şeylər barədə fikirləşirəm, ətalət kimi mücərrəd anlayışların sosioloji köklərini aramağa cəhd edirəm – əhsən mənə, həm bu fikirlərə görə, həm də bu gurultulu cümlələrə görə; amma de Fyunesin göz-qaşla danışmasına tamaşa etsəm, hamısından yaxşıdır.

Tolik kimi gülə biləydim. Bax, bu da bir arzudur, dördüncü arzu.

Tolik kimi gülə bilmərəm ona görə ki, Tolik hər şeyi həqiqət kimi qəbul edir – bu, onun üçün xoşdur və belə bir hal yaşdan asılı deyil; ola bilsin ki, Tolik mənim də yaşıma gələndə beləcə səmimi, ürəkdən gülsün, hər şeyi yenə də həqiqət kimi qəbul etsin, çünki bu onun üçün xoşdur, bu onun həyatını mənalı edir. Mən isə hər bir həqiqətdə bir yuxu qarışığı görürəm, yəni bu həqiqət mənasızlıq çalarlı olur.

Dostum sənətşünaslıq namizədi, yaxşısı budur dinməz-söyləməz otur və de Fyunesə tamaşa et. Tamaşa et, əzizim Sabir, bu məlumdur ki, Isgəndərə qalmayan dünya sənə də qalmayacaq və bu da məlumdur ki, sənin etirazın dünya gerçəkliyi müqabilində bir heçdir.

Kefli Isgəndər də deyirdi ki, mən bir heçəm.

Bir dəfə boz payız idi, işdə oturub pəncərədən çölə baxırdım, bədlik basmışdı məni. Otaqda mən idim, bir də qoca sənətşünas var, özü də vurandır yaman – Kamal Əcəlsiz təxəllüslü – o idi. Mənə baxıb dedi ki, bu boz həyata nə tamaşa edirsən belə, qanını da qaraldırsan, gəl sənə elə bir mehrab göstərim ki, üzünü çevir ona mənim kimi, həmişəlik. Sonra da bir naməlum rəngli köhnə portfeli var idi, açıb içindən yarımlitrlik «Moskovski» çıxararaq mənə göstərdi, yenə «Moskovski»ni portfelinin içində gizlədib çox ciddi surətdə gözlərini mənə zillədi. Mən də dedim ki, yox, Kamal Əcəlsiz, o mehrabın qabağında durub namaz qıla bilmərəm. Dedi ki, özün bil, mən sənə yol göstərdim, borcum idi, sonra da gözlərini zillədi qarşısındakı köhnə əlyazmasına.

Mən ona görə belə cavab verdim ki, araqdan zəhləm gedir, çünki araqda da bir məna görmürəm, ikincisi mənim ailəm var, Toliki böyüdüm gərək.

Bax, bu da beşinci arzu: Toliki böyüdüb boya-başa yetirmək.

Maraqlı olardı ki, bu saat durub gedib telefonxanadan Hacıya zəng edəsən, salamsız-kəlamsız soruşasan ki, yadına gəlirmi, bir dəfə sizdə oturmuşduq, dörd-beş nəfər idik, bir-bir arzunuzu söylədiniz, mən də ən böyük arzumu söylədim ki, sizin arzularınız həqiqətə çevrilsin, indi nə oldu. Həqiqətə çevrilibmi o arzularınız? Yəqin elə bilər ki, dəm-zadam, ya da soruşar ki, hansı arzular idi biz söylədiklərimiz? Mən də deyərəm ki, deməli, boş arzular imiş o arzular, çünki yadınızdan çıxıb artıq, özünüz özünüzü aldadırmışsınız, deməli, həqiqətə çevrilməyib o arzular; bir də ona görə həqiqətə çevrilməyib o arzular ki, mənim arzum yalançı arzu idi, yəni mənim elə bir arzum yox idi ki, sizin arzularınız həqiqətə çevrilsin.

Deməli, heç birimizin arzusu həqiqətə çevrilməyib: bəs niyə mən sizin kimi deyiləm, niyə sən futbola stadionda baxırsan, mən televizorda, niyə sənə elə gəlir ki, məni ətalət basıb, amma mən səndə bir nikbinlik, bir enerji görürəm, niyə Fira mənə həvəssiz adam deyir, mən ki, Oleq Popovu əvəz edə bilirdim onun üçün?

Ona görə mən siz deyiləm ki, o zaman sizin arzularınız həqiqi arzular idi, hərçənd özünüz özünüzü aldatmadığınıza inanırdınız, mənim arzum isə yalançı idi.

Ona görə mən siz deyiləm ki, sizin indi də inandığınız və sevdiyiniz arzular var, həqiqi arzularınız, mən isə... Bu gün heç, bu gün bir müstəsnadır; sabah yenə hər şey öz qaydasına düşəcək, sabah gün saatın yerini qaraldacaq, saat olmasa da, vaxt gün-gün, il-il, əsr-əsr keçəcək.

Hər şey insanın özündən asılıdır, insanın həyatı öz əlindədir, özü öz həyatını dəyişdirə bilər – bunlar hamısı yaxşıdır, amma bütün bunlar üçün gərək həvəs olsun, məndə isə belə bir həvəs yoxdur, çünki bunda heç bir məna görmürəm və bütün bunlar barədə də fikirləşmirəm; fikirləşmirəm ona görə ki, hər gün Firəngiz ölmür.

Tolik dedi ki, heyıf qurtardı kino, sonra dedi ki, gəl bir də baxaq. Mən də dedim ki, sabah gəlib bir də baxarıq, bu gün bəsdir.

Kamal Əcəlsizin qəribə təxəllüsü var, yəni ki, mən əcələ inanmıram, harada qırıldı, qırıldı. Bu özü də elə bir etirazdır, Kamal Əcəlsizin imkanı daxilində olan bir etiraz, hərçənd Fira deyərdi ki,– Fira onu üç-dörd dəfə Tolikin ad günündə görmüşdü – hə, Fira deyərdi ki, bu kişi gərək təxəllüsünü Əcəlsiz yox, Əlacsız qoyaydı.

Fira özü də əlacsız idi, çünki Fira ölüb.

Biz hamımız əlacsızıq, amma gərək öz-özümüzü aldadaq, aldatmasaq, axırı mənim kimi olur.

Mənə nə olub bəyəm?

Yenə təzədən başlayaqmı? Həvəssizsən, həvəssizliyi doğuran arzusuzluqdur, arzusuzluğu doğuran... və s. bayaqkı ardıcıllıqla.

Tolik yenə dedi ki, tez-tez gedirsən.

Əlbəttə, Tolikin yerinə mən də olsaydım darıxardım. Kaş mən də darıxmağı bacaraydım. Bax, bu da altıncı arzu və bu altı arzunun altısı da bir qara qəpiyə dəyməz, təkcə Toliki böyütmək arzusundan başqa, hərçənd bu da arzu yox, sövq-təbii istəkdir, heyvanlarda da var.

Mən darıxmağı bacarsam da, bacarmasam da, dəxli yoxdur, əhəmiyyətsizdir, çünki hər ikisi bacarıqdır: darıxmağı bacarmaq bacarığı və darıxmağı və darıxmağı bacarmamaq bacarığı və hər ikisi boşdur.

Tolik univermağın vitrini qabağında ayaq saxladı. Qıpqırmızı, nikelli motosikl günortadakı kimi vitrində idi. Dayanıb yenə tamaşa etdik.

Tolikin gözlərindən qığılcım yağırdı – elə həsrətlə, elə maraqla baxırdı bu motosiklə. Sonra mənə baxdı, yenə mənə baxdı, dedi ki, gəl bu motosikli alaq. Gülüb dedim ki, nə ilə alaq, hanı pulumuz? Cibindən bayaqkı beşqəpikliyi çıxarıb dedi ki, bude, bununla alaq.

Beşqəpiklik qızıl kimi parıldayırdı.

Əlbəttə, mən bu motosikli ala bilərdim: bütün yayı xərcləyəcəyimiz pul portmanatın içində, cibimdə idi – bəlkə də çatardı. Nədənsə, mənə elə gəldi ki, əgər mən bu motosikli alsam, həmin an mənim həyatımın dönüş nöqtəsi olar. Mən Sürəyyanın da qarşısında cavab verə bilərdim, hərçənd təcili olaraq Bakıya qayıdacaqdıq. Əgər mən bu motosikli alsaydım, heç bir böyük ailə iğtişaşı və yaxud faciə baş verməzdi; əgər bir hadisə – qoy lap faciə olsun, baş versəydi də, deməli, belə olmalı idi. Fəqət bu motosikli almağa, sadəcə olaraq, mənim həvəsim yox idi, çünki artıq hər şey geridə idi, artıq bunun bir mənası yox idi.

Beşqəpikliyi Tolikdən aldım və univermağa girdik. Oyuncaq satılan şöbəyə yaxınlaşıb bir manat əlli səkkiz qəpik verdim və Tolik üçün bir motosikl aldım.

– Niyə doğruçu motosikl almadın?

– Sən böyüyəndə alarıq.

– Indi alardıq, sən sürərdin.
– Axı, mən sürə bilmirəm.
– Niyə sürə bilmirsən?
– Ona görə ki... Yəqin öyrədən olmayıb, ya da... ya da özüm qorxmuşam, ya da... bilmirəm niyə...
– Onda, indi öyrən sürməyi.
– Indi öyrənə bilmərəm.
– Niyə öyrənə bilməzsən?
– Çünki gecdir daha.
Bir az nə isə fikirləşəndən sonra dedi:
– Mən böyüyəndə motosikl sürə biləcəyəm.
– Yaxşı olar, – dedim.
Bu gün Toliki axşam naharı əzabından xilas etdim, Sürəyyanın gözündən iraq. Sonra avtobusa minib geri qayıtdıq, Iosif Samolyoviç Bassın hüzuruna.

Köhnə hamam, köhnə tas,
Köhnə pansion, köhnə Bass.

Firanın eyni yoldan zəhləsi gedirdi, hər gün səhər-səhər tutaşırdı Sürəyya ilə.
Mən neçə ildir ki, eyni yolla Bassın hüzuruna qayıdıram.
Bu yolu motosikllə də qayıtmaq olardı; sürətlə; eynilik bilinməzdi onda.
Bir də ki, istəyir eynilik bilinsin, istəyir bilinməsin– mənası yoxdur.
...Həmin beşqəpikliyi yadigar saxlayıram, indi də portmanatımın gözündədir: tək-tənha, qızıl kimi parıldayan beşqəpiklik.

*Dekabr, 1968.*

## EPITAFIYA

*(Felyetonvari)*

NEKROLOQ ƏVƏZI. Amansız ölüm gənc və istedadlı alimimiz Əlirza Yananı yaradıcılığının çiçəkləndiyi bir dövrdə aramızdan apardı. Sənət səmamızın bir parlaq ulduzu daha əbədi olaraq kainatın ənginliklərində görünməz oldu.

Respublikamızın səfalı guşələrindən birinə ezamiyyətə getmiş alovlu alimimiz Əlirza Yanan paytaxtımıza daha qayıtmadı.

Unudulmaz gənc alim Əlirza Yanan Kür çayında çimərkən bir daha sahilə dönmədi; ləzzətli osetrin balıqları ilə cahanda tanınmış Kür çayı Əlirza Yananın əbədi məskəni oldu.

Nurlu al şəfəqlər altında par-par yanan Kür ləpələrinin ana laylası tək həzin və müqəddəs, pıçıltılı laylasının müşayiəti ilə rahat yat, əziz Əlirza Yanan, xalqımız qədirbiləndir, o, heç vaxt öz sevimli oğullarını unutmur.

TƏDQIQATIMIZ. Bu faciəli xəbər dünən axşam saat beşdə bizə yetişdi. Biz dərhal istedadlı gənc ədəbiyyatçı alimimizin evinə getdik. Ömrünün bahar çağına yenicə qədəm qoyaraq hələ özünə ailə qurmağa imkan tapmamış (ah!) Ə. Yananın zəngin arxivi tamamilə bizim ixtiyarımızda idi və biz bu zəngin arxivdə indiyə qədər elm aləminə məlum olmayan, mühüm əhəmiyyət kəsb edən bir sənəd aşkar etdik.

Bu naməlum bir əlyazması – bir vərəq həcmindədir, makinada iki intervalla yazılmışdır və birinci nüsxədir. Vərəqin arxa tərəfində qara kağız izləri müəyyən etdik və bu bizə imkan verir ümidvar olaq ki, gələcəkdə ikinci nüsxə də aşkar ediləcək. Hələlik, müəllifini müəyyən etmədiyimiz bu gözəl şeri olduğu kimi köçürüb ilk dəfə oxucularımızın nəzər-diqqətinə yetirmək şərəfinə nail olduq.

Dərsə gedir uşaqlar.
Bağçada alma, nar var.
Məllim gəlir o başdan.
Soruşacaq Dadaşdan.
Dadaş girdi içəri.
Gördü orda Dilbəri.
– Dilbər, Dilbər, a Dilbər!
Şeri bilirsən əzbər?
Dilbər dedi: – Bilirəm!
Amma sənə demirəm!
Müəllim qalxdı diki.
Dadaşa verdi iki.

Sovet pedaqogika elminin nə qədər sürətlə inkişaf etdiyini parlaq bədii boyalarla əks etdirən, böyük tərbiyəvi əhəmiyyətə malik bu şerin müəllifinin müəyyənləşdirilməsi çətin, fəqət şərəfli bir tədqiqat tələb edir və ümidvarıq ki, gələcəkdə bu diqqətəlayiq işin öhdəsindən ləyaqətlə gələcəyik. Lakin hazırda bizi maraqlandıran, istedadlı azəri alimi Ə. Yananın bu şerə münasibəti, bu şerin ictimai-bədii təhlilini verməsi, fəlsəfi, estetik və etik mahiyyətini, müəllifin sənətkarlıq xüsusiyyətlərini açmasıdır.

Zəmanəmizin görkəmli yazıçısı E. Heminquey sözləri aysberqlərə bənzədərək demişdir ki, aysberqlərin üçdə iki hissəsi, suyun altında olduğu kimi, sözlərin də dərin mənaları çox dərinlərdə olmalıdır, yəni ki, onları dartıb çıxartmaq lazımdır. E. Heminquey bu sözləri sanki Ə. Yananın yaradıcılığına və bizim öz kiçicik imkanımız daxilində bu yaradıcılığa münasibətimizə bələd olduqdan sonra yazmışdır, lakin, əlbəttə, bu iddia hələlik ehtimal şəklindədir, çünki, məlum olduğu kimi, E. Heminquey 1961-ci il iyul ayının 2-də faciəli surətdə həlak olmuşdur, Ə. Yananın isə yaradıcılığa başladığı ili hələlik dürüst müəyyənləşdirməyə müyəssər olmamışıq. Şübhə yoxdur ki, gələcək tədqiqatlarımızda bu dürüstlüyü əldə edə biləcəyik.

Ə. Yananın yaradıcılığı haqqında təsəvvürü, yuxarıda göstərdiyimiz kimi, əldə etdiyimiz bu bir sənəd yaradır, lakin zəmanəmizin görkəmli yazıçısı E. Heminqueyin yuxarıdakı sözlərini öz təhlil metodologiyamız üçün leytmotiv bir yol seçdikdə, həmin sözlərdəki böyük həqiqətin bir daha şahidi oluruq.

Ə. Yanan bu şerə münasibətini elə həmin vərəqdə makina şriftləri ilə yazılmış şerin kənarındakı qeydləri ilə bildirmişdir. Bu qeydləri şərti olaraq üç hissəyə bölmək olar:

Birinci hissə: qeyd [1] 1.

Ikinci hissə: qeyd [1] 2.

Üçüncü hissə: qeyd [1] 3.

QEYD [1] 1. Bu qeyd qırmızı rəngli doldurma qələmlə edilmişdir. Aramızdan nakam getmiş istedadlı alimimiz Əlirza Yanan özünəməxsus bir tərzdə bu şerin birinci misrasının, yəni «Dərsə gedir uşaqlar.» misrasının qarşısında «niyə» sözünü yazmışdır.

Məlum olduğu kimi, «niyə» sözü sual əvəzliyidir, hərçənd bəzən bu sözün nisbi əvəzlik olduğunu söyləyənlər də yox deyil. Biz bu tədqiqatımızda onların mülahizələri üzərində dayanmağı məqsədəuyğun hesab etmirik, çünkü görkəmli alimimiz Ə. Yananın qeydi ilə bir daha qabarıq şəkildə meydana çıxan bu məsələ özü ayrıca böyük tədqiqat tələb edir və gələcək məqalələrimizdən birində Ə. Yananın qaldırdığı bu məsələ barədə öz fikirlərimizi möhtərəm oxuculara bəyan edəcəyimizə indidən boyun oluruq.

QEYD [1] 2. Bu qeyd on birinci misranın, yəni «Müəllim qalxdı diki.» misrasının qarşısında qoyulmuş nida işarəsindən ibarətdir. Məlum olduğu kimi, nida işarəsi bizim orfoqrafiyamızda özünəməxsus görkəmli yerlərdən birini tutur. Lakin qəribə burasıdır ki, bu nida işarəsi Ə. Yanan tərəfindən qara karandaşla yazılmışdır. Uzun və gərgin axtarışlardan sonra (bu barədə gələn məqalələrimizdə yazacağıq) bu nida işarəsinin Krasin adına fabrik tərəfindən istehsal edilən «Smena» karandaşı, yaxud yenə həmin fabrik tərəfindən istehsal olunan «Orion» və ya «Pioner» karandaşlarından biri ilə yazıldığını müəyyən etdik. Bizcə sevimli alimimiz Ə. Yananın Krasin adına fabrik ilə bu sıx əlaqəsi gələcək böyük tədqiqat işləri üçün obyekt ola bilər və olmalıdır, çünkü bu fakt Ə. Yananın fabrik və zavodlarla sıx əlaqəsini parlaq şəkildə sübuta yetirir.

«Müəllim qalxdı diki» misrasının qarşısında qoyulmuş nida işarəsi isə, heç şübhəsiz ki, görkəmli alim, Əlirza Yananın Dənizkənarı parkda salınmış «Sağlamlıq zonası»na verdiyi böyük qiymətə dəlalət edir, çünki bildiyimiz kimi, hər gün səhərlər «Sağlamlıq zonası»nda öz bədənlərini möhkəmlədən adamlar arasında sevimli müəllimlərimiz də az deyil. «Müəllim qalxdı diki» misrasındakı müəllim də, şübhə ola bilməz ki, «Sağlamlıq zonası»nda öz bədənini möhkəmlədən əziz müəllimlərimizdən biridir, əks təqdirdə, qarşısına çıxan diki bu qədər asanlıqla keçib tənbəl şagird Dadaşa iki verə bilməzdi və istedadlı alimimiz Əlirza Yanan da xüsusi bir uzaqgörənliklə məhz bunu nəzərdə tutub özünəməxsus bir üslubda nida işarəsi qoymuşdur.

QEYD [1] 3. Indi də şərti olaraq üçüncü hissə kimi qəbul etdiyimiz qeyd barədə bir neçə kəlmə. Əvvəla qeyd edək ki, üçüncü qeydi də biz şərti olaraq üçüncü qeyd adlandırırıq, belə ki, əslində üçüncü qeyd yuxarıda göstərdiyimiz birinci qeydlə ikinci qeydin arasındadır, daha dəqiq desək, şerin üçüncü misrasına, yəni «Məllim gəlir o başdan» misrasına aiddir. Lakin biz ona görə bu qeydi axıra saldıq ki, bu qeyd öz ideya istiqaməti, elmi sanbalı nöqteyi-nəzərindən istedadlı alimimiz Ə. Yananın yaradıcılığının ümumi sağlam ruhuna yabançıdır. Fəqət, eyibsiz gözəl olmaz, demişlər. Məgər ənbərli və əlvan gülüstanlarda belə, lalələr, nərgizlər, bənövşələr, xrizontemalar, qızılgüllər, blyumenbaxilər, zanbaqlar, ovsidumalar, qərənfillər, süsənlər, yasəmənlərlə bərabər, bəzən alaq otları da olmurmu? Məgər səmadakı parlaq ulduzlar arasında öz yolundan sapıb orbitindən çıxan planetlər olmurmu?

Hörmətli Ə. Yanan yoldaş «Məllim gəlir o başdan» misrasından sonra bir sual işarəsi qoymuşdur. Uzun tədqiqatdan sonra bu qənaətə gəldik ki, həmin sual işarəsi «məllim» kəlməsinə aiddir, çünkü bizim orfoqrafiya qaydalarımıza görə bu söz «müəllim» şəklində yazılmalıdır və sual işarəsi də məhz buna işarədir. Lakin hörmətli Ə. Yanan yoldaş unudur ki, bu şer yeddiliklə yazılmışdır və hərgah «məllim» əvəzinə «müəllim» işlədilsəydi, o zaman «Məllim gəlir o başdan» misrası yeddi yox, səkkiz hecalı olardı və bununla da şer öz formasını itirərdi. Doğrudur, «məllim» kəlməsi bizim orfoqrafiya qaydalarımıza düz gəlmir, amma, bizcə, sxolastikadan əl çəkmək lazımdır, artıq doqmatikanın vaxtı çoxdan keçmişdir, təkcə elə buna görə ki, əgər pedantcasına «müəllim» kəlməsini olduğu kimi yazmağı tələb etdikdə, yuxarıda isbat etdiyimiz kimi, heca pozulur.

Qeyd etmək lazımdır ki, bu sual işarəsi təsadüfi xarakter daşımış, hissə qapılmadan irəli gəlmişdir, çünkü bu işarə öz ideyası, bədii sanbalı, nəhayət, öz üslubu ilə istedadlı və unudulmaz alimimiz Əlirza Yananın yaradıcılığına yad və yabançıdır. Həm də qeyd etmək lazımdır ki, şerin müəllifi Dilbər kimi şagirdlərin simasında şöhrətpərəstləri amansızcasına qamçılamışdır və bu böyük həqiqətin Ə. Yananın diqqətindən sərf-nəzər edilməsi bizdə iki ehtimal doğurur.

BIRINCI EHTIMAL ondan ibarətdir ki, görkəmli alimimiz Ə.Yanan gələcəkdə də bu şer üzərindəki elmi işini davam etdirmək fikrindəymiş və amansız ölüm buna imkan verməmişdir.

IKINCI EHTIMAL isə ondan ibarətdir ki, bu şeri Ə. Yanan özü yazmış və son dərəcə təvazökar olduğu üçün, Dilbər surətinin meşşan xarakterini ifşa etməmişdir. Gələcək məqaləmizdə bu məsələnin üzərində xüsusi olaraq dayanacağıq.

NƏTICƏ OLARAQ. Ölüm amansızdır. Lakin sənətkarlar heç zaman ölməz!

Biz əziz və qədirbilən oxucularımıza söz veririk ki, gələcəkdə təzədən və bir daha təzədən, gənc alim Əlirza Yananın yuxarıda haqqında bəhs etdiyimiz həm elmi-nəzəri və həm də bədii yaradıcılığına qayıdacağıq, yeni-yeni tədqiqat əsərlərimizlə hörmətli oxucularımızı sevindirəcəyik. Yeri gəlmişkən qeyd edək ki, həmişə olduğu kimi, bu dəfə də nəşriyyatlar bu işdə öz kömək əllərini tədqiqatçılarımızdan əsirgəməməlidirlər, vaxtsız aramızdan getmiş şöhrətli alimimiz Əlirza Yananın seçilmiş əsərlərinin ikicildliyini alimlərimizin şərhləri, giriş və son sözləri, xatirələri, şəkilləri ilə bərabər yaxın zamanda oxuculara çatdırmalıdırlar.

*O. Dəruni,*
*filoloji elmlər namizədi.*

BILDIRIŞ. *Hörmətli oxucular, bu gün sübh tezdən əldə etdiyimiz məlumat bizi, eləcə də filoloji elmlər namizədi, hörmətli alimimiz O. Dəruni yoldaşı sizin yanınızda xəcil etmişdir. Məlum olmuşdur ki, Əlirza Yanan adlı vətəndaş heç də ölməmişdir. O, Kür çayını üzüb o biri sahilə keçərək sərxoş olduğu üçün özünü yaxşı apara bilməmiş və yerli milis işçiləri tərəfindən yaxalanaraq on beş günlük həbs cəzasına məhkum edilmişdir. Bununla da, vətəndaş Yanan həm bizi, həm də hörmətli və şöhrətli alimimiz O. Dərunini pis vəziyyətdə qoymuşdur. Belə ki, bu məlumatı çox gec aldığımız üçün, yuxarıdakı məqaləni qəzet səhifəsindən çıxara bilmədik. Lakin onda təskinlik tapırıq ki, bir gün dünyaya gələn, bir gün dünyadan gedəcək və o zaman yuxarıdakı məqalə də xarakterik aktuallığını bərpa edəcək.*

*2 mart 1969.*

## ZIREH

Sonra Gülü xala dedi ki, Allaha şükür, daha hər şey qurtardı getdi, daha arxayın nəfəs almaq olar, daha öldürməyin özünüzü, Allah eşitdi bizi: on-on beş gündən sonra duracaq ayağa, inşallah. Sonra özünü saxlaya bilməyib yenə Şahinin çarpayısına yaxınlaşdı: «– Belə canım sənə qurban, ay Şahin! Ay canım, qanım mənim!». – Qəhər boğdu onu və gözlərindəki bu sevinc yaşlarını görəndə hiss etdim ki, doğrudan da, hər şey qurtarıb, Şahin sağalır; son iyirmi günün ərzində yalnız indi hiss etdim ki, hava deyil bu otaqdakı hava, dərman iyi dolub bu otağa, az qaldı gedib pəncərənin gözlüyünü açım.

Solmaz dedi ki, ay mama, gedək bir az uzan heç olmasa, bir az yuxula, əldən düşmüsən lap, üzmüsən özünü, gedək, sən Allah. Gülü xala da bu iyirmi gündə birinci dəfə etiraz eləmədi, dedi ki gedək, gedək yatım, özü də əməlli-başlı yatım gərək. Sonra əlini taxta sinəsinə vurub xəstə bir ehtirasla, yorğunluqdan, iztirabdan gələn bir vəcdlə dedi ki, bax, bu quru canıma gərək qüvvət toplayım ki, onun yolunda qoyum, Şahinciyəzimin; sonra Solmazla o biri otağa keçdi; sanki yüz il idi yatmırdı.

Şahin də yatırdı, elə rahat yatırdı ki, elə bil Şahin deyildi – guya ki, Şahin rahat yata bilməzdi, – hər şey belədir: böyük xoşbəxtlik kiçik müsibətin yanında heçə dönür, necə ki, böyük yaxşılıq kiçik pislikdən sonra unudulur; niyə belədir – bilmirəm, amma nə tez unutmuşam Şahinin mışıl-mışıl yatmağını... Əvvəlcədən bir az Cırtdandan danışardım, bir az Məlikməmməddən, sonra soruşardı ki, neçə canavar öldürmüşəm, neçə pələng vurmuşam, neçə ayını qaldırıb yerə çırpmışam, daha nə eləmişəm; mən də bir-bir deyərdim: bir gün beş canavar olardı, yeddi pələng olardı, səkkiz ayı olardı, başqa bir gün on canavar olardı, dörd pələng olardı, doqquz ayı olardı, – bu baxırdı mənim goplamaq həvəsimə – Şahin də bic-bic gülərdi, elə bil özü də yaxşıca bilirdi ki, hamısı gopdur.

Solmaz gəlib dedi ki, mamam yerinə uzanan kimi yatdı. Mən də dedim ki, yaxşı oldu, yazıq arvad gör neçə gündür yatmır, qoy dincəlsin bir az. Sonra Solmaz lap mənə yaxınlaşdı, bu iyirmi gündə birinci dəfə qucaqladı; heç nə demədi: mən də heç nə demədim.

Şahin bizim ilkimiz idi, həm də Şahindən başqa daha heç vaxt uşağımız olmayacaqdı, çünki Şahindən sonra Solmazın daha heç vaxt uşağı ola bilməzdi; Şahinin ilk qədəmi belə olmuşdu, amma Şahin var idi – kifayət idi.

Sakit ol, dedim, arxayınçılıqdır daha, Solmaz dedi ki, sakitəm, lap sakitəm daha, görmürsən sakitəm? Lap sakit ol, dedim, lap, istəyirsən bir az ağla, ağla bir az, ürəyin boşalsın. Yox, dedi, ağlaya bilmirəm, ağlaya bilmirəm, çünki daha Şahin bizimlə qaldı. Elədir, dedim, ağlama, Şahin bizimlə qaldı, çünki belə olmalı idi, mən bilirdim ki, belə olacaq, lap əvvəldən bilirdim ki, Şahin bizimlə qalacaq, ağlama, dedim, ağlama, qurtardı daha, hər şey qurtardı. Ağlamıram, dedi, bu elə belədir, ağlamıram, fikir vermə.

Şahin birdən xəstələndi; həyətdən gəlib bir az gopa basdı, bir az deyib güldü, sonra da xəstələndi – belə işləri var Şahinin. Gözləri parıldayırdı yaman, özü də pis parıldayırdı, özü də od tutub yanırdı. Solmaz dedi ki, deyəsən axı, qızdırması var uşağın. Mən də dedim ki, yenə özündən pəstaha çıxartma, başlama yenə; sonra ölçdük qızdırmasını, sonra gördük ki, qızdırması var, xəstələnib. Otuz doqquz idi qızdırması, axşam qırxı ötdü. Belə-belə işlər...

Solmaza dedim ki, sakit ol, eşitdin, bayaq Kazımlı sənin yanında dedi ki, böhran ötdü, sənin yanında dedi ki, on-on beş gündən sonra duracaq ayağa, Kazımlı sözü havaya üfürən həkimlərdən deyil, özün məndən yaxşı bilirsən, sakit ol. Solmaz gülümsədi, elə bil onu heç gülümsəyən görməmişdim, elə bil həmişə deyib-gülən Solmaz deyildi, əslində, doğrudan da, həmişəki Solmaz deyildi, qocalmışdı bu iyirmi gündə. Sonra məndən soruşdu ki, Kazımlı çıxanda sənə nə isə dedi, nə dedi sənə? Heç nə demədi, dedi ki, xudahafiz. Solmaz dedi ki, yox, eşitdim axı, nəsə dedi sənə. Dedim, Kazımlı dedi ki, böhran keçib daha, yüz faiz xətircəm ola bilərsiniz. Yox, dedi, başqa nə isə dedi. Sonra Solmaz mənə elə baxdı ki, dedim Kazımlı nə dedi. Əslində elə bir şey də deməmişdi, demişdi ki, bu gecə də muğayat olun, işdi-şayətdi, bu gecə yenə böhran ola bilər, axırıncı böhran, qorxub-eləməyin, lap gecənin yarısı da olsa, gəlib məni durğuzun. Yenə dedim ki, Kazımlı dedi ki, qorxub-eləməyin, nə oldu sənə, nə oldu axı, deyirəm ki, Kazımlı dedi qorxmayın, o saat gəlib məni durğuzun, vəssalam. Dedim ki, bir bax Şahinə, gör necə rahat yatıb, heç görmüsən belə rahat yatmağını, görmürsən ki, daha heç nə olmayacaq, özü də Kazımlı dedi ki, işdi-şayətdi...

Solmaz pəncərəyə yaxınlaşıb pərdəni qaldırdı: məhəllənin cailləri yenə dalanın ağzına yığışıb söhbətləşirdilər. Solmaz pərdəni aşağı saldı. Gözü pərdədə, pəncərənin qabağında dayandı.

Gərək sənə deməyəydim, dedim, deməyəydim ki, Kazımlı nə dedi. Deməsəydin nə olacaqdı, dedi, bir şey dəyişəcəkdi bəyəm? Niyə həmişə pisindən yapışırsan, dedim, ən bədindən yapışırsan, niyə həmişə ürəyinə pis şey gəlir, Kazımlı dedi ki, işdi-şayətdi, yəni ki, heç nə olmayacaq, yəni ki, hər şey qurtardı getdi işinin dalınca, niyə ən bədindən yapışırsan? Dedi ki, nə edim bəs? Sonra dönüb mənə baxdı, mən də özümdən çıxdım, özümdən çıxdım ki, Solmaz birdəfəlik başa düşsün: bu gecə heç nə olmayacaq, çünki daha keçdi getdi hər şey, qurtardı daha.

Gülü xala başıalovlu otağa girdi ki, nə olub? Solmaz dedi ki, heç nə, ay mama, nə olacaq ki, niyə qalxırsan o saat səs eşidən kimi, get yat, sən Allah. Gülü xala rahat-rahat nəfəs alan Şahinə baxıb doluxsundu yenə, elə onu de, nə ola bilər ki, olan oldu, keçən keçdi daha. Sonra Solmaz anasını o biri otağa apardı.

Bu iyirmi gündə birinci dəfə hiss edirdim ki, otaq dərman iyiylə dolub ağzınacan. Sonra çəliyinin səsindən bildim ki, Məmmədbağır gəlir: tak-tuk.

Solmaz gedib qapını açdı, dedi ki, keç içəri. Məmmədbağır dedi ki, dayan, çubuğu boşaldım, sonra girim içəri. Solmaz onu otaqda çubuq çəkməyə qoymurdu, deyirdi ki, otağın havası elə düz-əməllidir, sən də bir tərəfdən çubuğu fısqırd.

Solmaz, Məmmədbağırın qolundan yapışıb gətirib mizin arxasında oturtdu. Maxorka iyi aləmi basdı. Məmmədbağır həmişəki kimi, yerini rahatlayandan sonra salamlaşdı: əssalam-əleykumə; sonra da soruşdu ki, salamatlıqdırmı, sonra da dedi ki, inşallah, salamatlıq olar.

Bilmirəm niyə Məmmədbağır üçün deyiblər ki:

> Gəldi Məmmədbağır,
> Dur Allahı çağır?

Bizim məhəllədə belə sözlər çoxdur, amma mənası yoxdur.

Məmmədbağır kor idi, bizimlə üzbəüz köhnə hamamın yanındakı dar dalanda olurdu, kiçik bir daxması var idi – daha heç nəyi və heç kimi, hərçənd deyirdilər ki, bir sandıq qızılı var, haradasa basdırıb. Yaşı altmışı keçmişdi yəqin, amma böyükdən kiçiyə hamı onu adı ilə çağırırdı: Məmmədbağır. Əynində köhnə boz şinel, yay-qış, səhərdən-axşama kimi çəliyini taqqıldada-taqqıldada bütün məhəlləni dolaşırdı, səhər bir xəstəsi olanın evində çörəyini yeyərdi, günorta başqa bir xəstəsi olanın, gecə də bir başqa xəstəsi olanın – bu da, bir növ, «rüşvət» idi, camaat Məmmədbağıra «rüşvət» verirdi ki, xəstəsi tez sağalsın, həm də daha camaat adətkərdə idi. Deyirdilər ki, Məmmədbağır özü bir gözünü vurub kor eləyib ki, müharibəyə getməsin, sonra da o biri gözü kor olub. Gah da deyirdilər ki, bir gözü görür əməlli-başlı, özünü görməməzliyə vurur, guya hərdən küçədə adam olmayanda köhnə hamamın pəncərəsi ağzında durub içəridə çimən arvadlara baxır, day nə bilim nə eləyir. Yüz cür söz deyirdilər, çünki heç kim onu istəmirdi. Hərçənd heç kimə bir pislik eləməmişdi, bu evdən o evə söz gəzdirən də deyildi.

Solmaz günortadan saxladığı bir kasa şorbanı gətirib Məmmədbağırın qabağına qoydu. Məmmədbağır da ya Allah deyib yeməyə başladı. Sonra yenə dedi ki, inşallah, salamatlıq olar– şorba xoşuna gəlmişdi deyəsən; dedi ki, Paşanın oğluna heç ümid yox idi, bu gün gedib görürəm ki, şıllaq atır ayaq üstə. Sonra dedi ki, xəbəriniz var, Ağagül Sibirdən qaçıb?

Solmaz, Məmmədbağır üçün çay gətirdiyi stəkanı əlindən salıb sındırdı. Sonra yüzillik sükut çökdü. Sonra Solmaz qışqıra-qışqıra gəlib Məmmədbağırın qolundan dartdı ki, bu saat dur çıx bizim evdən, bir də buralara ayaq basma. Şahin qımıldandı yerində. Hövlnak yerindən qalxıb gəlmiş Gülü xala Şahinin çarpayısına tərəf qaçdı.

Məmmədbağır yavaş-yavaş ayağa qalxdı, dedi ki, mən çay içməyib gedərəm, amma sizə baha başa gələr ha; sonra üzünü Şahin tərəfə tutdu. Solmaz o saat dedi ki, otur, otur, dedi, indi çay gətirirəm, iç sonra get.

Məmmədbağır yerində oturdu.

Yaman maxorka çəkirsən, dedim, azalt bir az, küçənin o başından gələndə bu başında maxorka iyindən dayanmaq olmur. Nə edim, dedi, deyirsən yanı maxorka da çəkməyim?

Ya Sibirdən qaçıb, ya da bir başqa yerdən, axırı ki, qaçıb gəlib Ağagül. Nə olar, qaçıb, yenə tutub göndərərlər öz yerinə, bir az da artırarlar işini, çünki on il öz-özlüyündə az deyil, amma Ağagül üçün azdır, hərçənd Ağagül bu barədə ömründə fikirləşməyib yəqin – uşaqlıqdan bələdəm ona, bir məhəllənin uşaqlarıyıq; özü də ona görə fikirləşməz ki, istəmir fikirləşsin, ona görə ki, bacarmır fikirləşməyi; fikirləşmək üçün gərək adam olasan, Ağagül adam deyildi, şübhəsiz.

Ağagülün atası Əzizağa keçən il camaatın yanında dedi mənə: «Alə, ay oğraş, girmədün yerə, satdun uşağı? Əybi yox...» Eybi yox, yəni ki, borclu borclunun sağlığını istər.

Istəsin də, sağlığını istəmir, lap nəyini istəyir istəsin, bəsdir daha.

Ağagül, Qasımı bizim dalanın qabağında bıçaqladı, günün günorta çağında, azı iyirmi-iyirmi beş nəfərin gözü baxa-baxa. Təkcə mən şahid durdum üzünə; özü də məndən xahiş eləyən-zad yox idi, Qasımdan da zəhləm gedirdi, çünki elə Qasım da Ağagülün tayı idi. Şahid durdum ona görə ki, həmin iyirmi-iyirmi beş nəfərin hamısı danırdı ki, bir şey görməyb; ona görə ki, həmin iyirmi-iyirmi beş nəfərin hamısından zəhləm gedirdi; ona görə ki, Ağagül adam deyildi. Ağagülü «satdım», çünki birinci dəfə idi məhəllənin qanunu pozulurdu, yaxşı da olurdu pozulurdu, çoxunun da canından idi bu, amma mən satqın idim.

Məmmədbağır ayağa qalxdı, sonra dedi ki, Allah şəfa versin. Sonra getdi. Şahin yatmışdı. Gülü xala mətbəxdə idi, Məmmədbağırın şorba yediyi kasanı, qaşığı, çay içdiyi stəkanı qaynadırdı. Solmaz mizin arxasında oturub heç nə danışmırdı. Soruşdum ki, nə olub, yenə? Dedi ki, nə olub, heç nə, hər şey öz qaydasındadır. Bəsdir, dedim, heç nə olmayacaq, qorxma. Dedi ki, qorxub-eləmirəm, nə olacaq ki, əlbəttə, heç nə olmayacaq. Gedim bir az uzanım, dedim, saat on ikiyə işləyib, lap az qalıb, sabah səhər açılacaq, hər şey yenə əvvəlki kimi olacaq, iyirmi gün bundan qabaqkı kimi yenə əla olacaq hər şey; elə-belə uzanıram yerimdə, yatmıram; mən yanındayam, həmişə yanındayam, dedim, mənim üçün də qorxub-eləmə; Kazımlı dedi ki, hər şey yaxşı olacaq, böhran keçib gedib, işdi-şayətdi dedi...

Sonra o biri otağa keçib çarpayımızda uzandım. Sonra qapı cəftəsinin səsini eşitdim, yəqin Solmaz bayır qapısını təzədən yoxlayırdı. Sonra Gülü xala ilə Solmazın səsi gəldi, nə danışdıqlarını eşitmirdim. Sonra xəstəxanaya girdim elə bil, hər tərəfdən dərman iyi gəlirdi. Sonra yavaş-yavaş külək əsməyə başladı...

Ağagül başının üstündə çəkic fırladırdı; stadion ağzınacan dolu idi, hamısı da bizim məhəllənin adamları, çığır-bağır salmışdılar, Ağagülə ürək-dirək verirdilər.

Ağagül uzun göy dizlik geymişdi, əynində rəngi saralmış tor köynək var idi, başına qara kepka qoymuşdu, damağında da papiros.

Ağagül sısqa qolları ilə ağır çəkici başı üzərində fırladırdı ki, uzağa atsın.

Sonra çəkic Ağagülün başı üzərindən qalxdı göyə.

Sonra bütün stadion ayağa qalxdı.

Ağagül bir əli belində, papirosdan qullab vurub tüstünü bir-bir stadiondakıların üzünə buraxırdı.

Sonra göydə çəkici gördüm, gördüm ki, bu çəkic deyil, bu Şahindir.

Ağagülün yaxasından yapışıb silkələyirdim.

Sonra Məmmədbağırı gördüm, dedi ki, məni niyə silkələyirsən, sənə nə pisliyim keçib, burax məni, hamama tərəf gedirəm.

Ağagül hanı, dedim, hanı Ağagül?..

Gülü xala qışqırırdı ki, dur ay evi viranə qalmış, dur, uşaq gedir əldən, dur demirəm sənə, getdi uşaq...

Hara getdi, dedim, hara getdi uşaq, nə ağzına gələni danışırsan, yekə arvadsan, ayıbdır səninçün, necə yanı getdi uşaq?!

Şahinin sinəsi tavana dəyib qayıdırdı, yenə tavana qədər qalxıb qayıdırdı. Sonra yenə tavana dəyirdi.

Solmaz qışqırdı ki, yox buraxmaram səni, buraxmaram səni, heç hara getməyəcəksən; sonra qolumdan yapışdı Solmaz, dedi ki, olmaz, qoymaram, getmə. Burax dedim, burax qolumu, Kazımlıgil yaxındır, dedim, özü demişdi ki, gəl durğuz o saat məni, qorxma, dedim, heç nədən qorxma, beş dəqiqəyə gəlirəm, beşcə dəqiqəyə gəlirəm. Sonra onu itələyib dalana çıxdım, sonra küçəyə çıxdım, sonra yüyürməyə başladım.

Mənə elə gəldi ki, indi canavar görəcəyəm, iki gözü parlayacaq bu zülmətdə, sonra yadıma düşdü ki, haçansa qəzetdə oxumuşdum: bir çoban çomağı ilə dörd canavar öldürüb.

Bir canavar çomağı ilə dörd canavar öldürüb, çünki bu canavarlar qoyuna girişirmişlər, çünki bu qoyunların arasında quzular da var idi, hərçənd canavarların da küçükləri var idi, yəqin ki, onlar da yetim qalacaqdılar, yəni bəraət eyni idi, amma bir çoban dörd canavar öldürdü.

Bir çoban dörd canavar öldürüb.

Tez.

Tez.

Tez.

Məhəlləmizin aşağı başında iki tut ağacı var idi, «Qoşa tut» deyirdik, bu «Qoşa tut»un ətrafı məhəlləmizin cəngəlliyi idi; hamının yolu buradan keçib-gedirdi. Bax, Fazili burada vurmuşdular gecə, Ələkbəri də burada vurmuşdular, Ağarzanı burada vurmuşdular.

Bıçaqla olsa bacararam.

Tez.

Tez.

Tez.

Heç olmasa elə vuraydı ki, gedib Kazımlını evə göndərə biləydim, gələydi uşağın üstünə. Gələydi uşağın üstünə.

Yerimdə mıxlandım, sonra dedim ki, burax məni, burax məni, dedim, nə işin var, qalsın sonraya, indi burax məni. Soruşdu ki, buraxım? Dedim, hə, burax. Anaşadan saralmış sifəti ay işığında güldü, alə, dedi, nə gic-gic danışırsan, iki gecədir tutluqda titrəyə-titrəyə səni gözləyirəm, necə yəni burax məni? Alə, bütün mələnin papağını soxmusan yerə, adam satırsan, indi deyirsən məni burax? Alə, nə çaqqal uşaqsan sən?! Şahin xəstədir, dedim, Şahin ölür, dedim, həkim dalınca gedirəm, Şahini ki, tanıyırsan. Bəs, sən Orxanı tanımırsan dedi, tanımırsan Orxanı? Tanımırdın Orxanı bəyəm atasının üzünə durub tutduranda? Tanımırdın Orxanı məni tutduranda? Nə vaxt, hara desən gələrəm, dedim, indi burax məni. Burada yeddi güllə var, dedi, yeddisi də səninçündür. Gedək, dedim, bir yerdə gedək həkimi çağırım, sonra vur, sonra nə eləyirsən, elə. Məni nə hesab eləyirsən, dedi, kim hesab eləyirsən məni, neçə gündür çıxmışam aradan, neçə gündür ayaq üstəyəm, neçə gündür ac-susuzam, gözümü yummamışam, ölürəm, ancaq sən məndən tez öləcəksən, nöşün ki, kişi döyülsən, oğraşsan.

Sonra güllə səsi eşitdim, qışqırmaq istədim: KA-ZIM-LI! Qışqırmaq istədim ki, KA-ZIM-LI! Amma vaxtım çatmadı – yenə güllə səsi eşitdim, sonra dəmir cingildədi, sonra Ağagülün zənlə baxan gözlərini gördüm, canavar gözlərini, sonra qışqırdı ki, alə, nə geymisən altdan, dəmir geymisən əyninə? Dəmir geymisən ki, güllə dəyməsin sənə? Bilmirsən ki, kəllənə boşaldaram gülləni?

Yenə güllə açıldı, sonra yenə dəmir cingildədi, yenə bir güllə, yenə dəmir cingildədi.

Sonra bütün ətrafa ölü sükut çökdü, tut yarpaqlarının xışıltısı da bütün bu aylı gecə kimi öldü.

Udquna-udquna dedi ki, adə, nə eləmisən özünə, güllə nöşün başıva dəyib yerə düşür, neyləmisən, alə? Sonra qışqırdı ki, üstümə yerimə, üstümə yerimə, qışqırdı, vuraram, dayan, vuraram.

Dalbadal iki güllə açıldı, iki dəfə də dəmir cingildədi.

Bu dəfə mən alnıma dəyib yerə sıçrayan güllələrin zərbəsini hiss etdim və elə bil ki, bu zərbələr məni silkələyib özümə gətirdi: güllə məni tutmurdu, mənim bütün bədənim polad zirehə dönmüşdü.

Ağagül əlindəki tapançanı yerə atıb qışqıra-qışqıra qaçdı – görünür görkəmim dəhşətli imiş.

...Indi də bu əhvalat barədə fikirləşəndə bəzən tərəddüd bürüyür məni: bu həqiqət idimi? Doğrudanmı, o gecə mən Ağagüllə görüşdüm və onun atdığı güllələr məni tutmadı, mənə dəyib yerə düşdü? Fəqət bu tərəddüd əbəs idi, çünki Ağagül əlindəki tapançanı atıb qaçmışdı, mən həmin tapançanı götürmüşdüm, bu, həqiqi tapança idi, içində qalmış güllə də həqiqi güllə idi; sonra həmin tapançanı hamamın yanındakı qanova atdım.

Mənə elə gəlir ki, əslinə baxsan, burada qeyri-adi, fövqəladə heç bir şey yoxdur, hərçənd bu hadisəni heç kimə danışmamışam, heç Solmaza da.

Bu axşam Şahinin çarpayısında oturub ona pələngləri necə öldürməyimdən danışırdım. Çəlik səsi gəldi: tak-tuk, tak-tuk. Solmaz gedib qapını açdı, dedi ki, gəl, gəl içəri, plov bişirmişəm, sənə də bir boşqab pay saxlamışam. Məmmədbağır dedi ki, Allah bərəkət versin, dedi ki, qoy çubuğu boşaldım gəlim. Sonra otağa girdi. Maxorka iyi evə doldu.

Solmaz Məmmədbağırın qolundan yapışıb mizin arxasında oturtdu. Məmmədbağır yerini rahatlayıb salamlaşdı: əssalam-əleykümə. Şahin dedi ki, əleykəssalam. Solmaz bir boşqab plovu gətirib Məmmədbağırın qabağına qoydu. Məmmədbağır da:

– «Ya Allah!» – deyib yeməyə başladı, sonra da yeyə-yeyə dedi ki, eşitmisiniz, Ağagül dəli olub, dünən tutublar, bulvarda barmağını uzadıb, guya ki, tapançadır, camaata bir-bir güllə atırmış? «–Bom! Bom! Bom!..»

*May, 1969.*

## QIRMIZI AYI BALASI

***Rəhman Bədəlova***

C. Səlimov gəmi-təmiri zavodunda mühəndis işləyirdi və bu gün də işdən sonra iki-üç saat zavodda qaldı, otağında oturub cürbəcür çertyojlara baxdı, bir az fikirləşdi, yenə bir az kağız-kuğuza baxdı, sonra basmadüymə ilə otağının divarına sancdığı cədvəlinin qabağında dayandı: görəsən, «Neftçi» yeddi güclü komanda sırasına çıxacaq, ya təskinləşdirici qrupda qalacaq?

«Təskinlik» sözü fikrinə gələn kimi, yenə də dilxor oldu; bu sözdən zəhləsi gedirdi, ən pis söz idi bu söz.

Zavoddan çıxıb trolleybusa mindi və birbaş Nizami küçəsindəki evinə gəldi; əvvəlcə açarla qapını açdı, qapını açandan sonra zəngi basıb içəri girdi.

Zəngin səsi elə qəribə, elə qeyri-adi səsləndi ki, C. Səlimov özü də heyrət etdi; elə bil bu qaranlıq dəhliz də heyrət etdi, elə bil aylardan bəri üstünə toz hopmuş bu divan da, bu kreslolar da, bu şifoner də, kitab dolabı da heyrət etdi, elə bil bu divarlar da heyrətindən donub qaldı, kreslonun üstündəki qırmızı rəngli bu yekə ayı balası da səksənib yerindən atılacaqdı indicə və indicə Leyla da elə bil qışqıracaqdı ki, papa gəldi, qapını açın.

Bu qırmızı rəngli ayı balası səksənib yerindən atıla bilər, amma Leyla daha heç vaxt qışqırmayacaqdı ki, papa gəldi, qapını açın.

Leylasız onun üçün həyat yox idi – yalanmış, Leyla yoxdur, o isə yaşayır; Leyla yoxdur, evin bu avadanlığı isə yenə də yerindədir, televizor yenə də işləyir, radio yenə də son xəbərləri verir, konsert verir, küçədə yenə də maşınlar gedir, mətbəxdəki soyuducu yenə də hərdən tırıldayır, hərdən dayanır, bu qırmızı ayı balası da eyni vəziyyətdə, eyni təbəssümlə öz yerindədir, təkcə divardan asılmış saat çıqqıldamır.

C. Səlimov əvvəlcə bir siqaret yandırdı, sonra divardan asılmış saatı qurdu. Divardakı saatda üçə on dəqiqə qalırdı, əslində isə axşam saat səkkizi keçmişdi, amma o, saatı düzəltmədi, çünki bunun mənası yox idi.

Divar saatı çıqqıldamağa başladı, amma bu çıqqıltı da bu əşyalar kimi, bu qırmızı rəngli ayı balası kimi durğun və ölü idi.

Birdən C. Səlimovu soyuq tər basdı, tükləri ürpəşdi, ona elə gəldi ki, Leyla ölüb. Sonra mətbəxə keçib əl-üzünü yudu.

Mətbəxin divarında asılmış təqvimdə mayın 16-sı idi, təqvimin arxasındakı kartonda Bethovenin şəkli var idi, saralıb-solmuşdu, elə bil qoz yarpağı idi və elə bil indi payızın lap axırları idi.

Bu gün iyulun 11-i idi.

Şəfiqə Leylanı da götürüb martın 22-də bu otaqdan çıxmışdı: aprel, may, iyun – üç ay, bu da on bir gün; üç ay on bir gün, o da səkkiz gün – üç ay on doqquz gün idi getmişdilər; neçə il olacaq getdikləri – C. Səlimov ölənə qədər: on ilmi, iyirmi ilmi, azmı, çoxmu – dəxli yoxdur, o, Şəfiqəsizdir, Leylasızdır və həmişə də belə olacaq, bu iki otaq da ölüb daha, bu əşyalar da ölüb, heç vaxt da dirilməyəcək.

Həmin gün bahar bayramı idi və bahar bayramı günü getdi onlar.

Leyla böyüyəcək, ərə gedəcək, bəlkə xoşbəxt olacaq – onsuz.

Bəlkə Leyla da böyüyəcək, bir iş sahibi olacaq, amma bədbəxt olacaq – onsuz.

Şəfiqə də nənə olacaq, qocalacaq, saçları ağaracaq – onsuz.

Otağa keçib küçə pəncərəsini açdı və küçəyə boylandı və birdən-birə ona elə gəldi ki, bu saat bu küçə ilə tabut aparacaqlar. Yandakı pəncərədən qapıbir qonşusu artist də küçəyə boylanırdı və C. Səlimovu görən kimi həmişəki kimi şit-şit gülümsədi və salamlaşdı: «– Axşamınız xeyir, qonşu».

Sonra C. Səlimov divanda oturdu və qırmızı rəngli ayı balasına baxdı: «– Axşamınız xeyir, qonşu!»

Nə olardı, bir möcüzə baş verəydi: bu qırmızı rəngli ayı balası bu saat yerindən durub dombalaq aşaydı.

Möcüzə ancaq nağıllarda olur.

Leyla da bilirdi ki, möcüzə nə deməkdir və deyirdi ki, düz deyil, möcüzə ancaq nağıllarda olmur, mən özüm televizorda görmüşəm, quş dönüb adam olur.

Bir də Leyla deyirdi ki, ayı ayı deyil, çünki heyvanxanadakı ayı qırmızı deyil, ayı isə, qırmızı olur, mənim ayım kimi.

Bu qırmızı ayı balasını keçən il Leylanın dörd yaşı tamam olanda babası almışdı, Şəfiqənin atası, Mədəd kişi. Srağagün bura gəlmişdi, oğrun-oğrun baxırdı bu ayı balasına; yəqin utandı, yoxsa götürüb apardı, yəqin Leyla hər gün onu dəli edir ki, hanı mənim qırmızı ayım?

C. Səlimovu bu saat bütün dünyada hər şeydən və hamıdan artıq bu qırmızı ayı balası sıxırdı, nəfəs almağa qoymurdu onu, çünki bu eyni ifadə, bu eyni duruş müsibət idi, çünki bu qırmızı ayı balası Leyla ilə birlikdə olanda həmişə gülərdi, həmişə Leyla ilə oynayardı; bu qırmızı ayı balası Leylanın ilk dostu idi.

Əlbəttə, C. Səlimov bu qırmızı ayı balasını götürüb tullaya bilərdi, amma onda hər şey bitərdi, qurtarardı hər şey.

Məgər hər şey bitməyib? Bitib hər şey.

Srağagün Mədəd kişiyə də belə dedi: hər şey bitib.

Mədəd kişi bura guya Şəfiqədən xəbərsiz gəlmişdi, deyirdi ki, uşaqlıq eləməyin, heç bir şeyin üstündə özünüzü bədbəxt eləməyin, deyirdi ki, dur gedək Şəfiqəgilin yanına, ya da heç olmasa dur zəng elə, düzələr hər şey. O da dedi ki, yox, hər şey bitib daha. Bəlkə elə doğrudan da, Şəfiqədən xəbərsiz gəlmişdi Mədəd kişi, ola bilər, yaxşı adamdır Mədəd kişi. Deyirdi ki, tərslik eləmə...

Qonşu artist yenə də divarı döyəcləməyə başladı: qışda deyir ki, divara xalça vururam (gecə saat birdə), bəs yayın bu cırhacırında nə edir?

C. Səlimovu tər basmışdı, qalxıb köynəyini çıxardı – sıxsaydın, suyu çıxardı; sıxıb eyvandakı kəndirdən asa bilər, subay vaxtları kimi.

Subaylıq sultanlıqdır, amma evlənəndən sonrakı subaylıq yox.

Bir az zarafat elə öz-özünə, bir az dola öz-özünü, bir az kitab oxu, bir az televizora bax, bir az radioya qulaq as, bir az zavod barədə fikirləş, sonra da yat, sonra da səhər tezdən dur, sonra da işə get, sonra da yenə bu cür.

Nə vaxta qədər?

Ürəyini sıxma, bir az gül öz-özünə, bir az sevin öz-özünə, hava da bürkü deyil, insanlar da gözəldir, bu siqareti də tulla, bax, bu qırmızı ayı balası da bu saat durub dombalaq aşacaq, nə var ki, götür öz əlində fırlat, özü də çox dərinə getmə, bəsdir donkixotluq etdin – nə birinci, nə də axırıncısan.

C. Səlimov qalxıb küçə pəncərəsinə yaxınlaşdı, eyni damlar, eyni ağaclar, eyni bürkü; bu eynilik Şəfiqəgil gedəndən sonra başlamışdı. Artist yenə başını çıxarıb gülümsədi. C. Səlimov soruşdu ki, nə var, nə olub? Artist də soruşdu ki, bəli? C. Səlimov bir də soruşdu ki, deyirəm yəni nə var, nə olub, bir maraqlı hadisə baş veribsə, deyin biz də gülək. Artist çox ciddiləşdi, bir az qızardı da deyəsən – axşam idi, bilinmirdi – sonra soruşdu ki, siz Bədir Bədirlinin əsərlərini oxumusunuz? C. Səlimov cavab verdi ki, xeyr, oxumamışam, çox gülməli kitabdır? Artist də dedi ki, yaman gülməlidir, ailə həyatının dağılmasının sinir sisteminə təsirindən danışır, sonra yenə gülümsədi. C. Səlimov da dedi ki, mən sizin yerinizə olsaydım, Bədir Bədirlinin kitablarını oxumazdım.

C. Səlimov siqareti külqabına basıb söndürdü və divanda oturdu. Birdən-birə ona elə gəldi ki, kim isə arxadan zəndlə ona baxır, kim isə gözlərini düz ona tuşlayıb; boynu yandı bu baxışlardan, amma dönüb arxaya baxmadı, çünki bilirdi, bu «kim isə» – telefondur, dəhlizin başındakı kiçik dolabın üstünə qoyulmuş telefon; dönüb baxmadı, çünki Mədəd kişigilin telefon nömrəsini yadından çıxara bilmirdi, bu telefon nömrəsi başından çıxmırdı ki, çıxmırdı: 22-76-84; Şəfiqə də, Leyla da 22-76-84-də idi.

Sonra o, qırmızı ayı balasına baxdı və səksəndi, elə bil bütün bədənindən sızıltılı üşütmə keçdi – ona elə gəldi ki, bu saat bu qırmızı ayı balası ayağa qalxıb onun əlindən tutacaq və çəkə-çəkə telefonun yanına aparacaq, dəstəyi götürüb nömrəni yığacaq: 22-76-84, sonra da dəstəyi ona verəcək, başının üstündə dayanacaq ki, danışsın, başının üstündə dayanacaq – qırmızı geymiş cəllad kimi.

Niyə cəllad kimi?

Leyla bu saat öz qırmızı ayı balasını orada gözləyir – 22-76-84-də, öz nağıllarını da orda gözləyir, orada gülür, orada küsür, orada ağlayır, orada darıxır; Şəfiqə də oradadır, gülmür Şəfiqə, qocalıb Şəfiqə otuz yaşında.

Niyə cəllad kimi?

Artist divarı yenə də döyəcləməyə başladı – qışda soruşanda deyir ki, xalça vururam divara, bəs indi görəsən nə vurur? Nə desən vurar, lap elə-belə də döyəcləyər.

Biz hamımız nə desən edərik, ən ağla gəlməyən işlərə qadirik və bu ağla gəlməyən işlərin dərdinə tab da gətirə bilərik, yəqin elə buna görə də bu işləri edirik, hərçənd əvvəlcədən bu barədə fikirləşsək, dəhşət basar bizi.

Hər şey baş verənəcəndir – trolleybusda bir qadının ayaqlarını basdalamaq da, bir adamı öldürmək də; baş verdikdən sonra hər şey qurtarır, sınır, çilik-çilik olur hər şey.

Biz hamımız şüşədənik, çoxumuz bunu bilmirik, çoxumuz bilmirik ki, biz şüşədənik, amma biz şüşədənik, bəzimiz sınıb çilik-çilik olanda da çoxumuz bunu hiss etmir, amma sınıb çilik-çilik oluruq, sınıb çilik-çilik olandan sonra bəzən təzədən yapışırıq, bütöv oluruq, amma çoxumuz bu bütövlükdəki yapışqanı, ləkələri, xırda şüşə qırıntılarını hiss etmirik.

Bəsdir bu fəlsəfəbazlıq, heç bir fövqəladəlik də olmayacaq, heç bir cəllad da yoxdur, bu qırmızı ayı balası bu eyni duruşla, bu eyni ifadə ilə həmişəlik belə qalacaq, möcüzə yalnız nağıllarda olur, bir də televizorda quş dönüb adam olanda.

C. Səlimov qalxıb yenə mətbəxə keçdi, yenə çaynikdən su töküb əl-üzünü yudu. Təqvim yenə də göstərirdi ki, mayın on altısıdır. O, günləri bir-bir cırmağa başladı: bu 17-si, bu 18-i, bu 19-u, bu 20-si, bu 21-i – hamısı bir-birinin eyni – bu 22-si, bu 23-ü, amma nə olsun, nə mənası var, nə fərqi var ki, bu gün mayın on altısı, ya iyirmi üçü deyil, iyulun on biridir? Bu mənasızlıq, bu fərqsizlik nə qədər davam edəcək; bu otaqların canına hopmuş ölü sükut nə qədər davam edəcək; bu qalın divarların zəng həsrəti, bu bürkülü gecələrin sonsuzluğu, bu televiziya verilişlərinin, radio musiqisinin tənhalığı, küçədən ötən bu maşın səslərinin yeknəsəqliyi, bu saat çıqqıltısının ölgünlüyü, bu təqvim günlərinin eyniliyi və heçliyi nə vaxta çəkəcək; bu qırmızı ayı balası haçanacan elə beləcə oturacaq?

Axıra qədər.

C. Səlimov küçəyə baxan eyvana çıxdı. Budur, həmin sarı bina, həmin qara daş bina, həmin yeni tikinti ayrıcında dayanmış həmin milis işçisi, qarşı eyvandakı həmin güllər, həmin meynə, o biri eyvanda çeşməyini taxıb küçəyə tamaşa edən həmin qoca – yüz ildir ki, belədir, hər şey olduğu kimi. Qabaqlar bu sarı bina da belə solğun deyildi – meyit rəngli, bu qara daş bina da bu cür matəm içində deyildi, bu yeni tikintinin toz-torpağı da projektor işığında işləyən bu traktorun tırıltısı kimi gecənin bürküsünə qatışıb ürək qısmırdı, qarşı eyvandakı həmin güllər də tabutu xatırlatmırdı, katafalk deyildi, bu meynə də bu cür quru, susuz deyildi, ayrıcgahda dayanmış həmin milis işçisi də bu cür könülsüz, həvəssiz deyildi, çeşməyini taxıb eyvandan küçəyə tamaşa edən bu qoca da bu cür miskin görünmürdü; əvvəllər – yüz il bundan qabaq – indi hər tərəfi basmış bu bozluq yox idi; onda Leyla bu eyvanda gülərdi, bu otaqlardan ev iyi gələrdi onda.

Lakin bu gülüş ki, onsuz da daimi deyildi, bu iy ki, onsuz da əbədi deyildi; on il davam edərdi bu gülüş, on il gələrdi bu iy, iyirmi il davam edəcəkdi bu gülüş, iyirmi il gələcəkdi bu iy, otuz il, lap qırx il, lap əlli il, sonra? Sonra nə? Sonra heç nə.

Bu gülüşün həsrətini çəkmək, bu iyin həsrətində olmaq nə deməkdir; bu qırmızı ayı balasından qorxmaq nə deməkdir; telefon nəzərlərini daima hiss etmək nə deməkdir?

Belə-belə işlər, yoldaş mühəndis, hörmətli C. Səlimov, zavodda planı vaxtından əvvəl yerinə yetirməklə deyil, «Neftçi»nin dərdini çəkməklə də deyil; istəyirsən qiymətli başını qaldır və bu ilğımlı göyə tamaşa et və feyziyab ol özünçün, çıxart başından bütün fikirləri və ya istəyirsən gir evə, radionu yandır, qoy musiqi çalsın, sonra da bir yaxşıca oyna öz-özünə, yaxşıca da tərlə, qoy canından çıxsın bu bədlik.

Sonra divar saatı dördü vurdu, yəni saat dörd idi, yəni artıq saat ona işləyirdi.

C. Səlimov otağa girib işığı söndürdü və divanda uzandı: və səhər durub işə getmək, sonra yenə evə qayıtmaq, sonra yenə bu qırmızı ayı balası ilə üz-üzə oturmaq, yenə bu qonşunun divarı döyəcləməsinə qulaq asmaq və yenə də səhər durub işə getmək.

Sonra ona elə gəldi ki, otaqda nə isə bir yenilik var, nə isə təzə bir səs gəlir – bu, ağcaqanad idi, vızıldayırdı, sonra səsi kəsildi, yəqin pəncərədən çıxdı.

Akvarium almaq lazımdır, cürbəcür balıqlar da alıb buraxasan içinə, üzsünlər özləri üçün – səhər, axşam.

Ya da qəfəsdə bülbül saxlamaq olar.

Mətbəxdəki soyuducu yenə tırıldamağa başladı, bir azdan yenə sakitləşəcəkdi, sonra yenə tırıldamağa başlayacaqdı.

Artist daha bu divarı döyəcləmir, yəqin o biri divarları döyəcləyir. Qışda soruşanda deyir ki, divara xalça vururam, bəs bu yayın cırhacırında nə edir görəsən?

Sonra istədi ki, heç nə fikirləşməsin, gözlərini yumub bütün fikirləri başından elədi; doğrudan da, heç nə fikirləşmirdi, amma yata da bilmirdi, nə isə hiss edirdi, nə isə duyurdu və lap dərinlikdə bunu da hiss edirdi ki, bu «nə isə» həmin durğunluqdur, həmin boşluqdur, həmin eynilikdir.

Sonra ona elə gəldi ki, yatıb, durub soyunmaq, yataq otağına keçmək lazım deyildi, ona elə gəldi ki, bax, beləcə yatacaq səhərə kimi. Amma heç özü də bilmədi ki, necə ayağa qalxdı birdən-birə; birbaş bayır qapısına tərəf getdi və özü öz zəngini basdı; yenə elə bil bu qalın divarlar heyrətə gəldi, bu qaranlıq otaqlar heyrətə gəldi, elə bil silkələndi bu divarlar, elə bil bir anlıq canlandı bu qaranlıq otaqlar; amma bu an çox qısa oldu, çox dayanmaz oldu, bir göz qırpımlıq oldu, otağın işığını yandıran kimi çıxdı getdi işinin ardınca həmin an, çünki C. Səlimov işığı yandıran kimi eyni təbəssümlə, eyni duruşda kreslonun üstündə oturmuş qırmızı ayı balasını gördü və bu eyni duruş, bu eyni ifadə həmin anı bir ildırım sürətilə qovub çıxartdı otaqdan.

C. Səlimov birdən-birə özündə heç vaxt, heç zaman hiss etmədiyi bir qətiyyət hiss etdi – bu, dəhşət idi – o, qırmızı ayı balasının pambıq qolundan yapışdı, sonra müqəvvanı şifonerin içindəki pal-paltarın arasına atdı və şifonerin qapısını açarla bağladı.

Bu, C. Səlimovun çox yaxşı yadındadır ki, qırmızı müqəvvanı – ayı balasını şifonerin içindəki pal-paltarın arasına atdı və şifonerin qapısını açarla bağladı; həmin qəribə hadisəni sonralar Şəfiqəyə danışarkən, bunu lap dəqiq xatırlamışdı; bu əhvalatı Şəfiqədən başqa heç kimə danışmamışdı, çünki Şəfiqədən başqa heç kim bu əhvalata inanmazdı.

O, işığı söndürdü və əvvəlki kimi divanda uzandı. Lakin bu dəhşətli qətiyyət ondan əl çəkmirdi, onun bütün bədənini titrədirdi, o özü də qəlbinin lap dərinliklərində bu qətiyyətin ehtirasından vahimələnirdi.

Yox! Yox! Yox! Belə davam edə bilməz. Hər şeyi qurtarmaq lazımdır. Birdəfəlik. Birdəfəlik! Getmək lazımdır. Buradan çıxıb getmək lazımdır. Həmişəlik. Hər şeyə son qoymaq lazımdır. Hər şeyə birdəfəlik son qoymaq lazımdır. Başqa şəhərə, başqa yerə. Hər yerdə iş tapılar. Cəhənnəm olsun bu ev, bu qalın divarlar, bu bürkülü gecənin bozluğu.

Qoy Şəfiqə də, Leyla ilə həmişəlik 22-76-84-də qalsın, görünür, belə olmalıymış. Lap bu gün getmək lazımdır, lap bu saat, lap indicə.

Uzaqlara, ən uzaqlara.

C. Səlimov sıçrayıb ayağa qalxdı, heç özü də bilmədi, necə siqaret yandırdı, əlinə keçənləri necə portfelinə yığdı və otaqdan çıxdı və bayır qapısını öz ardınca çırpdı və sürətlə pillələri aşağı düşdü.

O, maşına minmədi, iri addımlarla birbaş vağzala getdi və indi adını xatırlamadığı uzaq bir yerə bilet aldı.

O bu vağzalda bu cür bürkülü axşamlarda çox adam yola salmışdı, onun özünü də buradan çox yola salmışdılar, amma o, qətiyyən fərqinə varmırdı ki, bu saat heç kim onu ötürmür, onun getməyindən heç kimin xəbəri yoxdur – heyfslənmirdi, çünki bilirdi ki, həmişəlik gedir, bilirdi ki, bir daha buraya qayıtmayacaq, bilirdi ki, heç bir yaxın adamın, heç bir tanışın üzünü bir daha görməyəcək; o buna yüz faiz əmin idi; əslində o, artıq bu ehtiraslı qətiyyətilə bir kişi kimi fəxr edirdi.

Qatar gəldi. C. Səlimov adamların arası ilə öz vaqonuna tərəf getdi. Həmin qəribə əhvalat da bu zaman baş verdi.

Əvvəlcə C.Səlimov hiss etdi ki, perronda nə isə bir çaxnaşma əmələ gəlib, sonra hay-küy qalxdı, sonra camaat bir-birini itələyərək o tərəf-bu tərəfə qısılmağa başladı. C. Səlimov təəccüblə çevrilib arxaya baxdı və yerində donub qaldı.

Qırmızı ayı balası tövşüyə-tövşüyə düz onun üstünə gəldi.

C. Səlimov ətrafındakı adamlara baxdı, sonra nə isə etmək istədi, amma heç nə edə bilmədi; qırmızı ayı balası ona çatıb iki ayağı üstə qalxdı, C. Səlimovun əllərini yalamağa başladı.

Perrondakı bütün adamlar onları dövrəyə almışdılar və hamı da bu ayı balasının qırmızı rənginə heyrət edirdi.

C. Səlimov isə bilirdi ki, ayı balası qırmızı olar.

Qırmızı ayı balası öz yöndəmsiz pəncələri ilə C.Səlimovun qolundan yapışıb çıxış qapısına tərəf çəkirdi, qabağında dombalaq aşırdı, dilini çıxarıb onun əllərini yalayırdı, zingildəyirdi, sonra yenə də ehmallıca onun qolundan yapışıb qapıya tərəf çəkirdi.

Onları dövrəyə alan adamlar qatarı tamam yaddan çıxarmışdılar, bu əcaib rəngli yekə ayı balasının canbazlığına heyrət edirdilər.

Bu canbazlığa heyrət etməyən yeganə adam C.Səlimov idi; o bu qırmızı ayı balasını tanıyırdı; o bilirdi ki, bu qırmızı ayı balası nə istəyir; o nə heyrət edirdi, nə təəccüblənirdi, nə də başını itirmişdi, təkcə qəlbinin lap dərinliklərində nə isə anlaşılmaz bir hiss keçirirdi; onun həmin ehtiraslı qətiyyəti də tamam yox olub getmişdi; əslində bu qətiyyət indi gülünc bir keçmişə çevrilmişdi; o elə sakit idi ki, elə bil bir belə camaatın arasında vağzalda ayı ilə görüşmək çox adi bir iş idi; elə bil qırmızı ayı balası həmişə beləcə onun əllərini yalayıb, bu ayı balasının isti nəfəsini həmişə beləcə yaxından hiss edib.

Küçədəki adamlar dayanıb dördayaq, atıla-atıla qabaqda gedən qırmızı rəngli ayı balasına və gülə-gülə bu ayının ardınca gedən C. Səlimova baxırdılar; hamını heyrət bürüyürdü: bu rəngdə də ayı olar? Onlar bilmirdi ki, ayı balası qırmızı olar.

Pillələri yuxarı qalxdılar və Səlimov qapını açdı və onlar içəri girdilər, sonra C. Səlimov dəhlizin işığını yandırdı, sonra yenə axırıncı dəfə özü öz zəngini basdı, amma nə bu qalın divarlar heyrət etdi, nə də otaqlar donub qaldı; sonra otağın işığını yandırdı: qırmızı ayı balası yenə də öz yerində – kreslonun üstündə oturmuşdu, şifonerin qapısı isə açıq idi.

Divar saatının səsi də daha ölgün deyildi, azad və sərbəst idi, hərçənd cəmi-cümlətanı yeddiyə işləyirdi, yəni saat on ikiyə qalırdı.

Sonra C. Səlimov telefonun dəstəyini götürdü: 22-76-84.

... Səhəri gün bütün Bakının uşaqları danışırdı ki, dünən gecə qırmızı rəngli bir ayı balası şəhəri dolaşırmış: möcüzədir!

Amma uşaqlar bilmirdi ki, möcüzə təkcə nağıllarda olmur.

*Sentyabr, 1969.*

## ON ILDƏN SONRA

Sonra çiskinlənməyə başladı və o, kürəyini köhnə məscidin hasarına söykəyib pencəyinin boynunu qaldırdı; birdən-birə ürəyi, doğrudan da, siqaret istədi, amma cibindən çıxarıb yandırmadı – cəmi iki siqareti var idi – iki dənə «Pamir» – onları da orada çəkəcəkdi; pencəyin altından qayışa keçirib yarısını şalvarının içinə soxduğu kitablar – əslində bir dənə kitab: «Coğrafiya», iki dənə də ümumi dəftər – qarnını elə sıxırdı ki, nəfəs ala bilmirdi; yenə qayışını bir balaca boşaltdı.

Külək yaman bərkidi, əslində burada dayanmaq adamın lap atasını yandırır; sonra ona elə gəldi ki, bu saat bığlı kişi yenə başını məscid minarəsinin darısqal pəncərəsindən çıxarıb qışqıracaq: «– Hə, yenə gəlib veyllənirsən burda?!», o da cavabını verəcək: « – Sənə nə var, atovun məhləsidir?», bığlı kişi də onu hədələyəcək ki, düşürəm aşağı, ananı ağlar qoyaram sənin, o isə yenə deyəcək ki, kişisən düş; əlbəttə, bığlı kişi aşağı düşməyəcək, çünki ayaqlarının ikisi də yoxdur. Bir dəfə təsadüfən küçədə görüb onu dördçarxlı sankada gedəndə – bığlı kişinin bundan xəbəri yoxdur, qoy heç bundan xəbəri olmasın da, qoy kefinə xələl toxunmasın, hərçənd zırramanın biridir.

Amma bu dəfə bığlı kişi başını məscid minarəsinin pəncərəsindən çıxarıb boylanmadı.

Üç ay var idi ki, məscidi çəkmə fabriki eləmişdilər; qabaq yaxşı idi – səssiz-səmirsiz, lal-karlar idarəsi idi; indi lal-karlar təzə binaya köçüblər yəqin, bunlar gəlib əvəzinə, bu bığlı kişini də Allah kimi qaldırıb qoyublar göyün yeddinci qatına – minarənin kəlləsinə.

Əcəb soyuqdur, heç belə soyuq olmamışdı bu il, deyəsən, qar yağacaq; paltosunu Vovagildə qoymuşdu; paltosu dəblə tikilmiş palto idi, atası iki ay bundan əvvəl Moskvadan gətirmişdi, amma istəmirdi o palto ilə Sənubərin yanına getsin, hətta bir dəfə ağlına gəlmişdi ki, pul yığıb sırıqlı alsın, həmişə Sənubərin yanına gələndə bu sırıqlını geysin, amma sonra vaz keçdi bu fikirdən – lap uşaqlıq olardı bu.

Qışın qaranlığından olmaz – hələ axşam saat beş yoxdur, amma indidən qaranlıq çökür hər tərəfə, bığlı kişi də minarədə işığı yandırıb – darısqal pəncərə bu minarənin tək gözü idi elə bil, dünyaya baxırdı. Sənubərgil də işığı yandırıb yəqin, buradan görünmür – həm pəncərələrindəki pərdə qalındır, həm də işıqları zəifdir. Sinifdə də işığı yandırıblar yəqin, uşaqlar indi coğrafiya dərsi keçir: Izrail Solomonoviç dayanıb arxası xəritəyə, üzü uşaqlara tərəf, çağırır bir-bir dərsi soruşur, kim də haranı göstərirsə xəritədə – bu, Kosta-Rikadır, bu, Dardanel boğazı, bu da mən nə bilim hara – o saat görür, elə bil zalımın başının dalında da gözü var.

Izrail Solomonoviç, şübhəsiz ki, onun da belinə bir dənə «iki» yapışdıracaqdı – sonra gəl düzəlt görüm necə düzəldirsən?! – amma «iki»nin qorxusundan qaçmamışdı dərsdən, kitab indi də qayışının altındadır, başqa dərslərdə oxuyub hazırlaşa bilərdi – Izrail Solomonoviçin dərsi dördüncü dərs idi, özü də kitabı bircə dəfə oxuyan kimi yadında qalırdı – Sənubərə görə qaçmışdı dərsdən, Sənubərə görə.

Birinci dərsdən sonra Vovayla birlikdə qaçdılar – Izrail Solomonoviçin dərsi gələndə Vovanın canına üşütmə düşür, Əzrailin biridir də bu Izrail Solomonoviç, Vova neyləsin? – əvvəlcə getdilər Vovagilə, onlarda bu vaxt heç kim olmur, sonra paltosunu çıxarıb gəzə-gəzə gəldi bura; Sənubərin anası da çıxıb getmək bilmir ki, bilmir.

Sənubərə görə səhərdən dayanıb burda, adamın ürəyini sıxan bu erkən qaranlıqda, bu küləkdə, bu qış çiskinində, bu təkgözlü minarənin yanında, Sənubərə görə. Bunu bütün dünyada heç kim bilmir, bir o bilir, bir də Sənubər, deməyib heç kimə, deməz heç kimə. Qabaqlar bir şey olmazdı ortada, amma uşaqlara yüz cür yalan deyərdi qızbazlığı barədə, indi isə heç kimə heç nə demirdi, ona elə gəlirdi ki, başqaları bunu bilsə, bu, bir növ, oğurluğa oxşayar, elə bil, onlardan – ondan və Sənubərdən – nə isə oğurlamış olarlar.

Sənubərin anası axır ki, çıxdı qapıdan.

O, məscidin hasarına qısıla-qısıla bir az yuxarı qalxıb tini buruldu və dayandı.

Sənubərin anasının ardınca qapıdan bir kişi də çıxdı, danışa-danışa ikisi də küçə ilə üzüaşağı düşdü.

O, bir az gözləyib tini buruldu və qənbər döşənmiş küçəni keçib Sənubərgilin çöl qapısından içəri girdi; yarımca mərtəbə yuxarı qalxan bu taxta pilləkənlər, bu qaranlıq dəhliz, bir az tozlu, bir az da əhəng qoxulu bu hava həmişəki kimi yenə də onun sinəsinə bir ılıqlıq gətirdi; barmağını büküb arakəsmə qapısını yavaşca taqqıldatdı.

Içəridən Sənubərin səsi gəldi:

– Keç içəri, bağlamamışam.

O, qapını itələyib içəri girdi, sonra da qapının cəftəsini bağlayıb balaca arakəsmə ilə otağa tərəf getdi.

Sənubər həmişəki yerində oturmuşdu – divanın küncündə, özü də həmişəki kimi – ayaqlarını yığmışdı altına, nazik barmaqları ilə lafsan yubkasının üstündən baldırlarına saldığı şalın saçaqlarını oynadırdı. Yenə də Sənubərin qarşısındakı taxta kətilin üstündə bir balaca his edən nöyüt pilətəsi yanırdı, bu pilətənin iyi və istisi otağa dolmuşdu. O, həmişə bu otaq barədə fikirləşəndə nə pəncərədəki bu qalın pərdələri, nə də otağın ortasındakı bu dördkünc mizi, nə üzü ağarmış qəhvəyi meşinli divanı, nə küncdəki bu köhnə alman radioqəbuledicisini, nə üçgöz güzgünün üç tərəfinə də düzülmüş cürbəcür fotoşəkilləri, nə də yerə salınmış bu palazı görürdü; o bu otaq barədə fikirləşəndə, birinci növbədə, bu nöyüt pilətəsinin iyini və istisini hiss edirdi; bu pilətənin iyi və istisi onun beş aydan bəri ürəyində gizlətdiyi, heç kimə demədiyi və heç kimə deməyəcəyi xoşbəxtliyinin örtüyü idi. Bir dəfə «Səadət sarayı»nın yanından keçəndə təzəcə kəbin kəsdirmiş bəylə gəlini görmüşdü. Gəlinin üzünü çox incə, ağ duvaq örtmüşdü. Bax, bu nöyüt pilətəsinin iyi və istisi də həmin duvaq kimi onun xoşbəxtliyinin örtüyü idi – onda belə fikirləşmişdi.

– Yenə tində dayanıb gözləyirdin? – Sənubərin köşək gözləri gülümsəyə-gülümsəyə altdan-yuxarı onu süzdü.

Əlbəttə, həmişəki kimi dedi ki, yox, elə indicə gəlmişəm. Sənubər də həmişəki kimi bic-bic güldü. Hərdən Sənubərin elə vaxtı olurdu ki, onu kiçiltmək, balacalaşdırmaq, bəlkə də alçaltmaq istəyirdi, gah yaşdan söz salırdı, gah məktəbdən söz salırdı, gah da elə hərəkətlər edirdi ki, o, bayram yumurtası kimi pörtürdü, az qalırdı siçan deşiyinə girsin, amma nə qədər hirslənsə də, nə qədər pərt olsa da, nə qədər acıqlansa da, Sənubərdən incimirdi, çünki Sənubərdən inciyə bilmirdi, çünki bilirdi ki, Sənubər onu çox istəyir, bütün bunları isə elə-belə edir, şıltaqlıq naminə.

O bu balaca otaqda özünü bütün daxili ilə kişi hiss edirdi, dərsdə oturub Izrail Solomonoviçin məzəmmətlərinə qulaq asarkən ürəyində fikirləşirdi ki, nə yaxşı bütün bu əskik söhbətlər, bu məktəb dəsgahı, evlərindəki danlaqlar, qardaşı ilə dava-dalaşı – hər şey bu balaca otaqdan kənardadır.

Sənubər yenə həmişəki kimi, əllərini pilətənin üstünə qaldırıb oda tutdu, sonra dedi ki, gəl sən də əllərini oda tut. O, pilətəyə yaxınlaşıb əllərini oda tutdu, pilətənin istisi bütün bədəninə bir hərarət gətirdi, sonra Sənubər onun əllərini öz əllərinin içinə alıb ovuşdurdu, sonra onu özünə tərəf dartdı:

– Bir bura gəl görüm e!..

O, həmişəki kimi, palazın üstündə diz çökdü, Sənubər onun başını sinəsinə sıxdı, barmaqlarını cod qara saçlarında gəzdirdi və yanağından öpdü. O, tez başını çəkib ayağa qalxdı, çünki həmişə belə anlarda, nədənsə, – səbəbini başa düşə bilmirdi – qəhərlənirdi və qorxurdu ki, ağlasın.

Bir söz demək xətrinə soruşdu ki, bayaq ananla evdən çıxan o kişi kim idi elə? Sənubər dedi ki, Ağahüseyndir. Soruşdu ki, Ağahüseyn kimdir? Sənubər də cavab verdi ki, qohumumuzdur, uzaq...

– Nəçidir e?

– Tramvaysürəndir də...

– Sizə niyə gəlir?

– Mən nə bilim? – Sənubər çiyinlərini çəkdi. – Üçüncü dəfədir gəlir.

O yenə nə isə soruşmaq istədi, amma soruşmadı. Ağahüseynin adı bu balaca otaqdakı zəif elektrik lampası ilə, bu pilətə iyi və pilətə istisi ilə, Sənubərin bu köşək gözləri ilə uyuşmurdu, yad səslənirdi və o, bir daha bu adı çəkmək istəmədi; indicə o, divanda Sənubərin yanında oturacaqdı, bir əlini onun çiyninə qoyacaqdı, sonra o biri əlini yavaş-yavaş içi dovşan dərili qolsuz kürkün üstündən Sənubərin sinəsinə qoyacaqdı və durub gedənə qədər beləcə oturacaqdılar.

O, pencəyini çıxarıb divanda oturmaq istədi, amma yadına düşdü ki, kitab-dəftər qayışının altındadır, bayaq paltosunu Vovagildə çıxardanda ağlına gəlməyib ki, bunları da orada qoysun; kitab-dəftəri burada çıxarmaq olmazdı: birdən Sənubər «Coğrafiya» kitabını görər. «Coğrafiya» kitabında isə yazılıb ki, səkkizinci sinif üçün dərs vəsaitidir, amma Sənubər elə bilir ki, o, doqquzda oxuyur. Əslində əvvəllər Sənubər elə bilirdi ki, o, onuncu sinifdə oxuyur.

Onlar məktəbin həyətində qutab alarkən tanış olmuşdular. Sənubər 132 nömrəli məktəbdə oxuyurdu – Azərbaycan məktəbində, o isə 134 nömrəli məktəbdə oxuyurdu – rus məktəbində. Məktəbləri bitişik idi, həyətləri də bir idi. Onda Sənubərin xırdası olmamışdı qutabsatana versin, qutabsatan da Sənubərin manatlığını xırdalamırdı, xırdası yox idi. O, Sənubərə xırda vermişdi – ikisi də qutab almışdı. Sənubər də üç-dörd gündən sonra onu həyətdə görüb xırdanı qaytarmışdı.

Sənubər gözəl deyildi, həmişə də nimdaş geyinərdi. O heç ağlına gətirə bilməzdi ki, bir vaxt gələcək və bu qutab alan qız onun ilk məhəbbəti olacaq – o inanırdı ki, bu ilk məhəbbətdir, ilk böyük məhəbbət. Doğrudur, il yarım bundan əvvəl qonşuluqlarında yaşayan bir arvada vurulmuşdu; evdə oturanda qulağı həmişə səksəkədə olardı: həmin arvad eyvana çıxıb paltar sərəndə zivəni dartardı, çarxdan səs çıxardı, o da, bilərdi ki, sevgilisi eyvandadır, tez öz eyvanlarına çıxıb tamaşa edərdi, amma bu, yavaş-yavaş sönüb getdi, çünki əsl məhəbbət deyildi – bunu sonralar başa düşdü. Sənubərgilə gəldiyi ilk gündən sonra.

Əvvəlcə salamlaşırdılar elə-beləcə, sonra günlərin bir günündə həyətdən birlikdə çıxdılar, necə oldusa, Sənubəri evlərinə ötürdü, Sənubər də onu evə çağırdı, dedi ki, heç kim yoxdur evdə, o da qalxdı yuxarı, heç bilmədi necə qalxdı.

Bu otaqda ilk görüş idi onda, ilk dəfə idi ki, bu pilətə iyini və istisini hiss etdi, ilk dəfə idi ki, Sənubərin köşək gözlərini gördü. Onda Sənubərə demişdi ki, onuncu sinifdə oxuyuram, həm də demişdi ki, on səkkiz yaşım var. Sənubər sonra bildi ki, onuncu sinifdə oxumur, təsadüfən bildi, amma səkkizinci sinifdə oxumağını da bilmirdi, elə bilirdi ki, doqquzda oxuyur, həm də elə bilirdi ki, onun on yeddi yaşı var, daha bilmirdi ki, onun on altı yaşı var.

Sənubərin özünün on yeddi yaşı tamam olmuşdu, onuncu sinifdə oxuyurdu. O həmişə Sənubər barədə fikirləşəndə suçlu adamlar kimi ürəyindən bir üşütmə keçirdi: Sənubər əvvəl-axır biləcəkdi ki, yaşda ondan böyükdür, həm də biləcəkdi ki, iki sinif aşağıda oxuyur. Doğrudur, əvvəl-axır bunu biləcəkdi, amma onda bunun daha bir o qədər də mənası olmayacaqdı, çünki onda evlənmiş olacaqdılar.

– Pencəyini niyə çıxartmırsan?

Dedi ki, çıxartmır, bir azdan gedəcək, işi var. Elə-belə, ağzına gələni dedi, əslində axşam doqquza kimi burada qalmaq istəyirdi, günorta evdən çıxanda demişdi ki, dərsdən sonra Vovayla kinoya gedəcəklər.

– Nə işin var, ananla qonaqlığa gedəcəksən? – Sənubərin köşək gözləri gülümsədi yenə.

O, Sənubərin sualını qulaqardına vurdu, çünki Sənubərin, deyəsən, yenə həvəsi gəlmişdi, yenə onu alçaltmaq istəyirdi, o isə, nədənsə, bu axşam başqa axşamlardan daha artıq pərtləşmək istəmirdi, ümumiyyətlə, nədənsə, bu axşam ona başqa axşamlardan daha artıq əziz idi – niyə belə hiss edirdi, səbəbini özü də bilmirdi. Söhbəti dəyişdi:

– Ağahüseyn niyə gəlir e, sizə? – Özü də bilmədi ki, Ağahüseyn yenə haradan düşdü yadına.

– Mən nə bilim? – Sənubər həmişəki kimi alt dodağını dişlədi və lap büzüşdü elə bil, elə bil otaqda şaxta idi. – Deyəsən, anam ona ərə gedir.

– Anan ərə gedir?

– Deyəsən.

Sənubərin heç kimi yox idi, təkcə anası var idi. Sənubərin anası dəmir yolunda işləyirdi, bələdçi idi, iki gün evdə otururdu, üç gün səfərdə olurdu, ya da üç gün evdə otururdu, bir gün səfərdə olurdu. Bu gün də səfərə çıxmışdı, sabah qayıdacaqdı. Iki gündən sonra yenə gedəcəkdi. O, bir dəfə də olsun Sənubərin anası ilə kəlmə kəsməmişdi, heç yaxından əməlli-başlı görməmişdi də onu, amma nədənsə, xoşu gəlmirdi Sənubərin anasından, özü də buna təəccüb edirdi ki, niyə.

– Necə yəni ərə gedir?

– Necə, necə yəni? Ərə getmək bilmirsən nədir?

Əlbəttə, o bilirdi ki, ərə getmək nə deməkdir və onun ürəyindən gizli bir qorxu keçdi: Sənubərin anası ərə getsəydi, onların görüşləri necə olacaqdı? Ağahüseyn burada qalacaqdı, burada, bu balaca otaqda, onların bu balaca otağında?

– Əşşi, özünün xarabası var, təzə binada ev alıb. – Sənubər həmişə onun ürəyini oxuyurdu. O, heç vaxt Sənubərə deməmişdi ki, səni sevirəm, səndən xoşum gəlir – utanırdı belə sözlərdən, amma Sənubər həmişə onun ürəyini oxuyurdu, həmişə onun fikirləşdiyini deyirdi, həmişə onun ürəyindən xəbər verirdi, hansı söhbəti xoşlamadığını, hansı hərəkətdən xoşlandığını o saat hiss edirdi, hərdən elə olurdu ki, o, ürəyində bir mahnının havasını çalırdı, birdən Sənubər həmin mahnını nazik səsi ilə pəsdən oxumağa başlayırdı.

Sənubər yenə əlini onun cod qara saçlarında gəzdirdi, yəni ki, qorxma, mən bu otaqdan gedən deyiləm, sonra qayğıkeş-qayğıkeş ona baxdı, sonra yenə onun başını özünə tərəf çəkib sinəsinə sıxdı, yanağından öpdü.

O bütün ömrü boyu beləcə dayanmağa hazır idi, evlərini də, məktəbi də, uşaqları da yadından çıxarıb, heç hara getməyib, heç nə etməyib bütün ömrü boyu beləcə dayanmağa hazır idi, təki bu barmaqlar həmişə saçlarında gəzəydi, təki bu balaca ürəyin çırpıntısını həmişə beləcə hiss edəydi, təki bu nöyüt pilətəsi beləcə yanaydı həmişə, amma yenə başını çəkdi, yenə qorxdu ki, ağlayar, bilmirdi nədəndir, həmişə belə dayananda onun ürəyi kövrəlirdi.

O, əlini Sənubərin çiyninə qoydu. Sənubər özü onun o biri əlini götürüb içi dovşan dərili qolsuz kürkün üstündən sinəsinə qoydu.

Həmişə onun əli Sənubərin sinəsinə toxunan kimi ürəyi düşürdü, udqunurdu, ona elə gəlirdi ki, boğazı qupquru quruyub, hiss edirdi ki, əlləri, bütün bədəni titrəyir, Sənubər də bunu hiss eləyirdi və gülürdü, Sənubər beləcə gülümsəyəndə o, elə hesab edirdi ki, bu – məhəbbətdir.

Sonra Sənubər özü iki əlini də kürkün üstündən onun əlinə yapışdırıb var gücü ilə sinəsinə sıxdı, sonra onun yanaqlarından yapışıb özünə tərəf çəkdi və dodaqlarından öpmək istədi. O, başını Sənubərin əlləri arasından dartıb çıxartdı – ən çox belə şeylərdən utanırdı.

– Vallah, lap uşaqsan sən, lap uşaqsan! Bilmirəm sənin nəyinə vurulmuşam?

Sənubərin köşək gözləri güldü yenə. – Yəqin boy-buxununa, zırpılığına.

O cavab vermədi və üzünü Sənubərin çiyninə qısdı. O bilirdi ki, bütün sifəti alışıb-yanır və istəmirdi ki, Sənubər bunu görsün. O bilirdi ki, bir azdan bədəninin uçuntusu keçib-gedəcək, bir azdan Sənubərin ürəyinin döyüntüsü onu təmənnasız bir aləmə çəkib aparacaq. Bu təmənnasız aləm bu balaca otaqdan – onların otağından, bu balaca otaqdakı pilətə iyi və pilətə istisindən, bu pilətə iyini və pilətə istisini təpədən dırnağa kimi bütün bədənlərilə hiss edən Sənubərdən və ondan ibarət idi; lap kiçicik bir aləm idi, amma elə-belə kiçicik aləm yox, onların kiçicik aləmi idi.

O istəyirdi ki, Sənubər barədə hər hansı bir arvad barədə fikirləşəcəyi kimi fikirləşməsin. O heç vaxt cəhd etməmişdi ki, Sənubəri çılpaq görsün. O, çılpaq qızlar göstərilən kinolara üç-dörd dəfə gedib baxmışdı, amma istəmirdi ki, Sənubəri çılpaq görsün. Hərdən gecələr yuxuda Sənubəri çılpaq görərdi, o saat da yuxudan oyanardı, Sənubərin çılpaq bədənini başından çıxarmaq istərdi, futbol barədə fikirləşərdi, gələcəkdə yazacağı ssenarilər, çəkəcəyi filmlər barədə fikirləşərdi, haçandan-haçana təzədən yuxuya gedərdi.

O, sövq-təbii hiss edirdi ki, əgər bu cür olmasa, Sənubər onun başını döşlərinə sıxarkən heç vaxt ürəyi kövrəlməyəcək. Düzdür, o, bu kövrəklikdən qorxurdu, qorxurdu ki, Sənubər bunu görər, gülər: «Vallah uşaqsan!», amma ürəyinin lap dərinliklərində – elə dərinliklərində ki, özü də bunu üzə çıxarmağa ürək eləmirdi – hiss edirdi ki, bilirdi ki, uşaqlıq olsa da, əslində bu kövrəklik anı onun üçün həyat deməkdir, yaşamaq deməkdir. Sənubər də bunu bilirdi və buna görə də hərdən kefinə düşəndə onu lap cin atına mindirirdi.

– Uşaqsan, xalis uşaqsan! Ola bilməz ki, sənin on yeddi yaşın olsun! Ola bilməz! Zırpısan, amma mən bilirəm, düz on yaşın var. Üzünü də yalandan hər gün qırxırsan ki, tük gəlsin.

– Yox, on iki yaşım. – O həmişə belə cavab verirdi ki, on yeddi yaşında olmağı doğruçu çıxsın, indi də belə dedi, amma hiss elədi ki, yavaş-yavaş dilxor olur. Həm də ona görə dilxor olur ki, Ağahüseynin adı yenə də hardansa girmişdi başına; əlini içi dovşan dərili qolsuz kürkdən çəkdi. – Lap on bir yaşım var.

– Yaxşı, yaxşı, burnunu sallama. – Sənubər onun burnunu tutub dartdı, elə ehmallıca dartdı ki, sifətindəki qızartı keçib getdi. – Doğrudan, sənin atan böyük adamdır?

Haradansa Sənubərin başına girmişdi ki, onun atası böyük adamdır guya, özü də idarəyə maşınla gedib-gəlir.

– Adamdır də... – O nə qədər fikirləşirdisə də bu suala başqa cavab tapa bilmirdi; bir dəfə istəmişdi ki, atası barədə yalandan təsirli, lap faciəli bir əhvalat quraşdırıb danışsın, amma danışmamışdı, çünki yaşından və oxuduğu sinifdən başqa daha yalan demək istəmirdi Sənubərə; atası teatrda rejissor idi və nədənsə, ona elə gəlirdi ki, atasının rejissor olduğunu bilsə, Sənubəri gülmək tutacaq, həm də o, Sənubərin gözündən düşəcək – niyə belə fikirləşirdi, heç özü də başa düşə bilmirdi.

– Əgər böyük adamdırsa, niyə sənə palto almır?

O ən çox bu cür sözlərdən dilxor olurdu, çünki bu cür sözlərdən sonra özünü bu balaca otaqda əsl kişi hiss edə bilmirdi və bu cür sözlərdən sonra həmişə çıxıb gedirdi və bir müddət özünü vaxtında doğulmayan, həyata vaxtında gəlməyən insan sanırdı, heç kimin onu başa düşmədiyini, hamının ona yad olduğunu fikirləşirdi, özünü faciəli tənhalıqda hesab edirdi, sonra yenə də yavaş-yavaş bu pilətənin iyi burnuna gəlirdi, bu pilətənin istisini hiss edirdi. Sənubərin köşək gözlərini görürdü, onun nazik qabırğalarını ovcunun altında duyurdu və dərindən nəfəs alırdı ki, nə yaxşı dünyada bu balaca otaq var, nə yaxşı dünyada bu nöyüt pilətəsi var, nə yaxşı dünyada Sənubər var. Sənubərin də köşək gözləri var.

– Mən getdim.

Sənubər divanın üstündən ayağa qalxıb onun qolundan yapışdı.

– Bir az otur. Yaxşı da, otur bir az.

O, dediyi sözdən dönən deyildi – hər halda özü barədə bu fikirdə idi.

– Işim var.

– Yaxşı da, otur bir az. Daha heç nə deməərəm, vallah. Otur bir az.

O əyilib palazın üstünə düşmüş şalı qaldırdı və hiss etdi ki, doğrudan da, bir az oturmalıdır, çünki Sənubər lap uşaq kimi yalvarırdı; o, lap təəccüb etdi, çünki Sənubər heç vaxt bu cür uşaq kimi yalvarmazdı, ona elə gəldi ki, bu saat çıxıb getsə, Sənubər bu balaca otaqda yetim qalacaq.

O, divanda oturdu.

– Mənim bir dənəmsən! Səndən başqa heç kimim yoxdur, bircə dənəmsən mənim! – Sənubər dizləri üstə çöməlib onun yanında oturdu və ona qısılaraq boynunu qucaqladı.

– Yaxşı, bəsdir. – O yenə də özünü əsl kişi hiss edirdi.

Sənubər ona daha da bərk qısıldı. Bu gün nə isə birtəhər idi. Sənubər, elə bil lap kimsəsizləşmişdi, lap balacalaşmışdı. Birdən-birə o özünü Sənubərin həyatdakı yeganə mənəvi dayağı hesab etdi və qızın saçlarından öpdü. Sənubərin saçının iyi həmişə onu məst edirdi və o bu qoxudan çəkinirdi, çünki, bu zaman dünyanın ən sentimental adamı olurdu – bunu özü də bilirdi, amma heç nə edə bilmirdi.

O, cibindəki siqaretlərdən birini çıxartdı və başını pilətəyə uzadıb siqareti odda yandırdı, – bu otaqda siqareti həmişə belə yandırardı. Siqaretdən xoşu gəlmirdi və bilirdi ki, heç zaman əməlli-başlı siqaret çəkən olmayacaq, amma bu balaca otaqda hərdən elə anlar olurdu ki, o nə deyəcəyini, nə edəcəyini bilmirdi və bu zaman siqaret çəkirdi.

Sənubər bu gün, doğrudan da, lap qəribə olmuşdu; hərdən ondan ayrılırdı, birinci dəfə görübmüş kimi heyran-heyran ona baxırdı, sonra yenə ona qısılırdı. O isə, bu baxışlar altında özünü Sənubərin qəyyumu sanırdı və nə isə təntənəli bir söz demək istəyirdi, amma nə deyəcəyini bilmirdi.

O, Sənubərin saçlarını bir də öpdü və dedi:

– Biz evlənəndən sonra həmişə bu otaqda ikimiz bir yerdə olacağıq.

O, doğrudan da, belə fikirləşirdi və buna inanırdı da; əslində indidən öz evlərində özünü qonaq hiss edirdi; o, hələ lap uşaqlıqdan kinorejissor olmaq istəyirdi, məktəbi qurtarandan sonra gedib Moskvada kinematoqrafiya institutuna girəcəkdi, amma indi fikirləşirdi ki, məktəbi qurtarandan sonra daha Moskvaya getməyəcək, Bakıda qalacaq, öz evlərindən çıxacaq, gedib bir yerdə işləyəcək – çox güman ki, şoferlik edəcək, çünki maşın sürə bilir və onlar evlənib bu otaqda yaşayacaqlar. Əvvəllər bircə şey onu düşündürürdü ki, bəs, Sənubərin anası harada qalacaq? O istəyirdi ki, yalnız ikisi – Sənubər və o bu otaqda yaşasınlar, başqa heç kim. Sənubərin anası da başqalar sırasında idi. Indi Sənubərin anası özü öz ayağı ilə çıxıb gedir, Ağahüseynə ərə gedir – özü bilən yaxşıdır.

– Heç nəyə əl vurmayacağıq bu otaqda, elə beləcə qalacaq.

Birdən Sənubər dartınıb ondan aralandı və onun heç vaxt görmədiyi bir nifrətlə qışqırdı:

– Allah vurmuşdu bu otağı! Zəhləm gedir bu otaqdan! Bezmişəm bu otaqdan. Hər daşına tüpürüm bu otağın.

O, heyrətlə Sənubərə baxırdı. Sənubər isə bu heyrətin fərqinə varmırdı. O heç təsəvvürünə gətirə bilməzdi ki, bu balaca otağa – onların otağına – bu qədər nifrət edir. Axı, niyə, niyə axı? – O, sinəsini dəlik-deşik edən bu sualı Sənubərə vermədi, nədənsə, birdən-birə Sənubərə yazığı gəldi, bilmədi niyə, yenə də Sənubərin saçlarını öpmək istədi, amma Sənubər başını kənara dartdı:

– Işin olmasın məndə! Burax məni, – dedi! – Azı on yaş kiçikdir anamdan! Mən neyləyəcəyəm? Çıxıb gedəcəklər, kef eyləyəcəklər özləriyçün! Bəs, mən neyləyəcəyəm? Bu dörd divar arasında qalıb neyləyəcəyəm?

Sənubər nə danışırdı, necə yəni mən bu otaqda neyləyəcəyəm, bəs, o?

Bircə anın içində hiss etdi ki, ürəyinin lap dərinliklərinə kimi təhqir olunub və buna dözmək mümkün deyildi; o, ayağa qalxıb otaqdan çıxdı. Sənubər dərhal sakitləşdi, elə bil üstünə soyuq su tökdülər, onun ardınca atılıb dedi ki, getmə, daha deməyəcəyəm, yalan deyirəm, elə-belə deyirəm, getmə, tək qalmaq istəmirəm, istəmirəm tək qalım burda, getmə.

O, tələsik arakəsmədən keçib dəhlizə çıxdı və qapını ardınca çırpdı, qorxdu ki, yenə tab gətirməz, yenə qalar orda; siqareti tullayıb pilləkənlərlə aşağı düşdü.

Sulu qar yağırdı. Onun kauçuk altlı çəkmələri qənbərin üstündə sürüşürdü, az qalırdı yıxılsın, amma o, səkiyə çıxmırdı – belə dilxor vaxtlarında həmişə qənbər döşənmiş bu küçənin tən ortası ilə düşərdi, bu, son dərəcə kinematoqrafik idi və o, hərdən özünü lap ekranda da görərdi.

Bu saat o yenə həyatın vəfasızlığı barədə düşünürdü, heç kimin onu başa düşmədiyindən sinəsi od tutub yanırdı.

Əlləri şalvarının cibində küçənin ortası ilə üzüaşağı düşə-düşə birdən yenə də nöyüt pilətəsinin iyini və istisini duydu, amma bu duyğu həmişəki kimi onu o saat qızışdırmadı – Sənubərin bayaqkı sözlərindən tamam sarsılmışdı: « – Mən bu dörd divar arasında qalıb neyləyəcəyəm?» Bəs, o! Bəs, o kimdir?

O, yenə də uğursuz taleyi barədə düşünməyə başladı, soyuq da ki, xəncər kimi kəsirdi.

Arxadan bir maşın siqnal verdi, sürücü də pəncərədən başını çıxarıb qışqırdı ki, küçənin ortasına niyə düşmüsən belə, başın bədəninə ağırlıq edir? O, tələsik səkiyə çıxdı, heç sürücüyə cavab verməyə də macal tapmadı – maşın ötüb getdi və bu maşın birdən-birə onun bədbin fikirlərini də dağıtdı və o, yenə də qorxdu ki, indicə geri dönüb təzədən Sənubərgilə gedəcək, ayaqlarını altına yığıb pilətənin qabağında oturmuş Sənubər də köşək gözləri ilə ona baxıb gülümsəyəcək: «Hə, nə oldu, bəs, çıxıb getmişdin?»

O, Vovagilə gedirdi ki, paltosunu götürsün, amma özü də hiss edirdi ki, paltonu götürmək istəmir, çünki Sənubər tək-tənha qalmışdı o balaca otaqda; ömründə Sənubəri bu cür görməmişdi, ömründə təsəvvür etməzdi ki, Sənubərin balaca cüssəsinə bu qədər nifrət sığışa bilər; niyə, axı, niyə bu balaca otağa – onların otağına – bu qədər nifrət edir? Deməli, bütün bu beş ay ərzində Sənubər ondan gizli bu balaca otağa – onların otağına – nifrət edirmiş... Indi tək oturub, orda nöyüt pilətəsinin qabağında, divanın üstündə, ayaqlarını da həmişəki kimi yığıb altına, şal da dizlərinin üstündədir, özü də gözünü pilətəyə dikib nazik barmaqları ilə şalın saçaqlarını oynadır; bənizi lap ağarmışdı, dodaqları titrəyirdi acığından, hamısı da bu balaca otağa görə – niyə, niyə axı?

O, başa düşdü ki, bir neçə dəqiqədən sonra qayıdıb Sənubərgilə gedəcək, hiss etdi ki, Sənubərin bu saat tək-tənha nöyüt pilətəsinin qarşısında oturmasına – özü də lap balacalaşmış Sənubərin, lap kimsəsizləşmiş Sənubərin – dözmək mümkün deyil.

Vovagil karamel fabrikinin yanında olurdular. Bu məhəllədən həmişə şirniyyat iyi gələrdi. Bu şirniyyat iyi, nədənsə, faciəli filmləri onun yadına salardı və bu zaman o özünü daxilən zəngin, daxilən dövlətli bir adam hiss edirdi, çünki onun hamıdan gizlin balaca bir otağı var idi və bu otaqda Sənubər var idi və Sənubərin köşək gözləri var idi, bu köşək gözlər hərdən gülürdü, hərdən tutulurdu.

O heç vaxt ac qalmamışdı, heç vaxt darısqallıq çəkməmişdi, heç bir faciə görməmişdi, amma bütün bunları doğma hiss edirdi, elə bil aclıq da çəkmişdi, faciələr də görmüşdü; o, aclıq çəkmiş, pis dolanmış adamların hisslərini duyurdu – hər halda, ona belə gəlirdi. Hərdən özünü faciələr keçirmiş bir adam kimi təsəvvür edirdi və bu cür anlarda onun yeganə mənəvi pənahgahı bu idi ki, hamıdan gizlin balaca bir otağı var və bu otaqda Sənubər var.

O, yenə də ovcunun altında Sənubərin nazik qabırğalarını hiss etdi, onun ürəyinin döyüntüsünü duydu...

Köhnə məscidin minarəsindəki işıq sönmüşdü, bığlı kişini yəqin düşürtmüşdülər aşağı, dördçarxlı sankasını sürüb getmişdi evlərinə; indi oturub uşaqları ilə çörək yeyirdi. Bəlkə, heç uşaqları yoxdur? Hər halda, bir adamı olmamış olmaz.

O, barmaqlarını büküb arakəsmə qapısını taqqıldatdı. Içəridən Sənubərin səsi gəldi:

– Gəl. Bağlamamışam.

O, bir balaca qızardı, çünki Sənubər bilirdi ki, o qayıdacaq və o qayıdıb.

Sənubər yenə də ayaqlarını altına yığıb divanın küncündə oturmuşdu, saçaqlı şal yenə də baldırlarının üstündə idi, nöyüt pilətəsi yenə də divanın qarşısındakı taxta kətilin üstündə yanırdı, yenə də nazik barmaqları ilə şalın saçaqlarını oynadırdı; gözlərini qaldırıb ona baxdı – elə bil başqa adamın gözləri idi bu gözlər.

O, ayaqüstə otağın qapısı ağzında dayanmışdı, nə isə bir söz demək istəyirdi, amma deyə bilmirdi və buna görə pərt olmuşdu. Sənubər onu çağırdı ki, gəl bura; özü də elə çağırdı, elə bil lap taqəti kəsilmişdi. O, Sənubərin bu cür səsini heç vaxt eşitməmişdi, bu səs onun ürəyinə bir xof gətirdi, suçlu adamlar kimi addımlayaraq gəlib divanda Sənubərin yanında oturdu, Cənubər də o saat onu qucaqlayıb başını pencəyinə qısdı və özünü tamam itirmiş halda hiss etdi ki, Sənubər hıçqırır. Əvvəlcə bilmədi nə eləsin, sonra soruşdu ki, nə olub? – Heç özü də bilmədi ki, necə soruşdu.

Sənubər daha da bərkdən hıçqırdı. Için-için ağlayırdı Sənubər, bütün bədəni titrəyirdi.

O özünü lap itirdi. Ömründə heç kim onun yanında bu cür ağlamamışdı. Sənubərin saçlarını öpməyə başladı; sonra başa düşdü ki, bu dəfə özünü saxlaya bilməyəcək; qəhərdən boğula-boğula: «– Nə olub, axı, sənə? – dedi. – Nə olub?»

Sənubər heç nə demədi, birdən-birə onun yanaqlarını iki əli arasına alıb dəli kimi üz-gözünü öpməyə başladı və şor tamlı göz yaşı onun bütün sir-sifətinə yayıldı və o, doğrudan da, özünü saxlaya bilmədi; Sənubər yenə də onun başını sinəsinə sıxdı, cod saçlarını qarışdırdı, yanağından öpdü; o, həmişəki kimi, başını Sənubərin sinəsindən çəkmədi, çünki özü öz göz yaşlarından utanırdı.

– Mənim səndən başqa heç kimim yoxdur! Heç kimim yoxdur səndən başqa! Hər gün gələcəksən mənim yanıma. Sənsiz bir günüm olmasın. Bircə dənəmsən mənim! – Birdən Sənubər onun başını qaldırıb düz gözlərinin içinə baxdı və dedi: – Istəyirsən elə indi sənin olum?

O, əvvəlcə bu sözlərin mənasını başa düşmədi, necə yəni istəyirsən elə indi sənin olum, bəyəm Sənubər onunki deyildi? Sonra ürəyindən bir üşütmə keçdi, sonra da hirsləndi. Sənubərin axmaqlığına hirsləndi.

– Hə, istəyirsən? – Sənubər yer üzündəki bütün əzab-əziyyətlərə sinə gərə biləcək bir tərzdə təkrar etdi.

O, başını Sənubərin əlləri arasından çəkib ayağa qalxdı və elə bil ki, nə edəcəyini bilməyərək pəncərəyə yaxınlaşdı, təkcə bunu dedi ki, lap səfehsən! Sonra pəncərənin qalın pərdəsini kənara çəkib küçənin o biri tərəfindəki məscidə baxdı, ona elə gəldi ki, kim isə məscidin hasarına qısılıb bu pəncərəyə baxır, sonra başa düşdü ki, bu onun özüdür.

– Lap səfehsən. – O, bir də dedi və hiss etdi ki, Sənubərə sarı çevrilə bilmir, utanır. – Nə olub e, sənə?

Sənubər arxadan onun çiyinlərini qucaqladı:

– Heç nə, heç nə olmayıb mənə. Istəyirəm ki, sən mənim olasan. Istəyirəm ki, sən heç vaxt məni tək qoymayasan. Qorxuram tək qalmaqdan.

O, Sənubərə tərəf çevrilib qızı qucaqladı. Onlar heç vaxt bu cür ayaqüstə qucaqlaşmamışdılar. O, elə bil ki, kənardan bu duruşlarına baxdı: teatrda artistlərin bir-birini qucaqlamağına bənzəyirdi bu qucaqlaşma, amma Sənubər lap balaca idi, lap cılız idi, özü də quş kimi çırpınırdı onun qolları arasında, teatrda artistlər bir-birini qucaqlayanda belə çırpına bilməzdilər.

– Tək niyə qalırsan? – dedi. – Bəs, mən nəyəm? Mən nəyəm bəs?

Sənubər elə bil bu sözləri gözləyirdi, yenə dəli kimi onun üz-gözündən öpməyə başladı; Sənubər heç vaxt bu cür qızğın, həm də bu cür köməksiz olmamışdı.

O, Sənubəri bərk-bərk qucaqladı, elə bil hamıdan, hər şeydən qoruyurdu Sənubəri; elə bərk qucaqladı ki, birdən özü də qorxdu – Sənubərin beli sınar.

– Bəs, mən nəyəm? Mən nəyəm bəs? – Təkrar etdi, çünki başqa söz tapa bilmirdi.

– Sən həmişə mənim olacaqsan? – Sənubər onun qolları arasından çıxıb yaşdan parıldayan gözləri ilə düz onun gözlərinin içinə baxdı.

– Əlbəttə. – O istədi ki, yenə nə isə desin, desin ki, bu nə sözlərdir ki, danışırsan, lap qəribə adamsan, bəyəm başqa cür ola bilər, başqa cür ola bilməz axı; amma heç nə demədi.

– Sən ömründə qoymayacaqsan ki, mən tək qalım!

– Əlbəttə.

– Sən hər gün mənim yanıma gələcəksən! Mən həmişə oturub səni gözləyəcəyəm.

O, daha heç nə demədi, çünki Sənubərin bu sözləri daha lap mənasız görünürdü, bütün bunlar aydın məsələ idi və bütün bu söhbətlər bu balaca otağa yaraşmırdı.

Sənubər onu divana çəkib yanında oturtdu və əlini götürüb içi dovşan dərili qolsuz kürkünün üstündən sinəsinə qoydu və o, başa düşdü ki, bu, Sənubərin təşəkkürü, mükafatı, bəxşişidir.

Sənubərin rəngi lap solmuşdu; bu solğunluq onun balaca cüssəsini lap kiçiltmişdi, balaca çənəsinin altındakı damarlar lap gömgöy göyərmişdi, köşək gözləri lap alacalanmışdı – bilmirdin nə rəngdədir – ürəyi də elə yavaş vururdu, elə bil bu saat dayanacaq. Birdən ona elə gəldi ki, Sənubər ölə bilər. Bu fikrin gözlənilməzliyindən onu soyuq tər basdı.

– Sənə nə oldu? – Sənubər bir az ürkmüş halda onun gözlərinin içinə baxdı.

– Heç nə. – O, əlini Sənubərin sinəsindən çəkib alnının tərini sildi.

Sənubər gözlərini ondan çəkməyərək soruşdu:

– Sən fikirləşəndə rus dilində fikirləşirsən?

Sənubər hərdən elə suallar verirdi ki...

– Rusca da, azərbaycanca da.

– Yox, sən həmişə rusca fikirləşirsən, mən bilirəm, azərbaycanca danışırsan, amma rusca fikirləşirsən. – Sənubər gülümsəyib onu qucaqladı. – Sən rusca romanlar oxuyacaqsan, – bilirsən necə romanlar? Hind filmləri kimi – sonra mənə azərbaycanca danışacaqsan, hə?

– Lap qəribə qızsan e sən. – Onu gülmək tutdu.

Sənubər hər bir hind filminə üç-dörd dəfə baxırdı, hamısını da ona danışırdı – danışanda da gözləri dolurdu – o da, canını dişinə tutub qulaq asırdı.

– Danışacaqsan, hə?

– Hə. – O, yenə güldü.

Sənubər gözlərini nöyüt pilətəsinə zilləyib nə barədəsə fikirləşirdi. O heç vaxt Sənubərin nə barədə fikirləşdiyini tapa bilməzdi, elə bilirdi ki, Sənubər bir şey barədə fikirləşir, amma Sənubər tamam başqa şey barədə fikirləşirdi.

Birdən Sənubər ayağa qalxdı:

– Istəyirsən sənin üçün yemək bişirim?

O, səhər evdən çıxanda heç nə yeməmişdi və yalnız indi bərk ac olduğunu hiss etdi. Lakin Sənubərin sözləri onun üçün çox qeyri-adi səsləndi, çünki indiyə qədər bu cür sözləri yalnız anasından eşitmişdi – «Nə yeyirsən, bişirim səninçün» və o, indi başa düşdü ki, bütün tanışlıqları ərzində Sənubərdə həmişə öz anasını görmüşdür – özü də bunu bilməyib, amma həmişə belə olub. Qəflətən ağlına gələn bu fikir elə bil onu sehrlədi, elə bil Sənubər də birdən-birə cana gəldi, üzünün solğunluğu getdi, köməksizliyi, kimsəsizliyi öldü, elə bil bu zəif elektrik lampası da otağı daha artıq işıqlandırdı, elə bil bu otaq da böyüdü birdən-birə, amma yenə də onların otaqları idi – onun və Sənubərin, elə beləcə də qaldı.

– Bu saat sənin üçün yemək bişirəcəyəm, oturub bir yerdə yeyəcəyik. – Sənubər onun cavabını gözləmədən arakəsməyə çıxdı, arakəsmədəki pəncərə sürahisinin altındakı karton yeşiyi çəkib altı-yeddi kartof, bir-iki soğan götürdü, bir göz qırpımında soyub çuqun tavaya tökdü, arakəsmədəki balaca dolabdan bir şüşə günəbaxan yağı çıxarıb tavaya tökdü və tavanı gətirib nöyüt pilətəsinin üstünə qoydu və bir azdan günəbaxan yağının iyi və cızıltısı otağı bürüdü.

O, ikinci siqareti çıxarıb taxta kətilə sarı əyildi və tavanın altından pilətənin odunda yandırdı, siqaretdən dərin bir qullab vurub günəbaxan yağında kartof qızardan Sənubərə baxa-baxa özünü dünyanın ən xoşbəxt insanı hiss etdi; sonra ayağa qalxıb bu balaca otaqda – onun və Sənubərin otağında – bir az var-gəl etdi, nöyüt pilətəsinin yanında dayanıb dodaqlarını Sənubərin saçlarında gəzdirdi. Sənubər üzünü ona tutub:

– Bu saat hazır olacaq, – dedi, özü də elə dedi, elə baxdı ki, o özünü saxlaya bilməyib yenə də dodaqlarını Sənubərin saçlarında gəzdirdi.

... O, yerində uzanıb qollarını başının altında çarpazlamışdı. Qonşu otaqdan atasının xorultusu gəlirdi. Anası da yatmışdı, qardaşı da yatmışdı, nənəsi də yatmışdı, amma o yata bilmirdi. Əslində o yatmaq istəmirdi, gözlərini yumurdu, Sənubər gəlib dururdu gözlərinin qabağında, özü də Sənubər günəbaxan yağında kartof qızardırdı və hərdən ona baxırdı, onun da dodaqları Sənubərin saçlarında gəzirdi, bu saçların qoxusunu hiss edirdi və yatmaq istəmirdi, çünki bu qoxu onu gələcəyə çəkib aparırdı, həmin gələcəkdə dünyanın ən xoşbəxt iki nəfəri yaşayacaqdı, bu iki nəfər öz balaca otaqlarında oturub günəbaxan yağında qızarmış kartof yeyəcəkdilər və həmişə bir-birilərini sevəcəkdilər.

Onların neçə aylıq görüşləri heç vaxt bugünkü kimi şirin olmamışdı. O, hiss edirdi ki, bu saat Sənubər də öz gecə köynəyində divanın üstündə uzanıb, güllü yorğanına bürünüb onun haqqında fikirləşirdi.

Onlar heç vaxt gələcək birgə həyatlarından danışmazdılar, hərdən o, divanın üstündə oturub Sənubərin saçlarını öpəndə – ürəyi kövrələn vaxt – bu barədə danışmaq istəyirdi, amma hər dəfə də Sənubər ona gülərdi, o da o saat söhbəti dəyişərdi. Bu gün isə Sənubər özü danışdı: gələcəkdə ikisi bir yerdə necə yaşayacaqlarından, ona nələr bişirəcəyindən, onun işdən qayıtmağını necə gözləyəcəyindən, axşamlar pilətənin üstündə su qızdırıb onun başını yuyacağından, xəstələnəndə onun belinə banka salacağından...

O, heç özü də bilmədi ki, necə yuxuya getdi və bütün gecəni yuxuda özünü təyyarədəymiş kimi hiss etdi – elə bil hey uçurdu, hərdən qalxırdı, hərdən enirdi və yuxuda özü də bilirdi ki, bu yuxudur, bilirdi ki, çarpayısında uzanıb yatıb, öz evlərindədir, heç hara getmir, amma ürəyi elə hey uçurdu.

Səhəri gün məktəbdə uşaqlar ona dedi ki, Izrail Solomonoviç dünən birinci dərsdə sizi görübmüş – səni də, Vovanı da – bildi ki, dərsdən qaçmısınız. Vova qorxusundan birtəhər oldu, amma o, bu xəbərin fərqinə varmadı, çünki dünyanın ən müstəqil adamı idi və heç kimdən çəkinmirdi, heç nədən qorxmurdu, yalnız gözləyirdi, gözləyirdi ki, iki gün gəlib keçsin, Sənubərin anası yenə səfərə çıxıb getsin, o yenə Sənubərgilə getsin, yenə öz balaca otaqlarındakı divanın üstündə, nöyüt pilətəsinin qarşısında otursunlar, yenə əlini içi dovşan dərili qolsuz kürkün üstündən Sənubərin sinəsinə qoysun, yenə dünənki kimi söhbət etsinlər, yenə gələcək birgə günlərini, balaca otaqlarındakı birgə həyatlarını aynadaymış kimi görsünlər, sevsinlər bir-birilərini.

Axşam evdə anası ondan soruşdu ki, sənə nə olub, gözümə birtəhər dəyirsən? O da anasının üzünə baxıb:

– Nə olacaq e, heç nə olmayıb! – dedi və özü də bilmədi ki, niyə qışqırır.

Vaxt elə yavaş keçirdi ki, bilmirdi neyləsin. O, Sənubərgilin məktəbinə getməzdi heç vaxt, hərdən lazım olanda həyətdə dayanıb onu gözlərdi, sözünü deyib çıxıb gedərdi. Onlar heç vaxt birgə gəzməyə çıxmamışdılar, heç kinoya da getməmişdilər. Bir dəfə Sənubər köşək gözlərini qıyıb demişdi: «– Bilirəm, məndən utanırsan, mənimlə camaatın gözünə görünməyə utanırsan, yaraşmıram sənə». O da qıpqırmızı qızarmışdı. Sonralar neçə dəfə istəmişdi Sənubərlə birlikdə gəzməyə çıxsın, amma Sənubər əvvəlcə gülmüşdü, sonra da demişdi ki, yox, elə yaxşısı budur ki, oturaq evciyəzimizdə.

Bu gün günorta məktəbin həyətində Sənubəri nə qədər gözləmişdisə də görə bilməmişdi – deyəsən, Sənubər dərsə gəlməmişdi.

Ikinci gün Izrail Solomonoviçin dərsi var idi və sinfə girən kimi onu ayağa qaldırdı, qalın şüşəli çeşməyinin altından acıqla onu süzüb soruşdu ki, srağagün harada idin?

– Dərsdən qaçmışdım.

Sinfə elə sükut çökdü ki, milçək uçsaydı, səsi eşidilərdi. Izrail Solomonoviç heyrətlə ona baxıb heç nə demədi və o yerində oturdu.

... Sənubərin anası qapıdan çıxanda o, yenə məscidin hasarına qısıla-qısıla tini burulub dayandı. Birdən bığlı kişi minarədən başını çıxarıb qışqırdı:

– Hə, gəlmisən yenə?

O, başını yuxarı qaldırdı. Bığlı kişi, həmişəki kimi, gözlərini bərəltdi. O heç özü də bilmədi necə oldusa, bu dəfə sözləşmək əvəzinə, əlini qaldırıb yellədi, yəni salam-əleyküm. Bığlı kişi də, deyəsən əvvəlcə bir şey qanmadı, sonra başını tərpədib gülümsədi, sonra da başı minarənin içində yox oldu.

Sənubərin anası gözdən itdi.

O, tini buruldu və qənbər döşənmiş küçəni keçib Sənubərgilin çöl qapısından içəri girdi və bir göz qırpımında dəhlizdəki taxta pillələnləri qalxıb barmağı ilə qapını taqqıldatdı.

Içəridən Sənubərin səsi gəldi:

– Gəl, açıqdır, bağlamamışam.

O, qapını açıb içəri girdi, sonra qapının cəftəsini bağlayıb balaca arakəsmə ilə otağa tərəf gəldi və yerində donub qaldı.

Sənubər otağın ortasında ayaq üstə dayanmışdı, əynində onun heç vaxt görmədiyi yaşıl don var idi. Bu yaşıl don par-par parıldayırdı, elə bil bu saat alışıb yanacaqdı. Sənubərin bütün sifəti gülürdü – gözləri də, təbəssümü də. Sənubər bu yaşıl donu ilə birlikdə bu otaq dolu xoşbəxtlik içində itib-batmışdı, bu yaşıl donun ətəklərini sığallaya-sığallaya özü öz görkəmindən ləzzət alırdı. Nə taxta kətil var idi divanın qabağında, nə də nöyüt pilətəsi. Bu otaq da onların otağı deyildi, silinib-süpürülmüş lap yad bir otaq idi, təzəcə yuyulmuş taxta döşəmə iyi gəlirdi bu otaqdan.

– Iki gündür harada itib-batmısan? – Sənubər gözlərini yaşıl donundan ayırıb ona baxdı.

Onun ürəyi düşdü. O bildi ki, fövqəladə bir hadisə baş verib və bu hadisə onun həyatı ilə bağlıdır və pis hadisədir bu; əslində o, qapını açıb ayağını arakəsməyə qoyan kimi hiss etmişdi ki, nə isə əvvəlki kimi deyil, nə isə çatışmır – nöyüt pilətəsinin iyiydimi, ya nəyidisə – bilmirdi, amma hiss etmişdi.

Sənubər yaşıl donunun ətəklərindən tutub gülə-gülə otağın ortasında fırlandı və fırlana-fırlana da dedi:

– Ərə gedirəm e! Ağahüseyn mənimçün gəlirmiş bizə! ...Indi nişanlanırıq, yayda mən məktəbi qurtarandan sonra evlənəcəyik!..

O, hiss etdi ki, bu saat qaçıb Ağahüseyni öldürmək lazımdır, amma ürəyinin lap dərinliklərində bunu da hiss etdi ki, artıq hər şey qurtarıb, qurtarıb gedib hər şey, artıq heç kimi və heç nəyi yoxdur.

– Bəs... bəs, sən sevinirsən? – Heç özü də bilmədi ki, necə soruşdu, lap yad bir adamın səsinə oxşayırdı bu səs.

– Ərə gedirəm də, ay axmaq! – Sənubər yenə yaşıl donunun ətəklərindən tutub gülə-gülə otağın ortasında fırlandı. Dünən kinoya getmişdik... Bilirsən nə əntiqə kinoydu!.. Oğlan maşın altda qalır, iki ayağını da kəsirlər. Sevgilisi əvvəlcə bunu bilmir. Elə bilir ki, oğlan ona naxələf çıxıb, sonra...

O, Sənubərin nə danışdığını eşitmirdi, bilirdi ki, bu saat Sənubərgildədir, Sənubər dünən baxdığı filmi danışır, amma nə danışdığını eşitmirdi. O, heç nə barədə fikirləşə bilmirdi, heç nə düşünmürdü, eləcə otağın qapısı ağzında dayanıb Sənubərə baxırdı və əslində Sənubəri də görmürdü, hər tərəfi yaşıl rəng görürdü, bu yaşıl rəngi tərli şüşə arxasından görürdü, hər tərəf par-par parıldayan yaşıl şüa idi.

– Bir azdan yenə gələcək, bu gün də teatra gedəcəyik. – Daha tək oturmayacağam burda. Daha mən haçan istəsəm gəzməyə gedəcəyik. Sabah da gedib onun evinə baxacağıq, təzə binadadı da evi, tramvay parkının işçiləri üçün tikiblər. Hamamı da var içində...

O yenə də heç nə eşitmirdi, yenə də tərli şüşə arxasından ancaq rəng görürdü, özü də şüşə lap tərləmişdi, yaşıl şüalar suya dönmüşdü lap və o, hiss edirdi ki, belə olmaz, belə baxmaq olmaz, amma heç nə edə bilmirdi, eləcə dayanmışdı otağın qapısı ağzında.

– A-a... Nə olub sənə? Ağlayırsan? ... – Sənubər yaxınlaşıb ona baxdı, sonra əlindən tutdu.

O, daha özünü saxlaya bilməyib o biri əli ilə gözlərini qapadı. O özü başa düşürdü ki, belə olmaz, lap biabırçılıqdır, amma heç nə edə bilmirdi.

– Bəsdir... Sən mənim canım, bəsdir... Lap uşaqdır e... Mən heç səni belə bilməzdim, lap uşaqsan e, sən... – Sənubər onun əlini ovuşdura-ovuşdura elə hey deyirdi, özü də ürəkdən deyirdi. – Bəsdir də, yaxşı... Istəyirsən yenə öpüm səni? Bəsdir də, bəsdir... Yenə görüşəcəyik də... Sən hələ oxuyacaqsan, məktəbi qurtaracaqsan, sonra institutu qurtaracaqsan, onda yenə görüşəcəyik səninlə ... On ildən sonra yenə görüşəcəyik səninlə... On ildən sonra sən lap yekə kişi olacaqsan...

O, Sənubərin üzünə baxmağa cəsarət etmədən geri döndü və ayaqları ayaqlarına dolaşa-dolaşa arakəsmədən keçib titrəyən barmaqları ilə qapının cəftəsini açdı, qaranlıq dəhlizə çıxdı. Qapı ardınca örtüldü.

Taxta pilləkənləri düşüb, bir müddət qaranlıq dəhlizdə dayandı; bu saat o, hamıdan artıq özündən utanırdı və buna görə də qaranlıqda dayanmaq istəyirdi. Sonra cibindəki üç siqaretdən birini çıxarıb yandırdı və dərin qullab vurub tüstüsünü sinəsinə çəkdi, bir anlıq gözləri qaraldı, başı da gicəlləndi bir balaca, sonra siqareti yerə atdı, ayağı ilə sıxıb söndürdü və küçəyə çıxdı.

Əlləri cibində səki ilə üzüaşağı düşürdü. Birdən göyün yeddinci qatından bığlı kişinin səsi gəldi:

– Hə, gedirsən?

O, çönüb məscidin minarəsinə tərəf baxdı: bığlı kişi yenə də başını minarənin darısqal pəncərəsindən bayıra çıxarıb ona baxırdı. Bığlı kişi gülümsədi və başını tərpətdi, yəni, işində ol. O, əlini qaldırıb yellədi və nədənsə, elə bil bir balaca yüngülləşdi.

On ildən sonra... O, başa düşürdü ki, on ildən sonra, doğrudan da, Sənubərlə görüşə bilər, lakin sövq-təbii hiss edirdi ki, o vaxt nə bu küçə bu cür olacaqdı, nə balaca otaqlarını bu cür sevəcəkdi, nə də həmin nöyüt pilətəsi bu cür yanacaqdı.

O hiss edirdi ki, on ildən sonra bugünkü kimi bu boyda dünyada heç kəsi yox, ancaq və ancaq bircə nəfər Sənubəri olmayacaq, amma o istəyirdi ki, həmişə bircə nəfər Sənubəri olsun.

O sövq-təbii hiss edirdi ki, on ildən sonra dodaqlarını Sənubərin saçlarında gəzdirəndə daha ürəyi kövrəlməyəcək və elə bil ki, indidən bu kövrəkliyin həsrətini çəkirdi.

O hiss edirdi ki, on ildən sonra Sənubərlə bu cür görüşməyəcək, elə-belə, olsa-olsa, küçədə rastlaşa bilərdilər, salamlaşıb ötəcəkdilər, bəlkə heç salamlaşmayacaqdılar və keçmişləri yada salıb bu günlərə güləcəkdilər, bu günlərə yuxarıdan aşağı baxacaqdılar. O hələ indidən istəmirdi ki, on ildən sonra, bu günlərə yuxarıdan aşağı baxsın, ələ salsın bu günləri.

Sonra birdən-birə ona elə gəldi ki, elə bil indidən on il böyüyüb, əvvəlki adam deyil daha.

Onun başına cürbəcür başqa fikirlər də gəlirdi və bütün bunlar barədə fikirləşmək üçün gedib dəniz kənarındakı kürsülərdən birində təkcə oturmaq istədi, amma yadına düşdü ki, sabah Izrail Solomonoviçin dərsi var, hazırlaşmaq lazımdır əməlli-başlı – Izrail Solomonoviçlə zarafat etmək olmaz. Cibindəki siqaretləri çıxarıb tullayaraq – gecələr anası ciblərini yoxlayırdı – Vovagilə tərəf üz tutdu ki, paltosunu götürüb evlərinə getsin.

*Dekabr, 1970.*

# IKI ÇAL PAPAĞIN VƏ BIR QARA KEPKANIN NAĞILI

Çox şilaşı yemişəm, amma belə yalan deməmişəm. Günlərin bir günündə, Məmməd Nəsir tinində, biri var idi, biri yox idi, Allahdan savayı heç kəs yox idi, təkcə iki nəfər Çal Papaq var idi, bir nəfər də Qara Kepka və Qara Kepkanın da bir sevimli həyat yoldaşı var idi ki, adı Çadra xanım idi.

Bu Çal Papaqlar elə Çal Papaqlar idi ki, hörmətləri dağ boyda – həm bu ətrafda yeganə Çal Papağıydılar, həm də ki, cəmi-aləm bunların arasındakı dostluqdan, mehribanlıqdan danışırdı, çünki bu dostluq, ayrı dostluq idi, söz ilə deyiləsi deyildi.

Hər qapının ağzında Çal Papaqlar içəri girməzdən əvvəl düz yarım saat dayanırdılar – o buna deyirdi ki, birinci sən buyur, bu ona deyirdi ki, yox, birinci sən buyur.

Hər dəfə restoranda yeyib içəndən sonra, «Inturist»in xörəkpaylayanı utancaq Duvaq xanım filan qədər dururdu Çal Papaqların qabağında, gözləyirdi ki, pulu kimdən alsın, – bu, onun əlini geri qaytarırdı ki, pulu gərək mən verəm, o bunun əlini tuturdu ki, yox, pulu gərək mən verəm.

Bir də görürdün ki, Çal Papaqlardan birinin qabağına təzə əmlik quzu əti çıxdı, o saat alıb göndərirdi dostu o biri Çal Papağın evinə, amma o Çal Papaq baxırdı ətə, görürdü qiyamət ətdir, bunun kababı dəsgah olar, rəva bilmirdi özü yesin, təzədən göndərirdi geri ki, yox, bunu gərək sən özün yeyəsən və ət bu evdən o evə, o evdən bu evə o qədər gedib gəlirdi ki, axırda xarab olurdu, nə bu Çal Papaq yeyirdi təzə əmlik quzu ətinin kababını, nə də o Çal Papaq.

Gördüyünüz kimi, bu Çal Papaqların dostluğu çox yüksək mərtəbədə və mötəbər idi.

Indi sizə kimdən xəbər verim, Qara Kepkadan. Qara Kepka başqa bir şəhərdə idi və həmin şəhərdə öz işini görüb qurtarmışdı, indi də oturub vəfalı həyat yoldaşı Çadra xanımla məsləhətləşirdi ki, hansı şəhərə getsinlər. Qara Kepka iki tel almışdı. Birinci tel xəbər verirdi ki, filan şəhərdə iki nəfər Şlyapa var ki, möhkəm dostluğa başlayıblar. Ikinci tel də xəbər verirdi bizim möhtərəm Çal Papaqlardan.

Çadra xanım çox tədbirli və çox da savadlı qadın idi, universitetin hüquq fakültəsini bitirmişdi. Qara Kepkaya gələn telləri bir də nəzərdən keçirdi və belə məsləhət gördü ki, əvvəlcə baş çəksinlər Çal Papaqlara, çünki dostluqları bu zalımların lap zırpı həngamə idi və bu dərəcədə dostluğun üstündə Qara Kepkaya töhmət verə bilərdilər. O ki, qaldı Şlyapalara, onların işi asan idi, hələ təzə başlayırdılar dostluğa.

Qara Kepka əziz arvadının məsləhətini çox bəyəndi və bütün gecəni evdə oturub televizora baxdılar, bir-birilərini sevdilər, səhər də gedib təyyarəyə bilet aldılar.

Az keçdi, çox keçdi – nağılda vaxt tez keçər – yenə də günlərin bir günündə Çal Papaqlar oturub şahmat oynayırdı, birdən qulaqlarına belə bir xəbər çatdı ki, bəs, filan yerdən bu şəhərə bir Qara Kepka gəlib, sizinlə dost olmaq istəyir. Çal Papaqları gülmək tutdu və o qədər güldülər ki, gəl görəsən. Külfətləri də bu xəbəri eşidib qoşuldu onlara, Çal Papaqlardan birinin xanımı yazıq Neylon Yaylıq o qədər güldü ki, az qaldı qəşş edə. Sonra da Çal Papaqlar bir-birinə baxıb dedilər ki, aya, camaat ağlını itirib məgər belə xam xəyala düşür, bizim dostluğumuz bəyəm kolxoz bazarızaddır ki, hər yoldan ötəni qəbul edək?! Dünyada qəribə avamlar var imiş!

Həmin gün Çal Papaqlar Avropada təhsil almış kababçı Beretin kababxanasına getdilər və dostluqlarının sağlığına bir şüşə beşulduz çeçen-inquş konyakı içdilər.

Qara Kepka isə həmin günü mehmanxanadan çölə çıxmadı, istəkli zövcəsi Çadra xanımla oturub xeyli məsləhətləşdi və düz üççə gündən sonra şəhər qəzetində Qara Kepkanın böyük bir oçerki çap olundu. Oçerkin adı «Adımızı nəhəng dağlar qədər ucaldanlar» idi, özü də bəhs edirdi Çal Papaqlardan, Çal Papaqların arasındakı dostluqdan, sirdaşlıqdan, özü də elə bəhs edirdi ki, adam oxuyub qurtarandan sonra deyirdi ki, bir də oxuyum, bir də oxuyandan sonra deyirdi ki, bir də oxuyum, axırda da deyirdi ki, bərəkallah və mərhaba!

Çal Papaqlar da bu böyük oçerki oxuyub qurtarandan sonra xeyli feyziyab oldular, gözləri yaşardı və bir-birinə baxıb dedilər ki, aya, nə gözəl baş geyimiymiş bu Qara Kepka! Biz tilsimdəyikmiş, ya nə imiş ki, bunu görə bilmirmişik?!

Axşam Çal Papaqlar restorana üç nəfər girdilər: Birinci Çal Papaq, Ikinci Çal Papaq və bir də ki, Qara Kepka. Yedilər, içdilər və xeyli nuş oldu və kefləri də dupduru.

Qara Kepka əvvəlcə qalxıb Çal Papaqların ikisinin də şərəfinə birdən sağlıq dedi, sonra da əlifba sırası ilə əvvəlcə Birinci Çal Papağın şərəfinə, bir dəfə də Ikinci Çal Papağın şərəfinə sağlıq dedi.

Axırda son dərəcə mütəəssir olub gözləri yaşarmış Çal Papaqlar ikisi də birdən qalxıb Qara Kepkanın sağlığına:

– Yaşasın təmiz qəlbli, mərd ürəkli, obyektiv fikirli Qara Kepka! – dedilər. – xörəkpaylayan Silindrlə haqq-hesablaşıb restorandan çıxdılar və o gündən də Qara Kepka oldu Çal Papaqların ikisinin də canbir sirdaşı.

Qara Kepka hər dəfə Çal Papaqlardan ayrılıb mehmanxanaya gələndə sədaqətli həyat yoldaşı Çadra xanım ondan soruşurdu:

– Əziz ərim Qara Kepka, işlər necə gedir?

Qara Kepka da cavab verirdi ki:

– Işlər pis getmir, mehriban sevgilim Çadra xanım.

Çadra xanım gülürdü, amma elə gülürdü ki, əziz əri Qara Kepkadan başqa heç kim eşitməsin:

– Hi-hi-hi.

Qara Kepka da qoşulurdu ona:

– Ha-ha-ha... – Amma o da, elə gülürdü ki, mehriban sevgilisi Çadra xanımdan başqa heç kim eşitmirdi.

Bu minval ilə dəqiqələr saat olurdu, saatlar gün, günlərin də ay olmağına az qalmışdı ki, Çadra xanım ərinin baxmaqdan doymadığı qara gözlərinə bir də baxıb bir balaca təşvişlə dedi:

– Ezamiyyətin qurtarmağına az qalıb ha...

Qara Kepka tən ortasındakı düyməni qaşıyıb dedi:

– Doğrudur, vaxtdır daha!

Qara Kepka axşamçağı mehmanxanadan çıxanda Çadra xanım ərinin ardınca bir stəkan su atdı və Qara Kepka da birbaş gəldi Birinci Çal Papaqgilə.

Birinci Çal Papağın kefi kök idi yaman, Seyid Əzim Şirvaninin qəzəllərini «Segah» üstündə dodaqaltı zümzümə edirdi, Qara Kepkanı görən kimi lap kökəldi kefi, keçdi «Çahargah»a. Sonra bir xeyli hal-əhval tutdular, bir-birilərinə «maşallah» dedilər ki, göz dəyməsin və nəhayətdə Qara Kepka gəldi mətləbə:

– Möhtərəm Çal Papaq! Güman edirəm ki, siz mənim sədaqətimi və sizə qarşı hədsiz hörmətimi hiss etməmiş deyilsiniz.

– Biz sənin dostluğunu düşmənlərimizə verdiyin cavablardan görmüşük, səni bərkdə-boşda sınamışıq, əziz Qara Kepka, belə sözlər nəyə lazım?

– Bilirsinizmi, məsələ bir az başqa cürdür... – Qara Kepka tən ortasındakı düyməni qaşıyıb bütün təcrübəsini səfərbərliyə aldı. – Möhtərəm və möhtəşəm Çal Papaq, mən son əsərimi sizdən, sizin dərinizin əla keyfiyyətindən, sizin tükünüzün ipək incəliyindən, zərif qıvrımlarından yazmağı qərara almışam, sizi tikən papaqçının mahir sənətkarlığını tədqiq etmək istəyirəm. Otuz beş çap vərəqi həcmində olacaq bu əsər. Lakin...

– Lakin?

– Bəli.

– Nə lakin?

– Bilirsinizmi, möhtərəm və möhtəşəm...

– Qısa elə, Qara Kepka!

– Məni qoymurlar bu istəyimə nail olum.

– Necə?! Kim buna cürət edir?

Çal Papağın nəriltisində elə bir zəhm var idi ki, gözlərini elə bərəltmişdi ki, gəl görəsən, amma zalım Qara Kepkanın nə dili dolaşdı, nə də canına üşütmə düşdü.

– Sizin dostunuz Çal Papaq!

– Nə?!!

– Bəli. Lakin bu, hələlik öz aramızda qalmalıdır, möhtərəm və...

Çal Papaq Qara Kepkanın sözünü kəsib dimdiyindən yapışdı ki, yapışdı, sıxdı, sıxdı:

– Yalan dediyini təsdiq et, vicdansız, təsdiq et!!!

– Əfsuslar olsun ki, bu yalan deyil, möhtərəm və möhtəşəm və mötəbər Çal Papaq, acı həqiqətdir. Mən sizə demək istəmirdim, lakin...

Çal Papağın əlləri süstəldi, dağ qaməti büzüşdü – şair yaxşı deyib: «Döydü yağış məni, döydü qar məni, bir qarışqa minsəm, aparar məni».

– Yox! Yox! Bu ola bilməz! Bu mümkün olan şey deyil. Düzünü de, Qara Kepka, vicdanına and verirəm, düzünü de!

Qara Kepka sidq-ürəkdən vicdanına and içdi ki, düzünü deyir, otuz beş çap vərəqi həcmindəki kitabının qarşısına çıxan maneə budur ki, var.

Çal Papaq inildədi, yəni sizə güvəndiyim dağlar, sizə də qar yağarmış, sizi də çən basarmış, ay dad, ay bidad, sizin də üstünüzü duman alarmış...

Qanadları qırılmış Çal Papaq inildəməkdə olsun, sizə kimdən xəbər verim, Qara Kepkadan. Qara Kepka eləmədi tənbəllik, Birinci Çal Papaqgildən çıxıb gəldi Ikinci Çal Papaqgilə, yenə Birincigilə, təzədən Ikincigilə və nə etdi, nə etmədisə – zalımın qorxusu yox idi! – yavaş-yavaş Birinci Çal Papaq durub-oturub Ikinci Çal Papağı ifşa etməyə başladı, Ikinci Çal Papaq da Birinci Çal Papağı, amma Qara Kepka bu Çal Papaqgildən o Çal Papaqgilə, o Çal Papaqgildən bu Çal Papaqgilə gedib-gəlməkdən yorulmadı ki, yorulmadı və bu təşriflərin sayəsindəydi ki, bazarda Birinci Çal Papağın qızı Kəlağayıya rast gələn Ikinci Çal Papağın oğlu Araqçın arxadan qıza bir kəllə vurdu ki, biçarə qız üzüqoylu sərildi yerə və yaxındakı aptekdə burnuna naşatır spirti tutmasaydılar ayılan deyildi. Araqçın da dabanına tüpürüb qaçdı evə.

Amma bununla qurtarsaydı, yenə abırdan idi – Çal Papaqlar özləri evdən çıxıb düşdülər küçənin ortasına: o buna yumruq, bu ona şillə, o buna təpik, bu ona badalaq. Cəmi-aləm də ki, çıxmışdı tamaşaya.

Həmin gündən sonra Çal Papaqlar arasında bu cür savaşlar ki, Ingiltərədə buna keltç deyərlər, tez-tez baş verdi və onların camaat arasındakı hörmət-izzəti bir tərəfə qalsın, özlərində də bir Çal Papaqlıq qalmadı – ikisinin də tükü yonulmuşdu tamam, Birinci Çal Papağın dərisində beş cırıq var idi; Ikinci Çal Papağın dərisində yeddi cırıq, ikisi də axsayırdı, ikisi də... Nə isə, mən hələ dərinə getmirəm, bizim zəmanənin nağılı gərək müxtəsər olsun.

Camaat əvvəlcə bütün bu əhvalatlara bərk təəccübdə idi. Sonralar bu təəccüb kefiköklüklə əvəz olundu, yəni onlar Çal Papaqların verdikləri tamaşalara baxıb həzz almaqla məşğul idilər, amma yavaş-yavaş bu kefiköklük dəxi söndü və mən bu camaata heyrət edirəm ki, özlərini elə aparırdılar, elə bil dünyada heç sabiq möhtərəmlər olan Çal Papaqlar kimi bir zad yox imiş.

Qara Kepkanın isə həyat yoldaşı, könül dostu, qəlb sirdaşı, vəfalı sevgilisi Çadra xanımla birlikdə kefi kök, damağı da ki çağ idi, özü də gedib Şlyapalar yaşayan şəhərə bilet almışdı.

Burda nağılı qurtardım.

Göydən üç alma düşdü: biri mənim, biri bu nağılı yazanın, biri də oxuyanın.

Vəssalam, şüttamam.

*1963–1970.*

## GÜMÜŞÜ, NARINCI, MƏXMƏRI...

Xoruzun axırıncı banından bir az keçmiş, Qəşəm kişi həyətə düşdü, amma baxıb gördü ki, yenə çisəkləyir, özü də lap soyuqdur, təzədən artırmaya qalxıb müharibədənqalma şinelini ağ tuman-köynəyinin üstündən çiyninə saldı və sidq-ürəkdən əsnəyib hələ də üşüyə-üşüyə həyətin aşağı başına tərəf getdi.

Bu il payız gec gəlmişdi, amma yaman gəlmişdi – dörd gün idi kənddə hava açılmırdı, elə hey xırda-xırda çisəkləyirdi. Birdəfəlik şıdırğı yağmırdı ki, adamın canı qurtarsın; bu gün də, deyəsən, elə belə olacaqdı.

Ayna arvad da artırmaya çıxıb həyətə boylandı və o da ürəyində havanın qarasına deyindi.

Amma bu saat bu evdə bir adam da vardı ki, bu gecikmiş payız da, bu zəhlətökən çiskin də onun heç vecinə deyildi, çünki həmin adam – Allahverdi – keflə yatırdı isti yorğan-döşəyində, həm də yuxu görürdü. Görürdü ki, təzə ayaqqabı geyib, təzə kostyum geyib, boynuna da qalstuk taxıb dayanıb rayon mərkəzindəki dəlləkxananın qabağında, başında da şəhərdən gələn kinooperatorun papağından bir papaq. Hamı heyrətlə gah Allahverdiyə baxırdı, gah da Allahverdinin başına qoyduğu bu papağa. Allahverdi də bundan qürurlanırdı. Birdən o gördü ki, dədəsi bazar başından ona sarı gəlir. Doğrudan da, Allahverdinin dədəsi oğluna yaxınlaşıb başına qoyduğu papağa baxdı və həmişəki zəhmlə soruşdu:

– O nədi, ə, qoymusan başına?

Allahverdi ağzını açmağa macal tapmamış dədəsi yenə nə isə qışqırdı.

Qəşəm kişi artırmada dayanıb yenə üzünü Allahverdi yatan otağa sarı tutdu və qışqırdı:

– Ə, Allahverdi, gün günortanı keçdi, dursana!

Allahverdi var gücü ilə çalışdı ki, rayon mərkəzindəki dəlləkxananın yanından heç hara getməsin, amma mümkün olmadı, çünki Qəşəm kişi bu dəfə açıq-aşkar hədə-qorxu gəldi:

– Ə, Allahverdi!

Allahverdi hələ də gözünü açmayıb isti yorğan-döşəyində bu səhər axırıncı dəfə gərnəşdi – bilirdi ki, bir azdan bu istini də, bu yuxunu da həyətdəki boz payız əvəz edəcək – sonra gözünü açıb zoğalı boya ilə rənglədikləri tavana baxdı və ərinə-ərinə soruşdu:

– Nədi e?

Əlbəttə, Allahverdi özü lap yaxşıca bilirdi ki, iş nə yerdədir: həmişəki kimi, əvvəlcə göydəmir ürgəni tövlədən çıxarıb arxa suvarmağa aparmalıydı, sonra qayıdıb Qızıl inəyi naxıra qoşmalıydı, sonra bir-iki qucaq odun doğramalıydı, sonra isə, isti südlə pendir-lavaşını yeyib dərsə getməliydi. Bunların hamısını yaxşı bilirdi, amma hər dəfə də dərsə hələ iki saat qalmış yuxudan durmaq müsibət idi onun üçün, ələlxüsus da payızın bu çiskinində.

Eybi yox, az qalmışdı, lap az qalmışdı Bakıya gedib instituta girməyinə: qış gəlib keçəcəkdi, yaz gəlib keçəcəkdi, sonra da yay gələcəkdi – imtahan imtahan dalınca – sonra da xudahafiz, göydəmir ürgə, xudahafiz Qızıl inək, xudahafiz, vələs saplı balta. Imtahanlar çətin olacaqdı – aydın məsələdir – amma nə qədər çətin olsa da, səhərin gözü açılmamış hövlnak isti yorğan-döşəkdən qalxıb payızın çiskininə girməkdən min dəfə asandı.

Qəşəm kişinin lap səbri tükənmişdi:

– Ə, noldun?!

– Durdum e, durdum!..

Allahverdi yorğanı üstündən atıb çarpayıda oturdu, yekə ayaqlarının altındakı cecimdə toxunmuş ceyran sürüsünə baxdı, sonra qızarmış gözlərini qırpa-qırpa geyinməyə başladı.

Qəşəm kişi Qızıl inəyi tövlədən çıxarıb artırmanın altına çəkdi. Qızıl inəyin buzovu da quyruğunu yelləyə-yelləyə canfəşanlıqla düşdü anasının dalına.

Üşüyə-üşüyə artırmadakı əl-üzyuyanda xala xətrin qalmasın yuyunan Allahverdinin buzova yazığı gəldi və ürəyində fikirləşdi ki, ay yazıq buzov, sənin təqsirin nədir ki, gül kimi tövləni qoyub düşürsən bu sısqa çiskinin altına.

Qəşəm kişi buzovu inəyin qıçına bağladı, Allahverdinin anası Ayna arvad da artırmanın altında çöküb sərnici qoydu iki dizinin arasına və başladı inəyi sağmağa.

Allahverdi ərinə-ərinə aşağı düşüb salamsız-kəlamsız tövləyə tərəf getdi, içəri girib göydəmir ürgəni axurdan açdı, cilovu atın başına keçirib darta-darta həyətə çıxartdı, darvazanın qapısını itələyib göydəmir ürgənin çılpaq belinə tullandı: cavan və sağlam at öz yolunu tanıyırdı və öz işini də bilirdi.

Allahverdinin sinif yoldaşı, yəni Allahverdi ilə birlikdə kənddəki məktəbin onuncu sinfində oxuyan Məlik də həmişəki kimi əsnəyə-əsnəyə oturmuşdu kəhər madyanlarının belində və kəhər madyan da ədəb-ərkanla arxdan su içirdi, alapaça dayça da böyründə. Allahverdini görəndə Məlikin birinci sözü bu oldu ki, Səftər müəllim xəstələnib, dərsə gəlməyəcək.

Yuxudan kal durduğuna görə hələ də aynası açılmamış Allahverdi gözlərini qırpa-qırpa:

– Ba? – dedi və ürəyində fikirləşdi ki, yazıq Səftər müəllim neyləsin, belə sarsaq havaya da revmatizm tab gətirər? – Revmatizmi qalxıb?

Məlik əsnəməyinə ara vermədən:

– Hə, – dedi.

Səftər müəllim Məlikgilin həyətbir qonşusu idi, fizika müəllimi idi və bu gün də birinci dərs fizika dərsi idi; deməli, bu gün birinci dərs olmayacaqdı.

Kəhər madyan sudan doyub boynunu qaldırdı, əvvəlcə bir an müdrik-müdrik arxın o tayındakı heyva ağaclarına baxdı, sonra yenə başını aşağı salıb arxın qırağında təzə göyərmiş payız otundan otlamağa başladı. Məlik cilovu çəkib:

– Cəfər rayona gedir, – dedi. – Axşama kino gətirəcək.

Allahverdi yenə də:

– Ba? – dedi və göydəmir ürgənin arxdan su dümləməsinə tamaşa elədi.

Cəfər, Məlikin böyük qardaşı idi, özü də kinomexanik idi, iki gündən bir, üç gündən bir rayondan film gətirirdi, axşamlar klubda göstərirdi. Kinomexanik Cəfər kənddəki cavanların arasında hörmətli adam idi, amma həmin əcaib papaqlı kinooperator Bakıdan gəlib bu kəndə çıxalı Cəfərin hörmətinə bir az xələl toxunmuşdu, çünki məlum olmuşdu ki, dəvədən böyük fil var, yəni məlum olmuşdu ki, bir var hıqqana-hıqqana velosipedlə buradan rayona gedəsən, hıqqana-hıqqana da oradan bura film gətirəsən, bir də var ki, par-par parıldayan aparatı əlinə alıb tutasan gözünün tuşuna və başlayasan özün film çəkməyə.

Bakıdan gələn kinooperator dörd gün idi ki, kənddə idi, özü də qalırdı Allahverdigildən iki ev yuxarıda olan Salman kişigildə. Dörd gün idi gəlmişdi, amma heç nə çəkə bilməmişdi, deyirdi ki, hava pisdir, gərək gün çıxsın.

Həmin kinooperatorun başına qoyduğu qırmızı papaq Allahverdinin yadına düşdü və bayaq gördüyü yuxunu da xatırladı və fikirləşdi ki, nə münasibətlə bu qırmızı məxmər papağı başına qoyub rayondakı dəlləkxananın qabağında durmalıymış? Orasını da fikirləşdi ki, axır günlər elə hey səfeh yuxular görür.

Allahverdi qayıdıb həyətlərinə girəndə Ayna arvad buzovu açıb buraxmışdı Qızıl inəyin altına və buzov da anasının əmcəyini əmməkdə idi.

Ayna arvad artırmanın altında qırmızı kərpicdən hörülmüş kürədə ocaq çatıb mis qazanda süd qaynadırdı.

Qəşəm kişi kürəklə tövlənin peyinini kürüyüb qurtarmışdı.

Allahverdi atın belindən atılıb göydəmir ürgəni tövləyə gətirdi, dəmir qaşovla tumarlamağa başladı.

Qəşəm kişi xəlbirdən keçirtdiyi beş-altı qoşa ovuc arpanı axura tökdü və axurdakı samanla qarışdırdı, sonra dəmir qaşovu Allahverdidən alıb:

– Yeri, bir-iki qucaq odun yar, – dedi.

Allahverdi tövlədən çıxıb artırmanın altında bir tərəfə dəstəçin yığılmış odundan bir yekə qucaq götürdü və həyətin ortasındakı yoğun kötüyün yanına gəlib yarmağa başladı. O, vələs saplı baltanı başının üstündə hərləyib odunları bir-bir parçaladıqca, bədəninə bir istilik gəldi, canı qızışmağa başladı, yavaş-yavaş tərlədi və yavaş-yavaş da bu çiskinli payızın ürəkqısan əhvali-ruhiyyəsi çıxdı getdi işinin dalınca.

Allahverdi düyünlü bir palıd kötüyünə möhkəm balta ilişdirib buğlana-buğlana dedi:

– Səftər müəllim xəstələnib yenə, birinci dərsimiz olmayacaq.

Artırmanın pilləkənində oturub acqarına papiros çəkə-çəkə Qızıl inəyin altındakı buzova tamaşa edən Qəşəm kişi soruşdu:

– Yenə ayağının yelidi?

– Hə. – Allahverdi palıd parçasını tən iki yerə böldü və fikirləşdi ki, belədir kənd həyatı, hamı bir-birini tanıyır və hamı da bilir ki, kim hansı dərdə mübtəladır.

Burası doğru idi ki, Allahverdi şəhər həyatı görməmişdi, yəni, dədəsi Bakıya gedəndə hər dəfə iki-üç gündən artıq qalmamışdı dayısıgildə, amma orası da doğru idi ki, Allahverdi kənd həyatı barədə fəlsəfəyə qapılırdı, çünki Allahverdi hiss eləyirdi şəhər həyatını; yəni özünü gətirirdi gözlərinin qabağına və gözlərinin qabağında da günlərlə yaşayırdı şəhərdə: səhər-səhər qəhvəxanaya girib sosiska yeyirdi, günorta stadiona gedib futbola baxırdı, axşamçağı bulvarda gəzməyə çıxırdı və başlayırdı heç vaxt görmədiyi adamların arasında gəzişməyə. Bundan gözəl şey var ki, hər gün təzə adamlar görəsən? Yəni bundan gözəl şey var ki, hər gün yuxudan durasan və bütün gün ərzində küçələrdə, mağazalarda, bağda-bağatda indiyəcən görmədiyin adamlar görəsən?

Qabaqlar – üç-dörd il bundan əvvəl, Bakıdan gələn asfalt yol Allahverdigilin kəndlərinin böyründən ötüb gedirdi. Allahverdigil də – kəndin bütün uşaqları – həmişə yığışırdılar yolun qırağına və saatlarla oturub Bakıdan gələn, Bakıya gedən maşınlara tamaşa edirdilər.

Bir də görürdün bir maşın dayandı onların yanında və sürücü başını çölə çıxarıb nə isə soruşurdu onlardan – bu yol filan yerə gedir? Bu kəndin adı nədir? Filan yerə neçə kilometr qalıb?.. – onlar da canfəşanlıqla, bir-birinin sözünü kəsə-kəsə cavab verirdilər, başa salırdılar. Ya da bir şey lazım olurdu, məsələn, maşına tökməyə su lazım olurdu, sürücü su istəyirdi, uşaqlar da hamısı su dalınca qaçırdı, hamısı istəyirdi ki, köhnə kameralardan kəsib düzəltdiyi rezin vedrəsini birinci gətirsin və onun gətirdiyi suyu maşına töksünlər; hamı – təkcə Allahverdidən başqa.

Allahverdi heç hara qaçmırdı, elə-beləcə dayanırdı yolun qırağında və başlayırdı maşının içindəki adamlara tamaşa eləməyə, sonra da gecələr yuxu görürdü, cürbəcür yuxular: özü gedərdi maşında, özü termosdan çay töküb içərdi, özü geyərdi şəhərli uşaqların geydiyi rəngbərəng paltarları.

Üç-dörd il bundan əvvəl təzə yol çəkdilər və bu təzə yol daha Allahverdigilin kəndlərinin böyründən deyil, birbaş rayon mərkəzindən keçirdi. Uşaqlar daha bu yolun qırağına yığışmırdı, çünki daha bu yoldan maşın gəlib-getmirdi, gələndə də rayondan kəndə gəlirdi, kənddən rayona qayıdırdı.

Allahverdi odunu gətirib kürənin yanında dəstəçin elədi və Qəşəm kişi də əlindəki papirosun kötüyünü ocağa atıb dedi:

– Apar heyvanı qat naxıra.

Qəşəm kişi həmişə buyruq verirdi, guya ki, Allahverdi öz işini bilmir – gündəlik işlər idi və bu günlər də Allahverdi üçün bir-birinin güzgüdəki əksi idi.

Ayna arvad buzovu Qızıl inəyin altından dartıb çıxartdı ki, kəndin buzovlarına qatsın. Allahverdi də Qızıl inəyi darvazadan adladıb üzüaşağı gedən kəndarası araba yoluna düşdü və yenə də bayaqkı yuxusunu xatırladı və təzədən fikirləşdi ki, nə münasibətlə şəhərdən gəlmiş həmin kinooperatorun əcaib papağını başına qoyub rayondakı dəlləkxananın qabağında durmalıymış?

Allahverdi bir şey barədə fikirləşəndə, yarımçıq qoymazdı, axırına çatmasaydı, olmazdı.

Indi də naxıra qatmaq üçün o həyətdən, bu həyətdən heyvan çıxarıb bir-biriləri ilə salamlaşan, bir-birilərinə atmaca atan kəndlilərinə məhəl qoymadan xeyli götür-qoy eləyəndən sonra axırda bu qərara gəldi: ona görə yuxuda həmin əcaib qırmızı məxmər papağı başına qoyub rayondakı dəlləkxananın qabağında durmuşdu ki, başqaları kimi həmin papağa lağla baxmırdı, ürəyinin dərinliyində lap həsədlə baxırdı həmin papağa.

Allahverdi bu qərara gəlib çıxdı və nədənsə, bu fikir onu birdən-birə kefsizlətdi, bayaq başının üstünə qaldırıb-endirdiyi baltanın gətirdiyi hərarət canından çıxıb getdi və o, yenə də üşüməyə başladı və yenə də ürəyində bu çiskinli payızı söydü.

Arxadan onu səslədilər:

– Ə, Allahverdi!

Allahverdi geri qanrıldı və camışını qabağına qatıb ona tərəf addımlayan Salman kişiyə baxdı:

– Nədi?

– Şükürün qızı sənnən oxuyur?

Allahverdi elə bil bir balaca diksinən kimi oldu, sonra da dedi:

– Hə.

Salman kişi demisindən dərin bir qullab vurub:

– Onu kinoya çəkəcəklər, – dedi.

Allahverdi qulaqlarına inanmadı:

– Nə?

– Kinoya çəkəcəklər onu. Nadir çəkəcək. Deyir ki, yaman kinoya düşən qızdır.

Nadir həmin əcaib papaqlı kinooperator idi. Salman kişinin Bakıda yaşayan oğlu ilə dostluq edirdi və buna görə də düşmüşdü Salman kişigilə. Salman kişi qonağının adını qürurla çəkirdi və ona əməlli-başlı hörmət edirdi, hərçənd özü də ürəyində həmin qırmızı papaqdan pərt idi bir balaca. Allahverdi bilirdi ki, Salman kişi onun tayı-tuşu deyil və zarafat etmir, amma, həqiqətən, çox gözlənilməz xəbər idi.

– Necə yəni kinoya çəkəcək?

– Şükürün qızı səhəngi çiyninə alıb bulaqdan su gətirəcək, Nadir də onu çəkəcək kinoya. – Sonra Salman kişi yenə demisindən dərin bir qullab vurub təkrar etdi. – Deyir ki, yaman kinoya düşən qızdır. – Sonra da Salman kişi başını bulaya-bulaya xırda gözlərini qıyıb gülümsədi.

Allahverdi bu gülümsəməyin səbəbini lap yaxşıca başa düşdü, yəni ki, qəribə adamdırlar bu şəhərlilər, bu boyda kənddə qız tapmadılar, gedib Şükürün caydaq qızını kinoya çəkirlər.

Salman kişi «Şükürün qızı» dediyi qızın adı Sədəf idi və Sədəf birinci sinifdən ta indiyə kimi Allahverdi ilə bir sinifdə oxuyurdu. Əvvəlcə – uşaqlıqda, qonşu kənddəki məktəbə gedib-gəlirdilər, sonralar öz kəndlərində məktəb tikdilər və indi də həmin bu məktəbdə oxuyurdular.

Sədəf nə əlaçıydı, nə də gözəl idi, hətta təhər-töhürsüz idi bir balaca və Allahverdi birdən-birə eşitdiyi bu xəbərə heç cürə inana bilmirdi; Salman kişiyə dübarə sual verməkdən özünü güclə saxladı.

Məsələ burasındaydı ki, Sədəf Allahverdinin dərdindən hayıl-mayıl idi, yəni vurulmuşdu Allahverdiyə, amma bunu heç kim bilmirdi, bunu, ancaq Allahverdi özü bilirdi, çünki bu yay günlərin bir günündə Sədəf ona məktub vermişdi və Allahverdi də bu məktubu oxuyandan sonra heç kimə heç nə deməmişdi.

Allahverdi Qızıl inəyin dalınca gedə-gedə bu təzə xəbər barədə fikirləşirdi və daha üşümürdü; fikirləşirdi və onu açıq-aşkar heyrət bürüyürdü, həm də nədənsə, sıxılırdı, səbəbini özü də bilmirdi.

Salman kişinin bayaqkı sözləri onun qulaqlarından getmirdi: «– Deyir yaman kinoya düşən qızdır». Daha doğrusu, Allahverdi bu saat bu sözləri elə bil kinooperatorun öz dilindən eşidirdi: «Çox fotogenik qızdır». Bu sayaq eşidirdi, çünki kənddə qaldığı dörd gün ərzində «fotogenik» sözü kinooperatorun ağzından düşmürdü və Allahverdi də gedib lüğətə baxıb bu sözün mənasını öyrənmişdi.

Deməli, «fotogenik qızı» axır ki, tapıb kinooperator.

Hələ üstəlik, elə bil, həmin kinooperator Allahverdinin qulaqlarına deyirdi də: «– Şəhərdə yaşasaydı, kinoya çəkilməli birinci qız olardı Sədəf».

Və Allahverdi, gəlib gözlərinin qabağında dayanmış Sədəfin qarayanız sirsifətinə, arıq bədəninə, hacıleylək qıçı kimi uzun qıçlarına baxa-baxa bir mətləb qana bilmirdi.

Allahverdi qayıdıb evə gələndə Qəşəm kişi hinin ağzını açıb toyuq-cücəni, hinduşkaları həyətə buraxmışdı, indi də zirzəmidən çıxardığı maşın yağı ilə ayaqyolunun qapısını yağlayırdı ki, açılıb-örtüləndə cırıldamasın.

Ayna arvad artırmanın altında samovara od salmışdı.

Allahverdi yuxarı qalxıb bir az islanmış saçlarını quruladı, amma əslində təkcə saçlarını qurulamırdı, bütün başını silkələyirdi.

Məsələ burasında idi ki, Allahverdi bütün həyatında ilk dəfə heç nə barədə fikirləşmək istəmirdi, istəyirdi ki, bütün fikirlər başından olsun.

Allahverdi məhrəbanı əlüzyuyanın yanındakı mismardan asıb artırmadan aşağı boylandı və samovarın yanında dayanmış anasına acıqlı-acıqlı dedi:

– O dudkeşi götür qoy ağzına də, gözümüz çıxdı ki!..

Qəşəm kişi tərs-tərs oğluna baxdı və Allahverdi daha heç nə deməyib otağa girdi və dəftər-kitabını yığdığı dolabın yanına gəldi, yadına düşdü ki, Səftər müəllim xəstələnib, yenə bu gün birinci dərs olmayacaq, tələsmək lazım deyil həmişəki kimi; bir neçə an elə-beləcə dinməz-söyləməz dayandı, sonra dolabın aşağı gözünü çəkib lap dibdə, kağız-kuğuzların altında gizlətdiyi məktubu götürdü.

Yenə bir neçə an elə-belə dinməz-söyləməz dayanıb əlində tutduğu dördkünc bükülmüş dama-dama dəftər kağızına baxdı, sonra kağızı açıb Sədəfin məktubunu bir də oxudu ürəyində:

«Şanlı məktub!

Allahverdi, bu məktubu sənə yazıram. Allahverdi, ömrümdə heç kimə məktub yazmamışam, bu, birinci məktubumdur. Allahverdi, bu məktubu oxuyandan sonra, heç kimə heç nə demə, bu məktubu da cır, yandır, qoy külə dönsün. Onsuz da, mən yanıb külə dönürəm, Allahverdi. Hara baxıramsa, səni görürəm. Yuxuda da həmişə səni görürəm. Fikrim özümdə olmur, Allahverdi, birdən elə bilərsən mən bütün oğlanlara məktub yazıram. Yox, Allahverdi, təkcə sənə, təkcə sənə. Qismət olsa, bir yerdə söhbət eləsək, hamısını sənə danışaram. Yenə gözlərim dolub, Allahverdi. Mənə cavab yaz.

Mən ki, səni görəndən bəri,
Açdı ürəyimin incə telləri.
Sənsiz ayrı gəzmərəm, ey gözəl Allahverdi.
Unutma dediyim bu sözlərimi.

Mənə gülmə, Allahverdi. Heç kimə də heç nə demə ki, mənə gülsünlər. Bu məktubu da yandır.

Sədəf».

Məktubdakı yazının üstünə bir damcı da düşmüşdü – bir gilə göz yaşı – və göy mürəkkəblə yazılmış beş-altı hərf bulaşmışdı, amma oxunurdu – təkcə izi qalmışdı göz yaşının. Əvvəlcə Allahverdi elə fikirləşmişdi ki, Sədəf özü bilərəkdən salıb, lap adicə su damcısıdır bu, amma günlər keçdikcə və Allahverdi də bu məktubu çoxlu-çoxlu oxuduqca, inanmışdı ki, doğrudan da, göz yaşıdır bu.

Sədəf bu məktubu ona verənə qədər buradakı mətləb Allahverdinin heç ağlına gəlməzdi. Doğrudur, hərdən Sədəf ona elə baxırdı ki, başqaları bu cür baxmırdı heç vaxt. O da doğrudur ki, Sədəf qəflətən onu görəndə qızarırdı, elə bil lap özünü itirirdi, amma Allahverdi heç cürə fikirləşməzdi ki, hal-qəziyyə bu yerdədir.

Allahverdi bu məktubu birinci dəfə oxuyandan sonra, heç kimə heç nə demədi və indiyəcən də heç kimə heç nə deməyib, amma Allahverdi cavab da yazmadı Sədəfə və bu məktubu da yandırmadı, bir-iki gün cibində gəzdirdi, bilmədi ki, nə eləsin, sonra gətirib dolabın aşağı gözündə, lap dibdə, kağız-kuğuzların altında gizlətdi.

Məktubu oxuyandan sonra Allahverdi Sədəfə bir kəlmə də söz demədi, səhəri gün onu görəndə özünü elə tutdu, guya ki, heç nə olmayıb. Sədəf də bir az pörtdü-qızardı, amma heç nə soruşmadı. O gündən sonra Allahverdi ilə Sədəf demək olar ki, danışmırdılar, təkcə hərdənbir, o da dərs zamanı – bir-birilərinə bir söz deyəydilər, ya yox – vəssalam.

Bu məktubu birinci dəfə oxuyanda Allahverdi bir az çaşbaş qalmışdı, amma sonra yavaş-yavaş acığı tutmağa başladı və ürəyində Sədəfi səfeh bildi.

Allahverdi bir müddət beləcə acıqlı oldu, amma günlərin bir günündə gecə yerinə girmişdi Allahverdi, yatmaq istəyirdi, amma yata bilmirdi və necə oldusa ayağa qalxıb dərhal dolabın gözünü açdı, Sədəfin məktubunu kağız-kuğuzun altından çıxarıb təzədən yerinə girdi, heç kim xəbər tutmasın deyə, işığı yandırmadı, elə əl fənərinin işığında bir də oxudu həmin məktubu. Bu dəfə acığı tutmadı Allahverdinin, əksinə, məktub yavaş-yavaş ona ləzzət eləməyə başlamışdı, həm də ürəyində bir narahatlıq əmələ gəlmişdi, bir nigarançılıq vardı ürəyində, amma bu narahatlıq da, bu nigarançılıq da onu sıxıb-əzmirdi. Bu narahatlıq, bu nigarançılıq bir kövrəklik gətirmişdi o gecə. Bu məktubu beləcə gizlin-gizlin oxumaq onun ürəyini isindirirdi o gecə. O gecə bir ılıqlıq vardı ürəyində.

Sonralar hərdənbir Allahverdi bu məktubu dolabın aşağı gözündən çıxarıb təzədən oxuyurdu və hər dəfə oxuduqca da özünü yaman naqolay hiss eləyirdi, amma ona görə yox ki, Sədəfə məhəl qoymadığı halda, onun məktubundan gizli həzz alırdı, açıq-aşkar gülməli misralar onun ürəyinə yayılırdı.

Ayna arvad artırmadan Allahverdini səslədi ki, gəlib çörəyini yesin və Allahverdi də tələm-tələsik Sədəfin məktubunu yenə dolabın aşağı gözündə gizlədib otaqdan çıxdı.

Daha çisəkləmirdi, amma hava da açılmamışdı və Allahverdi elə bil yenə də Bakıdan gələn kinooperatorun şikayətini eşidirdi: « – Belə də iş olar, dörd gündür gün çıxmır ki, syomkamı çəkim qurtarsın...»

Gün çıxacaqdı və o, par-par parıldayan aparatını gözünə tutub Sədəfi lentə çəkəcəkdi və bütün dünya tamaşa edəcəkdi Sədəfin bulaqdan su gətirməsinə və heç kim də bilməyəcəkdi ki, bu qız Allahverdinin dərdindən hayıl-mayıldı.

Allahverdi kinooperatorun sözlərini bir də eşitdi: «Çox fotogenik qızdır». Sonra Allahverdi hiss etdi ki, həm bir balaca pərt olub, həm də bir balaca qürur var ürəyində.

Məlum oldu ki, məktəbdə hamı Sədəfin kinoya çəkiləcəyindən xəbərdardır. Uşaqlar sinif otağında oturub elə hey təzə xəbərdən danışırdılar və bu təzə xəbər həmişəki sinif otağına da bir təzəlik gətirmişdi. Təkcə Allahverdi dinib-danışmırdı.

Bir azdan Sədəf gəlib çıxdı və uşaqlar onu görəndə bir anlıq lap özlərini itirdilər: Sədəf özünə bir sığal vermişdi, bir geyinib-kecinmişdi ki, gəl görəsən, həm də uçmağa qanadı yox idi, yerə-göyə sığmırdı. Sonra uşaqlar hay-küylə düşdülər Sədəfin canına və başladılar onu sorğu-suala tutmağa. Sədəf də bülbül kimi ötə-ötə dedi ki, dünən həmin kinooperator gəlib onlara və xeyli söz-söhbətdən sonra dədəsinin razılığını alıb ki, Sədəfi kinoya çəksin.

Sədəf uşaqlarla danışdıqca, hərdənbir partanın arxasında oturub guya ki, heç nəyi vecinə almayan Allahverdiyə baxırdı, özü də elə baxırdı ki, elə bil məktubda yazdığı sözləri təzədən təkrar edirdi gözləri ilə, amma daha o cür əzvaycasına yox, bir az qürurla.

Ikinci dərs triqonometriya dərsi idi və zəng vurulan kimi də Gülsüm müəllimə girdi içəri.

Sinifdəki uşaqların hamısından iki qarış hündür olan Allahverdi birinci sırada lap axırıncı partada otururdu. Sədəf ikinci sırada, ortada otururdu.

Gülsüm müəllimə dərs keçirdi, amma Allahverdi heç nə eşitmirdi və heç nə fikirləşmirdi. Sonra Allahverdi başa düşdü ki, səhərdən bəri Sədəfə baxır.

Sədəfin qara gözləri var idi, qara saçları var idi, yoğun da hörükləri və Allahverdi heç vaxt Sədəfi belə görməmişdi. Sədəfin gözləri də həmin gözlər idi, hörükləri də həmin hörüklər idi, amma Allahverdi bu gözləri də birinci dəfə idi görürdü, bu hörükləri də. Sədəf arıq olmağına arıq idi, amma sinəsi yaman dolu idi. Sədəfin sifəti qarayanız idi və Allahverdi indi gözlərini bu qarayanız sifətdən çəkə bilmirdi, özünə acığı tuturdu, istəmirdi bu sifətə baxsın, amma bir şey çıxmırdı, elə-beləcə baxırdı.

Uşaqlıqda bir yerdə oynamaları, dalaşmaları, bir yerdə məktəbə getmələri, neçə illər bir yerdə oxumaları Allahverdinin yadına düşürdü və Allahverdi indi heç cürə inana bilmirdi ki, gözlərinin qabağındakı bu qız həmin Sədəfdir, yəni ona elə gəlirdi ki, istədiyi vaxt istədiyi sözü deyə bildiyi, istədiyi buyruğa buyurduğu o qız uzaqda qalıb, indi həmin qız yoxdur, bu qız isə tamam başqa qızdır.

Sonra Allahverdinin başından bir fikir keçdi ki, bu fikir onun bütün bədənini titrətdi, lap birtəhər elədi onu: birdən-birə ona elə gəldi ki, evlərindəki dolabın aşağı gözündəki həmin məktubu Sədəf yazmayıb, bu məktubu ona Sədəf verməyib, bu məktubu çəkinə-çəkinə ona uzadan həmin qız Sədəf deyil, tamam başqa bir adam idi. Yəni bu saat Allahverdi inana bilmirdi ki, həmin məktubdakı bir gilə göz yaşı ondan ötrü düşüb göy mürəkkəblə yazılmış hərflərin üstünə.

Bu fikir Allahverdinin bütün bədənini gizildətdi və o, gözlərini Sədəfdən çəkib Gülsüm müəllimənin başa saldığı teoremə qulaq asmaq istədi, amma yenə bir şey çıxmadı və elə-beləcə Sədəfə baxdı və yalnız indi başa düşdü ki, Sədəf də ona baxır və ancaq bundan sonra gözlərini qızın qarayanız sifətindən çəkib düsturlarla dolmuş qara lövhəyə dikdi.

Allahverdi Gülsüm müəllimənin lövhədə yazdığı düsturlara tamaşa edirdi, dediyi sözlərə qulaq asırdı və bütün varlığı ilə Sədəfin nəzərlərini öz üzərində hiss edirdi. Axırda tab gətirməyib Sədəfə baxdı və bu dəfə Sədəf gözlərini yayındırıb lövhəyə baxdı.

Allahverdi hiss elədi ki, sifəti od tutub yanır.

Tənəffüs oldu və tənəffüsdə yenə hamı Sədəfin başına toplaşdı. Sədəf də yenə bülbül kimi dil-dil ötdü. Bütün ömrü boyu heç vaxt Sədəfə bu qədər göz dikilməmişdi, heç kim bu qədər səbrsizliklə onun ağzından çıxan sözü gözləməmişdi, heç vaxt ona dikilmiş gözlərdə bu cür vəcd olmamışdı. Sədəf lap başını itirmişdi sevincdən, çünki Sədəf heç vaxt ömründə bu qədər sevincək olmamışdı.

Dərslər beləcə ötdü bir-bir, tənəffüslər də beləcə. Yenə çiskin başladı, sonra yenə də kəsdi, sonra yenə başladı və bütün günü Allahverdinin halı özündə olmadı. Məktəbdən qayıdandan sonra bütün günü Allahverdi otaqdan eşiyə çıxmadı.

Qəşəm kişinin rayon mərkəzində işi vardı, göydəmir ürgəni minib getmişdi.

Ayna arvad bardaş qurub tabaqçada kəllə qənd doğrayırdı.

Allahverdi isə içəridə, pəncərənin qabağında oturub boz payıza baxırdı. Yamac başdan-başa heyvalıq idi və hər heyva ağacında da bir dəstə sığırçın. Sığırçınların civildəşməsi bu boz payızın müşayiəti idi və bir qəmginlik gətirirdi.

Yamacın ayağında görünən ev Salman kişinin evi idi və birdən-birə Allahverdinin Salman kişiyə acığı tutdu ki, niyə bu gün səhər elə gülümsəyib əllərini yellədi.

Allahverdi nə kitab oxuya bilirdi, nə dərs hazırlaya bilirdi, nə də kəndə çıxmağa həvəsi vardı. Elə bil öz-özünə qıraqdan tamaşa edirdi və ona elə gəlirdi ki, daha əvvəlki Allahverdi deyil. Niyə ona belə gəlirdi, niyə bu cür fikirləşirdi? – baş aça bilmirdi. Burası məlum idi ki, onun adı yenə də Allahverdi idi və bu baş da, bu əllər də, bu ayaqlar da onun idi, intəhası, məlum deyildi ki, niyə bu adıyla, başıyla, əlləri-ayaqlarıyla bərabər daha əvvəlki Allahverdi deyil.

O, gözlərini boz payızdan çəkib taxta kətilin üstündən ayağa qalxdı, balaca dolaba yaxınlaşıb aşağı gözü çəkdi və Sədəfin məktubunu kağız-kuğuzun altından götürdü, amma məktubu təzədən açıb oxumadı, çünki birdən-birə kəşf elədi ki, burada yazılanların hamısını əzbər bilir. Özündən asılı olmayaraq Sədəfin cümlələrini bir-bir ürəyində təkrar eləməyə başladı.

Allahverdinin heç ağlına da gəlməzdi ki, bu məktubu bu cür əzbərləyib.

Gecə yorğan-döşəyinə girəndə Allahverdiyə elə gəldi ki, səhərə kimi yata bilməyəcək, amma yatdı Allahverdi, yatdı və bütün həyatında ilk dəfə rəngli yuxu gördü:

Dan yeri sökülürdü.

O qədər rəng vardı ki, Allahverdi ömründə bu qədər rəng görməmişdi – gümüşü, narıncı, məxməri...

Rənglər par-par parıldayırdı.

Hər tərəfə şüa saçırdı rənglər.

Allahverdi bu rənglərin içində idi.

Bu rənglər Allahverdinin bütün bədənindən axıb keçirdi.

Allahverdi bilirdi ki, bu yuxudur və onu da bilirdi ki, bu Sədəfin yuxusudur.

Sədəf özü yox idi, amma Allahverdi bilirdi ki, bütün bu rənglər Sədəfdən ötrüdür və əslində bütün bu rənglər Sədəfin özüdür.

Amma yenə Qəşəm kişinin səsi gəldi:

– Ə, Allahverdi, gün günortanı keçdi, dursana!

Allahverdi yuxuda da olsa, bilirdi ki, indilərdə bu səsi eşidəcək və qorxurdu, qorxurdu ki, bu rənglər yox olub gedəcək – gümüşü, narıncı, məxməri...

– Ə, Allahverdi!

Allahverdi gölərini açdı və elə bil bir anlıq həmin rənglər bu otağa da doldu, sonra yavaş-yavaş bu otağın divarlarına, döşəməsinə, tavanına hopdu; bir anlıq Allahverdiyə elə gəldi ki, bu səhər bahar bayramına açılır, bahar bayramıdır bu gün.

– Ə, noldun?

– Dururam!..

Allahverdi həyətə düşəndə Ayna arvad Qızıl inəyi sağırdı. Qızıl inək yenə də artırmanın altında dayanmışdı, çünki yenə də çisəkləyirdi. Buzov da elə hey dartınırdı ki, anasını əmsin, başını elə hey vururdu anasının döşünün altına.

Çisəkləyirdi, amma bu çisək Allahverdinin ürəyini heç sıxıb-eləmirdi, üşümürdü də Allahverdi və o, gəlib göydəmir ürgəni tövlədən çıxardanda Qəşəm kişi təəccüblə oğluna baxdı – həmişə gözləri yumula-yumula, deyinə-deyinə göydəmir ürgəni sulamağa aparan Allahverdinin kefi indi açıq-aşkar kök idi.

Məlikin kəhər madyanı yenə də arxın qırağında idi, alapaça dayçası da böyründə. Allahverdini görən kimi Məlikin əsnəyə-əsnəyə verdiyi sual bu oldu:

– Dünən niyə kinoya gəlməmişdin?

Ancaq indi Allahverdinin yadına düşdü ki, Cəfər dünən axşam kino göstərəcəkdi və o, kənddə yaşadığı bütün müddət ərzində ilk dəfə bunu yadından çıxarıb, kluba getməyib. Allahverdi nə təəssüfləndi, nə də heyfsiləndi, çünki hər tərəfi basmış bu boz payızdan o tərəfdə Allahverdinin öz aləmi vardı daha və bu aləm rəngli idi, cürbəcür rənglər – gümüşü, narıncı, məxməri...

Allahverdi göydəmir ürgəni çapıb həyətlərinə qayıdanda Qəşəm kişi yenə təəccüblə oğluna baxdı və bu dəfə lap dəqiq qət etdi ki, Allahverdinin bu həyətdən, bu evdən, bu təsərrüfatdan kənardakı həyatında əməlli-başlı bir hadisə baş verib; Qəşəm kişi bunu da hiss elədi ki, həmin hadisə cavanlıqla bağlıdır. Sonra oğlunun balaqları topuğundan yuxarıda qalmış şalvarına diqqət eləyib fikirləşdi ki, Allahverdiyə təzə şalvar almaq lazımdır – gədə yaman uzanıb.

Əlbəttə, Allahverdi dədəsinin fikirlərindən xəbərsiz idi və şəstlə gəlib Qızıl inəyi qabağına qatdı, naxıra qoşmaq üçün təzədən həyətdən çıxdı.

Allahverdi üzüaşağı düşən kəndarası araba yolu ilə addımlayırdı və birdən fışqırıqla bir oyun havası çalmağa başladı və birdən-birə də başa düşdü ki, səhərdən bəri – yerindən qalxandan indiyə qədər – həmin havanı ürəyində çalır; həm də başa düşdü ki, bu hava onun gördüyü yuxunun, həmin rəngli yuxunun davamıdır.

Arxada öskürdülər və Allahverdi başını döndərib gördü ki, Salman kişidir, demisini tüstülədə-tüstülədə camışını gətirir.

Salman kişi, elə bil, Allahverdinin ona baxmağına bənd imiş, başladı havanın qarasına deyinməyə:

– Ə, belə də hava olar?! – Sonra Salman kişi bir-iki yağlı söz dedi havanın qarasına, sonra da dedi: – Nadir də çıxdı getdi.

Allahverdi ayaq saxladı və açıq-aşkar hiss etdi ki, nəfəsi qaralır. Sonra cavabını özü lap yaxşıca bildiyi bir sual verdi:

– Bəs, kino çəkməyəcək?

– Nə kino, ə? Bu havada da kino çəkərlər? – Salman kişi bilən adamlar kimi əlini yellədi və yenə havanın qarasına bir-iki yağlı söz deyib əlavə etdi:

– Enib aranda çəkəcək. Deyir, il on iki ay bu dağın kəlləsində oturub gözləyə bilmərəm ki, görüm nə vaxt gün çıxacaq... Düz deyir də...

Allahverdi özünü güclə saxladı ki, soruşsun «Bəs, Sədəf?»

Allahverdi heç nə soruşmadı, çünki hər şey məlum idi: bu payız ot da olacaqdı, yaxşı çörək də olacaqdı, amma Sədəf daha səhəngi çiyninə alıb bulaq başında kinoya çəkilməyəcəkdi.

Allahverdi Sədəfi gördü, Sədəfin tutulmuş sifətini gördü, dünənki sevincdən sonra Sədəfin pərtliyini gördü və Sədəfin bu pərtliyi onun da bütün içindən keçib cızdağını çıxartdı və özünü güclə saxladı ki, geri dönüb düz elə Salman kişinin üzünəcə bihörmətlik eləməsin, qonağının abrını ətəyinə bükməsin.

Allahverdi başa düşdü ki, Sədəfə nə isə demək lazımdır, Sədəfin könlünü almaq lazımdır və bunu elə Allahverdinin özü eləməlidir, amma orasını da başa düşdü ki, bu çox çətin olacaq. Çətin olacaq ona görə ki, Allahverdi əməlli-başlı utanırdı Sədəfdən.

Allahverdi fikirləşdi ki, bəlkə məktub yazsın Sədəfə və ürəyindəki bütün sözləri köçürtsün bu məktuba, yəni bu məktub da rəngli olsun – gümüşü, narıncı, məxməri... Amma hiss elədi ki, cürəti çatmayacaq bu məktubu Sədəfə verməyə.

Sonra fikirləşdi ki, məktubu Bakıdan yazar Sədəfə, Bakıya gedib instituta girəndən sonra, amma başa düşdü ki, Bakıya getməyi də çox çətin olacaq, çox ağır olacaq, çünki ürəyi qalacaq burada, Sədəfin yanında.

*Oktyabr, 1971.*

## BALADADAŞIN ILK MƏHƏBBƏTI

Abşeronda, dənizin lap kənarında bir kənd var idi və elə bil bu saat həmin kənd yer üzündə bircə kənd idi, çünki gün möhkəmcə şığıyırdı, hamı da gizlənmişdi evində-eşiyində, ins-cins yox idi və bu tənhalıq da daha təkcə bu kəndin tənhalığı deyildi, elə bil, günün beləcə qızmarında bütün yer üzünün, kürreyi-ərzin tənhalığı idi.

Bu kəndin birmərtəbəli, ikimərtəbəli evlərindən, kol-kosdan çəpər çəkilmiş, taxtadan sürahi salınmış, daşdan hasar tikilmiş həyətlərindən, salxımları qoralamış meyvələrindən, qırmızı çiçəkli nar ağaclarından, tut ağaclarından, bolluca günəşindən başqa, bir də dənizi var idi və bu saat dənizin lap xırdaca ləpələri sahil qumlarına tərəf elə mülayim-mülayim gəlib-gedirdi ki, elə bil dəniz həmin kəndin tənhalığına layla deyirdi.

Kənddə ins-cins gözə dəymirdi, bircə Baladadaşdan başqa; Baladadaş kəndarası asfalt yolun səkisində, tut ağacının dibində oturmuşdu və bütün kənd camaatından fərqli, günün bu cırhacırında istidən qorxub-eləmirdi; ağacın qotur kölgəsi nə vaxt idi yerini dəyişmişdi, amma Baladadaş yerini dəyişməmişdi, elə-eləcə günün altında oturub mürgü döyürdü.

Baladadaş yalın ayaqlarına səndəl geymişdi, əynində parusin şalvar, qısaqol miləmil trikotaj köynək var idi, başına «aerodrom» kepka qoymuşdu və hərdənbir tər damcıları bu «aerodrom» kepkanın altından yuvarlanıb Baladadaşın sısqa sifətindən üzüaşağı axırdı.

Içi pivə çəllәkləri ilə dolu bir yük maşını asfaltdan gəlib keçdi və bu maşının tırıltısı Baladadaşın heç xoşuna gəlmədi, ağcaqanadın əlindən gecə yaxşı yata bilmədiyinə görə, əməlli-başlı qızarmış gözlərini açıb yerindən tərpənmədən maşının ardınca baxdı, sonra gözlərini qıyıb günəşə baxdı, sonra da tut ağacının yerini dəyişmiş qotur kölgəsinə baxdı, amma ərindiyindən və kəsalət onu basdığından yenə də yerindən tərpənmədi, ayaqlarını irəli uzadıb sidq-ürəkdən əsnədi və qollarını da geniş açıb yaxşıca gərnəşdi.

Qarşıdakı həyətin daş hasarından bir oğlan uşağının başı göründü və bu oğlan uşağı Baladadaşı görən kimi, tez də başını çəkdi, o saat da həyətin göy darvazasının kiçik qapısı açıldı və həmin oğlan uşağı həyətdən çıxıb Baladadaşa tərəf gəldi; bir əlində yaxmac tutmuşdu, o biri əlində də taxta parçası, gəlib Baladadaşın qabağında dayandı və yaxmacdan dişləyib ləzzətlə çeynəyə-çeynəyə taxta parçasını ona uzatdı:

– Şumaqədər yon də mənimçün!..

Baladadaşdan səs çıxmadı. Oğlan yenə yaxmacdan ləzzətli bir dişdəm alıb dedi:

– Nolar, yon də!..

Baladadaşdan səs çıxmadı. Oğlan ağzındakı dişdəmi çeynəyib qurtardıqdan sonra yenə dedi:

– Nolar...

Baladadaş gözlərini qıyıb bir müddət oğlana baxdı, elə bil, onu birinci dəfə idi görürdü, sonra dedi:

– Qəmişini çək məndən.

Oğlan əlindəki yaxmaca baxdı və elə bil, bir az məyus oldu ki, yaxmacın qurtarmasına az qalıb, dedi:

– Əhmədağanı əsgərliyə aparanda demədin ki, onun yerinə şumaqədər yonacaqsan mənə?

Baladadaşdan səs çıxmadı.

Oğlan dedi:

– Dünən Əhmədağadan məktub gəlmişdi, soruşurdu məndən ki, şumaqədər yonur səninçün Baladadaş? Sonra da yazmışdı ki, məndən atəşin salam deginən Baladadaşa. Öz canımçün.

Baladadaş əvvəlcə yenə heç nə demədi və yenə də bir müddət yerindən qımıldanmadı, sonra bir balaca gərnəşdi, əlini şalvarının cibinə salıb «Avrora» çıxartdı, içindən bir dənə siqaret götürüb qoydu qulağının dibinə, qutunu soxdu cibinə və bu dəfə də o biri əlini şalvarının o biri cibinə salıb açılıb-örtülən bıçaq çıxartdı, açıb dırnağında itiliyini yoxladı və dedi:

– Ver bura.

Səhərdən bəri səbrlə Baladadaşdan cavab gözləyən oğlan əlindəki taxta parçasını ona verdi və Baladadaş da taxta parçasını alıb o tərəf-bu tərəfinə baxdı, sonra da yonmağa başladı.

Qarşıdakı göy darvazanın kiçik qapısı yenə açıldı və həyətdən bir qadın çıxıb Baladadaşın yanındakı oğlanı səslədi:

– Ağanəcəf, ay Ağanəcəf!

Ağanəcəf anasına tərəf baxdı:

– Nə var?

– Gəl otur uşaqların yanında, gedirəm bazara.

Ağanəcəf bir anasına baxdı, bir Baladadaşa və əlindəki yaxmacın axırıncı tikəsini ağzına soxub çeynəyə-çeynəyə dedi:

– Qurtaranda çağır gəlim götürüm, hə?

Baladadaş öz işində idi və elə bil heç nə eşitmirdi və ümumiyyətlə, elə bil ki, dünya Baladadaşın vecinə deyildi.

Ağanəcəf qaçıb həyətə girdi.

Qadın gəlib Baladadaşın yanından keçəndə ayaq saxladı:

– Necəsən, Baladadaş, anan necədir?

Baladadaş başını qaldırmadan:

– Yaxşıdır, – dedi.

– Haçan gedirsən əsgərliyə?

– Payızda.

– Inşallah. Əhmədağa da kursa girib orda.

Baladadaş başını qaldırıb qadına baxdı:

– Mən də girəcəyəm.

– Inşallah.

Qadın yoluna davam etdi. Baladadaş da taxtanı yonmağa başladı və birdən yenə başını qaldırıb qadının ardınca qışqırdı:

– Əhmədağaya salam yazun məndən, atəşin. Yazun ki, salamduası var sənə Baladadaşın.

Qadın gülümsəyib başını tərpədə-tərpədə:

– Salam göndərən sağ olsun, çox sağ ol, – dedi və tini burulub gözdən itdi.

Yenə də bir kənd idi, bir günün cırhacırı, bir də tut ağacının altında oturub cidd-cəhdlə şumaqədər yonan Baladadaş.

Bir də dəniz idi; göy uzaqda üfüq xəttilə birləşirdi və güclə sezilən bu üfüq xətti elə bil ki, dünyanın axırı idi.

Göy tərtəmiz idi, dəniz də dalğasız, səssiz-küysüz və bu təmizlikdə, bu səssizlikdə bu dəqiqə elə bir əbədilik var idi ki, elə bil dünyada nə yağış olub, nə çovğun, nə dəniz uğultusu, nə də ki, bir başqa şey.

Əvvəlcə yük maşınının səsi gəldi, sonra özü göründü və səs sala-sala asfalta gəlib Baladadaşın yanından ötdü, iyirmi-iyirmi beş metr aralıda dayandı.

Maşının banında yekə bir dəst yorğan-döşək, miz, taxta kətillər, böyük paltar dolabı, qab-qacaq, qazan, samovar var idi və belə məlum olurdu ki, təzə köç gəlib.

Sürücü motoru söndürüb aşağı düşdü, o tərəf-bu tərəfə boylanıb dedi:

– Hə, bude, bax, buradır.

Kök bir qadın hıqqana-hıqqana kabinədən düşüb sürücünün göstərdiyi taxta qapıya baxdı, sonra ətrafa nəzər saldı, sonra dənizi əməlli-başlı süzüb:

– Allah Muradın canını sağ eləsin, – dedi. – Lap əntiqə yerdə götürüb bağı.

Sürücü cibindən çıxartdığı açarla taxta qapının ağzındakı yekə qıfılı açdı və qapını itələyib içəri boylandı. Əncir, heyva və nar ağacları bu balaca həyəti başdan-başa kölgəlik eləmişdi. Artırmalı, birmərtəbəli binanın arxa tərəfi meynəlik idi. Həyətin aşağı başında kiçik bir bostan var idi, bostanın yanında isə ikimərtəbəli talvar və bu saat bir dəstə sığırçın həmin talvarın alt mərtəbəsindəki kölgəlikdə civildəşə-cəvildəşə kefə baxırdı.

Kök qadın bu xudmani həyətin səliqəsindən, kölgəsindən xeyli feyziyab olmuşdu və bir müddət beləcə dayandı qapının ağzında, sonra yəqin yadına düşdü ki, qapının ağzında dayanıb tamaşa eləməyə gəlməyiblər bura, şeyləri evə daşımaq lazımdır və görünür, bu da yadına düşdü ki, on səkkiz yaşında qəşəng bir qızı var və qız hələ bu xudmani həyətə baxmayıb.

– Seva, bir gəl, bax gör nə aləmdi!.. – Kök qadın ətrafına nəzər saldı və yalnız indi hiss elədi ki, Seva səhərdən bəri gözə dəymir, balaca bir təşvişlə sürücüyə baxdı. Sürücü də gözlərini ətrafa dolandırıb təəccüblə çiyinlərini çəkdi, yəni gözə dəymir Seva xanım.

Kök qadın get-gedə artan bir təşvişlə yük maşınının dörd tərəfini dolandı, o tərəf-bu tərəfə boylandı:

– Sevil! Hardasan, Seva!..

Kök qadının təşvişi yavaş-yavaş sürücüyə də sirayət edirdi:

– Seva xanım!

Sürücü pəncələri üstə qalxıb maşının banına boylandı – heç kim yox idi.

Doğrudan da, hardadı görəsən bu qız?

Səhərdən bəri tut ağacının dibində oturub şumaqədər yonmaqla məşğul olan Baladadaş başını qaldırıb yük maşınına tərəf baxdı və sonra yenə də başını aşağı salıb cidd-cəhdlə işinə davam etdi.

Kök qadın sürücüyə yaxınlaşıb özü öz sözlərindən qorxurmuş kimi:

– Birdən yolda uşaq maşından düşər a?.. – dedi.

Sürücü onsuz da başını itirmişdi. Yenə pəncələri üstə qalxıb maşının banına boylandı və dedi:

– Murad yoldaş bilsə ki, Seva xanım kuzovda gəlib, mənim qanım getdi!..

Kök qadın daha sürücüyə təskinlik vermək halında deyildi, əməlli-başlı qorxuya düşmüşdü:

– Sevil! Sevil!

Birdən Sevilin səsi gəldi:

– Nə var maması?..

Kök qadın duruxdu və sürücüyə baxdı. Sürücü yenə də çiyinlərini çəkdi və bu dəfə əyilib maşının altına baxdı, guya ki, Sevil maşının altında olacaqdı.

Kök qadın yenə çağırdı:

– Seva!

– Bəli!...

Sürücü də, kök qadın da çaşbaş qalmışdı və bu zaman maşının başındakı yekə paltar dolabının qapısı açıldı və əynindəki ağ donuyla elə bil ki, göyün yeddinci qatından uçub gəlmiş Sevil adlı məlakə reverans etdi, yəni ki, buyurun zati-aliləri, qulluğunuzda müntəzirəm.

Kök qadın əlini sinəsinə aparıb:

– Bir də ürəyimi partladacaqsan, – dedi, amma gülümsədi, çünki məlum olmuşdu ki, onun gözəl-göyçək qızı yolda maşının banından yerə düşməyib və başına başqa bir iş də gəlməyib, elə beləcə, həmişəki zarafatındadı.

Sürücü, elə bil, ancaq indi başa düşdü ki, adamın atasını yandıran günün altında dayanıb, cibindən yekə dəsmalını çıxardıb üz-gözünün tərini sildi.

Sevil pinq-ponq topu kimi bir göz qırpımında maşının banından yerə atıldı və səhərdən bəri gözünü ondan çəkməyən Baladadaş da günün istisini hiss etdi, yerindən qalxıb şalvarının dalını çırpdı və bu dəfə keçib tutun qotur kölgəsində oturdu.

Sevil taxta qapıdan boylanıb baxdı və əlini əlinə vurub:

– Oy!.. Kakaya krasata!.. – dedi. – Prosto prelest!..

Kök qadın bütün yayı qalacaqları bu xudmani həyəti bir də gözdən keçirib gülümsədi – həm öz yerinə sevinirdi, həm də qızının yerinə – və dedi:

– Yaxşı, şey-meyi düşürdək ki, rahatlanaq.

Sürücü banın yan sürahisini açıb aşağı sallatdı və yükü bir-bir boşaldıb evə aparmağa başladı. Sevil də, anası da xırda-xuruş şeylərdən götürüb sürücüyə kömək edirdi və artıq qan-tərə batmış kök qadın hərdənbir yenə də heç nəyi vecinə almayıb tutun kölgəsində şumaqədər yonmaqla məşğul olan Baladadaşa tərs nəzərlər salırdı, yəni görmürsən təzə qonşular gəlib, kömək eləməkdənsə, kölgədə avaralanırsan.

Baladadaş kök qadının, sonra da sürücünün tərs nəzərlərini öz üzərində hiss edirdi, amma Baladadaş da ona görə Baladadaş idi ki, öz bildiyini atasına da verməzdi, necə lazım bilərdi, elə də edərdi.

Kök qadın lap birtəhər olmuşdu, hərçənd hərdənbir yük daşımaq ona ziyan eləməzdi. Sevil isə ding-ding dingildəyə-dingildəyə gəlib bir kitab götürürdü, ya lap kiçik bir bağlama götürürdü, aparırdı evə, təzədən qayıdıb yenisini götürürdü və elə bilirdi ki, əməlli-başlı iş görür.

Axırda sürücü maşının banına qalxıb yekə paltar dolabını yerindən dəbərtməyə başladı və kök qadın da daha özünü saxlaya bilməyib üzünü Baladadaşa tutdu:

– Ay oğlan, – dedi, – gəl kömək elə də bir az, görmürsən gücümüz çatmır?...

Baladadaş başını qaldırıb bir müddət kök qadına baxdı və ondan soruşdu:

– Mənimləsiz?

– Hə... Bəs, kiminləyəm?

Baladadaş yenə də bir müddət kök qadına baxdı və dedi:

– Hambal gətirəydiniz də özünüzlə.

Kök qadın başa düşə bilmədi ki, Baladadaş bu sözləri onları lağa qoymaq üçün deyir, ya elə, doğrudan da, bu fikirdədir və onlar gərək hambal gətirəydilər özləriylə?

Tərdən ağ köynəyi bədəninə yapışmış sürücü acıqlı-acıqlı Baladadaşa baxıb nə isə demək istədi, amma bu zaman qapının ağzında dayanmış Sevil Baladadaşa baxa-baxa pıqqıldadı və sürücü də daha heç nə demədi. Baladadaş «aerodrom» kepkasının yekə dimdiyi altından Sevilə baxdı, sonra əlindəki taxta parçasını səkinin üstünə qoyub ayağa qalxdı, açılıb-örtülən bıçağını bağlayıb cibinə qoydu və ədəb-ərkanla parusin şalvarının dalını çırpıb asta addımlarla maşına yaxınlaşdı.

Sevil günün bu cırhacırında Baladadaşın başına qoyduğu kepkaya, qulağının dibindəki siqaretə baxdı və yenə də pıqqıldadı.

Baladadaş gözucu qıza baxdı və halına təfavüt qoymadan sürücüyə işarə elədi ki, paltar dolabını aşağı itələsin, özü isə kürəyini maşının başına söykəyib əllərini yuxarı qaldırdı.

Sürücü əvvəlcə tərəddüd etdi, çünki dolab çox yekə idi, Baladadaş cılız, amma Baladadaşın inamı ona da sirayət etdi və o, hıqqana-hıqqana paltar dolabını Baladadaşın kürəyinə endirdi.

Baladadaş əlləri ilə başının üstünə əyilmiş dolabı tutub addım atmaq istədi, amma ağırlıq altında dizləri titrədi, gözləri qaraldı və o, bircə anın içində fikrindən keçirdi ki, əgər bu saat bu ağır yükün altından qaçmasa nə əsgərliyə gedə biləcək, nə də Əhmədağa kimi kursa girəcək, anası da ağlar qalacaq evdə və yadından çıxartdı ki, yanında on səkkiz yaşlı gözəl bir qız var və qızın adı Sevildi və Sevil yaman güləndi.

Baladadaş güclə kənara sıçradı ki, ağır dolabın altında qalıb xurd-xəşil olmasın və dolab da bayaqdı ha, gumbultu ilə ağzı üstə yerə – qır səkinin üstünə düşdü.

Paltar dolabının gurultusundan sonra bir anlıq sükut çökdü və yalnız bu bir anlıq sükutdan sonra Sevil əvvəlcə pıqqıldadı, sonra da lap şaqqanaq çəkib güldü və onun bu gülüşü elə bil ki, kök qadını yuxudan oyatdı:

– Vaxsey-y!..

Baladadaş əvvəlcə ağzıüstə yerə sərilmiş dolaba, sonra da gülüşü ilə kəndin həmişəki yeknəsəqliyini alt-üst edən Sevilə baxdı və dedi:

– Eyb etməz, düzəldərik.

Kök qadın özünü saxlaya bilmədi:

– Nəyi düzəldərik, ay mən deyən? Xəşilə döndərmisən şifoneri, indi də deyirsən düzəldərik?!.

Sevil yenidən şaqqanaq çəkib güldü.

Yəqin ki, Murad yoldaşa nə cavab verəcəyi barədə düşünən sürücü matı-qutu qurumuş halda maşının banında dayanıb yuxarıdan-aşağıya Baladadaşa baxırdı və ağzını açıb bircə kəlmə də deməyə halı yox idi.

Baladadaş isə gözlərini dolabdan çəkib yenə Sevilə baxdı və birdən-birə başa düşdü ki, cəmi yarımca saat bundan əvvəl heç tanımadığı bu on səkkiz yaşlı gözəl qız onun üçün çox doğma və əziz bir adamdır, bu hiss onun bütün bədənindən axıb keçdi və ona elə gəldi ki, dənizin ləpələri bütün bədənini oxşadı; dənizi isə Baladadaş kimi duyan, hiss edən ikinci adam tapmaq çətin işdi.

Baladadaşın ilk məhəbbəti belə başladı və bu ilk məhəbbətin ilk günortası həmin bu dolab əhvalatı ilə sona yetdi; Baladadaş əvvəlcə parusin şalvarının dalını çırpdı – guya ki, yenə səkinin üstündən qalxırdı və sonra heç nə olmayıbmış kimi, geri dönüb təkcə Baladadaşın gəzə biləcəyi asta və biganə yerişlə uzaqlaşdı.

Hər tərəf dəniz idi və bu saat dənizdə balıqlardan başqa bir də Baladadaş üzürdü; balıqlar görünmürdü, amma Baladadaşın başı dənizin üzərində qaralırdı, batırdı, çıxırdı; Baladadaş elə ehmallıca üzürdü ki, dənizin sakitliyi də öz sakitliyində qalırdı, səssizliyi də öz səssizliyində.

Baladadaş suyun üzərində arxası üstə çevrildi və gözlərini göyə dikdi; göy də dəniz kimi intəhasız idi və bu göyün altındakı dənizdə bir Baladadaş var idi, bu Baladadaşın isə ürəyində on səkkiz yaşlı gözəl bir qız var idi; bu qızın adı Sevil idi, özü də yaman güləyən idi.

Həmin güləyən qız indi oturmuşdu təzə həyətlərindəki iri əncir ağacının altında, amma daha gülmürdü, əllərini xurmayı saçlarının arasından başının arxasında çarpazlayıb iri göy gözlərini zilləmişdi səmaya; səmaya baxırdı və şer deyirdi:

Kak proşalis, strastno klyalis
V vernosti lyubvi...
Vmeste tayn priobşalis,
Peli solovi...
Vzyal qitaru na proşane
I u strun istorq
Vse priznanya, obeşanya,
Vsey duşi vostorq...
Da, toska zapolnila,
Porvalas struna...
Ne znala b, da ne manila
Dalnya storona!

Vspominay je, radi boqa,
Vspominay menya,
Kak sedoy tuman iz loqa
Vstanet do pletnya...

Şeri deyəndən sonra əllərini geniş açıb gərnəşdi və yalnız bu zaman hasarın üstünə dırmaşıb ona baxan Baladadaşı gördü, əvvəlcə bir balaca duruxan kimi oldu, ondan soruşdu:

– Sən də şer bilirsən?

– Nöş bilmirəm?

Sevil yenidən dikəlib maraqla dedi:

– Yox a?... – Elə bil inanmırdı ki, Baladadaş şer bilir. – De də birini.

– Məktəb-zaddı bəyəm?...

Əlbəttə, Baladadaş bir para şer bilirdi, amma Baladadaş onu da bilirdi ki, bu şerlərin heç biri Sevilə layiq deyil; yəni Sevilin, bu təmiz göyün, bu səssiz-səmirsiz dənizin, bax, indiki bu dəqiqənin şerləri deyil o şerlər; Baladadaş onu bilirdi ki, təmiz göyə baxıb şer deyən qızla lap incə, zərif danışmaq lazımdır, amma məsələ burasında idi ki, Baladadaş incə və zərif danışa bilmirdi.

Əslində Baladadaş bunu ancaq indi hiss elədi, indi hiss elədi ki, o, yəni on səkkiz yaşı ilə bərabər məktəbi də yenicə bitirmiş məşhur şumaqədər ustası Baladadaş qızla incə və zərif surətdə, yaxşı sözlər işlədə-işlədə danışmaq qabiliyyətində deyil.

O, ürəyinin lap dərinliklərində hiss elədi ki, beləcə hasarın üstündə oturub onca metrlikdən tamaşa elədiyi bu qız əslində onun dünyasından çox-çox uzaqdadı, amma Baladadaş bunu da hiss elədi ki, günlərin bir günündə, dənizin sahilində, aylı-ulduzlu bir yay gecəsində, özü də sərin bir gecədə bu uzun məsafə yox ola bilər, bu gözəl qız da lap dəniz kimi onun saçlarını sığallayıb öpə bilər.

Baladadaş elə bil ki, bu öpüşü sifətində hiss etdi, diksindi və suçlu adamlar kimi qıza baxdı.

Məlum məsələ idi ki, Sevil Baladadaşın fikirlərindən və bir neçə saniyə bundan əvvəl onun arıq üzündən öpdüyündən xəbərsiz idi. Qız Baladadaşın üzündən öpdüyündən xəbərsiz idi. Qız Baladadaşın başındakı «aerodrom» kepkaya baxıb gözlərini süzdü və Baladadaş da başa düşdü ki, onun bu saat şer deyə bilməməsi çox pis iş oldu.

Sevilin anası artırmadakı qaz pilətəsinin üstündə təzə lobya qızardırdı və hasara dırmaşmış Baladadaşı görəndə lap cin atına mindi:

– Mənə bax, ora niyə dırmaşmısan? Başına yer qəhətdir?

Baladadaş kök arvada baxdı və heç nə deməyib hasardan yerə atıldı, parusin şalvarının dalını çırpıb səndəllərinin burnu ilə qumu tozlandıra-tozlandıra hasarlararası yol ilə uzaqlaşdı.

Sevilin anası pilətənin üstündəki lobyaya dörd-beş yumurta çırpıb hələ də əncir ağacının altında oturmuş qızına dedi:

– Murad gələcək indilərdə, dur qabdan-qacaqdan yığ stolun üstünə...

Sevil Muradın adını eşidəndə gülümsədi və quş kimi qalxıb otağa girdi.

Sevilin anası pilətənin odunu lap alıb sarımsaq əzməyə başladı və bu zaman həyətin taxta qapısı açıldı və Baladadaş hər əlində içi su ilə dolu bir vedrə hıqqana-hıqqana gəlib dayandı həyətin ortasında.

Sevilin anası tərs-tərs Baladadaşa baxdı və Baladadaş da bir müddət bu kök arvada baxıb:

– Şollar suyudur, – dedi. – Gətirdim sizinçün, işlədəsüz.

Sevilin anası dedi:

– Get, bala, get. Səndən heç kim heç nə istəməyib, get öz işinə, gücünə...

Baladadaş, «aerodrom» kepkasının altından tər damcıları süzülə-süzülə yenə də bir neçə müddət kök arvada baxdı və heç nə demədən geri dönüb əlindəki vedrələrlə birlikdə həyətdən çıxmaq istədi.

Sevilin anası arxadan onu səslədi:

– Doğrudan şollar suyudu?

Baladadaş ayaq saxlayıb kök arvada sarı çevrildi və bu kök arvadı inandırmaq üçün sidq-ürəkdən and içdi:

– Kepkam haqqı şollar suyudu, inanmırsuz?

Sevilin anası elə bil eşitmədi:

– Nə?

Baladadaş vedrələri yerə qoyub əlini kepkasına vurdu və dedi:

– Əşşi, kepkama and olsun ki, şollar suyudu, nöş inanmırsan e, sən?...

Birdən Sevil evin qapısından həyətə tərəf boylandı və:

– Necə, necə?! – dedi. – Kepkam haqqı?.. – Sonra da başladı şaqqanaq çəkib gülməyə.

Baladadaş başa düşmədi ki, Sevil indi nəyə gülür; əslində Sevilin gülməyi, özü də şaqqanaq çəkib gülməyi onun xoşuna gəlirdi və buna görə də heç ürəyində də ona acıqlana bilmirdi ki, adam belə güləyən olmaz.

Sevilin anası dedi:
– Yaxşı, gətirmisən, ver işlədək, amma day zəhmət çəkmə bundan sonra.
Baladadaş yenə də geri qayıdıb vedrələri hıqqana-hıqqana artırmaya qaldırdı və suyu iri dəmir qaba boşaltdı. Bu zaman həyətin qapısı ağzında qırmızı rəngli bir «Moskviç» dayandı. Sevilin anası o saat əl-ayağa düşdü:
– Murad gəldi! – dedi. – Seva, Murad gəldi!
Sevil tələsik otaqdan çıxıb qaça-qaça həyətə düşdü.
Anası da Baladadaşı yadından çıxarıb dəsmalla əllərini silə-silə həyətə endi.
Murad otuz yaşında, boylu-buxunlu, yaraşıqlı bir kişi idi. O, maşından düşüb həyətə girəndə elə bil səhərdən bəri günün altında taqətsiz qalmış bu həyətə bir canlanma gəldi, bu balaca evin, artırmanın, pilətənin – hər şeyin sanbalı artdı.
Murad:
– Hə, necədi? – dedi. – Necə yerləşmisiniz?
Sevil:
– Əntiqə! – dedi və özünü saxlaya bilməyib Muradın qoluna qısıldı; anası yanında olmasaydı, yəqin Muradın boynuna sarılacaqdı.
Sevilin anası da bunu hiss eləyib bir az özünü itirən kimi oldu, sonra dedi:
– Lap yaxşıdı buralar. Lap yaxşıca da yerləşmişik.
Murad ətrafı gözdən keçirib özündən və bütün bu həyət-bacadan razı halda dedi:
– Şəhərdə bir isti, bürkü var ki, adam nəfəs ala bilmir.
Sevil onun gözlərinin içinə baxıb:
– Yorulmusan? – dedi və elə dedi ki, anası yenə bir balaca özünü itirən kimi oldu: qız açıq-aşkar Muradın boynuna sarılmaq istəyirdi.
Bu saat heç kim bilmirdi ki, dünyada Baladadaş adında bir adam var və tamamilə yaddan çıxarılmış Baladadaş boş vedrələri əlinə alıb onların yanından ötmək istəyəndə Murad soruşdu:
– Bu kimdir belə?
Sevil, Baladadaşın «aerodrom» kepkasının altından tər damcıları süzülən sifətinə baxıb bərkdən güldü.
Sevilin anası dedi:
– Şollar suyu gətirib bizə iki vedrə.
Sevil isə gülürdü. Baladadaş ayaq saxlayıb Sevilə baxdı. Baladadaş üçün fərqi yox idi ki, bu on səkkiz yaşlı gözəl qızın yanında bığıburma zırpı bir oğlan dayanıb və həmin oğlanın təptəzə qırmızı «Moskviç»i var və Baladadaşın gözlərini bərəldib beləcə qıza baxmağı bu oğlanın xoşuna gəlmir; Baladadaş birdən-birə onun üçün bu qədər doğma və əziz olan bu göy gözlərə, xurmayı saçlara, ağ bənizə baxmaq istəyirdi və buna görə də baxırdı.
Murad əlini cibinə salıb bir dənə gümüşü manatlıq çıxartdı və Baladadaşa uzatdı:
– Tut.
Baladadaş gözlərini xurmayı saçlardan, göy gözlərdən, ağ bənizdən çəkib gümüşü manatlığa baxdı.
Əlbəttə, başqa vaxtlar olsaydı, Baladadaş ya söyüş söyərdi, ya gümüşü manatlığı alıb vızıldadardı göyün yeddinci qatına, axır ki, bir şey edərdi. Amma məsələ burasında idi ki, bu dəqiqə Baladadaş özünü tamam itirmişdi və bilmirdi ki, nə eləsin, çünki bu dəqiqə onun yanında on səkkiz yaşlı gözəl bir qız dayanmışdı, özü də bu qız göyə baxıb gözəl şerlər deyə bilirdi və indi bu qız da həmin gümüşü manatlığa baxırdı.

Sevilin anası dedi:
– Elə-belə gətirib e, ay Murad, pulsuz.
Murad gülümsədi:
– Eyb etməz, qoy gedib pivə içsin, sərinlənsin.
Baladadaş heç bir söz deməyib boş vedrələr əlində həyətdən çıxdı.
Arxadan Muradın səsi gəldi:
– Az oldu?
Sonra da göygözlü, xumayısaçlı, ağbənizli həmin on səkkiz yaşlı qız bərkdən güldü.
Iki ay var idi: biri göydə, biri də dənizdə və dənizdəki bu ay narın ləpələrin üzərində oynayırdı. Baladadaş sahildə – qumun üstündə oturub gözlərini dənizdəki aydan çəkmirdi.
Bütün sahildə heç kim yox idi, bir dəniz var idi, bir Baladadaş, bir də dənizdəki bu ay.
Sahilin bu tənhalığı bir həzinlik gətirmişdi və Baladadaş da həmin həzinlik içində gözlərini dənizdəki aydan çəkə bilmirdi.
Nəhayət, Baladadaş ayağa qalxıb parusin şalvarının dalını çırpdı və yavaş-yavaş sahildən uzaqlaşıb qayıqların arası ilə kəndə tərəf gəldi.
Ağanəcəfgilin həyətlərindən gələn mahnı səsi aləmi bürümüşdü: Qədir Rüstəmov «Sona bülbüllər»i oxuyurdu və Baladadaş da mahnının müşayiətilə Sevilgilin təzə həyətlərinin daş hasarına dırmaşıb qaranlıqdan onların işıqlı artırmasına baxdı.
Sevil, anası və Murad artırmadakı kiçik mizin arxasında oturub çay içirdi.
Sevilin anası:
– Sən Allah, maşını yavaş sür, – dedi. – Ürəyim qalacaq sənin yanında. Telefon da yoxdur ki, şəhərə çatanda zəng eləyib deyəsən.
Murad gülümsədi:
– Onsuz da yavaş sürürəm. Nigaran qalmayın.
Sevil dedi:
– Qal burda də, nə olar?..
Murad dedi:
– Yaxşı deyil...
Sevilin anası dedi:
– Bircə toyunuzu tez eləsəydik...
Baladadaş atılıb hasardan düşdü və dinməz-söyləməz parusin şalvarının dalını çırpıb Sevilgilin həyətlərindən uzaqlaşdı.
Yenə günün cırhacırı idi və belə isti ola, özü də şənbə günü – dəniz də, sahil də adamla dolu idi.
Baladadaş dənizdən təzəcə çıxmışdı və az qala dizinəcən uzanan qara trusiki nazik baldırına yapışmışdı.
Ağanəcəf əlindəki taxta şumaqədəri qumluğa yorta-yorta ona yaxınlaşdı:
– Əhmədağadan bu gün məktub almışıq. Sənə salam yazır. Deyir gəlsin mənim yanıma, Amurski oblasta. Deyir ki, kursa da girər, yaxşı. Ordan sonra vayenni akademiyaya da girmək olur əntiqə. Mən də bu gün yazdım ona ki, Baladadaş yaxşı-yaxşı şumaqədərlər düzəldir mənimçün. Anam da yazdı ki, Baladadaş salam deyir sənə.
Baladadaş birdən-birə:

– Sənə nə var e... – dedi. – Dünya vecinə döyül!... – Sonra qumun üzərində uzanıb gözlərini qıydı və günəşə baxdı.

Ağanəcəf ömründə Baladadaşdan belə sözlər gözləməzdi və matı-qutu qurumuş halda gözlərini döyüb bilmədi ki, nə desin. Sonra sahilə tərəf gələn qırmızı «Moskviç»i göstərib:

– Upravlyayuşi gəlir, – dedi.

Baladadaş soruşdu:

– Kim?

Ağanəcəf dedi:

– Upravlyayuşi.

– Upravlyayuşi kimdir?

– Ode, qırmızı «Moskviç»də gəlir.

Baladadaş dikəlib qırmızı «Moskviç»ə baxdı, Ağanəcəf həsəd dolu gözlərini bu təptəzə qırmızı «Moskviç»dən çəkməyərək dedi:

– Təzə qonşumuzdu qız. Bu da onun nişanlısıdı. Yayçün gəliblər, yenə qeyidəcəklər şəhərə payızda. Qızın anası deyir ki, upravlyayuşidi bu. Bilirsən neçə kilo olar qızın anası? Özü belə əntiqədi, ancaq anası yüz kilo olar.

Baladadaş dizləri üstə qumda oturub Muradla Sevilə baxırdı.

Sevilin xurmayı saçları çılpaq çiyinlərinə tökülmüşdü. Sevilin çılpaq qıçları, yalın ayaqları qumun üzərində elə addımlayırdı ki, elə bil bütün bu dəniz də, bütün bu sahil də bu qıçların sahibinə məxsus idi. Muradın əzələləri sayılan sağlam bədəni dənizin sularını yardı, Sevilə yol açdı və onlar üzə-üzə sahildən uzaqlaşdılar.

Baladadaş dənizdə idi və dənizdə Baladadaşdan, bir də ki... Sevildən başqa heç kim yox idi. Sevil suda Baladadaşın qolları üzərində uzanmışdı. Sevilin xurmayı saçları dənizin üzünə yayılmışdı. Baladadaş Sevili əllərində tutub dənizin üzü ilə gəzdirirdi. Sevil gözlərini yummuşdu və gülümsəyirdi, həm də şer pıçıldayırdı. Baladadaş Sevilin ağ bənizinə, suyun üzünə yayılmış xurmayı saçlarına, şer pıçıldayan dodaqlarındakı gülüşünə baxırdı və o da gülümsəyirdi.

Sevil göy gözlərini açıb Baladadaşa baxdı, sonra əlini uzadıb onun sifətində gəzdirdi, sonra dodaqlarının tuşunda tutdu. Baladadaş dəniz təmi verən bu əli öpdü, öpdü və üfüqə baxdı.

Gömgöy üfüq xətti bu dəniz xoşbəxtliyinin sərhəddi idi; bu üfüq xəttindən bu tərəfə Baladadaşla Sevilin aləmi idi; bu üfüq xəttindən bu tərəfə bütün dəniz Baladadaşla Sevilin idi və Sevilin xurmayı saçları bu dənizin üzərinə yayılmışdı.

Baladadaş əlləri üstündə tutduğu Sevilə tərəf əyilib onun xurmayı saçlarını və dənizi öpməyə başladı.

– Peyin var bağ üçün, istəmirsən?

Baladadaş gözlərini dənizdən çəkib eşşək arabasında oturmuş qoca kişiyə baxdı, elə bil heç nə görmədi və heç nə eşitmədi, təzədən dənizə baxdı, lakin daha nə Sevil var idi, nə də Sevilin xurmayı saçları dənizin üzərinə yayılmışdı.

– Peyin var deyirəm, bağ üçün, lazımdır?

Baladadaş yenə də gözlərini dənizdən çəkib eşşək arabasında oturmuş qoca kişiyə baxdı, əvvəlcə elə bil ki, təəccüb etdi: bu kişi hardan peyda oldu belə? Sonra oturduğu yerdən ayağa qalxıb parusin şalvarının dalını çırpdı, cavab gözləyən qocaya heç nə demədən adamsız, bomboş sahildən uzaqlaşdı.

Araba da təkərləri cırıldaya-cırıldaya axşamın toranında sahillə yoluna davam etdi.

Baladadaş qayıqların arasından keçib kəndə girəndə hava tamam qaralmışdı və o, yenə də Sevilgilin həyətlərinin daş hasarına dırmaşıb qaranlıqdan işıqlı artırmaya baxdı.

Sevil artırmadakı həsir kresloda təkcə oturmuşdu, əlində də kitab var idi.

Sevil sakitcə oturub kitab oxuyurdu və xəbəri yox idi ki, cəmi yarımca saat bundan əvvəl onun bu xurmayı saçları bütün dənizin üzərinə yayılmışdı; xəbəri yox idi ki, Baladadaş dənizin üzərinə yayılmış bu saçları cəmi yarımca saat bundan əvvəl öpürdü; xəbəri yox idi ki, onun bu xurmayı saçlarının şorməzə təmini indi də dodaqlarında hiss edirdi.

Birdən Sevil göy gözlərini kitabdan çəkib bir neçə an qaranlığa – Baladadaşın hasara dırmaşdığı səmtə baxdı və dedi:

– Yenə gəlib çıxmısan hasara?

Baladadaşın ürəyi birdən-birə qırılıb hasarın dibinə düşdü – qabaqlar belə şey olmazdı Baladadaşda.

Sevil dedi:

– Bilirəm də, hasarın üstündəsən. Dünən axşam da çıxmışdın ora. Elə bilirsən xəbərim yox idi? Murada desəm, bilirsən neyləyər sənə?

Baladadaşdan səs çıxmadı. Təkcə qurbağalar quruldayırdı – deyəsən, yağış yağacaqdı. Bir də ki, cırcıramaların səsi aləmi götürmüşdü başına. Sevilgilin evindən də səs gəlirdi – yəqin televizorla kino göstərirdilər və Sevilin anası da oturub kinoya baxırdı.

Sevil gözlərini qaranlıqdan çəkmədən dedi:

– Nə istəyirsən? Sənin tayınam? Get bir güzgüdə kepkana bax... Kepka deyil e, aerodromdur, aerodrom. Üstündən qalxıb aya uçmaq olar.

Sonra Sevil özü öz sözlərinə güldü.

Sevilin anası içəridən boylanıb soruşdu:

– Kimlə danışırsan elə?

– Heç kimlə. Özüm özümlə! – Sevil yenə güldü. – Olmaz?

Baladadaş başa düşdü ki, aşağı düşmək və buradan əkilmək lazımdır, özü də heç vaxt bu hasara dırmaşmaq lazım deyil. Baladadaş bunu başa düşürdü, amma məsələ burasındaydı ki, əl-ayağı sözünə baxmırdı, elə bil ki, Sevilin sözləri onun ürəyini kəsib hasarın dibinə atmışdı, əlini, ayaqlarını qurutmuşdu.

Sevil daha gülmürdü. Bu dəfə lap acıqlı-acıqlı dedi:

– Niyə düşüb getmirsən? Sənin üzündən gedib evin istisində oturum?

Yenə də qurbağalarla cırcıramaların səsindən başqa cavab gəlmədi və Sevil hirslə ayağa qalxıb evə girdi, qapını da arxasınca çırpdı.

Baladadaş bir müddət qurbağalarla cırcıramaların səsinə qulaq asdı, sonra axır ki, hasarın üstündən düşüb Sevilgilin həyətlərindən uzaqlaşdı.

Bu dəfə Baladadaşın yadından çıxdı ki, parusin şalvarının dalını çırpsın.

Kənd irəlidə idi və Baladadaş iki əlinin ikisini də parusin şalvarının ciblərinə salıb günün altında asfalt yolun ortası ilə kəndə tərəf addımlayırdı.

Qırmızı «Moskviç» arxadan gəlib onun yanında dayandı və Murad maşının pəncərəsindən boylanıb:

– Gəl otur, – dedi.

Baladadaş bir qırmızı «Moskviç»ə, bir də kənd tərəfə baxdı, sonra əllərini şalvarının ciblərində qurdalayıb maşına yaxınlaşdı, qapını açıb Muradın yanında oturdu.

Qırmızı «Moskviç» yoluna davam etdi.

Murad gözlərini asfaltdan çəkməyərək soruşdu:
– Oxuyursan?
Baladadaş elə bil ki, atasının maşınıymış kimi, yerini rahatlayıb dedi:
– Oxumuram day. Qurtarmışam məktəbi.
– Işləmirsən də?
– Amurski oblasta gedəcəyəm payızda, əsgərliyə. Qayıdandan sonra işləyəcəyəm.
– Əsgərliyə? – Murad gülümsədi. – Özün öz ayağınla əsgərliyə gedirsən?
– Hə, özüm öz ayağımla əsgərliyə gedirəm. – Baladadaş Murada baxdı və açıq-aşkar hiss olunurdu ki, bu saat bu «Moskviç» sahibi onun gözlərində çox pis adamdı.
Murad dedi:
– Sənə nə var ki, subay oğlansan, lap dünyanın o başına da gedə bilərsən. Gündə də bir qızla kef eləyərsən. – Sonra əlini qaldırıb maşının sandıqçasını açdı və içindən balaca bir qutu götürdü.
Qutuda qızıl medalyon var idi.
Murad dedi:
– Daha bizim günümüzdə deyilsən ki, gedib qızıldan, brilyantdan alıb gətirəsən ki, nişanlının xoşu gəlsin. – Sonra medalyonu çıxardıb köynəyinin döş cibinə qoydu və boş qutunu Baladadaşa uzatdı. – Al, yaxşı qutudu, bağışlayıram sənə. Adam hədiyyəni qutuda verəndə elə bilirlər ki, qiymətini gözə soxursan. Qiyməti də ki, həmişə yazırlar qutunun üstündə.
Baladadaş boş qutunu aldı və dedi:
– Saxla burda düşürəm.
Qırmızı «Moskviç» kəndin girəcəyində dənizə enən qum yolun yanında dayandı. Baladadaş qapını açıb maşından düşdü, sonra əlini cibinə salıb üç dənə iyirmi qəpiklik çıxartdı və dəmir pulları bir-bir maşının oturacağına atıb:
– Çox sağ ol, – dedi. – Bu da yol xərcin. – Sonra maşının qapısını bağladı, parusin şalvarının dalını çırpa-çırpa dənizə tərəf addımladı.
Murad arxadan nə isə qışqırdı, amma Baladadaş heç nə eşitmədi və geri də dönüb baxmadı.
Baladadaş dənizə tərəf gedə-gedə əlindəki medalyon qutusuna baxdı, sonra qutunu bir az qabağa atıb qaça-qaça havada təpiklə vurdu. Qutu göyün yeddinci qatına qalxdı və hara düşdüyü məlum olmadı.
Baladadaş qaça-qaça «aerodrom» kepkasını, miləmil trikotaj köynəyini, parusin şalvarını, səndəllərini çıxarıb özünü dənizə verdi, bir az əl-qol atıb arxası üstə suyun üzərində uzandı və göyə baxdı; göy təmiz və sonsuz idi və bu saat sonsuz göy də bu dəniz kimi ancaq Baladadaşa məxsus idi.
Baladadaşın ilk məhəbbət macərası beləcə sona yetdi və bu məhəbbət macərasını o, yalnız bir dəfə – qatara minib Amur vilayətinə əsgərliyə gedən zaman xatırladı və xurmayı saçların həmin şorməzə tamını dodaqlarında hiss etdi.

*Iyun, 1972.*

## GÜNLƏRIN BIR GÜNÜNDƏ

### 1. Qarlı gəzinti həsrəti

Tülkü çoxbilmişliyindən tələyə düşər, deyiblər, amma bu Tülkü çox bilməyinə lap çox bilirdi, tələyə də düşmürdü ki, düşmürdü. Bic idi, fəndgir idi, kəmfürsət idi. Anasının əmcəyini kəsən Tülkü idi.

Meşə səfalı meşə idi – dağın döşündə; palıdı, vələsi var idi, armudu, qozu, fındığı var idi. Cüyürü, əliyi var idi, hacıleyləklər burada yuva salardı, bala çıxarardı. Talaları var idi, gülü, çiçəyi var idi... Amma Tülküsü də var idi bu meşənin.

Hacıleyləklər içərisində bir gözəl Hacıleylək qoca palıdın budaqlarında özünə yuva salmışdı, üç qəşəng balası yumurtadan təzəcə çıxmışdı. Səhərlər Hacıleylək uçub gedirdi, balalarına yem tapırdı, yuvasına qayıdırdı, uzun dimdiklərini şaqqıldada-şaqqıldada balalarını yedirdirdi, daha bilmirdi ki, zalım Tülkünün bu qəşəng balalarda gözü var.

Günlərin bir günündə Hacıleylək balaları üçün yem gətirməyə getmişdi.

Tülkü yekə bir mişar tapıb güclə sürüyə-sürüyə palıdın yanına gəldi, ağzı sulana-sulana altdan yuxarı yuvada civildəşən leylək balalarına baxdı, sonra mişarı bir kənara qoyub ədəb-ərkanla palıdın dibində əyləşdi, ağacın gövdəsinə söykənib ana Hacıleyləyi gözləməyə başladı.

Az keçdi, çox keçdi, ana Hacıleylək yem tapıb geri uçdu, yuvasına qonub yenə də uzun dimdiklərini şaqqıldada-şaqqıldada istədi ki, balalarını yedizdirsin, amma bir də baxıb gördü ki, ağacın dibində bir Tülkü mişarı qaldırıb palıdın gövdəsini kəsmək istəyir. Hacıleyləyin ürəyi qırılıb düşdü ayaqlarının altına, başını aşağı uzadıb soruşdu:

– Ay Tülkü lələ, nə edirsən belə?

Həyasız Tülkü dedi:

– Ağacı kəsirəm.

Yazıq Hacıleylək uçum-uçum uçunmağa başladı:

– Niyə, ay Tülkü lələ?

Qəddar Tülkü dedi:

– Sənə nə var niyə? Meşə mənə babamdan qalıb. Bu ağacı kəsirəm ki, aparıb bazarda satım, özümə toyuq alım.

Yazıq Hacıleylək nə biləydi ki, bu qoca palıdı kəsməyə Tülkünün gücü çatmaz, gözlərindən yaş axıdıb yalvarmağa başladı:

– Bizə rəhmin gəlsin, ay Tülkü lələ. Bəs, sən ağacı kəssən biz neylərik? Yuvam dağılar, ay Tülkü lələ...

Tülkü gözlərini qıyıb yenə də aşağıdan yuxarı Hacıleyləyə baxdı və dedi:

– Onda balanın birini mənə ver, ağacı kəsməyim. Yoxsa, kəsəcəyəm.

– Bay, sənin canın yansın, ay Tülkü! – bu sözləri Səmayə dedi, lap doğrudan-doğruya ürəyi yana-yana dedi.

Məsələ burasında idi ki, zalım Tülkü ilə biçarə Hacıleylək haqqındakı bu pyesi Bakı Uşaq Teatrı tamaşaya qoyacaqdı və Səmayə də həmin tamaşada Tülkü rolunu oynayacaqdı. Indi də gecənin bir aləmi divanın üstündə ayaqlarını altına yığıb soyuqdan büzüşə-büzüşə öz rolunu əzbərləyirdi.

Bu il qış yaman gəlmişdi, hələ söyüdlər yarpaqlarını tamam tökməyə macal tapmamış hər yanı qar basmışdı, gör indi bir azdan nə qiyamət qopacaqdı. Otaqlar da ki, soyuq – qızdırıcılar pis yanırdı. Səmayə ocaqçı Məmmədəlinin qarasına deyinib yenə pyesi oxumağa başladı.

Hacıleylək nə qədər yaş axıtdı, nə qədər yalvarıb aman istədi, qəddar Tülkü bəd əməlindən dönmədi ki, dönmədi.

Dərddən ürəyi üzülən Hacıleylək axırıncı dəfə Tülkünü dinə-imana gətirmək istədi:

– «Sən mənimçün can ver, mən səninçün ölüm» oldu bu, ay Tülkü lələ.

Tülkü mişarı qoca palıdın yoğun gövdəsinə ilişdirib:

– Özün bil! – dedi.

Çarəsiz dərdə loğman da acizdir. – Hacıleyləyin əlacı qalmadı, gözünü yumub lap ürəyi gedə-gedə dimdiyi ilə balalarından birini götürdü və Tülküyə atdı, heç özü də bilmədi neylədi. Tülkü quşcuğazı dişinə alıb şələ quyruğunu bulaya-bulaya çıxıb getdi və hələ də bir müddət yazıq quşcuğazın civiltili ah-naləsi kəsilmədi.

– Can-can!.. – Bunu da Səmayə dedi və istər-istəməz divanda dikəlib o biri otaqda mışıl-mışıl yatan Fatmaya tərəf boylandı, elə bil arxayın olmaq istəyirdi ki, Fatma üçün belə Tülkü qorxusu yoxdur və buna arxayın olandan sonra yenə də pyesi oxumaq istədi, amma daha həvəsi qaçmışdı, özü də lap yorulmuşdu, həm də yazıq quşcuğazın civiltisi qulağından getmirdi.

Səmayə divandan qalxıb barmaqlarının ucunda qızdırıcıya yaxınlaşdı, əlini hələ əməlli-başlı qızmamış dəmirin üstünə qoyub yenə də ocaqçı Məmmədəlinin qarasına ürəyində bir-iki yağlı söz dedi, sonra pəncərənin yanına gəlib bayıra baxdı.

Bayırda bir qar yağırdı ki, gəl görəsən; qardan və adda-budda pəncərə işıqlarından başqa heç nə görünmürdü. Səmayə bu quşbaşı qara baxdı, baxdı və çox keçmişlərdə qalmış bir dəli həvəsin giziltisi yenə də ürəyindən keçib getdi; amma bir həsrət həzinliyi qaldı yenə.

Bir dəli həvəsi var idi Səmayənin, çox-çox bundan əvvəl, o vaxtlar ki, Səmayə tək idi, yəni o vaxtlar ki, hələ Fatma yox idi dünyada və Səmayə özü də Fatma kimi qəşəng gözəl bir qız idi. Bir dəli həvəsi var idi Səmayənin – bu cür qarlı gecədə üst-başlarına qar yağa-yağa dünyada ən yaxın adamı ilə, ən əziz adamı ilə, yəni sevgilisi ilə Bakının küçələrini, bağlarını, dəniz kənarını gəzmək; elə gəzmək ki, dünyada onlardan – Səmayədən və həmin naməlum sevgilidən, bir də ki, quşbaşı qardan başqa heç kim və heç nə olmasın; Bakı yatsın, təkcə beş-altı pəncərə oyaq qalsın və onlar da bu qarlı pəncərə işıqlarını güclə tapıb bir-birilərinə göstərsinlər, həmin pəncərə işıqlarının ılıqlığı ürəklərindən axıb keçsin; onda adamın ürəyi lap balaca – bir dınqılı gəmiyə dönər...

Əvvəlcə trolleybusun səsi gəldi, sonra işığı göründü və gecənin yarısına qalmış bu axırıncı trolleybus pəncərəsinin altından keçib, gedəndə Səmayəyə elə gəldi ki, elə bil vağzaldadır və kimi isə – çox əziz bir adamını uzaq səfərə ötürür, ürəyi sıxıldı.

Bu, həmin dəli həvəsin həsrət sıxıntısı idi.

Bir vaxt var idi – o vaxt ki, hələ Fatma dünyada yox idi və Səmayə özü də Fatmadan bir-iki yaş böyük olardı, elə beləcə gözəl-göyçək bir qız idi – bax, beləcə dayanardı köhnə evlərinin pəncərəsi qarşısında, bayırda yağan qara baxardı və o zaman da ürəyində həmin dəli həvəsin həsrəti var idi, amma o həsrət bol-bol işıq içində idi, sevincli həsrət idi, əslində həsrət yox, ürək tappıltısı ilə gözlənilən gələcək idi; onda sıxıntı yox idi, gözləmə var idi, nəyinsə ərəfəsi idi.

O zaman gələcəkdə onu həmin qar gəzintisi gözləyirdi, səhnədə onu Dezdemona, Luiza, Gültəkin gözləyirdi, lap o vaxtdan Ofeliyanın mahnısını əzbərləmişdi və bu mahnı da səhnədə onu gözləyirdi. Əlbəttə, o zaman heç ağlına gətirməzdi ki, bir vaxt gələcək və beləcə gecə vaxtı qəddar Tülkünün sözlərini əzbərləyəcək, min cürə fəndgirlik edib Hacıleyləyin gözlərini yaşlı qoyacaq, çünki o zaman ağlı hələ kəsmirdi ki, hamı Dezdemona ola bilməz, Tülkünü də oynamaq lazımdır və Tülkünü oynamaq da yuxusuz gecələr istəyir, istedad istəyir. O zaman hələ orasını da bilmirdi ki, Stanislavski deyib: rolun böyüyü, kiçiyi yoxdur, artistin böyüyü, kiçiyi var.

Bu başqa məsələ ki, dünyada nə Tülkü olaydı, nə onun mişarı, təkcə elə Hacıleyləklər olaydı, ceyranlar, cüyürlər olaydı, güllər, çiçəklər olaydı. Səmayə bunu fikirləşdi və pəncərədən quşbaşı qara baxa-baxa gülümsədi, çünki meşə çaqqalsız olmaz deyiblər, həm də lap uşaq fikirləridir bu.

Belə çaqqallardan birisi də, heç şübhəsiz – Fatmanın qulağından iraq – onun keçmiş başabəla sevgisi idi, yəni ki, Fatmanın üzdən iraq atası. Əvvəlcə bir-iki ay sevgilisi, sonra üç-dörd ay yarımsevgilisi oldu, sonra da lap çaqqala döndü, çünki Nuh-Nəbidən çaqqal imiş və elə ki, onun çaqqallığı tamam-kamal məlum olmuşdu, Səmayə Fatmanı da götürüb çıxıb getmişdi.

Onda Fatmanın iki yaşı var idi, indi Fatmanın on beş yaşı tamam olub və lap qabaqlar Səmayənin heç ağlına gəlməzdi ki, Dezdemonadan, Luizadan, Gültəkindən əvvəl onu gələcəkdə gözəl-göyçək bir Fatma gözləyir, elə bir Fatma ki, onu dünyanın ən xoşbəxt adamı edəcək və bu xoşbəxtlik yanında qarlı gəzinti həsrəti də, Dezdemona, Luiza, Gültəkin həsrəti də bir heç olacaq.

Səmayə yenə də gəlib əlini qızdırıcıya uzatdı və bu dəfə ocaqçı Məmmədəlinin qarasına deyinmədi, çünki borular yavaş-yavaş qızırdı və borular qızdıqca da otaq yavaş-yavaş istiləşirdi; belə qış gecələri otaq qızandan sonra daha adam qəribsəmirdi, pis-pis fikirlər girmirdi başına.

Səmayə o biri otağa keçib Fatmanın üstündəki yorğanı ustufca rahatladı və soyunub öz yerinə girdi, tələm-tələsik yorğana büründü və elə bildi ki, Hacıleylək gəlib öz yuvasına, balası da yanında. Sonra Tülkü yadına düşdü, sonra Çaqqal yadına düşdü, sonra da Fatmanın atası yadına düşdü və Fatmanın on yaşı tamam olandan sonra atası ilə ilk dəfə gəzməyə çıxmağa icazə verdiyi günü xatırladı. Əslində bu gəzintini Səmayə özü təşkil elədi, hər nə idi, hər kim idi, uşağın atası idi. Həmin gün Fatma ömründə ilk dəfə o vaxta qədər təsadüfdən-təsadüfə gördüyü atası ilə gəzməyə çıxdı və evə qayıdandan sonra Səmayəyə birinci sualı bu oldu:

– Mama, atam doğrudan injinerdi?

«Amma yaman da injinerdi! Avaranın biridir ki, gündüz çıraqla da axtarsan beləsini tapmazsan!» – bunu Səmayə ürəyində dedi, dilinə isə, aydın məsələdir ki, başqa söz gətirdi:

– Əlbəttə. Nədir ki?

Fatma çox ciddi surətdə dedi:

– Dedilər durakdır.

Səmayənin gözləri kəlləsinə çıxdı:

– Nə?!

Fatma cidd-cəhdlə anasını başa saldı:

– Durakdır dedilər... Mənimlə söhbət edirdi, amma başqa xalaya baxırdı. Sonra guya ki, başını qaşıdı, amma xalanın dalınca baxdı, sonra bilmirəm nə oldu, sonra da xala geri dönüb dedi ki, durak!

«Kül olsun belə kişinin başına! Uşağın yanında da özünü saxlaya bilməyib. Biabır elədi bizi, köpəkoğlu!» – bunu da, təbii ki, Səmayə ürəyində dedi, amma lap əməlli-başlı utandı Fatmadan və elə buna görə də qızına bozardı:

– Bir də belə şeylər danışma! Adam atasına elə söz deməz!

O vaxtdan xeyli keçmişdi, çox qar yağmışdı, çox gün çıxmışdı. Fatma indi atası ilə ildə-ayda bir dəfə görüşürdü, özü də həvəssiz. Bu bir tərəfdən yaxşı idi, bir tərəfdən də, məlum məsələdir ki, pis. Yaxşı idi ona görə ki, o cür ipi çürük adamla nə qədər az görüşsən bir elə çox qazanarsan. Pis idi ona görə ki, niyə axı, belə olmalı idi, niyə bu cür gözəl-göyçək Fatmanın atası çaqqal olmalı idi? Niyə qarlı gəzinti həsrəti bax, beləcə, bu qış gecəsi Səmayənin ürəyini gizildətməli idi? Niyə?

Əşşi, iş ki, düşdü «niyə?»lərə, onda heç nə. Onda gərək Ofeliyanın mahnısının da oxunmadığını fikirləşəsən. Onda gərək yenə də ürəyini verəsən Gültəkinin iztirablarına. Onda gərək Dezdemonanın taleyi ilə bərabər öz taleyini də düşünəsən. Və onda gərək yenə də səhərə kimi yatmayasan, elə fikirləşəsən, fikirləşəsən, fikirləşəsən. Səhərə kimi fikirləşəsən.

Səhər isə teatrda məşq var, «Tülkü və Hacıleylək balaları»nın məşqi.

Səmayə otağın qaranlığında yanındaca mışıl-mışıl yatan Fatmaya baxdı, sonra, elə bil, bayırdakı qarın soyuqluğunu yatağında hiss elədi və yerində büzüşüb bərk-bərk yorğana büründü, lap sidq-ürəkdən əsnəyib fikirləşdi ki, amma Fatma da yaman bicəngənədir, elə birinci gün hiss eləmişdi çaqqalın çaqqallığını. Bunu fikirləşdi və gülümsədi.

Özü öz dərdinə gülümsəməyi öyrənmişdi Səmayə.

## 2. Gümüşü gün sevinci

Qardan sonra Səmayənin gümüşü günləri olardı və həmin gün də Səmayənin gümüşü günlərindən idi. Həmin gün ki, Səmayə teatrdan çıxıb evə gəlirdi və ürəyindəki gümüşü gün sevinci ilə Fatması barədə düşünürdü.

Fatmanın təzə rəfiqəsi var idi, adı Gülüş idi, özü də yaman cici-bacı olmuşdular, hər gün bir yerdəydilər.

Keçən yay Səmayəyə təzə ev vermişdilər və onlar indi yaşadıqları bu təzə binaya köçəndən sonra Fatma məktəbini də dəyişmişdi, lap bu yaxındakı məktəbin səkkizinci sinfində oxuyurdu. Gülüş də həmin sinifdə oxuyurdu və Gülüşlə Fatmanın beləcə cici-bacı olmaları Səmayənin də lap ürəyindən idi. Əvvəla, ona görə ki, Gülüş çox tərbiyəli, ağıllı qız idi. Ikincisi, ona görə ki, Gülüşün anası elmlər doktoru idi, atası da yaxşı vəzifədə idi, ağayana adama oxşayırdı, yəni ki, atalı-analı qız idi Gülüş, yaxşı ailədən idi. Üçüncüsü və ən başlıcası isə ona görə ki, günlərin bir adi günü Səmayəyə aydın olmuşdu ki, Fatma daha uşaq deyil və indi onun elə vaxtı idi ki, oturub-durduğu adamlardan çox şey asılıdır. Iş elə gətirib ki, Fatmanın atası ola-ola (mürdəşir onun üzünü yusun!) atasız böyüyüb, amma indən belə elə olmalıydı ki, Fatmanın ürəyindəki yara közərib alışmasın, yəni görsün ki, yaxşı ailələrlə, hər bir işi tam-düz ailələrlə onların bu balaca ailəsinin heç bir fərqi yoxdur. Ürəyini xiffət yeməsin, görsün ki, onun Səmayə maması elə ataya da, anaya da bərabərdir və Fatmanın da heç bir əgər-əskiyi yoxdur.

Səmayə əlindən gələni əsirgəmirdi – bayramlarda zəng çalıb Gülüşün anasını təbrik edirdi, hər dəfə Gülüşlə evlərinə salam göndərirdi, Gülüş onlara gələndə Fatmaya da, ona da eyni gözlə baxırdı. Əlbəttə, Gülüşün anası ilə daha artıq yaxınlıq eləmək olardı, amma bunun üçün nə vaxt var idi, nə də şərait imkan verirdi.

Səmayə «Tülkü və Hacıleylək balaları»nın məşqindən çıxıb evə gəlirdi və bütün bunlar barədə fikirləşirdi; ayağının altındakı qarı xırçıldada-xırçıldada addımladıqca ona elə gəlirdi ki, Fatma kimi on beş yaşlı gözəl-göyçək bir qız da onunla yanaşı addımlayır və bu qız elə onun özüdür, on beş yaşlı Səmayədir.

Bir vaxt olacaqdı Fatmanın da yanında beləcə on beş yaşlı Fatma addımlayacaqdı və o zaman Fatma heç bilməyəcəkdi ki, hələ çox-çox əvvəllər anası onu beləcə görüb; qarlı qış günündə on beş yaşı ilə birlikdə addımlaya-addımlaya.

Bir gümüşü gün idi həmin gün.

Təzəcə qar kəsmişdi, gün çıxmışdı və günün şüaları küçələrdəki, damlardakı, eyvanlardakı, ağaclardakı qarı elə parıldadırdı ki, elə bil Bakıya qarın üstündən gümüş yağmışdı. Bakının belə gümüşü günləri heç vaxt Səmayənin yadından çıxmazdı, o, bütün ömrü boyu gördüyü belə gümüşü günləri bircə-bircə xatırlayırdı və həmin günlərin hərəsinin öz ətri, öz ovqatı, öz təkcəliyi var idi.

Nə qədər küləkli-yağışlı günlər olmuşdu, nə qədər adamın nəfəsini kəsən isti günlər, nə qədər adi günlər olmuşdu, amma onların heç biri Səmayənin yadında qalmamışdı; pis hadisələr, pis əhvalatlar, yaxud da ki, yaxşı hadisələr, yaxşı əhvalatlar yadda qalmışdı, günlər isə yadda qalmamışdı. Bax, bu cür gümüşü günləri isə bir-bir sayardı Səmayə və bu gün də heç vaxt onun yadından çıxmayacaqdı. Yadından çıxmayacaqdı ki, bir vaxt – bax, bu gümüşü gün, məşqdən çıxıb evə gələ-gələ fikirləşirdi: düzdür, Dezdemona daha əlçatmaz oldu, vaxtı keçər oldu, amma Hertruda hələ irəlidədir, ledi Maqbet hələ irəlilədir, Kuraj ana hələ irəlidədir.

Səmayə qarı ayaqlarının altında xırçıldada-xırçıldada bir də onu fikirləşdi ki, axı, necə olur, təbiətin bu cür gümüşü günləri olur, bir tərəfdən də dünyada ledi maqbetlər olur?

Sonra birdən-birə Səmayə çox istədi ki, Fatma da bu gümüşü günləri beləcə yadında saxlasın və heç vaxt unutmasın bu günləri, bu günlərin ətrini, rəngini, təkcəliyini. Fatma da beləcə hiss eləsin bu gümüşü günləri. Həm də Fatmanın gümüşü günləri lap bol olsun və Fatmanın gümüşü günlərinin nə həsrət çaları olsun, nə də həzinliyi, təkcə elə sevinci olsun, lap zırpı bir sevinci.

Əlbəttə, Fatma anasının bu fikirlərindən xəbərsiz idi və Səmayə evə girəndə gördü ki, Fatma dayanıb bədənnüma güzgünün qabağında və pəncərədən o tərəfdəki gümüşü gün heç vecinə də deyil, çünki üz-gözünü basmış sızanaqların hayındadı; sızanaqları dırnaqlarının arasına alıb sıxır, sifətini qanadır.

Fatma ağlamsına-ağlamsına, həm də hirsli-hirsli dedi:

– Bu nədir e, ay mama, görürsən bu prişikləri!.. Utandığımdan camaatın içinə çıxa bilmirəm...

Səmayə bayırın gümüşü havasından sonra Fatmanın sızanaq dərdini birdən-birə ürəyinə sala bilmədi və gülümsəyə-gülümsəyə:

– Heç nə olmaz, keçib gedəcək, – dedi. – Əlini vurma.

– Yaman da keçib gedir. Day da artır günü-gündən.

– Bəs, mənə niyə hirsin tutur, mən eləməmişəm ki... – Səmayə yenə də ürəyindəki gümüşü gün sevinci ilə gülümsə-gülümsəyə Fatmaya yaxınlaşdı və qızını qucaqlayıb hələ qızınmamış şaxtalı üzünü onun üzünə sürtdü.

– Adımı ki, sən qoymusan: Fatma. Hamı mənə Fatma nənə deyir! Bir yaxşı ad qoya bilmirdin mənə?

Səmayə lap sidq-ürəkdən təəssüf elədi ki, Fatma pəncərənin o tayındakı gümüşü günün fərqinə varmır.

– Kimin nə haqqı var sənə elə desin! – Sonra zarafat eləmək istədi. – Amma Fatma nənə olmağına Fatma nənəsən də. Anamın adını qoymuşam da, sənə, nənənin adını.

– Çox elə mənim lazımım idi. – Fatma adından çox, sifətindəki sızanaqların əlindən acıqlı-acıqlı yataq otağına keçdi.

Yaxşı ki, Səmayənin adı bir o qədər qocafəndi deyildi və hərgah işdi-şayət, Fatma öz qızına Səmayə adı qoysa, bir o qədər də xəcil olmaz. Səmayə gülümsədi və paltosunu çıxarıb arakəsmədəki asılqandan asa-asa dedi:

– Tamaşanın premyerası dekabrın doqquzundadır.

Fatma yataq otağından soruşdu:

– Hansı tamaşanın?

– «Tülkü və Hacıleylək balaları»nın. Dekabrın doqquzu da şənbə günüdür. Bilet göndərəcəyəm Gülüşün papası ilə maması da gəlsin. Çox təsirli əsərdir.

Fatma elə bil nədənsə hürküb tələm-tələsik arakəsməyə gəldi:

– «Tülkü və Hacıleylək balaları»nın?

– Hə, yaxşı ki, şənbəyə düşdü. Gülüşün mamasıgil də boş olacaq.

Fatma anasının qabağında dayandı, amma bir söz demədi və başqa bir iş tapmayıb paltarının yaxasını didişdirməyə başladı.

Səmayə dedi:

– Paltarını niyə didişdirirsən?

– Heç... Onda bilirsən, mama ... – Fatma çətinlik çəkdi. – Onda bilirsən, qoy əvvəlcə mən bir kəşfiyyat aparım, sonra...

Səmayə qızının qara, qəşəng gözlərinin dərinliyində bir ürkü, bir narahatlıq, təşviş hiss etdi və bu, onun gümüşü gün sevinci ilə dolmuş ürəyinə lap kiçicik də olsa, xal saldı.

Səmayə dedi:

– Neynək, kəşfiyyat apar. Mənim kəşfiyyatçı qızımsan da sən!.. – Və gülümsəyə-gülümsəyə Fatmanın qara saçlarını qatışdırdı.

### 3. Ilk tamaşa

O zamanlar Fatma lap balaca idi və o zamanlar hər ilk tamaşa Fatma üçün bayram olurdu, hələ neçə gün əvvəldən hazırlaşırdı, gecə-gündüz fikri-zikri həmin tamaşada olurdu. Bu o zamanlar idi ki, Fatma məktəbdə, həyətdə uşaqların yanında bir şellənirdi, gəl görəsən: bax, o keçini oynayan mənim anamdı, Şəngülümü, Şüngülümü, Məngülümü yedizdirən mənim anamdı, canavarın qarnını buynuzları ilə yırtan mənim anamdı. Bu o zamanlar idi ki, bir dəfə Səmayə Dovşanı oynayırdı və Tülkü gəlib onu yemək istəyəndə (dad bu tülkülərin əlindən!) Fatma elə ağlamışdı ki, zalda oturan bütün tamaşaçılar Dovşanın ah-naləsini unudub Fatmanın hönkürtülərinə gülmüşdü və Səmayə də Tülkünün pəncələri arasında fikirləşmişdi ki, bəyəm hönkürtüyə də gülərlər?

Bu o zamanlar idi ki, Fatma hələ «gəlirəm» əvəzinə «gəliləm», «gedirəm» əvəzinə «gediləm» deyirdi və bu o vaxtlar, o çağlar idi ki, Fatmanın sızanaq dərdindən əsər-əlamət yox idi və heç adamın ağlına da gəlməzdi ki, bir vaxt gələcək və bu totuq qızcığaz belə bir sızanaq qəmginliyinə mübtəla olacaq.

Səmayə bunu fikirləşdi və gülümsədi. Yaxşı ki, rejissor bu gülümsəməyi sezmədi, yerindən qalxıb həmişəki kimi, əl-qolunun hərəkətləri ilə dilinin köməyinə çatdı:

– Səmayə xanım, bir az daha artıq ehtirasla istəyin, daha artıq emosional təsirə ehtiyac var!

Səmayə:

– Yaxşı, – dedi və fikirləşdi ki, axı, yazıq Hacıleyləyin ikinci balasını da bundan artıq necə ehtirasla istəsin, adamın ürəyi gəlir bəyəm? Axı, tülkü tülküdü, adam adamdı.

Yenə hardan gəldi bu uşaq fikirləri?

Bu gün «Tülkü və Hacıleylək balaları»nın axırıncı məşqi gedirdi, sabah, yəni dekabrın yeddisində ictimai baxış idi, iki gündən sonra da ilk tamaşa.

Tülkü yenə də mişarı qoltuğuna vurub palıdın dibini kəsdirmişdi və bu dəfə Hacıleyləyin ikinci balasını istəyirdi. Hacıleylək yazıq, gözlərindən yaş axıda-axıda yalvarırdı ki, Tülkü palıdı kəsməsin. Zalım Tülkü isə insafa gəlmirdi:

– Mənə nə var! Meşə mənə babamdan qalıb! Hansı ağacı istəsəm onu da kəsərəm. Ya balanı mənə ver, ya da ağacı kəsəcəyəm, aparıb bazarda satacağam, özümə toyuq alıb qəşəngcə yeyəcəyəm.

– Səmayə xanım! Axı, siz təcrübəli aktyorsunuz! Sizə neçə dəfə demək olar ki, daha artıq ehtirasla tələb edin! Axı, siz Tülküsünüz! Qəddarsınız! Yırtıcısınız! Görürsünüz Hacıleylək necə ürəkdən ağlayır?

Səmayə fikirləşdi ki, Hacıleylək çarəsizdi, daha neyləyəcək, gərək ağlasın da. Bunu fikirləşdi və bu dəfə Hacıleyləyin ikinci balasını lap doğruçu Tülkü qəddarlığı ilə istədi.

– Bu pis olmadı. – Rejissor dərindən nəfəs aldı.

Artıq neçə müddət idi ki, qar yağmırdı və küçələrdəki qar əriyib, çirklənib palçığa dönmüşdü, eyvanlardakı qarı təmizləmişdilər, damlardakı, ağaclardakı qarı his, tüstü qaraltmışdı və həmin günün axşamı Səmayə öz evlərinin pəncərəsi qarşısında dayanıb bayıra baxırdı. Bir xeyli beləcə dayanıb damlarda rəngini itirmiş qara, küçədən trolleybus, avtobus, maşınlar keçdikcə təkərlərinin altından sıçrayan qarlı palçığa tamaşa etdi və yenə də gözlərini şüşədən çəkməyib Fatmadan soruşdu:

– Sən heç təzə qar yağanda, hər tərəf ağappaq olanda, gecə vaxtı; şəhərdə tək-tük işıq yananda çölə çıxıb gəzmək arzulamısan? – Səmayə bu sözləri dedi və özü öz sözlərindən bir balaca hürkdü, hürkdü ki, birdən Fatmanın könlündə elə nöqtəyə toxunar ki, bu nöqtədə onların arasında pərdə olmalıdır; gözlərini pəncərədən çəkib qızına baxdı.

Fatma mizin arxasında oturub sabahkı dərslərini hazırlayırdı və o da gözlərini dərslikdən çəkib anasına baxdı:

– Elə yaman da sapojkim var ki, qarda gəzmək arzulayım!..

Səmayə əvvəlcə elə bil heç nə başa düşmədi və sonra handan-hana məlum oldu ki, söhbət Fatmanın uzunboğaz çəkmələrindən gedir. Səmayə üçün orası da məlum oldu ki, təbiətdə qar sevinci ilə palçıq dilxorçuluğu arasında cəmi-cümlətanı bircə qarış məsafə var.

– Nə olub ki, sənin uzunboğazlarına? Su buraxır?

– Su buraxmır, amma uşaq sapojkisidir onlar. Hamı modnısını geyir, elə bir mənəm uşaq çəkməsində, uşaq paltosunda.

Səmayə əvvəlcə qızı ilə höcətləşmək istədi, amma sonra yenə küçələrdə əriyib palçığa dönmüş qara baxdı və beş-on gün bundan əvvəlki təzə qarı təzədən xatırladı – ətrini duydu, rəngini gördü və hiss elədi ki, Fatma daha böyüyür əməlli-başlı; Fatma böyüyür, özü qocalır; niyə qar palçığa dönür sonra? – özü özünə dedi ki, əcəb axmaq sualdır bu!

– Sənə elə bir uzunboğaz çəkmə alacam ki, hamının ağzı açıla qalsın.

– Hə? – Fatmanın eyni açıldı və mizin altından ayaqlarına baxdı – elə bil daha geymişdi həmin əntiqə uzunboğaz çəkmələri.

Sonra Səmayə dedi:

– Sabah biletləri gətirəcəyəm, verərsən Gülüşgilə, mənim adımdan onları da dəvət edərsən.

«Tülkü və Hacıleylək balaları» Fatmanın yadına düşdü və qız açıq-aşkar bikeflədi:

– Doğrudan, iki gün qalıb də doqquzuna...

Səmayə başa düşdü ki, Fatma bütün bu müddət ərzində günləri sayırmış.

Fatma soruşdu:

– Ay mama, yenə Tülkü paltarında olacaqsan?

Səmayə elə bil kiminsə acığına canı-dildən təsvir eləməyə başladı:

– Hə, əlbəttə! Bir əntiqə Tülkü geyimi tikiblər ki, başdan ayağa tamaşadır! Bir şələ quyruğu var ki, gəl görəsən! Bax, bu boyda! – Səmayə qollarını açıb tülkünün şələ quyruğunun yekəliyini göstərdi, sonra qızına baxdı və susdu.

Araya sükut çökdü və bu onların arasına çökmüş ilk sükut idi.

Nəhayət, Fatma sükutu pozdu:

– Neynirsən e, ay mama, neynirsən onları dəvət edib?.. – Anasına baxdı və əlavə etdi: – Heç ömründə teatra getmirlər. Xoşlamırlar teatrı. Heç bir dəfə görməmişəm ki, teatrdan söhbət eləsinlər.

Səmayə əlini üzünə apardı, elə bil dişi ağrıyırdı, sonra gülümsədi:

– Neynək, xoşlamırlar, qoy xoşlamasınlar.

Fatmanın çiynindən yük götürüldü:

– Hə də!..

Və Səmayə də sevindi ki, qızı daha narahatlıqdan qurtardı, amma sonra belə məlum olmuşdu ki, bu sevinc bir balaca vaxtından əvvəl imiş. Bu sonra məlum oldu, dekabrın doqquzunda, həmin gün ki, səhər tezdən yenə qar yağmağa başlamışdı və bütün şəhər yenə ağappaq təzə qara bürünmüşdü.

Səmayə yadından çıxarmışdı ki, bu onun neçənci ilk tamaşasıdır, amma heç vaxt onun ilk tamaşa günündə belə qar yağmamışdı. Heç vaxt onun ilk tamaşa günündəki intizarı belə qar sevincli olmamışdı.

O, ürəyindəki bu qar sevincli intizarla teatra getdi, rejissorun axırıncı göstərişlərinə qulaq asdı, müəllifin axırıncı xahişlərini eşitdi, inzibatçıdan neçə gün bundan əvvəl Fatma ilə Gülüş üçün sifariş verdiyi biletləri alıb evə qayıtdı və gördü ki, Fatma geyinib-kecinib onu gözləyir, daha doğrusu Fatma pəncərənin ağzında dayanıb bayırdakı qara baxır, ağappaq, gümüşü qara.

Səmayə dedi:

– Görürsən də, nə qardı!

Fatma dedi:

– Hə, yaman əntiqədi, ay mama!

Səmayə sevindi ki, Fatma qardan beləcə sevinir, sonra biletləri qızına uzatdı:

– Al, səninlə Gülüşün biletidi.

Fatma biletləri alıb elə bil bütün ömründə birinci dəfəydi bilet görürmüş kimi o tərəf-bu tərəfinə baxdı və dedi:

– Bilirsən, mama, Gülüş... Gülüş bu gün kinoya getmək istəyir e...

Səmayə başa düşdü ki, bu saat, yəni bu qarlı qış axşamı qızı ilə, gözəl-göyçək Fatması ilə üzbəüz dayandığı bu dəqiqə ən birinci məsələ özünü ələ almaqdır. Bir dəfə hansı tamaşadasa ayı balasını oynayırdı və bu ayı balası iş çətinə düşən kimi öz-özünə deyirdi: « – Özünü ələ al, ayı balası! Özünü ələ al, ayı balası!».

– Nə olar, qoy getsin kinoya... Sən də istəyirsən onunla birlikdə get...

– Doğrudan? – Fatma bilmədi sevindiyindən nə eləsin. – Doğrudan? – Sonra atılıb – uşaq ki, uşaq – anasının o üzündən, bu üzündən öpdü, tez-tələsik arakəsmədən paltosunu götürüb bədənnüma güzgünün qabağında geyinə-geyinə dedi: – Sabah mən özüm təkcə gəlib baxacağam. Bilirəm də, əntiqə oynayacaqsan yenə. Qəzetdə yazıb səni tərifləyəcəklər...

Fatma bu sözləri dedi və birdən-birə yenə nə isə xatırlayıb nigarançılıqla Səmayəyə tərəf döndü:

– Qəzetdə şəkil verəcəklər, mama?

Səmayə gülümsədi:

– Nə bilim?

Fatma deyindi:

– Bilmirəm qəzetlərdə niyə sənin öz şəklini vermirlər, elə bu cür, öz paltarında. Elə bu cür şəklini versinlər də...

– Yaxşı, qoymaram Tülkü paltarında şəklimi çəksinlər. – Səmayə qızını axırıncı nigarançılıqdan da qurtardı – heç kim bilməyəcəkdi ki, Fatmanın anası Tülkünü oynayır; bundan sonra Dovşan da beləcə olacaqdı, Keçi də, Ceyran da.

– Doğrudan qoymayacaqsan? – Fatma yenə də atılıb anasının o üz, bu üzündən öpdü – lap sevincək olmuşdu, sonra da şəstlə dedi: – Kimin belə maması var e?!. – Özü də özünə cavab verdi: – Heç kimin!

Həmin qarlı qış gününün gecəsi tamaşa lap yaxşı keçdi.

Meşəyə qoca və xeyirxah bir Qarğa uçub gəlmişdi və artıq o, yaramaz Tülkünün kələkbazlığını Hacıleyləyə başa salmışdı, başa salmışdı ki, Tülkü bu boyda palıdın gövdəsini kəsə bilməz. Tülkü Hacıleyləyin üçüncü balasını istəməyə gələndə Qarğa ilə Hacıleylək onu elə qovdular ki və Tülkü şələ quyruğunu yellədə-yellədə meşədən elə qaçdı ki, tamaşaçılar – uşaqlar və uşaqlarla gələn əmilər, xalalar – əl çalmağa başladılar, zalda hay-küy qopdu, hamı gülüşdü, rejissorla müəllif də xeyli feyziyab oldu.

Sonra pərdə təzədən açıldı və Tülkü də, Hacıleylək də, balaları da, qoca Qarğa da səhnənin qarşısına çıxdı.

Səmayə Tülkünün şələ quyruğunu yellədə-yellədə tamaşaçılara baş əyirdi.

Səmayə bilirdi ki, bu saat bayırda yenə də quşbaşı qar yağır, bu qarın iyini duydu, rəngini gördü və birdən-birə ona elə gəldi ki, Fatma da Gülüşlə birlikdə, Gülüşün anası, atası ilə birlikdə bu zalda əyləşib və o da, Tülkünü yox, Hertrudanı oynayıb.

Səmayə zala baxdı və bu dəfə Fatmagilə baş əydi.

Tamaşaçıların kefi kök idi – Tülkünün kələyi açılmışdı.

Amma Səmayənin ürəyinə haradansa bir Tülkü ağrısı qonmuşdu, elə bil indicə Tülkünü yox, Hacıleyləyi oynamışdı.

* * *

Səmayənin ürəyinə bir Tülkü ağrısı qonmuşdu, amma nahaq, lap nahaq, çünki səfalı meşə yenə həmin səfalı meşə idi – dağın döşündə və yenə də Hacıleyləklər burada yuva salırdı, bala çıxarırdı.

Hacıleyləklər içərisində yenə bir Hacıleylək var idi və bu dəfə Tülkü mişarı çiyninə alıb onun yuva qurduğu, bala çıxardığı ağacın dibini kəsdirmişdi – ürəyinə bala əti düşmüşdü.

Ay yedin ha, Tülkü lələ!..

Hacıleylək qoca Qarğa ilə az qaldılar Tülkünün gözün çıxarsınlar.

Qorxaq Tülkü elə qaçıb meşədən itdi ki, bir də heç vaxt kələk gələ bilməyəcəkdi Hacıleyləklərə.

Hacıleyləklər daha tanımışdı Tülkünü – həm kələkbazlığını, həm də qorxaqlığını, tülkülüyünü.

Yenə həmin səfalı meşə idi və Hacıleylək balaları böyüyürdü, qanad çalırdı, uçurdu, dənizlər keçirdi, ölkələr gəzirdi, meşələr görürdü, yuva qururdu, özləri bala çıxarırdı, bala böyüdürdü...

*Aprel, 1973.*

## QIŞ NAĞILI

*Novruz Cuvarlinskinin xatirəsinə*

Bakıda qarlı-çovğunlu bir qış səhəri təzəcə açılırdı və həmin qış səhəri sübh tezdən yerindən qalxan Kərim kişi birinci növbədə uşaqlar yatan otağa girib qardan şüşələri tutulmuş pəncərədə bir balaca görümlü yer tapdı və gözünü ora zilləyib küçəyə baxdı: hər tərəfi basmış qardan başqa heç nə görünmürdü və bu gün qar dünənkindən də betər meydan oxuyurdu; qar idi, çovğunun vıyıltısı idi, bir də ki, külək bərkiyəndə heç eşidilməyən, sonra yenə də elə bil lap uzaqlardan gələn mahnı səsi – Marqarita Abramovna həmişəki kimi valı qoymuşdu patefonun üstünə.

Kərim kişi çovğunun qarasına: – «Bu kəsən şey deyil!» – fikirləşib bir-iki dəqiqə də küçə pəncərəsindən bu qış səhərinin alatoranlığına qəribə bir kədər ağlığı gətirmiş qara baxdı, çovğunun vıyıltısına qulaq asdı və heç kəs yuxudan oyanmasın deyə gəldiyi kimi də ustufca otaqdan çıxıb mətbəxə keçdi, bu dəfə də mətbəxin pəncərəsindən həyətə tamaşa elədi: həyət də başdan-başa qarın içində idi və Marqarita Abramovnanın güclə seçilən pəncərə işığından başqa qarın əlindən heç nə görünmürdü.

Axır vaxtlar Kərim kişinin ürəyinə bir nigarançılıq hopmuşdu və hər gün səhər tezdən eşitdiyi bu mahnı onu nigarançılıqdan qurtarırdı – Marqarita Abramovna yaman qocalmışdı.

Kərim kişigilin həyəti Bakının o həyətlərindəndi ki, bir-birinə bitişik, qədim birmərtəbəli, ikimərtəbəli binaların dövrəsində balaca, girdə adaya oxşayırdı və bu adaların hamısına asfalt basılmışdı, hərəsində də bir, ya iki tut ağacı əkilmişdi – qışda üstü sərçə ilə dolu olardı, yayda kölgə salardı.

Indi isə bu tut ağacları da başdan-başa qar içində idi. Burada Marqarita Abramovnanın fırlatdığı mahnı da daha yaxşı eşidilirdi və indi elə bil bu mahnı da hər tərəfi basmış qarın içində üşüyürdü. Kərim kişi dodaqaltı:

– Mahnı da üşüyərmiş! – dedi və əli ilə pəncərə şüşəsinin içəri üzünü sildi, guya ki, qardan başqa təzə bir şey görəcəkmiş.

Onun iri, kobud əlləri elə bil taxta idi və kişi pəncərəni sildikcə elə səs çıxırdı, elə bil şüşəni əllə yox, quru taxta parçası ilə sürtürsən.

Kərim kişi yenə zənlə bayıra baxdı və yenə də dodaqaltı dedi:

– Kəsən şey deyil bu!

Cavanşir üşüyə-üşüyə mətbəxə boylandı və tez-tələsik:

– Sabahın xeyir! – deyib daha tamam-kamal ağarmış başını qaşıya-qaşıya arakəsmədəki əlüzyuyana tərəf getdi.

Kərim kişi oğlunun ardınca tərs bir nəzər saldı, heç nə cavab vermədi və bundan sonra özünə də məlum oldu ki, səhər-səhər yataqdan yaman hirsli qalxıb.

Məsələ burasında idi ki, Cavanşir dünən and-aman eləyib Kərim kişini yolundan saxladı ki, sabah qar kəsər, hava düzələr, istədiyin yerə də gedərsən. Əlbəttə, Cavanşir hardan biləydi ki, sabah, yəni bu gün, qar aləmi basacaq, çovğun qiyamət qopacaq, trolleybuslar, avtobuslar dayanacaq, iş o yerə çatacaq ki, məktəblərdə dərsləri də saxlayacaqlar.

Uşaqların səhər tezdən durmaq müsibətindən xilas olmaları Kərim kişinin yadına düşdü və hirsli də olsa, ağappaq eşmə bığının altından dodağı qaçdı.

Uşaqlar, yəni Kərim kişinin nəvələri. Beş nəvəsi vardı: böyük qızı köçürmüşdülər – özü də, əri də neftçi idi, ondan kiçiyi Odessada gəmiçilik institutunda oxuyurdu, qalan üç nəfər isə hələ məktəbə gedib-gəlirdi. Bunlar hamısı Cavanşirin balaları idi. Heybət isə müharibədən qayıtmamışdı, tək gəlmişdi, tək getmişdi, həmişə də otaqda divardan asılmış şəklindəki kimi cavan qalmışdı.

Mahnının səsi kəsildi və indi yalnız çovğunun vıyıltısı eşidilirdi, bir də haradasa lap uzaqlarda elə bil ki, bir it hürürdü. Bu it hürüşü Kərim kişinin əhvalını lap pozdu və o, ürəyində öz-özünə yağlı bir söz dedi.

Cavanşirin arvadı Fazilə mətbəxə girib suçlu adamlar kimi:

– Sabahınız xeyir, – dedi. – Sonra qazı yandırdı, çayniki odun üstünə qoydu və Kərim kişinin gözünə görünməsin deyə tələsik də mətbəxdən çıxdı.

Kərim kişi gəlinin salamını almadı, amma özü də özünü məzəmmət elədi ki, nahaq iş gördü, çünki məlum məsələydi ki, qarın, çovğunun bu cür həyasızlıq eləməsində gəlinin heç bir təqsiri yox idi.

Bir azdan otaqda oturub səhər çayı içəndə Cavanşir arvadına dedi ki, heç bilmirəm işə necə gedib çıxacağam, nə maşın işləyir, nə avtobus. Bu sözləri açıq-aşkar surətdə Kərim kişiyə eşitdirirdi, yəni ki, bu havada evdən bayıra çıxmaq mümkün olan iş deyil. Sonra bununla da kifayətlənməyib dedi ki, elektrik qatarları da Sabunçu vağzalında yatıb qalıb, çünki dəmir yolunu qar basıb.

Kərim kişi bu sözləri eşidəndə armudu stəkandakı çayını yarımçıq qoydu mizin üstünə, ayağa qalxdı və mətbəxə keçib yenə də pəncərədən həyətə baxdı: çovğun qiyamət qoparmışdı.

Məsələ burasında idi ki, Kərim kişi pensiyaya çıxdığı vaxtdan ta indiyə kimi, yəni on beş ildən bəri yaydan başqa, qalan aylarda da hər gün, uzaq başı iki gündən bir Bilgəhdəki bağına gedirdi, meynələrə, əncirlərə, narlara qulluq edirdi, bostan salırdı, gül-çiçək əkirdi, uzun sözün qısası, Bilgəhdəki dədə-baba bağları ilə sidq-ürəkdən dostluq edirdi; bağ kişini başa düşürdü, kişi də bağın işinə yarayırdı. Srağagün də bağda idi və srağagün adamın heç ağlına gəlməzdi ki, hava belə dəyişəcək, beləcə qar-çovğun başlayacaq. Şəhərə qayıdanda Nabranın boynuna zəncir salıb damda bağladı ki, açıq qalıb yalaqlanmasın, qabağına da evdə hazırlayıb gətirdiyi yaldan nə qalmışdısa onu qoydu. Sabah tezdən, yəni ki, dünən yenə gələcəkdi, amma srağagün gecədən qar başladı, dünən də dayanmaq bilməyib yağdı və Cavanşirlə Fazilə də onu yoldan elədilər ki, sabah, yəni bu gün hava düzələr, gedərsən.

Bu gün çovğun dünənkindən bərk başlamışdı və Nabran da zəncirə bağlı qalmışdı bağda.

Bir dəfə – dörd-beş il bundan əvvəl, yay vaxtı uşaqlarla birlikdə Nabrana getmişdilər və Kərim kişi oradan bir ovçarka küçüyü alıb gətirmişdi, uşaqlar da bu küçüyün adını qoymuşdular Nabran. Kərim kişi onu bağda saxlayırdı, Nabran da böyüyüb bir it olmuşdu ki, gəl görəsən və indi həmin bu it qarın, çovğunun bu vurhavurunda ac-susuz qalmışdı Bilgəh bağındakı damın içində.

Kərim kişigilin evi birinci mərtəbədə idi, ata-babadan burada yaşayırdılar və indi külək qarı evin bayır qapısının ağzına elə yığmışdı ki, Cavanşir qapını aça bilmirdi. Axır ki, qapını bir balaca aralayıb zorla bayıra çıxdı və birdən-birə arakəsməyə elə güclü külək əsdi, bir göz qırpımında içəri o qədər qar doldu ki, elə bil Bakıda yox, Şimal Buzlu okeandasan. Kərim kişi mətbəxdəki köhnə sandığın arxasından neçə ildən bəri işsiz-gücsüz qalmış beli götürdü və bayır qapısına yaxınlaşıb bütün bədəni ilə sərt soyuq hiss eləyə-eləyə onu qapının arasından oğluna uzatdı:

– Təmizlə!

Cavanşir qapını örtüb çöldə bir xeyli əlləşdi, vuruşdu və yalnız bundan sonra qapını tamam aça bilib təzədən içəri girdi, göyərmiş əlləri ilə qıpqırmızı sifətini ovuşdurdu, kürkünün yaxasını çırpdı və elə bil bu şücaətindən bir az ürəklənib dinməz-söyləməz qarşısında dayanmış Kərim kişiyə:

– Əşşi, çıxıb-eləməyəsən ha, yaman pis havadı, – dedi.

Fazilə də böyürdən:

– Zəhrimara qalsın belə havanı! – dedi, özü də elə dedi ki, yəni ay Kərim əmi, bizə niyə acığın tutur, biz neyləyək, sən yaşda adam bu havada, bu vurhavurda Bilgəhə necə gedib çıxacaq, necə qayıdacaq?

Əlbəttə, Fazilə də, Cavanşir də bilmirdi ki, əslində – lap doğrusu bu idi ki, var – Kərim kişinin acığı özünə tutub, öz səksən yaşına.

– Mən özüm gedərdim, amma indi işin elə vaxtıdı ki, qoyub getmək olmur...

Bu sözləri Cavanşir dedi və Kərim kişi də onun başqa söz deməsinə imkan verməyib:

– Yaxşı, yaxşı, yeri get işinə, – dedi.

Kişi dilləndi deyə Fazilənin eyni açıldı. Cavanşir də gülümsəyib:

– Yaxşı, mən getdim, – dedi və hələ də nigarançılıqdan qurtarmayıb əlavə elədi: – Amma çıxmayasan ha!..

– Çıxmaz, çıxmaz. – Bu sözləri də Fazilə dedi, yəni ki, arxayın ol, qoymaram getsin.

Kərim kişi bu dəfə də özünü saxlaya bilməyib gəlininə tərs bir nəzər saldı və otağa keçdi.

Cavanşir gəmi təmiri zavodunda işləyirdi, mühəndis idi və məlum məsələydi ki, işi başlı-başına buraxıb Nabranın dalınca Bilgəhə gedə bilməzdi. Cavanşir neftçi deyildi (Heybət neftçi idi), amma necə olsa da, işi dənizlə bağlı idi, neft iyi ilə, mazutla bağlı idi və elə buna görə də oğlunun işinə Kərim kişinin hörməti vardı.

Məsələ burasındaydı ki, Kərim kişinin oğlundan, gəlinindən, nəvələrindən, dost-tanışlarından, qohum-əqrəbadan, uzun sözün qısası, bütün yaxın adamlarından başqa dünyada üç istəklisi var idi: birinci – neft, yəni ki, neft iyi, neft rəngi, neft həsrəti, neft sevinci; ikinci – dəniz, yəni ki, dənizin uğultusu, mülayimliyi, xəzrisi, göylüyü, böyüklüyü, dalğası, ləpəsi; üçüncüsü də – yaşıllıq, yəni ki, kol-kos, çəmənlik-çiçəklik, bir sözlə, alaqdan tutmuş çinara kimi nə vardısa da hamısı.

– Sabahın xeyir, ay baba. Mamaya deyəcəksən məni həyətə buraxsın? – Bunu indicə yerindən qalxıb gözlərini ovuşdura-ovuşdura arakəsmədəki tualetə gedən Ayaz dedi.

– Get əl-üzünü yu, dinməz-söyləməz gəl otur, çörəyini ye. – Bunu da Kərim kişi dedi və Ayaza məlum oldu ki, babasının qanı qaradı və bu gün onunla zarafat eləmək olmaz.

Çovğun lap bərkimişdi və hərdən külək elə vıyıldayırdı, elə bil Kərim kişigilin ev-eşiyini də yerindən qamarlayıb aparacaqdı. Qəribəydi ki, hər dəfə külək qıy çəkəndə Kərim kişi bu fikirdən səksənirdi və özü də özünü məzəmmət edirdi, amma orasını da lap dəqiq bilirdi ki, həştaddandı bu. Lap qəribəsi isə bu idi ki, qarın, çovğunun bu qiyamətində birdən-birə Kərim kişinin yadına yaz düşdü. Yazın o vaxtları ki, Abşeron bağlarında gilənarlar çiçəklərini tökürdü, nar ağacları isə hələ təkcə yarpaq açırdı, xına rənginə boyanırdı. O vaxtlar ki, əncirlər qabla bağlayırdı və peyvənd alçalar da çeçələ barmağın dırnağı boyda olurdu, meyvələrin yarpağı təzətər idi, bülbüllərin də ki, səsi aləmi götürürdü. Yazın o vaxtları ki, külək şam ağaclarının limonu tozunu eyvanın taxta döşəməsinə səpirdi və səhər eyvana çıxıb evə qayıdanda otağın taxta döşəməsinə ləpir düşürdü.

Kərim kişi elə bil bu ləpirləri gördü, bu ləpirlərin arasında Ayazın da balaca yalın ayaqlarının izini, dınqılı barmaqlarının yerini gördü və gülümsədi. Sonra yazın rəngi gözlərinin qabağına gəldi, yazın iyini duydu və birdən-birə necə oldusa bu yaz ətrinə neft qoxusu qatışdı...

Elə bil yenə də uzaqda it hürdü və it hürüşü bayırdakı çovğunun vıyıltısında güclə eşidilirdi – elə bil gecənin zülmətində bir çöllü-biyabandasan və uzaqlarda, lap uzaqlarda tənha bir çırağın işığı yanır, sonra sönür.

Kərim kişi bir balaca tutuldu və bu dəfə lap açıq-aşkar hirsi özünə tutdu ki, daha qulağına səs gəlməyə başlayıb, burnuna iy gəlir, ürəyi xiffət çəkir; hirsi tutdu ki, kişi belə yumşalmaz. Əlini üzünə aparıb tüklü sifətini qaşıdı və elə bil ki, Marqarita Abramovna da bunu gözləyirmiş kimi, bayır qapısını döyəclədi, sonra da cır səsilə qışqırdı:

– Kerim Bilaloviç! Kerim Bilaloviç!

Marqarita Abramovna bütün yer üzündə yeganə adam idi ki, Kərim kişiyə Kerim Bilaloviç deyirdi və bu qadını iyirmi beş ildən artıq tanımasına baxmayaraq, hər dəfə də belə bir müraciət Kərim kişiyə qeyri-adi gəlirdi; o, başqa məsələ ki, usta Kərim! Yaxud, elə təkcə «Usta». Ya da ki, indiki kimi, qocafəndi: Kərim kişi.

Kərim kişi əvvəlcə elə bildi ki, yenə qulaqlarına səs gəlir, çovğunun vıyıltısı təzədən arakəsməyə hücum çəkəndən və bu dəfə Marqarita Abramovnanın cır səsini arakəsmədə eşidəndən sonra başa düşdü ki, bu qoca arvad havanın belə vurhavurunda yenə gəlib onun üzünü qırxmağa.

Marqarita Abramovna arakəsmədə soyuqdan Faziləyə şikayət eləyib, sonra otağa girdi:

– Kerim Bilaloviç, bu qar necə olacaq? Dünyanın axırı çatıb bəlkə? – Sonra dünyanın axırının çatıb-çatmaması barədə cavab gözləməyib hələ də üşüyən əllərini bir-birinə sürtdü və ora-burasına qar dolmuş çantasını açıb ülgücü, fırçanı, sabun tozunu-filanı mizin üstünə yığmağa başladı.

Hər dəfə Marqarita Abramovnanın qurumuş əlləri Kərim kişinin sifətinə dəydikcə o, qabağındakı güzgüdə bu qarının gözlərinə baxırdı, zəndlə baxırdı, elə baxırdı ki, Marqarita Abramovna bunu görməsin; zəndlə baxırdı və hər dəfə bu kiçilmiş, rəngini itirmiş gözlərdə bir az işıq axtarıb tapmaq istəyirdi; istəyirdi özünü arxayın eləsin ki, qocalıb əldən düşmüş, amma əlləri titrəməyən və gözləri iti görən bu arvad hələ çox yaşayacaq, patefonu hələ çox çalacaq.

Bu dəfə Marqarita Abramovnanın quru əlləri həm də soyuq idi və bu soyuq barmaqlar Kərim kişinin sifətinə toxunanda necə oldusa, kişi ürək eləyib bu qarının gözlərinə baxa bilmədi; özü öz cürətsizliyini gördü və yenə də özünə bərk acığı tutdu.

Marqarita Abramovna həmişəki cidd-cəhdlə Kərim kişinin üzünü sabunlayıb qırxmağa başladı. Pensiyaya çıxandan bəri – iyirmi ilə yaxın idi – hər həftə gəlib evdə Kərim kişinin üzünü qırxırdı. Bütün həftəni hazırlaşırdı, ülgücünü itiləyirdi, ağ dəsmallarını kraxmallayıb ütüləyirdi, ətrini, sabununu, pudrasını yoxlayırdı.

Marqarita Abramovna Bakıya müharibənin axırıncı ili gəlib çıxmışdı. Tək-tənha gəlmişdi. Kərim kişigilin həyətində yaşayan Bakıdakı bircə qohumu Izabella Salamonovnanın yanına gəlmişdi və müharibə vaxtı günlərin bir günündə, gecənin yarısı balaca otaqlarında oturub dərdləşəndə dünyanın işlərindən söhbət düşmüşdü, həyatın mənasından, adamların yaxşı-yamanlığından söz düşmüşdü və o vaxt mizin üstündə fağır-fağır, yana-yana bu iki yaşlı arvadı güc-bəla ilə işıqlandıran neft lampasının həmin zəif işığında Izabella Salamonovna Kərim kişinin insanlığı barədə bir-iki yaxşı söz demişdi. Elə o vaxtdan bəri də bu sözlər Marqarita Abramovnanın beynində qalmışdı.

Aydın məsələydi ki, Kərim kişinin həmin gecə söhbətindən xəbəri yox idi, amma iş elə gətirdi ki, Marqarita Abramovnanı qulluğa düzəldən, yəni Bayıl tərəfdəki dəlləkxanalardan birində ona yer tapan elə Kərim kişi oldu. Marqarita Abramovna ömründə dəlləklik etməmişdi, amma işə çıxdığı birinci gündən hamı onu əməlli-başlı dəllək bilmişdi; bir də ki, o vaxt camaat yaxşı dəllək hayında deyildi. Bir az keçəndən sonra Izabella Salamonovna öldü. Marqarita Abramovna tək qaldı.

Marqarita Abramovna sabunu ikinci dəfə Kərim kişinin cod sifətində köpükləndirib dedi:

– Kerim Bilaloviç, siz başqa tipdə adamsınız, mənim Şnayderim başqa tipdə adam idi. Amma Şnayder də çox simpatiçni adam idi.

Şnayder familli kişi Marqarita Abramovnanın əri idi və müharibə vaxtı almanlar onu təkcə oğulları Davidlə birlikdə Kiyevdə güllələmişdilər. Kərim kişi bunu bilirdi, bir də bunu bilirdi ki, Şnayder Kiyevdə məşhur dərzi imiş.

Bir müddət də hərə öz işi ilə məşğul oldu, yəni Marqarita Abramovna cidd-cəhdlə Kərim kişinin üzünü qırxırdı, Kərim kişi isə qartmış tüklərinin ülgücün altından gələn xışıltısına səbrlə qulaq asa-asa heç vaxt üzünü görmədiyi David barədə fikirləşirdi, sonra Heybət barədə fikirləşdi, sonra da fikirləşdi ki, nə Heybət Davidi tanıyırdı, nə də David Heybəti, amma budu, bir belə illər gəlib keçib və indi qoca bir kişi qoca bir arvadın sabun köpükləndirən qırışlı, gömgöy damarları görünən əllərinə baxa-baxa həm Heybəti fikirləşir, həm də Davidi.

Yenə külək Kərim kişigilin evinə hücum çəkdi və bu dəfə Kərim kişi dörd-beş il bundan əvvəl Nabrana getdikləri yay gününü yadına saldı, həm də elə bildi ki, o balaca ovçarka küçüyü yenə ardınca gəlir.

Əlbəttə, Marqarita Abramovnanın bu saat Bilgəhdəki bağda ac-susuz qalmış itdən xəbəri yox idi və buna görə də birdən-birə gülümsədi, siqaret çəkən adamların barmağı kimi sapsarı saralmış sifətinin qırışları daha da artdı, yenə də yaxşıca öyrəndiyi Azərbaycan dilində dedi:

– Izabella Salamonovna məni ərə vermək istəyirdi. Axı, mən də çox yaraşıqlıydım. Amma ona dedim: hardan tapacaqsan mənimçün Şnayderi? Mənim Şnayderimi kim verəcək mənə?

Başqa vaxt olsaydı, Kərim kişi bir-iki şux söz atardı, çünki Marqarita Abramovna Izabella Salamonovnanın yanına gələndə yaşı əllini çoxdan keçmişdi, amma bu dəfə kişi zarafat eləmədi və başından belə bir fikir gəlib keçdi ki, Zibeydənin də yerini heç kim verə bilməz. Bunu fikirləşdi və bu fikirdən sonra bu dərəcədə yumşalmasına elə hirsi tutdu ki, yerində qurcalandı.

Marqarita Abramovna bu dəm bütün fikri-zikri ilə Şneyderinin yanında olsa da, qızışmaq bilməyən soyuq barmaqları ilə Kərim kişinin çənəsinin altını sürtüb:

– Tük qalıb, – dedi. – Durmayın hələ.

Bir azdan Marqarita Abramovna işini görüb qurtardı və təzədən özünü həyətdəki qar-borana vurub evinə qalxdı, amma bir xeyli müddət dediyi bu söz: « – Durmayın hələ» – Kərim kişinin qulaqlarından getmədi və kişi fikirləşdi ki, Marqarita Abramovna yəqin dünyada təkcə dəlləkdir ki, təkcə də müştərisi var. Burasını da fikrindən keçirtdi ki, vay o dəlləyin halına ki, təkcə müştərisi də gedə...

Bir azdan yenə də elə bil ki, lap uzaqlardan qədim mahnının zəif səsi hərdən eşidildi, hərdən eşidilməz oldu.

Qarın, boranın qiyamət qopardığı həmin qış günü Kərim kişi heç kimlə kəlmə kəsmədi, dinib-danışmadı, yalnız bircə dəfə küçə pəncərəsindən bayıra baxıb öz-özünə bərkdən dedi:

– Günaha batdım.

Uşaqlar da, Fazilə də, işdən çıxıb qarın əlindən güclə evə gələn Cavanşir də bütün gün ərzində Kərim kişiyə bir söz deməyə cürət etmədi və gecə yerlərinə girəndə hamının ürəyində bir nigarançılıq vardı; hamı bilirdi ki, axıracan belə getməyəcək və hamı da sidq-ürəkdən arzulayırdı ki, sabah hava düzəlsin. Bunu hamı arzulayırdı, amma təkcə Kərim kişi bilirdi ki, əvvəla, bu hava düzələn hava deyil, ikincisi də istəyir düzəlsin, istəyir düzəlməsin, sabahdan da keçsəydi, iş də işdən keçəcəkdi.

Həmin qış gecəsi nə qar kəsdi, nə şaxta-boran azaldı və çox qəribə oldu ki, yerində uzanıb bayırda qıy vuran küləyin səsinə qulaq asa-asa yenə də yaz, bağ, dəniz Kərim kişinin yadına düşdü və ən çox qəribəsi də bu oldu ki, qırx-qırx beş il bundan əvvəl vurduğu bir ördək birdən-birə gözlərinin qabağına gəldi, o vaxtdan bəri ömründə xatırlamadığı bu vecsiz əhvalat lap qəflətən gəlib yadına düşdü.

Bu tək ördək Bilgəhdə, dənizin lap qırağında qumluğa qonurdu, sahil boyu o baş-bu baş gəzişən usta Kərim hər dəfə ona tərəf yaxınlaşanda havaya qalxıb iyirmi-otuz addımlıqda təzədən qumluğa enirdi. Bir dəfə, iki dəfə, üç dəfə... Və elə bil özü öz dili ilə deyirdi ki, usta Kərim, get evdən beşatılanı gətir, məni vur. Usta Kərim evdən beşatılanı götürüb lap naümid sahilə qayıtdı ki, yəqin ördək uçub gedib. Ördək uçub getməmişdi, əməlli-başlı bir inadla ustanın beşatılanını gözləyirdi. Usta da bircə gülləyə sərdi onu yerə.

Kərim kişi həmin uzaq günü lap aydın yadına saldı: aprelin axırları idi, bazar günü idi və orasını da yadına saldı ki, Zibeydə həmin ördəkdən şorba bişirdi.

Kərim kişi ömrü boyu ördəklər vurmuşdu, çox quşa atmışdı, amma indi heç cür başa düşə bilmədi ki, niyə elə məhz ördək birdən-birə beləcə açıq-aydın yadına düşdü və orasını da heç cürə başa düşə bilmədi ki, niyə o zaman həmin ördək tək-tənha idi, niyə uçub getmirdi və niyə ondan hürkmürdü? O vaxt beşatılanla atdığı güllənin səsi qulaqlarına gəldi və qalın yorğanının altında mürgü döyə-döyə öz-özünə huyuxdu.

Sübh tezdən Kərim kişi bayır qapısını güclə bir balaca itələyib zorla həyətə çıxanda külək elə qıy vurub arakəsməyə doldu ki, az qaldı evdəki camaatı yuxudan oyada və qapını bağlayandan sonra Kərim kişi bir müddət yerində dayandı, amma içəridən səs-səmir eşitmədi. Əslində bu saat çovğunun uğultusundan başqa heç nə eşitmək mümkün deyildi və Kərim kişi boynunu köhnə kürkünün içinə qısıb sol dirsəyini irəli verdi, yanpörtü addımlayıb küçəyə çıxdı.

Bu şaxtanın, boranın içində birdən-birə Kərim kişinin burnuna tanış qoxu dəydi və kişi başa düşdü ki, bu neft iyi kürkdən gəlir. Çoxdan, lap çoxdandı ki, Kərim kişi içi qoyun dərili bu kürkünü geymirdi. Indi birdən-birə ona elə gəldi ki, yenə də o ötən günlər kimi səhər tezdən evdən çıxıb işə gedir, bir azdan avtobusa minib mədənin yanında düşəcək.

Bu şaxtalı-boranlı qış səhərində kürkün yununa hopmuş həmin neft qoxusu Kərim kişinin ürəyinə bir həzinlik gətirdi, kövrəklik gətirdi. Bu neft qoxusunda uzun illərin sükunəti vardı, elə bil bəylik paltarını naftalinləyib sandığa qoymuşdun.

Bu saat mədənlər də qarın altında idi, amma orada hər tərəfi bürümüş qarın altından əsl neft qoxusu gəlirdi. Kərim kişi bunu duydu, hiss elədi və orasını da hiss elədi ki, bir də heç zaman mədəndə olmayacaq, bir də heç zaman əlini fontan vurmuş quyunun neftinə batırıb burnuna tutmayacaq.

Həmin qış səhərinin qaranlığında qardan, çovğunun vıyıltısından başqa küçədə heç nə yox idi, heç kim yox idi və elə ilk dəqiqədən şaxta Kərim kişinin arıq, uzun bədəninə hücum elədi. Kərim kişinin başından belə bir fikir gəlib keçdi ki, canavar yaralını, zəif xəstəni o saat tanıyır, duyur, izləməyə başlayır, heç nədən qorxub-çəkinmir, başının üstünü alır. Bunu fikirləşdi və dünən Marqarita Abramovnanın cidd-cəhdlə qulluq elədiyi eşmə bağının altından dodağı qaçdı.

Marqarita Abramovna hələ yerindən qalxıb patefonunu işə salmamışdı.

Kərim kişi sol qolunu dirsəkdən büküb gözünün üstündə sipər elədi, gözlərini yumdu, qara bata-bata yanpörtü addımlamağa başladı və yavaş-yavaş sağ əlində tutduğu bağlamanın ağırlığını hiss etdi.

Kərim kişi Beşmərtəbənin yanındakı bağa gəlib çatanacan sol qolunu başının üstündən çəkmədi, ancaq tramvay dayanacağında qolunu aşağı saldı: nə tramvay var idi, nə də tramvaydan əsər-əlamət. O, boynunu kürkünün içinə qısıb bağa tərəf baxdı və küçə boyu ağacların hamısının qarın ağırlığından, şaxtanın sərtliyindən, çovğunun şiddətindən yarıbayarıdan qırıldığını gördü. Elə bil ki, ağac qəbiristanlığı idi və bu qəbiristanlıqda bu saat qar-boran fironluq eləyirdi.

Kərim kişi sol əlini qalın kürkünün üstündən arıq baldırlarına vurub:

– Bay səni! – dedi və qar-boranın fironluq elədiyi bu məqamda doluxsundu, amma bunu nə qocalığının ayağına yaxdı, nə də yumşalmasının – ağaclar da adamlar kimi idi, ağaclarda da dözüm var idi və bu dözüm də hərdən beləcə qurtarırdı.

O yenə sol qolunu gözünün üstündə sipər eləyib Sabunçu vağzalına tərəf addımlamağa başladı. Bayaqkı ağaclar gözlərinin qabağından getmədi və Kərim kişi başa düşdü ki, ömrünün, yəni ki, qalan günlərinin axırınacan da getməyəcək. Sonra Bilgəhdəki ağacları fikirləşdi, o ağacları ki, öz əli ilə əkmişdi və o ağaclar ki, oğul-uşaq üçün, dost-tanış üçün yadigar qalacaqdı.

Kərim kişinin Bilgəhdəki bağı dərədə idi və oranı bu cür külək tutmurdu – burası yaxşı idi, amma burası da pis idi ki, narı, ənciri don vuracaqdı. Şaftalının, əriyin xeyrinə olacaqdı bu qar, amma belə xeyirdənsə şər yaxşıdı, yəni o şaftalının ki, xeyri narın qurumağına bağlıdı, yerli-dibli lazım deyil.

Sabunçu vağzalında adam az idi və bu adam azlığından vağzalın içi boş kilsəyə dönmüşdü. Elektrik qatarının səsi elə bil özü ilə bu boş vağzala bir istilik gətirdi. Qatar yerindən tərpənəndə isə Kərim kişi hiss elədi ki, sağ əli açılmır; sağ əlini aça bilmir ki, bağlamanı yanına qoya; sol əli ilə sağ əlini tutdu və bağlamanı dizinin üstünə qoydu.

Qatar getdikcə Kərim kişi pəncərənin buz bağlamış şüşəsinə baxa-baxa yadına saldı ki, dünən Cavanşir deyirdi elektrik qatarları işləmir. Bunu yadına saldı və gülümsədi, amma orasını da yaxşı bilirdi ki, bu saat evdəkiləri nigaran qoyub. Yenə özünə yaman hirsi tutdu – ona görə yox ki, evdə heç kimə heç nə deməyib Bilgəhə gedir, ona görə ki, belə qocalıb, belə zəifləyib və ən başlıcası ona görə ki, özü də bunu görür, bu barədə fikirləşir və ürəyində bir «Heyhat! Heyhat! Heyhat!» elə yuva salıb, elə bil xərçəng yarasıdı.

Sonra Kərim kişi hiss elədi ki, mürgüləyir, hiss elədi ki, yatmaq istəyir, bu dəm qarı, boranı yarıb gedən bu elektrik qatarının içində onun bütün bədəni yuxuya can atır. Kərim kişi onu da hiss elədi ki, bu saat burada yatsa, bir də heç vaxt ayılmayacaq. Sol əli ilə sağ əlini ovuşdurmağa başladı, sonra yarıdan qırılmış ağaclar gəldi gözlərinin qabağına, sonra yenə haçansa vurduğu həmin ördəyi xatırladı, sonra da Marqarita Abramovnanın buz barmaqlarını üzündə hiss elədi və birdən-birə başa düşdü ki, bu qış axırıncı qışıdı.

O, qatardan düşəndə külək elə qıy vurdu ki, az qaldı ayaqları perronun üstünə yox, perronla qatarın arasına getsin. Sonra külək bir də qıy vurdu, bir də, bir də. Elə bil bu saat bütün aləm dağılırdı.

Aydın məsələydi ki, bu şaxta-mərəkədə stansiyadan xeyli aralıdakı bağa tərəf nə bir maşın işləyirdi, nə avtobus və Kərim kişi yenə də sol qolunu büküb başının üstünə qaldırdı, üzü xəzriyə addımlamağa başladı; ayaqları güclə sözünə baxırdı.

Bu yol torpaq yol idi, sol tərəfdə bağlar idi, sağ tərəfdə zeytun ağacları və bu zeytun ağaclarının arasında şamdan salınmış meşə zolağı. Amma indi nə torpaq yol var idi, nə zeytun, şam ağacları, nə də ki bağlar; ancaq qar idi, qiyamət qoparan külək idi və bu külək Kərim kişinin gözünü açmağa qoymurdu. Birdən o, hiss elədi ki, qardan başqa ayaqlarına nəsə dolaşır və başa düşdü ki, bu damının qapısını qar basıb çöldə qalmış itdir və bu it evdə nə varsa hamısını – dünənki xörəyin boyatından tutmuş kolbasaya, sosiskayacan yığıb bağladığı bağlamasını əlindən qapa bilər. Kərim kişi gözünü açıb baxa bilmirdi, bir səs də çıxara bilmirdi, təkcə bunu bilirdi ki, dayanıb, bağlamanı açıb, bu itə də bir şey verməyə gücü çatmayacaq; olan-qalan gücünü yığıb bir az bərk yeriməyə çalışdı. Bu it onsuz da əl çəkən deyildi, bağlamanın iyinə, adam nəfəsinin istisinə lap dünyanın axırınacan gedəcəkdi.

Kərim kişinin bir ərik ağacı vardı ki, altında yüz adama yer salmaq olardı və həmişə bağa gələndə ilk növbədə uzaqdan bu ağac görünərdi. Kərim kişi bayaqkı it ayağına dolaşa-dolaşa üzü xəzriyə tərəf addımlaya-addımlaya hiss elədi ki, bax, bu yerdən ərik ağacı görünür və daha bağa çatmağa az qalıb. Sonra bunu da hiss elədi ki, indi ayağına bir it yox, iki it dolaşır.

Itlər də görünür, Kərim kişinin əlindəki bağlamaya hücum eləməkdən çəkinirdi və yəqin hiss edirdilər ki, həmin bağlamadakından onların da payına düşəcək, bilirdilər ki, bu uzun ayaqların sahibi ilə harasa elə bir yerə çatacaqlar ki, orada isti olacaq, oranı külək tutmayacaq və orada yemək olacaq.

Bu qədim dəmir darvaza bütün ətrafda məşhur idi, köhnə məscid kimi, köhnə dəyirman kimi bu yerlərin abidələrindəndi. Indi həmin darvazanın balaca qapısının ağzına adam boyu qar yığılmışdı və Kərim kişi axırıncı dəfə bütün gücünü toplayıb sol əli ilə qarı təmizləməyə başladı. Daha qar-boranı hiss eləməsə də bunu başa düşdü ki, itlər də ona kömək edir, qabaq ayaqları ilə qapının ağzındakı qarı o yan-bu yana dağıdırlar. Kərim kişi yadına saldı ki, bu axırıncı əzab-əziyyətdi, Nabranın damının ağzı xəzriyə tərəf deyil və yəqin qar ora bu cür yığılmayıb.

O, qapını itələyib darvazadan içəri girəndə heç özü də bilmədi necə oldu ki, qışqırmağa gücü çatdı:

– Nabran!

O dəqiqə də qulağına it zingiltisi gəldi və Kərim kişi bütün bədənini, əllərini, ayaqlarını hiss eləməsə də, heç nə görməsə də, başa düşdü ki, onu qara basmır, bu, Nabranın zingiltisidi və burasını da başa düşdü ki, bütün bu müddət ərzində Nabran onun yolunu gözləyib.

Daha bundan sonrakıları Kərim kişi elə bildi ki, yuxuda görür, yəni elə bildi ki, yuxudadı, onun ayağına dolaşan bayaqkı itlərin də boranın əlindən Nabranın damına soxulmaları yuxudadı və axır ki, güc-bəla ilə aça bildiyi bağlamadakıları onların qabağına qoyub yedizdirməsi də yuxudadı.

Sonra elə bil nə isə eşidib bircə an yuxudan ayıldı və bu dəfə Cavanşirin səsini lap açıq-aşkar eşitdi:

– Ata! Ata! – və başa düşdü ki, indi də onu qara basmır: bunu da başa düşəndən sonra daha heç nə bilmədi.

... Həkim çarpayının yanından qalxıb bir Ayaza, Ayazın yanındakı bacı-qardaşına baxdı, bir Cavanşirə, Faziləyə baxdı, bir qapının ağzında dayanmış Marqarita Abramovnaya baxdı və bir də təzədən Kərim kişinin qalın balıncın içinə batmış sifətinə baxıb:

– Sətəlcəmdi, – dedi və sonra bunu da dedi ki, keçib gedər.

Cavanşir atasının gözləri yumulu zəif sifətinə baxdı və ürəyini bir qorxu bürüdü: birdən keçib getmədi?..

Əlbəttə, indi Kərim kişi güzgüdə Marqarita Abramovnanın gözlərinə baxa bilsəydi, o saat başa düşərdi ki, bu qoca arvad da bu dəm bir ürək ağrısı ilə öz təkcə və axırıncı müştərisini itirməkdən qorxur.

... O ki, qaldı havaya, cəmi ikicə gün keçmədi, Bakıda qar kəsdi, külək dayandı, bir gün çıxdı ki, gəl görəsən və indi adamın heç ağlına gəlməzdi ki, vur-tut ikicə gün bundan əvvəl Nabran boyda it damda qalıb çovğunun əlindən zingildəsin.

*Iyun, 1973.*

## BU DÜNYADA QATARLAR GEDƏR

Dünyada cürbəcür qatarlar var idi: «Bakı – Moskva», «Bakı – Novosibirsk», «Xarkov – Bakı», «Bakı – Odessa», «Mahaçqala – Bakı»... Yay başlayan kimi təzə qatarlar gəlib gedirdi: «Bakı – Kislovodsk», «Bakı – Soçi»...

Qatarlar adamlarla dolu olardı. Adamlar cürbəcür olardı, cürbəcür geyinərdi.

Dünyada qapqara adamlar var idi, sapsarı adamlar var idi və bu adamlar da hərdən qatarlarda Əbiligilin kəndinin aşağısından ötüb keçərdi.

Qatarlar neft daşıyan vaqonlar olardı, taxta-şalban daşıyan, traktorlar, yük maşınları, avtomobillər daşıyan vaqonlar olardı və Əbili gözlərini yumub bu təptəzə, yağlı avtomobilləri ömründə bircə dəfə də görmədiyi Bakının küçələrində ora-bura gedən görərdi.

Bütün bunlar uzaq-uzaq ölkələrdən, böyük-böyük şəhərlərdən gəlib gedirdi və həmin uzaq-uzaq ölkələrdə, uzaq-uzaq şəhərlərdə heç kim bilmirdi ki, dünyada Əbiligilin balaca kəndi var və bu balaca kənddə Əbili adında bir oğlan var ki, hər gün qatarların ardınca baxır.

Qatarlarda daşınan bütün bu yükləri bir-birini tanımayan cürbəcür adamlar hazırlayırdı, düzəldirdi, yükləyirdi, bir-birinə göndərirdi. Əbili bunu fikirləşirdi və hərdən ona elə gəlirdi ki, gözlərinin qabağından ötüb keçən bu yük qatarları adi qatarlar deyil, bu yük qatarları taxta-şalbanla, traktorla, kombaynla bərabər adamların sirrini bir-birinə aparır, adamların ürəyindəkiləri bir-birinə yetirir. Adamların o sirrini ki, gecə yerində uzanırsan və uzaq-uzaq ölkələrdə, böyük-böyük şəhərlərdə yaşayanlar barədə fikirləşirsən.

Qatarlarda təkcə adamlar getmirdi, təkcə yük daşımırdı qatarlar. Bəzən qatarlar nağıl aləmindən gəlirdi, fillə, zürafəylə gəlirdi.

Bir dəfə yayın cırhacırı idi və Əbili həmin gün doğruçu fillər gördü, doğruçu zürafələr, açıq vaqonlardakı qəfəslərdə gedən doğruçu şirlər, pələnglər gördü. Əbili başa düşdü ki, «Kiyev – Bakı» qatarında Kiyevdən Bakıya sirk gedir və özü də bilmədi necə gözlərini yumdu, ötüb keçməkdə olan qatar təkərlərinin taqqatuqu altında bu zürafələri, bu filləri, şirləri, pələngləri Bakı sirkində gördü, yekə başmaqlı, yekə saatlı, yekə burunlu təlxəklər gördü, həmişə qatarlarda gedib-gələn rəngbərəng paltarlı uşaqların səs-küyünü eşitdi.

Əbili az görmüşdü, çox oxumuşdu. Əbili bilirdi ki, fillər Hindistanda olur, Afrikada olur, sirkdə təlxəklər olur, təlxəklərin paltarları əyinlərinə böyük olur və onlara baxanda adamı gülmək tutur – bütün bunları bilirdi, əlinə keçən qəzetlərdə, jurnallarda, kitablarda oxumuşdu, dərsliklərdən öyrənmişdi, amma özü heç nə görməmişdi.

Burası doğru idi ki, Əbili gözlərini yumub istədiyini görürdü, amma burası da var idi ki və Əbili də bunu çox gözəl başa düşürdü ki, bütün bunlar doğruçu görmək deyil.

Əbiligilin kəndi dəmir yolundan yarım kilometr aralıdakı dağın ətəyində idi. Bu kənd il on iki ay dumanlı-çiskinli olardı və bu dumanın-çiskinin içindən gecə-gündüz qatarlar keçərdi. Gecələr bu qatarların səsi kəndin bütün evlərinə dolardı və bu qatarlardakı adamlar, bu qatarların daşıdığı avtomobillər, gedib-gəldiyi böyük-böyük şəhərlər kəllayı otaqda palazın üstündə salınmış yorğan-döşəyin içində Əbilinin gözlərinin qabağına gəlirdi.

Səhərlər, günortalar və axşamlar isə Əbili inəklərini naxıra qatıb, qoyun-quzularını kəndin çobanı Ildırımın sürüsünə ötürüb, kəhər atı evlərinin dalındakı otlaqda çidarlayıb, tövləni kürüyüb-təmizləyib, məktəbə gedib və qayıdıb dərslərini hazırlayandan sonra, kənddən aşağı düşürdü, dəmir yolu boyunca gedirdi, o qədər gedirdi ki, kəndləri dağın ətəyində gözdən itirdi və bu yerlərdə hər addımbaşı bitən bir alça ağacının altındakı yoncalıqda oturub gəlib keçən qatarlara baxırdı.

Əbilinin gözləri elə öyrənmişdi ki, bircə dəqiqənin içində gəlib keçən qatarın üstündəki yazını oxuyurdu, vaqondakı adamları görürdü, bu adamların görünüşü, geyimi yadından çıxmırdı.

Uşaqlıq vaxtları, o vaxtlar ki, ayağı yalın, başı açıq atılıb düşürdü və dünyanın işləri vecinə deyildi, birinci növbədə yaşıdları, yaşıdlarının əcaib-qəraib şalvarları, köynəkləri yadında qalırdı. Əbili bu uşaqları qırmızı rəngin, yaşıl rəngin, çəhrayı rəngin içində görürdü və bu uşaqlar başqa bir aləmin, nağıllı-sehrli bir aləmin uşaqları kimi ondan çox-çox uzaqlarda idi.

Günlərin bir günündə Əbili başa düşdü ki, həmin nağıllı-sehrli uzaq aləmin uşaqları da kəndlərinin uşaqları kimidi – cığalı var, düzü var, kolxoz sədri Cəbrayıl kişinin oğlu Rəhim kimi ərköyünü var, Salatın arvadın nəvəsi yetim Səftər kimi işbacaranı var.

O gün qatarlardan biri – «Bakı – Rostov» qatarı birdən-birə Əbiligilin kəndlərinin qabağında dayandı. Düz dörd saat dayandı. Dedilər irəlidə yol xarab olub. Həmin dörd saatda Əbiligilin kəndində yumurta-toyuq qalmadı, yağ-pendir qalmadı, ağaclarda alça, ərik qalmadı, kimin əlinə nə keçirdisə, gətirib qatardakılara satmaq istəyirdi.

Kəndin adamları alverlə məşğul idi, təkcə Əbilidən başqa. Əbili bir küncdə dayanıb gendən-genə dağın aşağısında düzənlikdə oynayan uşaqlara baxırdı. Qatardan düşən uşaqlar hərdən lap onun burnunun qabağından ötüb qaçırdı və Əbili bu tərləmiş, sir-sifəti qızarmış uşaqlardan gələn qoxunu hiss edirdi. Bu qoxu bir az kəndlərindəki dəllək Qafarın dəlləkxanasından gələn iyə oxşayırdı, bir az atası ildə-ayda bir dəfə Bakıya gedib qayıdanda gətirdiyi peçenye, pryanik, kağıza bükülü konfet iyinə oxşayırdı, amma Əbili belə fikirləşirdi ki, bu qoxu tamam-kamal dəlləkxana iyi, yaxud peçenye, pryanik iyi deyil, bu qoxu böyük-böyük şəhərlərdəki uşaqların qoxusudu. Əbili burasını da lap yəqin etdi ki, bu saat burnunun qabağından ötsələr də bu uşaqlar ondan çox-çox uzaqdadı, elə uzaqdadı ki, həmin uzaqlığa gecə-gündüz, yay-qış, dumanda-çiskində, qarda-boranda, yayın cırhacırında qatarlarla gedəsən gərək.

Birdən-birə çəhrayı ayaqqabılı, çəhrayı corablı, çəhrayı paltolu, çəhrayı yanaqlı, çəhrayı papaqlı bir qız Əbilinin qabağında dayandı, təəccüblə Əbilinin ayağındakı qaloşa baxdı, pencəyinin cibinə yığdığı göy almalara baxdı, başına qoyduğu atasının köhnə papağına baxdı və soruşdu:

– Sənin adın nədi?

Ömründə heç vaxt Əbilinin beləcə ürəyi düşməmişdi. Ömründə heç vaxt Əbili beləcə özünü itirməmişdi. Əbili heç özü də bilmədi ki, necə dedi:

– Əbili.

Çəhrayı qız lap heyrətlə soruşdu:

– Nə?

Əbili dedi:

– Əbili.

Çəhrayı qız bir az da dayanıb heyrətlə ona baxdı, sonra tələsik qaçdı; elə qaçdı, elə bil bu saat Əbili hop eləyib onu udacaqdı.

Əbili incimədi. Elə bilirdi ki, elə belə də olmalıdı. Çəhrayı qız çəhrayıydı, Əbili palçıqlı-peyinli. Çəhrayı qız nə biləydi ki, Əbilinin əsl adı Əbülfətdi və atası, anası ona görə ona Əbili deyir ki, onu çox istəyir. Əbili bundan incimədi, Əbili başqa şeydən incidi.

Çəhrayı qız xeyli aralıdan Əbilini Yaşıl, Sarı, Qırmızı qızlara göstərib güldü və Yaşıl, Sarı, Qırmızı qızlar da Əbiliyə baxıb güldülər. Aydın məsələydi ki, qızlar Əbilinin təhər-töhürünə gülürdülər, amma Əbili bundan da incimədi, çünki böyüdükcə ona belə məlum olurdu ki, uzaq-uzaq ellərdəki böyük-böyük şəhərlər və bu şəhərlərdə yaşayan Yaşıl, Sarı, Qırmızı, Çəhrayı uşaqlar adicə uzaqlarda deyil, yəni bu uzaqlıq başqa uzaqlıqdı, bu uzaqlıq, bu məsafə Əbilinin gözünü açıb, bax, bu dağı görməsindədi, səhərlər inəyi naxıra qatmasındadı, axşamlar qoyun-quzunu Ildırımın sürüsündən ayırıb evə gətirməsindədi, səhər-axşam qatarların dalınca baxmasındadı və bu qatarlardakı fillərin, pələnglərin, bu qatarlardakı uşaqların gecələr onun yuxusuna girməsindədi. Bundan incimədi Əbili, başqa şeylərdən incidi.

Çəhrayı qız tabaşir parçası ilə hamar qayanın üstündə xətlər çəkdi, ora-bura baxıb elə bil nəsə axtardı, tapmadı, çəhrayı paltosunun cibindən yastı bir şey çıxardıb, ayağının altına atdı və bir ayağını qaldırıb o biri ayağı ilə həmin yastı şeyi itəliyə-itəliyə xətlərin üstündən cırcırama kimi hoppanmağa başladı.

Bir az keçəndən sonra qatardakı atalar, analar uşaqları çağırdı. Çəhrayı qız da əyilib ayağı ilə oynatdığı yastı şeyi yerdən qaldırdı, bir az orasına-burasına baxdı, sonra təzədən yerə tullayıb qatara qaçdı. Bir az da keçəndən sonra qatar tərpəndi. Lap sonra isə bu yerlərin həmişəki sakitliyi ətrafa çökdü, kəndin camaatı sata bildiyini satıb, sata bilmədiyini təzədən geri apardı və Əbili də həmişəki bu sakitlik içində əllərini pamazı şalvarının ciblərinə soxub var-gəl edə-edə bayaq Çəhrayı qızın xətt çəkib oynadığı yerə gəldi. Çəhrayı qızın hoppana-hoppana ayağı ilə sürüşdürdüyü yastı şey elə-eləcə xətlərin üstündə atılıb qalmışdı. Əbili əlləri cibində bir müddət bu yastı şeyə baxdı, sonra birdən-birə ürəyinə bir qüssə, bir kədər gəldi, sonra da əyilib həmin yastı şeyi yerdən götürdü, bu yastı şeyin büküldüyü toza-torpağa batmış kağızı yavaş-yavaş çırpdı.

Yay günləri rayon mərkəzindən Əbiligilin kəndinin yuxarısına lafet-mağaza gələrdi, üç-dörd gün arxın qırağındakı böyük söyüd ağacının altında dayanardı, sürücü-satıcı Imaş kəndin camaatına çit, pamazı, dəsmal, adyal, stəkan, boşqab, pivə, gizlincə araq, bublik, mampası, şokolad satardı. Şokoladlar qızılı kağıza bükülərdi, üstündən də başqa bir kağıza bükülərdi və bu kağızda tülkü şəkli, ya qarğa şəkli, ya xoruz şəkli olardı. Əbiligil ata-anasını yola gətirib şokolad alandan sonra, ustufca kağızları açardı, bir xeyli kağızların ora-burasına baxardı, axşam hamarlayıb evdəki kitabların arasında saxlamaq üçün qoynunda, ya başındakı papağın içində gizlədib keflə şokoladdan yavaş-yavaş dişdəm vurardı. Bu balaca bayram olardı, şokolad bayramı.

Indi həmin şokoladın bir irisi, elə irisi ki, Imaşın lafetində yox, uzaq-uzaq ellərdəki böyük-böyük şəhərlərdə satırdılar onu, Əbilinin əlində idi və bu həmin yastı şey idi ki, bayaq Çəhrayı qız ayağı ilə sürütləyə-sürütləyə xətlərin üstündən hoppanırdı.

Bax, bu yerdə Əbili incidi, Çəhrayı qızdan incidi, özü də yaman incidi, çünki Əbili belə Əbili idi.

Necə olurdu ki, yay vaxtı Imaşın lafeti gələndə Əbiligil ondan aldıqları balaca şokoladı yavaş-yavaş yeyirdilər ki, gec qurtarsın, amma Çəhrayı qız bu irilikdə şokoladı ayağı altına atıb daş parçası kimi oynamağa qıyırdı?

Əbili çox fikirləşirdi ki, bu iri şokoladı neyləsin. Istədi aparıb yetim Səftərə versin, amma ürəyinə pis gəldi, pis gəldi ki, niyə Çəhrayı qızın ayaq altına atdığını Səftər yeməlidir?

Və bu zaman Əbili kəşf elədi ki, onların kəndindəki yetim Səftər heç də uzaq-uzaq ellərdəki böyük-böyük şəhərlərdə yaşayan rəngbərəng uşaqlardan əskik oğlan deyil.

Sonra şokoladı elə oradaca bir daşın üstünə qoydu ki, quşlara yem olsun və sidq-ürəkdən arzuladı ki, yay tez gələydi, Imaş lafetini arxın qırağındakı söyüdün altına çəkəydi, o da Imaşdan şokolad alıb yeyəydi.

Çəhrayı qızın bu şokolad məsələsindən iki-üç il sonra, o zamanlar ki, Əbili imtahanlarının hamısını beşə verib səkkizinci sinfə keçmişdi, qəribə bir əhvalat baş verdi.

Payızın son günləri idi və həmin günlər Əbiligilin kəndində çiskinli sazağın fironluq elədiyi günlər idi. O payız səhəri Əbili yuxudan oyanıb kəllayı otaqdakı pəncərədən qarşı dağın boz ətəyinə baxdı, saralıb solmuş – böyürtkən kollarına, çılpaq ərik ağaclarına, alçalara baxdı və birdən-birə bu çiskin, sazaq, bu bozluq, solğunluq ürəyinə bir qəriblik gətirdi, elə bil ki, illər boyu qürbət ellərdə yaşayırdı.

Ürəyindəki bu qəribliklə həyətə düşdü, tövləyə girib həvəssiz-həvəssiz atı qaşovladı, sonra kəhərin çılpaq belinə atılıb kəndin yuxarısındakı arxda sulamağa apardı. Arxın qırağında atın belindən həmişəki bu dağlara baxdı, daha sobaları tüstülənən balaca kəndlərinə baxdı, boynunu uzadıb su dümləyən altındakı atın qara yalına baxdı, sonra başını qaldırıb gözlərini çiskindən qırpa-qırpa bomboz göyə baxdı və birdən-birə ürəyinə bir yaz həsrəti çökdü. Birinci dəfəydi ki, Əbilinin ürəyinə yaz həsrəti çökürdü. Elə bir yaz ki, bu dağların adamsızlığı ürəyini sıxmasın, bu kəndin balacalığı ürəyini qısmasın.

Sonra Əbili qulaqlarını şəklədi və başa düşdü ki, uzaqdan qatar gəlir, ayaqları ilə atı dəhmərləyib üzüaşağı çapdı. Əbili dəmir yoluna gəlib çatanda qatarın axırıncı vaqonları sürətlə ötüb-getdi və bir azdan tamam görünməz oldu. Əbili atın çılpaq belində oturub bir müddət keçib getmiş qatarın ardınca baxdı və birdən-birə ona məlum oldu ki, bu çiskinli-sazaqlı payız səhəri həmin qatar Əbilinin ürəyini də özü ilə apardı, böyük şəhərə apardı. Əbili bunu başa düşdü və atın belindən yerə atılıb suçlu adamlar kimi, dağın döşündə sobaları tüstülənən kəndlərinə baxdı.

Dağın döşündəki balaca kənd Əbilinin qatarla çıxıb gedən ürəyindən xəbərsiz idi və bu boz payız səhəri heç nə olmayıbmış kimi, sobalarını tüstülədirdi.

Əbili əlini kəhər atın yançağına sürtüb:

– Belə-belə işlər... – dedi.

Bu əhvalatdan bir-iki il də gəlib-keçdi və bir yay günü Əbili dəmir yolunun kənarındakı otluqda uzanıb dünyanın işləri barədə fikirləşirdi. Fikirləşirdi ki, bu dünyada gedən təkcə qatarlar deyil. Illər də qatarlar kimidir, gəlir gedir, gəlir gedir, görünməz olur.

Əbili dünyanın bu işləri barədə fikirləşirdi ki, uzaqdan bir qatar göründü və Əbilinin yanından ötüb keçəndə vaqonlardan birindəki bir qız pəncərədən xeyli zir-zibil atdı: boş butulka, yumurta qabığı, pomidor artığı və bunlara bükülmüş kitab vərəqləri.

Kitab vərəqləri havada yellənə-yellənə Əbilidən beş-altı metr aralıya düşdü və qatar gözdən itib gedəndən sonra, Əbili ayağa qalxıb vərəqləri yerdən qaldırdı. Üstündə stəkan yerləri olan, aralarına pomidor suyu tökülmüş bu vərəqlərdən birinin üstündə yazılmışdı: «S. Yesenin».

Əbili əzik-üzük vərəqləri düzəldib əvvəlindən açdı. Ağ səhifəsində göy mürəkkəblə yazılmışdı:

Ya ne Puşkin, ne Krılov,
Ne moqu pisat stixov,
No pişu tebe tri slova,
Jivi, uçis, i bud zdorova!

*Veçno tvoy Rufat.*

Əbili məktəbdə rus dili dərsi keçirdi və o biri dərslər kimi rus dilindən də beş alırdı. Əbili başa düşdü ki, bu kitabı Rüfət adında bir oğlan bir qıza bağışlayıb və həmin Rüfət həmin qıza aşiq olub. Əbili başını qaldırıb bayaqkı qatarın ardınca baxdı və fikirləşdi ki, Rüfət heç ağlına gətirməzdi ki, üstünü şerlə yazıb qıza bağışladığı bu kitabın vərəqləri bir vaxt Əbili adında bir oğlanda olacaq. Əbili bunu fikirləşdi və əti ürpəşdi. Əti ürpəşdi ki, niyə bir adamın üstünə şer yazıb başqa bir adama bağışladığı bir kitabın vərəqləri cırılıb günlərin bir günündə yumurta qabığı və pomidor artığı ilə bir yerdə vaqonun pəncərəsindən atılmalıdır? Əbili bir neçə il bundan əvvəlki Çəhrayı qızı yadına saldı və burasını da başa düşdü ki, bu kitabın vərəqlərini Çəhrayı qız cırıb vaqonun pəncərəsindən beləcə atdı. Vacib deyildi ki, bu qız elə həmin Çəhrayı qızın elə özü olsun. Bu qız həmin Çəhrayı qızın özü deyildi, başqa Çəhrayı qız idi. Əbili böyümüşdü və daha bilirdi ki, bu dünyada Çəhrayı qızlar çoxdu. Çəhrayı oğlanlar da vardı bu dünyada.

Ikinci səhifədə sarışın bir kəndli balasının şəkli var idi. Bu kəndli balası Əbiligilin düzənlikləri kimi bir düzənlikdə dayanıb ağzında da sünbül çöpü çeynəyirdi. Şəklin altında yazılmışdı: «S.Yesenin».

Əbili keçdiyi dərslərdən bilirdi ki, Yesenin böyük şairdir, yaxşı şerlər yazıb, amma Əbili bilmirdi ki, Yesenin həm də bir kəndli balası olub. Bir kəndli balası, Əbili kimi.

Illər keçdi. Əbili məktəbi qurtardı və yenə də bir yay günü kolxozun «QAZ-51»nə minib Bakıya gəldi, universitetə qəbul imtahanları verdi, hamısından beş aldı və məlum oldu ki, onu iki nəfər başqa əlaçı ilə bərabər təhsil almaq üçün Moskva universitetinə göndərirlər.

Əbili bütün ömründə birinci dəfə qatara mindi, «Bakı – Moskva» qatarına. Qatar çox getdi, az getdi, dərə, təpə düz getdi, axırda gəlib Əbiligilin kəndinin yanından ötüb keçdi. Əbili vaqonun pəncərəsi önündə dayanıb hər addımına bələd olduğu, hər kolunu-kosunu tanıdığı bu yerlərə, qarşı dağın ətəyindəki ağaclıqlar arasından kirəmidli taxtapuşları qızaran kəndlərinə baxa-baxa heç özü də bilmədi birdən-birə necə kəşf elədi ki, bir neçə il bundan əvvəlki qatar onun ürəyini heç hara aparmayıbmış; kəşf elədi ki, əslində o, indi ürəyini bu balaca kənddə qoyub gedir, bu dağların arasında, bu dəmir yolunun kənarında, bu yerlərin çiskinində, çənində və bütün ömrü boyu bu yerlər onun yuxusuna girəcək, onunla olacaq.

Əbili bu dəfə lap doğrusunu başa düşdü ki, bundan sonra bütün ömrü boyu nə edəcəksə bu yerlərin, bu balaca kəndin sayəsində edəcək; başa düşdü ki, bütün ömrü boyu bu yerlərə, bu balaca kəndə borclu olacaq və heç vaxt həmin borcundan çıxa bilməyəcək, ən xoş vaxtlarında da, ən ləzzətli çağlarında da hərdən bu borcluluq onu sıxacaq, sıxacaq çünki dünyada çox şey qatarlar kimidir, gedir, gedir...

*Dekabr, 1973.*

# TALVAR*

***Akademik Məmməd Arif Dadaşzadənin xatirəsinə***

## I

Əvvəlcə ağac şaqqıltısı eşidildi və bu ağac şaqqıltısı günortanın cırhacır istisində tamam kimsəsizləşmiş həyətdə çox gözlənilməz səsləndi, sonra aşağı başdakı ayaqyolundan çıxan Gülağanın gözləri birdən-birə bərəldi və uşaq bilmədi ki, qışqırsın, ya nə etsin.

Həyətin ortasındakı xartut ağacının yoğun gövdəsi öz-özünə şaqqıltı ilə iki yerə bölündü və bir müddət tut yağışıymış kimi, qara tut həyətin asfaltına töküldü.

Həyətə birinci boylanan Ağamuxtarın arvadı Anaxanım oldu. Anaxanım mətbəxdə oturub nahar üçün küftə yumrulayırdı, şaqqıltını eşidib ikinci mərtəbədən ağaca baxdı, sonra çaşbaş qalmış Gülağanı görüb ətli-yağlı əllərini əsgi ilə tələm-tələsik silə-silə:

– Adə, Gülağa, – qışqırdı, – qaç kişiyə xəbər elə, tut parçalandı!..

Və Gülağa da işin nə yerdə olduğunu başa düşüb babasının otağına tərəf qaçdı ki, kişini çağırsın, amma Əliabbas kişini çağırmaq lazım deyilmiş, çünki Gülağa hələ onun həyət qapısına çatmamış, kişi özü ağ tumanının üstündən şalvarını belinə çəkə-çəkə elə ağ köynəkdəcə çoxdan bəri gəzmədiyi iti addımlarla qapıdan çıxıb xartuta tərəf gəldi.

– Tez eləyin! – dedi. – Tez eləyin! Biri də gərək qalmasın yerdə! Hamısını yığın bir-bir! Bircəsi də qalsa, günah olar! Hamısını yığın! Yeyilsin gərək hamısı! – dedi. – Tez eləyin! – Sonra özü əyilib ağacın dibindən bir dənə tut götürdü qoydu ağzına və doğrudan-doğruya kişiyə elə gəldi ki, ömründə bu ləzzətində tut yeməyib. – Yüz ilin tutudu bu, yüz ilin! – Sonra da əllərini ağacın ikiləşmiş gövdəsinə söykəyib yarığa baxdı – yarığın hər iki üzü qupquru idi, elə bil neçə vaxtdı günün altında qalıb qurumuşdu; qocalıqdan idi bu, canından şirə çəkilib getmişdi.

Axır ki, yüzü haqladı bu xartut.

Əliabbas kişi başını ikinci mərtəbəyə tərəf qaldırıb böyük gəlini Anaxanıma dedi:

– Aş bişir bu gün.

Anaxanım ömründə qayınatasının üzünə ağ olmamışdı və kişinin bir sözünü heç vaxt iki eləməmişdi; bu dəfə də demədi ki, küftəbozbaş asıram; kişinin ürəyi aş istəyir, nə olar, axşama da aş bişirər və burası da gündən-günə Anaxanıma ovcunun içi kimi aydın olurdu ki, qocalmaq, əslində təzədən uşaqlaşmaqdı.

Əlbəttə, bu saat Əliabbas kişi böyük gəlinin bu fikirlərindən xəbərsiz idi və o, bu dəfə Gülağaya dedi:

– Gördün! Gördün ki!? Elə soruşurdun, düz deyirsən, yoxsa yox? Gördün ki?!

Doğrudan da, yaman oldu bu xartutun parçalanması, daha buna bir söz ola bilməzdi, düz deyirmiş kişi, xartut yüz yaşına çatanda parçalanırmış və burasını da lap doğru deyirmiş ki, bu tutun yüz yaşı var.

– Əcəb oldu! – Bunu, bu tutdan birinci dəfə yeyirmiş kimi, Fətullanın arvadı Məsmə dedi:

– Yığıb qonşulara da pay göndərmək lazımdır... – Bunu da Anaxanımın həmişə səxavət göstərən giçik gəlini Fəridə dedi.

Məsmə ürəyində fikirləşdi ki, sənə nə var, ay bəxtəvər, pay da göndərərsən, o tərəfə də keçərsən, öz malın deyil axı; bunu fikirləşdi, amma yeznəsinin gəlininə bir söz demədi.

Əliabbas kişinin dördüncü nəvəsi Ağasəlim üzünü arvadı Zibeydəyə tutub:

– Boşqab gətir! Qazan gətir! – dedi. – Tut günüdü bu gün.

Əliabbas kişi dedi:

– Hə, Hə!.. Biri də qalmasın yerdə gərək. Günahdı...

Bütün məhəllədə bu məşhur tut ağacının yüz yaşı tamam olan həmin isti iyul günü Əliabbas kişinin evdəki bütün oğul-uşağı, nəvə-nəticəsi, gəlinləri həyətə çıxmışdı və hamı bu dəm cidd-cəhdlə həyətə səpələnmiş xartutu yığmaqla məşğul idi.

Əlbəttə, günah məsələsini Əliabbas kişi elə-belə, özündən dedi, heç kim heç vaxt deməmişdi ki, tut ağacının yüz yaşı tamam olanda və gövdəsi ikiyə bölünəndə yerə tökülmüş tutların hamısını yığmaq lazımdı, yoxsa ki, günaha batarsan; belə bir qayda yox idi, necə ki, tutun yüz yaşı tamam olanda plov bişirmək də adət deyildi, amma bir halda ki, bu tut ağacı bu dünyada yüz il ömür sürmüşdü və onun yüz yaşının tamam olmasını Əliabbas kişi beləcə gözləmişdi, deməli, bayram idi bu gün və bu yüz yaşlı ağacın bəhrəsini ayaq altında qoymaq günah işdi.

Əliabbas kişi tut ağacının altında dayanmışdı və bu vaxt budaqdan onun sinəsinə, düz ürəyinin başına bir tut düşdü, kişinin ağ köynəyində o saat qıpqırmızı bir ləkə əmələ gəldi və bunu görən Ağamuxtarın bütün bədəni birdən-birə ürpəşdi.

Əliabbas kişinin böyük oğlu Ağamuxtar dörd il cəbhədə vuruşmuşdu, Mazdokdan Berlinə qədər vuruşa-vuruşa getmişdi və bütün məhəllə uşaqları yaxşı bilirdi ki, Ağamuxtar əminin bir ordeni, on üç də medalı var. Ağamuxtara birdən-birə elə gəldi ki, atasının ürəyinin başına güllə dəydi və bu qırmızı ləkə də qan yeridir. Sonra Ağamuxtar daha tamam-kamal ağarmış gur saçlarını əli ilə geri sığallayıb axır vaxtlar neçənci dəfə fikirləşdi ki, kişi yaman qocalıb.

Əslində Ağamuxtarın belə fikirləşməyə bir o qədər də haqqı yox idi, çünki heç özü də atasından çox seçilmirdi; hətta bir dəfə qonşuları qəssab Ağanəcəfin arvadı Balacaxanım dar dalanın qabağında dayanıb tum çırtlaya-çırtlaya başına toplaşmış cavan məhəllə qızlarına demişdi:

– Görürsüz, ağəz, adam heç bilmir ki, Əliabbas kişi Ağamuxtar kişinin atasıdı, yoxsa Ağamuxtar kişi Əliabbas kişinin atasıdır...

Əlbəttə, bu söz gəlib Anaxanıma çatanda, Balacaxanım cavabını almışdı, amma bir vardı ki, Ağamuxtar da yaman qocalmışdı.

Və ən qəribəsi bu oldu ki, həmin dəm Əliabbas kişinin də gözləri böyük oğlunun ağappaq ağarmış saçlarına sataşdı və bu ağappaq saçları birinci dəfə görürmüş kimi, kişi həmin yay gününün xartut bayramına baxmayaraq, birdən-birə əməlli-başlı pəjmürdəhal oldu; Ağamuxtarın uşaq vaxtları onun yadına düşdü, lap o vaxtlar ki, hələ divardan tuta-tuta gəzirdi, sonra o vaxtlar ki, bu ağaca dırmaşıb tut yeyirdi, ağzı-burnu, üst-başı qapqara qaralırdı. Əliabbas kişi özünü saxlaya bilməyib ürəyində dünyanın belə əbləh işləri barədə, yəni dünyanın etibarsızlığı barədə bir-iki söz dedi; buna yandı-yaxıldı ki, illər adamı nə günə qoyur – o balaca uşaq indi gör qocalıb nə günə qalıb; sonra şairin sözü Əliabbas kişinin yadına düşdü: «Biz gəldi-gedərik, sən yaşa dünya!» və o, ağappaq bığlarının altından gülümsəyib başını buladı, dünyanın işlərinə acığı tutmağı da indi ona gülməli göründü, yenə də ürəyində dedi ki, Isgəndərə qalmayan dünya kimə qalacaq və burasını da fikirləşdi ki, Ağamuxtarın qocalığını görür, amma özündən heç bir söz demir...

Əliabbas kişinin kiçik oğlu Fətulla nəvəsi Gülağaya dedi:

– Qaç get evdən qab gətir.

Boşqablar, qazanlar baş barmaq boyda xartutla doldu, məhəllənin uşaqları tutun yüz yaşa çatıb parçalanması xəbərini eşidib Əliabbas kişigilin həyətinə daraşdılar, hərə beş-on tut qoydu ağzına və böyük də, kiçik də, hamı belə bir yekdil fikrə gəldi ki, bu tutun ləzzəti başqa şeydi və heç kim ömründə bu ləzzətdə tut yeməyib. Qonşuların hərəsinə bir nimçə tut pay getdi, elə bil Əliabbas kişigilə nişan gəlmişdi, şirni paylayırdılar.

Qəssab Ağanəcəfin arvadı Balacaxanım başına təzə xına qoyduğu üçün tünd qəhvəyi barmaqları ilə xartutu bir-bir saplağından tutub ağzına qoyurdu və ağzını marçıldada-marçıldada deyirdi:

– Bəxti var də, camaatın!.. bu cür tutdan yeyib kef eləyirlər özləriyçün...

– Sonra hərdən onlara gəlib işinə-gücünə gömək eləyən qonşuları, yaşı otuzu keçmiş, amma hələ də ərə gedə bilməyən Lumiyəyə göz vururdu: – Vitamindir e, ağəz, bu... Adam qızışdıran şeydi...

Lumiyə də həmişəki kimi, qızarıb pörtürdü, amma əslində belə söhbətlər ürəyindən idi və Balacaxanım da bunu yaxşı bildiyi üçün şaqqanaq çəkib bərkdən gülürdü.

Bir sözlə, həmin şənbə günü məhəllənin uşağından tutmuş böyüyünəcən hamı Əliabbas kişinin həyətindəki xartutun parçalanmasından xəbər tutdu və tamahkarlıqda tayı-bərabəri olmayan Molla Fərzəli də, təbii ki, əsasını döyəcliyə-döyəcliyə gəldi durdu Əliabbas kişigilin küçə qapısı ağzında, ustanı bayıra çağırdı, başladı o yandan, bu yandan, Irandan-Turandan, axırda gəldi çıxdı mətləb üstə ki, həkim mənə deyib qara tutu sıx, suyunu iç, pulum da yoxdur ki, gedim bazardan alım, elə bir balaca qazan versən, bəsimdi.

Üzbəüz səkidə, kölgəlikdə oturub rus dili müəllimi Alxas bəylə nərd oynayan zərgər Ələşrəf molla Fərzəliyə baxıb dedi:

– Həmişə belə yazıqlanır, amma axtarsan, görərsən ki, bir donuzu çatışmır...

– Zərgər Ələşrəf bunu dedi və Alxas bəyin tamam-kamal qanını qaraldan yağlı bir qoşa şeş atdı.

Əlbəttə, Molla Fərzəli də həmişəki kimi, bir qazan tutunu alıb getdi.

Həmin axşam Anaxanım yaxşıca bir plov bişirdi və arvad neçə stəkan düyü dəmləmişdisə, bütün həyətə çatdı, Əliabbas kişinin bir böyük həyət oğul-uşağına, nəvə-nəticəsinə. Məhəllədə ən çox toy bu həyətdə olmuşdu.

Aydın məsələ idi ki, bu həyət həmişə beləcə çox adamlı, beləcə gur olmamışdı. Əliabbas kişinin atası usta Həzrətqulu buranı alanda bu həyətdə ikiotaqlı, birmərtəbəli kiçik bina vardı. Bu həmin uzaq vaxtlardı ki, onda həyətdəki xartut hələ cavan bir ağac idi. Əliabbas kişi də balaca uşaq, bu tutun gövdəsi indiki budaqlarından nazik idi.

Əliabbas kişi Tubuxanımla evlənəndən sonra özünə iki otaq da tikdi – bu, inqilabdan qabağın söhbətidi və indi həmin iki otaqda Əliabbas kişinin nəvəsi Ağasəlim ailəsilə yaşayırdı, sonra uşaqlar böyüdü; uşaqlar böyüdü, həyət kiçildi, dörd otaq oldu altı otaq, sonra səkkiz otaq, sonra birmərtəbə bina ikimərtəbə oldu... Oğullar evləndi, nəvələr evləndi və həmin tut ağacı parçalanan həyətdə hamıya bir parça yer tapıldı.

Əliabbas kişi ilə Tubuxanımın iki oğlu, dörd qızı vardı. Doğrudan da, qəribədi dünyanın işləri: Ağamuxtar da, Fətulla da müharibədən sağ-salamat qayıtdılar, başları çox qəzavü-qədər, çox məşəqqət çəksə də, indi, şükür, salamatdı ikisi də və ikisi də çoxdan babaydı; amma qızların hamısı getdi, dördü də: Səlimnaz hələ müharibədən əvvəl getdi miningitdən, heç kim qalmadı Səlimnazdan, tək gəldi, tək getdi və bu da çox qəribəydi ki, axır vaxtlar dörd qızdan ən çox Səlimnaz gəlib dururdu Əliabbas kişinin gözlərinin qabağında; Fatma müharibə vaxtı getdi, heç kim də bilmədi ki, nədən getdi; düzdü, dedilər ki, Mürsəlin xiffəti partlatdı ürəyini – Mürsəl Fatmanın əriydi, cəbhədə idi və bir müddət ondan xəbər-ətər gəlmədi; indi də sağdı Mürsəl, kefi kök, damağı da çağdı, dördüncü arvadıyla yaşayır. (Bir dəfə Mürsəl Əliabbas kişini küçədə görüb qucaqlayıb ağlamışdı ki, Fatmadan sonra heç bir arvadla yaşaya bilmirəm, yaman bəd şeydi, Əliabbas dayı, məhəbbət! Əliabbas kişi də demişdi ki, vallah, əgər budusa məhəbbət, gərək səninçün bəd şey olmasın...) Fatmadan bir oğlu qalıb, atasına oxşamayıb, ana tərəfə çəkib, evi-eşiyi, üç də balası, Sumqayıtda yaşayırlar və ümumiyyətlə, qızların uşaqlarından bu həyətdə heç kim yoxdu. Ağamuxtarla, Fətullanınkılardı burda.

Səfurə ilə Kəmalə də müharibədən sonra getdilər. Nə isə... Dünyanın işləridi. Əliabbas kişinin Səfurə ilə Kəmalədən yeddi nəvəsi vardı və yeddisi də ev-eşik, oğul-uşaq sahibi idi, amma bir vardı ki, bu boyda külfətə baxmayaraq, əslində, lap əslində, Əliabbas kişi tək idi.

Məsələ burasında idi ki, Əliabbas kişi düz üç il bundan əvvəl Tubuxanımı torpağa basdırmışdı və xartutun yüz yaşı tamam olan həmin şənbə gününün gecəsi yerinə girib gözlərini yummuşdu, amma Tubuxanım gəlib durmuşdu gözlərinin qabağında, həm də sinəsi taxtaya dönmüş ağbirçək Tubuxanım yox, bu həyətə təzə gəlin gəlmiş Tubuxanım, könül üçün ağıllı, göz üçün gözəl olan Tubuxanım.

Qabaqlar zarafatla dediyi, amma indi zarafatdan əsər-əlamət qalmamış dörd misra gəlib Əliabbas kişinin ürəyindən axıb-keçdi:

Yatıram yanım ağrır,
Dururam canım ağrır.
Sən yadıma düşəndə,
Tamam əndamım ağrır.

Kişi başa düşdü ki, bu gecə də səhərə kimi gözünə yuxu getməyəcək, çoxdan, lap qədimlərdə olub-keçənlər yadına düşəcək və özü də təəccüb edəcək ki, beş yaşında, altı yaşında olduğu vaxtların əhvalatları necə yadında qalıb, amma iki gün bundan əvvəlin söhbəti yadından çıxıb gedir.

O, beş-altı yaşı olanda dağlar balası idi: meşələr yadına gəlirdi, sıldırım qayalar yadına gəlirdi, başı qarlı uca dağlar yadına gəlirdi, köpüklənə-köpüklənə axan dağ çayında kəndin uşaqları ilə bərabər çimməyi, palansız eşşəyə dırmaşıb çapmağı yadına gəlirdi və bir də çəpiş yadına gəlirdi; bu çəpiş onun çəpişi idi, hara getsəydi dalına düşürdü, əlindən yarpaq yeyirdi; çəpiş dedi, Cəbiş yadına düşdü; bir dostu vardı, qonşuları idi deyəsən, Cəbi idi adı. Durur görəsən? Sağ olar, o tərəfin adamları çox yaşayırlar, havasındandı, suyundandı.

Sən az yaşamısan bəs, a Əliabbas kişi?

Hamı yatmışdı: kişilərin yeri açma-yığma çarpayıda tutun altında salınmışdı və bu yüz yaşlı tut ağacının altı ay işığında yataqxanaya oxşayırdı; həyətin qadın-qızları məhəccər uzunu birinci mərtəbənin şüşəbəndində yatmışdı; yeniyetmə oğlanlar, uşaqlar isə damda yatırdılar və indi yeddinci yuxudaydılar. Sentyabrın ortalarına qədər beləcə olacaqdı, sonra yavaş-yavaş qız-gəlinlər evə keçəcəkdi, kişilər artırmaya, şüşəbəndə, sonra onlar da evə, hərə öz arvadının yanına və ən nəhayət də, uşaqlar günü-günə sata-sata axır ki, hərə öz evində yatacaqdı.

Bütün bunlar sonralar olacaqdı, yay qurtaranda, payız gələndə. Indi isə Əliabbas kişi tut ağacının altından gələn xorultuları açıq-aydın eşidə-eşidə bir daha fikirləşirdi ki, bu gecə yata bilməyəcək və ona görə yox ki, həyətdən cürbəcür səsli-nəfəsli xorultular gəlirdi, yox, yay vaxtı bu səslərə öyrəncəli idi və əslində həmin xorultular onun üçün, bir növ, gecə laylasıydı, bu mənada ki, özünü tək hiss etmirdi; ona görə ki... elə-belə, yuxusu qaçmışdı, vəssalam.

Əliabbas kişi yayda da qışdakı kimi evdə yatırdı, özü də yorğan-döşəkdə tuman-köynəklə üşüyürdü Əliabbas kişi bəzən lap yayın cırhacırında da üşüyürdü gecələr.

Əliabbas kişi birdən-birə fikirləşdi ki, o özü də elə həyətdəki o yüz yaşlı tut ağacı kimi bir şeydi; bunu fikirləşdi və ona elə gəldi ki, bədənindəki bütün damarlar tutun şaxələridir və indi payızdı, şaxələr də qupquru quruyub.

Onun uşaqları, nəvələri, gəlinləri, bir sözlə, bütün böyük külfəti xalis şəhər adamları idi, kənddən, dağların qoynundakı o kənddən xəbərləri yox idi; o kənddən ki, axır vaxtlar tez-tez Əliabbas kişinin yadına düşürdü və bəzən gecələr lap doğrudan-doğruya o dağlardakı kəklikotunun iyi burnuna gəlirdi, o dağların çəni-çiskini uzun-uzun illər məsafəsindən bir qəriblik gətirirdi.

Birindən soruşublar ki, haralısan, deyib hələ evlənməmişəm; Tubuxanım içərişəhərli qızı idi və əslində elə Əliabbas kişinin özü də şəhər adamı idi – danışmağı, fikri-zikrilə də; kənddən yalnız uzaq illərin dumanlı xatirələri qalmışdı, bir də uzun-uzadı illər məsafəsindən güclə süzülüb gələn bir qəriblik.

## II

Əliabbas kişinin atası kənddən köçüb Bakıda, Sabunçu neft mədənlərində fəhlə işləyirdi, sonralar buruq ustası oldu; indi o yerlərə «Leninneft» mədənləri deyirlər və Sabunçudan tutmuş Ramanayacan uzanır. Əliabbas kişinin uşaqlığının çox hissəsi, yeniyetməliyi o yerlərdə keçmişdi, amma o, neftçi olmamışdı, dülgər olmuşdu. O vaxtlar buruqlar taxtadan quraşdırılardı. Əliabbasın da mismar vurmağa, taxta yonmağa xüsusi həvəsi var idi və hələ lap uşaqlıqdan bu işdə səliqəsinə söz ola bilməzdi. Sonralar Əliabbas mədənlərdən tamam uzaqlaşdı və tanıyanlar, bilənlər arasında adlı-sanlı dülgər oldu.

Bütün bunlar hamısı çox-çox uzaqların söhbəti idi və bəzən gecələr, yerinə girib yuxuya getməzdən əvvəl belə bir uzaqlığın xofu kişini basırdı; özü də inanmırdı ki, bu dünyada bu qədər ömür sürüb, bu ölüm-itim dünyasında.

Əliabbas kişi bir neçə il bundan əvvəl axır ki, təqaüdə çıxmışdı və təqaüdə çıxan kimi də başa düşmüşdü ki, nə qollarında qüvvət var, nə də ayaqlarında taqət; usta burasını da yaxşı başa düşmüşdü ki, onun köhnə (amma iti) mişarı, rəndəsi, baltası indi artıq yer tutur, yəni bu mənada ki, oduna gedənin baltası iti olar, işləyər, gedə bilməyənin yox. Alət işlər, əl öyünər deyiblər, amma əl ki, daha aləti tuta bilmir, deməli qurtardı məsələ, vəssalam-şüttamam.

Usta bütün bunları yaxşı bilirdi, amma bu vəssalam-şüttamam məsələsi çox müşkül məsələ idi və adamın atasını yandırırdı. Iki gün bundan əvvəl Əliabbas kişi baltasını, mişarını, rəndəsini, çəkicini götürüb həyətlərinin küçə qapısı ağzında balaca bir skamya düzəltməyə başladı. Mismarlar əyri getdi, çəkiclə barmağını vurdu, axırda da balta ilə əlini zədələdi və pəncərələrindən boylanıb bekar-bekar küçəyə baxan Balacaxanım, qəssab Ağanəcəfin arvadı, bir haray-həşir qopardı ki, bütün məhəllə kişinin başına yığıldı:

– Vaxsey!.. Balta əlini apardı kişinin!..

Əlbəttə, balta kişinin əlini aparmamışdı, zədələmişdi bir balaca və Balacaxanımın bu haray-həşiri də əslində bekarçılıqdan idi.

Ağamuxtar dedi:

– Əşşi, əl çək bu işdən də, nəyinə lazımdı?! Gərək elə skamya düzəldəsən?!

Küçə qapıları üzbəüz bir-birinə baxan Alxas bəy dedi:

– Kişi, get otur, uzan, yat, istirahətini elə də!..

Benzin kalonkasında satıcı işləyən Meyranqulunun oğlu Əliqulu – şer yazan və məhəllənin tarixində qəzetdə, jurnalda imzası olan ilk adam – heyran-heyran dedi:

– Necə də əməksevər qocadır! Əsl şer qəhrəmanı, sənət qəhrəmanıdır! Bu rəşadət poetik təfəkkürün yox, həyatın bəhrəsidir!

Əliqulunun danışıqlarını məhəllədə çox adam əməlli-başlı başa düşmürdü və bu dəfə də bu sözlərə fikir verən olmadı.

Əliabbas kişi sağ əlində tutduğu tiyəsi qanlı baltaya baxdı və Balacaxanımın bir göz qırpımında küçəyə yığdığı adamların arasından həyətə girdi; ağzını açıb bircə kəlmə də söz demədi. Məsələ onda deyildi ki, kişini qeyrət boğurdu – bu öz yerində, məsələ bunda idi ki, belə bir naxələflik adamı yandırıb-yaxırdı. Usta onsuz da bilirdi ki, bu skamya onun dülgərlik aləmində axırıncı sözüdü (Əliabbas kişi hələlik belə fikirləşirdi və biz görəcəyik ki, belə fikirləşmək tez imiş...) və indi usta burasını da özü üçün lap yəqin etdi ki, bu balta ki, altmış-yetmiş ildən sonra onun əlini kəsir, çəkic də barmağını əzir, daha lap doğrudan-doğruya qurtardı mismar vurmaq, taxta rəndələmək.

Xartutun yüz yaşı tamam olan həmin günün səhəri Əliabbas kişi yerindən qalxıb adəti üzrə əvvəlcə həyətin aşağı başına dəydi, sonra həyət kranında səliqə-sahmanla yuyundu, böyük gəlini Anaxanımın sübh tezdən dəmlədiyi çaydan içib çörəyini yedi və qıfılın açarını götürüb vaxtilə həyətdə taxtadan düzəltdiyi, divarlarını suvaqlayıb, ağardıb, üstünə qırmızı kirəmit düzdüyü alətxanasının qapısını açdı.

Əliabbas kişi bir o qədər də ürəyi yuxa olanlardan deyildi və bu alətlərə nə özü bir xatirə kimi baxmaq istəyirdi, nə də istəyirdi ki, başqaları bunlara xatirə kimi baxsın.

Zərgər Ələşrəf deyirdi və çox da düz deyirdi ki, zər qədrini zərgər bilər; bu mişar da, bu rəndə, çəkic, qələm də o ustanın olmalı idi ki, iş görür – pəncərə salır, qapı düzəldir, ağac yonur, mismar vurur, həm də mismarı düz vurur, əlini də zədələmir və qəssab Ağanəcəfin arvadı Balacaxanım kimisi də bekarçılıqdan haray-həşir salmır.

Xartutun yüz yaşı tamam olduğu həmin yay gecəsi Əliabbas kişi bu qərara gəldi ki, alətlərin ən yaxşısını seçib aparıb satsın. Burada, əlbəttə, əsas məsələ pul məsələsi deyildi; əvvəla, Əliabbas kişigilin dolanacağı yaxşı idi, ikincisi, bütün alətlərin qiyməti bir o qədər də pul eləmirdi; əsas məsələ burasındaydı ki, bu alətlər yaxşı bir ustaya qismət olmalı idi, bu alətlər iş görməliydi, qalıb paslanmamalıydı. Əliabbas kişi alətləri bir-bir məhəllənin adamlarına bağışlaya da bilərdi, amma belə bir səxavətin mənası yox idi, çünki belə bir səxavət bu alətlərə rəva deyildi; çünki bu alətlər həmişə bəhrə vermişdi, gözəl-gözəl qapılar, pəncərələr, taxtlar, sandıqlar düzəltmişdi...

Kişinin yenə alətxananı açıb çəkic, mişar götürməyini pəncərədən birinci Məsmə gördü və elə başa düşdü ki, qayınatası küçə qapısı ağzındakı yarımçıq qalmış skamyanı təzədən düzəltmək istəyir, tez Fətullanı səslədi. Fətulla şüşəbənddə oturub çay içə-içə televizorun gündüz verilişlərinə baxırdı: axşamlar bütün həyətin qız-gəlini, arvadları yığışırdı Fətullagilin şüşəbəndində televizora baxmağa (təkcə futbola baxmırdılar) və kişilərin də küçəyə çıxıb səkidə nərd oynamaqdan və nərd oynayanlara tamaşa etməkdən başqa çarələri qalmırdı.

Fətulla həyətə çıxdı, sonra Ağamuxtar həyətə çıxdı, Əliabbas kişinin gəlinləri pəncərələrdən boylandı və hamı bu təzə xəbərdən tamam dilxor oldu.

Ağamuxtar dedi:

– A kişi, axı, dost var, düşmən var, başlayacaqsan çəkic satmağa?

Ağamuxtar bu sözləri dedi, amma atasını da yaxşı tanıyırdı və bilirdi ki, kişinin beyninə bir şey girdisə, onu ordan dartıb çıxarmaq çətin işdi.

– Yəni başlayacaqsan əməlli-başlı çəkic-mişar satmağa? – Bunu da Fətulla dedi.

– Nədi, bəyəm havayı bağışlayıblar bu çəkici, mişarı? – Bu söz-söhbət Əliabbas kişinin xoşuna gəlmədi və o, oğul-uşağın üstünə çımxırdı: – Gedin, gedin öz işinizlə-gücünüzlə məşğul olun, mənim başıma ağıl qoymayın! – Amma Əliabbas kişi burasını demədi ki, nə satmaqbazlıqdır, şair demişkən, «məqsədimiz nə mey, nə meyxanədir, didari-yarı görmək üçün bir bəhanədir»; bir yaxşı usta çıxsa qarşısına ki, bu alətlərə sərraf gözü ilə baxa bilir, qolunda gücü var, ayağında da taqət, pulsuz-zadsız halal edər ona bu çəkici də, mişarı da, rəndəni də və başqa nəyi varsa da hamısını.

Məsmə fikirləşdi ki, kişi qocalıb, başı xarab olub, aləmi güldürəcək bizə, sonra qayınatası haqqında belə hörmətsiz fikirləşdiyinə görə öz-özündən utandı və pəncərənin qabağından çəkildi.

Əliabbas kişi alətlərinin içindən bir yaxşı çəkic, bir yaxşı mişar, bir yaxşı rəndə və bir də bir qələm seçib torbaya yığdı, sonra heç kimin bir mətləb anlamadığı bir söz dedi:

– Baxın, baxın bu tuta, yüzündə necə parçalanıb... – əli ilə həyətin ortasındakı xartutu göstərdi və asta addımlarla küçəyə çıxdı.

Həyətdəkilərin hamısı dönüb xartuta baxdı və yenə də heç kim heç nə başa düşmədi.

Əslində heç Əliabbas kişinin özü də bilmədi ki, niyə bu xartutu göstərdi və bu xartutun onun çəkic-mişar satmağına nə dəxli var.

## III

Əliabbas kişigilin məhəlləsindən yeddi-səkkiz tin aşağıda təzə bağça salınmışdı və birinci gün usta hələlik dörd alət seçib bu bağçaya gələndə, skamyalardan birində əyləşib alətləri də yanına düzəndə, təsbehini çevirə-çevirə fikirləşdi ki, istirahət, doğrudan da, qiyamət şeydi. Adamlara baxdı, uşaqlara baxdı və əvvəlcə narahat oldu ki, uşaqlar indi yığılacaq başına, başlayacaqlar mişara, rəndəyə baxmağa, amma bir az keçdi, yanından ora-bura yüyürən, bir-biri ilə oynayan uşaqların heç biri ona tərəf məhəl qoymadı, heç ayaq saxlayıb bu alətlərə baxmadı da və Əliabbas kişi fikirləşdi ki, doğrudan da, dünya yaman dəyişib. Uşaqların hərəsinin əlində avtomat, tapança, rəngbərəng balaca vedrə, bel, yüz cürə oyuncaq var, kimdi bu mişara, çəkicə fikir verən. Kişi bunu fikirləşdi və ürəyi ağrıdı, bu çəkic-mişara yazığı gəldi, onların bu kimsəsizliyi, sahibinin gücsüzlüyü, acizliyi onu yandırıb-yaxdı.

Birinci gün Əliabbas kişinin rəndə-mişarına müştəri gəlmədi.

Ikinci gün usta yenə gəlib bağçadakı skamyalardan birində əyləşdi və yenə də alətləri yanına düzdü. Yenə adamlara, uşaqlara baxdı və yenə də birdən-birə Cəbi yadına düşdü, öz uşaqlığını gördü, o dağların ətrini duydu, o dağların döşündəki gül-çiçəyin rəngi gözlərinin qabağına gəldi, o dağların çəni-çiskini üçün darıxdı, fikirləşdi ki, bir də heç vaxt o dağlarda olmayacaq, bir də heç vaxt o dağ çayı boyunca addımlamayacaq, o saf havadan sinədolusu nəfəs almayacaq. Usta fikirləşdi ki, nə tez gəlib keçdi bu illər və belə bir fikri gözləyirmiş kimi, gözlərinin qabağından saysız-hesabsız adamlar gəlib ötdü; çoxunun heç adını da bilmirdi, harda gördüyünü yadına salmırdı, amma sifətlər bir-bir gəlib keçirdi – uzun-uzadı illər boyu gördüyü, rastlaşdığı və bəlkə də hamısının indi yer üzündə olmadığı adamların sifəti.

Ikinci gün də Əliabbas kişinin çəkic, mişarına müştəri tapılmadı.

Üçüncü gün hava bir balaca tutuldu, xəzri əsməyə başladı. Əliabbas kişi bir müddət həyətdə vurnuxub tez-tez göyə baxdı və oğul-uşaqda da bir ümid yarandı ki, bəlkə kişi daşı tökdü ətəyindən (elə bil usta özü də ürəyində yağış yağmasını istəyirdi), amma yavaş-yavaş göy açıldı və Əliabbas kişi də torbasını qoltuğuna vurub bağçaya getdi, skamyalardan birində oturub alətləri yanına düzdü. Üzbəüz skamyada cavan bir gəlin əyləşmişdi, bir əlində kitab tutmuşdu, o biri əli ilə çağa yatmış kalyaskanı asta-asta yelləyirdi. Gözlərini kitabdan ayırıb Əliabbas kişiyə baxdı və salam verdi. Əliabbas kişi gəlinin salamını aldı və yadına saldı ki, dünən də, srağagün də bu gəlin bağçada idi. Gəlin gülümsədi və Əliabbas kişiyə elə gəldi ki, bir balaca başını buladı, yəni ki, bu nə müştəri axtarmaq dəsgahıdı, kişi? Əlbəttə, ustanın öz halal puluna aldığı mişar-rəndəni satmasının heç kimə dəxli yox idi, amma hər halda bu gəlinin bu cür gülümsəyib başını bulaması adamı bir balaca naqolay vəziyyətə salırdı. Bir az keçdi və göyün üzü yenə tutuldu. Bağçadakıların çoxu – uşaqlı analar, qoca arvadlar yavaş-yavaş durub getdi və bu zaman iyirmi beş-iyirmi altı yaşlarında bir oğlan Əliabbas kişiyə yaxınlaşıb alətlərə baxdı, salamsız-kalamsız soruşdu:

– Neçiyədi, kişi, bu zubul?

Əliabbas kişi istər-istəməz ilk növbədə bu oğlanın əllərinə baxdı və oğlan da həmin baxışların mənasını başa düşdü; onun belə bir inamsızlıqdan xoşu gəlmədi:

– Nədi, kişi, əlimə baxırsan görəsən ustayam, ya yox? Ustayam, özü də lap yaxşısından, lap kefin istəyəndən, əlimdə də, bax, görürsən, bir dənə döyənək də yoxdu. Əlcəklə işləyirəm mən, elektriklə işləyirəm. Sənin bu zubulun da heç kimə lazım deyil indi, dükanlar doludu elektrik dreli ilə, on üç manat əlli qəpiyə biri...

Əliabbas kişi bu şəstli oğlana:

– Get, bala, get, – dedi. Get al elektrik dreli. Səni qısnayan var ki, gəl bu zubulu al?

Oğlan bir söz demədi, əlini o tərəf-bu tərəfə yellədi və çıxıb getdi.

Bu oğlan bəlkə də usta idi və bəlkə, doğrudan da, kefin istəyən usta idi, amma onun ürəyi usta ürəyi deyildi.

Üçüncü gün həmin oğlan Əliabbas kişinin çəkic-mişarı ilə maraqlanan yeganə adam oldu.

Dördüncü gün Əliabbas kişi həyətə çıxıb alətxananı açdı, torbasını götürdü və hərəsi öz pəncərəsindən həyətə baxan Anaxanımla Məsmə bu dəfə mənalı-mənalı bir-birinə baxdı, yəni ki, ağbirçək vaxtımızda görəcək günlərimiz varmış. (Tramvaysürən Ağamehdinin anası və məhəllənin ən birinci qiybətçisi tın-tın Firuzə şayiə yaymışdı ki, usta Əliabbasın oğulları, gəlinləri ona yaxşı baxmırlar, kişi də naəlac qalıb öz çəkicini, kəlbətinini satır; düzdür, bu söhbəti eşidən məhəllə arvadları tın-tın Firuzənin ağzından vurmuşdu, amma hər halda yaxşı söz-söhbət deyildi bu.)

Əlbəttə, Anaxanım da, Məsmə də həmin günün macərasını bilsəydilər, indi bir-birlərinə bu cür mənalı-mənalı baxmazdılar və dilxor da olmazdılar.

Əliabbas kişi həyət qapısından çıxıb təzə bağçaya getmək əvəzinə, torbanı qapının ağzındakı yarımçıq skamyanın üstünə qoydu, qollarını çırmalayıb skamyanı düzəltməyə başladı və ən qəribəsi də bu oldu ki, mismarlar düz getdi, balta da öz işini neçə-neçə illər bundan əvvəlki kimi, səliqəli gördü, çəkic də, rəndə də, kəlbətin də Əliabbas kişinin qupquru quruyub qaxaca dönmüş əli nə istədisə, onu elədi. Bir saat-saat yarımdan sonra skamya hazır oldu və Anaxanıma da, Məsməyə də elə gəldi ki, qayınataları yenə iyirmi-otuz il bundan qabaqkı usta Əliabbasdı.

Səhəri gün Əliabbas kişi evin qapı-pəncərəsinə əl gəzdirməyə başladı, sonra həyətin şüşəbəndini səliqəyə saldı, sonra qonşulara baş çəkdi, sürahilər təzələndi, pəncərə çərçivələri sahmanlandı, həyətlərin ikinci mərtəbəyə qalxan taxta pilləkənləri qaydaya düşdü və yavaş-yavaş yay keçib getdi, payız başladı, gecə yatanda kişilər arvadlarının yanına keçdi, Cavanlar damdan evə köçdü, yüz yaşlı xartutun meyvəsi çoxdan yeyilib qurtardı, yarpaqları saralmağa başladı, Əliabbas kişinin isə yenə qolları güclü, hərəkətləri cəld, sərrast idi. Elə bil şeytan ustanı çaşdırıb yoldan eləmək istəyirmiş ki, işi-gücü burax, gəl otur, ölümünü gözlə. Bütün məhəllə və o cümlədən də Əliabbas kişinin oğul-uşağı ustanın birdən-birə beləcə cavanlaşmasına məəttəl qalmışdı, hətta Əliqulu bu işdən o qədər vəcdə gəlmişdi ki, kişinin şəninə poema yazmağa başlamışdı və bir gün məhəlləyə xəbər yayıldı ki, qəzetdə Əliqulunun poemasından bir parça çap olunub. Əliqulu şeri qırıq-qırıq misralarla yazırdı və məhəllədə bu şerlərə barmaqarası baxırdılar, amma camaat ki, qəzetdə Əliqulunun imzasını, bir neçə misrada Əliabbas kişinin adını gördü, bu cavan şairin hörməti məhəllədə birə-on artdı, Anaxanım da, Məsmə də Əliqulunun şerini qəzetdən kəsib uşaqların, qohum-əqrəbanın şəkillərini yığdıqları alboma qoydular; Əliabbas kişinin özü isə qəzetə baxdı və təkcə başını buladı.

Qəssab Ağanəcəfin arvadı Balacaxanım küçə qapıları ağzında dayanıb tum çırtlaya-çırtlaya başına toplaşmış cavan məhəllə qızlarına göz vurub deyirdi:

– Kişi yaman dirilib!.. Bir də gördün sabah özünə cavan bir arvad alıb!.. Hər səhər də yorğan-döşəkdən qalxanda arvadın gözlərinin altı qapqara...

Balacaxanım bu sözləri deyirdi və bərkdən şaqqanaq çəkib gülürdü.

Əliabbas kişi gecələr daha o dörd misranı bir o qədər də tez-tez yadına salmırdı:

Yatıram yanım ağrır,
Dururam canım ağrır.
Sən yadıma düşəndə,
Tamam əndamım ağrır.

Əlbəttə, ona görə yox ki, Tubuxanım daha gec-gec yadına düşürdü; ona görə ki, əli-ayağı ağrıyanda yenə də əvvəllərdəki kimi işin çoxluğundan ağrıyırdı, qocalıqdan yox.

Hamı bu fikirdə idi ki, Əliabbas kişi də, həyətlərindəki xartut kimi, yüzü ötəcək.

Balacaxanım hərdən gəlib Əliabbas kişigilin küçələrinin ağzındakı skamyada otururdu. Məhəllənin qızları iş-gücdən on dəqiqə də olsa vaxt tapıb onun başına yığışırdı və Balacaxanım ləzzətli söhbətlər edə-edə, bərkdən şaqqanaq çəkib gülə-gülə o qədər tum çırtlayırdı ki, bütün səki tum qabığı ilə dolurdu. Bir dəfə də tərs-tərs bir ona, bir də səkinin üstündəki tum qabıqlarına baxan Əliabbas kişiyə dedi:

– Süpürəcəyəm, ay Əliabbas dayı, süpürəcəyəm hamısını. Neyniyim, bizim qapının ağzında bir skamya düzəltmirsən də mənimçün...

Balacaxanım beləcə gileyləndi, gülümsədi və qızıl dişləri gün işığında parıldadı. Balacaxanım ağzındakı sapsağ dişlərinin hamısını qızıl karonkaya saldırmışdı və tın-tın Firuzə də bu qızıl dişlərin paxıllığından yanıb-yaxılırdı.

Əlbəttə, Balacaxanım söz idi deyirdi və heç vəchlə gözləmirdi ki, Əliabbas kişi deyəcək:

– Neynək, sizin də qapının ağzında səninçün bir skamya düzəldərəm...

Balacaxanım elə bil ömründə bu cür sidq-ürəkdən sevinməmişdi:

– Doğrudan? Çox sağ ol, ay Əliabbas dayı! Amma eləsini düzəlt ki, heç bir məhəllədə belə skamya olmasın! Balaca bir talvarı da olsun, Əliabbas dayı, yayda gün düşməsin üstümüzə...

Yay vaxtları səhərdən qəssab Ağanəcəf axşam işdən qayıdanacan Balacaxanım küçə qapısı ağzında dayanıb o qızla, bu gəlinlə söhbət edirdi, laqqırtı vururdu və hamı təəccüb edirdi ki, hərəsi bir-birindən bir yaş böyük beş uşağın xörəyini kim və necə bişirir. Tın-tın Firuzə belə deyirdi ki, guya qəssab Ağanəcəf yazıq, gündüzlər kolxoz bazarında ət satır, axşamlar da qonşular görməsin deyə gizli-gizli sabahın xörəyini bişirir; bu barədə bir söz deyə bilmərik, amma bir həqiqət vardı ki, hamı qəssab Ağanəcəfdən çəkinirdi, qəssab Ağanəcəf isə Balacaxanımdan qorxurdu.

Əliabbas kişi:

– Neynək, – dedi, – talvar da düzəldərəm. – Əlbəttə, məsələ onda deyildi ki, Balacaxanım həmin talvarlı skamyada oturub laqqırtı vuracaqdı, məsələ onda idi ki, Əliabbas kişinin əllərinin bir bəhrəsi də artacaqdı. – Taxta lazımdı bir az...

Balacaxanım:

– A-a-a... – dedi. – Nə var ona?.. Ağanəcəfə deyərəm, lap bir vaqon taxta tökdürər bura...

Əliabbas kişi səhəri gündən işə başladı, qəssab Ağanəcəfgilin küçə qapısı ağzında skamya düzəltdi, balaca bir talvar üçün taxta dirəklər hazırladı və onun cəmi bircə günlük işi talvarı düzəltmək qalmışdı ki, Balacaxanım tın-tın Firuzə kimilərin acığına, elə bil toya gedirdi, geyinib-kecinib otursun bu talvarlı qiyamət skamyada.

Bütün məhəllə bu fikirdə idi ki, bu skamya Əliabbas kişinin sonradan-sonrakı ustalığının şah əsəridi.

Həmin oktyabr səhəri Bakıya elə bil təzədən yay qayıtmışdı və yüz yaşlı xartutun həyətə səpələnmiş xəzəli ilə belə bir isti heç uyuşmurdu. Çayniki qazın üstünə qoyub səhər-səhər tabaqçada qənd doğrayan Anaxanım şüşəbənddən həyətə baxırdı. Arvadın gözü qayınatasının alətxanasına sataşdı, sonra kişinin yatdığı evin qapısına tərəf boylandı və necə oldusa, birdən-birə Anaxanımın ürəyini bir nigarançılıq bürüdü.

Əliabbas kişi həmişə bu vaxtlar həyət-bacada dolaşardı.

Bir müddət keçdi, kişilər oyandı, uşaqlar tələm-tələsik çay-çörəklərini yeməyə başladılar ki, məktəbə gecikməsinlər.

Əliabbas kişi həyətə çıxmadı.

Anaxanım çəkinə-çəkinə qayınatasını işə getməyə hazırlaşan Ağamuxtardan xəbər aldı. Ağamuxtar arvadının gözlərinin içinə baxdı, bir söz demədi və həyətə düşüb atasının yatdığı otağa girdi.

Əliabbas kişi gecə yuxuda ikən keçinmişdi.

Həmin gün bütün məhəllə gecə yarısına kimi Əliabbas kişigilin həyətinə gəlib-getdi, yüz yaşlı xartutun altında düzülmüş stullarda, kətillərdə oturub bir stəkan çay içdi, Ağamuxtarla Fətullaya başsağlığı verdi.

Çoxadamlı o həyət elə bil, kişinin getməyilə yetimləşmişdi.

O isti payız günü yüz yaşlı tut ağacı da tək-tənha idi.

Səhər isə məhəllə görünməmiş bir hadisənin şahidi oldu: Balacaxanımın küçə qapısı ağzındakı skamyanın üstündə çox yaraşıqlı bir talvar var idi.

Bütün məhəllə, qəssab Ağanəcəf də, ağlamaqdan gözləri qızarmış Balacaxanım da, Əliabbas kişinin oğul-uşağı da bu işə heyrət etdilər.

Məhəllənin lap balaca uşaqları arasında belə bir inam vardı və ümumiyyətlə, məhəllədə belə bir şayiə gəzirdi ki, Əliabbas kişinin çəkic-mişarı, rəndə-kəlbətini gecə öz-özünə gəlib ustanın yarımçıq qalmış işini qurtarıbdır.

*Sentyabr, 1976.*

## ŞUŞAYA DUMAN GƏLIB

*Şuşaya duman gəlib,*
*Ürəyimə güman gəlib.*
*Hər dərdimi-sərimi*
*Sinəmdən qovan gəlib.*

***(Yerli şair Hüsaməddin Alovlunun***
***«Can dəftəri»ndən dörd misra)***

### I

Doppa Dadaş əlindəki kamanı sağa-sola apara-apara kamançanın tellərini dindirdikcə kamançanın bu ab-havanın təmizliyindən, paklığından, bulaqların saflığından, gülün gülü, çiçəyin çiçəyi çağırmasından, dostluqdan, vəfadan, ilqardan dəm vuran səsi Şuşa sanatoriyasının bütün həyət-bacasına yayılırdı və Doppa Dadaşın zürafə boynu kimi uzun boynunun üstündəki yekə başı da əlindəki kamanın hərəkətinə həmahəng gah sağa gedirdi, gah sola gedirdi və bu dəm heç kamançanın səsini eşitməyən də olsaydı, Doppa Dadaşın uzun kirpikli iri, qara gözlərindən bilərdi ki, duyardı ki, söhbət nədən gedir.

Həmin avqust axşamı Şuşa sanatoriyasının həyətinə yayılmış kamança səsi Hüsaməddin Alovlunun da ürəyinin incə tellərini dindirirdi və çiyninə güllü ağ yun şal salıb əlləri qoynunda dayanmış, göy gözləri yol çəkən Marusya Nikiforovaya baxa-baxa Hüsaməddin Alovlunun ürəyindən bütün ömründə birinci dəfə rus dilində şer misraları axıb keçdi və həmin bir bənd şer belə yarandı.

Doppa Dadaşın kamançası sözünü deyib qurtarandan sonra, Hüsaməddin Alovlu sanatoriyada istirahət edənlərlə mədəni-mədəni iş aparan «massovik» Sadıq müəllimdən söz alıb meydanın ortasına çıxdı və gözlərini Marusya Nikiforovadan çəkməyərək yeni yaranmış həmin şerini oxudu:

Ya tebya lyublyu,
Oçen xoroşo!
Za tebya ya umru,
Oçen xoroşo!

Amma Marusyanın fikri bu saat burada yox, Tambovdakı kolxoz bazarında idi: bu il həyətyanı sahələrinin məhsulunu kiçik bacısı Vasilisa Tambov kolxoz bazarına aparmışdı. Marusya isə Tambov vilayətindən Şuşa sanatoriyasına istirahətə gəlmişdi: Vasilisa ömründə birinci dəfə idi bazara gedirdi və buna görə də Marusya hərdən nigarançılıq keçirirdi ki, birdən Vasilisanı aldadıb-edərlər, evə əliboş qayıdar. Marusya özü də ömründə birinci dəfə idi belə uzaq səfərə çıxırdı, sanatoriyada istirahət edirdi.

Əlbəttə, Ağdamda maliyyə məktəbini bitirib, indi Şuşanın Xəlfəli kolxozunda hesabdar işləyən və bu avqust ayında sanatoriyada dincələ-dincələ Marusyanın eşqindən yerə-göyə sığmayan Hüsaməddin Alovlunun Tambov vilayətindən gəlmiş bu təmiz-tariq, sağlam, səliqəli, pambıq kimi ağappaq qızın ürəyindəki nigarançılıqdan xəbəri yox idi və yaradıcılığa başladığı vaxtdan indiyə kimi ilk dəfə rus dilində yazdığı şeri özü öz sənətindən həzz ala-ala oxuyurdu:

Ya tebya lyublyu,

Oçen xoroşo!
Za tebya ya umru,
Oçen xoroşo!

– Başı batmışın başqa bir sözü yoxdu elə bil... Oçen xoroşo, oçen xoroşo!... – Bu sözləri sanatoriya binasının eyvanında oturub həyətdəki meydana toplaşmış camaata tamaşa eləyən Güləndam nənə dedi və sonra çeşməyinin altından gülümsəyib yanında dayanmış Cavanşirdən soruşdu:

– Sən niyə gedib dans eləmirsən, balası?

Hüsaməddin Alovlu, nəhayət ki, meydanın ortasından çəkiləndən sonra, Gülməmmədin akkordeonu öz məşhur tanqosunu çaldı və meydanı dövrəyə almış adamlar yavaş-yavaş rəqsə başlayıb meydanın ortasına çıxdılar; sanatoriyada istirahət edən qızlar bir-biri ilə, hər axşam sanatoriyanın həyətinə gəzməyə gələn yerli oğlanlar da öz növbəsində bir-biri ilə rəqs edirdi və belə bir məqamda Hüsaməddin Alovlu bir çox həsəd dolu nəzərlər altında Marusyaya yaxınlaşıb baş əydi, qızı rəqsə dəvət etdi və Marusya da boyca ondan bir balaca kiçik bu qarabuğdayı, qara bığlı oğlanın dəvətini sidq-ürəkdən qəbul etdi.

– Qəmediyədi! – dedi Güləndam nənə. – Qəmediyədi! – Sonra gülə-gülə başını buladı, sonra da yenə Cavanşirdən soruşdu: – Niyə gedib dans eləmirsən, balası, a kişi qırığı?.. Hı?..

Cavanşir başa düşdü ki, nənəsinin yenə kefi qalxıb, sataşır ona; ayrı vaxt nənəsinin belə atmacalarına atmacayla cavab verirdi, amma bu dəfə, Şuşa sanatoriyasındakı həmin avqust axşamı birdən-birə gədənin arvada acığı tutdu:

– Lağviyyat olma! – dedi. – Bəsdi... – Sonra Cavanşir otağa girib elə çəkməli, şalvarlı da çarpayıda uzandı və əllərini başının altında çarpazladı.

Həmişəki kimi, həmişə qurduğu cürbəcür planlar kimi, Cavanşirin bu yay üçün də tutduğu plan pozulub getdi işinin dalınca, Cavanşirə qalsaydı, gərək indi Moskvada olaydı, Aqşinlə, Orxanla birlikdə indi gəzəydilər gərək Moskvanı: düzdü, Aqşini də evlərində buraxmadılar tək getməyə, amma Orxan getdi və Orxan indi Fazil adlı bir yoldaşıyla Moskvadadı, gəzir özüyçün, daha nənə-bala Şuşa sanatoriyasında oturub qatıq içmir.

Keçən yay, universitetin birinci kursundan ikinci kursa keçəndə, tətil vaxtı, evdən onu qoymadılar bir yerə tək getməyə, dedilər hələ tezdi, dedilər gələn il gedərsən, nə isə, gəldi çıxdı bu yay, üçüncü kursa keçdi universitetdə, amma elə yay qabağı, hələ yay sessiya imtahanlarını verdiyi vaxt Moskvaya tək getməyindən söz düşəndə atası da, anası da həsdəməyə başladı, sonra anası ağladı, atası acıqlandı, əlqərəz, onu yenə tək getməyə qoymadılar və indi burada, Şuşa sanatoriyasında, çarpayıda uzanıb bütün bunları yadına salan Cavanşirin sifəti birdən-birə od tutub yandı, ağlamağı yadına düşdü; həmin iyul günü, axşam, bu tək gedib-getməmək söhbəti zamanı anası da, atası da ayaqlarını bir başmağa dirəyib «yox» deyəndə Cavanşiri ağlamaq tutdu və bu boyda oğlan özünü saxlaya bilməyib içini çəkdi, gözlərindən yaş axıtdı, ağlaya-ağlaya da: « – Nə vaxtacan uşaq olacağam sizinçün? Bilin bunu, – ağlaya-ağlaya qışqırdı. – Bilin bunu, uşaq deyiləm day mən!..»

Əlbəttə, çox pis əhvalat idi bu. Adam yadına salanda indinin özündə də xəcalətindən bilmir neyləsin.

Bu əhvalatdan sonra bir müddət nə Cavanşir utandığından atasının, anasının üzünə baxa bildi, nə də onlar utandıqlarından Cavanşirin üzünə baxdı, sonra atası belə bir təklif irəli sürdü ki, Cavanşir tək Şuşaya getsin, Şuşa sanatoriyasına işlərində putyovka var idi və Cavanşir də əvvəlcə dedi ki, heç hara getməyəcək və bütün yayı qalacaq Buzovnadakı bağlarında, amma bir-iki gün də keçəndən sonra razı oldu, yır-yığış elədi və bundan sonra atasıyla anası xahiş eləməyə başladılar ki, nənəni də özünlə apar, qoy gedib Şuşada istirahət eləsin, qoca arvaddı, sən daha maşallah yekə kişisən, apar onu özünlə Şuşaya: «Apar məni özünlə, Cavanşir, qadan alım, apar məni Şuşaya, görüm oraları, on ildi olmuram oralarda, kim bilir, bir də görəcəyəm Şuşanı, qismət olacaq, yoxsa yox...» – deyirdi Güləndam nənə, amma Cavanşir də çox yaxşı başa düşürdü ki, əslində o, nənəsini aparmır, nənəsi onu aparır; nənəsini xüsusi qoşurlar ki, əmin-amanlıq olsun, qorxurlar, ehtiyat eləyirlər onu tək buraxmağa, «dünyadan xəbəri yoxdu, hələ» deyirlər, daha bilmirlər ki, dünyanın cikinə də bələddi, bikinə də və dünyanın cikinə-bikinə bələd olmaqdan ötrü mütləq yüz əlli il yaşamaq lazım deyil... Gedib həyasızın birini, şeytana papış tikənlərdən birini alıb gətirib qoyasan evə, deyəsən ki, mən uşağam, neynək, amma mənim bu arvadcığazımı yola verin.

Üç gündən sonra Cavanşirin on doqquz yaşı tamam olurdu.

Bu vaxt, Cavanşirin evdəkilərdən belə bir xəyali intiqam aldığı zaman otağın qapısı döyüldü, sonra Dürdanə içəri girdi və Dürdanə əllərini başının altında çarpazlayıb çarpayıda uzanan Cavanşiri görəndə əvvəlcə elə bil özünü itirdi, sonra dili bir balaca topuq vura-vura dedi:

– Nənəm xahiş elədi mənnən ki, iynə-sap götürüm sizdən...

Dürdanə də Şuşa sanatoriyasına nənəsi ilə birlikdə gəlmişdi və indi, əlbəttə, Dürdanə, burasını demədi ki, özü hansı koftasının düyməsinisə bəhanə eləyib, bilə-bilə ki, nənəsində yoxdu, iynə-sap istədi və sonra da nənəsinə dedi ki, yəqin Güləndam nənədə var, qoy gedim ondan alım gətirim.

Dürdanənin on səkkiz yaşı təzə tamam olmuşdu.

Cavanşir qalxıb çarpayıda oturdu və eyvandan nənəsini səslədi:

– Nənə!

Hüsaməddin Alovlu yenə də özünü saxlaya bilməyib meydanın ortasına çıxmışdı və yenə də yaradıcılığa başladığı vaxtdan indiyə kimi birinci dəfə rus dilində yazdığı şeri oxuyurdu:

Ya tebya lyublyu,
Oçen xoroşo!
Za tebya ya umru,
Oçen xoroşo!

Güləndam nənə:

– Vallah, bu gədənin başı xarab olub, – dedi. – Oçen xoroşo, oçen xoroşo... – Sonra eyvandan otağa boylandı və tez qalxıb içəri girdi. – Ay, xoş gəlmisən, qızım, axşamın xeyir, keç əyləş.

Dürdanə:

– Yox, çox sağ olun, – dedi. – Nənəm iynə-sap istəyirdi...

– Hə? Bu saat... – Sonra Güləndam nənə birdən-birə soruşdu: – Cavanşir, balası, iynə-sap götürməmisən sən?

O saat da Cavanşirin qulaqları qıpqırmızı qızardı:

– Iynə-sap götürənəm mən?

Dürdanə:

– Yoxdursa, eybi yoxdur... – dedi və Dürdanə də qızardı.

Güləndam nənə:

– Bu saat... bu saat... – dedi və gedib Nuh-Nəbidən qalma əl sumkasını açıb iynə-sap çıxartdı, Dürdanəyə uzadıb: – Al, qadan alım, al, bizim bu Cavanşir yaman acıqlıdı,– dedi.

Cavanşir yenə nənəsinə «Əzginiş olma, ay arvad» demək istədi, amma Dürdanənin yanında demədi və bir də ona görə demədi ki, Dürdanə Güləndam nənənin sözlərini çox ciddi qəbul elədi, elə bil bu saat Cavanşir durub ona nəsə bir acıqlı söz deyəcəkdi; Dürdanə Cavanşirə ürkək bir nəzər salıb tez-tələsik:

– Bağışlayın, – dedi və otaqdan çıxdı.

– Boy!.. Qız heç demədi ki, qara sap lazımdı, yoxsa ağ sap... – Sonra Güləndam nənə üzünü Cavanşirə tutdu: – Nədi, a kişi qırığı, nə mısmırığını sallamısan? Cəmi-aləm həyətdə çalıb-oynayır, nədi girmisən bu otağa, çıxmırsan eşiyə?..

Cavanşir nənəsinə baxdı, çox mənalı baxdı:

– Sənnən nə danışım e? – dedi və çarpayıdan qalxıb otaqdan çıxdı.

Üç gün idi gəlmişdilər Şuşa sanatoriyasına və düz üç gün idi ki, Cavanşir öz taleyinin uğursuzluğu barədə fikirləşirdi, həyatın cansıxıcılığı və yeknəsəqliyi barədə fikirləşirdi, heç kimin onu başa düşmədiyini və başa düşə bilməyəcəyini, cavan yaşında ikən qocaldığını fikirləşirdi; hamı onu sütül cavan bilirdi, evdə isə onu lap uşaq hesab edirdilər, amma daha demirdilər ki, bu uşaq dünyanın hər üzünə bələddi; düzdü, Cavanşir dünyanın cürbəcür üzünü özü üçün tam dəqiqləşdirmirdi, yəni bu üzlər nədən ibarətdi, amma hər halda Cavanşirə belə gəlirdi və Cavanşir bütün bunlar barədə fikirləşəndə, özü də hiss etmədən yavaş-yavaş xəyal aləminə gedirdi, gah həyatdan, yaşayışdan sidqi sıyrılmış bir əyyaş görürdü özünü, daha doğrusu, camaat, ətrafdakılar onu əyyaş hesab edirdi və camaat bilmirdi ki, bu əyyaş dünyanı dərk eləmiş adamdı; gah hər gün gözəl, təmiz, zövqlə geyinib adamlar arasında tək-tənha gəzən, dinib-danışmayan bir yaraşıqlı kişi görürdü özünü və camaat, o cümlədən qız-qadınlar böyük bir maraqla, həsədlə bu sirli və tənha kişinin hər addımını izləyirdi, dalınca pıçapıç edirdi və hamı çalışırdı ki, onun sirrinə bələd olsun, ürəyindəkiləri bilsin, amma bu heç vaxt mümkün deyildi və mümkün olmayacaqdı da, çünki həmin tənha kişinin ürəyində heç kimə yer yox idi, çünki heç kim onu başa düşə bilməzdi...

Doppa Dadaşın kamançası yenə qan eləyirdi və bu dəfə məhəbbətin sirlərindən danışırdı, vüsaldan və həsrətdən söz açırdı, aşiq ilə məşuqun intizar və iztirab dolu məhəbbət aləmindən, sevginin təmizliyindən, kövrəkliyindən dəm vururdu və yenə də kaman Doppa Dadaşın usta barmaqlarında sağa-sola gedib-gəldikcə doppa Dadaşın başı da kamanla həmahəng sağa-sola gedib-gəlirdi, kamançanın söylədiklərini təsdiq edirdi, uzun kirpikli, iri qara gözləri yenə də elə bil ki, bütün bu söylənənlərin hamısını görürdü, vüsala sevinirdi, hicrana kədərlənirdi.

Hamı meydançada dövrə vurub Doppa Dadaşın kamançasına qulaq asırdı və bu kamança sədası altında Marusya Nikiforova da Hüsaməddin Alovluya tamam yeni nəzərlərlə baxırdı, hələ mənasını özü də başa düşmədiyi yeni hisslər keçirirdi və düzdü, Marusya Nikiforova bu yeni hisslərin mənasını hələ yaxşı başa düşmürdü, amma bu hisslər Şuşanın bu ab-havası ilə, Şuşanın bu dağları, bu kol-kosları, bu ağacları ilə bir-birinə çox uyuşurdu; Marusya Nikiforovanın Hüsaməddin Alovluya baxan göy gözlərində artıq bir məhəbbət nişanəsi var idi və Doppa Dadaşın kamançası söz söylədikcə bu məhəbbət nişanəsi də elə bil ki, yavaş-yavaş böyüyür, artırdı, açıq-aşkarlaşırdı.

Cavanşir ikimərtəbəli sanatoriya binasının həyət qapısı ağzında dayandı və Güləndam nənə də ikinci mərtəbədəki eyvandan Cavanşirə him elədi ki, yeri get meydana; Güləndam nənənin Cavanşirə sataşmağa, Cavanşiri dolamağa xüsusi azarı vardı və Cavanşir də, qəribə idi ki, hərdən nənəsinin, heç kimin yox, atasının yox, anasının yox, yaşlı dayılarının, əmilərinin yanında yox, Güləndam nənənin yanında özünü hərdən, doğrudan da, uşaq hiss edirdi, özünü aciz, köməksiz bilirdi, elə bil bəzən nənəsi çeşməyinin altından bic-bic gülümsəyən gözləriylə Cavanşirə deyirdi ki, a kişi qırığı, özünü yekə kişiliyə vurma, sənin hələ yekə kişi olmağına çox qalıb və dünyadan da xəbərin yoxdu sənin; amma bu, hərdənbir olurdu.

Dürdanə də ikinci mərtəbədəki öz eyvanlarında idi və oradan oğrun-oğrun Cavanşirə baxırdı və Cavanşir də bilirdi ki, Dürdanə elə ona baxmaqdan ötrü, onu görməkdən ötrü tez-tez eyvana çıxır, amma Cavanşir özünü görməməzliyə vururdu, özünü bilməməzliyə vururdu, heç bu qıza salam da vermirdi, çünki bu qız Cavanşirin tayı deyildi, bu qız uşaq idi, həyatın ağrılarını dadmamışdı, Cavanşirin fikirləri, Cavanşirin hissləri bu qız üçün işığı güclə gəlib yer kürəsinə çatmış bir qalaktika idi.

Dürdanə də universitetdə oxuyurdu, Cavanşirlə bir fakültədə, filoloji fakültədə, Cavanşirdən bir kurs aşağıda – indi ikinci kursa keçmişdi və keçən sentyabr, dərslər təzə başlayanda bu qız universitetin dəhlizində birdən-birə Cavanşirə yaxınlaşdı:

– Sizin adınız Cavanşirdi? – soruşdu.

Cavanşir:

– Hə, Cavanşirdi, – dedi və təəccüb etdi ürəyində ki, bu ortaboylu, qarasaçlı, qaragöz qız onu hardan tanıyır, amma heç nə soruşmadı, sonra, bir neçə gündən sonra Cavanşir handan-hana yadına saldı ki, iki il əvvəl yayda ata-anası ilə birlikdə Kislovodskda istirahət edəndə bu qız da öz ata-anası ilə Kislovodskda idi. Bir küçədə qalırdılar və Cavanşir heyrət elədi ki, o balaca qız necə böyüyüb, necə gözəlləşib və necə yaraşıqlı olub.

Universitet dəhlizindəki həmin sual-cavab Cavanşirlə Dürdanənin birinci və axırıncı söhbəti oldu; əvvəllər Dürdanə Cavanşirə salam verirdi və Cavanşir də başının hərəkətilə Dürdanənin salamını xalaxətrin qalmasın alırdı; sonra yəqin bu «xalaxətrin qalmasınlar» Dürdanəyə təsir etdi və Dürdanə də daha salam vermədi və hər dəfə üz-üzə çıxanda gözləriylə gözləyirdi ki, Cavanşir salamlaşacaq onunla, amma Cavanşir də düz ötüb çıxıb gedirdi.

Dünən səhər yeməkxanada oturub ertə çörəyini yeyəndə Güləndam nənə Cavanşirdən soruşdu:

– O qız kimdi elə bizə salam verir?

Cavanşir başını qaldırıb iki stol qabaqda qoca bir arvadla oturub onlara baxan Dürdanəni gördü və istər-istəməz Şuşa sanatoriyasına təzə gəlmiş bu qızla salamlaşdı və elə bil ki, Cavanşirin bu salamı ilə Dürdanənin sifəti tamam açıldı, gözgörəsi güldü sifəti, elə bil Cavanşirin salamı bir xoşbəxtlik gətirdi bu qıza. Qızın yanındakı qoca arvad da başını qaldırıb bir qıza, bir də Cavanşirgilə baxdı və o da Cavanşirgilə salam verdi.

– Kimdi, ə, bu qız belə, a kişi qırığı?

Cavanşir Güləndam nənənin ona «a kişi qırığı» deməsilə mübarizə aparmaqdan daha zinhara gəlmişdi və daha bu barədə bir söz demirdi; bu dəfə də təkcə:

– Nə bilim kimdi?.. – dedi və burnunu vermişelli boşqaba salladı.

Güləndam nənə də bu dəfə zarafatsız dedi:

– Hə də, nə tanıyasan onları?.. Evdə otura da bilmirik bu əndamı yanmışların əlindən...

Bakıda qızlar, doğrudan da, Cavanşirə tez-tez zəng eləyirdilər və Cavanşir də doğrudan bu qızların heç birini tanımırdı, bəlkə də görsəydi üzdən tanıyardı – ya universitetin qızları olacaqdı, ya da qonşu qızlar; Cavanşir bilmirdi ki, ona zəng eləyən hansı qızdı və qızlar gülə-gülə Cavanşirlə tanış olmaq istədiklərini deyirdilər; Cavanşir onlarla uzun-uzadı danışmırdı, dəstəyi asırdı, sonra qızlar təzədən zəng eləyib Cavanşirin kobudun biri olduğunu deyirdilər və belə bir kobudluq qiyafəsi həm qızlarla danışmaqdan (axı nə deyəsən?) xilas edirdi, həm də hər halda kişi gərək kişi olsun.

Cavanşir başını qaldırıb yenə Dürdanəyə tərəf baxdı və nədənsə ona elə gəldi ki, Güləndam nənənin «əndamı yanmış» deməsi bu qıza layiq deyil və ən qəribəsi də bu oldu ki, Güləndam nənə də elə bil Cavanşirin fikirlərini oxuyub:

– Bu qızı demirəm ha... – dedi.

Günorta Güləndam nənə Cavanşirə xəbər verdi ki, bu qızın adı Dürdanədi, o da qarabağlıdı, o da nənəsiylə gəlib Şuşa sanatoriyasına, atasını məzuniyyətə buraxmayıblar, anası da qalıb atasıyla Bakıda, nənəsinin də adı kişi adıdı, Bəhlul, Bəhlul arvad.

Gülməmmədin akkordeonu öz məşhur tanqosunu təzədən çalmağa başladı və Hüsaməddin Alovlu yerli cavanların həsəd, qibtə dolu nəzərləri altında yenə Marusya Nikiforovanı rəqsə dəvət etdi, sonra yenə sanatoriyada dincələn gəlmə qızlar bir-biriləriylə, Şuşanın, Şuşaya yaylağa çıxmış Ağdamın, Bərdənin, Ağcabədinin, Füzulinin cavan oğlanları da bir-biriləriylə rəqs eləməyə başladılar.

Bir azdan Şuşanın aşağısında, Ərimgəldi tərəfdəki istirahət evinin həyətində klarnetçi Müslüm orada işini qurtarıb dəstəsiylə – zurnaçı Anuşavan və nağaraçı Məliklə sanatoriyanın həyətinə gələcəkdi, «Avropalı gəlin» Iran filmindən «tormoz» Hüseynin havasını çalacaqdı və sanatoriyada istirahət edən əmək qabaqcılı, qəhrəman ana və həddən artıq kök Safurə arvad meydanda ortaya düşüb sındıra-sındıra oynayacaqdı və bununla da sanatoriyanın mədəni-kütləvi tədbirlərinə baxan Sadıq müəllimin iş günü sona yetəcəkdi.

Cavanşir cibindən bir siqaret çıxarıb yandırdı və bunu görən Güləndam nənə eyvanda qeyzlə başını tərpətdi, barmağını yelləyib Cavanşiri hədələdi, yəni ki, qoy gedək Bakıya, gör orda atana deyirəm, ya yox. Cavanşir nənəsinin belə hədə-qorxularına adətkərdə idi, amma bu dəfə necə olsa, birdən-birə ürəyinə bir nigarançılıq doldu və tez də Dürdanə tərəfə baxdı ki, görsün bu qız Güləndam nənənin him-cimini görür, yoxsa yox.

Dürdanə gözaltı, guya ki, qəsdən yox, elə-belə, Cavanşirə baxırdı.

– Axşamınız xeyir. – Hələ də ağ xələtini əynindən çıxartmayıb sanatoriyanın həyət qapısı ağzında dayanmış və çox ciddi görkəmli meydançadakı Sadıq müəllimə tamaşa edən Isgəndər Abışov – Şuşa sanatoriyasının məşhur dietoloqu – Cavanşirlə salamlaşdı.

Bu axşam klarnet çalan Müslüm gecikirdi, gəlib çıxmamışdı hələ və mədəni-kütləvi işə baxan Sadıq müəllim özü meydanın ortasına çıxıb camaata fokus göstərirdi: bütöv bir qəzeti meydana toplaşanların gözü qabağında gəzdirib cırırdı, qəzetin qırıntılarını hər iki ovcunun içinə yığırdı, sonra ovcunun içində də gizlətdiyi başqa bir qəzeti yavaş-yavaş bütöv açırdı, cırılmış qəzetin qırıntılarını isə yenə ovcunda, təzə qəzetin arxasında gizlədirdi və bu zaman cırılmış qəzetin qırıntılarından bir-ikisi Sadıq müəllimin ovcunun sözünə baxmayıb yerə düşürdü və Sadıq müəllim də tez onları ayağıyla tapdalayırdı ki, heç kim görməsin.

Dietoloq Isgəndər Abışov bu fokusa sidq-ürəkdən heyrətlənib:

– Malades, Sadıq müəllim! – dedi və Cavanşirə baxıb Sadıq müəllimin fokusundan valehliklə başını tərpətdi: – Interesna!..

Isgəndər Abışov keçən il Bakıdakı tibb texnikumunu bitirib Şuşa sanatoriyasında işləməyə gəlmişdi və bu bir il ərzində bu tərəflərin feldşer, tibb bacıları arasında olmazın hörmət qazanmışdı və hələ də öz vəzifəsinin mötəbərliyinə ürəkdən inanırdı. Ortaboylu, qıvrım qara saçlarını səliqə ilə dala darayan, nazik qara bığlı, yanağı qara xallı Isgəndər Abışovun ağ xələti həmişə tərtəmiz, kraxmallı və ütülü olurdu, ağ köynək geyib qara qalstuk taxırdı və qalstukunun ortasında da həmişə brilyanta oxşayan bir şüşə parıldayırdı. Səhər qəlyanaltısı, günorta naharı və şam zamanı Isgəndər Abışov sanatoriyanın yeməkxanasını miz-miz gəzirdi, diqqətlə yeməklərə baxırdı və sifəti cürbəcür görkəm alırdı: gah qaşları çatılırdı və adam öz yeməyinə baxıb şübhələnirdi ki, görəsən nə olub; gah bəyənmək və təqdir etmək münasibətilə başı yavaş-yavaş enib-qalxırdı, « – Moruq qlükozadı» deyirdi. « – Keşnişdə linalool spirti çoxdu» deyirdi, «– Balqabaq öd kisəsinin iltihabına dərmandı» deyirdi, «Bu, vitamin «A»dı» deyirdi, «Bu, vitamin «S»di, «Bu, vitamin «D»di deyirdi və Güləndam nənə də Isgəndər Abışova «Vitamin oğlan» deyirdi və sanatoriyadakı şəfqət bacılarının qulağından iraq, «Güləndam nənə bunu da deyirdi ki, bu «Vitamin oğlan» ağ xələtli dəlləyə oxşayır, amma Güləndam nənədən xeyli fərqli olaraq, təkcə şəfqət bacıları, feldşerlər yox, yeməkxananın baş aşpazı Kazım kişidən tutmuş xörəkpaylayan Parandzemə kimi hamı Isgəndər Abışova «həkim» deyə müraciət edirdi.

Müslüm dəstəsiylə tələsik sanatoriyanın həyətinə girib meydana gəldi, bayaq Doppa Dadaşın oturduğu kətildə oturub klarneti qoburundan çıxartdı, tez yığdı və klarneti yığmağıyla da «tormoz» Hüseynin havası sanatoriyanın həyətinə yayıldı, Müslümün klarneti zilə qalxdı, bəmə endi və Müslümün hər iki tərəfində ayaq üstə dayanmış zurnaçı Anuşavanın zurnası, nağaraçı Məliyin nağarası klarnetə qol-qanad verdi və döşü orden-medalla dolu Safurə arvad yenə özünü saxlaya bilməyib meydana çıxdı, sındıra-sındıra süzməyə başladı.

Gün yavaş-yavaş batırdı, ulduzlar da yavaş-yavaş görünürdü və belə aydın havalarda Şuşa sanatoriyasından görünən uzaq Molla Nəsrəddin yolunun qıvrımlarında maşınların işığı da yavaş-yavaş yanmağa başlayırdı; belə aydın havalarda Şuşa hər tərəfdən ulduzlarla əhatə olunurdu, göydəki ulduzlarla və aşağılarda – Stepanakertdə, Müxətər kəndində, Şüşü kəndində, Keşiş kəndində yanan işıqlarla; belə aydın havalarda Şuşa sanatoriyasında göy arasında, dağlar arasında məsafə də yox olub gedirdi, hər tərəfi bir genişlik bürüyürdü.

– Gedək bir yerdə bir az çaxır içək.

– Çaxır içək? – Isgəndər Abışov təəccüblə Cavanşirə baxdı.

– Hə, gedək çaxır içək bir az, turş çaxır. – Cavanşir Isgəndər Abışovun qoluna girdi. – Gedək...

Cavanşirin bu təklifi Isgəndər Abışov üçün çox gözlənilməz oldu və Isgəndər Abışov əvvəlcə bilmədi ki, qəbul etsin bu təklifi, yoxsa yox, sonra:

– Bir stəkan turş çaxır olar, – dedi. – Professor Gerasimov deyir ki, hər gün bir stəkan çaxır içmək lazımdı. Professor Gerasimov deyir ki...

– Yaxşı söz deyir professor Gerasimov. Gedək.

– Qoy gedim xələti çıxarım.

Cavanşir təəccüblə Isgəndər Abışova baxdı, elə bil ki, Isgəndər Abışov əynindəki xələti çıxara bilməzmiş.

– Gözləyirəm.

Isgəndər Abışov paltarını dəyişmək üçün içəri girdi.

Safurə arvad sındıra-sındıra bəs deyincə oynayandan sonra, Müslüm «tormoz» Hüseynin havasını çalıb qurtardı və klarneti söküb tələm-tələsik qobura yığdı – bu axşam bazarkom Fətinin oğlunun anadan olan günü idi, Müslüm öz dəstəsiylə indi də Fətigilə tələsirdi, Sadıq müəllim meydanın ortasına çıxıb bərkdən:

– Gecəniz xeyrə qalsın, əziz yoldaşlar! – dedi. – Sizə gözəl Şuşa gecəsi arzulayıram!

Sonra Sadıq müəllim bu sözləri rus dilində dedi və meydana toplaşan camaat iki-bir, üç-bir dağılışmağa başladı, kimi sanatoriyanın yuxarısındakı kinoteatr tərəfə getdi – bu gün kinomexanik Haqverdi hind kinosu göstərəcəkdi, «Bobbi»; kimi şəhərə gəzməyə çıxdı, kimi Cıdır düzünə tərəf yollandı ki, Şuşanın ən gözəl havası oradadı, kimi Ərimgəldi tərəfə getdi, kimi Qaya başına.

Hüsaməddin Alovlu Marusya Nikiforovaya yaxınlaşdı və onunla rəfiqəsi Lyudmilanı teatra dəvət etdi; Lyudmila mənalı-mənalı Marusyaya baxdı və Marusya Nikiforova da bir balaca qızardı, sonra gülümsədi və Hüsaməddin Alovlunun dəvətini qəbul etdi.

Üç yay ayının təqaüdünün hamısı bir yerdə Cavanşirin cibində idi, amma onun birdən-birə çaxır eşqinə düşməyinin səbəbi bu deyildi, səbəb bu da deyildi ki, Cavanşir içki xoşlayırdı, belə deyildi, Cavanşirin bədəni içki götürmürdü və bir az içən kimi, ürəyi bulanırdı; nədənsə, birdən-birə bütün bu yerlər, Şuşanın ayı, ulduzları, indi ay işığında təkcə qaraltısı görünən ağacları, kolları, Şuşanın dağları, ab-havası, Müslümün klarnetindən sonra sanatoriyanın həyətinə çökmüş sakitlikdəki cırcırama cırıltısı Cavanşirə yad göründü, Cavanşirə elə gəldi ki, Şuşa həmin Şuşa deyil, həmin Şuşa ki, Cavanşir on iki-on üç yaşlarında, bax, bu sanatoriyanın indiki yerində böyürtkən yığıb sünbülə düzərdi, yerli uşaqlarla futbol oynayardı, az qala, Isa bulağınacan piyada gedib moruq yığardı, uşaqlarla mərc edib yanmış kilsənin qaranlıq və kimsəsiz zirvəsinə girərdi; həmin Şuşa birdən-birə çox-çox uzaqlara getdi, beş-altı il əvvəlki uşaqlıq illəri Şuşa sanatoriyasının həyətindəki bu avqust axşamından çox-çox uzaq illərin arxasında qaldı və bu hiss bir yalqızlıq, bir təklik gətirdi, Cavanşirin ürəyini sıxdı, qısdı, hər şey elə bil ki, birdən-birə bütün mənasını itirdi.

Isgəndər Abışov:

– Mən hazır, – dedi və Cavanşir Isgəndər Abışovu adi bəndələrin geydiyi kostyumda, xələtsiz görəndə istər-istəməz təəccüb etdi, əynindən xələtini çıxarmış bu cavan oğlan elə bil ki, doğrudan da Isgəndər Abışov deyildi, bir başqa adam idi.

Birlikdə Şuşa sanatoriyasının həyətindən çıxanda Isgəndər Abışov dedi:
– Yaman baxır sənə o qız...
Isgəndər Abışovun bu sözləri də qəribə səsləndi, elə bil o, ancaq yemək-içməyin vitaminiylə maraqlanmalıydı və hər hansı bir qız barədə, ümumiyyətlə, arvad məxluqu haqqında söz demək Isgəndər Abışova yaraşmırdı.
– Hansı qız?
– Ode, o qız... Isgəndər Abışov başı ilə Dürdanənin dayandığı eyvana işarə elədi və bu zaman necə oldusa, heç özü də bunu bilmədi ki, necə oldu, Cavanşir çox yuxarıdan aşağı gülümsədi, elə gülümsədi ki, yəni mən hara, o qız hara, yəni mən plov yemirəm ki, bığım yağa batar, sən də gör kimdən danışırsan, ay Isgəndər Abışov, öz arşınınla ölçürsən məni? Və ən qəribəsi də bu oldu ki, Isgəndər Abışov özü Cavanşirin bu gülümsəməyinin mənasını təsdiq elədi, sanatoriyadan şəhərə enən yoxuşu düşə-düşə: – Əlbəttə, – dedi, – sənin yüz dənə o cür qızın var...
– Eh, başım çox çəkib mənim... – Cavanşir bu sözləri də dedi və özü də fikirləşdi ki, niyə dedi bu sözləri, bu sözlərə nə ehtiyac var və ümumiyyətlə, heç Isgəndər Abışov da olmasın, bu cür dona girmək, belə bir artistlik eləmək nəyə lazımdı?

## II

Şuşa parkındakı kababxananın həm müdiri, həm aşpazı, həm bufetçisi, həm xörəkpaylayanı olan, çəkisi də yüz iyirmi səkkiz kilo olan Əbülfət əmlik kababından iki şiş gətirib birini Cavanşirin, birini də Isgəndər Abışovun boşqabına çəkdi, göy-göyərti, üzlü pendir gətirdi, pərpətöyündən erməni şorabası və iki şüşə də Martuni çaxırı gətirdi.
Isgəndər Abışov:
– Iki şüşə çoxdur, – dedi.
Cavanşir:
– Nəyi çoxdu? – dedi və ağzı üstə qabaqlarına qoyulmuş (Əbülfətin qabiliyyəti idi!) qalın şüşəli stəkanları çevirib çaxırla doldurdu. – Sağ ol, sənin sağlığına! – dedi və stəkanı birnəfəsə başına çəkdi və Isgəndər Abışov da elə bil ki, Cavanşirin beləcə çaxır içməyindən hipnoz olubmuş kimi, öz stəkanını birnəfəsə başına çəkmək istədi, amma tez də təngnəfəs oldu və stəkandakı çaxırı ancaq yarısına kimi içdi.
Bu yarım stəkan çaxır elə o saat, gözgörəsi Isgəndər Abışova təsir etdi və Isgəndər Abışov açdı sandığı, tökdü pambığı, evlənmək istədiyini dedi, amma nə gözaltı bir qızı vardı, nə də evi, şəhər sovetində söz veriblər ki, bu il ona ev verəcəklər, amma köhnə ev istəmir, təzə ev istəyir, şəhərsayağı, hamamı ilə ayaqyolusu içində; bu evi alandan sonra Sabirabaddakı anasını da gətirəcəkdi yanına, sonra da evlənəcəkdi, amma hələ gözaltı bir qız yox idi; keçən ay ona imzasız bir sevgi məktubu yazmışdılar, bilmirdi ki, hansı qızdı, şübhələnirdi ki, birdən sanatoriyanın kitabxanaçısı Azadə olar, amma Azadə olsa, onda heç nə, çünki Isgəndər Abışov hələ ki, Azadəni sevə bilmirdi, bir də ki dünyanın işlərini kim bilir, bəlkə elə sevdi Azadəni; hər halda, şuşalı qız alacaqdı, çünki Şuşanın qızları sağlam olur, ab-havadandı, sudandı, amma hayıf ki, hələ gözaltı bir qız yoxdu və ümumiyyətlə, Isgəndər Abışov qızlarla tanış olmaq sarıdan bir az fərsizdi, onların fikrinə-zadına yaxşı bələddi, amma di gəl ki, tanış olmaq sarıdan fərsizdi, əlindən gəlmirdi.

Cavanşir özü bir söz danışmırdı, danışan elə Isgəndər Abışov idi və Cavanşir də yüngülcə gülümsəyə-gülümsəyə və arabir də mənalı-mənalı başını tərpədə-tərpədə Isgəndər Abışovun dediklərinə qulaq asırdı. Cavanşirin gülümsəməyində, dodaqlarının təbəssümündə Isgəndər Abışovdan qat-qat artıq görüb-götürmək ifadəsi vardı, bir üstünlük ifadəsi vardı və Cavanşir özü də çox gözəl bilirdi ki, yaxşı iş deyil bu; yaxşı iş deyil ona görə ki, düz deyil, yalandı bu; yaxşı iş deyil ona görə ki, Isgəndər Abışovun belə bir ürəyitəmizliyi müqabilində gərək nə olurdusa-olsun, amma saflıq olsun.

Əlbəttə, Isgəndər Abışovun Cavanşirin bu fikirlərindən xəbəri yox idi və Cavanşirin sifətindəki bu üstünlük təbəssümünü də o, çox adi bir iş və məlum məsələ hesab edirdi; hətta Cavanşirin sifətindəki bu üstünlük təbəssümü, bu təkəbbür Isgəndər Abışova elə təsir edirdi ki, içdikləri çaxır daha o cür təsir etmirdi və elə bu təbəssümə, bu ifadəyə görə də Isgəndər Abışovun öz-özündən şikayəti get-gedə artırdı, özünü dünyanın ən kiçik adamı, ən xırdası, yazığı hesab edirdi.

Yüz iyirmi səkkiz kiloya yaraşmayan bir cəldliklə, civə kimi girib-çıxan, mizlərə bir-bir baş çəkən, bufetə gedən, araq süzən, göyərti doğrayan, manqalı yelləyən Əbülfət Cavanşirgilə yaxınlaşıb:

– Adama bir şiş də gətirimmi, başşım? – soruşdu.

Cavanşir Isgəndər Abışova baxdı. Isgəndər Abışov dedi:

– Heç yarım tikə də getməz!

Cavanşir gülümsədi və yenə də elə-eləcə gülümsədi, yuxarıdan aşağı və yenə özündən dilxor oldu ki, belə gülümsəyir.

Əbülfət iki şiş kababın, iki şüşə çaxırın, göy-göyərtinin, pendirin, erməni şorabasının pulunu alıb heç saymadı da, cibinə basıb:

– Allah bərəkət versin! – dedi və sonra mizin üstündəki hələ ağzı açılmamış ikinci çaxır şüşəsini elə onların yanındaca götürüb, aparıb qoydu bufetə.

Cavanşirlə Isgəndər Abışov parka çıxdı və Isgəndər Abışov dayanmaq bilməyib gələcək planlarından, dostluqdan, ilqardan, əxlaq prinsiplərindən elə hey danışırdı, əsl dostu, sirdaşı olmadığını, günlərinin çox cansıxıcı, darıxdırıcı keçdiyini, günlərinin bir-birinin eyni olduğunu deyirdi və Cavanşir daha ona qulaq asmırdı. Isgəndər Abışov ardı-arası kəsilmədən öz güzəranından şikayət edirdi, Cavanşir isə həmin avqust gecəsi Şuşa parkında gəzişə-gəzişə Şuşanın təmiz, saf ab-havası ilə nəfəs alırdı, ağacların, kol-kosun, gül-çiçəyin ətrini duyurdu və doğrudan-doğruya öz üstünlüyünü hiss edirdi; elə bil hər şey yalandan yox, doğrudan idi, doğrudan-doğruya bütün il boyu cürbəcür macəralardan yorulmuşdu, Peçorin sərgüzəştlərindən yorulmuşdu və indi burda, bu Şuşa parkında Isgəndər Abışovla gəzə-gəzə dincəlirdi.

Park qaranlıq və adamsız idi, ay işığında ağaclar qaralırdı və təkcə parkın yuxarısındakı teatr binasının işıqları yanırdı. Ağdam Dövlət Dram Teatrı Şuşada qastrol tamaşaları göstərirdi və bu gün Ağdam dramaturqlarından birinin «Skeletlər rəqs edərkən» adlı məhəbbət faciəsinin ilk tamaşası idi. Marusya Nikiforova, Lyudmila və Lyudmilanın yanında da Hüsaməddin Alovlu bu dəm salonda əyləşib səhnəyə tamaşa edirdilər. Hüsaməddin Alovlu ürək eləyib Marusya Nikiforovanın yanında oturmamışdı, amma tənəffüs zamanı teatrın bufetindən (bu bufet Əbülfətin kababxanasının filialı idi) iris konfeti almışdı və indi irislə dolu balaca torbanı tez-tez qızlara tərəf uzadıb Marusyanı və təbii ki, Lyudmilanı konfetə qonaq edirdi, səhnədəki söhbətləri yavaş-yavaş guya ki, rus dilinə tərcümə edirdi və Marusya Nikiforova da irisi çeynəyə-çeynəyə özünü saxlaya bilməyib nakam məhəbbət faciəsinə göz yaşı axıdırdı.

Və elə bu vaxt Isgəndər Abışov da özünü saxlaya bilməyib dedi:

– Bu qadına bir bax! Pah!..

Qarşıda, ay işığında Şuşa parkındakı ağaclara, gül-çiçəyə baxa-baxa hündürboylu, şümalbədənli, əyninə çox gözəl, çox yaraşıqlı, çox zövqlə tikilmiş tünd kostyum geymiş, başına kənarları çox enli böyük şlyapa qoymuş bir qadın addımlayırdı və bu qadın hər dəfə addım atdıqca, təbiətdən və özündən həzz ala-ala gedirdi; bu, yerə-göyə bir minnət idi; bu qadının addımları sərrast və yumşaq idi; bu qadının səliqəsi, zövqü və yerişində, geyimində, bədəninin quruluşunda hər şeyin yerbəyerində olması Şuşa dağlarının ay işığında qaralan ibtidai gözəlliyi ilə, sıldırım qayaların vəhşiliyi ilə qəribə bir təzadda idi və həmin avqust gecəsi bu təzadda nəsə bir sehr var idi.

Isgəndər Abışov elə bil ki, öz-özüylə danışırdı, yavaşdan dedi:

– Belə qadınlar da var e, dünyada!.. – Bunu dedi, sonra Cavanşirə baxdı.

Bu dəm heç kimin və o cümlədən Cavanşirin özünün də ağlına gəlməyən, ağlına sığışmayan, görünməmiş bir hadisə baş verdi: Cavanşir sürətlə irəliləyib bu qadına yaxınlaşdı və:

– Bağışlayın... – dedi.

Qadın Cavanşirə baxdı və yalnız bu zaman elə bil ki, Cavanşir özünə gəldi, yalnız bu zaman nə etdiyini başa düşdü və ürəyi bərkdən döyünməyə başladı, birdən-birə boğazı qurudu, nə deyəcəyini bilmədi, təkcə:

– Bağışlayın... – deyə təkrar etdi.

Bu qadın çox gözəl idi; bu qadının qırx yaşı olardı və özü də bu yaşı gizlətmək fikrində deyildi, əksinə, bu qadın elə bil ki, öz yaşından da zövq alırdı, onun pudra-boyası çox incə idi, ondan gələn ətir iyi də son dərəcə yüngül, yumşaq idi və bütün bu gözəllik və incəliklər müqabilində Cavanşir bu saat dünyanın ən əbləh, kütbeyin və vecsiz adamı idi.

Arxadan gələn Isgəndər Abışov xoşbəxt bir heyrət və həsəd dolu nəzərlərlə Cavanşirə, cəmi bircə dəqiqə bundan qabaq onunla bir yerdə çaxır içən, onun tanışı olan bu oğlana və naməlum gözəl qadına, gözlərinin qarşısında addımlayan, amma əlçatmaz bir uzaqlıqda olan bu məxluqa baxırdı.

Qadın bircə anlıq Cavanşirə baxdı, Cavanşir belə hiss etdi ki, bu bircə anın içində bu qadın onu tamam əlinin içi kimi gördü, tanıdı, əbləh vəziyyətini və vecsizliyini, heçliyini başa düşdü və Cavanşir burasını da hiss elədi ki, qulaqlarının dibinə kimi qıpqırmızı qızardı.

Arxada isə Isgəndər Abışov addımlayırdı.

– Bağışlayın... bilmirsiz teatr burada hardadı?

Qadın bu dəfə bir anlıq yox, diqqətlə Cavanşirə baxdı, elə bil ay işığında bu cavan oğlanın, bu uzun oğlanın sifətinin cizgilərini bir-bir saf-çürük edirdi və Cavanşirə elə gəldi ki, bu qadın bu saat bu gözəlliyinə və incəliyinə yaraşmayan bir ədəbsizliklə iki əliylə də onun başına yağlı bir qapaz salacaq; amma çox qəribə oldu, qadın uzun və yaraşıqlı barmağı ilə teatr binasını göstərib:

– Odur, ordadır... – dedi və Cavanşir bu səsdə bir ılıqlıq, mülayimlik, bir mehribanlıq hiss etdi və bu mehribanlıq Cavanşirin bütün bədəninə sirayət etdi, içinə yayıldı.

Onlar bir müddət yanaşı addımladılar. Cavanşirin ürəyi daha o cür bərkdən döyünmürdü, amma deməyə də bir söz də tapmırdı və bu dəm öz acizliyindən yerə girməyə hazır idi.

Qadın ılıqlıq gətirən eyni mülayim və mehriban səslə:

– Yoldaşınız sizi gözləyir, – dedi.

Cavanşir təəccüb etdi ki, bir dəfə də olsun geri çönüb baxmayan bu qadın Isgəndər Abışovu necə gördü və:

– Eybi yox... – dedi. – Cavanşir bunu dedi və bu sözlərin mənasızlığından və köməksizliyindən yenə hiss elədi ki, qulaqlarının dibinə kimi qıpqırmızı qızarıb.

Onlar beləcə dinməz-söyləməz yanaşı addımlaya-addımlaya teatr binasının yanınacan gəldilər və bütün bu müddət ərzində Cavanşir bir siçan deşiyi axtarırdı ki, söz tapıb danışa bilməmək xəcalətindən bu deşiyə girsin və bütün bu müddət ərzində Isgəndər Abışov da arxadan onları müşayiət etdi.

Teatr binasının qabağındakı lövhələrə əllə yazılmış afişalar yapışdırılmışdı və qadın bu afişalara baxıb:

– O-o-o... – dedi. – «Kleopatra»nı da göstərəcəklər... – Sonra bir balaca gülümsədi və bu gülümsəmə, əlbəttə, başqa gülümsəmə idi, amma bir az Cavanşirin Isgəndər Abışovun yanında gülümsəməsinə oxşayırdı. – Gəlib baxmaq lazımdı. – Sonra birdən-birə Cavanşirdən soruşdu:

– Siz bu teatrın tamaşalarına baxmısınız?

Cavanşir afişaların üstündə yanan elektrik lampalarının işığında köynəyinin yuxarı düymələrini tələm-tələsik düymələyə-düymələyə:

– Yox, baxmamışam, – dedi və Cavanşirə elə gəldi ki, yenə iki-üç il geri qayıdıb, orta məktəbdə oxuyur, bu sualı ona müəlliməsi verdi və Cavanşir də bu suala elə cavab verdi, elə bil müəlliməsinin sualına cavab verir.

Afişaların yanından ötdülər və bir az da gedəndən sonra, qəribədir, bu qadın elə bil öz-özüylə danışmağa başladı və bu qadının çox zövqlə yüngülcə boyalanmış gözəl dodaqlarından çıxan hər bir söz Cavanşir üçün elə bil ki, yuxular aləmindən gəlirdi, elə bil ki, tək-tənha çarpayıda uzanıb gözlərini tavana zilləyib getdiyi xəyallar aləmindən gəlirdi; bu qadının dodaqlarından çıxan hər bir söz get-gedə Cavanşir üçün Şuşadakı həmin avqust gecəsinin çox məlhəm, çox uyğun bir hissəsinə çevrilirdi.

– Qəribədi... Az qala iki min il keçib, ancaq bu gün də Kleopatra haqqında əsərlər yazırıq... Onu tamaşaya qoyuruq... Gedib baxırıq... Hər şey qocalır dünyada, hər şey yox olub gedir, ancaq hisslər qocalmır... Insan hiss-həyəcanları, insan ehtirasları, insan ürəyinin çırpıntıları, görünür, daimidir...

Cavanşir sözün əsl mənasında əzablı bir sıxıntı ilə bu qadınla yanaşı addımlayırdı; Cavanşir bu qadının söhbətini davam etdirə bilmirdi, amma bilirdi ki, lap açıq-aşkar idi ki, nəsə deməlidi, mülahizələr, fikirlər söyləməlidi, amma söz tapa bilmirdi.

Məlum oldu ki, bu qadın memardı, Bakıdan gəlib, Şuşa istirahət evində istirahət edir və Şuşanı çox sevir, Şuşanın təbiəti üçün həmişə darıxır, Şuşanın Xan sarayı, Qala hasarı, məscidi bu qadın üçün misilsiz abidələrdi; hərgah insan təbiətin bir parçasıdısa, onun evi də, yaşadığı bina da təbiətin bir parçası olmalıdı, tikintilər, qurğular, hər şey təbiətə doğru olmalıdı, təbiəti tamamlamalıdı, insanla təbiət arasında bir sərhəd, bir qoruncaq yox, bir vasitə olmalıdı, bax, bu Şuşa dağlarının, bu Şuşa düzlərinin, dərələrinin, sıldırımlarının simmetriyası və assimetriyası müasir memarlıqda öz əksini tapmalıdı...

Cavanşir bütün bu fikirlərlə yalnız razılaşırdı, başını tərpədib bu qadının söylədiyi fikirlərin hamısını təsdiq edirdi, uzaq başı bircə kəlmə: « – Elədir...» – deyirdi, başqa bir əlavə edə bilmirdi və onlar Şuşa parkının qaranlıq cığırları ilə addımladıqca, Isgəndər Abışov da arxadan gələ-gələ onları müşayiət edirdi və ən qəribəsi də bu idi ki, Isgəndər Abışov, nədənsə, Cavanşirdən başqa özünü də həmin avqust gecəsinin qəhrəmanı hiss edirdi...

Cavanşir çox çətinliklə və gözlənilməz bu düşünülməz, ağlasığmaz gecə gəzintisinə yaraşmayan bir müstəqilliklə qadının adını soruşdu və məlum oldu ki, bu qadının adı Mədinə xanımdı, sonra Cavanşir öz adını dedi və sonra da Mədinə xanım Cavanşirdən soruşdu:

– Bəs, siz harda işləyirsiniz?

Əlbəttə, Cavanşir ağlına gətirməzdi ki, doğrudan-doğruya belə yaşlı görünür; başqa vaxt olsaydı, bu, Cavanşirin ürəyinə yayılardı, amma bu dəfə yenə qulaqlarının dibinə kimi qıpqırmızı qızarıb:

– Mən filoloqam, – dedi. – Universitetdəyəm...

– Dərs deyirsiniz?

Cavanşirin bütün sifəti alışıb-yanırdı və ona elə gəldi ki, Mədinə xanım onu dolayır və bərkdən qaqqanaq çəkib güləcək və Isgəndər Abışov da gülməkdən qarnını tutacaq.

– Yox... Aspirantam...

– A-a... Sizinçün hələ hər şey irəlidədi...

Cavanşir buna da bir söz deyə bilmədi.

Isgəndər Abışov isə qarşıda addımlayan bu qadınla Cavanşirin nə danışdıqlarını eşitmirdi, amma bir həqiqət vardı ki, bu dəm Isgəndər Abışov Cavanşirlə Əbülfətin kababxanasında oturub birgə çaxır içməyi ilə fəxr edirdi; bu dəm o, Cavanşirlə bu gözəl qadının ardınca beləcə addımlamağıyla qürurlanırdı və elə bil ki, Isgəndər Abışova bir qol-qanad vermişdi və daha o özünü həyatda artıq adam hesab etmirdi.

Mədinə xanım dedi:

– Mən daha istirahət evinə getməliyəm...

Və Mədinə xanım bu sözləri elə dedi ki, Cavanşirin ağzı öz-özünə açıldı:

– Mən sizi ötürərəm...

Mədinə xanım dedi:

– Sizi yoldaşınız gözləyir...

Cavanşir dedi:

– O mənim yoldaşım deyil...

Mədinə xanım dedi:

– Onda deyin arxamızca gəlməsin...

Cavanşir bu sözlərdə bir balaca əsəbilik hiss elədi, gizli bir acıq hiss elədi, amma əslində onu pərt eləyən bu olmadı, Cavanşiri bu pərt elədi ki, Isgəndər Abışovla yoldaş olduğunu bu qadının yanında dandı və əlbəttə, burada pərt olası bir şey yox idi, Cavanşirlə Isgəndər Abışov doğrudan da, yoldaş deyildilər və bu gecə də birinci dəfə oturub kəlmə kəsmişdilər, amma hər halda Isgəndər Abışovdan imtina eləməsi Cavanşirə nəsə bir xəyanət kimi gəldi, elə bil doğrudan da, hansı bir yaxın yoldaşınasa, elə bil nəsə işıqlı bir şeyə xəyanət elədi; bu, ötəri hiss idi və Cavanşir Mədinə xanımdan geri qalıb Isgəndər Abışovun ona çatmasını gözlədi və dedi:

– Sən daha get.

Isgəndər Abışov ay işığında qaşlarını çatdı, sonra öz aləmində hər şeyi başa düşdü, yəni ki, məlumdu məsələ, gözlərinin ucu ilə mənalı-mənalı gülümsəyib:

– Oldu, – dedi və geri çönüb qaranlıqda Şuşa parkının ağacları arasında görünməz oldu.

Mədinə xanım Sovet Ittifaqının bir çox kurortlarında olmuşdu, Karlovı-Varıda, Bolqarıstandakı Qızıl Qumda istirahət etmişdi, Fransanın cənubunu, Nitsanı gəzmişdi, amma heç birinin havası Şuşa ilə müqayisə oluna bilməzdi, düzdü, Isveçrədə olmamışdı, deyirlər ki, Davosun havası çox gözəldi, amma Mədinə xanım bilirdi ki, Şuşanın havasına hava çatmaz; Şuşanın havasındakı təmizlik, saflıq da insan hissləri kimi daimi idi və Şuşada insan qəlbi də saflaşır, təmizlənir, büllurlaşır, insan ürəyi yeni hisslərlə, kövrək və incə hisslərlə dolur, adam təzələşir, paklaşır; adama elə gəlir ki, özü də daimidir, heç vaxt ölməyəcək, nə xərçəngdən qorxur, nə də infarktdan və yuxusuzluq qorxusu da onu sıxmır; adam hər şeyi unudur, bütün qayğıları, pislikləri, iztirabları və bütün ətrafı, bütün münasibətləri qatı rənglərlə, qatı boyalarla yox, ağ kağızdan güclə seçilən bir akvarellə görür.

Cavanşir Mədinə xanımın bu etiraflarına qulaq asa-asa addımlayırdı və daha əvvəlki kimi sıxılmırdı. Əlbəttə, Cavanşir heç vaxt fikirləşməzdi, ağlına da gətirməzdi ki, belə bir qadının bu cür etiraflarına qulaq asa-asa sakit, aylı-ulduzlu bir Şuşa gecəsində kimsəsiz, qədim bir küçə ilə beləcə addımlayacaq.

Onlar Şuşa istirahət evinin həyət darvazasına gəlib çatanda gecə saat on birə qalırdı. Mədinə xanım əlini Cavanşirə uzadıb:

– Sağ olun, – dedi. – Gecəniz xeyrə qalsın.

Şuşa istirahət evinin darvazası üstündən asılmış elektrik lampasının işığında Mədinə xanımın ala gözlərində bir mehribanlıq vardı və elə bil ki, bu gözlər daha nəsə deyirdi və elə bil ki, Mədinə xanımın Cavanşirin ovcundakı əli də gözlərinin dediklərini təsdiq edirdi.

Cavanşir başa düşürdü, hiss edirdi ki, nəsə demək lazımdı, bu elə məqamdır ki, mütləq nəsə demək lazımdı, nəsə elə bir söz ki, bu baxışlara layiq olsun, lap dərinlərdə gizlənmiş istehzanı alt-üst eləsin, amma Cavanşir başqa heç nə deyə bilmədi, heç nə eləyə bilmədi, təkcə:

– Sağ olun, – dedi və bütün kişiliyini köməyə çağırıb soruşdu: – Sabah görüşəcəyik?

Mədinə xanım eyni mehribanlıqla gülümsədi və:

– Görüşərik, – dedi.

Sabah axşam saat yeddidə (o vaxt ki, Doppa Dadaş sanatoriyanın həyətində kamançasının simlərini kökləməyə başlayacaqdı) Şuşa istirahət evinin yuxarısındakı tutluqda görüşəcəklərini vədələşdilər (bu yeri, təbii ki, Mədinə xanım təklif elədi) və bundan sonra Mədinə xanım əlini Cavanşirin yekə ovcundan çəkib darvazanın kiçik qapısından içəri girdi.

Cavanşir bir müddət darvazanın qabağında dayandı, o əlin hərarətini, mehribanlığını, qayğısını ovcunda hiss etdi, o əlin nəsə dediyini və özünün vecsizliyini, əfəlliyini fikirləşdi, sonra siqaret çıxarıb yandırdı və Şuşanın qaranlıq, sal daş döşənmiş küçələrindən keçib sanatoriyaya tərəf qalxmağa başladı.

Və bu dəm «Skeletlər rəqs edərkən» tamaşası da sona yetmişdi və Marusya Nikiforova, Marusya Nikiforovanın yanında Lyudmila və Lyudmilanın yanında da Hüsaməddin Alovlu bu nakam məhəbbət faciəsinin təsiri altında yavaş-yavaş sanatoriyaya tərəf gedirdilər.

Cavanşir Mədinə xanımın yanında siqaret çəkməyə də ürək eləməmişdi.

Belə-belə işlər.

Sabah belə olmayacaqdı.

Cavanşir sanatoriyanın həyətinə girəndə bütün işıqlar sönmüşdü, təkcə Güləndam nənənin işığından başqa və eyvanlarda da heç kim yox idi, təkcə Dürdanə çiyninə yun jaket salıb üşüyə-üşüyə öz eyvanlarında dayanmışdı və gözlərini sanatoriyanın həyət darvazasından çəkmirdi.

Həmin avqust gecəsi Cavanşir çarpayısındakı yorğan-döşəkdə uzanıb gah bu böyrü, gah o böyrü üstə çevrilə-çevrilə səhərə kimi yuxu ilə doğru arasında oldu, bütün gecəni Mədinə xanımla idi, bütün gecəni Mədinə xanımla Şuşa parkında gəzirdilər, Cavanşir bilirdi ki, bu həqiqət deyil, mürgüdü, yuxudu, amma Mədinə xanımın gözlərindəki mehribanlığı görürdü, səsindəki yumşaqlıq, ılıqlıq Cavanşirin bütün bədəninə yayılırdı, Mədinə xanımın ətrini duyurdu, əlinin hərarəti ovcunu qızdırırdı, amma nəsə çatışmırdı, bu narahatlıq da, bu nigarançılıq da ondan ibarət idi ki, nəsə çatışmırdı, o böyrü, bu böyrü üstə aşmağı da ondan idi və səhərə yaxın birdən-birə Cavanşirə elə gəldi ki, çatışmayan Isgəndər Abışovun daha arxadan eşidilməyən addım səsləridi.

## III

– Nədi, a kişi qırığı, nə bəzənib-düzənirsən belə? Xeyirdimi?

Cavanşir tərs-tərs Güləndam nənəyə baxdı.

Axşam düşhadüş idi və bir azdan Sadıq müəllim sanatoriyanın həyətindəki meydançanın ortasına çıxıb istirahətçilərin axşamını xeyirləyəcəkdi, sonra Doppa Dadaşın kamançası dil açıb söz söyləyəcəkdi, sonra Gülməmmədin akkordeonu öz məşhur tanqosunu çalacaqdı və Hüsaməddin Alovlu da yerli cavanların həsəd dolu baxışları altında Marusya Nikiforovanı rəqsə dəvət edəcəkdi.

Həmin gün çox tez gəlib keçdi.

Səhər Güləndam nənə ilə Cavanşir yeməkxanaya düşəndə yenə tərtəmiz, kraxmallı və ütülü xalatını əyninə geyib saçlarına da brialin sürtüb səliqə ilə daranmış Isgəndər Abışov onlara xüsusi diqqət yetirdi, Cavanşirlə xüsusi bir ehtiramla və gizli həmsirr kimi salamlaşdı, tez-tez gəlib onların mizinin yanında dayandı, diqqətlə süfrələrinə baxdı və Güləndam nənə səhər-səhər lüləkababı yeyib lüləkababın yanındakı bişmiş pomidora əl vurmayanda Isgəndər Abışov:

– Ba-a-a!.. – dedi. – Heç bilirsiz bu nədi?

Gülәndam nәnә bir bişmiş pomidora, bir dә Isgәndәr Abışovun çatılmış qaşlarına baxıb şübhәlәndi ki, bәlkә bu, doğrudan da, pomidor deyil, bir başqa şeydi:

– Nәdi ki? – soruşdu.

Isgәndәr Abışov dedi:

– Bu, vitamin «A»dır! Onu yemәk lazımdır!

Gülәndam nәnә yenә bir Isgәndәr Abışovun çatılmış qaşlarına, bir dә bişmiş «A»ya baxdı vә Isgәndәr Abışovun belә vitamin tәәssübkeşliyi elә bil arvada tәsir etdi, pomidoru qabağına çәkib yemәyә başladı.

Isgәndәr Abışov, әlbәttә, bu işdәn çox razı qaldı.

O gün Dürdanә nәnәsinin xahişi ilә Cavanşirgilin otağına gәlib qayçı istәdi, sonra qayçını gәtirib qaytardı, günorta nahar üçün yemәkxanaya düşәndә Cavanşirlә üz-üzә gәldi, salam verdi vә Cavanşir dә bu dәfә açıq-aşkar gördü, hiss etdi ki, bu qız onunla qarşılaşanda, salamlaşanda, baxışında tamam-kamal özünü itirir vә qıpqırmızı qızarır.

– Nәdi, a kişi qırığı, nә tәrs-tәrs baxırsan mәnә, hә? Yenә gecә saat on ikiyә işlәmiş gәlәcәksәn? – Gülәndam nәnә çarpayının üstündә oturub çeşmәyinin yuxarısından Cavanşirә baxa-baxa gülümsәyirdi vә bu gülümsәmәdәki çox yüngül, xoş bir rişxәndә dә şәkk-şübhә yox idi.

Cavanşir güzgünün qabağında dayanıb uzun saçlarının ucunu düzәldirdi vә güzgüdәn dә Gülәndam nәnәyә baxıb:

– Bәlkә heç gәlmәdim gecә... – dedi.

Әn maraqlısı bu oldu ki, Gülәndam nәnә bu sözlәrә lağ elәmәdi, inandı bu sözlәrә, içini çәkib:

– Cavanşir... – dedi vә arvadın gözlәrindәki rişxәnddәn әsәr-әlamәt qalmadı.

– Nәdi, nә Cavanşir?..

Vә hәmin axşam Cavanşir Şuşa istirahәt evinin yuxarısındakı tutluğa vaxtından yarım saat әvvәl gәldi (Dürdanә eyvanda dayanmışdı vә Cavanşiri Şuşa sanatoriyasının hәyәtindәn bu qızın gizli bir tәlaşla, gizli bir narahatlıqla dolu gözlәri yola saldı).

Tutluq yalnız tut ağaclarından ibarәt deyildi, bura güllü-çiçәkli bir düzәnlik idi, burada Şuşanın cır alması vardı, itburnu, böyürtkәn kolları da vardı vә buralar Cavanşirin yaxşı yadına gәlirdi, uşaqlıqda buralarda çox oynamışdı vә o da Cavanşirin yaxşı yadına gәlirdi ki, itburnu bu tәrәflәrdә, kim bilir, bәlkә, elә bütün dünyada yeganә ağacdı ki, әvvәlcә yarpaqlayır, sonra çiçәk açır.

Qabaqlar, beş-altı il bundan әvvәl Cavanşirgil – atası, anası, nәnәsi hәr yay Şuşaya gәlәrdilәr, ev kirayә tutub yayı burada qalardılar vә tutluğu gәzә-gәzә o uzaq uşaqlıq illәri yenә Cavanşirin yadına düşdü: maykalarının әtәyini cır almayla, hәlә yetişmәmiş göy gavalıyla doldurardılar vә bu bir әtәk cır almanın, göy gavalının hamısını dişlәri qamaşanacan, damaqları, dodaqları keyiyәnәcәn duzla yeyәrdilәr, vәhşi gilas ağaclarına dırmaşıb üst-başları, sir-sifәtlәri qıpqırmızı olanacan doymaq bilmәzdilәr.

Әlbәttә, o zaman Cavanşirin ağlına gәlmәzdi ki, bir vaxt, belәcә bu tutluğa gәlәcәk, o uzaq, çox uzaq uşaqlıq illәrini xatırlayacaq, siqaret çәkә-çәkә bu gül-çiçәyin arasında dolaşacaq vә Mәdinә xanımı gözlәyәcәk.

Gün yavaş-yavaş əyilirdi və bu axşam ərəfəsində, bu gecə ərəfəsində Cavanşir özünü azad və sərbəst hiss edirdi, düzdü, Cavanşirin ürəyində yenə kiçik bir nigarançılıq vardı, amma daha Cavanşir öz-özünə inanmışdı, daha heç kimin yanında, nə Isgəndər Abışovun yanında, nə də başqa birinin yanında dona girməyə bir ehtiyac yox idi. Cavanşir özü olmalıydı, çünki o – özüdür bu saat, bax, bu düzənlikdə gəzişən, o – özüdür Mədinə xanımla tanış olan və bu saat Mədinə xanımı gözləyən.

Cavanşir bugünkü görüş üçün hər şeyi hazırlamışdı və daha ağzına su alıb dayanmayacaqdı, dünənki lal-dinməzliyi, dünənki əfəlliyi yadına düşdükcə tamam pərt olurdu və bunu özündən uzaqlaşdırmağa, unutmağa çalışırdı; bu düzənlikdə, bu tut ağaclarının, bu armud, cır alma, vəhşi gilas, gavalı ağaclarının, böyürtkən, itburnu kollarının arası ilə gəzişə-gəzişə Cavanşir Mədinə xanımın hörmətini və məhəbbətini qazanacaqdı; kim bilir, bu işlərin axırı nə olacaqdı və bəlkə elə lap evlənəcəkdilər Mədinə xanımla...

Cavanşirin ürəyini bir intizar bürümüşdü və bu intizarda gizli bir sevinclə bərabər bir naməlumluq da vardı. Cavanşir tez-tez aşağı, Şuşa istirahət evindən qalxan cığıra tərəf baxırdı və get-gedə onun həyəcanı daha da artırdı, amma bu həyəcanda da bir sevinc vardı, isti bir nəfəs vardı və bir naməlumluq vardı.

Cavanşir Mədinə xanımın gəldiyini əvvəlcə hiss etdi, elə bil bu gül-çiçəyin, bu yaşıl ağacların üstündən çox xəfif, çox incə bir meh əsib keçdi, sonra Cavanşir cığıra tərəf baxdı və tutluğa qalxan Mədinə xanımı gördü.

Mədinə xanım uzaqdan əlini qaldırıb yellədi, Cavanşiri salamladı və onun əlinin bu ürəkdolusu, ahəstə hərəkətində yenə bir mehribanlıq, bir ülfət vardı və birdən-birə Cavanşir özünü bu mehribanlığa, bu ülfətə layiq bilmədi, ona yenə elə gəldi ki, bu ahəstəliyin, bu yüngüllüyün, bu sevinc dolu sərbəstliyin və azadlığın müqabilində bir heçdir.

Mədinə xanım bu axşam tamam başqa paltar geymişdi, əynində açıq rəngli geniş don vardı və bu zövqlə tikilmiş açıq rəngli və geniş don da bu saat bir sevincdən, azadlıq və sərbəstlikdən xəbər verirdi; Mədinə xanım başına şlyapa qoymamışdı, saçlarını da yığmamışdı və Mədinə xanımın uzun qızılı saçları üzünə, boynuna, çiyninə, sinəsinə tökülmüşdü və bu qızılı saçlar da bu saat sevincdən, azadlıqdan və sərbəstlikdən xəbər verirdi; bütün bunlar hamısı Cavanşirçün idi, Cavanşir buna inanmalı idi və bütün bunlar hamısı olmalı idi.

Əslində, lap əslində, Cavanşir qorxurdu ki, birdən Mədinə xanım onun görüşünə gəlməz.

Mədinə xanım Cavanşirlə əl tutuşdu, Cavanşirin əlini ürəkdən gələn bir hərarətlə sıxdı və Cavanşir ürəkdən gələn bu hərarəti o saat hiss etdi, Cavanşirə elə gəldi ki, ovcundakı bu əl bütün gecəni, bütün günü bu ovcun həsrətini çəkib; Cavanşirlə Mədinə xanım güllərin, çiçəklərin arası ilə yanaşı gəzməyə başladı və yenə də hazırladığı, bayaq öz-özünə dediyi bütün sözlər Cavanşirin yadından çıxdı və hətta Cavanşir öz-özünə təəccüb etdi ki, bu gözəl qadın, bu ağıllı qadın onun kimi əbləhdə, bir uzundrazda nə görüb və onun kimi heçliyə bu nə şərəfdi belə? Ən qəribəsi isə bu oldu ki, Cavanşir birdən-birə hiss etdi: bax, burada, Şuşada, bu ağacların arasında keçən o uşaqlıq illəri heç bir uzaqlıqda-zadda deyildi, elə bil dünənin söhbəti idi; bu hiss Cavanşiri əməlli-başlı sarsıtdı və Cavanşir bir müddət heç bilmədi ki, Mədinə xanım nə danışır, sonra Mədinə xanımdan icazə almamış titrəyən barmaqları ilə bir siqaret çıxarıb yandırdı, sonra fikirləşdi ki, Mədinə xanıma da siqaret təklif etmək lazım idi və ümumiyyətlə, bu saat Mədinə xanımın qoluna girmək lazım idi, nəsə maraqlı bir söz danışmaq, nəsə bir iş görmək lazım idi.

Nə gözəl hava idi, günəşin şəfəqləri üfüqü necə də qıpqırmızı qızartmışdı, gün necə də uzun idi; Mədinə xanım istirahətə həmişə tək gedirdi, bəlkə də bu bir eqoizm idi, ola bilər, amma başqa cür bu gözəllikdən, bax, beləcə həzz almaq, gözəlliyi bu cür duymaq, hiss etmək, bəzən mümkün olmurdu; gözəlliyi duymaq, hiss etmək, gözəllikdən zövq almaq özü bir eqoizm deyilmi? Görünür, eqoizm insan təbiətinin elə bir hissəsidir ki, ondan yaxa qurtarmaq, tamam yaxa qurtarmaq mümkün deyil, bəlkə heç lazım da deyil. Əslində tənhalıq hissini yaradan da eqoizmdir, bax, bu, dəhşətdir, bu, pisdir, bu yerdə gərək mütləq başqalarını fikirləşəsən, başqalarını düşünəsən, tənhalığa qapılmayasan, bu zaman gərək başqasının sevincinə şərik olmağı bacarasan; əlbəttə, tənhalıq bəzən adamı elə təqib edir ki, ondan qaçmaq olmur, iyirminci əsrin bu bəlası adamı dinc qoymur bəzən; bütün bu sözlərdən, bu fikirlərdən, bu etiraflardan sonra Mədinə xanım heç nə olmayıbmış kimi, çox sadəcə və çox da təbii Cavanşirin qoluna girdi və bir an onun qoluna sıxılıb soruşdu:

– Hara gedəcəyik?

Əlbəttə, Cavanşir belə sual gözləmirdi və döyüküb qaldı; sonra bir ildırım sürətilə, çox təcili cavab axtarmağa başladı və birdən-birə Isgəndər Abışov yadına düşdü, cibindəki təqaüdü yadına düşdü və heç özü də bilmədi ki, necə dedi:

– Gedək parka... kababxanaya...

Mədinə xanım bu dəfə gizlədə bilmədiyi bir təəccüblə Cavanşirə baxdı:

– Acmısınız?

Cavanşir qulaqlarının dibinə kimi qıpqırmızı qızardı və əlini üzünə aparıb yalandan alnını qaşıdı ki, Mədinə xanım bunu görməsin; bircə anın içində yüz iyirmi səkkiz kiloluq Əbülfət gəlib durdu gözlərinin qabağında və Əbülfətin kababxanasındakı kabab iyi, quyruq iyi, araq iyi Cavanşirin burnuna gəldi və bu təmiz havada, bu gülün-çiçəyin içində, bu gözəl qadının yanında belə bir əbləh fikrin ağlına gəlməsinə heyrət etdi.

– Yox... acımamışam... – dedi Cavanşir. – Elə-belə dedim...

Mədinə xanım yenə Cavanşirə baxdı, sonra elə bil birdən-birə nəsə tapdı və bir sui-qəsd hazırlayırmış kimi yavaşcadan, özü də çoxdan bəri axtardığı bir şeyi tapan adamlar kimi sevinclə dedi:

– Bilirsiz... Gəlin gedək mənim otağıma. Mən otaqda təkəm, başqa heç kim olmur...

Cavanşir qulaqlarına inanmadı.
Mədinə xanım dedi:
– Mənim pəncərəmdən üfüq də görünür. Bir yerdə tamaşa eləyərik günəşin batmasına...
Mədinə xanımın üfüqlə günəş barədəki sözləri bir az süni çıxdı.
Onlar istirahət evinə enən cığıra düşdülər.
Onlar Mədinə xanımın otağına gedirdilər və Mədinə xanımdan başqa bu otaqda heç kim yox idi.
Cavanşir, heç olmasa, beş dəqiqə tək qalmaq istəyirdi, özünə gəlmək istəyirdi.
Aşağıda Şuşa istirahət evinin ikimərtəbəli, üçmərtəbəli binaları görünürdü, yavaş-yavaş pəncərələrin işıqları yanırdı.
Cavanşir dedi:
– Gedim konyak alım...
Mədinə xanım dedi:
– Lazım deyil... Məndə konyak var...
Onlar elə danışırdı, elə bil, doğrudan da, ortada bir sui-qəsd var idi.
Mədinə xanım Cavanşirin qolundan tutmuşdu və hərdən ayağı büdrəməsin, yoxuşu enəndə otun üstü ilə sürüşməsin deyə Cavanşirə qısılırdı.
Cavanşirin boğazı tamam qurumuşdu və siqaret də çıxarıb yandıra bilmirdi və Cavanşir əslində bunu da bilmirdi ki, belə bir həyəcanın səbəbi sevinməyindəndi, çəkinməyindəndi, ya nədəndi.
Mədinə xanım cığırın kənarındakı alça ağacının yanında ayaq saxladı:
– Ikimizin bir yerdə içəri girməyi yaxşı deyil, – dedi. – Hər halda, Şuşa Şuşadı, Karlovı-Varı deyil, – dedi və gülümsədi. – Bax, o qıraqdakı ikimərtəbəli binanı görürsünüz, sol tərəfdən lap birinci pəncərə mənimdi, ikinci mərtəbədə, – dedi. – Gördünüz?
Cavanşir:
– Hə, görürəm... – dedi.
Mədinə xanım:
– Qoyun əvvəlcə mən gedim, – dedi. – Sonra, beş-altı dəqiqədən sonra siz gəlin... Qapını açıq qoyacağam... – Mədinə xanım gülümsədi. – Oldu?.. – deyə soruşdu.
Cavanşir:
– Hə... – dedi.
Mədinə xanım əlini Cavanşirin qolundan çəkib cığırla aşağı düşdü. Mədinə xanım əlini onun qolundan çəkəndə bu hərarətli əl bir neçə an Cavanşirin çılpaq qolunda sürüşdü və bu hərəkət Cavanşirin içinə bir titrətmə gətirdi.
Mədinə xanımın əlinin Cavanşirin qolundakı hələ də istisi qalmış yerinə sərin meh toxundu.
Bir sərin meh əsməyə başladı.
Gün özü daha görünmürdü, amma üfüq qıpqırmızı idi.
Cırcıramalar yavaş-yavaş axşam cırıltısına başlamışdı və bu cırcırama səsinə hardansa arabir qurbağaların da qurultusu qarışırdı.
Yağış yağacaqdı?
Birdən Cavanşirə elə gəldi ki, ürəyində nə vaxtdandı bir yağış həsrəti var; bir şıdırğı yağış istəyir ürəyi; bir ildırım çaxsın, göyün qaranlığında bir ildırım parlasın, hər tərəfi bir ildırım səsi lərzəyə gətirsin; Cavanşir bütün bədəni ilə bu şıdırğı yağışı hiss etdi.

Üfüqün şəfəqləri get-gedə solurdu tamam.

Sonra Mədinə xanımın pəncərəsində işıq yandı.

Cavanşir alça ağacına söykənib o pəncərə işığına baxırdı və bu saat tamam əmin idi ki, həmin otağa girəndə Mədinə xanım onu əyninə geydiyi yaraşıqlı, uzun xalatla qarşılayacaq və Mədinə xanım divanda oturanda ətəkləri arasından çılpaq baldırları görünəcək.

Ən pisi, ən dəhşətlisi bu idi ki, o çılpaq baldırlar bu saat Cavanşirə heç bir sirli aləmdən, heç bir kefdən, məstlikdən xəbər vermirdi və elə bil ki, o çılpaq baldırlar Cavanşirin ürəyindəki yağış həsrətini çirkləndirirdi, lap çirkaba batırırdı.

Əlbəttə, Cavanşir başa düşürdü ki, belə eləmək olmaz, belə bir iş kişilikdən deyil, bu, uşaqlıqdı, lap uşaqlıqdı, amma ayaqları Cavanşirin sözünə baxmırdı, ayaqları onu bu cığırdan, bu alça ağacının yanından və ən başlıcası isə o pəncərə işığından uzaqlaşdırırdı; ayaqları Cavanşiri harasa başqa yerə aparırdı, onu bu tərəflərdən qaçırırdı.

Cavanşir cığırdan çıxıb otluqla gedirdi və Cavanşir heç özü də bilmədi ki, Şuşa istirahət evi necə arxada qaldı, o işığı yanan pəncərə, onu çağıran, onu gözləyən pəncərə necə görünməz oldu, necə gəlib Şuşanın aşağı başındakı Qayabaşına çıxdı.

Qayabaşı tərəfdə heç kim yox idi və artıq tamam qaranlıq çökmüşdü. Qarşıdakı dağların arasındakı kəndlərin işıqları yanırdı və bir-birindən xeyli aralı bu kəndlər gecənin qaranlığında dağların arasında, dağların döşündə ovuc-ovuc işıqlar idi, elə bil ki, çox-çox uzaqlardakı ayrı-ayrı kəhkəşanlar idi və Cavanşir bu uzaqlıqdakı yaxınlığı duydu, hiss etdi və birdən-birə ağlına gəldi ki, onun fikri, düşüncəsi, hissi Dürdanə üçün heç bir uzaq qalaktika-zad deyil.

Qarşıdakı bu kəndlərin işığı elə bil ki, bir istilik gətirdi. Cavanşir bu saat bütün bu tərəflərdə, bu qayaların arasında bu dağlarla üzbəüz tamam tək idi, qayaya söykənib oturmuşdu, kəndlərin ovuc-ovuc işıqlarına – dağların arası ilə qıvrılıb gedən, Molla Nəsrəddin yolunda hərdənbir görünən maşın işıqlarına baxırdı və ona elə gəlirdi ki, əslində tək deyil, kimsə yanındadı, kiminsə nəfəsini hiss edir, sonra ona elə gəldi ki, bu nəfəs, bu üns Dürdanənindi: Cavanşir bu fikrin gözlənilməzliyinə və bu fikrin həqiqətinə heyrət etdi; Cavanşir birdən-birə qorxdu ki, nənəsi Dürdanənin yanında da ona «a kişi qırığı» deyər.

Bu tərəflər tamam sakitlik idi və qarşıdakı yarğanın dibi ilə axan Daşaltı çayının qıjıltısı aydın eşidilirdi. Yarğanın o tayındakı Xəznə qayasının isə kölgəsi qaralırdı, sıldırımları hiss olunurdu və Cavanşir uşaqlıqda bu yerlərə çox gəlmişdi, bilirdi ki, Xəznə qayasına Qızıl qaya da deyirlər: Qacar Şuşaya basqın edəndə Ibrahim xan var-dövlətini Xəznə qayasının üstündə basdırır, bu işi iki nəfər görür, sonra biri o birini qayadan tullayır ki, xəzinənin sirrini heç kimə verməsin, sonra özü də Xəznə qayasında yoxa çıxır.

Xəznə qayası isə indi insanın belə bir əməli müqabilində əzəmətlə dayanmışdı, özü də lap canlı idi. Xəznə qayası cansız sıldırım qaya deyildi, nəfəs alırdı, qulaq asırdı, görürdü və susurdu.

Hərgah dünyada, bax, bu Xəznə qayası vardısa, bax o Daşaltı çayının qıjıltısı beləcə eşidilirdisə, bax, o ovuc-ovuc işıqlar beləcə yanırdısa, Isgəndər Abışov niyə öz həyatından narazı idi və niyə günlərinin yeknəsəqliyindən danışırdı?

Sonra birdən-birə ildırım çaxdı, birdən-birə şıdırğı bir yağış başladı və bir müddətdən sonra bu Şuşa yağışı birdən-birə başladığı kimi birdən-birə də kəsdi.

Əslində, lap əslində, Cavanşir qorxmurdu ki, birdən Mədinə xanım onun görüşünə gəlməz, Cavanşir istəmirdi ki, Mədinə xanım gəlsin; Cavanşir özü bunu bilmirdi, amma bu belə idi; amma Mədinə xanım gəldi və Cavanşir qaçdı.

Sonra yavaş-yavaş bir duman gəldi, qarşıdakı ovuc-ovuc işıqlar əvvəlcə bu dumanda yayıldı, sonra tamam görünməz oldu, Xəznə qayası da dumanda yox oldu və Cavanşirə elə gəldi ki, sabahkı gündü, onun anadan olduğu gündü, bir qız, cavan, təmiz, utancaq bir qız Cavanşirin çox xoşladığı alma piroqu bişirib gətirib onu təbrik edir, Cavanşiri dünyanın ən cəsuru bilir, Cavanşirin heç nədən qorxmamağı ilə, heç nədən çəkinməməyi ilə fəxr edir və bu, doğrudan da, belədir; o cavan qız, o təmiz, utancaq qız başqa heç nə demir, utana-utana, qızara-qızara özünü məcbur edir, Cavanşirin yanağından öpür və bu xəfif öpüşü bütün bədəni ilə hiss edən Cavanşir də hamının gözünə dik baxa bilir, çünki Cavanşir istəklidir, çünki Cavanşir arxadır, çünki Cavanşir istinadgahdır; və Cavanşir hər tərəfi bürümüş bu duman içində Dürdanənin gözlərini, üzünü, saçlarını aydınca gördü...

Şuşa sanatoriyasının həyətində isə Müslümün klarnet çalmağına imkan olmadı. Şuşaya duman gəlmişdi, amma Sadıq müəllimin meydana toplaşanlarla sağollaşmasından qabaq Hüsaməddin Alovlu ondan icazə aldı, meydanın ortasına çıxıb bu gün yazdığı yeni şerini oxumağa başladı:

Nevesta budeş
Tı materi moey!
Oçen xoroşo!
Oçen xoroşo!

Hüsaməddin Alovlunun bu sətirləri Marusya Nikiforovanın ürəyindən xəbər verirdi və o, meydanın ortasındakı bu sevimli oğlana baxa-baxa dünyanın ən gözəl şerinə qulaq asırdı.

Və bu dəm xalatlı Isgəndər Abışov da Şuşa sanatoriyası kitabxanasının qapısı ağzında dayanıb gizlin-gizlin Azadəyə baxırdı və fikirləşirdi ki, görəsən, ona imzasız sevgi məktubu yazan bu qızdı, yoxsa yox?

*Aprel, 1977.*

## BÜLBÜLÜN NAĞILI

Dan ötdü, gün doğdu və həmin gün birdən-birə bu büllur çilçırağın, bu qızıl şamdanların, Təbriz ustalarının düzəltdiyi bu gümüş pəncərə şəbəkələrinin parıltısı basma kağıza düşmüş sarı mürəkkəb damcısı kimi yayıldı, yayıldı və yox oldu, bu xalıların, gəbələrin alışıb-yanan rəngləri, mütəkkələrin, döşəkcələrin üzünə çəkilmiş, qapı-pəncərələrə tutulmuş Çin ipəyinin, hind mahudunun işıltısı, qız-gəlinin barmaqlarını, biləklərini, bellərini, boyunlarını, qulaqlarını, oğlanların xəncərlərinin qınını, dəstəyini bəzəyən ləl-cavahiratın şöləsi gözdən itdi, kəniz-qaravaşların gizli bir hüznlə onunçün oxuduqları mahnıların, çaldıqları udun səsi tamam eşidilməz oldu və hər tərəfi bir bozluq bürüdü və bu hər tərəfi bürümüş bozluq get-gedə işıqlandı, şəffafflandı və bu işıqda o kiçik, kimsəsiz yetim uşağın solğun çöhrəsi göründü.

Neçə gün idi ki, o kəniz-qaravaşın onunçün oxuduğu nəğmələrin nəfəsində, çaldığı udun səsində həmin gizli hüznü vücudunun hər bir hüceyrəsi ilə hiss edirdi, qız-gəlinin gözünün dibinə çökmüş kədəri duyurdu, oğlanların bir-birinə baxışında sahibsiz qalmış bu cah-cəlalın üstündə gələcək əlbəyaxalar ehtirasının qığılcımlarını sezirdi.

Neçə gün idi ki, elə bil, kimlər isə yorulmurdu, Dədə Qorqudun sözləri ilə onun qulağına pıçıldayırdı: « – Qız-gəlinin qas-qas gülməz oldumu?; qızıl xına ağ əlinə yaxmaz oldumu?». Bu kimsələrin pıçıltısında açıq-aşkar bir şadlıq vardı, elə bil ki, illərin həsəd yükündən qurtulmuşdular, uzun-uzun illər boyu bu sözləri demək yanğısı, həsrəti sona yetmişdi və indi elə bil ki, tanrılarına şükür eləyirdilər, ürəkləri rahatlanırdı, pıçıldayırdılar, pıçıldayırdılar: – «Ağbirçəkli arvadların bıldır-bıldır ağlayacaq, qaza bənzər qız-gəlinin gözünün yaşını tökəcək, acı dırnaq ağ üzlərə aldı-çaldı salacaq, al yanaqlar dartılacaq, qarğı kimi qara saçlar yolunacaq, ağ çıxarılacaq, qara donlar geyiləcək, ağ-boz atlarının quyruğu kəsiləcək, igidlərin qara geyib, göy sarıyacaq, ev-eşiyində şivən qopacaq».

Sonra o, bu pıçıldayanların səsindəki ehtirasdan, şövqdən, hərislikdən tanıdı ki, bunlar uzun-uzun illər boyu ölüb getmiş mal-dövlət sahibləridi, tanış-bilişlərdi və bu açıq-aşkar hiss olunan şadlıq da onu deyirdi ki, axır ki, sənin də axırın çatdı, axır ki, səninki də qurtardı; onların sifətini gözünün qabağına gətirə bilmədi, üzlərini görmədi, amma hamısını tanıdı; bunların bir çoxunu o, talamışdı, bir çoxunun qızılı, daş-qaşı, kəniz-qaravaşı, qulbeçələri sonradan onun olmuşdu, yığılmışdı, yığılmışdı, yığılmışdı.

Neçə gündü ki, onun üçün ünüm ünlə, sözüm dinlə deyiləsi bir qüvvə, bir pənahgah, imdad yeri yox idi, hər şey qurtarırdı, təkcə bir boşluq vardı, dibi görünməyən bir quyu vardı və o, bütün vücudu ilə hiss edirdi ki, bu qaranlıq quyunun dibinə uçmağına lap az qalıb, çünki xanlar xanı Bayandura da qalmamışdı bu dünya və Dədə Qorqud boy boylamışdı, söy söyləmişdi, oğuznamə düzmüşdü və belə demişdi: « – Onlar dəxi bu dünyaya gəlib keçdi. Karvan kimi qondu köçdü. Əcəl aldı, yer gizlədi, fani dünya yenə qaldı. Gəlimli, gedimli dünya. Son ucu ölümlü dünya».

Neçə gündü ki, o ölürdü, bunu hamı bilirdi və bunu o özü də bilirdi, yolüstü qonaq idi; azar-bezar söhbəti deyildi bu, qocalıq idi, elə bil ki, son payıza qalmış ağac idi, canının suyu qupquru qurumuşdu, şaxələri, qol-budağı qupquru qurumuşdu və bədən də təkcə bu qupquru qurumuş ağacdan ibarət idi, bir damcı da su yox idi və bu ağac bu saat ovulub-töküləcəkdi, bir torba ovuntu olacaqdı.

Və birdən-birə onun ölüm taxtını hər tərəfdən bürümüş bu sarı qızıl parıltısı, ləl-cavahir işıltısı yox oldu, bir şəffaflıq yarandı və bu şəffaflıq içində bu təmizlik, paklıq içində o yetim uşağın solğun çöhrəsi göründü.

O, pərqu yorğan-döşəkdə uzanıb gözlərini yummuşdu və bütün gücünü, diqqətini toplayıb zəndlə o solğun çöhrəyə baxırdı; əlbəttə, hələ bu uşağın xəbəri yoxdu ki, illər keçəcək və o, bir ucu Irandan, bir ucu Turandan tutmuş, dünyanın ən dövlətli adamı olacaq, xəzinəsinin daş-qaşı çəki ilə çəkiləcək, ilxılarına şahzadələr həsəd aparacaq, xurcunları ipək-qumaş dolu dəvə karvanları Irandan, Turandan keçib, Məğrib səhralarını adlayıb, Əndəlisəcən ellər-obalar dolaşacaq, gəmiləri dəryalar üzəcək, əlbəttə, hələ bu uşağın xəbəri yox idi ki, ağına-bozuna baxmadan, insaflı və insafsız yollarla, yaltaqlıqla və hədə-qorxu ilə, ayaq öpməklə və baş kəsməklə, yalandan gülməklə və yalandan ağlamaqla bütün ömrü boyu mal-dövlət yığacaq, öz dünyasını hamını heyrətə gətirən və hamını da çəkindirən, ürküdən bir nağıl dünyasına çevirəcək; əlbəttə, hələ bu uşağın xəbəri yox idi ki, uzun-uzun illər keçəcək və o, son məqamda özü ilə beləcə üzbəüz dayanacaq.

O, gözlərini yumub zəndlə bu solğun çöhrəyə baxırdı və təəccüb edirdi ki, bu zəif vücud o qüvvəni, o ehtirası ki, heç nəyin qabağında dayanmadı və heç nədən indi üləmaların da hesablayıb qurtara bilmədiyi bu cah-cəlalı yaratdı; sonra o buna təəccüb etdi ki, nə üçün birdən-birə o uşağı xatırladı; uzun-uzun illər boyu o uşaq tamam silinib xatirədən getmişdi, çox-çox uzaqlarda – ünyetməz bir uzaqlıqda qalmışdı və necə oldu ki, birdən-birə belə bir şəffaflıq yaratdı, birdən-birə beləcə peyda oldu?

O, zəndlə bu solğun çöhrəyə baxdı və daha onların ikisindən başqa dünyada heç kim yox idi; dünyada yalnız bir şəffaflıq, bir də ki, çoxdan unudulmuş paklıq, təmizlik vardı və bu təmizlik içində o solğun çöhrə görünürdü və birdən-birə ona elə gəldi ki, bu şəffaflıq su şəffaflığıdı və o solğun bəniz də suyun altından ona baxır; uzun saçları suyun içində yayılmışdı, gözləri suyun içində donmuşdu; ona belə gəldi və birdən-birə də nəfəsi qaraldı, elə bil ki, təzədən onillikləri, iyirmiillikləri geri adlayıb yenə həmin solğun bənizli uşaq olmuşdu və suyun içində də gözləri beləcə donub qalan indi özü idi; amma yox, heç vaxt belə ola bilməzdi, çünki Dədə Qorqud belə söyləmişdi: « – Ölən adam dirilməz. Çıxan can geri gəlməz». Və bu zaman elə bil ki, o özü özündən ayrılıb, öz içindən çıxıb bir hava kimi, bir yüngüllük kimi, özü öz taxtının üstünə qondu və yuxarıdan aşağı özünə baxdı: ağappaq saçları uzanmış, ağappaq saqqalı uzanmış, gözləri qapanmış, arıq sifətinin qansız dodaqları səyriyən bir qoca gördü və elə bil ki, bu qocanı görüb diksindi, bu qocanın yanından, bu qocanın gömgöy sifətindən qorxdu, bu qocanın yaşadığı uzun-uzun illərin çoxluğundan dəhşətə gəldi və birdən-birə də elə bil ki, o yüngüllüyü, o havanı nəyəsə pərçim etdilər, sıxdılar, çünki hər şey yox olmuşdu dünyada, təkcə bu ağ saçlar və gömgöy sifət qalmışdı; uzun-uzun illər boyu yığılmış, əldə edilmiş var-dövlət bir heç olmuşdu, cah-cəlal bir heçə dönmüşdü və bütün dünyada təkcə bu qoca qalmışdı.

Yenə həmin şəffaflıq hər tərəfi bürüdü, amma o solğun uşaq çöhrəsi həmin şəffaflıqdan əridi, yox oldu və o, bütün vücudu ilə hiss etdi ki, bu şəffaflıq içində başqa nəsə görünməlidi; bu «nə isə» çoxdan unudulmuş bir görüm idi, amma nə idi – bilmirdi, amma bilirdi ki, «nə isə» var və həmin «nə isə» bu şəffaflıqda görünməlidi, illərin kirəc bağlamış qatları arasından, illərin yorğunluğu altından, illərin tələsikliyi, vaxt çatışmazlığı altından, haqq-hesablar altından çıxmalıdı və bu şəffaflıqda görünməlidi.

Sonra onun yumulmuş gözlərinin qarşısındakı şəffaflığa bir zümrüd yaşıllığı qondu və o əvvəlcə təəccüb etdi ki, daş-qaş şöləsi bu şəffaflığa necə sirayət edə bildi? Sonra başa düşdü ki, bu zümrüd yaşıllığı zümrüdün yaşıllığı, firuzənin göylüyü deyil, bu o meşənin göylüyü, yaşıllığı idi, köksü gözəl dağlardakı o meşəyə gün dəymişdi və bu şölə də o meşənin şöləsi idi.

O, həmin «nə isə»ni xatırladı və hər tərəfi bürümüş meşə yaşıllığı içində neçə-neçə illər bundan əvvəlki sarı bülbülü gördü və sarı bülbülün nəğməsini eşitdi, amma meşədəki yox, əvvəlki nəğməsini eşitdi, hüznlü, kədərli nəğməsini.

O bilirdi ki, bu dəm qız-gəlini başının üstündə dayanıb, oğlanları, kürəkənləri onun taxtının ətrafına düzülüb, kəniz-qaravaşlar onun üçün nəğmə oxuyur, ud çalır, bunu bilirdi, amma heç kimi görmür və heç nəyi eşitmirdi, gözlərinin qabağında təkcə bu meşə yaşıllığı idi, bu meşə yaşıllığı içindəki o sarı bülbül idi və bir də o sarı bülbülün nəğməsini eşidirdi, amma meşədəki yox, əvvəlki nəğməsini eşidirdi, hüznlü, kədərli nəğməsini.

Onda yaz gəlmişdi və onun təzə saldırdığı bağça başdan-başa gül açmışdı, çiçəklənmişdi və heç kim ağlına gətirmirdi ki, bu təzə bağçanın sahibi cavan tacir – gündən-günə şöhrətlənən, gündən-günə dövlətlənən və bu şöhrət üçün, bu dövlət üçün gecəsini gündüzə qatan, biri Həbəşistandan, biri Çindən, biri Hindistandan, biri də Dəclə sahilindən dörd gözəllər gözəli arvadlarının yatağına belə girməyə vaxt tapmayan cavan tacir bir vaxt ac-yalavac bir yetim idi və həmin yetim öz aclığından ayrılmaq üçün ağlasığanı da etdi, sığmayanı da, sonra dayana bilmədi, həmişə çoxu az gördü, doymadı, həm bəxti gətirdi bu dünyada, həm zehni itiydi, fərasətliydi, yığdıqca yığdı, qızıl qızıl gətirdi, dünyanın ən böyük və ən təmiz almazları, zümrüdlər, yaqutlar, firuzələr, mirvarilər saxsı küplərə dolduruldu və bu saxsı küplərin sayını artırmaq hərisliyi dünyada onunçün hər şeyi əvəz etdi.

Elə bil ki, saxsı küplərin kölgəsi onun yumulmuş gözlərinin qarşısındakı o meşə yaşıllığını, o sarı bülbülün işığını söndürmək istədi, amma o, bütün gücünü topladı və həmin meşə yaşıllığına kölgə düşməyə qoymadı və yenə də dünyada heç nə və heç kim yox idi, nə o saxsı küplər, nə o hərislik, nə aldadılıb var-dövləti əlindən alınmış və təsbeh daşları sapa düzülən kimi, uzun-uzun illərin sayına düzülmüş saysız-hesabsız adamların ah-fəğanları – heç nə yox idi, təkcə köksü gözəl dağlardakı o meşəyə gün dəymişdi, bir də o bülbül idi, amma bülbül meşədəki nəğməsini yox, əvvəlki nəğməsini ötürdü, yenə də həmin kədərlə, hüznlə ötürdü, bir də ki, o ağsaçlı, ağsaqqallı, üzünə gömgöy bir rəng çəkilmiş qoca idi.

Onda yaz gəlmişdi və o təzə bağça başdan-başa gül açmışdı, çiçəklənmişdi və bağçanın ortasında yeddi yerdə qızıldan tökülmüş balıqların ağzından fəvvarə vuran ağ mərmər çarhovuz dünyanın ən zərif sərinliyini bu bağçaya gətirirdi, müşk-ənbərli çarhovuz suyunun ətri güllərin, çiçəklərin ətrinə qarışırdı, nar ağacları, gilənar ağacları, ərik, şaftalı, gavalı ağacları, hamısı güllüyə dönmüşdü və həmin müşk-ənbər ətirli, güllü-çiçəkli yaz günlərinin birində bağçanın yanından bir dərviş ötdü; bu dərvişin əlində tutduğu təbərzinin dəmir ayparasının üstünə sarı bir bülbül qonmuşdu – dərviş sap kimi nazik dəmir zəncirlə bülbülün ayağını təbərzinin taxtasına bağlamışdı və həmin bülbül o dəm dünyanın ən dərdli-ələmli nəğməsini ötürdü.

O, ayağı narın zəncirli bu sarı bülbülə baxdı və bir kəlmə də söz deməyib dərvişin hind qozu qabığından qayrılmış kəşkülünə bir-birinin dalınca on qızıl atdı və zənciri qırdı, bülbülü bağçaya apardı, qızıldan böyük bir qəfəs düzəltdirdi, qəfəsi çarhovuzun yanında ən səfalı yerdə asdırdı, bülbülü bu böyük qızıl qəfəsin içinə saldı və hər gün bir səhər tezdən, bir də axşamçağı vaxt tapıb bu böyük qızıl qəfəsin içindəki bülbülə tamaşa eləməyə gəldi.

Sarı bülbül o böyük qızıl qəfəsin içində, o güllü-çiçəkli səfalı bağçada, o yeddi fəvvarəli sərinlikdə, o müşk-ənbər ətrində səhər-axşam oxumağa başladı, amma bülbül yenə də həmişə yanıqlı ötdü və onun ötdüyü bu nəğmələr səhər-axşam dünyanın dərdindən, qəmindən xəbər verdi, o kiçik sarı varlıq hər tərəfə o qədər dərd, qəm səpələdi ki, elə bil bu bağçanın gülləri, çiçəkləri yayın istisindən, payızın çiskinindən saralıb-solmadı, bülbülün bu nəğmələrindən saralıb-soldu.

O, başqa bir bülbül tapdırıb qəfəsə saldırdı ki, sarı bülbül tək qalmasın, kar eləmədi, qəfəsi daha da böyütdürdü, genişləndirdi, kar eləmədi, axırda günlərin bir günündə bütün işini-gücünü atıb ilxısının gözü olan göydəmir ürgəni mindi və çapıb bağçaya girdi, qızıl qəfəsin ağzını açdı, sarı bülbülü qəfəsdən buraxdı və göydəmir ürgəni bülbülün ardınca çapmağa başladı; tacirliyə qurşanmış bir yeniyetmə də onu tək buraxmadı, onunla yanaşı çapdı.

Sarı bülbül dağlar aşıb, dərələr keçdi, çaylarda çimib, bulaqlardan su içdi, az getdi, çox getdi, dərə-təpə düz getdi, axırda gəlib köksü gözəl o dağlardakı meşəyə çatdı və meşədəki qoca bir palıd ağacının ovuğunda köhnə yuvaya girdi; sarı bülbül o qədər uçmuşdu ki, tamam taqətsizdi, amma güclə başını qaldırıb meşəyə baxdı və bu dəm meşəyə gün dəydi, meşənin yaşıllığı günün şüaları altında alışıb yandı, göz qamaşdırdı və bülbül bütün gücünü toplayıb oxumağa başladı.

Köksü gözəl o dağlardakı meşədə o dəm sarı bülbül dünyanın ən cəhcəhli nəğməsini oxudu və bu nəğmə dünyanın yaxşı-yaxşı işlərindən xəbər verdi, bu nəğmə güldən, çiçəkdən danışdı, dünyanın gözəl meşələrindən, saf bulaqlarından, təmiz dəryalarından söylədi; sarı bülbülün nəğməsi ürəyə sevinc gətirdi, şadlıq gətirdi, bu nəğməyə köksü gözəl dağlar qulaq asdı, kölgəli qayalar, kəklikli çınqıllar, işıqlı çəmənlər qulaq asdı və bu nəğməyə, bir də ki, yeniyetmə tacirlə o, qulaq asdı.

O, çaphaçapdan başdan-ayağa köpük bağlamış göydəmir ürgənin belində oturub bu qoca palıd ağacına baxırdı, bu ağacın gövdəsindəki kiçik ovuğa baxırdı və bülbülün nəğməsinə qulaq asırdı; o başa düşürdü ki, bu nəğmə sarı bülbülün son nəğməsidi və o burasını da başa düşürdü ki, sarı bülbül özü də bunu hiss edir, oxuyur, bülbül özü də bilir ki, son nəğməsidi, ötür.

Və sarı bülbülün nəfəsi kəsildi, nəğməsi sona yetdi.

Meşəyə sükut çökdü.

Köksü gözəl o dağlardakı meşəyə çökmüş sükutu yeniyetmə tacir pozdu:

– Axmaq bülbül, – dedi. – Qızıl qəfəsdə, gülün, çiçəyin içində bəslənirdin, oranı bəyənmədin, bir ağac ovuğunu ondan üstün tutdun, axırda da ürəyin partladı, öldün.

O, gözlərini palıdın ovuğundakı yuvadan çəkib yeniyetmə tacirə baxdı və heç nə demədi.

Sonra göydəmir ürgəni çapıb meşədən çıxdı.

Köksü gözəl o dağlardakı meşə arxada qaldı.

Sonra o meşə tamam yaddan çıxdı və o sarı bülbül də tamam unuduldu.

Günlər, aylar, illər keçdi və bu uzun-uzun illər boyu o meşə də, o bülbül də heç vaxt yada düşmədi.

Indi birdən-birə o meşənin zümrüd yaşıllığı hər tərəfi bürüdü, amma bu zümrüd yaşıllığın içində sarı bülbül meşə nəğməsini oxumadı, elə hey əvvəlki nəğməsini, dərdli-ələmli nəğməsini oxudu.

O, gözlərini qapayıb hər tərəfi bürümüş bu meşə yaşıllığına baxırdı və çox istəyirdi ki, bülbül bu dəm onun qulaqlarında həmin nəğməsini oxusun, dünyanın gözəl meşələrindən, saf bulaqlarından, təmiz dəryalarından xəbər versin, dünyanın yaxşı-yaxşı işlərindən danışsın, amma sarı bülbül onun gözləri qarşısındakı bu yaşıllıq içində elə hey öz dərdli nəğməsini oxuyurdu və o, başa düşdü ki, bu nəğmə əslində onun özünün köksündən qopub gələn bir nəğmədi, onun özünün son nəğməsidi və bu son nəğmə heç cürə o meşə nəğməsinə çevrilmir.

Sonra hər tərəfi bürümüş meşə yaşıllığı yox oldu, bülbülün nəğməsi də kəsdi və yenə də hər tərəfi bir bozluq bürüdü və bu bozluq içində, o, yenə elə bil ki, yuxarıdan aşağı özünə baxdı, yenə ağ saçları, ağ saqqalı, gömgöy arıq sifəti gördü, amma bu dəfə daha diksinmədi, çünki diksinməyə vaxt qalmamışdı, həmin qaranlıq quyunun dibi onu özünə çəkirdi.

Onun saz dinləməyə, Dədə Qorqud boylarına qulaq asmağa əməlli-başlı vaxtı olmamışdı, işlərindən macal tapmamışdı, amma bu axır məqamda da onu Dədə Qorqudun sözləri ilə səslədilər; onu heç vaxt üzünü görmədiyi atası səslədi: « – Oğul, oğul, ay oğul. Qarşı yatan dağın yüksəyi, oğul. Güclü belim qüvvəti, canım, oğul. Qaranqulu gözlərimin aydını, oğul».

O yuxarıdan aşağı özünə baxdı və təkcə təəccüblənməyə macal tapdı ki, bu cür ağsaçlı, ağsaqqallı da oğul olar? Bir də ona imkan tapdı ki, köksü gözəl o dağlardakı meşədə yeniyetmə taciri xatırlasın və bütün gücünü – son gücünü toplayıb öz-özünə pıçıldasın: « – Axmaq yeniyetmə». Sonra həmin qaranlıq quyunun dibinə uçdu və hər şey bitdi.

*May, 1980.*

## BALADADAŞIN TOY HAMAMI*

***Polad Məcnunbəyovun xatirəsinə***

Həmin payız günü Abşeronda birdən-birə bir xəzri başlamışdı ki, gəl görəsən və xəzri dənizi köpükləndirə-köpükləndirə əsdikcə əsirdi, dayanmayacaqdı elə bil, elə həmişə beləcə əsəcəkdi: sahilə yaxın dəniz bu xəzrinin altında çay kimi axırdı və adama elə gəlirdi ki, elə bil ağappaq köpüklü dalğalar deyildi, dünyanın saysız-hesabsız qağayıları almışdı dənizin üstünü; xəzri Abşeron bağlarındakı meynələrin saralmış budaqlarını qumun üstündən qaldırmışdı və bu meynə budaqları bu dəm ovsunçunun qabağında quyruğu üstə qalxmış ilanlar kimi qumluqda baş qaldırmışdı, külək zeytun ağaclarının bütün yarpaqlarını bir yerə yığıb əsdirirdi, topa-topa ağ-boz buludları cənuba axıdırdı və ən qəribəsi bu idi ki, bu bozluq içində həmin payız günü Abşeron göyündə günəş də var idi və bu topa-topa ağ-boz buludlar da dənizə, sahilin qumluğuna, qayalıqlara topa-topa da kölgələr sala-sala axırdı.

Amma axşama yaxın xəzri yavaşımağa başladı və çayçı Qəzənfərin də kefi yavaş-yavaş durulmağa başladı, çünki külək sakitləşdikcə, müştərilər get-gedə artırdı və müştərilər bu gəlişlə gəlsəydilər, bir azdan çayçı Qəzənfərin çayxanasında yenə oturmaq üçün bir boş kətil qalmayacaqdı və o zaman ki, bu balaca çayxanada oturmaq üçün bir dənə də boş kətil qalmayacaqdı, onda çayçı Qəzənfər çayniki çaynik üstündən dəmləyəcəkdi, hər əlində bir-birinin üstünə düzülmüş on armudu stəkanı birdən gəzdirəcəkdi və onda çayçı Qəzənfərin kefinə qəti söz ola bilməyəcəkdi; onda hamı baxıb görəcəkdi ki, çayçı Qəzənfər necə çayçıdı və nahaq yerə kişinin hər əlində on armudu stəkan çay aparan yerdə şəklini çəkib qəzetdə çap eləməyiblər və onda sarı mis samovarın altındakı köhnə yazı mizinin yeşiyində yığılan manatlıqların da sayı bir-bir artacaqdı, manatlar gedib, üçlüklər gələcəkdi, üçlüklər gedib, beşliklər gələcəkdi və hər dəfə də çayçı Qəzənfər üçlük alıb, manat qaytaranda sidq-ürəkdən öz-özünə deyəcəkdi ki, Allah bərəkət versin.

Bu köhnə yazı mizini kənd Sovetinin katibi Suğra idarənin haqq-hesabından silmişdi və çayçı Qəzənfər də bu haqq-hesabdan silinmiş yazı mizini götürüb özü təmir eləmişdi və gətirib qoymuşdu çayxanasında samovarın altına. Çayçı Qəzənfər həftədə bir dəfə bu yazı mizinin üst gözündəki yeşiyin içinə təzə qəzet salırdı və hər dəfə də çay ləkəsinə, limon şirəsinə bulaşmış köhnə qəzeti çıxaranda həftə boyu sürüşüb qəzetin altında qalmış üç şahılıq, bir abbasılıq tapmaq kişiyə xüsusi ləzzət verirdi və qabaqlar kənd Sovetinin katibi Suğraya xidmət etmiş bu yazı mizinin bərəkətli olduğunu bir daha təsdiq edirdi.

Çayxana yavaş-yavaş adamla dolurdu və külək yavaş-yavaş tamam dayanırdı, amma hələ də uzaqdan təzə düşmüş qaranlıq içində dənizdə dalğaların köpüyü ağappaq ağarırdı.

– Dayday, qurban olum sənə, mənimçün bir dənə də çay! – Bunu çayxananın bir küncündə oturmuş Əmirqulu dedi.

Çayçı Qəzənfər Əmirquluya baxdı və ürəyində fikirləşdi ki, vallah, yazıq Xeyransa kimi abırlı-həyalı bir arvada ki, bu başı batmışa ərim deyir, sonra da yanıb yaxıla-yaxıla dedi:

– Alə, bəs sən demürdün ki, Buzovnaya qonaqlığa çağırıblar səni?

Gecə-gündüz çayçı Qəzənfərin mis samovarının üstündəki çayniklər kimi dəmdə olan Əmirqulu dedi:

– Hə, bilə-bilə gecikirəm də, dayday!.. Gecikəndə qonaqlığa, adamı ştraf eləyirlər, bir stəkan arağı doldurub verirlər içirsən ştrafnoy, kef eləyirsən! Hə, necədi Əmirqulu, dayday?

«Kül olsun Əmirqulunun başına!» – Çayçı Qəzənfər bu sözləri ürəyində dedi və Əmirqulunun yenə gopa basdığını, heç bir yerə qonaq çağrılmadığını, uzaqbaşı gedib çaxır dükanında nisyə bir stəkan şirin çaxır içəcəyini yaxşı bilsə də, çay süzüb aparıb qoydu Əmirqulunun qabağına; Əmirqulu hər nə idi, hər halda, müştəri idi və çayçı Qəzənfərin də borcu bu idi ki, müştəriyə xidmət eləsin.

Ələkbərlə Gümüş Malik içəri girdi və Baladadaşın toy hamamı macərası da əslində elə buradan başlandı.

Gümüş Malik dedi:

– Alə, Qəzənfər, bir dənə filli çay dəmlə.

Filli çay, yəni ki, qutusunun üstündə fil şəkli olan çay, yəni ki, hind çayı.

– Oldu, qədeş! – Çayçı Qəzənfər cəld yazı mizinə tərəf getdi və yazı mizinin yeşiklərindən birini çəkib xüsusi müştərilər üçün hind çayı saxladığı bankanı götürdü.

Gümüş Maliklə Ələkbər, görünür, möhkəm kabablayıb gəlmişdilər və yaxşıca da araq içmişdilər, çünki onlar içəri girən kimi çayxananın kömür iyinə, çay iyinə, limon iyinə üç gün bundan qabaq tünd qəhvəyi rənglə rənglənmiş qapının rəng iyinə bir spirt iyi də qatışdı. Düzdü, Əmirquludan da spirt iyi gəlirdi, amma Ələkbərlə Gümüş Malikdən gələn spirt iyi başqa idi, bu spirt iyində yağlı kabab iyi də var idi və hərçənd çayçı Qəzənfərin içib çayxanaya gələnlərlə arası yox idi, amma bu dəfə çayçı Qəzənfər bu hörmətli müştərilərin qarasına dodaqaltı mızıldamadı, hər halda, sifətindən bu hiss olunmadı və quru çayını çox tökdüyü üçün tez dəm almış bir çaynik hind çayı ilə bir dənə doğranmış limonu və iki dənə armudu stəkanı gətirib qoydu Ələkbərlə Gümüş Malikin qabağına və soruşdu:

– Kefüvüz necədi?

Gümüş Malik özü öz qarnına düşmən gözü çıxaran qarın deyirdi, yəni ki, paxıllar, gözü götürməyənlər yanıb-yaxılsın ki, mənim bu boyda qarnım var və indi də Gümüş Malik yekə qarnını qabağa verib, qırmızı neylon köynəyinin də yaxasını açıb buğlana-buğlana dodaqaltı meyxana zümzümə eləyirdi:

Gecə getdik Lökbatana,  
Sataşdıq saqqızsatana,  
Ay qız, saqqız neçəyə?  
Dedi qalsın gecəyə...

Və çayçı Qəzənfərin sualını eşidəndə mizin üstündəki isti çayniki yekə əlinin içinə aldı və bu çayniki düz çayçı Qəzənfərin burnunun qabağında tutub:

– Bax, Qəzənfər, bu filli çayı ki, sən dəmləmisən e, bizimçün, necədi bu filli çay?

Çayçı Qəzənfər, istər-istəməz, burnunun qabağındakı bu çaynikə baxdı və dedi:

– Lap əntiqədi!

Gümüş Malik:

– Aton rəhmətlik! – dedi. – Bax, biz də beləyik. Lap əntiqəyik! Belə lap kefün istəyənik!

Çayçı Qəzənfər!

– Allah başacan eləsin, – dedi və öz yazı mizinə tərəf getdi; düzdü, çayçı Qəzənfər pullu müştərilərin xətrini sövq-təbii istəyirdi, amma içmiş adamla söhbət eləməyi heç xoşlamazdı və xüsusən də ki, Gümüş Malik kimi içmiş bir adamla, çünki Gümüş Malik içəndə, kefi kök olanda, zalım balasının elə bil bütün xasiyyətində nə zay şeylər vardı, çıxırdı ortaya, açılırdı sandıq, tökülürdü pambıq; içməyəndə yenə dərd yarı idi, böyük-kiçik bilirdi, xətir-hörmət başa düşürdü, hərçənd burası da bütün kənd camaatına məlum idi ki, Gümüş Malik dovşana qaç deyib, tazıya tut deyənlərdəndi.

Gümüş Malik bilə-bilə, qəsdən beləcə bərkdən dedi ki, əntiqədi, çünki Abşeron olanda nə olar, adamın öz kəndi olanda nə olar, onu gözü götürməyən çoxdu, qoy görsünlər ki, lap əvvəlkindən də yaxşıdı Gümüş Malik, lap əntiqədi.

Gümüş Malikin çayçı Qəzənfərin bu çayxanasından bir az aşağıda, dənizin lap kənarında «Mixək» adlı bir kababxanası vardı və əslində, yəni hökumətin kağız-kuğuzundan ora da, guya ki, çayxana idi, amma Gümüş Malik eləmişdi oranı bütün Abşeronun məşhur kababxanası, amma gözü götürməyənlər oldu, yazdılar Bakıya ki, «Mixək» hökumətin çayxanası deyil, Gümüş Malikin şəxsi kababxanasıdı, o qədər yazdılar ki, axırda day mümkün olmadı, günlərin bir gözəl günü xəbər yayıldı kəndə ki, Gümüş Malikin kababxanasını bağladılar; doğrudan da bağladılar «Mixək»i, buldozer gəlib yerlə-yeksan elədi «Mixək»i, amma sonra kəndə belə bir xəbər də gəlib çatdı ki, Gümüş Malik Bakının özündə qəbiristanlığın yanında təzə bir kababxana açıb və adını da qoyub «Əlvida». Işi belə görəndən sonra, day heç kim heç nə yazmadı Gümüş Malikdən ki, bu dəfə də yazarıq, «Əlvida»nı bağlatdırarıq, Gümüş Malik də gedib olar «Inturist»in müdiri və yazıb Gümüş Malikin işlərini daha da düzəltməkdənsə, yazmamaq yaxşıdı – Gümüş Malik özü dost-aşna arasında zarafatla belə deyirdi, çünki əslinə baxsan, Gümüş Malik kənddə bir nəfərdən şübhələnirdi ki, yazır, o da kitabxanaçı Nəcəf idi, vəssalam, bir də ki, yazsaydı, Buzovnadakı «Meyvə-tərəvəz» dükanının müdiri, Nerses Vartanoviç yazardı, amma, hər halda, qoy kəndin camaatı gözüylə görsün ki, Gümüş Malik lap əntiqədi, Ələkbər də əntiqədi, lap əvvəlkindən də əntiqədilər.

Gümüş Malik armudu stəkanda xoruzpipiyi hind çayından içə-içə dodaqaltı Lökbatan sərgüzəşti haqqında meyxana deyirdi və Ələkbər də gülümsəyib başını bulayırdı, yəni ki, yaman şeysən sən, Malik, aləmsən, aləm. Sonra Ələkbər nazik, incə barmaqları ilə armudu stəkanı götürüb səliqə-sahmanla və Gümüş Malikə nisbətən xeyli ədəb-ərkanla çay içməyə başladı. Gümüş Malik nə qədər ətli-canlı, iri sümüklü, kələ-kötürüydüsə, Ələkbər bir o qədər naziksümük, qolu, sinəsi, elə başı da tüksüz bir adam idi, təkcə qarnı pırtdayıb qabağa çıxmışdı ki, bu da yəqin Gümüş Malikin sayəsində idi, yəni bir yerdə yeməklərinin, içməklərinin nəticəsi idi.

Bir dəfə yeddi bacanaq yola çıxdı, yeddi gün gecə-gündüz bir yerdə yol getdi, axırda gəlib mənzil başına çatanda yeddisi də heyifsiləndi ki, yolda, heç olmasa, bir adama da rast gəlmədik ki, bir-iki kəlmə söhbət eləyək. Gümüş Maliklə Ələkbər də iyirmi ilin bacanağı idi, amma bu yeddi bacanağa oxşamırdılar, həmişə bir yerdə yeyib-içirdilər və bu iyirmi il ərzində bir yerdə Tiflisə, Kislovodska, Odessaya çox kefə getmişdilər; arvadlarını da bir yerdə aldadırdılar, hər halda, dəllal Zübeydədən tutmuş bağban Əsədullayacan kəndin camaatı belə danışırdı və babalı da danışanların boynuna.

Amma bütün bunlarla bərabər, Gümüş Maliklə Ələkbər tamam başqa-başqa adamlar idi. Gümüş Malik nə qədər tez özündən çıxanıydısa, Ələkbər bir o qədər tədbirli idi, Gümüş Malik ağına-bozuna baxmayıb fikirləşdiyini üzə deyən idi, Ələkbər ömründə adamın üzünə bir söz deməzdi və ilaxır. Nə isə, iki bacanaq həmin payız günü çayçı Qəzənfərin çayxanasında oturub hind çayı içirdi.

Çayxana yavaş-yavaş adamla dolurdu.

Əmirqulu kənardan Gümüş Malikə baxırdı və fikirləşirdi ki, arıq adama heç kim hörmət eləmir, amma kök adamın hörməti çox olur, necə ki, Gümüş Malikin hörməti çox idi və necə ki, Əmirqulunun özünün qətiyyən hörməti yox idi, amma əsl məsələ burasında idi ki, heç bir fərqi yox idi, istəyirsən Gümüş Malik kimi, evdə ancaq gümüş qab-qacaq, gümüş çəngəl-bıçaq işlət ki, mədə-bağırsağa xeyirdi və camaat də sənə Gümüş Malik desin, istəyirsən də Əmirqulu kimi, cibində bir qara köpüyün olmasın, əlinə keçəni də apar ver şirin çaxıra, hamısı birdir, bu dünya elə dünyadı ki, nə Gümüş Malikə qalacaq, nə də Əmirquluya.

Əmirqulunun günorta içdiyi iki stəkan şirin çaxırın dəmi yavaş-yavaş keçib gedirdi və ona görə də Əmirqulu həyat haqqında bu cür bədbin fikirlərə dalmışdı.

Bu vaxt Baladadaş çayxanaya girdi.

Əlbəttə, Baladadaşın xəbəri yox idi ki, Əmirqulu bu saat dünyanın işləri barədə fikirləşir və əli ilə şalvarının dalını çırpa-çırpa, çayxanadakı camaatla da salamlaşa-salamlaşa gəlib Əmirqulu ilə üzbəüz oturdu və ən qəribəsi də bu idi ki, Baladadaş özü də dünyanın işləri barədə, dünyanın adamları barədə fikirləşirdi.

Bir az bundan qabaq Baladadaş Bakıdan kəndin yuxarı tərəfində tikilən sanatoriya üçün daş gətirirdi və maşını Binədə aerodromun yanından sürəndə enən və qalxan təyyarələri görüb, Abşeron yollarında belədən-beləyə gedən maşınları görüb fikirləşdi ki, bu dünyada gör nə qədər adam istədiyi yerdə deyil, yəni bu adamlar orda ki olmalıdı, orda deyil, bu adamlar tələsir, ora gedir, bura gedir. Aydın məsələdi ki, Baladadaş enən və qalxan təyyarələri çox görmüşdü, bütün ömrü maşınların arasında keçmişdi (atası Ağababa da sürücü idi), amma bu dəfə elə bil təzə gözlərlə baxdı bu təyyarələrə, bu maşınlara və özü də bilmədi ki, niyə belə baxdı.

Baladadaş baş barmağı ilə «aerodrom» papağını arxadan yuxarı qaldırdı və başını qaşıdı.

Bir il bundan əvvəl Baladadaş da beləcə tələsirdi, bura tələsirdi, bax, bu Abşeronun sahilinə tələsirdi, bax, bu kəndlərinə tələsirdi, gözünü yumub özünü Abşeron yollarında maşın sürən görürdü, Xəzər suyunun şor təmini ağzında hiss eləyirdi. Onda Baladadaş Amur vilayətində əsgərlikdə idi və bu iki il əsgərliyin, üç ay da sürücülük kursunda oxumağın elə bir günü olmadı ki, Baladadaş yuxuda burda dənizdə çimməsin, fikrində qumluğun üstündə ayaqyalın gəzməsin və Amur vilayətinin qışın oğlan çağındakı soyuğunda Abşeron günəşindən od kimi qızmış qum yalın ayaqlarını yandırmasın; Amur vilayətinin o soyuğunda, hər tərəfi bürümüş ağappaq qarında Baladadaş fikrən Abşeron gününün cırhacırında üzüm yeyirdi, əncir dərirdi, barmaqları ilə əzib boşalda-boşalda narın suyunu sümürürdü; bir gün olmadı ki, Baladadaş altı bacısının altısını da – Nailəni də, Firuzəni də, Kəmaləni də, Amaləni də, Dilşadı da, Böyükxanımı da bir-bir gözlərinin qabağından keçirməsin, indi özləri əsgərlikdə olan kiçik qardaşları Ağagülü və Nuhbalanı, atası Ağababanı və Ağabacını, əslinə qalsa, bütün kəndi, lap elə bu Əmirqulunun özünü fikirləşməsin.

Əmirqulu indi Baladadaşla üzbəüz oturub çay içirdi, amma heç ağlına gətirmirdi ki, bax, bu Baladadaş Amur vilayətində əsgərlikdə olanda onu gətirib gözlərinin qabağına və onunla beləcə üzbəüz oturub çay içməyin həsrətində olub.

Indi bir il idi ki, Baladadaş əsgərliyi çəkib qayıtmışdı kəndə və bir il idi ki, Baladadaş Abşeron yollarında 3 nömrəli tikinti idarəsinin təptəzə bir yük maşınını sürürdü, amma dünyanın işləri, doğrudan da, sirri-xuda idi; indi də hərdən Baladadaş özünü Amur vilayətində görürdü, o tərəflərin göz işlədikcə uzanan genişliyi, böyüklüyü bəzən elə bil ki, Baladadaşı Abşeronun üçbucaq sahilinə sığışdırmırdı.

Baladadaş çaydan bir qurtum alıb, armudu stəkanı nəlbəkiyə qoydu və baş barmağı ilə «aerodrom» papağını arxadan yuxarı qaldırıb başını qaşıdı.

– Alə, ay uşaq, yaxın gəl görüm! – Bunu Baladadaşa baxa-baxa Gümüş Malik dedi.

Baladadaş əvvəlcə, elə bil, qulağına inanmadı, sonra Baladadaşın sifəti qaraldı və bunu çayçı Qəzənfər də o saat hiss elədi və fikirləşdi ki, lənət şeytana, axşam vaxtı, müştərinin bu gəlhagəlində burda dava-mərəkə qopmasa yaxşıdı, milisioner Səfər də axşamlar gəlib həmişə burda çay içərdi, indi tərs kimi o da yoxdu.

Baladadaş kəndin sayılan cavanlarından idi və çayçı Qəzənfər də yaxşı bilirdi ki, Baladadaşı camaatın içində bu cür çağırmaq olmaz. Baladadaşa bu cür yuxarıdan-aşağı baxmaq olmaz.

– Noldu, alə? Sənnən döyüləm? – Gümüş Malik dedi.

– Nədi? – Baladadaş güclə soruşdu.

– Maşunun cağdı? – Gümüş Malik soruşdu.

– Sözüvü de.

– Yeri get maşunuvu çıxart, sür bizə, bir az balıq-zad var orda, qoy maşına, apar ver Bakıda bizim uşaqlara. – Gümüş Malikin qızı inişil konservatoriyanı bitirmişdi, fortepiano çalırdı və indi Bakıda ərdə idi, əri bəstəkar idi və Gümüş Malikin gözü həmişə onların üstündə idi və ələlxüsus da bir az içki içəndən sonra o saat uşaqlar Gümüş Malikin yadına düşürdü: gah gedib kürəkəninin, qızının professorlarını, müsabiqələr təşkil eləyən cürbəcür adamları, münsiflər heyətinin üzvlərini tapıb bütün dost-tanışları ilə birlikdə kababxanaya aparırdı, gah bir-bir bu adamların evlərinə baş çəkirdi, əlindən gələn hörməti onlardan əsirgəmirdi, gah, nə bilim, nə eləyirdi. Sonra Gümüş Malik ağır-ağır bir yanını qaldırıb əlini şalvarının cibinə saldı və bir iyirmibeşlik çıxarıb: – Bax, bu iyirmibeşliyi də yapışdıracayam sənün alnuva! – dedi.

Çayçı Qəzənfər başa düşdü ki, işlər tamam xarab oldu.

Çayxananın camaatı heç cınqırını da çıxarmırdı.

Əmirqulu işləri belə görüb fikirləşdi ki, bir qara köpüyə dəyən dünya deyil bu dünya, niyə səhərdən burda oturub? Buzovnada Nersesin dükanına bir çaxır gəlib ki, lap seyidi çağır, gəlsin içsin; durub çayxanadan əkildi.

Baladadaş ayağa qalxdı, əli ilə şalvarının dalını çırpdı və gəlib Gümüş Maliklə Ələkbərin qabağında dayandı və:

– O iyirmibeşliyi apar yapışdır oğraş kürəkənüvün alnına, qızıvun da başını vur onun başına! – dedi.

Baladadaşın dediyi bu sözlər çox ağır sözlər idi.

Gümüş Malikin axırıncı qurtumu boğazında qaldı, sonra Gümüş Malik, elə bil, ayıldı və elə bil, kimlə danışdığını, necə danışdığını və harda danışdığını indi başa düşdü, başa düşdü ki, indi elə bir məqamdı ki, Baladadaşın sözünün üstündən söz demək olmaz, «aerodrom» papağın altından baxan bu gözlərdən bu saat cin yağırdı, bu şümal oğlanın bütün bədəni bu saat elə bil yay idi, dartılmışdı və himə bəndiydi; Gümüş Malik ətli gözlərini Baladadaşdan çəkib bir-bir çayxanada oturmuş camaata baxdı və təkcə bunu dedi:

– Nolar, qədeş, sənin də mənə işün düşər!..

Baladadaş:

– Mənim sənün kimisinə işim düşməz! – dedi.

Səhərdən bəri səssiz-səmirsiz oturmuş Ələkbər həyəcandan titrəyən nazik barmaqları ilə tutduğu stəkanı nəlbəkiyə qoydu, Baladadaşı təpədən-dırnağacan süzdü və:

– Düşməz deyirsən? – soruşdu. – Yəni heç düşməz?

– Heç düşməz.

– Nolar... – Birdən-birə Ələkbərin nazik sifətinə bir rişxənd gəlib qondu. – Nolar... Ona işün düşməz, amma mənə işün düşər!..

– Sənə də düşməz.

– Baxarıq!

– Baxarıq!

Baladadaş bu «baxarığ»ı elə dedi ki, Ələkbər kimi tədbirli və təmkinli bir adam da ürkdü, qorxdu ki, Baladadaş bu saat onun üstünə yeriyəcək, amma Ələkbərin kiçik qardaşı Ağakərim keçən il Bakıda hüquq fakültəsini bitirmişdi və indi Mərdəkanda milisdə işləyirdi, buna görə də Ələkbər yenə toxdadı.

Baladadaş Ələkbərə baxdı, daha tamam-kamal ayılmış Gümüş Malikə baxdı və şeytana lənət deyib, güc-bəla ilə çayxanadan çıxdı və çayxananın təzə rənglənmiş, cır-cır da cırıldayan qapısını ardınca çırpdı.

Çayçı Qəzənfər rahat nəfəs aldı.

Çayxanada oturanlar çox yaxşı başa düşdülər ki, Baladadaş niyə özünü saxladı, niyə çayxanadan çıxıb getdi, dava-dalaş salmadı.

Məsələ burasında idi ki, düz altı gündən sonra Baladadaşın toyu idi.

Çayxanada oturanların hamısı burasını da çox yaxşı başa düşdü ki, Ələkbər niyə ikibaşlı danışdı, ürəklə danışdı; təkcə ona görə yox ki, Ələkbərin kiçik qardaşı Ağakərim rayon mərkəzində milis işində işləyirdi – bu öz yerində, hərçənd hamı bilirdi ki, Baladadaş da atası Ağababa kimi belə şeyləri vecinə alan oğul deyil; ona görə ki, – bax, məsələnin də böyüyü elə bunda idi! – Ələkbər kənd hamamının müdiri idi və bu kəndin bütün evlənən cavanları toy hamamına Ələkbərin müdir olduğu bu bircə hamama gedirdi, Ələkbər də kefi istədiyi vaxt ya təmir adıyla, ya başqa bir adla hamamın qapısına yekə bir qıfıl vururdu və bu yekə qıfılı açdırmaq minnət istəyirdi, yaxşıca bir xələt istəyirdi.

Bu kənddə arvadlar arasında birinci sözgəzdirən dəllal Zübeydə idi, kişilər arasında da birinci sözgəzdirən çayçı Qəzənfərin özü idi və təbii ki, elə həmin gecə Baladadaşla Ələkbərin çayxanadakı bu «baxarıq»ları bütün kəndə yayıldı; Baladadaşın nişanlısı, tibb məntəqəsində tibb bacısı işləyən Bikənin ürəyində bir nigarançılıq yayıldı ki, nə gecələr onu yatmağa qoydu, nə gündüzlər əməlli-başlı toya hazırlaşmağa: birdən toyqabağı Baladadaşın əlindən bir xata çıxar; Baladadaşın anası Ağabacı hərdənbir toya hazırlıqdan macal tapıb oğluna yalvar-yaxar elədi ki, işin olmasın onlarla, xata-bəladılar başdan-ayağa, əlləri pulla oynayır; Baladadaşın bacıları Nailə, Firuzə, Kəmalə, Amalə, Dilşad və Böyükxanım nigarançılıqdan bilmirdilər ki, nə eləsinlər, böyük qardaşları Baladadaşın köynəklərini daha səliqə ilə yuyurdular, şalvarlarını, pencəyini daha cidd-cəhdlə ütüləyirdilər, çayını, xörəyini daha səliqə-sahmanla gətirirdilər; Baladadaşın atası Ağababa ilə Baladadaş arasında pərdə var idi və Ağababa təkcə bunu elədi ki, bir neçə dəfə mənalı-mənalı öskürdü Baladadaşın yanında; Ələkbərin arvadı Anaxanım gecə soyunub ərinin yanına girməzdən əvvəl başını daraya-daraya bir xeyli müddət Baladadaşın qarasına deyindi, xuliqandı, dedi, sən Ətağanın cəddi, Ələkbər, dedi, işin olmasın onnan, sonra yorğan-döşəyə girib ətli-canlı əndamı ilə ərinin naziksümük bədəninə bir sığal verdi və Ələkbəri qollarının arasına alıb dedi ki, toy günü açarı ver Səmədağaya, heç özün getmə hamama, istəyirsən bir yerdə kinoya gedək Bakıya; Gümüş Malikin bütün günü Bakıda – «Əlvida»da başı qarışıq olurdu, Baladadaş da, Ələkbər də yadından çıxırdı, amma elə ki, axşam qırmızı «Jiquli»sinə minib kəndə qayıdırdı, birdən Baladadaş gəlib düşürdü yadına və Gümüş Malik tamam dilxor olurdu; kənd Sovetinin katibi Suğra Baladadaşın kənddə birinci dostu şofer Əzizağanı çağırıb tapşırdı ki, Baladadaş şuluqluq salsa, milisioner Səfər iş başında olacaq və dedi ki, guya, Ələkbərə də belə bir sifariş göndərib, amma Əzizağa Suğranın Ələkbərə sifariş göndərməyinə inanmadı, çünki Suğra öz oğlunu Mərdəkanda milisdə işə düzəltdirmək istəyirdi.

Bütün kənd Baladadaşın toy hamamını gözləyirdi.

Belə bir söz gəzirdi ki, guya kəndin ağsaqqalı qəssab Ağakişi durub gedib Ələkbərgilə ki, çoxdandı kəndin toyları dava-şavasız keçir, Ələkbər təzədən dilxorçuluq salmasın ortaya və guya, Ələkbər heç nə deməyib, amma gülümsəyib. Kəndin bir qismi adamı Ələkbərin susmağını belə yozurdu ki, toy günü Baladadaşla işi olmayacaq, elə də ürəkli adam deyil Ələkbər ki, Baladadaşa sataşsın; bir qisim adam da deyirdi ki, Ələkbər elə Ələkbərdi ki, gərək Baladadaşı ayağına gətirsin ki, kim kimdi, yoxsa ki, hörmətdən düşərlər Ələkbərgil, yəni Ələkbərin özü də hörmətdən düşər, Gümüş Malik də hörmətini itirər, çünki camaat baxıb görər ki, bunların elə qozqurtmağı var imiş...

Əmirqulu günortadakı çaxır payını içib otururdu darvazalarının qabağındakı tut ağacının altında və kürəyini tutun yoğun gövdəsinə söykəyib hıçqıra-hıçqıra:

– Alə, davasız toyun nə ləzzəti?! – deyirdi. – Toyda gərək dava olsun də!.. Mən ölüm, – deyirdi, – mən də bıçağı çoxdandı işə salmıram. Pasdanıb bıçaq, xoşuma gəlmir...

Eyvanda uşaqların pal-paltarını yuyan Xeyransa Əmirquluya tərəf boylanırdı, başqa bir adam eşitməsin deyə bərkdən yox, pıçıltı ilə dedi ki, elə qara yerə soxum səni, yaman da bıçaq vuransan...

Dəllal Zübeydə Bakıda rayondan gəlib təhsil alan bir tələbə üçün kirayə ev tapmışdı və işin tərsliyindən Baladadaşın toy günü Bakıya getməli idi, amma məsələ gör hansı mərtəbəyə gəlib çatmışdı ki, Zübeydə bütün həyatında birinci dəfə azı on manatından keçdi, Bakıya getmədi ki, görsün bu mərəkənin axırı nə olacaq.

Qohum-əqrəba bilirdi ki, Baladadaş Əzizağanın xətrini çox istəyir, ona görə də Əzizağanı sağdış seçdilər və Əzizağa da Bikəgilə söz göndərdi, Ağabacıya söz verdi ki, arxayın olsunlar, Ağababaya da dedi:

– Üreyüvü buz kimi elə, Ağababa dayı. Ölmüşəm beyəm?!

Ağababa Əzizağaya baxdı, amma bir söz demədi, çünki kəndin cavanları ilə arasında pərdə var idi və indi ya hirsini, ya nigarançılığını bildirib yüngülsaqqallıq eləmədi.

Həmin gün qəribə bir gün çıxdı, elə bil, payızın sonu yox, yazın ortaları idi və həmin gün elə bil ki, kəndin ətrafındakı qayalıqlar, üzümlüklər, qumsallıq, dəniz qəsdən yaz oyunu oynayırdı, elə bil əncir, nar, tut, heyva ağaclarının payız sarısı çıxıb getmişdi, yox olmuşdu, indi bu sarılıqda bir qızılı işıq gəlmişdi kəndə və Bikə də evdə başına yığışmış qız-gəlinin arasında oturub pəncərələrindən bu qızılı işıqlı kəndə baxırdı və ürəyindəki nigarançılıqla deyirdi:

– Allah onun canını sağ eləsin! Baxtından gör necə gün çıxıb bu gün! Ürəyi təmizdi Baladadaşın, onnandı... Allah onu başımızın üstündən əskik eləməsin!

Dəllal Zübeydə belə vaxtlarda yaşa-zada fikir verməzdi, özünü salardı cavan qız-gəlinin arasına, bununla bir şit zarafat eləyərdi, o birisinə göz vurardı, o birisinə də him eləyərdi, amma bu dəfə dəllal Zübeydə də pəncərədən bu qızılı işıqlı kəndə baxdı və yana-yana:

– Illahamin! – dedi və bu yanğısı ilə Bikənin Baladadaş sarıdan nigarançılığını daha da artırdı.

Cavanlar məhəllədə mağar qurmuşdu, Ağababa Maştağadan xanəndə çağırmışdı və bu xanəndə öz dəstəsiylə gəlmişdi, hətta deyirdilər ki, guya, Hacıbaba Hüseynov özü gələcəkmiş, amma Bakıda yeyinti sənayesi işçiləri gününə həsr olunmuş konsertə gedəsi olub. Bozbaş bişirməyə uşaq bağçasının aşpazı Hüseynqulunu dəvət eləmişdilər və Hüseynqulunun da ki, bozbaşı bütün bu tərəflərdə məşhuri-cahan idi və buna görə də kəndin birinci bozbaş yeyəni həkim Ağaəli səhər yerindən durandan dilinə bir şey vurmamışdı ki, Hüseynqulunun bozbaşının təmini yaxşı hiss eləsin.

Və həmin qızılı işıqlı payız günü kəndə belə bir xəbər yayıldı ki, Ələkbər hamamda özü üçün öz şəxsi xərcinə düzəltdirdiyi kabinetində oturub kağız-kuğuzu sayğaca vura-vura deyir:

– Səmədağa icazə alıb mənnən bu gün, həyətindəki güllərlə məşğuldu. Demişəm ona ki, lazım olsa əgər, çağırram səni...

Səmədağa hamamın ocaqçısı idi.

Əlbəttə, bu o deyən sözdü ki, Baladadaş, ya da elə Ağababanın özü ayağıma gəlsin, minnətə adam göndərsinlər, üzrxahlıq eləsinlər, onda baxarıq; Baladadaş da ki, camaatın içində Maştağada, Buzovnada, ya da ki, Şüvəlanda toy hamamına getməyəcəkdi ki; bəy də toy hamamına getməsəydi, bu toy nə Baladadaşa yaraşardı, nə də Ağababaya.

Tay-tuş Baladadaşın xasiyyətinə yaxşı bələd idi və ona görə də toy hamamının vaxtı gəlib çatanda hamı mat-məəttəl qaldı və bilmədilər ki, nə eləsinlər; biri istədi gedib Ələkbərin anasından əmdiyi südü burnundan gətirsin, amma dedilər ki, birdən xoşu gəlmədi Baladadaşın, o biri istədi gedib bıçağı soxsun Gümüş Malikin qarnına, dedilər yaxşı deyil, Baladadaşın toy günü qan salmayaq ortaya, hamı naəlac qaldı və hamı baxdı Əzizağaya, Əzizağa da getdi Baladadaşın yanına:

– Alə, dur gedək hamama! – Əzizağa dedi. – Kimdi, alə, Ələkbər, Allah vurub onu! Adamın ömründə bir dəfə toy hamamı olur. Gedək, sənün heç işün yoxdu, mən özüm deyərəm ona ki, Səmədağanı çağırtdırıb ocağı yandırtsın. Özüm billəm, necə danışaram onnan!

Baladadaş əli ilə təzə ütülənmiş qara şalvarının dalını çırpıb:

– Alə, tanımırsan məni sən? – dedi və elə dedi ki, elə bil, doğrudan da, şübhə edirdi ki, uşaqlıqdan bir məhəllədə böyüdükləri Əzizağa onu tanımır.

Əzizağa:

– Yaxçı! – dedi və doğrudan da, özündən çıxdı. – Sən öləsən, qərdeş canı, bu saat gedib Gümüş Maliki tapıcıyəm, özü gedib o əclafa hamamı işə saldırmasa, tökəciyəm bağırsaqlarını yerə!..

Əzizağa elə bu sözləri deyib otaqdan çıxmaq istəyirdi ki, Baladadaş əlini atıb divardakı xalçanın üstündən asılmış qoşalüləni götürdü və qundağı döşünə sıxıb lüləsini Əzizağaya tuşladı:

– Düş qabağıma!

– Alə, dəli olmusan?

– Demədim, alə sənə ki, düş qabağıma?! – Baladadaş bu sözləri elə dedi ki, bu tüfəng əhvalatının açıq-aşkar ciddiliyinə Əzizağanın heç bir şəkk-şübhəsi qalmadı.

– Alə, mənə bax...

– Sən bilirsən ki, mən belə zarafat eləmərəm! Düş qabağıma!

– Alə, hara axı?

– Toy hamamına!

– Qan tökmək istəyirsən, alə? Yazıqdı, alə, Bikə...

– Düş qabağıma!

Əzizağa ürəyində Ələkbərin atabaatasının goruna söydü, bir anın içində fikrindən keçirdi ki, əclaf köpəkoğlu Ələkbər, hamımızı saldı zibilə, təzə-təzə özümüzə bir gün ağlayırdıq, təzə-təzə əlimiz çatırdı çörəyə (Əzizağa düz yeddi aydı ki, kənddən Bakıya və Bakıdan da kəndə işləyən marşrut taksisi sürürdü və bu sürücü vəzifəsini xətirlər xətrinə Əzizağaya vermişdilər).

Əzizağa qabaqda, Baladadaş da əlində tüfəng Əzizağanın dalınca evdən çıxanda hamam boğçaları elə-eləcə otaqda qaldı və bütün həyət-bacaya vəlvələ düşdü, aşpaz Hüseynqulu tut ağacının altında oturub toy bozbaşının soğanını soyurdu, qabaqda Əzizağanı, dalca da əlitüfəngli Baladadaşı görəndə, kişi həyatında birinci dəfə soğan əvəzinə barmağını kəsdi; talvarın altında oturub çay içə-içə, qəlyan çəkə-çəkə özlərini axşamın toyuna hazırlayan Maştağa xanəndəsinin bütün dəstəsiylə bir yerdə gözü bərələ qaldı, hərçənd bu xanəndə Abşeronda az toy yola salmamışdı; arvadlar qışqırıq qopardı, cavanlar, uşaqlar Baladadaşgilin dalına düşdü; Əmirqulu da darvazalarının qabağındakı tut ağacının altında oturub kürəyini söykəmişdi ağacın yoğun gövdəsinə və bütün dünya vecinə deyildi, amma qabaqda Əzizağanı, dalca da əlitüfəngli Baladadaşı görəndə, kəndin cavanlarının, yeniyetmələrinin, uşaqlarının da bunların dalınca getdiyini görəndə durub o da düşdü bu dəstənin dalına, xəbər gəlib Ağabacıya çatanda arvad əli ilə üzünü cırıb: «Vaxsey! – qışqırdı. – Evimiz dağıldı! – dedi. – Gedib öldürəcək o hamamçı Ələkbər oğraşı!» Və başı alovlu həyətə qaçdı; Ağababa qaşlarını çatdı, heç kimə heç nə demədi, tütündən sapsarı saralmış barmaqları arasında tutduğu siqareti əncir ağacının dibinə tulladı, sonra təzə siqaret yandırdı; bir göz qırpımında xəbər gəlib Bikəgilə çatanda Bikənin ürəyi getdi, dəllal Zübeydə də heyfsilənə-heyfsilənə başını bulayıb dedi ki, axırıncı dəfə bu kənddə toy zamanı adam öldürmüşdülər, iyirmi il bundan əvvəl, heyf Baladadaşdan, özünü də hökumət güllələyəcək.

Bütün kəndə səs yayılmışdı ki, Baladadaş sağdışı Əzizağanı da qabağına qatıb əlitüfəngli toy hamamına gedir və təbii ki, bu xəbər gəlib hamamdakı kabinetində köhnə kağız-kuğuzları yalandan sayğaca vuran Ələkbərə də çatdı və Ələkbər bircə dəqiqənin içində təmkinini də itirdi, tədbirli olmağı da çıxdı getdi işinin dalınca, bir istədi ki, qaçıb kənd Sovetinin idarəsindən rayon mərkəzindəki kiçik qardaşı Ağakərimə zəng eləsin, amma ürək eləmədi çölə çıxsın, müsibət bir qorxu bürüdü canını, öz-özünə: « – Sənin ciyərün yansın, Malik! Tramvay altında qalasan səni! Ömründə sənnən bir köpəkoğlu xeyir görüb ki, mən də saldım özümü bəlaya?» – dedi, sonra qışqırıb haray salmaq istədi ki, ay camaat, qoymayın, öldürəcək məni bu dəli, amma belə bir məqamda Ələkbər kəndin camaatına da etibar eləmədi, hamamın çöl qapısını içəridən bərk-bərk bağladı, sonra öz kabinetinin qapısını içəridən bərk-bərk bağlayıb hamamın içində tək-tənha qaldı; Baladadaş gəlib bu qapıları bir-bir sındıranacan yəqin ki, milisioner Səfər özünü yetirəcəkdi bura, amma Ələkbər bilmədi ki, xəbər gəlib milisioner Səfərə çatanda camaat bir də baxıb gördü ki, yox, balam, Baladadaş hamama tərəf getmir, kənddən çıxıb dəniz kənarındakı qayalığa tərəf gedir və kənddə də cavan, yeniyetmə, uşaq qalmayıb, hamı düşüb əlitüfəngli Baladadaşın və bu tüfəngin qabağınca yeriyən Əzizağanın dalına.

– Alə, sal aşağı tüfəngi də!.. Gedirəm də, hara deyirsən gedirəm sənnən də, sal aşağı tüfəngi...

– Səsüvü çıxarma!

Kənd arxada qaldı və onlar qayalıqdan aşağı düşüb sahilə endilər.

Həmin qızılı işıqlı son payız günü dənizin, qumluğun, qayalığın və bütün bu tərəflərin üstündə böyük-böyük ağappaq buludlar donub qalmışdı və bu ağappaq topa-topa buludların arasından, burdan, ordan göyün gömgöylüyü görünürdü. Dəniz boz-yaşıl idi, bütün üfüq boyu isə göy bir zolaq uzanırdı, elə bil ki, üfüq xəttindən o tərəfə dənizin o biri hissəsi idi, ikinci yarısı idi və dənizin o uzaq ikinci hissəsi tərtəmiz, gömgöy idi.

Qayalıqdan qumluğa düşən kimi, Baladadaş əlindəki qoşalülənin qoşa gülləsini də havaya sıxdı və o son payız günü bu sahilin sakitliyi belə pozuldu, sonra Baladadaş tüfəngi bir tərəfə tullayıb qaça-qaça və qaça-qaça da soyuna-soyuna özünü dənizə vurdu və elə bil ki, ancaq bundan sonra məsələnin nə yerdə olduğunu başa düşüb Əzizağadan tutmuş bütün dəstə hamısı qışqır-bağır sala-sala, yüyürə-yüyürə, soyuna-soyuna lüt anadangəlmə olub dənizə atıldı və heç kim payızı vecinə almadı, dənizin bumbuz soyuğunu vecinə almadı və bu günəşli son payız günündə yəqin ki, sahilboyu sakitcə üzüşən balıqlar da bu qəfil şappaşurupdan, bu qəfil hay-küydən, bu qəfil dəniz sevincindən hürküb birdən-birə elə bil dəli olmuş bu sahildən uzaqlaşdı.

Birdən qəribə bir əhvalat baş verdi: Əmirqulu var gücü ilə sudan yuxarı atılıb var gücü ilə də:

– Ələkbər! Ay Ələkbər! – deyə qışqırdı və bundan sonra bütün çimənlər hamısı bir-bir, sonra hamısı bir yerdə özlərini sudan yuxarı atıb: – Ələkbər! Ay Ələkbər! – deyə qışqırmağa başladı.

– Ələkbər! Ay Ələkbər!

– Ələkbər! Ay Ələkbər!

– Ələkbər! Ay Ələkbər!

Bu hay-küy, əllərin, ayaqların dəniz suyundakı şappıltısına qarışıb yaydan, sentyabrın ortalarından bu yana neçə müddətdi ki, sakitlik içində olan, təkcə küləyin vıyıltısını, dənizin gurultusunu eşidən sahilə yayıldı, qağayılar, cüllütlər havaya qalxdı və yəqin ki, bu qəfil sahil oyanışından bir şey baş açmayıb səs sala-sala dənizdə çimənlərin başının üstündə uçdu.

– Ələkbər! Ay Ələkbər!

– Ələkbər! Ay Ələkbər!

– Ələkbər! Ay Ələkbər!

Dənizdə çimən həmin dəstə, qabaqda Baladadaşla Əzizağa, beləcə hay-küylə də kəndə qayıtdı və artıq bütün bu əhvalatdan xəbərdar olan kənd camaatı da bəylə sağdışın dəstəsini beləcə hay-küylə gördü.

– Ələkbər! Ay Ələkbər!

– Ələkbər! Ay Ələkbər!

– Ələkbər! Ay Ələkbər!

Və onlar gəlib hamamın yanından keçəndə Baladadaş ayaq saxladı, hamı səsini kəsdi və Baladadaş bərkdən qışqırdı:

– Alə, Ələkbər! O sənün hamamun, o da sən! Mən dənizdə çimdim! Özü də mənim oğlum... – Əvvəlcə Baladadaş söz tapa bilmədi ki, sözünün dalını gətirsin, amma Baladadaş hiss elədi ki, bu yerdə nəsə yaxşı, lap əntiqə bir söz deməlidi. – Mənim oğlum... – Baladadaş yenə bir söz tapa bilmədi. – Mənim oğlum... – Tapdı Baladadaş. – Mənim oğlum dənizə oxşayacaq, day sənün o xosma hamamuva yox!

Sonra hamı yenə hay-küylə kəndin aşağı başında qurulmuş toy mağarına tərəf getdi.

Bu dəm Gümüş Malik də Ələkbərin hamamından xeyli kənarda dayanmışdı, çünki Gümüş Malik istəmirdi ki, belə bir gündə camaat onu bu axmaq Ələkbərin hamamının yanında görsün.

O ki, qaldı çayçı Qəzənfərə, çayçı Qəzənfər:

– Sən öləsən, Nəcəf, düz bir həftə səni... – Çayçı Qəzənfər sözünü axıracan demədi, çünki gördü ki, Əmirqulu da yanlarında dayanıb ona qulaq asır və çayçı Qəzənfər Əmirquluya da müraciət eləyib sözünün dalını dedi: – Alə, Əmirqulu, səni də, düz bir həftə sizi çaya qonaq eliyəciyəm. Bir köpük də aldı yoxdu sizdən, mən ölüm, qonağımsuz! Alə, alə, tamaşaydı bu e, tamaşa!.. – Çayçı Qəzənfər gülməkdən qarnını tutdu.

Kitabxanaçı Nəcəf kəndin ədalət uğrunda ən birinci mübarizə aparanı idi və müftə şeylə arası yox idi, amma bütün bu əhvalatdan sonra, kitabxanaçı Nəcəf də çayçı Qəzənfərin birhəftəlik çay qonaqlığını qəbul etdi və:

– Oldu, qədeş! – deyib güldü.

*Noyabr, 1980.*

## AYAQQABI

*Dəli könül, nə divanə gəzirsən?..*

***Xəstə Qasım***

Çilçırağın işığı güzgüyə düşüb adamın gözünü qamaşdırırdı, çəngəl-bıçağın, qab-qacağın parıltısı da güzgüdən gülürdü, elə bil yayın cırhacır çağında gözünü qıyıb günə baxırdın – güzgü az qala eləcə günəş olub yanırdı, amma indi nə yay idi, nə də günəşin çıxan vaxtıydı və əslində Bəbirin gözünü qamaşdıran da, bir məlhəm kimi içini güldürən də çilçırağın güzgüdə əks edən işığı deyildi və Bəbir özü də bunu çox gözəl bilirdi; məsələ, şəstlə özünü güzgüdən Bəbirə göstərən bu təptəzə, qapqara gözəl kostyumda idi, bu ağappaq, tərtəmiz köynəkdə idi, boynuna taxdığı bu ağappaq, iri qanadlı kəpənəkcikdə («baboçka») idi və Bəbir açıq-aşkar görürdü ki, SSRI xalq artisti Mürsəl Məhəmmədovun özü bu dəm bu qalın güzgüdən baxan cavan oğlanın, yəni Bəbirin yanında yalan idi və sidq-ürəkdən özünə verdiyi bu qiymət Bəbirin kefini daha da qaldırdı və Bəbir başa düşdü ki, bugünkü günü, daha doğrusu, bugünkü gecəni yüngül keçirəcək, yorulmayacaq və bayırın küləyi də nahaq yerə elə tüğyan eləyir, bu gün, bax, bu gecə Bəbiri məqsədinə bir addım da yaxınlaşdıracaq: yataqxanada çarpayısının altındakı çamadanın içindəkilərin üstünə bir az da pul gələcək, kooperativ evin hazır olmağı bir gün də yaxınlaşacaq və kim bilir, daha nə olacaq, amma, hər halda, nə olsa da, yaxşı şey olacaq və bu yaxşının zərifliyini, incəliyini, mülayimliyini elə bil ki, Bəbirin ürəyi əvvəlcədən hiss edirdi, ürəyində sevincqabağı xoş bir nigarançılıq var idi və ümumiyyətlə, hər şey əla idi, təkcə bir şey pis idi ki, çəkməsi bir ölçü kiçik idi və ayağını sıxırdı.

Bəbir gözünü güzgüdən çəkib üç gün bundan qabaq dükandan tanışlıqla aldığı par-par parıldayan qara Yuqoslaviya çəkmələrinə baxdı və gülümsədi: təki elə dünyanın bütün pislikləri bu cür gözəl Yuqoslaviya ayaqqabılarının adamın ayağını bir balaca sıxmağı olsun; bir-iki gündən sonra açılacaq, genişlənəcək və sıxmayacaq.

Gecə növbəsi təzəcə işə başlamışdı və yavaş-yavaş restorana adamlar gəlirdi, Ziba cidd-cəhdlə mizlərə düzdüyü boşqabları, çəngəl-bıçağı, külqabıları bir daha səliqəyə salırdı, Poqosov sərrast gözləri ilə içəri girən müştərilərə baxırdı, həmin müştərilərin ciblərinin tutumunu gözlərindən oxuyurdu, lazım bildiyi müştərini, guya ki, təsadüfən özü qapıda qarşılayıb mizlərdən birində oturdurdu, Əbülfət, həmişəki kimi, burnunu çəkə-çəkə, gözlərini qırpa-qırpa boş mizlərin başına fırlanırdı, metrdotel Pakizə xanım hələlik öz kiçik iş mizinin arxasında oturub mizüstü lampanı yandırmışdı və çeşmək taxıb qarşısındakı kağız-kuğuza baxırdı, Əlifağa estradaya qalxmışdı və klarnetini qururdu, Aşot çoxdan gəlib öz yerində oturmuşdu və zərb alətlərini məxmərlə silib təmizləyirdi, bir azdan trubaçalan Gülməmməd, tarzən Məlik, qaboyçalan Əlimuxtar, kontrabas çalmağı bacaran Fətulla gələcəkdi, müğənni Nora gələcəkdi, Əlifağa ilə Əlimuxtar yavaş-yavaş və gizlin-gizlin araq vurmağa başlayacaqdı və estradada ara qarışıb məzhəb itəcəkdi, Nora Azərbaycan, hind, fransız, erməni mahnılarını oxumağa başlayacaqdı, Əlimuxtarın qaboyunun müşayiəti ilə bir-iki muğamat deyəcəkdi, amma, həmişə olduğu kimi, yenə də söylədiyi qəzəlin mənasını azərbaycanca, hind dilində, fransızca oxuduğu mahnıların sözləri kimi heç kim başa düşməyəcəkdi, bir azdan restoran tamam dolacaqdı. Ziba dolu məcməyiləri mizlərə daşıyacaqdı, yalandan müştərilərin üzünə güləcəkdi, müştərilərə mənalı baxışlar atacaqdı, hərdənbir ikibaşlı söz deyəcəkdi və əlbəttə, bütün bunlardan sonra müştərilər daha əliaçıq olacaqdı, Poqosovun müştəriləri isə, həmişəki kimi, hamıdan çox olacaqdı və sifarişləri də başqa sifarişlərdən sanballı olacaqdı, Əbülfətin də müştəriləri həmişəki kimi ən ucuz sifarişçilər olacaqdı, əgər restoranda on beş yer qalacaqdısa, bunun səkkizi, şübhəsiz ki, bəxtiqara Əbülfətin mizlərinin payına düşəcəkdi və Əbülfət burnunu çəkə-çəkə, gözlərini qırpa-qırpa, dodaqaltı öz bəxtinin qarasına deyinə-deyinə restoranın ən pulsuz müştərilərinə qulluq eləyəcəkdi, Pakizə xanım daha oturmayacaqdı, çeşməyini də gizlədəcəkdi, bütün gecəni restoran bağlanana qədər ayaq üstə keçirəcəkdi, gözündən heç nə yayınmayacaqdı, hətta Poqosovun özü də Pakizə xanımdan ehtiyat edirdi, çünki hamı bilirdi ki, iti gözündən və sərt sözündən başqa Pakizə xanımın restoranın müdirinin yanında, hətta, mehmanxananın müdiri yoldaş Qardaşxanlının özünün yanında hörməti var və xörəkpaylayanlar haqqında Pakizə xanımın çatdırdığı xəbərlərdən çox şey asılıdır.

Bütün bunlar belə idi, amma bütün bunlarin Bəbirə heç bir dəxli yox idi, çünki Bəbir bilirdi, inanırdı, əmin idi ki, bura onun üçün müvəqqəti iş yeridir, Bəbir, Poqosov kimi ömrünün qırx ilini ofisiantlıqda keçirməyəcəkdi, bu bədbəxt Əbülfət kimi il on iki ay qayğıların içində itib-batmayacaqdı, bir il işləyəcəkdi burda, iki il işləyəcəkdi, lap beş il işləyəcəkdi, amma sonra bir pillə də qalxacaqdı, heç olmasa, metrdotel olacaqdı, mütləq olacaqdı və ofisiantlıq da onun həyatında arxada qalmış bir pilləyə çevriləcəkdi, sonra həmin metrdotelliyin özü də arxada qalacaqdı (deyirdilər ki, yoldaş Qardaşxanlı özü də metrdotellikdən başlayıb), sonra restoran müdirliyi də arxada qalacaqdı və bir gün gələcəkdi ki, bir mehmanxananın direktoru, kim bilir, bəlkə də lap böyük bir idarənin direktoru olacaqdı və o zaman saçına da bir balaca dən düşmüş Bəbir yaxınlarına, əzizlərinə öz həyatından danışacaqdı, bax, bu restoranı da xatırlayacaqdı və hamıya da deyəcəkdi ki, həyatda nail olduqlarına görə, ancaq özünə borcludu, onun atası da, anası da, dayısı da, adamı da ancaq özü olub, Poylu stansiyasında bir qarnı ac, bir qarnı tox yetimçiliklə böyüyüb Bakıya gəlib və indi, on beş ildən sonra, yəni bütün bunları danışacağı vaxt yox, indinin özündə, iyirmi doqquz yaşında, Bakının mədəni restoranlarından birində işləyir, pul verib kooperativ mənzilə yazılıb, ayda da anasına iyirmi beş manat pul göndərir.

Əlbəttə, Bəbir istəsəydi daha artıq pul qazana bilərdi və o vaxt anasına da ayda iyirmi beş manat yox, lap qırx manat göndərərdi (hərçənd anası öz xərcini özü çıxarır), bu asan iş idi, Bakının kənarlarındakı, ya da Abşeron kəndlərindəki kababxanalardan birində işləyirdi, indikindən on dəfə artıq pul qazanırdı, amma məsələ burasında idi ki, bu mehmanxanadakı mədəniyyət oralarda olmayacaqdı, Bəbir isə, mədəniyyəti sevirdi və əslində bütün çalışmaları da, manat-manat yığdığı pul da mədəniyyət naminə idi, daha doğrusu, gələcəyin mədəni həyatı naminə; Bəbir istəmirdi ki, sifətindən kababın yağı damsın, bədəninə kababın iyi hopsun, gecələr köstəbək kimi burnunu sallayıb pul saysın – Bəbir o cür həyatın qeyri-mədəniliyini və mənasızlığını başa düşürdü və o cür həyat Bəbirə lazım deyildi.

Bəbir bu mehmanxanada yük daşımaqdan başlamışdı, sonra yoldaş Qardaşxanlı onu liftçi vəzifəsinə götürmüşdü, sonra restoranda aşpazın köməkçisi oldu, sonra dördüncü mərtəbədə çayçı işlədi, işləyə-işləyə də ofisiantlıq kursunu qurtardı və ikinci il idi ki, bu gözəl restoranda xörəkpaylayan idi, həm də Bəbiri təkcə restoranın yox, bütün mehmanxananın yerli komitə sədrinin müavini seçmişdilər.

Bəbir məişət xidməti işçilərinin yataqxanasında qalırdı və o yataqxana ilə bu restoranın arası əlli dəqiqəlik yol idi, yeddi dayanacaq trolleybusda, sonra da on dayanacaq tramvayda, amma Bəbir istəsəydi, yaxın yerlərdən birində ev kirayə eləyərdi, pulu var idi, manat-manat yığıb xeyli pul düzəltmişdi, amma Bəbir fikirləşib gördü ki, yataqxananı bəyənməyib kirayədə yaşamaqdansa, həmin pulu yığıb kooperativ mənzil tikdirmək lazımdı və belə də elədi, yoldaş Qardaşxanlı sağ olsun, lazımi sənədlərə qol çəkdi, uzaqbaşı iki ilə ikiotaqlı mənzil hazır olacaqdı və o zaman Bəbir evlənəcəkdi, subaylıq da yataqxana kimi Bəbirin həyatının keçilmiş bir mərhələsi olacaqdı və Bəbir çalışacaqdı ki, arvadı Bakının mədəni ailələrindən olsun, təhsilli olsun, heç olmasa, texnikum bitirmiş olsun; əlbəttə, bu çətin iş idi, amma, hər halda, Bəbir əlindən gələni edəcəkdi və Bəbirin ürəyinin dərinində bir inam vardı ki, elə belə də olacaq; Bəbir özü də oxumağa başlayacaqdı, bu il yayda texnikuma girəcəkdi, lazım olan adamlarla danışmışdı, daha doğrusu, Poqosov Bəbiri lazım olan adamlarla görüşdürmüşdü, texnikumdan sonra instituta girəcəkdi və o zaman uşaqları da olacaqdı və Bəbir uşaqlarına atasıyla anasının adını qoyacaqdı; düzdü, anası indi hələ sağ idi, amma yaşı yetmişi haqlamışdı və o vaxta yəqin ki, qalmayacaqdı, öləcəkdi, atası isə, Allahın rəhmətinə getmişdi, onda Bəbirin iki-üç yaşı var imiş və anası ağlayanda Bəbir atasını yamsılayıb deyirmiş: « – Səni döyərəm!».

Nora üzünə o qədər qırmızı sürtmüşdü ki, adam həmin qırmızı ilə köynəyini boyaya bilərdi və yekə mikrofonu ağzına dirəyib Azərbaycan xalq mahnısı oxuyurdu, amma bu mahnının sözlərini, təbii ki, heç kim başa düşmürdü, çünki Nora adicə azərbaycanca danışanda da adam başa düşmürdü ki, bu, boyu həddən artıq uzun, özü də arıq qadın nə deyir, amma Əlifağanın rəhbərliyi ilə çalan bu orkestrin ifaçıları hər biri öz alətində elə qiyamət eləyirdi ki, Noranın sözlərinin mənasını başa düşməyə ehtiyac qalmırdı, sifarişlərlə birlikdə üçlük gəlirdi, beşlik gəlirdi, hətta Poqosovun müştərilərindən onluq da gəlirdi və indi də pəncərə tərəfdə oturmuş üç cavan oğlandan biri yerindən:

– Ay can! – qışqırdı və oxuyub qurtaran Noraya əl çaldı, sonra da gözləri ilə Noranı göstərə-göstərə yanında dayanmış Zibanın qulağına nəsə dedi və Ziba da gülümsəyə-gülümsəyə başını tərpədib oğlanın dediyini təsdiq etdi.

Külək daha da bərkimişdi və həmin mart gecəsi Bakı pəncərələrinin əksəriyyətindən işıq gəlirdi və bu da o demək idi ki, camaat küləyin əlindən küçəyə çıxa bilmir; çıxan da, imkanı varsa, özünü verir restorana.

Bu mehmanxana Bakının dağlıq hissəsində idi və bu yeri elə bil ki, Allah elə mehmanxanadan ötrü, xüsusən də restorandan ötrü yaratmışdı və Bəbir də hərdən macal eləyib restoranın pəncərəsindən Bakının işığı yanan pəncərələrinə baxmağı xoşlayırdı – bu pəncərələrin işığı Bəbirin ürəyinə bir ilıqlıq gətirirdi, o işıqlarda bir məhrəmlik var idi və Bəbirə elə gəlirdi ki, işığı yanan həmin pəncərə şüşələrinin arxasında yaşayan bütün adamlar xoşbəxtlik içindədi; hərə öz xudmani guşəsində oturub ömrünün gözəl günlərini yaşayır və hərdən Bəbir iki ildən sonra tikilib hazır olacaq kooperativ mənzilinin də pəncərəsindən gələn işığı görürdü, hətta o pəncərə şüşəsindən o tərəfdə özünü də görürdü və az qala, cismani surətdə hiss edirdi ki, aşağıda, həmin kooperativ binanın qapısı ağzında indi yoldaş Qardaşxanlını gəzdirən furqonlu «Moskviç» kimi bir maşın sürücü ilə birlikdə dayanıb onu gözləyir, yəni Bəbiri gözləyir, hər gün Bəbiri işə aparır, işdən gətirir, bir sözlə, həmin maşın da, sürücü də camaatın gözü qabağında həmişə əmrə müntəzirdir.

Yoldaş Qardaşxanlının Bəbirdən açıq-aşkar xoşu gəlirdi və istehsalat müşavirələri çağıranda vaxt olub ki, o qədər camaatın arasında tərbiyədə, işə məsuliyyətlə yanaşmaqda, sözə baxmaqda, məsləhətə qulaq asmaqda Bəbiri misal gətirib və bu, əlbəttə, bir tərəfdən Bəbirin xidmətiydisə, o biri tərfdən də yoldaş Qardaşxanlının qabiliyyətindən xəbər verirdi, çünki o biri mehmanxanaların direktorları restoranlarındakı xörəkpaylayanları heç tanımırdılar da və Bəbir burasını da dəqiq bilirdi ki, yoldaş Qardaşxanlı onu mütləq irəli çəkəcək, çünki indiyəcən bircə dəfə də olmamışdı ki, Bəbir nəinki yoldaş Qardaşxanlının, heç metrdotelin də bir sözünü iki eləsin, nə demişdilərsə, etmişdi və xımır-xımır da öz işini görmüşdü, hər gün on beş-iyirmi manat qazancı olurdu – camaat mədəni xidməti xoşlayırdı və Bəbir də əlindən gələni əsirgəmirdi, iki manat, üç manat, beş manat, hətta səkkiz manat artıq verən olurdu, başqa xırda-xuruş gəlirləri də olurdu və Bəbir də bu pulları gələcək üçün dəstəçin yığırdı və Bəbirin beləcə pul yığmağı, özünə qıymamağı xəsislikdən deyildi, gözəl gələcək xətrinə idi; nə isə, hər şey yaxşı idi və hər şey necə lazım idisə, eləcə də öz qaydası ilə gedirdi, təkcə bu ayaqqabı zəhrimar ayağını sıxırdı.

Əlifağanın da kefi kök idi, amma Bəbirdən fərqli olaraq, Əlifağanın kefini araq qaldırmışdı – hərdənbir estradadan enib mətbəxə tərəf gedirdi və hamı başa düşürdü ki, Əlifağa niyə mətbəxə gedir, qayıdandan sonra Əlimuxtara göz eləyirdi və Əlimuxtar da Noranın əlindən güclə imkan tapıb özünü verirdi mətbəxə və bu gün, deyəsən, bu cür gediş-gəlişləri lap çox olmuşdu, Əlifağanın burnu, yanaqları qıpqırmızı qızarmışdı – «Içki mənə düşür, o saat qızarıram!» – və bir də bu artıqlıq ondan bilindi ki, Əlifağa həmişə belə vaxtlarda olduğu kimi, birdən yekə mikrofonu Noradan aldı və rus dilində belə bir elan verdi:

– Pesnya iz kinofilma «Brodyaqa». Posvyaşayetsya Z. Solo na klarnete ispolnyayet Alifaqa Ustadlı – Sonra klarnetin ağzını göyə qaldırıb bir çalmaq çaldı ki, bütün restoran əhli birağızdan əhsən dedi.

Bu, Əlifağanın dəm vaxtlarında elədiyi zarafatlardan biri idi: Z. – yəni, Ziba; məsələ burasında idi ki, Ziba uzun illərdi ki, Rac Kapura aşiq olmuşdu və bunu restoranda bilməyən yox idi, çünki Ziba bu böyük məhəbbətini heç kimdən gizlətmirdi də; haçansa ərə gedib boşanmışdı, hərdənbir fürsət düşürdü, amma Ziba daha ərə getmək istəmirdi, çünki Ziba deyirdi ki, mənim həyatda öz idealım var, mən öz qəhrəmanımı arzulayıram və Ziba sidq-ürəkdən öz idealını, qəhrəmanını uzun-uzun illər idi ki, Rac Kapurun simasında sevirdi.

Bəbir bunların hamısını ona görə beləcə yaxşı bilirdi ki, üç-dörd dəfə Zibanı evlərinə ötürməyə cəhd eləmişdi, bir dəfə, az qala, lap girmişdi də Zibanın evinə, amma hər dəfə də Ziba öz idealı və qəhrəmanı barədəki söhbətlərlə Bəbiri kor-peşman geri qaytarmışdı.

Əlifağanın klarneti qan eləyirdi və Bəbir fürsət tapıb zarafatla Zibaya göz vurdu, Ziba da narahatlıqla restoranın qapısına tərəf baxdı – bu gün gecə hansı iclasdansa sonra mehmanxananın banket zalında qonaqlıq olacaqdı, deyirdilər, guya, yuxarıdan da adam gələcəkdi və buna görə də yoldaş Qardaşxanlı şəxsən özü banket zalında bəzənmiş mizə baxacaqdı, banket zalı isə restoranla üzbəüz idi və Ziba qorxurdu ki, birdən yoldaş Qardaşxanlı girər içəri; Bəbir başını buladı, bu Ziba yazıq da, deyəsən, lap çaşıb daha, içəri girər girər də, nə olsun? Görəcək ki, həmişəki Əlifağadı, klarnetdə qan eləyir, nə biləcək ki, Əlifağa Zibaya sataşır? Bir də ki, nə qədər ki, Brilyant Ağacəfər bu restoranın şef-aşpazı idi, heç kim Əlifağaya gözün üstə qaşın var deməyəcəkdi, çünki Brilyant Ağacəfərlə Əlifağa haçansa bir sinifdə oxumuşdular və Brilyant Ağacəfər hər dəfə Əlifağanı görəndə ürəyinin sarı simi dilə gəlirdi, uşaqlıq çağlarını yadına salıb kövrəlirdi, həmişə dırnağının kənarları və içi quruyub qaralmış ət qalığı ilə dolu olan əlini yavaşdan bir-iki dəfə Əlifağanın kürəyinə vururdu və hamı da bilirdi ki, Əlifağa yaxşı çalsa da, pis çalsa da, tez-tez mətbəxə baş çəksə də, çəkməsə də, Brilyant Ağacəfərin adamıdı və dərd burasında idi ki, Əlifağanın özü də bunu yaxşı bilirdi və bunu yaxşı bildiyinə görə də kimdən xoşu gəlirdi, kimə yazığı gəlirdi, nə çalmağından asılı olmayaraq, götürürdü orkestrinə və ondan soruşanda ki, ay Əlifağa, ay sənin başına dönək, klarnetdən, qaboydan, trubadan, tardan, zərb alətindən və kontrabasdan da bir yerdə orkestr olar?; deyirdi ki, hərgah varsa, demək olar – bu bir, ikincisi də, mən musiqimdə Şərqlə Qərbin əlaqəsini yaradıram, çünki musiqi bəşəri şeydir, Yer üzünün bütün adamları üçündür, təkcə azərbaycanlının Məmmədi, ya da erməninin Vartanı üçün deyil, buna görə də tar olan yerdə gərək truba da olsun və gərək əsl musiqi adamların hamısının qəlbini oxşasın və ələlxüsus da restoranda, çünki əslində insan musiqini elə yeyib-içməkçün kəşf eləyib, yəni müasir dildə desək, restoran üçün kəşf eləyib.

Qaboyçalan Əlimuxtar həmişəki kimi Əlifağanın ağzından çıxan hər bir sözü başının hərəkəti ilə təsdiq edirdi; qaboyçalan Əlimuxtar təqaüdçü idi və Əlifağanın köhnə dostu idi, buna görə də orkestrdə pianoçu yeri boşalan kimi, Əlimuxtarı işə götürdü – arada Brilyant Ağacəfərin adı var idi və pianino ilə qaboyun fərqindən ötrü Əlifağanın sözünü yerə salmaq yaxşı deyildi.

Brilyant Ağacəfərin iki «QAZ-24»ü var idi, biri qayınanasının haradasa fəhlə işləyən xalası oğlunun adına idi, o biri Ağacəfərin özünün bibisi nəvəsinin gülçülük sovxozunda işləyən baldızının adına idi, biri həmişə mehmanxananın qabağında dayanıb Ağacəfəri gözləyirdi, o birisini isə, oğlu sürərdi və çox zaman da mehmanxananın həyətində, mətbəxin qapısı ağzında olardı; mətbəxin həmin qapısı əvvəllər pəncərə idi, sonradan bu pəncərəni Brilyant Ağacəfər öz xərciylə sökdürüb rahat qapı elətdirmişdi.

Nə isə, bütün bunların da Bəbirə dəxli yox idi, çünki Bəbirin heç kimlə işi yox idi və Bəbirlə də heç kimin işi yox idi, çünki başıaşağı, üzüyola adam idi.

Nora indi də erməni dilində Sayat Novadan oxuyurdu və bilənlər deyirdi ki, guya, Nora erməni dilində oxuyanda dediyi sözlərin mənasını başa düşmək olur; hər halda bu, restoranda oturub başı yeməyə-içməyə qatışanlardan çox, yəqin Sayat Novanın xoşbəxtliyi idi, bir də ki, hərdən kefi kök olanda Poqosova ləzzət verirdi, çünki belini əyib müştərilərə xidmət edə-edə mizlərin arasıyla adicə addımlamırdı, Noranın mahnısının ahəngi ilə gedirdi; bəxtiqara Əbülfət isə bir qoca kişi ilə qoca arvadın yanında dayanıb burnunu çəkirdi və gözləyirdi ki, ikisi də – eynəyini taxıb diqqətlə menyünü oxuyan bu müştərilər nə vaxt bir şey seçib sifariş verəcəklər; Ziba yalandan gülümsəyirdi, hərdənbir müştərini aldadan baxışlarından atırdı, tez-tez də bir küncə çəkilib və yaxalığının cibindən balaca sayğacını çıxarıb haqq-hesab edirdi, qazandıqlarını sayırdı; danışıq, qədəh cingiltisi, boşqab, çəngəl-bıçaq səsi Əlifağanın orkestri ilə birlikdə Noranı müşayiət edirdi və hərdənbir də Əlifağa insafa gələndə, sakitlik çökəndə bayırın küləyinin səsi gəlirdi.

Külək isə get-gedə bərkiyirdi.

Və həmin küləkli mart gecəsinin də əsas əhvalatı bundan sonra başladı.

Restoranın qapısı açıldı və üç nəfər cavan kişi içəri girdi və Poqosovun sərrast gözləri o saat bu oğlanların kimliyinin fotosunu çəkdi: rayondan gəlmişdilər, Bakıda yaşayana oxşamırdılar, tələbə də deyildilər, ticarət işçilərinə də oxşamırdılar, amma, hər halda, pulları var idi və beləlləri özlərini sındırmamaq üçün ciblərindəki qara qəpiyəcən Bakı restoranlarında geninə-boluna xərcləyirdilər ki, ofisiant elə bilməsin ki, restorandan başları çıxmır.

Təbii ki, Poqosov tez özünü bu oğlanların yanına verdi: düzdü, hələlik boş yeri yoxdu, amma bir az gözləsinlər, ode, orkestrin yanındakı miz indicə boşalacaq, nə hörmət lazımdısa eləyər onlar üçün, amma ortada dayanmış sarışın kişi ağzını açanda Poqosov təəccüb etdi, çünki bu sarışın kişi Bəbiri xəbər aldı və doğrusu, Bəbir özü də bu müştərilərin onu soruşduqlarını eşidib təəccübləndi, çünki Bəbir özü üçün xüsusi müştəri yığmırdı, çünki Bəbir acgöz deyildi, çünki, onsuz da, Allah Bəbirin gündəlik ruzisini yetirirdi və hər gecə yataqxanada çarpayının altındakı çamadanda saxladığı pulların üstünə pul gəlirdi – on manat, on beş manat, iyirmi manat, hər halda, ayda iki-üç ali təhsilli mühəndisin qazancı yığılırdı.

Bəbir sarışın kişini əvvəlcə tanımadı, amma sarışın kişi yeriyib camaatın içində Bəbiri qucaqlayanda, Bəbirlə öpüşəndə başa düşdü ki, bu, Sarı Zakirdi, uşaq vaxtı Poylu stansiyasında bir yerdə peyin eşirdilər və Bəbir əməlli-başlı dilxor oldu, çünki bu uzun illər boyu Poylu stansiyası ilə bu restoran arasında elə bir məsafə əmələ gəlmişdi ki, həmin məsafəyə daha nə qatarın gücü çatırdı, nə də maşının və Bəbir gözünün ucuyla burasını da gördü ki, Sarı Zakirin onu restoranın ortasında beləcə qucaqlayıb öpməyi Pakizə xanımın xoşuna gəlmədi və metrdotelin bir az qıyqacı baxan göy gözləri məzəmmətlə Bəbiri süzüb, o biri restoran işçilərinə baxdı ki, görsün onlar bu hadisəni necə qiymətləndirirlər.

Əlbəttə, Bəbir təxminən on-on iki il görmədiyi Sarı Zakiri restorandan qova bilməzdi, restoran Bəbirin restoranı deyildi, hökumətin restoranı idi və Bəbir qaşqabağını da nə qədər turşutsaydı, gönüqalın Sarı Zakir, onsuz da, heç nə başa düşməyəcəkdi və buna görə də Bəbirin əl verib Sarı Zakirin dostları ilə də tanış olmaqdan başqa əlacı qalmadı.

Sarı Zakirin dostları Bəbirlə xüsusi hörmətlə görüşdülər və burası da açıq-aşkar hiss olunurdu ki, Sarı Zakir Bəbirlə tanışlığı ilə fəxr edir, Bakı kimi yerdə, bu cür mədəni restoranda Bəbir kimi geyimli-kecimli uşaqlıq dostu olmaq, əlbəttə, zarafat deyildi.

Sarı Zakir dedi:
– Sənin canın üçün, Bəbir, eşikdə bir külək var, götür başını bu dünyadan qaç. Dedim, ə, bəri gəlin, Bəbir kimi əjdahamız var bu şəhərdə, haqq-say var aramızda! Yox, nəmxuda, lap yaxşısan! Mən də sağlığına pis dolanmıram!..
Bəbir onları restoranın ortasında, öz mizlərindən birinin arxasında əyləşdirdi və Sarı Zakirdən də soruşmadı ki, nə münasibətlə Bakıya gəliblər, nə bilib ki, Bəbir bu restoranda işləyir. Poyluda nə var, nə yox? Əvvəla ona görə ki, üz vermək istəmirdi, çünki çöl adamına ki, üz verdin, sonra dalında dayana bilməyəcəksən, ikincisi, onsuz da Sarı Zakir ağzını yummurdu, özü sual verib, özü də cavab verirdi, üçüncüsü də ona görə ki, bu saat Poylu stansiyasında nə varıydı, nə yoxuydu, bunun Bəbirə dəxli yoxuydu, bir anasıydı Poyluda, ona da ayda iyirmi beş manat pul göndərirdi, vəssalam, daha Poylu stansiyası ilə Bəbiri bağlayan başqa bir şey yox idi və Bəbir burasını da yaxşı bilirdi ki, o zaman ki, Bəbir özünü əməlli-başlı tutacaqdı, onda çox qohumu, çox ürəyi yananı peyda olacaqdı və bunların ayağını indidən kəsmək lazım idi; Bəbir qələmlə sifariş dəftərçəsini əlində hazır tutub:
– Nə yeyəcəksiniz? – soruşdu.
– Nə lazım bilirsən, özün gətir. Belə əntiqə şey nə varsa, hamısından gətir, a Bəbir. – Bunu da, təbii, Sarı Zakir dedi.
Bəbirin ürəyinə gəldi ki, Poylu stansiyasının camaatından nə desən çıxar, birdən bunlar Bəbirin hesabına müftə yeməyə gəlmiş olarlar və ona görə də dedi:
– Qiymətləri cürbəcürdü axı. Ucuzu var, bahası var, lap bahası var...
– Lap bahasından da bahalısı var, a Bəbir? – Sarı Zakir güldü. – Bax, onnan gətir. Pulumuz kefin istəyəndi! – Sonra Sarı Zakir yoldaşlarına baxdı ki, yəni necə dedim? Əla dedim, yoxsa yox? Və yoldaşları da razılıqla gülümsəyib başlarını tərpətdilər, yəni ki, lap yaxşı dedin.
Düzdü, Bəbir acgöz deyildi, amma, hər halda, o ofisiant deyildi ki, pullu müştəri ürəyincən olmasın və Bəbir də bir balaca toxtadı, əvvəlki gözəl ovqatı yavaş-yavaş özünə qayıtmağa başladı və mətbəxdə vəzndə ağır, çəkidə yüngül nə vardısa Sarı Zakirin adından sifariş dəftərçəsinə yazmağa başladı.
Noranın fasiləsi qurtarmışdı, yenə də estradaya qalxmışdı və bu dəfə hind dilində «Baycu Bavra» filmindən bir mahnı oxumağa başladı və Noranın həm görünüşü, həm səsi, həm də hərəkətləri Zakirgilə o dərəcədə təsir etdi ki, bir müddət susub bilmədilər ki, nə eləsinlər, Noranı və onun oxumağını tərif eləsinlər, tənqid eləsinlər, ya da zarafata salsınlar, axırda Sarı Zakir təkcə elə bunu dedi:
– Bu nədi ə, a Bəbir?
Bəbir Sarı Zakirin heyrət dolu bu sualına heç bir cavab vermədi və mətbəxdən daşıyıb gətirdiyini həmişəki qayda ilə mizə düzdü və Pakizə xanım da daha məzəmmətlə Bəbirə tərəf baxmırdı, çünki Bəbir yenə də həmişəki Bəbir idi və pullu müştərilərinə qulluq edirdi.
Zakirgil də daha Noraya fikir vermirdilər, çünki Bəbirin gətirib qabaqlarına düzdüyü bu yeməklər onlara Noradan da artıq təsir etmişdi və Sarı Zakir əlini atıb araq şüşəsinin ağzını açmaq istəyəndə Bəbir ona macal vermədi, özü araq şüşəsini götürüb ağzını açdı, sonra da şüşəni ağ dəsmalla tutub Sarı Zakirin də, dostlarının da qədəhini bir-bir doldurdu və Bəbirin bu hərəkəti Zakirgilə o qədər təsir etdi ki, Nora da, mizin üstündəki bər-bəzəkli yeməklər də yalan oldu və Sarı Zakir boğazını haqlamış qəhəri güclə boğub dedi:
– Mən ölüm, a Bəbir, tez-tez elə, özünə də süz görək.
Bu cür təklifləri çox eşitmiş Bəbir, təbii ki:

– Mənə olmaz, – dedi və Zakirgildən uzaqlaşıb o biri müştərilərinə baş çəkməyə başladı.

O biri müştərilər yenə də üç kişidən (ikisi, deyəsən, Moskvadan gəlmişdi, biri də azərbaycanlı idi, sifarişi də o verirdi, yeməkləri də tərifləyirdi və təbii ki, haqq-hesabı da o verəcəkdi), bir kişi ilə bir qadından (hiss olunurdu ki, ər-arvad deyillər və hələ ki, aralarında bir şey olmayıb və kişinin bütün ümidi bu gecəyədir), iki cavan oğlandan (bunlar atalarının hesabına vuranlardan idi və Bəbir belələrini yaxşı tanıyırdı və ürəyində onlardan zəhləsi gedirdi, amma müştəri müştəri idi və müştərinin kimin hesabına vurmasının ofisianta dəxli yox idi), üç cavan qadınla üç cavan kişidən (bunlar bir-birinə yaxın adamlar idi, ya da bir yerdə işləyirdilər, ya da qohum, yaxın dost idilər və Bəbirin belə xudmani məclislərdən xoşu gəlirdi, çünki ev qadınları olduğu üçün belə məclislər, adətən, dedi-qodusuz, dava-dalaşsız, mədəni keçirdi, kişilər də arvadlarının etirazına baxmayaraq yaxşıca içirdilər və hesabı da yaxşıca, artıqlaması ilə ödəyirdilər) ibarət idi və Bəbir bu müştərilərə xidmət etdikcə bayaqkı ovqatı tamam-kamal gəlib öz yerini tuturdu; hər şey öz qaydası ilə gedirdi və hər şey yenə də gözəl idi.

Bu Sarı Zakirin səsi restoranı başına götürdü:

– Bəbir, a Bəbir! Bəbir, mən ölüm, bir bura gəl!

Tərs kimi, Əlifağanın orkestri də əldən düşüb susmuşdu və əlbəttə, Pakizə xanımın qaşları çatıldı, məzəmmətlə dolu göy gözlərinin qıyqacı baxışı Bəbirin alışıb-yanmağa başlayan sifətinə sancıldı.

– Bəbir, a Bəbir!

Bəbir iti və sərt addımlarla Zakirgilin mizinə yaxınlaşdı ki, Sarı Zakir dana kimi böyürməyini kəssin və ümumiyyətlə, bir də Bəbirin adını çəkməsin, amma Sarı Zakir də Sarı Zakir idi, Bəbirə ağzını açmağa macal vermədi:

– A Bəbir, sən Əbdülkərim müəllimin qəbri, yüz qram vur bizimlə, a qansız, yüzcə qram, vəssalam!

Bəbirin ilk başa düşdüyü bu oldu ki, bircə anın içində halı xarablaşdı, ürəyi ağrıdı, ya mədəsi ağrıdı, ya nə oldusa, halı tamam xarablaşdı, elə bil, həmin bircə anda qulaqları kar oldu, niyə belə oldu? – özü də bilmədi, sonra narın bir tər gəldi bədəninə və o narın tərin soyuğunu Bəbir kürəklərinin arasında hiss etdi, niyə axı belə oldu? Yəni bu dərəcədə çox istəyirmiş Əbdülkərim müəllimi? Və hərgah Əbdülkərim müəllimi beləcə çox istəyirmişsə, niyə, ancaq indi, bu zırrama Sarı Zakir adını çəkəndə yadına düşdü? Amma di gəl ki, bu tər də əsl soyuq tər idi, bu döyüntü də Bəbirin ürəyinin döyüntüsü idi, başqasının deyildi və Bəbir təkcə bunu soruşdu:

– Əbdülkərim müəllim ölüb bəyəm?

– Bay... Əbdülkərim müəllim, Allah ona rəhmət eləsin, – və Sarı Zakir Əbdülkərim müəllimin xatirəsindən daha çox mizin üstündə boşalmış araq şüşələrinin təsirindən ağlamsındı. – Yeddi-səkkiz ildi ömrünü tapşırıb bizə, gedib, a Bəbir!..

Bəbir daha heç bir şey deməyib Zakirgilin mizindən aralandı və gedib restoranın pəncərəsinin qabağında dayandı: bu dəm Bakının bütün işıqlı pəncərələri gözünü dikmişdi Bəbirin sifətinə və Bəbir fikirləşdi ki, o uzaq pəncərələrin arxasında nə qədər müxtəlif talelər var, nə qədər qayğılar, iztirablar, faciələr var və Bəbir öz-özünə təəccüb etdi ki, gecə vaxtı Bakının işıqlı pəncərələrinə baxıb ömründə birinci dəfə belə şeylər fikirləşir.

Əbdülkərim müəllim məktəbdə Bəbirə dərs demişdi, fizikadan, ya da kimyadan? Deyəsən, fizikadan və indi bir möcüzə baş versəydi və Bəbirlə Əbdülkərim müəllim üzbəüz gəlsəydi, Bəbir bəlkə heç Əbdülkərim müəllimi tanımazdı da, Bəbirin Əbdülkərim müəllimlə bağlı elə bir xüsusi xatirəsi də yox idi, başqa müəllimlər necə, Əbdülkərim müəllim də o cür, amma olsun ki, Əbdülkərim müəllimin ürəyi bir balaca daha yumşaq idi, bir az daha mehriban idi. Bəbirə qarşı, nədənsə, bir az daha artıq istiqanlı idi və Bəbirin yaxşı yadına gəlirdi ki, o uzaq uşaqlıq çağlarında Poylu stansiyasının aşağı başındakı arxın qırağı ilə qamışlığa tərəf gedəndə (stansiyanın uşaqları və o cümlədən, bu Sarı Zakir də qamışlıq tərəfdə yığışıb oynayardı və o uşaqların hamısının atası var idi) hərdən sir-sifətini yadında saxlamadığı atası barədə fikirləşirdi və atasının sifətini Əbdülkərim müəllimin sifətində, atasının təbəssümünü Əbdülkərim müəllimin təbəssümündə görərdi, atasını başqa simada təsəvvür etmək istəyirdi, evlərində anasının saxladığı bir-iki şəkli gözlərinin qabağına gətirirdi, amma atasını yenə də Əbdülkərim müəllimin sifətində görürdi; Əbdülkərim müəllim barədə başqa nə edə bilərdi? Heç nə; iki-üç qızı var idi deyəsən, onlar da böyük idi, ərə getmişdi, sonra nə? Bəbir daha başqa bir şey fikirləşib tapa bilmədi, amma bu köpək oğlu Sarı Zakir yaman zərif yerdən tutmuşdu, hardan ağlına gəlmişdi ki, Əbdülkərim müəllimin qəbrinə and versin? Niyə belə təsir etdi bu and Bəbirə? Sehr idi bu, nə idi? Və burası tamam yəqin idi ki, Sarı Zakir Bəbirin anası Əfiqə arvadın canına and versəydi, Bəbir heç bir vicdan əzabı çəkmədən öz işi ilə məşğul olardı; Əfiqə arvad neçə illər idi ki, Poylu stansiyasında siroplu su sata-sata özünü dolandırırdı və Bəbir də hər ay anasına iyirmi beş manat pul göndərirdi. Bəbir pəncərənin qabağından çəkilə bilmirdi, gedib öz işi ilə məşğul ola bilmirdi, Bəbirə nə olmuşdu? Nəyin əzabını çəkirdi? Yəqin ki, bundan sonra bir də heç kim Əbdülkərim müəllimin qəbri naminə Bəbirdən heç nə xahiş etməyəcəkdi və doğrusu, həmin küləkli mart gecəsi restoranın pəncərəsi qabağında dayanmış Bəbir Əbdülkərim müəllimin qəbri naminə bu birinci və axırıncı xahişi yerinə yetirmədiyi üçün əməlli-başlı iztirab çəkirdi və Bəbir Bakının işıqlı pəncərələrinə baxa-baxa başa düşdü ki, indicə geriyə qayıdıb, Allahın bəlası olan bu Sarı Zakirin oturduğu mizə yaxınlaşacaq və Əbdülkərim müəllimin qəbrinin naminə onlarla bir qədəh araq vuracaq.

Sarı Zakir əlini şarappaşarap öz sinəsinə vururdu:

– Dedim də sizə, dedim, yoxsa demədim?! Ə, ürəyimin bir parçasıdı e, mənim bu Bəbir! Dedim vuracaq bizlə, yoxsa demədim?! Ə, necə olsa, biz qonağıq ey burda. Bəbir ev yiyəsidi. Nətər olar ə, bu bizi adam hesab eləməsin, bizimnən yüz qram araq vurmasın? Dedim sizə, yoxsa, demədim? – Sonra Sarı Zakir qalxıb Bəbiri öpmək istədi, amma bu lap ağ olardı və Bəbir bu dəfə sərt bir hərəkətlə Sarı Zakiri yerində oturtdu.

Bəbir Əbdülkərim müəllimin qəbrinin naminə Zakirgilə yaxınlaşıb bir qədəh arağı elə içdi ki, bunu nə Pakizə xanım, nə də restoranın başqa bir işçisi gördü, təkcə, deyəsən, Poqosov gördü, amma bunun eybi yox idi, çünki altmış üç illik ömrü ərzində dünyada Poqosovun görmədiyi çox az şey var idi.

Bəbir restoranda işlədiyi vaxtdan bəri birinci dəfə idi ki, iş vaxtı araq içirdi və qəribə idi, bu araq da elə bil həmişəki araq deyildi, elə bil birdən-birə Bəbirin qanına keçmişdi, Bəbiri almışdı və elə bil ki, Bəbirin ürəyində o qapıları açmağa başlamışdı ki, o qapılardan heç Bəbirin özünün xəbəri yox idi: yox, Bəbir Əbdülkərim müəllim barədə fikirləşirdi, amma birdən-birə uşaq vaxtı nədən ötrüsə için-için ağlamağı yadına düşmüşdü və indi müştərilərin qulluğunda dura-dura hiss edirdi ki, az qalır ağlasın, daha doğrusu, bütün bədəni, bütün varlığı ağlamaq istəyir; niyə belə dolmuşdu? Niyə bu günə düşmüşdü? Yəni o bir qədəh araqda bu boyda qüvvə var idi? Və Bəbir özü özünü, ürəyinin narahatlığını, hisslərinin nigarançılığını qabaqlamaq üçün daha cəld işləməyə başladı, Pakizə xanımın yan-yörəsində hərləndi ki, metrdotelin zabitəsindən bir az özünə gəlsin, özünü ələ alsın, amma ürək başqa bir şey deyirdi, ürək deyirdi ki, çıx bu saat bu restoranın adamın bədəninə, bütün vücuduna qızarmış yağ iyini, dağılmış çaxır, yanmış papiros iyini, Noranın ətriyyatının iyini yapışdıran yapışqan havasından bayırın küləkli halvasına, ver özünü küləyə, qoy külək götürüb aparsın səni, hara aparır aparsın, dünya geniş, külək də güclü, qoy burda qalsın bu restoran, o yataqxanadakı çarpayının altındakı çamadan da qoy elə orada qalsın, kooperativ mənzil də qoy başqasının olsun, qaç, qaç, ver özünü küləyə, qaç, qoçağım, qaç...

Birdən-birə kooperativ mənzilin hazır olacağı iki il, yəni yeddi yüz iyirmi gün Bəbirə heç vaxt sonu gəlib çıxmayacaq, heç vaxt bitib qurtarmayacaq bir əsr kimi gəldi və bu yeddi yüz iyirmi günlük məsafənin qaranlığı, ümidsizliyi Bəbirin içinə elə bir hönkürtü doldurdu ki, az qala, qaça-qaça Zakirgilin yanına gəldi və:

– Birini də tök! – dedi.

Doğrusu, Bəbirin bu hərəkətindən Sarı Zakir sidq-ürəkdən vəcdə gəldi və qədəhə araq doldura-doldura:

– Bütün dünyanın araqları qurbandı sənə, a Bəbir! – dedi. – Mən ölüm, qoy bir səni öpüm! Qoy ey, qoy, yoxsa dədəm Kələntərin göruna and olsun, ürəyim partdar! – Və bu dəfə Sarı Zakir ayağa qalxıb camaatın gözü qabağında Bəbiri qucaqlayıb öpdü.

Bəbir yaxşı bilirdi ki, bu dəm Pakizə xanımın göy gözləri ondadı, bu dəm o biri ofisiantlar da yəqin dayanıb Bəbirə baxırdı, amma Bəbir əlindəki qədəhi yerə qoymadı, əksinə Sarı Zakirin və dostlarının qədəhləri ilə toqquşdurub başına çəkdi, çünki aşıq düz demişdi, dəli könül, məndən sənə əmanət, demə bu dünyada qalım yaxşıdı və Sarı Zakir tələm-tələsik qədəhləri bir də doldurub Bəbirin sinəbir sağlıq deməsini xahiş edəndə, elə bil ki, Bəbirin sinəsi bulaq kimi pıqqıldayıb aşığın sözləriylə axdı, axdı və Sarı Zakiri də, dostlarını da həmin küləkli mart gecəsində, Bakıdakı o restoranda, bir elə camaatın içində arvad kimi zır-zır ağlatdı: neçə qəhrəmanlar gəldi dünyaya, köç vaxtı yetişdi, tez oldu, getdi; Rüstəmin zərbindən titrədi dağlar, düşdü dastanlara söz oldu, getdi; hakimlik elədi çox uzun vaxtı, bütün kainata Süleyman baxtı, tərsinə döndü şah Cəmşidin taxtı, Firudinin dərdi yüz oldu, getdi; necə oldu Keykavus, hanı Keyqubad? Hansı bu dünyadan almışdı murad? Allahlıq elədi Fironla Şəddad, Nəmrudun qalası düz oldu, getdi; Isgəndər Daranı taxtından saldı, cahana şah gəldi, sonu nə oldu? yarı yolda öldü, Misirdə qaldı, Bəbir kimi yandı, köz oldu, getdi və Bəbir də söylədiyi bu sözlərdən sonra, aşığın adını öz adıyla əvəz eləyəndən sonra, özünü saxlaya bilmədi, Zakirgildən ayrılıb yenə restoranın pəncərəsinin qabağına gəldi və yenə də adamın ürəyini sıxan ağır boz pərdəni kənara eləyib şəhərin işıq gələn pəncərələrinə baxdı və bu pəncərə işıqları bu dəm, elə bil, buz laylarının o biri tərəfindən gəlirdi, heç bir istisi, hərarəti yox idi, elə bil ki, o pəncərə işıqlarının özü də donub buz bağlamışdı, kərpic-kərpic buz işıqlar idi.

Bəbir bilirdi ki, indi hamı ona baxır – camaatın, xüsusən də Pakizə xanımın qıyqacı baxışları kürəyini yandırırdı, amma bu baxışlar daha Bəbirə təsir etmirdi və Bəbir başa düşürdü ki, bunun səbəbi təkcə araq deyil, amma Bəbir heç cürə ağlına sığışdıra bilmirdi ki, nə vaxtdan beləcə dolubmuş və ümumiyyətlə, axı, nə istəyirdi Bəbirin ürəyi? Niyə beləcə ağlayıb sızıldayırdı? Bu aşıq sözləri haradandı belə? Necə olmuşdu yadında qalmışdı bunlar və aşığın adını niyə öz adıyla əvəz elədi? Yəni, doğrudan, aşığın bu sözlərinin hamısı Bəbirin ürəyinin sözləri idi? Və hərgah doğrudan da, beləydisə, onda niyə bu sözlər indiyə qədər üzə çıxmırdı?

Nora fransız mahnısı oxuyurdu və fransızca oxuyanda hər dəfə «R» hərfini elə «r-r-r-r-r» deyib uzadırdı ki, qara qarğa qələt eləyərdi, amma Əlifağa hamıya deyirdi ki, Nora düz oxuyur, çünki ən məşhur fransız oxuyanları «r»nı beləcə uzadırlar, bu da, bir növ, fransız muğamıdır.

Bayırda külək elə bərkimişdi ki, hərdənbir qıy vurub Əlifağanın orkestrinin gurultusu arasından da eşidilirdi və o səsi eşidəndə indi Bəbirə elə gəlirdi ki, bayırın küləyi əslində Bəbirin adını çəkir, Bəbiri çağırır, amma daha Bəbiri qucağına alıb aparmağa yox, Bəbiri döyməyə çağırır, ağzını-burnunu əməlli-başlı əzişdirməyə çağırır və ən qəribəsi də bu idi ki, bu dəm Bəbirin bütün varlığı beləcə döyülməyin həsrətində idi.

Bəbir çalışırdı ki, Pakizə xanımla, o biri ofisiantlarla göz-gözə gəlməsin və tələm-tələsik o biri müştərilərinə qulluq edirdi, amma əlləri titrəyirdi, qılçı sözünə baxmırdı və müştərilər də təəccüblə Bəbirin qızarmış nəm gözlərinə, titrəyən əllərinə baxırdı.

Bəbir əvvəlcə hər şeyi atıb restorandan qaçmaq, bayırda bir taksiyə oturub yataqxanaya getmək, üzü üstə çarpayıya düşüb doyunca ağlamaq, sonra da yatmaq istədi və Bəbir bilirdi ki, indicə belə eləsə, bayıra qaçıb taksiyə minsə, sabah yenə də hər şey qaydasına düşəcəkdi, bu gecə Zibayla Poqosov Pakizə xanımın rəhbərliyi ilə birtəhər Bəbirin müştərilərinin haqq-hesabını çəkəcəkdilər, onları yola verəcəkdilər, sonra iclasda Bəbiri bir az danlayacaqdılar, uzaqbaşı bir töhmət verəcəkdilər, vəssalam. Bəbir də yalandan bir əhvalat uydurub danışacaqdı, nə bilim, anamdan pis xəbər gətirmişdilər, yaxud restorana gələn o sarı pişik rəhmətlik bacımın sevdiyi oğlan idi və s. Sonra da üzr istəyəcəkdi və hər şey də düzələcəkdi, amma bütün bunların hamısını ağıl deyirdi, beyin deyirdi, görək ürək də bunu deyirdimi? Ürək başqa söz deyirdi, ürəyin nə dediyi düzdü, tamam məlum deyildi, amma Bəbir hiss edirdi ki, ürək başqa söz deyir, ürək başqa yerə çəkir, elə bir yerə ki, bol işığı olsun və o bol işıq beləcə kərpic-kərpic buz bağlamasın.

Zakirgilin süfrəsi yarımçıq və tamam boşalmış araq, çaxır şüşələri ilə dolmuşdu və Zakirgil Bəbirin aşığın sözüylə söylədiyi sağlıqdan sonra ağlayıb özlərinə gəlmişdilər və Sarı Zakir ayağa qalxdı, yanından ötən Bəbirin qolundan tutub saxladı, dostlarına:

– Tökün! – dedi. – Siz tökün, mənim sözüm var! Bunu qaldıraq, bax, bizim bu Bəbirin sağlığına.» A Bəbir, a qadan alım sənin, sən ki, beləcə geyinib-kecinməyinə baxmayaraq, belə bir hörmətli restoranın gözü olmağına baxmayaraq, bizi belə ürəkdolusu qarşıladın, bizimlə oturub yüz qram araq içməyi özünə ayıb bilmədin, sən ki, bizim ürəyimizdən söz deyib bizi... – Sarı Zakir yenə kövrəldi, – bizi... bizi ağlatdın, səni min yaşa!

Zakirgil araq içdilər, amma Bəbir çaxır içdi, çünki, əslində, Bəbirin ürəyi içmək istəmirdi, amma Bəbir baxıb gördü ki, Pakizə xanımın rəngi-rufu tamam ağarıb və Pakizə xanım qəzəblə düz Bəbirin gözlərinin içinə baxır, onda Bəbir bircə anın içində özündən çıxdı və bu ilan gözlü Pakizə xanımın acığına Zakirgilin yanındakı boş kürsüdə oturub dedi:

– Birin də tök!

– Ə, tez eləyin, birin də süzün! – Sarı Zakir Bəbirin qabağına öz boşqabını, çəngəl-bıçağını qoydu, elə bil ki, səhərdən bəri Bəbirin onlara qulluq eləməyinin əvəzini çıxmaq istəyirdi.

– Qarğa köpək qızı, qarıldayıb qurtarmır! – Bəbir nifrətlə Noraya baxdı və Noranın təbii ki, Bəbirin sözlərindən xəbəri yox idi, «r»ları uzada-uzada yenə də fransız mahnısı oxuyurdu.

Sarı Zakir bilmədi ki, Bəbirin bu oxuyan arvadı söyməyinə nə desin, özü də Bəbirə qoşulub söysün, ya neyləsin?

Pakizə xanım qəzəbdən alışıb-yanan gözləriylə, hirsdən-hikkədən ağappaq ağarmış sifətiylə Bəbirə nəsə him-cim eləyirdi və Bəbir başa düşürdü ki, Pakizə xanım him-cimiylə Bəbiri mizin arxasından qaldırmaq istəyir, amma bu him-cimlər daha Bəbirin vecinə deyildi, çünki aşıq yaxşı demişdi, könül həris deyil dünya malına... və bu dünyada ki, kərpic kimi buz işıqlar var idi və bu kərpic kimi buz işıqlar ki, adamın ürəyini beləcə üşüdürdü, onda o çarpayının altındakı çamadana adamın yazığı gəlirdi, o çamadan çamadanların ən havasızı idi, ən yöndəmsizi idi, köməksizi idi və o çamadan sahibinə də adamın yazığı gəlirdi.

Sarı Zakirin dostlarından birinin başı pırpızaqlı, sifəti sızanaqlı idi, əyninə bir az böyük olan göy kostyum və qırmızı neylon köynək geymişdi, boynuna da yaşıl qalstuk bağlamışdı və Bəbirin gözü bu qalstuka sataşanda birdən-birə həmin qalstukun yaşılı Bəbirin gözlərində əriyib yayılmağa başladı və bu yaşıl çoxdan unudulub getmiş o dağın yaşılına çevrildi; onda Bəbir lap balaca uşaq idi və Bəbir bilməzdi ki, indiyə qədər o yaşılı beynində saxlayıb, ürəyində saxlayıb; Poylu stansiyası bomboz aran idi və bataqlıq qamışından başqa bir yaşıllığı yox idi, amma o uzaq uşaqlıq çağında bir dəfə anası Bəbiri də maşına mindirib harasa apardı, xeyli yol getdilər, maşın dolama yollarla dağa qalxdı və o dağda, o yolların kənarında, o evlərin arasında Bəbirin heç vaxt görmədiyi və təsəvvürünə gətirmədiyi bir yaşıllıq var idi və həmin yaşıl otlar, yaşıl ağaclar, yaşıl kollar, bu yaşıllıq içində adama gülümsəyən qırmızı, bənövşəyi, narıncı, mavi, ağ, qəhvəyi gül-çiçək o balaca Bəbiri elə bir heyrət və sevinc aləminə salmışdı ki, Poylu stansiyasına qayıdandan sonra da bir neçə ay o gözəl aləmdən çıxmadı, gecələr yuxuya getməzdən əvvəl gözlərini yumub həmin yaşılı, həmin yaşıl içindəki qırmızını, bənövşəyini, narıncını, mavini, ağı, qəhvəyini gördü və Bəbirin yetimliyi o görümün qabağından gedirdi.

Əriyib hər tərəfə yayılmış o yaşıl yenə qurudu, sıxıldı və qalstuk olub başı pırpızaqlı, sifəti sızanaqlı bu oğlanın boynundan asıldı və Bəbir ürəyinin giziltisi ilə fikirləşdi ki, uşaq vaxtındakı o səfərdən sonra heç vaxt elə yaşıllıq görməyib, yaşıl içində gülən elə qırmızı, elə bənövşəyi, narıncı, mavi, ağ, qəhvəyi görməyib və ümumiyyətlə, Bəbir heç nə görməyib.

Bəbir:

– Yaxşı yeyin-için, – dedi. – Bu gün mənim qonağımsız!

Sarı Zakir tamam özündün çıxdı:

– Ə, gördünüz?! Gördünüz, yoxsa yox?! Demədim sizə ki, Bəbir qoymayacaq əlimizi cibimizə salaq? Ə, mən sizə dedim bunu, yoxsa demədim?

Pakizə xanım isə him-cimində idi.

Sarı Zakirin başı pırpızaqlı dostu da Bəbirə him-cim eləyən Pakizə xanıma baxırdı və birdən üzünü Bəbirə tutub udquna-udquna dedi:

– Onu...

– Nə?

– Onu də...

– Nə onu?

– Bişir də mənim üçün onu...

Bəbir pırpızaqlı oğlanın bu xahişinə cəmi bircə an təəccüb etdi, sonra Bəbiri gülmək tutdu və Bəbir Pakizə xanıma baxa-baxa az qaldı gülüb özündən getsin. Bəbir heç vaxt ağlına gətirməzdi ki, Pakizə xanıma da başqa gözlə baxmaq olar və Bəbir indi Pakizə xanıma baxa-baxa onu çox biədəb vəziyyətlərdə təsəvvür etdi və daha da bərkdən gülməyə başladı.

Əlbəttə, nə Sarı Zakir, nə dostları Bəbirin birdən-birə beləcə gülməyindən bir mətləb anlamadılar və bu vaxt ətrafındakı mizlərin arxasındakı müştərilər Bəbirin qarasına deyinməyə başladılar.

– Su noldu?

– Limon demişdik axı!

– Tabaka qızarmadı?

– Şampan hanı?

Pakizə xanım qəti addımlarla Bəbirə yaxınlaşdı və düz Bəbirin başının üstündə dayanıb hirsindən dodaqları səyriyə-səyriyə:

– Yoldaş ofisiant! – dedi və bilmədi ki, sözünün dalını necə davam etdirsin, belə bir vəziyyətində Bəbirə əmr eləsin ki, dur işinlə məşğul ol, yoxsa hələlik xahiş eləsin, amma Pakizə xanımın çox götür-qoy eləməyə vaxtı qalmadı.

Bəbirin müştəriləri arasında iki cavan oğlandan biri ayağa qalxıb bərkdən qışqırdı:

– Özün oturub orda kef eləyirsən, biz də səhərdən burda şampanski gözləyirik!..

Bəbir bığ yeri təzəcə tərləyən bu oğlana altdan-yuxarı baxdı və özü də bilmədi ki, necə yerindən durdu, qolu ilə Pakizə xanımı necə özündən kənar elədi və necə bağırdı:

– Gedin özünüz gətirin! Gedin! Hamınız gedin nə istəyirsiniz özünüz gətirin! O siz, o sizin xosrəngi mətbəxiniz, o da julik Ağacəfər! Brilyant!

Elə bil ki, səhərdən bəri bütün bu əhvalatı lentə çəkirdilər və bu yerdə lenti saxladılar, elə bil bir anlıq restoranda həyat dondu, sonra yenə lent çəkilməyə başladı, Pakizə xanım alışıb-yanan qıpqırmızı qulaqlarına inanmadı, Poqosov təkcə elə öz-özünə «–Vax!» – deməklə kifayətləndi, Ziba birdən-birə gizli məhəbbət dolmuş gözlərilə Bəbirə baxdı, elə bil ki, əsl qəhrəmana baxırdı, Əbülfət burnunu çəkə-çəkə, gözlərini qırpa-qırpa yerində bonub qaldı, Əlifağaya isə elə gəldi ki, dünyanın axırıdı, az qaldı ayıla, çünki dünyanın axırı olmasaydı, Bəbir kimisinin biri bu qədər camaatın içində o boyda kişi haqqında belə qələt eləməzdi və onsuz da, ürəyi həmişə səksəkədə olan Əlifağa burasını da fikirləşdi ki, bəlkə, bu Bəbirdi-nədi, bunun qulağına söz çatıb, Ağacəfərin başında bir iş var, amma sonra Ağacəfərin təmiz qırxılmış, dolu və hamar sifəti, çal bığı, qızıl dişləri Əlifağanın gözlərinin qabağına gəldi və Əlifağa bir az toxtadı, amma çalmağına daha çalmadılar və gözlədi ki, bu mərəkənin axırı nə olacaq.

Sonra Bəbir Zakirgilə çönüb:

– Tökün! – dedi.

Doğrusu, Zakirgil bu mədəni restolranda belə bir əhvalat gözləmirdilər və çaşıb qalmışdılar, təkcə başı pırpızaqlı oğlan elə eləcə az qalırdı Pakizə xanımı ac gözlərinə təpib yesin.

Pakizə xanım iti addımlarla mətbəxə tərəf getdi, amma onun kimisə çağırmasına, kiməsə şikayətlənməsinə ehtiyac qalmadı, çünki restoranın qapısı açıldı və şəxsən yoldaş Qardaşxanlı özü içəri girdi.

Yoldaş Qardaşxanlı uzun illər idi ki restoranlarda, univermaqlarda, mehmanxanalarda işləyirdi və bu işdə böyük səriştəsi var idi və indi də banket zalına baş çəkdiyi vaxt restorana çökmüş sükutu və bu sükutdakı gizli həyəcanı sövq-təbii hiss etdi, restoranın qapısını açdı.

Pakizə xanım həmişə böyük vəzifə sahiblərini görən kimi çeşməyini taxırdı və indi də cəld çeşməyini gözünə taxıb birbaş yoldaş Qardaşxanlının üstünə getdi və qəzəbdən işıldayan göy gözlərini Bəbirə zilləyib yoldaş Qardaşxanlının qulağına pıçıldamağa başladı və yoldaş Qardaşxanlı da Zakirgillə bir mizin arxasında oturmuş Bəbirə baxa-baxa bir-iki dəfə başını tərpətdi, yəni ki, məsələ aydındı, sonra da yavaş-yavaş Bəbirə tərəf gəldi.

Əbülfət burnunu çəkə-çəkə başa düşdü ki, məsələ yoğunlayıb, Poqosov yenə də təkcə elə öz-özünə « – Vax!» – deməklə kifayətləndi, Ziba daha açıq-aşkar məhəbbətdən dəm vuran gözləriylə Bəbirə baxırdı, Əlifağa Əlimuxtarla yanaşı dayanıb o biri çalğıçılarla bir yerdə bu işin axırını gözləyirdi, hətta Nora da arxasını boş pianinoya söykəyib maraqla Bəbirgil tərəfə baxırdı və ən ağlasığmazı bu idi ki, elə bil, restorana mikrofon qoymuşdular, Brilyant Ağacəfər mətbəxdə ola-ola restorandakı əhvalatdan xəbərdar idi və gördüyü tədbir hələlik, ancaq bundan ibarət oldu ki, təpiyi ilə mətbəxin həyət qapısını açdı və «QAZ-24»də mürgüləyən oğluna dedi:

– Sən get. Bu gün day gəlməginən.

Sonra mətbəx bundan da xəbər tutdu ki, yoldaş Qardaşxanlı özü restorana gəlib və Ağacəfərdən başqa hamı mətbəxin qapısı ağzına toplaşıb restorana boylandı.

Yoldaş Qardaşxanlı gəlib Bəbirin qabağında dayandı və Sarı Zakir də, dostları da yerişindən, görünüşündən, özünü aparmağından başa düşdülər ki, bu gödək və yoğun adam kim isə böyük adamdı, üçü də ayağa qalxdı, amma Bəbir yerindən tərpənmədi.

Əlbəttə, yoldaş Qardaşxanlı Pakizə xanımın indicə pıçıldadıqlarının hamısına inanırdı, amma Bəbirdən bu yekəlikdə qanacaqsızlıq gözləmirdi ki, onu, yoldaş Qardaşxanlı boyda adamı bu cür oturduğu yerdə qarşılasın, yerindən heç tərpənməsin də; yoldaş Qardaşxanlı həmişəki təmkinini pozmadı və asta-asta dedi:

– Yaxşı... Deməli belə... Neynək... Elə bu gecə bu məsələni həll edərik...

Bəbir başını qabağa verib düz yoldaş Qardaşxanlının gözlərinin içinə baxırdı və yoldaş Qardaşxanlının daha nə deyəcəyini gözləmədi:

– Xa-xa! Xox! Qorxdum! Gözlə!

Sonra Bəbir səliqə ilə öz boynundakı ağ kəpənəkciyi açdı və bu ağappaq, tərtəmiz, qanadları yekə ipək kəpənəkciyi mizin üstündəki qırmızı çaxır dolu qədəhin içinə saldı və ağ ipək bir göz qırpımında qıpqırmızı qızardı və Bəbir damcı-damcı qırmızı çaxır axan kəpənəkciyi qədəhin içindən çıxardıb, düz direktorun burnunun qabağına tutdu.

Yoldaş Qardaşxanlının gözləri bərəldi və səriştəli, tədbirli, təcrübəli bu kişi indi restoranın ortasında, camaatın içində, xüsusən də, işçilərinin yanında uşaq kimi quruyub qaldı və bilmədi ki, nə eləsin və ümumiyyətlə, heç kimin cürəti çatmadı ki, nəsə bir söz desin, nəsə bir şey eləsin; yoldaş Qardaşxanlının bərəlmiş gözləri fırlanıb-fırlanıb gəlib Zibanın üstündə dayandı və Ziba əllərini yaxalığına silə-silə Bəbirə yaxınlaşdı, Bəbirin qoluna girib yavaşdan və həqiqətən, mehriban bir səslə dedi:

– Sakit ol. Gedək. Gəl... – sonra Bəbirin qulağına pıçıldadı: – Bizə gedək...

– Nə? – Bəbirin bağırtısı restoranı titrətdi. – Ode, onu apar evinə! – Bəbir barmağını uzadıb az qaldı yoldaş Qardaşxanlının gözünün içinə soxsun. – Bunun kabinetində minbir oyundan çıxırsınız! Tüpürüm sənin qəhrəmanına! Bu köstəbəydi də sənin qəhrəmanın?!

Əlbəttə, restoranın bütün işçiləri yaxşı bilirdi ki, günorta Ağacəfərin xüsusi bişirtdirdiyi naharı yoldaş Qardaşxanlı üçün Ziba aparır və bəzən yəqin ki, yır-yığış elədiyi üçün kabinetdə ləngiyir...

Hər halda, təcrübə böyük şeydir, birinci özünə gələn yoldaş Qardaşxanlı oldu və üzünü Əlifağaya tutub qışqırdı:

– Alə, nə dayanmısınız?! Çalın!

Bircə anın içində Əlifağanın klarneti, Aşotun zərb alətləri, Gülməmmədin trubası, Məlikin tarı, Əlimuxtarın qaboyu, Fətullanın kontrabası və Noranın səsi bir-birinə qarışdı, klarnet zilə qalxdı, Aşot az qaldı zərb alətlərini dağıtsın, Gülməmməd trubada elə bir nəfəs götürdü ki, gözləri kəlləsinə çıxdı, amma dayanmaq bilmədi və Bəbir də elə bil ki, səsi batmış televizorda qışqırırdı, ağzı açılıb-örtülürdü, boğazının damarları şişib az qalırdı partlasın, ürəyini boşaldırdı, amma nə dediyi məlum olmurdu, çünki səsi eşidilmirdi; Ziba da, Poqosov da, Əbülfət də yenə öz işinə başladı, yoldaş Qardaşxanlı restorandan çıxıb dördüncü mərtəbədəki kabinetinə qalxdı, Pakizə xanım çeşməyini çıxarıb gizlətdi, Zakirgil isə işi şuluq görüb bayaqdan əkilib getmişdilər, müştərilər və o cümlədən də, Bəbirin keçmiş müştəriləri yavaş-yavaş sakitləşib yeyib-içməklərinə başladılar, mətbəxin işçiləri başlarını bulaya-bulaya öz yerlərinə qayıtdılar və qanı qaralmış Ağacəfərin qorxusundan cınqırlarını çəkmədilər, təkcə, elə Bəbir restoranın ortasında dayanıb səssiz televizordakı kimi nəsə deyirdi, amma indi daha narahat Əlifağa da Bəbirə fikir vermirdi, çünki bilirdi ki, qışqırıb, boğazını yorub, axırda çıxıb gedəcək.

...Həmin küləkli mart gecəsində Bəbir restorandan tramvay dayanacağına qədər piyada gəldi və tramvaya minəndə gördü ki, tramvayın içi də o gecəki Bakı küçələri kimi bomboşdu, bir özüdü, bir də tramvayın o başında oturmuş konduktor qız.

Bəbir tramvayın aşağı başında oturdu.

Tramvay tərpəndi.

Bəbir heç nə barədə fikirləşmirdi, yorğun idi və yatmaq istəyirdi, amma bu yorğunluqda heç bir narahatlıq, nigarançılıq yox idi və ümumiyyətlə, hər şey öz qaydasında idi, nə lazımıydısa, o da olmuşdu.

Təkcə ayaqqabısı Bəbirin ayağını sıxırdı, vəssalam.

Konduktor qız tramvayın yuxarı başından Bəbirə baxıb gülümsədi.

Bəbir fikirləşdi ki, yəqin məni Mürsəl Məhəmmədova oxşadır və bu dəfəki bənzətməsindən xoşu gəldi və özü öz zarafatına güldü.

Təkcə kəpənəkciyi boğazında deyildi.

Konduktor qız tez-tez Bəbirə baxırdı və axırıncı dayanacaqda Bəbir yerindən qalxıb yanından ötəndə qız dedi:

– Mən sizi tanıdım, xalam qızının toyu sizin restoranda idi.

Sonra bu cavan konduktor qız gülümsədi, elə bil, dünyanın bəxtəvəri idi.

Xoşbəxt olmaq üçün elə böyük bir şey lazım deyildi.

Bəbir tramvaydan düşüb bomboş parkın içi ilə yataqxanaya tərəf gedirdi.

Külək dayanırdı, sonra təzədən qıy vururdu və külək beləcə qıy vuranda az qalırdı parkın ağaclarını dibindən qoparsın.

Bəbir də birdən dayandı, əyilib ayaqqabıları ayağından çıxartdı.

Bəbirə elə gəldi ki, təkcə ayaqları yox, bütün bədəni azadlığa çıxdı.

Sonra Bəbir var gücü ilə ayaqqabılarını bir-birinin ardınca o küləkli mart gecəsində qaralan ağaclığa tərəf tolazladı.

Bəbirin bayaqkı yorğunluğuna bir rahatlıq gəldi və Bəbir corabla yataqxanaya gedə-gedə fikirləşdi ki, ayaqyalın gəzməkdən gözəl şey yoxdur.

*Mart, 1983.*

## HOTEL BRISTOL

Hava bir balaca açılmışdı və gün çıxmışdı. Gün milyon il bundan əvvəl də yəqin ki, beləcə çıxmışdı. Gün milyon il bundan sonra da belə çıxacaqdı.

Bu sözlər onun sözləri deyildi, on-on iki il bundan əvvəl deyilmişdi və o zaman bu sözlər də bu sözləri deyən adam kimi ona boş və mənasız görünmüşdü, ürəyində bu sözlərə gülmüşdü, amma indi bu sözlər, yəni günəşin beləcə həmişəliyi, insan ömrünün bu həmişəlik müqabilindəki kiçikliyi, cılızlığı onu həyatı və ölümü təzəcə dərk eləyən bir yeniyetmə kimi sarsıtdı.

Tabutu yekə yük maşınının yanına qələr gətirib dayandılar, iki cavan oğlan atılıb yük maşınına mindi, tabutu çiyinlərdən çəkib maşının içinə saldılar və yazıq Əlisəttar müəllim payızın bu soyuğunda puçur-puçur tər tökə-tökə cavan oğlanlara:

– Yavaş olun!.. Yavaş olun!.. – deyirdi.

O tabutun içindəki, o nəm çəkmiş taxta qutunun içindəki Hotel Bristol idi.

Yazıq Əlisəttar müəllim nədən qorxurdu? Qorxurdu ki, Hotel Bristola bundan sonra bir zədə dəyər, ya nə olar? Yazıq Əlisəttar müəllim, sənin ürəyin də bu dəm sifətin kimi ağlayırmı? Ya yalandan ağlayırsan? Yaxşı adamsan sən, yoxsa pis adamsan? Ümumiyyətlə, yaxşı adam, yaxud pis adam varmı dünyada?

Ona elə gəlirdi ki, insan ömrü günəşin daimiliyi müqabilində necə kiçikdirsə, necə cılızdırsa, «yaxşı» və «pis» də insanın və o cümlədən də Əlisəttar müəllimin ürəyi, insanın dünyası müqabilində eləcə kiçik, eləcə cılızdır.

Cavan oğlanlar maşının dəmir kabinəsinə bir-iki yumruq vurdular, yəni ki, hazırdı, tabutu qoymuşuq maşının ortasına, tərpənmək olar və camaat da qəbiristanlığa getmək üçün avtobusa, yüngül maşınlara minməyə başladı; cavan oğlanlar yük maşınının kənarını qaldırdılar və tabut daha görünmürdü və o görünməyən tabutun içindəki Hotel Bristol idi.

Yazıq Əlisəttar müəllim maşınlardakı boş yerləri bir-bir camaata göstərirdi, maşınların arası ilə ora-bura vurnuxurdu ki, görsün çöldə qalan yoxdur ki, puçur-puçur tər tökə-tökə bu başdan vurub o başdan çıxırdı və görünür, təbiətən çox narahat adam idi, dostlarına, qohumlarına, heç kimə etibar etmirdi, adamları, az qala, bir-bir özü maşınlara oturdurdu və yaxın bir adam görən kimi, özünü saxlaya bilmirdi, kövrəlirdi, yazıq Əlisəttar müəllim, bu gecə necə yatacaqsan?

Hotel Bristolu tez-tez yadına salacaqsan?

doğrudan da o əziz adam idi sənin üçün?

bu cür canfəşanlığın doğrudandı, ya yalandan?

tək qalacaqsan, yoxsa həmişə tək olmusan?

Birinci dəfə idi ki, Əlisəttar müəllimi görürdü və heç vaxt Əlisəttar müəllimi görməsə də, Əlisəttar müəllimin gödək boyunu daha da qısaldan köklüyü, saçı tökülmüş tamam çılpaq başı Hotel Bristola yaraşmasa da bayaqdan ona elə gəlirdi ki, Əlisəttar müəllimi çoxdan tanıyır və Əlisəttar müəllim mütləq elə bu cür Əlisəttar müəllim olmalı idi, başqa görkəmdə, başqa sifətdə ola bilməzdi; yazıq Əlisəttar müəllim bu dəfə onun yanından ötdü və adamların hüznlü baxışlarına:

– Həyatdır... – deyə cavab verdi.

... – Həyatdır də... – Sonra Hotel Bristol o payız günü pəncərədən bayıra baxdı, buludların arasından çıxmış günəşə baxdı, boz gözlərini qıydı və həmişəki kimi mənalı-mənalı dedi:

– Gün milyon il bundan əvvəl də yəqin ki, belə çıxmışdı. Gün milyon il bundan sonra da belə çıxacaq... – Sonra da boz gözlərini günəşdən çəkib düz onun gözlərinin içinə baxdı və bu dəfə rusca dedi: – Takova jizn...

– Ne tak xoroşa, da i ne tak ploxa, kak dumayetsya.

Hotel Bristol zamanın sınaqlarına sinə gərmiş, xeyli təcrübədən keçirilmiş mənalı təbəssümlə elə-eləcə Muradın gözlərinin içinə baxdı və gülümsədi:

– Vot imenno! Prekrasno skazal...

Hotel Bristol bilmirdi ki, o payız ötəcək, sonra yenə payızlar gəlib keçəcək və eləcə bir payız günü iki cavan oğlan onu tabutun içində, nəm taxta qutunun içində çəkib yük maşınına qoyacaqlar.

– I ya tebya ponyala...

Murad da gülümsədi, çünki Muradın həyat haqqında söylədiyi bu cümlə Mopassanın idi, hansı romanınsa – deyəsən, «Həyat»ın axırıncı cümləsi idi; Murad da gülümsədi, çünki Murad da bilmirdi ki, o payız ötəcək, sonra yenə payızlar gəlib keçəcək və elə o cür bir payız günü – milyon il bundan əvvəlki və milyon il bundan sonrakı kimi bir payız günü iki cavan oğlan Hotel Bristolu nəm taxta qutunun içində çiyinlərdən çəkib yük maşınına qoyacaq; Hotel Bristol təmizkar idi və təmizkarlığını həmişə nümayiş etdirirdi, tez-tez çantasından ətriyyatlı kağız dəsmallar çıxarıb əlini, boynunu silirdi; o nəm taxta qutu isə tamam köhnəlmişdi, içində nə qədər cənazə yola salmışdı və indi də Hotel Bristolu axırıncı mənzilə aparırdı, sabah da kimisə, bir başqasını aparacaqdı, biri gün bir başqasını öz içinə alacaqdı, beləcə köhnəlib tamam söküləcəkdi, çürüyüb torpağa qarışacaqdı və yerinə təzə tabut düzəldəcəkdilər; bir dəfə Murad Bakının köhnə məhəllələrindən birindən keçib işə gedəndə gördü ki, qırçılar köhnə bir tabutu söküb, qır tiyanında yanan o tabut taxtalarının şöləsi uzun müddət Muradın gözlərinin qabağından getmədi; həmin şölə qızdırmırdı, buz soyuğu ilə yanırdı və soyuq alov Muradın içini dondururdu.

Hotel Bristol Muradın gülümsəməyini də başqa gür yozdu və isti əli ilə Muradın biləyindən tutdu:

– Nə yaxşı ki, biz bir-birimizi başa düşürük... Bu soyuq dünyada, heç olmasa, bir balaca hərarət adamın ürəyini qızdırır. Mən sevinirəm... – Sonra Hotel Bristol həmişə belə anlarda olduğu kimi yenə də rus dilinə keçdi: – A tı?

– Ya toje...

– Çto ya toje?

– Ya toje tak i vı...

Hotel Bristol Muradın biləyini sıxdı və özünü Murada lap yaxınlaşdırdı, döşləri Muradın pencəyinə yapışdı və Muradın həmin döşlərə yazığı gəldi, elə bil ki, bu döşlər bütün qışı evdə saxlanılıb yazda bazara çıxarılmış alma idi, köhnəlmişdi və Hotel Bristol başını qaldırıb boz gözləri ilə altdan yuxarı yenə də Muradın gözlərinin içinə baxanda, həmin baxışlardakı çağırışa, dəvətə, həmin baxışlardakı mənəm-mənəmliyə Muradın gülməyi tutdu və yaxşı ki, Hotel Bristol, nədənsə, gözlərini ondan çəkib o payız buludları arasından çıxmış günəşə baxdı: əlbəttə, Murad nə isə etməli idi, ya yüngülcə öpməli idi Hotel Bristolu, ya özünü kənara çəkməli idi, ya da nəsə başqa bir şey eləməli idi, amma Murad heç nə eləmədi, gülümsəyə-gülümsəyə çox səmimi, lap sidq-ürəkdən soruşdu:

– Əlisəttar müəllim necədi?

Hotel Bristolun Muradın biləyindən tutmuş və həyəcanlı nəbzi hiss olunan isti əli dərhal boşaldı, sonra sifətində güclə saxlamağa çalışdığı həmin romantik təbəssümlə dedi:

– Çox sağ ol, yaxşıdır.

Murad eyni sadəlövhlüklə soruşdu:

– Radikuliti necədi?

Hotel Bristol tamam təhqir olunmuşdu və əzablara dözən cəfakeş bir qadın əzmiylə bunu Muraddan gizlətməyə çalışdı:

– Radikuliti də yaxşıdı, – dedi və daha özünü saxlaya bilməyib boş otaqdan çıxdı.

Murad bilirdi ki, Hotel Bristolun ərinin adı Əlisəttar müəllimdi və institutdakıların hamısı kimi, burasını da bilirdi ki, Əlisəttar müəllimin Hotel Bristolun macəralarından xəbəri yoxdu, radikuliti var və çox zaman da öz radikulitinin hayındadı.

...Yük maşını tərpəndi, o biri maşınlar da yavaş-yavaş yük maşınının ardınca getməyə başladı, yolu kəsilib dayanmış trolleybusların, taksilərin, başqa maşınların sürücüləri və sərnişinləri səbirsizliklə və narazılıqla bu matəm karvanına baxırdı ki, yol nə vaxt başlanacaq və nəhayət, tabutu aparan yük maşınının ardınca gedən maşınların hamısı yola düzəldi və ən sonuncu Əlisəttar müəllimin oturduğu köhnə «Jiquli» yerindən tərpəndi, yazıq Əlisəttar müəllim,

radikulitin necədi, çox incidir?

bəlkə bütün insan ömrü bir payız fəslidir və əslində fəsillər heç zaman dəyişmir?

hər halda, təskinlik var, hər halda, radikulit xərçəng deyil, hə?

amma ömrün payızına bunun nə dəxli var?

bəyəm ömrün payızı üçün xərçənglə, radikulitlə xərçəngsizliyin və radikulitsizliyin fərqi var?

...O zaman Murad hələ institutda işləyirdi və onların şöbəsinin cəmi bircə otağı var idi və bu bir otaqda dörd miz var idi: ikisinin arxasında baş elmi işçilər – Murad və Hotel Bristol otururdu, biri kiçik elmi işçi Musanın idi, o birisi də laborant Səlminazın.

Hotel Bristolun adı, yəni əsl adı Məleykə idi, amma Murad da və başqaları da Məleykə xanımdan söz düşəndə onu Hotel Bristol çağırırdılar, çünki Hotel Bristol haçansa Avropa ölkələrindən birinə turist səyahətinə getmişdi və həmin ölkədə hansı bir şəhərdəsə «Bristol» adlanan bir mehmanxanada qalmışdı, geri qayıdanda isə həmin mehmanxananın yuxarısında latın əlifbası ilə HOTEL «BRISTOL» sözləri yazılmış şirkət kağızlarından bir dəstə götürmüşdü və odu-budu balaca məktublarını, qeydlərini bu şirkət kağızlarında yazırdı, məsələn, bir də görürdün ki, hansı bir müzakirəyəsə gələ bilməyib, əvəzində bir üzrxahlıq məktutu göndərib ki, bağışlayın, vacib işim olduğuna görə müzakirədə iştirak edə bilmirəm və şöbəyə göndərdiyi həmin məktubun da yuxarısında HOTEL «BRISTOL» şirkət yazısı.

Hotel Bristol Muraddan nə qədər böyük idi? On yaşmı? On beşmi? Amma, hər halda, özünü Muradın qəyyumu kimi aparırdı, guya, Muradın daxili aləmini institutda heç kim başa düşə bilməz və ancaq Hotel Bristol Muradın hisslər və düşüncələr aləmini duyur və ümumiyyətlə, guya Hotel Bristol mənən zənginlik xiridarıdır, özü mənəvi sarsıntıları çox keçirib, başı daşdan-daşa dəyib və buna görə də sirlərlə dolu daxili aləmi var; tez-tez Muradı söhbətə tuturdu, tarixdən danışırdı, arxitekturadan, rəssamlıqdan, Italiya kinosundan, fransız romanından danışırdı və bəzən lap aləm olurdu, məsələn, Hotel Bristol Muradı təkləyib başlayırdı xarici ədəbiyyatdan söz salmağa, Murad da adını bildiyi Amerika kosmonavtlarını bir-bir ingilis yazıçıları kimi Hotel Bristola sırıyırdı.

Hotel Bristol soruşurdu:

– Təzə nə oxuyursunuz?
Murad deyirdi:
– Bir ingilis yazıçısı var, Devid Skott, onun romanını oxuyuram.
Hotel Bristol o saat heyranlığını bildirirdi:
– O-o!.. Yaxşı yazıçıdır! Hansı romanını oxuyursunuz?
Murad bədahətən bir roman adı quraşdırıb deyirdi:
– «Həyat səhra kimidir...»
Əlbəttə, bu adda roman yox idi; əlbəttə, Murad bilmirdi ki, ömrün payızlı bir çağında beləcə bir yük maşınının ardınca gedəcək və burasını da bilmirdi ki, həmin nəm taxtalı qutunun içindəki Hotel Bristolu qəbiristanlığa müşayiət edən əklillərin, güllərin iyi birdən-birə Hotel Bristolun ətirli kağız dəsmallarını onun yadına salacaq.
Murad o romanın adını söyləyən kimi, Hotel Bristol deyirdi:
– Hə, pis roman deyil... Amma görürsünüz, iki-üç cümlə ilə qadın psixologiyasını necə dəqiq ifadə edir?
Əlbəttə, hərgah bir romanın adı «Həyat səhra kimidir...»sə, orada, heç olmasa, bir qadın olacaqdı və yazıçı da – nə olsun ki, Devid Skott kosmonavtdır? – həmin qadın haqqında bir-iki cümlə deyəcəkdi, amma bu birtərəfli oyunun da ləzzəti onda idi ki, mübahisə qızışırdı və Murad da mübahisə edirdi:
– Mən deməzdim ki, bir o qədər də dəqiq ifadə edir...
O məşhur təbəssüm həmin andaca Hotel Bristolun dodaqlarına qonurdu:
– Siz qadın psixologiyasının bilicisisiz? – Xüsusi vurğu ilə dediyi bu sözlərdən sonra bir anlıq araya mənalı sükut çökürdü, sonra Hotel Bristol yenə romana qayıdırdı. – Əlbəttə, Skott da bütün ingilislər kimi bir az qurudu, amma bəzən elə detallar verir ki, çox yerinə düşür. Siz onun başqa əsərlərini oxumusunuz?
– Yox, oxumamışam.
Hotel Bristol deyirdi:
– Onun bir povesti var, keçən il çıxmışdı. Adını bu saat deyim... hə, «Vzqlyad çernoqo kota»! Çox gözəl əsərdir. Məncə Skottun ən yaxşı yazısıdır. Mütləq tapıb oxuyun, heyif, mən kiməsə vermişəm... Hər dəfə özümə söz verirəm ki, heç kimə kitab verməyəcəyəm, amma yenə də olmur...
Bəzən Murada elə gəlirdi ki, Hotel Bristol da onu ələ salır, amma Hotel Bristol heç kimi ələ salmırdı, sadəcə olaraq, Hotel Bristolun başqa əlacı yox idi və əlbəttə, deyə bilməzdi ki, bağışlayın, mən Devid Skott adında yazıçı tanımıram və onun heç bir əsərini oxumamışam; Murad Hotel Bristolla söhbətlərində Salvadorun prezidentini Ispaniya kinorejissoru kimi qələmə verirdi, Fransa generalını Kanada dirijoru kimi, ingilis artistini Avstraliya ornitoloqu kimi və Hotel Bristol da bütün bu olmayan kinorejissorların, bəstəkarların, alimlərin hamısını tanıyırdı, onların başqa əsərlərinin adını çəkirdi, sənətə, elmə, ədəbiyyata dair onların fikirlərini söyləyirdi, yaradıcılıqları barədə Muradla mübahisələr aparırdı.

Bəzən Səlminazla Musa da otaqda olardı, heyran-heyran Hotel Bristolla Muradın söhbətlərinə qulaq asardı, ilk dəfə eşitdikləri böyük alimlərin, rejissorların, yazıçıların qəliz adlarını yadlarında saxlamağa çalışardı ki, yeri düşəndə onlar da bu adları çəksinlər; Musa hərdən utana-utana, sıxıla-sıxıla imkan tapıb qeydlər də edirdi ki, eşitdiyi bu ağıllı söhbətlər onun cib dəftərçəsindən kənarda qalmasın; Musa həmişə utanırdı, həmişə sıxılırdı; burasını da deyirdilər ki, neçə illərdən bəri institutda kiçik elmi işçi işləyən, elmdə də, həyatda da heç bir xüsusi iddiası olmayan Musa altı uşağına və sapsağlam arvadına baxmayaraq, gizlin-gizlin Hotel Bristolu sevir və arvadını boşamağa hazırlaşır və deyirdilər ki, Hotel Bristolun özünün də bu gizli məhəbbətdən xəbəri var...

Yük maşını qəbiristanlığın qapısı ağzında dayandı və Əlisəttar müəllim köhnə «Jiquli»dən düşüb tələsik yük maşınına tərəf gəldi və Murada elə gəldi ki, Əlisəttar müəllim də əslində o trolleybus, taksi sürücüləri və sərnişinləri kimi tələsir, tələsir ki, bütün bu matəm mərasimi tez qurtarsın, Hotel Bristolu bu payız soyuğunu canına çəkmiş qara torpağa tez tapşırsınlar, amma yazıq Əlisəttar müəllimin, təbii ki, Muradın bu hisslərindən xəbəri yox idi və yük maşınından tabutu aşağı sallayan cavan oğlanlara:

– Yavaş olun... – deyirdi. – Yavaş olun...

Tabutu aşağı salladılar və yenə də dörd nəfər o nəm çəkmiş taxta qutunu çiyninə aldı və hamı tabutun ardınca addımladı; qəbiristanlıq həmişəki sakitlik içində idi və bu sakitlikdə gizli bir narahatlıq, hərislik var idi və Murada elə gəldi ki, qəbiristanlıq nə vaxtdı ki, onları gözləyirdi, yəni bu mənada yox ki, hamı öləcək və qəbiristanlıq da bir-bir bütün bu adamlar üçün son məskən olacaq – bu, öz yerində; bu mənada ki, elə bil qəbiristanlıq məhz bu cənazəni gözləyirdi və elə bil ki, bu cənazə gəldi, həmin qəbiristanlıq rahat nəfəs aldı və o nəfəsi Murad bütün hissləri ilə, bədəni ilə duydu.

Əlisəttar müəllim tabutun üstünə xırda güllü ipək örtük salmışdı və bu dəm o, xırda ağ güllər Muradın gözlərində böyüdü, qıpqırmızı qızardı və həmin yekə qırmızı güllü xalat bu dəfə bir həzinlik, bir hərarət gətirdi...

Onda necə oldu ki, Hotel Bristolgilə getdilər?

Kiminsə dissertasiya müdafiəsindən sonra banket idi, xeyli yeyib-içdilər, Muradla Hotel Bristol yanaşı oturmuşdular, sonra burası Muradın yadına gəlirdi ki, həmin yay gecəsi banketdən çıxıb hansı kimsəsiz bağdasa Hotel Bristolla öpüşdülər, sonra da burası yadına gəlir ki, Hotel Bristolun evinə getdilər və qapını Hotel Bristol özü açarla açdı, çünki evlərində heç kim yox idi, sonra Muradın ürəyi bulandı, vanna otağına keçdi, sonra oradan çıxanda gördü ki, Hotel Bristol artıq həmin yekə qırmızı güllü məşhur xalatı əyninə geyib.

Institutda hamı bilirdi ki, Hotel Bristolun belə bir xalatı var və həmin yekə qırmızı güllü xalat haqqında dastanlar gəzirdi, amma Murad bu xalatı gözləri ilə görəndə təəccübündən çaşıb qaldı, elə bil ki, Hotel Bristolun bu yekə qırmızı güllü xalatı da uçan xalça kimi, yaxud Ələddinin çırağı kimi bir şey idi və onu həqiqətdə görmək mümkün deyilmiş; sonra hər şey pis romanlardakı kimi oldu: xalatın açıq ətəyindən Hotel Bristolun çılpaq baldırları göründü, otağın işığı da elə bil öz-özünə söndü, Hotel Bristol Muradın yanında divanda oturdu və bütün bunların hamısı Muradın içkili beynində bir dumana bürünmüşdü, sonralar bütün bunları xatırlayanda, o birinci və sonuncu gecəni yadına salanda hər şey həmin dumanın içində idi və Murada elə gəldi ki, illər keçdikcə o duman da qocalıb, köhnəlib, o dumanın da az-çox şövqü vardısa da, çıxıb gedib, yerini payız xisləti tutub.

Həmin gecənin səhəri dostları Muraddan soruşanda ki, banketdən sonra birdən-birə hara itdi? – Murad güldü: HOTEL «BRISTOL»da istirahət edirdim... və bundan sonra həmin sözlər institutda, dostları arasında bir zərb-məsələ çevrildi:

– Əcəb HOTEL «BRISTOL»da dincəlməli gündü...

– Dünən niyə görünmədin? HOTEL «BRISTOL»a getmişdin?

– Lap HOTEL «BRISTOL» əhvalatıdı...

...Qəbirqazanlar əllərində bel tutub gözləyirdilər ki, nə vaxt cənazəni tabutdan çıxarıb qəbrə qoyacaqlar ki, onlar qəbri torpaqla doldurub işlərini qurtarsınlar və bu vaxt Əlisəttar müəllim özünü saxlaya bilmədi, tabutun yanında diz çökdü və hönkür-hönkür ağlamağa başladı, yazıq Əlisəttar müəllim,

bir vaxt hər şey unudulacaq.

bir vaxt nə sən olacaqsan dünyada, nə də mən.

bir vaxt bütün bu adamlar da olmayacaq dünyada.

amma günəş beləcə çıxacaq, çünki milyon il bundan əvvəl də beləcə çıxıb və milyon il bundan sonra da beləcə çıxacaq.

o vaxt sənin kimisi, mənim kimisi olacaq və onlar da beləcə düşünəcək.

ya da beləcə düşünməyəcək.

nə fərqi? Yox, Musa da Hotel Bristolu sevmirmiş, Musa arvadını boşamağına boşadı, amma Səlminazla evləndi və Murad onları təxminən iki ay bundan əvvəl gördü; Murad neçə il idi ki, başqa işə keçmişdi və həmin gün işdən sonra nəhayət ki, vaxt tapıb, xəstəxanada yatan qayınatasına baş çəkməyə gəlmişdi və xəstəxananın ağlığı və təmizliyi də xəstəxananın iyi kimi Muradın ürəyini sıxırdı, xəstəxana işçilərinin geydiyi nişastalı ağ xalatların ləkəsizliyində, tərtəmizliyində soyuq bir ümidsizlik var idi; üçüncü mərtəbənin aralığında Musa və Səlminazla rastlaşdı.

– Salam, Murad müəllim!... – Səlminaz bu gözlənilməz görüşə açıq-aşkar sevindi və hələ də həmin institutda kiçik elmi işçi işləyən Musa da həmişəki kimi utana-utana, sıxıla-sıxıla Muradla görüşdü, sonra məhəbbət dolu gözləri ilə Səlminaza baxdı; Səlminaz soruşdu: – Necəsiniz, Murad müəllim? Gör nə vaxtdı görmürük sizi... Hərdən televizorda görürük... – Musa da sıxıla-sıxıla Səlminazın sözlərini təsdiq etdi, sonra yenə məhəbbət dolu nəzərlərilə Səlminaza baxdı; Səlminaz dedi: – Institutun yaxşı vaxtları o günlərdə qaldı, Murad müəllim... Hər şey dəyişib, gəlsəz heç tanımazsız... – Səlminaz gözlərini Muradın dən düşmüş saçlarında gəzdirdi və birdən-birə qüssədolu bir səslə soruşdu: Siz də Məleykə xanımın yanına gəlmisiz?

Murad əvvəlcə bilmədi ki, söhbət kimdən gedir, sonra başa düşdü ki, Hotel Bristol burda yatır və məlum oldu ki, Hotel Bristol üç aydan artıqdır ki, çarpayıdan ayağa qalxmır.

– Ümidsizdir... – Səlminazın gözləri doldu. – 318-ci otaqda yatır. Həkimi deyir ki, bir aydan çox yaşamaz. Xərçəngdi... Özünün xəbəri yoxdu.

Sonra Musa ilə Səlminaz getdi.

Onda hələ payızın əvvəlləri idi və artırmanın pəncərəsindən görünən xəstəxananın həyətindəki gilənar ağaclarının yarpaqları hələ saralmamışdı və bu yarpaqlar da bir az aralıdakı zeytun ağaclarının yarpaqları kimi yaşıl idi, amma bir az keçəcəkdi, gilənarın yarpaqları saralıb töküləcəkdi, xəzəl olub xəzana dönəcəkdi, amma o zeytun ağacları yay-qış həmişə beləcə yaşıl qalacaqdı, amma bir gün gələcəkdi və o həmişəyaşıl zeytun ağacları da quruyub qaxaca dönəcəkdi.

Əyninə tərtəmiz ağ xələt geymiş şəfqət bacısı aralığın bir küncündəki mizin arxasında oturub kiminləsə telefonla danışırdı və tez-tez də gülürdü; şəfqət bacısının əynindəki həmin ağappaq, tərtəmiz xalat nişastadan şax dayanmışdı və birdən-birə elə bil ki, o şəfqət bacısı əriyib yox oldu, təkcə bu ağappaq nişastalı xalat qaldı və Murada elə gəldi ki, kürsüdə oturub telefonun dəstəyini tutan, danışan və tez-tez də gülən ancaq həmin ağappaq nişastalı xalatdir, içində heç kim yoxdur.

O, 318-ci palatanın qapısını açdı və ona elə gəldi ki, özü yox, kimsə bir başqa adam bu palataya girdi və çarpayıda uzanmış bu yaşlı, xəstə, kimsəsiz qadını da görən o deyil, həmin başqasıdır; bəlkə elə buna görə də həmin qadının bu qədər dəyişməsinə heyrət etmədi, elə bil ki, həmin qadını bu qədər dəyişmiş görmək onu yox, həmin başqasını sarsıtdı və Murad gözlədi ki, xınası getmiş ağ saçları dalğa-dalğa balıncın üstünə yayılmış, sifəti, elə bil ki, mumdan düzəldilmiş, rəngi saralmış və eyni zamanda da qaralmış bu qadın indicə gözlərini açacaq və onu görüb gözlərinə inanmayacaq.

Hotel Bristol, doğrudan da, gözlərini açdı və onu qarşısında dayanmış gördü, amma heç təəccüb eləmədi, təkcə gülümsədi, elə bil onu gözləyirdi, bilirdi ki, indicə gələcək, indicə boz gözlərini açıb onu görəcək.

Boz gözlərin dibi görünürdü, elə bil ki, quyunun suyunu vedrə-vedrə çəkib çıxarmısan və indi baxanda dibi işıldayır.

O, boz gözlər əziyyətlə gülümsəyirdi.

Səlminaz bayaq dedi ki, «özünün» heç nədən xəbəri yoxdu, amma bu boz gözlərin hər şeydən xəbəri var idi.

Xəbərsiz biz idik.

Bu boz gözlər bu dəm ömrün payızına rişxənd edirdi və bu boz gözlər bu dəm mənə də rişxənd edirdi.

O, neçə illər idi ki, bu qadını görmürdü, hərdənbir mətbuatda imzasına rast gəlirdi və o zaman yadına düşürdü, tez də yadından çıxıb gedirdi, amma indi əziyyətlə gülümsəyən bu boz gözlərə baxanda həmin gözlərin dəvətlə, çağırışla dolu təbəsümünü yadına saldı və həmin təbəssümdə heç vaxt hiss etmədiyi bir səmimilik, bir hərarət duydu, elə bir hərarət ki, həmin hərarətdə ağac pöhrələyir, yaxud da sənin donmuş barmaqlarını kim isə əziz bir adam əllərinin arasına alıb isti nəfəsini verir, qızdırır.

O bilirdi ki, bu xəstə qadının uşağı yoxdur və ümumiyyətlə, ərindən və ərinin qohumlarından başqa heç kimi yoxdu və bu palataya da yəqin ki, ancaq onlardan biri, ikisi işdən sonra gəlib xəstəni yoluxurlar, amma əziyyətlə gülümsəyən bu boz gözlərdə bu dəm heç bir tənhalıq dəhşəti, kimsəsizlik ağrısı yox idi, əksinə, bu boz gözlər bu dəm tənhalığın özünə də, kimsəsizliyə də rişxənd edirdi.

Iki-üç dəqiqə bundan əvvəl, hələ bu boz gözlər yumulu olanda o qorxurdu ki, bu yaşlı və xəstə qadın birdən keçmişləri yadına salar, birdən «mən səni həqiqətən sevirdim» deyər və yaxud «o gecəyə baxma, mənim səndən zəhləm gedirdi» deyər, amma indi dibi görünən və əziyyətlə gülümsəyən bu boz gözlərə baxdıqca özünü, bütün varlığını, bütün həyatını həmin sevginin də, həmin nifrətin də müqabilində kiçik, gözəgörünməz hiss etdi və bu hiss bir kəşf kimi onun bütün içini sarsıtdı...

...Qəbirqazanlar beli zərblə torpağa vururdular, ayaqları ilə belə kömək edirdilər və torpaq dolu beli qaldırıb torpağı qəbrə boşaldırdılar və bu minval ilə qəbiristanlıqdakı o təzə qəbir də torpaqla doldu və Əlisəttar müəllim də o torpaq doldurulmuş qəbrə baxa-baxa için-için ağlayırdı, yazıq Əlisəttar müəllim, mən çox istəyirəm ki, sənin radikulitin səni heç vaxt incitməsin, mən çox istəyirəm ki, sən ömrünün axırınacan qayğısız yaşayasan, heç vaxt o cür puçur-puçur tər tökməyəsən, imkan daxilində xoşbəxt olasan, mən çox istəyirəm ki, gecənin qaranlığı və sükutu səni üşütməsin, mən çox istəyirəm ki, xəstəxananın həyətindəki o zeytun ağacları heç vaxt quruyub qaxaca dönməsin, mən istəyirəm ki, heç kim tabut taxtası yandıran qırçılarla rastlaşmasın, mən istəyirəm ki, Musa heç vaxt Səlminazı boşamasın, amma... qış ötür, yaz gəlir, sonra yay gəlir, sonra yenə payız başlayır...

Hava arada bir yenə tutuldu, sonra yenə bir balaca açıldı və gün çıxdı. Gün milyon il bundan əvvəl də yəqin ki, beləcə çıxmışdı. Gün milyon il bundan sonra da beləcə çıxacaqdı.

*Aprel, 1983.*

## HÖNKÜRTÜ

*Olub keçənləri bir-bir çəkərsən*
*Sakit yaddaşının məhkəməsinə...*

***Şekspir, 30-cu sonetdən*.**

Çinarın gözü görünmür, çinarın gözü şəffafdır, çünki əslində çinar bütün gövdəsiylə, budaqlarıyla, yarpaqlarıyla görür və çinarın gözlərinin təbəssümü də yarpaqlarına, budaqlarına, gövdəsinə yayılır və mən o təbəssümü bircə yarpaqda da, nazik uzun budaqlarda da, o hündür gövdədə eyni cür görürdüm, o təbəssümdə eyni hərarət, eyni gizli istehza və eyni gizli tənə (bəlkə nifrət?) hiss edirdim, amma həmin tənə (ya nifrət) gizlindən çıxanda, açıq-aşkar bilinəndə yarpaqlardan da, budaqlardan da çox gövdədə duyulurdu, çünki yarpaqlar incə idi, budaqlar zərif idi, gövdə isə bərk idi, cod idi, illər dalınca illər yola salmışdı və tənənin (ya da nifrətin) ağırlığı, tənənin çəkisi o bərklikdə, codluqda, qocalıqda adamı boğurdu, adamı sıxıb qolunu, qabırğasını sındırırdı.

Indi qışdı və indi yəqin o çinar tamam çılpaqdır, üşüyür və çinar beləcə çılpaq olanda, saç kimi nazik və uzun barmaqları soyuq qış axşamında üşüyəndə, uzaqdan Məcnuna oxşayır.

Onda yaz təzəcə qurtarmışdı, yay idi və onda uzaqdan baxanda hündür, şumal çinar Don Kixota oxşayırdı.

Onda yay idi və biz sübh tezdən Bakıdan çıxıb, sonra Şamaxıdan keçib, Ağsu dolaylarını enə-enə Tbilisiyə tərəf üz tutmuşduq, bir-iki gün Tbilisidə qalacaqdıq, sonra mehmanxanalarda qala-qala Qara dənizin sahilindən ötüb Şimali Qafqaza gedəcəkdik, sonra da Rostov – Bakı magistralı ilə evə qayıdacaqdıq; həmişəki kimi bir aylıq yay səyahətinə çıxmışdıq, mənim məzuniyyətim idi, uşaqların da kefinin kök çağları və bütün bu səyahətdə mənə ən çox ləzzət eləyən Vüqarın, Sevilin və Solmazın sevinməsi idi, qayğısızlığı idi və əslində elə Gülərə ən çox ləzzət eləyən bu idi.

Gülər mənim arvadım idi, Vüqar oğlumuz, Sevillə Solmaz da qızlarımız və dördüncü il idi ki, beləcə səyahətə çıxırdıq, Ağsu dolaylarından beləcə ötüb-gedirdik.

Onda yay idi və mən həmin isti yay səhəri «QAZ 24»ü sürə-sürə növbəti dolayı burulan kimi çinarı gördüm və özümü saxlaya bilməyib qışqırdım:

– Ode, həmin çinar!...

Vüqar soruşdu:

– Hansı çinar?

Sevil soruşdu:

– Nə çinar?

Solmaz dedi:

– Nə olsun, çinar?..

Gülər təəccüblə maşının güzgüsündən mənə baxdı və mən nə həmin yay səhəri, nə də indi, bu qədər vaxtdan sonra başa düşmədim və başa düşə bilmirəm ki, niyə qıpqırmızı qızardım; elə bil ki, uşaqlar məni lüt gördü və yaxud elə bil ki, camaatın gözü qabağında axmaq bir iş görürəm və xəbərim yoxdu ki, camaat mənə baxır, birdən xəbər tuturam.

Hansı çinar? nə çinar? nə olsun, çinar? və doğrudan da, hə, nə olsun, çinar? Bakının həyətləri doludu beləcə çinarla və bu çinarın başqa çinarlardan fərqi nədir ki, mən beləcə həyəcanlanıram, beləcə qışqırıram?

Ona görə ki, həmin çinar mənim çinarımdır.

Yox, o çinarı mən əkməmişəm, cəmi dördüncü dəfə idi o çinarı görürdüm, amma o çinar mənim çinarım idi.

Istəklilər yalnız adamlar arasında olmur, hərənin təbiətdə də bir istəklisi var və bəlkə bundan adamların özünün də xəbəri yoxdu: biri dumanı sevir, o biri yağışı, bir başqası meşəni, ya qıpqırmızı çiçəkləmiş nar ağacını, yaxud da ki, qıjıldaya-qıjıldaya yarğanın dibi ilə axan dağ çayını, mən dedim ki, bəlkə heç adamın özünün də bundan xəbəri olmur, yəni onu demək istəyirəm ki, misal üçün, qar yağır və sən heç özün də bilmirsən ki, bu qar sənin təbiətdə istəklindir. Amma hər tərəf ağappaq ağarır və sən özün də o ağlıq içində tərtəmiz təmizlənirsən, qar yağır və sən qarın altında dayanıb hər tərəfi bürümüş həmin ağlığa, ləkəsizliyə baxırsan və o qar yağan müddətdə dünyada səndən təmiz, səndən pak adam olmur, amma qardan əvvəl belə deyildi və qardan sonra da belə olmayacaqdı.

Atamla, anamla, bacılarımla birlikdə o balaca həyətdən köçüb Bakıya gələndə müharibə qurtarmışdı və mən lap balaca idim. Sonra illər keçdi, mənim balacalığım, uşaqlığım məni qəhərləndirən bir uzaqlıqda, həm də əbədi uzaqlıqda qaldı və mən o balaca həyətdə qoyub gəldiyimiz evimizi də, o balaca həyətin quruluşunu da, yan-yörəsini də tamam yadımdan çıxardım, təkcə boy-buxunu ilə o balaca həyətimiz və ümumiyyətlə, bütün dünyaya meydan oxuyan çinar ağacını yadımdan çıxarmadım və həmin çinar ağacı həmişəlik mənimlə qaldı.

Bütün adamların ağzı var, əlləri-ayaqları var, bütün çinarların da gövdəsi, budaqları, yarpaqları var. Amma çinarlar da bir-birinin eyni deyil, çinarlar da adamlar kimidir. Bir-birindən fərqlənir və onların da arasında həmişəlik keçmişdə qalmış tanışına, dostuna, əzizinə oxşayanını görəndə həyəcanlanır, hisslər səni götürüb aparır, nə qədər edirsən də özünü ələ ala bilmirsən.

Bəlkə özünü ələ almaq istəmirsən?

Dolaylar bir-birini əvəz edirdi, amma mənə elə gəlirdi ki, biz çinara yox, çinar bizə yaxınlaşır və o çinar bizə yaxınlaşdıqca həmin Don Kixot uzunluğu daha da böyüyürdü, budaqlar, sonra da yarpaqlar tək-tək seçilməyə başlayırdı və mən keçən il olduğu kimi, ondan əvvəlki illər olduğu kimi yenə o çinarın yarpaqlarının səsini eşidirdim; əlbəttə, mən başa düşürdüm ki, bu ola bilməz, bu uzaqlıqda, yayın bu küləksizliyində maşının içində, özü də maşın gedə-gedə, özü də Vüqarın səsinə güc verdiyi maqnitofonda Demis Russos, ya da bir başqası oxuya-oxuya çinarın yarpaqlarının səsini eşitmək mümkün deyil, amma bunu başa düşsəm də, çinarın səsini eşidirdim və hətta hiss edirdim ki, o adi yarpaq səsi deyil, bu çinar səsində adam kimi danışmaq vəhyi var və bu hiss yenə də məni qorxudurdu, ürküdürdü və mən yenə də geri dönmək istəyirdim, uzaqbaşı, maşını saxlayıb buralardan qaçıb getmək istəyirdim, amma dolaylar bir-birini əvəz edirdi, Demis Russos, ya bir başqası oxuyurdu, o çinar sürətlə bizə tərəf gəlirdi və mən daha çinar yarpaqlarının adicə səsini yox, dediyi sözləri eşidirdim.

Həmin qorxu, ürkü mənim bütün içimi bürüdü və hətta bir göz qırpımlıq çaxan şimşək kimi, belə bir ehtiras beynimi yedi ki, qabaqdan gələn döngəni dönməyim, maşın düz getsin, maşın uçuruma getsin və ürəyimdə də belə bir dəli ümid oyandı ki, qorxma, uşaqlara heç nə olmaz, nə olacaqsa, təkcə sənə olacaq, qorxma, dönmə bu döngəni, amma döngəni döndüm, çünki o qorxu ilə, ürkü ilə bir yerdə mənim ürəyimdə gizli bir əmin-amanlıq duyğusu da var idi və əmin-amanlıq duyğusu deyirdi ki, o çinardan qorxma, o çinarın xislətində yumşaqlıq var, mülayimlik var, çünki mərhəmətlidir və o çinar adamın ətini yesə də, sümüyünü tullamaz və elə bil ki, o mülayimlik, o yumşaqlıq mənim bədənimə toxundu və o mülayimlikdən, yumşaqlıqdan bir həzinlik də hiss etdim – mənim bütün bədənim, ürəyim, beynim bir mərhəmət həsrətində idi.

Mən bilirdim ki, çinar bizə çatan kimi maşına minəcək, amma o hündürlükdə, o cür qollu-budaqlı ağac bu «QAZ-24»ə necə sığışacaqdı?

Mənim ürəyimdə gizli, ağlasığmaz bir istək də var idi və mən bunu bilirdim: mən istəyirdim ki, o çinar maşına minsin, amma bu dəm mənim ürəyimdə aşkar bir ümid yarandı: mən ümid edirdim ki, o çinar maşına sığışmayacaq, minə bilməyəcək maşına və mənim yanımda oturub mənə baxmayacaq.

Doğrudan da, o, maşına necə sığışacaqdı, axı, illər keçirdi və çinar daha da böyüyürdü, daha da qollu-budaqlı olurdu, amma o maşını saxlayanda və yaşıl yarpaqlı budaqları ilə qabaq qapını açıb mənim yanımda oturanda tamam matım qurudu: o boyda ağac yenə də maşının içinə rahat sığışdı, düzdü, yarpaqlar, budaqlar maşının bütün içini tutdu, amma, hər halda, sınmadı, qırılmadı, qopmadı və özü ilə həmin yay səhəri maşının içinə bir sərinlik gətirdi, maşının içində yüngülcə bir meh əsməyə başladı və yaxşı ki, bu meh əsməyə başladı, yoxsa mən bu dəfə boğulacaqdım.

«Bu nə musiqidi belə?» – onun səsi həm cavan idi, həm qoca idi və mən deyə bilməzdim ki, o qışqırırdı, yoxsa pıçıldayırdı.

«Nə bilim?.. Vüqarın xoşuna gəlir.»

«Nədən qorxacağam?» və həmin an mən onun şəffaf gözlərindəki (yaxud gözündəki) təbəssümü gördüm və həmin təbəssüm get-gedə onun cod gövdəsinə, bütün yarpaqlarına, budaqlarına yayıldı və mən gözümü yoldan çəkib diqqətlə ona baxdıqca, əvvəlcə ən çox həmin istehzanı hiss etdim, sonra yavaş-yavaş bir neçə qat altından sezilən tənəni (ya nifrəti) gördüm və həmin istehzadan da, mülayimlikdən də fərqli olaraq o tənə (ya da nifrət) şəffaf bir şirə kimi idi və həmin şəffaf şirə elə bil ki, hərdənbir mənə yapışırdı, əlimə batırdı, sifətimə batırdı.

«Axı, nə üçün, niyə?»

O bütün yarpaqları ilə, budaqları ilə, gövdəsi ilə gülümsədi.

«Başqaları məndən yaxşıdır guya?» – və düzdü, bu sözləri dedim, amma o saat burasını da başa düşdüm ki, mənasız sözlər dedim, çünki bu dəm bizim bu söhbətlərimizin dünyada heç kimə dəxli yox idi, çünki bu dəm dünyada, ümumiyyətlə, heç kim yox idi, təkcə mən idim, bir də ki, o idi və bir də ki, onun şəffaf təbəssümü idi; düzdü, mən indicə dediyim sözlərin mənasızlığını başa düşdüm, amma həmin anda da içimdən bir ehtiras baş qaldırdı, onun yarpaqları ilə, budaqları ilə, gövdəsiylə beləcə gülümsəməyi məndə dəli bir intiqam hissi oyatdı və mən istədim düz onun gözünün (ya gözlərinin) içinə baxa-baxa qışqırım ki, hə, rüşvət alıram mən, hə, imzasız məktub yazıram mən, hə, məşuqələr saxlayıram mən, hə, hə, hər şey eləyirəm mən, amma heç nədən də qorxmuram, bax, bu saat düz gedəcəyəm, bax, bu döngəni dönməyəcəyəm və sən də mənimlə birgə o uçuruma yuvarlanacaqsan, amma mən qışqıra bilmədim, heç nə deyə bilmədim, çünki birdən-birə özümü uçurumdan yuvarlanan maşının içində hiss etdim və mənim bütün bədənimi soyuq tər bürüdü.

O yenə də bütün yarpaqları ilə, budaqları ilə, gövdəsilə gülümsədi.

Ağsu dolayları daha qurtardı və düz magistral yol həmin yay səhəri uzandıqca uzanırdı.

«Mən səni çox istəyirəm, yarpaqlarını da, budaqlarını da, qartımış gövdəni də çox istəyirəm. Istəyirsən öldür məni... Dola budaqlarını boynuma, qabırğalarıma, sıx, öldür məni, kim biləcək ki, sənin işindi bu, kimin ağlına gələcək?..»

«Bədbəxt adamsan...»

«Hə...»

«Amma keçən il belə demirdin, soruşurdun ki, niyə?»

«Keçən ildən on iki ay ötüb. On iki ay üç yüz altmış beş gündü. Üç yüz altmış beş günün üç yüz altmış beş də gecəsi var...»

«Hesabı yaxşı bilirsən, pul saymaqdandı. Nə qədərin var indi?»

«Nə bilim? Day saymıram. Atıram bir tərəfə, elə-eləcə qalır...» Və mən özümlə heç nə eləyə bilmədim, mənim ürəyim çırpınmağa başladı, uşaqlıqda dərsi bilməyəndə və gözləyəndə ki, müəllim indicə məndən soruşacaq – belə çırpınardı ürəyim; mənim ürəyim çırpınmağa başladı ki, o bütün yarpaqları, budaqları, qoca, cod gövdəsi ilə soruşacaq: neçəsi halaldı, neçəsi haram? – və bu söhbət də qarşıdakı bu magistral yol kimi uzanacaq, mən özüm ucundan tutub ucuzluğuna gedəcəyəm və mən qorxdum ki, birdən onun özü ilə birlikdə maşının içinə gətirdiyi bu yüngül meh dayanar və mən ölməkdən yox, həmin havasızlıqdan dəhşətə gəldim, amma o başqa söz soruşdu:

«Gülər də saymır?».

« O da bezib, saymır daha...» – və bu dəfə yəqin ki, mənim də sifətimdə bir istehza var idi, amma mənim bu istehzam da mənim özümə aid idi və düzdü, mən güzgüyə baxa bilmirdim, amma bilirdim ki, belədir ki, var.

«Ver uşaqlar saysın.»

«Onlarda işin olmasın.»

«Niyə?»

«Sən belə şeyləri başa düşməzsən. Insan deyilsən, axı. Bəlkə heç insan olsaydın da başa düşməzdin, çünki insanların da arasında insanı başa düşən, ancaq həmin insanın özüdü, başqası deyil...»

Bu dəfə onun yarpaqlarında da, budaqlarında da, qoca, cod gövdəsində də açıq-aşkar bir nifrət var idi və mən onu sancmaq istədim, istədim soruşum ki, bu qədər nifrətin ünvanı tək mənəm, yoxsa Yer üzünün bütün insanlarıdı? – amma soruşmadım, çünki bu nifrət mənim ürəyimin cızdağını çıxarırdı, çünki o çinarı, həqiqətən, sevirdim, onun yarpaqlarını, budaqlarını, qoca və cod gövdəsini ürəyimdən gələn bir məhəbbətlə sevirdim.

«Mən ki, səni bu qədər istəyirəm, deməli, mən tamam pis adam ola bilmərəm. Deməli, mənim içimdə də nəsə yaxşı bir şey var. Bilirəm, sənin məndən zəhlən gedir, sən məndən iyrənirsən, yenə də öz həmişəki yerinə qayıtmaq istəyirsən, darıxırsan bu maşının içində, azad olmursan burda, sığışmırsan bu maşına, amma niyə başa düşmürsən ki, mən də sığışmıram bu maşına, mənim də hisslərim var, mənim də duyğularım var, qanmaz deyiləm mən və ümumiyyətlə, qanmaz insan yoxdur. Sənin məndən zəhlən gedir, amma Vüqar məni istəyir, Sevil məni istəyir, Solmaz məni istəyir, mən onlara lazımam, gərəyəm və əgər onlar məni istəyirlərsə, mən onlara lazımam, gərəyəmsə, deməli, məndə də nəsə var...»

«Onda, bəs, nə istəyirsən? Bir halda ki, hər şey belə gözəldir, onda məndən niyə əl çəkmirsən? Mən insan deyiləm, bəlkə ona görə bir şey başa düşmürəm?..»

«Ya da ki, heç nə yoxdu məndə?»

«Üç yüz altmış beş günün üç yüz altmış beş gecəsi var, düz deyirsən, bəs, o üç yüz altmış beş gecənin neçəsini rahat yata bilirsən?»

«Heç birini... Gündüz adamın başını qatır, gündüz adam hər şeyi yadından çıxarır, yaxşılıq eləyir, pislik eləyir, dərd gecənin dərdidi. Heç nədən qorxmuram mən, nə tutulmaqdan qorxuram, nə biabırçılıqdan qorxuram, təkcə gecədən qorxuram... Qurtar məni gecədən, qurtar məni gecələr özüm özümlə tək qalmaqdan, qurtar... Axı, mən bu qədər səni istəyirəmsə, deməli, nəsə yaxşı bir şey var məndə, qurtar məni gecələrdən, bir yol göstər mənə...»

«Yol? Budey, yol. Birbaş Tiflisə aparacaq səni. Dostlar gözləyir orda, əla keçəcək orda sizinçün. Sonra Qara dəniz, sonra ...»

«Axı, sən gərək belə cəllad olmayasan...» və bilmirəm nə üçün birdən-birə uşaq vaxtı eşitdiyim bir rəvayət (bəlkə rəvayət deyildi, doğrudan da, olmuşdu?) mənim yadıma düşdü: o vaxt ki, Yer üzünü su basdı və o vaxt ki, Nuhun gəmisi üzməyə başladı, bir nəfər suda çapalaya-çapalaya qışqırdı: « – Ya peyğəmbər, kəndir at, məni də gəminə qaldır. Yadına gəlirmi, bir zaman sənin çörək bişirmək üçün unun yox idi, ac qalmışdın, mən sənə çuval-çuval un verdim». Nuh özünü eşitməməzliyə vurdu, dünyanı su basmış o məqamda belə fikirləşdi ki, bu adamı sudan çıxararam, xilas edərəm, sonra mənə verdiyi unu geri istəyər...

Bu rəvayət hardan gəlib mənim yadıma düşdü?

Bu yol, yox, Bakı – Tbilisi yolu deyildi, bu yol əslində mənim həyatımın yolu idi və mən anadan olduğum gündən bu yolun yolçusu idim, gedirdim, gedirdim və gedirdim; hamının əvvəli ilə axırı birdir, amma əvvəldən axıra aparan bu yollar bir-birinin eyni deyil, daha doğrusu, hamı bir yolla, bir magistralla gedir, amma o yol, o magistral hərənin öz yoludur, öz magistralıdır, hərənin öz gecəsinin, öz təkbətəkliyinin yoludur.

Suda çapalayan o adam gərək peyğəmbəri aldadaydı, gərək Nuha deyəydi ki, mən sənə yox, sən mənə çuval-çuval un vermişdin, onda yəqin Nuh həmin adamı dartıb sudan çıxarardı, çünki yəqin Nuh fikirləşərdi ki, qoy bu adamı xilas edim, mənim çörək borcumu qaytarsın.

Amma bu yaşıl yarpaqlar, bu budaqlar, bu qoca və cod gövdə Nuh peyğəmbər deyildi, çinar ağacı idi və çinar ağacları uzaqdan Don Kixota oxşayırdı.

«Bəlkə sən mənə inanmırsan? Bəlkə elə bilirsən ki, mən sənə də yalan deyirəm? Inan, inan mənə... Mən səni çox istəyirəm, sənin yarpaqlarını da çox istəyirəm, budaqlarını da, qartımış gövdəni də. Düz deyirsən, mən Güləri də aldadıram, düz deyirsən, dostları da aldadıram, özümü də aldadıram, amma sənə düz deyirəm, çox istəyirəm səni, inan mənə, inan...»

– A-a-a! .. Nolub sənə! Noldu belə?! Niyə ağlayırsan?

Gülərin səsi idi və Gülər qorxu və heyrətlə maşının güzgüsündən mənə baxırdı.

Vüqar da, Sevil də, Solmaz da təəccüblə mənə baxırdı.

Mən də maşının güzgüsündən özümə baxdım və qızarmış yaş gözlərimi tələsik sildim, burnumu çəkdim və bir balaca toxtadım.

Sonra uşaqların üzünə gülümsədim.

Demis Russos, ya da kimsə başqası – mən onları bir-birindən seçmirdim – oxuyurdu və Vüqar da gözlərini məndən çəkib maqnitofonuna qapandı.

Gülər əvvəlcə çox narahat idi, sonra yavaş-yavaş sakitləşdi və mürgüləməyə başladı.

Qızlar o yay səhəri o yol boyu ötüb-gedən gül-çiçəyə, dağlara, yamaclara baxırdı.

O yaşıl çinar çoxdan arxada qalmışdı və görünmürdü.

Məni qəhərləndirən uzaqlıqda, həm də əbədi uzaqlıqda qalmış – çinar isə yenə də mənim ürəyimdə idi...

*Aprel, 1983.*

# BOZLUQ IÇINDƏ IKI NƏFƏR

*Döz, bağrı daş olan könlüm...*

***Abbas Tufarqanlı***

Yaz çoxdan ötüb-getmişdi və o ötüb-getmiş yazın ən qüssəli xatirəsi həmin yaşıl-sarımtıl seyrək yarpaqlar idi. Hər gün səhər yerindən qalxıb həyətə açılan pəncərədən o seyrək yarpaqları görürdü və hər səhər də o yaşıl-sarımtıl seyrək yarpaqlar təkcə ötüb-getmiş yazdan yox, ötüb-getmiş ömürlərdən, dünyanın müvəqqətiliyindən xəbər verirdi, illərlə xatırlamadığı və çoxdan bu dünyadan köçüb getmiş adamları birdən-birə xatırlayırdı, yaxın, uzaq o simalar, sifətlər bir-bir gözlərinin qabağında canlanırdı və o simaların gözləri həmişə də yumulu olurdu, bu seyrək yarpaqların yaşıl-sarımtıl solğunluğu bir sarı kölgə kimi o simalara, sifətlərə də hopurdu; sonra xəstəxanalar yadına düşürdü, çünki dünyanın ən qüssəli yeri xəstəxanalardı.

O, pensiyaya çıxmazdan əvvəl də, sonra da xəstəxanalarda yatmışdı, yaxınları, tanış-bilişləri yoluxmağa da çox getmişdi xəstəxanalara və o adamların da nə qədəri indi dünyada yoxdu və indi bu yaşıl-sarımtıl seyrək yarpaqlara baxa-baxa o adamları da həmin xəstəxana qəmginliyi və sarılığı içində bir-bir gözlərinin qabağına gətirirdi və onların da hamısının gözləri yumulu olurdu, həmin adamların sifətlərinin bütün gizgilərini xatırlayırdı, dodaqlarının təbəssümünü xatırlayırdı, amma gözlərinin rəngini xatırlaya bilmirdi, çünki yaddaşının indi göstərdiyi o adamların gözləri heç cürə açılmırdı, həmişə yumulu olurdu, daha doğrusu, o bilirdi ki, bax, bunun gözləri göy idi, bununku isə, deyəsən, qara idi, amma həmin göyü də, həmin qaranı da görə bilmirdi, çünki hər şey bir rəngdə idi, çünki hər şey bu yaşıl-sarımtıl seyrək yarpaqların qəmgin sarısına boyanmışdı.

Sulu qar yağırdı və o seyrək yarpaqlar tamam islanırdı, üşüm-üşüm üşüyürdü və bu yarpaq üşüməyini o, az qala, öz bədəni ilə hiss edirdi və bu dəm uşaq vaxtı ağlamağını yadına gətirirdi, sonra başqa uşaqların ağlamağını yadına gətirirdi, sonra böyük adamların ağlamağını yadına gətirirdi – əvvəlcə qızların, arvadların ağlamağını, sonra kişilərin ağlamağını; sonra da uzun-uzun illər boyu iştirak etdiyi matəm mərasimləri yadına düşürdü, çiyinlərində üzü qəbiristanlığa tərəf gedən üstü xalçalı mafələr, tabutlar gözlərinin qabağına gəlirdi, sonra da ömründə ağlamağını görmədiyi kişilərin necə ağlamaqlarını, daha doğrusu, necə ağlaya biləcəklərini, gözlərinin necə dolacağını, dodaqlarını, çənələrini əsdirəcək təbəssümlərini gözlərinin qabağına gətirirdi və ən qəribəsi bu idi ki, yaxşılığından, pisliyindən, sərtliyindən, mülayimliyindən, hətta onun şəxsən tanıyıb-tanımamağından, vəzifəsindən, şöhrətindən asılı olmayaraq, elə bir adam yox idi ki, indi onun təsəvvüründə ağlaya bilməsin, qəzetdə yalnız şəklini gördüyü tanınmaz-bilinməz bir nəfərdən tutmuş Əlisəfayacan hamını öz təsəvvüründə ağladırdı və bəzən ona elə gəlirdi ki, gözlərinin qabağındakı bu görümlərdə nəsə oğurluğa bənzər bir şey var, elə bil xısın-xısın gizlənib qapının açar deşiyindən içəri baxır; amma gözlərini sulu qardan islanmış, soyuqdan-sazaqdan üşüm-üşüm üşüyən o yaşıl-sarımtıl seyrək yarpaqlardan çəkə bilmirdi, çünki yetmiş üç yaşına baxmayaraq, tamam heyrət içində görürdü ki, Yer üzündəki bütün adamlar onun təsəvvüründə eyni cür ağlayır; bütün insanların ağlamağı bir-birinin eyni idi, insanlar eyni cür içini çəkirdi, eyni cür gözlərinin yaşını axıdırdı, eyni cür də dərindən sarsılırdı, eyni cür kədərlənirdi,

yanırdı və ən başlıcası isə, həmin insanların belə bir eynilikdən xəbəri yox idi, xəbəri yox idi ki, bu dərəcədə bir-birlərinə oxşayırlar, dərdə düşəndə, ağlayanda bir-birlərinin eyni olurlar.

Bu yaşıl-sarımtıl seyrək yarpaqlar əslində insan xislətinin eyniliyindən xəbər verirdi, birinci insandan tutmuş sonuncu insana kimi, Yer üzündəki bütün məxluqatın əslində eyni ömür – küll, vahid ömür yaşadıqlarından xəbər verirdi və həmin böyük, əvvəli-axırı görünməyən ömrün özünün də əslində bir göz qırpımlığından deyirdi.

...Sulu qar kəsirdi, sonra təzədən başlayırdı; sulu qar ara verirdi və soyuq külək mənim yaşıl-sarımtıl seyrək yarpaqlarımı qurudurdu və həmin soyuq xatirələrdəki bütün ılıq hissləri, həyəcanları boyat çörək kimi fal-fal doğrayırdı və həmin bıçağın metal soyuğu adamın iliyinəcən işləyirdi, sonra bir neçə gün keçirdi, o seyrək yarpaqlar daha da seyrəlirdi, daha bir yarpaq nəm və çılpaq budaqdan qırılıb düşürdü və o dəm mən gözlərimi yaşıl-sarımtıl seyrək yarpaqlardan çəkirdim, çünki qırılıb düşmüş o yarpağı son mənzilə aparan yolu görmək istəmirdim...

...Əlbəttə, bu son payız keçəcəkdi, qışın soyuqları da ötəcəkdi, yenə yaz gələcəkdi, yamyaşıl yarpaqlar budaqları bürüyəcəkdi, amma bütün bunlar mənim üçün bir təskinlik deyildi: düzdü, yamyaşıl yarpaqlar bu budaqları bürüyəcəkdi, amma, bax, bu yaşıl-sarımtıl yarpaqlar daha heç vaxt olmayacaqdı, çürüyəcəkdi, yox olacaqdı; qış ötəcəkdi, yaz gələcəkdi və o zaman indi Yer üzündə olan adamların da, indi mənim kimi beləcə pəncərədən baxan, dünyanı beləcə görənlərin də bir çoxu olmayacaqdı və bir vaxt mən də olmayacaqdım və bəlkə onda da kim isə o zamanın son payızında o zamanın yaşıl-sarımtıl seyrək yarpaqlarına baxıb elə mənim özümü xatırlayacaqdı və mən onun təsəvvüründə ağlayacaqdım, ya güləcəkdim, nə fərqi?

Axır vaxtlar hərdənbir öz-özü ilə danışırdı; axır vaxtlar? Bəs, əvvəllər necə, əvvəllər həmsöhbəti kim olub? Gülümsədi və bu təbəssümdə bir istehza, daha doğrusu, gizli, lap dərinlərdə gizlənmiş bir intiqam hissi var idi, amma kimə istehza edirdi, kimdən intiqam alırdı? Özündən? Arvadından? Bəlkə bu yaşıl-sarımtıl seyrək yarpaqlardan, yox, yox, hamıdan və hər şeydən intiqam almaq olar (dünyada kimin və nəyin təqsiri yoxdur?), amma bu yaşıl-sarımtıl seyrək yarpaqlardan intiqam almaq mümkün deyil, çünki onlar intiqama davam gətirə bilməz, hətta onun sifətindəki belə bir zəif təbəssümün də intiqamına davam gətirə bilməz və bir halda ki, beləcə, zəif bir təbəssümün də intiqamına tab etməz, deməli, heç bir günahları yoxdu; bəs, onda nə üçün pöhrədən çırtdayıb çıxdılar, böyüdülər, yamyaşıl yarpaq oldular və sonra da beləcə seyrəldilər, beləcə sapsarı saraldılar?

Arvadı həmişəki kimi, yumşaq, qırmızı kürsüdə oturub nəvələrindən hansı üçünsə əlcək toxuyurdu və əlcəyin üstündə zanbaq gülündən naxış var idi, amma arvadı əlcəyin üstündəki bu zanbaq gülünü elə toxumuşdu ki, zanbaqdan çox gəmi lövbərinə oxşayırdı və bu oxşarlıq da onun ürəyini sıxdı, çünki bir yerdə dayanmaqdan, hərəkətsizlikdən, ağırlıqdan xəbər verirdi.

Qabaqlar arvadı ilə birlikdə teatr tamaşalarına gedərdi, amma bir ildən artıqdı ki, daha tamaşalara da getmirdi, çünki səhnəyə baxdıqca darıxırdı, fikirləşirdi ki, artistlər eyni tamaşada həmişə eyni sözləri deyirlər, cümə axşamı, ya çərşənbə, ya bazar günü, yaz günü, payız axşamı, ya da qışın soyuğu – artistlər üçün fərqi yox idi, eyni sözlər deyilməliydi. Külək əsir? Əssin. Qar yağır? Yağsın. Kimsə ölüb? Ölsün. Kimsə anadan olub? Olsun. Fərqi yox idi, eyni sözlər deyilməliydi və artistlərin, misal üçün, dörd yüz il bundan əvvəl Şekspirin yazdığı sözlərin qəlibindən çıxa bilməməsi onun ürəyini sıxırdı və daha arvadını da yanına salıb axşamlar teatrlara getmədi və əlbəttə, arvadı yenə bir şey başa düşmədi, amma həmişə teatra getməyə razı olduğu kimi, getməməyimin də fərqinə varmadı.

...Bu qədər illər yaşadım, xəstələndim, sağaldım, yaxşılıq elədim, amma öz aramızda, pislik də gəldi əlimdən, incidim, incitdim, nigaran oldum, gözüm yol çəkdi, məclislərdə çalıb-oynadım, yas da saxladım, təzəcə anadan olmuş çağa gördüm, qoca meyiti də gördüm və bütün bunların hamısı da ona görə ki, günlərin bir payız günü məlum olsun ki, ömür gəldi keçdi, bir at mindim, başı yox, bir çay keçdim, daşı yox...

Onun uzun ömründə hər şey olmuşdu, təkcə... təkcə nə olmamışdı?

Bəsdir.

Təngnəfəs oldu və yadına düşdü ki, çox-çox illər bundan əvvəl bir xalası var idi, tez-tez təngnəfəs olardı, sonra özü öz nəfəsinin ağırlığına lağ edərdi: bir qardaşım var, getdi qayıtmadı, nədi bu, o balaca idi, xalasının dediyi tapmacaya çox fikirləşib, çox söz deyib cavab tapa bilmirdi, xalası gülürdü: nəfəsdi də, ay dilbilməz, mənim bu qaragün nəfəsimdi də gedir, qayıtmır; sonra xalasının o uzaq gülüşü bu seyrək yarpaqlar sarısında əvvəlcə dondu, sonra muma döndü, sonra da əridi, sarı içində də yox olub getdi.

Pəncərənin qabağında dayanıb yaşıl-sarımtıl seyrək yarpaqlara baxırdı və bir azdan gəzməyinin vaxtı gələcəkdi, paltosunu geyib şlyapasını başına qoyacaqdı, evdən çıxıb yavaş-yavaş bulvara gedəcəkdi, kiməsə rast gələcəkdi və yaxud heç kimə rast gəlməyəcəkdi, sonra yavaş-yavaş da geri qayıdacaqdı, arvadı diyetalı axşam yeməyini verəcəkdi, dadsız-duzsuz o yeməyi yeyəcəkdi, sonra bir az televizora baxacaqdı, oğlu, ya qızı telefonla zəng edəcəkdi, arvadı danışacaqdı uşaqlarla və onun da kefinin yaxşı olduğunu deyəcəkdi, sonra nə olacaqdı? Sonra da yatacaqdı, yatacaqdı ki, səhər yenə də durub bu yaşıl-sarımtıl seyrək yarpaqlara baxsın və bu sarı içində xatirələr onu götürüb aparsın.

Xatirələr də payıza düşür, bu yarpaqlar kimi solur, saralır və bu yarpaqlar kimi, bir gün yox olacaq, çürüyəcək, torpağa qarışacaq.

Payızın qurtarmağına az qalmışdı və bu seyrək yarpaqların da ömrünə az qalmışdı.

... Dünyada çox adlı-sanlı, ağıl-zəka sahibi kişilər ilin fəsilləri haqqında deyiblər ki, üçü bizə yağıdı, üçü cənnət bağıdı, üçü yığar gətirər, üçü vurar dağıdar; vurub dağıdan payızın soyuq küləyi, adamın bütün içini dolduran tənhalıq nəfəsi ömrü aparmaq üçündür, həyatı vurub-dağıtmaq üçündür; fəsillər haqqında bunu da deyiblər ki, bir kişinin dörd evi var, biri yaşıl, biri al, biri sarı, biri də ağ; bəs, bunu necə yozursan, əziz dost? Yoz görüm; gözüm üstə: ağ – kəfən rəngi, sarı – ölüm rəngi, yəni bu yaşıl-sarımtıl seyrək yarpaqlar, al – qızdırma, yaşıl – nə? Yaşıl nə? Yaşıla da bir qara yax, tez elə...

Amma yaşıla qara yaxa bilmədi, çünki yaşıl birdən-birə gözlərinin qabağında rəng verib rəng aldı və bu gülən, sevinən, günün işığı ilə oynayan yaşılın içində sifətinin hamar dərisi, hər bir cizgisi sağlamlıqdan, həvəsdən, gizli ehtirasdan xəbər verən o gözəl almayanaq sifəti, yaşıl içində işım-işım işıldayan o qara gözləri gördü və əvvəlcə bu görümü tanımadı, təkcə bir doğmalıq, yaxınlıq, əzizlik hiss etdi bu sifətdə, bu gözlərdə, sonra tanıdı.

O qızın adı nə idi? Ora hara idi? Deyəsən, atası ilə kəndə getmişdilər və o Yaşıl həmin kəndin yaşılı idi, hər halda yadına gəlir ki, atası ilə faytona minmişdilər və faytonda gedirdilər və uzun-uzun illərin arxasında qalmış o fayton sevinci ilə həmin Yaşıl və həmin alma yanaqlar, qara gözlər bir-birinin davamı idi.

O qız ondan böyük idi, on üç-on dörd yaşı olardı, onun on, on bir yaşı vardı, qız qollu-budaqlı bir qoz ağacına dırmaşmışdı, o da altdan-yuxarı qıza baxırdı və o qızın çılpaq baldırları açıq-aşkar görünürdü və o qız gülürdü: məni alarsan böyüyəndə? hə; sonra nə eləyərsən? niyə dinmirsən? niyə dinmirsən? nə eləyərsən mənnən? və qoz ağacına dırmaşmış o qız gülürdü, qapqara gözləri işım-işım işıldayırdı.

Arvadı diqqətlə toxuduğu əlcəyə baxdı, əli ilə əlcəyin naxışlarına sığal verdi, öz işi özünün xoşuna gəldi və özü də öz işinə gülümsədi, yəqin ki, nəvələrini yadına saldı və yenə də gülümsədi, başını buladı, sonra ona baxdı və gülümsəyən gözlərindən bir nigarançılıq keçdi.

O, arvadının gözlərindəki həmin ani nigarançılığı hiss etdi və bu hiss yaşıl-sarımtıl seyrək yarpaqların sırasını daha da artırdı, elə bil bu son payız çağında o çılpaq budaqda da hamısı xəzəl sarısına büründü.

Arvadı tamam qocalmışdı.

Təqvim özü də son payız çağında üşüm-üşüm üşüyən ağacdır, gündə bir sarı yarpaq salır.

Qoz ağacının yoğun budağı üstündə dayanıb yuxarıdan aşağı baxa-baxa gülən o qız indi nə edir? indi, bu qədər il keçəndən sonra? indi də gülə bilirmi? yox, gülə bilmir, çünki ölüb. O həmin qızın kim olduğunu yadından çıxartmışdı, sonrasından, taleyindən xəbəri yox idi, həmin qızı daha görməmişdi, amma indi bütün varlığı ilə hiss etdi ki, o qız ölüb və gözlərinin qabağına tabut içində qocalıb əldən düşmüş bir qarı gəldi və qarının sifəti həmin qıza oxşayırdı, amma gülüşündən əsər-əlamət yox idi; sonra ölümün soyuğu bu yaşıl-sarımtıl seyrək yarpaqların sırasına qarışdı və soyuq həmin sarı rəngi bircə anın içində dondurub şəffaf sarı buz kimi sürüşkən elədi.

O, ölümdən qorxmurdu, bəlkə də, əksinə, ürəyinin hansı bir dərinliyində isə elə ölümün özü üçün darıxırdı, çünki onsuz da öləcəkdisə – əlbəttə, öləcəkdi – onda bu qədər yaşamağın nə mənası vardı? amma bu sualın özündə də bir yalan var idi, riyakarlıq var idi, çünki ürəyinin elə həmin dərinliyində bir yoxluq xofu var idi və əslində bu payız sarısı da hərdənbir o xofu oyadırdı, o xofu dindirirdi.

Birinci dəfə infarkt olanda hələ işləyirdi, ikinci dəfə pensiyaya çıxandan sonra infarkt oldu, bəs, üçüncü infarkt nə vaxt olacaqdı? – indi də ola bilərdi, sabah da, bir ildən sonra da, amma yaxşısı bu olardı ki, gecə olaydı və hər şey sakit, səssiz olaydı, çünki tamam əmin idi ki, tamam dəqiq bilirdi ki, üçüncü infarktı axırıncı infarktı olacaqdı.

Televizorda nəsə danışırdılar, amma ona elə gəldi ki, bu danışıqları haçansa bir dəfə eşidib, pəncərənin qabağından ayrılıb televizora yaxınlaşdı, dalğasını dəyişdi, arvadından soruşdu ki, bu gün cümə axşamıdı? arvadı dedi ki, yox, deyəsən cümədir, sonra yadına saldı ki, sabah Ərəstun gəlib onlarda qalacaq, hə, dedi, cümədir, sabah şənbədir, Ərəstun gəlib bazarı bizdə qalacaq, sonra da arvadı nəvəsini yadına salıb yenə gülümsədi.

Televizorda gömgöy paltar geymiş bir qız nəsə deyirdi və bu deyilənlərin hamısı yenə də ona tanış gəlirdi, elə bil ki, bütün bunların hamısını eşidib, indicə söylənən hava haqqında məlumata da dünən, ya srağagün qulaq asıb, bu konserti də çoxdan görüb və bu saat arvadı da ona nəsə deyəcək, amma arvadından soruşacağı o «nəsəni» də çoxdan eşidib; arvadı doğrudan da, ona baxdı və soruşdu ki, çoxdandı Əlisəfagildən bir xəbər yoxdur, görəsən, necədirlər və doğrudan da, ona elə gəldi ki, arvadı bu sualı ikinci dəfə verir, köhnə dostlarının əhvalını ikinci dəfə xəbər alır və o da ikinci dəfə cavab verir ki, Əlisəfanın oğlu Isgəndəri srağagün bulvarda gördüm, deyir ki, Əlisəfa qrip olub.

Rəng necə dəyişərmiş? Sarı da beləcə gülərmiş, beləcə parıldayarmış, beləcə sevinərmiş və o həmin sevinən sarı içində artırmaya qalxdı, nənəsinin tüpürcəklə ucunu yaş eləyib quru və xınalı barmaqları ilə sıxdığı sapı bir göz qırpımında iynənin gözündən keçirib yenə həyətə qaçdı, nənəsi tikiş tikə-tikə öz-özünə nəsə deyirdi; nə deyirdi? Bircə bunun toyunu görsəydim, day dünyada dərdim olmazdı...

Onun toyunda nənəsi sağ idi? – dəqiq yadına gəlmirdi, deyəsən, ölmüşdü... yoxsa sağ idi?... istədi arvadından soruşsun, amma heç nə soruşmadı və o sarının parıltısı yavaş-yavaş söndü, o sarı sevinci yavaş-yavaş yox olub getdi və bu yaşıl-sarımtıl seyrək yarpaqların sarısı yenə də hər tərəfi bürüdü, amma bu dəfə o sarı içində nəsə bir doğmalıq, bir həzinlik var idi, güclə sezilən narın xətlər var idi, bir baxış, təbəssüm var idi və o başa düşdü ki, bu – nənəsinin sifətinin cizgiləri, qırışlarıdı, nənəsinin baxışı, təbəssümüdü və bu həzinlik də uzun-uzun illər məsafəsidi.

Sonra Əlisəfanın yerinə də ürəyi darıxdı, çünki Əlisəfa, yaşına baxmayaraq, civə kimi bir adam idi, həmişə hərəkətdə idi və indi Əlisəfanı yəqin bezdirib, evdən eşiyə çıxa bilmir, dükandan kefir almır, səhər sübh tezdən növbəyə durub köşkdən qəzet almır, bulvarda pensiyaçılarla oturub domino oynamır... bəs, nə edir?... dərman atır ki, qrip tez keçsin, Gülsüm də pürrəng çay dəmləyib zoğal mürəbbəsiylə birlikdə gətirib qoyur Əlisəfanın qabağına, Gülsüm əlli il idi ki, Əlisəfanın arvadı idi və əlli il idi ki, Əlisəfanın hikkəsinə, hər şeyə qəmiş qoymağına, kin-küdurətinə dözürdü və Əlisəfa özü də bunu bilirdi: mənim tarpıma dözmək də bir hünərdi ha!... ikisi də gülürdü – Əlisəfa da, Gülsüm də.

Qabaqlar hərdənbir məclislər olardı və həmin məclislərdə çox zaman Əlisəfa durub onun və arvadının sağlığına badə qaldırardı: bir dəfə görmədik ki, eşitmədik ki, sən arvadına güldən ağır bir söz deyəsən, həmişə can deyib, can eşitmisiz, bizim içimizdə kim qırx beş-əlli ildi ki, arvadını təkcə adıyla çağırmır, mütləq «xanım»ını da deyir? bizim içimizdə kim arvadına «zəhmət olmasa, xahiş edirəm mənə çay ver» deyir? heç kim, təkcə sən...

Birdən, elə bil, bu seyrək yarpaqların sarısı ona dedi ki, qrip bəhanədi, Əlisəfa bir də heç vaxt yataqdan qalxmayacaq, sonuncu xəstəliyidi Əlisəfanın, yaxın, lap yaxın günlərdə Əlisəfa öləcək, heç bu yaşıl-sarımtıl seyrək yarpaqlar da tamam tökülməyə macal tapmayacaq və birdən-birə ürəyinə daman bu hiss onu sarsıtdı, bu fikri başından çıxarmaq istədi, bu hissi ürəyindən qovmaq istədi, amma olmadı və yazıq Əlisəfanın sifəti də bu seyrək yarpaqların sarısını aldı, gözləri yumuldu; nə qədər etdisə də, bu görüm gözlərinin qabağından çəkilmədi və o başa düşdü ki, bu, həqiqətdi, doğrudan da, belə olacaq. Əlisəfa, doğrudan da, yaxın günlərdə öləcək.

Bulvarda gəzməyə getmək vaxtına hələ bir saatdan artıq qalmışdı, amma daha bu yaşıl-sarımtıl seyrək yarpaqlarla üzbəüz dayanmaq istəmədi, o biri otağa keçib kostyumunu geydi, həmişəki kimi, qalstukunu da taxdı və arvadı onu beləcə geyinmiş görəndə toxuduğu balaca əlcəkləri yumşaq kürsüdə qoyub ayağa qalxdı ki, onun paltosunu tutsun, şlyapasını versin, qapıdan gəzməyə yola salsın.

Arvadı ilə üzbəüz dayandı və birdən-birə onun bütün sinirlərindən bir intiqam hissi baş qaldırdı; kimdən intiqam alırdı? Özündən, bəlkə arvadından? bəlkə o yaşıl-sarımtıl seyrək yarpaqlardan? bəlkə ildən-ilə yaşanmış davasız-şavasız günlərindən?

O, arvadının yavaş-yavaş rəngini itirən sulu gözlərinin içinə baxa-baxa dedi:

– Sən həmişə mənim üçün yad olmusan.

Ağzından çıxan bu sözlərə özünün də matı qurudu.

Sonra dedi:

– Mən də həmişə sənin üçün yad olmuşam.

Yenə ağzından çıxan bu sözlərə matı qurudu.

Sonra bu sözləri dilinə gətirməyinə görə xəcalət çəkdi.

Arvadı bu sözlərə heyrət etdi, yoxsa narahat oldu?

Yoxsa, bu sözlərdə arvadı üçün təzə bir şey yox idi və qırx beşəlli il idi ki, arvadı onun indicə dediyi bu sözləri bilirdi?

Bəlkə arvadı bunu elə indicə kəşf etdi?

Bəlkə adam qocalanda, doğrudan da, səfehləyir və arvadı da bunu fikirləşib beləcə gülümsəyir?

Sonra aralığa çıxıb sarı rəngli paltosunu geydi, şərfini boynuna saldı, şlyapasını başına qoydu və arvadı da ona yaxınlaşıb şərfini düzəltdi, sarı rəngli paltosunun yaxasını səliqəyə saldı, «–Heç məndən olsa, bu havada gəzməyə getməzsən» – dedi, « – Soyuq dəyər sənə», – dedi, sonra « – Yox». – dedi, « – Yıxılıb eləyərsən birdən, mən də sənnən gedirəm», – dedi və tez-tələsik geyindi, onun qoluna girdi və bir yerdə evdən çıxdılar.

Həmin son payız günü hər tərəfi bir boşluq bürümüşdü və hər tərəfi bürümüş bu boşluq içində onlar yavaş-yavaş gözdən itdilər, təkcə o sarı palto yaşıl-sarımtıl seyrək yarpaqların sarısı ilə bozluq içində bir ləkə kimi görünürdü, sonra o seyrək yarpaqların rəngi də həmin son payız bozluğu içində əriyib yox oldu.

*Aprel, 1983.*

## PARISDƏ AVTOMOBIL QƏZASI

*Ş ə h r ə b a n u x a n ı m. Hatəmxan ağa və Şəhrəbanu xanım ölmüş imişlər ki, bir firəng Şahbazı tovlaşdırıb Parisə apara!..*
*M ü s y ö J o r d a n. Dimaj Paris!.. Mon diyö!.. Mon diyo.*

***M.F.Axundov,***
***«Hekayəti Müsyö Jordan həkimi-nəbatat və Dərviş Məstəli Şah cadukuni-məşhur».***

### I

Kərim müəllim qarışıq yuxu görürdü, çoxdan ölüb getmiş adamlar idi, özü də atası, anası, yaxın adamları deyildi, köhnə qonşuları idi, iyirmi beş il bundan əvvəlki məktəb direktoru idi, arvadının uzaq qohumları idi, Nuridənin əvvəlki ərlərindən biri idi, hamı bir yerə yığışıb qarpız yeyirdi və o qarpız o qədər böyük idi ki, hər dilimi bir qayıq boyda və həmin çoxdan ölüb getmiş adamlar çıxıb bu dilimlərin üstündə oturmuşdular, əlləri ilə qarpızdan böyük-böyük parçalar qoparırdılar, əlləri, ayaqları qarpızın suyuna bulaşa-bulaşa yeyirdilər; qarpız qıpqırmızı idi və Kərim müəllim yuxuda bu al qırmızıya baxa-baxa hiss etdi ki, kimsə güllə atır, güllənin səsini eşitdi, sonra güllənin səsini bir də eşitdi və gözlərini açdı, başa düşdü ki, yuxu görürdü, amma yenə güllə səsi eşitdi, dikəlib yerində oturdu və yenə də açıq-aşkar güllə səsi eşidəndə cəld yerindən qalxıb pəncərənin qabağına gəldi.

Kərim müəllimgilin yaşadığı ikimərtəbəli qədim binanın qabağında balaca bir bağ var idi, səhər tezdən təqaüdçülər girəcəkdəki köşkdən qəzet alıb bu bağda oturub oxuyurdu, sonra analar, nənələr, dayələr bu bağa uşaq gətirirdi və uşaq arabaları skamyaların qabağında pianino dilləri kimi yan-yana düzülürdü, günortadan sonra yenə təqaüdçülər bu bağa yığışıb nərd və domino oynayırdı, sonra da gecə düşürdü, bu bağ da kimsəsizləyirdi, sakitlik çökürdü, sonra səhər açılırdı və hər şey eynilə təkrar olunurdu.

Kərim müəllim pəncərədən həmin bağa baxdı və gördü ki, bir nəfər əlində tüfəng tutub nişan alır, o birisi də onun yanında dayanıb, əllərində iri əlcəklər var və doğrusu, Kərim müəllim əvvəlcə qorxdu, çünki ömründə birinci dəfə idi ki, qarşısında əli tüfəngli adam dayanmışdı və bu adam hələ səhərin gözü açılmamış nişan alırdı, atırdı; sonra Kərim müəllimə elə gəldi ki, kino çəkirlər, çünki bir dəfə – on il bundan əvvəl bu bağda kino çəkmişdilər, amma indi bütün bağda, ətrafdakı küçələrdə bu iki nəfərdən başqa heç kim yox idi, təkcə bağın aşağı başında, bu iki nəfərdən bir az aralıda, küçədə balaca bir furqon maşını dayanmışdı; kim idi bunlar, oğru idilər?

Tüfəngilə nişan alan adam yenə atdı və bu dəfə Kərim müəllim güllə səsi ilə bərabər bir it zingiltisi də eşitdi və gördü ki, iri əlcəklər geymiş adam qaça-qaça zeytun ağaclarına tərəf getdi və zeytun ağaclarının dibində yerə sərilib zingildəyən bir itin qulaqlarından yapışdı, iki əli ilə də iti yerdən qaldırdı, aparıb maşının furqonuna atdı.

Kərim müəllim başa düşdü ki, bu iki nəfər şəhəri yurdsuz-yuvasız, xəstə itlərdən təmizləyir, yəqin Bakının sanitariya idarəsindəndilər, amma, hər halda, yurdsuz-yuvasız da olsa, xəstə də olsa, səhərin gözü açılmamış bu yazıq itləri beləcə vurmaq Kərim müəllimə pis təsir elədi, hətta pəncərədən qışqırıb bu tüfəngli və əlcəkli adamlara bir-iki söz demək istədi, amma sonra fikirləşdi ki, dünyada hərə bir peşə sahibidi və it vurmaq da bunların peşəsidi, sonra burasını da fikirləşdi ki, çox ola bilsin ki, həmin o tüfənglinin atdığı güllə qurğuşun deyil, yuxu dərmanıdı və itləri yuxuladıb götürüb aparırlar.

Həmin iki nəfər bir az da bağın o tərəfinə-bu tərəfinə baxdı, diqqətlə baxdı, hətta Kərim müəllim o tüfənglinin də, əlcəklinin də gözlərində uzaqdan-uzağa bir hərislik sezdi və fikirləşdi ki, yəqin bu iki nəfər əmək haqqını gətirdikləri itlərin sayına görə alırlar; sonra əlcəkli əlcəyini çıxartdı, tüfəngli tüfəngini maşının kabinəsinə qoydu və ikisi də maşına oturub sürüb getdilər.

Kərim müəllim bir müddət də pəncərənin qabağında dayanıb bağa baxdı, qarşıdakı ikimərtəbəli, üçmərtəbəli binalara baxdı: hamı yatmışdı, təzəcə açılan həmin avqust səhəri hələ heç kim yuxudan durmamışdı, bağın qabağında, küçələrin kəsişdiyi tindəki meyvə-tərəvəz köşkü də boş və adamsız idi, qarpızlar köşkün yanındakı böyük dəmir qəfəsə yığılmışdı və qəfəsin qapısında da iri dəmir qıfıl var idi.

Birdən Kərim müəllimə elə gəldi ki, bu qarpızlar dustaqdı, bu qarpızları o dəmir qəfəs içində həbsə salıblar və Kərim müəllimin özünün ağlına gələn bu fikirdən xoşu gəlmədi, çünki Kərim müəllim boş-boş danışmağı və boş-boş şeylər fikirləşməyi xoşlamırdı. Əsnəyə-əsnəyə tüklü sinəsini qaşıdı və fikirləşdi ki, necə olub ki, atılan güllələrin səsinə heç kim yuxudan oyanmayıb?

Kərim müəllim bu binalarda yaşayan adamların hamısını tanıyırdı, rastlaşanda kimisilə dayanıb hal-əhval tuturdu, kimisilə elə-eləcə salamlaşıb keçirdi, kimisini də, xüsusən sonradan köçüb gələnləri kənardan-kənara tanıyırdı, amma hamısını tanıyırdı, çünki Kərim müəllim indi yaşadığı bu mənzildə anadan olmuşdu, ömründə heç vaxt başqa yerdə yaşamamışdı, yalnız bir dəfə – on yeddi il bundan əvvəl ailəsini yayda bir aylığa Nalçikə aparmışdı, bir dəfə də doqquz il bundan əvvəl on iki günlüyə Şuşa sanatoriyasına getmişdi.

Kərim müəllim gözlərini bağdan çəkib otağın divarından asdıqları saata baxdı – bu divar saatını pedaqoji fəaliyyətinin otuz illiyi münasibətilə məktəbdən Kərim müəllimə hədiyyə vermişdilər və əslində bu hədiyyə Kərim müəllimin bütün həyatında yeganə təltifi idi – saat altıya iyirmi dəqiqə qalmışdı və Kərim müəllim başa düşdü ki, təzədən yerinə girməyinin mənası yoxdur, asta addımlarla mətbəxə tərəf getdi.

Kərim müəllimgilin iki otağı, şüşəbəndi, mətbəxi var idi və Kərim müəllim ikinci otaqdan keçəndə bir anlıq yerində donub qaldı: Şərqiyyənin çarpayısının yanında, özünün balaca taxta çarpayısında uzanmış körpə oyaq idi, gözlərini açıb dinməz-söyləməz Kərim müəllimə baxırdı. Birinci dəfə idi ki, bu körpəni beləcə dinməz-söyləməz və beləcə də ciddi görürdü.

Şərqiyyə Kərim müəllimin böyük qızı idi və bu körpə də Şərqiyyənin oğlu idi, yəni Kərim müəllimin nəvəsi idi və yaman da ağlağan idi. Körpə altı ay idi ki, dünyaya gəlmişdi və bu altı ayda elə bir gün olmamışdı ki, oyaq vaxtı ağlamasın. Indi bu körpəni beləcə oyaq və ağlamayan, ciddi görəndə Kərim müəllim əslində bir balaca həyəcanlandı da: bu necə səhər idi belə, açılırdı?

Kərim müəllim təbii ki, dindar deyildi, taleyə-filana da inanmırdı, amma, hər halda, həmin avqust günü səhərin gözü açılmamış həmin tüfəng əhvalatı, qarpızları dustaqlar kimi hiss eləməyi və indi də bu uşağın yatmayıb beləcə diqqətlə Kərim müəllimə baxmağı kişinin ürəyində nəsə bir nigarançılıq yaratdı.

Kərim müəllim mətbəxdə qazı yandırdı, çayniki doldurub qazın üstünə qoydu və eləcə asta addımlarla da yatdığı otağa qayıdıb geyinməyə başladı. Kərim müəllimin arvadı Zəhra da, ikinci qızı Züleyxa da, oğlu Hamlet da yatmışdılar və düzdür, bu dəfə Kərim müəllim yuxudan çox erkən durmuşdu, amma, onsuz da, bu evdə Kərim müəllimdən tez duran yox idi, həmişə saat yeddiyə on beş dəqiqə qalmış ayaq üstə olurdu, kostyumunu şotkalayırdı, ayaqqabısını boya ilə silirdi, hələ evin camaatı durmamış gedib gündəlik çörəyi, kefiri, smetanı, qəzetləri alıb gətirirdi, bundan sonra səhər yeməyini yeyib məktəbə gedirdi; ümumiyyətlə, bu evin bazarlıq işləri ta qədim çağlardan Kərim müəllimə baxırdı.

Kərim müəllim orta siniflərdə coğrafiya dərsi deyirdi və indi yay tətilində idi, məktəbə getməyəcəkdi, amma yenə də otuz beş illik adəti üzrə, göy zənbili götürüb eləcə asta addımlarla da evdən çıxıb küçəyə düşdü; körpə də bayaqkı ciddi gözləri ilə Kərim müəllimi bayıra yola saldı.

Şəhər tamam bomboş idi, təkcə süpürgəçi kişi küçəni süpürürdü və Kərim müəllimi görəndə ehtiramla salam verdi, Kərim müəllim də süpürgəçinin salamını aldı və yoluna davam elədi. Bu süpürgəçi neçə illər idi ki, səhərlər bu küçə, bağı süpürüb təmizləyirdi və Allahın hər verən günü Kərim müəllim onun gördüyü birinci adam olurdu.

Əlbəttə, dükanlar, qəzet köşkləri hələ bağlı idi və Kərim müəllim əlindəki boş göy zənbili yellədə-yellədə Dənizkənarı bulvara tərəf getdi və beləcə bomboş küçələrlə addımladıqca Kərim müəllimə elə gəldi ki, elə bil, tanımadığı, görmədiyi bir şəhərdədir; düzdür, Kərim müəllim dünyadakı şəhərlərin, ən azı, doxsan faizinin adını əzbər bilirdi və Bakının da bütün küçələrini, dalanlarını, hətta ayrı-ayrı binalarını da (mikrorayonlardan başqa) yaxşı tanıyırdı, amma olan budur ki, həmin avqust günü – şənbə idi – sübh tezdən Bakının bomboş küçələri ilə addımladıqca Kərim müəllimə elə gəldi ki, tanımadığı, görmədiyi bir şəhərdədir və bu şəhərin sakinləri də yalnız küçələri təmizləyən süpürgəçilərdən ibarətdir.

Məktəbdə uşaqlar Kərim müəllimə «Zənbil» təxəllüsü vermişdilər, yəni Kərim müəllim Zənbil, çünki uşaqlar qorxduqları, ehtiyat etdikləri Kərim müəllimə şəhərdə təsadüfən rast gələndə həmişə əlində zənbil olardı, ya ət dükanının qabağında növbəyə durardı, ya yumurta alardı, ya da ki, başqa bir şey alardı, sonra uşaqlar sinifdən sinfə keçdikcə, məktəbi qurtardıqca və yenidən məktəbə daxil olduqca fikir verdilər ki, bu zənbil həmişə göy rəngdə olur və təxəllüsün əvvəlinə «Göy» sözünü də əlavə etdilər, yəni ki, Kərim müəllim Göy Zənbil, sonra uşaqlar həmin təxəllüsün də əvvəlinə «Köhnə» sözünü əlavə elədilər, yəni ki, Kərim müəllim Köhnə Göy Zənbil: Bu təxəllüsün sorağı Kərim müəllimin özünə də gəlib çatmışdı və Kərim müəllimi qətiyyən narahat eləməmişdi, acıqlandırmamışdı, çünki Kərim müəllim fikirləşmişdi ki, eybi yox, özləri böyüyüb əllərinə zənbil alanda başa düşərlər. Intəhası bir iş vardı və Kərim müəllimin də həmin işdən xəbəri yox idi ki, müəllimlər də öz aralarında Kərim müəllimi həmişə Köhnə Göy Zənbil deyə çağırırdılar (özündən çəkindikləri üçün yanında, təbii ki, belə demirdilər).

Dənizkənarı bulvar da bomboş idi, Kərim müəllimdən başqa kimsə yox idi, amma çoxlu qağayı var idi və quşlar sahil boyu dənizin üstü ilə uçurdu, hərdən aşağı enib dimdiyini suya vururdu və quşların qurultusu-qaqqıltısı bulvarın o kimsəsizliyi içində elə aydın, elə dəqiq eşidilirdi ki, elə bil, adi qurultu-qaqqıltı deyildi, elə bil, quşlar nə isə deyirdilər, danışırdılar; amma Kərim müəllim xəyal aləminə qapılan adamlardan deyildi və bu dəm dükanda smetanın olub-olmayacağı məsələsi Kərim müəllimi qağayıların deyib-danışmasından qat-qat artıq maraqlandırırdı; sonra Kərim müəllim bu quşlara, daha doğrusu, şəhərin sanitariya idarələrinə hirsləndi, çünki fikir vermirdilər, şəhərin bütün çirkabı dənizə tökülürdü, buna görə də qağayılar gəlib burda özlərinə yem axtarırdı.

Kərim müəllim əlindəki boş zənbili yellədə-yellədə sahil boyu addımladıqca qərara aldı ki, bu gün, ya da sabah şəhərin sanitariya vəziyyəti barədə Bakı Sovetinə məktub yazacaq və həmin məktubun ilk cümlələrini fikrində yazmağa başladı və bu zaman bayaqkı tüfəng atan və it daşıyan o iki nəfər yadına düşdü, sonra da gözlərini açıb dinməz-söyləməz baxan o uşaq yadına düşdü.

Şərqiyyənin əri Salman fizika ilə məşğul olurdu, deyirdilər ki, istedadlı alimdir, amma istedad nə ev idi, nə pul idi, nə də maşın idi: Salman da Kərim müəllimgillə bir yerdə olurdu və əgər, doğrudan da, dünyada bəxt deyilən bir şey vardısa, Şərqiyyənin bəxti gətirməmişdi; düzdü, Salman içən, gəzən, deyinən adam deyildi, səhər çıxıb gedirdi işə, bir də axşam gəlirdi, şənbə, bazar günləri də Şərqiyyəni kinoya aparırdı, bulvarda gəzməyə aparırdı, hətta bir dəfə Şüvəlana, gülçülük sovxozuna da aparmışdı, amma Salmanın əynindəki kostyumdan başqa heç nəyi və məktəbi qurtarandan sonra Qarabağda kənddə qoyub gəldiyi qohumlarından savayı heç kimi yox idi. Şərqiyyə iki il bundan əvvəl – necə tapışdılar, harda tanış oldular, Allah bilir – Salmana ərə getmişdi, çünki ... (Kərim müəllim bulvarda gəzə-gəzə bir-iki dəfə öskürdü) çünki Şərqiyyəni alan yox idi.

Salman indi Bakıda deyildi. Parisdə idi.

Salmanın işlədiyi institutun Fransa alimləri ilə əlaqəsi var idi və Salmanı təcrübə keçməkdən ötrü altı ay müddətinə Parisə göndərmişdilər, sonra Parisdən bir fransız alimi altı ay müddətinə Bakıya gələcəkdi. Kərim müəllim başa düşürdü ki, əgər Salman fərqli olmasaydı, Parisə göndərməzdilər, amma Salman o qədər qaradinməz, həmişə sükut içində olan bir adam idi ki, kürəkəninin Parisə getməyi Kərim müəllimgilin ailəsində elə mühüm bir hadisə olmadı.

Həmin avqust səhəri, boş göy zənbili yellədə-yellədə sahil boyu addımladıqca birdən-birə, nədənsə, Salmanın Parisdə olmağı, o uzaq, böyük və yad şəhərdə yaşaması Kərim müəllimə qəribə gəldi və Kərim müəllim ürəyindəki bu hissin şövqü ilə bir anlıq ayaq saxladı, qıpqırmızı qızarmış üfüqə baxdı və üfüqün beləcə qırmızılığı, göyün tərtəmizliyi və maviliyi, dənizin beləcə sakitliyi və genişliyi, hətta qağayıların sahil boyu uçuşması, quruldayıb-qaqqıldaması Kərim müəllimin xoşuna gəldi, Kərim müəllim bu təbiət mənzərəsini bəyəndi.

Bulvarda ləngidiyi üçün dükanlarda növbəyə durası oldu, meyvə-tərəvəz köşkünün yanından ötəndə bu qərara gəldi ki, bir dənə də qarpız alsın və bir xeyli müddət seçib yaxşı bir Zirə qarpızı aldı, sonra qəzet köşkündə də növbəyə durub radio və televiziya proqramını, təzə qəzetləri aldı və buna görə də evə həmişəkindən gec gəldi.

Qapını Nuridə xanım açdı və Kərim müəllim Nuridə xanımı səhər-səhər öz evlərində görəndə, Nuridə xanımın ciddi sifətinə baxanda başa düşdü ki, nəsə bir hadisə baş verib.

Nuridə xanım Kərim müəllimin böyük bacısı idi və Azərbaycanda ilk qadın idman müəllimlərindən biri idi, həyət tərəfdən Kərim müəllimgillə üzbəüz binada yaşayırdı.

Bir əlində yekə Zirə qarpızı, o biri əlində də göy zənbil tutmuş Kərim müəllim gözlərini bacısının həmişəki kimi pudralanmış boyalanmış səliqəli sifətindən çəkmədən soruşdu:

– Nə olub?

Nuridə xanım kişi səsi kimi yoğunlaşmış səsi ilə:

– Heç nə, – dedi. – Qorxma, keç içəri.

Kərim müəllim içəri girdi, Zəhranı da, Züleyxanı da, Hamleti də otaqda ayaq üstə durmuş gördü, Şərqiyyə də evdə idi, körpəsinin yanında oturub başını aşağı dikmişdi və deyəsən, yavaş-yavaş ağlayırdı, amma, hər halda, evdəkilərin hamısını beləcə salamat görməyi Kərim müəllimi bir balaca sakitləşdirdi və Kərim müəllim fikirləşdi ki, bəlkə Abdulla ölüb? Amma Nuridə xanımın həmişəki zəhmi nəsə başqa şeydən xəbər verirdi və Nuridə xanım əri ölmüş arvada oxşamırdı.

– Salman avtomobil qəzasına düşüb. – Bunu Nuridə xanım dedi və Şərqiyyə daha da için-için ağlamağa başladı.

– Salman gəlib bəyəm Parisdən? – Bunu da Kərim müəllim soruşdu.

Nuridə xanım zəndlə qardaşının gözlərinin içinə baxdı:

– Bəyəm Parisdə maşın-zad yoxdu?

Nuridə xanım özündən iki yaş kiçik qardaşı ilə həmişə fəxr edirdi və həmişə də Kərim müəllimi əri Abdullaya nümunə gətirirdi, amma hərdən elə olurdu ki, iti və sərt baxışlarını qardaşının da gözlərinin içinə sancırdı və bu zaman Kərim müəllim elə bil ki, öz şagirdlərindən biri olub özünü itirirdi; sonra Nuridə xanım əlində tutduğu teleqramı qardaşına uzatdı və Kərim müəllim teleqramı alıb pəncərənin qabağına keçdi ki, işıq yaxşı düşsün və oxumağa başladı: doğrudan da, teleqramda yazmışdılar ki, Salman Parisdə avtomobil qəzasına düşüb, indi xəstəxanadadı, amma burasını da yazmışdılar ki, həyatı üçün təhlükəli bir şey yoxdur.

– Nə olsun? – dedi Kərim müəllim. – Yazıblar ki, həyatı üçün təhlükə-zad yoxdu. Parisin həkimlərinin əlində Salmanı sağaltmaq su içmək kimi, zad kimi, bir şeydi.

Qəribə idi, bir az bundan əvvəl Nuridə xanım da Zəhraya eyni sözləri demişdi. Zəhra bu teleqramı alanda Kərim müəllim bulvarda gəzə-gəzə fikrən Bakı Sovetinə məktub yazırdı. Və Zəhra uzun-uzun illər boyu adət etdiyi günlərin eyniliyi bir balaca pozulan kimi, yəni nəsə gözlənilməz bir xəbər gələndə, yaxud əvvəldən nəzərdə tutulmamış bir hadisə baş verəndə o saat özünü itirirdi, bilmirdi ki, nə eləsin, sonra telefonun dəstəyini götürüb Nuridə xanıma zəng elədi, çünki yenə də özünü itirmişdi, teleqramı telefonla oxudu və Nuridə xanım da hər günkü səhər idmanı yarımçıq kəsildi deyə, narazılıqla eyni sözləri dedi: «Nə olsun? Özləri yazırlar ki, təhlükəli bir şey yoxdur. Parisin həkimlərindən arxayın ol, Salmanın görmədiyi günlərdi, əvvəlkindən yaxşı düzəldəcəklər onu». Sonra Nuridə xanım yenə səhər idmanını davam etdirdi, amma bu dəfə özü səhər idmanını yarımçıq kəsib təzədən Zəhraya zəng elədi: « – Bir də oxu o teleqramı» – dedi, sonra da tələsik geyinib qardaşıgilə gəldi; indi Kərim müəllim də əvvəlcə eyni sözləri dedi.

Nuridə xanım keçib otaqdakı yeganə yumşaq kürsüdə oturdu və dedi:

– Dalını oxu.

Kərim müəllim teleqramın ardını oxumağa başladı: yazırdılar ki, Salmanın yaxın qohumlarından biri Parisə gələ bilər və o avtomobildə ki, Salman qəzaya uğramışdı, həmin avtomobilin mənsub olduğu şirkət bütün xərcləri öz boynuna götürür. Kərim müəllim bu sözləri oxuyandan sonra yenə də bacısına baxdı, əvvəlcə bilmədi ki, bu xəbərə necə münasibət bəsləsin, sonra hirsləndi:

– Həyasızlığa bir bax, e! Durduğu yerdə kişini salırlar xəstəxanaya, sonra da pul təklif edirlər.

Düzdü, Kərim müəllim bu sözləri dedi, amma burasını da hiss etdi ki, bu sözlər, beləcə hirslənməyi heç kimə təsir etmədi, sonra Kərim müəllimin gözləri balaca taxta çarpayısında uzanmış körpəyə sataşdı: uşağın gözləri açıq idi, amma ağlamırdı və Kərim müəllim az qaldı soruşsun ki, buna nə olub belə, niyə ağlamır? Amma heç nə soruşmadı və Şərqiyyəyə baxdı: Şərqiyyə xısın-xısın ağlayırdı, tez-tez burnunu çəkirdi, amma heç nə demirdi, dinib-danışmırdı və Kərim müəllim fikirləşdi ki, doğru deyiblər ki, ər ilə arvadın torpağı bir yerdən götürülüb, çünki Şərqiyyə də əri kimi qaragün idi.

Nuridə xanım Kərim müəllimin Şərqiyyəyə baxdığını görüb:

– Yox, Şərqiyyə gedə bilməz. – dedi. – Əlində südəmər körpəsi var.

Züleyxa tələsik dedi:

– Hə, Şərqiyyə gedə bilməz. Mən getsəm yaxşıdı, nə lazımdı eləyərəm orda!

Şərqiyyə daha da bərkdən ağladı; ona görə yox ki, Parisə gedə bilmir, südəmər körpəsi var, uşaq da yaman ağlağandır, ona görə ki, hamı və o cümlədən Şərqiyyə də yaxşı bilirdi ki, Züleyxanın Salmandan zəhləsi gedir və bacısının Salman kimi yöndəmsiz, geyimsiz-kecimsiz, dilsiz-ağızsız bir adama ərə getdiyi üçün öz rəfiqələrindən utanır.

Hamlet Züleyxanın sözlərindən incidi və şüşəbəndin açıq pəncərəsinin qabağına gedib arxasını evdəkilərə çevirdi; Hamlet yaşca Şərqiyyədən də, Züleyxadan da böyük idi, amma evdə onu böyük yerinə qoyan yox idi və Hamletin də belə bir münasibətə etirazı ondan ibarət olurdu ki, inciyib küsürdü.

Nuridə xanım dedi:

– Böyük olan yerdə kiçik danışmaz. Biz, – Nuridə xanım əli ilə Kərim müəllimi göstərdi – o rəhmətliklərin yanında cınqırımızı çıxarmazdıq.

Nuridə xanım çoxdan vəfat etmiş valideynlərini nəzərdə tuturdu və doğrusu, Nuridə xanım valideynləri və özləri ilə əlaqədar o qədər cürbəcür misallar çəkirdi, xatirələr danışırdı ki, Kərim müəllim daha atasını da, anasını da həqiqətdə olduqları kimi yox, Nuridə xanımın misallarındakı, xatirələrindəki kimi təsəvvür edirdi.

Züleyxa acıqla bibisinə baxdı, çünki Züleyxa özünü bu evdə hamıdan ağıllı və diribaş hesab edirdi və indi də yaxşı başa düşürdü ki, Nuridə xanım özü fürsətdən istifadə edib Parisə getmək istəyir.

Hamlet şüşəbəndin açıq pəncərəsinin qabağından otağın ortasına gəldi və bibisinə baxdı, atasına, anasına baxdı, Züleyxaya, Şərqiyyəyə baxdı, hətta balaca taxta çarpayısına uzanıb əllərini gözlərinin qabağında oynadan və diqqətlə əllərinə baxa-baxa səsini də çıxartmayan körpəyə baxdı və yanıb yaxıla-yaxıla:

– Hər yerdə mənim hörmətim var, bircə bu evdən başqa! – dedi, bir balaca qəhərləndi və sürətlə gedib bayır qapısını açdı və ardınca da qapını çırpdı.

Kərim müəllim cavanlıq çağlarında teatra gedib «Hamlet»ə baxmışdı və o unudulmaz tamaşanın təsiri ilə yeganə oğlunun adını Hamlet qoymuşdu və indi Nuridə xanım açıq-aşkar bir rişxəndlə qardaşı oğlunun ardınca baxdı, çünki Hamletin yaşı otuz beşi keçmişdi, amma hələ də bir sənət sahibi deyildi, hələ də orta məktəb şagirdi kimi, gələcək üçün cürbəcür planlar qururdu, gah ssenari yazırdı və gecə-gündüz bu ssenarinin eşqi ilə yaşayırdı, gah gedib aeroportda işə düzəlirdi və məşhur gömrükxanaçı olmaq eşqilə yaşamağa başlayırdı, gah da səhərdən axşamacan kitabxanada oturub filosofların, xüsusən Feyerbaxla Hegelin əsərlərini oxuyurdu və bu dəfə də qalın-qalın dəftərləri yazıb doldura-doldura Feyerbaxın Hegeldən üstün olduğunu sübut edirdi, filosof olmaq eşqilə yaşamağa başlayırdı.

Nuridə xanım:

– Oturub məsləhət eləmək lazımdı, – dedi. – Məsləhətli don gen olar.

## II

Kərim müəllim o oxuculardan idi ki, qəzetin birinci səhifəsindən axırıncı səhifəsinə kimi bütün yazıları oxuyardı və indi də şüşəbənddə oturub qəzet oxuyurdu.

Nuridə xanım səhərdən bəri qardaşıgildə idi və mətbəxdə oturub həm havanın, həm də yanan qazın istisindən tər tökə-tökə yarpaq dolması bişirməkdə Zəhraya kömək edirdi.

Züleyxa böyük otaqda, divanda uzanıb gündəlik oxuyurdu. Bu gündəliyi Züleyxaya tramvay parkında birgə işlədikləri rəfiqəsi vermişdi. Gündəlik çox gözəl xətlə yazılmışdı, səhifələrində gül, bülbül, iki tərəfindən də ox sancılmış ürək şəkilləri var idi və Züleyxanın rəfiqəsi bu şəkilləri rəngli qələmlərlə çəkmişdi. Gündəlikdə söhbət nakam məhəbbətdən gedirdi, oğlanların vəfasızlığından danışılırdı, amma Züleyxa diqqətini toplayıb özünü tamamilə bu gündəliyə həsr edə bilmirdi, heç bir başqa qayğı çəkmədən yalnız bu gündəliklə yaşaya bilmirdi, çünki dəqiqədə bir şey bəhanə edib mətbəxə gedirdi ki, görsün Nuridə xanım nə danışır.

Nuridə xanım heç bir gizli söhbət eləmirdi, çünki Nuridə xanım həmişə Kərim müəllimə inanmışdı və indi də inanırdı; düzdü, Nuridə xanım çıxıb öz evlərinə getmədi, qorxdu ki, getsə, Züleyxa dava-dalaş salar və birdən Paris məsələsi onsuz həll olunar, amma, hər halda, Nuridə xanım öz qardaşına inanırdı və bilirdi ki, əvvəl-axır Parisə Nuridə xanım özü gedəcək.

Abdulla ikinci otaqda oturub mürgüləyirdi və hərdənbir də mizin üstündəki teleqrama baxıb gülümsəyirdi, başını bulayırdı və yenə də əsnəyib mürgüləyirdi. Abdulla dəllək işləyirdi, Nuridə xanımın dördüncü əri idi, amma özündən əvvəlki ərlərdən fərqli olaraq etibarlı çıxmışdı, qaçmamışdı və düz on altı il idi ki, bir yerdə yaşayırdılar. Nuridə xanım evə zəng eləyib Abdullanı çağırmışdı və Abdulla da səhərdən bəri mürgü döyə-döyə günorta yeməyini gözləyirdi və mürgüləyə-mürgüləyə də müxtəlif bəhanələr fikirləşirdi ki, günorta yeməyindən sonra buradan çıxıb gedə bilsin, çünki çeşməyinin qabında beş manat pul gizlətmişdi və hərgah buradan çıxıb gedə bilsəydi, bu gün həyat gözəl olacaqdı.

Züleyxa hər dəfə Abdullanın yanından keçəndə çalışırdı ki, nəfəs almasın, çünki həmişə olduğu kimi, yenə də Abdulladan ucuz kişi ətrinin iyi gəlirdi və bu iy gəldikdə oxuduğu hisslərdən, həyəcanlardan, rəngli qələmlərlə çəkilmiş şəkillərdən sonra Züleyxaya çox pis təsir edirdi.

Abdullanın öz biclikləri var idi və bu biclikləri yalnız Nuridə xanım başa düşə bilirdi. Abdulladan ətir iyi ona görə gəlirdi ki, dəllək işləyirdi və dəlləkxananın ətri bədəninə hopurdu, – bu öz yerində – ona görə ki, səhər-səhər, fürsət tapıb içdiyi arağın qoxusunu öldürmək üçün üz-gözünə ətir vururdu.

Şərqiyyə şüşəbəndin aşağı başında oturub uşağı əmizdirirdi və uşaq yenə də altı aylıq həyatında birinci dəfə idi ki, belə ciddi idi, ağlamırdı və hər dəfə Kərim müəllimin gözü uşağa sataşanda kişi məəttəl qalırdı.

Həmin avqust günü hava get-gedə qızırdı və günorta Bakıda bir isti var idi, nəfəs almaq mümkün deyildi və birdən-birə dağların başındakı gözəl Şuşa Kərim müəllimin yadına düşdü və Kərim müəllimin təsəvvüründə şimşək çaxdı, göy guruldadı və bir şıdırğı yağış başladı ki, kişinin qəzet tutmuş əli aşağı düşdü, gözləri uzaq bir nöqtəyə zilləndi və Kərim müəllim qəflətən fikirləşdi ki, görəsən, Parisdə də yağış yağır?

Əlbəttə, Kərim müəllim Qərbi Avropanın və o cümlədən də Fransanın iqlim şəraitinə yaxşı bələd idi, amma indi birdən-birə Paris sirli və eyni zamanda, adamın ürəyini qəribə təzə hisslərlə dolduran bir şəhərə çevrilmişdi.

Nuridə xanım dedi ki, xörək hazırdır, Zəhra otaqdakı mizin üstünə qab-qacaq düzməyə başladı və Kərim müəllim də ac idi, amma Kərim müəllim ürəyinin dərinliyində istəmirdi ki, xörək hazır olsun, istəmirdi ki, yığışıb süfrənin arxasında otursunlar, istəmirdi ki, indicə birdən-birə yağmağa başlayan bu şıdırğı yağışın altından çıxsın; Kərim müəllim yaxşı bilirdi ki, evdəki bu sakitlik müvəqqətidi, bilirdi ki, hamının fikri-zikri başqa yerdədi və indi ciddi söhbət başlayacaq.

Bu vaxt qapının zəngi çalındı, Hamlet tələsik içəri girdi, bir-bir evdəkilərə baxdı, sonra Abdullaya yaxınlaşıb pıçıltıyla nəsə soruşdu, Abdulla başını buladı, yəni ki, yox, sonra Hamlet də mizin arxasında əyləşdi.

Hamı mizin arxasında idi və yarpaq dolmasını yeməyə başlamışdılar, təkcə uşaq balaca taxta çarpayısında uzanıb əllərini gözlərinin qabağında oynadırdı və təəccüblə əllərinə baxırdı, elə bil ki, əllərinə baxa-baxa dünyanı kəşf eləməyə başlayırdı.

Heç kim heç nə danışmırdı, boşqaba dəyən çəngəl-bıçağın səsi eşidilirdi, Abdulla bir-iki dəfə yavaşdan öskürdü, Züleyxa bir-iki dəfə üzünü yana çevirib havanı üfürdü ki, Abdulladan gələn ətir iyini özündən kənar eləsin; Züleyxa dolmanı yeyirdi, heç nə demirdi, gözləyirdi və o gözəl gündəlikdəki çılğın məhəbbət hissləri aləminə dala bilmirdi, narahat idi.

Hər halda, Nuridə xanım Nuridə xanım idi və sükutu da o pozdu:

– Heyf, Şərqiyyə əliuşaqlıdı... Ana olmağın qayğısı da çoxdu də...

Bu dəfə Züleyxa gizli bir rişxəndlə bibisinə baxdı, çünki Nuridə xanımın əvvəlki ərlərindən hansındansa bir qızı var idi və o qız indi gərək ki, Kazanda yaşayırdı; nə Nuridə xanım, nə də Kərim müəllimgil heç vaxt o qız haqqında heç nə danışmırdılar və o qız da heç vaxt məktub yazmırdı, Bakıya gəlmirdi və ümumiyyətlə, Nuridə xanım da, Kərim müəllimgil də özlərini elə aparırdılar ki, elə bil, dünyada heç o qız olmamışdı; nə isə, o qızın işi bir sirri-xuda idi.

Nuridə xanım sözünə davam elədi:

– Şərqiyyə Parisə gedə bilməz...

– Parisə mən gedəcəyəm! – Bunu Züleyxa dedi.

Şərqiyyənin gözləri doldu, amma, həmişəki kimi, heç nə demədi.

Nuridə xanım acıqla Züleyxaya baxdı, sonra da Kərim müəllimə baxdı, yəni ki, nə üçün sözünü demirsən? Əlbəttə, əvvəl-axır son söz Kərim müəllimin idi və mizin

arxasında oturanlar bunu yaxşı bilirdi ki, Kərim müəllimin son sözü, həmişəki kimi, Nuridə xanımın xeyrinə olacaq.

Düzdü, Kərim müəllim qəzetləri bir kənara qoyub gəlib mizin arxasında əyləşmişdi, yarpaq dolması yeyirdi, amma Kərim müəllim hələ də o şıdırğı yağışın, o qəfil yağışın altından çıxmamışdı və ən qəribəsi bu idi ki, və Kərim müəllim özü də burasını hiss edirdi ki, əslində həmin yağışın altından çıxmaq istəmir; ömründə Kərim müəllimdə belə şey olmamışdı, Kərim müəllim həmişə istini isti kimi qəbul etmişdi, soyuğu da soyuq kimi qəbul etmişdi və heç vaxt yağışa ehtiyac hiss etməmişdi, heç vaxt boş xəyal aləminə qapılmamışdı, amma indi birdən-birə beləcə şimşək çaxdı, beləcə göy guruldadı, beləcə yağış başladı və o yağışın sərini ürəyini beləcə təzə hisslərlə doldurdu. Kərim müəllim ürəyindəki bu təzə hisslərin nə olduğunu, nə dediyini və nə istədiyini bilmirdi, amma bir təzəlik, yenilik hiss edirdi və bu təzəlik eyni zamanda bir qüssə də gətirirdi, ötüb gedən bir ömürdən, həyatın eyniliyindən xəbər verirdi.

Kərim müəllim üzünü arvadına tutdu:

– Sən nə deyirsən?

Kərim müəllimin bu sualı çox gözlənilməz oldu, çünki uzun-uzun illərdən bəri bu evdə adət etmişdilər ki, Zəhra həmişə səhərdən axşama kimi ayaq üstə olsun, xörək bişirsin, qab-qacaq təmizləsin, paltar yusun, yayda mürəbbə bişirsin, sirkə-badımcan qoysun, pal-paltarı naftalinləsin, qışda da xəmir xörəkləri bişirsin və təbii ki, Zəhranın ciddi məsələlərə qarışmağa macalı olmurdu; əslində, Zəhranın ciddi məsələlərə qarışmağa heç həvəsi də yox idi və bu barədə Şərqiyyə anasına çəkmişdi; amma Zəhranın verdiyi cavab Kərim müəllimin sualından da gözlənilməz oldu:

– Vallah, ay Kərim, bəlkə elə mən özüm gedim?

Kərim müəllimin heyrətdən gözləri bərəldi:

– Nə?

– Hə də... Gedib əyin-baş da alıb gətirərəm sizinçün...

Züleyxa özünü saxlaya bilmədi:

– Sənin bəyəm təzə modalardan başın çıxır?

– Niyə çıxmır?

Kərim müəllim bayaqkı heyrətlə:

– Sən tək-tənha durub buradan Parisə gedəcəksən? – soruşdu.

– Nolar, ay Kərim, ömrümdə bir dəfə də mən bir yerə gedərəm də...

Nuridə xanım Zəhranın gözlənilməz cavabından sonra indi-indi özünə gəlirdi və acıqla dedi:

– Ömründə bir dəfə niyə? O boyda Nalçikə getməmisən?

Kərim müəllim gözünü arvadından çəkdi.

Doğrudan, görəsən, Parisdə yağış yağır?

Hamlet həyəcanını gizlətməyə çalışa-çalışa evə gələndən bəri ilk dəfə səsini bərkdən çıxardı:

– Siz heç bilirsiniz nə danışırsınız? Paris nədi bəyəm, Maştağaya getməkdi sizinçün? Paris Parisdi e, Paris! Parisə gedən adamın gərək təcrübəsi olsun. Parisə gedən adam gərək indiyə qədər, heç olmasa, bir dəfə xaricə getmiş olsun!

Abdulla səhərdən bəri bütün bu söz-söhbətə fikir vermirdi və təkcə bunu fikirləşirdi ki, nə bəhanə gətirib aradan çıxsın, çeşməyin qutusunu açsın, bu gözəl dünyada sərbəst olsun, azad olsun, bir az boğazını yaşlasın, sonra da gedib qırx il bir yerdə dəlləklik etdikləri Martirosu nərddə udsun, amma Hamletin dediyi sözləri eşidəndə əvvəlcə, elə bil, qulaqlarına inanmadı, sonra gördü ki, Hamletin sözlərindən sonra hamı və o cümlədən Nuridə xanım da təəccüblə ona baxır və sinəsini irəli verib belini dikəltdi, qəflətən bütün vücudunu titrədən həyəcanını gizlətmək istədi; məsələ burasında idi ki, həmin isti avqust günü Kərim müəllimgilin evində, süfrə arxasında əyləşən adamlardan heç biri heç bir vaxt xarici ölkədə olmamışdı və bu sahədə heç bir təcrübəsi olan yox idi, təkcə Abdulla müharibə vaxtı Avstriyanın azad olunmağı uğrunda vuruşmuşdu və bu barədə də özü yox, həmişə Nuridə xanım danışardı.

Əlbəttə, Abdulla heç vaxt gözləməzdi ki, beləcə sayılsın, təcrübəsi beləcə qiymətləndirilsin və Abdulla tamamilə əmin idi ki, Parisə Nuridə xanım gedəcək, qalan sözlər boş söhbətdir və əslində Abdulla ürəyinin gizlinində sevinirdi ki, Nuridə xanım Parisə gedəcək, çünki, heç olmasa, on-on beş gün tək qalacaqdı, on-on beş gün bu fani dünyada azad nəfəs alacaqdı, Bakıda sərbəst yaşayacaqdı. Abdulla özünün Parisə gedəcəyini heç ağlına da gətirmirdi, amma indi səhərdən bəri fikirləşib tapdığı, saf-çürük etdiyi bəhanələr də birdən-birə yadından çıxdı, çeşmək qutusunun içindəki beşlik də yadından çıxdı, növbəti dəfə usta Martirosu nərddə udmaq şövqü də yadından çıxdı və birdən-birə də Abdullanın köksünü bir fərəh hissi doldurdu, çünki özü öz gözlərində ucalmışdı.

Kərim müəllim arvadının gözlənilməz sözlərindən sonra, indi də oğlunun dediklərinə heyrət etdi, oğluna, sonra «içki düşkünü» Abdullaya baxdı, amma təmkinini pozmadı və sakitcə soruşdu:

– Nə demək istəyirsən?

– Demək istəyirəm ki... – Hamlet yavaş-yavaş qızarmağa başladı. – Yaxşı olardı Fəridə getsin!..

– Kim?

– Fəridə!.. Bu sahədə onun təcrübəsi var!.. Keçən il... Keçən il Bolqarıstana turist səfərinə getmişdi!..

Kərim müəllim heç nə başa düşmədi:

– Fəridə kimdi?

Hamlet daha da bərk qızardı. Züleyxa dedi:

– Beş ildi bu, Fəridəni sevir, gecə-gündüz onun dərdindən ah çəkir. Fəridə də buna əl vermir. İndi yəqin bunun qabağına şərt qoyub ki, Parisə getsin!.. Adını da dəyişdirmək istəyir Fəridənin dərdindən...

Kərim müəllim sidq-ürəkdən təəccüb etdi:

– Adını niyə?

– Fəridənin xoşu gəlmir bunun adından!..

Kərim müəllim oğluna baxdı və təkcə:

– Malades! – dedi.

Bircə anın içində Abdullanı soyuq tər basmışdı və Abdullanın sinəsindən səssiz bir ah qopmuşdu ki, ay axmaq, bu qədər yaşamısan dünyada, amma hələ də başında ağıl deyilən şey yoxdu, xoruz kimi quyruğunu pırpızlaşdırıb sinəni qabağa vermişdin, bilmirdin ki, dünya fanidir, ömür bivəfa?

Kərim müəllim həmin dəqiqələrdə ömründə heç vaxt olmadığı bir ikilik içində idi: öz evində, hələ atasından qalmış mizin arxasında əyləşmişdi, yarpaq dolması yeyirdi, söhbətə rəhbərlik edirdi, eşitdiyi sözlərə heyrət edirdi, amma, eyni zamanda, Kərim müəllim o şıdırğı yağışdan tamam çıxa bilmirdi və əslində çıxmaq istəmirdi, çünki o yağışın sərinində bir təzəlik var idi və bu təzəlik adamı özünə çəkirdi, bu təzəlikdə bir şirinlik var idi.

Uşaqlar məktəbi bitirirlər, dağılıb hərə bir yerə gedir, təzələri məktəbə gəlir və onlar da Kərim müəllimə Köhnə Göy Zənbil deyir.

Kərim müəllim bir-bir Zəhraya, Züleyxaya, Hamletə, Şərqiyyəyə, Nuridə xanıma, bu «içki düşkünü» Abdullaya baxdı və qəflətən fikirləşdi ki, bu adamlardan heç birinin ağlına gəlmədi ki, desin, Parisə sən get və bu qəfil fikir, doğrusu, az qaldı Kərim müəllimi kövrəltsin, amma eybi yox idi, çünki Kərim müəllimin bunların təklifinə ehtiyacı yox idi; sonra Kərim müəllimin gözü balaca taxta çarpayısına uzanıb əllərini gözlərinin qabağında oynadan və diqqətlə də öz əllərinə baxan uşağa sataşdı və yenə təəccüb etdi ki, balam, bu uşaq nə yaman düzəlib belə, səhərdən bəri bir dəfə də olsun ağlamayıb.

Görəsən, Parisdə yağış yağır?

Bu dəfə Kərim müəllimin özünün özünə acığı tutdu: bu nə axmaq sualdı belə, təkrar edirsən? Və Kərim müəllim silkinib o şıdırğı yağışın altından çıxdı, avqust gününün istisinə qayıtdı, yenə də həmişəki Kərim müəllim oldu.

Şərqiyyə bütün günü birinci dəfə ağzını açıb nəsə demək istədi:

– Görəsən, Salman yazıq...

Kərim müəllim acıqla qızının sözünü kəsdi:

– Nə Salman-Salman salmısan? Salmanın nə dəxli var bura?

Sonra da Kərim müəllim qəti sözünü dedi:

– Parisə mən özüm gedəcəyəm!

Hamlet yerindən sıçradı:

– Axı, mən... Axı, mən... Axı, mən Fəridəyə söz vermişəm!

Kərim müəllim altdan-yuxarı oğluna baxdı və yalnız əlini havada yelləməklə kifayətləndi və:

– Ay-hay!.. – dedi.

Əvvəlki ərləri, Kərim müəllimgil, adi tanışlar, bir sözlə, dünyada heç kim heç vaxt Nuridə xanımın ağlamağını görməmişdi, amma indi birdən-birə Nuridə xanımın gözləri doldu və dodaqları səyriyə-səyriyə:

– Axı, sən, onsuz da, bütün dünyaya bələdsən... – dedi.

Kərim müəllim çalışdı ki, bacısının üzünə baxmasın və dedi:

– Bir var bilmək, bir də var gözünlə görmək.

Nuridə xanım daha heç nə demədi, gözlərindən iki damla yaş giləsi diyirlənib sifəti ilə axdı – deyəsən, daha qocalırdı – və ayağa qalxıb Kərim müəllimgildən çıxdı. Abdulla da ayağa qalxıb Kərim müəllimə baxdı, çiynini çəkdi və Nuridə xanımın ardınca mənzildən çıxdı.

Kərim müəllim başa düşdü ki, Nuridə xanım bir də bu evə ayaq basmayacaq.

Hamlet yenə də bir-bir atasına, anasına, bacılarına baxdı və yanıb yaxıla-yaxıla soruşdu:

– Mən... Bəs mən... Bəs mən Fəridəyə nə deyim?

Züleyxa:

– Get de ki, axmağın böyüyüyəm! – dedi və böyük otağa keçdi.

### III

Həmin avqust günü axşamçağı idi.

Kərim müəllim şüşəbənddə oturub çay içirdi və fikirləşirdi ki, sabah sübh tezdən durub bazara, dükana yox, əlaqədar idarələrə getməlidir ki, Paris səfərinin kağız-kuğaz işlərini həll etsin və məktəbdəki müəllimlərin sifətləri bir-bir gəlib dururdu Kərim müəllimin gözlərinin qabağında və bu sifətlərdəki açıq-aşkar heyrət, doğrusu, Kərim müəllimin xoşuna gəlirdi.

Zəhra mətbəxdə qabları yuyurdu və yuya-yuya da fikirləşirdi ki, səhər durub halva çalmaq lazımdı və kişinin yoluna halva qoymaq lazımdı, çünki halva elə şeydi ki, heç vaxt xarab olmur, özü də adam doyuzduran şeydi, yoxsa ki, qərib ölkədi, nə bilirsən nə verəcəklər yeməyə, deyirlər ki, Fransada ilbiz yeyirlər, hələ deyirlər ki, eşşək əti də yeyirlər.

Hamlet acıq eləyib çıxıb getmişdi və deyirdi ki, axşam gəlib çamadanını götürəcək və ümumiyyətlə, bu evdən biryolluq gedəcək, amma hamı yaxşı bilirdi ki, bir azdan Hamlet gəlib mətbəxdə oturacaqdı və axşam yeməyini yeyəcəkdi, çünki Hamletin beləcə küsüb getməyi çox olmuşdu və həmişə acanda da geri qayıtmışdı.

Züleyxa yenə də böyük otaqda, divanda uzanıb o gözəl gündəliyi oxuyurdu və indi tamamilə həmin gündəlikdəki çılğın hisslər aləminin içində idi və o yerdə ki, Züleyxa səliqə ilə gündəliyin səhifəsinə tikilmiş qoşa kino biletini gördü, özünü saxlaya bilmədi, bir-iki dəfə hıçqırıb için-için ağladı, çünki rəfiqəsi sevdiyi o vəfasız oğlanla sonuncu dəfə bu biletlərlə kinoya getmişdi və bu biletlər indi həmin məhəbbətin sonuncu yadigarı idi.

Şərqiyyə bayaq yarpaq dolması yedikləri mizin üstünə şal salıb uşağın əsgilərini ütüləyirdi.

Uşaq balaca taxta çarpayısında uzanmışdı və yenə də əllərini gözlərinin qabağında oynadırdı.

Bu vaxt qapının zəngi çalındı.

Kərim müəllim gəlib qapını açdı.

Poçtalyon idi, Kərim müəllimə teleqram verdi və kağızına qol çəkdirib getdi.

Kərim müəllim əlində tutduğu teleqramı oxudu, sonra bir də oxudu.

Teleqram Salmandan idi, yazırdı ki, narahat olmayın, xəstəxanadan çıxıram və heç kimin də Parisə gəlməyinə ehtiyac yoxdu.

Züleyxa zəngin səsinə gündəlikdən ayrılıb durub qapının yanına gəlmişdi və Kərim müəllimdən heç nə soruşmadı, teleqramı alıb özü oxudu və dedi:

– Axmaq Salman! Mən onun yerinə olsaydım, indi hamınızı gətirtmişdim Parisə!

Kərim müəllim otağa tərəf gedə-gedə fikirləşdi ki, gərək bayaq təklif eləyəydi ki, Parisə Nuridə getsin, amma qanadına baxmamışdı ki, nə biləydi ki, axırı belə olacaq; sonra Kərim müəllim nəvəsinin çarpayısının yanında ayaq saxladı.

Uşaq gözlərinin qabağında oynatdığı əllərinə baxırdı, sonra Kərim müəllimə baxdı, yenə də əllərinə baxdı və birdən-birə bərkdən ağlamağa başladı.

Kərim müəllim qalın qaşlarını çatdı:

– Hə, başladı yenə çığırmağa... – dedi.

Züleyxa:

– Etiraz edir də! – dedi.

Kərim müəllim qalın qaşlarını çatdı:

– Nə etiraz? Kimə etiraz edir?

Züleyxa:

– Elə bizim hamımıza! – dedi. Sonra güldü: – Protest eləyir bizə! – Sonra da böyük otağa qayıtdı ki, o nakam məhəbbətin sonuncu yadigarı olan qoşa biletə yenə də tamaşa eləsin.

Kərim müəllim qızının sözlərindən bir şey başa düşmədi, gəlib pəncərənin qabağında dayandı və qarşıdakı bağa baxdı: təqaüdçülər oturub domino və nərd oynayırdılar və xəbərləri yox idi ki, bu gün səhərin gözü açılmamış sanitarlar bu bağdan neçə sahibsiz it apardılar, sonra Kərim müəllimin yadına düşdü ki, şəhər Sovetinə məktub yazmalıdır və bu günün işini sabaha qoymaq lazım deyil; qələm-kağız götürüb mizin arxasına keçdi, amma uşaq çox bərk ağlayırdı və Kərim müəllimin fikirlərini dağıdırdı.

Uşağı kiritmək mümkün olmadı, gecə yorulub yatana qədər ağladı.

*Avqust, 1983.*
*Şüvəlan.*

## BEŞ DƏQIQƏ VƏ ƏBƏDIYYƏT*

*7 avqust 1983-cü il.*
*Bazar günü.*
*Saat 20.10.*
*Havanın temperaturu: +370.*
*Təyyarə limanı.*

Həmin bazar günü şüşədən görünən aerodrom meydançası günün altında elə bil ki, kimsəsiz, izsiz-ləpirsiz beton səhra parçası idi və həmin beton səhra parçasına nəhəng təyyarə kölgəsi düşmüşdü; elə bil ki, təyyarə özü o beton səhra boşluğunda əriyib yox olmuşdu, görünmürdü, təkcə kölgəsi nəhəng bir ləkə olub beton səhraya hopmuşdu və Mərdan Dadaşlı nəhayət ki, gözünü həmin təyyarə kölgəsindən, beton səhra parçasındakı o nəhəng ləkədən çəkdi.

Mərdan Dadaşlının qırx yeddi yaşı var idi, elmlər doktoru, akademiyanın müxbir üzvü, elmi-tədqiqat institutunun müdiri idi və Mərdan Dadaşlının özünün özü ilə zarafatı var idi: hərdən təsadüfən güzgüdə, yaxud şüşədə öz əksini görəndə özü özündən soruşurdu:

– Nə var, nə yox?

Əslində bu sualda cavab da var idi, çünki Mərdan Dadaşlu bu sualı özünə elə verirdi ki, tonunda, istehzasında bir arxayınlıq, rahatlıq da var idi, yəni ki, hər şey əladır, amma bu dəfə şüşənin şəffaflığında özünü sezəndə həmin sualı verməyə, özü ilə zarafat etməyə macal tapmadı, çünki şüşədəki zəif əksi o nəhəng təyyarə kölgəsi içində itdi və həmin nəhəng təyyarə kölgəsi Mərdan Dadaşlının ürəyini sıxdı.

Nə üçün belə oldu? Gərək əksinə olaydı, çünki havanın bu cırhacırında o təyyarə kölgəsi, hesabla, sərinlikdən xəbər verməli idi, əlbəttə, belə olmalı idi, amma belə olmadı və Mərdan Dadaşlı o nəhəng kölgədə nəsə bir qeyri-təbiilik, sünilik hiss etdi, Mərdan Dadaşlıya elə gəldi ki, o kölgədə sərinlik yox, bir buz soyuğu var və bu buz soyuğu, dağ soyuğu, yaxud qış soyuğu deyil, meyitxana soyuğudur.

Mərdan Dadaşlı indicə keçirdiyi bu ət ürpəşdirən hissə heyrət etdi, çünki indiyə qədər belə şeylər olmazdı; nədən idi bu, yavaş-yavaş qocalır, nədir?

Sövq-təbii təyyarənin biletini cibindən çıxarıb baxdı: birinci sıra, birinci yer idi və Mərdan Dadaşlının həmişəki ovqatı özünə qayıtdı: «birinci» sözündə xoş bir sehr var idi, bir arxayınçılıq, rahatlıq var idi.

Mərdan Dadaşlı yerə qoyduğu «diplomat» portfelini götürüb qapıya tərəf getdi. Təyyarəyə minik başlamışdı.

Sonra «TU-154» havaya qalxdı.

Sən birinci sırada, birinci yerdə oturmuşdun, illüminatordan baxırdın və təyyarə havaya qalxdıqca, yer səndən uzaqlaşdıqca, maşınlar, binalar kiçildikcə sən fikirləşdin ki, əslində bu məsafə sənin həyatının, taleyinin məsafəsidir, çünki cəmi iyirmi beş il bundan əvvəl – iyirmi beş il nədir ki? – bax, o aşağıda görünən adamlar kimi kiçik idin, universiteti təzəcə bitirmişdin, kimsəsiz və yazıq idin, harada işləyəcəyini, nə edəcəyini bilmirdin və bu gün, cəmi iyirmi beş ildən sonra – iyirmi beş il nədir ki? – bu təyyarə yüksəkliyindən o kimsəsiz və yazıq cavan oğlana baxırsan və gülümsəyirsən, çünki o cavan oğlanın təsəvvürünə belə gətirməyə cəsarət etmədiyi bir gələcək sənin üçün artıq keçmişdə qalmışdı və o təcrübəsiz, sadəlövh cavandan fərqli olaraq, bu gün sən gələcəyi görürsən, daha doğrusu, gələcəyi necə görmək istəyirsənsə, bilirsən ki, elə də olacaq, çünki sənin gücün var,

sənin ağlın və bacarığın var. Mən bilirəm, sən heç bir iclasda, heç bir məclisdə, hətta, evdə, arvadınla söhbətdə belə, özündən deməmisən, özünü tərifləməmisən, amma özün həmişə özünlə fəxr etmisən və bunu özündən gizlətməmisən də, çünki heç kim bilməsə də, sən özün yaxşı bilirsən ki, bu günə qədər, yəni 1983-cü ilin bu isti avqust gününə kimi, həyatda nə əldə etmisənsə, yalnız özün etmisən, heç kim sənə kömək etməyib, bütün bu illər ərzində sən həmişə həyatla üzbəüz dayanmısan və bu üzbəüz mübarizədə sənin yeganə köməkçin, yeganə məsləhətçin sən özün olmusan.

Insanlar gözdən itdi, sonra maşınlar görünmədi, sonra binalar yox oldu, torpaq yox oldu, sonra hər tərəfi süd ağlığında buludlar bürüdü, sonra o ağappaq buludlar da topa-topa aşağıda qaldı və sən yenə gülümsədin, çünki o ağappaq buludlar içində yenə həmin kimsəsiz cavan oğlanı gördün və evsiz-eşiksiz, işsiz, ailəsiz o oğlanın ürəyindəki nigarançılıq uzaq və xoş bir xatirə kimi sənin bütün sinirlərinə yayıldı.

Xatirələr yalnız hadisələrlə, yalnız insanlarla bağlı olmur, hisslərin də xatirəsi yadigar qalır və sən indi o uzaq və yaxın keçmişi yadına sala-sala həmin xatirələrdən, bəlkə də, ən əzizini, ən istisini yaşayırdın, elə bil ki, qışdır, qışın lap oğlan çağıdır, amma yaxşıca kürkün var, üşümürsən, hətta istidir sənə, ürəyin də rahatdır, amma birdən-birə yazın sonları yadına düşür və bütün içini bir yaz hərarəti bürüyür – o kimsəsiz cavanın gələcəklə bağlı və ümumiyyətlə, həyatla bağlı, ürəyini yeyən nigarançılıq hisslərini bu gün sən, bax, eləcə xatırlayırdın və xatırladığın o hisslər indi eləcə bir yaz hərarəti, yaz ətri gətirirdi sənə. Əslində, sən bu gün, göyün yeddinci qatında təyyarə ilə uçduğun bu dəqiqələrdə o uzaq və yaxın keçmişdə qalmış həmin cavan oğlanı öz oğlun kimi sevirdin və onu gözlərinin qabağına gətirə-gətirə onun qarşısında bir ata kimi öyünürdün, qürur hissi keçirirdin. Əslində, həmin bu dəqiqələrdə sənin üç oğlun var idi, ikisi indicə səni təyyarə limanında yola salmışdı, ataları ilə fəxr edən, hamının barmaqla göstərdiyi bu güclü, yaraşıqlı və istedadlı oğlanlar, bir də ki, onların yaşıdı olan, amma həmişəlik keçmişdə – uzaq və yaxın keçmişdə qalmış o sadəlövh cavan oğlan, yəni iyirmi beş il bundan əvvəlki sən. Sən yetim idin, atan müharibədə həlak olmuşdu, anan onun-bunun pal-paltarını, qab-qaşığını yuya-yuya səni bir qarnı ac, bir qarnı tox böyütmüşdü, rayondan gəlib Bakıda ancaq təqaüdlə dolana-dolana universiteti bitirmişdin və əlbəttə, sən o vaxt necə ağlına gətirə bilərdin ki, illər keçəcək, məşhur alim olacaqsan, kitabların dillərdən-dillərə tərcümə olunacaq, evin-eşiyin, gözəl arvadın, gözəl və ağıllı oğlanların olacaq və sənin tanımadığın adamlar küçədə səninlə salamlaşıb arxanca bir-birilərinə: « – Bu filankəsdir!» – deyəcəklər.

O süd kimi ağ topa-topa buludlar da aşağıda qaldı və görünməz oldu, illüminatorun şüşəsi əvvəli-axırı görünməyən mavi bir boşluğa büründü, sərnişinlərdən kimisi mürgülədi, kimisi kitab, qəzet-jurnal oxumağa başladı, kimisi söhbət etdi, amma, sən həmin mavi boşluq içində, illüminatorun şüşəsində öz şəffaf əksini gördün və yenə də özün özünlə zarafat etdin: «– Nə var, nə yox?» Sən yenə də gülümsədin, sonra gözlərini o əvvəlsiz-axırsız mavi boşluqdan çəkib başını arxaya çevirdin və kresloların arasından sərnişinlərə ötəri bir nəzər saldın, həmişəki kimi, bir-iki tanış sifət gördün, salamlarını aldın, amma kim olduqlarını bilmədin, sonra gözün anasının yanında oturmuş beş-altı yaşlı bir qız uşağına sataşdı və sən o uşağın da üzünə gülümsədin. Təyyarədə balaca uşaqlar görmək həmişə səni sevindirirdi, çünki təyyarədə ki, beləcə balaca, məsum uşaqlar var idi, deməli, uçuş uğurlu olacaqdı, necə ki, rahat havaya qalxmışdınız, eləcə də rahat yerə enəcəkdiniz. Əlbəttə, sən bilirdin ki, bu sevinc hissində bir sadəlövhlük var, tale amansızdır və

uşağa, cavana, qocaya baxmır, amma, hər halda, bu amansızlıq içində uşaq məsumluğu, uşaq təmizliyi görmək həmişə sənin üçün xoş idi, səni sevindirirdi.

Düzdür, bu uşaq təmizliyi, məsumluğu hərdən sənin ürəyinə bir qüssə, qəmginlik də gətirirdi, amma bu qüssə, qəmginlik çox yüngül olurdu, uçub gedirdi, elə bil ki, göyə çərpələng uçurmusan, birdən sap qırıldı, çərpələng də uçub getdi, gözdən itdi; o sapın qırılmasına, əlbəttə, heyfsilənirdin, amma sonra azadlığa çıxmış o çərpələngin idarə olunmayan, sərbəst uçuşu həmin təəssüfü yaddan çıxarırdı, daha doğrusu, həmin təəssüfə bir ılıqlıq, səmimilik gətirirdi. Sən bəzən özün üçün də aydın olmayan həsrətəbənzər bir hiss keçirirdin, qucağında uşaq oynatmaq istəyirdin, evdə də hər gün balaca uşaq görmək istəyirdin. Bəzən evdə, iş otağında qapını bağlayıb yazı mizinin arxasına keçirdin, işləməyə başlayırdın, amma birdənbirə əlində tutduğun qələm dayanırdı və sən, az qala, cismani surətdə hiss edirdin ki, bir uşaq təbəssümü görmək istəyirsən, o uşaq təbəssümündə qızınmaq istəyirsən, hətta, bəzən təəccüb səni bürüyürdü, çünki sənə elə gəlirdi ki, əslində o uşaq təbəssümündə gizlənmək istəyirsən.

Sən başını anasının qoluna söykəmiş o beş-altı yaşlı qız uşağına baxa-baxa fikirləşdin ki, eybi yox, bir iki ildən sonra baba olacaqsan, nəvələr gələcək dünyaya və həmin nəvələrin təbəssümü sənin başının üstündən əskik olmayacaq. Əlbəttə, sən başa düşürdün ki, fikirlərini, hisslərini bir az ucuzlaşdırırsan, söhbət yalnız həqiqi mənada uşaqdan getmir, söhbət uşaq təbəssümünün təmizliyindən, saflığından, şəffaflığından gedir, amma sən bu cür, necə deyərlər, dərinə getməyi xoşlamırdın və getmirdin də.

Sən illüminatorun şüşəsinə boylanıb hər tərəfi bürümüş boşluğa baxdın və bu mavilik də yavaş-yavaş itirdi, boşluq tutqunlaşırdı, qaralırdı, gecə düşürdü və sən «diplomat»ı açdın, bugünkü qəzetləri çıxarıb təyyarənin işığında oxumağa başladın: Yuxarı Voltada dövlət çevrilişi olmuşdu, kapitan Tomas Sankaranın başçılıq etdiyi «Milli Inqilab Şurası» hakimiyyəti ələ almışdı; F.Həbibin yerinə ABŞ prezidentinin Yaxın Şərqdə xüsusi nümayəndəsi vəzifəsinə təyin olunmuş R.Makfarleyn Beyrutda danışıqlar aparmağa başlamışdı; Lerik rayonunun Şəhərətuk adlı ərazisində on min ton həcmində üzüm qəbul edəcək yeni şərab zavodunun tikintisinə başlanmışdı. Sən hərdənbir gözlərini qəzetdən ayırıb illüminatorun şüşəsindən göyə baxırdın, hava tamam qaralmışdı, heç nə görünmürdü və sən yenidən qəzetləri oxuyurdun. Birdən, qəflətən, tamam gözlənilmədən hər şey dəyişdi. Birdən təyyarəyə zülmət qaranlıq çökdü. Sən əvvəlcə heç nə başa düşmədin. Sən əvvəlcə bilmədin ki, nə olub. Sonra sərnişinlərin küyünü eşitdin və sən başa düşdün ki, təyyarənin işıqları sönüb. Sən başa düşdün ki, nəsə olub, təyyarədə qəza var və sənin bütün tüklərin qabardı.

*Saat 21.11.*
*Hündürlük 10200 m.*
*Sürət 870 km.*
*Havanın temperaturu: – 510.*
*«Tu-154»ün təyyarəçi kabinəsi.*
*Ekipaj dörd nəfərdən ibarət idi:*
*komandir, mühəndis,*
*2-ci təyyarəçi, şturman.*

Təyyarə mühəndisi. Generatorların üçü də dayandı, komandir!
Komandir. Qazı azaldın. Təcili enirik.
Şturman. Sağa dönmək! Kursu 30 dərəcə artırmaq!

2-ci təyyarəçi. Bakı! Bakı! 85 510. Təyyarədə nasazlıq var. Təyyarədə nasazlıq var! Təcili enirik.

Birdən-birə sənin qulaqların batdı, elə bil burnun da tutuldu, sən təngnəfəs oldun və bütün dəhşəti ilə hiss etdin ki, daha boşluq içində uçmursan, bir daş parçası kimi, sürətlə düşürsən, elə bil ki, sıldırım qayadan qopub uçuruma gedirsən və hər tərəf zülmət qaranlıqdır. Sən nə sərnişinlərin səsini eşidirdin, nə də stüardessanın dediklərini və bu qaranlıq içində elə bil ki, birdən-birə öz gözlərini gördün: gözlərin parıldayırdı, böyümüşdü, az qalırdı hədəqəsindən çıxsın və sən başa düşdün ki, artıq hər şey bitdi, bir ucuz ölüm səni uçurumun dibinə aparırdı, sonra bir an, cəmi bircə an sən özün özünə heyrət etdin, çünki sən bu dərəcədə qorxaq olduğunu bilməzdin və bu kəşf səni sarsıtdı, sənə elə gəldi ki, birdən-birə bütün için qanadı, qıpqırmızı qanla doldu. Sən yerindən qalxmaq istədin, qışqırmaq istədin, amma nə səsin çıxdı, nə də yerindən tərpəndin və birdən-birə atanın sifəti sənin gözlərinin qarşısına gəldi. Atan çox cavandı, sənin o uzaq keçmişdə qalmış cavanlığına oxşayırdı və əvvəllər sən onu yaxşı xatırlaya bilməzdin, amma indi sifətinin bütün cizgilərini gördün, sonra ananı gördün, sonra arvadını, oğlanlarını gördün, sonra müxtəlif simalar sürətlə gəlib gözlərinin qabağından keçdi, uşaq vaxtı eşitdiyin laylaları, bayatıları, nağılları xatırladın və bu dəm sənin beynində elə bir sürət var idi ki, həmin sürət səni uçurumun dibinə aparan sürəti də üstələmişdi və sən indi tamamilə beynindəki sürətin ixtiyarında idin. Sənin bütün sinirlərində bir yalvarmaq ehtirası yaranmışdı, sən kiməsə, nəyəsə yalvarmaq istəyirdin, sən imdad istəyirdin, aman istəyirdin. Bir dəfə Süleyman peyğəmbərin yanına iki arvad gəldi və bu arvadlardan biri dedi: «– Ya peyğəmbər! Biz bir kişinin arvadıyıq, eyni vaxtda hərəmiz bir oğlan doğmuşuq. Dünən gecə bu arvad yuxulu olub, öz uşağı altında qalıb boğulub, sonra ölü uşağı gizlincə mənim yanıma qoyub, oğlumu götürüb. Balamı ondan alıb özümə qaytar». Ikinci arvad bu sözlərin hamısına böhtan dedi. Süleyman peyğəmbər göy gözlərini qıyıb arvadlara baxdı və elə bil ki, sən də bu dəm Süleyman peyğəmbərin o qıyılmış göy gözlərini gördün və bu gözlərin baxışı sənin bütün içinə işlədi. Sonra peyğəmbər uşağı gətirtdirdi və qılıncını hirslə həmin uşağın başı üzərinə qaldırıb dedi: « – Indi uşağı tən yarı bölüb hərənizə bir tərəfini verəcəyəm. Onda məndən razı qalarsınız». Birinci arvad özünü peyğəmbərin ayaqlarına atdı: « – Onu öldürmə! – dedi. – Ver bu arvada, kimə verirsən, ver, amma öldürmə!» Ikinci arvad: « – Hökmün ədalətlidi, ya peyğəmbər!» – dedi və bundan sonra peyğəmbər uşağı əsl anasına – birinci arvada verdi. Sən də özünü, bax, beləcə ayaq altına atmaq istəyirdin, imdad istəyirdin, amma o arvad ədalət istəyirdi, ədalət umurdu və ədalət də qalib gəldi, bəs, sən nə istəyirsən?

*Saat 21.12.*
*Hündürlük 9000 m.*
*Sürət 870 km.*
*Havanın temperaturu: 440.*
*«Tu-154»ün təyyarəçi kabinəsi.*
*Mühəndis generatorların mühafizəsi sistemini yoxlayır.*

Komandir. Bakı! Bakı! 85 510. 85 510. Elektrik şəbəkəsinin mühafizə avtomatları generatorları söndürüb.

Elektrik şəbəkəsinin mühafizə avtomatları generatorları söndürüb. Enməyə davam edirəm.

Sən birdən-birə bir çağa çığırtısı eşitdin və əvvəlcə elə bildin ki, həmin çağadır – arvadların Süleyman peyğəmbərin yanına gətirdiyi çağa, sonra sənə elə gəldi ki, yox, bu çağa sənin nəvəndir, üç ildən, beş ildən sonra dünyaya gələcək nəvən indidən səninçün ağlayır, amma sonra başa düşdün ki, yox, bu çağa başqa çağadır. Sənin qulaqlarına gələn bu çağa çığırtısında nəsə tanış bir nəfəs var idi, sən o çağanı görmürdün, amma hiss edirdin ki, o çağa kiməsə oxşayır və sən burasını da hiss edirdin ki, o çağa çığırtısı indicə səni qoynuna alıb ürəyin elə bir dərininə aparacaq ki, orada sənin üçün daha pis olacaq və ən yaxşısı budur ki, o çağanı tanımayasan və beləcə hər şey qurtarsın. Sənə elə gəldi ki, indicə bir gurultu qopacaq, partlayış olacaq və sən rahatlanacaqsan, bundan sonra heç kimi görməyəcəksən və heç kimi eşitməyəcəksən. Qaranlıq içində səni bir daş parçası kimi uçuruma aparan bu sürət də daha əvvəlki kimi dəhşətli görünmədi, çünki sən indi canını o çağa çığırtısından qurtarmaq istəyirdin, çünki hiss edirdin, indicə tanıyacaqsan onu, indicə tanıyacaqsan və bu zaman o çağa çığırtısının müşayiəti ilə sən əlini taxta kimi qupquru sinəsinə vura-vura şivən qoparan o qarının səsini eşitdin:

Altı bədöv atlı,
Əli çərkəz qamçılı,
Arxası dağ dəstəli,
Çiyni zər tüfəngli,
Gümüş xəncərli
At bağrı çatladan,
Düşmən bağrı yaran,
Aslan ürəkli,
Şir biləkli,
Bənövşə bığlı,
Mina boylu,
Darvaza kürəkli,
Gen sinəli,
Gözü qızlar ovçusu,
Dili qızlar elçisi, oğlum, vay!..

O qarının taxta sinəsi gömgöy göyərib qançır olmuşdu və hər dəfə də quru, dəyənəkli əlini zərblə, yana-yana, göyərə-göyərə taxta sinəsinə vurduqca, qaxac barmaqlarının yeri o qançır içində ağappaq ağarırdı və sən, əlbəttə, heç vaxt ağlına gətirməzdin ki, o qarını beləcə yaddaşında saxlamısan, oğlunun cənazəsinin ardınca o qarının dəli kimi qışqıra-qışqıra dediyi sözlər beləcə beyninə hopub:

Gedən qara atlı, getmə,
Yolun uzaqdı, getmə,
Ananın, bacının göz yaşı,
Sənə duzaqdı, getmə, oğlum, vay!..

O qarının dediyi və indi sənin çox aydın, dəqiq eşitdiyin bu sözlər bircə anın içində sənin dodaqlarını səyritdi, gözlərini yaşartdı, qəhər səni boğdu, çünki sənə elə gəldi ki, öz anan dirilib, taxta sinəsi qançır-qançır olmuş o dəli qarı sənin anandır və bu sözləri səninçün deyir, amma bu lap bircə an çəkdi, çünki o çağa yenə də bərkdən qışqırdı və bu dəfə sən həmin çağanı da, həmin qarını da tanıdın.

*Saat 21.13.*
*Hündürlük 7500 m.*
*Sürət 800 km.*

*Havanın temperaturu: – 340.*
*«Tu-154»ün təyyarəçi kabinəsi.*

Mühəndis. Komandir, enerji şəbəkəsinin mühafizə sistemini yoxlamaq lazımdır, icazə ver, gedim yoxlayım.

Komandir. Get... Bakı! Bakı! 85 510. Enməyə davam edirəm. Enməyə davam edirəm.

Sən o uşağı heç vaxt görməmişdin, amma indi başa düşdün ki, bu çığıran çağa odur, heç vaxt görmədiyin həmin uşaqdır, atası öləndən sonra anadan olan uşaqdır və o dəli qarı da ölən oğlanın anası idi, sən o qarını görmüşdün, dəfn mərasimində görmüşdün. Sən gözlərini kip-kip qapadın, çünki taxta sinəsi qançır olmuş o qarını fikrinə gətirmək istəmirdin, amma ömründə cəmi bircə dəfə, özü də beş-on dəqiqəlik gördüyün o qarı sənin kip örtülmüş gözlərinin qabağından getmədi və sənə elə gəldi ki, oğlunun dəfn mərasimində dərd əlindən dəli olmuş o qarı qaxac barmaqlarını indicə sənin gözlərinin içinə soxacaq, sənin sifətini, sinəni didib-didişdirəcək və sən o qaranlıq içində uçurumun dibinə daha da tez düşmək istədin, sən istədin ki, təyyarəni indicə yerə çırpacaq o sürət daha da artsın və sən həmin qarının əlindən xilas olasan.

Təyyarə titrədi və sən elə bir nəyəsə ilişdin, kim isə səni tutub saxladı, sənin ürəyində bir ümid yarandı, sən elə bildin ki, xilas oldun, kiminsə, nəyinsə sənə rəhmi gəldi, amma elə həmin andaca sən qorxdun ki, belə bir rəhmə layiq deyilsən, səni saxlayıb baxacaqlar və yenə də tullayacaqlar, atacaqlar və doğrudan da elə bil ki, səni yenə də uçuruma atdılar və sən o dəhşətli sürətlə uçurumun dibinə doğru getdin. Bu uçurum nə uzun imiş, bitib-tükənməzmiş və sənin fikrin yenə də uçurumun dibinə aparan sürəti üstələdi və sən yenə də dərd əlindən dəli olmuş o qarını gördün. Onun oğlunun adı nə idi? Sənin institutunda işləyirdi, nə idi adı? Yadına gətirə bilmədin, amma həmin oğlanın sifəti gözlərinin qabağına gəldi, o oğlanın arıq, saralmış, xəstə sifətini də anasının sifəti kimi tamam dəqiq, aydın gördün və tüklərini ürpəşdirən bir heyrət səni bürüdü: bu oğlan sənin öz cavanlığına çox oxşayırdı, düzdü, sifəti başqa sifət idi, amma gözləri eyni gözlər idi, daha doğrusu, bu gözlərin baxışı, ifadəsi eyni idi.

O oğlan sənin institutunda, gərək ki, laborant işləyirdi, yoxsa mühasibatda işləyirdi? Yox, yox, laborant idi, hətta sən onun bir məqaləsini də oxuyub tərifləmişdin, son vaxtlar hər gün sənin qəbulunda oturub gözləyirdi, bir dəfə qəbul da etdin onu. Sən həmin qəbulu da indi – neçə ildən sonra tam dəqiqliyi və aydınlığı ilə xatırladın, daha doğrusu, yadına saldın ki, o oğlan sənin qabağında oturmağa cürət etməyib, ayaq üstə dayanıb, əllərinin barmaqlarını sındıra-sındıra nə isə xahiş edirdi, sən onun nə xahiş etdiyini yadına gətirə bilmədin, amma onun xəstə və kədərli gözlərinin necə dolduğunu indi də açıq-aydın gördün və həmin dolmuş gözlər bu dəm qaranlıq içində sənə baxırdı. O səndən nə xahiş edirdi? – deyəsən, ev məsələsi idi, hə, hə, ev məsələsi idi, sənin institutun üçün ayrılmış bir mənzil növbə ilə ona düşürdü, on iki il həmin mənzili gözlədiyini dedi, dedi ki, yaşaya bilmir... Sən nə etdin?

Qaranlıq içində baxan o dolmuş gözlərin xəstə və kədərli işıltısı səni yandırırdı, əridirdi, sən sürətlə uçurumun dibinə düşürdün və sən istəyirdin ki, həmin sürət səni o doluxsunmuş gözlərin baxışından uzaqlaşdırsın, amma o gözlər də səninlə birlikdə uçurumun dibinə gedirdi. Sən daha təyyarədə olduğunu, qəzaya uğradığını yadından çıxarmışdın, nə komandirin sərnişinlərə müraciətini eşitdin, nə yanından ötən stüardessalardan xəbərin oldu, nə də sərnişinləri görürdün, eşidirdin, sənin üçün yalnız zülmət bir qaranlıq var idi və sən bilirdin ki, indicə hər şey bitəcək və istəyirdin ki, tez olsun, bitsin hər şey, daha dözə bilmirdin.

O səndən nə xahiş etdi? Axı, nəsə xahiş etdi səndən, nə? Hə, ev məsələsi idi, anası, arvadı, iki uşağı – evləri yox idi və növbə onun növbəsi idi, bəs sən nə etdin? Sən kimə verdin mənzili? Yadına sal, yadına sal, kimə verdin? Kərimlinin qızına verdin, çünki Kərimlinin qızı təzəcə ərə getmişdi, çünki Kərimlinin qızını təzəcə işə götürmüşdün, çünki sən sənədlərini akademiyaya vermişdin, çünki Kərimli sənə səs verəcək adamlardan biri idi.

Sən yenə də bütün qüvvəni toplayıb yerindən qalxmaq istədin, özünü bu zülmət qaranlıqdan harasa bir yana atmaq istədin və o zaman bütün dəhşəti ilə hiss etdin ki, tərpənə bilmirsən, sənin içində bir çəkisizlik var idi və sən yenə də o qarını gördün, o qarının sözlərini eşitdin: ay kimi doğdun, gün kimi batdın, minəndə at bağrı yardın, saydığına salam verdin, saymadığına yan çevirdin, düşməninə dirsək göstərdin, qəniminə qan uddurdun; altının bədov atına, çiyninin tüfənginə, tərkinin dolu xurcununa, ağzının kəsərli sözünə anan qurban, ay bala! Və sən, ancaq indi, səni sonu görünməyən o uçuruma aparan bitməz-tükənməz sürət və zülmət qaranlıq içində bütün ağrısı ilə dərk etdin, gördün ki, sənin qəbul otağında ayaq üstündə dayanıb gözləri dolmuş o xəstə və kədərli oğlan anası üçün – o taxtasinəli qarı üçün necə çiyni tüfəngli, altı bədov atlı imiş, tərki necə dolu xurcunlu imiş. Katibə sənin yanına gəlib deyəndə ki, həmin xəstə oğlan ölüb, sən əvvəlcə bilmədin ki, söhbət kimdən gedir, sonra tanıdın, yadına düşdü ki, üç-dörd ay əvvəl nədən ötrüsə sənin yanına xahişə gəlmişdi, sonra sən beş-on dəqiqəlik vaxt ayırıb o oğlanın dəfn mərasimində iştirak etdin və o zaman hamı sənə minnətdarlıqla, heyranlıqla baxırdı, çünki sən kimsəsiz, tanınmaz-bilinməz, bədbəxt bir adamın dəfninə gəlmişdin, sənin gəlişin həmin dəfn mərasiminə yaraşıq vermişdi. Bir-iki aydan sonra katibən sənə dedi ki, ürəyindən vəfat etmiş həmin oğlanın üçüncü uşağı anadan olub, sən əvvəlcə yenə də söhbətin kimdən getdiyini xatırlaya bilmədin, sonra yadına düşdü və sən doğrudan da, təəssüflə başını buladın. Nə idi o oğlanın adı? Nə idi? Hə, Zakir idi, tapdın, Zakir idi. Yox, Zakir o deyildi, Zakir başqası idi.

*Saat 21.14.*
*Hündürlük 6300 m.*
*Sürət 760 km.*
*Havanın temperaturu: – 26.*
*«Tu-154»ün təyyarəçi kabinəsi.*

Komandir. Bakı! Bakı! 85 510, 85 510. Nasazlıq aradan qaldırılır. Nasazlıq aradan qaldırılır. Enməyə davam edirəm.

Zakir başqası idi və hər tərəfi basmış o qaranlıq içində çoxdan görmədiyin, heç vaxt yadına gətirmədiyin, heç vaxt haqlarında düşünmədiyin adamlar, müxtəlif sifətlər bir-bir sənin gözlərinin önündən ötməyə başladı və o sifətlər bir-birini əvəz etdikcə sənin fikrin də dəqiq və aydın işləyirdi: bax, kiminsə xətrinə aspiranturaya

qəbul zamanı buna «iki» verdin, bunu işdən çıxardın, buna töhmət verdin, bunu otağından qovdun, bunu söydün, bunun əsərini saxladın, çünki özündən xoşun gəlmirdi, bunu qorxutdun, buna eşq elan elədin, sonra da bədbəxt elədin və sürətlə bir-birini əvəz edən bu mumiya kimi sifətlərin arxasında insanlar dayanmışdı, talelər dayanmışdı, bütün bu insanların ailələri var idi, qayğıları var idi, sevinci, kədəri var idi və sənin bir töhmətin, bir söyüşün, bir dərkənarın taleləri həll edirdi. Bu dəfə sən həmin adamların heç vaxt görmədiyin analarını, arvadlarını, uşaqlarını gördün, daha doğrusu, bu görüm ayrı-ayrı anaların, arvadların, uşaqların sifəti deyildi, bir küll idi və bayaqkı çağa çığırtısı əvəzinə indi sənin beynində bir uğultu var idi və sən həmin uğultu içində taxta sinəsi qançır-qançır olmuş o qarının səsini də eşidirdin. Sonra yenə müxtəlif sifətlər sənin gözlərinin qarşısında bir-birini əvəz etdi və onlar elə sürətlə bir-birlərini əvəz edirdi ki, sənin beynin ancaq bir-iki sözlə onları sənə tanıtmağa macal tapırdı: buna həmişə yaltaqlanardın, buna indi yaltaqlanırsan, bundan qorxursan, bunu yalandan tərifləyirsən, buna həmişə bağlamalar göndərirsən və bu dəfə sənin öz anan gözlərinin qabağına gəldi və bütün dəhşəti ilə sənin fikrindən keçdi ki, neçə illərdir birinci dəfə anan sənin gözlərinin qabağına gəlir. Sən bərk qışqırdın, sən bildin ki, səsin çıxmadı, amma sən qışqırdın və sən tamam açıq-aşkar hiss etdin ki, uçurumun dibi çatır, indicə partlayış olacaq və hər şey qurtaracaq.

*Saat 21.15.*
*Hündürlük 4800 m.*
*Sürət 690 km.*
*Havanın temperaturu: – 17.*
*«Tu-154»ün təyyarəçi kabinəsi.*

Mühəndis. Komandir, nasazlıq aradan qalxdı. Generatorları işə salmaq olar.

Komandir. Bakı! Bakı! 85 510. Generatorları işə saldıq. Generatorları işə saldıq. Icazə verin hündürlüyü yığaq, uçuşa davam edək.

Əvvəlcə o partlayışın şölələri az qaldı sənin gözlərini yandırsın, sonra bir sükut çökdü, beynindəki uğultu yox oldu və sən əvvəlcə başa düşmədin ki, nə olub, sən öz ürəyinin döyüntüsünü eşitməyə başladın, ürəyin az qalırdı yerindən çıxsın və yalnız bu zaman sən başa düşdün ki, təyyarənin işıqları yanıb. Sən gözlərini yumdun, amma yenə də yumulu gözlərinin qabağında şölələr oynayırdı, sən iki əlinlə də tərdən tamam yaş olmuş saçlarını, sifətini sildin, sonra gözlərini açdın və bu dəfə təyyarənin işıqlarını, illüminatoru, öz əllərini, ayaqlarını aydın gördün və birdən-birə səni dəhşət basdı, sənə elə gəldi ki, saçların ağappaq ağarıb. Sən güclə başını çevirib kresloların arasından arxaya baxdın: həmin beş-altı yaşlı qız uşağı anasının qucağında idi və deyəsən, ağladığı üçün gözləri yaş idi, qızarmışdı, amma indi o balaca qız yaşlı gözləri ilə gülümsəyirdi, sən də ona gülümsəmək istədin, amma dodaqların qaçmadı, sən gülümsəyə bilmədin, sonra sən o biri sərnişinlərə baxdın, gizlin-gizlin baxdın, sən istəmirdin ki, onlar səni görsün, əslində sən qorxurdun ki, onlar səni görər.

Sərnişinlərdən kimi hərarətlə o birisinə nəsə deyirdi, kimi sevincindən gülürdü, kimi qollarını geniş açıb dərindən nəfəs alırdı və bu vaxt yanından ötən yaraşıqlı stüardessa sənə baxdı, gülümsədi: « – Qorxmayın.» – dedi və sən çiyinlərini çəkmək, « – Nədən qorxacağam?» – demək istədin, amma nə çiyinlərini çəkdin, nə də bir söz deyə bildin, çünki sənin beynində dəhşətli bir yorğunluq var idi, sənin bütün bədənin yorulub əldən düşmüşdü, sən tamam heysiz idin.

Gözlərini yumub, bircə anlıq da olsa, yatmaq istədin, özünü unutmaq istədin, amma bir şey çıxmadı və sən beynindəki o dəhşətli yorğunluq içində bir müddət elə-eləcə oturdun; sonra illüminatorun şüşəsindən bayıra baxdın və birdən-birə sənə elə gəldi ki, bayaq aerodromda gördüyün o böyük təyyarə kölgəsi də indi sənin uçduğun bu təyyarə ilə bərabər uçur.

Sən çox yorulmuşdun, ona görə də bu barədə daha fikirləşmədin, amma bir müddət illüminatorun o tərəfində o böyük təyyarə kölgəsini də özünlə bərabər uçan hiss etdin.

*Saat 21.18.*
*Hündürlük 9000 m.*
*Sürət 880 km.*
*Havanın temperaturu: – 44.*

Sən kreslonun kəmərini açıb ayağa qalxdın və tualetə tərəf getdin. Sənə elə gəlirdi ki, hamı sənə baxır, arxadan bütün sərnişinlərin gözü sənə dikilib. Sənin tərdən yaşarmış köynəyin hələ qurumamışdı və yaş köynək sənin kürəyinə bir buz layı kimi yapışmışdı, bu yaş köynəkdə bir buz soyuğu var idi. Sən tualetə girdin, qapını bağladın və hələ də keçib getməmiş bir qorxu ilə güzgüyə baxdın, çünki hələ də sənə elə gəlirdi ki, saçların ağappaq ağarıb, amma sən güzgüdə yenə də həmişəki kimi zil qara saçlarını gördün, həmişəki sifətini gördün və sən güzgüdəki sifətin belə bir adiliyinə, belə bir həmişəkiliyinə heyrət etdin, bir müddət gözlərini bu qapqara saçlardan, bu sifətdən ayırmadın, sonra bütün gücünü toplayıb özünlə zarafat eləmək istədin, « – Nə var, nə yox?» – soruşmaq istədin, amma soruşmadın, darağını çıxarıb saçlarını daradın, üzünü yudun, kağız dəsmalla qurulanıb tualetdən çıxdın, yenə də gəlib birinci sıranın birinci yerində oturdun.

## EPILOQ

## BEŞ ILDƏN SONRA

*22 sentyabr,*
*1988-ci il.*
*«Bakı –Kislovodsk» qatarı.*
*«SV» kupesi.*

*Akademiyanın həqiqi üzvü, böyük Elmi Tədqiqat Birliyinin rəhbəri Mərdan Dadaşlı və bir sərnişin.*

*– Mən sizi görən kimi tanıdım, Mərdan müəllim. Mənim üçün şərəfdir ki, sizinlə bir yerdə gedirəm.*

*– Çox sağ olun.*

*– Həqiqi sözümdür!*

*– Çox sağ olun.*

*– Yəqin istirahətə gedirsiz?*

*– Hə.*

*– Mən təyyarəyə bilet almaq istəyirdim. Sonra fikrimi dəyişdim. Elə bil ürəyimə dammışdı ki, sizin kimi bir adamla yol yoldaşı olacağıq, bir kupedə gedəcəyik.*

*– Mən də birinci dəfədir ki, qatarla gedirəm. Arvad, uşaqlar, gəlinlər məcbur elədi, dedilər ki, neçə illərdir bir dəfə vaxt tapıb məzuniyyətə çıxmısan, qatarla istirahət edə-edə get. Amma heyf deyil təyyarə!.. Düzdü, bir dəfə, beş-altı il bundan qabaq, yadımda deyil, harasa gedirdim, təyyarəmizdə işıqlar söndü.*

*– Işıq söndü? Siz gülürsünüz, Mərdan müəllim, amma mən təsəvvürümə gətirirəm ki, necə dəhşətdi. Buna ürək davam eləməz...*

*– Siz ürəyi bir elə də davamsız bilməyin.*

*– Bəs, sonra nə oldu?*

*– Nə olacaq? O saat düzəltdilər, qurtardı. Təyyarədən yaxşısı yoxdu...*

*Avqust, 1983.*

Şüvəlan.

## GÜL DEDI BÜLBÜLƏ...

*(Bir qonaqlıq haqqında)*

### BIRINCI FƏSIL

Qar yağırdı.

Altı gündən sonra, təzə – 1985-ci il gəlirdi, bayaq televizorda deyirdilər ki, Tomsk vilayətinin Kolpaşeva rayonunda 38 dərəcə şaxta var, Yakutiyada isə şaxta 55-i keçib, amma Bakıda bu qış birinci dəfə idi ki, qar yağırdı, o da əməlli-başlı qar deyildi, səki boyu düzülmüş tut ağaclarının budaqlarına düşüb su damcısı olurdu, yerdə, yəni asfaltın üstündə də qalmırdı, təkcə ağacların dibindəki torpaqda bir qat çox narın qar ağarırdı.

Səki boyu düzülmüş həmin çılpaq və yaş tut ağaclarının dibindəki torpaq daşla kiçik kvadrat bir sahəyə salınmışdı və qar yağan həmin cümə günü əllərini paltosunun cibinə salıb küçə ilə üzüyuxarı gedən Əlipaşa çalışırdı ki, o kiçik daş çərçivələrə salınmış kvadrat torpaq sahələrinə baxmasın, çünki indicə evdən çıxanda təsadüfən gözləri ağacların dibindəki bu kiçik torpaq kvadratlarına sataşdı və həmin kvadrat çərçivələr birdən-birə Əlipaşanın ürəyini sıxmağa başladı, daha doğrusu, o kiçik və səliqəli kvadratlar Əlipaşanın ürəyinə bir qəmginlik, bəlkə də, kədərli bir həzinlik gətirməyə başladı; qəribə idi, tələsə-tələsə ora-bura gedən tək-tük adamlı bu boş küçənin nəmliyi, kimsəsizliyi, tut ağaclarının o yaş və çılpaq budaqları, adda-budda o budaqlara qonub, gözlərini yumub boyunlarını bədənlərinə qısmış sərçələrin güzəranı Əlipaşanın ürəyini sıxmırdı, amma ağacların dibindəki bu kiçik kvadrat çərçivələrə salınmış torpaq sahələri ürəyini sıxırdı.

Nəhayət ki, bu gün rəngli televizor alırdılar, amma təqsir o ağac dibindəki torpağın kvadrat çərçivələrində idi, ya nəydisə, ürəkdə sevinc yox idi, bir həzinlik var idi, hətta axtarsan, bir həsrət var idi – nəyin həsrəti idi, kimin həsrəti idi, bilmirdi və Əlipaşa başını qaldırıb bu küçəyə, elə bil ki, rəngli televizorda baxdı; bu dəm rəngli televizor da ağ-qara televizor kimi göstərirdi, yaş asfalt küçədə də, o çılpaq (və üşüm-üşüm üşüyən!) ağaclarda da, o balaca kvadrat torpaq parçalarında da başqa bir rəng yox idi, qar idi, qaranın hardasa bir az tünd, hardasa da bir az açıq kölgəsi idi, bir də ki, o narın qar qatının ağımtıllığı...

Dünən Züleyxa dedi ki, rəngli televizoru sabah, yəni bu cümə günü almaq lazımdı, çünki qabaqdan şənbə, bazar gəlirdi. Əlipaşa da evdə olacaqdı, qış çağıdı, isti xörək yeyə-yeyə, çay içə-içə uşaqlarla bir yerdə oturub rəngli televizora baxacaqdılar.

Dünyanın ən qəribə xasiyyətli adamlarından biri, heç şübhəsiz, Züleyxa idi; düz iki il bundan əvvəl, gecənin yarısı yuxuya getdikləri vaxt Züleyxa birdən çöməlib çarpayıda oturdu və dedi: – «Rəngli televizor almaq lazımdı...» Əlipaşa da yaxşı bilirdi ki, Züleyxa elə-belə söz deyən adam deyil, həmişəki kimi, yüz ölçüb, bir biçib və hərgah bu qərara gəlibsə ki, rəngli televizor almaq lazımdı, deməli, belə də olmalıdı və belə də olacaq; necə ki, pianinonu belə almışdılar, evdəki böyük xalçanı da, soyuducunu da, Züleyxanın dovşan dərisindən kürkünü də, Əlipaşanın əynindəki paltonu da belə almışdılar; Züleyxa yüz ölçmüşdü, bir biçmişdi, qərar vermişdi, pul yığmışdı və almışdı.

Əlipaşa iyirmi altı il idi ki, nəşriyyatda işləyirdi, bu iyirmi altı ilin düz on doqquz ili idi ki, Züleyxa ilə evlənmişdilər və on doqquz da il idi ki, Əlipaşa hər ay nəşriyyatdan aldığı maaşı köpüyünə kimi gətirib Züleyxaya verirdi, çünki evin bütün haqq-hesabına, yemək-içmək işinə Züleyxa baxırdı və vacib bir işdən ötrü təcili pul lazım olanda (misal üçün, nəşriyyatda işləyənlərdən kimsə öldüyü üçün, yaxud kiminsə qohumu öldüyü üçün qəzetdə başsağlığı verməkdən, yaxud 8 Martda bir yerdə işlədikləri qadınlar üçün hədiyyə almaqdan ötrü pul yığılanda və s.) Əlipaşa beş manatı, yaxud səkkiz manatı Züleyxadan alırdı (Züleyxa heç vaxt narazı olmurdu, əksinə, tez qalxıb paltar dolabının yuxarı gözündən lazım olan pulu götürüb Əlipaşaya verirdi, amma, nədənsə, həmin anlarda Əlipaşa özünü günahkar adam kimi hiss edirdi).

Bu dəfə rəngli televizoru almaq əhvalatı bir az ləngidi, yəni gecənin yarısı Züleyxanın verdiyi o qərardan sonra, düz iki il keçmişdi və bunun da səbəbi o idi ki, yayda uşaqları da götürüb Riqa ətrafına gedəcəklər. (Əlipaşa təəccüb etdi: – «Bəs televizor?» Züleyxa: – «Televizorun pulu ayrıdı», – dedi, amma, hər halda, yayda Riqa ətrafına, Yurmalaya getmələri, görünür, rəngli televizorun puluna təsir etmişdi və onun alınmağı da beləcə gecikmişdi.)

Nə isə, iş qurtarandan sonra, nəşriyyatdan evə gəldi, Züleyxa dovğa bişirmişdi, bir də soğanla kartof qızartmışdı, yedi, sonra Züleyxa paltar dolabının yuxarı gözündən qəzetə bükülmüş 800 manat pul götürdü və Əlipaşaya verdi ki, gedib rəngli televizoru alıb gətirsin.

– Yaxşı-yaxşı yoxlat, sonra götür!..

Qızların ikisi – Gülzarla Süsən evdə idi (ikisi də – Sonayla Suğra hələ məktəbdən gəlməmişdilər, dərsdə idilər), cidd-cəhdlə tez-tələsik evdə yır-yığış eləməyə başladılar, on səkkiz il, necə deyərlər, cani-dildən evlərinə xidmət etmiş köhnə «Temp-2» televizorunu güclə yerindən qaldırdılar, aparıb arakəsməyə qoydular (Əlipaşa bazar ertəsi işdən sonra, o vəfalı «Temp-2»ni aparıb köhnə televizorlar qəbul eləyən məntəqəyə verməli idi, əvəzində də nə qədərsə pul alıb gətirməliydi), Əlipaşa da paltosunu geyib təzə televizoru almaq üçün evdən çıxdı.

– Göz qoy a, yaxşı-yaxşı yoxlasınlar!.. – Züleyxa axırıncı dəfə tapşırıq verdi.

Əlipaşanın fikri belə idi ki, trolleybusa minsin, iki dayanacaq gedib düz dükanın qabağında düşsün, o rəngli televizoru tez alıb gətirsin, oturub evdə rahatlansın; sabah şənbə, biri gün də bazar, heç hara getməyəcəkdi, uşaqlarla, Züleyxayla bir yerdə televizora baxacaqdı, radioya qulaq asacaqdı, «Bakı» qəzetini oxuyacaqdı; amma elə ki, evdən çıxdı, elə ki, külək bu sulu qarı üzünə vurdu, nədənsə, trolleybusa minmək istəmədi, bəlkə ona görə ki, işin qurtaran vaxtı idi, trolleybusda basabas olacaqdı? Bəlkə ona görə ki, səhər tezdən işə də trolleybusla gedirdi, axşam işdən qayıdanda da trolleybusla qayıdırdı? Hər nə isə, piyada getməyə başladı.

Qar, deyəsən, get-gedə artırdı, paltosunun yaxasına düşüb bir müddət elə qar kimi də qalırdı, sonra əriyirdi və Əlipaşa qulaqlarında, burnunda qarın zərifliyini, kövrəkliyini hiss edirdi, qar hərdənbir, hətta şərfinin boynuna da düşürdü və bu zaman Əlipaşa qarın soyuqluğunu daha artıq hiss edirdi.

Alacağı rəngli televizorun qiyməti 784 manat idi və Əlipaşa küçə ilə üzüyuxarı gedə-gedə fikirləşirdi ki, görəsən, yerdə qalan 16 manat rəngli televizoru maşına qoyub həyətə gətirmək və beşinci mərtəbəyə qaldırmaq üçün fəhlələrə (hər halda, o boyda televizoru daşımağa, azı, iki fəhlə lazım idi) və sürücüyə çatacaqdı, ya yox? Yəqin çatacaqdı... yəqin Züleyxa fəhlələrin, maşının muzdunu öyrənmişdi ki, pulu bu qədər vermişdi; sonra Əlipaşa fikirləşdi ki, bir fəhlə də götürsə bəsdir, televizorun bir tərəfindən fəhlə yapışar, bir tərəfindən də özü; düzdü, beşinci mərtəbəyə qalxmalıdırlar, amma Əlipaşa da hələ qocalıb əldən düşməmişdi, əlli yaşı gələn il tamam olacaqdı və Əlipaşa burasını, yəni gələn il əlli yaşının tamam olacağını fikirləşəndə yenə gözləri səki boyu düzülmüş o üşüyən tut ağaclarının dibindəki torpağın kvadrat çərçivələrinə sataşdı və ürəyindən yenə də o həzinlik, o həsrət (bəlkə, gizli bir nigarançılıq idi? Amma nəyin nigarançılığı idi?) keçdi.

Yenə şərfin arasından boynuna qar düşdü və o qarın soyuğu elə Əlipaşanın ürəyindəki o həzinliyi, o həsrəti (ya nigarançılığı?) qovub çıxartdı və elə bil, boynuna düşmüş o qar Əlipaşanın təkcə boynuna, bədəninə yox, ürəyinə də bir sərinlik gətirdi, yəni bu mənada ki, ürəyinin həmişəki sakitliyi öz yerinə qayıtdı və Əlipaşa fikirləşdi ki, bazar ertəsi müdir Əlimuxtar müəllimdən icazə alıb işdən bir az tez çıxmaq lazımdır ki, köhnə televizoru aparıb təhvil versin, pulunu da gətirib Züleyxaya versin. Doğrusu, Əlipaşa heç vaxt kənddə, rayonda yaşamamışdı, Bakıda doğulmuşdu, Bakıda böyümüşdü, heç vaxt sevimli inəyi, yaxud sevimli deyək ki, keçisi olmamışdı, amma indi, bu soyuq cümə günü təzə televizor almağa gedə-gedə köhnə televizor barədə fikirləşəndə, bazar ertəsi o köhnə televizoru aparıb təhvil verəcəyini yadına salanda Əlipaşaya elə gəldi ki, elə bil, «Temp-2»ni yox, Azərbaycan yazıçılarının müxtəlif kitablarında oxuduğu kimi, sevimli bir inəyini, ya qoçunu, ya keçisini satmağa aparır; əlbəttə, bu hiss bir az qəmginlik gətirirdi, amma burası da vardı ki, köhnə televizoru – o vəfalı «Temp-2»ni təhvil verib əvəzinə nə qədərsə pul alacaqdı və o pulu gətirib evə verəcəkdi.

Həmin qarlı cümə günü Əlipaşanın ürəyindəki o yüngül qəmginliyi bu dəfə bir hərarət əvəz elədi: maaşdan başqa da Züleyxaya nəsə bir pul verəcəkdi və o gözəl hadisə həmin hərarəti, həmin çəkisiz, xoş hərarəti indidən ürəyinə yaydı.

Əlipaşa altı il korrektor işləmişdi, sonra kiçik redaktor işləmişdi, indi də on ildən artıq idi ki, redaktor işləyirdi və bütün bu müddətdə, təbii ki, yalnız maaşa baxmışdı. Başqa redaktorlar ordan-burdan pul qazanırdı, kimisi hekayə yazırdı (hətta roman yazıb, sonra da həmin romanı nəşriyyatda çap elətdirmək uğrunda illərlə mübarizə aparanlar da var idi!), kimisi tərcümə edirdi, qəzetlərə, radioya, televiziyaya nəsə bir məlumat, ya reportaj, ya da bir başqa şey yazırdı, amma Əlipaşa heç nə yazıb-pozmurdu və buna görə də, arı şirniyə uçan kimi, ora-bura qonorara uçuşan həmkarlarından açıq-aşkar seçilirdi. Bəlkə, yaza bilmirdi? Bəlkə, yaza bilərdi, amma həvəsi yox idi? Bəlkə, başqaları kimi bacarığı yox idi, qılığı yox idi? – Səbəbini bilmirdi, heç vaxt nəsə bir şey yazıb-pozmaq üçün təşəbbüs göstərməmişdi, təkcə bir dəfə, bircə dəfə yazı yazmışdı, yaxşı da pul qazanmışdı, amma indi o yazının yalnız bir xatirəsi qalmışdı...

Əlipaşa yeddi il idi ki, üçotaqlı rahat mənzilinə köçmüşdü; mikrorayondakı bu mənzili nəşriyyatda növbəyə durub almışdı, o vaxta qədər isə Züleyxanın anasıgildə ikiotaqlı balaca mənzildə qalırdılar. Yeni köçdükləri binada qapıbir qonşuları Mürsəl adında bir kişinin ailəsi idi və həmin Mürsəl restoranda – gərək ki, ode, uzaqdan görünən o «Sağlamlıq» restoranında – bufetçi işləyirdi, çox işgüzar, burdan vurub, ordan çıxan, cəld bir adam idi, civə kimi, yerində dayana bilmirdi, həddən artıq tanış-bilişi var idi, evində də tez-tez qonaqlıqlar olardı və əvvəllər (o yazı əhvalatına qədər!) Mürsəl Əlipaşanı da qonaqlıqlarına çağırırdı, sonra isə (o yazı əhvalatından sonra) araları xeyli sərinlədi.

Mürsəl, deyəsən, heç orta məktəbi də bitirməmişdi, kefinin kök vaxtlarından birində, dediyi kimi, qırx yeddi illik ömründə bir dənə də kitab oxumamışdı və buna görə də, qalın-qalın kitablarda redaktor kimi Əlipaşanın adını görüb (o kitabları təsadüfən Əlipaşanın evində görmüşdü) təzə qonşusuna böyük hörmət göstərirdi, qurduğu məclislərdə Əlipaşa ilə açıq-aşkar fəxr edirdi. Əlipaşa ilə qonşu olandan sonra, Mürsəl hərdənbir, hətta, kitab mağazalarına girirdi və azərbaycanca təzə çıxmış qalın kitabları çox ciddi görkəmdə vərəqləməyə başlayırdı, Əlipaşanın adını axtarırdı, rast gələndə, elə bil, lotereyası udurdu, daxili bir sevinclə mağazadakı adamlara baxırdı, hətta iki dəfə özünü saxlaya bilməmişdi, cildləri gözəl olan həmin kitablardan – bir dəfə Drayzerin «Kerri bacı»sını, bir dəfə də Rəşad Nuri Güntəkinin «Çalı quşu»sunu – alıb gətirib qonaq otağında, gözlərinə cürbəcür büllur güldanlar, qənddanlar, qədəhlər düzülmüş dolabın görümlü yerlərindən birinə qoymuşdu. Düzdü, Mürsəl o iki kitabı oxumadı, amma hərdən şəstlə gəlib o iki kitabla üzbəüz dururdu, o iki kitaba baxırdı, sonra dolabın qabağında bir neçə addım o baş-bu başa var-gəl edirdi, səhərdən-axşamacan «Sağlamlıq» restoranının bufetində nəfəs aldığı o ab-havadan çox fərqlənən, əsl maariflə dolu yüksək bir hiss kişinin sinəsini qabardırdı və belə anlarda Mürsəl, nədənsə, gedib özünə çeşmək sifariş eləmək, çeşmək taxmaq istəyirdi.

Mürsəlin dostlarının arasında müfəttişdən tutmuş məşhur stomatoloqacan, futbol hakimindən tutmuş müstəntiqəcən çox adam var idi, amma iş belə gətirmişdi ki, yazı-pozu işləri ilə məşğul olan adam yalnız təzə qonşusu Əlipaşa idi və günlərin bir günündə Mürsəl Əlipaşanın qapısının zəngini basdı və Əlipaşadan yatsa yuxusuna girməyəcək bir xahiş elədi: Mürsəlin dostlarından biri səhiyyə nazirliyində işləyirdi, cürbəcür xəstəliklərin əleyhinə plakatlar buraxmaq istəyirdilər və bu barədə söz düşəndə, dostu həmin plakatlara qısa şerlər yazmaq üçün qələm ustası axtaranda, Mürsəl, əlbəttə, o saat Əlipaşanın adını çəkmişdi, həmişəki kimi, bu dəfə də dostlarının köməyinə gəlmişdi, indi də Əlipaşadan xahiş edirdi ki, həmin plakatlar üçün o qısa şerləri yazsın.

Ömründə ilk dəfə pendir, yaxud kolbasa, yaxud göy-göyərti, içki haqq-hesabı ilə yox, maarifçi bir işlə məşğul olduğu üçün, Mürsəl daxili bir coşğunluq, ruh yüksəkliyi içində idi və özü ilə səhiyyə nazirliyi adından müqavilə gətirmişdi, sifariş olunan plakatların mövzusu yazılmış bir qovluq səliqəli kağız-kuğaz gətirmişdi və bu xəbərin gözlənilməzliyindən özünü tamam-kamal itirmiş Əlipaşa heç özü də bilmədi ki, üçrəqəmli məbləğ yazılmış o müqaviləni (bütün ömründə ilk dəfə imzalayacağı o müqaviləni) necə imzaladı.

Züleyxa əvvəlcə bu işə çox şübhəli yanaşdı, sonra Əlipaşada qalan həmin imzalanmış nüsxəsini əvvəldən axıracan bir neçə dəfə diqqətlə oxuyub öyrəndi, sonra o səliqəli qovluqdakı kağızları bir-bir oxudu və doğrudan da, dünyanın qəribə işləri var idi. Mürsəl hara, Züleyxa hara? – amma Mürsəlin bayaqkı daxili coşğunluğu, ruh yüksəkliyi, elə bil ki, yavaş-yavaş Züleyxaya keçdi, Züleyxa Əlipaşanın yazı mizinin üstündən qızların dərs kitablarını, dəftərlərini götürdü, mizi səliqə-sahmana saldı, həmin daxili coşğunluqla, ruh yüksəkliyi ilə Əlipaşanın karandaşlarını yondu, qələmlərinin mürəkkəbini yoxladı, çay dəmlədi və axşam Əlipaşa yazı mizinin arxasında oturanda özündə heç vaxt hiss etmədiyi bir yaradıcılıq ehtirası hiss etdi, bütün həyatında ilk dəfə şer misraları yazmağa başladı.

Adətən, nəşriyyat işçiləri, nəşriyyata gəlib-gedən müəlliflər söhbət düşəndə, gülə-gülə, yaxud xəyala dala-dala deyirdilər ki, eh, cavanlıqda kim şer yazmayıb?! O zaman Əlipaşa səsini çıxartmırdı, çünki ömründə və o cümlədən də, cavanlığında heç vaxt şer yazmayan adamlardan biri elə özü idi.

Nə isə, ilk plakatın mövzusu bədəni istiyə-soyuğa öyrətməyin xeyrindən, yeyib-içməyə fikir verməkdən ibarət idi, bu barədə rəssam satirik şəkil çəkəcəkdi və Əlipaşa o çəkiləcək şəklin altındakı iki misranı belə yazdı:

Mən tez-tez oluram zökəm,
Çünki çox yeyirəm, kökəm.

Ikinci plakat oturaq həyat keçirməyin, hərəkətsizliyin əleyhinə olmalı idi və Əlipaşa bir xeyli yaradıcılıq iztirablarından sonra, çox götür-qoy edəndən, fikirləşəndən sonra bu iki misranı yazdı:

Maşınla gəzirəm mən hər saat,
Bununçun da olmuşam infarkt.

Yazı mizinin arxasında oturub o plakatların şerlərini yazdığı zaman birdən-birə Əlipaşaya elə gəldi ki, elə bil, həmin yaradıcı dəqiqələrdə nədən ötrüsə çox yeyənlərdən, ömründə trolleybusa minməyib maşınlarda gəzənlərdən, içki içənlərdən, siqaret çəkənlərdən intiqam alır; nəyin intiqamı idi? Nə üçün məhz intiqam almalı idi? Ürəyindəki o gizli kin-küdurət nə idi hələ? Bilmirdi, amma bu hiss Əlipaşanın xoşuna gəlmirdi, bu hissi özündən uzaqlaşdırmaq istəyirdi və buna görə də üçüncü plakatın şerini tamam kinsiz-küdurətsiz yazdı:

Əllərini yumazsan,
Dezinteriya tutarsan.

Axşam keçdi, gecə düşdü, Gülzar da, Sona da, Süsən də, o vaxt lap balaca olan Suğra da atalarının çox ciddi və vacib bir işlə məşğul olduğunu başa düşdükləri üçün cınqırlarını da çıxarmadan yerlərinə girib yatdılar, Züleyxa mane olmasın deyə heç bir söz demədən hərdənbir Əlipaşa işləyən otağa isti çay gətirdi və bu minval ilə Əlipaşa səhər, saat beşə qədər işlədi, plakatların hamısının şerini yazıb qurtardı və cəmi ikicə saat (səhər saat yeddiyə kimi: əvvəlcə birinci növbədə oxuyan Sonanı məktəbə aparmalı idi, sonra nəşriyyata işə getməli idi) yatdı, amma ömrünün ən şirin yuxusunu yatdı.

Ikinci gün axşam bufetdən yarım saatlıq qaçıb gəlmiş Mürsəl içəri girən kimi, Əlipaşa yazdıqlarının hamısını ona oxudu və həmin anlarda ürəyi yüksək maarifçi hisslərlə dolmuş Mürsəl də heyranlıqla başını bulaya-bulaya bu şerlərə qulaq asıb ağız dolusu təşəkkür elədi, Əlipaşanın yazdığı əsərləri qoltuğuna vurub apardı.

Iki gündən sonra Əlipaşa müqavilə üzrə ona çatacaq qonorarın hamısını alıb gətirib Züleyxaya verdi, amma o yaradıcılıq fəaliyyətinin, o üçrəqəmli məbləğin sevinci çox çəkmədi, çünki beş-altı gündən sonra pilləkəndə Mürsəllə rastlaşanda çox pis bir hadisə baş verdi.

Mürsəl açıq-aşkar bir kinlə (hətta nifrətlə!) Əlipaşaya baxa-baxa: « – Alə, – dedi, – sənin əlindən bir iş-zad gəlmirmiş ki, alə! Allah səni biabır eləsin, biabır eləmisən məni o boyda kişinin yanında!». Ayaq üstə çaşbaş qalmış Əlipaşaya haçandan-haçana məlum oldu ki, plakatlara yazdığı o şerlərin üstündə az qalıblar Mürəsəlin hörmətli dostunu (həmin kişini!) işdən çıxarsınlar, axırda xətir-hörmət qoyub şiddətli töhmətlə kifayətləniblər. Mürsəl yana-yana: «–Alə, elə də şer yazarlar? – dedi, sonra da o şerləri yamsıladı: – Dizenteriya oldum, mən nə bilim neylədim?.. Ay-hay! sən lap bisavadıymışsan ki, alə!..»

Həmin gündən sonra, Mürsəl, təbii ki, bir də heç vaxt Əlipaşanı evindəki məclislərə dəvət etmədi, blokun pilləkənlərində, ya həyətdə rastlaşanda ötəri bir salam verib keçdi və Əlipaşa hələ burasını bilmirdi ki, Mürsəl daha bir də heç vaxt kitab mağazalarına girib qalın kitabları vərəqləmədi, o yazıq Drayzerlə Rəşad Nuri əfəndinin kitablarını da o qonaq otağındakı dolabdan götürdü.

Ancaq bir dəfə Mürsəl yenə də Əlipaşagilin zəngini basdı və bir balaca çəkinə-çəkinə belə bir təklif etdi ki, bir dostu qəbiristanlıq işləri ilə məşğuldu, o adamın qəbir daşlarında yazdırmaq üçün təsirli şerlərə ehtiyacı var (yəni ki, həmin təsirli şerləri qəbiristanlıqda yatan o rəhmətliklərin qohum-əqrəbasına satacaqdı ki, əzizlərinin qəbir daşlarına həkk elətdirsinlər) və yox, yox, o şerləri Əlipaşa özü yazmasın, başqa böyük şairlərin şerlərindən dünyanın vəfasızlığı barədə misallar tapsın versin, o adam da nə qədər lazımdısa, bu zəhmətin haqqını ödəsin.

Bu, əlbəttə, asan bir iş idi, hələ tələbəlik illərində Füzulinin, Seyid Əzimin, Vahidin kitablırını almışdı və o kitablar indiyədək Əlipaşanın evdəki balaca kitabxanasında idi, amma Əlipaşa Mürsəlin bu yeni təklifini qəbul etmədi, yumurtasayağı balaca və dolu Mürsəl həmin anlarda Əlipaşanın gözlərində yeyib kökəlmiş qəbir qurdlarına oxşayırdı...

Qar bərkiyirdi və yavaş-yavaş təkcə tut ağacının dibindəki kiçik kvadrat torpaq sahələri yox, səkilərin qırağı, küçə eyvanlarının sürahiləri, hərdənbir küçədən ötən maşınların üstü də kağız kimi nazik qar layı ilə örtülürdü.

Əslində, yəni lap əslində, o «Temp-2»ni təhvil vermək, rəngli televizor almaq, bu qarlı cümə günü işdən sonra beləcə əlləri cibində (bir balaca da üşüyə-üşüyə...) univermağa getmək Əlipaşanın ürəyindən deyildi, çünki köhnə televizor indinin özündə də göstərirdi və bu qədər xərcə düşməyin, əziyyət çəkməyin mənası yox idi, amma Züleyxa belə qərara gəlmişdi və deməli, belə də olmalı idi, mübahisəyə ehtiyac yox idi.

Ümumiyyətlə, televizorun özü də dünyanın qəribə hadisələrindən biri idi; təkcə o mənada yox ki, elm, texnika inkişaf edib (bu, necə deyirlər, öz yerində!), ona görə ki, misal üçün, qədimlərdə göbək rəqsinə ancaq saraylarda padşahlar tamaşa eləyərdi, amma indi televizorda bütün camaat baxır, göbəyi də bütün ekran boyu göstərirlər, özü də rəngli...

## IKINCI FƏSIL

Şair Səlim Sürəyya keçən il Türkiyədən gətirdiyi (ora yaradıcılıq ezamiyyətinə getmişdi) kürkü çiyninə salıb «Sağlamlıq» restoranının qabağında var-gəl edirdi; beş dəqiqə bundan əvvəl məclisdən qalxıb su başına çıxmışdı və təzədən məclisə qayıtdığı zaman restoran dəhlizinin geniş pəncərəsindən get-gedə bərkiyən qarı görəndə, neçə müddətdən bəri təbiətin qoynunda olmadığı üçün özünü saxlaya bilmədi, asqıdan kürkünü götürüb çiyninə saldı və isti yeməklərin, konyakın, gözəl sağlıqların səbəbindən içəridən buğlana-buğlana küçəyə çıxdı.

Səlim Sürəyya hələ lap balaca ikən atası onu və anasını atıb, gedib başqa bir rayonda arvad almışdı və anası Səlim Sürəyyanı təkbaşına böyütmüş və Səlim Sürəyya da böyüyüb şer yazmağa başlayanda heç sifətini də yadına gətirmədiyi atasının yox, anası Sürəyyanın adını özünə təxəllüs götürmüşdü. Əlbəttə, arvad adını özünə təxəllüs götürmək çoxunun gülüşünə səbəb olurdu, amma Səlim Sürəyya həmin istehzalardan, gülüşlərdən, yuxarıda dayanırdı, çünki əsl sənətkar həmişə dedi-qodu söhbətlərindən, hisslərindən yüksəkdə dayanmağı bacarmalıyıdı və bu minval ilə bir müddət keçəndən sonra oxucuların və ən başlıcası isə, həmkarlarının qulağı bu ada öyrəşdi.

Səlim Sürəyyanın təxəllüslərindən yeganə bir adam narazı qaldısa, o da doğma atası oldu; günlərin bir günündə Səlim Sürəyyagilə balaca bir kişi gəldi və məlum oldu ki, həmin balaca kişi şairin doğma atasıdı; atası öz adını təxəllüs götürmədiyi üçün oğlunu xeyli məzəmmət etdi və Səlim Sürəyya da qabağında oturub onu danlayan və iştahla evdə olanlardan yeyən bu kişinin boynuna, arıq vücuduna, çənəsinin, əllərinin, qollarının, çiyninin, boğazının nazik sümüklərinə baxa-baxa heyrət içində donub qalmışdı ki, görəsən, doğrudan da, Səlim Sürəyya boyda cəmdəyin atası bu sısqa, bu cılız kişidi? Amma atası tək gəlməmişdi, boy-buxunda Səlim Sürəyya kimi əzəmətli bir qızla gəlmişdi və məlum oldu ki, həmin əzəmətli qız da Səlim Sürəyyanın bacısıdı, atası rayondan gətirmişdi ki, Səlim Sürəyya kömək eləyib bu bacısını instituta düzəltsin. Əlbəttə, sənətkar gərək xırda hisslərdən yüksəkdə dayanmağı bacarsın və Səlim Sürəyya da özünü oda-közə vurub, tanış-biliş tapıb təzə peyda olmuş bacısının instituta girməyinə kömək elədi, amma sonra da məlum oldu ki, həmin balaca, sısqa kişinin bu cür əzəmətli daha yeddi qızı var və həmin yeni bacıların hamısı ildən-ilə Bakıya gəlib, şairin evinə düşüb instituta girmək istəyirdilər... Nə isə...

Küçədən ötənlərin bəzisi şair Səlim Sürəyyanı görüb tanıyırdı, çönüb baxırdı, him-cim ilə onu bir-birlərinə göstərirdilər və tanımadığı yad adamların maraq dolu bu baxışları da, bayaq məclisdə şərəfinə söylənən o sözlər də, hər halda, həyatını əbəs yerə yaşamadığından xəbər verirdi: xalq Səlim Sürəyyanı tanıyırdı və bunu fikirləşəndə həmin qarlı cümə günü Səlim Sürəyyanın onsuz da konyakdan, isti restoran havasından qızışmış bədəninə daha artıq bir hərarət gəldi və Səlim Sürəyya burasını da hiss etdi ki, indicə ürəyindən xalqımız haqqında, vətənimiz haqqında gözəl misralar axıb gələcək, amma elə bu vaxt əllərini nimdaş qara paltosunun ciblərinə soxub, fikirli-fikirli küçə ilə üzüyuxarı qalxan Əlipaşanı gördü.

O qarlı cümə günü «Sağlamlıq» restoranının qabağında var-gəl elədiyi həmin anlarda şair Səlim Sürəyyanın ürəyində yer üzündəki bütün insanlara sonsuz bir məhəbbət var idi və əlbəttə, Əlipaşa da həmin insanlardan biri idi, universitetdə bir yerdə oxumuşdular, Əlipaşanın bu qara nimdaş paltosu, bu fikirli-zikirli sifəti bu gözəl qarlı gündən çox seçilirdi, bu gözəl qarlı günün «Sağlamlıq» restoranının qabağındakı ab-havasından çox fərqlənirdi və doğrusu, elə bil, Səlim Sürəyyanın qəlbindəki sarı simə titrək, xəfif, incə bir mizrab toxundu və şair böyük qollarını geniş açıb qüdrətli sinəsini irəli verdi, iti addımlarla Əlipaşanın qabağına yeriyib gur səsi ilə:

– Əzizim! Mənim əzizim! – dedi və daha başqa bir söz tapmayıb, o sarı simin titrəyişindən dolmuş gözləri ilə bir neçə an Əlipaşanın gözlərinin içinə baxdı, sonra Əlipaşanı bərk-bərk qucaqlayıb bağrına basdı.

Əlipaşa küçənin ortasında birdən-birə belə bir coşğun ehtiraslı görüş gözləmirdi və şair Səlim Sürəyyanın qollarının arasında qalıb bilmirdi ki, nə eləsin, amma şairin kürkünün astar tərəfdən yumşaq yunu sifətinə dəydikcə, şairin isti nəfəsini duyduqca, şairin sinəsinin, qollarının qüdrətini hiss etdikcə, elə bil bu gözlənilməz görüşün səmimiyyəti, mehribanlığı Əlipaşaya da sirayət etdi, Əlipaşa da imkanı daxilində Səlim Sürəyyanı qucaqladı, hətta az qaldı Əlipaşanın da gözləri dolsun; düzdü, Səlim Sürəyyanın isti nəfəsi açıq-aşkar tünd konyak iyi verirdi, amma, elə bil, o dəm o konyak iyinin özü də səmimiyyətə çağırırdı və həmin səmimiyyətdə bir yerdə oxuduqları o gözəl çağlardan, o gözəl tələbəlik illərindən, gənclik illərindən ötən iyirmi yeddi-iyirmi səkkiz ilin qürbəti, kövrəkliyi var idi.

Əlipaşa universitetdə bir yerdə oxuduqları başqa tələbə yoldaşlarına nisbətən Səlim Sürəyyanı daha tez-tez görürdü, çünki Səlim Sürəyya tez-tez nəşriyyata gəlirdi; düzdü, müfəssəl hal-əhval tutmağa bir o qədər də vaxt olmurdu (yəqin ki, Səlim Sürəyya tərəfdən bir o qədər həvəs də olmurdu, amma Əlipaşa heç vaxt bunun fərqinə varmazdı), şair həmişə tələsirdi; eləcə salamlaşırdılar, «nə var, nə yox?» və bir dəfə Əlipaşa öz gözləri ilə görmüşdü ki, Səlim Sürəyya kabinetə girən kimi, müdir Əlimuxtar müəllim Əlipaşanın uzatdığı nəşriyyat kağız-kuğuzunu bir tərəfə itələyib ayağa qalxdı, qapının ağzınacan gedib şairi qarşıladı.

Səlim Sürəyya, nəhayət, Əlipaşanı buraxdı və bu dəfə rus dilində:

– Doroqoy moy! – dedi. – Gedək! – Və Əlipaşanı özü ilə darta-darta «Sağlamlıq» restoranının iri qapılarına tərəf apardı.

Əlipaşa:

– Hara gedirik? Axı, hara gedirik, ay Səlim müəllim?.. – deyirdi, amma heç bir cavab almırdı.

Içəri girib restoranın asqısının qabağında dayananda Səlim Sürəyya bir zəndlə Əlipaşanın gözlərinin içinə baxdı, özünü saxlaya bilmədi, təzədən tələbə yoldaşını bərk-bərk qucaqlayıb yenə də rus dilində:

– Tı moy rodnoy! – dedi, özü o nimdaş qara paltonu Əlipaşanın əynindən çıxartmağa başladı.

Əlbəttə, Əlipaşa başa düşdü ki, Səlim Sürəyya onu yeyib-içməyə aparır və o rəngli tetevizorun narahatlığı ürəyində bir nigarançılıq əmələ gətirdi, amma qəribə idi, Əlipaşa qəti bir hərəkət eləyə bilmədi, yəni Səlim Sürəyyanın dəvətinə qəti etiraz eləyə bilmədi, çünki... çünki o nigarançılıqda nəsə başqa bir şey də var idi və o «başqa şey»də gizli bir hərarət, istilik var idi; məsələ onda deyildi ki, Əlipaşagilin evində heç vaxt qonaqlıq olmazdı, Züleyxa yaxşı xörəklər bişirərdi, amma içki heç vaxt olmazdı, bayramlarda da həmişə qayınanasıgilə gedərdilər və orada da, adətən,

içki olmazdı (düz altı gündən sonra, bu dəfə, səksən beşinci ili qayınanasıgildə qarşılayacaqdılar) və ümumiyyətlə, Əlipaşa yemək-içmək məclislərində çox az olardı, ildə, iki ildə bir dəfə Züleyxa ilə birlikdə hansı qohumunsa (əsas etibarilə Züleyxa tərəfdən) toyuna gedərdi, vəssalam (bir də ki, təzə evə köçdükləri ilk vaxtlar qonşusu Mürsəlin məclislərində); yəqin əsas məsələ burasında idi ki, Əlipaşanın ürəyinin lap dərinliklərində birdən-birə nəsə bir ərəfə hissi, daha doğrusu, bir ərəfə sevinci, ərəfə şövqü əmələ gətirmişdi.

Asqıçı kişi Əlipaşanın əynindəki o qara nimdaş paltonu çıxartmaqda Səlim Sürəyyaya kömək elədi, sədaqət, məhəbbət və ehtiram dolu gözləri ilə şairə baxıb, nədənsə, başını tərpədə-tərpədə gülümsədi, sonra Əlipaşaya baxdı və Əlipaşa hiss etdi ki, asqıçı kişinin gözlərindəki həmin sədaqətdən, məhəbbətdən, ehtiramdan bu dəqiqələrdə onun da payına nəsə düşür və burası Əlipaşanın heç xoşuna gəlmədi, çünki sədaqət də, məhəbbət də, ehtiram da sədəqə deyildi; Əlipaşa qəddini düzəltdt, boynundakı şərfi, sulu qardan islanmış yaşıl şlyapasını başından çıxarıb özü asqıçıya verdi, pencəyinin döş cibindən darağını çıxarıb saçlarını daradı, Səlim Sürəyya isə kürkünü asqının sürahisinin üstünə atdı və ikisi də bir yerdə dəhlizdən keçib zalın qapısına tərəf getdi.

Qəribə idi, indicə küçədə Əlipaşa Səlim Sürəyyanın güclü qolları arasında bilmirdi ki, nə eləsin, çolpa bıçaq altında çapalayan kimi, Səlim Sürəyyanın qolları arasında çapalayırdı, amma elə ki, o asqıçı kişi gözləri ilə Səlim Sürəyya üçün nəzərdə tutulmuş sədaqətdən, məhəbbətdən, ehtiramdan ona da bir pay sədəqə verdi, Əlipaşa özü daxilən hiss etdi ki, nəsə başqa bir adam oldu, çünki Əlipaşanın da, Züleyxanın da heç bir sədəqəyə ehtiyacı yox idi və bütün bunlar, əlbəttə, belə idi, amma qapını açıb zala girəndə o tərəddüd, o qətiyyətsizlik və ən başlıcası isə, o nigarançılıq təzədən Əlipaşanın ürəyini bürüdü.

Əlipaşa elə bilirdi ki, restoranda Səlim Sürəyya ilə ikisi üzbəüz oturub dərdləşəcəklər, o gözəl tələbəlik illərini yada salacaqlar, hətta bu iyirmi altı-iyirmi yeddi ildə vaxtsız həyatdan getmiş bir neçə tələbə yoldaşları bir-bir Əlipaşanın gözlərinin qabağına gəlmişdi, çünki Əlipaşa istəyirdi ki, bir halda ki, beləcə gözlənilməz rastlaşdılar, bir halda ki, beləcə restorana gedirdilər, onda gərək o dostların ruhunun şərəfinə söz desinlər, amma içəri girən kimi, məlum oldu ki, əhvalat başqa imiş, təxminən iyirmi nəfərlik böyük bir məclisin şıdırğı vaxtı imiş və o böyük məclisdə elə hörmətli adamlar oturmuşdu ki, Əlipaşa onların çoxunu ancaq televizorda və bəzən də iclaslarda görmüşdü və məclisdəki o adamların arasında Əlipaşa Əlimuxtar müəllimi də gördü.

Səlim Sürəyya əzəmətli sağ qolu ilə Əlipaşanı qucaqlayıb qoltuğuna sıxdı və restoran boyu iti addımlarla məclisə yaxınlaşıb gur səsi ilə:

– Görün məclisimizə kim təşrif buyurub! – dedi və Səlim Sürəyyanın səsi o dəm o «Sağlamlıq» restoranında elə guruldadı ki, nəinki məclisin iştirakçıları, hətta kənar mizlərin arxasında oturmuş başqa adamlar da səslərini kəsib Əlipaşaya tərəf boylandı və şairin səsi məclis adamlarına necə təsir etdisə, Əlipaşanın gəlişinə hamı hay-küylə sevindi, kimi ayağa qalxdı, kimi əl çaldı, kimi «ura» qışqırdı, Səlim Sürəyya isə, qolunu daha geniş açıb Əlipaşanı bağrına basdı, o üzündən, bu üzündən öpdü...

Mürsəlin gözləri kəlləsinə çıxdı və kolbasa əvəzinə az qaldı barmağını kəssin...

Güclə Səlim Sürəyyanın qucağından çıxan Əlipaşaya məlum oldu ki, bu gün – bu qarlı cümə günü universitetdə bir yerdə oxuduqları Məlik Həşimli filologiya üzrə doktorluq dissertasiya müdafiə edib və bu məclis də həmin münasibətlədi; mizin üstündəki araq, konyak, çaxır şüşələrinin boşalanı boşalmışdı, boşalmayanı da hələlik yarımçıq idi; Məlik xüsusi olaraq mizin arxasından çıxdı, gəlib Əlipaşanı qucaqladı:

– Səni tapa bilmədim... – dedi, yəni ki, səni tapa bilmədiyim üçün bu məclisə dəvət etməmişəm və əlbəttə, Məlik yalan deyirdi, çünki dünyada Əlipaşanı tapmaqdan asan bir şey yox idi (və Əlipaşa özü də bunu çox gözəl bilirdi), ya nəşriyyatda olacaqdı, ya da evdə, amma Məliyin bu gözgörəti yalanı Əlipaşaya bir o qədər də təsir etmədi, çünki Məliyin gicgahlarında ağappaq ağarmış saçlar Əlipaşaya çox təsir etdi: neçə illər idi ki, Əlipaşa Məliyi beləcə yaxından görməmişdi, televizorda görürdü, bəzən iclaslarda görürdü (Məlik həmişə rəyasət heyətində otururdu), amma beləcə yaxından son illərdə birinci dəfə idi ki, görürdü və o ağappaq ağarmış saçlar bu dəm Əlipaşaya həyatın səsçatmaz, ünyetməz bir sürətlə keçib getməyindən xəbər verirdi və Əlipaşa özü də Məlik kimi, Səlim Sürəyya kimi, yer üzünün bütün məxluqatı kimi, həmin sürətlə gedən qatarın içində idi – qatar beləcə bir sürətlə əvvəldən axıra aparırdı və axır yaxınlaşırdı (əvvəllər Əlipaşa heç vaxt belə şeylər barədə fikirləşməzdi, amma son zamanlar hərdənbir fikirləşirdi...).

Məlik universitetdən sonra aspiranturanı da qurtardı, namizədlik dissertasiyası müdafiə etdi, Məliyin məqalələri səs saldı, Məlikdən söz düşəndə hamı bu fikirdə idi ki, söhbət gələcəyin akademikindən gedir, amma Məlik yavaş-yavaş hörmətli vəzifələrə keçdi, yavaş-yavaş ədəbiyyatdan uzaqlaşdı, bir müddət beləcə davam etdi, sonra o hörmətli vəzifələr daha bir-birini əvəz etmədi, indi Məlik son on iki-on üç ildə eyni bir vəzifədə işləyirdi; nə yuxarı qalxırdı, nə də aşağı düşürdü, hər dəfə hardasa daha yüksək bir vəzifə boşalanda o saat şayiə yayılırdı ki, həmin vəzifəyə Məliyi qoyacaqlar, amma Məliyi heç hara qoymurdular və o zaman ki, vəzifə barədə şayiə yayılırdı – «Məliyi nazir qoyurlar», yaxud «Məliyi komitəyə sədr aparırlar» – doğrusu, Əlipaşa bu şayiənin düz olub-olmayacağını səbrsizliklə gözləyirdi və o səbrsizlikdə qəribə bir hiss var idi: əlbəttə, Məlik Əlipaşa ilə bir yerdə oxumuşdu, Məlik pis oğlan deyildi, Əlipaşa hardasa onun təəssübünü çəkirdi, amma bütün bunlarla bərabər, o səbrsizlikdə bir idman ehtirası, idman azarkeşliyi var idi.

Mizin arxasında, Məliklə Səlim Sürəyyanın arasında Əlipaşa üçün yer düzəltdilər, restoranın orkestri gurultu ilə nəsə çalmağa başladı, amma Səlim Sürəyya ayağa qalxıb əli ilə uzaqdan-uzağa orkestrə işarə elədi və bu məclisin iştirakçılarından da başqa, «Sağlamlıq» restoranında xeyli adamın yeyib-içməyinə baxmayaraq, orkestr o saat susdu və şair əvvəlcə astadan öz-özünə:

– Yuxarılarda da restoranlardakı kimi hörmətim olsaydı, yaxşı olardı... – dedi, sonra o sağlam, o gur səsilə, mirvari kimi bir-birinin ardına düzülən gözəl sözlərlə, lüğətlərin dərinində gizlənmiş gözəl ifadələri tapıb çıxara-çıxara Əlipaşanın şərəfinə çox gözəl bir sağlıq dedi, Əlipaşanın təvazökarlığından, güzgü kimi qəlbindən, uşaq kimi kövrəkliyindən, dostluqda sədaqətindən danışdı, ümumiyyətlə, yer üzündə təvazökarlığın, təmizliyin sədaqətin ucalığından, ülviliyindən danışdı və sonra şair özü dediyi o gözəl sözlərdən, işlətdiyi o gözəl ifadələrdən, elə bil ki, vəcdə gəldi, yaradıcı bir ehtirasla Əlipaşanın xalqa məhəbbətindən, vətənə məhəbbətindən danışdı, xalqın, vətənin əbədiliyindən dedi və məclisdəkilərin hamısı qədəhləri Əlipaşanın şərəfinə qaldırıb içdilər və restoranın orkestri də şair Səlim Sürəyyanın söylədjiyi sağlığın şərəfinə tuş çaldı...

...Mürsəl Zeynəbə baxdı, Zeynəb Mürsələ baxdı və ikisi də bir yerdə təəccüb, hətta, heyrət dolu gözlərini restoranın yuxarı başındakı məclisə dikdi...

Əlipaşaya elə gəlirdi ki, şairin söylədiyi o sağlıq kiminsə, tamam başqa bir adamın haqqındakı; restoranın enli pəncərələrindən küçədə yanan neon lampaları görünürdü və o lampaların işığında qar elə lopa-lopa yağırdı ki, külək qarı elə oynadırdı ki, Əlipaşa başını buladı: beşcə dəqiqənin içində qar necə artmışdı və Əlipaşa ayaqüstə durub məclisin adamlarına təşəkkürünü bildirə-bildirə əlində tutduğu bir qədəh arağı dibinə kimi başına çəkdi...

...Mürsəl o bir qədəh arağı birnəfəsə başına çəkən Əlipaşaya baxa-baxa:

– Ay bərəkallah! – dedi və həmişə hərəkətdə olan balaca və cəld gözlərini Əlipaşadan çəkib yenə də mat-mat Zeynəbə baxdı və Zeynəb də dünya görmüş adamlar kimi, başını tərpətdi, yəni ki, belədir dünyanın işləri...

Məsələ burasında idi ki, Zeynəb hər iki gündən bir, bəzən də hər gün axşamçağı «Sağlamlıq» restoranında bufetçi işləyən ərinin iş yerinə, yəni bu restorana baş çəkirdi, Mürsəl də bolqar pendirindən, fin kolbasasından, macar şorabasından, özümüzün toyuq soyutmasından, ət qızartmasından, qara, ya qırmızı kürüdən – bir sözlə, nə vardısa, ondan bir az artıq, bir az əskik kəsib götürürdü, səliqə-sahmanla büküb qoyurdu Zeynəbin həmişə boş gəlib dolu qayıdan yekə çantasına və həmin qarlı cümə günü də Zeynəb boş çantasını əlinə alıb ərinə baş çəkməyə gəlmişdi; yekə çanta «Sağlamlıq» restoranının işçiləri arasında o qədər məşhur idi ki, Zeynəbin bufetdə ərinin yanına gəlib-getməyini kənar gözlərdən gizlətməyə, ört-basdır eləməyə heç bir ehtiyac yox idi, hamı buna adət eləmişdi, necə ki, müştərilər gəlib yeyib-içib, pulunu verib gedirdi, necə ki, sağlıqlar deyilirdi, rəqs edilirdi, çirkli qab-qaşıqlar yığışdırılırdı, külqabılar boşaldılırdı, o cür də Zeynəb axşamlar boş zənbillə bufetə gəlib dolu zənbillə evlərinə qayıdırdı.

Məşhur qələm ustası Səlim Sürəyyanın Əlipaşanı qucaqlayıb gətirməsi, restoranın yuxarı başındakı hərarətlə, səs-küylə qarşılamağı, Səlim Sürəyyanın Əlipaşanı bağrına basıb öpməyi, sonra o cür gözəl, o cür ağıllı sözlərlə (o məclisdəki bütün söz-söhbətin hamısı Mürsəlin açıq bufetində aydın eşidilirdi) Əlipaşanın şərəfinə sağlıq deməyi və adətən, içkini dodağına vurub yerə qoyan Əlipaşanın (Mürsəl bunu qabaqlar öz evindəki məclislərdə görmüşdü) o bir qədəh arağı birnəfəsə başına çəkməyi Mürsələ də, Zeynəbə də son dərəcə təsir etmişdi.

Zeynəb iri qara gözləri ilə Əlipaşaya tərəf işarə eləyib:

– Sənə deyirdim də, belənçinə fağırlığına baxma bunun, bicin biridi, inanmırdun!.. – pıçıldadı, sonra yenə Əlipaşaya baxdı və həmin cümə günü o «Sağlamlıq» restoranında Zeynəb, elə bil, birdən-birə kəşf elədi ki, yeddi ilin qonşusu kimi, demək olar ki, hər gün ya həyətdə, ya pilləkənlərdə, ya eyvanda gördüyü bu adam, bu sakit, bu dinməz adam, yəni Əlipaşa əməlli-başlı yaraşıqlı bir kişidi...

Əlipaşa açıq-aşkar hiss etdi ki, o bir qədəh araq onu az qala kefləndirib, hər halda, elə bil, yaz gəlmişdi, Əlipaşanın, az qala, qanı qaynamağa başlamışdı, amma əslinə qalsaydı, Əlipaşa bayaq küçədə Səlim Sürəyya ilə qucaqlaşandan bəri keflənməyə başlamışdı: məsələ onda deyildi ki, şair Səlim Sürəyyanın isti nəfəsi tünd konyak qoxusu ilə dolu idi; məsələ onda idi ki, elə bil, Səlim Sürəyya qüdrətli qolları ilə Əlipaşanı qucağına alıb, tamam başqa bir aləmə aparırdı və o aləm Əlipaşanın gündəlik həyatından, güzəranından çox fərqlənirdi və ən başlıcası isə, Əlipaşa özü də bunu çox yaxşı hiss edirdi, duyurdu.

Indi «Sağlamlıq» restoranında, hörmətli adamların, o cümlədən müdir Əlimuxtar müəllimin iştirak etdiyi bu məclisdə oturub və bu dəfə də Məliyin dediyi sağlığa qulaq asan Əlipaşaya elə gəldi ki, bayaq Səlim Sürəyya onu qucaqlayanda, onu gündəlik həyatından fərqlənən həmin aləmə aparanda, əslində Əlipaşanın özü o aləmə can atırmış, çünki Əlipaşanın ürəyində nə vaxtdan bəri o aləm üçün bir həsrət yaranmışmış, Əlipaşa özü nəşriyyatda başlayıb evdə qurtaran həyatından qaçıb harasa getmək istəyirmiş, Səlim Sürəyya ilə bu gözlənilməz görüş də onun üçün fürsət imiş və Əlipaşa fikirləşdi ki, hərgah doğrudan da, ürəyində elə bir həsrət qubar bağlayıbmışsa, onda, çox pis, onda, ona, yəni Əlipaşaya ayıb olsun... çünki, belə imişsə, onda bu, xəyanət idi, nəyə xəyanət idi? Kimə xəyanət idi? Bilmirdi, amma, hər halda, xəyanət idi... sonra o asqıçı kişinin gözlərindəki həmin sədəqə payı yadına saldı və bir qədəh arağın təsiri, elə bil ki, xeyli azaldı.

O qar nə yaman bərk yağırdı elə?..

O çox uzaq illərdə ki, universitetdə bir yerdə oxuyurdular, onda başını aşağı salıb sürətlə mühazirə yazmaqdan Əlipaşanın sağ əlinin qələm tutan barmaqları döyənək bağlamışdı. Məlik isə, ömründə heç vaxt mühazirə yazmazdı, amma elə ki, imtahanlar başlayırdı, Məlik Əlipaşadan yaxşı cavab verirdi, çünki Məliyin zehni Əlipaşanın zehnindən çox iti idi və burada Əlipaşa üçün təəccüblü bir şey yox idi.

Qara bax e...

Məliyin pencəyi həmişə düyməli olardı, qalstuku həmişə səliqə ilə ağ köynəyinin ortasında dayanardı (hər halda, rəyasət heyətlərində oturanda, televizorda danışanda belə olardı), amma indi pencəyinin yaxası açıq idi, qalstukunun düyünü sürüşüb bir tərəfə əyilmişdi, gözlərində bir rahatlıq var idi və gözləri xumarlanırdı, sözləri də, az qala, Səlim Sürəyya kimi, bir-birinin ardınca düzürdü və Məlik hərdənbir əlində tutduğu qədəhə baxa-baxa elmin, ədəbiyyatın daimi olduğundan, dünyadakı bütün vəzifələrin isə müvəqqəti olduğundan danışdı. Hüseyn Caviddən gözəl bir şeri əzbər söylədi və Məlik də fırladıb-fırladıb birdən-birə gözlənilmədən gəlib Əlipaşanın üstünə çıxdı, bu sadə, bu təvazökar Əlipaşanın əslində çox-çox yüksəklərdə dayandığından danışdı, çünki sadəlik, təvazökarlıq da sənət kimi əbədi bir vergi idi; təzədən Əlipaşanın şərəfinə qədəh qaldırmağı, dübarə Əlipaşanın sağlığına içməyi təvəqqe etdi.

Əlipaşa özü də hiss etdi ki, qızarır, çünki diqqət, tərif həddini aşırdı və yenə də ayağa qalxdı, yenə onun sağlığına içənlərə bir-bir baş əyib təşəkkürünü bildirdi, əlində tutduğu qədəhdəki arağı bu dəfə də birnəfəsə başına çəkdi...

...Mürsəl:
– Day sənə sözüm yoxdu mənim!.. – pıçıldadı, Zeynəb isə yavaş-yavaş şövqlə işıldamağa başlayan iri qara gözləri ilə Əlipaşanı başdan-ayağacan nəzərdən keçirdi...
Düzdü, restoranın orkestri Məliyin söylədiyi sağlığın şərəfinə tuş çalmadı, amma müdir Əlimuxtar müəllim qədəhini xüsusi olaraq Əlipaşaya tərəf uzatdı:
– Sağ ol, əzizim, – dedi. – Sənin sağlığına!.. – Gülümsədi və içdi.
Müdir Əlimuxtar da araq içdi, üstündən pomidor şorabası yedi, amma içəndə heç gözünü də qırpmadı.
Əlbəttə, müdir Əlimuxtar müəllim də insan idi, Əlimuxtar müəllim də yer üzünün bütün bəndələri kimi, yeyə bilərdi, gülə bilərdi, amma Əlipaşa heç cür ağlına sığışdıra bilmirdi ki, müdir Əlimuxtar müəllim araq içib, üstündən də beləcə pomidor şorabası yeyər; nə üçün? burada nə qəribə iş vardı və arağın üçtündən pomidor yemək nə qəribə hadisə idi – bilmirdi, amma Əlipaşa məhz o nəzakətli, həmişə gülümsəyən, eyni zamanda çox ciddi bir adam olan, nəşriyyatda kimsə işə bircə dəqiqə belə geciksə, həmin adamdan yazılı izahat tələb eləyən və hamının gözünü açıb nəşriyyat müdiri gördüyü Əlimuxtar müəllimin beləcə araq içib, gözünü qırpmaması, üstündən də gündəlik bir şey kimi, şoraba pomidor yeməyi Əlipaşanın ağlına sığışmırdı; hər halda, bu da dünyanın təəccüblü işlərindən biri idi.
Sən bir qara bax...
Şair Səlim Sürəyya gur səsinin imkanı daxilində yavaşdan:
– Tı moy doroqoy! – dedi. – Sən bizə baxma, ye! Biz səhərdən bəri burda yeyirik. Arağı ki, içdin, gərək yeyəsən! Bizə baxma sən!.. – Sonra şair əlini uzadıb mizin ortasındakı boşqabdan qızardılmış iri bir toyuq budu götürdü və budu yuxarıdan aşağı dişinə elə çəkdi ki, çılpaq sümükləri ağappaq ağardı.
Əlipaşa özünü saxlaya bilməyib güldü:
– Yaxşı ki, hələ möhkəm yemisən!.. – dedi və elə bil, bu sözlərlə ürəyindəki o nigarançılıq, o sıxıntı, o götür-qoylar yavaş-yavaş çıxıb getməyə başladı, elə bil, darısqal, qaranlıq, içindəki həpir-çupuru nəm çəkmiş bir örtülmüş pəncərələri taybatay açdı, içəri təmiz hava doldu, işıq doldu və Əlipaşa heç özü də bilmədi ki, necə ayağa qalxdı, necə sağlıq söyləməyə başladı; əvvəlcə ürəyi bərkdən döyündü, əlində tutduğu qədəh titrədi, amma get-gedə Əlipaşa özü də hiss etdi ki, yaxşı danışır, ürəyi sakitləşməyə başladı, əlindəki qədəh əvvəlki kimi titrəmədi, hətta sağlığı deyə-deyə beynindən belə bir fikir keçdi ki, sən demə, sağlıq demək, özü də lap bu cür hörmətli məclislərdə sağlıq demək elə çətin bir iş deyilmiş və qabaqlar hərdənbir Züleyxa ilə qohum-əqrəbanın toyuna gedəndə bütün toy boyu nahaq nigarançılıq çəkirmiş ki, birdən ona söz verərlər, birdən məcbur olar ki, sağlıq desin və deyə bilməz, biabır olar; o unudulmaz universitet illərini xatırladı, Məliyin cavanlığını, şair Səlim Sürəyyanın cavanlığını məclisdəkilər üçün təsvir etdi, onlara dərs deyən və indi həyatda olmayan məşhur professorları yada saldı, ötüb gedən illərdən danışdı, dedi ki, həqiqətin gözünə dik baxmaq lazımdı, bu məclisə təsadüfən gəlib çıxıb, amma bu təsadüfün özündə bir gözəllik var, çünki onu bu dəqiqə bu məclisə bağlayan hisslər dünyanın ən təmiz, ən pak hissləridir və Əlipaşa ürəkləri birləşdirən o təmiz, o pak hisslərin şərəfinə içməyi təklif etdi.

Əlipaşa danışanda Səlim Sürəyya orkestrə işarə edərək əlini yuxarı qaldırmışdı və elə ki, Əlipaşa sağlığını deyib qurtardı, Səlim Sürəyya əlini aşağı saldı, orkestr şairin xasiyyətinə yaxşı bələd olduğu üçün, o saat Əlipaşanın söylədiyi sağlığın şərəfinə tuş çaldı. Məlik də, Səlim Sürəyya da qalxıb Əlipaşanı qucaqladı, öpdü, bir neçə başqası da gəlib Əlipaşanı qucaqladı, öpdü və ən təsirlisi bu oldu ki, müdir Əlimuxtar müəllim də durub gəlib Əlipaşanın qabağında dayandı və Əlipaşa heyrət içində baxıb gördü ki, müdir Əlimuxtar müəllimin gözləri dolub, Əlimuxtar müəllim də onu qucaqlayıb öpdü.

– Sağ ol! – dedi. – Çox sağ ol! – Və gözlərinin yaşını sildi. – Yaxşı dedin! Sənin sağlığına! – Əlində tutduğu qədəhdəki arağı içdi, heç gözünü də qırpmadı.

Səlim Sürəyya isə içəndən sonra üz-gözünü elə turşutdu ki, elə bil bundan sonra bir də heç vaxt dilinə konyak vurmaz və bu dəfə üz-gözünü eləcə turşudub əlindəki boş qədəhi mizin üstünə qoydu və yenə də əli ilə orkestrə işarə elədi; orkestr o saat şairin çox sevdiyi «Xançobanı» rəqsini çaldı, klarnet mikrofonun qabağına gəldi, zildən bir solo başladı, şair yerindən qalxdı, qollarını geniş açıb oynaya-oynaya Əlipaşanın qabağına gəldi və bu zaman Əlipaşanın yatsa da yuxusuna girməyəcək bir hadisə baş verdi: Əlipaşa ayağa qalxdı, qollarını açdı və ikisi də oynaya-oynaya mizin arxasından çıxıb restoranın rəqs meydançasına gəldilər.

Əlipaşa axırıncı dəfə haçan oynamışdı? Yadına gəlmirdi və əslində, heç yadına gətirmək də istəmirdi, öz oyunu özünə ləzzət eləyirdi, orkestrin çaldığı musiqi, şair Səlim Sürəyyanın beləcə ürəklə, hoppanıb düşə-düşə oynamağı və ümumiyyətlə, bu «Sağlamlıq» restoranında Səlim Sürəyyanın beləcə hörmətli olmağı Əlipaşaya ləzzət eləyirdi, bir yerdə oxuduqları, o uzaq və o gözəl tələbəlik çağlarında səhərdən-axşamacan bir yerdə oxuduqları Məliyin doktorluq dissertasiyası müdafiə etməyi, Məliyin məclisinə bu cür hörmətli adamların yığılmağı Əlipaşaya ləzzət eləyirdi və Əlipaşa «Sağlamlıq» restoranının o rəqs meydançasında hiss etdiyi həmin ləzzətlə də oynayırdı...

...Zeynəb çoxdan çıxıb getməli idi, amma heç cürə özünü vadar eləyib gedə bilmirdi və Əlipaşanın o cürə sağlıq deməyi, indi də ortaya düşüb şair Səlim Sürəyya ilə bu cürə oynamağı Mürsələ də o qədər təsir etmişdi ki, arvadına bir söz demirdi; elə ki, klarnet zildən bəmə düşdü, elə bil, Zeynəbin də ürəyində nəsə bir nisgil sızıldadı, sonra səhərdən bəri əlində tutduğu dolu zənbili (yəni «Sağlamlıq» restoranının bufetində dolmuş zənbili) adəti üzrə bir neçə dəfə tərpətdi, elə bil ki, çəkisini yoxlayırdı və heç Mürsəlin üzünə də baxmayıb bufetdən aralandı, restoranın ortasında rəqs eləyən adamların arasından, o cümlədən. Əlipaşa ilə şair Səlim Sürəyyanın yanından ötüb getdi və Əlipaşa Zeynəbi heç görmədi də...

Səlim Sürəyya oynaya-oynaya şalvarının cibindən bir dənə qırmızı onluq çıxartdı və oynaya-oynaya da yaxınlaşıb o qırmızı onluğu klarnetçalanın həmin onluq kimi qırmızı pencəyinin cibinə basdı və doğrusu, o dəm Əlipaşa da istədi ki, cibindən bir dənə onluq, heç olmasa. bir dənə göy beşlik çıxarıb çalğıçılara versin, amma çıxartmadı, rəngli televizor yadına düşdü, sonra necə oldusa, birdən-birə yenə də küçədə səki boyu əkilmiş ağacların dibindəki o kvadrat torpaq parçalarını xatırladı, Əlipaşaya elə gəldi ki, həpir-çupuru nəm çəkmiş həmin otağın pəncərələrini yenə də bağlamaq istəyirlər və elə bil o pəncərələrin bağlanmaması, açıq qalması üçün də Əlipaşa daha artıq bir həvəslə, daha artıq bir şövqlə oynamağa başladı. Səlim Sürəyyanın qırmızı onluğundan sonra klarnet xüsusi olaraq cuşa gəldi, şair o klarnetin sürətindən geri qalmaq istəmədi, puçur-puçur tər tökə-tökə restoranın meydançası boyu dövrə vurdu, Əlipaşa da şairdən geri qalmadı, oynaya-oynaya şairin ardınca meydan boyu dövrə vurdu və birdən qışqıra-qışqıra:

– Sağlıq var! – dedi.

Səlim Sürəyya əlini yuxarı qaldırdı, klarnet o saat susdu, orkestr də səsini kəsdi və şairlə Əlipaşa restoranda oturmuş razılıq bildirən xumar baxışlar altında tövşüyə-tövşüyə öz yerlərinə qayıtdılar, Əlipaşa dolu qədəhini yuxarı qaldırdı, tövşüyə-tövşüyə də bərkdən:

– Əziz dostlar!.. – dedi və nəfəsini dərdi. – Əziz dostlar! Musiqinin şərəfinə! – Və Əlipaşa bu gün bu məclisdə oturmuş adamların hamısına və ümumiyyətlə, yer üzündəki bütün insanlara xoşbəxtlik arzuladı, arzu elədi ki, hamının evindən həmişə musiqi sədaları gəlsin, hamı həmişə şadlıq içində olsun; məclisin iştirakçıları Əlipaşanın dediyi sağlığa içdilər, Əlipaşa özü də qədəhindəki arağı içdi, yerində oturdu və bir-bir bu məclisin adamlarına baxdı.

Əlipaşa bu adamların bəzisi ilə, tanış idi (nəşriyyata gəlib-gedirdilər, kitabları çıxırdı), bəzisini isə ancaq uzaqdan-uzağa tanıyırdı, televizorda görmüşdü, əsərlərini oxumuşdu və Əlipaşanın, əlbəttə, bu adamların heç birindən acığı gəlmirdi, niyə axı acığı gəlməliyidi? Əksinə, bu adamların hamısı birdən-birə Əlipaşa üçün doğma olmuşdu, amma bir məsələ var idi... bir məsələ var idi ki, Əlipaşa bu adamların, bu hörmətli adamların heç birindən, necə deyərlər... heç birindən... Əlipaşa o sözü dəqiq tapa bilmirdi, amma, hər halda, bu adamların heç birindən... heç birindən əskik kişi deyildi, vallah, belə idi, hətta bu dəm Əlipaşanın, nədənsə, Əlimuxtar müəllimə bir balaca yazığı da gəlməyə başlamışdı. Ona görə ki, arağı içib heç gözünü də qırpmırdı, ya ona görə ki, müdir Əlimuxtar müəllim indi bu məclisdə oturanların yanında ikinci dərəcəli bir adam kimi görünürdü? Bilmirdi, amma birdən-birə Züleyxa Əlipaşanın yadına düşdü, Gülzar, Sona, Süsən, Suğra yadına düşdü, beləcə qış günləri səssiz-küysüz evlərində bir yerdə oturub soğanbozbaşı, dovğa, ət olanda yarpaq dolması, (sarımsaq qatıqla!), toyuq olanda çığırtma yeməkləri yadına düşdü, gecələr o rahat, o enli çarpayıda Züleyxa ilə bir yerdə yatmaqları, hər gecə azı iki dəfə, üç dəfə yuxudan oyanıb, qalxıb o biri otaqda yatmış qızların üstünə baxmağı, yorğanı üstlərindən atıblarsa, üstlərini təzədən örtməyi, çaydanı su ilə doldurub qazın üstünə qoymağı, tələsik geyinib, gedib çörək dükanından uşaqlar üçün təzə, isti çörək alıb gətirməyi Əlipaşanın yadına düşdü və Əlipaşa yenə də ayağa qalxdı.

Küçənin neon işıqları restoranın geniş pəncərələrinin qabağında eləcə yanırdı.

Bayırın o qarı nə gözəl yağırdı...

Əlipaşa dedi:

– Əziz dostlar! Əziz dostlar, mənim bu əziz gündə bir dənə arzum var! Mən sizin heç birinizdən heç vaxt heç nə xahiş eləməyəcəyəm! Amma indi bir dənə arzum var! Məlik, qardaşım, düzdü, içmişəm mən, amma, vallah, ömrümdə bu cür ciddi xahişim olmayıb! Qardaşım, mən istəyirəm ki, sənin bu gözəl günündə, sənin bir köhnə dostun kimi, Məlik, bax, bizim bu məclisimizin, sənin bu əziz qonaqlarının xərcini mən çəkim!

Əlipaşanın dediyi bu sözlər o qədər gözlənilməz oldu ki, əvvəlcə heç kim heç nə demədi, sonra Məlik bir qonaqlarına, bir də Əlipaşaya baxdı və gülümsəyib başını bulaya-bulaya:

– Mənim özümə bəyəm nə olub, ay Əlipaşa? – dedi. Sən niyə çəkməlisən mənim məclisimin xərcini?

Məlikin səsində, əlbəttə, bir balaca istehza var idi, amma Əlipaşa buna fikir vermədi, çünki Məliyin özü də, bu adamlar da bu gün onun, yəni Əlipaşanın qonaqları idi və Əlipaşa Məliyin o sözlərinə belə cavab verdi:

– Çünki, Məlik, sən mənim üçün əziz adamsan, bu məclisdəkilərin də hamısı mənim üçün əziz adamlardı!.. Çünki, Məlik, sənin bu gözəl günündə, mənim ürəyim belə istəyir, sən indi sındırmaq istəyirsən mənim ürəyimi?

Məclisin iştirakçılarının hamısı səsini çıxarmayıb bu söhbətin axırını gözləyirdi, təkcə müdir Əlimuxtar müəllim özündən asılı olmayaraq fikrində sürətlə bu məclisin haqq-hesabını hesablayırdı.

Məlik də xeyli içdiyinə baxmayaraq, kefinin kök olmağına baxmayaraq, deyəsən, yavaş-yavaş acıqlanırdı, yenə də iclasların rəyasət heyətlərində oturan Məlik olmağa başlayırdı, ayağa qalxıb bir az sərt səslə:

– Bura bax, əzizim... – dedi.

Amma Əlipaşa Məliyin sözlərini ağzında yarımçıq qoydu:

– Məlik, – dedi Əlipaşa, – əgər sən mənim ürəyimi sındırsan bu əziz gündə, ömründə səninlə danışmaram, özüm də bir dəqiqə burda qalmaram!

Məlik, deyəsən lap acıqlandı:

– Bura bax!..

Bu dəfə Məliyin sözlərini şair Səlim Sürəyya yarımçıq kəsdi:

– Dayan bir görək... – deyə ayağa qalxıb Məliyin qolundan yapışdı.

Əlipaşa bu dəfə heç vaxt özündən gözləmədiyi açıq-aşkar bir hədə ilə:

– Məlik, sındırırsan mənim ürəyimi? – soruşdu.

Məlik Əlipaşadan çox yanında dayanıb qolunu sıxan şair Səlim Sürəyyaya dedi:

– Axı, hər şeyin bir qaydası var də!.. – Sonra tənə ilə şairə baxdı, yəni ki, bunu hardan tapıb gətirdin bura?

Əlipaşa:

– Çox sağ ol, Məlik! – dedi və oturduğu kürsünü yana çəkib mizin arxasından uzaqlaşmaq istədi, amma şair Səlim Sürəyya cəld Əlipaşanın ardınca gəldi, qüdrətli əlləri ilə Əlipaşanın kürəyini qucaqlayıb özü ilə çəkə-çəkə təzədən mizin qabağına gətirdi və o gur səsi ilə:

– Dostlar! – dedi. – Bu təmiz ürəyi sındırmaq olmaz! Bu təmiz qəlbin bu gün bizi qonaq eləməyə mənəvi haqqı var! Tı moy doroqoy! – Və şair yenə də Əlipaşanı qucaqlayıb öpdü, sonra bərkdən əl çalmağa başladı, məclisdəkilər də şairin o gur səsinin, o alovlu öpüşünün təsiri ilə əl çalmağa başladılar.

Məlik yenə də etiraz etmək istədi:

– Axı...

Şair Səlim Sürəyya əlini yuxarı qaldırıb:

– Qurtardı! – dedi və orkestrə işarə ilə əlini aşağı saldı.

Orkestr tuş çaldı.

Və orkestrin çaldığı o tuşun sədaları altında Səlim Sürəyya Əlipaşanı Məliyə tərəf çəkdi, bir əlini Məliyin, bir əlini də Əlipaşanın kürəyinə basıb onları üz-üzə bir-birinə yaxınlaşdırdı və Əlipaşa ilə Məlik də qucaqlaşıb öpüşdülər.

Əlipaşanın bütün daxilində bir yüngüllük, bir sərbəstlik var idi, beşinci mərtəbəyə qalxmalı olan ağır televizorun yükü Əlipaşanın çiyinlərindən düşmüşdü və Əlipaşa özünü budaqdan-budağa qonan yüngül bir quş kimi hiss edirdi, elə bil, Əlipaşanın sinəsində ürək döyünmürdü, ağappaq bir çiçək nəfəs alırdı.

Məclis təzədən qızışdı, amma bu əhvalatdan sonra, iki nəfər heç cürə özünə gələ bilmirdi: Mürsəlin ürəyi döyünürdü, pendir doğrayan əlləri titrəyirdi, çünki Mürsəl ömründə heç vaxt təsəvvürünə belə gətirə bilməzdi ki, qapıbir qonşusu bu Əlipaşa belə hörmətli adamdır, belə danışan adamdır, belə oynayan adamdır və bütün bunlar hamısı bir tərəfə, beləcə xərcləyən oğlandır, mükəmməl kişidir; müdir Əlimuxtar müəllim isə, elə bil ki, birdən-birə tamam ayılmışdı və Məlik Həşimliyə baxa-baxa fikirləşirdi ki, dünyada bax, belə adamlar var, belə bəxtəvərlər var, amma haçansa Əlimuxtar müəllimin özünün məclisi olsa, ömründə heç kim o məclisin pulunu öz öhdəsinə götürməz (özü də beləcə könüllü surətdə!), sonra müdir Əlimuxtar müəllim son iyirmi altı ildə Allahın hər verən iş günü gördüyü bu redaktor Əlipaşaya baxa-baxa fikirləşirdi ki, əslinə baxsan, o boyda nəşriyyatda özündən, yəni Əlimuxtar müəllimdən yazığı, kiçiyi, lazımsızı yoxdu...

## ÜÇÜNCÜ FƏSIL

Eyvanı, aşağı tərəflərdə görünən binaların damını, həyətdəki ağacların budaqlarını qar bürümüşdü və o qarın ağlığı gecə vaxtı pəncərələrdən düşən, həyətdə yanan işığın altında, nəsə, bir arxayınçılıqdan xəbər verirdi; düzdü, möhkəm qar yağırdı, külək bərkimişdi, amma elə bil ki, hər tərəfi bürümüş o qarın ağlığında heç bir pis iş ola bilməzdi.

Bütün bunlar belə idi, o soyuq havanın təmizliyi Züleyxanın içinə bir təzəlik hissi gətirirdi, o qar ağlığında nəsə bir sevinc, bir nikbinlik var idi, amma bütün bunlarla bərabər, Züleyxanın ürəyində yüngül bir nigarançılıq baş qaldırmışdı: Əlipaşa iki saatdan artıq idi ki, evdən çıxmışdı, hesabla rəngli televizoru çoxdan gətirməli idilər, indi dükanlar da daha bağlanmışdı. Gülzar da, Süsən də, məktəbdən qayıdıb gəlmiş Sona da, Suğra da dəqiqədə bir: – «Bu papa harda qaldı e, belə?..» – deyə-deyə rəngli televizoru gözləyirdi və Züleyxa tez-tez başına şal salıb, həyət eyvanına çıxıb aşağı boylanırdı ki, görsün Əlipaşagil gəldilər, yoxsa yox?

Yəqin ki, nəsə texniki bir iş meydana çıxmışdı, televizorun başqasını yoxlayırdılar, ya da bəlkə Əlipaşa bu havada maşın tapa bilmirdi, ya bəlkə... bəlkə maşına, fəhləyə pul çatmırdı? Gərək o onluğu da Əlipaşaya verəydi, lazım olardı – xərcləyərdi, lazım olmazdı, – onsuz da, Əlipaşa qaytarıb verəcəkdi...

Züleyxa bir ildən artıq idi ki, yığdığı pulun məbləği artdıqca hərdənbir gedib o dükana dəyirdi (dükan evlərindən çox da uzaq deyildi, trolleybusla iki dayanacaq yol idi), alacaqları rəngli televizora baxırdı və o televizorun qiyməti düz 784 manat idi, Əlipaşaya 810 manat vermək istəyirdi, amma sonra hesablayıb gördü ki, 800 manat da kifayət eləyər, fəhləyə, maşına 16 manat bəsdir, 10 manatı redikülünə qoydu, Əlipaşaya 800 manat verdi və indi fikirləşdi ki, gərək 10 manatı götürməyəydi.

Amma bir iş var idi ki, Əlipaşa nədən ötrüsə geciksəydi də, evə zəng eləyərdi, çünki bu iki ildə ki, evlərinə telefon çəkmişdilər, Əlipaşa işə çatanda da, işdən çıxanda da evə zəng eləyirdi, hal-əhval tuturdu, soruşurdu ki, bir şey lazımdı, yoxsa yox və indi də, əlbəttə, zəng eləyərdi; niyə zəng eləmirdi? Züleyxa başa düşə bilmirdi...

Elə bu vaxt telefon səsləndi və Züleyxa hövlnak dəstəyi götürdü, amma danışan Əlipaşa deyildi, Züleyxanın anası idi, soruşurdu ki, Əlipaşa gəlib çıxdı, yoxsa yox? Bu evə yəni Əlipaşagilə telefon çəkiləndən bəri Züleyxanın anası qızıgildə keçən saatların da hamısından xəbərdar idi.

Züleyxa dəstəyi yerə qoyub yenə də şalı çiyninə saldı və həyət eyvanına çıxdı, aşağı boylandı: Əlipaşagildən xəbər-ətər yox idi, amma o gözəl qarlı hava təmizliyinə nəsə başqa qoxular da qatışmışdı və Züleyxa, istər-istəməz, qonşuları Mürsəlgilin eyvanına tərəf baxdı.

Çox zaman mətbəxlərindəki fin soyuducusunda yer olmadığı üçün, xüsusən qış vaxtlarında Zeynəb «Sağlamlıq» restoranının bufetindən gətirdiyi azuqəni həyət eyvanındakı dolabda yerbəyer edirdi və bu zaman Züleyxa da öz eyvanlarında olanda iyindən bilirdi ki, Zeynəbin dolaba yığdığı yenə hisə tutulmuş osetrinadı, ya pendirdi, ya kolbasadı, ya da ki, başqa bir dadlı şeydi. Həmin qarlı cümə gününün gecəsi də Zeynəb bayaq ərinin iş yerindən gətirdiyi dolu zənbili boşaldıb eyvandakı dolaba yığırdı və həmin gecə Zeynəbə ən çox təsir edəni o idi ki, bir elə müddətdə restoranda Əlipaşa onu görmədi, çıxanda xüsusi olaraq Əlipaşanın lap yanından ötdü, amma yenə Əlipaşa onu görmədi; heç olmasa, görəydi, amma özünü görməzliyə vuraydı – o başqa məsələ idi.

Zeynəb Züleyxa ilə salamlaşdı, sonra diqqətlə Züleyxaya baxdı və səriştəli bir gözlə özü ilə Züleyxanın bədəninin gözə çarpan üzvləri arasında bir-bir müqayisə apardı və üstünlüyü özünə verdi; düzdü, Züleyxanın döşü-başı, insafən, pis deyildi, amma Zeynəb üstünlüyü yüz faiz özünə verdi, bundan sonra, elə bil ki, bir balaca kefi duruldu, sınayıcı nəzərlərlə Züleyxanı bir də maraqla başdan-ayağacan süzüb:

– Xeyir ola, a qonşu? – soruşdu. – Nə əcəb belə qarda-busatda balkona çıxmısan?

Züleyxa Zeynəbin səsində nəsə təzə bir cəhət hiss etdi, amma bunun nə olduğunu fikirləşmək halında deyildi və:

– Heç... – deyib otağa girmək istədi.

Zeynəb soruşdu:

– Əlipaşa müəllim gəldi?

Züleyxa təəccüb içində dayanıb Zeynəbə baxdı:

– Hardan gəlməliydi ki?

– Necə hardan? Restorandan!

– Nə?

Özünü həmişə ciddi aparan bu qonşu arvadın – Züleyxanın beləcə təəccüb içində donub qalması Zeynəbi lap həvəsə gətirdi:

– A-a-a... Əlipaşa müəllim «Sağlamlıq» restoranında bir oynamaq oynayır ki, gəl görəsən!

## DÖRDÜNCÜ FƏSIL

Klarnetçalan yenə də zilə qalxıb mikrofonun qabağında qan eləyirdi və Səlim Sürəyya ilə Əlipaşa yenə də restoranın meydançasında klarnetin o qan eləyən sürətindən geri qalmırdı, oynayırdı; yavaş-yavaş başqa oynayanlar kənara çəkildi, ortada şair qaldı, Əlipaşa qaldı və bir də sürməli gözlərini süzə-süzə işvə-naz ilə oynayan gözəl bir qız qaldı; bu qız üç nəfər ilə birlikdə başqa mizdə oturmuşdu, çalğı başlayanda hamısı qalxıb rəqs elədi, sonra o birilər yoruldu, meydançadan çıxdı, amma bu qız çıxmadı, Səlim Sürəyya ilə Əlipaşanın arasında oynamağa başladı.

Əlipaşa o gözəl qızın qabağında daha cidd-cəhdlə oynadı, döşünü irəli verib meydança boyu o baş-bu başa gedib gəldi, sonra o gözəl qızı müşayiət eləyə-eləyə başını dik tutub meydançada dövrə vurdu.

Məlik tamam yaddan çıxartmışdı ki, bir müddət bundan qabaq az qalmışdı Əlipaşanın ürəyini sındırsın, hirslənməyini-zadını da tamam unutmuşdu və damağındakı siqareti şəstlə tüstülədə-tüstülədə iki əlini də qabağa uzadıb Əlipaşanın, Səlim Sürəyyanın, o gözəl qızın oynamaqlarına keflə əl vururdu.

Məclisin bütün iştirakçılarının kefi kök idi, heç kim heç hara tələsmirdi, məclis səmimi keçirdi, təkcə Əlimuxtar müəllim bədbin fikirlərin əlindən yaxa qurtara bilmirdi, xoruz kimi döşünü irəli verib restoranın meydançası boyu o baş-bu baş gedən, oynaya-oynaya o qızı – gözlərindən dünyanın min bir bicliyi tökülən o nazlı-qəmzəli qızı müşayiət eyləyən redaktor Əlipaşaya baxa-baxa fikirləşirdi ki, anadan olduğu gündən bəxti ondan, yəni müdir Əlimuxtar müəllimdən küsmüşdü, bütün ömrü boyu hansı bir iclasa, hansı bir məclisə gedibsə, həmişə də mütləq nəsə elə bir hadisə olub ki, bütün içini iztirablar bürüyüb, sarsılıb; kim deyərdi ki, bu redaktor Əlipaşa bu boyda məclisin pulunu vermək imkanındaymış? Kim deyərdi ki, redaktor Əlipaşanın belə dostları varmış? Kim deyərdi ki, redaktor Əlipaşa beləcə oynayan imiş? Əlimuxtar müəllim heç vaxt bu cür oynamamışdı, xəyallarında o nazlı-qəmzəli qızı çox görmüşdü, amma ömründə heç vaxt o nazlı-qəmzəli gözəl qızla beləcə oynamamışdı və yaxşı bilirdi ki, heç vaxt da oynamayacaq. Nə isə, dəhşət idi...

Qız, nəhayət ki, gülə-gülə meydançadan çıxıb öz mizinə tərəf getdi və Əlipaşa da şair Səlim Sürəyyanın qolundan tutub:

– Sağlıq var! – dedi.

Şair əlini qaldırdı, klarnet səsini kəsdi, orkestr də susdu, Əlipaşa ilə Səlim Sürəyya məclisə qayıtdı və Əlipaşa araq dolu qədəhi əlinə alıb:

– Bunu da qaldıraq qadınların sağlığına! – dedi.

Məclisdə cəmi iki qadın var idi, biri ədəbiyyat üzrə professor idi və Əlipaşa o qadını uzaqdan-uzağa tanıyırdı (çox ciddi qadın idi, dinib-danışmırdı və hərdənbir məzəmmət dolu nəzərlərlə restoranın meydançasında oynayan adamlara baxırdı), o biri qadını isə tanımırdı; məclisin bütün kişiləri ayağa qalxdı, hay-küylə qadınların sağlığına içdi, kənardakı mizdə üç nəfərlə birlikdə oturmuş o gözəl qız da Əlipaşaya ötəri bir nəzər saldı...

Doğrudan nə gözəl yağırdı bayırın qarı...

Səlim Sürəyya, düzdü, ayağa qalxdı, qadınların sağlığına içdi və ümumiyyətlə, şairin qadın xeylaqları ilə arası saz idi, amma necə oldusa, Əlipaşanın o sağlığından sonra, birdən-birə bu yay gəlib instituta girəcək, daha doğrusu, instituta girmək üçün Bakıya gələcək yeddinci bacısı yadına düşdü və şairin kefi tamam pozuldu; bu yeddinci bacı idi (şair bacılarının adlarını yaxşı bilmirdi və onları sayla yadına salırdı), bundan sonra cəmi biri qalırdı – səkkizinci bacı, amma Səlim Sürəyyada elə bir hiss var idi ki, inanmırdı səkkizinci bacı ilə canı qurtarsın, şairə elə gəlirdi ki, o səkkizinci bacı da Bakıya gəlib institut həngaməsinə başlayandan sonra, atası təzədən səkkiz nəfər yekəpər qız gətirəcək ki, bunlar da təzə bacılarındandı... Bütün bunlar bir tərəfə, indi o bacılar ərə getməyə başlayırdı və onların hər birinin toyu şairə bir yeni kitabının qonorarı hesabına başa gəlirdi: yaxşı ki, bacıları çox yekəpər idilər və buna görə də, söhbətin, hətta, şair Səlim Sürəyyanın bacılarından getməsinə baxmayaraq, ər çox çətin tapılırdı...

Əlipaşaya, elə bil, ömründə heç vaxt hiss eləmədiyi bir iştah gəlmişdi, köynəyinin həmişə bağlı olan və həmişə də boynunu sıxan düyməsini açmışdı, pencəyinin də yaxası açıq idi, hər şey gözəl idi, o musiqi də gözəl idi, dostlar da gözəl idi. Əlipaşanın heç vaxt özündən gözləmədiyi o sərbəstliyi, deyib-gülməyi, bu hörmətli məclisin, az qala, tamadası olması yağ kimi ürəyinə yayılırdı, amma bütün bunlarla bərabər, yenə də... nəsə çatışmırdı...

Nə çatışmırdı?

Müdir Əlimuxtar müəllim ayağa qalxıb bir balaca sıxıla-sıxıla sağlıq deməyə başladı, hamının Məliyə böyük hörmətindən danışdı, Məliyin dostlarının hörmətindən danışdı, Məliyin ən yaxşı dostlarından biri olan Əlipaşanın heç vaxt işə gecikməməyindən, həmişə səliqəli olmağından, həmişə öz vəzifəsini yerinə yetirdiyindən, tapşırılan işin öhdəsindən gəlməyindən ağız dolusu danışdı, amma – dünyanın qəribə işləri var idi – müdir Əlimuxtar müəllimin bu sözləri Əlipaşaya təsir etmədi.

Orkestr uzaqdan-uzağa o saat gördü ki, şair Səlim Sürəyya nəsə fikrə gedib və orkestr burasını da yaxşı bilirdi ki, şair fikirli vaxtlarında aşıq havalarına qulaq asmağı çox xoşlayır, buna görə də aşıq havası çalmağa başladı və Səlim Sürəyya da bunu o saat qiymətləndirdi, orkestrə tərəf gülümsəyib, başını tərpətdi, yəni ki, çox sağ olun, sonra sağ əlinin iri baş barmağını qaldırıb Əlipaşaya göstərdi, yəni ki, əladır!

Əlipaşa da şairə gülümsəyib başını tərpətdi, yəni ki, elədir, əladır; Əlipaşa musiqini bir o qədər də bir-birindən seçmirdi, amma indi o saat bildi ki, çalınan aşıq havasıdı və Əlipaşa şer də bilmirdi, amma indi birdən-birə hansı bir aşığınsa haçansa oxuduğu, ya eşitdiyi qoşmasından bir misranı xatırladı:

«Gül dedi bülbülə: – «Bağıma gəlmə...»

Nə çatışmırdı?

Və bu zaman dünyanın ən qəribə hadisələrindən biri baş verdi: Züleyxa əynində qarı hələ əriməmiş yaş şuba, başında üstünə qar yığılmış yun şal içəri girdi və girən kimi də, o boyda zalda, bir o qədər camaatın içində gözü o saat Əlipaşanı aldı.

Asqıçı kişi də əsəbi halda əllərini, qollarını oynada-oynada Züleyxanın ardınca restorana girdi:

– Ay bacı, necə adamsan sən? Deyirəm sənə ki, paltoynan olmaz içəri girmək!

Züleyxa asqıçı kişiyə fikir vermirdi, elə bil, asqıçı deyinmirdi, milçək vızıldayırdı qulağının dibində; iti addımlarla zalın içindən keçib birbaşa Əlipaşagilin məclisinə tərəf gəldi, asqıçı kişi də əl-qolunun köməkliyilə etiraz edə-edə Züleyxanın ardınca gəldi və aydın məsələdir ki, restoranın camaatı gözünü dörd eləyib təəccüblə onlara baxdı.

Orkestr dayandı.

Əlipaşa əvvəlcə elə bildi ki, çox içib, çox oynayıb, çox həyəcan keçirib və buna görə də indi Züleyxa beləcə gözlərinin qabağına gəlir, amma bu cəmi bir an çəkdi: yox, vallah, Züleyxa xəyal-zad deyildi, Züleyxa elə, həqiqətən də, restorana gəlmişdi və Əlipaşa bayaqkı o quş yüngüllüyü ilə ayağa sıçradı:

– Nə yaxşı oldu sən gəldin! Nə yaxşı oldu sən gəldin! – Əlipaşa sürətlə mizin arxasından çıxıb, gəlib arvadının qabağında dayandı. – Heç bilirsən sən nə qiyamət iş görmüsən?! Bilirsən?! Nə yaxşı oldu ki, gəldin! – Əlipaşa heç cür sakitləşə bilmirdi. – Nə yaxşı! Tez elə! Tez çıxart şubanı, gəl otur! Gəl! – Və Əlipaşa ağzını açıb bir kəlmə də deməyə macal tapmamış Züleyxanın əlini qaldırıb sevinclə məclisdəkilərə xəbər verdi: – Əziz dostlar! Mənim həyit yoldaşımdı! Züleyxa xanımdı!

Məclisin iştirakçıları bayaqdan bəri bir şey başa düşməyib təəccüblə gah bu şubalı, şallı qadına, gah da sevindiyindən, az qala, quş kimi uçmaq istəyən Əlipaşaya baxırdı və elə ki, məlum oldu bu qadın Əlipaşanın həyat yoldaşıdı, elə ki, Əlipaşa tələsik Züleyxanın şubasının soyuq düymələrini açmağa başladı, məclis birdən-birə cana gəldi, kişilərin hamısı ayağa qalxdı, Məlik:

– Xoş gəlmisiz! Xoş gəlmisiz! – deyə Əlipaşanın həyat yoldaşını salamladı.

Şair Səlim Sürəyya gəlib Əlipaşanın həyat yoldaşı ilə əl tutuşdu:

– Həmişə siz gələsiniz! – dedi. – Buyurun!

Və məclisin başqa iştirakçıları da:

– Buyurun!..

– Buyurun!..

– Buyurun!.. – dedilər.

Əlipaşa Züleyxanın yaş şubasını çıxartdı, qarlı şalını başından aldı, Səlim Sürəyya şubaya, şala işarə edərək asqıçı kişiyə:

– Götür apar! – dedi və sifətində bayaqkı hirsdən əsər-əlamət qalmamış asqıçı itaətlə gülümsəyə-gülümsəyə şubanı da, şalı da ehmallıca Əlipaşadan alıb apardı.

Professor qadın bütün məclis boyu (hər halda, Əlipaşa bu məclisdə iştirak etdiyi vaxtdan bəri) ilk dəfə ağzını açıb Züleyxaya müraciətlə:

– Buyurun, gəlin bura, mənim yanımda oturun, – dedi.

Əlipaşa:

– Yox! – dedi. – Çox üzr istəyirəm hamınızdan, amma Züleyxa xanım mənim yanımda oturacaq!..

Züleyxa ömründə Əlipaşanı bu cür coşğun, bu cür həvəs içində görməmişdi və ərinin belə bir coşğunluğu, həvəsi və ümumiyyətlə, bütün bu məclis Züleyxanı elə tutmuşdu ki, buraya nə üçün gəldiyini yadından çıxartmışdı, özünü tamam itirmişdi, heç nə deyə bilmirdi, gülümsəyirdi, soyuqdan gəldiyi üçün, ya məclis tutduğu üçün sifəti alışıb-yanırdı.

Şair Səlim Sürəyya mizin üstündəki qədəhini götürüb Əlipaşa və həyat yoldaşına baxa-baxa gur səsi ilə:

– Mənim bir sözüm var, dostlar! – dedi.

Əlipaşa tələsik:

– Yox! Yox! – dedi. – Söz özümündür! Bu sağlığı gərək mən özüm deyim! – Və şairin razılığını gözləmədən dedi. – Əziz dostlar! Mən bunu sidq ürəkdən deyirəm! Içirəm bunu, içirəm bunu mənim ailəmin sağlığına! Mənim ailəm dünyanın gözəl bir ailəsidir! Mən içirəm bunu Züleyxa xanımın sağlığına!

Əlipaşa bu sözləri elə ürəkdən dedi ki, bu sözlər o qarlı cümə günü o «Sağlamlıq» restoranında elə səmimi səsləndi ki, hamı bir ağızdan:

– Sağ olun!

– Sağ olun!

– Sizin sağlığınıza!

– Həmişə beləcə xoşbəxtlik içində olun!.. – deyib içdi və səhərdən bəri, demək olar ki, içki içməyən o professor qadın da bu sağlığın şərəfinə qədəhindəki konyakı axıracan içdi.

Müdir Əlimuxtar müəllim də növbəti qədəhini boşaldıb üstündən bir dişdəm şoraba pomidor yedi; bayaq ki, Züleyxa yaş şuba ilə içəri girdi və redaktor Əlipaşa dedi ki, bu arvad onun arvadıdır, Əlimuxtar müəllimin ürəyi döyünməyə başladı, elə bil ki, bir balaca silkələnib həmişəki bədbinliyinin içindən çıxdı, çünki Əlimuxtar müəllim əvvəlcə elə başa düşdü və Züleyxanın qəzəbli gözləri də əvvəlcə belə deyirdi ki, indicə ər-arvadın arasında dava-mərəkə başlayacaq; yox, müdir Əlimuxtar müəllim küpəgirən qarı deyildi, amma, hər halda, ürəyində bir maraq baş qaldırdı, sonra o maraq yenə söndü, ürəyinin döyünməsi kəsdi, bədbinlik yenə kişini ələ aldı.

Səlim Sürəyya əlini qaldırdı, orkestr uzaqdan-uzağa şairin ürəyindən keçən hissləri oxudu və «Gəlin havası» çalmağa başladı; klarnetçalan mikrofonun qabağına gəlib «Gəlin havası»nın kövrək xallarını elə vururdu ki, elə bil, bu da Əlipaşanın dediyi sağlığın davamı idi.

Əlipaşa ayağa qalxdı, əllərini qaldırıb Züleyxanın qabağında oynaya-oynaya başı ilə, gözləri ilə arvadını rəqsə dəvət eləməyə başladı və bütün məclis də əl çaldı, Züleyxanı əri ilə oynamağa çağırdı və Züleyxa başa düşdü ki, mütləq durmalıdır, oynamalıdır, yoxsa Əlipaşa oturmayacaq, başa düşdü ki, ömründə birinci dəfə bu cür şövq içində, həvəs içində gördüyü Əlipaşanın ürəyi sına bilər və Züleyxa da ayağa qalxdı, özü qabaqda, Əlipaşa da arvadının ardınca oynaya-oynaya restoranın meydançasına getdilər, meydançanın ortasında bir-birinə baxa-baxa üz-üzə oynamağa başladılar.

Züleyxa oynaya-oynaya Əlipaşaya baxdıqca, Əlipaşanın gözlərinin dibinə çökmüş o sevinci gördükcə yavaş-yavaş özünə gəlirdi, sifətində alışıb-yanan o süni istilik yavaş-yavaş soyuyurdu, daha doğrusu, o süni istilik təbii bir hərarətlə əvəz olunurdu.

Züleyxa:

– Yaxşı oynayırsan... – dedi.

Əlipaşa:

– Mən? – soruşdu. – Mən heç... Amma sən, doğrudan, əntiqə oynayırsanmış...

– Eh, qız vaxtı yaxşı oynayırdım, indi day yadırğamışam...

– Züleyxa...

– Hə?

– Züleyxa...

– Nədi?

– Sənə qurban olum!

– A-a-a... Nolub sənə?

– Heç nə... Amma sənsiz bir günüm olmasın!..
– Bəsdi. Baxırlar...
– Baxsınlar də... Indi öpəcəyəm səni!
Züleyxa qorxdu ki, Əlipaşa, doğrudan da, bir belə camaatın içində onu öpər.
– Qayıdaq, – dedi.
Əlipaşa:
– Yox, oynayaq, – dedi.
«Gül dedi bülbülə: – «Bağıma gəlmə...»
Züleyxa, düzdü, qorxdu ki, birdən Əlipaşa onu bu qədər camaatın içində öpər, amma o qorxuda nəsə elə bir şey də vardı ki, adamın ürəyinə sevinc gətirirdi.
«Gül dedi bulbülə: – «Bağıma gəlmə...».
– Züleyxa...
– Nədi?
– Bağışla məni...
– Nə?
– Deyirəm, bağışla məni, Züleyxa...
– Nəyə görə?
– Hər şeyə görə... Ümumiyyətlə, Züleyxa... Ümumiyyətlə, bağışla məni...
Züleyxa o dəm Əlipaşanın gözlərində bir yaş işıltısı gördü və qorxdu ki, indi özü Əlipaşadan beşbetər başlayar hönkür-hönkür ağlamağa, amma həmişəki kimi, özünü ələ aldı, gülümsədi və pıçıldadı:
– Sənsiz biz kimə lazımıq? Allah həmişə sənin canına sağlıq versin, Əlipaşa...
Bu dəm bu «Sağlamlıq» restoranında çalınan bu «Gəlin havası» uzun-uzun illər bundan əvvəl ikiotaqlı balaca bir evdə tələbəlikdən təzəcə çıxmış və ürəyi böyük arzularla, böyük istəklərlə dolu olan bir oğlanla lap cavan və gözəl bir qızın toyundan xəbər verirdi...
O balaca ikiotaqlı evdəki o toy gününün hissləri, həyəcanlı günləri, aylar, illər bir-birini əvəz etdikcə, o günlərin, o ayların, o illərin qayğılarının əlindən çox xəlvətlərə, çox dərinlərə düşüb qalmışdı, amma kirəc bağlamamışdı və indi Züleyxa ilə Əlipaşa bir-birinin gözünün içinə baxdıqca, elə bil, o baxışlar gedib o dərinlərə çatırdı, o xəlvətləri aşkar edirdi...
Züleyxa dedi:
– Uşaqlar evdə nigaran qalacaq...
– Qoy gedim onları da gətirim bura!
– Yox, yox, Əlipaşa, lazım deyil.
– Niyə?
– Soyuqdu, qoy otursunlar evdə.
– Yaxşı paltarları yoxdu, ona görə?
– Yox, Əlipaşa, vallah yox. Niyə yoxdu paltarları? Soyuqdu ona görə.
– Sən necə deyirsən, elə olsun...
Züleyxa açıq-aşkar təşəkkür dolu nəzərlərlə ərinə baxdı.

Əlipaşanın ürəyi sözlə dolu idi, Əlipaşa Züleyxaya çox söz demək istəyirdi, amma bir də baxıb gördü ki, professor qadın da gəlib qoşulub onlara, kök əndamını sındıra-sındıra onların qabağında oynayır, sonra Səlim Sürəyya da gəlib onlara qoşuldu, sonra Məlik, yüksək vəzifəsini yadından çıxartdı, gəlib onlara qoşuldu, sonra məclisin bütün üzvləri bir-bir gəlib onlara qoşuldu, üstü yarımçıq şüşələrlə, yeyilib boşalmış boşqablarla dolu o uzun mizin arxasında təkcə müdir Əlimuxtar müəllim oturmuşdu, gözlərini restoranın meydançasında oynayanlara zilləyib dərin qullablar vura-vura, tüstünü bütün ciyərinə çəkə-çəkə siqaret sümürürdü.

Hamı rəqsi başa vurub mizin arxasına keçəndə Səlim Sürəyya Züleyxa xanım üçün təmiz çəngəl-bıçaq, təmiz boşqablar gətirtdi, bircə dəqiqənin içində isti kabab, qıpqırmızı qızardılmış və içi ləvəngi ilə doldurulmuş çolpa gəldi və Əlipaşa o təmiz çəngəl-bıçağa fikir vermədən öz çəngəli, öz bıçağı ilə Züleyxaya qulluq edə-edə yavaşdan soruşurdu:

– Onu tanıyırsan?

– Yox, kimdi ki?

– Televizorda görməmisən?

– Hə... hə...

Bu adamlar bir-bir Züleyxanın yadına düşürdü, onları televizorda görmüşdü, əvvəllər boş vaxtı olanda bir-iki yazılarını oxumuşdu.

– Züleyxa...

– Hə?

– Züleyxa, bu məclisin pulunu mən verəcəyəm e...

Züleyxa qızardılmış toyuq döşünə batırdığı çəngəli bir an əlində saxladı, sonra Əlipaşaya baxdı, sonra bir-bir məclisdə oturmuş adamlara baxdı və bir söz demədi.

«Gül dedi bülbülə: – «Bağıma gəlmə».

Əlipaşa ağzını Züleyxanın qulağına yaxınlaşdırıb:

– O qızı görürsən? – soruşdu.

– Hansı qızı?

– Ode, o stolda oturub, üç nəfərlə bir yerdə...

– Hə gördüm... – Züleyxa pıçıldadı.

– Bayaq o qıznan oynayırdım.

– A-a-a... – Züleyxa maraqla o qıza – son dəblə geyinmiş o gözəl qıza baxdı, sonra yenə Əlipaşaya baxdı və gülə-gülə həmin pıçıltı ilə: – Doğrudan? – soruşdu.

– Hə! – Əlipaşa da güldü və Əlipaşaya o da çox ləzzət elədi ki, o gözəl qızla oynamağı Züdeyxaya bu cür maraqlı, bu cür xoş gəldi, hətta, elə bil, Züleyxa indi onunla, yəni Əlipaşa ilə fəxr edirdi...

O gözəl qız da, deyəsən, başa düşdü ki, söhbət ondan gedir və Züleyxa bu boyda məsafədən görməsə də, hiss etdi ki, o gözəl qızın qulaqları qızarır.

O qız bir daha Əlipaşaya tərəf baxmadı.

Züleyxanın saçları Əlipaşanın alnına, gicgahına, yanağına dəyirdi və Züleyxanın o xurmayı saçlarının yüngüllüyünü, o toxunuşunun xəfifliyini Əlipaşa elə bil təkcə alnında, təkcə gicgahında, sifətində hiss etmirdi, o saçların zərifliyini bütün bədəni ilə duyurdu, o zəriflik indi qanına yayılmışdı, bütün bədənindən axırdı.

Züleyxanın saçlarının xüsusi ətri var idi və elə bil ki, o ətir çox-çox keçmişlərdən gəlib çıxdı, elə bil ki, unudulmuşdu, yaddan çıxmışdı, bir-birini əvəz edən o günlərin, o ayların, illərin arxasında qalmışdı və Əlipaşa o ətri yalnız indi tanıdı; necə olmuşdu ki, o xurmayı saçların ətri, bax, bu ətri beləcə yaddan çıxmışdı və görəsən, indi Züleyxanın özünün xəbəri var saçlarının ətrindən?

Professor qadın ayağa qalxdı:
– Bu dəfə söz mənimdir! – dedi, amma professor qadın sağlığı deməmişdən əvvəl Əlipaşa yenə dilləndi:
– Züleyxa...
– Hə.
– Züleyxa, bu məclisin pulunu mən verəcəyəm e...
Züleyxa:
– Yaxşı eləyəcəksən!.. – dedi.

## BEŞINCI FƏSIL

Hesab 803 manat elədi.
Əlipaşa bufetdən baxan Mürsəlin bərəlmiş gözlərinin qabağında xörəkpaylayana düz 800 manat pul saydı, sonra Züleyxaya baxdı.
Züleyxa redükülünü açıb onluq çıxartdı və xörəkpaylayana verdi.
Xörəkpaylayan pulun artığını qaytarmaq üçün ciblərini qurdalayanda Züleyxa:
– Artığı lazım deyil... – dedi.
Əlipaşa hamı ilə, hətta, o professor qadın ilə də qucaqlaşıb, öpüşüb Züleyxa ilə birlikdə «Sağlamlıq» restoranından çıxmaq istəyəndə müdir Əlimuxtar müəllim onlara yaxınlaşıb:
– Bütün ömrüm boyu... – Amma dodağı qaçdı, qəhərləndi və sözlərinin dalını deyə bilmədi.
Içəridə isə, bufetdə yazıq Mürsəlin gözləri eləcə bərələ qalmışdı.
Klarnetçalan şair Səlim Sürəyyadan sonra, bir az dincəlirdi, orkestr isə asta-asta «Yar bizə qonaq gələcək»... havasını çalırdı.

## ALTINCI VƏ SONUNCU FƏSIL

Ayaqlarının altındakı qarı xırçıldada-xırçıldada, topuğacan qara bata-bata tamam bomboş, tamam sakit bir küçə ilə gedirdilər; avtomat telefonla evə zəng eləyib qızlara demişdilər ki, nigaran qalmasınlar, bir az havada gəzib gələcəklər.
«Gül dedi bülbülə: – «Bağıma gəlmə...».
– Yaman güldən, bülbüldən deyirsən a!..
– Soyuq deyil sənə?
– Bu şubaya nə soyuq? Sənə soyuq olar, palton nazikdir.
– Mənə soyuq deyil.
– Keflisən də, ona görə...
– Mən? – təəccüblə soruşdu və güldü.
– Hə, əlbəttə, sən!.. – Züleyxa da güldü.
– Bilirsən, bizim müdir də oradaydı e, yadımdan çıxdı sənə göstərim...
– Neynirəm onu görüb?
– Amma, vallah, Səlim Sürəyya yaxşı adamdı.
– Axtarsan dünyada elə hamı yaxşı adamdı...
– Mürsəl də?
– Mən nə bilim e...
– Bəs, sən nə bilirsən?
– Onu bilirəm ki, dünyanın ən yaxşı adamı sənsən!

– A-a-a... – Əlipaşa ayaq saxladı. – Doğru deyirsən?
– Mənim yalan danışmağımı görmüsən?
– Yox... Çox sağ ol, Züleyxa...
– Nə?
– Heç...
– Nə olub e, sənə?
– Heç nə... Ancaq... Ancaq bilirsən... Heç ...

Züleyxanın da, nədənsə, gözləri dolmuşdu və gecənin qaranlığında sifəti görünməsə də, Əlipaşaya baxıb gülümsədi.

Sonra Züleyxa özünü ələ aldı və dedi:

– Sənə gərək təzə palto alaq!

Gecə yarıdan keçmişdi.

... Sonra yavaş-yavaş səhər açılacaqdı...

Hər tərəfi bürümüş o ağappaq qar görünməyə başlayacaqdı...

*Yanvar, 1985.*
*Moskva-Bakı.*

## ÖMRÜN SON SƏHƏRI

Yəqin iyul idi, ya bəlkə də iyun hələ qurtarmamışdı, ya da bəlkə avqust girmişdi – yadına gəlmirdi, daha doğrusu, bilmirdi və həmin yay səhəri belə bir naməlumluq onun ürəyini sıxmırdı, onu narahat etmirdi, çünki bu barədə və ümumiyyətlə, dünyanın işləri barədə fikirləşməyə həvəsi və imkanı yox idi: başında bir uğultu var idi, sol qulağı lap dibindən ağrıyırdı (neçə vaxt idi ki, beləcə ağrıyırdı... bir həftə idi?.. bir ay idi?.. ya lap çoxdan idi? Yadına gəlmirdi və bu barədə də fikirləşmirdi... ), sol ayağının baş barmağına da nəsə olmuşdu – nə olduğunu bilmirdi, nə vaxtdı ki, ayaqqabısını ayağından çıxartmamışdı – və ağrıyırdı, amma həmin yay səhəri başının uğultusu da, qulağının, ayaq barmağının ağrısı da, əslində onun üçün heç nə idi, çünki bütün bədəni dəhşətli bir yanğı içində idi, bu yanğı saçlarının dibindən tutmuş barmaqlarının ucuna kimi, bütün varlığını yandırırdı. O, gözlərini «Qırmızı qərənfil»in qapısındakı iri qıfıllara zilləyib qəlyanaltıxananın açılmasını gözləyirdi və bu gözləmə bədənindəki o yanğını söndürmək ehtirasını daha da artırırdı, o yanğını dözülməz bir səbrsizliklə qızdırıb qaynadırdı.

Cibində altmış qəpik pulu var idi və «Qırmızı qərənfil»də bu pula iki şüşə pivə alıb içəcəkdi, bundan sonra hər şey qaydasına düşəcəkdi; hər gün olduğu kimi, bu gün də kimisə tapacaqdı və əlbəttə, vacib deyildi ki, həmin kimsə tanış olaydı, əsas məsələ də bu idi ki, həmin kimsə də onun tayı olacaqdı, bəlkə də bir neçə nəfər bir yerə yığışacaqdılar, ya «Mebel» dükanının qabağına gedib yük daşıyacaqdılar, ya hardasa hansısa bir tanış tapacaqdı, çətini bir şüşə arağın pulunu əldə eləmək idi, əlləri də, bütün bədəni, bütün hissləri-həyəcanları kimi, titrəyə-titrəyə, daha doğrusu, soyuq bir ehtirasdan üşüyə-üşüyə həmin bir şüşə arağı hardansa tapdıqları stəkanlara, yaxud bankalara, uzaqbaşı küçədən, həyətlərdən götürdükləri boş konserv qablarına süzəcəkdilər və içəcəkdilər; arağı birbaşa şüşənin ağzından içməyəcəkdilər, çünki bu zaman kiminsə payı artıq, kiminkisə də əskik düşə bilərdi – pulu bir-birilərinə etibar edərdilər, hətta ağzı açılmamış araq, yaxud şirin çaxır şüşəsini də müvəqqəti olaraq bir-birilərinə etibar edərdilər, amma arağı, şirin çaxırı içdikləri zaman heç vaxt, heç vəchlə bir-birinə etibar etməzdilər, buna görə də mütləq nəsə tapıb arağı hamının gözü qabağında tənbətən bölməli idilər. Hərgah bütün Bakıda, hətta bütün Abşeronda ikicə nəfər də olsaydılar, onlar bir-birilərini tapacaqdılar – bu adamlar bir-birilərini tanımadan, sözləşmədən həmişə qarşı-qarşıya gedirdilər, tapışırdılar, elə bil ki, iki maqnit bir-birini çəkirdi və heç bir məsafə uzaqlığı tamam keflənib heç kimi və heç haranı tanıya bilməmək vəziyyəti bu rastlaşmadakı maqnit gücünə təsir etməzdi, əksinə, misal üçün, biri Bakıda keflənib elektrik qatarına minsəydi və gedib təsadüfən ya Buzovnada, ya Şüvəlanda, ya Maştağada, fərqi yox idi, düşsəydi və orada da yalnız bircə nəfər özü kimisi olsaydı, mütləq tapışacaqdılar. Həmin bir şüşə araqdan, ya şirin çaxırdan, ya da ələ keçən nəsə başqa bir içkidən sonra, çox vaxt bir-birilərini itirirdilər, bundan sonra hərə təkbaşına özünə içki axtarmağa gedirdi və bu təkbaşına içki axtaranlar da çox zaman şəhərin kənar-bucağındakı qəlyanaltıxanalara, pivə barlarına gəlib çıxırdılar və onlar boşalmış mizlərin üstündəki sahibsiz parçların dibindəki pivə qalıqlarını içirdilər, bəzən boşaldılmış araq, çaxır şüşələrinin dibində də nəsə qalırdı – həmin qalıqları da içirdilər, bəzən kiminsə onlara yazığı gəlirdi, yüz qram arağa, yaxud bir stəkan şirin çaxıra, yaxud bir parç dolu pivəyə qonaq edirdi; sonra yenə qalıqlar içilirdi və barda, qəlyanaltıxanada işləyən xidmətçi qadınlar onları qovub küçəyə çıxartmayınca mizlər beləcə bir-bir gəzilirdi.

O, qabaqlar restoranlara, barlara, qəlyanaltıxanalara girib tanış axtarırdı, tanışlara yaxınlaşıb içki xahiş edirdi, dünyanın vəfasızlığından, həyatın ağırlığından danışırdı, arvadı barədə, qızı barədə nəsə dəhşətli bir hadisə uydurub deyirdi, ağlayırdı, bəzən tanışların ürəyini yumşaldırdı, bəzən də tənələrinə, öyüd-nəsihətlərinə qulaq asa-asa yüz qram içib, yenə də yüz qram xahiş edirdi, amma sonralar yavaş-yavaş tanışın, ya qeyri-tanışın fərqi olmadı, tanıdığı və tanımadığı adamlardan içki xahiş etdi, sonra da artıqları içməyə başladı.

Cibindəki altmış qəpiyi hardan tapmışdı – yadına gəlmirdi və ümumiyyətlə, dünənki gün yadına gəlmirdi, beynindəki boz bir duman içində təkcə onu xatırlayırdı ki, deyəsən, Bayıl tərəfdə (bəlkə də gedib Lökbatana çıxmışdı?.. Allah bilir...) Hansı bir həyətdə tabut içindəki ölünü qucaqlayıb öpürdü, ağlayırdı; necə gedib o həyətə çıxmışdı, tabut içindəki o ölü kim idi? – bilmirdi, amma yadına gəlirdi ki, elə həmin həyətdə ölünü yadetmə məclisində bir dolu stəkan araq içdi, ardı yadında deyildi və əslində, həmin yay səhəri bu barədə fikirləşmək, yəni nəyisə yadına gətirmək istəmirdi, çünki bu dəm bütün varlığı ilə «Qırmızı qərənfil»in açılmağını gözləyirdi. O, «Qırmızı qərənfil»in qapısındakı iri qıfıllara baxdıqca, elə bil, at ağzında yüyən görürdü və bu bağlı qıfılların qalın dəmirlərini yüyən kimi, öz dişləri arasında hiss edirdi və sövq-təbii dişlərini qıcıyırdı.

Birdən-birə yenə də onun bədənini bir qorxu sarsıtdı – qorxdu ki, altmış qəpiyi itirmiş olar və həmin yay səhəri onuncu, ya on beşinci dəfə əlini kirli pencəyinin ağzı cırılmış cibinə saldı və altmış qəpiyi çıxarıb sol əlinin ovcuna yığdı və sağ əlinin barmaqları ilə, diqqətlə pulları bir-bir saymağa başladı; dırnaqları uzanmışdı, arası qapqara çirk idi və o pulları saydıqca milçəklər əlinə, üzünə qonurdu. Tez-tələsik milçəkləri qova-qova nəhayət ki, pulu saydı; düz altmış qəpik idi, sikkələri yenə də kirli pencəyinin cırıq cibinə tökdü və daha milçəklərə fikir vermədi, milçəklər alnında, burnunda, qulaqlarında, dodağında gəzişirdi; milçəkləri yalnız pulu sayanda qovurdu, elə bil, qorxurdu ki, milçəklər o altmış qəpiyə şərik çıxar...

O, gəlib «Qırmızı qərənfil»lə üzbəüz səkinin tinində oturanda gün hələ çıxmamışdı, üfüq isə qıpqırmızı qızarmışdı, amma o bu qıpqırmızı üfüqdən tamam xəbərsiz idi, çünki gözünü «Qırmızı qərənfil»in bağlı qapısına zilləmişdi və kirpiklərini qırpmağa da qıymırdı ki, birdən bufetçi Abdulla gedib o iri qıfılları açar, xəbəri olmaz.

Küçə bomboş idi və bu bomboş küçədə o büzüşüb tindəki səkinin üstündə oturmuşdu, bir də ki, sərçələr idi: dəstə-dəstə sərçələr küçə boyu bitmiş yaşıl akasiya, tut, çinar ağaclarına qonub bir civilti salmışdılar ki, səsi küçəni başına götürmüşdü və sərçələrin o civiltisi, elə bil ki, keçmiş günlərdə açılan səhərlərdən xəbər vermək, keçmişdə qalmış və indi, demək olar ki, tamam unudulmuş bir ab-havadan demək istədi, amma o gözəl sərçələrin civiltisi bir neçə andan sonra onun başındakı uğultu içində əriyib yox oldu. Bir az keçdi, tək-tük adamlar binalardan, həyətlərdən çıxdı, tələsə-tələsə onun yanından addımlayıb keçdi; heç kim ona fikir vermirdi, çünki sübh tezdən «Qırmızı qərənfil»in qabağında oturub gözlərini qəlyanaltıxananın bağlı qapısındakı iri qıfıllara zilləyən adamlar, daha doğrusu, alkoqoliklər, görünür, bu küçədə bir o qədər də təəccüblü bir hadisə deyildi, hər halda, heç kim onun yanında ayaq saxlamırdı. Elə, bil o da bu səkinin daşı, küçənin asfaltı kimi bir şey idi; ona baxan da gözucu baxıb keçirdi və həmin gözucu baxışlarda bir anlıq iyrənmə, çiyrinmə ifadəsi var idi. O bu cür gözucu baxışlardakı həmin ikrah dolu ifadəyə adət etmişdi, həmin baxışlar ona təsir etmirdi, elə bil, belə də olmalıdır, bunda heç bir təhqiramiz şey görmürdü və ümumiyyətlə, dünyada onun üçün təhqiramiz heç nə qalmamışdı.

Əyninə paltarının üstündən dəmiryolçular kimi sarı rəngli qolsuz pencək geymiş süpürgəçi qadın küçənin yuxarı başında göründü və küçəni süpürə-süpürə yavaş-yavaş aşağıya tərəf gəlməyə başladı, sonra birinci trolleybus küçədən ötdü, maşınlar artmağa başladı; indi yay idi və küçədən ötən maşınlar onu narahat etmirdi, çünki küçələr quru idi; qışda, payızda sulu qar yağırdı, yağış yağırdı və o beləcə gəlib «Qırmızı qərənfil»in, yaxud başqa bir qəlyanaltıxananın qabağında oturanda yoldan ötən maşınlar onun üst-başına palçıq sıçradırdı.

O, yenə də səksənib əlini pencəyinin cibinə saldı və yenə də cibindəki xırda pulları ovcuna yığıb saymağa başladı. «Qırmızı qərənfil»in müdiri və bufetçisi Abdulla ağına-bozuna baxan adam deyildi, alkoqoliklərin hamısını tanıyırdı və tələb eləyirdi ki, pullarını göstərsinlər, elə ki, pulları olmadı, itələyib qəlyanaltıxanadan çıxarırdı, başqalarının stəkanlarındakı, parçlarındakı artıqları da içməyə qoymurdu, alkoqoliklərin gözlərinin qabağında artıqları bufetin yanındakı əlüzyuyana boşaldırdı; hərdən də – ayda, iki ayda bir dəfə – onlardan birinin əlinə vedrə verirdi, bütün səhəri, günortanı əsgi ilə qəlyanaltıxananı, bufetin içini, arxa tərəfdəki balaca mətbəxi, içki və ərzaq yığdığı zirzəmini tərtəmiz yudurdurdu və bundan sonra yüz qram araq, yarım parç pivə verib qovurdu. Bufetçi Abdulla belə bir qəti əqidədə idi ki, alkoqoliklər çox sırtıq məxluqdu, adamı ki, bir balaca üzüyumşaq gördülər, çıxıb oturacaqlar başında.

Süpürgəçi qadın küçəni süpürə-süpürə yavaş-yavaş ona tərəf gəlirdi, amma bu onu narahat etmirdi, çünki bütün bufetçiləri tanıdığı kimi, «Qırmızı qərənfil» kimi qəlyanaltıxanaların yerləşdiyi küçələrdəki süpürgəçilərin də, xidmətçilərin də hamısını tanıyırdı, bilirdi ki, hansı davakardır, hansının ürəyi yumşaqdır və indi ona tərəf gələn bu arvadın da ürəyiyumşaq adam olduğunu bilirdi, bu arvaddan qorxmurdu.

Süpürgəçi qadın küçəni süpürə-süpürə gəlib onun yanına çatdı və həmişəki kimi, özünü saxlaya bilməyib:

– Yenə gəlmisən, ay bədbəxt oğlu bədbəxt? – dedi. – Yenə gəlib kəsdirmisən buranı? Ay anası ölmüş, ay bacıları qan ağlayan, ay yazıq, gəlmisən yenə? Səni də, axı, yəqin bir istəyən var, küçə iti döyülsən axı sən, adamsan də, səni də doğan bir ana olub da, ay bədbəxt, səni doğan o qara günün daşını indi hansı başına salsın o arvad? Niyə bu günə salmısan özünü, itsən sən? Axı, adamsan, ay külbaş, ay bəxti qara, it döyülsən axı?! – Arvad, elə bil, öz-özü ilə danışırdı. – Mənnən pis olub sənin həyatın? Mənnən çətin olub? Əlimə süpürgə alıb çörəkpulu qazanıram, ay yazığın balası, sənin, Allah bilir, hər şeyin olub, niyə it gününə salmısan özünü, it döyulsən sən axı!.. – Süpürgəçi qadın qurumuş böyürtkən kolu kimi qalın süpürgəsinə baxa-baxa kövrəldi və bu dəfə də qarğış eləməyə başladı: – Allah bu arağı çıxaranın atasını gorbagor eləsin!.. Allah dünyadakı bütün Abdullaları cəzasına yetirsin!.. Sən də ölsən, vallah, bunnan yaxşıdı, ay bədbəxt, anan, bacın üzüqaralıqdan qurtarar... Onsuz da, diri-diri ölmüsən... Arvad-uşağın da var bəlkə... Qara gün onlarındı e!.. Allah Abdulla kimilərinin də gününü qara eləsin!..

Guya ki, bufetçi Abdulla başqalarına güclə araq içirdirdi...

O, süpürgəçi qadının dediyi sözlərə fikir vermirdi, əslində, heç bu sözləri eşitmirdi də. Büzüşüb səkinin üstündə necə oturmuşdusa, eləcə də qalırdı, yerindən tərpənmirdi və gözlərini də «Qırmızı qərənfil»in qapısındakı iri qıfıllara zilləmişdi və yenə də həmin iri qıfılların dəmirini yüyən kimi, öz dişlərində hiss edirdi.

Deyinə-deyinə, qarğış eləyə-eləyə qalın süpürgəsini yolun ortasından o baş-bu başa apara-apara küçəni süpürən qadın hərdən süpürgənin ucu ilə onun dünən gecə hardasa çirkə-palçığa bulaşıb, indi qurumuş şalvarının balaqlarına, dabanları yeyilib getmiş, ordan-burdan üstü cırılıb deşilmiş ayaqqabılarına toxunurdu, amma o buna məhəl qoymurdu və ümumiyyətlə, bu saat onu heç nə yerindən tərpənə bilməzdi, yalnız «Qırmızı qərənfil»in qapısındakı iri qıfıllar açılanda onun da ayaqlarına güc gələcəkdi, yerindən qalxıb qəlyanaltıxanaya girəcəkdi, cibindəki altmış qəpiyi çıxarıb bufetçi Abdullaya uzadacaqdı, bufetçi Abdulla da əli onun çirkli əlinə toxunmasın deyə, bufetin piştaxtasındakı boş boşqaba işarə edəcəkdi, yəni ki, pulu bura qoy, sonra pivə şüşələrinin arasından ən yöndəmsizini, ağzından hava buraxanını, yaxud şüşəsi çatlamışını, bir sözlə, o pivələri ki, abırlı müştərilərin qabağına qoya bilməzdi, onları seçib iyrəndiyini gizlətməyərək, daha doğrusu, iyrəndiyini açıq-aşkar nümayiş etdirərək yenə də işarə ilə deyəcəkdi ki, gəl, bunları götür. «Qırmızı qərənfil»in qapısındakı iri qıfılların açılmasından başqa, onu bu dəm səkinin üstündən daha iki səbəb qaldıra bilərdi: ya milisioner görsə, durub haradasa gizlənərdi ki, tüfeyli kimi aparıb ona məcburi iş kəsməsinlər, yaxud məcburi surətdə müalicəyə göndərməsinlər (üç dəfə beləcə məcburi müalicəyə göndərilmişdi, amma sonradan yenə də içməyə başlamışdı), bir də ki, özü kimi birisinin gəldiyini görsəydi, durub qaçardı, çünki altmış qəpiyinə şərik çıxa bilərdilər. Səhər tezdən hələ dilinə bir qurtum da içki dəymədiyi vaxt, cibində otuz qəpik, yaxud altmış qəpik beləcə oturub qəlyanaltıxananın açılmağını gözləyəndə, o, özü kimilərə qarşı çox qəddar olurdu: onlardan gizlənirdi, onları yaxına buraxmırdı və bu ona bənzəyirdi ki, uzun müddətdən bəri ac qalmış bir heyvan şikar tapır, bütün olub-olmayan imkanları ilə, dişi ilə, dırnağı ilə həmin şikarı başqalarından qoruyur, həmin şikardan, heç olmasa, bir dişdəm qoparmağa can atan heç kimi yaxına buraxmır.

Süpürgəçi qadın küçəni süpürə-süpürə qalın süpürgəni yenə də səkiyə tərəf aparanda yumaq kimi bürmələnib küçəyə atılmış bir qəzet asfaltın üstü ilə yüngül top kimi diyirlənə-diyirlənə gəlib onun ayaqlarının yanında dayandı.

O, gözlərini «Qırmızı qərənfil»in qapısından çəkib həmin yumaq kimi bükülüb atılmış qəzetə baxdı; o bilirdi ki, bu cür bükülüb atılmış qəzetlərin içində, adətən, heç nə olmur, amma həmin yay səhəri necə oldusa, əlini uzatdı, qəzeti ayaqlarının altından götürüb yavaş-yavaş yumağını açmağa başladı. Saralıb solmuş bu köhnə qəzetin içində heç nə yox idi, görünür, kimsə haçansa bu qəzetə nəsə bükmüşdü, sonra bükdüyünü götürüb, qəzeti də beləcə pərçim bürmələyib tullamışdı.

O indicə açıb içində heç bir maraqlı şey tapmadığı qəzeti qalın süpürgəyə tərəf atmaq istədi, amma bu vaxt tamamilə ani olaraq gözü həmin köhnə qəzetdəki əzik-üzük bir şəklə sataşdı, gözünü çəkmək istədi, amma çəkmədi, baxdı və yavaş-yavaş elə bil ki, başındakı uğultu azaldı, gicgahlarının nəbzi daha da bərkdən vurdu, onun bütün bədəninə soyuq bir tər gəlməyə başladı, çünki ona elə gəldi ki, əzik-üzük şəkildəki bu şagird odur, özüdür.

Qəzetdəki şəkildə üç nəfər şagird məktəb kitabxanasında oturub birlikdə imtahana hazırlaşırdılar, bir qız idi, iki oğlan və indi o, boz bir duman içində hiss edirdi ki, bu oğlanlardan biri odur – həmin o boz duman içində adda-budda yadına gəlirdi ki, məktəbdə oxuyanda haçansa qəzetdə beləcə şəkilləri çıxmışdı; şəkildəki oğlanlara baxırdı və beynində kirəc bağlamış qalın, ağır laylar arasından hiss edirdi ki, bu, həmin qəzetdi, bu məktəbli oğlanlardan biri də o özüdür.

Məktəb illəri, yeniyetməlik, gənclik çağları onun qəzetdəki əzik-üzük şəkilə baxdığı anadək tamam unudulmuş, heç vaxt yada düşməyən bir keçmişdə qalmışdı və elə bil ki, həmin keçmiş qalın-nazik buz layları arasında donmuşdu və indi yavaş-yavaş tərpəndikcə, buz layları da çatlayır, sınır, xırçıldayırdı.

Uzun müddət duymadığı, hiss etmədiyi, unutduğu bir həyəcan birdən-birə onun bədəninə bir üşütmə gətirdi və bu üşütmədə, qəribə idi, həm soyuqluq, həm də bir hərarət var idi və onun o köhnə qəzeti tutmuş çirkli barmaqları, əlləri əsməyə başladı, hətta elə bil ki, o soyuq və eyni zamanda, hərarətli üşütmə həmin yay səhəri onun bütün varlığına, həyatına hakim kəsilmiş yanğını da bir müddət üstələdi və bu dəm o diksinib bir az aralıdakı akasiya ağacına qonmuş bir dəstə sərçəyə baxdı, quşların haray-həşirli civiltisini eşitdi, sonra birdən-birə onun burnuna çox yüngül bir qoxu gəldi və o bu qoxuda uzun müddətdən bəri yadırğadığı bir doğmalıq, bir məhrəmlik hiss etdi; bu qoxu onun yadına nəsə salırdı, amma bunun nə olduğunu bilmirdi, həmin qoxunu tanımırdı. Diqqətini toplamağa, o qoxunun hardan gəldiyinə, o mehribanlığın, məhrəmliyin nə olduğunu fikirləşməyə, yadına salmağa isə taqəti yox idi.

Əlbəttə, ola bilərdi ki, bu qəzet heç həmin qədim, həmin gözəl qəzet deyil, bu oğlan da o özü yox, tamam başqa bir adamdı, ola bilərdi ki, zənni onu aldadırdı, yaxud yenə də onu qara basırdı, amma o, bütün gücünü toplayıb, heç olmasa, bu şübhələri özündən qovmağa çalışırdı, çünki birdən-birə onun ürəyində uzun müddətdən bəri duymadığı bir istək əmələ gəlmişdi: istəyirdi «Qırmızı qərənfil»in qapısına tərəf baxmasın, istəyirdi akasiya ağacından gələn o civiltini bir az da eşitsin; onun ürəyində yaranmış həmin istəkdə bir işıq var idi və o işığın istisi onun elə bu dəqiqənin özündə də sızıltı ilə yanan, içki istəyən bədəninə yüngül bir hərarət gətirirdi.

O özündən asılı olmayaraq, «Qırmızı qərənfil»in qapısına ötəri bir nəzər saldı, sonra yenə akasiya ağacında civildəyə-civildəyə haray-həşir salmış bir dəstə sərçəyə tərəf baxdı, sonra yenə də qəzetdəki həmin əzik-üzük şəkilə baxmaq istədi, amma baxmadı, çünki burnuna gələn o qoxunu birdən-birə tanıdı...

Süpürcəçi qadın gəlib köhnə qəzet bürməsini onun əlindən aldı və süpürgəsinin ağzına atdı, bayaqkı kimi sidq-ürəkdən onun halına acıya-acıya, onun belə bir güzəranının qarasına deyinə-deyinə küçəni üzüaşağı süpürə-süpürə uzaqlaşmağa başladı:

– Nə olacaq bu qəzetin içində, ay bədbəxt? Pul tapacaqsan? Lap tapsan nə olacaq? Gedib bir az da çox içəcəksən də, ay bədbəxt oğlu bədbəxt!.. Sonra nə olacəq? Bir gün də beləcə öləcəksən küçədə... Kimin xəbəri olacaq sənnən? Kim ağlayacaq səninçün? Kim aparıb basdıracaq səni qara torpağa, ay üzü qara?..

O, süpürgəçi qadının nə dediyini eşitmirdi, sərçələrin civiltisini də eşitmirdi, çünki burnundan çəkilib getməyən həmin qoxu onu unudulub qədimlərdə qalmış bir keçmişə dartırdı və hərdən, elə bil, onun beynində fotoaparat işığı kimi, nəsə ani olaraq yanıb-sönürdü və o, həmin anlarda fotoşəkil kimi keçmişin dəqiq görümlərini görürdü...

... bələyi açılmış qızı arxası üstə uzanıb ayaqlarını stolun üstünə döyəcləyir...

... Səfurə təzəcə yuyub qurutduğu uşaq əsgilərini ütüləyir...

... sonra o ütünü Səfurədən alıb, beş-altı aylıq qızının əsgilərini, balaca koftalarını ütüləyir...

... Səfurə kətilin üstündə oturub Gülzarı əmizdirir və açıq pəncərədən düşən gün şüaları Səfurənin açıq sinəsinə, döşünə bir işıltı gətirir...

... o, Gülzarın balaca çit papağını ütüləyir və bu, o balaca papaqdan gələn qoxudu...

... balaca papaqdan gələn qoxudu...

... balaca papaqdan gələn qoxudu...

Səfurənin də adı, Gülzarın da adı neçə müddət idi? – bir ay idi, bir il idi? – silinib onun yaddaşından pozulmuşdu, daha doğrusu, onun, ümumiyyətlə, öz yaddaşından xəbəri yox idi, çünki nəyi isə yadda saxlamağa vaxtı yox idi, çünki içki tapmaq ehtirası, içki içmək yanğısı onun bütün vaxtını yeyirdi, gücünü alırdı, nəyisə yada salmağa, xatırlamağa taqəti yox idi və bütün bunlar barədə, yəni bu vaxtsızlıq barədə, bu yaddaşsızlıq barədə fikirləşməyə də taqəti və həvəsi yox idi. Səfurə də, Gülzar da, ağappaq cərrah xalatı, cərrah papağı da uzaq və tamamilə yadlaşmış bir keçmişdə qalmışdı. Əvvəllər, o vaxtlar ki, düzdü, evdən getmişdi, işdən çıxarılmışdı, amma, hər halda, tamam küçələrə düşməmişdi, stəkanların, parçların dibindəki qalığı içmirdi, haradasa qarovulçu işləyirdi, balaca da bir qarovul köşkü var idi, əlinə keçəni arağa verib o köşkdə içirdi və orda da yıxılıb yatırdı, bax, o zamanlar həmin o əlçatmaz, ünyetməz keçmiş bəzən ona rahatlıq vermirdi, ayıq vaxtlarında əzab çəkirdi, özü özünə söz verirdi ki, gedib müalicə olunacaq, daha içməyəcək, hətta, yeniyetməlik, gənclik çağlarında olduğu kimi, gələcək barədə planlar qururdu, fikrində Gülzarı yenidən gəzməyə çıxarırdı, teatra, kinoya gedirdilər, fikrində yenidən Səfurə ilə bir çarpayıda yatırdı və həmin çarpayıdakı ağın kraxmal təmizliyi, elə bil ki, onun fikrindən, xəyalından çıxıb balaca qarovulçu köşkünə bir ümid, bir nikbinlik gətirirdi, amma sonra hardansa yenə araq tapılırdı və yenidən başlanacaq gələcək haqqındakı o planlar, o xəyallar da solurdu, işığını itirirdi.

Süpürcəçi qadın küçəni süpürə-süpürə uzaqlaşdı və arvadın əynindəki sarı çit pencək də, elə bil, bu dəm bütün aləmi basmış payız xəzəlindən xəbər verdi...

O yenə də gözucu «Qırmızı qərənfil»in qapısına baxdı, sonra gözlərini əlinə zillədi, elə bil ki, qəzet hələ də əlində idi və yenə də onun ürəyindən bir qorxu keçdi ki, birdən cibindəki altmış qəpiyi itirmiş olar, amma bu dəfə pulları cibindən çıxarıb saymadı, öz-özünü həmin nigarançılıq içində saxladı və bu, elə bil ki, onun özünün özündən aldığı bir intiqam idi.

Hər şey ilk qədəhdən başladı və o ilk qədəhi haçan içmişdi? – bunu heç vaxt, hətta, cərrah işlədiyi və içməyini başqalarından gizlətdiyi, içkinin iyi gəlməsin deyə üz-gözünə ətir vurduğu vaxtlar belə yadına gətirə bilmirdi; sonra içməyini daha gizlədə bilmədi, sonra heç gizlətmək istəmədi də, bəxtindən şikayət etdi, həyatdan şikayət etdi, ağlaya-ağlaya özünün təqsirkar olmadığını, həyatın təqsirkar olduğunu tanıyıb-tanımadığı adamlara uzun-uzadı danışmağa başladı və tanış-biliş tələsik bir bəhanə tapıb ondan ayrılmağa, ondan canını qurtarmağa çalışdı, onu görəndə yolunu dəyişdi, gizləndi, sonra uzun-uzadı danışmağa vaxtı və həvəsi qalmadı, tanış-bilişdən əvvəlcə beş manat, sonra üç manat, sonra bir manat, əlli qəpik, iyirmi qəpik borc istədi, sonra daha «borc» sözünü də demədi, elə-eləcə pul istədi; işdə əvvəlcə cərrahlıqdan kənar edildi, xırda feldşer işlədi, sonra işdən tamam çıxarıldı və gedib o qarovulçu köşkünü tapdı; söz verdi, təzədən içdi, müalicə olundu, təzədən içdi, evdən getdi, Səfurə yaxınların, qohumların tənəsi altında (« – Niyə o alkoqolikin nazı ilə oynayırsan? Ərdi sənə bəyəm? Atadı bəyəm uşağınız üçün? Bədbəxt eləyib sizi, neyləyirsən onu? Qoy, öz cəzasıdı, it kimi ölsün küçələrdə!..») axtarıb onu tapdı, yenə getdi, hardasa itdi və Səfurə yenə onu axtarıb tapıb evə qaytardı, yenə getdi və daha Səfurə onu axtarmadı, geri qaytarmadı.

O, elə-eləcə səkinin üstündə oturub gündən və çirkdən qapqara qaralmış əlinə baxırdı və onun başı yenə də uğuldamağa başlayırdı, sərçələrin civiltisi yenə də eşidilməz olurdu, bütün bədənindən gəlib keçən o yanğı yenə də yandırırdı və bu zaman o çox zəif taqəti daxilində bir-iki dəfə gücünü toplamaq istədi, çalışdı ki, həmin sərçə civiltisi kəsilməsin, «Qırmızı qərənfil»in qapısına tərəf baxmasın, cibindəki altmış qəpiyin itəcəyindən qorxmasın, amma özünü saxlaya bilmədi, «Qırmızı qərənfil»in hələ də bağlı qapısına baxdı, bir-iki dəfə udqundu, ağzı sulu olsa da, hətta arabir dodaqlarının qırağından tüpürcək axsa da, onun ağzı da bütün içi kimi, beyni kimi yanırdı, pivə istəyirdi.

Süpürgəçi qadın küçədə öz sahəsini süpürüb qurtarmışdı, çıxıb getmişdi və küçənin, səkinin asfaltın üstündə qalın süpürgənin izi qalmışdı: süpürgə asfaltın üstündəki narın tozu xırda və sıx xətlərlə daramışdı və bu təmiz küçədəki bu izdə də bu dəm həmin dəstə-dəstə sərçə civiltisinə bənzəyən nəsə var idi.

O yenə də iri qıfıllara baxdı, sonra asfaltın üstündəki süpürgə izlərinə baxdı və birdən-birə əvvəllər tez-tez yadına saldığı, uzun müddətdən bəri isə tamam unutduğu bir baxışı xatırladı və başındakı uğultuya, bədənindəki yanğıya, qulağının, ayaq barmağının ağrımasına baxmayaraq, həmin baxışı aydın gördü, həmin baxışın çox-çox uzaqlarda qalmış əhvali-ruhiyyəsini yüngülcə də olsa, yenidən hiss etdi: yeddinci, ya səkkizinci sinifdə oxuyurdu, yay vaxtı idi, atası Naxçıvana ezamiyyətə getmişdi, onu da özü ilə aparmışdı və Ilan dağını da onda görmüşdü, sonra Bakıya qayıtmışdılar və həmin qısa səfər onun ürəyinə qəribə bir coşğunluq gətirmişdi, o, doğulub böyüdüyü Bakı küçələrinə də, yaxşı tanıdığı adamlara da, öz yoldaşlarına da elə bil ki, nəsə yeni gözlərlə baxırdı, ona elə gəlirdi ki, nəsə gözəl bir ərəfə qarşısındadı, bunun nəyin ərəfəsi olduğunu bilmirdi, amma o ərəfə hissi ürəyinə bir hərarət, bir ılıqlıq gətirirdi, elə bil ki, içində təzə-tər söyüd yarpaqlarını oxşayan bir yaz mehi əsirdi və belə günlərin birində Bakının dağlıq məhəlləsində yaşayan bir yoldaşıgilə gedəndə küçədən ötən cavan bir qızın oğrun baxışlarını ömründə ilk dəfə öz üzərində hiss etdi; həmin qız ondan iki-üç yaş böyük olardı, ağappaq və qolsuz koftası dolu və sağlam bədənini pərçim örtmüşdü, elə bil ki, qızın bədəni, dolu döşləri ağappaq qolsuz koftanı cırıb-dağıdıb özünü göstərmək istəyirdi, qaraşın sifəti və qapqara gözləri var idi və gizli bir ehtirasla, maraqla işıldayan o qara gözlər ona oğrun bir nəzər saldı, sonra qız gözlərini yerə dikdi, hətta, deyəsən, bir balaca qızardı da, onun yanından ötüb keçdi və o bir də heç zaman həmin qızı görmədi, amma ilk dəfə öz üzərində hiss etdiyi o oğrun baxışlardakı gizli ehtirasın, marağın işıltısı yaddaşında hopub qaldı, hətta institutu qurtarandan sonra da o qızı xatırlayırdı, o baxışları yenidən görürdü və həmişə də o baxışların əhvali-ruhiyyəsi daxili bir nikbinlik, daxili bir coşğunluq gətirirdi.

O, asfaltın üstündəki süpürgə izlərinə baxa-baxa həmin uzaq baxışları tamamilə qəflətən xatırladı və bu zaman bayaq hiss etdiyi doğma, məhrəm qoxunu yenidən duydu, onun əlləri, bədəni yenə də həyəcanla titrədi, bu, bədənindəki o dözülməz yanğının titrəyişi deyildi, yenə də o doğmalığın, o məhrəmliyin gətirdiyi titrəyiş idi.

Küçədən maşınlar tez-tez ötməyə başladı, gedib-gələn adamlar çoxaldı, süpürgənin asfalt üstündəki izləri tapdanıb yavaş-yavaş itməyə başladı və bufetçi Abdulla da əlindəki bir dəstə açarı oynada-oynada gəlib çıxdı, özündən qat-qat aşağıda dayanmış iyrənc bir məxluqa baxırmış kimi, ona ötəri bir nəzər saldı, sonra «Qırmızı qərənfil»in qapısındakı yekə qıfılları bir-bir açmağa başladı.

O, Abdullanın gəlməyini görməmişdi, amma açılan qıfılların səsini eşidirdi və başa düşürdü ki, Abdulla gəlib «Qırmızı qərənfil»in qapısını açır. Onun bütün bədəni, bütün varlığı «Qırmızı qərənfil»ə can atırdı, amma o, Abdullaya tərəf baxmırdı, qalxıb «Qırmızı qərənfil»ə tərəf getmirdi və başındakı həmin uğultu, bədənindəki həmin yanğı içində, elə bil, özü özündən yenə də intiqam alırdı və bu daxili intiqam elə bil ki, onun gücünü artırırdı, ona taqət verirdi (bədən isə yanırdı, yanırdı...).

Abdulla, nəhayət ki, qıfılların hamısını açıb qurtardı və içəri keçməzdən qabaq yenə də ona tərəf ötəri bir nəzər saldı, əvvəlcə elə bildi ki, o yatıb, hətta ani olaraq fikirləşdi ki, bəlkə ölüb, amma sonra hiss etdi ki, nə yatıb, nə də ölüb. Abdulla iyirmi ilin bufetçisi idi, belələrini çox görmüşdü, adlarını bilmirdi, amma sifətdən onları tanıyırdı. Bu iyirmi ildə onların çoxu itib-batmışdı, əvəzinə yeniləri gəlmişdi – bunlar, elə bil ki, bir-iki illik ömrü olan bir məxluqat idi, gedirdi, əvəzində həmin məxluqatın müxtəlif yaşda yeni nəsli gəlirdi. Indi sübh tezdən gəlib «Qırmızı qərənfil»in qabağını kəsdirmiş bu alkoqolik iki-üç il idi peyda olmuşdu, əvvəllər hərdənbir itirdi, amma axır vaxtlar səhərdan-axşamacan bu aralarda sülənirdi; deyirdilər ki, guya, əvvəllər yaxşı cərrah imiş; amma bufetçi Abdulla əvvəllər yaxşı cərrah, əvvəllər yaxşı müəllim, əvvəllər yaxşı pəhləvan, əvvəllər, mən nə bilim, yaxşı nə olanları az görməmişdi, amma indi onlar hamısı nə cərrah, nə müəllim, nə artist, nə pəhləvan, nə də müstəntiq idi, hamısı eyni məxluqat idi. Bufetçi Abdulla bəzən bekar vaxtlarında təəccüblə və bir az da daxili bir fərəhlə fikirləşirdi ki, bunların arasında keçmişdə kim desən olanı var, amma keçmişdə bufetçi olanı yoxdu; bufetçi yazıq səhərdən-axşamacan stəkanlara araq süzür, bəs, niyə özü alkoqolik olmur? Bu da bir sirri-xuda idi... Və ümumiyyətlə, bufetçilərə qarşı ki, camaat arasında bu qədər kin-küdurət var idi, bufetçilərə ki, bu qədər yuxarıdan aşağı baxırdılar, bunu Abdulla dunyanın ən insafsız işlərindən biri hesab edirdi...

... Bədən isə yanırdı, yanırdı... O, bu yanğı içində, başını çatladan uğultu içində, eyni zamanda, həmin qoxunu da hiss edirdi və o qoxunun doğmalığı, məhrəmliyi də, elə bil, bu dəm Gülzarın körpə çağlarındakı kimi, bir körpə təbəssümü ilə gülümsəyirdi...

Indi Gülzarın neçə yaşı var? On dörd... yox, on beş... yaxşı yadına gətirə bilmirdi, amma bu barədə, yəni Gülzarın yaşı barədə fikirləşəndə o doğma, o məhrəm, körpə kimi gülümsəyən o qoxu birdən-birə itdi, əvəzində çoxdan bəri yadırğadığı xəcalət hissi ürəyini sıxdı, hətta, həmin xəcalət hissi qısa bir müddət ərzində bədəninin o yanğısını da, başının o uğultusunu da, qulağının ağrısını, ayaq barmağının o sızıltısını da üstələdi: Gülzarı axırıncı dəfə görməyi yadına düşdü.

Dəstə-dəstə sərçələr hamısı bir yerdə pırıltı ilə ağacların üstündən qalxıb uçdu və o uçuşun qəfilliyi də bükülüb-bürmələnib atılmış qəzetin bayaq süpürgənin ağzından diyirlənib gəlib onu tapmasındakı qəfilliyə bənzəyirdi.

O, gözlərini qaldırıb sərçə dəstələrinin ardınca baxdı, sərçələr binaların damları arasında yox oldu və o birdən-birə yenə də qorxdu, sövq-təbii əlini kirli pencəyinin cırılmış cibinə tərəf apardı, amma o dəqiqə də başa düşdü ki, yox, bu, altmış qəpiyi itirmək qorxusu deyil; bu o qorxudu ki, birdən Gülzar gəlib beləcə onun qabağına çıxar, onu beləcə səki üstündə oturmuş, beləcə «Qırmızı qərənfil»lə üzbəüz görər.

Neçə müddətdən bəri birinci dəfə idi ki, o, belə bir qorxu hissi keçirirdi.

Axırıncı dəfə Gülzarı bir həftə bundan əvvəl gördü. Ya bir ay bundan əvvəl? Bəlkə iki ay bundan əvvəl – dəqiq yadına gətirə bilmirdi, çünki bədəninin o yanğısı daha tamam dözülməz idi, başının uğultusu tərpənmək, dirçəlmək istəyən bütün xatirələri boz bir dumana bürümüşdü. Hər halda, axırıncı dəfə Gülzarı görəndə yaz girmişdi, ağaclar yaşıl idi, bəlkə də yox, heç yaz girməmişdi? Hə, hə, deyəsən, qış idi, Gülzar əyninə palto geymişdi, qırmızı palto və həmin paltonun qırmızısı bu dəm elə bil birdən-birə qərənfil qırmızısına çevrildi, «Qırmızı qərənfil» oldu, sonra elə bil o qırmızının üstünə pivə töküldü, qırmızı əridi, basma kağızda qırmızı mürəkkəb ləkəsi kimi yayıldı və yenə pivənin iyi aləmi başına götürdü, sonra o pivə iyinə araq iyi qarışdı, şirin çaxır iyi qarışdı və onun bütün bədəni daha artıq bir hərisliklə alışıb yanmağa başladı, amma o yenə də tərpənmədi, həmin dəm bəlkə özünün də anlamadığı daxili, gizli bir həvəslə özündən intiqam aldı.

Yox, palto deyildi Gülzarın əynindəki, deyəsən, kofta idi, qırmızı kofta... Heç nəyi dəqiq yadına gətirə bilmirdi, amma Gülzarın sifəti indi bütün cizgiləri, xətləri ilə tam dəqiq gözlərinin qabağında idi və beynindəki o boz dumana baxmayaraq, Gülzarın gözlərindəki dəhşəti tamam aydın gördü.

Gülzarı gördüyü gün günorta gedib «Mebel» dükanının qabağında mebel daşıyan maşının sürücüsü Ağacəfəri gözləmişdi, sonra özü kimi iki nəfərlə birlikdə dörd piano daşımışdı – birini haradasa altıncı mərtəbəyə qaldırmışdılar, birini haradasa dördüncü mərtəbəyə, o birilərini də şəhərin hansı tərəfindəsə neçənci mərtəbələrəsə qaldırmışdılar, sonra da Ağacəfər onların üçünə bir yerdə zəhmət haqqı kimi on manat pul vermişdi, özü isə, təzə piano sahiblərindən neçə almışdı, Allah bilirdi, hər halda, hərəsindən yüz əlli, iki yüz manatdan əskik almamışdı. Hələ indi yaxşı idi, bəzən Ağacəfər hiss edirdi ki, gəlib «Mebel»in qabağında onu gözləyən alkoqoliklərin halı lap pisdi, bu zaman onlara adambaşına əlli qəpikdən artıq vermirdi, pianonu onuncu mərtəbəyə daşıtdırırdı, müştəridən də zəhmət haqqı kimi, iki yüz-iç yüz manat alırdı. Bir sözlə, Ağacəfər alkoqoliklərin hesabına əməlli-başlı pullu adam olmuşdu, yayda ailəsini istirahət eləməkdən ötrü Kislovodska göndərirdi, qışda özü məzuniyyətə çıxıb Odessadakı aşnasının yanına gedirdi və bir ay Odessanın gözəl restoranlarında kefə baxırdılar. «Mebel» dükanında kassir işləyən Əbülfət başını aşağı əyib çeşməyinin yuxarısından bir-bir bu alkoqoliklərə baxırdı, Ağacəfərin bunlarla danışığına qulaq asırdı və deyirdi:

– Sən lap quldursan e, Ağacəfər!

Ağacəfər:

– Nə? – deyirdi və əlini uzadıb onun əmrinə müntəzir dayanmış alkoqolikləri göstərirdi. – Alə, bunlardan qul olar? Alkaşdı e, bunlar, alkaş!..

Həmin gün Ağacəfərin verdiyi on manata üç dənə araq alıb içmişdilər, pul qurtarmışdı, bədən isə yanırdı, bədən araq, şirin çaxır, pivə istəyirdi, bir-birilərindən ayrıldılar və o hara getdiyinin fərqinə varmayaraq addımlayırdı – onun ayaqları vəfalı it kimi bir şey idi, aparıb hansı bir pivə barınasa, hansı bir qəlyanaltıxanayasa çıxaracaqdı və bu vaxt o birdən-birə Gülzarla rastlaşdı, hansı küçəninsə tinini burulanda Gülzarla üz-üzə gəldi.

Gülzarın yanında bir nəfər rəfiqəsi də var idi. Gülzar onu görəndə donub yerində qaldı. Rəfiqəsi də dayanıb gizlədə bilmədiyi bir maraqla gah ona, gah da Gülzara baxdı.

O, əvvəlcə ağlamaq istədi, uda bilmədiyi bir qəhər pərçim olub boğazında dayandı, Gülzarı qucaqlayıb öpmək istədi, təxminən bir il görmədiyi qızına əməlli-başlı baxmaq istədi, amma Gülzarın gözlərindəki o qorxunu görəndə, rəfiqəsinin baxışlarındakı o marağı görəndə boğazına pərçim olub qalmış o qəhər əriyib yox oldu, bədənindəki içki yanğısına dəli bir kin-küdurət qatışdı, həmin yanğıdan və hirsdən titrəyən xırıltılı səsi ilə başqa bir söz tapa bilməyib:

– Hara gedirsən? – soruşdu.

Gülzar cavab vermədi.

– Hara gedirsən?

Gülzar:

– Çəkil, – dedi.

– Yox, çəkilməyəcəyəm!

– Çəkil.

Onun bütün bədəni araq, şirin çaxır, pivə istəyi ilə alışıb yanırdı və birdən o:

– Pul ver, çəkilim, – dedi.

Gülzarın gözlərindəki dəhşət o zaman yarandı və rəfiqəsinin də sifətindəki maraq dondu.

– Bir manat ver, çəkilim... Əlli qəpik ver!..

Gülzar bərkdən hönkürə-hönkürə onu itələyib qaçdı, rəfiqəsi də Gülzarın ardınca qaçdı.

O, əlini atıb arxadan Gülzarın paltarından tutmaq istədi, amma tuta bilmədi və müvazinətini itirib səkinin üstünə yıxıldı, alnı asfalta dəyib partladı və o, alnından axıb gələn isti qanı burnunda, dodaqlarında hiss etdi və sövq-təbii təəccüb etdi ki, bədənində ki, bu qədər yanğı var, bütün bədəni ki, dözülməz bir içki istəyi ilə üşüm-üşüm üşüyür, necə olur ki, qanı beləcə istidi? Bir müddət eləcə üzüüstə səkidə sərilib qaldı, alnından axan qan laxtalandı, kimsə əlindən tutub qaldırmaq istədi, kimsə onu ayaq altından kənara çəkmək istədi, amma o bütün bunların fərqinə varmırdı və heç nə barədə fikirləşmirdi, Gülzarı da yadından çıxartmışdı, hətta, elə bil ki, arağı, çaxırı, pivəni də yadından çıxartmışdı, amma yoldan ötənlərdən kimsə dedi ki, təcili yardıma zəng eləmək lazımdı və o, beynini bürümüş duman içində bu sözləri eşitdi, tərpəndi, qalxdı və ayaqları dolaşa-dolaşa getdi...

Bufetçi Abdulla özünü saxlaya bilməyib hərdənbir «Qırmızı qərənfil»in içindən təəccüblə ona tərəf boylanırdı, zəndlə baxırdı və yenə də öz işi ilə məşğul olurdu: pivə parçlarını yuyub səliqə ilə qabağına düzürdü, divar boyu iri soyuducudan pamidor, xiyar çıxarırdı, uzun və iti bıçağı ilə doğrayıb boşqablara yığırdı, dünəndən qalmış soyutma toyuğu, yumurtanı, kolbasanı piştaxtaya qoyurdu və yenə də, istər-istəməz, qarşıdakı səki tərəfə baxırdı. Bufetçi Abdulla təəccüb edirdi ki, sübh tezdən «Qırmızı qərənfil»in qabağını kəsdirmiş bu içki düşkünü niyə durub gəlib pivə istəmir? Bufetçi Abdulla təcrübəli adam idi və bilirdi ki, məsələ pulda deyil – bunların, onsuz da, çox zaman pulları olmur, dilənçi kimi gəlib pivə dilənirlər, səbəb nə isə başqa bir şey idi və bufetçi Abdulla axırda bu qərara gəldi ki, yəqin bu bədbəxt sancılanıb-eləyib, yerindən tərpənə bilmir; bunların arasında beləcə qəflətən sancılanıb ölənləri Abdulla üç-dörd dəfə görmüşdü.

O yenə də qorxdu ki, birdən Gülzar təsadüfən gəlib bura çıxar, ya Səfurə gəlib bura çıxar və yerindən tərpənib qalxmaq istədi, amma bədənində heç bir taqət qalmamışdı, qalxa bilmədi; başındakı uğultu içində başa düşdü ki, bir azdan hər şey yenə də yaddan çıxacaq, yenə də gedib «Qırmızı qərənfil»ə girəcək, altmış qəpiyi verib pivə içəcək, sonra hər şey öz həmişəki qaydasına düşəcək – bunu fikirləşdi və Gülzarın gözlərindəki dəhşəti yenə də bütün aydınlığı ilə gördü.

Bufetçi Abdulla «Qırmızı qərənfil»in qapısı ağzına çıxıb onu çağırdı:

– Ey! Ey!

Bufetçi Abdulla bunlardan heç birinin adını bilmirdi, çağıranda da «ey» deyirdi.

– Ey, səninnəyəm, bura gəl!..

O, güclə başını çevirib «Qırmızı qərənfil»ə baxdı və həmin yay səhəri bufetçi Abdulla onun gözlərində qəribə bir ifadə gördü; bu ifadənin qəribəliyi nədə idi? – bufetçi Abdullanın şüuru bunu dərk edə bilmək səviyyəsində inkişaf etməmişdi, amma, hər halda, bu elə bir ifadə idi ki, bufetçi Abdulla daha onu səsləmədi və təzədən içəri girdi.

O, bir müddət «Qırmızı qərənfil»in açıq qapısına baxdı: yəqin zirzəmidən nəsə daşımaq lazım idi, yaxud «Qırmızı qərənfil»i silib-süpürmək lazım idi, amma yerindən tərpənmədi və hətta, əlini cibinə salıb altmış qəpiyi götürmək və it payı kimi «Qırmızı qərənfil»in qapısına tərəf tullamaq istədi və bədəninin yanğısı, başının uğultusu, qulağının, ayaq barmağının sızıltısı içində, beynini bürümüş o boz duman içində öz-özünün bu istəyinə təəccüb etdi, sonra başını yuxarı qaldırıb günəşə baxdı; onun bədən üzvlərinin hissləri tamam korlanmışdı və bu dəfə də günəşə baxanda gözlərini qıymadı, açıq gözlə baxdı, sonra gözlərini günəşdən çəkəndə bir müddət heç nə görmədi, hər tərəfi basmış qaranlıq içində iri və girdə günəş gözlərinin qabağında kölgəli bir ağartı-sarıltı ilə ağarıb-saraldı.

Həmin yay səhəri onun şüurundan keçən xatirələr adda-budda idi, müəyyən bir fikirdən, hadisədən, görümdən doğmurdu, öz-özünə gəlirdi – o, bu xatirələrin qəfilliyinə görə korşalmış bir heyrət hissi keçirirdi və bu dəfə də uşaq vaxtı gördüyü Ilan dağı birdən-birə yaddaşında canlandı: gözlərini yumdu və sıldırım qayalardan ibarət hündür, çılpaq Ilan dağı gəlib gözlərinin qabağında dayandı. Ona elə gəldi ki, Ilan dağının lap zirvəsinə qalxıb və oradan – göz qaraldan bir hündürlükdən aşağı baxır, aşağıda dayanmış atası ilə bərabər, özünü də görür və gözlərinin qabağındakı bu görüm onun bütün içini qüssəli, ümidsiz bir həsrətlə doldurdu, ona elə gəldi ki, bu həsrət bu dəqiqə onu həmin göz qaraldan hündürlükdən götürüb aşağı çırpacaq, bədəni Ilan dağının sıldırım qayalarına dəyib tikə-tikə olacaq, amma qəribədi, belə bir qarabasmadan qorxmadı, əksinə, yüngül bir rahatlıq hiss etdi.

Bədən isə yanırdı və o, Ilan dağını güclə gözlərinin qabağında saxlamağa, bədənindəki yanğını üstələməyə çalışdı və hiss etdi ki, bu daxili gərginlik onun bütün olub-qalan taqətini əlindən alır, hiss etdi ki, indicə ağlayacaq və bu dəfə də tamamilə birdən-birə təxminən bir il bundan əvvəl günün günoprtaçağı kitab pasajında ağlamağını xatırladı. Düzdü, çoxdan idi xəcalət hissi keçirmirdi, bu hiss tamamilə korşalıb təsirsiz olmuşdu, unudulmuşdu, amma həmin yay səhəri «Qırmızı qərənfil»in qabağındakı səkidə oturub təxminən bir il bundan əvvəl kitab pasajında ağlamağını yadına salanda nəsə çox narahat bir hiss keçirdi və bəlkə heç özü də başa düşmədi ki, bu xəcalət hissidi.

Onda da hələ kiçik qarovulçu köşkündə yaşayırdı, amma sir-sifəti şişib, qızarıb dəyişmişdi və bir çox tanışlar onu görəndə tanımırdı, amma o, ayıq olanda tanışları görüb tanıyırdı, çox ayıq olanda gizlənirdi ki, tanışlar onu görməsinlər, bir az içmiş olanda isə, özü tanış-bilişə yaxınlaşıb pul istəyirdi. Yenə içmişdi, yenə içmək istəyirdi, gözü küçələrdə tanış adam axtarırdı ki, pul tapsın və beləcə addımlaya-addımlaya kitab pasajına girdi, pasaj boyu düzülmüş kitab köşklərindən birində birdən-birə öz kitabını gördü. Cərrahiyyəyə aid bu kitab onun yazdığı birinci və sonuncu kitab idi və o gəlib bu kitabı əlinə götürdü, kitab almaq istəyən adamlara, pasajdan keçib gedənlərə göstərib ağlamağa başladı: «–Bu mənim kitabımdı!.. Bu kitabı mən yazmışam!..». Adamlar gah ona, gah da əlində tutduğu kitaba baxırdı və əlbəttə, heç kim bu kitabı, həqiqətən, onun yazdığına inanmadı, camaatın belə bir inamsızlığına görə o daha artıq hönkürə-hönkürə ağlamağa başladı və bu zaman kimsə ona iyirmi qəpik uzatdı, o da həmin iyirmi qəpiyi aldı, sonra kitabı eləcə ağlaya-ağlaya başqalarına da göstərib iyirmi qəpik, otuz qəpik pul istədi, yavaş-yavaş, bayaqkı kimi ürəkdən yox, pul yığmaq üçün yalandan ağlamağa başladı, bir pencək cibi xırda pul yığdı və gedib hamısını içdi.

O, «Qırmızı qərənfil»in açıq qapısına baxdı, sonra əlini kirli pencəyinin cırıq cibinə saldı və altmış qəpiyi çıxarıb ovcuna yığdı. Dəmir pullar günün şüaları altında parıldadı və uzaq Ilan dağının da çınqılları, daşları, qayaları günün altında beləcə parıldayırdı. Ilan dağı haçansa püskürmüş vulkan dağı idi, bir dənə də olsun bitkisi yox idi, sıldırım qayaları, iri daşları, saysız çınqılları hərəsi bir rəngdə idi: qırmızı, bənövşəyi, qəhvəyi, sarı, məxməri... və bütün bu rənglər qızmar günəşin altında sayrışanda adama elə gəlirdi ki, bu bitkisiz, bu çılpaq dağın özü tarixə qədərki nəhəng bir canlı varlıqdır, özü də ilan kimi soyuq, sürüşkən, qorxuludur. O yenə də özünü Ilan dağının zirvəsində gördü; ömründə bir dəfə – uşaq vaxtı atası ilə birlikdə gördüyü Ilan dağına yalnız kənardan tamaşa etmişdi, amma indi qapanmış gözlərinin qabağında Ilan dağının zirvəsində – aşağı baxdıqca gözqaraldan bir hündürlükdə idi.

«Qırmızı qərənfil»ə tək-tək müştərilər girib-çıxmağa başladı və bufetçi Abdulla da xoş üzlə müştərilərə qulluq edə-edə hərdənbir qarşı səkiyə tərəf baxırdı; bufetçi Abdulla qəti qərara gəlmişdi ki, qarşı səkidə oturmuş bu alkoqolik özünü bu cür etinasız aparır, gəlib pivə istəyəndə (əvvəl-axır gələcəkdi!) verməsin və onu burdan qovsun.

...O, xırda pulları yenə də cibinə tökdü və bütün gücünü toplayıb ayağa qalxdı.

Onun bütün bədəni «Qırmızı qərənfil»ə can atırdı, ayaqları da onu «Qırmızı qərənfil»ə aparırdı, amma o özünü məcbur etdi, ayaqları dolaşa-dolaşa «Qırmızı qərənfil»in qabağından keçdi, içəri girmədi və küçə yuxarı addımlamağa başladı.

Onun bütün bədəni alışıb yanırdı, içki istəyirdi, onu geriyə – «Qırmızı qərənfil»ə tərəf çəkirdi, amma o geri dönmürdü və öz-özünə belə bir əzab verdiyinə görə, elə bil ki, qüvvəsi daha da artırdı.

Onun bədəni yanırdı, içki istəyirdi, amma başındakı uğultu kəsmişdi, qulağındakı, ayaq barmağındakı ağrını da hiss etmirdi və beynində qəribə bir aydınlıq, daha doğrusu, bir yüngüllük əmələ gəlmişdi, küçə boyu addımlaya-addımlaya, əlini tərpədə-tərpədə öz-özünə danışırdı. Nə dediyini özü də bir o qədər aydın başa düşmürdü, amma kiminlə beləcə ciddi danışdığını dəqiq bilirdi – Səfurə ilə danışırdı, Gülzarla danışırdı, nəsə ciddi sözlər deyirdi, nəsihət vermirdi, amma ciddi tərbiyəvi fikirlər söyləyirdi, keçmiş cərrah həmkarları ilə danışırdı, sonra on il bundan əvvəl vəfat etmiş atası ilə danışmağa başladı...

Onun ayaqları vəfalı it kimi bir şey idi və o heç özü də bilmədi ki, bu doqquzmərtəbəli mehmanxananın qabağına necə gəlib çıxdı. Bu mehmanxananın sonuncu mərtəbəsində bar var idi, amma həmin bar onun kimi alkoqoliklərin yeri deyildi və bu tərəflərə gələndə də onları mehmanxanaya buraxmırdılar, amma bu dəfə onu görən olmadı, mehmanxananın qapısından rahat keçdi, kondisionerlərin gözəl bir sərinlik gətirdiyi vestibüldən adlayıb sərnişin gözləyən açıq liftə mindi və birbaşa doqquzuncu mərtəbəyə qalxdı.

O, bara girəndə barmen Abdulla (bu adamın da adı «Qırmızı qərənfil»in bufetçisi kimi Abdulla idi) təəccüblə ona baxdı; barmen Abdulla adamın sifətinə baxan kimi bilirdi ki, içəndi, yoxsa yox və ələlxüsus da alkoqolikləri yüz metrlikdən tanıyırdı və indi də təəccüb etdi ki, bu alkoqoliki səhər-səhər bura kim buraxıb?

Barda cürbəcür içkilər düzülmüşdü: araq, konyak, viski, cinn, çaxır, pivə və onun bütün bədəni bu içkilərə can atırdı və hətta o özü də bir an tərəddüd etdi, sonuncu dəfə bir şüşə pivə, yaxud əlli qram araq içmək istədi, amma onun bu son dəqiqələrdə tamam aydınlaşmış beyni bir elektron maşın dəqiqliyi ilə qeyd etdi ki, hərgah indicə gedib bir şüşə pivə, yaxud əlli qram araq içsə, yenə də hər şey təzədən başlayacaq.

O heç vəchlə istəmirdi ki, hər şey təzədən başlasın. Hətta hər şeyin təzədən başlaya biləcəyi ehtimalı həmin an bədəninə soyuq bir tər gətirdi, o qəti və dəqiq addımlarla barın küçə pəncərəsinə yaxınlaşdı.

Barmen Abdulla hələ kondisioneri işə salmamışdı və müştərilər gəlib yığışanadək iri pəncərələri taybatay açmışdı ki, içərinin havası dəyişsin.

O gəlib taybatay açılmış pəncərənin qabağında dayandı və aşağı baxdı – küçədən avtobus, trolleybus, avtomobillər gedib-gəlirdi, səkiyə enən mərmər pillələr və səki isə bomboş idi.

Bir an, yalnız bircə an ona elə gəldi ki, doqquzmərtəbəli mehmanxananın doqquzuncu mərtəbəsində yox, Ilan dağının zirvəsində dayanıb.

Sonra özünü pəncərədən atdı.

O, doqquzuncu mərtəbədən yerə düşənəcən özündə idi və yerə düşənəcən ağzını açıb qışqırmadı.

... Yenə səhər tezdən idi və süpürgəçi qadın qurumuş böyürtkən koluna oxşayan qalın süpürgəsi ilə yenə də küçəni süpürə-süpürə «Qırmızı qərənfil»in qabağına gəldi, dünən beləcə sübh tezdən səkidə oturub bufetçi Abdullanı gözləyən o bədbəxt içki düşkününü yadına saldı və fikirləşdi ki, həmin adam indi də yəqin gedib başqa bir qəlyanaltıxananın qabağını kəsdirib...

*Iyul, 1985.*
*Şüvəlan.*

## STALININ ÖLÜMÜ

Sonra 1953-cü ilin o soyuq 5 mart günü, o cümə axşamı birdən-birə Bakıda gün çıxdı və qışın sazağında günün birdən-birə eləcə çıxıb, eləcə yaz şüaları ilə qızdırmağı bütün məhəlləni alt-üst etmiş, hamını mat qoymuş o qara xəbərlə, daha doğrusu, o xəbərin qara nigarançılığı ilə heç cürə uyğun gəlmirdi və hətta elə bil ki, gün işığının o istisində, hərarətində indi bir düşmən əli var idi, elə bil, Pravadnik Əbdülkərimin həmişə sayıq və zəhmli nəzərləri də o gün işığına qarışıb məhəlləni bürümüşdü, qənbər döşənmiş küçə bomboş idi və elə bil ki, o cümə axşamı, o günorta çağı küçəyə döşənmiş o daşlar da Pravadnik Əbdülkərimin o sayıq nəzərləri altında üşüyürdü və qızına bilmirdi, təkcə Sarı hamamın qabağında ucalan qara tut ağacının çılpaq budaqlarına qonub, sonra da pırıltıyla uçan sərçələr məhəlləyə çökmüş bu pis nigarançılığın, bu qüssənin, kədərin fərqində deyildilər, heç nədən çəkinmirdilər, sıxılmırdılar, heç nəyin dərdini çəkmirdilər, birdən elə olurdu ki, cikkiltiləri boş məhəlləni başına götürürdü. Həyətləri yaşıl, qəhvəyi, birmərtəbəli, bəzi yerlərdə ikimərtəbəli kiçik və bir-birinə bitişik binaların küçəyə baxan pəncərələri bağlı idi və qapı-pəncərənin payızda, qışda qarın-yağışın altında qalıb solmuş rəngi də, divarların ağ, Sarı hamamın həmişəki sarı əhəngi də məhəlləyə daha artıq bir yetimlik gətirirdi və elə bil ki, məhəllə camaatının – o qapısı örtülü həyətlərdəki, pəncərəsi bağlı evlərdəki adamların nigarançılığı o yaşıl, qəhvəyi, göy, ağ sarı rənglərin solğunluğunda boş küçəyə yayılmışdı və o boş küçə də həmin qapı-pəncərələrlə, həmin əhəngli divarlarla, səkidəki o köhnə elektrik şalbanları ilə birlikdə, xüsusən sərçələrin cikkiltisi kəsilən zamanlar fikrə gedirdi ki, görəsən, bu fəlakətin axırı necə olacaq, (fəlakət olmağına isə, əsl fəlakət idi!). O cümə axşamı səhər tezdən məhəlləyə elə bir xəbər yayıldı ki, camaatın əli-ayağı qurudu, heç kim bu xəbərə inanmadı, amma inanmamaq da olmurdu, çünki bu xəbər elə bir şəxs haqqında idi ki, onunla zarafat eləmək, şayiə yaymaq olmazdı; məhəllənin kişiləri, yeniyetmələr, uşaqlar Sarı hamamın qabağına yığışdı və poçtalyon Müzəffər isə işə gecikməyini yaddan çıxarıb qolları sındığı üçün rezinlə bağlayıb başına keçirtdiyi çeşməyinin qalın şüşələri arxasından çox iri, bədheybət görünən gözlərini hələ mətbəə iyi verən «Kommunist» qəzetinin birinci səhifəsinə zilləmişdi, həyəcandan tez-tez udqunduğu üçün nazik boğazının ucu iti hülqumu enib qalxa-qalxa bərkdən oxuyurdu: «SSR ITTIFAQI NAZIRLƏR SOVETININ SƏDRI və Sov.IKP MƏRKƏZI KOMITƏSININ katibi Iosif Vissarionoviç STALIN yoldaşın xəstələnməsi haqqında hökumət məlumatı. Sovet Ittifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi və SSR Ittifaqının Nazirlər Soveti partiyamıza və xalqımıza bədbəxtlik üz verdiyini – I. V. STALIN yoldaşın ağır xəstələndiyini xəbər verirlər. Martın 2-nə keçən gecə, STALIN yoldaş Moskvada öz mənzilində ikən, beyninə qan sızmış, qan beyinin həyat üçün mühüm olan sahələrini bürümüşdür. STALIN yoldaş huşunu itirmişdir. Ürək fəaliyyəti və tənəffüsü xeyli pozulmuşdur. STALIN yoldaşı müalicə etməyə ən yaxşı həkimlər: professor-terapevt P. E. Lukomski, SSRI Tibb Elmləri Akademiyasının həqiqi üzvləri: professor-nevropatoloq N. V. Konavalov; professor-terapevt A. L. Myasnikov, professor-terapevt E. M. Tareyev; professor-nevropatoloq I. V. Filimonova; professor-nevropatoloq R. A. Tkaçov; professor-nevropatoloq I. S. Qlazunov; dosent-terapevt V. I. Ivanov-Neznamov cəlb edilmişdir. STALIN yoldaş SSRI Səhiyyə Naziri A. F. Tretyakov yoldaşın və Kremlin Müalicə-Sanitariya Idarəsinin rəisi I. I. Kuperin yoldaşın rəhbərliyi altında müalicə olunur». Bu yerdə Pravadnik Əbdülkərim poçtalyon Müzəffərin oxumağını

kəsdi və açıq-aşkar bir təlaş və həyəcanla: « – O birinci familiya necə oldu? – soruşdu. – Həkimlərdən birincisinin familiyası?!» Belə ağır bir məqamda da heç kim Pravadnik Əbdülkərimin üstünə çımxıra bilmədi ki, niyə kişinin oxumağını yarımçıq kəsirsən və hamı Pravadnik Əbdülkərimə narazı bir nəzər salıb təzədən gözünü poçtalyon Müzəffərə dikdi və poçtalyon Müzəffər də o qalın və girdə çeşmək şüşəsinin böyütdüyü gözlərini bir anlıq «Kommunist» qəzetindən ayırıb Pravadnik Əbdülkərimə baxdı, sonra təzədən birinci həkimin adını qəzetdə tapıb oxudu: «...professor-terapevt P. E. Lukomski...» Pravadnik Əbdülkərim daha artıq bir təlaş və həyəcanla: « – Alə, – dedi – birdən cuhud olar a?!» və bu sözdən sonra, elə bil ki, Pravadnik Əbdülkərimin təlaşı, həyəcanı, məhəllənin kişilərinə də sirayət etdi və hamı sual dolu nəzərini poçtalyon Müzəffərə dikdi, guya, bu sualın cavabını, yəni professor-terapevt P. E. Lukomskinin yəhudi olub-olmadığını da bilməli və deməliydi. Poçtalyon Müzəffər də, Sarı hamamın qabağına toplaşmış o məhəllə camaatının da əksəriyyəti Pravadnik Əbdülkərimin sualının və əlavə təlaşının, həyəcanının səbəbini və mənasını başa düşmürdü, amma bir halda ki, Pravadnik Əbdülkərim kimi siyasi sayıqlığı ilə məşhur olan bir adam belə bir məqamda nədənsə şübhələnirsə, nəyisə dəqiqləşdirirsə, deməli, nəsə var ortada ki, məhəllə camaatının bundan xəbəri yoxdu, amma bu dəfə Pravadnik Əbdülkərim öz sualına özü cavab verdi: «Yox!.. Cuhud olmaz... Lukomski... Lukomski... Yox, canım, yox!.. Cuhud olmaz... Qoymazlar!». Bu o demək idi ki, poçtalyon Müzəffər Məlumatın ardını oxuya bilər və poçtalyon Müzəffər də oxumağını davam etdirdi: «...STALIN yoldaşın müalicəsi Sov.IKP Mərkəzi Komitəsinin və Sovet hökumətinin daimi nəzarəti altında keçirilir. STALIN yoldaşın səhhəti ağır olduğuna görə Sov.IKP Mərkəzi Komitəsi və SSR Ittifaqı Nazirlər Soveti bu gündən etibarən Iosif Vissarionoviç STALININ səhhəti haqqında tibb bülletenləri elan edilməsini lazım bilmişdir. Sovet Ittifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi və SSR Ittifaqı Nazirlər Soveti, habelə bütün partiyamız və bütün sovet xalqımız belə bir faktın bütün əhmiyyətini başa düşürlər ki, STALIN yoldaşın ağır xəstəliyi, onun uzun və ya qısa bir müddət rəhbərlik işində iştirak edə bilməyəcəyinə səbəb olacaqdır». Bu dəfə özünü saxlaya bilməyib poçtalyon Müzəffərin oxumağını kəsən çəkməçi Ağagül oldu, həmin Ağagül ki, Fatma arvadın oğlu çəkməçi Balaniyazın yanında şagird idi və Balaniyaz tutulandan sonra, məhəllənin aşağı başındakı köşkdə ustasının yerində oturub işini görürdü; çəkməçi Ağagül xüsusi bir inamla dedi:

«–Alə, Stalin 72 dil bilir! Xəstəliyi ona heç nə əliyə bilməz! Lap ağır olmur, nə olur, olsun!.. Bu sözlərdən və kiçik bir sükutdan sonra, poçtalyon Müzəffər yenə oxumağa başladı: «Mərkəzi Komitə və Nazirlər Soveti partiyaya və ölkəyə rəhbərlik işində: rəhbər dövlət və partiya fəaliyyətindən STALIN yoldaşın müvəqqəti ayrılması ilə...» Çəkməçi Ağagül bu dəfə də özünü saxlaya bilmədi: «– Gördüz?! Müvəqqəti!.. Özləri yazıblar o boyda qəzetdə ki, müvəqqəti!..» Poçtalyon Müzəffər ardını oxudu: «...müvəqqəti ayrılması ilə əlaqədar bütün şəraiti tam ciddiyyətlə nəzərə alırlar. Mərkəzi Komitə və Nazirlər Soveti əmin olduqlarını bildirirlər ki, partiyamız və bütün sovet xalqı bu çətin günlərdə ən böyük birlik və yekdillik, mənəvi möhkəmlik və sayıqlıq göstərəcək...» Pravadnik Əbdülkərim bu ağır xəbərdən sonra, elə bil ki, yalnız indi bir balaca toxtadı və dedi: «– Bax, məsələ bundadı!..» Poçtalyon Müzəffər davam etdi: «...sayıqlıq göstərəcək, ölkəmizdə kommunizm qurmaq sahəsində öz səyini qat-qat artıracaq, Sovet Ittifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi və Sovet Ittifaqı hökuməti ətrafında daha sıx birləşəcəkdir. Sovet Ittifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi. SSR Ittifaqı Nazirlər Soveti. 3 mart 1953-cü il». Elə ki, poçtalyon Müzəffər bu xəbəri oxuyub qurtardı, o Sarı hamamın qabağına elə bir sükut çökdü ki heç 1941-ci ilin o isti yay günü, o vaxt ki, bax, bu poçtalyon Müzəffər müharibənin başlamağı haqqındakı xəbəri həmin bu «Kommunist» qəzetindən oxuyurdu, onda da buraya belə bir sükut çökməmişdi və o vaxt o xəbərə qulaq asan məhəllə kişilərinin, yeniyetmələrin bəlkə yarısından da çoxu indi bu işıqlı dünyada deyildi, haqq dünyasında idi – müharibədə qırılmışdılar, itib-batan da itib-batmışdı, amma 1953-cü ilin soyuq mart səhəri Sarı hamamın qabağına yığışmış bu kişiləri, bu cavanları, yeniyetmələri irəlidə təzə bir müharibə gözləmirdi, amma bu dəfəki sükutun ağırlığı on iki il bundan əvvəlki o sükutun ağırlığından qat-qat artıq idi. Indi söhbət bura toplaşmış bu adamların təkcə öz həyatından yox, onların evdəki balalarının, körpələrinin həyatından gedirdi: bundan sonra necə yaşayacaqdılar? Və camaat ki, o cümə axşamı sübh çağı Sarı hamamın qabağından, qoşa tut ağacının ətrafından evlərinə dağılışmağa başladı, elə bil, kişilərin beli sınmışdı, hər birinin ayağına pud bağlanmışdı və çəkməçi Ağagül də bütün içinə dolmuş o ağır təəssürat altında həmişəki kimi, əvvəlcə Sarı hamamın yanındakı çörək dükanına girib Fatma arvad üçün yarım kilo təzə ağ çörək aldı, nöyüt dükanı ilə üzbəüz yaşıl qapıdan kiçik asfalt həyətə girdi, həyətin yuxarı küncündəki taxta pilləkənlərlə ikinci mərtəbəyə qalxdı, qapını döydü ki, çörəyi Fatma arvada versin, sonra çəkməçi köşkünə getsin.

* * *

Fatma arvad bu dünyada daha elə bir xəbər gözləmirdi ki, həmin xəbərin ağırlığına dözə bilməsin, həmin xəbər bütün içini təzədən yesin – başına gələn o müsibətlərə ki, dözmüşdü və indi də oturub evdə bu cürə çay-çörək yeyirdi, deməli, dözümlüydü, hələ dözümlüdən də o tərəfəydi, pisiydi, pis – hər halda, Fatma arvad özü bu barədə belə fikirləşirdi və belə bir aqibətinin ki, müqabilində hələ yaşayırdı, nəfəs alırdı, acırdı, susuzlayırdı, bu, Fatma arvadın özünün xoşuna gəlmirdi, özü beləcə yaşamağından utanırdı; amma çəkməçi Ağagül ki, Allah onun valideynlərinə rəhmət eləsin, özü də gül kimi bir oğlandı, deyəndə ki, Stalin xəstələnib, elə bil, Fatma arvadın bütün içindən bir titrəmə keçdi, ağzını açıb bir kəlmə də söz deyə bilmədi və çəkməçi Ağagül qapını ardınca örtüb çıxıb gedəndən sonra arvad bir müddət elə-eləcə bağlı qapıya baxdı, birdən-birə ürəyini elə sıxdılar ki, imdad yeri qalmadı, arvada elə gəldi ki, bu qapılar bir də heç vaxt acılmayacaq, həmişə beləcə bağlı qalacaq. Fitma arvadın əri Əşrəf papaqçı idi və 1939-cu ilin bir yaz gecəsi papaqçı Əşrəfi gəlib, bax, bu evdən aparmışdılar və o gedən olmuşdu, getmişdi, papaqçı Əşrəf bir daha bu evə, bu həyətə, bu məhəlləyə, Içəri Şəhərin Qoşa Qala Qapısı yanındakı papaqçı dükanına qayıtmamışdı. Papaqçı Əşrəfin ittihamı bu olmuşdu ki, guya, kimlərsə onun papaqçı dükanında oturub yoldaş Stalinin əleyhinə danışıb və o «kimlərin» kim olduğu da məlum olmadı, bu xəbəri enkevediyə kimin verdiyi də məlum olmadı (onda Pravadnik Əbdülkərim hələ bu məhəllədə yaşamırdı, yəni ki, xəbər verən o deyildi) və papaqçı Əşrəfi də bundan sonra gördüm deyən olmadı, söz çıxdı ki, kişini Bulla adasında güllələyiblər, kimi də dedi ki, guya, papaqçı Əşrəfi Fatma arvadın (və yəqin ki, o rəhmətlik kişinin özünün!) ömründə eşitmədiyi Tomsk vilayətinin Kolpaşevo deyilən bir yerində görüblər, orada yatalaqdan ölüb... Fatma arvad iki oğluyla – böyüyü Ağaniyaz, kiçiyi Balaniyaz – bu evdə tək qaldı, sonra müharibə başlandı, Ağaniyaz müharibəyə getdi (Balaniyazın yaşı çatmadı) və 1943-cü ilin bir bəlalı fevral günü poçtalyon Müzəffər əlindəki qara kağızda Fatma arvadın da qapısını döydü və o qara kağızda yazmışdılar ki, Ağaniyaz Fatma arvadın ömründə eşitmədiyi Beketovka deyilən bir yerdə (Stalinqradın yaxınlığında) Stalin uğrunda hücuma keçəndə qəhrəmancasına həlak olub. Məhəllənin baxdığı Mənzil Istismar Idarəsinin rəisi Upravdom Qəribli müharibədən sonra idarəsinin qabağında «STALIN UĞRUNDA» adlı böyük bir şərəf lövhəsi düzəltdirmişdi və xalq düşməninin oğlu olduğuna baxmayaraq, Ağaniyazın da şəklini o şərəf lövhəsinə vurdurmuşdu. O şəkili oradan iki il bundan qabaq – 1951-ci ilin sentyabrında çıxartdılar, çünki həmin sentyabrda Balaniyazı gəlib günün günorta çağı elə çəkməçi köşkündən götürüb aparmışdılar: bu dəfə də, guya, kimlərsə gəlib bu balaca köşkdə oturub yoldaş Stalinin əleyhinə danışıb (və bu dəfə məhəllədə belə bir gizli şayiə gəzirdi ki, həmin xəbəri enkevediyə Pravadnik Əbdülkərim çatdırıb!), xalq düşməninin oğlu da atasının yolu ilə gedib və düz iki il idi ki, Balaniyazdan da bir xəbər yox idi, məhəllədə kimi deyirdi ki, Balaniyaz Sibirdədi, kimi deyirdi ki, Qazaxıstandadı, kimi də Fatma arvadın qulağına çatmasın deyə, lap gizli bir sirr kimi, deyirdi ki, Balaniyazı güllələyiblər. Fatma arvad bilmirdi ki, kimin qapısına getsin, kimdən soruşsun oğlunun aqibətini, Balaniyazı Allaha tapşırıb saatlarla həyətdəki taxta pilləkənin üstündə otururdu, səsini çıxartmırdı ki, daha nə ağlaya bilirdi, nə də qarğış eləyirdi (kimə qarğış eləyəydi?) və Upravdom Qəribli də, əlbəttə, belə bir hadisədən sonra, lap gözünün işığı da olsaydı, Ağaniyazın şəklini şərəf lövhəsində saxlaya bilməzdi və saxlamadı da, Fatma arvad ki, o cümə axşamı səhər-səhər Ağagülün ardınca o bağlı qapıya baxırdı, elə bil, indicə eşitdiyi bu dəhşətli xəbərdən sonra (« – Stalin xəstələnib!... Qəzetdə

yazıblar!..»), təkcə özü, yəni Fatma arvad yox, bütün dünya bu cürə bağlı qapı arxasında idi.

* * *

O soyuq mart səhəri poçtalyon Müzəffər belində içi dolu poçt çantası Bakının dağlıq məhəllələrindəki küçələri dolaşdıqca, illərdən bəri tanış qapıları açdıqca, qəzet-jurnalları, məktubları payladıqca, elə bil, Sarı hamamın qabağında oxuduğu o qara məlumatın sözlərini, hərflərini həmin qəzet-jurnalları, həmin məktubları verdiyi adamların – kişilərin və qadınların, qocaların, cavanların və uşaqların sifətində, baxışlarında hər dəfə təzədən oxuyurdu. Asfalt səkilərlə, qənbər döşənmiş küçələrlə addımladıqca poçtalyon Müzəffərə qəribə gəlirdi ki, belə bir xəbərdən sonra, həyat yenə əvvəlki kimi davam edir; düzdü, hər tərəfi dərd basıb, dərd divarlara, daşlara hopub, amma həyat yenə əvvəlki kimi davam edir, yəni o yenə əvvəlki kimi qəzet-jurnal paylayır, məktub paylayır, yoldan maşınlar keçir, kimsə dükandan nəsə alır, kimsə hara gedir. Bayaqkı o «Kommunist» qəzetində o qara məlumatdan sonra, bülleten çap eləmişdilər: «1953-cü il martın 4-də saat 2-də I.V. STALININ səhhəti haqqında bülleten. 1953-cü il martın 2-sinə keçən gecə I. V. STALININ beyninə birdən-birə qan sızmış, qan beynin həyat üçün mühüm sahələrini bürümüş, nəticədə sağ qıçı və sol qolu iflic olmuş, huşunu itirmiş və dili tutulmuşdur. Pozulmuş tənəffüsü və qan dövranını yaxşılaşdırmaq məqsədilə martın 2-də və 3-də müvafiq müalicə tədbirləri görülmüş, lakin bu tədbirlər xəstəliyin gedişində hələ mühüm dönüş əmələ gətirməmişdir. Martın 4-də gecə saat 2-dək I. V. STALININ səhhəti ağır vəziyyətdə qalmaqda davam etmişdir. Tənəffüsün xeyli pozulduğu müşahidə edilir: tənəffüs tezliyi dəqiqədə 36-ya çatır, xəstə düzgün nəfəs almır və arabir uzun fasilələr olur. Nəbzi tez-tez, dəqiqədə 120-yə qədər vurur və müntəzəm işləmir; qan təzyiqi maksimum 220 və minimum 120-dir. Temperaturu 38,2 dərəcədir. Tənəffüsün və qan dövranının pozulması ilə əlaqədar oksigen çatışmazlığı müşahidə edilir. Beyin funksiyalarının pozulması dərəcəsi bir qədər artmışdır. Orqanizmin həyat üçün mühüm funksiyalarını bərpa etmək məqsədilə hazırda bir sıra terapevtik tədbirlər görülür». Aşağıda da o böyük həkimlərin hamısının bir-bir adını yazmışdılar, nazirin adını yazmışdılar və poçtalyon Müzəffər bu bülletendəki bir çox sözləri, ifadələri başa düşmürdü, amma buradakı «beyninə qan sızmışdı», «qıçı, qolu iflic olmuşdu», «huşunu itirmişdi», «dili tutulmuşdu», «nəbzi tez-tez vururdu» kimi sözlər poçtalyon Müzəffərin öz ev-eşiyini yadına salırdı, özünün, arvadının, uşaqlarının xəstələnməsini, xəstəliklərdən ölüb getmiş məhəllə adamlarının – hər gün rastlaşdığı, dərdləşdiyi, xeyirdə-şərdə oturub bir qismət çörək yediyi, bir stəkan çay içdiyi o rəhmətliklərin yas məclislərindəki söhbətləri yadına salırdı və poçtalyon Müzəffər bu sözləri heç cürə Stalinə uyğunlaşdıra bilmirdi, bu – adamın ağlına sığmayan bir iş idi. Bülletendəki o «xəstə» sözü... O söz dünyanın yazıqlığından, acizliyindən, köməksizliyindən, əlacsızlığından xəbər verirdi, o sözün özündə bir zəiflik var idi və o söz indi Stalini əvəz edirdi? Elə həmin «Kommunist» qəzetində Bolqarıstan Elmlər Akademiyasının Moskva universitetinə hədiyyəsi barədə, Imişli rayonundakı L. M. Kaqanoviç adına kolxozun üzvlərinin kənd təsərrüfatı məhsullarının tədarükü planlarını 1 May bayramınadək yerinə yetirməyə söz verməsləri, Azərbaycan neft sənayesi işçilərinin orden və medallarla təltif olunması, Çan Kayşinin Birmadakı quldur dəstələrinə Birma qoşunlarının hücumu, Iranda Müsəddiq hökumətinə etimad məsələsinin səsə qoyulacağı barədə yazılar var idi və

elə bil ki, bütün bu əhvalatlar yer kürəsində yox, hardasa başqa bir aləmdə, başqa bir dünyada Ayda, Marsda, başqa bir ulduzda baş verirdi, çünki... Çünki bu dünyada Stalin xəstələnmişdi və bu dünyada ki, Stalin xəstələnmişdi, daha başqa nə ola bilərdi? Dünyada nə vardısa, Stalinin xəstələnməyi bunun son həddi idi, başqa nə ola bilərdi? Və birdən-birə poçtalyon Müzəffərin ağlına gəldi ki, bundan sonra yaxşı bir iş ola bilər, misal üçün, amnistiya ola bilər, gözü yollarda qalan qaragünlərin bir az bəxti açılar və poçtalyon Müzəffər bu fikirlərin gözlənilməzliyindən özünü itirdi, çünki bu o demək idi ki, bu xəstəlik Stalini... Poçtalyon Müzəffər daha dalını fikirləşmədi, təkcə ürəyindən bu keçdi ki, Allah mənim ömrümdən kəsib (nə qalıbsa, bundan sonra – ondan kəssin!) Stalinin ömrünə calasın, o böyük insanın ömrünü uzatsın və poçtalyon Müzəffər qalan bütün bəd fikirləri başından çıxarmaq üçün belinə şəllədiyi poçt çantasının yerini rahatladı və sürətini artırdı ki, yükünü tez boşaldıb qurtarsın, amma o mart səhəri poçtalyon Müzəffərin yükü, əslində, belinə şəllədiyi o içi dolu poçt çantasının ağırlığı deyildi, rəhbərin xəstələnməyi xəbəri ilə soyuq xəncər kimi ürəyinin içinə girmiş dərd idi.

* * *

Elə ki, 1951-ci ilin sentyabrında Balaniyazı gəlib bu köşkdən götürüb apardılar, Balaniyaza şagirdlik eləyən Ağagül qoymadı ki, köşkün qapısı bağlı qalsın, Balaniyazın yerində oturdu, Balaniyazın çəkicini-bıçağını əlinə aldı, göy ətəkliyini əyninə taxdı və səhərdən-axşamacan burada çəkmə yamadı, hər gün Fatma arvada baş çəkdi; yeməyə-içməyə öz evlərinə nə aldısa, Fatma arvadçun da aldı, nə qazandısa, yarısını bir qırağa qoydu ki, Balaniyaz qayıtsa, versin ona, bu köşkdən ötrü hökumətin qoyduğu və adamın belini sındıran verginin hamısını öz payından çıxdı, hərçənd Balaniyazın qayıtmağı, əlbəttə, çətin bir məsələ idi və məhəllədə də elə savadlı bir adam yox idi ki, qanunları bilə, gedib o yazığın başına gələni öyrənə – Ağagülü kim idi enkevedidə adam hesab eləyən və yaxına buraxan? Bir həftə getmişdi, Balaniyazın təzə tutulan vaxtları idi, bulvarın yanında böyük bir binaya girmişdi, soruşdular ki, sən kimsən? Dostusan? Bəlkə elə o köşkdəki söhbətlərdə iştirak edənlərdən birisən. Bundan sonra Ağagül nə qədər özünü məcbur elədisə də, qorxusundan bir daha o həndəvərlərdə dolanmadı və əlbəttə, Ağagül özü öz qorxaqlığının xəcalətini çəkirdi, amma başını aşağı salıb çəkmə yamamaqdan savayı əlacı yox idi, çünki Sarı hamamın yanındakı, o qoşa tut ağacının arxasındakı evlərində hər axşam Ağagülün yolunu özündən kiçik altı bacısı gözləyirdi...Ağagül yüz faiz bilirdi ki, Balaniyaza şər atıblar, çünki Balaniyazın yanında heç kim Stalinin əleyhinə danışmaz. Çünki Balaniyaz hələ müharibə vaxtı iynəylə sinəsinə, ürəyinin üstünə Stalinin şəklini döydürmüşdü və Stalinin bu cürə tuşla döymə şəkilləri, məhəllənin bütün cavanlarının qolunda, sinəsində var idi, çünki dünyada Stalindən böyük heç bir adam olmamışdı. Balaniyazı satmışdılar, gözü götürməyənlər satmışdılar, çünki Balaniyazın hörməti var idi, yaraşığı var idi, mərifəti var idi, ömründə dilinə nəşə vurmamışdı, bir adamı nahaq yerə incitməmişdi və Ağagül də məhəllənin başqa adamları kimi, bu işdə Pravadnik Əbdülkərimdən şübhələnirdi. Pravadnik Əbdülkərim bu məhəlləyə gəlmə adam idi, müharibədən sonra burda ev almışdı, bir cavan da rus arvadı var idi; onunla tək yaşayırdılar, uşaqları yox idi. Düzdü, məhəllədə deyirdilər ki, guya, Pravadnik Əbdülkərimin Rusiyanın şəhərlərində çoxlu uşaqları var (o cavan arvadını da elə Rusiyadan gətirmişdi), amma heç uşağı olan adama oxşamırdı, yəni bu mənada ki, adam Pravadnik Əbdülkərimi uşaq atası kimi təsəvvür eləmirdi və Ağagül istəmişdi ki, bu çəkməçi bıçağını götürüb gecə küçədə Pravadnik Əbdülkərimin qabağını kəssin, Balaniyazı soruşsun, amma buna da ürək eləməmişdi, çünki Pravadnik Əbdülkərim adi adam deyildi, həmişə hökumətdən danışırdı, həmişə düşmən axtarırdı və Pravadnik Əbdülkərimin qabağını kəsmək, Ağagül üçün Sovet hökumətinin qabağını kəsmək kimi bir şey idi. Əgər çəkməçi Ağagülün başına bir iş gəlsəydi, bacıları yiyəsiz qalardı (ata da, ana da haqq dünyasında idi...), bu, öz yerində, amma o yazıq Fatma arvadın da işi lap Allaha qalardı, çünki kömək eləyəni, əlindən tutanı elə təkcə Ağagül idi və Fatma arvad da gün-gündən dala gedirdi, səhərdən-axşama kimi otururdu həyətdəki o taxta pilləkənin başında, ağzını açıb bir kəlmə söz demirdi, yazıq daha ağlaya da bilmirdi. Nə qədər ağlamaq olardı? İllər boyu o arvad ağlayırdı, daha yaş qalmamışdı gözündən gələ... Bəs, innən sonra necə olacaqdı? Təkcə Fatma arvad yox, təkcə Ağagül və bacıları yox, bütün bu məhəllə necə yaşayacaqdı, onları nə gözləyirdi? Stalin xəstələnib... Stalin!.. Necə olacaqdı bundan sonra?.. Ağagül, düzdü, yüz faiz əmin idi ki, Stalin sağalacaq, amma ürəyində bir nigarançılıq da var idi, çünki etibarsız dünya idi... Dünyadakı əməllər də dünyadakı insanlar kimi etibarsız idi... Və o anda o balaca köşkün içində Ağagül bütün içindən axıb gələn bir diləklə dilədi ki, bundan sonra ki, nə qədər yaşayacaqdı,

Allah-taala onun omründən kəsib Stalinin ömrünü uzadaydı – o dilək o qədər sidq-ürəkdən idi ki, Ağagül qəhərləndi, gözləri doldu, o balaca çəkməçi köşkünün taxta divarlarına məhəllədəki nöyüt dükanının, çörək dükanının, Sarı hamamdakı kassir otağının divarlarındakı kimi, Stalinin cürbəcür şəkilləri yapışdırılmışdı və bu şəkilləri hələ Balaniyaz qəzetlərdən, jurnallardan, xüsusən «Oqonyok» jurnalından kəsib yapışdırmışdı, bir qismini də bazarda – həmşəri Palanında fotoqraflardan alıb yapışdırmışdı: Stalin generalissimus paltarında, şərfini boynundan arxaya atmış və qapqara saqqal saxlamış Koba – Stalin və oğlu general Vasili Stalin, Stalin ona gül verən balaca qızı qucağına alıb, Stalin və Mao-Tze-Dun, Stalin, Beriya, Mikoyan və Koqanoviçlə bir yerdə, Stalin və Qorki, Stalin anası ilə birlikdə... Və Ağagül Stalinin sağalacağına yüz faiz inansa da, əlindəki köhnə kişi ayaqqabısının dabanına rezin vura-vura hərdən ürəyində baş qaldıran o nigarançılıqla köşkün divarlarındakı həmin şəkillərə baxırdı: bu şəkillər ən doğma, ən mehriban bir adamın şəkilləri idi, amma eyni zamanda bu doğma, mehriban, bu əziz adam bir ucalıqda, böyüklükdə idi və hansı xəstəlik olursa-olsun, o xəstəliyin gücü həmin ucalığa, həmin böyüklüyə çata bilməzdi, o xəstəlik nə istəsəydi, bax, bu məhəlləyə eləyə bilərdi, başqa məhəllələrə eləyə bilərdi, Bakıya, bütün dünyaya eləyə bilərdi, amma Stalinə heç nə eləyə bilməzdi və Ağagül bu fikri özü üçün tam qətiləşdirəndən sonra, mismarları həmişəki kimi bir şövq ilə əlindəki köhnə kişi ayaqqabısının dabanına vurmağa başladı.

* * *

Sabahkı gün, yəni 1953-cü il martın 6-da səhər tezdən məhəllənin kişiləri, yeniyetmələr, uşaqlar yenə də Sarı hamamın qabağına, o qoşa tut ağacının altına yığışmışdı və bu adamların sifətində, baxışında elə bir kədər var idi ki, elə o kədər boz bir rəng alıb bütün məhəlləni bürümüşdü, o Sarı hamamın divarlarını da boz rəngə boyamışdı və poçtalyon Müzəffər çeşməyinin qalın şüşəsinin böyütdüyü gözlərini yenicə mətbəədən çıxmış «Kommunist» qəzetinə zilləyib hərdən titrəyən, boğazında qırılan səsiylə oxuyurdu: «Sovet Ittifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsindən, SSR Ittifaqı Nazirlər Sovetindən və SSRI Ali Sovetinin Rəyasət heyətindən. Partiyanın bütün üzvlərinə, Sovet Ittifaqının bütün zəhmətkeşlərinə. Əziz yoldaşlar və dostlar! Sovet Ittifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi, SSRI Nazirlər Soveti və SSRI Ali Sovetinin Rəyasət heyəti partiyaya və Sovet Ittifaqının bütün zəhmətkeşlərinə böyük hüzn hissi ilə bildirirlər ki, martın 5-də axşam saat 9.50 dəqiqədə SSR Ittifaqı Nazirlər Sovetinin sədri və Sovet Ittifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Iosif Vissarionoviç STALIN ağır xəstəlikdən sonra vəfat etmişdir». Bu yerdə Sarı hamamın qabağına toplaşmış o məhəllə camaatının içindən elə bir ümumi «ah» qopdu ki, o «ah» gözə görünməyən səssiz bir burulğan kimi, bütün bu adamları da, Sarı hamamı da, o qoşa tut ağacını da, o elektrik dirəklərini də burum-burum özündə fırladıb havaya qaldırdı.

Poçtalyon Müzəffər tez-tez udquna-udquna və udqunduqca da nazik boğazının ucu iti hülqumu enib, qalxa-qalxa həmin titrək səslə ardını oxudu: «... Leninin silahdaşı və onun işinin dahi davametdiricisi, Kommunist Partiyasının və Sovet xalqının müdrik rəhbəri və müəllimi Iosif Vissarionoviç STALININ qəlbi döyünməkdən qaldı». Yenə məhəllə camaatının içindən bir «ah» qopdu; uşaqlar hönkür-hönkür ağlamağa başladı, kişilər səssiz ağlaya-ağlaya gözlərinin yaşını sildilər və həmişə məhəllədə yas yerlərində, hətta, atalarının, qardaşlarının, ən yaxınlarının yasında ağlamaqlarını, kövrəlməklərini yeniyetmələrdən, uşaqlardan gizlədən məhəllə kişiləri, elə bil, yaddan çıxartmışdılar ki, ətrafda uşaq, yeniyetmə var, ağlayırdılar, içlərini çəkirdilər və o cümə günü səhər tezdən o Sarı hamamın qabağında ağlamaqlarını gizlətmək heç ağıllarına da gəlmirdi. Pravadnik Əbdülkərim də o səhər o camaatın arasında idi və ağlayan kişilərin gözləri Pravadnik Əbdülkərimə sataşanda, daha da bərkdən ağlayırdılar – əlbəttə, bu adamların hamısı sidq-ürəkdən ağlayırdı, amma, bir halda ki, Pravadnik Əbdülkərim də burada idi, hər ehtimala qarşı qoy öz gözləriylə görsün ki, kim necə bərkdən ağlayır... Pravadnik Əbdülkərim özü ağlamırdı, amma diqqətlə bir-bir məhəllə camaatına baxırdı və açıq-aşkar hiss olunurdu ki, öyrənib bilmək istəyir: kim necə ağlayır və nə qədər ürəkdən ağlayır?.. Poçtalyon Müzəffər oxuyurdu: «... STALININ adı partiyamız üçün, sovet xalqı üçün, bütün dünya zəhmətkeşləri üçün hədsiz dərəcədə əzizdir. Leninlə birlikdə STALIN yoldaş qüdrətli Kommunist Partiyasını yaratmış, onu tərbiyə etmiş və mətinləşdirmişdir; Leninlə birlikdə STALIN yoldaş Böyük Oktyabr sosialist inqilabının ilhamçısı və rəhbəri, dünyada birinci sosializm dövlətinin banisi olmuşdur. STALIN yoldaş... STALIN yoldaş...» Bu dəfə də poçtalyon Müzəffər özünü saxlaya bilmədi, hıçqırıq kişini boğdu, «Kommunist» qəzetində çap olunmuş hərflər gözünün qabağında əriyib horra kimi bir-birinə qarışdı və heç kişi özü də bilmədi ki, birdən-birə uşaq kimi necə ağladı; dizləri titrədi, uzun-uzun illərdən bəri ağır poçt çantasını belinə şəlləyib Bakının dağlıq küçələrini dolaşan və yorulmaq bilməyən bu adam birdən-birə taqətini itirdi və az qaldı yıxılsın, amma həmin məqamda Pravadnik Əbdülkərimin o müsibətli səhərdə də adamı xəncər kimi kəsən iti nəzərləri ilə rastlaşdı və özünü ələ aldı, titrəyən əlləri ilə tutduğu «Kommunist» qəzetini bir az da gözlərinin qabağına qaldırdı, nazik boğazının ucu iti hülqumu enib, qalxa-qalxa oxumağa başladı: «... STALIN yoldaş, Leninin ölməz işini davam etdirərək sovet xalqını ölkəmizdə sosializmin dünya miqyasında tarixi qələbəsinə çatdırmışdır. STALIN yoldaş dünya müharibəsində ölkəmizə faşizm üzərində qələbə qazandırmış və bu qələbə bütün beynəlxalq vəziyyəti kökündən dəyişmişdir. STALIN yoldaş partiyanı və bütün xalqı SSRI-də kommunizm qurmağın böyük və aydın proqramı ilə silahlandırmışdır. Bütün həyatını böyük kommunizm işinə fədakarlıqla xidmət etməyə həsr etmiş olan STALIN yoldaşın vəfatı partiya üçün, Sovet ölkəsi və bütün dünya zəhmətkeşləri üçün ən ağır itkidir». Sarı hamamın qabağından yenə bir hönkürtü dalğası keçdi və qıpqırmızı qızarmış gözlərindən yaş axan çəkməçi Ağagül o anlarda özünə kişi sözü verdi ki, mütləq evlənəcək, mütləq oğlu olacaq və oğluna mütləq «KOBA» adı qoyacaq, mütləq, mütləq, mütləq belə olacaq. Çəkməçi Ağagülün iyirmi dörd yaşı var idi, evlənmək vaxtı keçirdi, amma səhərdən-axşama kimi o qədər işləyirdi və bacılarının da o qədər qayğısını çəkirdi ki, evlənmək barədə fikirləşməyə vaxtı yox idi, amma həmin mart səhəri özünə kişi sözü verdi ki, lap yaxın vaxtlarda evlənəcək, oğlu olacaq və oğluna «KOBA» adı qoyacaq və əslində indi kimin qeyrəti varıydısa, gərək oğluna «KOBA» adı qoyaydı, heç olmasa, hərənin evində öz KOBASI olaydı,

o KOBALAR böyüyəydi, o dahi rəhbərin adını həmişə yaşadaydı, hamısı bir yerdə bəlkə o böyük ada layiq olaydı... Düzdü, dünyada bir də heç vaxt Stalin kimi böyük adam ola bilməzdi, heç kim ona çata bilməzdi, amma elə eləmək lazımıydı ki, heç olmasa, övladlar o böyük ada layiq olaydı... Və çəkməçi Ağagül o qədər dərin bir fikrə getmişdi ki, hətta, Pravadnik Əbdülkərimin ona dikilmiş iti nəzərlərinin fərqinə varmadı.

* * *

Pravadnik Əbdülkərim həmin mart səhəri Sarı hamamın qabağından qayıdıb mətbəxdə ülgüclə üzünü qırxırdı və əlüzyuyanın yuxarısından divara vurulmuş güzgüdə diqqətlə sabunlu sifətinə baxırdı, amma güzgü çirkli olduğu üçün, özünü yaxşı görə bilmirdi, ayaq barmaqlarının ücüna qalxıb sabunlu sifətini güzgüyə lap yaxınlaşdırırdı, az qalırdı yekə burnunun ətli ucu şüşəyə dəysin. Nataşanın ev işləri ilə arası yox idi, nəyi hara atırdı, orda da qalırdı, supdan başqa da heç nə bişirə bilmirdi, əsgini əlinə alıb Allahın güzgüsünü də təmizləmirdi və üzünü qırxa-qırxa çirkli güzgüyə baxan Pravadnik Əbdülkərimin qanı qaralmağa başlayırdı, amma həmişə belə məqamlarda olduğu kimi, 1953-cü ilin o mart səhəri də Nataşanın ağappaq, dolu və sağlam bədəni Pravadnik Əbdülkərimin gözünün qabağına gəldi, o bədənin hərarətini hiss elədi və güzgünün eləcə çirkliyinə baxmayaraq, kişi sinədolusu rahat və ləzzətli bir nəfəs aldı, gülümsədi. Nataşa hələ isti yataqda idi və Pravadnik Əbdülkərim başını çevirib yeganə otaqdakı enli dəmir çarpayıda yatan Nataşaya baxdı: Nataşa həmişəki kimi, arxası üstə uzanmışdı, dolu qollarını da başının kənarlarından yuxarı uzadıb balıncın üstünə qoymuşdu və əriylə birlikdə gecəki yorğunluqdan sonra, rahatca yatıb istirahət edirdi və o dəm Nataşanın qoltuğunun altındakı narın sarı tüklərin ətri, elə bil, mətbəxdə Pravadnik Əbdülkərimin burnuna gəldi və kişinin bütün bədənindən gözəl bir hiss keçdi, hətta istədi ki, təzədən gedib girsin Nataşanın yanına, amma tələsmək lazım deyildi, hələ düz üç gün evdə idi... Nataşa ərindən iyirmi beş-otuz yaş kiçik idi (iyirmi iki-iyirmi üç yaşı olardı) və Pravadnik Əbdülkərim içindən pıqqapıq qaynayan bu qızı Rastovdan tapıb gətirmişdi və qeydsiz-şərtsiz yüz faiz özünəməxsus olsun deyə, bu qızla ömründə birinci dəfə rəsmən evlənmişdi. Uzun illərdən bəri Rusiyanın saysız-hesabsız stansiyalarında Pravadnik Əbdülkərim hələ bu qız qədər sümüyünə yatan arvad xeylağına rast gəlməmişdi (Rusiyanın o saysız-hesabsız stansiyaları isə o uzun illərdən bəri Pravadnik Əbdülkərim üçün hərəmxana kimi bir şey idi!) və Nataşanın pintiliyi, düzdü, hərdən adamı dilxor eləyirdi, amma o pintilik o bədənin yanında, o hərarətin yanında yaddan çıxırdı, yox olub gedirdi və Pravadnik Əbdülkərim özü əlinə əsgi alıb güzgünü təmizləyirdi, pəncərələrin, evdəki əşyaların tozunu alırdı, süpürgəni götürüb evi süpürürdü, mətbəxin həyətə baxan pəncərəsini şalla kip örtüb ləyəndə özünün və Nataşanın alt paltarlarını, üst paltarlarını yuyurdu və keyfiyyətli yeməkləri – təzə ət, təzə balıq, kürü, Rusiyanın stansiyalarından aldığı, yaxud şey-şüyə dəyişdiyi gözəl ev kolbasaları gətirib Nataşanı bəsləyirdi, özü də Nataşanın öhdəsindən layiqincə gəlmək üçün, gecə-gündüz güclü və vitaminli şeylər yeyirdi: qoz, fındıq, ərik qurusu, göy-göyərti, quyruq yağında qızarmış yumurta və sairə. Hər dəfə səfərə çıxanda Nataşanı evdə tək buraxmırdı, aparıb qoyurdu Biləcəridə yaşayan bacısıgildə və Nataşa orada da yeyib yatmaqla məşğul olurdu, çünki bacısıgil də Pravadnik Əbdülkərimin qorxusundan (qardaş olanda nə olar? qorxulu adam idi!) Nataşaya gözünün üstündə qaşın var demirdilər. Pravadnik Əbdülkərim uzun-uzun illərdən bəri Bakı ilə – «Bakı – Moskva» qatarının yolu boyunca – Rusiyanın irili-xırdalı stansiyaları arasında hörümçək toru kimi, öz torunu hörmüşdü və bu torun telləri ilə stansiyalardan stansiyalara sürüşə-sürüşə yumurta kartofa dəyişilirdi, kartof toyuğa, toyuq balığa, balıq nöyüt plitəsinə, nöyüt plitəsi köynəyə, köynək kürüyə çevrilirdi və Pravadnik Əbdülkərimin qazancı həmişə yaxşı olurdu və ən böyük rəislərindən tutmuş bələdçi yoldaşlarına kimi heç kim Pravadnik Əbdülkərimə bir söz demirdi, çünki deyə bilmirdi, çünki qorxurdu. Pravadnik Əbdülkərim Azərbaycan dəmir yolu işçiləri arasında maskalanmış xalq düşmənlərini ifşa edə-edə 1937-ci ildə Sov.IKP-nin üzvlüyünə qəbul olunmuşdu və o vaxtdan bəri

bütün partiya iclaslarında çıxış edirdi, həmişə sayıqlığa çağırırdı, kimin siyasi simasından şübhələnirdisə, o saat iclaslarda deyirdi, enkevediyə və Azərbaycan KP MK-ya, Sov.IKP MK-ya yazırdı, 7 Noyabr, 1 May, sonralar 9 May bayramlarında döşünə qırmızı taxıb əlinə şüarlar götürürdü, nümayişlərdə dəmiryolçuların ön cərgəsində respublika rəhbərlərinin dayandığı tribunanın qabağından keçirdi, hər il dekabrın 21-də Stalinə, noyabrın 19-da Kalininə, Kalinin öləndən sonra isə, mayın 19-da Şvernikə teleqram vurub anadan olduqları gün münasibətilə onları ürəkdən təbrik edirdi və stansiyalararası alveri də işlədiyi vaqonların təkərləri kimi yağlı gedirdi və hərgah təkcə o məhəllədə yox, bütün Bakıda heç bir nigarançılığı olmayan, öz həyatından razı on nəfər vardısa, biri Pravadnik Əbdülkərim idi, hətta, müharibə vaxtı da idarədə birinci Pravadnik Əbdülkərimə bron verib cəbhədən azad elədilər ki, heç kimlə işi olmasın. Həmin mart səhəri mətbəxdə üzünü qırxdığı o ülgücü də Qroznıdan alıb gətirmişdi, trofey ülgüc idi, elə itiydi ki, bir göz qırpımında adamın başını bədənindən ayırmaq olardı və bunu fikirləşəndə Stalinin ölməyi yenə Pravadnik Əbdülkərimin yadına düşdü: Stalin də ölərmiş... Elə bilirdi ki, Stalindi də, dünya ona qalacaq, day demirdi ki, Isgəndərə qalmayan dünya heç kimə qalmayacaq!.. Oturmuşdu bu zırpılıqda ölkənin taxt-tacında, bığlarını uzadırdı, ayaqlarının da altını görmürdü... Indi aparıb soxarlar qara gora, onda bilər!.. Amma heç vaxtında ölmədi qoca kaftar!.. Kim bilir, indi necə olacaq, kim gələcək, təzə Stalin kim olacaq?.. Yox, heç ölməyin vaxtı deyildi... Pravadnik Əbdülkərimin məşhur bir söyüşü var idi, əsəbiləşəndə, narahat olanda, heyfsilənəndə söyürdü: «Svoluş!..» Və həmin mart səhəri də Pravadnik Əbdülkərim özünü saxlaya bilməyib, ürəyində o məşhur söyüşünü söydü: « – Svoluş!.. Ölməyə vaxt tapdı!..» Sonra Pravadnik Əbdülkərimin gözü mətbəxin həyət pəncərəsindən papaqçı Əşrəfin evinin taxta pilləkənlərinə sataşdı: orada Balaniyaz adında birisi yaşayırdı, çəkməçi idi, pişik südə baxan kimi, altdan-altdan marıtdayıb Nataşaya baxırdı (belə şeylər təbii ki, Pravadnik Əbdülkərimin gözündən yayınmazdı!), basdılar belinə on ili, getdi, köpək oğlu!.. Indi necə, görəsən, amnistiya olacaq? Amnistiya olsa, o gələnlər bəs nə deyəcək? Pravadnik Əbdülkərim yenə özünü saxlaya bilməyib o məşhur söyüşünü ürəyində təkrar söydü: « – Svoluş!.. Ölməyə vaxt tapdı, qoca kaftar!..» Sonra Pravadnik Əbdülkərim mətbəxin pəncərəsinə yaxınlaşdı və heyrətlə o taxta pilləkənlərə tərəf baxdı: Fatma arvad pilləkənlərin başında oturub için-için ağlayırdı və uzun müddətdən bəri ağzını açıb bir kəlmə deməyən bu arvad indi dünyanın qarasına nəsə deyirdi.

* * *

Elə ki, çəkməçi Ağagül səhər tezdən qapını açıb içəri girdi, yarım kilo ağ çörəyi mizin üstünə qoydu, Fatma arvadın ürəyi düşdü, elə bil, bir salxım üzümü qayçı ilə kəsdilər və arvad Ağagülün qıpqırmızı qızarmış gözlərindən başa düşdü ki, Stalin ölüb. Fatma arvad bütün gecəni yatmamışdı; əvvəlki gecələr həmişə Allaha yalvarırdı ki, Balaniyazdan bir xəbər gəlsin, Balaniyaz getdiyi yerdən salamat qayıtsın, amma həmin gecə Balaniyazla birlikdə Stalinçün də Allaha yalvarmışdı, yalvarmışdı ki, Stalin ölməsin, çünki əgər Stalin də ölsəydi, daha iynənin ucu qədər də ümid qalmayacaqdı bu dünyada, batacaqdı bu dünya, Aşqabaddan da pis günə qalacaqdı bu dünya... Və Ağagül çıxıb gedəndən sonra, Fatma arvad eləcə oturduğu yerdə qaldı, durub çay dəmlədi, mizin üstündəki o yarım kilo ağ çörəyə əl dəymədi və birdən-birə arvada elə gəldi ki, ömrünü keçirdiyi, əriylə birlikdə iki oğlunu böyütdüyü bu otaq otaq yox, qəbirdi, bardaş qurub oturduğu palazın üstündən güclə qalxıb titrəyən ayaqları səndələyə-səndələyə evdən çıxdı, o, səhərçağı çöldə də, elə bil, azadlıq yox idi, elə bil, nəyləsə hər tərəfi qapamışdılar və gözə görünməyən o «nəsə» çölü də otağın içi kimi, qəbirə çevirmişdi və Fatma arvad taxta pilləkənin üstündə oturdu, çoxdan bəri ağlamadığına (ağlaya bilmədiyinə!) görə hönkürtü, elə bil, birdən-birə qanlı-kədərli bir fəvvarə kimi, püskürüb bütün içindən gəldi, ağlaya-ağlaya: «–Bəs, necə olacaq? – pıçıldadı. – Ay Allah, bu nə gündü biz düşdük. – dedi. – O boyda kişiyə necə qıydın, ay Allah?! – dedi. – Baisin evi yıxılsın, bəs, necə olacaq bundan sonra? – dedi. – Bu yazıq camaat neyniyəcək bundan sonra?..»

* * *

O Sarı hamamın qabağındakı o qoşa tut ağacının çılpaq budaqlarına isə pırıltıyla sərçələr qonurdu, uçub gedib təzədən qayıdırdı və 1953-cü ilin o soyuq mart səhəri bizim məhəllədə təkcə o sərçələr heç nəyin fərqində deyildi...

*Aprel, 1990.*

## DÜNYANIN BƏXTƏVƏRİ

*Gəl səninlə həmdəm olaq,*
*Gəl, dolanaq bağı, bülbül...*

***Xalq mahnısından***

### I

Sonra o cümə günü səhər tezdən qocaya yenə elə gəldi ki, qəfəsdə cəh-cəh vuran o bülbülün səsini də qəfəsə salıblar və o bülbülün səsi də otağa xırdacıq qəfəslərin içində yayılırdı, bülbül özü qəfəsdə dustaq olduğu kimi, səsi də o xırdacıq qəfəslərin içində dustaq idi və o kiçicik səsli qəfəslər qovuqcuqlar kimi, bütün evin içində yüngülcə uçuşurdu və qoca hərdən diksinirdi, elə bil ki, o xırdacıq qəfəslər də sabun qovuqcuqları kimi, indicə partlayacaqdı, səslər də şüşə kimi sınacaqdı.

Qoca qəfəsdəki o bülbülə qulaq asdıqca, bülbülün səsini də eləcə xırda qəfəslərdə təsəvvür etdikcə, nigarançılıqla dolu bu hissləri mizin arxasında əyləşmiş adamlara da söyləmək istəyirdi, amma bir tərəfdən bu adamların kim olduğunu yadına sala bilmirdi, bir tərəfdən də həmin hissləri, həmin görümləri söz ilə ifadə eləyə bilmirdi, bilmirdi ki, hansı sözləri tapıb içindəkiləri danışsın və o məqamlarda qocaya elə gəlirdi ki, həmin hisslər özünün yox, başqa bir adamın hissləridir, başqa bir adamdır görən, duyan ki, bülbülün səsi də xırda-xırda qəfəsciklərə salınıb otaq boyu uçuşur.

O darısqal otağın bir küncündə, köhnə paltar dolabının üstündəki o sarı bülbül isə həmin cümə günü səhər tezdən elə hey ötürdü və bir əlində çaydan, o biri əlində çaynik, doyunca yata bilmədiyinə görə əsnəyə-əsnəyə və əsnədikcə də gözləri sulana-sulana mətbəxdən gələn gəlin:

– Buna nolub, ağəz, bu gün belənçinə? – dedi və hələ rəhmətlik ana babasından qalma girdə mizin arasında qızları, oğlu, əri və qayınatası üçün böyük stəkanlarda bir-bir çay tökməyə başladı:

– Dünya vecinə döyül də!.. – Bunu həmişə dünyadan şikayətli olan əri dedi və get-gedə daha da zəif gördüyü üçün qolunu lap gözlərinin qabağına gətirib hələ məktəbi bitirəndə – Allah bilir, neçə illər bundan əvvəl! – atasının, yəni indi mizin arxasında əyləşmiş bu qocanın hədiyyə aldığı saata baxdı, çayı qabağına çəkdi, stəkanın içinə qənd saldı və qaşıqla qarışdıra-qarışdıra pendir-çörəkdən dişlədi. – Bülbül olmağa nə var e?!

– Hə, bülbül olasan, amma qəfəsdə olmayasan! – Bunu da qoca dedi və qocanın sözləri o darısqal otaqda o qədər gözlənilməz səsləndi ki, hətta, qızlar da ağızlarındakı quru pendir-çörəyi çeynəmələrinə ara verib mat-mat babalarına baxdı və qocanın özünə də elə gəldi ki, bu gözəl kəlamı kimsə, bir başqası dedi, amma kim dedi? – mizin arxasında tanımadığı bu adamlar idi, bir də özü idi; qoca bir-bir və diqqətlə bu adamlara baxdı.

O sarı bülbülün xırdacıq qəfəslərə salınmış səsi sabun qovuqcuqları kimi, bütün otaq boyu elə hey uçuşurdu və qoca gözlərini mizin arxasında oturmuş bu adamlardan çəkib yenə bir müddət qəfəsdəki bülbülün qəfəslərə də salınmış səsinə qulaq asdı, sonra soruşdu:

– Mən bu gün getdim ayaqyoluna?

Oğlu ağzı yana-yana qaynar çaydan bir qurtum içib alnını qırışdırdı və bu adam tez-tez alnını qırışdırdıqca saçı tamam tökülmüş başının dərisi də yığılıb qırış-qırış olurdu və həmin məqamlarda elə bil ki, onun başı da dünyadan şikayət edirdi; atasına yanpörtü nəzər salıb:

– Mən nə bilim? – dedi. – Getmək istəyirsən, yenə get də! Uzaqda döyül ki, həyətdədi də!

– Bilirəm də, yolunu bilmirəm bəyəm? – Qoca bu sözləri deyib, həmişəki kimi, höcətləşməyə hazırlaşdı, amma yadından çıxartdı ki, oranın yolunu bilir, yəni yadından çıxartdı ki, söhbət nədən gedir, sonra yenə o sarı bülbülün xırdacıq qəfəslərə salınmış səsi onu çox uzaqlara aparmaq istəyirdi, özüylə qədim zamanlara çəkirdi, qoca bunu hiss edirdi, amma nə qədər fikrini toplayırdısa da, çalışırdısa da, o uzaqlara, o qədimlərə gedə bilmirdi: o uzaqlarda, o qədimlərdə hansı bir xatirəsə qocanı gözləyirdi, hətta, qoca o xatirənin xoş, mülayim nəfəsini duyurdu, amma vəssalam! – bundan o tərəfə getmək mümkün deyildi; sonra qoca diqqətlə qabağındakı çaya, pendirə, çörəyə baxdı, sonra daha artıq bir diqqətlə mizin arxasındakı o biri adamların qabağındakı çaya, pendirə, çörəyə baxdı ki, görsün hamısı eynidi, yoxsa yox? – Hamısı eyni idi: həmin çörək, həmin pendir, həmin çay – qoca sifətini turşutdu və səsi də həmişəkindən cır səsləndi: – Yenə pendir-çörək? Bu gün pendir-çörək, dünən pendir-çörək, həmişə pendir-çörək!.. Niyə pendir-çörək?.. Həmişə pendir-çörək...

Oğlu yenə qolunu gözünə yaxınlaşdırıb saatına baxa-baxa və isti çayı içib qurtara-qurtara dedi:

– Sonra da deyirik ki, yaddaşı qalmayıb bunun! Elə yaxşı qalıb ki!.. Gör nə bilir ki, dünən də pendir-çörəyidi, o biri gün də pendir-çörəyidi!..

Gəlin:

– Yaxçı!.. – dedi. – Başlama səhər-səhər!..

O darısqal otaqdakı köhnə girdə mizin (bu miz gəlinin vaxtıyla atası evindən gətirdiyi cehiz idi, əslində isə, bunu anası özüylə cehiz gətirmişdi) arxasında bu ailənin bütün üzvləri, yəni qoca, oğlu, gəlini və oğlu ilə gəlinin övladları: əsgərliyi təzəcə qurtarıb gəlmiş və Tarix İnstitutunda kuryer işləyən böyük oğlan, texnikumda dərzilik oxuyan böyük qız, yəni ikinci uşaq, altıncı sinifdə oxuyan ortancıl qız əyləşmişdi. Hamı pendir-çörək yeyirdi, heç kim danışmırdı və qocanın dediklərini də – təkcə o gözlənilməz bülbül söhbətindən başqa! – elə bil ki, təkcə oğlu eşidirdi; o köhnə paltar dolabının üstündəki o sarı bülbül də həmin payız günü səhərin gözü açılmamış oxu ki, oxuyurdu.

Qoca:

– Yağ da yoxdu!.. – dedi.

Oğlu yerində qurcalanıb yenə nəsə demək istədi, amma gəlin əli ilə ərinin çiynindən basdı, yəni ki, işin olmasın və sakit çörəyini ye.

Qoca:

– Dünən də yağ yox idi!.. – dedi. – Yağ vermirsiz mənə!..

Bu dəfə gəlin cavab verdi, gülümsəyib:

– A-a-a... – dedi. – Kimə yağ verirəm ki, sənə vermirəm?..

Qoca isə, gəlinin sözlərinin fərqinə varmadan qüssə ilə qarşısındakı pendirə, çörəyə baxa-baxa təkrar etdi:

– Yağ da yoxdu!..

– Yağımız qurtarıb də... – Gəlin, elə bil bağça, müəllimədi idi, uşağı başa salırdı; sonra ürəkdolusu əsnədi və gözlərindən iki gilə yaş süzülüb üzüylə axdı. – Talonu da vermir upravdom hələ, deyir ki, gəlməyib. Bəs, nə vaxt gələcək? Üç gündən sonra ay qurtarır?.. Fırıldaqdı hamısı! Altdan satırlar talonnarı rayonlulara. Rayonda, deyir, yağın kilosu əldə on beş manatdı! – Yenə ürəkdolusu əsnəmək istədi, amma axıracan əsnəyə bilmədi, gözü oğluna sataşdı, əsnəməyi hələ də yaraşığını itirməmiş balaca burnunda ilişib qaldı. – Bircə bunun işi düzəlsəydi!..

Qoca yağ söhbətini ortaya atmışdı, amma daha gəlinin dediklərinə fikir vermirdi, diqqətlə öz əyninə baxırdı: hələ otuz il bundan əvvəl nəşriyyatda kassaçı işlədiyi vaxt (indi tamam yadından çıxartdığı o zamanlar) özünə aldığı boz kostyum (bu boz kostyum o qədər köhnə və eyni zamanda o qədər səliqəliydi ki, elə bil, muzey eksponatı idi!). Elə həmin qədim vaxtlardan – əllinci illərdən qalma miləmil köynək, enli qəhvəyi qalstuk; qoca hər gün səhər yerindən qalxanda boz kostyumu geyirdi, miləmil köynəyin üstündən enli, qəhvəyi qalstukunu taxırdı, elə bil ki, o keçmiş vaxtlardakı kimi, işə gedəcəkdi və hər gün də heç hara getmədiyi, təkcə evdə, ya da ki, həyət qapılarının ağzındakı taxta skamyada hərəkətsiz oturduğu üçün, boz kostyum didilib-sökülmürdü, ayda, iki ayda bir dəfə də, gecə qoca yatandan sonra gəlinin ütüsündən, şotkasından keçirdi.

O payız səhəri qoca diqqətlə öz əyninə baxa-baxa əlini pencəyinin yaxasında gəzdirdi, iki əlini də şalvarın üstündən bir dəri, bir sümük olan dizlərinə sürtdü, elə bil, öz-özünü yoxlayırdı və soruşdu:

– Mən kiməm?

Oğlu qocaya baxdı və birdən-birə qızardı, ərinin beləcə qızarmağı, əlbəttə, gəlinin gözündən yayınmadı, arvad ürək ağrısı ilə fikirləşdi ki, əri hələ də qocanın belə bir vəziyyəti ilə barışa bilmir, kişinin xəcalətini çəkir.

Qoca bu dəfə də diqqətlə oğluna baxdı:

– Bəs... sən kimsən?

– Mən itəm! Pişiyəm! Əbləhin biriyəm! Heç bilirəm ki, kiməm? – Əlindəki boş stəkanı hirslə nəlbəkinin üstünə qoyub ayağa qalxdı, balaca arakəsməyə çıxıb köhnə paltosunu, papağını asılqandan götürdü, əyninə geyməyib, elə-eləcə evdən çıxdı, həyətdəki zibil yeşiyinin yanından ötüb birbaş işə yollandı: iyirmi il idi ki, Statistika İdarəsində təsərrüfat müdiri işləyirdi (işçisi də ancaq özündən ibarət idi).

Gəlin:

– Fağır, o saat özündən çıxır!.. – dedi. – Neynəsin e? Mən qaragünün də əlindən bir iş gəlsəydi, bu bədbəxt oğluna kömək eləyərdim də, maaş alardım... Məni bazara qoymur, özü gedir. Bilirsən nöşün? – Gəlin bu sözləri qocaya baxa-baxa deyirdi və qoca da gözlərini bu qadına dikmişdi, nə dediyinin fərqinə varmırdı, təkcə elə onu fikirləşirdi ki, görəsən, bu arvad kimdi belə bu qədər danışır? – Elə bilir ki, mən başa düşmürəm!.. Eşşəyəm bəyəm mən ki, ya, başa düşməyim? Nöş başa düşmürəm? Ona görə özü gedir ki, bazarda şey-şüyü ucuz almaqçün qəpiy davası əliyir. Başa düşdün?.. – Gəlin bu sualı da qayınatasına baxa-baxa verdi, elə bil ki, qoca doğrudan da, nəsə başa düşməliymiş; sonra özü başa saldı: – Qeyrətinə sığışdırmır ki, mən gedim ucuz şey axtarım bazarda?.. İstəmir ki, arvadı başqalarının arvadından əskik olsun, qəpiy davası eləsin!.. Bununçun da özü gedir bazara... Ona deyən lazımdı ki, ay bədbəxt oğlu bədbəxt, mən nəyəm begəm? Böyük zibil-zadam? Bude, camaat necə, – əli ilə pəncərədən həyəti göstərdi – mən də eləyçinə də!.. Ancaq deyə bilmirəm də ona... Necə deyim? Ürəyini sındırmaq istəmirəm də... – Sonra oğluna baxdı. – Ancaq sən zirəng ol bir az!

Cavan oğlan, onsuz da, yekə burnunu – burunda babasına, yəni indi gəlinə baxa-baxa bu arvadın kim olduğu barədə fikirləşən və uzun – uzadı danışmağından təngə gələn qocaya çəkmişdi – az qaldı əlindəki stəkanın lap içinə soxsun:

– Mən neyniyim e?.. – donquldandı.

Gəlin oğlunu yamsıladı:

– «Neyniyim?».. Əfəl olma də!..

Məsələ burasında idi ki, əsgərlikdən təzə qayıdıb Tarix Institutunda kuryer işləyən bu oğlanın təzə işə keçmək məsələsi bu gün həll olunmalı idi – anası istəyirdi ki, daha doğrusu, var gücüylə çalışırdı ki, oğlu milisioner olsun, amma adi milisioner yox, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin binasında qapıda dayanan milisioner; belə bir yer olduğunu və ora indi cavan adam axtardıqlarını bu həyətdə yaşayan milisioner Əliabbas demişdi, daha doğrusu, bunu milisioner Əliabbas arvadı Firuzəyə demişdi, Firuzə də düz beş gün bundan əvvəl həyətdəki krantda qab-qacaq yuyanda bunu arvadlara demişdi: « – Ude, milsəner yeri boşdu sekada, adam axtarırlar ora! Sekanın dükanı var, bufetində də nə qədər istəyirsən sveji ət var, ağəz, apelsin də var e, orda həmişə öz qiymətinə, kilosu iki manata!... Ətağanın cəddiyçün, Əliabbas qərdeşüvüz diyir ki, yağ da olur orda, talonsuz-zadsız!.. O biri milsənerlər səhərdən-axşamacan küçələrdədi, fağırlar, ancaq sekadakı milsəner həmişə isti yerdə oturur, içəridə, qapının yanında, dakumentlərə baxır ki, hə, sən gir içəri, sən də, sənə olmaz, girə bilməzsən, vəssalam! Ancaq nə istəyir, gedir bufetdən alır, arvad-uşağı da bey balası kimi yaşayır!.. Özü də girib orda bufetdə abed əliyir!.. Bələdi də, haqq yoxdu də bu zaraza dünyada!.. Əliabbası kimdi ora götürən? Hay-hayı gedib, vay-vayı qalıb!.. Pensiyəyə çıxır də, fağır gələn il... Kimdi onu ora götürən?.. Əliabbas qərdeşivüz deyir ki, ora elə-belə heç kimi götürməzlər! Ya gərək adamun olsun, tapşursun səni, ya da ki...» Bu sözləri düz beş gün bundan əvvəl Firuzədən eşitmişdi və bu sözlər düz beş gün idi ki, gəlinə rahatlıq vermirdi, beyninə elə girmişdi ki, çıxarmaq mümkün deyildi (çıxarmaq istəmirdi də!) və bu beş gündə evdə səhər-axşam bu məsələdən danışırdı, oğlunu həmin yerə düzəltməkdən ötrü tədbir tökürdü və hər dəfə də ərinə, oğluna, qızlarına deyirdi: « – Heç kimə demüyün ha!...» Təkcə qayınatasına xəbərdarlıq eləmirdi, çünki bilirdi ki, qoca elə sklerozdu ki, altı-yeddi ildi, onsuz da, heç nə başa düşmür, heç nə yadında qalmır və heç kimi də tanımır. Gəlin əvvəlcə oğlunu yanına salıb apardı Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin təzə böyük binasının qabağına, əlləşdi, vuruşdu, soraqlaşıb öyrəndi ki, hansı qapıdan hara getmək lazımdı, bu işlərə kim baxır, özü qaldı küçədə, oğlunu göndərdi içəri (məktəbi qurtarmağı haqqındakı kamal attestatı, əsgərlikdə aldığı tərifnamə və sairə sənədlərlə birlikdə) və bir az keçəndən sonra oğlu suyu süzülə-süzülə geri qayıtdı ki, düzəlmədi, məni heç kimin yanına buraxmadılar, dedilər get ayrı yerdə özünə iş axtar. Səhərisi gün yenə qayınatasını evdə tək qoydu – qocanı evdə tək qoyanda da həmişə nigarançılıqdan ürək-göbəyini yeyirdi ki, birdən suyu açar, bağlamaz, ya qazı açıb bağlamaz, ya özü yıxılar-eləyər, qalxa bilməz – yenə oğlunu yanına salıb (işdə də elə bilirdilər ki, institutun kuryeri məktubları ünvanlara çatdırır, avtobusda, trolleybusda ləngiyir) getdi Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin binasına, amma bu dəfə o kamal şəhadətnaməsini də, o mayor Ivanovun imzaladığı tərifnaməni də, qalan sənədləri də özü ilə götürdü, oğlu küçədə dayanıb gözlədi, özü içəri girdi və yenə də heç nə çıxmadı, onu da rəisin yanına buraxmadılar: « – Ay bacı, get oğluna başqa yerdə iş axtar, burda iş yoxdur! Bura sekadı e, seka!...». Həmin gün də oğlu dayanacaqlarda işlənmiş avtobus, trolleybus, tramvay biletləri yığıb işə apardı, bu qədər şəhəri dolaşmışam, ona görə də ləngimişəm (həmişəki kimi, o biletlərin pulunu da kassadan götürüb gedib özünə siqaret aldı), gəlin də kor-peşman evinə qayıtdı, başa düşdü ki, elə çətin bir məsələyə girişib ki, onun xörəyi deyil, amma milisioner Əliabbasın arvadı Firuzənin dediyi o sözlər başından çıxmırdı ki, çıxmırdı. Səhəri gün istədi ki, indi də ərini göndərsin oğluyla, amma göndərmədi, çünki getməyinə gedəcəkdi, sonra da dava salacaqdı,

dünyanı da, hökuməti də, partiyanı da söyəcəkdi və oğlunun orada işə düzəlmək məsələsi birdəfəlik batacaqdı. Odur ki, səhərdən-axşamacan tək başına şorqoğalı bişirdi (axırıncı yağ da elə o şorqoğalına getdi!), qapını, pəncərələri də bağladı ki, iyi qonşulara getməsin, fikirləşməsinlər ki, görəsən, bu şorqoğalını niyə bişirir belə, çünki bu həyətdə şorqoğalı ildə bir dəfə, o da Novruz bayramında bişirilirdi. Dünən əriylə oğlu işə, qızlar məktəbə gedəndən sonra, ildə-ayda bir dəfə dolabdan çıxartdığı qırmızı donu əyninə geydi (həmin qırmızı donu ya yayda çox yox, bircə dəfə əriylə, uşaqlarıyla bərabər məhəllədən üç tin aşağıdakı «Qırmızı Oktyabr» yay kinoteatrında filmə baxmağa gedəndə geyərdi və axşam yığışıb beləcə kinoya getməkləri bu adamlar üçün, elə bil ki, Novruz bayramına bənzər bir şey idi və illah da, hind filmləri olanda ki, gəlin qızlara qoşulub ağlayırdı, əri ürəyində kövrəlirdi, o zaman o göz yaşlarında da, o kövrəlmədə də əslində bir bayram ovqatı olurdu; ya da həmin qırmızı donu məhəllədə kiminsə böyük, kiminsə kiçik toyu olanda əyninə geyib arvad məclisinə gedirdi), qocanı evdə tək qoydu və birbaşa Firuzəgilə yollandı. Bu Firuzə milisioner Əliabbasın arvadı Firuzə deyildi, uşaqlıqda bir yerdə oxuduqları, it əyyamında məktəbi bir yerdə qurtardıqları Firuzə idi. Həmin Firuzə məktəbi bitirəndən sonra, öz məhəllələrində kirayənişin yaşayan kasıb bir tələbəyə ərə getmişdi və həmin Firuzənin bəxti elə gətirmişdi ki, bütün tanış-bilişlərin arasında o cürə bəxti gətirən ikinci arvad yox idi: əri, yəni o kasıb tələbə böyük adam olmuşdu, nazir müavini idi (arvadlar məhəllədəki Sarı hamamda çiməndə və o Firuzədən söz düşəndə, o Firuzəni tanıyan arvadlar deyirdi: « – O bəxtəvərin qızı yağlı yerdədi!..), idarədə qara «Volqa»sı var idi və o qara «Volqa» da, o sürücü də səhərdən axşamacan Firuzənin ixtiyarında idi, milisioner Əliabbasın arvadı Firuzənin yox, bu Firuzənin, yazığın belə şeylər heç yatsaydı yuxusuna da girməzdi... Firuzə qapını açıb onu görəndə sidq-ürəkdən sevindi və Firuzənin eləcə sidq-ürəkdən sevinməyi, elə bil ki, gəlinin ürəyindəki o nigarançılığı azaltdı, fikrini bir az dağıtdı və ürək-göbəyini də yeyib qurtarmadı ki, görəsən, indi qoca evdə neyləyir, yıxılıb, ya nəyi salıb sındırıb, ya təkbaşına baş alıb harasa gedib – bütün bunların hamısı olmuşdu və Allaha şükür ki, hamısının da axırı yaxşı qurtarmışdı. Dünən Firuzənin məktəb rəfiqəsini qapıda görüb o cürə cani-dildən sevinməyi, payız vaxtı Firuzənin səkkizinci mərtəbədəki o üçotaqlı evinin içinə dolmuş o gün işığı, otaqların o genişliyi, təmizliyi, səliqə-sahmanı, elə bil ki, bu həyəti də, bu həyətdəki ümumi böyük kranı da, ümumi ayaqyolunu da gəlinin içindən qovub çox uzaqlara qaçırtdı, hətta, evdə tək qalmış qocanı da uzaqlara aparıb bir müddət görünməz etdi və Firuzənin eləcə sevinməyi gəlinin də ürəyinə bir sevinc gətirdi, bir azadlıq gətirdi və çoxdan idi ki, gəlin ürəyində belə bir sevinc, belə bir azadlıq hiss etməmişdi. Azı on il olardı ki, Firuzəni görmürdü, amma Firuzə heç dəyişməmişdi, yəni ki, heç qocalmamışdı, əksinə, daha da cavanlaşmışdı, daha da gözəlləşmişdi, sinəsi, qolları pulu təmizlənmiş balıq kimi hamar və sürüşkən idi, tük boyda qırışı da yox idi. Firuzənin uşağı olmurdu, bir əriydi, bir də özü və o hərdənbir, o vaxtlar ki, gəlin öz evində oturub düyü arıtdayırdı, ya kartof soyurdu, Firuzə birdən-birə gəlib yadına düşürdü, fikirləşirdi ki, görəsən, əri, o nazir müavini nə əcəb Firuzəni boşayıb, başqa bir arvadla evlənmir ki, uşağı olsun, amma dünən səkkizinci mərtəbədəki o işıqlı otaqda oturub o gülərüz Firuzə ilə söhbət etdikcə, dolu sinəsinə, qollarına, armud kimi yaraşıqlı qıçlarına baxdıqca fikirləşirdi ki, o keçmiş kasıb və kimsəsiz tələbə bu cür canı qoyub hara gedir, nazir müavini olmur, kim olur-olsun, bu cürə işığı, bu cürə gözəl istirahəti, Allahın hər verən günü evindəki bu cürə bayramı hardan tapacaq? Ədbəttə, Firuzə başa düşürdü ki, məktəb rəfiqəsi əgər on ildən sonra

qapısını döyübsə, nə isə bir iş üçün gəlib, amma macal vermirdi, çay dəmləyə-dəmləyə, sonra çayla o gözəl şorqoğalından yeyə-yeyə elə hey ordan-burdan danışırdı, məktəb illərindən, ölüb getmiş müəllimlərindən, yaddan çıxmış sinif yoldaşlarından, gəlin üçün elə bil ki, uzun illərin keçilməz beton hasarından o tayda qalmış və izləri-soraqları kəsilmiş xatirələrdən danışırdı, məktəbdə bir yerdə oxuduqları və gəlinin uzun-uzun illərdən bəri xatırlamadığı (xatırlamağa imkanı olmadığı) cavan, yaraşıqlı, sağlam oğlanların baxışları, təbəssümləri həmin illərin buzunu qırıb səkkizinci mərtəbədəki o mənzilə hərarət gətirirdi və bütün bunlar çox gözəl idi, amma vaxt gedirdi, qoca evdə tək idi, bir azdan qızlar məktəbdən qayıdacaqdı, sonra əri işdən gələcəkdi, gəlin isə, yeməyə bir şey hazırlamamışdı. Firuzə elə hey danışırdı, görünür, əri işdə olanda həmişə evdə tək qaldığı üçün qurtarmaq bilmirdi və gəlin, nəhayət ki, yağış kimi, amma gözəl, mülayim, xoş bir yağış kimi (əlçatmaz, ünyetməz bir uzaqlıqda qalmış gənclik illərinin həzin – amma işıqlı! – hisslərini adamın bütün varlığına yayan gözəl, mülayim, xoş bir yağış kimi) Firuzənin yaraşıqlı dodaqlarından yağan sözlərin arasından imkan tapıb gəlişinin səbəbini dedi və Firuzə də o saat telefonla əri ilə danışdı, özü də elə danışdı ki, heç bir şəkk yeri qalmadı: o hörmətli kişinin (o keçmiş kasıb və kimsəsiz tələbənin) imkanında nə varıydısa eləyəcəkdi ki, Firuzənin məktəb rəfiqəsinin işi düzəlsin; sonra belə danışdılar ki, axşam əri işdən gələndən sonra (yəni nazir müavini işdən gələndən sonra), gəlin Firuzəgilə telefon eləsin və cavabını öyrənsin. Axşam evlərindən üç tin aşağıda, «Qırmızı Oktyabr» yay kinoteatrının yanındakı telefon-avtomatdan Firuzəgilə zəng elədi və Firuzə xüsusi həvəslə dedi ki, sabah, yəni bu səhər saat onda uşaq getsin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin binasına, kişinin adını verib girsin rəisin yanına, sonra sabah axşam, yəni bu gün axşam yenə zəng eləyib cavabını onlara desin.

Gəlin oğlunu təkrar yamsıladı:

– «Neyniyim?..» Necə neyniyim? Diribaş ol də, göstər dokumentlərini! O boyda kişi ağız açıb!.. Zamministr!.. Düzəldəceylər! Onnarın da ona işi düşür də!.. Kanalizasiya da ona baxır, deyirlər, tramvaylar da, hər şey! Utanıb boynunu bükmə e, diribaş ol!..

Qızlar pendir-çörəklərini yeyib qurtarıb, çaylarını içib məktəbə getdilər. Oğlan da durub Tarix İnstitutuna getdi ki, tapşırıqlarını alsın, məktublarını götürsün, sonra da özünü saat on üçün çatdırsın Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin binasına. Anası o payız səhəri oğlunu evdən yola salanda gecə yorğan-döşəkdə öz-özünə pıçıldayıb əhd elədiyi nəziri bir daha ürəyində söylədi: əgər bu iş baş tutsa, yaxşı un tapacaq, yağ tapacaq, halva çalacaq, özü elektrik qatarına minib, Mərdəkana gedib o halvanı Ətağanın qəbrinin üstündə kasıb-kusuba paylayacaq və əlavə də üç manat pul verəcək.

Gəlin mizin üstündəki stəkan-nəlbəkiləri yığışdıra-yığışdıra həmişəki kimi üzünü qocaya tutub (günün çox vaxtını ikisi evdə tək qaldıqları üçün, adət eləmişdi, bütün sözlərini qocaya deyirdi, əslində isə, özü özüylə danışırdı) dedi:

– Düzələcək e, Allah qoysa, düzələcək!.. Nöş düzəlmir? Gül kimi oğlandı! Əsgərlikdən xarakteristi də əntiqədi, özü də azərbaycannı qol çəkməyib ki, desinlər ki, bu heç, özümüzünküdü, rus qol çəkib, İvanov mayor! O boyda kişi də ağız açıb, o boyda ministerliydi, bir nəfər özünnən böyüyüdü, vəssalam! Kanalizasiya da ona baxır!..

Qoca pendir-çörəyini yeyib, çayını içmişdi və indi də yerində oturub diqqətlə bu arvada baxırdı və bu arvadın dediyi bu çoxlu sözləri bu qulağından alıb, o biri qulağından buraxırdı, təkcə o «kanalizasiya» sözü bir an ilişib beynində qaldı və qoca yenə soruşdu:

– Ayaqyoluna getmişəm mən?

Gəlin nəm əsgi ilə o girdə mizin üsündəki qəhvəyi klyonkanı silə-silə:

– Getmisən e, getmisən... Rahat olginən!.. – dedi. – Bayaq özüm yola saldım səni ora da, day oğlunun yanında demədim, əyibdi... Ancaq gecə mənim yadımdan çıxmasın, yaduva salım sənin, gedəsən ayaqyoluna. Getmirsən, sonra gecə yaş əliyirsən yerivi. Oğlun da hirsdənir. Bilirsən nöş hirsdənir? Sən onnan inciməginən!.. Mənə görə hirsdənir e! Utanır mənnən... Deginə ki, mənim neyimdən utanırsan, ay bədbəxt oğlu, bədbəxt? Hə?..

O köhnə dolabın üstündəki sarı bülbül isə yenə də hərdən ötürdü və sarı bülbül ötdükcə də xırda qəfəsciklərə salınmış səsi güclə sezilən şəffaf sabun qovuqcuqları kimi otaq boyu uçuşurdu.

**II**

Qoca hər gün olduğu kimi, həmin cümə günü də səhər yeməyindən sonra, köhnə qara paltosunu geyib, köhnə boz şlyapasını başına qoyub, həyətə çıxıb qapılarının ağzındakı taxta skamyada oturmuşdu və neçə illərdən bəri idi ki, beləcə günorta vaxtları o qədim tut ağacı, daşdan hörülmüş küncdəki o ayaqyolu, o böyük krant kimi, küçə qapısı tərəfdə yan-yana düzülmüş dəmir zibil yeşikləri kimi, qoca da bu balaca həyətin daimi hissəsiydi. Taxta skamyanı qoca üçün xüsusi olaraq milisioner Əliabbas öz əliylə düzəltmişdi və düzdü, milisioner Əliabbasın qocanın oğlunu görməyə gözü yox idi (və məhəllədə bunu hamı yaxşı bilirdi), çünki ətiacının biri idi, heç nəyin üstündə adamla dava eləyirdi, amma bu skamyanı qoca üçün həvəslə düzəltmişdi və bunu bu dilsiz-ağızsız və tamam köməksiz Allah bəndəsi üçün savab bir iş hesab edirdi. Qoca hər gün günorta burada oturub həyətə açılan pəncərələrə, qapılara, həyətin ortasındakı tut ağacına, o zibil yeşiklərinə maraqla tamaşa edirdi, elə bil ki, bu pəncərələri, qapıları, asfalt döşənmiş bu həyəti birinci dəfə görürdü və qocanın, əlbəttə, heç ağlına da gəlmirdi ki, əslində bu həyət onun özünün dədə-baba həyətidi, atası da bu həyətdə anadan olub, özü də bu həyətdə anadan olub və oğlu, nəvələri də ömürləri boyu Bakının dağlıq məhəlləsindəki bu həyətdə boya-başa gəlib, qızları da bu həyətdə böyüyüb və hərəsi bir tərəfə ərə gedib, indi öz ailələri ilə məşğuldular, qocanın isə, bütün əzab-əziyyətini gəlinin üstünə atıblar. Evdəki o sarı bülbül çoxdan susmuşdu, amma hələ də qocaya elə gəlirdi ki, güclə gözə görünən qəfəsciklərə salınmış o bülbül səsi ətrafında uçuşur və qoca, düzdü, daha o səsləri eşitmirdi, amma o səslər o kiçik qəfəsciklərin içində, az qala, gəlib qocanın sifətinə toxunurdu, burnunun ucuna, dodaqlarına, barmaqlarının üstünə qonurdu və qoca o yüngül, o xəfif toxunmaları, təmasları hiss edirdi. Tutun sapsarı saralıb asfaltın üstünə tökülmüş yarpaqlarında da bu dəm eləcə bir yüngüllük var idi və qapılarının ağzındakı skamyada oturub indi də gözlərini o xəzələ dikmiş qoca birdən-birə istədi ki, ayağa qalxsın, gedib əli ilə o sarı yarpaqları qarışdırsın, o sarı yarpaqları qaldırıb atsın, o sarı yarpaqlar da ətrafda uçuşsun, amma elə ayağa qalxmağa hazırlaşırdı ki, nə istədiyi yadından çıxdı və skamyanın üstündə yerini rahatlayıb milisioner Əliabbasgilin şüşəbəndinə tərəf baxdı. Həyətdə bir-birinə bitişik birmərtəbəli binalarda dörd-beş ailə yaşayırdı və o ailələr dədə-babalıqca həmişə bu həyətdə yaşamışdılar, uşaqlardan kimlərsə böyüyüb ailə qurub başqa evlərə köçmüşdülər, ya da Bakıdan və ümumiyyətlə, Azərbaycandan çıxıb iş dalınca Rusiyanın uzaq şəhərlərinə gedib oralarda da ilişib qalmışdılar, amma ərə gedən o qızlar, evlənən o oğlanlar ki, Bakının mikrorayonlarında, başqa kənar-bucağında yaşayırdılar, bayramlarda, bəzən də adi bazar günlərində bu həyətə gəlirdilər, uşaqlarını bura gətirirdilər, təkcə bu həyətin yox, ümumiyyətlə, məhəllənin xeyrində, şərində imkanları daxilində iştirak edirdilər və qoca da bu skamyada oturanda salamlaşıb, hal-əhval tutub qabağından keçirdilər və o zamanlar ki, bu yeni nəsil hay-küylə küçə qapısını açıb həyətə girirdi, qoca onların salamını alırdı, amma heç birini tanımırdı, fikirləşirdi ki, görəsən, bura haradır və bu adamlar bura niyə gəlib-gedirlər, amma lap soyuq qış günlərində də bu adamların gülərüz salam verməleri, hal-əhval tutmaları qocanın xoşuna gəlirdi və canına bir hərarət gətirirdi. Milisioner Əliabbasgilin şüşəbəndlərinin pəncərəsindən görünürdü ki, orda kök bir arvad ikigözlü qaz plitəsinin üstündəki iri mis tavada nəsə qızardırdı və əlbəttə, qoca daha bilmirdi ki, o kök arvadın adı Firuzədi, milisioner Əliabbasın arvadıdı, bilmirdi ki, Firuzənin çoxdan rəhmətə getmiş atası ilə, bax, bu həyətdə, bu tut ağacının altında çox nərd oynayıb, çox söhbət eləyib və düz otuz il bundan əvvəl Firuzənin toyunda o kişiylə birlikdə yaxşıca araq içib, bilmirdi ki, milisioner Əliabbas da cavan

yaşlarından gəlib arvadıgildə, şüşəbəndi görünən o evdə yaşayıb, indi də yeddi uşaq atasıdı və yeddi uşağın qarnını doyuzdurmaqdan ötrü dəridən-qabıqdan çıxır, hərdən xəlvətə salıb üç manat, beş manat rüşvət alır; qoca bütün bunları bilmirdi, bütün bunlar da dünyanın başqa işləri kimi yaddan çıxıb getmişdi, amma şüşəbəndin pəncərəsindən görünən o arvadın açıq və kök qolları o payız günü qocanı yenə də harasa uzaq bir aləmə çəkib aparmaq istəyirdi, qoca o çılpaq qollara baxa-baxa özündə bir həvəs hiss edirdi, o uzaq aləmə getmək istəyirdi, çünki hiss edirdi ki, o uzaqlıqda nəsə elə bir hərarət asfaltın üstünə tökülmüş bu sarı yarpaqlarda, həyətə baxan pəncərə çərçivələrinin, qapıların solmuş göy, yaşıl, qəhvəyi rənglərində, divarların qabığı soyulan əhəngində yoxdu. Qoca beyninə güc eləyirdi, sümüklərini qızdırmaq üçün fikrində o uzaqlara getmək istəyirdi, amma yorulurdu və gözlərini milisioner Əliabbasgilin şüşəbəndindən çəkirdi, yenə tamam yeni bir maraqla qollu-budaqlı tut ağacına baxırdı. Hərdən sərçələr cikkildəyə-cikkildəyə gəlib həyətdəki bu tut ağacının çılpaq budaqlarına qonurdu və qoca o sərçələrə baxırdı, sərçələrin cikkiltisinə qulaq asırdı və o sərçə cikkiltiləri tamam azad idi, kiçik qəfəsciklərə salınmamışdı, kiçik qəfəscikdəki dustaq səs sarı bülbülün səsi idi, amma daha eşidilmirdi, düzdü, o qəfəsciklər hələ də həyətdə uçuşurdu, amma eşidilən sərçə cikkiltisi idi və o cikkilti tamam azad idi. Qoca özü bütün bu hisslərini axıracan dərk edə bilmirdi, beynində söz tapıb bu hissləri özünə aydın edə bilmirdi və yorulub təzədən milisioner Əliabbasgilin şüşəbəndinə baxırdı və o qadının şüşəbənddəki qazın üstündə nə qızartdığını görmürdü, təkcə şüşəbənddən gələn xörək iyi hərdən burnuna dəyirdi, amma o xörək iyi qocanın iştahını çəkmirdi; düzdü, bu, pendir-çörək qoxusu deyildi – pendir-çörək də, qoxusu da pis bir şey kimi qocanın beynində həkk olub qalmışdı, amma hər nə idisə də, şüşəbənddən gələn o yemək qoxusunu da qocanın meyli çəkmədi. Həmin cümə günü qoca o kiçik asfalt həyətdəki skamyada nə qədər oturdu, bir saat? iki saat? üç saat? – bilmirdi, çünki zamanı, vaxtı çoxdan bir-birinə qarışdırmışdı, evlərinin qapısı açıldı, gəlin onu çağırdı və qoca sulu gözlərini tut ağacının üstündəki o bir dəstə sərçədən çəkib, dinməz-söyləməz ayağa qalxıb evə girdi, gəlin köhnə qara paltosunu qayınatasının əynindən çıxara-çıxara:

– Keç içəri, – dedi. – Keçən həftədən bir az ət saxlamışam səninçün xaladelnikdə... Keç otur, küftə eləmişəm sənə. Tez ye qurtar ki, uşaqlar gəlib görməsin. Onlarçun kartoşka qızardiciyəm semiçka yağında. Sirkə-badımcan da qoyciyəm yanında, yaxçı olacek. Əttən ələ bir dənə küftə çıxdı də... Day uşaqların yanında ağzundan qaçırmaginən ya, küftə yemisən!.. Yadunda qalar? Deməginə, yaxçı?

Qoca bu tanımadığı arvadın uzun danışıqlarına fikir vermirdi, fikir vermək istəyəndə də, əməlli-başlı bir şey başa düşmürdü, amma indi o küftə sözü o saat ilişib beynində qaldı, küftənin, ətin nə olduğu da o saat yadına düşdü və indicə baş verəcək gözəl bir əhvalatın ləzzətini əvvəlcədən hiss edə-edə otağa girib o köhnə girdə mizin arxasında oturdu və səbrsizlik dolu sulu gözlərini mətbəxə tərəf zillədi. Gəlin küftə çəkdiyi kasanı gətirib qaynatasının qabağına qoydu və özü də kişi ilə üzbəüz oturub danışmağa başladı:

– Təki uşağın işi düzələydi!.. Vallah, heç nə istəmirəm day dünyada, Allahın altında uşağın işi düzəleydi sekaya işləməyə!.. Ya Ətağanın cəddi, nəzirimi niyaz eyləginən! Mən nə deyirəm, hə? Diyirəm ki...

Qoca qarşısında oturmuş bu yad arvadın dedikcə elə hey dediyi sözlərə fikir vermirdi, elə bil ki, təzədən bayaq tut ağacının üstündəki o bir dəstə sərçənin cikkiltisini eşidirdi və ləzzətlə çörəkdən dişləyib o gözəl küftəni yeyirdi və o sarı bülbül də daha oxumurdu, otağın küncündəki o dolabın üstündə, o qəfəsin içində büzüşüb xırda gözlərini naməlum bir nöqtəyə zilləmişdi.

Həmin cümə günü qızlar məktəbdən qayıtdı, kartof qızartmasını sirkə-badımcanla yedi, hərəsi bir küncə çəkilib dərslərini hazırladı və ərinin işdən qayıtmağına yaxın gəlin yenə kartof soyub qızartmağa başladı ki, kişinin qabağına qoyanda isti və təzə olsun; əri işdən qayıdıb çörəyini yedi və bu dəfə qoca da süfrə arxasına keçib kartof qızartması yedi və bütün bu müddət ərzində gəlin bir tərəfdən oğlunun yolunu gözləyirdi ki, görsün iş məsələsinin axırı nə oldu, bir tərəfdən də bir az nigarançılıq keçirirdi ki, birdən qayınatası küftənin söhbətini salar, uşaqlar tamarzı qalar, amma gəlin nahaq nigaran idi, qoca günorta küftə yediyini çoxdan yadından çıxartmışdı, düzdü, o küftənin gözəl təmi hələ də ağzında qalmışdı, amma qoca bu təmin nədən qaldığını unutmuşdu, kartof qızartmasını yeyə-yeyə diqqətlə qarşısında oturmuş bu dazbaş kişiyə, yəni öz oğluna baxırdı.

Gəlin:

– Harda qalıb bu uşaq? – dedi. – Nöş gəlib çıxmadı?..

Əri:

– Gələr... – dedi və gəlin ərinin dediyi o bircə kəlmədə o qədər yorğunluq, o qədər özündən inciklik (yəni mən nə atayam ki, üç qızın bir qardaşı oğluma kömək eləyə bilmirəm...), o qədər dünyadan narazılıq hiss elədi ki, ərini yaxşı tanıdığı üçün, daha səsini çıxarmadı, çünki əri həmişə naəlac olanda, özündən inciyəndə, dünyanın işlərindən zinhara gələndə heç nədən dava salırdı.

O sarı bülbül də nəsə narahat idi, qəfəsin içində özünü o küncə, bu küncə atırdı, amma oxumurdu və qoca gözlərini qarşısında oturmuş bu dazbaş kişidən çəkib qəfəsin içində vurnuxan bülbülə baxdı, bülbülün o narahatlığı, özünü o küncə, bu küncə çırpması, elə bil, qocaya da sirayət elədi, qoca həyəcanlandı və birdən-birə bərkdən:

– Yaşasın yoldaş Bağırov! – dedi. – Mircəfər Abbasoviç!

Gəlin:

– Bağırovun sümükləri çoxdan çürüyüb qəbirdə!.. – dedi. – Necə yaşasın?..

Qoca zəndlə gəlininə baxdı və:

– Yaşasın yoldaş Stalin! – dedi. – Iosif Vissarionoviç!

Oğlu:

– Adlarını gör nə yaxşı yadında saxlayıb?!.. – dedi, alnını qırışdırdı və başının dərisi də qırış-qırış oldu və elə bil ki, başının dərisinin eləcə qırışması bu adamın gözlərindəki və sözlərindəki yorğunluğu və narazılığı bir daha təsdiq edirdi.

Qoca təəccüblə otaqdakı bu naməlum adamlara, qızarmış kartof yeyən bu kişiyə, ayaq üstə dayanıb təzədən çörək doğrayan bu arvada baxdı, içini bürümüş o həyəcan daha da artdı və sözləri daha dəqiq tələffüz edə-edə təzədən:

– Yaşasın yoldaş Stalin! – dedi.

Gəlin:

– Ay-hay!.. – dedi. – Stalin qırx ildi ölüb gedib!.. Əvvəlcə movzaleyə qoydular, Leninin yanına, sonra da bayquş kimi gecə xəlvətcə gəlib movzaleydən çıxarıb torpağa basdırdılar! Gorbagor elədilər! O vaxt kim arvadını boşamışdı, indi deyir ki, Stalinin üstündə olub! Lenin hələ qalıb movzaleydə... Ordadı hələ...

Qoca bütün bu sözlərin hamısını başa düşürdü, amma heç birinə də inanmırdı və elə bil ki, bu deyilən sözlərin olub-olmadığını bir daha yoxlamaq üçün:

– Mikoyan da ölüb? – soruşdu. – Anastas Ivanoviç?

Gəlin:

– Çoxdan gorbagor olub! – dedi.

Qoca sidq-ürəkdən:

– Ola bilməz! – dedi.

– A-a-a!.. Nöş olmur? Stalin ölə bilər, Bağırıov ölə bilər, Mikoyan ölə bilməz? – Gəlin, doğrudan da, təəccüb etdi, elə bil yadından çıxartdı ki, qayınatasının sözlərinə təəccüb etmək lazım deyil, sonra həyətdən eşidilən addım səslərindən oğlunu tanıdı. – Uşaq gəldi! – dedi. – Ya Allah!..

Məlum oldu ki, bu dəfə oğlanı Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin binasında oturan rəisin yanına buraxıblar, rəis sənədlərinə baxıb: « – Get, sabah gələrsən!» – deyib.

Anası:

– Day heç nə demədi? – soruşdu.

– Yox.

– Dedi sabah gəl də...

– Həri.

– Elə-belə nöş deyirdi sabah gəl? Düzələcək Allah qoysa!

– Mən nə bilim? – Oğlan atasının qabağındakı qızarmış kartofa baxa-baxa çiyinlərini çəkdi və udqundu.

– Necə «mən nə bilim?» Nöş deyirdi ki, sabah gəl? Düzələcək də!..

Gəlin heç oğluna yemək verməmiş elə ev paltarının üstündən tələsik paltosunu geydi ki, gedib evlərindən üç tin aşağıda «Qırmızı Oktyabr» yay kinoteatrının yanındakı telefon avtomatdan Firuzəyə zəng eləyib əhvalatı desin.

Və bu vaxt qəfəsin içindəki o sarı bülbül, elə bil, ora-bura vurnuxmaqdan təngə gəldi, bunun mənasızlığını başa düşdü, birdən-birə o payız günü səhər tezdən ötdüyü kimi, oxumağa başladı və qocaya yenə də elə gəldi ki, bülbülün otağa yayılan səsini də saysız-hesabsız xırda qəfəsciklərə salıblar və o xırda qəfəsciklər otaq boyu uçuşur, gəlib qocanın boz kostyumuna, hətta, əllərinə, boynuna, üzünə toxunur; qoca hiss edirdi ki, bu görümdə nəsə bir tanışlıq var, səslərin beləcə qəfəsciklərə salınıb, dustaq edilib uçuşmasını haçansa görüb, amma yadına sala bilmirdi ki, bütün bunlar elə bir günün əhvalatlarıdı, bugünkü səhərin, günortanın xatirələridi. Qoca sulanmış gözlərini paltar dolabının üstündəki o sarı bülbülə dikdi və baxdıqca da birdən-birə gözlərinin qabağına sapsarı yarpaqlar gəldi, qoca yadından çıxartmışdı ki, o sarı yarpaqların yüngüllüyünü yenə də hiss etdi, hətta, içindən bir nigarançılıq keçdi ki, birdən bir meh ötə bilər və o sarı yarpaqları gözünün qabağından uçurub aparar; bu dəm o sapsarı yarpaqlarda qoca üçün bir məhrəmlik, doğmalıq, mehribanlıq var idi.

Gəlin qayıdıb gəldi və kefi də açıq-aşkar əvvəlkindən yuxarı idi, çünki Firuzə, milisioner Əliabbasın arvadı yox, o biri Firuzə çox arxayın danışırdı, elə bil ki, uşaq daha düzəlib orda işə. Təki olsun! Kor nə istər, iki göz, biri əyri, biri düz.

Oğlan:

– Ordakı milisənerlərin tapançası var! – dedi.

Anası:

– A-a-a!.. Əlbət ki!.. Sekadı də... – dedi.

Təkcə həyətdə yox, bütün məhəllədə hamı bilirdi ki, milisioner Əliabbasın belinə bağladığı qoburda heç vaxt tapança olmur və milisioner Əliabbas durub işə gedəndə o qoburun içinə günorta yemək üçün arvadı Firuzənin qəzet parçasına büküb verdiyi pendir-çörəyi qoyur.

Bülbülün səsi eləcə xırda qəfəsciklərin içində otaqda uçuşurdu və qoca bu barədə ətrafındakı bu yad adamlara bir söz demək istəyirdi, amma o sözləri tapıb deyə bilmirdi və o xırda qəfəsciklər otağın içində uçuşduqca qoca istəyirdi ki, belə axşam yox, səhər olsun, elektrik lampasının işığı yox, günün işığı olsun və qoca narazılığını bildirdi:

– Bu nə gündü e, belə?

Gəlin hələ də Firuzənin arxayın sözlərinin təsirilə həmin payız axşamı birinci dəfə gülümsəyib:

– A-a-a!.. – dedi və tez dodaqlarını yığışdırdı, çünki eləcə gülümsəyəndə dodaqlarının qırağından metal dişləri görünürdü və gəlin o metal dişlərdən utanırdı. – Ay bədbəxt!.. Sən heç özün bilirsən ki, nə gündəsən?.. Sənə nə var e, uşaq kimi şeysən!..

Qəribə idi, gəlinin dediyi o sözlərin içində bir kəlmə: « – Ay bədbəxt!..» ilişib qocanın beynində qaldı və bir azdan qoca gəlinin təkidilə ayaqyoluna gedib qayıdandan sonra, yatmaq üçün şüşəbəndə (onun yeri şüşəbənddə idi) keçəndə pəncərədən küçəyə baxdı: uzun-uzun illərdən bəri hər gün gördüyü bu küçə mənzərəsi həmin payız axşamı da qoca üçün tamamilə yeni və maraqlı idi və qoca yenə də gəlinin təhriki ilə boz kostyumunu soyuna-soyuna öz-özüylə danışmağa başladı, ətrafında dolaşan, cürbəcür sözlər deyən bu tanınmaz adamların qarasına deyindi:

– «Ay bədbəxt!» – Qoca gəlini yamsıladı. – Niyə bədbəxtəm mən? Bədbəxt-zad deyiləm! Bədbəxt niyə oluram? Dünyanın ən bəxtəvəri elə mən özüməm! – Qoca yenə gəlini yamsıladı. – «Ay bədbəxt!» Kim dedi bunu? – Qoca gözlərini qıyıb fikirləşdi. – Kim dedi mənə «ay bədbəxt?» Qoy gedim soruşum... Kimdən soruşum e? Kimdi bunlar belə? Hardan gəliblər? Nə istəyirlər məndən? Allah bilir... «Ay bədbəxt!» Niyə? Bədbəxt niyə oluram mən? Dünyanın ən bəxtəvəri elə mən özüməm!..

*Mart, 1990.*

## AYDINLIQ GECƏLƏR

*Anara*

O sərin yay gecəsi göyün üzündə o ayla bərabər o qədər ulduz var idi və o ulduzlar dörd tərəfdən də qocanın başının üstünü elə bürümüşdü ki, həmin çoxluğun, küllün, həmin uzaqlığın, əlçatmaz, ünyetməzliyin müqabilində öz həyatı bütün camaatın Şərəfbəxş adlandırdığı Şeyx Mustafa üçün çox qısa, bir göz qırpımlıq göründü və doğrudan da, kainat ki, bu qədər böyük idi, bu qədər əlçatmaz idi, o yay gecəsi göyün üzündə sayrışan ulduzların işıltısında o qədər bir əbədilik (uzaq əbədilik) var idi, bunun müqabilində Şeyx Mustafa Şərəfbəxş həzrətlərinin bu dünyada sürdüyü doxsan illik ömür nə idi? Heç nə, kəpənək ömrü.

O yay gecəsi həyətdəki böyük armud ağacının altında Şeyx cənablarının bədəni torpaqdan nəm çəkməsin deyə, əvvəlcə keçə salınmışdı, keçənin üstündən Şeyxin yaşı qədər sahibinə xidmət etmiş, amma, az qala, bu yüz ildə bircə ilməsi də pozulmamış, bircə naxışı da solmamış Təbriz gəbəsi salınmışdı, gəbənin üstünə də döşəkçə qoyulmuşdu, dirsəklənmək üçün hər iki tərəfdən, bir də ki, o qoca armud ağacının gövdəsinə söykənə bilmək üçün arxadan mütəkkələr düzülmüşdü və Şeyx Mustafa Şərəfbəxş, həmişəki kimi, o döşəkçədə bardaşqurma oturmuşdu, kəhrəba təsbehinin hər biri bir zoğal boyda olan daşlarını çevirə-çevirə başının üstündəki o külli ulduzlara baxır və dodaqaltı gulumsəyirdi və hərgah o anlarda Şeyx həzrətlərindən nə üçün beləcə gülümsədiyini soruşsaydın, çox güman ki, bunun səbəbini deyə bilməzdi – o təbəssümdə o ağappaq saqqala, ağappaq saçlara uyuşmayan bir uşaq, hətta, bir körpə heyrəti var idi.

... Amma o bir günlük ömrü o kəpənəyə kifayət edir...

Şeyx Mustafa Şərəfbəxş yay gecələri, yazın, payızın havası məqbul gecələri o armud ağacının altında oturub gözlərini göyə zilləyəndə, yaxud əlində çevirdiyi təsbehinə baxa-baxa fikrə dalanda, elə bil ki, həyət-bacadakı qurd-quş da donub qalırdı, hərdən yüngülcə meh əsdikcə yarpaqları xışıldayan ağaclar da səsini kəsirdi və o cürə anlarda evdəki oğul-uşaq, qız-gəlin heç vaxt həyətə çökmüş o sükutu pozmağa, o sükuta bir xələl toxundurmağa cəsarət etməzdi – o anlarda Şeyx həzrətlərinə nə çay gətirə bilərdilər, nə meyvə, nə də bir başqa şey.

... Amma o bir günlük ömrü kəpənəyə kifayət edir...

Həyətin yuxarı başındakı ikimərtəbəli imarətdən gələn səsə, elə bil ki, ilkin olaraq, o qoca armud ağacı təəccüb etdi, ayın, o külli ulduzların işığında işıldayan təzə yarpaqları yüngülcə xışıldadı, sonra Şeyx Mustafa Şərəfbəxş gözlərini o ulduzlardan çəkib evə tərəf baxdı və yer üzündə yaşanmış o doxsan ilin acısının, ağrısının şövqünü söndürə bilmədiyi səsiylə:

– Kimdi? Qoyun gəlsin, – dedi.

Və o adam birinci dəfə o həyətə ayaq basdı, iti və sərt addımlarla Şeyx həzrətlərinin hüzuruna yeridi, amma o zaman ki, ay işığında Şərəfbəxşi yaxından gördü, qocanın yüngülcə işıldayan göy gözlərinin dərinliyini duydu, o aydınlıq gecədə ağappaq ağaran saqqalının, saçlarının arxasındakı doxsan ilin vahiməsini hiss etdi, o adamın qətiliyi birdən-birə tamam yox oldu, ürəyi tez-tez vurmağa başladı və şaşırdı ki, bu gecə vaxtı nə cəsarətlə Şərəfbəxşin hüzuruna buyurub, amma ən qəribəsi də bu oldu ki, o adamı özünə qaytaran da elə həmin baxışlar, həmin dərinlik, həmin ağlıq oldu və o adam onu yüksək hüzura gətirən əvvəlki həyəcanla:

– Ya Şərəfbəxş! – dedi. – Günah işləməkdən özümü güclə saxladım! Əlim qana batacaqdı, xəncəri yerə atıb, sənin hüzuruna qaçdım. Mən qonşuma, yeri düşəndə, yaxşılıqdan başqa heç nə etməmişəm. Amma o, mənə pislik edir. Neyləyim mən, ya Şərəfbəxş? Xisləti xanəbərəndazdı*, mən nə edim?

Şeyx Mustafa Şərəfbəxş diqqətlə o adamın gözlərinin içinə baxdı və o dəm o adama elə gəldi ki, Şeyx həzrətləri onun gözlərinin içindən arxanı da görür, yəni Şeyx həzrətlərinin baxışı onun gözlərinin içindən başını dəlib o tərəfə keçir və yəqin elə bu hissə görə Şərəfbəxşin dediyi sözlər cismani bir yazı kimi o adamın beyninə həkk olundu.

Şeyx Mustafa Şərəfbəxş dedi:

– Get, o qonşuya yaxşılıq elə.

Və o adam başa düşdü ki, indicə bu həyətdən çıxacaq və bundan sonra həmin xanəbərəndaza əlindən gələn yaxşılığı edəcək; fürsət axtaracaq ki, o xanəbərəndaza yaxşılıq eləsin.

Və həmin aylı-ulduzlu yay gecəsi də sona yetdi, sonra yay da tamam bitdi, günlər keçdi, payız sarısı o həyəti bürüdü və hər dəfə də axşam düşüb gecənin qaranlığı bu ətrafa yayılmağa başlayanda o qoca armudun altına yığılmış xəzəl təkcə keçib getmiş o yazın, yayın yox, bu yer üzündə yaşanmış uzun-uzun illərin həmin yay gecəsindəki o ulduzlar qədər bir uzaqlıqda qaldığından və Əvvəldən başlayıb doxsan ildən sonra Axıra yetişməkdə olan bir ömür yolunun əslində gedər-gəlməz yolu olmasından xəbər verirdi, Axır yaxınlaşdıqca Əvvəl uzaqlaşırdı, amma qəribə idi, o mülayim payız gecəsi, payızın sapsarı rəngi gecənin içində əriyib görünməz olmuş o həyətdə, adda-budda yarpaqları (sarısı qaranlıqda əriyib itmiş yarpaqları) çılpaq budaqlarının arasından süzülüb gələn ay işığında qaralan o qoca armud ağacının altında, qalın döşəklərin üstündə oturub, əyninə kürk salmış və gözlərini qarşısında yanan manqalın qıpqırmızı qızarmış közlərinə dikmiş Şeyx Mustafa Şərəfbəxş o uzaq Əvvəli bu köz qızartısı kimi aydın görürdü, o uzaq (və əbədi!) Əvvəlin bütün görümləri – hətta iki-üç yaşlı uşaqlıq çağları belə bütün dəqiqliyi ilə gözlərinin qabağından keçirdi, amma o doğma, mehriban görümlər Şərəfbəxşin ürəyinə ılıqlıq, hərarət gətirmirdi, əksinə, uzun-uzun illərin ayrılığına (əbədi ayrılığına!) bürünmüş o görümlərdə bir payız sazağı, payız sarısı var idi, çünki o görümlər Axıra çataçatda olan o uzun ömür yolunun get-gedə qalınlaşan bir lay kimi yaratdığı soyuq və qalın şüşənin arxasında idi.

Və yenə də həyətdəki xəzəl sükutunun qəfildən pozulmasına, elə bil ki, ilkin təəccüb edən o qoca armud ağacı oldu, daha doğrusu, o anlarda xəfif bir meh ötdü və xəzəlin qurumaqda olan üz qatındakı ən yüngül yarpaqlar o xəfif mehin səmtiylə kiçicik yerini dəyişib, lap yavaşdan xışıldadı və Şeyx Mustafa Şərəfbəxş gözlərini manqalın qızarmış gözündən çəkib, əvvəlcə o quru və yüngül yarpaqlara baxdı – bu xəzəl də, əlbəttə, Axır idi, amma Axırın beləcə yüngüllüyü o payız gecəsi birdən-birə yenə də kəpənəyi Şərəfbəxşin yadına saldı...

... Amma o bir günlük ömrü kəpənəyə kifayət edir...

... Sonra evə tərəf baxdı və kimliyini duydusa da...

... Kimdi? – soruşdu və: – Qoyun gəlsin, – dedi.

O adamın həmin həyətə ilk dəfə ayaq basdığı o yay gecəsindən sonrakı müddət ərzində özünün özü ilə mübarizə aparması, özünün özünü məcbur etməsi, özünün özünə qalib gəlməsi indi o qoca armud ağacı, o xəzəl kimi aşkar bir həqiqət idi və bunu o adamın baxışı deyirdi, yerişi, duruşu söyləyirdi və yenə də Şeyx həzrətlərinin hüzurunda dayandığı zaman o adamın gözləri Şərəfbəxşin əllərinə sataşdı: hər iki əlini dizlərinin üstünə qoymuşdu, uzun kəhrəba təsbehi sol biləyindən asılı qalmışdı və manqalda qızaran közün işığında qırışları oxunan o əllərlə – o uzun, quru barmaqlarla, ləkələr düşmüş və boşalmış dəri ilə həmin həyəti başına götürmüş xəzəl, elə bil ki, bir-birini tamamlayırdı, amma bu ilk baxışda belə idi və o adam ocağın istisində qızınan o əllərin özünün istisini hiss etdi və başa düşdü ki, onu həmin sazaq payız gecəsi ahənrüba kimi çəkib o həyətə, o hüzura gətirən elə həmin istilikdi.

O adam:

– Ya Şərəfbəxş! – dedi. – Mən əlimdən gələn yaxşılığı əsirgəmirəm. Imkan düşəndə də, düşməyəndə də o qonşuya yaxşılıq edirəm. Amma bunun əvəzində o yenə də mənə pislik edir. O qədər pislik edir ki, mən günaha batmaqdan qorxuram. Xisləti, ya Şərəfbəxş, xisləti xanəbərəndazdı. Mənə bir yol göstər! Nə eləyim mən?

Şeyx Mustafa Şərəfbəxş kiçik maşanı götürüb manqaldakı közü yerbəyer elədi (və o adam o əllərin hərəkətindən diksindi, elə bil ki, o əllər həmişə eləcə diz üstündə donub qalmalı imiş...), araya sükut çökdü və həmin kiçik sükut o adam üçün az qala bir fəsil çəkdi; sonra Şərəfbəxş göy gözlərini manqaldan ayırmadan:

– Get, – dedi, – o qonşuya yenə yaxşılıq elə.

Həmin payız gecəsi o adam üçün gündüzün gün işığı kimi aydın idi ki, əgər Şərəfbəxş belə deyirdisə, deməli, belə olmalıdı, düzdü, bu – o adamı sıxırdı, ona əzab verirdi, amma, bir halda ki, həqiqət axtarırdı, ədalət axtarırdı, günah işləməkdən qorxurdu, deməli, Şərəfbəxşin dediyini eləməli idi, çünki Şərəfbəxşin dili ilə həqiqətin, ədalətin danışdığına o adamın zərrə qədər də şübhəsi yox idi.

Və o payız da keçdi, soyuq bir qış gəldi o həyətin xəzəli qalın qarın altında qaldı, o uzun qış günlərinin birində də hava müsaidə etmədi ki, Şərəfbəxş həyətə çıxsın, bütün fəsil boyu evdə oturub, yalnız pəncərə şüşəsinin arxasından dünyaya tamaşa eləyə bildi, o qoca armud ağacının çılpaq budaqları qarda, çovğunda üşüyə-üşüyə, nəhayət, yenə yaza çıxdı, yüz il əvvəl olduğu kimi, o budaqlar yenə təzə-tər çiçəklədi, yarpaqladı, o çiçəklər yavaş-yavaş bəhərə çevrilməyə başladı, yay gəldi və o yay gecələrindən birində Şeyx Mustafa Şərəfbəxş həzrətləri yenə də o armud ağacının altında oturub, belini mütəkkənin üstündən ağacın yoğun gövdəsinə söykəmişdi və ötüb keçmiş doxsan bir ilin mane ola bilmədiyi bir uşaq marağı ilə göyə baxırdı və tərtəmiz göy üzü yenə də ulduzlarla dolu idi və Şeyxin o təbəssümü yenə dodaqlarında idi, o təbəssümdə yenə də bir heyrət əlaməti var idi, eyni zamanda, o heyrətlə bərabər, bir vəcd də var idi, hətta o təbəssümdə bir minnətdarlıq da oxumaq mümkün idi: qoca kimə minnətdər idi? Nəyə minnətdar idi? O aya, ulduzlara? O aydınlıq yay gecəsinə? O ağaclara, gül-çiçəyə? Nəyə? Kimə? Nə üçün?

... Amma o bir günlük ömrü kəpənəyə kifayət edir...

Və bu dəfə ilkin olaraq qoca özü başını çevirib evə tərəf baxdı (gəlişi heç bir səs eşitmədən duydu) və gələnin kim olduğunu soruşmadan:

– Buraxın, gəlsin, – dedi.

O adamın addımlarında bir zindan ağırlığı var idi və o ay işığındaca o adamın üzülmüş, yorğun sifətinə nəzər salmaq kifayət idi ki, həmin zindan ağırlığının onun bütün içinə yığıldığını başa düşəsən: o adamın cod və qıvrım saçına, qalın saqqalına düşmüş dən keçən yaydan bu yaya qədər bütün sifətinə, başına yayılmış, qaranı tamam üstələmişdi və o adamın iri, kobud və döyənəkli əlləri nə qədər qətiyyətdən, gücdən, bacarıqdan xəbər verirdisə, saçının, saqqalının bu ağlığı, gözlərinin yorğunluğu bir əlacsızlıqdan, hətta yazıqlıqdan deyirdi.

Şeyx həzrətləri ilk görüşlərində olduğu kimi, bu dəfə də hüzurunda dayanmış o adamın gözlərinin içinə baxdı və yenə də o adama elə gəldi ki, Şərəfbəxşin nəzərləri onun beynini dəlib arxa tərəfi də görür, amma o adam daha şaşırmadı, əksinə, elə bil ki, bütün bu müddət ərzində var gücünü toplayıb içində cilovladığı kin-küdurət, dünyanın ədalətsiz işlərinə qarşı qəzəb, Allahsız əməllərə etiraz qocanın hər şeyi dəlib keçən o nəzərlərindən sonra, birdən-birə təlatümə gəldi, dəli bir ehtirasla püskürdü və o adam günün altında yanıb-qaralmış cod dərili boğazının şişmiş damarları ilə axıb gələn çılğınlığı boğmağa çalışa-çalışa və nəfəsi darala-darala:

– Mən bıkdım daha, ya Şərəfbəxş! – dedi. – Mən bıkdım! Mən yoruldum! Mən daha dözə bilmirəm! Mən daha özümü saxlaya bilmirəm! Mən o qonşuya yaxşılıq elədim! Yaxşılıq dalınca yaxşılıq elədim! Amma o yenə də pislik edir! Pislik dalınca pislik edir! Mən daha yoruldum! Bitdi artıq hər şey!

Və o adamın sözlərindən sonra o həyətə elə bir sükut çökdü ki, o qoca armud ağacı, elə bil, aydınlıq gecədə yox, o sükutun içində, o sükuta bürünüb donub qalmışdı və bircə yarpağını belə tərpətməyə ehtiyat edirdi. O adam üçün isə, həmin sükutun arxasında bütün içində qaynayan, əlbəyaxa olan, buraxılmaq, azad olmaq istəyən hisslər aləmi dayanmışdı və o hisslər aləminin o qədər cilovsuz olması, baxımsızlığı o adamın özünün də ürəyini döyündürürdü. Həmin ürək döyüntüsü o sükut içində aydınca eşidilməyə başladı və elə bil ki, fəlakətdən xəbər verdi.

Şeyx Mustafa Şərəfbəxş göy gözlərini o adamın gözlərindən çəkdi, əvvəlcə, elə bil, hara baxacağını bilmədi, cürbəcür ölçülü hamar çay daşlarından səliqə ilə hörülmüş hasar boyunca ağacları bir-bir nəzərdən keçirdi, sonra yenə o adamın gözlərinin içinə baxdı və keçən yaydan bu tərəfə o bir ilin də təsir edə bilmədiyi şövqlü və mülayim səsi ilə:

– Necə olur ki, – soruşdu, – qonşun pislik eləməkdən yorulmur, amma sən yaxşılıq eləməkdən yorulursan?

O qoca armud ağacı indicə büründüyü o sükutu özündən kənara atdı, əsib gələn yüngül meh o bağçadan ötdükcə ağacın yarpaqları da yüngülcə xışıldadı.

Və ömrü boyu (bütün ömrü boyu! Axıra qədər!) yaxşılıq eləməyə məhkum olmuş o adam ağır addımlarla həyətdən çıxdı.

Göyün üzü isə bir il əvvəlki kimi, get-gedə, elə bil, daha da təmizlənirdi, şəffaflaşırdı, ulduzlar daha da artırdı, sayrışırdı və Şeyx Mustafa Şərəfbəxş bu dünyada doxsan bir il keçib gəldiyi ömür yolundan o uzaq ulduzlara baxa-baxa yenə ləçəyə qonan, sünbüldən sünbülə uçan və ömrü cəmi bircə gün olan kəpənəyi yadına saldı...

*20 fevral 1992.*

## QIRMIZI QƏRƏNFIL GÜLLƏRI «PERA PALAS» OTELINDƏ QALDI

«Çiçək pasaj»da Tamara akkardeonu sinəsinə sıxdı, elə bil yüzillik həsrətdən sonra siqaret tüstüsünü ciyərlərinə çəkirdi, adamın atasını yandıran, yurduna od vuran bir majorla not götürüb:

Yusif, beni al!..
Kollarına sal!..
Gel yanımda yat...
Sonra beni at!..

– oxudu və şübhəsiz ki, bu gözəl sözləri də, bu gözəl havanı da «Çiçək pasaj»ın bu gecəki əhli birinci dəfə eşidirdi, çünki yenə Tamaranın yaradıcılığı ilə bağlı növbəti gözəl və gözlənilməz bir prezentasiya günü idi, amma bu prezentasiyanın başqa prezentasiyalardan fərqi ondan ibarət idi ki, müəllifin, yəni vəfasız dünyamızın hər üzünü görmüş Tamaranın özü də yüz illik sənət həyatının spirtindən (gözəl spirtindən!) və siqaret tüstüsündən cinsini tamam itirib naməlumlaşmış səsiylə oxuduğu bu sözləri, indicə mənimlə birlikdə «Çiçək pasaj»a gəlmiş Yusif Borşun şərəfinə tələm-tələsik quraşdırdığı bu havanı birinci dəfə eşidirdi və Tamara elə yüz il də bundan əvvəlki şövqlə də alışıb yanan göy gözləriylə Yusif Borşa baxdı, «Çiçək pasaj»a car çəkdiyi o bir bənddən sonra gözgörəti büzüşüb arıq və ürkək, qulaqları səksəkəli dovşana dönmüş bu yazığa göz vurdu, yenə o naməlum cinsli səsiylə uzada-uzada:

Sonra-a-a-a beni a-a-a-t!..

– dedi və mən də Yusif bəyin bu iztirabları azıymış kimi:

– Yusif bəy, borş ruslarda kələm-çuğundur şorbasına deyirlər,– dedim.

Yusif bəy:

– Təbii, əfəndim, təbii!.. Təbii!.. – dedi və əlbəttə, hörmətli Yusif bəy rus kulinariyasının bilicisi deyildi və belə məlum olurdu ki, Tamaranın (amansız madamın!) o bədahəti bu biçarəni tamam məhv edib.

Bir saat bundan əvvəl (sən mənim nömrəmdən çıxandan cəmi yarım saat sonra! hələ sənin ətrin o qırmızı qərənfil güllərinin ətri ilə birlikdə o otaqda olanda...) Türk Yazarlar Birliyi adından Yusif bəy «Pera Palas»a gələrək tüstüdən sapsarı saralmış arıq və uzun barmaqları arasında tutduğu filtrsiz siqareti siqaret dalınca çəkə-çəkə məni axşam gəzintisinə dəvət etdi.

Belə məlum oldu ki, Türk Yazarlar Birliyi yad şəhərdə (Istanbulda?!) tək qalıb darıxmamağım üçün, bu axşam mənimlə məşğul olmağı bu gözəl insana həvalə edib və əlbəttə, sağ olsun Türk Yazarlar Birliyi, amma, mənim üçün qəribə və maraqlı bir cəhət də var idi: sənin yaraşığın, sənin geyim-kecimin, sənin zövqün, ətriyyatın, sağlamlığın, ehtirasın, cəsarətin, ərköyünlüyün, tənbəlliyin, iti zehnin, həssaslığın, bir az snobluğun, bir az da eqoistliyin, açıqlığın (daha nə?)... baxışın, zarafatın, sevimli olmağın, varlı olmağın, iddialı, hökmlü olmağın, vəzifəpərəstliyin (görürsən, bunu da yazdım!), özünə korluq verməməyin, macəraçılığın... sonra... yadda saxlamağın, gizli soyuqluğun (bəlkə özündən də gizlətdiyin... amma cismani yox!), həvəsin, bağışlamazlığın, çoxbilmişliyin, risqə getməyin və əslində risqi sevməyin, kompromissizliyin (bəsdi?) ilə bu hörmətli Yusif bəyin vücudu və görkəmi arasında elə bir təzad var idi ki, bu təzad məndə (axı, mən sənə demişdim ki, bir tipəm, amma heç özüm də bilmirəm ki, necə tipəm?) Yusif bəylə birlikdə Istanbulda axşam gəzintisinə çıxmağa çoxdan hiss etmədiyim bir ruh yüksəkliyi və həvəs oyatdı.

(Sonralar, «Pera Palas»dakı o nömrə də, o nömrədəki o qırmızı qərənfil gülləri də xatirəyə çevriləndən sonra, biz Bakıda telefonla danışanda bir dəfə sən dedin: «– Istanbul romanlar şəhəridir.» Tez də əlavə etdin: «– Zarafat edirəm.» Mən dedim: «– Hər zarafatda bir həqiqət var.» Sən bərkdən güldün: «– Hər zarafatda yüz həqiqət var, bir zarafat!»).

Indi budur, Yusif bəyin dəvətilə «Çiçək pasaj»da üz-üzə oturmuşuq, o rakı dalınca rakı içir, mən yekə şüşə parçda pivə dalınca pivə içirəm (əvvəlcə öz araq normamı içmişəm, sonra yenə normamı vuracağam və ümumiyyətlə, mənim normam ölçüsüz corab kimi bir şeydi, balaca ayağa da geymək olar, böyük ayağa da), Yusif bəy siqaret dalınca siqaret də çəkir, amma mən siqaret çəkmirəm, çünki düz on il bundan əvvəl axmaq bir iş görmüşəm, özüm özümə söz vermişəm ki, siqareti tərgidim və tərgitmişəm. (Hərdən ürəyimdən nigaran bir hiss keçir ki, birdən yenə axmaqlığım tutar, özümə söz verərəm ki, içgini də tərgidim və tərgidərəm; bəs, sonra nə edərəm?)

Qara, boz, sarı, kürən və hamısı da kök və ərköyün pişiklər ərinə-ərinə «Çiçək pasaj»da gəzişirlər, Tamara isə, Yusif bəyi görəndən bəri şeytandan gələn atəşin bir vəhy ilə bu qocaman qələm əhlinin şərəfinə qoşduğu unudulmaz məhəbbət şərqisini akkardeonunun müşaiyətilə elə hey söylə ki, söyləyir:

Yusif beni al!..
Bu karmon gibi,
Canımı çal!..
Çal, çala bilsen!
Al, ala bilsen!..
Bilse-e-e-en eger!..

* * *

O, iri və zil qara gözləriylə «Pera Palas» nömrəsində, televizorun üstündə, güldandakı qırmızı qərənfil güllərinə baxdı və soruşdu:

– Doğrudan, bu gülləri Bakıdan gətirmisiniz?

– Əlbəttə! – dedim.

Yenə «siz» və bu «siz» mənim ona (yəni sənə!) olan hisslərinmin müqabilində o qədər yad səslənirdi ki, bu «siz»də o hisslərin müqabilində o qədər şüşə soyuğluğu var idi ki, mən əlimə keçəni vurub o şüşəni çilik-çilik sındırmaq istəyirdim.

O yenə o qırmızı qərənfil güllərinə baxdı, sonra iri və zil qara gözlərini düz mənim gözlərimin içinə zillədi:

– Düz deyirsiniz?

Birdən-birə mənə elə gəldi ki, o iri və zil qara gözlər mənə yox, güldandakı qırmızı qərənfil güllərinə etibar etmir, amma bu fikir, əlbəttə, gün işığı kimi aydın (!) bir səfsəfə idi və mən and-aman etdim (və həqiqətən də belə idi!):

– Bakı pasajındakı alverçilər Allahın şahididirlər ki, mən aeroporta gedəndə, yolüstü əvvəlcə ora döndüm, bu gülləri orada aldım, sonra da uçub gəldim bu gözəl Istanbula... (sənin yanına!)

O iri qara gözlər bir müəllim ciddiliyi ilə:

– Bu mənim üçün çox vacibdir! – dedi.

Bu sənin üçün niyə belə vacib idi?

Və ümumiyyətlə, niyə mən o qırmızı qərənfil güllərini Bakıdan alıb sənin üçün gətirmişdim?

Bəyəm üçüncü minillikdə Istanbulda qərənfil gülləri satmırlar?

* * *

Həyatımın Moskva ilə bağlı çağlarında ora növbəti səfərlərimdən birində yaşda məndən xeyli böyük (təxminən indiki mən yaşda, hətta, bir az da böyük!) köhnə tanışım, həmişə qaşı-qabağı yerlə sürünən, həmişə də hamıdan və hər şeydən narazı olan, stajlı kommunist və Lenin mükafatı laureatı bir dramaturqun Mərkəzi Ədəbiyyatçılar Evinin məşhur restoranında (o gözəl restoran bütün ab-havası ilə sosializmin əleyhinə nəfəs alan bir yer idi, amma Sovet Ittifaqı o cür şərəfsizcəsinə dağılandan sonra əbləh bir vəziyyətə düşdü...) oturub araq içə-içə təzə yaz çiçəyi tək açdığını, yerində dayana bilməyən xırda və girdə gözlərinin güldüyünü gördüm.

Bu məşhur dramaturq gəncliyinə qayıtmışdı, ya da – elə doğrusu da yəqin budu – gənclik geri qayıdıb onun yaxasından yapışmışdı.

Sonra elə həmin restoranda bir yerdə araq içəndə və mən özümü saxlaya bilməyib bu qəribə təbəddülatın səbəbini soruşanda, o dramaturq, elə bil ki, bu sualın həsrətindəymiş kimi, böyük bir həvəs və ruh yüksəkliyi ilə yeni sevgisindən danışdı və: «Znayeş, moy molodoy druq, ya ne pomnyu druqoqo takoqo sluçaya v svoyey jizni, ili poçti ne pomnyu... Mne vsyo vremya xoçetsya qovorit o ney... Vsyo vremya dumat o ney... Ona iskuşennaya v lyubvi, nemnoqo isporçennaya, nemnoqo proçnaya, no lyubimaya mnoyu (oçen!) i lyubyaşaya menya malenkaya feya!..» – dedi.

Bu sözlər yəqin ona görə hafizəmdə ilişib qalıb ki, sonralar mən o qızı gördüm və o qız dünyanın ən məsum mələyinə oxşayırdı, gənc Lolitta çoxbilmişliyindən tamam uzaq, balaca, zərif...

amma mən nə üçün indi bunu xatırladım?..

bilmirəm...

bəlkə bilmək istəmirəm?..

* * *

Mən bunu sənə deməməliydim və indi də bunu yazmamalıydım, amma dedim, daha doğrusu, bir az dedim, demədiyimdən də bir az indi yazıram, çünki səninlə mənim aramda birdən-birə qəribə bir şey (nə? bu saat deyəcəyəm!) yaranmışdı və mən çox da baş sındırmadan bu şeyin adicə, sadəcə həqiqət olduğunu başa düşdüm və bir şey ki, falş deyil, həqiqətdi, o zaman mən niyə onu təkrar-təkrar özümdən uzaqlaşdırmalı (onsuz da bu mümkün olmur!) və səndən (!) gizlətməliyəm? – və biz «Pera Palas»dakı o nömrədə üzbəüz kürsülərdə oturduğumuz vaxt (hələ çarpayıdan əvvəl, amma çarpayıya hazırlaşdığımız dəqiqələrdə) sən birdən-birə, mənim üçün qəflətən, gözlənilmədən anana oxşadın və mən onun ölüm xəbərini eşitdiyim o günü bütün təfərrüatınacan xatırladım və eləcə də gözlənilmədən başa düşdüm ki, biz səninlə bir-birimizi sevə biləcəyik, olsun ki, bu lap gecikmiş Leyli-Məcnun sevgisinə dönsün, amma mən səni çarpayıda axıra qədər, yəni mənim istədiyim (sənin də!) qədər o dərəcədə sevə bilməyəcəyəm, çünki o bir anlıq bənzəyiş məni çəkib öz içimə apardı, mənə elə gəldi ki, biz səninlə birgə, xəyanətlə məşğul oluruq, mən ona xəyanət (!!) edirəm... yox... onunla mənim aramda heç nə olmamışdı... demək olar ki, heç nə olmamışdı... bəlkə də ola bilərdi... amma olmamışdı... və məndə belə duyğu var (və onu tanıdığım uzun illər boyunca həmişə də var idi...) ki, mənə görə olmamışdı, yəni mən istəsəydim, cani-dildən bu işlə məşğul olsaydım, olardı...

... gör sənə nələr yazıram?..

... amma fikirləşdiyimi və duyduğumu yazıram və təbii ki, bu fikirlər, duyğular yalnız mənimkidir, ikimizinki (yəni mənimlə onunku) deyil...

... bizim aramızda heç vaxt yaddan çıxmayacaq (o yoxdur, bunlar heç vaxt mənim yadımdan çıxmayacaq, məndən sonra isə, o hisslərdən bizim bu vəfalı dünyamızda heç nə qalmayacaq və mən əlli iki yaşa gəlib çatmışam, amma bu – və digər!– məlum məsələ(lər) ilə heç cürə barışa bilmirəm, başımdan çıxara bilmirəm...) hisslər aləmi var idi və eyni zamanda o vaxt mənə elə gəlirdi ki, o gənc bir ailə idilliyasındadı, bəlkə də səhv edirdim, bilmirəm, amma onda mənə elə gəlirdi ki, o ailə idilliyasını pozmağa heç kimin, hətta (!) mənim də ixtiyarım yoxdu... mən qıymırdım... ona, yoxsa özümə?..

Sonralar, bir dəfə növbəti bir içki dəsgahından sonra, mənim hərdən bir düzəltdiyim və özümdən başqa bu əziz dünyamızda heç kimin içə bilmədiyi bir neçə bokal kokteyl mənim barmaqlarımla onun telefon nömrələrini yığdı və mən o gecə ona zəng elədim. Onda sənin, yəqin ki, dörd-beş yaşın var idi, o da cavan və gözəl bir ana idi. Mən də ondan iki yaş kiçik idim və cidd-cəhdlə yaşımı ondan (və başqalarından!) gizlədirdim. O:

«– Sənsən?»– soruşdu və bu «sənsən?»də duyduğum onun «nə gündəsən ki, birdən-birə bu gecənin yarısı zəng eləmisən?» – nigarançılığı indi də yadımdadı və xatirimdədi, o gecənin səhəri – o on-on beş kəlmədən və bir müddətlik sükutdan ibarət telefon danışığının səhəri fikirləşdiyim kimi, indi də fikirləşirəm ki, o nigarançılığın səbəbi mənim o gecəki içməyimlə bağlı idi, yoxsa, ümumiyyətlə, həyatımla?

Ikincisi idi...

Hər halda, mənə elə gəlir ki, ikincisi idi...

Bəlkə mən sadə bir münasibəti dramatikləşdirirəm və sadəlövh hisslər aləminə qapılmışam, dəvəquşu başını qumda gizlətdiyi kimi, mən də başımı o hisslər aləminə soxmuşam, bədənimdən isə xəbərim yoxdu, hə?.. yox... və ikinci dəfə ona yenə də bir əbləh içki məclisindən və mənim cuşa gəlib düzəltdiyim o kokteyldən sonra zəng etdim və o zaman sənin neçə? – səkkiz-doqquz yaşın var idi. Beş-altı ildən sonra üçüncü – sonuncu dəfə gecə yarısı ona zəng eləyəndə nə içki içmişdim, nə də o kokteyl var idi (amma, ürəyimdə o kokteylin ab-havası var idi, sənin isə, onda on iki-on üç yaşın olardı... qəribədi, bunu niyə belə bir mühasib səliqəsiylə hesablayıram?).

«– Yenə kokteyl içmisən?»

«– Hə, – deyə yalan dedim, – bilirsən, mənim bu kokteylim Lamançlı rıtsarı sağaldan, amma bədbəxt Sançonu sancıya salan o maye kimi bir şeydi, yadına gəlir?»

«– Yox, – dedi.» –.

Lamançlı rıtsarın şərəfli həyatındakı o epizodu o gecə yarısı öz əlavələrim və onun (yəni sənin ananın) və mənim tanıdığımız adamlara bənzətmələrimlə danışdım və o xeyli güldü, xüsusən mənim universitetin müəllimlərinə, başqa tanışlarımıza bənzətmələrim ona ləzzət etdi, sonra isə, bir müddət susub birdən-birə soruşdu:

«– Sən kimsən?»

Mən də:

«– Hələ indiyə qədər bunu başa düşməmisən?»– soruşdum.

Yenə bir az susdu, sonra:

«– Yox.» – dedi və təkrar etdi: «– Sən kimsən?»

«– Əyyaş!»

Indiyə qədər ürəyimdə gizlənib qalmış bir ifadə ilə:

«– Yox»– dedi və susdu.

Onun o «yox»u , o etirazı bir anın içində məni tamam dəyişdi, elə bil, özümü itirdim və dəstəyi asdım, bir müddət dəstəyi asılmış telefon aparatına baxdım və mənə elə gəldi ki (və indi də elə gəlir ki), o, dəstəyi asmamışdı və mən dəstəyi asılmış telefon aparatına baxdığım qədər də, o, dəstəyi qulağında ment saxlayıb, telefonun qırıq-qırıq səsinə qulaq asdı. Mənim bu sentimental etirafım güman ki, bəsit səslənə bilər, amma olanı budu və bu hələ harasıdı, onun o cürə dayanıb o qırıq-qırıq telefon səsinə qulaq asması indi də bütün dəqiq cizgiləri və təfərrüatı ilə mənim gözlərimin qabağındadı və yox, zənnim, hissiyyatım məni bu qədər aldada bilməz və bu görüntü – yüz faiz deyirəm!– xəstə təfəkkürün ürəyi riqqətə gətirən məhsulu deyil...

Hə, bir müddət o dəstəyi asılmış telefon aparatına baxdım, ey alkaş Yusif bəy, sənin isə, mənim qiymətli həyatımın Flober dühasına layiq bu epizodundan xəbərin yoxdu və təbii ki, heç zaman da olmayacaq.

Tamara isə akkardeonu sinəsinə sıxıb o eybəcər (və gözəl!) səsi ilə «Çiçək pasaj»ı başına götürüb və o piyli ağ, kürən, boz, qara pişiklər də, elə bil ki, haçansa körpə ikən analarının qarnından yox, Tamaranın o yekə akkardeonunun içindən çıxıb bu yerlərə dağılışıblar və indi də tənbəl-tənbəl o akkardeona tərəf baxırlar və o bəd (və gözəl!) səsə qulaq asırlar.

Yusif, beni al!..
Sana vefalı ollam...
Almasan eger
Saralıb-sollam...

Yusif beni a-a-a-al!..

* * *

Bu yaxınlarda, «Pera Palas» əlçatmaz, ünyetməz bir uzaqlıqda qaldığı vaxt Bakıda növbəti gözəl iclaslardan birində oturub Leninin sənət haqqında, xüsusən Tolstoy barədə fikirlərində yol verdiyi yaramazlıqlardan danışan məruzəçiyə (mənfur sovet dövründə universitetdə Lenin estetikasından mühazirələr oxuyan adama) qulaq asa-asa səninlə danışırdım:

«– Mən bilirəm, sənin həyatında neçənci kişiyəm.»

Sən iri və zil qara gözlərini mənim gözlərimin içinə zilləyirsən, bir az da tutulmusan, deyəsən, bir az da gərginlik içindəsən.

«– Neçənci?»

«– Dördüncü.»

«– Niyə məhz dördüncü?»

«– Bilmirəm...»

Doğrudan da, niyə dördüncü?

Sənin isə, bizim belə söhbətlərimizdən xəbərin yoxdu...

* * *

Içdiyi rakıdan yox, Tamaranın akkardeonla bərabər, bu atəşin məhəbbət izharından sifəti turp kimi alışıb yanan möhtərəm Yusif bəy bütün kiçik vücudu ilə çalışırdı ki, Tamaraya tərəf baxmasın, çünki elə ki, Tamaranın göy gözləri Yusif Borşun dünyanın dərdindən-sərindən, əzab-əziyyətindən, nahaq işlərindən və rakının məhrəmliyindən bozarıb solmuş gözlərinə sataşırdı, onda keçmiş SSRI-də Stalin dövrünün monumental hekayələrinə bənzəyən və sinəsinə akkardeon sıxmış bu əzəmətli sənətkarın sənət və məhəbbət ehtirası xüsusən cuşa gəlib zilə qalxırdı və Tamara ətli boğazının iri damarları şişə-şişə bağırırdı:

Yusif beni a-a-a-al!

Dörd-beş illik fasilələrlə o üç gecə zənginin mənim üçün bu gün də sirri-xuda olan cəhəti o idi ki, hər üçündə də telefon dəstəyini özü götürdü və hər üçündə də tək idi, yəni danışmaq imkanı var idi. Bu nə idi? hisslərin bir-birini çağırması, səsləməsi idi, nə idi?.. hətta bu azdı, elə bil ki, həmin dəqiqələrdə o bu telefon zənglərini gözləyirdi də... O üç telefon zənginin arasında isə uzun-uzun illər (sənin böyüdüyün illər!..) təsadüfdən təsadüfə görüşürdük.

O:

«– Necəsən?»

Mən:

«– Əla!»

Mən:

«– Sən necəsən?»

O:

«– Luçşe ne mojet bıt!»

Tamaranın öz ilham pərisini yəhərləyib belinə atılaraq beləcə «Yusifnamə» dastanına başlaması, «Çiçək pasaj»ın gündəlik müştərilərində – yazıçılarda, artistlərdə, rəssamlarda, bir sözlə, tanınan və tanınmayan, həqiqi və yalançı sənət əhlində elə bir mənəvi ehtiyac yaratmışdı ki, bəziləri bu gözəl kefdən özlərini saxlaya bilmirdi, rakı qədəhlərini, yaxud pivə parçlarını əllərinə alıb, kimi artıq səndələyə-səndələyə, kimi hələlik normal halda addımlaya-addımlaya və hamısı da gülə-gülə möhtərəm Yusif bəyə tərəfə gəlirdi ki, bu gecəki «Yusifnamə» dastanına əlavə naxışlar vurub onun sağlığına içsinlər, amma uzaqgörən Yusif bəy onlara ağızlarını açmağa imkan verməyib tələsik məni təqdim edirdi:

– Azərbaycandan gəlmiş ünlü yazar müsafirimizdir!

Yusif bəyə tərəfə uzanmış rakı dolu qədəh, yaxud pivə parçı mənə sarı çönürdü və mən də ürəyimdə: «– Ey əziz Yusif bəy, – deyə bu əvəzsiz insana xitabən müdrik sözlər deyirdim. – Biz hamımız bu gözəlim dünyanın müsafirləriyik, sən də, mən də, səni dolamaq üçün yanımıza gəlmiş bu adam da, o yoğun, kələ-kötür gövdəli, qollu-budaqlı çinar ağacına oxşayan qocaman və möhtəşəm Tamara da, bu iri və piyli pişiklər də və nə yazıq, nə acı ki, «Pera Palas»dakı o qırmızı qərənfil gülləri də...»

Ürəyimdə bu dərin kəlamları söylədim, üzdə isə gülümsədim (mən köhnə ikiüzlüyəm, otuz ildən artıqdı ki, özüm də bunu bilirəm və hərdən, xüsusən gecələr yuxuya getməzdən əvvəl bəzən bunu özümə dərd də eləyirəm, yaxşı ki, səhər yuxudan duranda hər şey yaddan çıxır!.. bir də gecə təzədən yada düşənə qədər...). Yusif bəyi, yəni mənim yeni badə dostumu dolamaq üçün o başdakı mizin arxasından qalxıb yorta-yorta yanımıza gəlmiş bu adam, təbii ki, bir az rəncideyi-hal oldu, amma yəqin ki, sevimli Azərbaycanın xətrinə bunu üzə vurmadı və mənə baxıb:

– Öylemi? – dedi. – Ne gözel...(ay lotu!.. əslində dilxor olmusan ki, ləzzətli Borşu dolaya bilmirsən...) Can Azerbaycanda durum nasıl? Çok üzüldük... Ermenilere çok kızdık... Biz sizinleyiz...

Əlbəttə, bu adamın xəbəri yox idi ki, mən həmişə öz-özümlə danışan bir tipəm və bu dəfə də ürəyimdə: «– Hə, – dedim. – «Çiçək pasaj»da bizimlə olmağa nə var ki?». Sonra bərkdən:

– Təşəkkür edirəm, – dedim.

– Bir şey deyil, canım... O koca kahbenin kafası pozulmuş. Ne laflar söylediyini özü de bilmez. Sayın ağabeyimiz Yusif beyin hizmetleri çox böyük!

Xoşbəxt Yusif bəy:

– Estehfürullah!.. – dedi və titrəyən barmaqları ilə tutduğu qədəhdən bir qurtum rakı içdi.

– Evet!.. Evet!.. Yusif bey bizim hepimizin hocası! O koca kahbeye fikir vermeyin. Bu bir şaka...

– Təbii, – dedim və həqiqətən də, mən indi Tamaraya fikir vermirdim, çünki fikrim yenə də keçmişdə idi.

– Kardeş can Azerbaycanın şerefine, efendim! – Yusif bəyi dolamaq həvəsilə zəhmət çəkib gəlmiş o qədəh beləcə sevimli vətənimizin şərəfinə boşaldı.

– Təşəkkür edirəm, – dedim və onunla – sənin ananla son illərdəki görüşlərdən biri gözlərimin qabağına gəldi və bu görüm o qədər real oldu, onun sifətinin cizgilərini və ifadəsini, zil qara gözlərinin işığını o qədər dəqiq gördüm ki, bir anlıq diksindim, mənə elə gəldi ki, onun ruhu burada, bu «Çiçək pasaj»da, bu pivə, rakı qoxusunun içində, bu iri və kök pişiklərin arasında birdən-birə reallaşdı, sonra yox oldu və Yusif bəy diqqətlə mənə baxdı, yox, bu alkaşın, deyəsən, doğrudan da, yazıçılığı var idi, o saat başa düşdü ki, birdən-birə içimdə nəsə oldu.

Sən o görüşü xatırlayırsanmı? sən, anan və mən təsadüfən bulvarda görüşdük (onda səni də birinci dəfə gördüm... yox, səni birinci dəfə görəndə lap balaca idin, onunla teatra gəlmişdin...), sən dağılmaqda olan SSRI-nin çox gənc və gözəl bir komsomol lideri idin (və əlbəttə, o zaman kimin ağlına gələrdi ki, illər keçəcək və biz səninlə ala itdən məşhur olduğumuz və buna görə də heç cürə görüşə bilmədiyimiz Bakıdan çıxıb Istanbula getməyimizin, orada görüşməyimizin xəlvəti tədbirini görəcəyik və buna nail olacağıq?.. bilmirəm... və indi fikirləşirəm ki, bəlkə də, elə o zaman buna bənzər bir şey sənin ağlına gəlirdi?.. axı, sənin ağlına gəlməyən şey yoxdu!..) və onda biz, yəni o və mən sənin yanında bir-birimizlə «siz»lə danışırdıq...

O «siz» niyə indi bir bıçaq soyuqluğu ilə kəsib içimdən keçir, Yusif bəy əfəndi, ey millət qarşısında böyük xidmətləri olan sevimli xocamız, müdrik insan və bir halda ki, belədi, bir halda ki, o soyuq bıçaq eləcə kəsir, bəs, onda qan hanı? Deməli, yalançı bıçaqdı, olsa-olsa, bir bədii obrazdı, bütün bu fikirlər də, vətəndaş Yusif Borş, kəllə suyundan və saqqal darağından və hamam fitəsindən başqa bir şey deyil...

* * *

1926-cı ildə Londonda yoxa çıxmış Aqata Kristi «Pera Palas»ın 411-ci nömrəsində oturub «Cənub ekspresində qətl» romanını yazmışdı, bu oteldə Rza şah qalmışdı, Mata Hari yaşamışdı və mən bu dəfə «Pera Palas»ın qapısından içəri girəndə çar Rusiyasının mətin (amma imperatorlarını qoruya bilməyən!) generallarına oxşayan şveysar, kimə oxşamasından asılı olmayaraq, bütün yer üzündəki istedadlı şveysarlara məxsus bir duyğuyla haradan gəldiyimi duyunca, mənim simamda keçmiş sovet vətəndaşı üçün dünyanın ən mühüm sirlərindən birini açdı:

– Burada Trotski yaşamış!

Və «Çiçək pasaj»dakı əhli-sənətin, başqa müştərilərin, iri və kök pişiklərin əhatəsində olduğum o dəqiqələrdə hərdən mənə elə gəlirdi ki, o keçmiş insanların ruhu indi bir yerə toplaşıb «Pera Palas»dakı o qırmızı qərənfil güllərinə tamaşa edirlər və təskinliyi onda tapırlar ki, o güllər də yavaş-yavaş solmağa başlayır və bir azdan tamam öləcəklər... Bu dəm belə bir təskinlikdə mənim üçün bütün məxluqatın əşrəfi olan insanın taleyinə sonsuz kədər və miskinlik gətirən bir çalar var idi və mən:

– Yazıq Rudolf Nuriyev!.. – dedim.

Yusif Borş:

– O da bir yazarmı? – soruşdu.

– Yox. Sovetlərdən çıxmış bir türk rəqqası...

– Əfəndim?

Məni gülmək tutdu – hərdən belə gic gülməyim var və bu gic gülüş bəzən adamları (elə mənim özümü də!) çaşbaş salır.

– Bir türk balet rəqqası. O da «Pera Palas»da yaşamış.

– Nə interasan!..

– Sonra SPID-dən öldü.

– Nə acı!

Əlbəttə, bu dəm Rudolf Nuriyevin kim olduğu, harada yaşadığı və nədən öldüyü əziz və mehriban Yusif bəyin vecinə deyildi və əslində, heç mənim də vecimə deyildi ki, bədbəxt Rudolf Nuriyev haçan ölüb, nədən ölüb? – milyard-milyard insanlar kimi, o da gəlib bu dünyaya, bizə məlum olmayan missiyasını yerinə yetirib (rəqqas kimi yox, məxluq kimi) və köçüb gedib haqq dünyasına.

* * *

Hamı, yəni məni tanıyanlar, oxuyanlar və oxumayıb özünü oxuyan kimi göstərənlər elə bilir ki, mən nasirəm, amma heç kim bilmir ki...

...onda, bəs, sən niyə bunu bilməlisən? qəribədi... ümumiyyətlə, bu yazını yazdıqca hərdən özümə mat qalıram...

...əslində mən vecsiz və uğursuz bir şairəm, tez-tez taxta kimi taq-taq taqqıldayan səfeh şerlər yazıram və nəinki yazıram, hətta bu farmazon quraşdırmalar yaddaşıma da hopur və tamam gözlənilmədən, mətləbə dəxli olmadan, birdən-birə yadıma düşür, beynim, elə bil ki, printerdir, sətirlər dümdüz xətlə və dəqiq hərflərlə beynimdən keçir. Bax, indi də bu «Çiçək pasaj»da sayın dostum Yusif bəyə baxa-baxa o misilsiz sənət nümunələrindən biri fikrimdən keçdi:

dünyanın ən böyük dərdi tək
bir avtomobil səsi
gecə sakitliyini pozub
evimin içində zarıdı (?)
tavandan
gecənin zülməti tək
qapqara qan damcıları damdı
bütün yer
qapqara qanla doldu
mazut kimi qatı qan
qalxdı
çarpayımı da aldı
məni də aldı
laxtalandı
jeleyə döndü
sonra dondu
mən də içində cansız.

* * *

Sən vəzifəli bir xanım (vəzifəli gözəl bir xanım! yaşasın gənc və müstəqil və sevimli Azərbaycan dövlətimiz!).

Mən isə vəzifəsiz bir yazıçı.

Amma bir vəzifə var ki, bu gənc və müstəqil və sevimli dövlətimizdə mən onu çox arzulayıram.

Mən çox arzulayıram ki, məni «SEVGI MƏHKUMU (yaxud «SEVMƏYI BACARAN», ya «SEVMƏLISƏN») vəzifəsinə təyin etsinlər və bu, elə ciddi bir təyinat olsun ki, mənim qaçıb aradan çıxmağa, canımı qurtarmağa heç bir imkanım olmasın.

Amma kimdi məni o vəzifəyə təyin edən?!

* * *

Və «Pera Palas»ın o birotaqlı (ikinəfərlik çarpayılı!) nömrəsində isə məni qırmızı qərənfil gülləri gözləyirdi və mən qəribə bir hiss keçirirdim: o təzə, o zərif, incə qırmızı qərənfil gülləri elə bil ki, bu əbləh dünyaya gəldiyim gündən bəri balaca və vəfalı bir it kimi, mənə alışmış, məni istəyən bir məxluq kimi yolumu gözləyir, geri qayıtmağıma tələsir, o otel otağının sükutu və müvəqqətiliyi içində elə bilir ki, mən gələndən sonra bütün işləri yaxşı olacaq (daha bilmir ki, fərqi yoxdu, onsuz da, saralıb solacaq, büzüşüb quruyacaq və otel xidmətçisi aparıb onu zibil qutusuna atacaq...)

...Tamara, o qırmızı qərənfillərdən oxu...

Düzdü, o incə, təmiz qırmızı qərənfil gülləri ilə sənin o eybəcər, bədheybət (amma, vallah, çox gözəl!...) səsin arasında elə bir uzaqlıq var ki, bu uzaqlıq mənim əlçatmaz, ünyetməz bir keçmişdə – hamının məni sevdiyi, əzizlədiyi bir keçmişdə qalmış uşaqlıq çağlarımla, indi bu alkoqolik (görmürsən rakını qaldıranda əlləri necə əsir?!) Yusif Borşla «Çiçək pasaj»da oturub, tənbəl-tənbəl ora-bura gəzişən iri, tox və piylənmiş pişiklərə baxa-baxa sənin, Tamara, o dəhşətli dərəcədə eybəcər (və gözəl! billah, gözəl!...) səsinə qulaq asdığım bu dəqiqələr arasındakı məsafəyə bərabərdi.

Bəli, belədi, amma sən, Tamara, buna fikir vermə, o qırmızı qərənfil güllərindən oxu, o zaman bəlkə sənin, Tamara, səsin də öz cinsinə qayıtdı, insan səsi, qadın səsi oldu,.. amma yox... yəqin sən, Tamara, daha bunu istəmirsən (deyəsən heç mən də bunu istəmirəm...).

Və şübhəsiz ki, bu dəm «Çiçək pasaj»da məsgən salmış bu əhli-qələm, əhli-fırça, nə bilim, əhli-«sinema» da və boş qalmış yerləri zəbt etmiş turistlər də (Aya Sofiyadan sonra bu piyli pişiklər qalereyası!) bunu istəmirdi.

Tamaranın, aydın məsələdir ki, mənim bu fəlsəfi düşüncələrimdən xəbəri yox idi və yorulmaq bilməyən bu şişman sənətkar boğazını yırta-yırta, köhnə akkardeonunun da olan-qalan canını ala-ala Yusif bəyi məhv etməklə məşğul idi:

Yusif, beni al!..
Vefalı ollam sana...
Onsuz da, he-e-e-ey...
Bakan yok bana!..

O qırmızı qərənfil gülləri indi o boş otaqda, televizorun üstündəki o güldanda qaranlıq içində və tənha idi, onların yetmiş il bundan qabaq Londondan qaçıb gəlib o 411-ci nömrədə «Cənub qatarında qətl»i yazan (dünyada yazı-pozudan da axmaq və mənasız bir şey varmı? – özün özünü aldadırsan, bu azmış kimi, camaatı da aldadırsan... bu da mənim sənin yaşın qədər yazı-pozu əzab-əziyyətlərindən sonra gəldiyim nəticə! nəhayət ki, lap son zamanlarda daha birdəfəlik başa düşdüyüm həqiqət!) Aqata Kristidən də xəbəri yox idi, təbii ki, qırmızı qərənfil güllərinin səndən, Yusif bəy əfəndi, səndən, gözəl Tamara, sizlərdən, ey yer üzünün kök, tənbəl pişikləri, sizdən xəbəri yox idi...

... və sonra...

... bu fikirlərin (fikirləşmələrin!) özü mənə o dərəcədə əbləh və mənasız göründü ki, öz-özümə dedim: əfəndim, canım-gözüm, sevimli sultanım, sən özünü ələ salmısan, yoxsa, bu səfalı dünyanın gül-çiçəklərini?

* * *

Qəribədi, mən heç cürə səni ağlayan təsəvvür edə bilmirəm...

* * *

Doğurdan da, hərgah bizdən sonra kainatda trilyon illərlə vaxt, zaman keçəcəksə, o qədər illərin müqabilində indi bizim oturub roman yazmaqla məşğul olmağımızdan da mənasız bir iş varmı?

Romanları yaşamaq lazımdı, yazmaq yox – bu sözləri mən özümə deyirəm, yoxsa sən mənə deyirsən?

Doğurdan da, Istanbul romanlar şəhəridi (Bakı da!)...

* * *

Gözümün qabağına bir görüm gəlir...

Şərəfsiz bir süquta varmış SSRI zamanı 7 Noyabrda, yaxud 1 Mayda Bakının keçmiş Lenin meydanında, Leninin nəhəng heykəlinin altındakı daş tribunada dayanmış Azərbaycan Kommunist Partiyasının və hökumətin rəhbərləri izdihamlı nümayiş qəbul etdikləri kimi, indi də məşhur məhəbbət fədailəri Leyli və Məcnun, Romeo və Cülyetta, Fərhad və Şirin, Əsli və Kərəm, Ruslan və Lyudmila, Anna Karenina və Emma Bovari, hətta Karmen ilə Xose izdihamlı sevgi nümayişi qəbul edirdilər və Leninin o nəhəng heykəlinin əvəzində, əlində oxu gərilib şikar axtaran yay tutmuş Amurun heykəli idi.

Sadə aşiq və məşuq kütlələri, gələcəkdə aşiq və məşuq olmaq istəyənlər çılğın bir ehtiras və şövq ilə, gur bir izdihamla tribunanın qabağından keçirdilər və həmin tribunadan onlara əl eləyən görkəmli məhəbbət xadimlərini hərarətlə salamlayırdılar.

Mənim tanışım keçmiş kommunist (indi o görkəmli demokrat idi) və Lenin mükafatı laureatı dramaturq da onların arasında idi. Əllərində gül-çiçək tutmuş böyük və rəngarəng bir fahişə dəstəsi də tribunanın qabağından keçmək istəyirdi, amma məhəbbət mühafizəçiləri onları meydana buraxmırdı, çünki demokratiya, əlbəttə, anarxiya demək deyil.

Hər tərəfi bürümüş sevinc və alqış içində təkcə bir nəfər burnunu sallayıb dilxor-dilxor addımlayırdı və o bir nəfər mən idim, əlimdə də etiraz plakatı tutmuşdum və yaxşı ki, bu ucsuz-bucaqsız izdihamın başı məhəbbət alqışlarına elə qarışmışdı ki, plakatdakı o yazıları oxumurdular, yoxsa işlər şuluq olacaqdı, cəzam məhkəməsiz verəcəkdilər, amma mən bundan qorxmurdum və mətanətlə addımlaya-addımlaya dilxorçuluğuma baxmayaraq, taxta dəstəyindən yapışdığım plakatı keçmiş SSRI-nin bayrağı kimi uca tutmuşdum. Həmin plakatda yazılmışdı:

*Sevgiyə nifrət! Sevgi – qayğıdır, sevgi – rahatsızlıqdır, məsuliyyətdir. Mən isə, rahat yaşamaq istəyirəm!*

Mən dalğalanan, təlatümlü qarışqa ordusu içində ağappaq bir böcəyə bənzəyirdim, amma... yaşasın demokratiya!

Məhəbbət mühafizəçiləri bir də işə o zaman qarışmalı oldular ki, mənim tanışım keçmiş kommunist və Lenin mükafatı laureatı dramaturq da tribunaya yaxınlaşarkən dırmaşıb həmin tribunaya qalxmaq, oradakı məhəbbət rəhbərləri ilə bərabər sadə nümayişçiləri salamlamaq istədi, amma nə qədər çığır-bağır saldısa da, buna haqqı olduğunu dedisə də, tələb etdisə də, Azərbaycanda bu dramaturqu yaxşı tanımadıqları, heç bir əsərini səhnəyə qoymadıqları üçün məhəbbət mühafizəçiləri buna imkan vermədilər.

Məndən bir az aralıda, izdihamla bərabər, asta-asta hərəkət edən açıq yük avtomobilinin üstündəki səyyar mətbəxdə almanların nəhəng pivə çəlləyinə bənzəyən və ağ xələt geymiş, başına uzun papaq qoymuş şişman bir aşpaz elektrik plitəsinə tava qoyub cız-cız cızıldayan zeytun yağında spermadan amlet bişirirdi və həmin iri amleti taxta dəstəkli dəmir tavada atıb tuta-tuta tribunadakı məhəbbət liderlərini alqışlayırdı...

bu nə görüm idi belə?

bilmirəm...

sən necə?..

Hələ universitetdə tələbə ikən, o vaxtlar ki, Şekspirə aludə olmuşdum və onu dönə-dönə oxuyurdum, beynimə bir fikir girmişdi və otuz ildən sonra onu yenidən (niyə?) xatırladım: məhəbbət – qatildir, Yaqo o dərəcədə sevməsəydi, Otello Dezdemonanı öldürməzdi...

bunu indi niyə yazıram və ümumiyyətlə, mənə nə olub? bir tərəfdən də o səfeh görüm... o şişman aşpaz...

* * *

Bir dəfə sən mənə demişdin, sonra da yazmışdın ki, balkonları çox sevirsən.

Indi, mənə bax də, sənin yanında olmaq, səni sevmək və dünyanın o gözəl balkonlarında səni qucaqlayıb öpmək əvəzinə, Bakının bu istisində tək oturub sənin üçün yazı yazıram...

Idiotizm.

* * *

Bilirəm, sən bu yazını oxuyacaqsan, ona görə də içimdə olan və bu yazının səhifələrinə can atan çox şeyi yazmıram (adını yazıçı qoyub, ömrü boyu sovet senzurasının əleyhinə olan və ondan şikayət edən, ona qarşı mübarizə aparan bir qələmçinin aqibətinə bax ki, indi özü öz içində senzura yaradır!), amma birini yazacağam, çünki onu yazmaya bilmirəm. Mən bilirdim ki, o – sənin anan – ölümcül xəstədi, o günlər çox vaxt səhər yerimdən qalxanda onu xatırlayırdım və hər dəfə də bütün halım dəyişirdi. Kimsə mənə demişdi ki, o – sənin anan – kənar adamların gəlib onu yoluxmağını istəmir, istəmir ki, gələnlər xəstəliyin onu nə kökə saldığını görsünlər və mən o günlərdə çox zaman səhər yerimdən qalxanda onu elə o vəziyyətdə görürdüm, yəni xəstəliyin onun sifətini necə dəyişdiyini, nə günə saldığını görürdüm. Mən onun özünü görməmişdim, amma onun o görkəmi mənim gözlərimin qabağındaydı. Və o gün ki, onun ölüm xəbərini eşitdim, o gün – indiki kimi, yadımdadı – Yazıçılar Ittifaqının dəvətilə Zaqrebdən gəlmiş bir tərcüməçi dostumla (qələm və badə dostumla) və bir-neçə başqasıyla, elə bil ki, dünyada heç nə olmayıbmış kimi, Buzovna qayalıqlarına gedib dünəndən sözləşdiyimiz kimi, «kapotüstü» elədik, yəni maşının kapotunun üstünə araq, çaxır, yeməli şeylər, o cümlədən, zaqrebli dostumuzun Bakıya gəldiyi gündən, fürsət düşdükcə, müftə təpişdirdiyi qara kürü düzüb gecəynən badə dostluğumuzu ən yüksək mərtəbəyə qaldırdıq...

... yox, mən dəhşətli bir məxluq deyiləm, amma... olanı budu və mən də buyam...

Və istəyirəm ki, sevimli insan, sən də bunu biləsən.

* * *

Insanlar öləndən sonra onların ruhu qalır, bəs, çiçəklərin, güllərin?

* * *

«– Bizim Bakıdakı yoldaş...»– bunu söz düşəndə sən dedin, o yoldaş da özünü doğrultmayan sosializm sistemindən bazar iqtisadiyyatına keçdiyimiz vaxt işləri yaxşı gedən Bakı firmalarından birinin başçısı idi, indi Bakıda idi və Istanbuldakı səndən xəbəri yox idi, hər halda, yüz faiz dəqiqi bu idi ki, o bədbəxt «Pera Palas»dakı o otaqdan, o otaqdakı qırmızı qərənfil güllərindən tam xəbərsiz idi və mən onu əvvəllər üç-dörd dəfə görmüşdüm, amma onun sifətini heç cürə gözümün qabağına gətirə bilmirdim və indi də Yusif Borşla birlikdə bu gözəl «Çiçək pasaj»da oturub pivə içə-içə nə qədər eləyirdim, o «bizim Bakıdakı yoldaşın» sifətini gözümün qabağına gətirə bilmirdim və fikrimi, zehnimi gücə saldıqca, «bizim Bakıdakı o yoldaşın» əvəzinə dünyanın bütün boz pencəkləri, boz ayaqqabıları, boz əşyaları gəlib gözümün qabağından keçirdi və mən onun qarşısında heç bir vicdan əzabı çəkmirdim.

Mənim üçün o bozluqdan böyük bəraət ola bilməz.

Amma o, haçansa məni öldürsə, yəqin ki, onun bəraəti mənimkindən artıq olar...

* * *

Cavanlıq vaxtlarında mənim bir pivə dostum var idi, bir-iki parç pivədən sonra romantik (və onun üçün əlçatmaz!) bir xəyala dalırdı və o gözəl xəyalı qısa melodik cümlələrlə ifadə edirdi:

– Gecə... Torşer... Canan...

Hərdən də əlavə edirdi:

– Bir də qəhvə...

Sonralar, o pivə dostumun o romantik (və onun üçün əlçatmaz) xəyalları mənim praktik həyatımın sadə (amma, hər halda, sevimli və xatirələrdə yaşayan...) bir hissəsinə çevriləndə, mən hərdən o badə dostumu və onun o sözlərini yadıma salırdım, içimə bir şuxluq yayılırdı, gülürdüm, bunu bir az da bəzəyib, özümdən cürbəcür əlavələr edib tərəf-müqabilimə danışırdım, birlikdə gülürdük və mən «Pera Palas»ın o nömrəsində, o torşer işığında sənə baxa-baxa o sözləri xatırladım, amma qəribədi, bütün həyatımda ilk dəfə o xatırlamadan sonra məni bir qüssə bürüdü... Niyə? Nə üçün? Bunun səbəbini indiyə qədər başa düşə bilmirəm. O ani qüssə tez-tez yadıma düşür, amma səbəbini heç cürə tapa bilmirəm. Sövq-təbii hiss edirəm ki, nəsə o qırmızı qırənfil gülləri ilə bağlıdı, amma uclarını bir-biri ilə tutuşdura bilmirəm... o qırmızı qərənfil güllərinin ətri bütün otağa yayılmışdı, amma nə olsun?.. bu nə üçün o şux (və sınanmış!) xatirəcikdən sonra qüssə gətirməli idi?.. bu mənim üçün bir Ferma teoreminə dönüb, cavabını tapmıram... bu da cavabsız teoremlər silsiləsinə mənim bir töhfəm... bəlkə sövq-təbiim məni aldadır və o qüssənin qırmızı qərənfil güllərinə heç dəxli yoxdu?.. bəlkə yaş gətirir o qüssəni?... bəlkə həyatımın torşerlərinin sonu yaxınlaşır, yekunu hiss edirəm, ona görə?... yox... bütün bunlar o qüssənin səbəbinə bəsit bir cavabdı... daha dərindən qazmaq lazımdı, amma mən həmişə o dərinləri eşələməkdən qaçmışam... indi, bu sətirləri yazarkən bir hiss gəldi (həmin dərinlərdən?): bəlkə sən mənim üçün o anlarda (yox, indi yox, indi belə fikirləşmirəm, o zaman, o anlarda...) mənim fikirləşdiyimdən və hiss etdiyimdən daha artıq olduğuna görə, o qırmızı qərənfillərin gecikmişliyindən yaranmışdı o qüssə?.. bilmirəm...

Gecə... Torşer... Canan...

Bir də ki, mənim düzəltdiyim kokteyl...

Mənim düzəltdiyim və özümdən başqa bu gözəllər gözəli dünyamızda heç kimin içə bilmədiyi və sənin də içmədiyin, dadını bilmədiyin, amma sevdiyin kokteyl.

Mənim içimdə sən o kokteyli sevirsən.

Hər halda, sevməlisən.

Və sənin içmədiyin, dadını bilmədiyin o kokteyli o cürə ürəkdən sevməyin (!) mənim üçün dünyanın gözəl bir hadisəsidi...

* * *

Haçansa oxuduğum bir kitabın qəhrəmanı deyirdi: Mən insan deyiləm, oyunçuyam...

Mən də insan deyiləm, yazıçıyam?..

* * *

Tez-tez xatirələr məni on il bundan əvvələ, iyirmi il, otuz il bundan əvvələ aparırdı və mən də hər dəfə bu sicilləmə xatirələri səninçün maraqlı oldu-olmadı (hər halda, ümid edirəm ki, maraqlısı da var idi), danış ki, danışırdım, amma indi xəyal məni otuz il yox – bu əbləh dünyadan doymaq olmur – düz qırx səkkiz il (ağlıma gəldisə, qoy belə olsun!) bundan sonraya aparır...

Bakı 2049-cu ilin mart ayının 3-ü (bizim 48-ci ildönümümüz, amma o gələcək dünyada bu ildönümündən heç kimin xəbəri yoxdu, bunu heç kim bilmir və bunu daha sən də bilmirsən və mən də bilmirəm...).

Mənsiz və sənsiz (?!) dünyanın istisinin, küləyinin, yağışının, qarının soldurub bozartdığı bir qəbir – o, mənim qəbrimdi.

Bir azdan – düz yetmiş beş gündən sonra, iyunun 25-də mənim 100 illiyim olacaq və yəqin o qəbrin üstünə əklil qoyacaqlar (yəqin bu qədər makina və kampüter arxasında oturub barmaqlarımı döyənək eləyəndən sonra, yazı-pozu dediyimiz bu səfeh işlə məşğul olan hansı bir institutunsa, fakültəninsə yadına düşəcəyəm, bir də ki... bunun indiki mən üçün nə dəxli və nə mənası?..), amma indi mart ayının 3-dür, o qəbir də başqa qəbirlərin arasında tək-tənhadır, çünki qəbir nə qədər qəbirlərin arasında olsa da, tənhadır və yəqin elə ona görə də qəbirdi...

Qəbirstanlığın tamam başqa bir yerində (bəlkə başqa bir qəbiristanlıqda, başqa bir şəhərdə?.. bəlkə Istanbulda? Yusif Borşla bir qəbiristanlıqda? Bəlkə Tamara da – əgər o vaxtacan ölübsə – oradadı?) başqa bir qəbir – sənin qəbrin... və o da yetim bir qəbirdi, uşaqlar çoxdan o qəbirə baş çəkməyə macal tapmırlar, hərə bir yerə səpələnib, hərənin bir dərdi-səri, bir qayğısı... ancaq bu yaxın adamlardan bəlkə kiminsə yadına düşəcək, ağlına gələcək və bir dəstə təzətər qırmızı qərənfil gülü alacaq (fərqi yoxdu hardan alacaq, Bakı passajından, yoxsa Qapalı Çarşıdan...), gətirib o qəbrin üstünə qoyacaq və o qəbir bir müddət gülümsəyəcək, sonra o təzətər qırmızı qərənfil gülləri saralıb-solacaq, quruyub yox olacaq... və bir də kimin, nə vaxt yadına düşəcək, qırmızı qərənfil gülləri alıb bura gətirəcək?..

Haçansa – yox olub dağılanacan bir-birindən uzaq o iki qəbir eləcə lal sükut içində qalacaq, hətta o qəbir daşlarına toxunub əsən küləklər də onları birləşdirməyəcək, çünki o küləklər də müxtəlif səmtə əsəcək...

*Dekabr, 2000.*

## QIZIL DIŞ

*(Göy üzünün ulduzlu vaxtları)*

Əliqulu filosof idi, yəni bu mənada yox ki, özü özünü filosof hesab edirdi, yox və əslində Əliqulunun filosof olmasından heç özünün xəbəri yox idi, çünki filosofluq yemək kimi, evdən çıxıb pul dalınca getmək kimi, kiməsə bir söz demək, kiminləsə görüşmək kimi, onun gündəlik həyatının, güzəranının bir hissəsi idi və Əliqulu üçün qətiyyən əhəmiyyəti yox idi ki, onun kəşflərini kimsə ondan əvvəl kəşf etmişdi, ya yox, onun fikirlərini kimsə ondan əvvəl düşünmüşdü, ya yox; əhəmiyyəti yox idi bir də ona görə ki, Əliqulunun o keçmiş kəşflərdən, o keçmiş yazı-pozulardan heç xəbəri də yox idi.

Bu isti iyul gecəsi də ayaqlarını çəkə-çəkə tərin-qanın içində, yorğun-arğın, Bakının dağlıq məhəlləsindəki evinə gedə-gedə fikirləşirdi ki, bu dünyada nə birinci adamdı ki, əzab-əziyyətlə çörək pulu qazanır, nə də axırıncı adamdı, dünyanın öz qanunları var və bu qanunlar nə kommunizmə – Əliqulunun əvvəllər, yəni, ömrünün böyük hissəsini yaşadığı dövrə – baxır, nə də kapitalizmə – indi, ömründən nə qalmışdısa, onu yaşadığı dövrə və nə qədər dünyanın qarasına deyin, bunun mənası yoxdu. Kim görüb, dünyanın hansı böyük alimi bunun şahidi olub ki, misal üçün, ərik ağacı əkmisən, əvəzində armud bitib, ya elə ərik ağacı əkmisən, üstündə əriklərlə bərabər, bircə dənə də armud, ya alma, ya nəsə naməlum bir meyvə bitib?

Əlbəttə, bunu heç kim görməmişdi və yəqin, bundan sonra da heç kim də görməyəcəkdi ki, Əliqulunun bu sualının cavabında: «– Hə!– desin.– Mən görmüşəm!» və əslində bu cavaba bir ehtiyac da yox idi və ümumiyyətlə, Əliqulu bu sualı başqalarına yox, özü özünə verirdi və gecənin qaranlığında da onun üçün gün işığı kimi aydın olan həmin cavabı da özü verirdi.

Və o bürkülü iyul gecəsi Əliqulu gəlib evlərinə girəndə, təzə çörəyi, az qala, bir kilo pendiri mizin üstünə qoyanda, hələ cibindəki dörd mini də yadına salanda ürəyində Allaha şükür elədi, çünki sabah sübh tezdən Əliqulu evdən çıxanda arvad da bazara gedib o pula çiy tum alacaqdı, gətirib evdə qovuracaqdı və həyətin küçəyə açılan qapısı ağzında həmişəki kətilində oturub o qovrulmuş tumu köhnə yüzqramlıq stəkanla müştərilərə – məhəllə uşaqlarına, yoldan ötən qız-gəlinə satacaqdı və bütün bu gözəl işlərdən sonra arvadı deyəndə ki, bu gecədən daha yerlərini damda salacaq, Əliqulunun kefi əməlli-başlı duruldu, elə bil, yorğunluğu da azaldı, ayaqlarının ağrısı-sızıltısı da; elə bil, bir az toxdadı və arvadı bir kasa isti soğanbozbaşını gətirib onun qabağına qoyanda və o da o təzə çörəkdən bir yekə loxma kəsib kasanın içinə doğrayanda, fikirləşdi ki, hələ bilmək olmaz ki, dünyada kimin dərdi-səri çoxdu: hansısa böyük bir padşahın, yoxsa onun, yəni, Əliqulunun?

* * *

Əliqulunun ikiotaqlı, birmərtəbəli evini ulu babası, yəni, babasının atası Əlinəcəf (yoxsa Nəcəfəli?) tikdirib övladlarına yadigar qoyub getmişdi və hərdən Əliqulu fikirləşirdi ki, Allah o kişiyə rəhmət eləsin, dünyanın işinə bax, bu qədər illərdə, Nikolayın vaxtından tutmuş Lenindən, Stalindən üzü bəri Sovet hökumətinin yetmiş ilində bu nəsildən bir nəfər fərli adam çıxmamışdı ki, gedib özünə fərli-başlı bir ev tiksin, ya Sovet hökumətindən bir ev alsın və orada da yaşasın. Bu evin daha hay-hayı getmişdi, vay-vayı qalmışdı və xüsusən payızda, qışda yağışlar başlayanda, sulu qar yağanda damın nazik qır örtüyü daha o şırhaşıra tab gətirmirdi, dammağa başlayırdı, Əliqulu dama çıxıb qırın kənarlarına, ortasına sellofan sərirdi, üstünə daş yığırdı, amma elə bir fərq eləmirdi və arvad o iki balaca otağın ikisində də gah o başa, gah bu başa, gah ortaya, gah o qırağa, gah bu küncə tas, vedrə qoyurdu. Əliqulu bir-iki dəfə istəmişdi ki, dama təzə qır saldıra, amma qırçılar elə qiymət demişdilər ki, o məbləğə lap asanca bilet alıb Barnaula getmək olardı.

Bütün bunlar ən çox payızın, qışın əziyyətləri idi, yayda isə, düzdü, günorta vaxtı bu otaqlar elə havasız, elə isti olurdu, elə bil, içində cəhənnəm ocağı qalayırdılar, amma iyulun ortalarından başlamış, elə ki, gecə düşürdü və elə ki, yatmaq vaxtı gəlirdi, arvad yerlərini damda salırdı və sübh tezdən günün istisi dama şığısa da, hərdən ağcaqanadlar hücum çəksə də, gecə damda yatmaq, o divarsız, tavansız genişlik içində əlini-qolunu uzatmaq, göyün yeddinci qatına baxa-baxa yuxuya getmək Əliqulu üçün bu əzab-əziyyətli dünyanın gözəl işlərindən biri idi.

* * *

Göyün üzü başdan-başa ulduz idi, böyük, kiçik, lap cıqqılı, hamısı da alışıb-yanırdı və o qədər ulduz idi ki, bunu sayıb qurtarmaq mümkün deyildi, bu ulduzları heç böyük alimlər də sayıb qurtara bilməzdi, heç Moskvanın, Moskvanın yox, lap Amerikanın da böyük cihazları bu ulduzları sayıb qurtara bilməzdi, amma lap saysaydı da, nə olsun? mənası nə idi? çünki əsas məsələ bunda deyildi, yəni, əsas məsələ ulduzun sayında deyildi, əsas məsələ onda idi ki, bu ulduzları yüz il bundan qabaq yaşayan insanlar da, o cümlədən, Əliqulunun ulu babası Əlinəcəf də, yox, Əlinəcəf yox, Nəcəfəli də, bax, beləcə göy üzündə görmüşdü, min il bundan qabaqkı insanlar da və o cümlədən, Əliqulunun əcdadları da bunları beləcə görmüşdü...

Yaxşı də... Görmüşdü, görmüşdü, Allah onların hamısına rəhmət eləsin, amma niyə, bu əsas məsələdi? Bunun əsas məsələ olmasının mənası nədi ki?– Əliqulu bu sualların cavabını bilmirdi, amma orası tamam dəqiq idi ki, bu fikir, yəni, əcdadlarının o qədimliyi (indi sümükləri də çoxdan çürüyüb qatışıb torpağa), babası Nəcəfəlinin (Nəcəfəlinin, yoxsa Əlinəcəfin? nə isə...) adını beləcə səhv salması işım-işım işıldayan bu aylı-ulduzlu gecənin bürküsünə, bu gecənin hər tərəfi bürümüş ölü sakitliyi içində hərdən vızıltısı gələn ağcaqanadın pis əməlinə qarışıb Əliqulunun ürəyinə kədər dolu bir nigarançılıq gətirirdi.

Bəlkə də bu, nigarançılıqdan daha artıq bir nisgil idi, amma inanmıram ki, Əliqulu «nisgil»in dəqiq mənasını bilirdi və yəqin ona görə də isti yay gecəsinin o aylı-ulduzlu çağında bu sözü fikrinə gətirmirdi, hər halda – nigarançılıqdı, ya nisgil idi, ya da bunun adı başqa bir şey idi,– o hissiyyat Əliqulunun içinə, elə bil ki, bir çəkisizlik gətirmişdi və onun ürəyi də o çəkisizlikdə, elə bil ki, lap yavaş-yavaş vurmağa başlamışdı və o yavaşlıq, o lənglik o nigarançılığı (nisgili?) bir az da artırırdı, o kədəri, elə bil, kömür kimi, daha da qaraldırdı, quyunun dibinə aparırdı.

* * *

Elə həmin gecə idi, göyün üzü eləcə başdan-başa ulduz idi və o gecə, yuxusu tamam qaçmış diş həkimi Müseyib yatağından qalxıb otağın dənizə açılan pəncərəsinin qabağına gəldi və kondisionerin işləməsinə baxmayaraq, pəncərəni açdı, içərinin sərinindən sonra eşiyin bürküsü bircə anın içində onun bütün sifətini bürüdü və elə bil, o bürkü bayaqdan bəri kişinin içində yaranmış qüssəni bir az da artırdı, amma elə ki, Müseyib göyün üzündəki o ulduzları gördü, elə bil, onların işıltısı o bürkünü yarıb içindəki o qüssəyə nəsə bir balaca yüngüllük gətirmək istədi...

Və elə o anda da əlli il, bəlkə daha da artıq bir müddətdə heç vaxt yadına düşməyən bir görüntü birdən-birə, tamam qəflətən Müseyibin yadına düşdü: onda hələ məhəllədə yaşayırdılar, on dörd-on beş yaşı olardı, bax, beləcə bir aylı-ulduzlu isti yay gecəsi idi, anasının birmərtəbəli evlərinin damında saldığı döşəyin üstündə arxası üstə uzanıb yatmaq istəyəndə göydə, o ulduzların arasından işım-işım işıldayan bir ulduz uçub getdi...

yox oldu...

hara uçdu o ulduz?..

o biri ulduzlar isə bu uçuşun fərqində deyildi, göyün üzündə eləcə işıldayırdılar...

* * *

Bu nəslin, yəni Əliqulunun nəslinin bir qəribə xüsusiyyəti var idi: bir oğlan olurdu, qalanı da qızlar və qızların hərəsi bir yerə köçüb gedirdi, oğlan isə qalırdı anadan olduğu bu ikiotaqlı, birmərtəbəli binada, burda yaşayırdı, burda qocalırdı və burda da Allahın rəhmətinə gedirdi və Əliqulunun da qızları orda-burda ərdə idi: biri Sumqayıtda, biri Fizulidə, biri də Mingəçevirdə. Sumqayıtdakı ilə Mingəçevirdəkilərin ikisinin də əri fəhlə idi, birtəhər dolandırırdılar ailələrini, amma Fizulidəkinin kefi kök idi, qəssab işləyirdi, özünün bir xeylaq qoyun-quzusu, mal-qarası var idi, düzdü, belə məlum olurdu ki, deyəsən, bir az xəsis idi, – ancaq Novruzdan Novruza Əliqulugilə iki-üç kilo ət göndərirdi, vəssalam,– amma onda da təqsir yox idi, çünki yeddiydi? səkkiz idi? uşağı var idi və o uşaqları, əlbəttə, oxudub bir yerə çıxarmaq istəyirdi, amma deyir, sən saydığını say, gör fələk nə sayır, erməni rusla əlbir oldu, bizimkilər də əfəl çıxdı və erməni gəlib Füzulini aldı, onlar da qaçqın düşdü, indi Muğanın ilan mələyən çöllərində çadırda yaşayırdılar, o qoyun-quzu da, o mal-qara da ermənilərə qismət oldu.

Əliqulunun o bir oğlu isə hələ sovet hökuməti vaxtı əsgərliyini gedib Rusiyanın Barnaul deyilən bir şəhərində çəkmişdi, əsgərlik vaxtı qurtarandan sonra da Azərbaycana qayıtmamışdı, orada qalmışdı, az qala iyirmi il idi ki, orada işləyirdi, orada bir rus qızıilə evlənmişdi və onun da bir oğlu olmuşdu, üç, ya da dörd qızı və bu iyirmi ildə Əliqulu oğlunun da, gəlininin də, nəvələrinin də üzünü görməmişdi, çünki burdan Barnaula gərək təyyarə ilə uçaydın, onun da bileti çox baha idi, oğlu da o vaxtdan buralara gəlməmişdi, yəqin o bilet bahalığı oğlunun da cibinə görə deyildi və Əliqulu da, arvadı da bircə onu bilirdilər ki, oğul nəvələrinin adı rus adıdı: Svyatoslav və arvad da nəvəsinin bu adını heç cürə yadında saxlaya bilmirdi, hərdən soruşurdu: «– Necə oldu o uşağın adı?».

* * *

Dünyanın ən gözəl səsi nə səhərin gözü açılmamış böyük bir dəstə ilə məhəllədəki qoşa tut ağacına qonmuş sərçələrin cik-ciki idi, nə qonşuları Fətullanın klarnetinin səsi, nə də bir başqa səs – bunlar gözəl idi, öz yerində, amma dünyanın ən gözəl səsi elektrik qatarının təkərlərinin çuqqa-çuku idi və Əliqulu həmişə elektrik qatarının o çuqqa-çuku altında vaqonun pəncərəsindən eşiyə baxanda bütün bədəninə bir rahatlıq gəlirdi, altmış altı illik həyatının işıqlı nə xatirəsi varıydısa, yadına düşürdü və o məqamlarda qətiyyən fərqi yox idi ki, qatar getdikcə pəncərədən görünən və bir-birini əvəz eləyən Abşeron mənzərələri nədən ibarət idi? o dəm Əliqulu gözünün qabağındakı o xatirələrin içində olurdu, misal üçün, birinci sinifə getməsini yadına salırdı, düzdü, yeddinci sinifi güc-bəla ilə qurtardı, sonra daha məktəbi buraxdı, çünki oxumağa nə həvəsi var idi, nə də şəraiti və gedib vağzalda paravoz kömürü daşımağa başladı, amma o birinci sinifə getdiyi günün tərtəmizliyi, o balaca Əliqulunun məktəbə getməyi münasibətilə anasının qayçılayıb, guya, sahmana saldığı pırpızaq saçları, elə anasının da mürəkkəbqabı qoymaq üçün qalın pambıq ipdən toxuduğu mürəkkəb torbacığı, «Əlifba» kitabındakı o şəkillər gözlərinin qabağına gəldi; həmin qatar çuqqa-çukuda basma kağız mürəkkəbi özünə necə çəkirdisə, Əliqulunu da eləcə özünə çəkirdi və qatarın o gözəl çuqqa-çuku altında zibil eşələməyə getməyi, xüsusən də yay vaxtı zibilliyin qurdlamış iyi-üfunəti tamam yaddan çıxırdı.

Sovet hökumətinin vaxtında Bakının mərkəzində bir çox hündürmərtəbəli binalar var idi ki, onların sakinləri, xüsusən arvadlar, yəni, ev sahibələri bu qısaboylu, arıq kişini – Əliqulunu yaxşı tanıyırdılar: səhər tezdən günortayacan Əliqulu çiynində torba o hündür binaların həyətinə girib və başını qaldırıb: «– Butulka pakupayu-u-u!.. Butulka pakupayu!..»– deyə qışqırırdı və elə ki, çiynindəki o böyük torba səkkiz qəpiyə, on qəpiyə, on bir qəpiyə aldığı çaxır, su, araq, kefir şüşələri ilə dolurdu, aparıb Şüşəalma Məntəqəsində onları on qəpiyə, on iki qəpiyə, on dörd qəpiyə dövlətə təhvil verirdi və pis də qazanmırdı.

Sonra sovet hökuməti dağıldı və aradan keçən bu müddət ərzində Bakı camaatının bir qismi harınlamışdı, boşalmış şüşələri atırdı zibil yeşiyinə, qalan qismi də tamam kasıblamışdı və hərgah onların evində bir şüşə boşalırdısa, özləri aparıb Şüşəalma Məntəqələrinə təhvil verirdilər və o Şüşəalma Məntəqələri də daha dövlətin deyildi, ayrı-ayrı adamların idi və onlar hər şüşəni bittə-bittə yoxlayırdılar.

Indi daha hündürmərtəbəli binaların həyətinə girib:

«– Butulka pakupayu!.. Butulka pakupayu!..» – qışqırmağın mənası yox idi və indi Əliqulu belindəki həmin torba ilə o hündür-mərtəbəli binaların həyətlərinə girib çubuqla zibil yeşiklərini eşələyirdi və tapdığı şüşələri də ordan yığıb belinə şəlləyirdi və aparırdı Şüşəalma Məntəqəsinə.

Düzdü, indi yüz cürə içki peyda olmuşdu və o içkilərin də yüz cürə şüşəsi var idi, amma qazanc sovet hökumətinin vaxtındakından az olurdu və ümumiyyətlə, indi belə məlum olurdu ki, sovet hökuməti elə, doğrudan da, fəhlələrin hökuməti imiş, bir də ki, məsələ hökumətdə deyildi, sovet vaxtı kim pis yaşayırdısa, elə indi də it günündə yaşayır, yox, kim ki, o vaxt yaxşı yaşayırdı, indi də elə həmin adamlar o vaxtkından da yaxşı yaşayırdılar.

Fikirlər gəlib bu məqama çatanda, Əliqulu ürəyində deyirdi:

«– Halal xoşları olsun!»

Həyatın öz qanunları var...

* * *

Göydəki o ulduzların sayı-hesabı yox idi və dünyaya gəlib-gedən insanların da bu ulduzlar kimi, sayı-hesabı yox idi.

Və belə məlum olur ki, kürreyi-ərzdə insana doğma olan ən birinci bir şey varsa, o da torpaqdır, çünki bu qədər insan ki, dünyaya gəlib, sonra da köçüb gedib, onların adı da yaddan çıxıb, kim kimin əcdadıdı?– o da itib gedib və onlardan nəsə bir iz-soraq qalıbsa, o da torpaqdadı, torpaqda əriyib bir-birinə qarışıb və deməli, Əliquluya da, o birinə də ən doğma bir şey – torpaqdır.

* * *

Ən çox şüşə Bakının mərkəzindəki o hündürmərtəbəli binaların həyətindəki zibil yeşiklərində olurdu, amma zibil maşınları Bakıda, ilk növbədə, elə o həyətlərdəki zibil yeşiklərini səliqə ilə boşaldıb aparırdı və Əliqulu çox zaman mərkəzə o zibil yeşiklərinin boşaldılmış vaxtlarında gəlib çıxırdı və belə vaxtlar belindəki o torba da, əlbəttə, boş qalırdı. Onda, yəni, belindəki o torba tamam boş olanda Əliqulu elektrik qatarına minib Zibilliyə gedirdi, sonralar isə, hərdən səhər evdən çıxanda heç o hündürmərtəbəli binaların həyətindəki zibil yeşiklərinə baş da çəkmirdi, elə birbaşa Zibilliyə yola düşürdü, uzun çubuğu ilə Zibilliyi eşələyib tapdığı şüşələri torbasına yığırdı, geri qayıdıb Şüşəalma Mərkəzinə təhvil vrirdi.

Və Əliqulu sabah səhər Zibilliyə gedəcəkdi.

* * *

Neçə illərsə bundan əvvəl Əliqulu cırılmış bir jurnal səhifəsində rəngli bir şəkil görmüşdü, o şəkili çəkən rəssamın adı nə idi?– bilmirdi, amma bir dəfə gördüyü o şəkil heç yadından çıxmırdı: yekə bir saat idi, amma o saat elə bil ət parçasıydı, ya qalın və yaş əsgi parçasıydı, ya nəydisə, yarısı mizin üstünə sərilmişdi, yarısı da mizin üstündən yerə sallanmışdı və Əliqulu nə üçün o şəkili heç cürə yadından çıxara bilmirdi?– bunun da səbəbini bilmirdi, amma hərdən ona elə gəlirdi ki, hər gün sübh tezdən çiyninə salıb evdən çıxdığı o boz torba, bax, həmin o saat kimi bir şey idi...

* * *

Elə bil ki, damın üstündəki o yorğan-döşək damın üstündə yox, elektrik qatarındakı vaqonda salınmışdı və o elektrik qatarı da Abşeronun qumsallığı ilə yox, baxımsız qalmış qədim zeytun və əncir ağaclarının arası ilə yox, biri qurtarıb, o iri başlayan qəsəbələrin kənarından yox, göy üzünü bürümüş o ulduzların arası ilə gedirdi və o elektrik qatarı adamı yayın bu cırhacırında üfunətindən baş gicəllənən Zibilliyyə yox, harasa naməlum bir uzaqlığa aparırdı və o uzaqlıqda nə o üfunət var idi, nə də o Zıbillik, orada hər şey başqa cürə idi, – necə idi?– Allah bilirdi, amma tamam başqa cürə idi...

* * *

Diş həkimi Müseyibin əlləri qızıl idi və bunu kiçikdən tutmuş böyüyəcən Bakının bütün stomatoloqları təsdiq edirdi və bu stomatoloqların arasında, əlbəttə, Müseyibi istəməyənlər də vardı, ona paxıllıq edən, onu gözügötürməyənlər də vardı, amma onlar da təsdiq edirdi ki, bəli, bu kürən və codxasiyyət adamın əlləri qızıldır və hərgah diş həkimliyi də vergiylədisə, Allah bu vergini birinci elə Müseyibə vermişdi.

Müseyib Allaha inanan adam idi və sovet vaxtı düz on bir il – 1979-cu ildən 1990-cı ilə, yəni, camaat Kommunist partiyasından qaçmağa başladığı vaxta qədər – işlədiyi poliklinikanın – Bakının ən böyük stomatoloji poliklinikasının ilk partiya təşkilatının katibi oldu, amma o on bir ildə bir gün də olmadı ki, Müseyib anasındanqalma kiçik bir «Quran»ı pencəyinin döş cibində,– özü də sol tərəfdə – gəzdirməsin və əlbəttə, o zaman partiya iclaslarına yığışan partiyaçı stomatoloqlar və poliklinika işçiləri ağıllarına gətirməzdilər ki, iclası aparan partkomun, yəni, Müseyibin cibində «Quran» var, amma, kim bilir, bəlkə o iclas iştirakçılarının özlərinin də arasında eləsi, yaxud elələri var idi ki, o da (onlar da) cibində (ciblərində) «Quran» gəzdirirdi, bunu kim biləcəkdi? o adamdan və o adamın Allahından başqa heç kim və bir dəfə (onda Qorbaçov hakimiyyətə təzə gəlmişdi, amma «perestroyka» hələ başlamamışdı) partiya iclası ateizmin təbliğinə həsr olunmuşdu, məruzəçi də Müseyib idi və Müseyib məruzə etdikcə, dinin əleyhinə danışdıqca, Islamı xaçpərəstliyə, xaçpərəstliyi musəviliyə qatıb, hamısını ifşa etdikcə, Leninin «Din xalqlar üçün tiryəkdir»– kəlamını sitat gətirdikcə, tez-tez əlini pencəyinin sol yaxasına toxundururdu, ona elə gəlirdi ki, cibindəki o balaca «Quran» indicə cibindən düşüb, qaçıb gedəcək.

Hərdən Müseyibə elə gəlirdi ki, sağ tərəfindəki o ağrı da əslində elə o partiya iclasından sonra başlamışdı, amma belə deyildi, o ağrı son ayların, uzaqbaşı, bu axırıncı bir ilin işi idi və nəhayət ki, bu gün səhər tezdən «Mersedes»i işə salıb sağ tərəfindəki o ağrıya görə Bakı Diaqnostika Mərkəzinə gedəndə, elə ilk yadına düşən, gözünün qabağına gələn də o uzaq illərin həmin o partiya iclası oldu və Müseyib qeyri-şüuri əlini sol döşünə toxundurdu, amma iyul ayının o istisində, təbii ki, pencək əynində deyildi və ümumiyyətlə, o balaca «Quran» daha o pencəyin sol cibində deyildi, çünki daha «Quran»ı gizlətməyə ehtiyac yox idi, Sovet Ittifaqı dağılıb getmişdi və indi Müseyibin evində ən nəfis şəkildə nəşr olunmuş bir-birindən gözəl «Quran»lar var idi, amma bu gün səhər tezdən ki, Müseyib «Mersedes»inə minib Bakı Diaqnostika Mərkəzinə gedirdi, heç xoşuna gəlməyən, nəinki xoşuna gəlməyən, bir andaca əməlli-başlı ürəyini qısan bir hissiyyat birdən-birə onun bütün içini bürüdü: ona elə gəldi ki, o zaman, ateizmə həsr olunmuş o partiya iclasında onun pencəyinin sol tərəfində, cibində saxladığı, anasındanqalma o balaca «Quran», həqiqətən, cibindən düşüb qaçıb çıxıb, getmişdi...

...həmişəlik getmişdi...

* * *

Elə həmin isti iyul səhəri də Əliqulu elektrik qatarının o gözəl çuqqa-çuku içində yol gedirdi və Əliqulu o isti iyul səhəri yadından çıxarmaq istəyirdi və yadından çıxarırdı da ki, bu qatar (bu gözəl çuqqa-çuku!) onu üfunət dolu bir Zibilliyə aparır.

Əliqulunun həyatında bir həqiqət var idi və elə bil, illər keçdikcə, bu həqiqət özü ilə bir qəmginlik gətirirdi: bütün həyatı ərzində Əliqulu bu elektrik qatarından başqa heç bir qatara, heç bir təyyarəyə, heç bir gəmiyə minməmişdi, çünki ömründə Bakıdan kənara çıxmamışdı və bütün ömründə bircə gecə də olsun, rəhmətlik Nəcəfəlidən (yoxsa Əlinəcəfdən?) miras qalmış o ikiotaqlı, birmərtəbəli evdən kənarda yatmamışdı.

Abşeron çölləri ilə gedən bu elektrik qatarının beləcə çuqqa-çuku Əliqulunun həyatında hansısa səyahətdən xəbər verən yeganə bir...

nə idi?..

yeganə bir... nişanə idi və o da Əliqulunu Zibilliyə aparırdı və həmin isti iyul səhəri birdən-birə Əliquluya elə gəldi ki, o elektrik qatarı, o çuqqa-çuku, əslində, onu ömrün son məqamına, torpağa aparır və bu, düzdü, bir az qəmgin bir hissiyyat idi, amma burda təəccüblü də bir şey yox idi, çünki Əliqulunun həyatı da elə o üfunətli zibillik kimi bir şey idi.

Əliqulu bir-bir vaqonun pəncərəsindən ötüşən elektrik dirəklərinə baxa-baxa öz-özünə:

«– Olsun də!» – dedi.

* * *

Bakının «Sabunçu vağzalı»ndan çıxan elektrik qatarı ilə dörd dayanacaq getdikdən sonra, stansiyanın qarşısındakı şose yolu keçirsən və qumluqla, baxımsız adda-budda zeytun ağaclarının arasından ötüb günbatana tərəf gedirsən və birdən-birə dəniz sahilinin o gözəl havası dəyişməyə başlayır, get-gedə üfunət iyi aləmi bürüyür və kor da olsan, o üfunəti tuş tutub gəlib həmin Zibilliyə çıxacaqsan.

Zibil maşınları Bakının o əraziyə yaxın rayonlarından, qonşu qəsəbələrdən gətirdikləri zibili bura boşaldırdılar və sovet zamanı burada xüsusi briqadalar kağızı ayrı yığırdılar, dəmiri ayrı yığırdılar və sairə və bunların hamısını təkrar emala verirdilər, yerdə qalanı isə yandırılırdı, amma elə ki, Sovet Ittifaqı dağıldı, elə bil, bu Zibilliyin də sahibi öldü, buralar itin-pişiyin, milçəklərin ümidinə qaldı və ümumiyyətlə, Zibilliyin Sovet Ittifaqında olan möhtəşəmliyi get-gedə azalmağa başladı, maşınlar zibilləri vaxtında yığmırdılar, vaxtında gətirib bura boşaltmırdılar və daha dəmir-dümür də heç gedib zibil yeşiklərinə çatmırdı, müştərilər onları əvvəldən yığıb-yığışdırıb aparıb qaramalçılara satırdılar, kağız-kuğuz da tamam azalmışdı və kağız-kuğuzun əvəzinə külli miqdarda sellofan torbalar peyda olmuşdu və xüsusən Abşeronun məşhur küləkləri əsəndə o sellofan torbalar uçub ağacların qol-budağına, evlərin qapı-pəncərəsinə ilişib qalırdı.

Üstü sellofan torbalarla dolmuş qoca bir əncir ağacının yanından ötəndə Əliqulu fikirləşdi ki, dünya, deyəsən, doğrudan da, dəyişib, indi quşların əvəzinə ağaclara sellofan torbalar qonur.

* * *

Müseyibin əlləri yalnız məcazi mənada qızıl deyildi, bu əllər həm də həqiqi mənada qızıl istehsal edirdi, yəni, bu əllərin qabiliyyəti, bacarığı sayəsində Müseyib hələ Sovet Ittifaqı zamanı Bakının ən nüfuzlu gizli qızıl...

bunu necə deyək?..

gizli qızıl...

gizli qızıl mütəxəssislərindən (!) biri, əslində, elə birincisi idi və Bakının qarabazarında dövrə vuran Nikolay qızıl onluqlarının, imperialların və ümumiyyətlə, qızıl məmulatının çox böyük hissəsi onun o qızıl əllərindən keçib-gedirdi və aydın məsələdir ki, söhbət yalnız qızıl diş salmaqdan yox, gizli qızıl alverindən gedirdi, sonra elə ki, Sovet Ittifaqı birdən-birə tar-mar oldu, Müseyibin və onun uzun illər boyu əsl yaradıcılıq eşqi və hörümçək torunun səliqəsi ilə yaratdığı şəbəkənin gizli fəaliyyəti açıq-aşkar bir biznesə çevrildi.

Hər şey gözəl idi, hörmət də artırdı, var-dövlət də artırdı, oğlanlarının ikisi də nər kimi idi, nəvələrin sayı da artırdı, amma hər şey, elə bil, ləzzətini itirmişdi, o sovet dövründəki (ateizm vaxtı!) gizli həyatın sevincini indi həmin gözəl həyəcanla yaşamaq mümkün deyildi, nə üçün? – iş burasındaydı ki, bu sualın cavabını da vermək mümkün deyildi... Görünür, qadağanın (sovet qadağalarının!) öz şirinliyi olur və o zaman ki, hər şey açıq-aşkardır, nə istəyirsən, onu da edirsən, hər şey sadələşir və indi Müseyibin bir sükut içində oturub gözünü zillədiyi II Yekaterinanın qoz ağacından gümüşlə işlənmiş o kiçik kürsüsü də, elə bil ki, tamam adi bir şey idi...

Müseyib antikvar vurğunu idi və onun dənizə baxan bu binanın səkkizinci mərtəbəsindəki beşotaqlı mənzili, əslində, antikvar muzey kimi bir yer idi və rəhmətlik arvadı – o da qəribə adamlardan biri idi – hərdən deyirdi ki, qonaq gələndə, vallah, adam utanır... Misal üçün, bir yeniyetmə təzə paltarını geyib camaat arasına çıxanda necə şaşırırdı, utanırdısa, arvadı da, rəhmətlik, görünür, o cürə utanmağı deyirdi...

II Yekaterinanın bu kətilini Sovet Ittifaqı dağılandan sonra, Leninqradda (indi təzədən Sankt-Peterburq olub) gizli və gərgin sövdələşmədən sonra məşhur bir demokratdan almışdı, o demokrat isə, bunu hansı muzeydən, necə əldə etmişdi?– özü bilərdi və Yekaterinanın bu kətili Müseyib üçün, həqiqətən də, bir sevinc və fəxarət mənbəyi idi, amma indi, bu bürkülü iyul axşamı o da beləcə adiləşmişdi.

Indicə oğlanları gələcəkdi və şübhəsiz ki, yenə konyak açılacaqdı, soyuducudakı delikatesləri özləri çıxarıb mizin üstünə düzəcəkdilər və üç kişi oturub dünyanın gözəl işlərindən danışacaqdılar, gözəl xatirələr yada düşəcəkdi, sonra da oğlanları gedəcəkdilər. Arvadı öləndən sonra, Müseyib bu beş otaqda tək qalmışdı, qoca bir yəhudi qadın xidmətçisi var idi, axşam saat altıdan sonra o da gedirdi və o zaman bu əntiq-füruş şeylər tamam-kamal adiləşirdi, sadələşirdi və o adiləşmə, sadələşmə özü ilə bir qüssə gətirirdi...

Oğlanlarının hərəsinin öz evi var idi, amma ikisinin də ürəyi burada, atasının yanında idi və Müseyibin sağ tərəfindəki bu ağrı başlayandan sonra, ikisi də, az qala, dava edirdilər ki, həkimə getmək lazımdır. Müseyibin də ki, özü həkim idi, amma həkimə getməklə qəti arası yox idi və həyatında heç vaxt həkimə getməmişdi.

Bir tərəfdən o ağrı dilxor edirdi, o biri tərəfdən də oğlanları məcbur edirdi və Müseyib şeytana lənət deyib, Diaqnostika Mərkəzində həkimlərlə danışıb bu gün səhər ora müayinəyə getdi. Cib telefonunu söndürmüşdü və Müseyib evə gələndə hələ qapını açmamış, liftdən çıxanda eşitdi ki, telefonun səsi aləmi dağıdır.

Böyük oğlu idi:

– Əşşi, telefonu da söndürmüsən, səhərdən birtəhər olmuşam! Nə oldu?

– Nə olmalıydı ki?

– Baxdılar? Nə dedilər?

– Dedilər ki, hər şey əladı!

– Yaxşı baxdılar? UZI-dən keçdin?

– UZI-dən də keçdim, analizlərin də hamısını verdim!
– Dedilər əladı?
– Hə!
– Bir şey yoxdu?
– Hə də, dedilər heç nə yoxdu. Yüngül soyuqdəymədi, keçib gedəcək. Tərtəmizdi, dedilər, hər şey!– Müseyib güldü.– Nə olacaqdı e, mən də bilirdim ki, boş şeydi də!..
– Axşam gəlirəm!
Və Müseyib, elə bil, gözüylə gördü ki, oğlunun gözləri sevincdən necə doldu və oğlunun belə bir münasibətindən elə Müseyibin özünün də gözləri doldu.
Telefonun dəstəyini yerinə qoymağa macal tapmamış, telefon təzədən zəng çaldı.
Kiçik oğlu idi.
Və eyni söhbət – söz-sözə!– onunla oldu və onun da o nigarançılığının ürəyindən çıxmasını Müseyib, elə bil, gözü ilə gördü.
Ikisi də polisdə işləyirdi. Böyüyü mayor idi, amma polkovnik vəzifəsində işləyirdi və lap bu yaxın günlərdə həmin rütbəni də növbədənkənar alacaqdı – Müseyib bu məsələni artıq həll etmişdi.
Kiçiyi hələ kapitan idi.

* * *

Hərdən Zibillikdə (bəzən elə o hündürmərtəbəli binaların həyətlərində də) Əliqulunun rəqibləri peyda olurdu və bu adamlar peşəkar şüşəyığanlar deyildi, çünki peşəkar şüşəyığanların meşə heyvanları kimi, hərəsinin öz ərazisi olurdu və onlar çalışırdı ki, bir-birinin ərazisinə girməsin, bir-birinin işinə qarışmasın; o qəfil peyda olan rəqiblər alkoqoliklər idi, tapdıqları şüşələri tələsik dükana aparıb əvəzində pivə, bəxtləri gətirsəydi, yəni, şüşə çox olsaydı, şirin çaxır alırdılar və bu alkoqoliklər tək olanda dünyanın ən köməksiz və cəsarətsiz yazıq bəndələri idi, amma elə ki, iki nəfər, üç nəfər oldular, əməlli-başlı qorxulu olurdular, boş şüşə üstündə lap adam da öldürərdilər və o isti iyul səhəri elektrik qatarından düşüb adamın təpəsini deşən gün şüalarının altında Zibilliyə tərəf gedən Əliqulu uzaqdan orada iki nəfərin qaraltısını görəndə qanı qaraldı və bir az da yaxınlaşanda məlum oldu ki, bu iki nəfər iki alkoqolik rus qadınıdır, hərəsi əlinə bir taxta alıb Zibilliyi eşələyir.
O alkoqolik rus qadınlarından biri başını qaldırıb qapaqları şişmiş rəngsiz gözlərini günün şüaları altında qıya-qıya bu cılız kişiyə – Əliquluya baxıb, elə bil, çoxdan onu gözləyirmiş kimi:
– A-a-a!..– dedi.– Prişol da!.. Oqraş!.. – Sonra da bir yağlı rus ana söyüşü söydü.
Ikinci qadın da Əliquluya baxdı, amma, deyəsən, onun birinci qadın qədər enerjisi yox idi, quruyub çatdamış və qaralmış dodaqlarının kənarları ağappaq köpüklənmişdi və bu qadın təkcə elə:
– Svoloç!– deməklə kifayətləndi.

Əlbəttə, bu qadınlar üçün bu saat bu Zibillikdə beşcə dənə boş şüşə tapıb aparıb əvəzinə bir dənə Xırdalan pivəsi almaq və adama bir stəkan o sərin pivədən içmək bu səfeh dünyanın bütün məna və məzmununa dəyərdi və həqiqət bundan ibarət idi ki, Əliqulunun, ayaq üstə güclə dayanan və Abşeronda iyul gününün bu cırhacırında pivəsizlikdən alışıb-yanan o qadınabənzər məxluqlara cani-dildən yazığı gəlirdi və hərgah o şüşələri Əliqulu eşələyib Zibillikdən çıxarsaydı, vallah, bəlkə də, könüllü olaraq bu bədbəxtlərə verərdi.

Amma o iki rus qadınının, əlbəttə, Əliqulunun bu gözəl fikirlərindən xəbəri yox idi və Əliqulu bu dəm onlar üçün şikarlarına şərik çıxa biləcək bir rəqib idi və onlardan nə desən, gözləmək olardı, buna görə də Əliqulu o iki qadına tərəf getməyib, Zibilliyin arxa tərəfinə keçdi və kim bilir, bəlkə də, elə Allah qəsdən o iki alkoqolik rus qadınını ora gətirmişdi ki, Əliqulu Zibilliyin arxa tərəfinə keçsin?

Əliqulu Zibilliyin arxa tərəfinə keçdi və elə o an ki, çubuğunu Zibilliyə tərəf uzatdı, elə ondaca o sarı dəmir işıltısını gördü: o yerə ki, indicə çubuğu toxunacaqdı, düz elə həmin yerdə o sarı dəmir işıldayırdı.

Indi cürbəcür içki şüşələrinin cürbəcür də qapağı olurdu, o cümlədən, sarı dəmirdən qapaqlar olurdu və onlar da günün şüası altında hərdən beləcə parıldayırdılar, amma bu dəfə Əliqulu elə o işıltını görən kimi hiss etdi ki, bu, şüşə qapağının işıltısı deyil və çubuğu heç zibilliyə toxundurmadan kənara atdı, bir addım irəli gedib o sarı dəmir parçasını götürdü.

Əvvəllər də zibil yeşiklərində, lap elə bu Zibillikdə olurdu ki, nəsə tapırdı: xırda pullar, qızıl suyuna çəkilmiş üzük, sırğa və sairə bu kimi şeylər, hətta sovetin axır vaxtlarında bir dəfə bir göy əllilik tapmışdı, ən çox dolaşığa salan da lotereya bileti olurdu, cırmayıb atırdılar zibil yeşiyinə və bilmirdin ki, bunları yoxlayıb atıblar, ya səhvən gəlib bura düşüb, ona görə də hər dəfə zibil yeşiklərindən bütöv lotereya biletləri tapanda, Əliqulu «Araz» kinoteatrının yanındakı Əmanət Kassasının giriş qapısına gedirdi və həmişə orada asılan uduş cədvəllərində o lotereyaları yoxlayırdı, amma hələ bu çağacan heç nə udmamışdı, o lotereya biletlərini ya artıq yoxlayıb tullamışdılar, ya da sahiblərinin bəxtinə bir şey düşməmişdi.

Amma bu dəfə məsələ tamam başqa idi: Əliqulunun ovcunda...

neçə idi?

bir... iki... üç...

on altı...

düz on altı qızıl dişdən ibarət bir karonka dayanmışdı.

Əliqulu ovcunu yumdu, təzədən açdı və o on altı dişdən ibarət karonka eləcə ovcunun içində idi.

Əvvəlcə Əliquluya elə gəldi ki, nəsə oğurluq kimi bir iş görür, sonra o hiss keçdi, çünki Bakı da daxil olmaqla, bu boyda Abşeronda bu dişlərin sahibini necə tapmaq olardı?– bu mümkünsüz bir iş idi, sonra o hiss bir nigarançılıqla əvəz olundu, görəsən, kim imiş bu dişlərin sahibi? bəlkə onu öldürüb bu dişləri bura atıblar? bəlkə bu dişlərin başında nəsə bir qəzavü-qədər var? sonra o nigarançılığın yerini bir təşviş hissi tutdu...

... amma nahaq...

... bu qızıl dişlərin sahibi kasıb adam deyildi – bu, bir... ... ikincisi, şübhəsiz ki, bu adam yaşlı adam idi, çünki indi heç kim ağzına bu qədər qızıl diş qoymurdu...

... üçüncüsü isə, buna – qismət deyərdilər, bəxt deyərdilər, nə bilim, naxış deyərdilər və bu qismətdən, bu bəxtdən, naxışdan imtina etmək, əlbəttə, düzgün olmazdı.

Əliqulu ayaq barmaqlarının ucuna qalxıb Zibilliyin o biri üzünə tərəf boylandı, elə bil ki, o iki rus qadını indicə gəlib haray-həşirlə bu qisməti onun əlindən alacaqdılar, amma zibil təpəsi elə hündür idi ki, o iki rus qadınını buradan görmək mümkün deyildi və ümumiyyətlə, Əliqulunun onlarla nə işi var idi?

Tez buradan çıxıb getmək lazım idi.

Əliqulu o qızıl karonkanı pencəyinin yan cibinə qoydu, daha doğrusu, o qızıl karonkanı ovucunda büküb əlini cibinə qoydu və bir müddət əlini eləcə cibində saxladı, elə bil, o qisməti cibinə qoyub, əlini cibindən çıxarsaydı, karonka cibindən düşüb itəcəkdi.

Əliqulunun özünün ağzında cəmi yeddi diş qalmışdı, arvadının da ağzında – beş idi, ya altıydı,– diş var idi və Əliqulu özünün də, arvadının dişlərini düzəltdirmək fikrində deyildi, çünki bir dəfə qonşuları klarnetçalan Fətulla məhəllədə, qoşa tut ağacının altında oturub nərd oynayanda Əliqulu da oradaydı və Fətulla təzə saldırdığı qızıl dişini göstərib: «– Alə, bilirsüz neçəyə salıblar bunu? Iki yüz otuz min manata! Alə, əlli dollar eləyir e!.. Neyniyim, muzukantam də, gərək mırığ olmayım! Ona görə, kəsdim uşaqların boğazından, dedim, davay e!..»– deyəndə o «əlli dollar» sözü Əliquluya elə təsir etmişdi ki, ondan sonra özünün də, arvadının da dişini heç yadına da salmırdı və arvadı da qapının ağzındakı kətildə oturub qovrulmuş tum sata-sata, o tumdan özü çırtlaya bilmirdi, hərdən tum dənəsinin qabığını dırnaqları ilə təmizləyib atırdı ağzına və damaqları ilə əzməyə çalışıb udurdu.

Onu əlliyə vuranda eləyir beş yüz. Beş yüz!.. Altını da əlliyə vuranda eləyir nə qədər? Üç yüz! Üç yüz, o da beş yüz, elədi səkkiz yüz. Səkkiz yüz! Səkkiz yüz dollar!

Əliqulu cibində saxladığı o on altı qızıldişli karonkanı ovucunda sıxdı və ovucunda heç vaxt duymadığı bir hərarət hiss etdi, o hiss, elə bil, günün o cırhacırında yüngülcə bir sərin meh olub əsdi, elə bil, uzaqları da yaxınlaşdırdı və birdən-birə heç vaxt görmədiyi Svyatoslavın sifəti gəlib durdu Əliqulunun gözlərinin qabağında və bu uşaq sifətinin cizgiləri, düzdü, tam dəqiq deyildi, amma saçları sarışın və gözləri də gömgöy idi.

Əliqulu cibində ovcunu bir də bərkdən sıxdı, hətta elə sıxdı ki, qızıl dişlər şüşə yığmaqdan, torba daşımaqdan cadar-cadar olmuş ovcunu incitdi, elə bil, o dişlər Əliqulunun ovcunu dişlədi və bu hissiyyat ilə, yəni, o dişlərin onun ovcunu incitməsi (dişləməsi!) ilə o səkkiz yüz dollar möcüzəsi arasında elə bir uyuşmazlıq var idi və bu uyuşmazlıqla Svyatoslavın o gözəl sarışın saçları və göy gözləri o dərəcədə bir-biri ilə tutuşmurdu ki, Əliqulu az qala cismani olaraq başa düşdü: bu məsələni tez qurtarmaq lazımdır.

Amma necə?

Və bu vaxt Qızıl Müseyib onun yadına düşdü.

Qızıl Müseyib – əlbəttə, o zaman «Qızıl Müseyib» deyildi, adicə Müseyib idi, uşaqlar ona Müsü deyirdilər – Əliqulu ilə bir məhəllədə böyümüşdü, on dörd-on beş yaşı olanda köçüb getdilər və Əliqulu onu bir də otuz beş-qırx ildən sonra təsadüfən gördü: boş şüşə sorağı ilə Bakının mərkəzindəki gözəl və böyük bir binanın mənzillərini gəzəndə, o mənzillərdən birinin qapısını Müsü açdı və Əliqulu onu görən kimi tanıdı, amma Əliqulu tanışlıq versə də, öz evlərinin yerini – qoşa tut ağacının qabağını – nişan versə də, o, Əliqulunu yaxşı yadına sala bilmədi, buna baxmayaraq, evində nə qədər boş şüşə var idi, hamısını yığıb gətirib Əliquluya müftə verdi. Sonralar Əliqulu o binanın həyətinə gəlib-getdikcə bina sakinlərinin Müseyibə necə hörmət etdiklərini, onunla hesablaşdıqlarını görmüşdü (misal üçün, Müseyib keçəndə həyətdəki skamyada oturanlar varıydısa, ayağa qalxıb onunla salamlaşırdılar, ya səhər-səhər Müseyib maşınını işə salanda həyətdəki uşaqlar tez qaçıb həyətin dəmir darvazanı açırdılar və s.), Müseyibin diş həkimi və «Qızıl Müseyib» olduğunu bilmişdi və bu müddət ərzində də Müseyib hərdənbir həyətdə Əliqulunu görəndə, özü: «Gəl, qalxaq evə, yaxşı boş şüşələr yığmışam səninçün»– demişdi və yenə də boş şüşələri ona müftə vermişdi.

* * *

Əliqulu heç vaxt liftə minmirdi, nə idisə, liftə qəti etibarı yox idi, hündür binaları da mərtəbə-mərtəbə piyada qalxırdı və həmin iyul axşamı «Sabunçu vağzalı»nda elektrik qatarından düşüb bu tərəfə üz tutanda da, indi də Müseyibin yaşadığı bu binanın mərtəbələrini qalxdıqca, ürəyində bir nigarançılıq var idi: Əliqulu yaxşı bilirdi ki, yalan danışmağı bacarmır, heç əslinə qalsa, onun həyatında yalan danışmaq üçün bir səbəb də olmamışdı, amma bu on altı qızıl dişli karonkanı Müsüyə göstərib nə deməliydi? hardandı bu? kim verib? arvadımındı? özümündü? bəs kimindi? və Allahın bu gözəl qismətini ki, həyatında ilk dəfə Əliqulunun bəxtinə düşmüşdü, nə adla Müsüyə satmalıydı?

Və Əliqulu səkkizinci mərbəyə çatıb Müseyibin qoz ağacından tünd qəhvəyi rəngli qapısı ağzında dayananda da bu nigarançılıq içində bir müddət nəfəsini dərdi, hətta elə bir an oldu ki, Əliqulu düşüb buradan qaçmaq da istədi, amma, bu Allah qismətinin müqabilində, əlbəttə, belə iş görmək olmazdı və Əliqulu elə o nigarançılıq içində də özünü gözgörəti bir zor ilə məcbur edib boş torbanı tutmuş sol əlini qaldırdı və o qoz ağacından tünd qəhvəyi rəngli qapının zəngini basdı.

O zəng səsindən sonra, həmin o hissiyyat təzədən qayıtdı və bu dəfə Əliqulu özünə güc gələ bilməyib elə, doğrudan da, qaçmaq istədi, amma Müseyibin kiçik oğlu indicə atasının sağlığına içdiyi konyakın boş qədəhini mizin üstünə qoydu və o gözəl mizin arxasından qalxıb arakəsməyə çıxdı, tünd qəhvəyi rəngli çöl qapısını açdı və sağ əlini boz rəngli köhnə pencəyinin cibinə basmış, sol əlində eləcə də bir boz rəngdə boş torba tutmuş bu adama – Əliquluya baxdı.

– Nə istəyirsən?

– Salam-əleyküm!..

– Nə istəyirsən?

– Müsünü...

– Nə?

– Müsünü istəyirəm...

– Müsü kimdi?

– Müseyib... Müseyib həkimi istəyirəm...

Müseyib də o gözəl mizin arxasından qalxıb arakəsməyə çıxdı:

– Kimdi elə?– Və qapının ağzında dayanan Əliqulunu gördü, gülümsəyib başını buladı.– Əşşi, üç gün bundan qabaq gəlməmişdin? Butulkaları verdim, apardın də!.. Elə bilirsən bura butulka zavodudu?

Müseyibin ardınca böyük oğlu da arakəsməyə çıxdı.

Əliqulu:

– Yox...– dedi, sonra da nəsə mızıldadı, amma heç kim onun nə mızıldadığını başa düşmədi.

Kiçik oğul:

– Nə?– soruşdu.

Bu dəfə Əliqulu qan-tər içində sol əlini boz pencəyinin cibindən çıxartdı və udquna-udquna:

– Başqa işim var...– dedi.

Müseyib qapının ağzına yaxınlaşdı.

– Nə işin?

Əliqulu ovcunu açmaq istədi, amma barmaqları sözünə baxmırdı, elə bil ki, on altı qızıldişli karonkadan heç cürə ayrılmaq istəmirdi. Axır ki, Əliqulu güclə əlini açdı və Müseyibin göy gözləri elə həmin andaca o karonkanı aldı və ən əsası isə, Müseyib elə həmin anda da gülümsəyib:

– Zibillikdən tapmısan?– soruşdu və karonkanı götürüb arakəsmənin ortasındakı çılçırağın altına getdi və çilçırağın işığında karonkaya diqqətlə baxandan sonra kiçik oğluna: – Bir az pul ver, onu yola sal, getsin.– dedi və otağa keçdi.

Kiçik oğul əlini cibinə saldı və cibindən nə qədər pul çıxartdısa, bir göy əlliminlik götürüb Əliquluya verdi:

– Ala!– Sonra da tünd qəhvəyi rəngli qapını düz Əliqulunun burnunun ucunda bağladı.

Əliqulu əlində tutduğu o pula baxdı və bir müddət beləcə dayandı və bu vaxt qəribə bir iş oldu: düyməsini səhv basmışdılar, ya nə olmuşdusa, birdən-birə içi bomboş liftin qapısı həmin səkkizinci mərtəbədə Əliqulunun yanında səs-küylə taybatay açıldı və Əliqulu, bəlkə də, qaçıb o liftə minməmək üçün, heç özü də bilmədi ki, tünd qəhvəyi rəngli qapının zəngini təzədən necə basdı.

Bu dəfə qapını böyük oğul açdı və elə həmin anda da liftin qapısı eləcə səs-küylə bağlandı. Böyük oğul, az qala, ikimetrlik boyunun hündürlüyündən balaca Əliquluya baxdı, sonra qapısı örtülmüş liftə tərəf baxdı, sonra yenə balaca Əliquluya baxdı və:

– Indi nə istəyirsən?– soruşdu.

Əliqulu yenə də nəsə mızıldadı və bu dəfə də böyük oğul onun nə mızıldadığını başa düşmədi, eynilə kiçik qardaşı kimi əlini cibinə saldı, yenə nə qədər pul çıxartdısa, arasından üç dənə on, minlik seçdi və pulları Əliquluya verdi. Bu vaxt Müseyib də təzədən arakəsməyə çıxdı, Əliqulunu görüb bu dəfə başını açıq-aşkar bir narazılıqla buladı:

– Yenə budu?– dedi. – Qoy dayansın.

Müseyib otağa keçdi, indicə oğlanları ilə birlikdə içdikləri konyakın boş şüşəsini götürdü və arakəsməyə qayıtdı, şüşəni böyük oğluna tərəf uzadıb:

– Al, bunu da ver ona.– dedi və təzədən otağa keçdi.

Böyük oğul o boş şüşəni Müseyibdən aldı və qapıya yaxınlaşdı. Əliquluya elə gəldi ki, o nəhəng oğlan bu saat o boş şüşəni onun başına çırpacaq, hətta o məqamı gözləyə-gözləyə Əliqulu gözlərini də yumdu, amma belə olmadı, nəhəng oğlan şüşəni Əliqulunun qoltuğuna dürtdü, sonra barmağını da uzadıb, az qala, bu balaca adamın gözünün içinə soxa-soxa:

– Sən öləsən,– dedi,– bir də buralara gəlib kişini narahat-zad eləsən, sənin gözlərüvü çıxardacam!

Sonra böyük oğul hirslə qapını çırpdı və bu dəfə o tünd qəhvəyi qapı, həqiqətən də, Əliqulunun burnuna dəydi.

* * *

Allahın qisməti iki cür olur.

Varlının bir qisməti var, kasıbın başqa qisməti.

Və Allahın işinə qarışmaq olmaz, naşükür olmaq da lazım deyil.

Beş «şirvan», bu da üç «şirvan», elədi səkkiz «şirvan».

Səkkiz «şirvan»dan ötrü neçə gün zibil yeşiklərini axtarmalıydın?

Hələ bir tərəfdən də o bahalı boş şüşə...

* * *

Hara uçdu o ulduz?

Bu gecə də dünənki gecənin eyni idi, göyün üzü ulduzla dolu idi.

Dünənki kimi və əlli il bundan əvvəlki o gecə kimi.

Gecə yarını keçmişdi və indi Bakı sakinləri bürkünün fərqində deyildi, Bakı yatmışdı.

Müseyib yenə taybatay açdığı o geniş pəncərənin qarşısında dayanıb göydəki o ulduzlara baxırdı.

O ulduz əlli il bundan əvvəl axıb getmişdi.

Bu əlli ildə nələr olmuşdu...

Müseyibin ürəyi birdən-birə bir siqaret istədi, amma siqaret yox idi, Müseyib ki, üç il bundan əvvəl oğlanlarının tələbinə davam gətirmədi və siqareti tərgitdi (gərək heç tərgitməyəydi!), onlar bu evdə bircə dənə də siqaret qoymadılar, hamısını yığışdırıb aparıb tulladılar, ya kiməsə bağışladılar və Müseyib də daha siqaretsizliyə öyrəndi, üç ildən artıq idi ki, heç yadına da düşmürdü.

Amma indi birdən-birə ürəyi siqaret istədi.

Məsələ burasında idi ki, Müseyib oğlanlarını aldatmışdı.

Səhər tezdən Diaqnostika Mərkəzində tanış həkimlərlə zarafatlaşıb müayinəyə başlayandan bir az sonra həkimlərin sifətində zarafatdan əsər-əlamət qalmadı və fəhmi çox həssas olan Müseyib bunu o saat hiss etdi. Müayinə qurtarandan sonra, həkimlərin dili topuq vurmağa başladı. «Mənim işlərim necədi? «Gərək... məsləhətləşək...» «Kimlə məsləhətləşəcəksiz?» «Görək də...» «Kimlə?..» «Gərək götür-qoy eləyək...» «Kimlə?» «Fərəcovla...»

Fərəcov Bakının ən məşhur onkoloqu idi.

Müseyib Diaqnostika Mərkəzindən çıxıb «Mersedes»i birbaşa Onkologiya Institutuna sürdü və köhnə tanışı Fərəcovun kabinetinə girdi, özünü müayinə elətdirdi. «Hə, köhnə dost, de görək nə gəzdiririk içimizdə?» «Sən get, dincəl, mən də bir əməlli-başlı götür-qoy eləyim, sabah söhbət edərik.» «Mənə diqqətlə qulaq as, köhnə dost! Belə başa düşürəm ki, işlərim yaxşı deyil. Əgər, sən bu fikirdəsən ki, indi mən gedəcəyəm, sən də oğlanlarımı çağırıb özümə demək istəmədiklərini onlara deyəcəksən,– elə şey yoxdu! Nə varsa, elə indi özümə deyəcəksən!» «Get istirahət elə, sabah danışarıq.» «Xərçəngdi?» Və Müseyib göy gözlərini Fərəcovun gözlərinin lap dərininə zillədi. Fərəcov bu baxışlara açıq-aşkar dözə bilmədi və guya, ciblərində nəsə axtarmağa başladı. «Səninləyəm, xərçəngdi?» Fərəcov güclə: «– Deyəsən...»– dedi. «Vaxtı keçib?» «Gec gəlmisən...» Fərəcovun kabinetində bir anlıq sükut çökdü, sonra Müseyib kreslodan qalxıb qapıya tərəf addımladı. «Mən getdim.» «Analizlər...» Müseyib Fərəcovun daha nə dediyini eşitmədi və qapıdan çıxdı....

... hara uçdu o ulduz?

... harasa, naməlum, tanınmaz-bilinməz bir məkana...

* * *

Kimsə səhər evdən çıxıb balıq tutmağa gedir və burada nə əcaib bir şey var?

Kimsə də evdən çıxıb şüşə yığmağa gedir və bu da...

bu da...

bu da elə qaydasında olan bir şeydi...

* * *

Bu gecə də dünənki gecənin eyni idi, göyün üzü ulduzla dolu idi, bir dırnaq ucu da desən, bulud parçası yox idi və hava da tamam dayanmışdı, elə bil ki, ortada – ötən gecə ilə bu gecə arasında – bu boyda bir gün olmamışdı və bir də ki, bu ulduzlar ki, bu qədər uzaqlardadır, bu ulduzlar ki, bu qədər saysız-hesabsızdır, yəni, bu dünya ki, bu qədər sirri-xudadı, bu sirri-xudanın, bu uzaqlığın və bu çoxluğun müqabilində dünənki gecə ilə bu gecə arasında fərq var idi? yox idi?– bu, tamam mənasız bir şey idi.

Neçə illər idi Əliqulunun ürəyində heç kimə demədiyi bir istək yaşayırdı, xüsusən də yay vaxtları, damda yatanda, xüsusən də hava bu cür dayanıb duranda, göyün üzü də beləcə tərtəmiz, beləcə aylı-ulduzlu olanda o istək birdən-birə tərpənib canlanırdı, gözəl bir arzuya çevrilirdi, elə bil ki, susuzluqdan saralıb-solmuş bir şitil idi,– nə bilim, pamidor şitili, ya bibər, ya da bir başqa şey,– birdən su verirdin ona, gözgörəsi özünə gəlirdi, yarpaqları qalxırdı, boyu dikəlirdi, yaşılı qayıdırdı.

Indi də o istək beləcə birdən-birə Əliqulunun içindən baş qaldırdı.

Əliqulu eşitmişdi ki, guya, başqa ulduzlardan Yer kürəsinə əcaib-qəraib məxluqlar uçub gəlir, «uçan boşqab» deyirlər onların minib gəldiyi o təyyarə kimi şeylərə və onlar, guya, yerdən adamları oğurlayıb özləri ilə aparırlar, öyrənirlər ki, yer kürəsindəki insanlar necə məxluqlardı və Əliqulu çox istəyirdi günlərin bir gözəl günündə o əcaib-qəraib məxluqlar gəlib onu da eləcə oğurlayıb aparsınlar, aparsınlar o uzaq-uzaq yerlərə, həmişəlik aparsınlar, bir də heç vaxt kürreyi-ərzə qayıtmasın.

Yəqin ki, o ulduzlar dünyasının içi indi burdan göründüyü kimi gözəl bir şey deyildi, çünki uzaqdan gözəl görünən bir şey yaxına gələndə, görürsən ki, içi zibil yeşiklərinin içi kimi bir şeydi, amma Əliqulu buna hazır idi, əsas o idi ki, ora tamam başqa bir dünya idi və Əliqulu da o başqa dünyanın sakini olacaqdı və bir də heç zaman Yer kürəsinə qayıtmayacaqdı.

Əliqulunun bütün həyatında – evlənənə qədər də, evlənəndən sonra da, ancaq bir qadın olmuşdu, o da arvadı idi və arvadı indi belinə yuyulmaqdan adda-budda süzülmüş ağ mələfə salıb və böyrü üstə nazik döşəyin üstündə uzanıb o on altı qızıl dişli karonka macərasından xəbərsiz yavaşdan xoruldaya-xoruldaya yatmışdı və hərgah, doğrudan da, bir möcüzə baş versəydi, yəni, o əcaib-qəraib məxluqlar Əliqulunu götürüb özləriylə o ulduzlar dünyasına aparsaydı, bəs, bu yazıq arvadın işi necə olacaqdı?

Onda bu yazıq arvadın gedib məsçidin qapısında oturub dilənçilik eləməkdən savayı bir çarəsi qalmayacaqdı.

Yox, lazım deyildi o ulduzlar dünyası, bu gözəl arzunu ürəyindən çıxarıb atmaq nə qədər kədərli bir şeydisə də, belə olmalı idi, çünki kimin alnında yazılmışdısa, o da o ulduzlar dünyasında yaşayırdı, Əliqulunun isə alnında yazılmışdı ki, bu Yer kürəsində yaşasın, burda ölüb, burda da izi-sorağı itsin, Yer kürəsinin torpağında çürüyüb qalıqları milyon-milyon insanın qalıqlarına qarışsın.

* * *

Dünyanın zibil yeşikləri üfunət qoxumayaydı, onlardan ətir iyi gələydi, onda nə olardı?

Onda başqa dünya olardı.

* * *

Bir nəfərin bütün içi xərçəng yarasıydı, metastaz bütün sümüklərinəcən işləmişdi və həkimlərin verdiyi möhlət barmaqla sayılası günlər idi.

O adamın qarabasma, mürgü və ayıqlıq arasındakı şüuruna birdən-birə başı qarlı böyük bir dağın surəti gəlib qondu və onun qarabasma, mürgü və ayıqlıq arasında çapalayan, tamam qaranəfəs olan, bir ocaq istisindəymiş kimi yanan şüuru o dağdan, elə bil ki, bir sərinlik götürdü, o sərinlik bütün bədənindən keçdi, hətta artıq hiss etmədiyi ayaqları da, elə bil ki, o tərtəmiz dağ sərinliyindən bir az üşüdü və qəribə bir hadisə baş verdi: bədənindən keçən o sərinlik, gücdən düşmüş ayaqlarının o xəfif üşüntüsü onun şüurundakı o qarabasmanı qovmağa, o mürgünü dağıtmağa başladı, elə bil, özü ilə bir aydınlıq, bir yüngüllük gətirdi və o adam neçə gündə ilk dəfə ağzını açıb söz dedi: «– Məni dağa aparın...»

Həyatının son istəyi kimi, o adamın dediklərinə əməl etdilər, onu böyük bir dağa apardılar və dağın ətəklərinəcən nə qədər yol varıydısa, o qədər də getdilər və o adamın şüuru, elə bil, kiçik bir quş oldu, qanad açıb o dağın ətəklərində süzdü, sıldırım yarğanlarının üstündən ötdü, o dağın qarşısında qıpqırmızı günəşin çıxmasını gördü, o günəşin göyə qalxmasını, əyilməsini və sabah yenidən doğmaq üçün dağın arxasında batmasını gördü, dağın qarlı başı buludları yarıb keçmişdi və o balaca quşu buludlardan o tərəfə çağırırdı, o yerlərə ki, orada saflıqdan başqa bir şey yox idi və o xəstə son aylarda ilk dəfə ayağa durdu, addım-addım o dağa qalxmağa başladı, yaxınları, əzizləri əvvəlcə onun əlindən, qolundan tuturdular, sonra xəstənin addımları bərkidi, sonra yaxınları, əzizləri onunla ayaqlaşa bilmədi və o xəstə təkbaşına qalxa-qalxa buludlardan o tərəfə keçdi, buludlardan o tərəfdəki o saflıq içində düz zirvəyə qədər qalxdı və geri qayıdanda yaxınları, əzizləri xəstə əvəzinə, sağlam, gümrah bir kişi gördü.

Hamı bu sağalmanı möcüzə hesab etdi.

Amma burada möcüzə yox idi.

Sadəcə olaraq, o adamın ürəyindəki saflıqla dağın o saflığı üst-üstə düşmüşdü.

Və bu əhvalat keçmiş zamanlarda və uzaq diyarlarda baş vermişdi...

*21 avqust 2001.*
*Zuğulba.*

## «SARI GƏLIN»

... sonra bir şıdırğı yağış yağdı və birdən-birə bu dağların sal daşları, yamyaşıl döşləri və adda-budda o döşlərdə bitmiş ağacların eləcə yamyaşıl çətirləri, kolların yarpaqları, dibində ağappaq bir köpüklə köpüklənə-köpüklənə çay axan yarğanın üstü ilə uzanıb gedən sıldırım qaya parçalarını tozdan, torpaqdan yuyub tərtəmiz etdi və tərtəmiz bir parıltı ilə də işım-işım işıldatdı və bu dəm bu dağlar, bu yaşıllıq, bu sal daşlar, yarğan boyu uzanan o sıldırım qayalıq dünyanın genişliyindən, əvvəlsizliyindən və axırsızlığından xəbər verdi...

... sonra bütün bu genişliyi, əvvəlsizliyi və axırsızlığı bir səda bürüdü və o səda altında, elə bil ki, o yarğanın dibi ilə köpüklənə-köpüklənə axan o çayın, o dağların, o yamyaşıl döşlərin özü o sədaya söz söyləməyə başladı:

Saçın ucun hörməzlər,
Səni mənə verməzlər,
Nə ola bir gün görəm,
Nazlı yarın, ah, üzünü...
Neynim aman, aman,
Neynim aman, aman,
Sarı gəlin...

... sonra o şıdırğı yağış kəsəcəkdi, sonra axşam düşəcəkdi, sonra da bütün bu yerlərə bir qaranlıq çökəcəkdi, amma o səda da, o mahnı da yenə bu yerlərlə birlikdə olacaqdı:

Bu dərənin uzunu,
Çoban, qaytar quzunu...
Nə ola bir gün görəm,
Nazlı yarın üzünü...
Neynim aman, aman,
Neynim aman, aman,
Sarı gəlin...

* * *

«Payız yağışı» kababxanasının görkəmində adından savayı yaxşı bir şey yox idi. Sovet Ittifaqı zamanı Bakının 3-cü mikrorayonunda tikilmiş səkkizmərtəbəli yaşayış binasının həyətinin aşağı başında hansı müəssisəninsə balaca bir avtomobil təmiri emalatxanası var idi, amma elə ki, Sovet Ittifaqı dağıldı, kimlərsə bu emalatxananı özəlləşdirdilər, sonra da oranı kababxana elədilər.

Düzdü, deyilənə görə bu kababxanada yaxşı kabab bişirirdilər, amma o səkkizmərtəbədə yaşayan adamlar ocaq tüstüsündən, daimi kabab iyindən, ora gəlib-gedən müştərilərin hərdən səs-küy salmasından çox narazı idilər, yeganə xoşagələn bir şey var idi ki, bəzən «Payız yağışı»ndan həzin bir klarnet səsi gəlirdi, o zaman sakitlik çökürdü, o klarnetin səsi səkkizmərtəbədəki insanların içində nəsə elə bir hissiyyat yaradırdı ki, onlar bir müddət o daimi kabab iyini də, o ocaq tüstüsünü də, tərbiyəsiz müştərilərin qışqır-bağırını da yaddan çıxarırdılar...

* * *

Həmin gözəl yaz günü klarnetçalan Fətulla həmişəki kimi, sübh tezdən yatağından qalxıb əl-üzünü yumağa gedəndə, arvadı – Firuzə – elə bil, elə onun durmağını gözləyirdi, mətbəxdən başını uzadıb:

– Fətulla, durdun?– soruşdu, sonra da: – Sözüm var e, sənə... Get, yuyun, sonra... – dedi və bu sözləri elə dedi ki, Fətullanın ürəyindən tarın sarı simi kimi çox nazik, amma çox da sərt bir sızıltı keçdi: Firuzənin bu səsində bir yazıqlıq var idi, acizlik var idi və Fətulla boyda kişi əl-üzünü yuya-yuya özünü güclə saxladı ki, əməllicə kövrəlməsin və ürəyində bu dünyanın qarasına yağlı bir küçə söyüşü söydü, çünki son vaxtlar,– səbəbi nə idi? heç özü də bilmirdi!– arvadının cavanlıq çağları tez-tez gəlib gözlərinin qabağında dururdu, o çağları ki, indi xınadan qıpqırmızı qızarmış ağ saçların heç izi-tozu da yox idi, bilək yoğunluğunda qapqara iki hörüyü, az qala, topuğunacan uzanırdı, qəddi-qamətli bir ceyran balası idi və günə deyirdi, sən çıxma, mən çıxacağam, aya deyirdi, yox, sən çıxma, mən çıxacağam və bütün məhəllə cavanlarının gözü o hörüklü qızda idi, o hörüklü qız isə o qədər cavanın arasından onu, yəni, indi ürəyindəki o sızıltı ilə əl-üzünü yuyan Fətullanı seçdi.

Fətullanı seçdi, amma ona görə seçmədi ki, otuz ildən sonra, aya, günə meydan oxuyan o qızın səsi indi belə yazıqlaşsın, ona görə seçmədi ki, Firuzə bu yaz məhəllədəki dalbadal beş toyun beşinə də eyni paltarda getsin, ona görə seçmədi ki...

və Fətulla az qaldı əlindəki sabunu güzgüdəki əksinə çırpsın...

yaxşı...

bəsdi...

başqaları səndən də pis gündədi...

və o vaxtlar Fətulla da qara, qıvrımsaçlı, qabağındanyeməyən, həyət qapıları ilə üzbəüz qoşa tut ağacının kölgəsində oturub küçədən ötən, pəncərələrdən boylanan məhəllə qızlarının xəlvəti baxışları altında şəstlə nərd oynayan və məhəllə cavanlarının hamısını udan bir oğlan idi və o hörüklü qızın bu qədər cavanın içində Fətullanı seçməyi də, yayın cırhacır istisində məhəllə kişilərinin bu qoşa tut ağacının kölgəsində oturması kimi bir şey idi, yəni, təbii idi, burada təəccüblü heç nə yox idi, Fətulla görkəmiylə də, ədasıyla da o hörüklü qıza layiq bir cavan idi, amma elə o vaxtlar papaqçı Cəfər – hörüklü qızın atası – iki ayağını bir başmağa dirədi ki, mən zurnaçalana qız verməyəcəyəm.

Məsələ burasında idi ki, Fətullagil nəsillikcə musiqiçi idilər, ulu babası da, babası da, atası da Bakının məşhur balaban çalanları olmuşdular və Fətulla özü də lap uşaqlıqdan balaban çalmağa başlamışdı və balaban hava kimi, su kimi bir şey idi və Fətulla üçün bizim bu gözəl dünyamızda balabansız yaşamaq mümkün olan bir iş deyildi, amma papaqçı Cəfər ki, iki ayağını bir başmağa dirədi, Fətulla o hörüklü qızdan ötrü bütün həyatının mənası hesab elədiyi balabandan əl çəkdi, klarnetə keçdi.

Klarnet, görünür, papaqçı Cəfər üçün balabandan xeyli hörmətli imiş və papaqçı Cəfər axır ki, o hörüklü qızın razılığını verdi.

O vaxtdan düz otuz altı il keçib.

Bu otuz altı ildə Fətullanın klarneti çox məclislər yola salmışdı, çox toylar çalmışdı, böyük bir ailəni – özləri və beş qız – dolandırmışdı, o klarnet qızları böyütmüşdü, oxutmuşdu, onları ərə vermişdi.

Sovet vaxtında indiki qədər çalğıçı yox idi, amma elə ki, Sovet Ittifaqı dağıldı, o qədər oxuyan, çalan peyda oldu ki, məəttəl qalmalı iş idi – bunlar əvvəllər harda idi? müstəqillik bunlara necə hamilə olmuşdu ki, birdən-birə bu qədər doğdu bunları? və hamısı da çalğı çalandan çox, yaxşıca mantyor idi, bu mənada ki, bütün çalğı alətlərini elektrikə calayırdılar, bir hay-küy salırdılar, bir oyun çıxarırdılar, bir geyim geyinirdilər ki, Fətullanın klarneti axırda balaca bir kababxanalıq oldu və bir vaxtlar eləcə pul gətirən o klarnet indi ancaq həmin kababxanaya gələn üç nəfərin, beş nəfərin cibinə baxmağa məcbur oldu.

Və Fətulla əl-üzünün sabununu yuya-yuya gözlərini qaldırıb güzgüyə baxmırdı, bu çalbaş, bığları ağappaq ağarmış kök kişiyə baxmaq istəmirdi, amma, o məqamda, elə bil, güzgü maqnitə dönmüşdü, Fətullanın gözləri də dəmirə – güzgü o gözləri özünə çəkirdi...

mənə baxmalısan!..

mənə baxmalısan!..

* * *

Norveçli Martinius Asbyornsen artıq yeddi il idi ki, Bakıdakı xarici neft şirkətlərindən birində baş mühasibin köməkçisi vəzifəsində işləyirdi və Ibseni çox sevsə də, əntiq əşyaların satışı ilə məşğul olan Bakı dəllallarını Ibsenin qəhrəmanlarından qat-qat yaxşı tanıyırdı, həmin əntiq əşyalara baxanda, onların gətirəcəyi gəliri əvvəlcədən hiss edəndə, sevimli bəstəkarı Qriqin musiqisindən də qat-qat artıq dərəcədə həzz alırdı.

Düzdü, indi yerli sakinlər də, dəllallar da beş-altı il bundan əvvəlkilər deyildi, çox ayılmışdılar və Sovet Ittifaqı dağılandan sonra ki, sərhədlər açılmışdı, Bakıya gəlib-gedən xaricilər əntiq əşyaları – qədim Azərbaycan xalçalarını, zərgər işlərini, misgərlik nümunələrini, lap elə müasir rəssamların əsərlərini su qiymətinə alırdılar, xaricə aparıb on qat, hətta, yüz qat artıq qiymətə satırdılar, ya da çox az pulla özlərinə zəngin, qiymətli şəxsi kolleksiyalar düzəldirdilər – beş-altı il bundan əvvələ qədər belə idi, sonra isə, təzə dəllallar peyda oldu, qiymətlər qalxdı, amma nə qədər qalxsa da, respublikanın sakinləri nə qədər ayılsalar da, əntiq Azərbaycan və Şərq əşyalarının Azərbaycandakı qiyməti Avropada və ABŞ-dakı qiymətlərə nisbətən çox ucuz idi.

Əlbəttə, həmişə belə olmayacaqdı, fürsətdən istifadə etmək lazım idi. Düzdü, belə getsəydi, bir-iki ildən sonra Azərbaycanda daha heç nə qalmayacaqdı, amma bu, sonranın problemi idi və bu problemlə, qoy, gələcəyin adamları və azərbaycanlıların özü məşğul olsun.

Təbiətən cəld, ağıllı və işbacaran bir adam olan Martinius Asbyornsen isə, həm də çox ayıq adam idi, əvvəlcə özünə qədim Azərbaycan xalçalarından və xalça məmulatlarından ibarət gözəl və qiymətli şəxsi kolleksiya düzəltdi, sonra başa düşdü ki, bu yerdə şəxsi kolleksiya ilə kifayətlənmək olmaz, əməlli-başlı biznesə girişmək lazımdır – başa düşdü və cani-dildən fəaliyyətə başladı, bu illər ərzində həmin biznesin gizli yollarını da, rəsmi yollarını da yaxşıca mənimsədi və yaxşı da pul qazandı.

Norveçdəki tanış-bilişlərinin (elə özünün də!) heç ağlına da gəlməzdi ki, haçansa Sovet Ittifaqı dağılacaq və o qorxunc Sovet Ittifaqının dağılması Martiniusu bəxtəvər edəcək, dünənə qədər heç kimin tanımadığı Azərbaycan adlı bir ölkədə bu balaca, dazbaş, yekəqarın adamın bəxti beləcə açılacaq.

* * *

Firuzə təzəcə dəmlədiyi çayı, yağı, pendiri, çörəyi gətirib Fətullanın qabağında mizin üstünə qoyanda, Fətulla hiss elədi ki, Firuzə, nəsə, gözlənilməz bir şey deyəcək və soruşanda ki:

– Deyirdün sözün var mənə?

Firuzə də:

– Çayuvu iç, sonra deyərəm... – deyəndə, Fətulla lap yüz faiz bildi ki, Firuzənin sözü nəsə təzə bir söz olacaq, amma o təzəlik necə olacaq? yaxşı olacaq? pis olacaq? – bunu bilmirdi.

Firuzə o sözü deməyə tələsirdi, amma, eyni zamanda, elə bil ki, ürək eləmirdi və Fətulla fikirləşdi ki, bəlkə qızlarla bağlı nəsə bir xəbər var? amma nə olacaqdı? əgər təzə nəvə xəbəriydisə, burda ehtiyat eləməli təzə bir şey yox idi – altıncı nəvə olacaqdı – başqa bir səbəb isə, Fətullanın ağlına gəlmirdi.

Və elə ki, həmişəki pendir-çörəyi yedi, şirin çayı içdi:

– Hı?– dedi.– Nə olub?

Firuzə:

– Heç nə...– dedi.– Nə olacaq ki, Allaha şükür, hər şey yerindədi...

– Deyirdün axı sözün var...

Firuzə ona yaxınlaşdı və biləyindən tutub:

– Bir bura gəl...– dedi və Fətullanı ardıyca, otağın həyət qapısına tərəf çəkdi.

Düz otuz altı il idi ki, evli idilər və bu otuz altı ildə hər dəfə Firuzənin əli onun əlinə dəyəndə, Fətullanın bədənindən bir cərəyan keçirdi, elə bil...

elə bil...

elə həmin qalın qoşa hörüklü qızın əli idi, o əlin hərarəti, o əlin gətirdiyi hissiyyat idi...

Fətullagilin həyət qapılarının qarşısında, gövdəsi yoğunlayıb qocalmış bir sarı şanı üzüm ağacı var idi və bu ağacın yaşı Fətullanın yaşından çox idi, ağacın budaqlarını Fətullagilin birmərtəbəli binalarının damına qaldırmışdılar və damda o budaqlardan talvar düzəltmişdilər və elə ki, yaz gəlirdi, o budaqlar yarpaqlamağa başlayırdı, bir azdan damdakı o talvar məhəllənin cənnət guşələrindən biri olurdu, yay günortasının cırhacır istisində də yarpaqların sıxlığından o talvara gün şığıya bilmirdi, ən gözəli isə bu idi ki, o qoca üzüm ağacının elə təzə-tər yarpaqları olurdu, elə bil, yetmişinci, səksəninci dəfə deyildi açmağı, birinci dəfə açılıb dünyaya gəlirdi və o qədər də sapsarı şanısı olurdu ki, Firuzə bütün ilin abqorasını, sirkəsini düzəldirdi, doşabını bişirirdi, bal kimi şanıdan vedrə-vedrə qızlara göndərirdi, yarpaqlarını duza qoyurdu və qışda da, payızda da o yarpaq dolmasını bişirirdi ki, Fətullanın aləmində, dünyada heç kim o dadda yarpaq dolması bişirmirdi və bişirə də bilməzdi.

Firuzə Fətullanı ardıyca çəkib həyətə çıxartdı və yamyaşıl yarpaqları, az qala, ovuc içi boyda böyümüş üzüm salxımlarını göstərib:

– Görürsən, Fətulla?.. – dedi.

Fətulla, hər halda, sənətkar idi və bu yaz səhəri Firuzənin onu həyətə çıxarıb yamyaşıl bir gülüşlə adamın üzünə gülən bu üzüm budaqlarını göstərməsi, doğrusu, Fətullanı əməlli-başlı həyəcana gətirdi və Fətulla lap o cavanlıq çağlarındakı kimi, həyətin ortasında Firuzəni qucaqlayıb sinəsinə sıxmaq istədi, amma bu vaxt Firuzə deyəndə ki:

– Bilirsən, Fətulla, bir söz deyəcəyəm, ancaq... hirslənmə...

Fətullanın ürəyi, elə bil, bir boşluq içində uçunan kimi oldu və Fətulla yüz faiz başa düşdü ki, nəsə, çox pis bir söz eşidəcək.

Firuzə dedi:

– Fətulla... bilirsən... istəyirəm... istəyirəm bu yarpaqları yığım... aparım bazarda satım...

Əvvəlcə Fətulla elə bildi ki, Firuzənin dediklərini düz başa düşmədi, amma elə ki, bu sözlər şapalaq kimi onun beyninə çırpıldı, Fətullanın sifəti nə günə düşdüsə, Firuzənin rəngi ağappaq ağardı və Fətulla:

– Nə?– deyə xırıldayanda, Firuzə:

– Hirslənmə, Fətulla, sən Allah, hirslənmə!..– dedi.

Fətulla eyni xırıltıyla:

– Mənim arvadım gedib bazarda yarpaq satacaq? – soruşdu və elə bil, o, bu sualı, Firuzəyə yox, özünə verdi, əslində heç özünə də yox, Fətulla bu sualı naməlum bir varlığa verdi...

bəlkə taleyə verdi?..

Allaha verdi?..

kimə verdi?..

bilmirdi, amma orasını tamam aşkar bilirdi ki, həyatının bu məqamına gəlib çatmaqdansa, o qoşa hörüklü qızı otuz altı ildən sonra, belə bir ehtiyaca ürcah etməkdənsə, o, yəni, Fətulla, ölsəydi, bundan min qat yaxşı idi.

Firuzə, Fətullanın bircə anın içində bərəlmiş gözlərinə, qıpqırmızı qızarmış sifətinə baxa-baxa əməlli-başlı qorxuya düşdü, axır vaxtlar, onsuz da, Fətullanın qan təzyiqi yuxarı idi (hərdən 110 – 170-ə olurdu) və Firuzə sidq-ürəkdən gələn bir yalvarışla:

– Fətulla, qurban olum sənə, sözdü də, dedim... qurban olum, Fətulla... fikir vermə, deməmiş olum, Fətulla... vallah, day bir də belə söz demərəm... – Firuzə yenə Fətullanın biləyindən tutdu və bu otuz altı ildə birinci dəfə Fətulla sərt bir hərəkətlə qolunu dartıb:

– Əlüvü çək mənnən!.. – dedi.

* * *

Miss Merilin Consonun əlli bir yaşı var idi, amma indiyə qədər ərə getməmişdi və bu zənci qadın həddən artıq gombul idi. ABŞ-da bu cür kök adamlara tez-tez rast gəlmək mümkündü və əlbəttə, bu cürə köklüyün səbəbi qidanın tərkibindəki süni maddələr idi.

Yemək – miss Merilin Consonun həyatının əsas problemi idi və artıq əsas da məqsədə çevrilmişdi və bu mənada miss Merilin Conson sonuncu iş yerindən çox razı idi.

Miss Merilin Conson Nyu-Yorkda, Manhettimdə, BMT-nin lap yaxınlığındakı «Reqal Y.N. Plaza» oteli ilə üzbəüz binanın 23-cü mərtəbəsində, tanınmış və nüfuzlu bank işçisi mister Isaak Blyumentallın evində qulluqçu işləyirdi və mister Blyumentallın özü də, missis Blyumentall da yeməklərinə xüsusi fikir verən və azyeyən adamlar olduğu üçün, mağazadan alınan, sifariş gətirilən ərzağın çoxu tökülüb qalırdı və miss Merilin Conson evin işlərini görməklə bərabər, dəyirman dən üyüdən kimi, səhərdən axşama kimi, ekoloji cəhətdən çox təmiz və buna görə də çox baha olan həmin ərzaqları yeməklə məşğul olurdu.

Mister və missis Blyumentallar sonsuz idi, azdanışan, sakit, rahat, qayğısız həyatı sevən adamlar idi.

Missis Blyumentallın ağappaq bir pudeli var idi və o pudellə daha çox danışırdı, nəinki mister Blyumentalla, yaxud da miss Consonla, iti tez-tez təmiz havaya çıxarırdı, onu özü təmizləyirdi, özü çimizdirirdi, özü pudeli xüsusi bərbərin yanına aparıb yeni dəblə qırxdırırdı, qıvrım tüklərini özü darıyırdı, onu özü yedizdirirdi və miss Conson bu itlə bağlı heç bir əziyyət çəkmirdi.

Mister Blyumentall maliyyəçi dairələrdə məşhur və nüfuzlu bank işçisi olmaqla bərabər, məşhur da kolleksiyaçı idi, qədim musiqi alətləri yığırdı və işdən gəlib yüngülcə bir şamdan sonra, gecənin yarısına qədər vaxtını, ideal bir səliqə ilə kolleksiyanı topladığı ayrıca üç otaqda keçirirdi, zəngin kolleksiyasındakı nadir nümunələrdən birini götürüb rahat kreslosunda əyləşirdi, böyüdücü şüşə ilə baxa-baxa o nümunəni santimetr-santimetr tədqiq edirdi, cürbəcür məlumat kitablarına, kataloqlara baxırdı və sairə.

Kolleksiyadakı nümunələrin, o cümlədən, Q. da Salonun bir, A. və N.Amatilərin bir, Stradivarinin isə iki (!) skripkasının tozunu da mister Blyumentall şəxsən özü alırdı və bu baxımdan da missis Consonun heç bir qayğısı və qorxusu yox idi ki, birdən nəsə əlindən yerə düşər, əzilər, zədələnər, nəyəsə toxunar...

* * *

Firuzənin nə təqsiri var idi? hə? nə təqsiri var idi? heç nə... gör sən bu evi, bu yazıq Firuzəni hansı günə gətirib çıxarmısan ki, meynənin yarpaqlarını yığıb aparıb bazarda satmaq istəyir... sənin o atan ki, bu meynəni bu həyətdə əkmişdi, əkəndə heç onun ağlına gələrdi ki, haçansa oğlunun ailəsi o günə qalacaq ki, arvadı gedib bazarda meynə yarpağı satmağa möhtac olacaq?.. o rəhmətlik papaqçı Cəfər ki, o qoşa hörüklü qızı zurnaçıya vermək istəmirdi (yaxşı da eləyirdi!), klarnetçalana verdi (çox da səhv bir iş tutdu!), indi qızının bu gününə qəbirdə tərpənməsin, nə eləsin?.. axmaq oğlu, axmaq, Firuzənin əlini itələməkdənsə, get, öz başını divara vur də, Firuzə neyləsin?..

... və mizin arxasında dinməzcə oturub, barmaqlarını sındıran Fətulla, görəndə ki, Firuzə həyət qapısından otağa girdi və Firuzənin gözləri də ağlamaqdan qıpqırmızı qızarıb, özünü güclə saxladı ki, durub Firuzəni qucaqlamasın, «sənin nə günahın var, əzvayın biri mənəm!»– deməsin, amma Fətulla özünü saxladı və qorxdu ki, birdən Firuzənin yanında gözləri dolar, ona görə də gözlərini mizin üstündə eləcə ovuşdurduğu barmaqlarından çəkməyə ürək eləməyib təkcə elə:

– Axı, nədi e?.. – soruşdu.

Firuzə də ona baxmadı, mizin üstündəki çay-çörək qalığını yığışdıra-yığışdıra titrək bir səslə:

– Uşağın kiçik toyu olacaq də... – dedi.

... indi başa düşdün, kütbeyin oğlu, kütbeyin, başa düşdün, ya yox?.. hədiyyə almaq istəyir də, uşağa, nə ilə alsın?.. gedib nə eləsin?.. sənin o klarnetin elə sənin başına dəysin!.. nə gətirirsən evə?.. gətirdliyini elə öz qarnına tıxırsan də!..

Məsələ burasında idi ki, düz beş gündən sonra – üzümüzə gələn bazar – Fətullanın beş yaşlı oğlan nəvəsini sünnət edəcəkdilər və Firuzə də uşağa hansı hədiyyə almaq və o hədiyyəni hansı pulla almaq barədə fikirləşəndə, axırda gümanı gələn yer bu qoca üzüm ağacı olmuşdu...

... başa düşdün, axmaq oğlu, axmaq!..

* * *

Əlbəttə, Fətulla bilirdi ki, «Payız yağışı»ndan gələn pul azdı, evin xərcinə bəs eləmir, amma işin lap belə bir vəziyyətə gəlib çıxdığını bilmirdi, çünki pulu gətirib verirdi Firuzəyə, evin xərcləri ilə də Firuzə məşğul olurdu və Firuzə də Fətullaya şikayət etmirdi ki, qanı qaralmasın, onsuz da Fətulla əlindən gələni edirdi, yaşının bu çağında, kababxanaya gəlib-gedən övladı yaşında müştərilərin (özü də necə müştərilərin! biri kefli olurdu, o birisi dalaşqan olurdu, o birisi də, Allah bilir, hansı yuvanın quşu olurdu...) sifarişilə klarnet çalırdı – Fətulla bədbəxt, bundan artıq nə etməli idi?

Ancaq kürreyi-ərz alt-üst olsaydı da, Fətulla razı ola bilməzdi ki, onun evində elə bir vəziyyət yaransın ki, nəvəsinin kiçik toyuna hədiyyə almaq üçün, Firuzə bazara gedib yarpaq satmaq fikrinə düşsün.

Və bu zaman Fətulla gəlib, Firuzənin xüsusi səliqə ilə bəzədiyi bufetin qabağında dayandı, gözlərini bufetin yuxarı qatında, şüşənin arxasındakı o qədim sədəfli balabana zillədi. Üstü gümüş, sədəf və firuzə ilə işlənmiş bu balaban Fətullaya ata-babasından qalmışdı və Fətullagilin evinin çox əziz bir ərməğanı idi. Vaxtilə bu balabandan qəzetlər də yazmışdı, muzeydən də gəlib onu almaq istəmişdilər, amma Fətulla verməmişdi, çünki Fətulla belə fikirləşirdi ki, əgər, bu balabanı satsa, ya kiməsə versə, dədə-babasının ruhu qarşısında kişiyə yaraşmayan bir iş görmüş olar.

Və ümumiyyətlə, hərdən Fətullaya elə gəlirdi ki, o gün ki, Fətulla bu balabanı yerə qoydu və klarneti əlinə götürdü, o gündən də bu balaban təkcə Fətulladan yox, bütün dünyadan küsdü.

Amma bəzən – ildə bir dəfə, bəlkə də iki ildə bir dəfə Fətulla balabanı bufetdən çıxarırdı, həyətə çıxırdı, o meynənin qabağındakı balaca çarhovuzun həmişə səliqə ilə əhənglənmiş sürahisində otururdu, o balabanı sazlayırdı və bir «Sarı gəlin» çalırdı.

Və o zaman Fətulla hiss edirdi ki, barmaqları balabanın deşikləri üstündə oynadıqca, balaban onunla barışır və Fətulla bir də onu hiss edirdi ki, balabanı axırıncı dəfə bufetin gözünə qoyandan sonra, bütün bü müddət ərzində, balaban səbrlə bu günü – həyətdəki bu xudmani «Sarı gəlin» bayramını gözləyib.

Muzey işçiləri balabanın üstündə ərəb əlifbasında sədəflə yazılmış yazını da oxumuşdular və Fətulla o yazını kiril əlifbası ilə ağ bir kağıza yazdırıb, muzeylərdə olan kimi, balabanın qarşısına qoymuşdu:

Il – 923.

Camadiül-əvvəl – 6.

Təbriz.

Usta Məhəmməd ibn Yusif ibn Mütəllib.

Bu – balabanı Təbrizdə yaratmış ustanın adı və hicri təqvimlə yaranma tarixi idi ki, elə həmin muzey işçilərinin hesablamasına görə, milad ilə 1516-cı il iyun ayının 30-u eləyirdi.

Sovet vaxtı indiki kimi deyildi, muzeylərin pulu çox idi və o muzey işçiləri çox çalışdılar, çox əlləşib-vuruşdular, amma Fətulla balabanı muzeyə satmadı, icazə verdi ki, gəlib şəklini çəksinlər, hara istəyirlər göndərsinlər, nə istəyirlər yazsınlar, amma o sədəfli balabanın özü eləcə bu bufetin yuxarı qatında qaldı və mötəbərliyi daha da artdı.

Fətullagilin evindən dörd qapı aşağıda Ələkbərgilin evi idi, Ələkbər misgər idi və qabaqlar Bakının Basin küçəsində, 11 saylı tramvayın dayanacağının yanında balaca bir misgərxanası da vardı, sonralar küçəni genişləndirəndə o misgərxananı da dağıtdılar və o vaxtdan da Ələkbər ailəsini mis qabları qalaylamaqla dolandırırdı, amma elə ki, Sovet Ittifaqı dağıldı, qəribə bir əhvalat baş verdi: Ələkbərin zirzəmisindəki mis qazanlar, sinilər, samovarlar və başqa üstünü toz basmış mis əşyalar matah oldu, şirəyə arı gələn kimi, əvvəlcə xaricilər, sonra da birdən-birə peyda olmuş Bakı dəllalları Ələkbərin o mis qablarını böyük pullarla almağa başladılar və mis qabları qurtarandan sonra, Ələkbərin özü dəllala çevrildi və misgər Ələkbər gözgörəti varlanıb məhəllənin yaxşı yaşayan adamlarından biri oldu, hətta, özünə bir «Mersedes» də aldı, düzdü, bu «Mersedes» 1986-cı ilin buraxılışı idi, amma, hər halda, «Mersedes» idi.

Pişik iy çəkən kimi, Ələkbər də düz üç dəfə Fətullagilə gəlmişdi və həmin balabanı almaq istəmişdi və hər dəfə gələndə də balabanın əvəzinə verəcəyi məbləği bir qism artırmışdı, amma ala bilməmişdi və sonuncu dəfə gələndə, Fətulla gözlərini qıyıb: «– Ələkbər, – demişdi, – bu evin qapısı həmişə sənün üzüvə açıqdı. Ancaq bu məsələdən ötrü bir də bu evə gəlmə!» – və ondan sonra, Fətullanın xasiyyətinə bələd olan Ələkbər, bir də balaban məsələsinə girişməmişdi.

* * *

Bütün məhəllə, Fətullanı tanıyanların hamısı, hətta Firuzə də elə bilirdi ki, klarnet Fətulla üçün hər şeydir, Fətullanın ən yaxın sirdaşıdır, Fətullanın ürəyinin dedikləridir, ürəyinin səsidir və məhəllə də, tanış-biliş də, Firuzə də düz fikirləşirdilər, həqiqətən də, belə idi, amma, Fətullanın ürəyinin çox dərinlərində bir nöqtə var idi, o nöqtəyə qədər belə idi, o nöqtədən sonra isə başqa bir hiss var idi və dünyada heç kimin, hətta, Firuzənin də xəbəri yox idi ki, o nöqtədən sonra Fətulla üçün klarnet boş şey idi (!), çünki o nöqtədən sonra təbiətin səsi gəlirdi, yəni bu mənada ki, dənizin uğultusu, quşların səsi, yarpaqların xışıltısı...

Günlərin bir qəribə günündə, axşam çağı, küçə qapılarının qabağındakı qoşa tut ağacının altında oturub, həmişəki kimi, məhəllənin kişiləri ilə nərd oynamağa hazırlaşan Fətulla, o qoşa tut ağacının yüngül mehdən xışıldayan yarpaqlarına qulaq asdı, o xışıltı, elə bil, yapışqan kimi, beyninə yapışdı, eləcə də orada qaldı, neçə müddət ondan əl çəkmədi və çağa dad, yaxud nəsə başqa bir şey kəşf edən kimi, birdən-birə kəşf etdi ki, onun klarneti təbiətin bu dediklərini heç zaman deyə bilməyəcək.

O qoşa tut ağacının yarpaqları nə deyirdi?– Fətulla bunu heç kimə və heç vəchlə başa sala bilməzdi, çünki özü də bilmirdi ki, o yarpaqlar nə deyir, amma yarpaqların o xışıltısındakı sirri dünyanı heç bir çalğı aləti o cürə verə bilməzdi.

Bircə o balabandan və o balabanın «Sarı gəlin»indən başqa.

Amma Fətulla burasını da başa düşürdü ki, bu, onun üçün, yəni Fətulla üçün belədir və bir pianoçu da belə fikirləşə bilər ki, bunu, ancaq piano bacarar, skripkaçı da fikirləşər ki, o sirri, ancaq skripka söyləyə bilər.

Hər halda, o kəşfdən sonra Fətulla xeyli müddət bikef oldu, nəinki bütün ömrünü həsr etdiyi klarnet, ümumiyyətlə, həyat onun üçün mənasız göründü və o axşam Fətulla nərdi də çox könülsüz oynadı və uduzdu, amma o kəşfi barədə heç vaxt heç kimə heç nə demədi.

* * *

Əgər, Fətulla, misal üçün, pianoçalan olsaydı, onda övladı – fərqi yox idi, ya oğlan, ya qız – onun yolunu davam etdirərdi, amma Fətullagil nəsillikcə piano çalan yox, yaxud da lap elə kamança olsun,– qız da kamança çala bilər, – kamançaçalan yox, balabançalan idi və qız xeylağı da, aydın məsələdir ki, balaban çalmayacaqdı.

* * *

Bəlkə, o cavanlıq vaxtı ki, balabanı bir tərəfə atdı, klarneti götürdü, bəlkə ona görə Allah ona bir oğul vermədi ki, atasının, babasının yolunu davam etdirə?

Lap əgər beləydisə də, hər şey qurban olsun o qoşa hörüklü qıza və Allah ki, ona oğul vermədi, qoy, əvəzində o qoşa hörüklü qızın ömrünü uzun eləsin və onu heç bir dərdə, bəlaya salmasın.

* * *

– Fətulla, qurban olum sənə, başuva dönüm, Fətulla, satma balabanı, Fətulla, bilirəm, mənə görə satırsan o balabanı, amma satma, Fətulla, bir qələt idi, elədim, şeytan azdırdı məni, yarpaq söhbəti, sənə layiq söhbət deyildi, başuva dönüm, satma o balabanı, hər gün darıxacaqsan o balabançun, Fətulla...

Və Firuzə nə illah elədi, yalvardı, ağladı, amma Fətullanı fikrindən döndərə bilmədi.

* * *

Hər şey çox sadə oldu: Fətulla Ələkbəri çağırdı və sədəfli balabanı 1750 ABŞ dollarına Ələkbərə satdı və Ələkbər də o balabanı 2250 ABŞ dollarına müştərisi Martinius Asbyornsenə (bu adamın adını Ələkbər heç cürə yadında saxlaya bilmirdi, ona görə də bu balaca, dazbaş, yekəqarın adamın adını kağıza yazırdı və onunla danışanda gözucu kağıza baxırdı) satdı və Martinius Asbyornsen o sədəfli balabanı 7000 ABŞ dollarına Nyu-Yorkda yaşayan müştərisinə satdı və nəhayət, sədəfli balaban mister Isaak Blyumentallın mizinin üstünə gəlib çıxdı.

Mister Blyumentall elə ilk baxışdan o sədəfli balabanın gözəlliyinə aşiq oldu, onu çox diqqətlə nəzərdən keçirdi, yoxladı, məlumat kitablarından Məhəmməd ibn Yusif ibn Mütəllibin orta əsrlərdə Şərqdə nəfəsli musiqi alətləri düzəltməkdə, Avropada skripka ustası Stradivariyə bərabər bir sənətkar olduğunu öyrəndi və o balabanı 66500 dollara alıb kolleksiyasının Şərq musiqi alətləri bölməsinə qoydu.

Onda Nyu-Yorkda payızın əvvəlləri idi...

* * *

Payız ötdü, Nyu-Yorkda soyuq bir qış keçdi, sonra yaz gəldi, amma Nyu-Yorkun daş, beton, şüşə göydələnləri o payızın da, o payızı əvəz edən qışın da, təzə gələn yazın da fərqində deyildi.

Mister Blyumentallın mənzilində həyat, necə vardısa, elə də davam edirdi, payız da eləcə ötdü, qış da eləcə ötdü, yaz da indi eləcə ötürdü... sonra yay gələcəkdi, yazdan sonra yenə payız gələcəkdi, sonra qış, sonra yenə yaz... və həyat da o daş, beton, şüşə göydələnlərin arasında, mister Blyumentallın tozun da yeri dəyişməyən mənzilində beləcə davam edəcəkdi...

Missis Blyumentall pudeli həmişəki kimi gəzdirirdi, çimizdirirdi, qırxdırırdı.

Mister Blyumentall işdən gələndən sonra, həmişəki kimi, yüngülcə bir şam eləyib kolleksiyası ilə məşğul olurdu və o dəm onun üçün o kolleksiyadan savayı dünyada heç nə yox idi.

Miss Conson eləcə fasiləsiz yeyə-yeyə mətbəxdə nəsə bişirib-düşürürdü, yuyub-yığışdırırdı, çox zaman mənzildə tək olduğu üçün, eləcə yeyə-yeyə də otaqları gəzirdi, nəsə bir iş görmək istəyirdi, amma hər şey öz yerində olurdu, hər şey necə səliqəliydisə, eləcə də səliqəli qalırdı, çünki bu mənzildə heç kim heç nəyə toxunmurdu, toxunanda da hər şey öz əvvəlki yerinə qayıdırdı və miss Conson görmək üçün bir iş tapmırdı və o daimi yemək ehtiyacı və yeməyin özü olmasaydı, həyat miss Conson üçün çox darıxdırıcı və mənasız keçərdi.

Və beləcə ötən günlərdən birində – bir yağışlı yaz günü, günün günorta çağı, mister Blyumentallın mənzilində dünyada (hər halda, bu dünyada!) misli görünməmiş bir hadisə baş verdi.

Həmin yağışlı yaz günü, miss Conson mənzildə yenə tək idi, yenə yeyə-yeyə otaqları gəzib özünə bir iş axtarırdı və birdən qəribə bir səs eşitdi: bu, musiqi idi, amma nəsə çox qəribə...

anlaşılmaz...

eyni zamanda çox yanıqlı...

hə... hə, çox... çox yanıqlı bir musiqi idi və kolleksiya olan otaqlar tərəfdən gəlirdi.

Miss Conson əvvəlcə elə bildi ki, bu səs televizordan, ya radiodan gəlir, amma mister Blyumentall, fikrini dağıtmasın deyə, o otaqlarda radio, televizor qoymağa icazə vermirdi və miss Conson təəccüb içində kolleksiya otaqlarına tərəf yaxınlaşdı.

Tamam aydın idi ki, səs, bax, bu otaqdan gəlir.

Miss Conson otağın qapısını açdı və bu zənci qadının, onsuz da, böyük olan qara gözləri bir anın içində bərəlib az qaldı hədəqəsindən çıxsın.

Mister Blyumentallın kolleksiyasından fleytaya bənzər bir musiqi aləti öz yerindən qalxıb, pəncərənin qabağında, elə bil ki, görünməz bir tellə tavandan asılmış kimi dayanmışdı və elə bil ki, insan kimi, pəncərədən o yaz yağışına baxa-baxa öz-özünə həmin...

anlaşılmaz...

yanıqlı...

çox yanıqlı...

musiqini çalırdı və o melodiyaya uyğun olaraq da yavaş-yavaş tərpənirdi.

Udmaq istədiyi növbəti tikə miss Consonun boğazında qalmışdı və gözünün qabağındakı bu ağlasığmaz görüntü elə müdhiş bir hiss yaratdı ki, bədbəxt qadının başındakı qıvrım qara tüklər biz-biz durdu.

Miss Consonun ürəyi elə şiddətlə vururdu ki, elə bil, indicə, bu qadının hər biri yekə un torbasına oxşayan döşlərinin arasından sıyrılıb çölə çıxacaqdı.

O fleytaya bənzər musiqi aləti isə, o anlaşılmaz musiqini eləcə pəncərənin qarşısında öz-özünə çalırdı və o melodiya anlaşılmaz idi, düzdür, amma çox yanıqlı idi və o musiqi alətindən gələn o yanğı, o qüssə, kədər miss Consonun geniş sinəsinə doldu və ən dəhşətlisi bu idi ki, belə bir yanğı, belə bir qüssə, kədər indiyə qədər onun o geniş sinəsi üçün tamam yad bir şey idi.

Miss Conson o yağışlı yaz günü həmin dəhşət içində cismani olaraq duyurdu ki, o yanğı, o qüssə, kədər onun doğmasına çevrilir və indiyə qədər yaşadığı həyatın boşluğundan xəbər verir.

Miss Conson bərəlmiş gözlərini o fleytaya oxşayan musiqi alətindən çəkə bilmirdi və o dəm o musiqi alətinin özü başdan-başa bir yanğı, qüssə, kədər idi...

* * *

Missis Blyumentall pudeli ilə birlikdə evə qayıdanda miss Merilin Conson hələ də o müdhiş hadisənin təsiri altında idi və tələsə-tələsə, dili topuq vura-vura, heç cürə keçib getmək bilməyən bir həyəcanla bu hadisəni missis Blyumentalla danışdı.

Missis Blyumentall diqqətlə miss Consona qulaq asdı, sonra onunla birlikdə kolleksiya otağına keçdi, miss Consonun, az qala, heyvani bir ürkü ilə barmağını uzadıb göstərdiyi o musiqi alətinə baxdı: həmin Şərq musiqi aləti həmişəki yerində idi və missis Blyumentall daha heç nə soruşmadı, yalnız diqqətlə miss Merilin Consona baxdı və heç nə demədi.

Axşam mister Blyumentall işdən qayıtdı və yüngül şam edib, həmişəki kimi, kolleksiya otaqlarına keçməzdən əvvəl missis Blyumentall əhvalatı ərinə danışdı və mister Blyumentallın gərgin bank əməliyyatlarından sonra, evdə də gəlib hansısa fantastik səfsəfələrə qulaq asmağa qətiyyən həvəsi olmadığı üçün, o, xanımının da razılığı ilə, həmin gündən etibarən miss Merilin Consonu işdən azad etdi.

* * *

Miss Merilin Conson liftlə 23-cü mərtəbədən düşərkən ağlamaqdan qızarmış gözlərini silə-silə fikirləşdi ki, bəlkə, doğrudan da, dəli olub və bəlkə, günorta o fleytaya bənzər musiqi alətinin pəncərənin qabağında dayanıb öz-özünə o anlaşılmaz melodiyanı çalması həqiqət yox, bir qarabasma imiş?

Bəs o yanğı? o qüssə? o kədər?..

Gördüyünün müdhişliyindən, işdən çıxarılmasının ağrısından başqa, bir hiss də – az qala, heyvani bir qorxu hissi – miss Consonun içini deşib-dağıtmaqda idi: bu bədbəxt zənci qadın qorxurdu ki, o yanğı, o qüssə, kədər bundan sonra həmişəlik onunla bir yerdə olacaq.

Və əlbəttə, mister və missis Blyumentalların ağlına gələ bilməzdi ki, miss Conson, həqiqətən, olan hadisəni danışır və bədbəxt miss Merilin Consonun da ağlına gələ bilməzdi ki, Azərbaycan adlı uzaq bir məmləkət var və o məmləkətdə fleytaya bənzər o musiqi alətinə «balaban» deyirlər və balabanın çaldığı o anlaşılmaz, yanıqlı havaya da həmin məmləkətdə «Sarı gəlin» deyirlər.

*Oktyabr, 2001.*

## ARABA

*(Şairin ölümü haqqında)*

olduqca...
həddən artıq...
uy-y-y...
çox...
çox...

çox uzaqlar idi, amma bu uzaqlıq coğrafi bir məsafə deyildi, illərin uzaqlığı idi, zırpı-zırpı dəqiqələrin, ondan da zırpı saatların, ondan da zırpı günlərin, sonra ayların, illərin dəhşətli, əlçatmaz, ünyetməz bir uzaqlığı idi və o uzaqlığı coğrafi mənada təkcə (bəlkə də) göydəki ulduzların uzaqlığı ilə müqayisə eləmək olardı və göydəki o ulduzlara getmək mümkün olmadığı kimi, xatirələrin, yaddaşın dibində olan o uzaqlığa da getmək (təzədən getmək) heç cürə mümkün deyildi və indi, elə bil ki, eşikdə şıdırğı bir yağış yağırdı (səssiz yağış) və o uzaqlıq da, bir üzündən (çöl tərəfdə) su süzülən pəncərə şüşəsindən o tərəfdə görünürdü...

... o su süzülən pəncərə şüşəsindən o tərəfdəki o uzaqlıqda günün qıpqırmızı batabat çağında, palçıq yolla cırıldaya-cırıldaya meşədən gələn bir eşşək arabası gedirdi və arabaya səliqə ilə odun yığılmışdı və o odunların da üstündə ayağı yalın, başı açıq, 6 – 7 yaşında bir oğlan uşağı oturmuşdu...

... arabanın təkəri hərdən palçıq çuxura düşürdü və o zaman arabanın qabağınca piyada gedən kişi – o uşağın atası eşşəyin ipini nə qədər dartsa da, eşşəyə nə qədər hədə-qorxu gəlsə də, qarğış yağdırsa da, heyvan o boyda yükü çəkib o çuxurdan çıxara bilmirdi və o uşaq da məcbur olurdu ki, təzə qırılmış, təzə doğranmış odun iyinin içindəki o gözəl aləmdən çıxıb, arabadan yerə ensin, sinəsini arabanın arxasına dirəyib, bir əli ilə, nazik belində durmayan, tez-tez sürüşüb düşən şalvarını yuxarı çəkə-çəkə, o biri ilə də özü özünə kömək eləyə-eləyə, hıqqana-hıqqana güc versin və axırı ki, eşşəklə bir yerdə o təkəri palçıq çuxurundan çıxarsınlar...

... sonra yenə arabadakı yükün başına dırmaşırdı və yenə o təzə odun iyinin içindəki o gözəl aləmə qayıdırdı və o aləmdə sonrakı o uzun-uzun illərin, o zırpı-zırpı zaman vahidlərinin heç izi-sorağı da yox idi...

* * *

2002-ci ilin görünüşü, yazılışı Əminə xanımın heç xoşuna gəlmirdi – ortada iki sıfır (00), başda da, axırda da iki (2) – və elə bil ki, bu yazılışda bir aldatma, yalan var idi, yəni bu iki «0» və iki «2» səliqə-sahmanının arxasında, əslində, dünyanın bəd əməlləri dayanırdı və o səliqəli düzülüş, görünüş isə, adamları aldatmaq üçün idi.

Gecələr şairin çarpayısının qabağındakı kresloda oturub, heç olmasa, bir balaca yuxuya getmək istəyəndə, mürgü aləmində, o 2002 cürbəcür düzümdə, yazıda Əminə xanımın gözlərinin qabağına gəlirdi:

2 – 002
2 – 00 – 2
20 – 02
200 – 2
2 – 0 – 0 – 2

Və beləcə, bu 2002-ci ilin rəqəmləri hansı düzümdə olursa-olsun, Əminə xanıma bədbinlik gətirirdi, hər iki tərəfdəki o «2» hansı bəd qüvvələrinsə tutduğu muzdlu telexronitellər kimi, bədbinliyi o «2002» rəqəminin içində qoruyub saxlayırdı, kiçik bir açar deşiyi də qoymurdu ki, «2002» tutumunun içinə iynənin ucu qədər bir hərarət gəlsin.

Əlbəttə, Əminə xanım yaxşı başa düşürdü ki, onların ailəsini bədbəxtlik basıb və sona da az qalıb, indi 2002-ci ilin başlanğıcıdı, yanvarın əvvələridi və bu müsibət uzun sürməyəcək, bu müsibətin son ucu ölüm olacaq (həkimlər də bunu gizlətmirdilər) və sonra şairsiz həyat da tamam başqa bir həyat olacaq – Əminə xanım bütün bunları yaxşı başa düşürdü.

Və 2002-nin yazılışı, düzülüşü də, beləcə, heç bir ümid yeri qoymurdu, nəinki ümid yeri qoymurdu, elə bil, təzə ilin bu rəqəmləri hər tərəfə qapqara bir əlacsızlıq şüası saçırdı.

Elə ki, Istanbulda son müayinədən və Alman xəstəxanasındakı bir aylıq müalicədən sonra Bakıya qayıtdılar və az bir müddətdən də sonra – sentyabrın ortalarından ki, şairin daha ayaq üstə dayanmağa taqəti qalmadı, yatağa düşdü, oktyabr beləcə əzab-əziyyət içində keçdi, noyabr da belə keçdi, dekabr gəldi, bax, həmin dekabrın ortalarında Əminə xanımın bütün içini, bir canavar kimi, belə bir hissiyyat didib-didişdirməyə başladı ki, şair Yeni il gecəsi gedəcək.

Şair gedirdi, onu saxlamaq mümkün deyildi, bu, aydın məsələ idi, amma 2001-ci ilin o dekabr ayı – kədərinin, iztirabının ağrısı-acısı həmişə Əminə xanımın içində qalacaq o dekabr ayı, Əminə xanım səhərdən axşamacan ürəyində Allaha yalvarırdı ki, bu müsibətin son ucu Yeni il gecəsi baş verməsin və oğlu da, qızları da bütün ömürləri boyu Yeni il gecəsinin kədərini çiyinlərində daşımasınlar və qəribə bir əhvalat baş verdi (Allah Əminə xanımı eşitdi?): Yeni il gecəsi şair özünü birdən-birə əvvəlkinə nisbətən yaxşı hiss etdi.

O Yeni il gecəsi oğul da, kiçik qız da heç hara getmədi, böyük qız da, əri də, Əminaşka – şairin hələlik yeganə nəvəsi və şair ona Əminə xanımın adını qoymuşdu («Oğlan olsaydı, öz adımı qoyacaqdım!») – da onlara gəldi, keçmiş gözəl Yeni il axşamları kimi, hamısı evə yığışdı və həmin Yeni il gecəsi oğlu şampan şüşəsinin tıxacını partladıb sağlıq dedi:

– Papa, biz hamımız sənin sağlığına içirik! Biz hamımız çox istəyirik ki, sən sağalasan, ayağa qalxasan, əvvəlki kimi olasan! Bax, görürsən, bu gecə biz heç hara getmədik, evdə qaldıq ki, səninlə bir yerdə olaq!

Böyük qızın əri, yəni Əminə xanımla şairin kürəkəni də:

– Hə,– dedi.– Mənim də papam bizə dedi ki, bu dəfə Novı qodda sizə gələk, sizin yanınızda olaq.

«Mənim də papam», yəni ki, Məmməd müəllim – Əminə xanımla şairin qudası.

Oğlu bu sağlığı söyləyəndə, sonra da kürəkəni bu sözləri deyəndə, Əminə xanım eynəyinin qalın şüşələri arxasından zəndlə, çarpayıda uzanıb başını iki ağappaq qalın balıncın üstündə dikəltmiş şairə baxdı: şair, xəstələnəndən sonra daha da nazilmiş və tamam solmuş dodaqları ilə gülümsədi və başını yavaş-yavaş tərpədib, elə bil, oğlunun dediklərini təsdiq etdi və şairin gözlərindəki o ifadə o Yeni il gecəsi Əminə xanımın bütün içini qəhərlə doldurdu – şairin gözlərindəki o ifadədə bir minnətdarlıq var idi, elə bil, şair oğluna, qızlarına, kürəkəninə, bəlkə elə Əminə xanımın özünə də təşəkkür edirdi ki, onlar heç hara getməyiblər, bu Yeni il gecəsini onunla bir yerdə keçiriblər... Hətta Məmməd müəllimə... Məmməd müəllimə də təşəkkür edirdi ki, icazə verib, böyük qız, kürəkən, Əminaşka bu gecə onlara, yəni, Məmməd müəllimgilə yox, bura – şairin yanına gəliblər...

O ağrılar şair kimi bir şəxsiyyəti sındırmışdı...

Şairin əzablarını ancaq morfi iynəsi azaldırdı.

Əminə xanım qorxdu ki, özünü saxlaya bilməyib ağlayar, mətbəxə keçdi, mikrodalğalı sobanın qapağını açıb, içində cızhacız qızaran qaza baxdı və bu vaxt oğlu mətbəxə gəlib sevinclə:

– Papa soruşur ki, qaz necədi?– deyə xəbər verdi.

Əminə xanım bayaq oğlunun dediyi o sözlərdəki minnəti yadından çıxardı (doğrudan da, o sözlərdə elə də bir qəbahət yox idi, qarışqadan fil düzəltmək lazım deyil və heç kim də o sözlərə fikir vermədi) və şairin əvvəlki gözəl Yeni il gecələri kimi, mikrodalğalı sobanın içində qızaran qazla maraqlanması Əminə xanımın kefini, elə bil, bir az durultdu və o, qaza baxa-baxa:

– Əladı!– dedi.

Sonra daha bir möcüzə baş verdi: şair zəif səslə, amma, az qala, tamam unudulmuş bir şövqlə dedi:

– Mən də araq vuracam!

Oğlu qədəhlərə araq süzdü, şair arıqlayıb uzanmış və saralmış barmaqları ilə qədəhi özü tutub, neçə vaxtdan bəri ilk dəfə araq içdi və düzdü, arıq çənəsindən bir az araq süzülüb yaxasına töküldü, amma o araq neçə aydan bəri, elə bil ki, kiçik gözlüyü də olmayan və havasızlıqdan boğulan bu otağın pəncərələrini taybatay açdı, içəri təzə hava əsdirdi.

Və o gecə Əminə xanımın ürəyində belə bir dəli ümid baş qaldırdı ki, bəlkə, həqiqətən, bir möcüzə verəcək? bəlkə, əri, doğrudan da, sağalacaq, ayağa qalxacaq, əvvəlki kimi olacaq? amma elə ki, bir azdan – hələ yeni 2002-ci il gəlməmiş şairi yuxu apardı, gecə keçdi, sübh tezdən şairin dəhşətli ağrıları yenə, ilan başı kimi, başını dik qaldırdı, yenə gəlib morfi vurdular, Əminə xanımın ürəyindəki o dəli ümid də həmişəlik sönüb getdi.

* * *

Elə bil ki, nə isə dartınıb şairin içindən çıxmaq istəyirdi, onun bədənindən azad olmaq istəyirdi, amma çıxa bilmirdi, əlləşirdi-vuruşurdu, şairin bütün içini ələk-vələk eləyirdi, vurnuxurdu, eşiyə çıxmağa, qarışqa yuvasının deşiyi kimi bir yer axtarırdı, amma çıxa bilmirdi və doğrudanmı, içində beləcə vurnuxan, eşiyə beləcə can atan, beləcə azadlığa çıxmaq istəyən şairin təbi idi?

o təb onu qoyub niyə qaçmaq istəyirdi?

o təb onsuz nə edəcəkdi?

boşluq olacaqdı o təb, hava olacaqdı, nə olacaqdı?

hər şey keçmişdə qalıb... quyunun dibində... qapqaranlıq quyunun dibində...
o quyunun dibindən heç kim qalxmayıb və heç kim də qalxmayacaq...
o quyunun ağzı bu dünyadadı, dibi isə tamam başqa bir dünyadadı...

* * *

Heç kim bilmirdi ki, onun iki yaradıcılığı var:

a) yazılmış şerləri (poemaları, mənzum pyesləri, Puşkindən, Nekrasovdan, Mayakovskidən, Nazim Hikmətdən, Yeqor Isayevdən, Eduardas Mejelaytsinin (bu Litva şairinin Lenin mükafatı aldığı vaxtlar), Pablo Nerudadan, Tunis şairi və SSRI-nin dostu Mustafa əl-Farsinin ruscaya çevrilmiş şerlərindən, Sovet Ittifaqı dağılandan sonra isə Mandelştamdan, Svetayevadan, Iosif Brodskidən, Mehmed Akifdən tərcümələri və s.

b) və bir də – bax, bunu heç kim bilmirdi!– yazılmamış şerləri.

Şairin yazılmamış o şerləri, eləcə yazılmadı və heç zaman da yazılmayacaq.

O yazılmamış şerlərdən min dəfə yaxşıları yazılacaq, yəqin onlardan pisləri də çox yazılacaq, amma onun o yazılmamış şerləri heç zaman yazılmayacaq.

* * *

Beş il bundan qabaq – şairin 60 yaşı tamam olanda – düzdü, respublikanın rəhbərləri onu təbrik etdi və bu təbriklər qəzetlərdə dərc olundu, televiziya ilə onun haqqında verilişlər verildi, o, müstəqil Azərbaycan Respublikasının «Şərəf» ordeni ilə təltif olundu, universitetlər, elmi institutlar, bir sıra şəhər və rayonların (kiçik qızının hesablamasına görə, onların sayı 23 idi) icra hakimiyyətləri onunla görüş keçirdilər, amma şair Respublika Sarayında təntənəli yubiley gecəsindən imtina etdi:

– Qarabağ ermənilərin əsarətindən azad olunmayanacan, mən heç bir yubiley istəmirəm! – dedi.

Və şairin bu bəyanatını bütün qəzetlər çap elədi.

Əminə xanım:

– Qarabağın dərdini çəkmək elə bizə qalıb də!– dedi.

Kiçik qızı dərindən ah çəkib:

– Papa belədi də!..– dedi.

Əminə xanım:

– Öküz kimi oğlanlar bığlarını bura-bura bazarda pomidor satır, amma Qarabağın dərdini biz çəkirik!..– dedi.

* * *

**Yazılmamış şerlərdən:**

xatirələr
bu yağışlı günlərdə
güzgü kimi
sınır bir bir

yerə tökülmüş
güzgü qırıqlarında
gün işığı
ocaq şöləsi
qulaq parası

gözün yarısı
gecənin qaranlığı
döşün giləsi
yarımçıq göbək

güzgü qırığına
düşmüş göz yaşı
güzgü qırığında
gülən dodaqların
bir kənarı
güzgü qırığında öpüş izi
yalan
sədaqət
xəyanət
qara gözlərin işıltısı
sonuncu nəfəs
çağa qışqırtısı
yenicə tərləyən bığ yeri
dən düşmüş saçlar

yağış kəsmir
sınır güzgülər
qırıq qırıq
yerə dağılır
xatirələr

kəsəcək yağış
dan yeri söküləcək
görünəcək günəş
süpürgəçi qarı
həmişə axan burnunu çəkə çəkə
güzgü qırıqlarını süpürəcək
və aparıb
zibil qabına tökəcək

* * *

O mikrobların hamısı, o milyard-milyard, trilyard-trilyard və bunlardan da çox-çox mikrobların, azı, lap cüzisi mehriban, çoxu, həddən artıq çoxu isə zəhərli mikrobların hamısı, elə bil, bu dəm şairin beyninə dolmuşdu, biri o birini itələyə-itələyə, bir-birini sıxışdıra-sıxışdıra hər mikrob onun beynində öz yerini bərkitməyə çalışırdı və şairin beynindəki bu mikrob təlatümü, bu mikrob çaxnaşması çox bədheybət, çox əzablı-əziyyətli bir ağrının içində idi.

Əminə xanım onda nazik, kəpənək kimi yüngül bir qız idi, elə bil, indi yaşadığı (indi yaşadığımız) bu dünyanın adamı deyildi, başqa bir planetdən gəlmişdi və evləndikləri gecənin səhəri günü – həmişəlik bir keçmişdə qalmış o günün sübh çağı, əynində ağappaq ipək penuar (və bu penuarın altından onun o zaman balıq kimi hamar lüt bədəni görünürdü), pəncərənin qabağında dayanıb hələ oyanmamış şəhərə – Bakıya – baxırdı və o sübh çağının ala-qaranlığında dəniz kənarına tərəf uçan bir cüt quş – görən, nə quşlar idi onlar? kim bilir?.. o quşların sümükləri də çürüyüb indi...– gördü, ona görə, ya da nəydisə, birdən soruşdu:

– Görəsən, quşların da ruhu var?

Sən arxası üstə çarpayıda uzanıb qollarını başının altında çarpazlamışdın və:

– Yəqin...– dedin.

O ağappaq ipək penuarlı nazik (bədəni balıq kimi hamar!) qız:
– Dünyada nə qədər canlı var, onların hamısının ruhu var?– soruşdu.
Sən gülümsəyib:
– Yəqin var də...– dedin.
– Mikroblar da canlıdı də... Onların da ruhu var də... Hə?
Sən çiyinlərini çəkib (onda heç haran ağrımırdı):
– Yəqin də...– dedin.
– Milyon illər mikroblardan tutmuş dinozavrlaracan, bu qədər canlı ölüb dünyada, bundan sonra da hələ, e-e-ey!.. nə qədər öləcək... Bəs, bu qədər ruh o dünyaya necə sığışır?
Sən ağappaq penuarlı və bir az da, elə bil, özü öz fikirlərindən ürkmüş o nazik qıza baxa-baxa, bu dəfə güldün və:
– Nə bilim?..– dedin.
nə bilim...
Sən onda:
– Nə bilim...– dedin.
Amma niyə sığmır?
O gün ki, Allah insanı yaradıb, bax, o gündən bu tərəfə nə qədər insanlar Allaha yalvarıb, dua edib, imdad istəyib və o qədər yalvarışlar, dualar, imdadlar görünən bu dünyaya necə sığıbsa, o ruhlar da görünməyən o dünyaya eləcə sığa bilməz bəyəm?
Bu qədər fikir, bu qədər dərd-sər, qəm-qüssə, bu qədər sevinc, bu qədər hissiyyat balaca bir beyinə necə sığışır? Hə?
Amma onda sən:
– Nə bilim...– dedin.
nə bilim...
heç kim bilmir...
bu düynyada heç kim heç nə bilmir...
və belə bir savadsızlıq müqabilində bu dünyanın – görünən dünyanın hiss-həyəcanları, dərdi-səri, ağrısı-acısı, qorxusu, əslində, çox əbləh bir şeydi...
Indi, bax, bu dəm şairin beynini doldurmuş o mikroblar da, şairlə birlikdə, o ruhlar dünyasına gedəcək...
Bəs o ruhlar dünyası yoxdusa, onda necə?
Amma o araba ki, o palçıq yolda cırıldaya-cırıldaya gedirdi, o yol ruhlar dünyasına aparan yolun başlanğıcı deyildi, o yol başqa bir dünyanın – heç kimin eşitmədiyi, bilmədiyi üçüncü dünyanın yolu idi, amma bu dünya – bu görünən dünya o uşağı o araba yükünün üstündən çəkib aşağı saldı, özündə saxladı, onu o arabanın getdiyi üçüncü dünyaya buraxmadı.

* * *

Şair öz şerlərini əzbər yadında saxlaya bilmirdi, ədəbi məclislərdə, oxucularla görüşlərdə, televiziya çıxışlarında şerlərini ya kağızdan, ya kitabdan oxuyurdu və indi də heç bir şeri əməlli-başlı yadına gəlmirdi, bütün o saysız-hesabsız misralar şairin beynində bir-birinə qarışmışdı və axır zamanlar şairin beyni çox zaman o adda-budda misralar xaosunun içində olurdu və qəribədir, o misralar xaosunun içindən düz qırx doqquz il bundan əvvəl, on altı yaşında ikən, 1953-cü ilin o qəmli-kədərli mart gecəsində Stalinin ölümü münasibətilə yazdığı və elə bil ki, çoxdan unudulmuş şerin – bu, onun mətbuatda dərc olunmuş ilk şeri idi, rayon mərkəzinə gedib poçtla qəzetə göndərmişdi, «Azərbaycan gəncləri» qəzeti isə, respublika gənclərinin minlərlə o cür matəm məktublarının, matəm şerlərinin arasından həmin şeri seçib çap etmişdi və o şeri Azərbaycan radiosu da o soyuq mart günlərindəki matəm verilişlərində məşhur diktor Soltan Nəcəfovun ifasında efirdə səsləndirmişdi – bir parçası birdən-birə o misralar xaosunun içindən çıxıb səliqə ilə alt-alta düzüldülər:

Sən əbədiyyətə köçdün,
ancaq biz
Necə yaşayacağıq sənsiz?
Doğrudanmı, yenə
güləcəyik əvvəlki tək,
sevəcəyik əvvəlki tək,
yeyəcəyik əvvəlki tək,
içəcəyik əvvəlki tək?
Yenə əvvəlki tək,
udacağıq havanı?

Şair gülümsədi: necə yaşayacağıq sənsiz?

Və şair eləcə gülümsəyəndə, kiçik qızı otaqda idi, atasının gülümsəməyini görəndə, sevincək:

– Oy, papa gülür!..– qışqırdı.

Əminə xanım, şairə içirtmək üçün, mətbəxdə alma və kök şirəsi çəkirdi və qızının sözlərini eşidəndə tələsik otağa keçdi, eynəyinin qalın şüşələrinin arxasından şairə baxdı.

Şairin beynindəki xaosun içindən çıxmış o misralar eləcə dəqiqliklə, eləcə səliqə ilə alt-alta düzülmüşdü, pozulmurdu, elə bil ki, o misralar, ölümündan bu qədər illər keçsə də, yenə Stalinin özündən qorxurdular.

Şair yenə gülümsədi.

Qız sevinclə:

– Görürsən, mama?– dedi.

Neçə həftənin əzab-əziyyətindən sonra, birinci dəfəydi ki, şairin sifətinə beləcə bir yüngül gülüş təbəssümü çökmüşdü, amma bu təbəssüm Əminə xanımın heç xoşuna gəlmədi – niyə?– bunu deyə bilməzdi... amma... elə bil... o təbəssümə başqa bir dünyanın kölgəsi çökmüşdü...

* * *

Meşə ilə kənd arasındakı o araba yolu dərədən, təpədən aşıb eləcə uzanıb gedirdi...

O söyüdün adı isə, «Pir Söyüd» idi...

Nuh-Nəbidən qalma əyri-üyrü arx meşə ilə kənd arasındakı o araba yolunu tən ortadan kəsirdi və kəndin camaatı meşədən gətirilmiş cürbəcür ağac gövdələrini o arxın üstündən uzadıb körpü kimi bir şey düzəltmişdilər və o körpünün yanında, arxın qırağında o dağ ətəkləri üçün nadir ağac olan nəhəng bir söyüd bitmişdi – Pir Söyüd və o Pir Söyüdün qol-budağı o qədər uzanmışdı, çoxalmışdı ki, körpünün üstünü də tutmuşdu, xüsusən yazın sonlarında, yay aylarında, payızın əvvəllərində o körpüdən keçmək üçün, gərək Pir Söyüdlə əməlli-başlı güləşəydin, qol-budağını kənara dartaydın ki, araba körpüdən keçə biləydi.

Körpünün üstünü təmizləmək, yəni Pir Söyüdün körpünün üstünü basmış budaqlarını kəsmək, əlbəttə, günah kimi bir şey idi və heç kim buna cürət etməzdi və ümumiyyətlə, bu, heç kimin ağlına da gəlməzdi...

Və həmin yaz axşamı o Pir Söyüdün təzə yarpaqları tərli-təravətli idi və atası kürəyini söyüdün yana qanrılmış alt budaqlarına söykəyib, onları körpünün kənarına sıxışdıraraq:

– Toş!.. Toş!..– deyə eşşəyin ipini dartanda və meşədən gəldiyi üçün tox olmasına baxmayaraq, ağzını uzadıb söyüdün yarpaqlarını qoparmaq istəyən eşşəyin qarasına:

– Ay qarnına şiş batmış! Indicə tıxmamısan?!– deyinəndə və araba körpünün üstündən keçəndə yuxarı budaqların o təzə-tər yarpaqları odun yükünün üstündə oturmuş altı-yeddi yaşlı o oğlanın sifətinə, alnına, boğazına toxunurdu.

Və bu qədər illərdən sonra, şair, o söyüd ağacının təzə yarpaqlarının zərifliyini alnında, sifətində, boğazında hiss etdi və tamam unutduğu, heç vaxt yadına düşməyən o böyük söyüd ağacı, qəribədir, yamyaşıl, gözəl yarpaqlarıyla yox, çılpaq gəlib şairin gözlərinin qabağında dayandı: payız bitmişdi, qış gəlmişdi, söyüdün yarpaqları tökülmüşdü, budaqları da indicə səngimiş sulu qardan çıxmışdı, yamyaş idi, üşüm-üşüm də üşüyürdü.

Təbiət Pir Söyüddən qorxmurdu, ona beləcə qıymışdı...

O araba isə artıq körpüdən keçmişdi və çarxları cırıldaya-cırıldaya kəndə tərəf gedirdi, eşşəyin ipi qabaqda addımlayan kişinin əlində, o uşaq da odun yükünün üstündə idi...

* * *

Şair deyirdi ki, baxarsız, Əminaşka böyük rəssam olacaq və Əminaşkanın qələmindən, karandaşından, flamastrlarından çıxmış kağızları diqqətlə, xüsusi bir ləzzət və fəxarətlə gözdən keçirirdi və balaca Əminaşkanın, doğrudan, deyəsən istedadı var idi, əlinə qələm, karandaş keçən kimi, kağız-kuğuzu cızma-qaralayırdı və aylar ötdükcə, bu cızma-qaralar yavaş-yavaş nəyəsə oxşamağa başlayırdı; düzdü, Əminaşkanın o biri babası, yəni Məmməd müəllim nəvəsinin nələrsə çəkdiyi bu kağızlara baxıb bir söz demirdi, təkcə elə, mənalı-mənalı gülümsəyirdi və bu mənalı təbəssümü yaxşı tərəfə, yaxud pis tərəfə yoza bilməyən gənc ana da – şairin böyük qızı, ürəyində qayınatasının belə bir qanmazlığına kin-küdurət bəsləyə-bəsləyə, Əminaşkanın çəkdiyi şəkilləri başqalarına daha artıq bir şövqlə başa salırdı, izah edirdi.

Böyük qız günorta Əminaşkanı bağçadan götürüb şairə baş çəkmək üçün, birbaşa öz evlərinə yox, atasıgilə gəldi və Əminaşka flamastrlarla şəkil çəkməyə başladı və bu dəfə də gənc ana uşağın sarı flamastrla ağ kağızda çəkdiyi xətlərin, əməlli-başlı günəş şəkli olduğunu gördü:

– Oy, Əminaşka!..– dedi.– Nə gözəl çəkmisən!.. – Sonra kağızı anasına göstərdi.– Mama, bax...

Əminə xanım eynəyinin qalın şüşələrinin arxasından kağıza baxdı və yuxusuz, yorğun gözləri ilə gülümsəyib:

– Hə...– dedi.

Böyük qız Əminaşkadan:

– Nə çəkmisən!.. – soruşdu.– Nə çəkmisən, hə?

Əminaşka:

– Çək... çəkmişəm...– dedi.

Anası yenə:

– Hə, əlbəttə, çəkmisən!.. Nə çəkmisən?– soruşdu.

Əminaşka:

– Mən çəkmişəm...– dedi.

Anası:

– Hə, əlbəttə!– dedi.– Sən çəkmisən! Günəş çəkmisən, hə?

Əminaşka bir az anasına baxdı, sonra o ağ kağızdakı sarı xətlərə baxdı və:

– Gün çək... çəkmişəm...– dedi.

Anası sevinclə:

– Düzdü!– dedi və çarpayıda uzanıb gözlərini tavana zilləmiş şairə baxdı, sonra:– Bəs, sən bu şəkili kimin üçün çəkmisən?– soruşdu.

Əminaşka da çarpayıda uzanmış şairə baxdı:

– Babaya...– dedi.

Anası sidq-ürəkdən sevinərək:

– Oy, nə yaxşı!.. Nə yaxşı!..– dedi.– Gördün, mama, papa üçün çəkib e, günəş şəklini!..

Əminə xanım yenə də yorğun, yuxusuz gözləri ilə eləcə gülümsədi:

– Hə... Şeytandı də!..

Cavan ana özünü saxlaya bilməyib Əminaşkanı öpdü, onun üçün, əlbəttə, çox xoş idi ki, Əminaşka həyatında ilk dəfə, heç kim onun əlindən tutmadan, ona öyrətmədən, beləcə sapsarı günəş şəkili çəkib və bəlkə, o da onun üçün, daha çox xoş olub, yağ kimi ürəyinə yayıldı ki, Əminaşka, elə bil, Vanqa idi, anasının ürəyindəkini oxudu.

– Gəl, gəl, onda şəkili özün babaya göstər!– Bunu da həvəslə böyük qız dedi.

Və onlar şairin çarpayısına yaxınlaşdılar.

– Papa, bax, Əminaşka səninçün gör nə çəkib?!

Əminaşka da əlindəki kağızı babasına tərəf uzatdı:

– Al...

Şair gözlərini tavandan çəkib, əvvəlcə o əyri-üyrü sarı xətlərə baxdı, sonra nəvəsinə – tamamilə yad, elə bil, qətiyyən ona dəxli olmayan bu məxluqa baxdı, sonra qızına baxdı: yad... yad... yad... adamlar... və o, tamam yad adamların əhatəsində idi, yəni, şair bilirdi, görürdü ki, bu – Əminə xanımdır, bu – böyük qızıdı, bu – balaca Əminaşkadı, nəvəsidi, kiçik qızı da şairin gözünün qabağına gəldi, oğlu da, amma hamısı da yad idi...

yad idi...

yad idi...

yad idi...

hamısı, Məmməd müəllim kimi, yad idi...

və şair yenə gözlərini onlardan çəkib tavana zillədi, düzdü, şair qızdırmalı beyni ilə hiss elədi ki, belə bir biganəliyi cavan ananın könlünə toxundu, hətta, böyük qızının pərtlikdən gözlərinin dolduğunu da gördü, amma daha bir söz, ümumiyyətlə, nəsə deməyə həvəsi olmadı...

yad idi...

hamı və hər şey yad idi...

və həmişə də belə olmuşdu...

* * *

1953-cü ilin yas içində olan həmin soyuq mart axşamlarından birində, kəndin camaatı, həmişəki kimi, kolxoz idarəsinin qabağına toplaşıb, uzun bir dirəyin başında quraşdırılmış radio aparatında rəhbərin ölümü ilə bağlı matəm verilişlərinə qulaq asırdı və bu zaman, atası o aparatdan «gənc şair» kimi oğlunun adını eşidəndə, məşhur diktor Soltan Nəcəfovun ifasında oğlunun şerinə qulaq asanda ürəyi uçundu, əvvəlcə kişiyə elə gəldi ki, rəhbərin ölümü ona elə təsir edib ki, qulağına qeybdən səs gəlir, amma bütün ətrafındakıların onun özündən də beşbetər bir heyrət içində olduğunu görəndə, tamam mat qaldı: bilmədi rəhbərin ölümünə ağlasın, ya o radiodan oğlunun adını eşitdiyinə, kənd camaatının da beləcə mat qalıb, gah ona, gah da, məktəbin binasından var gücü ilə qaça-qaça kolxoz idarəsinin qabağına tərəf gələn oğluna baxmağına sevinsin?

***

**Yazılmamış şerlərdən:**

**BIRINCI ŞER**
*(Yazılmamış yazı?)*

dağılır payızın
boz buludları
görünür günəş
kolun dibi ilə
sürünən ilanın haça dili
– donur havada
quruyub düşür yerə
qarışır xəzələ

ötür payız
keçir qış
gəlir yaz
qalxır torpaqdan
haça başlı
qırmızı gül
solur
çıxanda günəş
açır
gecənin qaranlığında

**IKINCI ŞER**

qara şeh düşmüşdü
o təzə tər lalənin
qara ləçəklərinə

sökülürdü qapqara dan yeri

ölə ölə
qara dağa dırmaşan
karbüratoru xarab
sınıq sökük avtobusun
tüstüsü və tırıltısı
basmışdı aləmi

çaşmışdı təbiət
rəngləri səhv salmışdı
hissləri korşalmışdı

qara şəfəq saçdı dan yeri

qapqara köpüklərlə
köpüklənə köpüklənə
tökülürdü yarğan boyu
qara şəlalə

**ÜÇÜNCÜ ŞER**

bir boz payız səhəri
hələ sökülməmiş dan yeri
bir boz külək əsdi
bakının küçələrində

bir boz külək əsdi
bakının küçələrində
süpürüb apardı
xəzan yarpaqlarını
küçəyə atılmış
boş koka-kola bankalarını
işlənmiş qandonları
kağız qırıntılarını
qəzet parçalarını
çirkli polietilen torbaları
və mənim yaşadığım illəri
polietilen torbalar
quş kimi
ağaclara qonurdu

uzaqlardan
səsi gəlirdi
bir birinə dəyib
danq danq fəryad edən
boş bankaların

* * *

O zaman – 70-ci illərin əvvəllərində – Amerika imperializminə qarşı mübarizə aparan Anjela Devis uzun, arıq, gözlərində iri şüşəli eynək, qara qıvrım saçları da qırxılmış çay koluna oxşayan bir qız idi və şair o zaman gözəl bir zürafəyə oxşayan o zənci qızın şərəfinə böyük bir şer yazmışdı və həmin şer çox populyar oldu, məşhur və boğazı möhkəm artistlərin ifasında 7 Noyabr, Sovet hakimiyyətinin yaradılmasının ildönümündə, zəhmətkeşlərin 1 May bayramına həsr olunmuş təntənəli rəsmi bayram gecələrində, rəhbərlərin iştirak etdiyi konsertlərdə, televiziyada oxundu, rus dilinə tərcümə olunub, SSRI-nin baş qəzeti (qəzetlər müdiri!) «Pravda»da dərc edildi, dərsliklərə salındı və o uzun şeri o dərsliklərdən əzbərləyən şagirdlər, indi, yəqin, Anjela Devisi çoxdan yaddarından çıxarıblar, o şerin hansısa misraları bəlkə kiminsə hafizəsində ilişib qalıb, amma, görəsən, müəllifin kim olduğunu necə, xatırlayırlar? kim indi gedib onlardan soruşacaq ki, otuz il bundan qabaq Amerika Birləşmiş Ştatlarında imperializmə qarşı mübarizə aparan və zürafəyə oxşayan bir zənci qız – Anjela Devis var idi, yadınıza gəlir? bir şer də yazmışdılar ona, sizin dərslikdəydi, o şeri necə, xatırlayırsız?

Yüz faiz xatırlamırlar.

Bəs, deyirlər, yazıya pozu yoxdu?

Bütün sözlər kimi, bu da – boş sözlərdi.

Guya, birinci, söz yaranıb – nə olsun?

Bir də ki, şagirdlər bu gün o şeri və o şerin müəllifini xatırlayırlar, ya xatırlamırlar, bunun nə mənası var?

Heç bir mənası yoxdur.

Bəs basketbolçuya oxşayan o qız (o zaman gözəl bir zürafəyə oxşayırdı, indi əgər sağdısa, kim bilir, kimə oxşayır? bəlkə indi zürafəyə yox, filə oxşayır?) bilsə ki, dünyada Azərbaycan adında bir məmləkət var və o Azərbaycan məmləkətində otuz il bundan əvvəl onun şərəfinə şer yazılıb, şagirdlər məktəbdə o şeri əzbər söyləyib, qiymət alıblar – kimi «2», kimi «5» – nə fikirləşər? hansı hissləri keçirər? necə mütəəssir olar?

Amma o zənci qız nə fikirləşəcək, hansı hissləri keçirəcək, bunun da – yüz faiz – heç bir mənası və bir qara qəpiklik qədər qiyməti yoxdur.

* * *

– Toş!.. Toş!..– atası eşşəyin ipini dartırdı.

Həmin gün – şairin dəqiq yadındaydı – o araba yolunu da, bütün o ətrafları da çən basmışdı, narın-narın çiskinləyirdi və odunların üstündən yerə enmiş o altı yaşlı oğlan gah sinəsini, gah kürəyini, təkəri palçığa batıb yerindən tərpənməyən arabanın arxasına dirəyib hıqqana-hıqqana güc verərək, tez-tez də nazik belindən sürüşüb düşən şalvarını yuxarı çəkərək, arabanı itələyirdi və axır ki, araba yerindən dəbərdi, o altı yaşlı oğlan da dörd-beş addım arabanın dalınca gedib yenə öz yerinə – odunların üstünə dırmaşdı və bir müddət o çənin-çiskinin içi ilə eləcə getdilər, sonra birdən atasının gözü oğlunun yükün üstündən sallanmış ayağına sataşdı:

– Qaloşun hanı?

Oğlan ayaqlarına baxdı: birində qaloş var idi, o biri isə yalın idi – bayaq arabanı itələyəndə qaloşun bir tayı ayağından çıxıb palçıqda qalmışdı və oğlan qanrılıb arxaya baxdı, elə bil, o çənin-çiskinin içində o balaca qaloş tayını görəcəkdi.

Bayaqdan bəri çarxın palçığa batmağından və eşşəyin də əzvaylığından hirslənmiş kişi, acığını uşağın üstünə tökdü:

– Eşşək oğlu, eşşək! Düş, yeri, canın çıxsın, nətər qoymusan orda, elə də tap, gətir!

Və o oğlan gözlərini, biri qaloşlu, o biri yalın ayaqlarının altına zilləyib palçığa bata-bata və tez-tez də nazik belindən sürüşüb düşən şalvarını yuxarı çəkə-çəkə araba yolu ilə geriyə gedirdi və bir azdan araba çənin içində tamam gözdən itdi, bütün dünyada hər tərəfi basmış o çəndən-dumandan başqa heç nə yox idi və o çənin, dumanın içində altı yaşlı o oğlan palçığa batıb-çıxan ayaqlarının altına baxa-baxa qaloşunu axtarırdı, hərdən çönüb arxaya – arabaya tərəf baxırdı, amma heç nə görmürdü və o zaman o çəndən, elə bil, bir topa ayrılıb bir nigarançılıq oldu, təşvişə çevrildi və o uşağın içinə doldu, ürəyi həyəcanla tez-tez döyünməyə, o təşviş içini oymağa başladı.

Əlbəttə, o uşaq kəndlə meşə arasındakı o araba yolunu yaxşı tanıyırdı və bu yolla üzüaşağı gedib bir azdan kəndə çıxmaq onun üçün elə çətin bir şey deyildi və oğlan da bunu bilirdi, amma hər tərəfi bürümüş o çənin içində, o dəm, elə bil, nağıllardakı tilsimlər aləminin xofuna oxşayan və adamı üşüdən nəsə bir şey var idi.

O qaloşları atası üç-dörd ay bundan qabaq rayon mərkəzindən onun üçün hədiyyə alıb gətirmişdi və par-par parıldayan o qaloşlar o zaman onu çox sevindirmişdi, bir müddət ürək eləyib qaloşları geyməmişdi ki, palçığa, torpağa bulaşacaq, amma elə ki, qaloşları geydi, o qaloşlar da evləri kimi, həyətləri kimi, kəndləri kimi, o eşşək arabası kimi adi bir şeyə çevrildi.

Oğlan isə, özü də gözləmədən ağlayırdı və tez-tez burnunun suyunu darta-darta nəhayət ki, palçığa batıb qalmış o qaloş tayını tapdı və o biri ayağındakı qaloşu da çıxartdı, hər əlində bir qaloş tutub, yalın ayaqları ilə palçığa bata-bata geriyə qaçmağa başladı. Hərdən şalvarı belindən sürüşüb düşürdü və oğlan bir anlıq dayanırdı, qaloş tutduğu yumruqları ilə şalvarını yuxarı dartıb, təzədən üzüaşağı qaçırdı.

Çən get-gedə sıxlaşırdı, ona görə də, araba, elə bil, birdən-birə yerin içindən çıxıb, oğlanın qarşısında peyda oldu və oğlan tövşüyə-tövşüyə qaloşların ikisini də bir əlinə alıb, o biri əli ilə arabanın arxasından yapışdı, dərindən rahat bir nəfəs aldı və təqsirkar olduğu üçün, odunların təpəsindəki gözəl yerinə dırmaşmağa cürət etməyib, eləcə, bir əlində iki qaloş, o biri əli də arabanın arxasında addımlamağa başladı.

Bir az beləcə getdilər və birdən atası eşşəyin ipini dartıb arabanı saxladı, başını geri çevirib tez-tez burnunun suyunu dartan oğlana:

– Qalx yuxarı!..– dedi.

Elə bil ki, əlli səkkiz-əlli doqquz il bundan əvvəlki o çənin-çiskinin içindəki o «qalx yuxarı!»nın istisi-ilığı, birdən-birə şairin, bir-birinə qarışmış fikirlərilə, hisslərilə, yuxu və real həyat arasındakı görümləriylə dolu olan, amma soyuq, qurumuş beyninə yüngül bir hərarət gətirdi...

... ılıq və xoş bir meh əsdi...

* * *

... kəpənək zərifliyi ilə pəncərənin qabağında dayanmış o penuarlı qız o zaman ruhlar dünyasının sorağında idi...

* * *

Pensiyaya çıxmış (göndərilmiş!) KQB polkovniki Məmməd müəllim qoğala oxşayırdı: gödəkboylu, kök, girdəsifət, hamar yanaqları qırmızı, yumru başı da daz – bir sözlə, görkəmi bir az gülməli idi, amma Məmməd müəllimin xasiyyəti, xarakteri görkəmi kimi gülməli deyildi və Məmməd müəllimin pişik gözlərinə oxşayan və həmişə də işım-işım işıldayan yaşıl gözlərinə baxanda, hərdən, adam xoflanırdı və Məmməd müəllimin bir xüsusiyyəti də ondan ibarət idi ki, danışanda adamın üzünə baxmırdı, başının üstündə naməlum bir nöqtə qaralayıb, o nöqtəyə baxırdı.

Məmməd müəllim Bakıda hamını tanıyırdı, amma Məmməd müəllimin özünü çox az adam tanıyırdı və toyda da, yasda da, kimdən söz düşürdüsə, bir küncdə oturmuş Məmməd müəllim mənalı-mənalı gülümsəyirdi, bir söz demirdi, amma söhbətə qulaq asırdı və bəzən bir kəlmə ilə kiminsə səhvini (texniki səhvini) düzəldirdi, məsələn, kimdənsə söhbət əsnasında deyirdilər ki, filankəsin yaşı da altmışı keçib, Məmməd müəllim eləcə mənalı-mənalı gülümsəyib dəqiqləşdirirdi: «– Əlli yeddi yaşı var», yaxud deyirdilər ki, filankəs, deyəsən, salyanlıdı, Məmməd müəllim yenə də gülümsəyib: «– Atasının əsli Irandandı, anası şamaxılıdı» – deyirdi və sairə.

Məmməd müəllim şairlə quda olana qədər, bu adamlar bir-birilərini tanımırdılar, daha doğrusu, şair Məmməd müəllimi tanımırdı, amma hərdən, şair öz həyatı, yaradıcılığı ilə bağlı nəsə danışanda, Məmməd müəllim onun da səhvini düzəldirdi, elə söz deyirdi, elə replika verirdi ki, şair mat qalırdı, «– Əşşi,– deyirdi,– sən mənə məndən yaxşı bələdsən ki!..»

Şair məclis xoşlayan adam idi və qohum olandan sonra, məclislərinə, məcbur olub, Məmməd müəllimi də dəvət edirdi və Məmməd müəllim bütün məclis boyu susub, hərdən eləcə mənalı-mənalı gülümsəyirdi və hərdən kiminsə kim haqqındasa dediyi texniki səhvini düzəldirdi.

Evdə, ancaq özləri olanda, kiçik qız Məmməd müəllimə «Santexnik» deyirdi və böyük bacısını acıqlandırmaq istəyirdi:

– Nu, kak tvoy santexnik pojivayet?

Böyük qız:

– Tı sama santexnik!– deyirdi, amma özünü gülməkdən saxlaya bilmirdi.

Əminə xanım:

– Xvatit!– deyirdi.– Bəsdirin! Gedib kişinin qulağına çatar, yaxşı deyil...

Və Əminə xanımın bu «gedib kişinin qulağına çatar»ı bəzən şairin yadına düşərdi və ona ləzət eləyərdi, şair «santexnik» sözünün top kimi dığırlana-dığırlana gedib Məmməd müəllimin qulağına girməyini bir cizgi filmi kimi gözlərinin qabağına gətirərdi, gülərdi və kefi kökələrdi.

Amma bir dəfə Məmməd müəllim şairə bir söz dedi, o söz heç «santexnik»in dediyi sözə oxşamırdı və «santexnik» sözünün ləzzətinə, nəsə, xoşa gəlməyən bir şey qatırdı.

Növbəti bir məclisdən əvvəl (gərək ki, Əminə xanımla evlənməklərinin növbəti ildönümü idi), şairin iş otağında oturub, ikilikdə söhbət zamanı (Məmməd müəllim həmişə məclislərə vaxtından əvvəl gələrdi ) Məmməd müəllim gülümsəyib, şairin başının üstündə naməlum nöqtəyə baxa-baxa, həmişəki ahəstə səsi ilə:

– Axır vaxtlar çox millətçi şerlər yazırsan... – dedi. – Bir az ehtiyatlı ol... Düzdü e, indi kanyuktura belənçinədi, ancaq... – Daha artıq mənalı-mənalı güldü. – Sən ehtiyatlı ol... Türkiyəyə də çox aludə olma... Hə? – Bu dəfə Məmməd müəllimin təbəssümü bütün sifətinə yayıldı və yaşıl gözləri də daha çox işıldadı.– Elə bilirsən, day Sovet hökuməti qayıtmayacaq? Hə?

Məmməd müəllimin bu «hə?»ləri bir müddət şairin yadından çıxmadı və şair bu «hə?»lərdə heç bir perspektiv görməsə də, bir müddət narahat oldu.

* * *

Illər ötürdü, elə bil, zaman da meşədən gətirilən odun kimi bir yük idi və o yükü də eşşək arabası çəkib irəli aparırdı, aylar günləri, illər ayları əvəz edirdi və illərin eləcə eşşək arabasının sürətilə ötməyinin qəribə bir ab-havası var idi, o ab-havanı söz ilə ifadə etmək mümkün deyildi və şair, bəzən, elə bil ki, o ab-havanın rəngini görürdü, amma bu, nə rəng idi? qırmızı idi? yaşıl idi? sarı idi? – bunu da demək mümkün deyildi, bəzən o rəng (naməlum rəng!), elə bil, çönüb meh kimi bir şeyə çevrilirdi – o uzaq illərdən gələn meh – amma o meh də tez əsib (?) keçirdi.

Və bir-birini eləcə aramla əvəz edən illər o eşşək arabasındakı odun yükünün təpəsində oturmuş o uşağı şair elədi, sonra o illərin araba sürəti şairi Bakıya gətirən qatarın sürəti ilə əvəz olundu, sonra da illərin o qatar sürəti Moskvaya, Kiyevə, Cakartaya, Daşkəndə, Havanaya, Kəraçiyə, Akkraya, daha nə bilim, haralara uçan təyyarə sürətinə çevrildi, illər uçdu...

uçdu...

uçdu...

uçdu...

* * *

Şair başa düşürdü ki, bu, gerçəklik deyil, amma bu, yuxu da deyildi, bu, yuxu ilə gerçəklik arasındakı bir görüm idi (hadisə idi? əhvalat idi?) və şair ağappaq uzun qıvrım saçları pırpızaqlı, sifətini qırış basmış, dişləri töküldüyü üçün, alt çənəsi, az qala, burnunun altına qədər gəlib çıxan o qoca zənci qadını görən kimi, tanıdı: əlbəttə, bu qarı – Anjela Devis idi.

Şair, heyrət içində, bu dərəcə qocalmış o zənci qarıya baxırdı.

Qarı da iri və görkəminə heç cürə yaraşmayan canlı qara gözləri ilə şairin gözlərinin içinə baxırdı, elə bil, bu ilk görüşdən şairin içinə daxil olmaq istəyirdi və ən təsirlisi də bu idi ki, şair bütün vücudu ilə hiss edirdi ki, bu qarının baxışları, həqiqətən, onun, yəni şairin içinə daxil olur, içini gəzir, beynindəki kirəcləşmiş qatları bir-bir qaldırıb altına baxmaq istəyir və baxır.

Bu, müdhiş bir hissiyyat idi və şair istəmirdi ki, o baxışlar onun bütün içini görsün, amma heç nə edə bilmirdi, qarının baxışlarını heç cürə içindən qovub çıxara bilmirdi.

Və birdən o zənci qarı iri və canlı qara gözlərini qırpdı və onun baxışları şairin içindən çıxdı (şair bunu cismən hiss etdi) və qarı uzaqlaşıb həmişəlik yox olmazdan əvvəl şairə (nədənsə, rus dilində) dedi:

– Durak!

* * *

**Yazılmamış şerlərdən:**

anasının dolu əmcəyini
əmən çağanın
ağzının kənarlarından

axan süd
damcı damcı
düşdü
döşəmənin üstünə

milçək uçdu
o damcıların üstünə
ayaqlar altında qaldı damcılar
kirləndi
qara yapışqan kimi
ləkələr saldı döşəməyə

kirli ləkə düşdü
çağanın gözlərinə
kirli ləkə düşdü
dodaqlarının təbəssümünə
kirləndi
dolu əmcəkdən gələn su
kir iyi gəldi
çağanın nəfəsindən
kir qoxudu
qırmızı göy güllü gözəl papağı
ağappaq bələyi kirləndi.

kirli çağa
dolu əmcəkdən
kirli süd əmirdi
dünyaya yeni insan gəlirdi

* * *

Həmin qış günü səhərə yaxın birdən-birə gilavar əsməyə başladı, get-gedə bərkidi, mənzilin pəncərələrinin, eyvan qapılarının səsi küləyin vıyıltısına qarışdı və şairin çarpayısının qabağındakı kresloda oturub arabir huşa gedən Əminə xanım, hər dəfə gözü yumulduqca, elə bil, küləyin o pəncərə, qapı titrəməsinə qarışmış vıyıltısı onu götürüb hansısa bir boşluğa aparırdı və o boşluq içində Əminə xanım, birdən, elə bil ki, büdrəyirdi, səksənib, təzədən gözünü açırdı və Bakının o küləkli qış səhərini Əminə xanım eləcə kreslonun üstündə açdı.

Şair hərdənbir gözlərini qıyıb tavana baxırdı, hərdənbir də inildəyirdi və Əminə xanım bütün bu həftələr ərzində ilk dəfə şairin gözlərində belə bir diqqət, zənd gördü, elə bil, şair, keçən il təmir olunmuş ağappaq hamar tavana yox, nəsə başqa bir şeyə baxırdı, hətta, elə bil ki, nəsə oxuyurdu, amma Əminə xanım o saat orasını da başa düşdü ki, bu diqqət, bu zənd, elə bil, şairi özü ilə çəkib aparmaq istəyir və şairin o iniltisi də onun bir qucaqlıq olmuş cisminin zəif müqavimətidir.

Əminə xanım yavaşdan şairi səslədi, sonra ovcu ilə şairin bir dəri, bir sümüyü qalmış və saralmış alnını sığalladı, amma şairin heç bir reaksiyası olmadı və onun alnı da Əminə xanıma əvvəlkindən sərin gəldi və Əminə xanım gözlərini yumub bir müddət küləyin o vıyıltısına, qapı-pəncərənin səsinə qulaq asdı, sonra dərin bir köks ötürdü, oğlunun, qızının yatdığı otaqlara gedib onları yuxudan durğuzdu:

– Durun, papa, deyəsən, pisdi.

Bu evdə hamı belə bir məqama hazır idi (əslində, bu evdə hamı belə bir məqamı gözləyirdi).

Oğlan da, qız da gec yatıb, gec duran olduqları üçün, güclə yerlərindən qalxdılar, Əminə xanım böyük qızın da evinə zəng edib onları da yuxudan durğuzdu və xahiş elədi ki, Məmməd müəllimə də desinlər ki, gəlsin (belə vaxtlarda evdə təcrübəli bir kişi xeylağı olmalı idi, Əminə xanımın da ilk ağlına gələn Məmməd müəllim oldu) və o küləkli qış səhəri Məmməd müəllim şairin mənzilinə daxil olanda hamı şairin otağına yığışmışdı.

Məmməd müəllim bir söz deməyib başının işarəsi ilə otaqdakılara salam verdi, sonra yaxınlaşıb, hərdən halsız inildəyən və gözlərini də hərdən eləcə qıyıb tavana zilliyən şairə baxdı və acı-acı, daha doğrusu isə, mənalı-mənalı gülümsəyib Əminə xanımdan soruşdu:

– Vəsiyyət eləyibdür?

Əminə xanımın üzülmüş gözləri bərəldi:

– Nə?

Məmməd müəllim sualını təkrar etdi:

– Vəsiyyət də... Vəsiyyət eləyibdür?

Əminə xanım:

– Yox...– dedi.

Kiçik qız nigarançılıqla şairə baxdı, sonra Əminə xanıma, sonra böyük bacısına, sonra da onun qayınatasına, yəni Məmməd müəllimə baxdı və pıçıldadı:

– Papa eşidər axı...

Məmməd müəllim bir balaca tənə ilə gülümsəyib, kiçik qıza yox, oğluna baxdı və:

– Gərək son arzusunu biləsüz, ya yox?– dedi.

Gilavar birdən-birə bərkidiyi kimi, birdən-birə də azalmışdı və indi küləyin vıyıltısı, elə bil, çox uzaqlardan gəlirdi və elə bil, qapı-pəncərələr də Məmməd müəllimin sözlərinə qulaq asmaq üçün, səslərini kəsib sükuta dalmışdılar.

Məmməd müəllim şairin çarpayısına yaxınlaşdı və şairin qulağına tərəf əyilib, yaşıl gözlərini şairin başının üstündən divardakı naməlum bir nöqtəyə zilləyərək yavaş səslə soruşdu:

– Bir sözün yoxdu? Nə istəyirsən?

Kiçik qız gözlərini yumub üzünü yana çevirdi.

Böyük qız ani olaraq fikirləşdi ki, bu səhər Əminaşkanı, gərək, bağçaya aparmayaydı, özü ilə bura gətirəydi, düzdü, bağçada ingilis dili dərsi keçirdilər və bu dərsi ötürmək düz deyildi, amma, buna baxmayaraq, gərək, uşağı özü ilə bura gətirəydi, çünki şair indi Əminaşkanı arzulaya bilərdi, onu görmək istəyərdi və böyük qız sidq-ürəkdən özünü suçlayaraq hiss etdi ki, elə belə də olacaq.

Məmməd müəllim gözlərini şairin başının üstündən eləcə naməlum nöqtəyə tuşlayıb, ağzını bir az da onun qulağına yaxınlaşdırdı və səsini də bir az qaldırıb təzədən soruşdu:

– Bir şey istəyirsən?

Şairin tamam arıq və qansız sifətindən güclə seziləcək bir təbəssüm ötüb keçdi və şair eləcə tavana baxa-baxa zəif səsiylə:

– Araba...– dedi.– Araba istəyirəm...

Məmməd müəllim:

– Nə?– soruşdu.– Araba?

Şair gözlərini tavandan çəkməyib eləcə zəif səsi ilə təkrar etdi:

– Hə... Araba... Araba istəyirəm...

Məmməd müəllim başını qaldırıb otaqdakılara baxdı, sonra da yenə o cür mənalı-mənalı gülümsəyib yavaşca başını buladı:

– Sayıqlayır... Araba istəyir...– dedi.

Böyük qız özünü saxlaya bilməyib hıçqırdı.

Kiçik qız:

– Mama...– deyib qorxu və həyəcanla Əminə xanımı qucaqladı.

Oğlan şaşqın bir vəziyyətdə:

– Araba istəyirəm?..– deyə öz-özünə atasının son sözlərini təkrar etdi və qəhər onu boğdu.

O dəm, hətta, Məmməd müəllimin də gözləri yaşardı.

Məmməd müəllimin gözləri axırıncı dəfə düz on yeddi il bundan əvvəl – onda gözləri konyuktivit olmuşdu – yaşarmışdı, bir də ki, bax, indi, xalqın bu boyda şairinin son məqamda beləcə araba istəməsi onu kövrəltdi.

*Fevral, 2002.*

*«Qaçqınlar» silsiləsindən*

## «QARABAĞ ŞIKƏSTƏSI»

*(Fransız ətri və Ağadadaş ilə*
*Balacaxanımgilin Qırmızı*
*xoruzunun bəy axtarışı haqqında)*

### I

... sonra uzaqdan elektrik qatarının çarxlarının səsi eşidildi...

Bakıdan gələn elektrik qatarı Buzovnadan keçib Mərdəkana, Şüvəlana, oradan da Hidro-Elektrik Stansiyası qəsəbəsinə gedib, eyni marşrutla da geri qayıdırdı və hər dəfə Buzovnadakı fəhlə yataqxanasında o elektrik qatarının uzaqdan gələn səsi eşidiləndə həyatında birinci dəfə Bakıya gəlməyi Cümünün yadına düşürdü və içmiş vaxtı olanda bir loxma qəhər onun boğazında tıxanıb qalırdı, içməmiş vaxtı olanda isə, durub gedib haradansa araq tapıb içmək istəyirdi.

O vaxt – söhbət it əyyamında qalmış o gözəl illərdən gedir – Cümü Şuşada orta məktəbi bitirib, anasının yığıb qabladığı balaca çamadanı da götürüb həyatında ilk dəfə səfərə çıxdı, avtobusa minib Şuşa dağlarından endi, bu ilk səfərin möcüzəsi içində Xankəndinin böyründən ötüb Ağdamdan, Bərdədən keçdi, iyul günəşi altında od tutub yanan Yevlaxa gəldi, orada da qatara minib ümumi vaqonda qatar çarxlarının heç vaxt yadından çıxarmayacağı tuqqa-tuku ilə Bakıya – universitetə imtahan verməyə getdi.

Onda Cümüyə elə gəlirdi ki, o dəmir çarxların səsini sədası Şuşa dağlarından gələn bir «Qarabağ şikəstəsi» müşayiət edir və o şikəstə müşayiətli tuqqa-tuk Cümünü təkcə universitet imtahanlarına yox, başqa bir dünyaya aparırdı və o başqa dünya coğrafiya xəritələrində deyildi, Cümünün fikrində, xəyalında idi, o başqa dünya – işıqlı, hərarətli, sirli-sevincli bir gələcək idi və əlbəttə, o zaman Cümü hardan biləydi ki, həmin gələcək lax yumurta kimi bu qədər iyli-üfunətli olacaq...

### II

Izabel Xanukoff biləndə ki, Azərbaycana gedəcək, elə həmin an anası gözlərinin qabağına gəldi və elə həmin anda da ürəyindən bir sızıltı keçdi, elə bil, içində səssiz-səmirsiz, yumşaq bir şimşək çaxdı və o səssiz şimşəyin Izabelin bütün bədəninə yayılan əyri-üyrü xətləri eləcə əyri-üyrü xətlər boyunca da qızın ürəyini sızıldatdı.

Ziba – Izabelin anası – on dörd il idi ki, ağ ciyər xərçəngindən vəfat etmişdi və həmin 1989-cu ildə Izabelin on səkkiz yaşı var idi və aradan keçən bu on dörd ildə Izabelin ürəyində çox həzin, çox kədərli bir nostalgiya hissi var idi, o nostalgiya Ziba nostalgiyası idi, bəzən üzə çıxırdı, yandırıb yaxırdı, bəzən də, çaxır çöküntüsü şüşənin dibinə yatan kimi, qızın ürəyinin dibinə çökürdü, amma heç vaxt yox olmurdu.

Illər keçirdi, amma o Ziba nostalgiyası eləcə Izabelin ürəyinin içində idi, hətta bəzən bu cavan və sərbəst qızın həyatının hansısa gözəl məqamlarında bir müddət o nostalgiya lap dibə çökürdü və həmin məqamlarda Izabel birdən gözlənilməz bir təlaş hissi ilə diksinib o Ziba nostalgiyasını tələsik üzə çıxarırdı, çünki artıq on dörd il idi ki, ürəyində gəzdirdiyi o hissiyyat da bu qızın gündəlik həyatının tərkib hissəsi idi.

Izabel özündən böyük qardaş və bacılarından fərqli olaraq, Azərbaycanı görməmişdi, Izraildə, Qüds ilə Iordaniya sərhəddi arasında Eriha deyilən kiçik bir şəhərdə anadan olmuşdu, amma «Azərbaycan» sözü də o Ziba nostalgiyasının içində Izabelin ürəyində idi, çünki Ziba həyatının iyirmi ildən artığını – 1968-ci ildən – Izraildə yaşasa da, onun fikri-zikri, hissləri heç cürə bu ölkəyə sığışmırdı, əcdadlarının diyarı kimi Izrailə hörmət etsə də, hətta, bu ölkəni sevsə də, düşüncəsi, hissiyyatı, xatirələri ilə bərabər uçub bu yerlərdən min kilometrlərlə uzaqlarda yerləşən Azərbaycana, Azərbaycanın Quba şəhərinə, doğulub böyüdüyü, məktəb bitirdiyi, ərə getdiyi Qırmızı Qəsəbəyə qonurdu.

Əlbəttə, haçansa gözəl Qubada, Qubanın gözəl Qırmızı Qəsəbəsinin Azərbaycan dilli orta məktəbində coğrafiya dərsi keçən və yəqin ki, Iordaniyanın adını ilk dəfə elə o dərsdə eşidən, xəritədə görən al qalstuklu pioner Ziba Xanukovanın ağlına da gəlməzdi ki, illər keçəcək və Allahın ona verdiyi ömrü Iordaniya sərhədlərində davam edib, orada da başa vuracaq.

Ziba qohumlarının dəvəti və ərinin təkidilə bütün ailəsilə birlikdə Izrailə köçdü, Qırmızı Qəsəbədə nələri varıydısa, satdılar, qohum-əqrəbaya, tanış-bilişə bağışladılar və Zibanın əri elə fərz elədi ki, daha Qırmızı Qəsəbədə heç nələri qalmadı, amma sonralar başa düşdü ki, Qubada, Qırmızı Qəsəbədə Zibanın (elə onun özünün də!) ürəyi qalıb. Ömür isə, Qudyalçayın suları kimi axıb gedirdi və o sular heç vəchlə geriyə axa bilməzdi.

Izabel bilirdi ki, Qırmızı Qəsəbə Azərbaycanda yaşayan dağ yəhudilərinin – yəhudi tatların yaşadığı bir yerdir, gözəl bir çayın sahilindədir, meşəli dağların arasında güney bir çöllükdədir və Izabel tez-tez bunun da şahidi olurdu ki, Izraildə yaşayan yəhudilər, hətta, SSRI-nin başqa respublikalarından, Rusiyanın özündən, Ukraynadan, Belorusiyadan Izrailə köçüb gəlmiş yəhudilər Qubanı tanımayanda, Avropadan köçüb gəlmiş yəhudilər isə bəzən Azərbaycanın da adını birinci dəfə eşidəndə, Ziba necə pərt olurdu. Ziba Xanukova, yeri düşdü-düşmədi, deyəndə ki, mən Qubadan gəlmişəm, bəzən adamlar elə başa düşürdülər ki, söhbət Kubadan gedir və təəccüb edirdilər: «Kubada da yəhudilər var?», guya, Fidel Kastro var idisə, orada yəhudi ola bilməzdi, amma Zibaya təsir edən bu deyildi, o idi ki, bu insanlar Quba kimi bir yerin heç adını da eşitməyiblər və belə vaxtlarda Ziba, elə bil, Qudyalçayın, Qəşrəş meşələrinin, igidlərin at oynatdığı Quba dağlarının qarşısında xəcalət çəkirdi və ağlamsına-ağlamsına Izabelə deyirdi:

– Sənin oğlun olanda adını Aydın qoyacam!..

Məsələ burasında idi ki, Ziba hələ onuncu sinifdə oxuyanda – 1959-cu ildə (keçən əsrin ortalarında!) – Qırmızı Qəsəbənin dram dərnəyində ilk dəfə azərbaycanlıların məşhur bir dramaturqunun əsərində Gültəkin rolunu oynamışdı və Aydın da Gültəkinin sevgilisi idi.

Anasının bütün bu söhbətlərinin hamısı Izabelin uşaqlıq xatirələrinə hopub qalmışdı və bir dəfə bu ad – Aydın – yenə onun yadına düşəndə Internetə baxdı və təkcə belə bir məlumat aldı ki, Türkiyədə Aydın Hətiboğlu adlı bir şair var, amma Zibanın, əlbəttə, Aydın Hətiboğlundan xəbəri yox idi və Izabel bəzən, az qala, cismani surətdə hiss edirdi ki, oğlu olsa və oğluna Aydın adı qoysa, Zibanın ruhu şad olacaq.

Amma Izabelin hələ ki, ərə getmək fikri yox idi.

Düzdü, dünyada qaçqınlar çox idi, Izabelin də işi qaçqınlarla bağlı idi və qaçqınların həyatı, onlarla hər bir görüş yalnız mənfi emosiyalar verirdi, düzdü, bu cavan qızın ürəyində daimi bir ana nostalgiyası var idi, amma, həyat ki, təkcə qaçqınlardan və təkcə o nostalgiyadan ibarət deyildi...

## III

Xəzərin sahilində, Buzovna ilə Zuğulbanın arasında sal qayalıq var idi və yüngül meh əsən sakit gecələr, xüsusən səhərə yaxın, dəniz uğuldayanda, elə bil, bu qayalar da dənizin uğultusuna səs verib uğuldayırdı və evləri sahildən təxminən bir yarım-iki kilometr aralıda olan Ağadadaş elə yuxuda ikən o dəniz-qayalıq uğultusunu eşidirdi – bu, təhtəlşüur bir hissiyyat idi və həyatının ən gərgin, ən qayğılı, ən yorğun günlərində belə, səhərə yaxın yuxuda eşitdiyi (hiss etdiyi?) o müştərək uğultu Ağadadaşın bütün vücuduna bir rahatlıq gətirirdi, hətta, Ağadadaşa elə gəlirdi ki, səhərə yaxın dəniz o kiçik qayalığın uğultusunu gözləyir və uğultusu qayalıqdan geri qayıtmalıdı ki, Abşeronda, Buzovna sahillərində dəniz üçün səhər açılsın.

Bəzən Ağadadaş fikirləşirdi ki, dənizlə qayalığın o müştərək uğultusunu əlli il, yüz il, iki yüz il bundan əvvəl onun atası, babaları da beləcə eşidib və bu fikir, elə bil, həmin uğultunu Ağadadaşa daha doğma, daha məhrəm edirdi, yay aylarında səhərə yaxın onun vücuduna yayılan rahatlıq özü ilə bərabər yüngül bir sərinlik də gətirirdi və həmin sentyabr səhəri də, həmişəki kimi, qırx illik arvadı Balacaxanımla bərabər, kürsülü evinin üzü dənizə olan artırmasında, taxta döşəmədə salınmış yerində yatmış Ağadadaş o gözəl rahatlıq içinə təzəcə girmişdi ki, Qırmızı xoruzun vaxtından əvvəl banlaması bütün həyəti başına götürdü.

Ağadadaş səksəkə içində yuxudan oyanıb yerində oturdu və rəngi solmuş göy maykasının altından arıq və tükü ağarmış sinəsini qaşıya-qaşıya filtrsiz siqaret çəkməkdən xırıldayan səsi ilə:

– Alə, bu nə axmaq oğlu axmaq xoruzdu belə, alə?– dedi.

Balacaxanım adyalın altından pırtlamış kök bədənini qurcalayıb yuxulu-yuxulu:

– Fikir vermə, – dedi.. – yatginə...

Ağadadaş sövq-təbii əlini uzadıb yastığının yanında döşəməyə qoyduğu siqaretdən birini götürdü və:

– Necə fikir verməginə, ağəz, mənnəndi begəm?– dedi. – Bu əclafın bu boyda bannamağınnan sonra yatmaq olar?

Və elə bil ki, Qırmızı xoruz sahibinin bu sözlərini bir daha təsdiq etmək üçün var gücü ilə təzədən banladı.

Balacaxanım gözlərini açmayaraq Qırmızı xoruzun qarasına:

– Şoqəribə qalasan səni!.. – dedi.

Ağadadaş qırx-qırx beş il idi Bakı – Binə aeroportu – Buzovna – Zuğulba – Bilgəh – Maştağa – Zabrat – Bakı marşrutu ilə avtobus sürürdü (buna görə də kənddə hamı onu Avtobus Ağadadaş kimi tanıyırdı), iki gün səhərin gözü açılmamışdan gecəyə qədər işdə olurdu, evə gecənin yarısı gəlib çıxırdı, üçüncü günü isə istirahət edirdi və həmin sentyabr günü də həm Ağadadaşın istirahət günü idi, həm də, ümumiyyətlə, bazar günü idi və Balacaxanım da sidq-ürəkdən istəyirdi ki, kişi doyunca yatıb dincəlsin, ona görə də, indicə dediyi qarğışla kifayətlənməyib, yenə adyalın altında qurcalana-qurcalana Qırmızı xoruzun qarasına:

– Öləsən elə!.. – deyə dübarə bir qarğış da əlavə etdi.

Ağadadaş siqareti yandırıb ayağa qalxdı və xırıltıyla öskürə-öskürə gedib həyətin yuxarı başındakı hinin qapısını açdı:

– Çıx bayıra, əclaf oğlu əclaf!.. – dedi, sonra gedib həyətin də küçə qapısını açdı və səhərin gözü açılmamış Qırmızı xoruz qabaqda, toyuqlar da onun ardınca, tələsə-tələsə və qaqqıldaya-qaqqıldaya həyətdən çıxdılar.

## IV

O zaman Cümü universitetə imtahan verə bilmədi, əvvəlcə bir «3» aldı, sonra da «2» və həmin qatarla da Bakıdan Yevlaxa qayıtdı, amma Cümünün yadında qalan qatar çarxlarının səsi Yevlaxdan Bakıya gedən həmin qatarın səsi idi və həmişəlik də belə olacaqdı.

O səsi təkcə xatırlatmaq olardı, təkrar etmək isə mümkün deyildi və Buzovnadakı fəhlə yataqxanasının yarım kilometrliyindən keçən elektrik qatarının səsi də Yevlaxdan Bakıya gedən o qatarın səsini ancaq xatırladırdı və bu xatirədəki kədər Cümünün ürəyinin əlçatmaz, ünyetməz bir dərinliyində idi. Nə üçün belə idi?– Cümü bunun səbəbini bilmirdi, amma o kədər əvvəllər kəpənək kimi yüngül idi, bir gülüşə, Ağadədəli məhəlləsindəki orta məktəbin on birinci sinfinə gedib-gələn, elə o vaxtlar hərdən oğrun-oğrun eyvandan baxan Sonanın bir təbəssümünə bənd idi, uçub gedirdi və indiki zindan ağırlığında deyildi.

O universitet səfərindən sonra Cümünün həyatında gözəl hadisələr baş vermişdi, evlənmişdi, uşağı olmuşdu, Şuşanın sayılıb-seçilən taksi sürücülərindən biri idi, özünə yaxşı həyət-baca düzəltmişdi və o həyətdə bir armud varıydı ki, ağacdan dərib bir dəfə dişləyəndə şirəsi adamın bütün yaxasını isladırdı və indi ermənilər də yəqin o həyətdə Cümünün dədə-babasının goruna söyə-söyə o armudu ləzzətlə yeyirlər. Heç o həyət də olmasaydı, o ev-eşik də olmasaydı, heç arvad-uşaq da olmasaydı, Şuşanın özü ki, var idi və bu az idi bəyəm? Bunu fikirləşəndə, Cümü Şuşanın təkcə məhəllələrini, evlərini, bağlarını, düzlərini, sıldırım qayalarını yox, Topxana meşəsini, Cıdır düzünü, Ərimgəldini, Isa bulağını, Turş suyu, Səkili bulağı, hətta özünün doğulduğu və ömrü boyu yaşadığı Ağadədəli məhəlləsini yox, Şuşanın, az qala, bütün ağaclarını, daşlarını da bir-bir gözünün qabağına gətirirdi, hətta, Şuşanın kənarlarındakı böyürtkən kolları da köhnə (və doğma!) tanışlar kimi yadına düşürdü və bəzən Cümü özü də heyrətə gəlirdi ki, bu daşlar, bu ağaclar, kollar onun beyninə bu dəqiqliklə nə vaxt və necə həkk olub?

Cümü ömrü boyu Şuşanın Ağadədəli məhəlləsində yaşamışdı, çünki erməni gəlib Şuşanı alandan sonra ki, qaçdılar, qaçqın olub gəlib burada, Buzovnadakı bu fəhlə yataqxanasında məskunlaşdılar, aradan keçən bu on ildəki həyat Cümünün ömrü deyildi, bu başqa bir şey idi. Nə idi? Nə idisə də, Cümünün yaşadığı ömür – Şuşada, o Ağadədəli məhəlləsində qaldı və Cümü bütün sısqa vücudu ilə hiss edirdi ki, bir daha Şuşaya gedib o ömrü davam etdirməyəcək, ona görə yox ki, erməni haçansa Şuşadan qovulmayacaq, ona görə ki, Cümü elə burada öləcək və onun mafəsini Buzovnadakı fəhlə yataqxanasının həyətindən qaldırıb aparıb kənd qəbirstanlığının böyründə bir yer tapıb basdıracaqlar və bu ətrafın sümsük itləri də gəlib orda pislik edəcək.

## V

Elə ki, qəfil bir həmlə ilə Zibanı tutan xəstəlik onu nəfəs almağa qoymurdu, elə ki, təngnəfəs olub az qalırdı boğulsun, o zaman sidq-ürəkdən gələn bir təəssüflə (heyhatla!) deyirdi:

– Qəşrəşin havası lazımdı mənə... Qəşrəşin havası məni sağaldardı...

## VI

Şuşa camaatı və o cümlədən, Cümü gözünü açıb Gözlə-Gəlirəm Məmməd kişini Bazar başında çayçı görmüşdü və o çayxanada oturub çay gözləyə-gözləyə ondan soruşanda ki, «Məmməd dayı, bizim çayımız nə oldu?», Məmməd kişi əlindəki nəlbəki-stəkanları başqa mizin arxasındakı növbəti müştərilərinin qabağına düzə-düzə deyirdi: «– Gözlə, gəlirəm!» və üç göz qırpımından sonra o gözəl çay, həqiqətən, gəlib mizin üstünə düzülürdü. Bir mizin arxasında istəyir iki adam otursun, istəyir on adam, fərqi yox idi, Gözlə-Gəlirəm Məmməd kişi çayı birdəfəyə gətirirdi, özü də məcməyisiz – bir əlində (sağ əlində), hərəsi iki nəlbəki-stəkan beşmərtəbə çay sarayı gətirirdi və hələ Şuşada heç kim görməmişdi ki, Gözlə-Gəlirəm Məmməd kişi bircə dəfə əlindən stəkan salıb sındırsın, amma on il idi ki, Məmməd kişi Buzovnadakı bu fəhlə yataqxanasında yaşayırdı, Bazar başındakı o çayxana da, bir əlində tutduğu o beşmərtəbə çay sarayı da çayxananın kəklikotu, nanə, yarpız, hil, mixək, darçın qoxusu hopmuş ab-havası kimi, həmişəlik bir keçmişdə qalmışdı, Gözlə-Gəlirəm ayaması da o çayxana ab-havasına sadiq qalaraq yavaş-yavaş yaddan çıxıb getmişdi və indi Məmməd kişi özü birdən-birə o qədər qocalmışdı, o qədər əldən düşmüşdü ki, bir armudu stəkanı güclə əlində tutub çay içə bilirdi.

Fəhlə yataqxanasının həyətində qədim bir zeytun ağacı var idi və o qədim zeytun ağacının altında sovet dövründən qalma sınıq-salxaq bir skamya var idi və Məmməd kişi hər gün səhərin gözü açılandan yeddi nəfərin yaşadığı on səkkiz kvadratmetrlik otaqdan çıxıb həmin skamyada otururdu, bir də şər qarışanda durub o otağa qayıdırdı, nə yeyirdisə də, elə o skamyada yeyirdi, kimsə çay gətirəndə də elə o skamyada içirdi.

Və bir dəfə – iki il bundan əvvəl – axşamüstü Cümü tır-tırı həyətdə saxlayıb axırıncı – beşinci mərtəbədəki otaqlarına qalxmaq istəyəndə, zeytun ağacının altında otura-otura özü də həmin ağac və həmin skamya, onlardan o tərəfdəki böyük həyət kranı və üç iydə ağacı, bir az aralıdakı hay-hayı gedib vay-vayı qalmış iki dəmir zibil yeşiyi, bir az da aralıdakı suyu qurumuş quyunun paslanmış mancanağı kimi bu həyətin daimi bir hissəsinə çevrilmiş Məmməd kişi Cümünü saxladı:

– Bura bax, – dedi, – adam dəli olanda özü bilmir ki, dəli olub? Hı?– Sonra nəhayət ki, Cümünün adını yadına salıb: – Elədi, Cümü?– soruşdu.

Cümü əvvəlcə elə bildi ki, Məmməd kişi (Məmməd dayı, Gözlə-Gəlirəm Məmməd) ona söz atır, amma qocanın uzaqlara zillənmiş və rəngi tamam solub itmiş gözlərinə baxanda başa düşdü ki, Məmməd kişi (Məmməd dayı, Gözlə-Gəlirəm Məmməd) özündən nigarandı...

## VII

O gündən on bir ildən artıq keçirdi və Cümü hərdən o günü yadına salanda fikirləşirdi ki, bəyəm o günə də gün demək olar? Axı, gün yalnız o demək deyil ki, günəş çıxır, səhər açılır, günorta olur, sonra axşam düşür, günəş batır və gecə başlayır, gün odur ki, yaşayırsan, nəsə edirsən, amma o gün – 1992-ci ilin 8 may günü, ermənінin Şuşanı işğal etdiyi, camaatı qırıb qaçırtdığı gün – heç cürə gün sözünün içinə sığışmırdı. O gün – camaatın quru canını götürüb qaçdığı o gün Allahın verdiyi gün deyildi, o 8 may günü Şeytanın şuşalılara hədiyyəsi idi, amma şuşalıların Allahın qarşısındakı günahı nə idi ki, Şeytan onlara belə bir hədiyyə edirdi? – Cümü, xüsusən də üç yüz qram araqdan sonra, nə illah edirdi, bu sualın cavabını tapa bilmirdi.

Şuşadan qaçqın düşüb salamat qalanlar gəlib Ağdama yığışdı, sonra hərə gümanı gəldiyi bir yerə, bir qisim də Bakıya üz tutdu və Cümügil on ildən çox idi ki, burada – Buzovnadakı bu fəhlə yataqxanasında qalırdılar. Fəhlə yataqxanası bütünlüklə qaçqınlara verilmişdi və Cümügil altı nəfər – Cümü idi, anası Güllü arvad idi, Sona idi, Cəmilə idi, Qalib idi, bir də Sonanın böyük bacısı Solmaz idi – yataqxananın beşinci mərtəbəsində on altı kvadratmetrlik otaqda qalırdılar. Bu otağın da qapısı beşinci mərtəbədəki o biri otaqların qapısı kimi uzun aralığa açılırdı və o uzun aralıqda, xüsusən yay vaxtı xlor iyindən dayanmaq olmurdu, çünki aralığın hər iki başında tualet var idi və mərtəbənin arvadları gecə-gündüz ora xlor tökürdülər ki, üfunət-çirkab aləmi başına götürməsin. Hər halda, xlor iyi üfunətdən yaxşı idi və orası da yaxşı idi ki, bu yerlərdə xlordan ucuz şey yox idi.

## VIII

Izabel Xanukoff artıq yeddinci il idi ki, Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar Üzrə Ali Komissarlığında işləyirdi və kədərli təəssüratlarla dolu çətin işinin müqabilində aldığı maaşın qədrini bilirdi, amma bu dəfə, yəni həmin sentyabr günündən beş gün əvvəl Azərbaycana ezamiyyət sənədlərini və xərclərini alıb Ali Komissarlığın Cenevrədəki ofisindən çıxanda, ürəyindəki o Ziba nostalgiyası onu marketlərdən birinə apardı və Cenevrədə qiymətlərin çox baha olmasına baxmayaraq, Izabel Azərbaycanda hansısa bir azərbaycanlı qaçqın qadına bağışlamaq üçün, yəni kiçik və yaraşıqlı bir şəxsi hədiyyə etmək üçün bir şüşə fransız ətri aldı – «EMPREINTE» və onu hədiyyə kimi gözəl bağlatdırdı.

Əlbəttə, o qaçqın azərbaycanlı qadın bilməyəcəkdi ki, əslində, bu hədiyyə – bir vaxtlar Azərbaycanda yaşamış və Azərbaycan sevgisini özü ilə birlikdə Azərbaycandan min kilometrlərlə uzaq bir diyarda qəbrə aparmış Ziba Xanukova adlı bir qadının hədiyyəsidir, amma bunun nə dəxli var idi? Əsas məsələ o idi ki, Zibanın ruhu şad olacaqdı.

## IX

Həmin sentyabr günündən bir müddət əvvəl məlum oldu ki, növbəti dəfə xaricdən nümayəndələr gəlib qaçqınların həyatı ilə tanış olacaqlar. Fəhlə yataqxanasında yaşayan arvadların bir neçəsi həyətdəki krantın qabağında dayanmışdı və günortalar çox işləndiyi üçün suyu yataqxananın yuxarı mərtəbələrinə qaldırmağa nasosun gücü çatmadığına görə, arvadlardan kimisi bir vedrə su doldurmuşdu, kimisi çirkli boşqabları yumuşdu, amma evə (otaqlara) qalxmağa tələsmirdilər. Bu krantın yanı yeganə yer idi ki, qaçqın arvadlar orada bir-birindən təzə xəbərləri eşidirdilər, Allahın hər verən gününün qayğılarını, əzab-əziyyətlərini bölüşürdülər, kiminsə, nəyinsə qarasına danışırdılar, ürəklərini boşaltmağa fürsət tapırdılar.

Krantın arxa tərəfində üç dənə böyük iydə ağacı var idi və kəndin camaatı deyirdi ki, vaxtilə buralar başdan-başa neftxuda Məşədi Ağarəhim Mir Abdulla oğlunun iydə, innab badam və püstə bağı olub, sonra, yəni sovet vaxtı – iyirminci illərdə bura xarabaya dönüb, səksən yaşlı Məşədi Ağarəhimin özünü də bolşeviklər tutub güllələyiblər və bu üç iydə ağacı da ondan və onun o gözəl bağından yadigar qalıb.

Həmin sentyabr günündən bir müddət əvvəl o arvadlar it ləhlədən istinin və evdəki (otaqdakı) nəm bürkünün əlindən o iydə ağaclarının kölgəsində ayaq saxlayıb söhbət edirdilər.

Kolxoz kişinin dul arvadı Xədicə dedi:

– Az, deyirlər xaricdən yenə qəmisyə gələcək...

– Onnarın qəmisyəsi başlarına dəysin!.. Gəlib nağayrajaqlar, az? Indiyədək gəlib-gedib nağayrıblar ki, bunnan sonra da eləsinlər?.. – Bunları da Gözlə-Gəlirəm Məmməd kişinin arvadı Sürəyya xala dedi.

Sonra o biri arvadların da giley-güzarı bir-birinə qarışdı.

– O qəmisyədəkilər gəlib bir gün burda bizim günümüzdə yaşasınlar, onnan sonrasına baxarıq!..

– Az, bunnar hamısı erməninin şipyonudu!..

Bu vaxt Cümü ilə Sona yataqxananın yeganə blokundan çıxdılar, Cümü motorollerini işə saldı, Sona da qalxıb kuzova atılmış köhnə ehtiyat təkərin üstündə oturdu.

– Cümü bunu hara aparır, az?

– Teatra!.. Hara aparacaq? Bilmirsən?

– Vallah, bunun, heç olmasa, tır-tır lafeti var, öz arvadıdı, hara istəyir, ora da aparır! Bizim kişilər neyləsin? Səkkiz nəfər bir otaqdayıq! Sən də qəmisiyədən danışırsan! On bir ildi nağayrıb bizə o qəmisyə, hı?

– Düz deyir, dayna! Odu ha, dağ kimi Məmməd indi oturub o sınıq-salxax skamyada, bərkdən özü özüylə danışır!.. Bu da sənin qəmisyən! – Bu son sözləri də Sürəyya xala dedi.

## X

Həmin sentyabr günü Qırmızı xoruzun o vaxtsız banlamağı sübh tezdən Ağadadaşın kefinə soğan doğramışdı və bu azmış kimi, üstəlik, səhər çay-çörəyindən sonra, onlarla üzbəüz həyətdə yaşayan Bolelşik Bufetçi Ibadullayla nərd oynayıb dalbadal üç tas uduzdu və bütün bunlar da azmış kimi, günorta nahar vaxtı evə qayıdanda Balacaxanım bu istirahət günü xüsusi olaraq əri üçün bişirdiyi bir kasa bozbaşı, pamidor-xiyarı, sirkə-badımcanı, duzu, bibəri onun qabağına qoyub:

– Şoqəribə qalmış xoruz yoxdu, qeyitmiyib...

Ağadadaş bütün Buzovnada ən gözəl çörək bişirən Hacı Əliağanın təndirindən təzəcə çıxmış isti çörəyi kasanın içinə – bozbaşın suyuna doğraya-doğraya:

– Bəs toyuqlar?– soruşdu.

Balacaxanım:

– Ikisi yoxdu... Qalanları hindədi, qeyidiblər... – dedi.

Ağadadaş, elə bil, bu bazar günündən o vaxtsız səhər banının, dalbadal uduzduğu o üç tasın hayıfını almaq üçün, ləzzətlə bozbaşdan bir qaşıq ağzına qoyub:

– Hara gedəcəklər?– dedi. – Avtobusa minməyəcəklər ki, qeyidib gələcəklər də...

## XI

Şuşada Cümü, ancaq evdəkilər üçün Cümü idi, çünki onu uşaqlıqdan evdə belə çağırırdılar, amma eşikdə Cümü – Cümşüd idi, Qızıldiş Cümşüd.

O zaman ki, Cümü imtahandan kəsilib Şuşaya qayıtdı, ondan sonra universitet xəyallarını birdəfəlik ürəyindən çıxartdı, əvvəlcə avtobus profilaktoriyasında matorçu köməkçisi işlədi, sonra o vaxt Stepanakert dedikləri Xankəndində şoferlik kursu oxuyub vəsiqə aldı, «Şuşa – Stepanakert – Şuşa» marşrutu ilə avtobus sürdü və elə onda da ağzının sol tərəfində, dodağının qırağında bir dişinə qızıl koronka saldırdı və əslində Cümü o qızıl dişi Sonaya görə saldırdı.

Cümü Sonaya vurulanda Sona on birinci sinifdə oxuyurdu və Sonanın gözəlliyi get-gedə – qız gözgörəti ətə-qana dolduqca – elə bil, Ağadədəli məhəlləsində cavanların başının üstündə qövsi-müqəddəs kimi qövsi-gözəl bir şeyə çevrilirdi.

Sonra Cümü taksiyə keçdi və Cümünün o taksini sürmədiyi yer qalmadı, çünki, xüsusən yay aylarında, Şuşada istirahətdən, müalicədən sonra geri qayıdan imkanlı, yəni, taksi tuta bilən müştərilərin biri Azərbaycanın bu başında, o biri də o biri başında yaşayırdı, elə həftə də olurdu ki, iki dəfə, üç dəfə Bakıya gedib qayıdırdı, hətta, neçə dəfə Tiflisə getmişdi, bir dəfə isə, Rostovacan gedib çıxmışdı və o vaxt Sona da Cümünü – Qızıldiş Cümşüdü seçdi; Cümünün qara «Volqa»nı (taksini) silib par-par işıldadaraq Ağadədəli məhəlləsində Sonagilin ikinci mərtəbədəki eyvanının qabağından keçməyi qızı hipnoz elədi, ya qızıl dişinin işıltısı qızın gözünü qamaşdırdı, hər halda, onların toyu Ağadədəli məhəlləsində yaddaqalan toylardan biri oldu və o toyda Malıbəyli Köhnə Qaval Isgəndər Nuh Nəbidən qalma qavalını qulağının dibinə sıxıb bir «Qarabağ şikəstəsi» oxudu ki, o şikəstə «– Isgəndər daha qocalıb...»– deyənlərin birdəfəlik cavabını verdi və sübut elədi ki, qızıl qaldıqca, qiyməti artır.

– Isgəndər kişi, o tərəflərdə nə var, nə yox?– bunu axşam Bolelşik Bufetçi Ibadullanın bufetində araq dümləyib və indi tək gəlib dəniz kənarındakı qayalıqda oturaraq dənizə baxan Cümü qışqırırdı, guya, Malbəyli Köhnə Qaval Isgəndər ona cavab verəcəkdi ki, o tərəflərdə, yəni, o biri dünyada nə var, nə yox, orda işləri yaxşı gedir, ya pis?

Şuşadan qaçaqaç düşəndə erməniyə kömək eləyən rus əsgərinin «Kolaşnikov»u Malbəyli Köhnə Qaval Isgəndəri ortasından biçmişdi və o qaçaqaçda onun yanında olan Məmməd kişi (Gözlə-Gəlirəm Məmməd) sonralar danışırdı ki, Malıbəyli Köhnə Qaval Isgəndərin bədəni ortadan ikiyə bölünmüşdü, qurşaqdan yuxarısı bir tərəfdə idi, aşağısı o biri tərəfdə və həmişəki göy çixollu qaval da eləcə əlində qalmışdı.

Cümünün axşamlar Bolelşik Bufetçi Ibadullanın bufetindəki araqdan sonra hərdən tək gedib o qayalıqda oturmağı var idi və Cümüdən başqa bundan heç kimin xəbəri yox idi – Cümüdən başqa, bir də ki, o tır-tırdan başqa, çünki hərdən Cümüyə elə gəlirdi ki, o tır-tır da bu quru, adda-budda kollu-koslu Abşeron çöllərinin sahibsiz itləri, pişikləri kimi bir şeydi.

– Ə, sən öl, bir dəfə səni götürüb dənizə atacam! – bunu da Cümü Bolelşik Bufetçi Ibadullanın bufetindən sonra o qayalıqda oturduğu vaxtlar hərdən motorollerə (tır-tıra) deyirdi, guya ki, o tır-tırın Cümünün qabağında nəsə bir günahı var idi.

Əksinə, Cümü gərək o motorollerin qara tüstü buraxan o paslı borusundan öpəydi, çünki Buzovnadakı fəhlə yataqxanasının beşinci mərtəbəsindəki o altı nəfəri, özü, yəni Cümü heç, o beş nəfəri – Güllü arvadı, Sonanı, Cəmiləni, Qalibi, Solmazı – dolandıran o kuzovlu motoroller idi. Elə ki, Bakıya gəlib çıxdılar, bu fəhlə yataqxanasında məskunlaşdılar, elə ki, Cümü Bakı taksilərində özünə bir iş tapa bilmədi, elə ki, bir müddət profilaktoriyada, bir müddət də benzindoldurma məntəqəsində günəmuzd işləməyindən bir şey çıxmadı, onda Bolelşik Bufetçi Ibadulladan borc götürdüyü 115 dollara hay-hayı getmiş bu kuzovlu motorolleri aldı, təmir etdi və fəhlə yataqxanasında yaşayan camaatın bir qismi, yəni uşaqlar, qocalar ki, hələ yuxudan durmamışdılar, motorollerin səsinə yuxudan oyanmağa başladı, çünki yarım saat guruldayıb-tırıldayıb sönürdü-yanırdı, sonra işə düşürdü.

Cümü, adətən, Maştağaya sürürdü, həyətdə heyvan saxlayan ətraf kəndlərin camaatı üçün saman, quru çörək, cürbəcür yemlər, toyuq-cücə saxlayanlar üçün buğda, arpa, yarma alıb motorollerin kuzovuna yığırdı və aparıb ev-ev satırdı. Misal üçün, quru çörəyin birini iki yüz manata alırdı, iki yüz əlli manata satırdı, eləcə də yem, arpa və başqa bu kimi şeylər, amma elə ki, yay gəlirdi və imkanlı adamlar öz bağlarına köçürdü, kimsə, haranısa təmir etməyə, harasa bərbəzək vurmağa başlayanda, Cümü tır-tırın kuzovuna sement torbası, rəng, mismar, əhəng yığırdı və kəsə yolla Maştağadan Nardarana sürürdü, ordan dəniz qırağı yolla Bilgəhə gəlirdi, Bilgəhdən Zuğulbaya, oradan da Buzovnaya keçirdi, əgər kuzovda satılmamış mal qalırdısa, Şağana, Mərdəkana, Şüvəlana sürürdü, axşam təzədən Buzovnaya qayıdırdı və əvvəllər Buzovna bazarında ayın-oyun alıb fəhlə yataqxanasındakı evinə (otağa) gedirdi. Bir il belə keçdi, iki il belə keçdi, o illər ki, «Allah qoysa, sabah qayıdacağıq Şuşaya, birsigün qayıdacağıq Şuşaya!..», o illər ki, Qalib anadan oldu və Cümü onun adını gələcək Şuşa və ümumiyyətlə, Qarabağ qələbəsi şərəfinə Qalib qoydu, amma sonra yavaş-yavaş əvvəlcə Bolelşik Bufetçi Ibadullanın bufetinə dəyməyə başladı, sonra fəhlə yataqxanasındakı evə (otağa) getdi və Qızıldiş Cümşüd hamı üçün Cümü oldu.

## XII

Son vaxtlar Cümü sübh tezdən hansısa bir səsə – əslində, bu, səs də deyildi, nəsə avaza oxşayan bir şey idi – yuxudan oyanırdı və heç cürə başa düşə bilmirdi ki, bu, nə səsdi? nə avazdı? – dənizin uğultusu deyildi (bunu Cümü dəqiq bilirdi), xəzrinin, ya giləvarın da səsi deyildi, nəsə qarışıq bir avaz idi və bir sübh çağı Cümü yenə bu avaza yuxudan oyanıb yerindən qalxdı, otaqdan çıxıb aralığın axırındakı tualetə getdi və əlüzyuyanın üst tərəfindən asılmış paslı dəmir çərçivəli köhnə güzgüdə özünə baxa-baxa birdən başa düşdü ki, onu yuxudan oyadan o avaz Malıbəyli Köhnə Qaval Isgəndərin onların toyunda oxuduğu o «Qarabağ şikəstəsi» idi, amma Isgəndərin səsi bu dünyadan yox, o biri dünyadan gəlirdi və elə bil, o «Qarabağ şikəstəsi» də illərdən bəri köhnə paltarlarla bir yerdə sandıqda pərçim olub qalmışdı, naftalin əriyib qurtarmışdı və güvə o köhnə paltarlar kimi, «Qarabağ şikəstəsi»ni də yeyib adda-budda dəlik-deşik etmişdi.

Və birdən-birə Sonanın o toy günündəki əndamı gəlib dəmir çərçivəsi paslanmış o güzgüyə qondu, bir müddət – üç saniyə? ya yarım saat? – beləcə güzgüdən Cümüyə baxdı, sonra Cümü yavaş-yavaş yenə də öz əksini gördü və güzgüdəki o əksi Cümünün üzünə bir lopa tüpürüb:

– Niyə onda evlənib o qızı da bədbəxt elədin, ay zaraza?– dedi.

## XIII

Həmin sentyabr günü Bolelşik Bufetçi Ibadullanın kefi kök idi, çünki dünən axşam «Neftçi» Finlandiyadan gəlmiş bir komandanı 3-1 hesabı ilə udmuşdu, bu gün də həmin gözəl futbol qələbəsinin davamı kimi, nərddə əli gətirirdi və səhərdən bəri bazar günü olduğu üçün, işə getməmiş məhəllə kişilərini, hətta, məhəllədə ən yaxşı nərd oynayan hesab olunan və ildə-ayda bir dəfə uduzanda da qızarıb pərtləşdiyindən xoruz kimi, az qala, adamın gözünü deşməyə hazır olan Avtobus Ağadadaşı da bir-bir udurdu.

Qırx il idi ki, məhəllə adamları da, kənd camaatı da, Buzovnanın, Zuğulbanın və Vişnyovkanın yolayrıcında yay-qış həmişə açıq olan bufetin daimi və qeyri-daimi müştəriləri də Bolelşik Bufetçi Ibadullaya sadəcə «Bufet» deyirdilər və çəkisi 160 kilodan çox olan Bolelşik Bufetçi Ibadulla ayaq üstə durub nəhəng qarnını qabağa verəndə, bu kişidə, həqiqətən, bir bufet əzəməti hiss olunurdu. Kəndin birinci futbol azarkeşi olan Bolelşik Bufetçi Ibadulla hər dəfə «Neftçi», yaxud respublikanın yığma komandası oynayanda, nə olursa, olsun, istəyir lap bufetinə müfəttiş gəlsin, mütləq Bakıya, oyuna baxmağa gedirdi və elə ki, bizimkilər bir qol vururdu, bufet əzəmətli bu 160 kiloqramlıq bədən yerindən elə hoppanırdı, elə bil, o özü də 160 kiloqram yox, top kimi yüngül bir şey idi.

Həmin sentyabr günü Sovet Ittifaqı dağıldıqdan sonra özəlləşdirdiyi bufetində qışqabağı təmir işləri getdiyinə, bu təmir işlərinə də bir vaqon Zirə qarpızını Moskva bazarlarında satıb təzə qayıtmış oğlu Ağasəlim cani-dildən rəhbərlik etdiyinə görə, Bolelşik Bufetçi Ibadulla həmin sentyabr günü bufetə getməmişdi, küçələrinin həyət qapısı ağzında, builki meyvəsi də dərilib qurtarmış qoca xartut ağacının kölgəsində nərd oynamaqla məşğul idi və elə ki, Avtobus Ağadadaşgilin Qırmızı xoruzunun itməyi xəbəri gəlib ona da çatdı, gombul barmaqları arasında tutduğu balaca sədəf zərləri xüsusi bir həvəslə atıb:

– Alə, – dedi. – Ağadadaş xoruzu neyniyir?.. – Və zərlərin gətirdiyi növbəti «şeş qoşa»nı görüb gülə-gülə: – Bir evdə neçə xoruz olar?.. Iki xoruzun başı bir qazanda qeyniyər begəm?– deyə zarafat etdi.

## XIV

Bir dəfə, səfeh giləvar əsən bir payız axşamı idi və o səfeh giləvara baxmayaraq, Məmməd kişi yenə həmin zeytun ağacının altındakı o sınıq-salxaq skamyada oturmuşdu və bu hələ o vaxtlar idi ki, Məmməd kişi, ancaq öz-özü ilə yox, başqalarıyla da danışırdı, bax, həmin axşam Cümü motorolleri həyətdə saxlayıb yataqxananın blokuna girmək istəyəndə Məmməd kişi ondan soruşdu:

– Bura bax, ə, Cümü, ermənilər müsəlman olsaydı, ruslarnan Amerika yenə onlara qəhmər çıxacaqdılar?

## XV

Gəlib Buzovnadakı bu fəhlə yataqxanasında yerləşəndən sonra, Cümü uzun müddət gecələr yata bilmədi və məsələ təkcə onda deyildi ki, nəm və isti Abşeron havası ilə nəfəs ala bilmirdi və dənizin o uğultusu da onu yatmağa qoymurdu – bunlar öz yerində, ən başlıcası o idi ki, bir balaca huşa gedən kimi Şuşanın küçələri, bağları, Ağadədəli məhəlləsi gəlib dururdu gözlərinin qabağında və bu – yuxu kimi yuxu deyildi, qarabasma kimi də qarabasma deyildi, amma o anlarda Cümünün nəfəsi daha da ağırlaşırdı, havası çatmırdı.

Sonralar gecə gözlərinin qabağına gələn o rəngli – ən çox da yarpaq yaşılı – Şuşa mənzərələri yavaş-yavaş yox oldu və ümumiyyətlə, uzun müddət heç bir yuxu görmədi, amma axır vaxtlar tır-tır yuxusuna girməyə başlamışdı. Bu gecə də yuxuda tır-tırı gördü. Gördü ki, canını götürüb tır-tırdan qopmaq, qaçmaq istəyir, amma tır-tır onu buraxmır, Cümü qaçır, sürətlə öz-özünə gedən tır-tır da ardınca qova-qova onu izləyir və səksəkə içində yuxudan oyanıb hələ gün çıxmamış həyətə düşdü, zeytun ağacının yanında Məmməd kişinin (Gözlə Gəlirəm Məmmədin) boş skamyasında oturdu, bir siqaret çəkdi, sonra gedib tır-tırı işə saldı və tır-tır yarım saat bütün həyətə haray-həşir salıb işə düşdü və Cümü yataqxananın həyətindən çıxdı, bir də axşam saat 9-da – 10-nun yarısında qayalığa gəldi.

Dəniz sakit, qayalıq bürkü idi. Cümü tır-tırı həmişəki kimi bir kənarda saxlayıb qayalığa çıxdı və əlində tutduğu dəmir pivə bankası kimi araq bankasının ağzını açıb isti araqdan beş-altı qurtum içdi. Bu araqları təzə buraxmağa başlamışdılar və qiyməti də su qiyməti kimi bir şey idi, Bolelşik Bufetçi Ibadullanın bufetindəki 200 qram arağın puluna bunun üçünü almaq olardı, hərəsi də 175 qram, amma deyirdilər ki, bu araq zəhərdi.

Bu dəfə Cümü bankadakı arağın hamısını içdi və öz-özünə:

– Zəhərdi?– dedi. – Bəs, niyə səni öldürmür, ay it oğlu?

## XVI

Şuşa Internat məktəbində idman müəllimi işləyən Salman indi xəstəxanada gözətçi yeri tapıb, orada işləyirdi və gecələr xəstəxanadan spirt oğurlayırdı, Cümü də Salmanla birlikdə o spirtdən içib keflənəndə, növbəti stəkandan sonra üz-gözünü turşudub deyirdi:

– Ə, dərddən içirəm e, mən, dərddən! – Sonra da özünün özünə hirsi tuturdu və bu dəfə də öz-özünə deyirdi: – Tüpürüm sənin dərdinə də, özünə də!..

Salman ona təskinlik vermək istəyirdi:

– Helə demə, ə, niyə özünü söyürsən? Dərdimiz böyükdü də, bə nədi, əlbəttə, dərddən içirik!..

Cümü qəhərdən boğula-boğula:
– Ə, sən kəs səsini! – deyirdi. – Spirt oğrusu!
Sonra Salman xəstəxanadan oğurladığı spirti satmağa başladı və daha içməyə vermədi.

## XVII

Bir dəfə – mayın axırları idi və Abşeronda hələ çimmək mövsümü başlamamışdı, dənizin sahilində, Buzovna ilə Zuğulbanın arasındakı qayalıq tamam kimsəsiz, bomboş olurdu – axşam Cümü yenə Sonanı motorollerin kuzovuna mindirib qayalığa apardı və yenə də o qayalıqda Sonanın solub rəngi məlum olmayan donunun düymələrini aça-aça, Sonanı öpə-öpə növbəti dəfə söz verdi ki, hər şey yaxşı olacaq, arağı da atacaq, bir də heç vaxt Sonanı beləcə qayalığa gətirməyəcək və elə bu vaxt, göydən düşdü, ya qayanın içindən pırtlayıb zühur elədi, bir ağsaqqal kişi – kənd sakini düz onların üstünə çıxdı, əvvəlcə özünü itirdi, sonra toxtayıb:
– Alə, – dedi, – it döyülsüz siz!.. Pişik döyülsüz!.. Adamsuz axı!.. Insansuz axı!..
Sona döşlərini donunun içinə dürtə-dürtə ayağa sıçrayıb motorollerə tərəf qaçdı və kuzova minib hönkürə-hönkürə çığırdı:
– Biz insan deyilik, biz qaçqınıq!.. Qaçqınıq!.. Qaçqınıq!..
Birdən-birə bütün sifəti təndir közü kimi alışıb-yanan Cümü heç bilmədi nə üçün, əlini atıb yerdən ovuc boyda bir qaya parçası götürdü, sonra arxasını onlara çevirib qayalıqdan uzaqlaşan o kişinin ardınca baxdı, bütün varlığı ilə istədi ki, əlindəki daşı öz başına çırpıb özü öz beynini dağıtsın, sonra birdən-birə boşalan, taqətdən düşən əlindəki qaya parçasını güclə bir tərəfə tulladı və tır-tıra tərəf getdi.
Uzaqlaşıb qaranlıq içində gözdən itən o kişi yerli adam idi, deyəsən, avtobus sürücüsü idi, adı da deyəsən, Ağarəhim idi, ya Ağadadaş idi, nəsə belə bir şey idi...

## XVIII

Sonanın böyük bacısı Solmaz anadangəlmə kor idi və elə ki, ermənilər Şuşaya hücum çəkdi, Şuşada qaçaqaç düşdü, kim nə tapdısa, ona mindi, şuşalıları köçürən vertalyotda, yük maşınlarında, başqa maşınlarda yer qalmadı, onda hərə canını götürüb bir tərəfə dağıldı, kimi pay-piyada Turşsu meşələrindən keçib Laçına qaçdı, kimi dağlardan enib Ağdama gələ bildi, bir qismi işğalçı gülləsinə tuş oldu, bir qismi girov götürüldü, güllədən və girovdan yayınan bir qismi də elə o meşələrdə, o dağlarda tələf oldu. Ana oğuldan xəbərsiz qaldı, oğul bacıdan, bacı atadan və o vaxt Solmaz da itdi və Cümügil minbir məşəqqətlə gəlib Ağdamda yığışanda Solmazı «gördüm» deyən olmadı, Solmazdan xəbər-ətər çıxmadı.
Bütün bu müsibətlər azmış kimi, Solmazın da sevimli və köməksiz sifəti gecə-gündüz Sonanın gözlərinin qabağından getmirdi və belə məqamlardan birində Güllü arvad dediyi sözlərə özü də inanmayaraq, Sonaya toxtaxlıq vermək istədi:
– Az, özünü üzmə... Dünyada elə möcüzələr olur ki!.. Allah kərimdi!..
Sona burnunun suyunu çəkə-çəkə:
– Allahın üzü dönüb də, bizdən, ay nənə!.. – dedi. – Görmürsən?
Güllü arvad içini çəkdi:
– Boy-y-y, ay qız, əstəğfürullah de!

Sona:

– Demirəm! – dedi.

Güllü arvad, elə bil, elə bu dəqiqəcə, indikindən də pis günə qalacaqlarından qorxub gəlinin yerinə özü həyəcanlı bir canfəşanlıqla:

– Əstəğfürullah!.. – dedi.

Amma Güllü arvadın o «əstəğfürullah»ının nəticəsiydi, ya nə idisə, onun özünün də inanmadığı o möcüzə, həqiqətən, baş verdi – Şuşadan qaçdıqları vaxtdan düz on üç gün sonra Solmaz Əsgərandan aşağıda, Qasımlı kəndinin yaxınlığında tapıldı – huşu özündə deyildi, çöldə, bir gilənar ağacının altında yerə sərilib qalmışdı, əyni-başı cırılıb dağılmışdı, arıqlayıb təkcə sümükdən və dəridən ibarət baldırları adda-budda göm-göy göyərmişdi, yalın ayaqları qan içində idi, amma özü sağ idi.

Camaatın sağlam ərindən, oğlundan, qızından xəbər yox idi, amma kor Solmaz gecə-gündüz pay-piyada Şuşa dağlarından enib, ermənilərin gözündən yayınıb Ağdamacan gəlib çıxmışdı və bir neçə gündən sonra danışa bilən Solmaz belə bir söz dedi:

– Allah əlimdən tutub aparırdı məni...

Kor bacısının bu sözü Sonanın bütün beyninə sahib oldu, Sona fikirləşdi ki, yox, Allahın üzü hələ onlardan dönməyib, pis günün ömrü az olar, yenə Şuşaya qayıdacaqlar, Ağadədəli məhəlləsindəki evlərində yaşayacaqlar, Cümünün (Qızıldiş Cümşüdün) qara «Volqa» taksisi yenə gəlib məhəllədə, həyət darvazalarının qabağında dayanacaq, amma günlər keçdi, aylar keçdi, gəlib Buzovnadakı fəhlə yataqxanasında məskunlaşdılar, illər keçdi və Sonanın beyninə sahib olan o hisslər də bütün bu müddət ərzində qaxaca döndü, sonra da ovulub töküldü, amma tamam yox olmadı, çünki o ümid axıracan ovulub tökülsəydi, tamam yox olsaydı, o zaman, ümumiyyətlə, həyat, yaşamaq sona yetəcəkdi.

## XIX

Azərbaycanda bir milyondan artıq qaçqın yaşayırdı, bu insanlar Ermənistanın işğal elədiyi torpaqlardan qaçmışdılar, yüzilliklərdən bəri atalarının, babalarının doğulub, yaşayıb və öldüyü, dəfn edildiyi doğma torpaqlarından məcburi köçkün düşmüşdülər. Bu ölkənin əhalisi cəmi səkkiz milyon idi və bu o deyən söz idi ki, Azərbaycanda hər səkkiz nəfərdən biri qaçqın idi və bu da – dünyada analoqu olmayan bir hadisə idi.

Izabel Xanukoff artıq üç gün idi ki, Azərbaycanda idi və beş il müddətində dünyanın müxtəlif ölkələrində – Somalidən tutmuş Balkanlaracan – qaçqınlarla çox görüşsə də, növbəti hər görüşün ağır təəssüratı qətiyyən azalmırdı. Azərbaycanda ezamiyyətdə olduğu bu üç gündə də Izabel ölkənin bir neçə bölgəsində qaçqınların çadır düşərgələrində, onların ayrı-ayrı yaşayış məntəqələrində oldu və hər dəfə qaçqın anaların məişətini, qaçqın uşaqların güzəranını görəndə Cenevrə gölünün sahilindəki o sakit, arxayın yaşayış Izabel üçün Corc Lukasın filmləri kimi bir şey idi, başqa bir planetin, başqa sivilizasiyanın həyatına bənzəyirdi.

Həmin sentyabr günü bazar günü olsa da, Izabel əvvəldən planlaşdırdığı kimi, Bakının 35 kilometrliyindəki Buzovna kəndində qaçqınlarla bu səfərinin son görüşünü keçirməyə getdi və onu müşayiət edən rəsmi dövlət məmuru və yerli tərcüməçi qızla birlikdə maşına minməzdən əvvəl məmurdan soruşdu:

– Bu gün bazardı... Onları narahat etməyəcəyik?

Məmur Izabelə baxdı və heç nə demədi, daha doğrusu, Izabel hiss etdi ki, məmur – gödəkboylu, arıq və yəqin ki, qaçqınlarla belə görüşləri çox keçirdiyinə görə günün altında yanıb qaralmış bu kişi, sadəcə olaraq, deməyə söz tapmadı və qız burasını da hiss etdi ki, verdiyi sualın idiotluğu özünün də yanaqlarını qızardır...

Izabel ertəsi gün səhər tezdən Cenevrəyə qayıdacaqdı, ona görə də bu son görüşü tez keçirib, axşam da olsa, mütləq Qubaya, Qırmızı Qəsəbəyə getmək istəyirdi, çünki Izabel, az qala, cismani surətdə hiss edirdi ki, o yerlərə getməsə, heç olmasa, bircə saat o yerlərə anasının gözləri ilə baxmasa, Zibanın ruhu ondan inciyəcək, hətta, küsəcək və buna görə də Buzovnada fəhlə yataqxanasındakı görüş çox çəkmədi.

Əslində, daha belə görüşlərə qaçqınların da həvəsi və deməyə bir sözü qalmamışdı, çünki nə qədər söz var idisə, bu on-on bir ildə hamısını demişdilər, amma nə olsun? – xaricdən gəlirdilər, baxırdılar, hər şeyi öz gözləri ilə görürdülər, başlarını bulayırdılar, hətta, eləsi olurdu ki, bax, bu uzun, kürən qız kimi, gözləri dolurdu, elə bu qız kimi də, fotoaparatla şəkil çəkirdilər, blaknotlarında nəsə yazırdılar, sonra da çıxıb gedirdilər – nə dəyişirdi?

Məmməd kişinin arvadı Sürəyya xala ikinci mərtəbədəki aralıqda həmin uzun, kürən qızın – Izabel Xanukoffun qabağını kəsib və qaçqınların işləri ilə məşğul olan bəzi məmurların: «– Xaricdən gələnlərlə nəzakətli olun»– xahişini də bir tərəfə tullayıb:

– Bura bax, – dedi. – Bizə heç nə lazım deyil! Bizə humanitar yardım da lazım deyil! Onu da aparın ermənilərə verin! Bizə heç nə lazım deyil! A tövbə! Bizə Şuşanı qaytarın! – Sonra üzünü tərcüməçi qıza tutdu: – Az, tərcümə elə! Nətər deyirəm, elə də tərcümə elə! – Və tərcüməçi qız onun sözlərini tərcümə etməyə başlayanda, beşinci mərtəbədən düşüb uşaqlarla birlikdə xaricdən gələn növbəti qonağa tamaşa edən Qalibin – Cümü ilə Sonanın oğlunun – qolundan yapışıb irəli çəkdi. – Bax, bu Şuşanı görməyib, burda anadan olub! Bunun vətəni bu yataqxanadı! Yataqxana adamın vətəni olar? Yataqxana adamın torpağı olar?– Sonra da aralığın açıq pəncərəsindən əlini uzadıb zeytun ağacının altındakı skamyada oturmuş Məmməd kişini göstərə-göstərə əməlli-başlı qışqırdı, elə bil, Şuşanı erməni yox, bu uzun, kürən qız onların əlindən almışdı. – Odur, bax, – dedi, – mənim kişim on ildi orda oturub öz-özü ilə danışır! Nər kimi kişi idi! Top atsaydın, yıxılmazdı! – Və daha da bərkdən qışqırdı: – Şuşanı qaytar bizə! Şuşanı!.. Şuşanı!..

Məmməd kişi arvadının səsini eşidib zeytun ağacının altından soruşdu:

– Nolub Şuşaya?

Sürəyya xala:

– Heç nə olmayıb Şuşaya! – dedi və özünü saxlaya bilməyib hönkürə-hönkürə qonaqlardan ayrılıb yaşadıqları otağa girdi.

Izabel Cenevrədə aldığı şəxsi hədiyyəsini – fransız ətrini – son görüşə saxlamışdı və onu elə bu qadına vermək istəyirdi, amma, doğrusu, onun ardınca otağa girməyə, bu sözlərdən sonra o kiçik hədiyyəni ona verməyə ürək eləmədi və onlar beşinci mərtəbəyə gəlib çıxanda qəribə bir hadisə oldu. Əslində bu, nəsə bir hadisə yox, ani bir hissiyyat idi, bəlkə də haqq dünyasındakı Ziba ilə Izabel Xanukoff arasındakı hansısa bir biobağda, bioteldə yaranan informasiya kimi bir şey idi – Izabel, bir kənarda dayanıb heç nə deməyən və iri, ala gözləri lap dərinlərinəcən kədər içində olan cavan bir qadını görəndə, elə həmin an qıza elə gəldi ki, Ziba bu qadını tanıyır, daha doğrusu, tanıyıb-tanımamağından asılı olmayaraq, bu qadın Ziba üçün doğmadı. Cavan qadının sifətinin gözəlliyi, elə bil, iri və ala gözlərindəki o kədərlə heç cürə barışa bilmirdi, o kədəri heç cürə qəbul etmək istəmirdi və bu da o qadının baxışlarındakı, varlığındakı iniltini daha da görümlü edirdi.

Izabel Xanukoff Cenevrədən alıb gətirdiyi hədiyyəni Sonaya – həmin cavan qadına bağışladı.

## XX

O balaca bağlama elə gözəl bağlanmışdı, ona elə gözəl bant taxılmışdı ki, onun görünüşü o fəhlə yataqxanasındakı güzəranla heç cürə uyuşmurdu və Cəmilə də, Qalib də maraq və həyəcanla o balaca bağlamaya baxırdılarsa da, Güllü arvadı az qalırdı gülmək tutsun.

Xaricdən gəlmiş o uzun, kürən qız çıxıb gedəndən sonra otağa qayıdan Güllü arvad:

– Az, aç görək onun içində nə var elə?– dedi.

Sona əlində tutduğu o balaca bağlamaya taxılmış lentə baxanda uşaq vaxtı hərdənbir axşamlar Cıdır düzünə, ya Ərimgəldiyə, ya Istirahət Evinə gəzməyə gedəndə anasının onun iki uzun hörüyünün ikisinin də ucuna bağladığı qırmızı lentlər birdən-birə gəlib gözlərinin qabağında dayandı və Sona bağlamanı Solmaza tərəf uzatdı və elə bil, ancaq indi gördü ki, Solmaz kordu, tez əlini geri çəkib bu dəfə də bağlamanı Cəmiləyə tərəf uzatdı:

– Al, aç...

Cəmilənin on beş yaşı vardı, Cümü onu qucağına alıb Şuşadan qaçanda heç beş yaşı tamam olmamışdı və Cəmilə indiyə qədər əlində belə gözəl balaca bağlama tutmamışdı.

Güllü arvad nəvəsinə:

– Az, aç də... – dedi və bu on illik qaçqınlıq həyatında xaricdən onların güzəranını görməyə gələn adamlardan daha heç nə ummadığı, heç nə gözləmədiyi üçün əlavə etdi: – Içindən indi səfeh bir şey çıxacaq...

Cəmilə:

– Bantı mənimdi! – dedi və Qalibə baxdı.

Qalib bu dəfə bacısının sözünə etiraz etmədi, çünki o gözəl balaca bantın oğlanlara yüz faiz dəxli yox idi.

Güllü arvad:

– Yaxşı, ay qız... – dedi. – Aç!..

Cəmilə yavaş-yavaş və ehtiyatla bağlamanı açmağa başladı və nəhayət ki, açdı, əlində tutdutu qutunun o tərəf-bu tərəfinə baxdı.

Güllü arvad:

– Az, onu da aç... – dedi.

Sona:

– Day onun nəyini açsın? Ətirdi də... – dedi və gülümsədi, sonra da çayniki götürüb otaqdan çıxdı ki, həyətə düşüb krantdan su doldursun.

Sona elə gülümsədi ki, elə bil o ətirə yox, fəhlə yataqxanasında məskunlaşdıqları bu on ilə baxıb gülümsəyirdi...

Cəmilə bu hədiyyənin belə bir gözlənilməzliyindən elə çaşdı ki, qutu ilə bərabər, bantı da Güllü arvada verdi və Güllü arvad bir müddət o qaba, o banta baxdı.

Cümü açıq pəncərənin qabağında dayanıb gözlərini həyətdə krantdan çaydana su dolduran Sonaya zilləmişdi və Sonanın bayaqkı o təbəssümü Cümünün içini elə doldurmuşdu ki, Güllü arvadın ətir qabını ona tərəf uzadıb nə dediyini əvvəlcə heç başa düşmədi.

– Ə, səninnəyəm... – Güllü arvad təkrar etdi. – Al bunu, apar yarmarkada sat, o qıza, – əli ilə pəncərəyə tərəf işarə etdi, yəni ki, Sonaya, – bir babat don al gətir...

Cümü ətiri anasından alıb otaqdan çıxdı.

Güllü arvad onun ardınca:

– Sən dədəyin goru, – dedi. – Pulu arağa vermə!

Cümü:

– Dədəmin goru çoxdan çatdayıb!.. – dedi və tez-tez pilləkənləri düşməyə başladı, elə bil, təkcə bu yerlərdən yox, dünyadan qaçıb canını qurtarmaq istəyirdi.

## XXI

Binə aeroportunun qarşı tərəfində, Bakıdan gələn əsas şose yolun arxasında böyük bir yarmarka Sovet Ittifaqı dağılandan sonra neçə il idi ki, şıdırğı alış-veriş yerinə çevrilmişdi və burada ayaqqabı mismarından tutmuş taxta fin evlərinə qədər nə istəsən tapıb almaq mümkün idi və qiymətlər də Bakıya, Bakıətrafı Abşeron kəndlərinə nisbətən xeyli ucuz idi.

Əlbəttə, orda fransız ətrinin də müştərisi tapılacaqdı, onun puluna da Sonaya bir don almaq olacaqdı və elə bu vaxt tualetdəki o paslı güzgüdən baxan Sona qəfildən gəlib Cümünün gözlərinin qabağında dayandı və Binə Yarmarkasına sarı sürdüyü motoroller az qaldı yolundan çıxıb özünü qarşı tərəfdən gələn və içi sərnişinlə dolu mikroavtobusa çırpsın.

Sonuncu anda qəzadan qurtaran mikroavtobusun sürücüsü barmağı ilə Cümünü hədələdi və hiddətlə nəsə dedi, Allah bilir, nə söyüş söydü, amma Cümü bunun fərqində deyildi, içindən qopub gələn bir «niyə?» onun bütün sısqa vücudunu, elə bil, bir çəkisizlik içinə soxmuşdu: gözünün qabağındakı Sona niyə o paslı güzgüdən ona baxmalı idi, fransız ətri nə zibil bir şeydi ki, Sona onu öz boynuna, sinəsinə vurmasın və niyə, niyə, niyə axı, hansı bir oynaşsa bunu alıb öz qəhbəsinə verə bilər, amma Cümü həmin pula Sonaya don almalıdı ki, əynindəki süzülüb didilmiş dondan canı qurtarsın?

Niyə?

Niyə?

Niyə axı?

Və elə bil, o tır-tır öz- özünə dövrə vurub geri qayıtdı və həmin sentyabr gününün o axşam çağında Cümünü yenə də Buzovna ilə Zuğulba arasındakı o sahilə – qayalığa gətirib çıxardı.

Yüngül bir xəzri əsdiyi üçün dənizin ləpələri qayalığa çırpılır, köpüklənə-köpüklənə geri çəkilirdi və elə bil, ləpələrin o ardıcıllığı həmin axşam bu yerlərə çökmüş havasızlığı təsdiq edirdi. Cümü birinci dəfə idi ki, bu qayalığa tamam ayıq gəlmişdi və elə bil, dəniz də, bu qayalar da əvvəlkindən də qat-qat artıq dərəcədə yad bir yer idi və qayalıqda oturmuş Cümü bir də onu gördü ki, zır-zır ağlayır, elə ağlaya-ağlaya da əlindəki fransız ətrinin bantını dartıb açmaq, kağızını cırıb tullamaq, şüşəni qutusundan çıxarıb ətirlə bərabər qayalığa çırpmaq istədi və öz-özünə:

– Nə zırıldayırsan, ə, əclaf oğlu əclaf?! – dedi.

Görünür, bir az əvvəl bu yerlərdən mal-qara keçmişdi, çünki dənizin iyinə bir təzək iyi də qarışmışdı. Cümü burnunun suyunu çəkə-çəkə əlində tutduğu ətir qutusuna baxırdı və həmin sentyabr gününün axşamı qəribə bir hadisə oldu: birdən-birə, elə bil, o dəniz və təzək iyinə fransız ətrinin də iyi qarışdı (elə bil, Cümü, doğrudan da, o ətri qayaya çırpmışdı) və güman ki, dünya yaranandan bəri indiyədək Abşeronda heç kimin heç vaxt hiss etmədiyi qarışıq və iyrənc bir qoxu Cümünün burnuna gəldi...

Bu vaxt yüngül xəzrinin qayalığa çırpdığı o yeknəsəq ləpə ardıcıllığı içində qart və hirsli bir qaqqıltı eşidildi – hoppanıb qayalığa çıxmış bir xoruz (Qırmızı xoruz!), ardıyca da iki anac toyuq, elə bil, bu kimsəsiz sahildə çoxdan bəri adam görmədiyi üçün, düz Cümünün üstünə gəlirdi. Cümü ayağa qalxıb fransız ətrini pencəyinin cibinə qoydu, əli ilə burnunun pərələrini tutub bərkdən fınxırdı, burnunun suyunu qayalığa çırpdı və aşağı enib tır-tıra tərəf getdi.

O iyrənc iy hələ də Cümünün burnundan getməmişdi və Cümüyə elə gəldi ki, elə bil, pencəyinin cibindəki o fransız ətri də iylənmiş qurbağa ölüsü kimi bir şeydi.

Qırmızı xoruz da, toyuqlar da qaqqıldaya-qaqqıldaya qayalıqdan düşüb onun ardınca getdi.

Mator isti olduğu üçün tır-tır bir-iki dəfə nərə çəkib tez işə düşdü və o nərələr də Qırmızı xoruzu, toyuqları kənara qaçırmadı, əksinə, daha da bərkdən və daha artıq bir narazılıqla qaqqıldamağa başladılar, elə bil, haray-həşir salırdılar ki, ey insan, bizi burda qoyub hara gedirsən, istəyirsən ki, qurda-quşa yem olaq?

Bu quşlar hardan azıb gəlib bura çıxmışdılar?

Bu boyda Buzovnada onların yiyəsini tapmaq, əlbəttə, müşkül məsələ idi. Son vaxtlar Abşeronda siçovullar çoxaldığı üçün, kol-koslu quru çöllərdə, dəniz kənarındakı qamışlıqlarda tülkü çoxalmışdı, bəzən gecələr buralardan çaqqalların vaqqıldaşması eşidilirdi və bu heyvanlar bir neçə dəfə gecə bu yerlərdən keçib evə gedən tır-tırın da yolunun üstünə çıxmışdı.

Şübhəsiz ki, səhər açılanda bu özündənrazı xoruzdan da, onun o toyuqlarından da bu əbləh dünyada, ancaq tükləri qalacaqdı. Cümü sağ əlinin barmaqları arasındakı siqaretin tüstüsünü ciyərinə çəkə-çəkə, sol əlini uzadıb quşları qovmaq istədi, amma Qırmızı xoruz, elə bil, elə buna bənd imiş kimi, hoppanıb qanadlarını yelləyə-yelləyə tır-tırın adda-budda quru ot tökülmüş kuzovuna qondu, toyuqlar da eləcə Qırmızı xoruzun ardınca kuzova atıldılar və qaqqıldaya-qaqqıldaya, elə bil, taksi müştəriləri idi, tır-tırın tərpənməyini gözləməyə başladılar.

Cümü yenə fınxıraraq burnunun hələ də qurumamış suyunu bu dəfə asfaltın üstünə çırpıb:

– Yaxşı, – dedi, – sizi çaqqal yeyənəcən, elə bizimkilər yeyər. – Sonra, elə bil, özünə bəraət qazandırmaq üçün: – Çaqqallar yeməyə şey tapacaq! – dedi və tır-tırı sürüb dünyanın çox cansıxan yerlərindən biri olan bu qayalıqdan uzaqlaşdı.

## XXII

Qırmızı xoruz da, toyuqlar da həyətdən çıxanda, adətən, küçə qapısının ağzında olurdular, qoca xartut ağacının dibini, oranı-buranı dimdikləyirdilər, torpağı eşirdilər, sonra elə ki, küçəyə gün düşürdü, hinə isə kölgə gəlirdi, Qırmızı xoruz qabaqda, toyuqlar da onun ardınca hinə qayıdırdılar, amma bu dəfə qalan toyuqlar hində idi, Qırmızı xoruzdan və onunla itmiş iki toyuqdan isə xəbər yox idi, Balacaxanım bütün məhəlləni, hətta, o biri yaxın küçələri, keçmiş Pioner parkını, parkın arxasındakı köhnə stadionu nə qədər axtardı, nə qədər soraqlaşdı, Qırmızı xoruzu və iki toyuğu «gördüm» deyən olmadı.

Gecə düşəndə Ağadadaş Qırmızı xoruzun qarasına:

– Axmaq oğlu axmaq! – dedi. – Bilirdim ki, onun axırı elə belə olacaq!

Balacaxanım Qırmızı xoruzu tapacağına ümidini tamam itirib:

– Heç olmasa, – dedi. – Allah bir yetim-yesirə qismət edəydi onları!..

Ağadadaş:

– O xoruzu ki, mən tanıyıram, o köpəyoğlunun yetim-yesirlə arası yoxdu! – dedi və həmin payız günü birinci dəfə güldü. – Bizi bəyənmədi, bəy axtarır...

## XXIII

Izabel Xanukoff Ali Komissarlığın növbəti illik məruzəsi üçün Azərbaycanla bağlı ona tapşırılmış materialları, bu qıza xas olan səliqə-sahmanla topladı, qeydlərini etdi, bir sözlə, bu ölkədəki işini bitirdi və Ali Komissarlığın Azərbaycandakı nümayəndəliyindən xahiş etdi ki, onu, heç olmasa, bir saatlığa Qubaya, Qırmızı Qəsəbəyə aparsınlar.

Nümayəndəlikdə işləyən cavan və yaraşıqlı (həm də hündürboylu!) yerli – azərbaycanlı bir oğlan həvəslə razılıq verdi və onun maşınında söhbət edə-edə, zarafatlaşa-zaraftlaşa Bakıdan 160 kilometr kənarda yerləşən Qubaya, oradan da Qırmızı Qəsəbəyə getdilər, vaxt az olduğu, qohumlarını da tanımadığı üçün, Izabel xüsusi olaraq heç kimlə görüşmədi, təxminən qırx dəqiqə bu kiçik Qəsəbəni, onun ətrafını gəzdi, ayaqqabılarını çıxarıb Qudyalçayın dayaz sahili boyu bir az o tərəf-bu tərəfə qaçdı və bütün içi ilə hiss etdi ki, ürəyindəki o Ziba nostalgiyasına bir ılıqlıq, bir hərarət gəldi, hiss etdi ki, o, bu kiçik yaşayış məntəqəsini gəzdikcə, buranı hər tərəfdən əhatə edən dağların axşamın alatoranında qaralmağa başlayan ətəklərinə baxdıqca, Qudyalçayın suyunda qaçdıqca Zibanın ruhu şad olur.

Sonra o cavan və yaraşıqlı (hündürboylu!) oğlan Izabeli Qubanın Qəşrəş meşəsindəki məşhur kababxanada əsl Qafqaz kababı yeməyə dəvət etdi. 32 yaşına çatdığına baxmayaraq, Izabelin indiyə qədər hələ heç bir azərbaycanlı, ümumiyyətlə, heç bir qafqazlı ilə heç bir məhəbbət macərası olmamışdı və Quba, doğrudan da, gözəl bir yer idi, sabah səhər Cenevrəyə yola düşməsinə də hələ bütöv, azad və sərbəst bir gecə qalırdı, ona görə də Izabel Xanukoff o cavan oğlanın dəvətini məmnuniyyətlə qəbul etdi.

## XXIV

... çox-çox illər bundan əvvəl Yevlaxdan Bakıya gedən qatar on yeddi yaşlı bir oğlanı işıqlı, hərarətli, sirli-sevincli bir Gələcəyə aparırdı...

... və o qatarın dəmir çarxlarının çakka-çukunu, sədası uzaqlardan gələn bir «Qarabağ şikəstəsi» müşayiət edirdi...

*13 avqust 2003.*
*Zuğulba.*

# UŞAQ HEKAYƏLƏRI



## MƏNƏ NIYƏ GÜLÜRLƏR?

Mənə niyə gülürlər? Heç bilmirəm...

Mən Səliməm, özü də atamın oğluyam. Anamın da oğluyam. Bir də bacım Laləni çox istəyirəm...

Lalə lap balacadır. Mənim üç yaş bir ayım var, onun – hi, hi, hi, adamın gülməyi gəlir!..– heç bir yaşı da yoxdur. Amma həmişə ondan çox mənə gülürlər. Özü də böyük-böyük əmilər, xalalar...

Niyə gülürlər? Heç bilmirəm...

Bax, elə bu gün, Firudin əmi mənə o qədər gülüb ki...

Anam mənə iki xırda pul verib dedi:

– Pulu verərsən Firudin əmiyə. Bax, bu qabı ağzına qədər südlə doldurar, götürüb gələrsən evə.

Mən də südqabını götürdüm. Aşağı düşdüm. Getdim süd satılan yerə.

– Salam, Firudin əmi, – dedim.

– Salam, dostum. Süd almağa gəlmisən?

– Bəli, Firudin əmi. Al bu pulu, qabı ağzına qədər südlə doldur.

Firudin əmi pulu aldı. Qabı südlə doldurdu, verdi mənə. Mən qayıtdım. Bloka girdim. Birdən... üzü üstə yıxıldım. Ağlamadım. Niyə ağlayım? Ayağımın altında qarpız qabığı qalmışdı, mən də yıxılmışdım. Nə olsun?!

Süd yerə tökülmüşdü. Qabı götürdüm, tez qayıtdım geri.

Firudin əmi məndən soruşdu:

– Hə, niyə qayıtdın, Səlim?

Mən dedim:

– Al, bu qabı təzədən doldur.

Firudin əmi dedi:

– Niyə qabı təzədən doldurmalıyam, əzizim?

Mən dedim:

– Axı, bayaq qabı doldurmuşdun, yıxıldım, dağıldı. Indi boşdu. Yenə doldur, aparım evə.

Firudin əmi bir az mənə baxdı. Sonra başladı gülməyə. O qədər güldü ki...

Mən soruşdum:

– Nəyə gülürsən, Firudin əmi?

O dedi:

– Heç nəyə. Böyüyəndə özün başa düşərsən.

Mən böyük deyiləm? Üç dəfə qış olacaq, qar yağacaq, mən məktəbə gedəcəyəm. Mənim nəyim balacadır?

Sonra Firudin əmi südqabını məndən aldı, ağzına qədər doldurdu. Apardım evə. Anam bişirdi. Mən də içdim. Lalə də.

Amma mənə niyə gülürlər? Heç bilmirəm...

## GÖR NECƏ TOP VURARAM

Dadaşgil həyətdə futbol oynayır. Mən Dadaşa deyirəm:
– Dadaş, qoy mən də sizinlə futbol oynayım.
– Yox, Səlim, sən oynaya bilməzsən...
– Niyə oynaya bilmərəm?
– Çünki futbol oynayan gərək biclik eləyə bilsin, fənd işlətsin, başqa oyunçuları aldada bilsin. Amma sən hələ balacasan, bunları bacarmazsan...
Sonra onlar yenə oynayırlar. Mən də qıraqda durub baxıram...
Eh, düzdü, Dadaş məktəbdə oxuyur, özü də mənim dostumdu, amma Dadaş nə bilsin ki, mən necə bicəm, necə çoxbilmişəm!? Əgər bilsə mən necə bicəm, o saat deyər: «–Səlim, gəl sən də bizimlə oyna!».
Lap elə dünən gör necə biclik işlətdim: anam evdə yox idi. Atam da işdə idi. Mən nənəmə dedim:
– Nənə, gəl gizlənpaç oynayaq.
– Oynayaq, Səlim.
– Sən gözünü yum, mən gizlənim.
– Yaxşı.
Nənəm gözlərini yumdu. Mən çarpayının altına girib gizləndim. Sonra dedim:
– Aç, nənə.
Nənəm gözlərini açdı. Ora baxdı, bura baxdı. Sonra yavaş-yavaş mənə tərəf gəlməyə başladı. Mən tez qışqırdım:
– Nənə, mən burda deyiləm! Mətbəxdə gizlənmişəm!
Nənəm:
– Hə... – dedi, amma bilmirəm heç niyə güldü. Sonra mətbəxdə məni axtarmağa getdi. Mən də tez çarpayının altından çıxdım.
Görürsünüz, mən necə bicəm!
Eh, əgər Dadaş bunu bilsə, məni də futbol oynamağa qoyar. Biclik edib fənd işlədərəm, hamını bir-bir keçərəm, qapıya çoxlu-çoxlu top vuraram!..

## MƏN LALƏ ISTƏYIRƏM

Lalə elə balacadı, elə balacadı, elə balacadı, lap bir cıqqılı. Lalə mənim bacımdı.
Nənəm deyir:
– Mənim Laləm, Laləciyim...
Mən deyirəm:
– Nənə, Lalə mənimdi!
Nənəm deyir:
– Yaxşı, Səlim, sənindi...
Amma sonra yadından çıxır. Yenə deyir:
– Mənim Laləm, Laləciyim...
Anam deyir:
– Lalə qızım, qəşəng qızım, mənim qızım...

Mən deyirəm:
– Ana, Lalə mənimdi!
Anam deyir:
– Yaxşı, Səlim, sənindi...
Amma sonra yadından çıxır. Yenə deyir:
– Lalə qızım, qəşəng qızım, mənim qızım...
Atam da belə deyir. Babam da belə deyir. Axı, belə olmaz. Axı, Lalə mənimdi.
Yaxşı hirsləndirdiniz məni, baxarsız!.. Mən də gedərəm Firudin əmidən özümə başqa Lalə alaram.
Firudin əmi bizim həyətdə süd satır, özü də mənim dostumdu. Mən ona deyirəm:
– Firudin əmi, mənə Lalə ver.
Firudin əmi deyir:
– Lalə? Laləni neyləyirsən, Səlim?
Mən deyirəm:
– Istəyirəm ki, mənim özümün Laləm olsun!
Firudin əmi deyir:
– Yaxşı, Səlim, əgər tapsam, sabah sənə lalə gətirərəm.
Sabah Firudin əminin yanına gəlirəm. Mən deyirəm:
– Salam, Firudin əmi, mənə Lalə gətirdin?
Firudin əmi deyir:
– Gətirdim, Səlim, güclə tapdım, al.
Firudin əmi mənə bir dənə qırmızı gül verir. Mən deyirəm:
– Bu nədi?
Firudin əmi deyir:
– Lalədi. Yavaş götür, dağılmasın. Lalənin ləçəkləri çox zərif olur.
Eh, Firudin əmi gör mənə nə gətirib?! Gül!..
Mən deyirəm:
– Firudin əmi, mən belə lalə istəmirəm...
Firudin əmi deyir:
– Bəs, sən nə cür lalə istəyirsən, Səlim?
Mən deyirəm:
– Mən bacım Lalədən istəyirəm.
Firudin əmi bərkdən gülür. Sonra deyir:
– Ay səni, Səlim!
Yenə mənə gülürlər. Heç belə də iş olar?

## BELƏ DƏ IŞ OLAR?

Heç bilmirəm nə edim... Belə də iş olar?..
Mən Səliməm. Amma hamı mənə «Balaca Səlim» deyir. Niyə «balaca»? Bilmirəm..
Axşam anamla atam teatra getməyə hazırlaşanda deyirəm:
– Ana, məni də teatra apar.

Anam deyir:
– Yox, Səlim, sən hələ balacasan, yuxun gələr, yatarsan...
Anamla atam gedir teatra. Mən qalıram evdə nənəmlə.
Atam ova gedəndə deyirəm:
– Ata, məni də özünlə ova apar.
Atam deyir:
– Yox, Səlim, sən hələ balacasan, yorularsan...
Atam gedir ova, anam gedir işə. Mən qalıram evdə nənəmlə.
Səhər qonşumuz, mənim dostum Dadaş çantasını götürüb məktəbə gedir. Deyirəm:
– Dadaş, məni də məktəbə apar.
Dadaş deyir:
– Yox, Səlim, sən hələ balacasan, oxuya bilməzsən...
Dadaş gedir məktəbə. Atam gedir işə, anam gedir işə. Mən qalıram evdə nənəmlə.
Nənəm də Laləni qucağına götürüb həyətdə gəzdirir. Lalə mənim bacımdır. Lap balacadır. Mənim üç yaş iki ayım var, onun – hi, hi, hi, adamın gülməyi gəlir!.. – heç bir yaşı da yoxdur.
Həyətdə nənəmə deyirəm:
– Nənə, Laləni ver bir az da mən gəzdirim.
Nənəm deyir:
– Yox, Səlim, sən hələ balacasan, gücün çatmaz, yıxarsan...
Nənəm özü Laləni gəzdirir, mən də onun arxasınca gedirəm. Belə də iş olar?..
Bəs necə olur ki, televizorda məndən də çox-çox balaca – bax, bu boyda, lap bir cıqqanaq!.. – adamlar, özləri tək ova da gedirlər. Amma heç yorulmurlar, teatra da gedirlər, amma heç yuxuları gəlmir, məktəbə də gedirlər, «beş» alırlar, hələ müəllim də olurlar, maşın da sürürlər, təyyarədən də paraşütlə tullanırlar, gəmidə də üzürlər?
Hə? Bəs necə olur?
«Balaca Səlim...» Belə də iş olar?

## MƏN HƏR ŞEYI BILIRƏM

Mən babamı çox istəyirəm. Bax, bu qədər! Hələ qollarım çatmır, göstərim ki, nə qədər!..
Biz Bakıda yaşayırıq, babam kənddə. Babam tez-tez bizə gəlir. Mənə çoxlu meyvə gətirir. Bilir ki, yaman meyvə yeyənəm. Indi də babam mənə meyvə gətirib: alma, armud, şaftalı, gavalı... Mən də oturub yaxşıca-yaxşıca yeyirəm.
Babam deyir:
– Hayıf, bu il meyvə az oldu, Səlim...
Mən deyirəm:
– Niyə bu il meyvə az oldu, baba?
Babam deyir:

– Çünki bu il quraqlıq oldu.
Mən deyirəm:
– Quraqlıq nədi, baba?
Babam deyir:
– Yağış yağmayanda, ağacları sulamayanda, meyvə az olur. Buna da quraqlıq deyirlər.
– Yağış yağsa, meyvə çox olar?
– Əlbəttə.
Eh, hayıf ki, babamın Dadaş kimi yoldaşı yoxdur. Dadaş mənim dostumdur, bizim həyətdə olur. Həmişə mənə deyir:
– Sən mənim ən birinci dostumsan, Səlim!
Dadaşın portfeli var, özü də məktəbə gedir. Dadaş hər şeyi bilir, mənə də deyir. Mən də hər şeyi bilirəm. Bax, yağış buxardan əmələ gəlir. Su istidə buxarlanır. Indi gördünüz ki, mən hər şeyi bilirəm?
Eh, hayıf ki, babamın Dadaş kimi yoldaşı yoxdur. Eybi yox.
Mən deyirəm:
– Baba, yağış buxardan əmələ gəlir.
Babam deyir:
– Doğrudan?
Mən deyirəm:
– Bəli, baba, doğrudan. Mən hər şeyi bilirəm. Mən kənddəki evimizə gələndə yağış yağdıracağam. Onda meyvə də çox olar.
Babam deyir:
– Sən bunu necə edəcəksən, Səlim?
Mən deyirəm:
– Gedərəm bağa. Qazanı su ilə dolduraram. Qoyaram ocağın üstünə. Su qızar, buxar olar. Onda yağış yağar, meyvə də çox olar. Gördün, baba, mən hər şeyi bilirəm!
Babam deyir:
– Gördüm, Səlim. Doğrudan da, sən yaman bilənsən!
Sonra babam ürəkdən gülür.
Yenə mənə gülürlər...

# AYSUNUN, HUMAYIN, GÜNAYIN,
# YALÇININ VƏ NIGARIN NAĞILLARI

## BALACA QIRMIZI ÇIÇƏK

Balaca Qırmızı Çiçəyin bir gün yaşı var idi. Bircə gün idi ki, Balaca Qırmızı Çiçəyin qönçəsi açmışdı. Qıpqırmızı xırdaca ləçəkləri lap nazik idi. Elə nazik ki, kəpənək qonsaydı əzilərdi. Buna görə də kəpənəklər o Balaca Qırmızı Çiçəyin ləçəklərinə qonmurdu, kəpənəklər istəmirdi ki, o ləçəklər əzilsin, uçub gedib başqa güllərə, başqa çiçəklərə qonurdu.

Kəpənəklər özləri də çox yüngül idi, qırmızı idi, ağ idi, sarı idi, adam o rəngbərəng kəpənəklərə baxdıqca baxmaq istəyirdi. Buna görə də kəpənəklər başqa güllərə, başqa çiçəklərə qonub Balaca Qırmızı Çiçəyə baxırdı, Balaca Qırmızı Çiçəyin yüngüllüyünü hiss edirdi, qıpqırmızı xırdaca ləçəklərinin zərifliyini görürdü və kəpənəklər də dünyada belə gözəl qırmızı çiçək olduğu üçün sevinirdi.

Həmin gün elə bil ki, günəş də sevinirdi, şüaları bütün çəməni qızdırırdı. Həmin gün çəməndəki güllərin, çiçəklərin rəngləri də sevinirdi, qırmızı göyə qarışmışdı, göy sarıya, sarı yaşıla, yaşıl məxməriyə qarışmışdı və elə bil ki, həmin gözəl yaz günündə çəməndəki bütün rənglər gülürdü.

Bülbüllər də çəmənin sevinən rənglərinə baxırdı və gözəl nəğmələr oxuyurdu. Bülbüllərin həmin yaz günündəki nəğmələri dünyanın yaxşı işlərindən, gözəl hadisələrindən xəbər verirdi, anaların laylasından, uşaqların yuxusundan deyirdi.

Günəş də, güllər də, çiçəklər, kəpənəklər, bülbüllər də sevinirdi, təkcə... təkcə o Balaca Qırmızı Çiçək qəmgin idi.

Balaca Qırmızı Çiçəyin zərif çiçəkləri gülə bilmirdi, onlar da o qədər incə və zəif idilər ki, həmin isti, günəşli yaz günü, hətta bir az üşüyürdülər də.

O qırmızı çiçəyin yanında Böyük Sarı Gül bitmişdi. Çəməndə bütün güllər, çiçəklər, otlar Böyük Sarı Gülə hörmət edirdi. Böyük Sarı Gül hər şeyi bilirdi, hər şeydən xəbərdar idi. Çəməndə güllərin, çiçəklərin nə sualı olsaydı, Böyük Sarı Gülə verərdi. Çünki Böyük Sarı Gülün yaşı çox idi; Böyük Sarı Gülün qönçələri artıq düz yeddi gün idi ki, açmışdı.

Böyük Sarı Gül Balaca Qırmızı Çiçəyə baxdı, qıpqırmızı incə ləçəklərdəki qəmginliyi gördü və dedi:

– Bu gün gözəl gündür... Bütün çəmənimiz sevinc içindədi... Bəs sən nə üçün sevinmirsən? Nə üçün günəşin şüaları ilə qızınmırsan? Sən nə üçün qəmginsən?

Balaca Qırmızı Çiçək zəif, incə ləçəklərini yüngülcə qaldırıb Böyük Sarı Gülə baxdı və nazik, titrək səsi ilə dedi:

– Bax, o balaca qızın anası var... Bax, o balaca buzovun anası var. Bax, balaca bülbülün anası var... Bəs niyə mənim anam yoxdur?

Anası balaca qızını qucağına alıb çəməndəki cığırla kəndə tərəf gedirdi.

Inək buzovu yanına salıb qarşı dağın döşündən keçirdi.

Bülbülün balaları çəmənə bitişik ağaclıqda başlarını yuvalarından qaldırıb analarının səsinə səs verirdi.

Böyük Sarı Gül o balaca qızın anasına, o ana bülbülə, o inəyə baxdı, gülümsədi, sonra, elə bil, daha da mehribanlaşdı. Balaca Qırmızı Çiçəyə dedi:

– Sən hələ balacasan. Ona görə də hələ çox şey bilmirsən... Sənin anan torpaqdır. Mənim də, bütün güllərin, çiçəklərin də, bax, o böyük ağacları görürsən, onların da anası torpaqdır.

Sonra Böyük Sarı Gül göz işlədikcə uzanan düzlərə, çəmənlərə baxdı və yenə də Balaca Qırmızı Çiçəyə dedi:

– Bax, görürsən, bizim anamız torpaq necə böyükdür, necə genişdir?

Balaca Qırmızı Çiçək də geniş çöllərə, düzlərə baxdı.

Əlbəttə, Balaca Qırmızı Çiçək sevinirdi ki, onun da anası var. Sevinirdi ki, onun anası belə böyükdür, belə güclüdür.

Amma... amma o sevincdə Balaca Qırmızı Çiçəyin özü kimi lap yüngül, lap zərif bir qəmginlik var idi, çünki Balaca Qırmızı Çiçək istəyirdi ki, onu da anası qucaqlaya bilsin, xırdaca ləçəklərini öpsün...

## KÜLƏYIN, ÇINARIN VƏ QARANQUŞ BALASININ HEKAYƏTI

O çinar ağacı lap balaca idi, sonra gün keçdi, ay dolandı, sonra ay keçdi, il dolandı, o çinar ağacı böyüdü, böyüdü və o qədər illər keçdi ki, o çinar ağacı o qədər böyüdü ki, haçansa eləcə balaca olmağı yadından çıxdı. Yadından çıxdı ki, yanından yüngülcə bir yel ötəndə, çöp kimi nazik və sütül gövdəsi az qalırdı sınsın.

O çinar ağacının başı göylərə dəyirdi və bütün yer üzünə də eləcə yuxarıdan aşağı baxırdı və o yüksəklikdən gördüyü dünya o qədər ayaq altında, o qədər kiçik idi ki, özünü həmin dünyanın ən güclüsü hesab etdi.

O çinar ağacı heç nədən çəkinmirdi, heç nədən qorxmurdu və iş o yerə çatdı ki, günlərin bir günündə o çinar ağacının yarpaqları xışıldadı:

– Mən o küləkdən də qorxmuram!

Əlbəttə, külək bunu eşitdi, çünki çöllərdə, düzlərdə, dağlarda, meşələrdə, hətta, dənizlərdə, okeanlarda da nə səs olurdu, nə deyilirdisə, külək onu o saat eşidirdi və bütün heyvanların, quşların, bitkilərin dilini bildiyi üçün, o saat başa düşürdü.

Külək bu xışıltını da eşitdi və qəzəbləndi.

Külək çinar ağacının ətrafında fırlandı, fırlandı, sonra daha da bərk əsdi, sonra lap bərkidi, çovğuna çevrildi, qıy vurub bütün ətrafa hücum çəkdi, yer titrədi, göy titrədi, o çinar ağacı silkələndi, yarpaqları qopdu, sonra budaqları qırılmağa başladı və qəzəbli külək o çinarın ətrafında elə bir burulğan yaratdı ki, o boyda ağac uzun-uzun illər bundan əvvəlki o sütül gövdəcik kimi, əsim-əsim əsməyə başladı, lap az qalmışdı ki, torpaqdan qopsun və külək bircə an dayandı ki, yeni bir qıyla çinar ağacını göyə sovursun.

Külək elə həmin bircə anlıq sükut içində qəfil bir civilti eşitdi.

O çinar ağacından kənarda köhnə bir dəyirman var idi və külək, ancaq çinarın ətrafında burulğan yaratsa da, o burulğanın dalğası dəyirmanın taxtapuşunu qoparmışdı. Dəyirmanın eyvanının dərinində, küncdə, tavanın altında isə bir qaranquş yuvası var idi və eləcə zəif-zəif, yazıq-yazıq civildəyən də o yuvadakı qaranquş balası idi. Eyvanın o küncünü hələ külək tutmurdu, amma bayaqdan yer-göy titrəyirdi və o köhnə dəyirman da az qala o taxtapuş kimi, yerli-dibli qopub havaya uçacaqdı.

Qaranquş balası yuvanın içində cıqqılı başını balaca və zəif bədəninə qısmışdı, birdən-birə aləmi bürümüş qasırğadan o qədər qorxmuşdu ki, təkcə öz ürəyinin döyüntüsünü eşidirdi, daha başqa heç nə görmürdü, heç nə eşitmirdi. Həmin o bircə anın içində ki, sükut çökdü, külək o saat o cıqqılı ürəyin döyüntüsünü eşitdi, sonra da o quşcuğazın yenicə dil açdığı qaranquş dilində nə civildədiyini eşitdi:

– Mən qorxuram...

Hə, külək bu civiltini eşitdi...

Külək yenidən qıy vurmağa tamam hazır idi və bilirdi ki, o qıydan sonra o çinar ağacı köklü-dibli qopub göyə sovrulacaq, amma külək bu civiltini eşitdi və birdən-birə tamam boşaldı, o qaranquş balasının ürəyinin eləcə tıppıltısı içində daha qıy vura bilmədi...

Külək qıy vursaydı, bilirdi, o çinar ağacı ilə birlikdə bu köhnə dəyirman da, bu köhnə dəyirmanla birlikdə o qaranquş yuvası da, o qaranquş yuvasıyla birlikdə o qaranquş balası da göyə sovrulacaqdı...

Balaca qaranquş balası başını qaldırıb yuvadan iki nöqtə kimi xırdaca və qapqara gözləriylə nigaran-nigaran ətrafa baxdı və ətrafın bu sakitliyi davam etdikcə, o cıqqılı ürəyin tıp-tıp tıppıltısı da azalırdı.

Külək o cıqqılı ürəyin tıppıltısının eləcə azalmasını eşidirdi və heç cürə təzədən qıy vura bilmirdi...

O çinar ağacı isə yavaş-yavaş özünə gəlirdi və qolu-budağı sınsa da, yenə əvvəlki kimi, yer üzünə yuxarıdan aşağı baxa-baxa deyirdi:

– Gördünüz?! Külək mənə heç nə eləyə bilmədi!..

## NIGAR, YALÇIN VƏ ONLARIN DƏDƏSI

Nigarın adı Nigar idi. Yalçının adı Yalçın idi.

Nigarın dörd yaşı vardı, Yalçının iki yaşı. Nigarın kuklası vardı, Yalçının tapançası. Nigar evcik-evcik oynayırdı, Yalçın top-top. Nigarın öz şarı vardı, Yalçının öz şarı. Nigarın öz şəkilli kitabı vardı, Yalçının öz şəkilli kitabı. Nigarın öz velosipedi vardı, Yalçının öz velosipedi.

Amma Dədələri bircə nəfər idi – həm Nigarın Dədəsi idi, həm də Yalçının Dədəsi idi.

Əslində Dədə Nigarın da, Yalçının da babası idi. Nigar hələ danışa bilməyəndə belə deyirdi:

– Də-də-də-də-də...

Babası da ona baxıb gülürdü:

– Baxın, görün Nigar necə danışır: – də-də-də-də-də...

Nigar deyirdi:
– Də-də-də-də-də...
Babası gülürdü:
– Də-də-də-də-də...
Nigar hər dəfə babasını görəndə «Də-də-də-də-də»... – dedi, axırda «Də-də...» - dedi. «Də-də», yəni ki, Dədə.
Nigar nə edirdisə, Yalçın da onu edirdi.
Nigar babasına Dədə dedi, Yalçın da babasına Dədə dedi.
Nigar istəyirdi ki, Dədə həmişə onunla oynasın, ona nağıl desin. Yalçın da istəyirdi ki, Dədə həmişə onunla oynasın, ona nağıl desin.
Indi bəs nə olsun? Axı, Dədə bir nəfərdir...
Heç belə də iş olar?..
Bir gün Nigar soruşdu:
– Dədə, hara gedirsən?
Nigar nə soruşdusa, Yalçın da o saat onu soruşurdu:
– Dədə, hara gedirsən?
Dədə dedi:
– Gedirəm televizordakıların iş yerinə. Orada məni lentə çəkəcəklər, axşam televizorda danışacağam.
Nigar sevindi:
– Biz səni görəcəyik?
O saat Yalçın da sevindi:
– Biz səni görəcəyik?
Dədə dedi:
– Hə, axşam görəcəksiz...
Axşam Nigarla Yalçın eyvanda oturub kağızlarda şəkillər çəkirdilər. Axı, onların ikisi də rəssam idi!.. Ən yaxşı rəssam hansı idi? Elə ikisi də!.. Ancaq... ancaq Nigar öz kağızında nə çəkirdisə, Yalçın da öz kağızında onu çəkirdi... Birdən ataları onları çağırdı:
– Nigar, Yalçın, gəlin bura, Dədə televizorda danışır.
Nigarla Yalçın tez qaça-qaça otağa gəldi.
Nigarla Yalçının anası, bir də atası, bir də Dədə oturub televizora baxırdı.
Televizorda... Dədə danışırdı.
Bu necə işdir?
Nigar bir çay içə-içə televizora baxan Dədəyə baxdı, bir də televizorda danışan Dədəyə baxdı.
Yalçın da bir çay içə-içə televizora baxan Dədəyə baxdı, bir də televizorda danışan Dədəyə baxdı.
Doğrudan da bu necə işdi?.. Bay səni!..
Indi Nigarın da, Yalçının da iki Dədəsi vardı – bir Dədə çay içə-içə televizora baxırdı, o biri Dədə də televizorda danışırdı.
Nigar dedi:
– A-a-a!...
Yalçın da o saat dedi:
– A-a-a!..
Birdən Nigar dedi:
– Yalçın, Yalçın, bilirsən nə var?

Yalçın da tez istədi ki, desin: Nigar, Nigar, bilirsən nə var? Amma sonra başa düşdü ki, axı, belə olmaz... Dedi:

– Nə var?

Nigar dedi:

– Yalçın, qoy bu Dədə mənim olsun, televizordakı Dədə sənin olsun. Bu Dədə həmişə mənimlə oynasın. O Dədə həmişə səninlə oynasın. Yaxşı, Yalçın? Hə?

Yalçın Nigara baxdı, sonra otaqda çay içən Dədəyə baxdı, sonra televizorda danışan Dədəyə baxdı.

Nigar bir də soruşdu:

– Yaxşı, Yalçın?

Yalçın dedi:

– Yox, bu Dədə mənim olsun, o Dədə sənin olsun!

Necə oldu bu – televizorda danışan Dədə gülmədi, amma otaqda oturan Dədə güldü?

Sonra Nigarla Yalçının anası da güldü, atası da güldü.

Sonra Nigar onlara baxıb bərkdən güldü.

Sonra da Yalçın Nigara baxıb lap bərkdən güldü.

## MƏN YAMAN QOCAĞAM

Nigar həyətdə çox atıldı-düşdü, qaçdı, tərlədi, ona soyuq dəydi, xəstələndi.

Yalçın dedi:

– Gördün, Nigar, adam özünü tərlətməz... Çünki adama soyuq dəyər, xəstələnər.

Günay da başını tərpətdi, yəni ki, düzdü, Yalçın düz deyir.

Axı, Günay hələ danışa bilmirdi, neyləsin?

Yalçın dedi:

– Günay, sən böyüyəndə, həyətə düşəndə, çox qaçıb özünü tərlətməzsən... Hə?

Günay başını tərpətdi, yəni ki, hə.

Yalçın atıla-atıla dedi:

– Gördün, Nigar! Biz özümüzü tərlətməyəcəyik! Biz xəstələnməyəcəyik!

Günay da əlini-əlinə vura-vura atıldı-düşdü, birdən... gurup!... dəydi yerə.

Günay istədi bərkdən ağlasın, amma bu vaxt qapının zəngi çalındı. Yalçın qapıya qaçdı. Günay da tez qapıya tərəf baxdı.

Gələn Dədə idi, Günayın, Yalçının, Nigarın babası.

Yalçın dedi:

– Dədə, Dədə, biz özümüzü tərlətməyəcəyik, Günay da, mən də xəstələnməyəcəyik! Nigar bizdən böyükdü, amma özünü tərlədib, xəstələnib!

Dədə dedi:

– Eybi yox, daha Nigar da bundan sonra özünü tərlətməyəcək, xəstələnməyəcək.

Yalçın Nigara baxdı:

– Hə, Nigar?

Günay da Nigara baxdı, istədi o da desin ki, «Hə, Nigar?», amma təkcə bunu dedi:

– I-ı-ı...

Nigar başını yastığın üstündə yavaş-yavaş tərpətdi, yavaş-yavaş da dedi:

– Hə...

Dədə bazardan Nigar üçün qıpqırmızı gilənar alıb gətirmişdi. Anası gilənarı yudu, boşqaba yığıb Nigarın çarpayısının yanındakı balaca kətilin üstünə qoydu.

Dədə dedi:

– Nigar, gör nə qəşəng gilənardı, ye.

Nigar yavaş-yavaş dedi:

– Istəmirəm, Dədə...

Dədə dedi:

– Sən bir bax, gör nə dadlıdı...

Dədə gilənardan birini götürüb Nigarın ağzına qoydu.

Yalçın da, Günay da Nigara baxırdı.

Nigar yavaş-yavaş dedi:

– Day istəmirəm... Acıdı...

Dədə dedi:

– Gilənar acı deyil, Nigar, sənin ağzın acı olub. Xəstələnmisən, ona görə ağzın acılaşıb. Keçib gedəcək.

Yalçın gilənara baxa-baxa, udquna-udquna Nigarın lap yanına gəldi. Günay da Yalçının yanına gəldi.

Yalçın soruşdu:

– Gilənar acıdı, Nigar?

Nigar yavaş-yavaş dedi:

– Hə...

Yalçın gilənarın birini ağzına qoyub dedi:

– Hə, acıdı...

Sonra bir gilənar da yedi:

– Hə, acıdı....

Sonra bir gilənar da yedi, bir gilənar da yedi, yedi, yedi:

– Hə, acıdı, acıdı, acıdı...

Yalçın gilənarların hamısını yedi qurtardı. Sonra Dədəyə baxdı, Nigara baxdı, sonra da Günaya dedi:

– Gördün, Günay, gördün mən necə qoçağam?! Acı gilənarın hamısını yedim!

Dədə ağzı-burnu qıpqırmızı gilənar şirəsinə bulaşmış Yalçına baxıb güldü. Nigar da Yalçına baxıb güldü. Günay da:

– I-ı-ı – dedi, yəni ki, Yalçın, doğrudan da, sən yaman qoçaqsan! Lap qoçaq!..

## GÜNAYIN, YALÇININ, NIGARIN VƏ YEKƏ CANAVARIN NAĞILI

Çox şilə aşı yemişəm, amma belə yalan deməmişəm.

Günlərin bir günündə Günay, Yalçın, Nigar həyətdə oynayırdı. Bu təzə həyət elə gözəl idi ki!... Hər tərəf ağac, gül, ot... Bir tərəfə baxanda da böyük bir dağ görünürdü, özü də yamyaşıl meşəli dağ...

Nigar gavalı ağacına dırmaşdı. Yalçın da Nigara baxıb başqa gavalı ağacına dırmaşdı, Günay da Yalçına baxıb başqa gavalı ağacına dırmaşmaq istəyirdi, amma dırmaşa bilmirdi. Əlləri ilə ağacdan yapışıb bir ayağını yerdən qaldıranda – gurup! – dəyirdi yerə.

Birdən Nigar qışqırdı:

– Dədə gəldi!

Yalçın da o saat qışqırdı:

– Dədə gəldi!

Günay da qışqırmaq istədi «– Dədə gəldi!». Amma təkcə elə bunu dedi:

– Də-də-də-də!..

Nigar ağacdan atılıb Dədənin qabağına qaçdı. Yalçın da Nigarın dalınca qaçdı. Günay da Yalçının dalınca qaçmaq istəyəndə yenə də – gurup! – dəydi yerə. Ah, bu gözəl Günay nə vaxt yaxşı yeriyə biləcək, hə?

Günay başını qaldırdı, üz-gözünü turşutdu, istədi ağlasın, amma Dədə tez onu yerdən qaldırdı, tez də soruşdu:

– Günay, bura sənin xoşuna gəlir?

Nigar tez dedi:

– Mənim xoşuma gəlir!

Yalçın da o saat dedi:

– Mənim xoşuma gəlir!

Günay da demək istədi ki, «– Mənim xoşuma gəlir!» Amma təkcə elə bunu dedi:

– Mə-mə-mə-mə...

Nigar güldü:

– Günay, sən quzusan mələyirsən?

Yalçın da o saat güldü:

– Günay, sən quzusan mələyirsən?

Günay da güldü, demək istədi ki, « – Günay, sən quzusan mələyirsən?». Amma təkcə bunu dedi:

– Gü-gü-gü-gü...

Günay «Gü-gü-gü-gü...» – dedi, hamı da güldü.

Nigar, Yalçın, Günay Bakıdan buraya dünən yox, o biri gün yox, o biri gün gəlmişdi. Nə qədər isti olacaqdı, o qədər də burada qalacaqdılar. Bu gözəl həyətdə. Bütün yayı.

Dədə dedi:

– Sabah sizi meşəyə aparacağam...

Oy, gör Nigar necə sevindi!.. Dedi:

– Sabah meşəyə gedəcəyik? Ura-a-a!..

Əlbəttə, Yalçın o saat Nigar kimi sevindi!.. Dedi:

– Sabah meşəyə gedəcəyik? Ura-a-a!..

Amma Günay təkcə bunu deyə bildi:

– U-u-u!.. A-a-a!..

Yalçın dedi:

– Dədə, mən meşədə... – Sonra Nigara baxdı. – Nigar, mən meşədə... – Sonra Günaya baxdı. – Günay mən meşədə...

Nigar dedi:

– De də, Yalçın, sən meşədə nə?

Günay da bunu soruşmaq istədi. Amma təkcə:

– Sə-ə-ə... Mə-ə-ə... – dedi.

Ah, bu gözəl Günay nə vaxt danışmağı öyrənəcək?

Yalçın dedi:

– Mən meşədə bir dənə yekə canavar öldürəcəyəm!

Dədə dedi:

– Doğrudan?

Yalçın dedi:

– Hə, doğrudan!

Nigar bilmədi nə desin... Bilmədi buna inansın, ya inanmasın? Nigar Günaya baxdı. Günay da Nigara baxdı. Yalçın isə qollarının ikisini də qaldırıb pəhləvanlar kimi bükdü, Dədəyə, Nigara, Günaya öz gücünü göstərdi:

– Görürsünüz, mən necə güclüyəm? Sabah meşədə böyük canavar öldürəcəyəm!

Dədə dedi:

– Yaşasın qəhrəman Yalçın!

Nigar da dedi:

– Hə, hə, yaşasın qəhrəman Yalçın!

Amma Günay təkcə elə bunu dedi:

– Ya-ya-ya-ya...

Gün keçdi, axşam oldu, sonra gecə də keçdi... Axı, nağılda vaxt tez keçir! Səhər Dədə, Nigar, qəhrəman Yalçın, bir də lap balaca Günay meşəyə gedəndə Dədə soruşdu:

– Yalçın, bu gün yekə canavar öldürəcəksən?

Nigar da tez Yalçına baxdı, Günay da gördü ki, Nigar Yalçına baxır, tez o da Yalçına baxdı.

Yalçın dedi:

– Hə, meşədə yekə canavar öldürəcəyəm!

Onlar gəlib meşəyə çatdılar. Meşədə böyük-böyük ağaclar var idi, tikanlı-tikanlı kollar var idi. Meşədən cürbəcür səslər gəlirdi:

– Qa-qa-qa-qa...

– Ci-ci-ci-ci...

– Hop-hop-hop-hop...

Nigar dedi:

– Yalçın, sən yekə canavarı harada öldürəcəksən?

Yalçın meşədəki böyük-böyük ağaclara, tikanlı-tikanlı kollara baxdı, cürbəcür səslərə qulaq asdı, amma... Bay, bu necə işdi belə? Yalçın kimi qəhrəman heç bir söz demədi, Nigarın sualına cavab vermədi...

Nigar yenə soruşdu:

– Yalçın, sən yekə canavarı harada öldürəcəksən?

Meşədən isə eləcə cürbəcür səslər gəlirdi:

– Ho-o-o...

– Mö-ö-ö...

– Va-a-a...

Yalçın meşədən gələn bu səslərə qulaq asdı, meşənin dərinliyinə baxdı, axırda dedi:

– Dədə, bilirsən nədi?.. – Sonra Nigara baxdı. – Nigar, bilirsən nədi?... – Sonra Günaya baxdı. – Günay, bilirsən nədi?..

Nigar dedi:

– Nədi, Yalçın, de də...

Yalçın dedi:

– Mən yekə canavarı yuxuda öldürəcəyəm!

Dədə güldü:

– Yaxşı, qəhrəman Yalçın!..

Nigar heç bilmədi qəhrəman Yalçının bu sözünə nə desin...

Heç kim də bilmədi ki, Günay nə deyir:

– Du-du-du-du...

Dədə, Nigar, Yalçın, bapbalaca Günay meşədə gəzdilər, ağaclara baxdılar, dələ gördülər, çiçək yığdılar, sonra qayıtdılar evə. Sonra yenə axşam düşdü, yenə gecə gəldi, yenə səhər açıldı və səhər yuxudan duranda Yalçın bərkdən dedi:

– Nigar, Günay, mən yuxuda yekə bir canavar öldürdüm! Bilirsiz nə boydaydı? – Yalçın qollarını iri açıb göstərdi. – Bax, bu boyda! Mən onu götürüb yerə vurdum, öldürdüm! Bax, belə-belə!.. – Yalçın yumruqları ilə havanı döyəcləyə-döyəcləyə göstərdi ki, yuxuda yekə canavarı necə öldürüb!

Nigar qəhrəman Yalçına baxdı, bilmədi bu xəbərə inansın, ya inanmasın...

Günay da Nigara baxıb dedi:

– Mə-mə-mə-mə...

Günay demək istəyirdi ki, Nigar, Yalçın, mən də yuxuda yekə canavar öldürmüşəm! Lap yekə! Bax, bu boyda!

## HUMAYIN YUXUSU

Humay elə yaxşı, elə yaxşı qızdı, özü də deyir ki, Humay yaxşı qızdı.

Günlərin bir gözəl günündə günəş yavaş-yavaş batdı, axşam düşdü, bütün uşaqlar yatdı, Humayın böyük bacısı Günay da yatdı.

Günay elə böyükdü, elə böyükdü, elə böyükdü, düz altı yaşının içindədi.

Humay elə balacadı, elə balacadı, elə balacadı, üç yaşı təzə tamam olub.

Amma Humayın böyük bacısı böyük Günay yatdı, Humay isə – bax a!.. – yatmaq istəmirdi!..

Humay yerində uzanmışdı, amma istəmirdi yatsın, istəmirdi, istəmirdi, istəmirdi, amma gözləri yumulurdu, amma özü yatmaq istəmirdi. Humay istəyirdi ki, yaxşı-yaxşı, yaxşı-yaxşı, yaxşı-yaxşı dostları gəlsin yanına, bir yerdə oynasınlar.

Hə, hə, hə!.. Humay elə yatmaq istəmirdi, elə yatmaq istəmirdi, elə yatmaq istəmirdi, amma gözləri yumuldu, açıldı, yumuldu, açıldı, yumuldu... Bay!... Elə yumulu da qaldı ki!..

... Humayın bir dənə qırmızı topu var idi. Elə qırmızıydı, elə qırmızıydı ki, lap qıpqırmızı.

Humayın topu evdən çıxdı, hoppana-hoppana, hoppana-hoppana pilləkənləri aşağı düşdü, küçəyə çıxdı, hoppana-hoppana, hoppana-hoppana getməyə başladı. Birdən Cıqqılı siçan Humayın topunun qabağına çıxdı. Cıqqılı siçan soruşdu:

– Ay Humayın topu, hara gedirsən belə?

Humayın topu dedi:

– Gedirəm, Humayın dostlarını yığam aparam Humayın yanına. Humay onlarla oynasın, yatmasın.

Cıqqılı siçan dedi:

– Humay yaxşı qızdı, Humay məni Bığlı pişiklə barışdırıb. Məni də apar Humayın yanına, ay Humayın topu!

– Gedək!

Humayın topu düşdü qabağa, Cıqqılı siçan da Humayın topunun dalınca, getdilər. Getdilər, getdilər, getdilər, getdilər, getdilər, birdən qabaqlarına Bığlı pişik çıxdı. Bığlı pişik soruşdu:

– Hara gedirsən, ay Humayın topu?

Humayın topu dedi:

– Gedirəm Humayın dostlarını yığam aparam Humayın yanına. Humay onlarla oynasın, yatmasın.

Bığlı pişik dedi:

– Humay yaxşı qızdı. Bir dənə parçadan düzəlmiş pişik var Humayda. Humay söz verib ki, bir də heç vaxt parça pişiyin bığlarını dartmayacaq. Axı, o parça pişik mənəm!.. Məni də apar Humayın yanına, ay Humayın topu!

– Gedək!

Humayın topu düşdü qabağa, Cıqqılı siçan Humayın topunun dalınca, Bığlı pişik də Cıqqılı siçanın dalınca, getdilər. Getdilər, getdilər, getdilər, getdilər, getdilər, birdən qabaqlarına bir Uzunboy zürafə çıxdı. Uzunboy zürafə soruşdu:

– Hara gedirsən, ay Humayın topu?

Humayın topu dedi:

– Gedirəm Humayın dostlarını yığam aparam Humayın yanına. Humay onlarla oynasın, yatmasın.

Uzunboy zürafə dedi:

– Humay yaxşı qızdı. Mənim bir dənə qəşəng şəklim var Humayda. Humay söz verib ki, bir də heç vaxt o şəkli cırmayacaq, o şəkli əzməyəcək. Məni də apar Humayın yanına, ay Humayın topu!...

– Gedək!

Humayın topu düşdü qabağa, Cıqqılı siçan Humayın topunun dalınca, Bığlı pişik Cıqqılı siçanın dalınca, Uzunboy zürafə Bığlı pişiyin dalınca, getdilər. Getdilər, getdilər, getdilər, getdilər, getdilər, birdən qabaqlarına Yaşıl karandaş çıxdı. Yaşıl karandaş soruşdu:

– Hara gedirsən, ay Humayın topu?

Humayın topu dedi:

– Gedirəm Humayın dostlarını yığam aparam Humayın yanına. Humay onlarla oynasın, yatmasın.

Yaşıl karandaş dedi:

– Humay yaxşı qızdı. Humay söz verib ki, bir də heç vaxt məni ağzına salıb dişləməyəcək, Humay mənimlə elə qəşəng, elə qəşəng yarpaq şəkilləri çəkəcək ki!.. Məni də apar Humayın yanına, ay Humayın topu!..

– Gedək!

Humayın topu düşdü qabağa, Cıqqılı siçan Humayın topunun dalınca, Uzunboy zürafə Bığlı pişiyin dalınca, Yaşıl karandaş Uzunboy zürafənin dalınca, getdilər. Getdilər, getdilər, getdilər, getdilər, getdilər, birdən küçənin ortasında dayanmış milisioner əmi fit çaldı, sonra əlini qulağının üstünə aparıb dedi:

– Vətəndaş Humayın topu, beləcə cərgəyə düzülüb hara gedirsiniz? Siz qatar kimi keçirsiz, maşınlar isə yolda dayanıb ləngiyir.

Humayın topu dedi:

– Milisioner əmi, biz Humayın dostlarıyıq. Gedirik onun yanına, onunla oynamağa.

Milisioner əmi dedi:

– A-a-a!.. Belə de!.. Humay yaxşı qızdı, çünki söz verib ki, bir də heç vaxt ağlamayacaq, bundan sonra həmişə anasının sözünə baxacaq, yeməyini yeyəcək, böyük bacısı Günayla da bundan sonra heç vaxt dalaşmayacaq. Məni də apar Humayın yanına, ay Humayın topu!..

– Gedək!..

Humayın topu düşdü qabağa, Cıqqılı siçan qırmızı topunun dalınca, Bığlı pişik Cıqqılı siçanın dalınca, Uzunboy zürafə Bığlı pişiyin dalınca, Yaşıl karandaş Uzunboy zürafənin dalınca, Milisioner əmi də Yaşıl karandaşın dalınca getdilər. Bu dəfə üz tutdular geriyə, Humaygilin evinə tərəf. Getdilər, getdilər, getdilər, getdilər, getdilər, Humayın çox xoşladığı fəvvarələrin qabağından keçdilər, Humayın çox yelləndiyi yelləncəklərin yanından ötdülər, Humayın çox qaçıb oynadığı bağçanı da arxada qoydular, axırda gəlib çıxdılar Humaygilə.

Bir tərəfdən Humayın dostları gəlib çıxdı Humaygilə, o biri tərəfdən də gün çıxdı.

Gün çıxdı, səhər açıldı.

Hamı yuxudan oyandı.

Hamı yuxudan oyandı, Humay da yuxudan oyandı.

Hə, Humay yuxudan oyandı, ora baxdı, bura baxdı, Cıqqılı siçanı, Bığlı pişiyi, Uzunboy zürafəni, Yaşıl karandaşı, Milisioner əmini görmədi, təkcə qırmızı topunu gördü.

Humay tez yerindən qalxıb qırmızı topun yanına qaçdı. Humay soruşdu:

– Ay top, bəs hanı Cıqqılı siçan, onun dalınca Bığlı pişik, onun dalınca Uzunboy zürafə, onun dalınca Yaşıl karandaş, onun dalınca Milisioner əmi! Bəs hanı?

Humayın topu cavab vermədi.

Axı, topun dili yoxdu danışsın...

Humay başa düşdü ki, top, ancaq yuxuda danışa bilər, Cıqqılı siçan da, Bığlı pişik də, Uzunboy zürafə də, Yaşıl karandaş da ancaq yuxuda danışa bilər. Bircə Milisioner əmi qaldı...

Humay, tez pəncərənin qabağına qaçıb küçəyə baxdı.

Milisioner əmi küçənin ortasında dayanıb maşınlara yol göstərirdi. Birdən Milisioner əmi pəncərədən baxan Humayı gördü, gülümsədi, əlini qulağının üstünə apardı, Humayı salamladı.

Həmin gün Humay üçün, bax, beləcə başladı...

## GÜNAY, HUMAY, BIR DƏNƏ GÜNƏBAXAN VƏ QIRT TOYUĞUN CÜCƏLƏRI

Qış qurtardı, yaz gəldi, nərgiz torpaqdan baş qaldırdı, ağaclar çiçəklədi, lalələr çölləri, düzləri qıpqırmızı qızartdı, gül bülbülü çağırdı, bülbül gülü, sonra yay gəldi, istilər başladı və Günayla Humay atasıyla birlikdə, anasıyla birlikdə maşına minib yay istirahətinə kəndə getdilər.

Günayla Humaygilin kənddə yaşadıqları evin həyətində çoxlu ağac var idi və Günayla Humay bu ağacları meyvələrindən tanıyırdılar:

– Bax, armud ağacı!

– Bax, alma ağacı!

– Bax, alça ağacı!

Həyətdə bostan da var idi. Bostanda qarğıdalı əkmişdilər, pomidor, xiyar əkmişdilər, amma bunların arasında bir dənə də gül uzanmışdı, saplağı elə uzun idi, bir Günay, bir də Humay – ikisi boyda! Özü qoğal kimi girdə idi, sapsarı ləçəkləri var idi və Günayla Humay bilmirdi ki, bu boy-buxunda, bu uzunluğunda, bu girdəliyində, bu sarılığında bu nə güldü belə?

Günay soruşdu:

– Bu nə güldü?

Günayın anası dedi:

– Yox, bu gül deyil, Günay, bu günəbaxandı. Yəqin bostana bir dənə toxumu düşüb, beləcə uzanıb...

Humay təəccüblə çiyinlərini çəkdi:

– Günəbaxan nədi?

Düzdü, Günay da bilmirdi ki, günəbaxan belə olur, amma Günay bilirdi ki, günəbaxan nədi, çünki Günay yaman çoxbilən qız idi, axı Günay, zarafat deyil ha, ikinci sinifə keçmişdi!..

Günay tez dedi:

– Humay, günəbaxan bilirsən nədi? Bax, biz ki, hərdən tum çırtlayırıq ha, günəbaxan odu, bildin?

Humay başını tərpətdi:

– Hə, hə, bildim! Tez onu çırtdayaq!

Axı, Humay hələ balaca idi. Axı, Humayın hələ cəmi-cümlətanı beş yaşı var idi.

Günayla Humayın anası dedi:

– Yox, Humay, günəbaxan hələ gərək lap böyüsün, yetişsin, sonra dərərik, tumlarını çıxardarıq, tavada qovurarıq, bir yerdə oturub çırtlayarsız. Amma qabığını yerə tökməzsiz ha!

Bundan sonra Günayla Humay hər gün həmin tək günəbaxanın dibinə su tökdülər.

Humay balaca beli ilə hər gün günəbaxanın dibini bellədi, Günay tez-tez baxdı ki, keçilər, buzovlar gəlib onların bu günəbaxanını yeməsin.

Günəbaxan hər gün bir balaca, hər gün bir balaca böyüyürdü, lap yekə olurdu...

Günayla Humay hər gün səhər tezdən yuxudan duran kimi ən birinci yerlərindən boylanıb pəncərədən həmin günəbaxana baxırdı.

Günlər keçdi, günəbaxan yekə, lap yekə, lap gözəl bir günəbaxan oldu. Qapqara iri tumları var idi.

Bakıya qayıtmaqlarına iki gün qalmış Günayla Humayın anası dedi:

– Bu gün günəbaxanı dərəcəyik!

Humay qışqırdı:
– Ay can, ay ca-an!..
Günay dedi:
– Yaxşı da, Humay, bərkdən qışqırma...
Günay belə dedi, çünki Günayın həmin günəbaxana bir az yazığı gəlirdi...
Günəbaxanı dərdilər, Günayla Humay günəbaxanın tumlarını çıxartdılar, anaları günəbaxanın tumlarını tavada qovurdu. Günayla Humay hərəsi bir nəlbəki gətirdi, anaları qovrulmuş tumu yarıya bölüb nəlbəkiləri doldurdu.
Günayla Humay çoxdan bəri gözlədikləri qovrulmuş isti tumdan bir ovuc götürüb həyətə qaçdılar ki, ləzzətlə çırtlasınlar.
Bir az keçdi.
Birdən Günayla Humay qaça-qaça evə gəldilər.
– Biz tumları cücələrə verdik!
Anaları güldü.
– Axı, cücələr tum yeməz...
Həyətdəki hində qırt toyuğun yeddi cücəsi var idi. Cücələr dörd gün idi yumurtadan çıxmışdılar, lap balaca idilər. Hər birisi bir yumurta boyda idi, təkcə nazik qılçaları, cıqqılı da ayaqları var idi. Belə bapbalaca cücələr iri tum dənələrini necə yeyə bilərdi?
Günay, Humay ikisi də bir ağızdan dedi:
– Cücələrə anaları tum verir. Gəl, bax!.. Gəl, bax!..
Günayla Humay anaları ilə birlikdə hinin qabağına gəldilər, açıq pəncərədən içəri baxdılar.
Qırt toyuq qaqqıldaya-qaqqıldaya gəzişirdi, cücələri də civildəyə-civildəyə onun dalınca qaçışırdı. Qırt toyuq hinin açıq pəncərəsindən adam görüb daha bərkdən qaqqıldadı.
Humay dedi:
– Ay cücələr!.. Ay cücələr!.. Alın!..
Humay hinə bir dənə iri tum atdı.
Qırt toyuq qaqqıldaya-qaqqıldaya gəlib dimdiyi ilə həmin tumu yerdən götürdü. Cücələr civildəşə-civildəşə, yüyürə-yüyürə, itələşə-itələşə analarının qabağına yığışdı.
Qırt toyuq dimdiyinin ucundakı tumun qabığını sındırdı, tumun ağ ləpəsi sıçrayıb yerə düşdü. Cücələr yenə civildəşə-civildəşə, itələşə-itələşə ağ ləpənin üstünə qaçışdı, amma ağ ləpə iri idi, bərk idi. Qırt toyuq qaqqıldaya-qaqqıldaya ağ ləpəni təzədən dimdiyinə aldı, sonra ağ ləpəni dimdiyində əzə-əzə xırdaladı, yerə səpələdi. Cücələr bircə göz qırpımında tum ləpəsinin qırıntılarını dimdikləyib yedilər.
Humay qışqırdı:
– Gördün!
Bu dəfə Günay hinə bir tum atdı və cücələr bu tumun da ləpəsini beləcə yedilər. Qırt toyuq başını qaldırıb pəncərəyə baxırdı, cücələr civildəşirdi, tum ləpəsi, deyəsən, cücələrin yaman xoşuna gəlmişdi və qırt toyuq da qaqqıldaya-qaqqıldaya elə bil deyirdi ki, ay qızlar, nə durmusuz, görürsünüz tumun ləpələri balalarımın necə xoşuna gəlir, yenə verin də!..
Günay dedi:
– Mən öz tumlarımın hamısını cücələrə verəcəyəm!
Humay da dedi:

– Mən də tumlarımın hamısını cücələrə verəcəyəm!..

Günay ovcundakı tumların hamısını bir-bir cücələrə atdı. Humay da ovcundakı tumların hamısını bir-bir cücələrə atdı, təkcə bir dəfə dedi:

– Günay, olar mən özüm də bir dənə tum yeyim?

Günay Humaya baxdı, başını buladı, dərindən nəfəs aldı və dedi:

– Yaxşı, Humay, bir dənəsini ye...

Nə etmək olardı, Humay hələ balaca idi də... O da cücələr kimi, tum ləpəsi yemək istəyirdi...

Sonra Günayla Humay cücələrə yenə tum gətirdilər, sonra yenə gətirdilər və beləcə tumların hamısını cücələrə verdilər. Humay özü isə, doğrudan da, ancaq bircə dənə tum çırtladı.

Cücələr başlarını qaldırıb hinin açıq pəncərəsinə baxırdı. Günayla Humayı görən kimi, bərkdən civildəşməyə başlayırdı, yəni ki, yaxşı tumdu, biz yenə istəyirik!..

Ancaq hayıf ki, o günəbaxan cəmi bircə dənə idi...

Sonra Günayla Humay anaları ilə birlikdə, ataları ilə birlikdə Bakıya qayıtdılar. Sonra yay qurtardı, payız gəldi, ağacların yarpaqları saraldı, yağışlar yağdı, quşlar uçub isti ölkələrə getdi, təkcə sərçələr yağışın altında islanıb civildəyə-civildəyə soyuqdan şikayət etdi, sonra qış gəldi, qar yağdı, amma o qovrulmuş tum ləpəsi yeyən balaca cücələr heç vaxt Günayla Humayın yadından çıxmırdı...

## AXI, NƏ OLDU KI, BIRDƏN HAMI GÜLDÜ?

Günayla Humay on iki gün idi ki, yay istirahətinə Bakıdan kəndə gəlmişdilər və gözəl bir həyətdə, gözəl bir evdə yaşayırdılar.

Bilmirəm sizə demişəm, yoxsa yox, Günayın yeddi yaşı var idi, səkkizə keçmişdi, özü də lap çoxdan keçmişdi, Humayın isə beş yaşı var idi, altıya keçmişdi, özü də lap təzəcə keçmişdi.

Məktəbdə dərslər qurtarmışdı. Günay da birinci sinfi qurtarmışdı və Günay o qədər məktəbə getmişdi, o qədər dərs oxumuşdu, o qədər yazı yazmışdı ki, yaman yorulmuşdu.

Düzdü, Humay hələ məktəbə getmirdi, hələ hərfləri tanımırdı, ona görə də oxuya bilmirdi, yaza bilmirdi, amma Humay da axı, Günayı məktəbə ötürürdü, Humay da axı, evdə oturub Günayı gözləyirdi, Humay da axı, Günayın kitablarına baxırdı, Humay da axı, Günayın çəkdiyi şəkilləri çəkirdi və Humay da yaman yorulmuşdu.

Indi düz on gün idi ki, kənddə dincəlirdilər.

Günayla Humayın atası yazıçı idi. Səhərdən axşama qədər Bakıdan gətirdiyi yazı makinasının arxasında oturub yaz ki, yazırdı. Günayla Humay isə bütün günü həyətdə oynayırdılar, anaları ilə kəndə gəzməyə çıxırdılar, bulaq başına gedirdilər, çəmənlikdə gül-çiçək dərirdilər, böyürtkən kollarından böyürtkən yığırdılar...

Günayla Humay kənddə o qədər təzə şey öyrənmişdilər ki...

Sən demə, qarpız alma kimi, ya da ki, armud kimi, ya da ki, nar kimi, ağacda bitmir, yerdə bitirmiş...

Sən demə, inəyin balasının öz adı var imiş, buzov, atın da balasının öz adı var imiş, dayça, camışın isə balasının adı balaq imiş...

Sən demə... Eh, hansını deyəsən? Günayla Humay kənddə o qədər çox şey, o qədər çox şey öyrənmişdilər ki, elə bil kənd də bir təzə... məktəb idi! Düzdü, Günay Bakıdakı məktəbi də çox istəyirdi, amma bu məktəbi də lap çox istəyirdi!

Indi də Günay ilə Humay şüşəbənddə oturub həyətdəki armud ağacının dibində armud yeyən qaratoyuğa baxırdı. Bu qaratoyuq neçə gün idi ki, uçub gəlib həmin armud ağacının dibinə qonurdu və ağacdan düşüb yerdə qalan armudları dimdikləyə-dimdikləyə bir-bir yeyirdi.

Birdən kənddəki həmin gözəl evin sahibəsi Validə xala hinin yanından Günayla Humayı çağırdı:

– Günay! Humay! Tez bura gəlin! Görün sizə nə göstərirəm?!

Günayla Humay qaça-qaça hinin qabağına getdilər.

Validə xalanın ovcunda bir dənə balaca, lap, lap, lap balaca cücə var idi.

Bu cücə indicə yumurtadan çıxmışdı və Validə xala onu yavaşca əlinə götürüb Günayla Humaya göstərirdi.

Cücənin hələ heç tükləri qurumamışdı. Elə yavaşdan civildəyirdi ki, elə bil cücə deyildi, cücü idi. Gözləri elə xırdaydı ki, elə bil bir düyünü iki yerə paralayıb qapqara rəngə boyamışdın. Qanadları elə kiçikdi ki, elə bir kibrit çöpünü ikiyə bölüb düzəltmişdin. Ayaqları elə nazik idi ki, elə bil çəyirtkə ayağıydı. Təkcə... təkcə dırnaqları yaman uzun idi.

Günay cıqqılı cücənin bu cür uzun dırnaqlarını gördü və tələsik dedi:

– Validə xala! Validə xala! Tez qaçım qayçı gətirim, cücənin dırnaqlarını tut!

Humay da tələsik dedi:

– Hə, Günay, tez qayçı gətir! Qoy qəşəng olsun!

Birdən Validə xala Günayla Humayın bu sözlərinə bərk güldü.

Validə xalanın böyük qızı Ilahə də, ortancıl qızı Nüşabə, kiçik qızı Əfiqə də bərkdən güldü.

Validə xalanın balaca oğlu var idi, Nəsib, həmişə qaşqabaqlı olurdu, amma Nəsib də Günayın bu sözlərinə bərkdən güldü.

Humay da heç bilmədi ki, hamı niyə güldü, amma Humay da güldü.

Cıqqılı cücə də Validə xalanın ovcunun içində kiçik dimdiyini açıb yavaşcadan civildədi, elə bil ki, bu cıqqılı cücə də Günayın sözlərinə güldü...

## AYICA

Ayıca Aysunun ən birinci dostu idi.

Ayıca ayı balasının adı idi. Axı, Aysu hələ sözləri düz deyə bilmirdi... Sözlərin orasını əyirdi, burasını əyirdi, özündən cürbəcür sözlər quraşdırırdı.

Bu ayı balasına da əvvəlcə: «A-a-a!» – dedi, sonra: «Yı-yı-yı..» – dedi, sonra: «Ca-ca-ca!..» – dedi. Sonra həmin «a»lar, «yı»lar», «ca»lar bir yerə yığılıb oldular nə?

Düzdü! «Ay-yı-ca!..».

– Ayıca!.. Ayıca!.. Ayıca!..

Ayı balasının adı da, bax, bu cür oldu Ayıca.

Bu ayı balasının sarı-kürən tükləri var idi, özü də həmişə gülürdü.

Ayıca o qədər böyük idi ki, lap Aysudan da böyük. Amma elə də yüngül idi ki, lap yüngül. Aysu onu qucağına götürürdü. Axı, bu ayı balası əslində pambıqdan idi...

Bu hadisə çoxdan olmuşdu, lap, lap çoxdan, düz altı gün bundan qabaq.

Onda gün çıxmışdı. Aysugilin kənddəki evlərinin qabağında çəmənlik var idi.

O çəməndəki güllər, çiçəklər gecənin sərinindən sonra, günün altında qızınırdılar.

Aysu Ayıcanı qucağına alıb çəmənə çıxdı.

Çəməndəki güllər, çiçəklər, otlar hamısı başını qaldırıb günəşə baxırdı. Bu güllərin, çiçəklərin, otların o qədər cürbəcür rəngi var idi ki, heç Aysunun bu qədər rəngli karandaşı yox idi: qırmızı, narıncı, sarı, yaşıl, xurmayı, məxməri, qızılı, göy, qəhvəyi, gümüşü, ağ, qızılı...

Aysu Ayıcanı yamyaşıl otların üstündə oturtdu. Özü isə güllərin, çiçəklərin arasında bu güldən o gülə, o güldən bu gülə tərəf qaçdı və qaça-qaça heç özü də bilmədən necə oldusa, birdən-birə uzun cümlələr deməyə başladı:

– Oy, nə qə... qə... qəşəng gül!..

Bu sözləri Aysu iri qırmızı gül üçün dedi.

– Oy, nə qə... qə... qəşəng gül!

Bu sözləri balaca sarı çiçəklər üçün dedi.

Aysunun yaş yarım yaşı var idi və ömründə birinci dəfə idi sözləri bir-birinin ardınca bu cür səliqə ilə düzürdü, lap böyüklər kimi danışırdı:

– Oy, nə qə... qə... qəşəng gül!..

Bu sözləri xırdaca mavi çiçəklər üçün dedi. O xırdaca mavi çiçəklər salxım-salxım idi.

Aysu beləcə, güllərdən güllərə qaçdı:

– Oy nə qəşəng gül!..

– Oy, nə qəşəng gül!..

– Oy, nə qəşəng gül!..

Bu vaxt ağappaq böyük gülün üstündən bir kəpənək uçdu. O kəpənəyin sapsarı qanadları günün altında sarı işıq kimi işıldayırdı. Sarı qanadlarında qıpqırmızı, gömgöy xallar var idi və o qıpqırmızı, gömgöy xallar da günün altında qıpqırmızı, gömgöy işıq kimi işıldayırdı.

O sarı kəpənək də uça-uça bu güldən o gülə, o güldən bu gülə qonmağa başladı. Aysu o qıpqırmızı, gömgöy xallı sarı kəpənəyə baxdı, baxdı və dedi:

– Oy, nə qəşəng kə... kə... kəpənək!..

Birdən o gözəl çəməndə, günün qızdırdığı o işıqlı, sakit çəməndə kimsə bərkdən ağladı.

Aysu dayandı, o tərəfə baxdı, bu tərəfə baxdı: çəməndə heç kim yox idi.

Bəs, bu gözəl gündə, bu qəşəng güllərin, çiçəklərin arasında kim beləcə ağlayırdı?

Necə? Ola bilməz!..

Aysu tez Ayıcanın yanına qaçdı.

Hə, hə... Sən demə, o gözəl çəməndə o cür bərkdən ağlayan Ayıca idi...

Aysu tez Ayıcanın yanında oturdu və bu dəfə də ömründə birinci dəfə sözləri bu cür yan-yana düzdü:

– Sənə... nə... olub... Ayıca?

Ayıca qalın və yumşaq pəncələri ilə ağlamaqdan qızarmış gözlərini ovuşdura-ovuşdura dedi:

– Hamı qəşəng... Güllər qəşəng... Kəpənək qəşəng... Bəs... Bəs mən? – Və Ayıca lap bərkdən ağladı.

Aysu:

– Sən də qə... qəşəngsən, Ayıca! – dedi.

Aysu Ayıcaya da bu sözləri birinci dəfə deyirdi.

Sonra bu sözləri elə dedi ki, çəməndəki bütün güllər, çiçəklər, otlar, kəpənəklər eşitdi!

– Sən də qəşəngsən, Ayıca!

Elə bil, bu sözləri Günəş də eşitdi!

Ayıca pəncələrini üzündən çəkdi, Günəşə baxdı və o ayı balasının gün işığında parıldayan gözləri yenə də əvvəlki kimi güldü.

Sonra Ayıca gülümsəyən yaş gözləri ilə Aysuya baxdı və burnunu çəkə-çəkə dedi:

– Sən də qəşəngsən, Aysu!..

Sonra Aysu Ayıcanı qucağına aldı və onlar gözəl güllərin, çiçəklərin arası ilə gəzə-gəzə evə gəldilər...

## GILAS QIZ

Aysunun adı Aysu idi, amma güllər, çiçəklər, yaşıl, yamyaşıl otlar öz aralarında Aysuya «Gilas qız» deyirdilər, öz aralarında pıçıldayırdılar:

– Gilas qız gəldi...

– Gilas qıza bax...

– Oy, qıza bax...

– Oy, Gilas qızın bantı nə qəşəngdi!..

Əhvalat isə belə olmuşdu... Mən danışım, siz qulaq asın.

Aysugilin kənddəki evlərinin həyətində güllərin, çiçəklərin, yamyaşıl otların arasında böyük bir gilas ağacı var və həmin yay o gilas ağacı o qədər bar gətirmişdi ki, ağırlığından budaqlarının ucu sallanıb, az qala, torpağa dəyirdi. Amma gilaslar hələ yetişməmişdi.

Aysu hər gün səhər tezdən yerindən duran kimi evlərinin pəncərəsindən o gilas ağacına baxırdı ki, görsün, gilaslar yetişib qıpqırmızı qızarıb, yoxsa yox?

Aysu tələsirdi, gilasların yetişib qızarmağını gözləyirdi. Gilaslar isə tələsmirdi, çünki atalar deyib ki, tələsən tələyə düşər. Düzdü, bunu atalar deyib, amma Aysuya bunu Aysunun nənəsi demişdi. Tələsmək lazım deyildi, Aysu bunu bilirdi, amma Aysu çox tələsirdi, çox istəyirdi ki, o gilaslar tez yetişsin, tez qızarsın, qıpqırmızı olsun.

Nəhayət, günlərin bir günündə səhər Aysu yenə də yuxudan oyandı, pəncərədən o gözəl gilas ağacına baxdı.

Oy!.. Gilas ağacının üstündə qırmızı gilaslar var idi. Bir gilas... Iki gilas... Üç gilas...

Aysu daha böyük qız idi, daha iki yaşı tamam olmuşdu, üç yaşına – üç e! – keçmişdi, ona qədər saya bilirdi.

Bax, dörd qırmızı gilas... Beş qırmızı gilas...

Aysu qaça-qaça həyətə çıxdı və qaça-qaça da həyətdəki güllərin, çiçəklərin, yamyaşıl otların arasından keçib gilas ağacının yanına gəldi.

Bir... iki... üç... dörd...

Dörd qırmızı gilas da, yox, yox, ode, biri də var... beş qırmızı gilas da ağacın lap aşağı sallanmış budaqlarında idi və Aysu ayaqlarının ucuna qalxsaydı, əli o gilaslara çatardı.

Bax, bax, bu... bu bir qırmızı gilas!..

Aysu tək o gilası dərdi, tez də ağzına qoyub yedi.

O biri gilaslar qoşa saplaqlarda idi, ikisi bir, ikisi də bir.

Aysu yenə ayaqlarının ucuna qalxdı, əlini uzatdı, başını uzatdı, axır ki, o iki cüt gilası da ağacdan dərdi.

Bu gilaslar elə iri idi, qırmızı idi, günün altında elə par-par parıldayırdı ki!..

Əlbəttə, Aysu o gilasları da yemək istəyirdi, çünki Aysu gilası çox xoşlayırdı, ona görə də o gilası da çox yemək istəyirdi, amma o gilaslar elə gözəl idi!..

Aysu o dörd gilası yemədi, qoşa saplaqların birini bir qulağından, o birini də o biri qulağının üstündən keçirtdi və o gözəl gilaslar iri, qırmızı sırğalar kimi Aysunun qulaqlarından sallandı...

Həmin səhər çağı Aysugilin həyətindəki güllər, çiçəklər, yamyaşıl otlar da yuxudan təzəcə oyanmışdılar və gilas ağacından bir az kənarda bitmiş ağ çiçək də ləçəklərini tamam açmışdı.

O çiçək əvvəlcə Günəşə baxdı, sonra gilas ağacına baxdı, sonra da gilas ağacının yanında dayanmış Aysuya baxdı. Baxdı və təəccübündən donub qaldı: axı, ağ çiçək bilirdi ki, gilas, ancaq ağacda bitər, amma indi bu qızın xurmayı saçlarının altında, hər iki qulağında gilas bitmişdi.

Ağ çiçək heyrətlə pıçıldadı:

– Vay!.. Gilas qız!..

O gündən də həyətdəki bütün güllər, çiçəklər, yamyaşıl otlar Aysunu «Gilas qız» çağırdılar, Aysunu görən kimi pıçıldaşırdılar:

– Gilas qız gəldi...

– Gilas qıza bax...

– Oy, Gilas qızın bantı nə qəşəngdi!

## QƏHRƏMAN AYSU, QARA PIŞIK VƏ CIQQILI SIÇANIN NAĞILI

Aysu çoxdan yuxudan durmuşdu, əl-üzünü yumuşdu, süd içmişdi, pendir-çörək yemişdi və indi də Fatma gəlinciyini durğuzub geyindirirdi.

Yay gəlmişdi və Aysugil də neçə gün idi ki, yay istirahətində Bakıdan kəndə köçmüşdülər, kənddəki evlərində yaşayırdılar.

Aysu Fatma gəlinciyini geyindirib qurtardı, istədi ki, aparıb Fatmanın da əl-üzünü yusun, amma bu vaxt lap astaca bir civilti eşitdi.

Aysu əvvəlcə diqqətlə qulaq asdı, sonra Fatma gəlinciyi çarpayının üstünə qoyb, açıq pəncərənin qabağına qaçdı və həyətə boylandı.

Evin qabağındakı qızılgül kolunun yanında üç dənə cıqqılı siçan balası qaçışa-qaçışa bir-biri ilə oynayırdı.

Bu siçan balalarının tükü bomboz idi, nazik bığları var idi, uzun quyruqlarını tərpədə-tərpədə burunları ilə bir-birini itələyirdilər, ora-bura qaçışırdılar, atılıb-düşürdülər.

Elə gözəl gün çıxmışdı, həyətdəki güllərin, çiçəklərin, otların elə gözəl rəngləri var idi ki, həyət elə sakitlik içində idi ki, boz siçan balaları civildəyə-civildəyə sevinirdilər və sevinə-sevinə də oynaşırdılar.

Boz siçan balaları ömürlərində birinci dəfə idi ki, həyətə oynamağa çıxmışdılar.

Aysu tez qaçıb Fatma gəlinciyini də gətirmək istədi ki, Fatma gəlincik də bu cıqqılı siçan balalarına baxsın, görsün ki, onlar necə sevinə-sevinə oynayırlar. Amma...

Amma bu zaman çox qorxulu bir hadisə baş verdi...

Birdən-birə elə bil ki, yerin altından çıxdı, ya göydən düşdü, bir qara pişik balası düz cıqqılı siçan balalarının qabağına atıldı, tüklərini qabartdı, belini dikəltdi və şimşək çaxan gözləri ilə acıqlı-acıqlı siçan balalarına baxıb bərkdən miyoldadı.

Cıqqılı siçan balaları əvvəlcə yerlərində donub qaldılar, sonra birdən özlərinə gəldilər və hərəsi bir tərəfə qaçdı: biri yuxarı tərəfə, biri aşağı tərəfə, biri də Aysugilin evinə tərəf.

Qara pişik balası əvvəlcə istədi ki, cıqqılı siçan balalarının üçünün də dalınca birdən qaçsın, amma başa düşdü ki, belə olmaz və cıqqılı siçan balalarından lap cıqqılısının dalınca atıldı.

O, lap cıqqılı siçan balası qaçıb Aysugilin evinin divarının dibində dayandı, çünki daha qaçmağa yer yox idi.

Qara pişik balası da üç-dörd dəfə atılıb, gəlib cıqqılı siçan balasının qabağında dayandı.

Cıqqılı siçan balası qorxudan tir-tir əsirdi. O birinci dəfə idi ki, pişik görürdü və bilmirdi ki, nə eləsin...

Qara pişik balası da, əslində, bilmirdi ki, nə eləsin, bu siçanla beləcə üzbəüz dayanırdı.

Qara pişik balası yenə də tüklərini qabartdı, belini dikəltdi, qıpqırmızı ağzını açıb bərkdən miyoldadı.

Bu vaxt Aysu:

– Dayan! – qışqırdı.

Aysunun səsini eşidən qara pişik balası bir az qorxdu. Cıqqılı siçan balasının isə tıp-tıp tıppıldayan cıqqılı ürəyində bir ümid yarandı.

Aysugilin evi birmərtəbəli idi, pəncərəsi yerə yaxın idi və Aysu pəncərəyə dırmaşıb həyətə sallandı, gözlərini yumdu və əllərini buraxdı.

Tap!..

Aysu həyətə düşdü, tez qara pişik balası ilə cıqqılı siçanın yanına qaçdı və yenə də:

– Dayan! – qışqırdı.

Qara pişik balası Aysuya baxıb səsini çıxarmadı.

Cıqqılı siçan balası qorxudan eləcə tir-tir əsirdi.

Aysu barmağı ilə siçan balasını göstərib qara pişik balasından soruşdu:

– Sən onu yemək istəyirsən?

Qara pişik balası qıpqırmızı ağzını açıb bərkdən miyoldadı, yəni ki, hə, yemək istəyirəm.

Aysu soruşdu:

– Sənin anan var?

Qara pişik balası yenə miyoldadı, yəni ki, əlbəttə, var.
Aysu soruşdu:
– Sən evə gəlməsən sənin anan nə eləyər?
Bu sözləri eşidəndə az qaldı qara pişik balasının gözləri yaşarsın və o yavaşdan miyoldadı, yəni ki, anam ağlayar...
Aysu soruşdu:
– Sən istəyirsən ki, anan ağlasın?
Qara pişik balasının gözləri doldu, lap yavaşdan miyoldadı, yəni ki, yox...
Aysu yenə barmağı ilə qorxudan tir-tir əsən cıqqılı siçan balasını göstərdi:
– Bəs, onun da axı, anası var!.. Axı, o öz yuvalarına qayıtmasa, anası həmişə ağlayacaq.
Qara pişik balası gah Aysuya baxdı, gah da cıqqılı siçan balasına.
Aysu soruşdu:
– Hə, sən yenə onu yemək istəyirsən?
Qara pişik balası bu dəfə qıpqırmızı ağzını açıb miyoldadı, təkcə yavaş-yavaş başını buladı, yəni ki, yox, mən daha cıqqılı siçan balasını yemək istəmirəm.
Aysu dedi:
– Onda gedin evinizə.
Çünki Aysu özü də Fatma gəlinciyinin yanına tələsirdi, axı, Fatma gəlinciyin əl-üzünü hələ yumamışdı.
Cıqqılı siçan balası Aysunun qabağına gəldi, astaca civilti ilə:
– Çox sağ ol, qəhrəman qız!.. – dedi, sonra qaça-qaça qızılgül kolunun yanındakı yuvalarına getdi.
Qara pişik balası cıqqılı siçanın arxasınca baxa-baxa fikirləşdi: «Işə bir bax a-a-a!.. Sən demə, cıqqılı siçanların da anası olurmuş!..».

## KUKLA, YOXSA, AYSU?

Günlərin bir günündə, axşam çağı ata işdən evə gəldi ki, evdə gözəl, səliqəli, əl-üzü tərtəmiz, saçları qəşəng daranmış bir kukla var.
Vay... Bu necə kukladı?! Adam kimi gəzir, adam kimi baxır...
Ata soruşdu:
– Bu kukla hardandı belə? Mən heç onu görməmişəm!..
Birdən... o gözəl kukla güldü:
– Ata, kukla deyiləm e, mənəm!
– Kim?
– Mənəm də!
– Axı, sən kimsən?
– Aysu!
Sən demə, bu kukla, doğrudan da, kukla deyilmiş, Aysu imiş...
Əl-üzünü yuyub, saçını darayıb, təmiz rahat geyib və buna görə də atası elə bilib ki, Aysu Aysu deyil, Aysu – kukladı...

## AYSU YORULUB...

Aysu birinci sinifdə oxuyur. Dünən də birinci sinifdə oxuyurdu, bu gün də birinci sinifdə oxuyur, eh... hələ sabah da birinci sinifdə oxuyacaq...

Nə qədər birinci sinifdə oxumaq olar?..

– Aysu, Aysu, dur, səhərdi daha!..

Aysu isə hələ yuxu görür. Görür ki, Cəmiləylə, Əşrəflə, Laləylə, Nərimanla həyətdə top-top oynayırlar, ora qaçırlar, bura qaçırlar...

– Aysu, Aysu, dur, məktəbin vaxtıdı!..

Aysu əvvəlcə gözünün birini açır, sonra o birini açır, atasına baxır:

– Mən yorulmuşam... – deyir.

– Yorulmusan?

– Hə! – deyir Aysu. – Yuxuda çox qaçmışam, yorulmuşam...

Bax, beləcə yorulandı Aysu.

Yuxuda o qədər ora-bura qaçır, o qədər top-top oynayır ki, səhər məktəbə getmək üçün durmaq lazım olanda da beləcə yorulur...

## AYSU VƏ BALACA BALIQLAR

Aysu yenə deyir ki, nağıl danış.

– Nə qədər nağıl olar, ay Aysu?

– Çoxlu!

– Axı, gecədi...

– Nə olsun!

– Yatmaq lazımdı.

– Sən istəyirsən ki, mən yatım?

– Əlbəttə!

– Onda bir dənə də nağıl danış.

Aysu belə Aysudu.

– Yaxşı... Biri var idi, biri yox idi, bir Yaşıl Ördək var idi. Bu Ördək çayın qırağında bir meşəlikdə özünə yuva qurmuşdu. Yaşıl Ördək tək yaşayırdı. Bütün quşların, bütün heyvanların balaları var idi. Yaşıl Ördək istəyirdi ki, onun da balaları olsun, o da yuvada tək yaşamasın. Hər şey Yaşıl Ördəyin istədiyi kimi oldu. Yaşıl Ördək iki yumurta yumurtladı, gecə-gündüz yumurtaların üstündə yatdı, öz istiliyini yumurtalara verib, onları qızdırdı ki, balaları yumurtadan çıxıb o gözəl meşəni, o gözəl çayı görsünlər, göyü görsünlər, böyüsünlər və Yaşıl Ördək kimi, onlar da göydə uça bilsinlər. Günlərin bir günündə Yaşıl Ördək hiss etdi ki, balaları cıqqılı dimdikləriylə yumurtanın qabığını taqqıldadırlar, elə bil deyirlər ki, açın qapını, biz gəlirik!.. Yaşıl Ördək yumurtanın qabığını sındırıb çıxmaqda balalarına kömək elədi. O balaca, o gülməli balalar beləcə dünyaya gəldilər. Yaşıl Ördək elə sevinirdi ki, heç vaxt belə sevinməmişdi, çünki heç vaxt balası olmamışdı. Sən demə, quşlar, heyvanlar, ancaq balaları olanda belə sevinə bilirlər...

Aysu soruşur:

– Bəs, adamlar?

Mən deyirəm:

– Əlbəttə, adamlar da! Hə, Yaşıl Ördək çox sevinirdi. Cıqqılı ördək balaları kibrit çöpü kimi nazik qılçalarının üstündə güclə dayana-dayana, hələ tüklənməmiş ətcə qanadlarını tərpədə-tərpədə, balaca gözlərinin qapağını güclə aça-aça Yaşıl Ördəyə baxırdılar, civildəyə-civildəyə analarından yem istəyirdilər. Yaşıl Ördək iri və güclü qanadlarını yelləyə-yelləyə havaya qalxırdı, çaya enib suya baş vururdu, lap cıqqılı bir balığı dimdiyinə alırdı, uçub yuvasına qayıdırdı, balalar civildəyə-civildəyə, ayaq üstə aşa-aşa dimdiklərini Yaşıl Ördəyin dimdiyinə uzadırdı, Yaşıl Ördək də dimdiyində çapalayan o cıqqılı balığı balalarından birinin ağzına qoyurdu, bala o cıqqılı balığı udandan sonra, Yaşıl Ördək təzədən havaya qalxıb çaya uçurdu, suya baş vurub təzədən balaca bir balığı dimdiyinə alırdı, yuvasına uçub o balaca balığı da o biri balasının ağzına basırdı və hər gün bu cürə neçə dəfə çayın suyuna baş vururdu, xırdaca balıqları tutub eləcə dimdiyində yuvaya gətirirdi, bala ördəkləri yedirdirdi. Bala ördəklər də o qədər acgözüydülər, doymaq bilmirdilər... Indi sənə kimdən deyim, nədən deyim, bir pis köstəbəkdən. Bu pis köstəbək də çayın qırağındakı o meşəlikdə yaşayırdı. Xəlvətcə-xəlvətcə ora gedirdi, bura gedirdi ki, görsün yeməyə nə tapır. Beləcə, o pis köstəbək gəlib çıxdı Yaşıl Ördəyin yuvasının yaxınlığına. Ördək balalarını görəndə ağzının suyu axdı. Gizlənib pusmağa başladı ki, balalar yuvada tək olanda tez gedib onları yesin. Yaşıl Ördəyin də bu pis köstəbəkdən xəbəri yox idi. Balaları ağızlarını açıb civildəyə-civildəyə yemək istəyəndə qanadlarını açıb çaya uçdu, suya baş vurdu. Pis köstəbək də elə bunu gözləyirdi, tez qaça-qaça yuvaya gəldi, o ördək balalarından birini dişinə alıb tələsə-tələsə yedi ki, anaları uçub gələnəcən o birini də yesin.

– Pis ördək!

– Pis ördək niyə? Pis köstəbək demək istəyirsən?

Kövrəlib gözləri dolmuş Aysu, az qala, ağlaya-ağlaya:

– Yox! Pis ördək! Köstəbək də pisdi, Yaşıl Ördək də! – dedi.

– Niyə?

– Yaşıl Ördək pisdi! Çünki Yaşıl Ördək niyə gedib balaca balıqları tutub gətirirdi? Bəs, onların anası yoxdu? O getdi balaca balıqları tutdu, onları yedilər, ona görə də pis köstəbək onun öz balasını yedi!.. Bəs, ördəyin ikinci balası necə oldu? Pis köstəbək onu da yedi?

– Yox, yox... Macal tapmadı. Yaşıl ördək uçub gəldi, pis köstəbəyi qovdu!

– Yaşıl Ördək yenə o balasına balaca balıqlar tutub gətirdi?

– Yox... Yaşıl Ördək başa düşmüşdü ki, o da pis iş görür.

Bundan sonra balasını meyvələrlə, otla, yarpaqla yedirdirdi.

Aysu bir az sakitləşdi, sonra yavaş-yavaş yuxuya getdi.

SÖZLƏR, YANILTMACLAR,
TAPMACALAR...

## QAR YAĞIB, YAĞMAYIB?

– QAR!.. QAR!..
Vay... QAR yağıb? Yazda bəyəm QAR yağar?
Yox... Sən demə, qarğadı, ağacın budağına qonub, QAP-QAR salıb:
– QAR-R-R... QAR-R-R...

## QUMRU QUŞLARI

O qumru quşlarına bax, nə hirslə QURULDAYIR...
Qumru quşu QUR-QUR QURULDAYIR. Elə bil deyir ki, mənə yuva QUR.
QURMARAM, ay tənbəl qumru quşu, özün QUR.
Sən QURA bilməsən, yaxşı mən QURARAM.
QURULDAMA QUR-QUR, uç özün QUR.

## «SÜZ» VƏ «SÜZ»

– Bir tapmaca deyim sənə?
– Hə!
– «Düyünü «SÜZ!» Bu nə «SÜZ»dü belə?
«Dur ayağa, SÜZ!» Bəs bu nə «SÜZ»dü belə?

## BU «SAZ» HANSI «SAZ»DI?

– Qardaşım SAZ çalır.
– SAZ SAZdı?
– Hə, lap SAZdı!
– SAZ SAZı SAZ çalır?
– Hə, SAZ SAZı lap SAZ çalır!

## KIM UÇUNDU, NƏ UÇDU, NƏ UÇMADI?

Birdən külək əsdi.
Birdən də pırıldayıb bir qaranquş UÇDU.
Mənim ürəyim UÇUNDU. Elə bildim qaranquşun yuvası UÇDU.
Amma yox... Qaranquşun yuvası UÇMADI, özü UÇDU.
Mənim də ürəyim daha UÇUNMADI.

## NECƏ OLDU KI, YAĞIŞ YAĞDI VƏ DANA HIRSLƏNDI

Yağış yağdı.
DANA qaçdı DAMA.
DAMDI, DAMDI, DAMCI-DAMCI su DAMDI DAMDAN.
Hirsləndi DANA.
Az qaldı DANA dırmaşa DAMA!

## GÜLÜŞÜN BACISI GÜLƏR GÜLƏ GÜLÜR...

GÜLÜŞ gümüş GÜLDANA GÜL yığdı.
Birdən GÜLÜN biri əlindən yerə düşdü.
GÜLƏR GÜLDÜ.
GÜLÜŞ dedi:
– GÜLƏR, adam GÜLƏ GÜLƏR?

## ABŞERONDA

Getdim meynədən qara ÜZÜM ÜZÜM.
ÜZÜMÜ ÜZDÜM, yedim.
Vay...
Bulaşdı ÜZÜM!..
Getdim dənizdə ÜZÜM...
Dənizdə ÜZDÜM, təmizləndi ÜZÜM.

## NƏNƏM YAMAN HIRSLƏNDI...

Bizim kəndimiz DAĞDADI. Biz də yayda getdik DAĞA.

DAĞ nə DAĞ!.. Elə xoşlayıram, elə xoşlayıram DAĞI!.. Meşələr, bulaqlar, yarğanlar... Bir də ki, bizim gözəlimiz kənd...

Nə yaxşı ki, biz bütün yayı qalacayıq DAĞDA!

Bir gün nənəm həyətdə ocaq qaladı. Yağı əritmək üçün qazana töküb ocağa qoydu.

Yağ əridi, qaynadı, DAĞ oldu.

Mən də qaçanda, az qaldı ayağım dəyə qazana, az qaldı DAĞIDAM yağı. Yaxşı ki, DAĞ YAĞ DAĞILMADI, məni də yandırmadı.

Nənəm yaman qorxdu, hirsləndi:

– Sənin ayağına, – dedi. DAĞ basacağam!

Amma mən bilirəm, nənəm məni çox istəyir, lap çox, çox istəyir, ayağıma DAĞ basmayacaq!..

Nənə elə deyir ki, mən eləcə qaçmayım, DAĞ yağı yerə DAĞITMAYIM! Axı, DAĞ yağ yandırar məni...

## DÜZDƏ

Maşına mindik getdik, getdik, DÜZ getdik DÜZƏ.

Oy, nə gözəldi DÜZ!.. Güldü, çiçəkdi, hər tərəf kəpənəkdi...

Lalələr DÜZÜM-DÜZÜM DÜZÜLÜB DÜZDƏ.

Ay gözəl DÜZÜM, qoy səndən lalələr üzüm, aparıb güldanlara DÜZÜM, sonra da güldanları şüşəbəndimizə DÜZÜM.

– DÜZ deyirəm, nənə?

– DÜZ dedin, Aysu!

– Axı, nənə, sən deyirsən mən də DÜZƏM, dümDÜZƏM, DÜZDÜ, nənə, hə?

– Hə, Aysu, DÜZÜ belə də! Sən DÜZ qızsan! Lap düm-bəDÜZ qızsan!

– Bax, nənə, ode, uzaqda o ağac da DÜZ durub, DÜZDÜ?

– DÜZDÜ, Aysu, bu da DÜZDÜ!

DÜZDƏ gəzdik, gəzdik, yorulduq. Sonra da DÜZDƏN DÜZƏLDIK yola, gəldik evə.

Oy, nə qədər lalə yığmışam DÜZDƏN!.. Çox sağ ol, gözəl DÜZÜM! Indi gedim, lalələri güldanlara DÜZÜM...

## BABAMLA OT ÇALMAĞA GETMIŞDIK...

Mənim saçım qapqaradı, babamın saçı ÇAL.

Mənim papağımın quzu dərisi qapqaradı, amma babamın papağı ÇAL.

Babam ot ÇALMAĞA gedir. Məni də özüylə aparır.

Babam ot ÇALIR, ÇALIR, sonra yorulur, dəryazı bir tərəfə qoyur, gəlib ağacın kölgəsində oturur, termosdan çay töküb içir, sonra da balaca torbasından tütəyini çıxardıb həmişə ÇALDIĞI havanı ÇALIR.

– Sən də əl ÇAL!.. – mənə deyir.

Mən də əl ÇALIRAM. Sonra da gedirəm gül-çiçək yığmağa.

Babam deyir:

– Kolluğa getmə, ilan ÇALAR.

Babam ÇALIR, mən də gül-çiçək dərirəm amma kolluğa girmirəm ki, ilan ÇALAR. Babam ÇALIR, dincini alır, yenə ayağa qalxır, dəryazı qaldırır, yenə ot ÇALIR...

# ADDA-BUDDA



## DÜNYAYA INSANLAR GƏLƏCƏK...

***(Mehdi Hüseyni xatırlayarkən)***

Biz Masallı ilə Lənkəranın arasındakı kiçik Sara adasında idik. O balıq tuturdu, mən də onunla balıq ovuna getmişdim.

Alatoranlıq idi. Gün hələ çıxmamışdı, ay da yox idi. Ayaz havaydı. Xırda ləpəciklər ayağımızın altına qədər gəlir, yenə qayıdırdı.

O, tünd-qəhvəyi pencəyinin boynunu qaldırıb, hələ heç nə yeməmişdən, içinə pambıq doldurduğu «Kazbek»dən çəkə-çəkə dənizə atdığı qarmaqların qarğısını qumluğa basdırdı. Sonra hündür bir daşın üstündə oturdu, mən də onun yanında – axşamacan buradaydıq.

O, Türkiyəyə birinci səfərindən yenicə qayıtmışdı. Mən çox maraqlandığım türk həyatı barədə onun söhbətlərinə qulaq asmaq istəyirdim, lakin sual verməkdən çəkinirdim – səs olacaq, qarmağa balıq keçməyəcəkdi...

Yavaş-yavaş işıqlanırdı. Yalnız ayaqlarımızın altına qədər gələn ləpəciklərin ahəngdar səsi və haradansa hacıleylək dimdiyinin taqqıltısı eşidilirdi.

Mən ona baxırdım. O, gözlərini dənizə zilləmişdi. Mənə elə gəldi ki, bu dəm o, bütün varlığı ilə suyun altında qarmağa keçəcək balığın yanındadır. Mənə elə gəlirdi ki, bu dəqiqə onun ağlında qarmaq və balıqdan başqa heç nə yoxdur. Mənə elə gəlirdi ki, bu an o, yalnız və yalnız qarmağa keçəcək həmin kiçiçik balığın hicranındadır və indi o, yalnız və yalnız həmin hicranla, həmin həsrətlə yaşayır...

Birdən üzünü mənə tutub hacıleylək müşayiətli sükutu ürəkdən gələn bir səslə pozdu:

– Səkkiz il keçib, amma mən hələ də Səmədin ölümünə inanmıram...

... Indi Mehdi müəllimin ölümündən düz bir il keçib.

Vaxt gələcək və bu bir il səkkiz il olacaq.

Sonra on səkkiz il olacaq...

Sonra daha artıq...

Və dünyaya yeni insanlar gələcək, böyüyəcək, qocalacaq, öləcək...

*10 mart 1966.*
*Bakı.*

## QUMRU QUŞLARI

Axır vaxtlar işdə tez-tez darıxıram, ürəyim sıxılır, hərdən lap beş dəqiqəlik də imkan tapanda aşağı düşürəm və Yazıçılar Ittifaqının qabağındakı bağda var-gəl edirəm.

Təxminən bir ay bundan qabaq bağda, ağacların dibində iki quş gördüm və onları çöl göyərçinləri bildim, amma bir az göyərçindən kiçik idilər və dimdikləri də, deyəsən, bir balaca uzun idi.

Quşlara yaxınlaşdım və bu quşlar yəqin ki, çöl göyərçinlərinin bir növü idi, çünki şəhər yerində adamı bu qədər yaxına buraxan, ürkməyən, məncə, ancaq çöl göyərçini olardı, amma yox, bu quşlar çöl göyərçini də deyildi, qumru quşlarıydı.

Günlər keçdi və o bağ qumru quşları ilə doldu. Qumru quşları, hətta, Yazıçılar Ittifaqının həyətinə də uçub gəlir və sayı-hesabı olmayan Azərbaycan yazıçılarından, şairlərindən, tənqidçilərindən ürkmür.

Deyirlər ki, əslində qumru quşları çox ürkək quşlardı, kənd yerlərində, çöllərdə, düzlərdə adamın gözünə görünmür: adam görən kimi, ürküb uçub gedir.

Indi o bağdakı qumru quşları adamlardan ürkmür, az qala, bir addımlığa qədər yaxına buraxır, sonra uçub adamların başının üstündəki budaqlara qonur, heç kimi vecinə almır.

Bu qumru quşları haradan gəlib? Təbiətdən küsüb? Yoxsa, zəhərlədiyimiz dağlardan, düzlərdən baş götürüb Bakıya pənah gətirib? Bəyəm, Bakı təmizdi?

Nə isə... Amma o bağdakı qumru quşları, nədənsə, adamda sabahkı günə bir inam yaradır... Yalnız bu mənada yox ki, haçansa təbiətin işi düzələcək: ümumiyyətlə...

*16 may 1981.*
*Bakı.*

## «SÇASTYE»

Indi dərs kitabındakı uzun bir şeri qabağına qoyub əzbərləyən Günaya baxıram və birdən-birə kiçik bir əhvalat yadıma düşür.

1980-ci ilin noyabr ayı idi.

Günay birinci sinifdə oxuyurdu və hər gün səhər dərsə gedirdi, günortalar isə axşama qədər cidd-cəhdlə dərslərini hazırlayırdı.

Həmin noyabr günü rus dilindən ev tapşırığı vermişdilər və Günay bütöv bir cümləni (!) səliqə ilə yazmalı idi: əvvəlcə sözləri bir-bir qaralamada yazırdı ki, sonra dəftərə köçürtsün.

Günayın yazdığı cümlədə bir «sçastye» sözü var idi və Günay yarım saat idi ki, bu sözün üstündə əlləşirdi: «ç» hərfində və yumşaqlıq işarəsində çaşırdı və buna görə də «sçastye» sözünü yaxşı yaza bilmirdi.

Günay daha özünü saxlaya bilmədi, darıxdı, əsəbiləşdi və bu sözün – «sçastye»nin qarasına deyinməyə başladı:

– Yazmaq olmur bunu! Pis sözdü bu söz! Zəhləm gedir bu sözdən! Istəmirəm bu sözü!

Günay beləcə deyinə-deyinə mənə baxdı və bilmirəm mənim sifətimdə necə ifadə əmələ gəlmişdisə – gülümsədimmi? fikrə getdimmi? bəlkə rişxənd idi, ya nə üçünsə təəssüf idi? – bilmirəm, məndən soruşdu:

– Nədi?

– Heç nə... – dedim.

Əlbəttə, mən Günaya deyə bilərdim ki, bu barədə səninlə iyirmi ildən sonra danışarıq...

*18 may 1981.*
*Bakı.*

## XOŞBƏXTLIK HAQQINDA

Bu qış Bakıda qış olmadı, adı oldu: yaz da əvvəlcə çox tez gəldi, fevralın axırları idi, ağaclar göyərmişdi, amma sonra küləklər başladı, yağışlar başladı və belə məlum oldu ki, soyuqlar hələ qabaqdaymış və yazın beləcə yarımçıq qalması, qırılması, sonra ortada bu cür yerində sayması adamı lap sıxırdı; bir tərəfdən də Bakının asfalt küçələri, maşınları, səs-küyü...

Haradasa təbiət tamam azaddı: nə asfaltlıdı, nə səs-küylüdü, nə də qayğılarla doludu.

Fikrət Qoca və Ishaq Ibrahimovla birlikdə Bakıdan bir az kənarda, Qaradağ tərəfdə dəniz kənarına getdik.

Küləkli bir gün idi.

Uşaqlar velosipedlə bura gəlirdi, qarmaq atırdı, balıq tuturdu.

Biz də özümüzlə qarmaq götürmüşdük və əsl naşı balıqçılar kimi, qarmaq atıb balıq gözləyirdik.

Balıq yox idi; yəni bizim üçün, biz balıqçılar üçün balıq yox idi.

Birdən qarmaqlardan birinə bir xul keçdi və bu cıqqılı xul balığının sevinci bizi dünyanın yeddinci qatına qaldırdı.

Sən demə, xul da balıq imiş...

Bir neçə dənə xul tutduq və hər bir xula da beləcə sevindik.

Sonra dənizin o azadlığından, sahilin o təmizliyindən və genişliyindən, o xul sevincindən ayrılıb Bakıya qayıtdıq və gecə mən bu xul sevinci barədə fikirləşəndə haçansa eşitdiyim bir əhvalat yadıma düşdü.

...Bir kişinin on uşağı var idi və bu on uşaqla, arvadla birlikdə balaca bir daxmada yaşayırdı; o qədər darısqallıq idi ki, kişi daha dözə bilmirdi; axırda bir dəfə bir təpəyə qalxdı və əlini göyə qaldırıb Allaha dedi:

– Ya Allah, bu nə müsibətdi bizim başımıza açırsan?! Hərgah sən bu uşaqlara bir qarış da artıq yer verməyəcəydinsə, niyə onları dünyaya gətirirdin? Axı, belə bir darısqallıqda yaşamaq mümkün deyil! Dünyada məndən bədbəxt adam yoxdu! Məni xoşbəxt et, yerimi genişlət bir az!

Göydən bir səs gəlmədi.

Kişi kor-peşman daxmasına qayıtdı və gördü ki, daxmada... bir eşşək var.

Yekə, canlı bir eşşək idi.

– Arvad, bu nədi belə?

Heyrətdən kişinin gözləri kəlləsinə çıxmışdı.

– Kişi, bu eşşəyi indicə bir mələk gətirdi və dedi ki, Allah-taalanın əmri belədi ki, bu eşşək bu daxmada, bizimlə bir yerdə yaşamalıdı.

Yazıq arvad eşşəyə baxdı, kişiyə baxdı və için-için ağlamağa başladı.

O gündən o eşşək həmin daxmada qaldı.

O gündən on uşaq, kişi, arvad və həmin eşşək bir yerdə yaşamalı oldu.

O gündən həmin kişi gecə-gündüz Allaha yalvardı ki, onları bu yekəpər eşşəkdən xilas etsin, bu yekəpər eşşəyi bu daxmadan götürsün.

Bu münval ilə ay keçdi, il dolandı və nəhayət, bir gün Allah kişinin sözünü eşitdi: axşam kişi evinə qayıdanda gördü ki, həmin yekəpər eşşək daha yoxdu.

Mələk gəlib eşşəyi aparmışdı.

Kişi gecə-gündüz Allaha şükür elədi.

Kişi on uşağı və arvadı ilə birlikdə həmin daxmada şad-xürrəm yaşamağa başladı.

Kişi dünyanın ən xoşbəxt adamı idi, çünki canı eşşəyin əlindən qurtarmışdı və genişlik-bolluq idi...

...Insan çox naşükürdür.

*30 may 1981.*
*Bakı.*

**SƏTIRLƏRIN ÖLÜMÜ**

Dünən Moskvadan yaslı və gözlənilməz bir xəbər gəldi: Saşa Orlov vəfat edib.

Birdən-birə elə bildim ki, yazılarımda sətirlər öldü.

Birinci dəfə idi mən bu cür hiss keçirirdim. Saşa ilə birlikdə Moskvada üzbəüz otura-otura, Bakı ilə Moskva arasında məktublaşa-məktublaşa, telefonlaşa-telefonlaşa dönə-dönə üzərində işlədiyimiz ayrı-ayrı cümlələr yadıma düşdü. O, neçə illər idi ki, mənim yazılarımı tərcümə edirdi və mən istəyirdim ki, bu cümlələr rus dilində də Azərbaycan dilində olduğu kimi səslənsin – eyni çalarları ilə, sözaltı mənaları ilə, hətta eyni ritmi ilə səslənsin. Saşa çal saqqalını, həmişə pırpızaqlı saçlarını qarışdıra-qarışdıra əlindən gələni əsirgəmirdi.

Və indi mənə elə gəldi ki, rus dilindəki kitablarımda o cümlələr öldü.

Sətirlərin bu ölümünü təkcə ruhən yox, az qala, cismani hiss etdim.

Və o kitablarda bir yetimlik duydum.

*31 may 1981.*
*Bakı,*

**QARA QARĞALAR**

«Bakı-Moskva» qatarı ilə yazıçıların VII qurultayına gedirik.

Qəribədi, XX əsrin sürəti artdıqca qatarın da qiyməti və əhəmiyyəti artır: telefonlar, iclaslar, tələsikliklər, maşınlar, qayğılar aləmindən çıxıb iki gün qatar tələsməzliyində, zəngsizliyində, təmkinində sığınacaq tapırsan, gündəlik qayğıları özündən uzaqlaşdırırsan – onsuz da, bu iki gün ki, yol gedəcəksən, heç nə edə bilməyəcəksən: nə hansı bir işi isə qaydasına qoyacaqsan, nə kimisə kiməsə tapşıracaqsan, nə dərman axtaracaqsan, nə bazarlıq edəcəksən, nə görüşəcəksən, müzakirə edəcəksən, müdafiəyə tələsəcəksən, redaksiyaya material göndərəcəksən və s. və i. a.

Saatlar beləcə keçir.

Birdən güclü təkanlar bu qayğısızlıq idilliyasını titrədir, sonra qatar çölün düzündə dayanır, sonra həyəcanlı səs-küy başlayır, hay-həşir qopur.

Vaqon yanır.

Yox, bizim vaqon yox, 3-cü vaqon. Kimsə siqaret çəkib atıb, kimsə balonlarda spirt aparırmış və o balonlar partlayıb, uzun sözün qısası, 3-cü vaqon ocaq kimi alışıb-yanır.

– Yanan yoxdu ki?

– Hamı canını qurtara bilib?

– Hə, hə, hamı qurtarıb canını. Çoxusu hərbi kursantlardı. Cəld uşaqlardı, hamı sağ-salamatdı. – 3-cü vaqon tərəfdən gələn cavan oğlan gülə-gülə camaatı nigarançılıqdan qurtarır. – Vaqonu ayırıblar, yanır özüyçün...

Qalan vaqonların camaatı eşiyə axışıb və hamı bir kənarda tənha dayanıb ocaq kimi yanan 3-cü vaqona baxır.

Əlbəttə, bu mənzərədə bir xoşagəlməzlik, bir bədəməllik var, amma o cavan oğlanın gülüşü hamının nigarançılığına sərin su səpib və indi bütün qatarın camaatı o yanan 3-cü vaqona bir əyləncə kimi baxır. Bütün bu əhvalat dünən baş verib. Qatar Moskvaya gedir.

Düzdü, üç-dörd saat gecikmişik, amma əslinə baxsan, elə bu özü də bir qənimətdi, bu özü də üç-dörd saatlıq qayğısızlıqdı, zəngsizlikdə rahat-rahat fikirləşmək fürsətidi, arzulamaq, gələcəyi gözəl əsərlərlə, gözəl hadisələrlə dolu gözəl rənglər içinə girmək imkanıdı...

Mən pəncərədən sürətlə ötüb gedən və tükənmək bilməyən çölə baxıram.

Yamyaşıl düzlər, ağaclar, meşə zolaqları, gül-çiçək və... qara qarğalar.

Yenə qara qarğalar...

Yenə qara qarğalar...

Qara qarğalar ağacların budaqlarına, elektrik dirəklərinə, yerə qonublar.

Bu yekə qara qarğalar birdən-birə dünən yanıb qurtarıb skleti çöllərdə qalmış həmin vaqonu – bu gün tamam unutduğum 3-cü vaqonu yadıma salır. Birdən-birə bu yekə qara qarğalar adam kimi dil açıb qatar sürətilə deyir ki, o 3-cü vaqonda hərbi kursantlar yox, qocalar, qadınlar, uşaqlar, şikəstlər, xəstələr ola bilərdi və mən o uşaqların çığırtısını eşidirəm, o qocaların, qadınların ah-vayını eşidirəm, dəhşətdən bərəlib, az qala, hədəqəsindən çıxacaq gözləri görürəm, yanan insan ətinin qoxusunu hiss edirəm. Mən ömrümdə yanan insan ətinin qoxusunun nə olduğunu bilməmişəm, amma mənə elə gəlir ki, indi, bax, bu yekə qara qarğalara baxa-baxa hiss etdiyim qoxu dünən 3-cü vaqonda diri-diri yanan qoca, qadın, uşaq ətinin qoxusudu...

Sonra bu yekə qara qarğalar mənim bütün qayğılarımı bir-bir yadıma salır.

O gözəl rənglər əriyib gedir və hardasa o qara qarğaların rənginə boyanır.

Ölüb getmiş qohumlar, dostlar, tanışlar bir-bir yadıma düşür və onlar bir-bir bu vaqon pəncərəsindən mənə baxır.

Sonra bu yekə qara qarğalar yol boyu bütün dünyanın dərdindən, ələmindən söhbət açır.

Qatarlara qəmginlik gətirən yekə qara qarğalar...

*26 iyun 1981.*
*«Bakı-Moskva» qatarı,*

## YAZIQLIQ

Moskvada yazıçıların VII qurultayı gedir və Moskvada dözümsüz bir isti var. Qəzetlərin yazdığına görə iyun ayında Moskvada belə isti axırıncı dəfə 1901-ci ildə olub.

Gecə mehmanxanada yatmaq mümkün deyil, nəfəs almaq olmur və bu gün bu gecə havasızlığı birdən-birə Bakıdakı kiçik bir hadisəni mənim yadıma saldı.

Bakıda keçirdiyimiz böyük ədəbi məclisdə bir nəfər nadan və cahil ayağa qalxıb, necə deyərlər, gözlərini yumub, ağzını açıb, böhtanlar söyləyirdi; bu böhtanları o qədər ürəkdən, o qədər həyəcanla deyirdi ki, xitabət kürsüsünə sığışmırdı, bütün ətrafa ağzından tüpürcək səpələnirdi, kinli gözləri, az qala, pırtlayıb hədəqəsindən çıxacaqdı.

Mən yerimdə oturub ağzı köpüklənə-köpüklənə böhtanlar söyləyən, naqis, paxıl, acgöz hisslərdən ilham və qüvvət alan bu adama baxırdım və birdən-birə mən goreşənləri xatırladım.

Goreşənlər, deyilənə görə, murdar heyvanlardı, çox pis iy verirlər, cəsəd yeməklə dolanırlar.

Amma... amma goreşənlərin də bütün canlılar kimi yaşamaq istəyi var, onların da yəqin öz mehribanlıqları, öz əzizləmələri, ağrıları, problemləri var və goreşənlərin də balaları var.

Ağzı-gözü zalda əyləşənlərin çoxunun nifrətinə, ikrahına bulaşmış bu adama mənim yazığım gəldi: o da yaşamaq istəyir, onun da arzuları var və onun da balaları, əzizləri var.

Mənim indi də ona yazığım gəldi.

Bu bürkülü Moskva gecəsinin havasızlığı, ürək sıxıntısı, nəfəssizliyi onu mənim yadıma salmışdı və dünyanın böhtanlarından, dünyanın əyri işlərindən, iyrənc hisslərindən xəbər verən sifəti yenə gözlərimin qabağına gəldi və mən bu gecə qaranlığında onun kinli, qəzəbli gözlərinə baxa-baxa: «–Yazıq sənə...» – fikirləşdim.

Və qəribə idi, ürəyimdə o adamı yavaş-yavaş bağışlayırdım, onun sifətinin indiyə qədər mənim üçün iyrənc cizgiləri elə bil ki, gecənin qaranlığında əriyib yox olurdu, ömrümdə görmədiyim uşaqlarını yadıma salırdım («yadıma salırdım» ifadəsi burada yerinə düşürmü? o uşaqlar elə bil, gözəgörünməz varlıqlar idi və mən o varlıqları «görürdüm»...) və elə bil ki, o adama da o uşaqların gözü ilə baxırdım...

Sonra isə daha qəribə bir hadisə baş verdi: mən onun gözləri ilə özümə baxdım...

Sonra elə bil ki, tamam unutduğum, əlçatmaz, ünyetməz bir keçmişdə qalmış xatirələr baş qaldırdı və o xatirələrin o adamla heç bir əlaqəsi yox idi: o xatirələrdə mən yaxşı idim, mən pis idim, mən gülünc idim, mən qorxunc idim... Sonra o bürkülü Moskva gecəsinin o havasızlığı içində birdən-birə bir qəbiristanlıq soyuğu duydum, haqq dünyasına köçmüş qohumlar, dostlar, tanışlar bir-bir gəlib gözümün önündən keçdi və dünyasını dəyişmiş o rəhmətliklərlə birlikdə: «– Yazıq bizə...» – fikirləşdim.

*30 iyun 1981.*
*Moskva.*

## QARATOYUQLAR

Həyətimizdə bir armud ağacı var idi. Meyvələri hələ kal idi, amma vaxtından əvvəl yetişmiş tək-tük armud hərdən yerə düşürdü.

Mən həyətdə, böyük alma ağacının altında həmişəki yerimdə oturub gün çıxandan gün batana qədər «Mahmud və Məryəm» romanını yazırdım.

Bir gün gördüm ki, bir ana qaratoyuq, iki də balası – uçub gəlib həmin armud ağacının dibində yerə qondu. Bala qaratoyuqlar böyümüşdü, amma hələ tamam qaralmamışdılar, lələkləri boz idi.

Ana qaratoyuq bayaq həyətin səssizliyi içində qəfil bir tappıltıyla yerə düşmüş armudu dimdikləyib yeməyə başladı və ana qaratoyuq hər dəfə armuda dimdik vuranda böyümüş balaları balaca cücə kimi ağızlarını geniş açırdılar, analarından yemək istəyirdilər. Ana qaratoyuq başını qaldırıb onlara baxırdı, sonra yenə armudu dimdikləyirdi.

Bala qaratoyuqlar ağızlarını eləcə açıb civildəyə-civildəyə analarından yemək istəyirdi, anaları isə, onların ağzına heç nə qoymurdu.

Mən başa düşdüm ki, ana qaratoyuq balalarına yemək dərsi verir, dimdikləmək öyrədirdi.

Ana qaratoyuq bir armud yedi, sonra ikinci armudu yedi, sonra üçüncü armudu yedi, amma balaları armuda dimdik vurmurdu, ağızlarını açıb analarından yemək istəyirdi.

Ana qaratoyuq armudu dimdikləyir, balalarına baxır, təzədən armudu dimdikləyir, təzədən balalarına baxırdı.

Ananın cidd-cəhdindən, açıq-aşkar təhrikindən heç nə çıxmadı, balalar armuda dimdik vurmadı.

Qaratoyuqlar uçub getdi və mən yazı makinasının arxasında yenidən Səfəvilər dövrünə qayıtdım.

Sabahkı gün həmin ana qaratoyuq balaları ilə uçub yenə o armud ağacının dibinə qondu. Ana qaratoyuq yenə armud dimdikləyib yeməyə başladı, bala qaratoyuqlar isə yenə var gücləri ilə ağızlarını geniş açıb haray-həşirlə civildəyə-civildəyə analarından yemək istəyirdilər. Ana qaratoyuq yəqin ki, balalarını şirnikləndirməkdən ötrü hərəsinin ağzına dəymiş armuddan bir dimdik qoydu. Bundan sonra bala qaratoyuqlar az qalırdılar ağızlarını cırsınlar – o qədər yekə açırdılar və daha artıq civildəyə-civildəyə dünyadan şikayət edirdilər. Ana qaratoyuq daha onlara heç nə vermədi və hər dimdikdən sonra balalarına baxa-baxa bu gün də üç armud yedi.

Dörd gün beləcə davam etdi.

Nəhayət, beşinci gün bala qaratoyuqlardan biri yerdəki yetişmiş armuda bir dimdik vurdu. Bundan sonra o biri bala qaratoyuq da diqqətlə gah armuda, gah da ona baxıb armuda dimdik vurdu və ikisi də daha dayanmadı, acgözlüklə armudu dimdikləyə-dimdikləyə yeməyə başladı. Ana qaratoyuq uçub armud ağacının aşağı budağına qondu.

Bala qaratoyuqlar yerdəki armudu dimdikləyir, tez-tez də başlarını qaldırıb budaqdakı analarına baxırdı. Ana qaratoyuq isə başını yana çevirirdi. Yəqin bu üç gündə o qədər armud yemişdi ki, indi armuda tərəf baxa da bilmirdi.

Balalar əvvəlcə ikisi bir armud, sonra da hərəsi bir armud yedi.

Sonra o qaratoyuqlar uçub getdi.

Sonrakı günlər mən daha ana qaratoyuğu görmədim. Hərdənbir bala qaratoyuqlar uçub gəlib armud ağacının dibinə qonurdu və o armuddan doyunca yeyib təzədən uçub gedirdi.

*29 iyul 1981.*
*Talıstan kəndi.*

## QIRT TOYUQ

Qırt toyuq birinci dəfə idi ki, hindən çıxmışdı və dünyanı cücələrinə göstərirdi.

Cücələr civildəşə-civildəşə, yüyürə-yüyürə analarının dalınca qaçışırdı və anaları da qırt yatdığı günlərdə qartlaşmış səsiylə qırt-qırt salıb o tərəf-bu tərəfə dimdik atır, gözaltı böyürtkən kollarının dibinə, hündür otların arasına baxırdı, hərdən başını çəpəki tutub zəndlə göyü gözdən keçirirdi.

Qırt toyuq pişikdən, qurd-quşdan, qartaldan ehtiyat edirdi və hərdən də tərs-tərs mənə baxırdı.

Qırt toyuq heç kimi cücələrinə yaxın buraxmırdı.

Həyətdə uşaq çox idi, hərə əlinə bir parça çörək alıb didişdirə-didişdirə cücələrə vermək istəyirdi, amma qırt toyuq o saat boğazının tüklərini qabardıb, qanadlarını açıb, qart qaqqıltı ilə hücum edirdi, ən axırıncı cücənin də ötüb keçməyini gözləyirdi, sonra yanpörtü acıqlı nəzərlərlə uşaqlara baxa-baxa və yoğun budlarını basa-basa gedirdi.

Qırt toyuq fındıq ağacının altına gəlib torpağı eşələməyə başladı və cücələr də civildəşə-civildəşə analarını əhatəyə aldı. Qırt toyuq torpağın arasında yeməli bir şey görən kimi, dimdiyini həmin cücüyə, həşərata, toxuma vururdu, cücələrinə göstərirdi və cücələr də bir-birini itələyə-itələyə, aləmə civilti sala-sala həmin balaca cücünün, həşəratın, toxumun üstünə cumurdu.

Qırt toyuq arabir xırda çörək qırıntısı da tapırdı, dimdiyini vurub göstərirdi, cücələr də acgözlüklə bu qırıntıları təpişdirirdi, amma qırt toyuq əllərində parça-parça çörək tutmuş uşaqların heç birini cücələrə yaxın buraxmırdı.

Qırt toyuq təkcə bu həyətin sahibəsi Validə ananı cücələrə yaxın buraxırdı, hətta Validə anaya icazə verirdi ki, əyləşib cücələrdən birini əlinə götürsün və uşaqlara göstərsin.

Həyətdə təkcə Validə ana cücələrin yanından ötəndə qırt toyuq haray-həşir salmırdı.

Qırt toyuq Validə anaya tam etibar edirdi və bu, görünür, təbiətdən gəlirdi: elə bil ki, qırt toyuq bilirdi ki, Validə ananın da dörd balası var.

*16 avqust 1981.*
*Talıstan kəndi.*

## ÜÇÜNCÜ SƏRÇƏ

Bəzən təbiətdə elə hadisələrə rast gəlirsən ki, onların dolayısı yox, tamam müstəqim, birbaşa mənası səni tutur, sənə ləzzət edir.

Misal üçün, mən, ədəbiyyatda müstəqim surətdə əxlaq dərsi verməyin, mənası tamam üzdə olan hadisələrin təsvirinin həmişə əleyhinə olmuşam.

Bəs nə üçün bu gün şahidi olduğum kiçicik bir hadisə mənim kefimi bu qədər açdı?

Yazıçılar Ittifaqı ilə üzbəüz bağda gəzəndə kolluqda sərçələrin haray-həşirini eşitdim: bir sərçə dimdiyində sarı bir yarpaq tutmuşdu (bəlkə də yarpaq deyildi, nəsə başqa şey idi, mən qorxurdum ki, sərçələr hürküb uçar, yaxınlaşıb baxmırdım), ikinci sərçə isə yarpağın o biri ucundan tutub dartışdırırdı, birinci sərçənin dimdiyindən qoparmaq istəyirdi. Sərçələr həmin sarı yarpaq üstündə beləcə «mənim-sənin» mübarizəsi aparırdı. Birdən sərçələr lap hirsləndi, bir-birinin üstünə atıldı. Sarı yarpaq yüngülcə yerə düşdü və elə bil ki, bunu gözləyirmiş kimi, səhərdən bəri çiçəkləmiş ağ akasiya ağacının budağına qonub didişən sərçələrə baxan üçüncü sərçə pırıltı ilə budaqdan qopub, yerə düşmüş o sarı yarpağı dimdiyi ilə qapdı və eləcə pırıltı ilə də qalxıb ağacların arxasında yox oldu.

Didişən sərçələr bu gözlənilməz hadisədən elə bil ki, özlərini itirdi, sonra bir-iki dəfə yerlərində hoppanıb düşdü və sonra da hərəsi bir tərəfə uçub getdi.

Məni gülmək tutdu.

Bağdan ötüb-keçənlər yəqin fikirləşdi ki, bu niyə kolluğa baxa-baxa öz-özünə gülür?

*13 may 1982.*
*Bakı.*

## «ALƏM OLDUQCA...»

Qara Qarayev vəfat edib...

Bizim böyük müasirimiz əbədi yuxuya gedib və bir də heç vaxt oyanmayacaq.

Onun işıqlı və ağıllı gözləri bundan sonra yalnız televiziya və kino ekranlarından bizə baxacaq, o qaraşın, sərt və eyni zamanda mehriban sifəti bundan sonra biz yalnız qəzet və jurnal səhifələrində, kitablarda görəcəyik, dostların, yaxınların, sənətsevərlərin evlərindəki fotolarda, muzey zallarındakı portretlərdə görəcəyik.

Qara Qarayev vəfat edib...

Külək bir də heç zaman o qıvrım, gümüşü saçları qaldırmayacaq. Qarayev bir də heç vaxt paltosunun boyunluğunu qaldırıb, başını da bir balaca çiyninə qısıb, siqaret dalınca siqaret çəkə-çəkə Bakının küçələri ilə addımlamayacaq.

Bu ağır, bu qəmli dəqiqələrdə bizim təskinliyimiz nə ola bilər?

Qoca Dədə Qorqudun əlacsız və müdrik misraları bir daha yüzüncü dəfə, mininci dəfə mənim beynimdə səslənir:

Gəlimli, gedimli dünya...
Son ucu ölümlü dünya...

Və fikir məni qədimlərə aparır. Bizim ulu babalarımız Zərdüştü «böyük səadət və sərvət» sahibi hesab edirdi və bu böyük səadət, mənəvi sərvət «şən həyat, sevinc və əbədi şöhrət»dən ibarət idi.

Qarayev sənəti həyata çağıran, sevinc bəxş edən bir sənət idi. Həyatın mənası barədə düşündürən, yaşayışın fəlsəfəsini ehtiva edən bir sənət idi.

Mən nə üçün bu sənət barədə keçmiş zamanda danışıram?

Qarayev sənəti əbədi sənətdir.

Qarayev sənəti dünən də müasir sənət idi, bu gün də müasir sənətdir və sabah da müasir sənət olacaq.

İllər keçəcək, bizim balalarımız, bizim nəvələrimiz, nəticələrimiz atalarının, babalarının Qarayevlə tanışlıqları ilə, Qarayevlə məktublaşmaları, şəkil çəkdirmələri ilə, canlı Qarayevi görmələri ilə fəxr edəcəklər.

Bu gün olduğu kimi, sabah da xalqımız öz sənətkar oğlunun adını uca tutacaq.

Bu gün olduğu kimi, sabah da Qarayev sənətinin ölümsüzlüyü dünyanın ən böyük konsert salonlarından, opera və balet teatrlarından ana Azərbaycanın ölümsüz dühasından xəbər verəcək.

Bu gün olduğu kimi, sabah da Qarayev sənəti düşündürəcək və öyrədəcək, tərbiyə edəcək və yetişdirəcək.

Qara Qarayev vəfat edib...

Bu ağır, bu qəmli dəqiqələrdə elə bil ki, bir təskinlik kimi mən böyük Qarayevin böyük sələfi Sabirin misralarını eşidirəm:

Ölməyimlə sevinməsin əğyar,
Aləm olduqca, mən dəxi duraram!

Və bu misraları ağır, əbədi Qarayev musiqisi müşayiət edir...

*14 may 1982.*
*Bakı.*

## ALMA ƏHVALATI

Vəfatından təxminən dörd-beş il əvvəl Rəsul Rza ilə Moskvadan Bakıya gəlirdik. Qatarla gəlirdik, ikimiz bir kupe götürmüşdük. Mən indi bu sətirləri yazanda, elə bil ki, gecənin içi ilə yol gedən o qatarın səsini eşidirəm və həmin qatar elə bil ki, Rəsul müəllimlə yol yoldaşı olduğumuz o uzaq iki günü daha da uzaqlara aparır...

Təbii ki, yol boyu biz çox söhbət etdik. Rəsul müəllim şerində olduğu kimi, həyatda da ciddi adam idi, bəlkə də bir az sərt adam idi və mənə həmişə elə gəlirdi ki, onun bu sərtliyi əslində daxili kövrəkliyinin göstəricisi idi. Bu ciddilik və zahiri sərtliklə bərabər, Rəsul müəllim yumoru sevən, başa düşən və yumordan ləzzət almağı bacaran adam idi.

Qatarda mən Rəsul müəllimə belə bir hadisə danışdım: dostlarımızdan biri – Fikrət Sadıq – altmışıncı illərdə «Gənclik» nəşriyyatında redaktor işləyirdi. Bir dəfə axşam onlara getmişdim, gördüm ki, mizin arxasında əyləşib bir şer kitabının əlyazmasını redaktə edir. Əlyazmasındakı bəzi şerlər dostumuzu o qədər əsəbiləşdirirdi ki, səhifələrin kənarında qeydlərini də oxuduğu misralara müvafiq misralarla yazırdı. Mənim gözüm sataşdı və Azərbaycan almalarının gözəlliyindən bəhs edən bir şerdə altından xətt çəkilmiş iki misranı oxudum:

Ləzzətlidi «bumajnı»,
Şirvan gözəli Şafran!

Fikrət bu iki misranın yanında belə bir qeyd yazmışdı:

Şerin oldu «nevajnı»,
Çıxarıldı kitabdan!

Rəsul müəllim ürəkdən güldü və bundan sonra hansı bir şer məclisindəsə, yığıncaqdasa duzsuz bir şer oxunanda, yersiz bir söz deyiləndə, görürdüm ki, gözləri ilə məni axtarır, əlini ağzına tutub yavaşdan: «–Alma əhvalatıdı!» – deyirdi və gülürdü.

*18 may 1982.*
*Bakı.*

## BƏDBƏXT ŞIR

Insan təbiətdən nə qədər uzaq düşüb...

Yazıçı Emil Ağayev, mən və altı yaşlı Humay Göygöl sanatoriyasının həyətində gəzişə-gəzişə söhbət edirik. Emil hər gün göbələk yığmağa gedir, bu gün səhər də getmişdi və mən ondan soruşuram:

– Meşədə göbələk çox idi?

– Hə.

Səhərdən bəri söhbətimizə fikir verməyən Humay «meşə» sözünü eşidəndə başını qaldırıb bizə baxır.

M ə n *(Emilə göz vururam).* Canavar, pələng görmədin?

E m i l. Yox, canavar, pələng yox, şir gördüm.

Humay gülür.

E m i l. Niyə gülürsən, Humay, inanmırsan?

H u m a y. Yox.

M ə n. Niyə?

H u m a y. Çünki burda şir olmur.

E m i l. Bəs şir harda olur?

H u m a y. Heyvanxanada!

*7 sentyabr 1982.*
*Göygöl.*

## YANDIRIR BU ÖLÜM...

Fikrət Əmirov vəfat etdi...

Düzdür, illər keçəcək, «Şur» da, «Kürd ovşarı» da, «Gülüstan Bayatı-Şiraz» da dünən və bu gün olduğu kimi, ürəkləri ovsunlayacaq, həyatdan söz açacaq, hisslərin saflığından, təmizliyindən deyəcək.

Düzdür, illər keçəcək, dünyanın böyüklü, kiçikli müxtəlif konsert zallarında, radioda, televiziyada «Azərbaycan», «Azərbaycan qravürləri», «Azərbaycan kapriççiosu» dünən və bu gün olduğu kimi, yenə də Fikrət Əmirovun doğma xalqından, doğma torpağından söhbət açacaq.

Düzdür, illər keçəcək, Sevilin ariyası yenə də insan iradəsindən xəbər verəcək, Balaşın ariyası dərdləri təzələyəcək, «Nəsimi» insan xislətinin böyüklüyündən, «Nizami» insan dühasının ucalığından deyəcək, «Min bir gecə» bu gün olduğu kimi, yenə də etibardan və xəyanətdən söz salacaq, şuxluq gətirəcək, yalnız müəllifin yox, xalqın istedadından söyləyəcək...

Düzdür, bütün bunlar belədir, düzdür, Fikrət Əmirov sənəti heç vaxt ölməyəcək, həmişə bizimlə bir yerdə olacaq, nəvələrimizlə, nəticələrimizlə bir yerdə olacaq, əsrləri adlayacaq, amma yenə də... yenə də yandırır bu ölüm...

Insan getdi... Bütün ölümlər kimi, bu ölüm də vaxtsız oldu.

Xəstə Qasım hələ dörd əsr bundan əvvəl sazı sinəsinə sıxıb deyirdi:

> Neçə qəhrəmanlar gəldi dünyaya,
> Köç vaxtı yetişdi, tez oldu getdi...

Əlbəttə, Xəstə Qasım düz deyir, belədir, beyin bunu dərk edir, amma ürək dərk etmir, ürək dərk etmək istəmir.

X ə s t ə Q a s ı m: «Dünya dediyin bir fanidir, fani, əzəl Nuh gəlmişdi, görünmür, hanı?» – soruşurdu və əlbəttə, bu sual cavabsızdır, bunu bilirik, dərk edirik, amma hər dəfə də bu dünyadan bir insan köçəndə sarsılırıq, bütün hisslərimizi, həyəcanlarımızı matəm toranı bürüyür.

Həmin insan yalnız özünə, yalnız öz ailəsinə, yaxınlarına, dostlarına yox, bütün xalqa, vətənə məxsus olanda, o sarsıntı daha dözülməz olur, o toran işıq ucu görünməyən bir zülmətə çevrilir.

Həmin insan sənətkar olanda, öz əzizləri ilə birgə, xalqı, vətəni ilə birgə, kitablar da ağlayır, simfoniyalar, tablolar da ağlayır.

Ağlamaların ən müdhişidi bu.

> Dəli könül, məndən sənə əmanət:
> Demə bu dünyada qalım yaxşıdı.

Yox, aşıq baba, yox, Xəstə Qasım, qalım yaxşıdı, ölümdənsə qalım yaxşıdı və sən dəli könlünün sözünü kəsmə, bu dünyada qalım yaxşıdı...

Nə təəssüf ki, nə acı ki, «ölüm»lə bağlı, «qalım»la bağlı insanın iqtidarı daxilində bir şey yoxdur.

Və bu yerdə, əlbəttə, insanların ən xoşbəxti sənətkardır, əsl sənətkar.

Fikrət Əmirov kimi sənətkar.

Fikrət Əmirovun sənəti «qalım»lı sənətdir.

O sənətdə Fikrət Əmirovun duyğuları yaşayır, hissləri, həyəcanları yaşayır, Fikrət Əmirovun ürəyi döyünür.

Bu, ömrün vəfasızlığı, sənətin isə, vəfası, ilqarıdı...

Həmin duyğular, hisslər və həyəcanlar, həmin ürək döyüntüsü həmişəlikdir, daimidir...

...amma yenə də... yenə də yandırır bu ölüm...

*24 fevral 1984.*
*Bakı.*

## IKI QIZ VƏ SƏRÇƏ

Maşınımda işdən evə qayıdırdım və tinlərdən birinin qabağında qırmızı işıq bizi saxladı.

Qarşıdakı səki ilə bizə tərəf iki qız gəlirdi: ozündən razı, həddən artıq dəblə geyinmiş, ding-ding dingildəyən və bütün görkəmləri ilə, yerişləri, gülüşləri ilə aləmə meydan oxuyan iki qız.

Küçə ilə o tərəf-bu tərəfə gedib-gələn adamlar elə bil ki, bu qızlar üçün sıfır idi, elə bil ki, bu qızlar dağın zirvəsində, adamlar isə dərənin dibində idi və dünya açıq-aşkar bu qızların vecinə deyildi.

Bu vaxt qəribə bir hadisə baş verdi: bir sərçə hoppana-hoppana qızların cinsin içində tarım sıxılmış dolu qıçlarına dolaşa-dolaşa küçənin ortasına qondu və yerə düşmüş bir çörək qırıntısını acgözlüklə dimdikləməyə başladı.

Qızlar əvvəlcə gülümsədi, sonra səkidə ayaq saxlayıb təəccüblə əl-ayağa dolaşan o sərçəyə baxdı.

Sarı işıq yandı və irəlidəki maşınlar yavaş-yavaş tərpənməyə başladı, sərçə isə küçənin ortasından uçmurdu.

Mən aləmə meydan oxuyan bu qızların rəng çəkilmiş, uzun kirpik yapışdırılmış gözlərində bir təlaş oxudum və əvvəlcə mənə elə gəldi ki, o uzun yalançı kirpiklərlə o təlaş hissi bir-birinə heç cürə uyuşmur.

Ac sərçə yəqin xəstə idi, ya zədəli idi, uça bilmirdi.

Maşınlar yavaş-yavaş sürətini artırırdı.

Şaşırıb qalmış o iki qız küçənin ortasında çörək qırıntısını dimdikləyən o sərçəyə baxa-baxa bir-birinə tələsik nəsə deyirdi və mən onların nə dediyini eşitmirdim, amma bir şey tamam aydın idi ki, qızlar bərk həyəcanlanmışdı və o həyəcan daha o uzun yalançı kirpiklər üçün yad, yabançı bir şey deyildi.

Onların həyəcanı mənə də sirayət etdi və mən də maşını pəncərəsindən boylanıb ətrafında maşınlar ötüşən o sərçəyə baxdım.

Yaşıl işıq yanmışdı.

Qabaqdakı ağ maşın sərçənin lap yanından ötdü.

Qızlardan biri cəld səkidən düşüb küçənin ortasında çörək qırıntısını təpişdirən o sərçəyə tərəf qaçdı və bir əlini maşınların qabağında yelləyə-yelləyə – yəni ki, bir dəqiqə gözləyin! – o biri əlini aşağı uzadıb sərçəni götürmək istədi və bu zaman... həmin ac sərçə «pır-r-r» eləyib qızın əlinin altından havaya qalxdı və sürətlə göyə baş vurub gözdən itdi.

Qız əvvəlcə məəttəl qaldı, sonra gülə-gülə rəfiqəsinin yanına qayıtdı və ikisi də yoluna davam etdi.

Bizim maşın da yerindən tərpəndi.

Mən geri çevrilib arxa şüşədən bu iki qızın ardınca baxdım.

Onlar gedirdi və bütün görkəmləri ilə, yerişləri, gülüşləri, o yalançı uzun kirpikləriylə yenə aləmə meydan oxuyurdu və heç kimin ağlına gəlməzdi ki, o gözlərdə o cürə sərçə nigarançılığı ola bilər və o qızlar eləcə həyəcanlana bilər...

*18 may 1984.*
*Bakı.*

## HABILIN KAMANÇASI

Habil Kaman kamançanı dizinin üstünə alıb çalmağa başlayır və bir azdan gözlərini yumur, çaldığı musiqinin hisslər aləminə gedir, o aləmin rəngləri, həyəcanları, görümləri ilə yaşayır.

Hər dəfə səhnədə, yaxud televiziya ekranında Habilə baxdıqca, onun musiqisinə qulaq asdıqca, elə bil, o dəm onun qapalı gözlərinin qarşısından keçənləri mən də görürəm.

Habilin kamançası səslənir, dünyaya insanlar gəlir, yaşayır, sevir, sevilir, xoşbəxt olur, dərd çəkir və bir gün gəldiyi kimi də, köçüb gedir... Və dünyaya yeni insanlar gəlir...

Habilin kamançası insanın, ömrün müvəqqətiliyindən, insanlığın, yaşayışın isə əbədiliyindən deyir...

Habilin kamanı Azərbaycandan deyir...

Qoca və müdrik Dədə Qorqudu görürəm, cavan, təmiz, çılğın Kərəmi görürəm, gözəl, ismətli, qeyrətli Nigarı görürəm...

Habilin kamançası səslənir, Koroğlu Qıratın belinə qalxır, Şah Ismayıl qanlı döyüşlərdən sonra, öz zərif, həzin insani hisslərini ağ vərəqə köçürür, Füzuli düşünür, Leyli çəməndə gül-çiçək dərir...

Habilin kamançası səslənir, Araz çayı axır və çayın şırıltısı Habilin kamançasının dili ilə dünyanın dərdindən, ələmindən deyir, Dərviş Mahmud sazı sinəsinə sıxır və mən onun yüz il bundan əvvəl dediyi misraları eşidirəm:

Bu dünyanın çox olubdur cəfası,
Cəfasına dəyməz zövqi-səfası.
Guşumda səslənir getmək sədası,
Ürəyim həsrətlə dolub, ağlaram...

Habilin kamançası səslənir, mən Qarabağı görürəm, Şirvanı, Naxçıvanı, Mili, Muğanı, Lənkəranı, Abşeronu, ömrümdə heç vaxt getmədiyim, görmədiyim Təbrizi görürəm, Ərdəbili görürəm, Sərabı görürəm, Ərk qalasının önündə dayanıb babaların ucalığına baxıram...

Habilin kamançası səslənir, Habilin qapalı gözlərinin qarşısından keçənləri mən də görürəm, o musiqiyə qulaq asa-asa həmin kamançanı da yaddan çıxarıram. Habilin özünü də yaddan çıxarıram, mən oluram, o musiqi olur, mənim Xalqım və mənim Vətənim olur...

Bu – kamançanın da, Habilin də böyüklüyüdür.

*15 dekabr 1985.*
*Bakı.*

## AĞABƏYIM AĞA

Axır vaxtlar tez-tez Ağabəyim ağanın iki yüz il bundan əvvəl söylədiyi o iki misra yadıma düşür:

Əfsus ki, yarım gecə gəldi, gecə getdi,
Heç bilmədim ömrüm necə gəldi, necə getdi...

Niyə tez-tez yadıma düşür bu iki misra?

Yəni yalnız ona görə ki, haçansa bir vaxt ayılırıq və görürük ki, heç bilməmişik ömür necə gəlib, necə gedib?

Buradakı həsrətə görə?

Ağabəyim ağa Qarabağ xanı Ibrahimxəlil xanın qızı idi, Şuşada anadan olmuşdu, Irana, Fətəli şaha ərə verilmişdi, amma həmişə də qəribçilik içində olmuşdu.

Düzdü, qəribçilik səni yalnız qürbətdə basmır, bəzən öz evinin içində də qərib olursan, amma Ağabəyim ağanın ürəyi Qarabağda, Şuşada qalmışdı və Ağabəyim ağa dərdli bir «ah» çəkmişdi:

Mən aşığam, qara bağ,
Qara salxım, qara bağ,
Tehran cənnətə dönsə,
Yaddan çıxmır Qarabağ...

Əslində hər bir adamın içində öz Şuşası var, bəzən heç bundan özünün də xəbəri olmur, amma ürəyi o şüşənin içindədi, öz Şuşasındadı. O Şuşa kiminçünsə bir həyətdi, kiminçünsə bir tut ağacıdı, bir böyürtkən koludu, kiminçünsə bir məhəllədi, amma o həyət də, o tut ağacı, böyürtkən kolu da, əlbəttə, öz-özlüyündə Şuşa deyil, oradakı təbəssümdü, hissdi, oranın həmişəlik keçmişdə qalmağından doğan təəssüfdü, həsrətdi; hər birimizin bir-birinə bənzəməyən, amma elə bil ki, əbədi olan bir həzinlik içində eyni təəssüflə, eyni həsrət, eyni yanğı ilə illər keçdikcə rəngini itirən, cizgiləri əriyən öz Şuşası.

Bu nə müdriklik dərsidi belə, mən verirəm?

Bu nə nəsihətdi belə?

Ağabəyim ağa iki misra da demişdi:

Ey naseh, nəsihətin mənə əbəsdir, əbəs,
Ətəkləyər sözlərin atəşimi – söndürməz.

*3 dekabr 1987.*
*Mərdəkan.*

## ӘKRӘM ӘYLISLININ ANASI

Paris hara, o uzaq Ordubad, o gözәl Әylis kәndi hara?

O gözәl Әylis kәndindә o gözәl qarı indi nә elәyir görәsәn?

Kiçik, amma sәssiz-küysüz, rahat vә xudmani «Dupleks» otelinin beşinci mәrtәbәsindәki sәliqәli otağın pәncәrәsindәn Eyfel qüllәsinin soyuq dәmirlәri görünür, mәn isә, sübh tezdәn gözlәrimi açıb birdәn-birә o gözәl Әylis kәndini, o gözәl Әylis kәndindә Әkrәm Әylislinin qoca anasını yadıma salıram.

Niyә?

Bilmirәm...

Tәxminәn on il bundan әvvәl idi, Naxçıvana getmişdik, oradan Ordubada qalxdıq, sәhәr-sәhәr dә Әylisә baş çәkdik.

Әkrәm Әylisligilin hәyәtindә oturub sәhәr çörәyi yeyirdik vә Әkrәm Әylislinin qoca anası qabağımıza balaca bir qabda ilıq yumurta qoydu vә o ilıq yumurtanın dadı indiyә qәdәr mәnim damağımdan çәkilmәyib.

Mәn hәrdәnbir bu barәdә fikirlәşәndә gözlәrimin qabağına Әylisin o gözәl bağları yox, buz kimi suyu axan o kәhrizi yox, o dağlar, o çöllәr yox, o qoca ananın әllәri gәlir, elә bil ki, o ağaclar da, o dağlar-dәrәlәr, o su, o gül-çiçәk dә taxta kimi o quru barmaqların bәrәkәti, istisi müqabilindә susur vә xatirәyә gәlmәyә ürәk elәmir...

O quru barmaqlarda gizlәnmiş mehribançılıq, mәhәbbәt illәr keçdikcә hәrdәn yada düşәndә elә bil ki, daha artıq bir hәrarәtlә adamın içini qızdırır: adam elә bil ki, o quru barmaqların bәrәkәtini, nәsә, işıqlı bir varlıq kimi, gözlәri ilә görür...

Indi dә pәncәrәmdәn Eyfel qüllәsinin o soyuq dәmirlәrinә baxdıqca mәnә elә gәlir ki, o quru barmaqlar nәsә tikәndә dә, bişirәndә dә, silib-süpürәndә dә әslindә hәmişә bütün әtrafa gizli bir layla deyir.

*15 oktyabr 1988.*
*Paris.*

## ÜÇ XATIRӘ

### I

Axşam Sergey Baruzdin vә Vladimir Drozdla birlikdә gәzә-gәzә gedib Brandenburq qapılarının qabağında dayandıq vә xeyli müddәt Qәrbi Berlinә tәrәf baxdıq. Indi gecәdir, oteldә oturub bu cümlәlәri yazıram vә Brandenburq qapıları ağzındakı o әsgәrlәrin baxışını tәzәdәn öz üzәrimdә hiss edirәm. Orda-burda dayanmış o әsgәrlәr, zabitlәr, bayaq elә bir şübhә, hәtta, әdavәtlә bizә baxırdılar ki, elә bil, baxışları da tüfәng lülәsi idi, üstümüzә tuşlanmışdı.

Bu – Almaniya Demokratik Respublikasının ordusu idi.

Mәn isә, Qәrbi Berlinә tәrәf baxırdım vә tәzә-tәzә yanmağa başlayan o işıqlar nә qәdәr yaxın vә eyni zamanda da nә qәdәr әlçatmaz idi...

O dəm mənə elə gəlirdi ki, yalnız Berlin yox, yalnız Almaniya və alman xalqı yox, Şiller də iki yerə bölünüb, Motsart da, Bax da, Bethoven də, Heyne də iki yerə bölünüb və mən bu bölünməni, parçalanmanı indi, az qala, cismani hiss etdim: insan bədəni ortadan iki yerə parçalanıb, qan axır...

Drozd da Qərbi Berlinin işıqlarına baxırdı və öz-özünə dodaqaltı nəsə pıçıldayırdı.

– Volodya, sən nə hiss edirsən? – soruşdum.

Drozd:

– Dəhşətdi!.. – dedi.

– Mənim xalqım da beləcə bir dəhşət içindədi... – dedim.

Brandenburq qapıları haçansa açılacaqmı?

*24 sentyabr 1987.*
*Şərqi Berlin.*

## II

Günorta rəssam Ə. Behkalamın emalatxanasına gedəndə Berlin divarı boyunca xeyli addımladıq və mən tez-tez ayaq saxlayıb o divara çəkilmiş şəkillərə baxırdım. Divarın o tərəfi Şərqi Berlin idi. Kənardan da Brandenburq qapıları görünürdü.

Yadıma gəlir, iki il bundan əvvəl orada (o tayda!) dayanıb bu tərəfə baxırdım...

Eyni bir şəhəri – Berlini bütöv görmək üçün iki dəfə uzun səfərə çıxmaq lazımmış...

Birinci dəfə Bakıdan Moskvaya, Moskvadan da Şərqi Berlinə uçmuşdum və oradan piyada gəzə-gəzə bura gələ bilmək əvəzinə, buranı görmək üçün ikinci bir marşrut lazım imiş: təzədən Bakıdan Moskvaya, Moskvadan Dyüsseldorfa, Dyüsseldorfdan da Qərbi Berlinə.

Yadıma gəlir, orada əsgərlər şübhə ilə, daxili bir gərginliklə mənə baxırdı, ətrafda var-gəl edirdi, barmaqları da sinələrindən sallanmış avtomatın tətiyi üstündə...

Burada isə heç kim yoxdu. Almaniya Demokratik Respublikasına qaçmaq istəyirsən? Qaç! Xoş gəldin!..

Uşaqlar, həvəskarlar, peşəkarlar, bacaranlar və bacarmayanlar sonu görünməyən o Berlin divarına rəngbərəng, cürbəcür şəkillər çəkiblər: gülməli heyvanlar, təlxəklər, güllər-çiçəklər... Amma bu dəm mənə elə gəlir ki, o heyvanlar, o təlxəklər, o gül-çiçək, hətta o rənglər də – qırmızı da, yaşıl da, göy də, çəhrayı da əslində bir matəm içindədi...

Görəsən, elə bir vaxt gələcəkmi bu divar sökülsün? Yoxsa, bu Berlin divarında bir zindan əbədiliyi var?

*2 iyun 1989.*
*Qərbi Berlin.*

## III

Bu gün səhər bərk külək əsirdi, qar yağırdı, bir sözlə, əməlli-başlı qasırğa idi, amma o küləyə, o qara, çovğuna baxmayaraq səhər-səhər maşınla Brandenburq qapılarına tərəf getdik, sonra maşından düşüb piyada Berlinin şərq hissəsinə keçdim, təzədən qərbə gəldim, yenə şərqə getdim...

Bir azdan Berlindəki Dünya Mədəniyyət Evində mənim mətbuat konfransım başlayacaqdı, amma qəribə idi, mən bu yerdən ayrıla bilmirdim.

Bax, burada vaxtıyla əli avtomatlı əsgərlər gəzişərdi və o əsgərlərin şübhəli baxışları indiki kimi yadımdadı. Hətta mənə elə gəlir ki, o əsgərləri indi də görsəm, sifətdən tanıyaram...

Brandenburq qapıları bu qədər adi imiş... Adi şəhər qapıları...

Amma mən nə üçün bu adilikdən qopa bilmirəm? O çovğunda şərqdən qərbə, qərbdən şərqə addımlayıram...

*5 fevral 1991.*
*Berlin.*

**MÜNDƏRİCAT**


Hakim oxucudur…………………………………………………… 3

**HEKAYƏLƏR**

Mənlə mən arasında……………………….………………………... 7
Sarı pencək……………………….…………………….………… 9
Qatar. Pikasso. Latur. 1968. ………………………………........ 17
Beş qəpiklik motosikl …………………………………………… 25
Epitafiya…………………….…………………………………… 35
Zireh……………………….………………….………………….. 38
Qırmızı ayı balası……………………….………………………... 45
On ildən sonra……………………….…………………………… 51
Iki Çal Papağın və bir Qara Kepkanın nağılı ………………………. 65
Gümüşü, narıncı, məxməri……………………….……………… 69
Baladadaşın ilk məhəbbəti……………………………………… 80
Günlərin bir günündə……………………….…………………… 92
Qış nağılı ……………………….……………………….……… 102
Bu dünyada qatarlar gedər ……………………….……………… 111
Talvar ……………………….……………………….………….. 117
Şuşaya duman gəlib ……………………….…………………….. 127
Bülbülün nağılı ……………………….…………………….…..... 149
Baladadaşın toy hamamı ……………………….……………….. 154
Ayaqqabı ……………………….……………………………….. 166
Hotel Bristol ……………………….……………………………. 183
Hönkürtü ……………………….……………………………….. 191
Bozluq içində iki nəfər ……………………….…………………. 197
Parisdə avtomobil qəzası ……………………….………………. 203
Beş dəqiqə və əbədiyyət ……………………….………………… 216
Gül dedi bülbülə... ……………………….……………………… 226
Ömrün son səhəri ……………………….……………………….. 252
Stalinin ölümü ……………………….…………………………... 266
Dünyanın bəxtəvəri ……………………….…………………….... 279
Aydınlıq gecələr 292
Qırmızı qərənfil gülləri «Pera Palas» otelində qaldı………………... 296
Qızıl diş……………………….……………………….…………. 311
«Sarı gəlin»……………………….…………………………….. 328
Araba ……………………….……………………………………. 339
«Qarabağ şikəstəsi»……………………….……………………… 357

**UŞAQ HEKAYƏLƏRI**

SƏLIMIN HEKAYƏLƏRI

Mənə niyə gülürlər? ……………………….……………………….. 377
Gör necə top vuraram……………………….………………………. 378
Mən Lalə istəyirəm……………………….……………………… 378
Belə də iş olar? ……………………….……………………………. 379
Mən hər şeyi bilirəm……………………….……………………….. 380

AYSUNUN, HUMAYIN, GÜNAYIN,
YALÇININ VƏ NIGARIN NAĞILLARI

Balaca qırmızı çiçək……………………….……………………... 382
Küləyin, çinarın və qaranquş balasının hekayəti…………………… 383
Nigar, Yalçın və onların Dədəsi……………………….…………… 384
Mən yaman qoçağam……………………….………………………. 386
Günayın, Yalçının, Nigarın və yekə canavarın nağılı………………. 387
Humayın yuxusu……………………….…………………………… 390
Günay, Humay, bir dənə günəbaxan və qırt toyuğun cücələri……… 393
Axı, nə oldu ki, birdən hamı güldü? ……………………………….. 395
Ayıca……………………….……………………….………………. 396
Gilas qız……………………….……………………………………. 398
Qəhrəman Aysu, qara pişik və cıqqılı siçanın nağılı……………….. 399
Kukla, yoxsa Aysu? ……………………….………………………. 401
Aysu yorulub……………………….………………………………. 402
Aysu və balaca balıqlar……………………….……………………. 402

SÖZLƏR, YANILTMACLAR, TAPMACALAR

Qar yağıb, yağmayıb? ……………………….……………………... 404
Qumru quşları……………………….………………………………. 404
«Süz» və «süz»……………………….…………………………….. 404
Bu «saz» hansı «saz»dı? ……………………….…………………. 404
Kim uçundu, nə uçdu, nə uçmadı? …………………………………. 404
Necə oldu ki, yağış yağdı və dana hirsləndi? ………………………. 405
Gülüşün bacısı Gülər gülə gülür……………………………………. 405
Abşeronda……………………….……………………….…………. 405
Nənəm yaman hirsləndi……………………….……………………. 405
Düzdə……………………….………………………………………. 406
Babamla ot çalmağa getmişdik……………………………………... 406

**ADDA-BUDDA**

Dünyaya insanlar gələcək……………………….………………….. 408
Qumru quşları……………………….……………………………… 408
«Sçastye»……………………….………………………………….. 409
Xoşbəxtlik haqqında ……………………….……………………. 410
Sətirlərin ölümü……………………….……………………………. 411
Qara qarğalar……………………….……………………………….. 411
Yazıqlıq……………………….……………………….……………. 412
Qaratoyuqlar……………………….……………………………….. 413
Qırt toyuq……………………….…………………………………... 415
Üçüncü sərçə ……………………….……………………………. 415
«Aləm olduqca...» ……………………….……………………….. 416
Alma əhvalatı……………………….……………………………… 417
Bədbəxt şir……………………….………………………………… 418
Yandırır bu ölüm……………………….………………………….. 418
Iki qız və sərçə ……………………….………………………….. 420
Habilin kamançası……………………….……………………….. 421
Ağabəyim Ağa……………………….……………………………... 422
Əkrəm Əylislinin anası……………………….…………………….. 423
Üç xatirə……………………….…………………………………… 423

ELÇIN
(ƏFƏNDIYEV ELÇIN ILYAS oğlu)

**SEÇILMIŞ ƏSƏRLƏRI**
*(10 cilddə)*
1-ci cild

NƏŞRIYYAT REDAKTORU
*Akif Dənzizadə,*

RƏSSAMI
*Ilqar Tofiqoğlu,*

BƏDII REDAKTORU
*Ilham Niftəliyev,*

TEXNIKI REDAKTORU
*Denis Izuf,*

KORREKTORLAR
*Rəfiqə Qəmbərqızı,*
*Fəridə Ələsgərli,*
*Gülarə Qədirova,*

OPERATORLAR
*Aygün Əmirli,*
*Elnurə Abuşeva,*
*Ramilə Əliyeva,*

ÇAPA MƏSUL
*Sərraf Mürsəlov,*
*Anar Abdullayev,*
*Azər Yunusov.*

*Çapa imzalanmış 01.09.2005,*
*formatı 60x90 1/16,*
*39,5 ç.v.*
*ofset kağızı [1]1, tayms qarnituru,*
*sifariş 01/01,*
*sayı 1000.*

*Kitab*
*** *"ÇINAR-ÇAP"***
*nəşriyyatında nəşrə hazırlanmış*
*və*
*ofset üsulu ilə çap olunmuşdur.*
*( Tel.: 4989555, 4937255, 4902757*